ÇİNGİZ MƏMMƏDOV

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

## BEŞ CİLDDƏ

## IV cild

## YALTA POTSDAM SİSTEMİ
## 1945 – 1991-ci illər

## MÜHAZİRƏLƏR KURSU

**Azərbaycan Respublikası Elm və Təhsil nazirinin "14" noyabr 2024-cü il tarixli 3-29|3-2-734F|2024 saylı əmri ilə dərslik kimi təsdiq edilərək, nəşr hüququ (qrif) verilmişdir**

**Bakı – 2025**

**Elmi redaktor:** **Elman Xudam oğlu Nəsirov**
**Tarix elmləri doktoru, professor**

**Rəyçilər:** **Habil Nurkişi oğlu Məmmədov**
**Tarix elmləri doktoru, professor**

**Cənnətxan Əhməd oğlu Eyvazov**
**Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent.**

**Rəna Maarif qızı Bayramova**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

**Cahangir Xanoğlan oğlu Cahangirli**
**Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**

**Məmmədov Çingiz İsaq oğlu. Beynəlxalq münasibətlər tarixi. Beş cilddə. Dördüncü cild: Yalta-Potsdam sistemi -1945—1991-ci illər. Mühazirələr kursu. Ali məktəb müəllimləri və tələbələri üçün dərslik. Bakı: "OPTİMİST"MMC- 2025, 509 səh.**

**Dərslik İkinci dünya müharibəsinin sona çatmasından başlayaraq, dünya nizamının ikiqütblü sisteminin dağılmasına qədər olan dövrdə dünyada baş verən ictimai-siyasi proseslər, beynəlxalq münasibətlər tarixinin əsas hadisələr və problemlər ardıcıl olaraq izlənmişdir. Dərslik ikiqütblü dünyada olan beynəlxalq münasibətlərin xüsusiyyətlərini səciyyələndirir, 1945-1991-ci illərdə dünya siyasi proseslərinin inkişafındakı əsas meylləri ətraflı təhlil edir. Qlobal və regional təhlükəsizliyin hərbi-siyasi aspektlərini, o cümlədən strateji sabitlik problemlərini nəzərdən keçirməyə çox diqqət yetirilir. Dərslikdə qlobal beynəlxalq münasibətlər sisteminin və mövcud regional alt sistemlərin xarakterik xüsusiyyətlərinin, beynəlxalq münasibətlərin inkişafında əsas meyllərin formalaşmasında aparıcı aktorların rolunun müəyyənləşdirilməsi mühüm yer tutur.**

**Ali məktəb müəllimləri və tələbələri üçün nəzərdə tutulmuşdur**

***ISBN 9 7 8 - 9 9 5 2 - 5 6 1 - 8 9 – 0***

***"© OPTİMİST "MMC- 2025***

## MÜNDƏRİCAT

**ÖN SÖZ........................................... ...........................................................10**

**GİRİŞ: Yalta-Potsdam sisteminin səciyyəsi və əsas xüsusiyyətləri..... .......11**

**BİRİNCİ FƏSİL**
**İKİQÜTBLÜ DÜNYA SİSTEMİNİN YARANMASI. "SOYUQ MÜHARİBƏ" (1945-1953)**

**I BÖLMƏ**
**İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə dinc nizamlama məsələləri**

1. İkinci dünya müharibəsinin yekunları və dərsləri. Paris sülh konfransı.... ....16
2. İkinci dünya müharibəsindən sonra Avropada dinc nizamlama məsələləri....19
3.İkinci dünya müharibəsindən sonra dünyanın iqtisadi və siyasi tənzimlənməsinin əsaslarının formalaşdırılması..............................................22
4.1946-1947-ci illərdə alman məsələsi və Avropada Almaniyanın keçmiş müttəfiqləri ilə sülh müqavilələri............................................................. ..25
5.BMT-nın yaranması və sıralarının genişlənməsi....................................... ...28

**II BÖLMƏ**
**Dünya sosializm sisteminin təşəkkülü və beynəlxalq münasibətlər**

1 İkinci dünya müharibəsindən sonra SSRİ-nin xarici siyasəti. İdeologiya və reallıq......................................................................... 30
2.İkinci dünya müharibəsindən sonra Mərkəzi və Şərqi Avropada vəziyyət....32
3.Mərkəzi və Şərqi Avropa ölkələrinin kommunistləşməsi (1947-49-cu illər...40
4. Dünya sosializm sisteminin yaranması........................................................49

**III BÖLMƏ**
**Beynəlxalq münasibətlərdə Güney Azərbaycan məsələsi (1941-1946-cı illər)**

1. Antihitlerçi koalisiyanın İrana qoşun yeritməsi və onun hərbi -siyasi məqsədləri.......................................................................51

2. Güney Azərbaycanda milli muxtariyyət uğrunda hərəkat və dünya siyasəti..56
3. Güney Azərbaycan məsələsinin müzakirəsi BMT müstəvisində...................58
4.Sovet-İran münasibətlərində Güney Azərbaycan məsələsi.............................60
5.Azərbaycanın Milli hökumətinin İran hökuməti ilə danışıqları və beynəlxalq siyasət..........................................................................................62

## IV BÖLMƏ
## Dünya konfrantasiya sisteminin yaranması və "soyuq müharibə"

1. İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə tərksilah üzrə danışıqlar. Atom silahı problemi.......................................................................65
2. U.Çörçilin Fulton çıxışı. "Soyuq müharibə"nin ilk böhranları (Yunanıstan,Türkiyə,İran) ..........................................................................70
3.SSRİ-nin "qarşısının alınması"nəzəriyyəsinin yaranması və "Trumen doktrinası" ...........................................................................................74
4.İkiqütblü sistemdə "Soyuq müharibə"nin başlanması və onun mərhələləri...................................................................................77
5."Marşal planı" və onun beynəlxalq siyasi əhəmiyyəti..................................80
6. Qərbdə təhlükəsizlik strukturlarının yaranması: Qərbi Avropa Birliyi, NATO ........................................................................................85
7. "Birinci Berlin böhranı" və beynəlxalq münasibətlər ................................. 88
8. Almaniyada parçalanmanın möhkəmlənməsi. AFR və ADR-in yaranması...........................................................................................91
9.Avropa inteqrasiyasının başlanması: AKPB və "Pleven planı" Almaniyanın qərb təhlükəsizlik strukturlarına daxil edilməsi problemi...........92

## V BÖLMƏ
## İkiqütblü dünya sistemində periferik qarşıdurmalar

1.Cənub-Şərqi Asiyada müstəmləkə sisteminin dağılması ...............................98
2.Hindistan və Pakistanın yaranması. Birinci Hindistan-Pakistan müharibəsi.........................................................................................101
3. İkinci dünya müharibəsindən sonra Fələstin problemi və İsrail dövlətinin yaranması ...........................................................................................105
4. Çin Xalq Respublikasının yaranması. Çinin parçalanması.........................109
5.Asiyada milli- kommunist inqilabının perspektivləri. Koreya müharibəsi və onun beynəlxalq nəticələri ......................................................................114

6. San-Fransisko konfransının hazırlanması və nəticəsi............................... 122

## İKİNCİ FƏSİL
## İKİQÜTBLÜ DÜNYA SİSTEMİNDƏ ZİDDİYYƏTLƏR MÜSTƏMLƏKƏ SİSTEMİNİN DAĞILMASI (1953-1962- ci illər)

### I BÖLMƏ
### İki sistemli dünyanın siyasi istiqamətləri: inteqraiya və hərbi ittifaqlar

1.SSRİ-də hakimiyyət dəyişikliyindən sonra xarici siyasətin yeni istiqamətinin hazırlanması..........................................................................................129
2.İkiqütblü dünya sistemində ABŞ-ın hücum nəzəriyyələri ............................133
3.Eyzenhauer doktrinası. Hərbi bloklar.........................................................142
4.Almaniyanın NATO-ya daxil olması. VMT-nın yaradılması(1955).............145
5. Roma Müqaviləsi və AİB-nin yaradılması. Qərbi Avropada inteqrasiya prosesləri.................................................................................148

### II BÖLMƏ
### İki qütblü dünya sistemində təcavüzkarlıq strategiyaları

1. SSRİ – ABŞ zirvə görüşləri və onların nəticələri ......................................152
2. İkiqütblü sistemdə vəziyyətin gərginləşdirilməsi siyasətinin aparılması. İkinci Berlin böhranı..................................................................................156
3.”Çevik cavab” nəzəriyyəsi...........................................................................163
4. Latın Amerikası beynəlxalq münasibətlərdə. Karib böhranı .......................168
5."Çoxtərəfli Nüvə Qüvvələri" ətrafında müzakirələr və Nassau paktı (dekabr 1962) ............................................................................. …....174

### III BÖLMƏ
### Dinc yanaşı yaşamaq prinsipi. Müstəmləkə sisteminin dağılması “Üçüncü dünya” dövlətləri

1.Dinc yanaşı yaşamaq prinsipinin çətinlikləri və perspektivləri ....................177
2. Sosializm qütbündə böhranlar ....................................................................185
3. Süveyş böhranı və onun beynəlxalq nəticələri.............................................194
4. Milli- azadlıq hərəkatının güclənməsi. Müstəmləkə sisteminin süqutu........198
5. “Üçüncü dünya” dövlətlərinin meydana gəlməsi ......................................202

6. Beynəlxalq inkişafda "Üçüncü dünya" dövlətlərinin yeri..........................205

## ÜÇÜNCÜ FƏSİL
## BEYNƏLXALQ GƏRGİNLİYİN AZALDILMASI SİYASƏTİNİN TƏŞƏKKÜLÜ (1962-1968-ci illər)

### I BÖLMƏ
### İkiqütblü sistemdə "Yumşalma"siyasətinin təşəkkülü

1.Soyuq müharibədə "Yumşalma"siyasəti...................................................210
2.Nüvə silahının məhdudlaşdırılması və yayılmaması haqqında müqavilənin hazırlanması.....................................................................................................212
3.Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri......................................219
4. 1960-cı illərdə SSRİ-nin ABŞ ilə diplomatik münasibətləri....................223
5.1960-cı illərdə Fransa beynəlxalq münasibətlərdə ...................................226
6.Latın Amerikasında "avtoritar dalğa" və "Tlatelolko müqaviləsi"nin bağlanması....................................................................................................230
7."1968-ci ilin dünya inqilabı" və beynəlxalq münasibətlər..........................233

### II BÖLMƏ
### 1960-cı illərdə Asiya və Afrikada beynəlxalq vəziyyət

1. Beynəlxalq münasibətlərdə Kipr problemi (1960-cı illər)........................239
2.Beynəlxalq münasibətlərdə Çin-SSRİ qarşıdurması.................................241
3.Hindistan-Pakistan müharibəsi və beynəlxalq münasibətlər......................244
4.Beynəlxalq münasibətlərdə ABŞ Vyetnam münaqişəsi .........................247
5.Cənubi- şərqi və Şərqi Asiya ölkələri beynəlxalq münasibətlərdə............255
6.Yaxın Şərq beynəlxalq münasibətlərdə...................................................259
7.Afrika beynəlxalq münasibətlərdə ..........................................................267

## DÖRDÜNCÜ FƏSİL
## BEYNƏLXALQ SİSTEMİN SABİTLƏŞMƏSİ (1969 - 1973)

### I BÖLMƏ
### Avropa və Amerikada təhlükəsizlik və əməkdaşlıq məsələləri

1.Ümumavropa prosesi və dünya siyasəti.......................................................274
2. Qərbi Avropada inteqrasiya prosesləri.......................................................277

3. Almaniyanın "yeni şərq siyasəti"...............................................................281
4. SSRİ-də insan haqları uğrunda hərəkat və beynəlxalq münasibətlər………...286
5.Sovet İttifaqının yumşalma siyasəti və beynəlxalq münasibətlər.................289
6. SSRİ və ABŞ dövlətləri arasında yaxınlaşma siyasəti ................................291
7.Latın Amerikası beynəlxalq münasibətlərdə..............................................297

**II BÖLMƏ**
**Asiya ölkələrində nizamlama siyasəti**

1.SSRİ- ÇXR münasibətləri..........................................................................300
2. Şərqi Asiyada beynəlxalq münasibətlər ....................................................304
3.ABŞ- Vyetnam münasibətlərinin nizamlanması ..........................................307
4. Hindistan-Pakistan müharibəsi və Banqladeş dövlətinin yaranması ........313
5.Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. İlk “neft şoku” ................ 315

**BEŞİNCİ FƏSİL**
**BEYNƏLXALQ GƏRGİNLİYN ZƏİFLƏDİLMƏSİ PROSESİNDƏ ZİDDİYYƏTLƏR (1974-1979-cu illər)**

**I BÖLMƏ**
**Yumşalma siyasətinin ziddiyyətləri və onun böhranı**

1.Beynəlxalq münasibətlərdə iqtisadiyyatın nizamlanma cəhdləri...................327
2.Dünya siyasətində insan hüquqları məsələsi. "Avrokommunizm"................331
3.Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin beynəlxalq əhəmiyyətli hüquqi- siyasi aktları..........................................................................................337
4.1970-ci illərin ikinci yarısında strateji silahların məhdudlaşdırılması prosesində ziddiyyətlər ...........................................................................341
5.İspaniya və Latın Amerikası ölkələri beynəlxalq münasibətlərdə..................346

**II BÖLMƏ**
**Dünya periferiyasında regional böhranlar və münaqişələr**

1.İkiqütblü dünya sistemində periferik qarşıdurmalar.....................................350
2.Kiprdə siyasi vəziyyətin gərginləşməsi.........................................................351
3.Afrika ölkələrində beynəlxalq münasibətlər..................................................353
4. Cənub-Şərqi Asiyada beynəlxalq münasibətlər..........................................360

5.Çin Xalq Respublikasının xarici siyasəti....................................................367
6. İran-ABŞ qarşıdurması. İkinci "neft şoku"................................................369
7. Beynəlxalq münasibətlərdə neft-dollar dövriyyəsi problemi.......................371
8. Yaxın Şərqdə yeni gərginlik mərkəzlərinin yaranması...............................373
9. SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi və gərginliyin azaldılması siyasətinin dayandırılması.........................................................................377

## ALTINCI FƏSİL
## İKİQÜTBLÜ QARŞIDURMANIN YENİ MƏRHƏLƏSİ
## (1980-1985-ci illər)

### I BÖLMƏ
### İkiqütblü qarşıdurmanın bərpa olunması

1.SSRİ və ABŞ-ın xarici siyasət strategiyaları..............................................382
2.Beynəlxalq aləmdə iqtisadi və siyasi böhranlar........................................386
3.SSRİ – ABŞ münasibətlərinin kəskinləşməsi ..........................................391
4.SSRİ-nin ictimai- iqtisadi vəziyyəti və beynəlxalq münasibətlər...............399
5. ATƏM və vahid Avropa Aktının imzalanması..........................................403

### II BÖLMƏ
### Periferik regionlarda münaqişələrin kəskinləşməsi

1.Əfqanıstan münaqişəsi və beynəlxalq münasibətlər..................................407
2.ÇXR-in xarici siyasəti.........................................................................410
3.Amerika ölkələri beynəlxalq münasibətlərdə.............................................412
4.Yaxın və Orta Şərqdə beynəlxalq vəziyyət................................................416
5.Asiya- Sakit okean bölgəsində beynəlxalq münasibətlər ..........................421

## YEDDİNCİ FƏSİL
## YALTA-POTSDAM SİSTEMİNİN DAĞILMASI
## (1986-1991-ci illər)

### I BÖLMƏ
### İkiqütblü dünya sistemində gərginliyin zəifləməsi, qarşıdurmanın ləğvi və Soyuq müharibənin başa çatması

1.Sovet İttifaqının yeni xarici siyasəti........................................................427
2. Beynəlxalq təhlükəsizliyin kəskinləşməsi.............................................431
3.Avropada inteqrasiya prosesinin inkişafı ................................................433
4. SSRİ – ABŞ münasibətləri ...................................................................439
5. Almaniyanın birləşməsi və beynəlxalq münasibətlər...............................443

**II BÖLMƏ**
**Beynəlxalq sistemdə regionlaşma meyllərinin artması və demokratiyanın inkişafı**

1 .SSRİ-nin Şərqi Asiyada yeni xarici siyasəti..........................................449
2.Yaxın Şərqdə beynəlxalq hüquqi tənzimləmələr ....................................454
3.Latın Amerikası ölkələrində regionlaşma meylləri.................................463
4.Afrika ölkələrində milli- demokratik idarəçiliklərin yaranması............ 471

**III BÖLMƏ**
**SSRI-nin və sosializm sisteminin dağılması**

1. SSRİ-nin öz-özünü ləğv etməsi.............................................................474
2. Şərqi və Cənubi Avropada demokratik hərəkatlar.................................. 489
3. Yuqoslaviyanın dağılması......................................................................493

**NƏTİCƏ: Yalta-Potsdam beynəlxalq münasibətlər sisteminin dağılması.....498**
**ƏDƏBİYYAT SİYAHISI .........................................................................502**

# ÖN SÖZ

Təqdim olunan dərslik, beynəlxalq münasibətlər tarixinin müasir dövrünə həsr olunub. İkinci dünya müharibəsinin sonundan, 1991-ci ilin sonunda SSRİ-nin dağılmasına qədər olan dövrü, yəni beynəlxalq münasibətlərin Yalta-Potsdam sisteminin tarixini əhatə edir. Materialın təqdimatının ümumi xarakteristikaları beynəlxalq münasibətlərə sistematik bir yanaşmaya yönəldilmişdir. Beləliklə, beynəlxalq münasibətlərdə sistemli və sistemsiz amillərə, bu sistemə xas olan sabitliyə və qeyri-sabitliyə diqqət verilmişdir..

Dərslikdə, İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətləri səciyyələndirən yeni təzahürlər araşdırılır. Vəsaitdə dünya siyasətinin təkamülü bütün mürəkkəbliyi və ziddiyyətləri ilə göstərilməyə çalışılır. Dərslik nəzərdən keçirilən dövrün beynəlxalq münasibətlərinin siyasi, iqtisadi, ideoloji və hərbi aspektlərini əhatə edir. Dünya siyasətində yeni aktorların meydana çıxmasına və möhkəmlənməsinə, münasibətlərinin yeni növlərinə diqqət yetirilir. Dərslikdə, Soyuq müharibənin əsas beynəlxalq böhranları və onların aradan qaldırılması yolları təhlil edilmişdir.

İkinci dünya müharibəsindən sonra, beynəlxalq əlaqələrin inkişafında olan əsas mərhələləri bu ardıcıllıqla göstərmək olar:

1945-1947-ci illər - Yalta-Potsdam sisteminin yaranması və soyuq müharibənin başlanğıcı;

1947-1962-ci illər - soyuq müharibədə qarşıdurmaların gərginləşməsi dövrü;

1963-1974-cü illər - beynəlxalq gərginliyin yumşalmasına doğru addımlar və yumşalma, ümumi "oyun qaydaları"nı hazırlamaq cəhdləri;

1975-1985-ci illər – yumşalmanın sonu, beynəlxalq gərginliyin yenidən kəskinləşməsi, Soyuq müharibəyə qayıdış;

1986-1991-ci illər - soyuq müharibəni aradan qaldırmaq, kooperativ ikiqütblüyə keçmək cəhdləri.

Təqdim olunan bu kitab 2021-ci ildə dərs vəsaiti kimi oxuculara təqdim olunmuşdur. Bu vəsait yenilənərək, müəyyən düzəlişlər və əlavələr ilə, bu dəfə dərslik kimi yenidən nəşr edilibdir.

Dərslik, beynəlxalq münasibətlər ixtisasında tədris olunan mühazirə kurslarına uyğun formada hazırlanmışdır. “Beynəlxalq münasibətlər tarixi” fənni üzrə təxmini tədris proqramına uyğundur.

**GİRİŞ: Yalta-Potsdam sisteminin səciyyəsi və əsas xüsusiyyətləri**

Ikinci dünya müharibəsinin sona çatması beynəlxalq sistemin inkişafında yeni bir dövrün başlanmasını şərtləndirdi. Bu siyasi təkamüldə beynəlxalq siyasətin əsas aktorları azaldı və onların arasında ierarxiya- yəni, tabeçilik münasibətləri sərtləşdirildi. 1648-ci il Vestfal nizamlanması dövründən formalaşmış çoxqütblü sistem müəyyən dəyişikliklərə uğrasa da bir neçə əsr qorunub saxlanmış, İkinci dünya müharibəsinə qədər gəlib çatmışdır. İkinci dünya müharibəsinin yekunlarının təsiri nəticəsində o, ABŞ və SSRİ-nin hakim mövqe tutduğu iki sistemli dünyaya çevrilmişdi. Bu quruluş yarım əsr həyat sürdükdən sonra, 1990-cı illərdə öz yerini yeganə "ümumi lider"in – ABŞ-ın ağalıq etdiyi, yeni bir dünyaya vermişdir.

İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərin inkişafı iki bir-birini əvəz edən beynəlxalq nizamların-- əvvəlcə ikiqütblü (1945-1991), sonra isə SSRİ-nin dağılmasından sonra formalaşmış plyuralist birqütblü dünyaların çərçivəsində baş vermişdir. Birinci nizam elmi ədəbiyyatda, 1945-ci illərdə keçirilmiş iki mühüm beynəlxalq konfransların adı ilə Yalta- Potsdam kimi tanınır. Bu konfranslarda antinasist koalisiyaya daxil olan üç böyük dövlətin SSRİ, ABŞ və Böyük Britaniyanın rəhbərləri müharibədən sonrakı dünya quruluşuna münasibətdə əsas yanaşmalarını razılaşdırmışdılar.

Müharibədən sonrakı dünya nizamın, qalib dövlətlər arasında əməkdaşlıq ideyası və bu əməkdaşlığın maraqlarına uyğun olaraq, onların razılığının qorunması üzərində qurulması nəzərdə tutulurdu. Bu razılığın hazırlanması mexanizminin rolu, 1945-ci il iyunun 26-da imzalanan və həmin ilin oktyabrında qüvvəyə minən Birləşmiş Millətlər Təşkilatına həvalə edilmişdi. BMT öz hədəflərinin təkcə beynəlxalq sülhün qorunması deyil, həm də ölkələrin və xalqların öz müqəddəratını təyinetmə və sərbəst inkişaf hüquqlarının həyata keçirilməsini, bərabər iqtisadi və mədəni əməkdaşlığın təşviqini, insan hüquqlarına və şəxsiyyətin əsas azadlıqlarına hörmətin təbliğ edilməsini elan etdi. BMT-yə, dövlətlər arasında əlaqələri uyğunlaşdırmaqla müharibələrin və münaqişələrin beynəlxalq münasibətlərdən kənarlaşdırılması maraqları naminə səylərin əlaqələndirilməsi üçün qlobal mərkəz olmaq rolu müəyyən edilmişdi.

Lakin BMT, dünyanın aparıcı üzvlərinin - SSRİ və ABŞ-ın maraqlarını uyğunlaşdırmağı, onların aralarında yaranan ziddiyyətlərin kəskinliyinə görə, təmin edə bilmədi. Ona görə də əslində, BMT əsas funksiyası olan Yalta-Potsdam nizamı çərçivəsində beynəlxalq reallığı yaxşılaşdırmaq və əxlaq və ədalətin yayılmasını təşviq etməyi uğurla yerinə yetirməklə deyil, SSRİ ilə ABŞ arasında silahlı qarşıdurmanın qarşısını almaq üçün, XX əsrin ikinci yarısında beynəlxalq sülhün

əsas şərti olan beynəlxalq münasibətlərin sabitliyini təmin etməklə məşğul idi. Yalta-Potsdam sistemi bir sıra xüsusiyyətlərə malik idi:

**Birincisi,** onun möhkəm hüquqi əsası yox idi. Əsas razılaşmalar ya şifahi idi. Onlar rəsmi qeydiyyata alınmamışdı və uzun müddət gizli qalmışdı. Ya da, bəyannamə şəklində qalmışdı. Güclü hüquqi sistem formalaşdıranVersal konfransından fərqli olaraq, nə Yalta konfransında, nə də Potsdam konfransında beynəlxalq müqavilələr imzalanmamışdı.

Bu, Yalta-Potsdam təməllərini tənqidlərə qarşı müdafiəsiz etdi. Onların fəaliyyətini, maraqlı tərəflərin bu razılaşmaların yerinə yetirilməsi üçün qanuni yollardan deyil, faktiki olaraq siyasi, iqtisadi və hərbi-siyasi təzyiq vasitələrindən istifadə etməsindən asılı edirdi. Buna görə, müharibədən sonrakı onilliklərdə beynəlxalq münasibətlərdə diplomatik sazişlərin və qanuni müraciətlərin güc təhdidi və ya istifadəsi ilə tənzimləmə fəaliyyəti daha əməli əhəmiyyət kəsb edirdi. Qanuni cəhətdən zəif olmasına baxmayaraq, "tam legitim olmayan" Yalta-Potsdam nizamı (Versal və Vaşinqtondan fərqli olaraq) yarım əsrdən çox müddətdə mövcud olmuşdu və yalnız SSRİ-nin dağılması ilə ləğv olunmuşdu.

**İkincisi,** Yalta-Potsdam sistemi ikiqütblü idi. İkinci dünya müharibəsindən sonra, SSRİ və ABŞ-ın hərbi, siyasi və iqtisadi imkanlarının ümumi cəmi və mədəni və ideoloji təsir gücü baxımından bütün digər dövlətlərdən kəskin şəkildə ayrılması baş verdi. Əgər beynəlxalq münasibətlərin çoxqütblü quruluşu üçün, beynəlxalq münasibətlərin bir neçə əsas subyektinin ümumi qüvvələrinin təxmini müqayisəsi ilə xarakterizə olunurdusa, İkinci dünya müharibəsindən sonra, yalnız Sovet İttifaqı və ABŞ-ın potensiallarnı qarşılıqlı müqayisə etmək mümkün idi.

**Üçüncüsü,** müharibədən sonra yaranan sistem konfrantasiyalı idi. Konfrantasiya, bir tərəfin hərəkətlərinin qarşı tərəfin hərəkətlərinə sistematik şəkildə qarşı çıxdığı ölkələr arasındakı münasibət növünə aiddir. Nəzəri cəhətdən dünyanın ikiqütblü quruluşu ya konfrantasiyalı, ya da, super dövlətlərin əməkdaşlığına əsaslanan kooperativ ola bilər. Əslində 40-cı illərin ortalarından- 80-ci illərin ortalarına qədər Yalta-Potsdam sistemi konfrantasiyalı idi. Yalnız 1985-1991-ci illərdə, M.S.Qorbaçovun "yeni siyasi düşüncə" illərində, kooperativ ikiqütblüyə çevrilməyə başladı, lakin qısa müddətdə mövcud olması səbəbindən, sabitlik qüdrətini qoruyub saxlamaq mümkün olmadı.

Konfrantasiya şəraitində beynəlxalq münasibətlər, dünyanın əsas rəqibləri olan Sovet İttifaqı və ABŞ bir-birlərinin ehtimal olunan qarşılıqlı hücumlarını dəf etmək və gözlənilən nüvə müharibəsində sağ qalmalarını təmin etmək üçün, vacib sayılan hazırlıqları bəzən kəskin qarşıdurma, bəzən də qarşılıqlı əməkdaşlıq xarakterini

alırdı. Bu, XX əsrin ikinci yarısında görünməmiş nisbətlərdə və intensivlikdə olan silahlanma yarışına səbəb olurdu.

**Dördüncüsü**, nüvə silahı dövründə meydana çıxmış Yalta-Potsdam nizamı, dünya proseslərinə əlavə münaqişələr gətirməklə yanaşı, 1960-cı illərin ikinci yarısında dünya nüvə müharibəsinin qarşısının alınması üçün xüsusi bir mexanizmin - "Qarşıdurmanın sabitliyi" modelinin meydana çıxmasına kömək etmişdi. 1962 -- 1991 illərdə yaranmış açıqlanmamış qarşılıqlı münasibət qaydaları, qlobal səviyyədə beynəlxalq qarşıdurmaya məhdudlaşdırıcı təsir göstərmişdir. SSRİ və ABŞ aralarında silahlı qarşıdurma yarada biləcək vəziyyətlərdən qaçmağa başlamışdılar. Bu illərdə, özünəməxsus xüsusi nəzəriyyə -- nüvə qüvvələrinin qarşılıqlı qarşısının alınması və ona əsaslanan "qorxu tarazlığı" əsasında, qlobal strateji sabitlik doktrinaları inkişaf etmişdi. Nüvə müharibəsi, beynəlxalq mübahisələrin həlli üçün yalnız ən sonuncu vasitə kimi qəbul edilirdi.

**Beşincisi,** müharibədən sonra ikiqütblü sistem, siyasi və ideoloji qarşıdurma forması aldı – bir tərəfdən Amerika Birləşmiş Ştatları (siyasi Qərb) başda olmaqla "azad dünya" və digər tərəfdən Sovet İttifaqının (siyasi Şərq) rəhbərlik etdiyi "sosializm düşərgəsi". Onların arasında olan beynəlxalq ziddiyyətlər çox vaxt geosiyasi maraqlar üzərində qurulsa da, zahirən Sovet-Amerika rəqabəti siyasi və etik ideallların, sosial və mənəvi dəyərlərin qarşıdurması kimi görünürdü: "Sosializm dünyasında" bərabərlik və ədalət idealları və "azad dünya"da azadlıq, rəqabət və demokratiya idealları. Kəskin ideoloji mübahisələr beynəlxalq münasibətlərdə əlavə barışmaz qarşıdurmalar yaradırdı.

Bu qarşıdurmalar, rəqiblərin bir- birlərini qarşılıqlı düşmən obrazı kimi təqdim etmək təbliğatının (demonizasiya) başlamasına səbəb oldu. Sovet təbliğatı, ABŞ-ın SSRİ-nin dağıtmaq niyyətində olduğunu təkid etdiyi kimi, Amerika da ilə eyni şəkildə Qərb ictimaiyyətini Moskvanın bütün dünyada kommunizmi yaymaq niyyətində olmasına və "azad dünya" nın təhlükəsizliyinin əsası kimi ABŞ-ı məhv etməsinə inandırmağa çalışırdı. Beynəlxalq münasibətlərdə, ideologiyalaşdırma siyasəti 1940-50-ci illərdə daha çox nəzərə çarpırdı.

Sonradan fövqəldövlətlərin ideologiyası və siyasi təcrübəsi xeyli dərəcədə fərqlənməyə başladı. Rəsmi səviyyədə rəqiblərin qlobal məqsədləri hələ də barışmaz olmaları kimi şərh olunurdu. Lakin, diplomatik dialoq səviyyəsində, tərəflər qeyri-ideoloji düşüncələrdən istifadə edərək və geosiyasi arqumentlər vasitəsi ilə danışıqlar aparmağı öyrənmişdilər. Ancaq buna baxmayaraq, 1980-ci illərin ortalarına qədər ideoloji qütbləşmə beynəlxalq nizamın vacib bir xüsusiyyəti olaraq qalmışdı.

**Altıncısı,** Yalta-Potsdam sistemi beynəlxalq proseslərin yüksək dərəcədə idarə olunması ilə fərqlənirdi. Dünya nizamı ikiqütblü olduğuna görə, o, yalnız iki dövlətin fikirlərinin uzlaşdırılması üzərində qurulduğundan, danışıqlar sadələşirdi. ABŞ və SSRİ ancaq ayrı-ayrı dövlətlər kimi deyil, həm də NATO və Varşava Paktının qrup liderləri kimi də fəaliyyət göstərirdilər. Bloklarda olan intizam, Sovet İttifaqı və ABŞ-a müvafiq blok ölkələri tərəfindən öz üzərilərinə götürdükləri öhdəliklərinin "öz" hissəsinin yerinə yetirilməsinə zəmanət verirdi.Bu da ABŞ-Sovet danışıqları zamanı qəbul edilən qərarların səmərəliliyini artırırdı.

Yalta-Potsdam sisteminin qeyd olunan xüsusiyyətləri, onun çərçivəsində inkişaf edən beynəlxalq münasibətlərin yüksək rəqabət qabiliyyətinə səbəb olmuşdu. Qarşılıqlı ideoloji yadlaşma səbəbindən, iki güclü ölkə arasında olan təbii rəqabət qərəzli düşmənçiliyə çevrilirdi. 1947-ci ilin aprel ayından etibarən, Amerikanın siyasi ədəbiyyatında məşhur Amerika iş adamı və siyasətçisi Bernard Baruxun təklifi ilə, "soyuq müharibə" ifadəsi ortaya çıxdı. Tezliklə bu ifadə məşhur Amerika yazıçısı Uolter Lippmanın çoxsaylı məqalələri sayəsində məşhurlaşdı. Bu ifadə, 1945-1991-ci illərin beynəlxalq münasibətlərini xarakterizə etmək üçün, tez-tez istifadə edildiyinə görə onun mənasını aydınlaşdırmaq lazımdır.

Soyuq müharibə iki mənada istifadə olunur. Geniş mənada - "konfrantasiya" sözünün sinonimi kimi və İkinci dünya müharibəsinin sonundan SSRİ-nin dağılmasına qədər olan bütün beynəlxalq münasibətlər dövrünü xarakterizə etmək üçün istifadə olunur. Dar və tam dəqiq mənada "soyuq müharibə" termini konfrantasiyanın müəyyən bir növünü - müharibə ərəfəsində qarşıdurmaya səbəb olan, ən kəskin formasını nəzərdə tutur. Belə qarşıdurma, təxminən 1948-ci ildə baş verən ilk Berlin böhranından, 1962-ci ildə olan Karib böhranına qədər olan dövrdə beynəlxalq münasibətlər üçün xarakterik idi. "Soyuq müharibə" ifadəsinin mənası odur ki, qarşı qarşıya çıxan dövlətlər sistematik olaraq bir-birləri ilə düşmənçilik edir və bir-birlərinə qarşı güc vasitəsi ilə təhdid edilən addımlar atır, lakin eyni zamanda çalışırlar ki, bir-biriləri ilə əsl "isti" müharibə vəziyyətində olmasınlar,

"Konfrantasiya" ifadəsi məna baxımından daha geniş və "universaldır". Yüksək səviyyəli qarşıdurma, Berlin və ya Karib böhranı zamanı olan şəraitlərə xas idi. Lakin, konfrantasiyanın aşağı gərginlik səviyyəsi, 50-ci illərin ortalarında, sonra 60-cı illərin sonu və 70-ci illərin əvvəllərində beynəlxalq gərginliyin yumşalması illərində özünü göstərmişdi. "Soyuq müharibə" ifadəsi yumşalma dövrlərinə tətbiq edilmir və bir qayda olaraq ədəbiyyatda istifadə edilmir. Əksinə, "soyuq müharibə" ifadəsi "yumşalma"nın antonimi kimi geniş istifadə olunur. Buna görə, bütün 1945-1991 illər dövrünü, "soyuq müharibə" ifadəsi ilə deyil, "konfrantasiya" anlayışından istifadə edərək analitik olaraq düzgün təsvir etmək olar.

Konfrantasiya dövrünün ("soyuq müharibə") sona çatması dövrü ilə bağlı müəyyən fikir ayrılığı mövcuddur. Əksər alimlər hesab edirlər ki, konfrantasiya əslində ötən əsrin 80-ci illərinin ikinci yarısında, SSRİ-də olan "yenidənqurma" prosesləri zamanı başa çatmışdır. Bəziləri daha dəqiq tarixlər göstərməyə çalışırlar. Onların fikrincə, 1989-cu ilin dekabrında, Maltada keçirilən Sovet-Amerika görüşü zamanı, ABŞ Prezidenti Corc Buş və SSRİ Ali Sovetinin Sədri M.S.Qorbaçov "soyuq müharibə"nin bitməsini təntənəli şəkildə elan ediblər. Və ya 1990-cı ilin oktyabrında Almaniyanın yenidən birləşməsi ilə "soyuq müharibə" başa çatmış olub. Konfrantasiya dövrünün başa çatmasının ən ağlabatan tarixi, 1991-ci ilin dekabr ayıdır. Belə ki, bu tarixdə, Sovet İttifaqının dağılması ilə, 1945-ci ildən sonra yaranan qarşıdurmaya şərait yaradan bütün şərtlər yox olmuşdu.

# BİRİNCİ FƏSİL

# İKİQÜTBLÜ DÜNYA SİSTEMİNİN YARANMASI. "SOYUQ MÜHARİBƏ" (1945-1953)

## I BÖLMƏ
## İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə dinc nizamlama məsələləri

**1.** İkinci dünya müharibəsinin yekunları və dərsləri. Paris sülh konfransı
2. İkinci dünya müharibəsindən sonra Avropada dinc nizamlama məsələləri
3.İkinci dünya müharibəsindən sonra dünyanın iqtisadi və siyasi tənzimlənməsinin əsaslarının formalaşdırılması
4. 1946-1947-ci illərdə alman məsələsi və Avropada Almaniyanın keçmiş müttəfiqləri ilə sülh müqavilələri
**5.**BMT-nın yaranması və sıralarının genişlənməsi

### 1. İkinci dünya müharibəsinin yekunları və dərsləri. Paris sülh konfransı

İkinci dünya müharibəsi müharibələr tarixində ən dəhşətli və dağıdıcı müharibə olmuşdur. Onun müxtəlif mərhələlərində hər iki döyüşən tərəfdən eyni zamanda 8 milyondan — 12,8 milyona kimi insan, 84 mindən -,163 minə qədər top, 6,5 mindən — 18,3 minə kimi təyyarə iştirak etmişdi. Hərbi əməliyyatların əhatə etdiyi ərazi Birinci dünya müharibəsindəkindən 5,5 dəfə çox idi. Müharibəyə sərf edilən xərclərin miqdarı 4 trilyon ABŞ dolları olmuşdu. Onların 1 trilyon 117 milyardını sırf hərbi xərclər təşkil etmişdir. Müharibə zamanı 60 milyondan çox adam tələf olmuşdu. Ondan 27 milyonu SSRİ-nin, 13,6 milyonu Almaniyanın, 6 milyonu Polşanın, 5 milyonu Çinin, 2,5 milyonu Yaponiyanın, 1,7 milyonu Yuqoslaviyanın, 600 mini Fransanın, 370 mini İngiltərənin, 300 mini ABŞ-ın və s. payına düşmüşdü. İkinci dünya müharibəsinin ən başlıca yekunlarından biri faşizmin ictimai-siyasi sistem kimi yer üzündən silinməsidir. Bu, müharibədə nasist Almaniyanın, faşist İtalyanın və onların müttəfiqlərinin məğlubiyyəti nəticəsində baş vermişdi. Dünyada iki sistem — burjua demokratik və sosializm sistemləri qalmışdı.

Müharibədən sonra dünyada çox ciddi geosiyasi və ictimai dəyişikliklər baş vermişdi. Avropada və Asiyada bir sıra müstəqil dövlətlər yaradılmış, sərhədlər yenidən qurulmuş, Mərkəzi və Cənub-Şərqi Avropanın bir çox ölkələri faşizmdən azad olduqdan sonra SSRİ-nin təsiri altına düşərək sovet modelli siyasi inkişaf

yolunu götürmüşdülər, Asiyada, Afrikada və Latın Amerikası ölkələrində milli-azadlıq hərəkatı güclənmişdi. Müharibə dövlətlərarası münasibətlərdə yeni mütənasiblik yaratmışdı: qalib və məğlub dövlətlər qrupu yaranmış, qalib dövlətlər sırasında ABŞ-ın və SSRİ-nin nüfuzu olmazın dərəcədə artmış, onlar dünyanın super dövlətlərinə çevrilmişdilər, İngiltərə və Fransanın dünyada rolu zəifləmişdi. Müharibədən sonra Almaniya, Vyetnam, Koreya parçalanmışdı.

İkinci dünya müharibəsindən sonra sülhə və təhlükəsizliyə xidmət edən kütləvi beynəlxalq təşkilat və qurumlar yaranmışdı. Onların arasında hələ müharibənin gedişində formalaşmış BMT müstəsna yer tuturdu. İkinci Dünya müharibəsinin ən başlıca yekunlarından biri də, onun dünya sivilizasiyasını məhv olmaqdan xilas etməsidir. O, dünya sivilizasiyasını yeni inkişaf yoluna yönəltdi, onun yeni mahiyyət alması üçün möhkəm zəmin verdi. Müharibə, həmçinin dünyanın müəyyən zaman kəsiyində 2 ictimai-siyasi dünya sisteminə parçalanması üçün şərait yaratdı. Sonradan SSRİ-nin, dünya sosializm sisteminin süqutu nəticəsində sözügedən parçalanma aradan qalxdı. İkinci dünya müharibəsi dünya sivilizasiyasını qoruyub inkişaf etdirmək üçün çox mühüm dərslər vermişdir. Belə ki:

-o, bəşəriyyətə böyük fəlakətlər gətirən müharibələrin mahiyyətini dərk etmək dərsini verdi;

-o, xalqlara yeni dünya müharibəsinə, özü də dəhşətli kütləvi qırğın silahlarının mövcud olduğu indiki dövrdə yol verilməsinə imkan yaratmamaq dərsini verdi;

-o, xalqlara dünya müharibəsinə yol verməməyin ən başlıca şərtinin bu təhlükəyə qarşı birləşməyin çox vacib olması dərsini verdi;

- o, göstərdi ki, dünya müharibəsinə yol verməmək üçün ilk növbədə regional müharibələrin baş verməsinin qarşısı alınmalıdır;

-o, göstərdi ki, müharibənin qarşısını almağın ən önəmli yollarından biri də, müharibə əleyhinə təbliğatı gücləndirmək, bunun üçün möhkəm ideya-siyasi baza yaratmaqdır;

-müharibənin qarşısını almağın ən mühüm şərtlərindən biri də, silahlanmaya son qoymağa, kütləvi qırğın silahlarını məhv etməyə və yenilərinin yaradılmasının qadağan edilməsinə nail olmaqdır.

Müharibədən sonra mövcud olan beynəlxalq münasibətlər İkinci dünya müharibəsi nəticəsində formalaşan Yalta-Potsdam sistemi üzərində qurulmuşdir. İkinci dünya müharibəsi dünyada mövcud olan qüvvələr nisbətini köklü şəkildə dəyişdi. Birincisi faşizmin qlobal cərəyana çevrilməsinin qarşısı alındı.

İkincisi, dünyada ABŞ və SSRİ kimi fövqəl dövlətlər yarandı və onların timsalında qlobal ideologiyalar qismində liberal-demokratiya ilə kommunizm təsdiqləndi (ikiqütblü sistem formalaşdı).

Üçüncüsü, beynəlxalq münasibətləri tənzimləyəcək və beynəlxalq təhlükəsizliyi təmin edəcək ümumdünya təşkilat — Millətlər Cəmiyyəti daha effektiv təşkilatla — BMT ilə əvəz olundu.

Dördüncüsü, demək olar ki, yer üzündə müstəmləkə qalmadı. Ümumiyyətlə ənənəvi müstəmləkəçilik transformasiyalara məruz qaldı və iqtisadi-siyasi asılılığın yeni formaları yarandı.

Beşincisi, Çin kimi SSRİ-yə rəqib kommunist dövləti yarandı, bununla da kommunist bloku çat verdi.

Altıncısı, Yaponiya fövqəldövlət olaraq aradan getdi və faktiki olaraq Sakit Okean regionunda ABŞ siyasətinin platsdarmına çevrildi. Avropanın aparıcı ölkələri fövqəldövlət olaraq məhv oldular və onların təsir dairəsi Avropa ilə məhdudlaşdı. Nəticədə, Avropa dövlətləri dünya səhnəsinə çıxmaq üçün birləşməli oldular. Bu baxımdan Avropa Birliyi də İkinci dünya müharibəsinin səmərəsidir.

1946-cı il iyulun 29-da 21 dövlətin iştirak etdiyi Paris sülh konfransı açıldı. Konfransa 12 dövlət də məşvərətçi kimi çağırıldı.

Konfransda müzakirə olunan əsas məsələlərdən biri, İtaliya – Yuqoslaviya sərhədi və Triest limanı məsələsi idi. Triestin statusu haqqında məsələ 2 aya yaxın müzakirə edildikdən sonra, ABŞ layihəsi qəbul olundu. Konfransda,Triestin iki hissəyə bölünməsi barədə saziş imzalandı. İki il sonra, Paris müqaviləsi ilə Triestin bir hissəsi müttəfiq qüvvələrə, digər hissəsi isə Yuqoslaviyaya verilib. Triest azad zonasının daimi statusu barədə imzalanmış sənəddə deyilir ki, bu ərazinin müstəqilliyi BMT-nin Təhlükəsizlik Şurası tərəfindən təmin edilir. Ərazinin qubernatorunu, Yuqoslaviya və İtaliya rəhbərliyi ilə məsləhətləşmədən sonra BMT-nin Təhlükəsizlik Şurası təyin edir. 1975-ci ildə Triest tamamilə İtaliyanın tərkibinə keçibdir.

Konfransda Dunayda gəmiçilik məsələsinin müzakirəsində, SSRİ-nin bərabər imkanlara, azad ticarətə qarşı çıxmasına baxmayaraq, ingilis- amerikan layihəsi qəbul olundu. Dunayda naviqasiya, bütün dövlətlərin gəmiləri, malları və vətəndaşları üçün tam bərabərlik əsasında azad və açıq olmalı idi.

Konfransda təzminat məsələsi kəskin mübahisələrə səbəb oldu. Avstraliya nümayəndə heyəti, Rumıniya ilə sülh müqaviləsi layihəsinə verdiyi düzəlişlər – təzminat komissiyasının yaradılması, təzminatın valyuta ilə ödənilməsi—qəbul olunmadı.

İngiltərə İtaliyadan 11 milyard dollar, ABŞ 20 milyard dollar, Yunanıstan İtaliyadan 2.8 milyard, Bolqarıstandan isə 985 milyon dollar təzminat tələb edirdi. Lakin ABŞ və İngiltərə onlara çatacaq təzminatın tam həcmdə veürilməsindən imtina etdilər, xarici banklardakı İtaliya aktivlərini almaqla kifayətlənəcəklərini bildirdilər. Paris konfransı 1946-cı il oktyabrın 12-də öz işini başa çatdırdı.

## 2.İkinci dünya müharibəsindən sonra Avropada dinc nizamlama məsələləri

Almaniyanın taleyinin həll olunduğu əsas forum Potsdam (Berlin) konfransı idi (17 iyul - 2 avqust 1945). Konfrans iki sənədin imzalanması ilə başa çatdı: üç böyük dövlətin Berlin konfransı protokolu və üç dövlətin Berlin konfransı (2 avqust 1945) haqqında 15 fəsildən ibarət olan geniş hesabatı.

Bu sənədlərdə qaliblərin Almaniyaya münasibətdə gələcək siyasətinin əsas prinsipləri qeyd edilmişdi. Potsdam konfransında yalnız üç böyük dövlətin (SSRİ, ABŞ və Böyük Britaniya) nümayəndələri iştirak edirdilər. Fransa Potsdam konfransa sonradan dəvət edildi və 1945-ci il avqustun əvvəllərində rəsmi olaraq onlara qoşuldu.

Potsdam konfransı haqqında məlumatın mətninə görə, alman məsələsinin gələcək həllinin əsas zəmini olan dörd "d" adlanan proqram olmalı idi: müharibədən sonrakı Almaniyanın demilitarizasiyası, dekartelizasiyası, denasifikasiyası, demokratikləşməsi. Ölkə hərbi istehsalın əsaslarını məhv etməli, inhisar tipli iri sənaye birliklərinin yaradılmasını qadağan etməli, keçmiş nasist fəallarının siyasi həyatdan kənarlaşdırılmalı, tədris planlarına yenidən baxılmalı idi. Əvəz çıxma, irqçilik və millətçilik ideologiyalarının köklərini məhv etmək üçün tərbiyə və təhsil sisteminin yenidən qurulması vacib məsələlərdən biri sayılırdı.

Konfransın qərarı ilə, Şərqi Prussiya, Pomeraniya və Sileziyanın əksər əraziləri Almaniyadan ayrılırdı. Konfrans, prinsipcə Şərqi Prussiyanın şərq hissəsini Köniqsberq (indiki Kalininqrad) şəhəri ilə birlikdə Sovet İttifaqına verilməsi ilə razılaşırdı. Hətta, ABŞ və Böyük Britaniya gələcəkdə keçirilicək sülh nizamlanmasına dair konfransda bu qərarı dəstəkləyəcəklərini vəd etdilər. Polşanın sərhədlərinə gəldikdə, konfrans hesabatında Polşanın Şərqi Prussiyanın qərb hissəsini və Oder - Qərbi Neyse xəttinin şərqindəki əraziləri alacağını və bu ərazilərin Pomeraniya və Sileziyanın tarixi bölgələrinə uyğun olduğunu bildirmişdi. Almaniyanın şərq sərhədi, Oder çayı və Qərbi Neyse çayı boyunca keçməli idi. Ümumən, Almaniyanın ərazisi 1938-ci ildə olana nisbətən 1/4 qədər azalırdı.

Potsdam müzakirələri zamanı, Almaniyadan ayrılmış Şərqi Prussiyanın Sovet və Polşa hissələrində, Polşaya keçmiş Pomeraniya və Sileziyada, Çexoslovakiyaya qaytarılmış Sudet vilayətində, həmçinin Macarıstanın bəzi bölgələrində yaşayan,

etnik alman əhalisinin Almaniyanın qərb bölgələrinə köçürülməsi qərara alınmışdı. Əhalinin yerdəyişməsi ilə bağlı qərarlar, rəsmi məlumata görə, 6,5 milyon almanın taleyinə təsir etmişdi. Əslində isə, qaçqın axını daha çox idi.

Nürnberqdə (Bavariya) Potsdam konfransının qərarlarına uyğun olaraq, 1945-ci ilin noyabrından 1946-cı ilin oktyabr ayına qədər, nasist hərbi cinayətkarlarının açıq məhkəməsi keçirildi. Keçmiş nasist partiyasının və alman reyxinin bir neçə yüksək vəzifəli şəxsləri bəşəriyyətə qarşı cinayətlərdə günahkar bilindi. 1946-cı ilin oktyabrın 1-də, Nürnberq hərbi tribunalı 19 müharibə canisindən 12-nə ölüm cəzası verdi.

Bu ölkədə ali hakimiyyəti SSRİ. ABŞ, Böyük Britaniya və Fransa öz üzərinə götürmüşdülər. Almaniyanın ərazisi, ondan ayrılan ərazilər çıxılmaqla dörd işğal bölgəsinə bölündü: sovet, amerikan, ingilis və fransız. 1945-ci ilin mayında, sovet işğalı zonasının mərkəzində qalan Berlin şəhəri də, Amerika qoşunların iştirakı ilə, sovet qoşunları tərəfindən ələ keçirildikdən sonra, eyni zamanda dörd hissəyə bölündü. Almaniyanın işğal zonalarında əlaqələndirilmiş bir siyasət aparmaq üçün, alman məsələlərinə münasibətdə, dörd dövlətin ali orqanı olaraq, Nəzarət şurası yaradıldı. O, Almaniyadakı müttəfiq dövlətlərin işğalçı qüvvələrinin komandirlərindən təşkil olunmuşdu və burada qərarlar yekdillik əsasında qəbul edilirdi. 1945-ci il dekabrında, alman silahlı qüvvələri tərxis olundu, 1946-cı ildə hərbi sənaye kompleksi, hərbi təhsil, hərbi quruculuq və Vermaxt ləğv edildi.

Konfrans, Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) yaradılması qərarına gəldi. Onun qarşısına qoyulan vəzifələr ibarət idi:

- Birincisi, işğal olunmuş Almaniyanın idarə olunması ilə bağlı cari məsələlərin həll edilməsi,

-İkincisi, Almaniyanın keçmiş müttəfiqləri ilə sülh müqavilələri bağlamaq üçün ümumi konfrans hazırlamaq,

-Üçüncüsü, İtaliyanın keçmiş müstəmləkələri məsələsinin həlli.

Almaniya ilə bağlı, Potsdam qərarları, beynəlxalq müqavilə statusuna malik olmadığından, təsdiqlənməsi lazım deyildi. Onlarda müəyyən edilmiş müddəalar, mühüm əhəmiyyətli olsa da, önləyici xarakter daşıyırdı. Son qərarlar gələcəkdə, Almaniyada yeni qanuni mərkəzi hökumətin yaradılacağı vaxt qəbul olunmalı idi.

Potsdam konfransı, alman problemi üzrə, dövlətlərin əməkdaşlığı üçün möhkəm zəmin yaratdı. Ancaq, işğal siyasəti məsələlərində, qalib dövlətlərin maraqları ayrılırdı. İlk mübahisəli məsələlər, təzminat ödənişləri, sovet və qərb işğal zonaları arasında malların və maliyyə mənbələrinin sərbəst axınınında olmuşdu.

Müharibədə çox böyük itki verən SSRİ, alman tərəfindən lazımi təzminatı almaq üçün özünə haqq qazandırırdı. SSRİ, təzminat ödənişlərinin böyük bir

hissəsinin, ona verilməsində israr edirdi. Yalta konfransı zamanı, ABŞ Prezidenti Franklin Ruzvelt, sovet tərəfinin Almaniyadan 10 milyard dollara qədər təzminat almalı olmasına razılıq verdi. SSRİ, Amerika və İngiltərə nümayəndə heyətlərinin təzminat komissiyası çərçivəsində, Londonda keçirilən danışıqları zamanı, tərəflər ümumi razılığa gəldilər ki, Almaniyanın təzminat ödənişlərinin ümumi həcmindən SSRİ və Polşa 50%, Böyük Britaniya və ABŞ - 40%, antihitler koalisiyanın üzvləri olan, qalan ölkələr isə - 10% almalıdır. Prinsipcə, Vaşinqton SSRİ-nin, müttəfiqlər tərəfindən Rurda sökülən avadanlığın 25% -ə qədərini almasına razılıq vermişdi. Qərb tərəfdaşları, əvvəllər, Sovet tələblərini ədalətli olduğunu qəbul etsələr də, zaman keçdikcə, onları həddən artıq çox hesab etməyə başladılar.

Moskva, Almaniyadan öz sənayesinin maraqlarına uyğun olaraq, cari bazar məhsulları şəklində təzminat ödəmələri almağı üstün tuturdu. Lakin, sovet işğal idarələri, şərq zonasından qərbə ərzaq təchizatını təmin etmək üçün, qərb həmkarları ilə əməkdaşlıq etməyə razı olmadılar. Müharibədən əvvəl, şərq bölgələri Almaniyanın taxıl mənbəyi idi və Sovet hakimiyyətinin, qərb bölgələrinə ərzaq göndərməkdən imtina etməsi, onları çox çətin vəziyyətə saldı.

Almaniyada olan Sovet hərbi idarəsi, təzminat kimi bir çox məhsulları ölkədən aparmağa başladı. Almaniya ərazisindən demək olar ki, 22 min vaqon təsərrüfat mülkiyyəti, 73 min vaqondan çox ev əşyaları, 154 vaqon parça və xəzlər, 24 vaqon musiqi alətləri aparılmışdı. SSRİ-yə 2 milyon baş ev heyvanı aparmışdılar. 3447 müəssisənin sökülüb daşınması təşkil olunmuşdu. Ancaq 1947-ci ilin yanvarından müəssisələrin sökülməsi prosesi dayandırılmışdı. Bu müəssisələr işə salınmış, onların məhsulları daşınıb aparılmağa başlanmışdı.

Qərbi Almaniyanın iqtisadiyyatı dağıdılması hərbi əməliyyatlar nəticəsində 20 faiz, müəssisələrin sökülməsi nəticəsində 12 faiz olmuşdu. Şərqi Almaniyada bu faiz uyğun olaraq 45 və 25 faiz olmuşdur.

Qərbi və Cənubi Almaniyanın iqtisadiyyatı daha yaxşı olsa da, əhalinin sıxlığı baxımından vəziyyəti çox ağır idi. Belə ki, qonşu dövlətlərdən və şərqdən gələn qaçqınları hesabına 1945-ci ildə əhalinin sayı 44 milyona çatmışdı. Şərqi Almaniyada isə əhalinin sayı 17 milyon idi.

Nəzarət Şurası, Almaniyanı vahid iqtisadi tam olaraq idarə etmək vəzifəsinin öhdəsindən gələ bilmədi. Ölkənin bölgələri arasında əlaqələr bərpa edilmədi. Nəticədə, iqtisadi fəlakət əlamətlərinin artması baş verdi. Müharibədən sonra, Almaniyanın qeyri-sabit maliyyə sistemi artan böhran və kəsirdən əziyyət çəkirdi. Ölkədə vəziyyət çıxılmaz vəziyyətə düşdü. Məsələ normal iqtisadi inkişafı bərpa etməkdə deyil, əhalini aclıqdan xilas etmək barədə idi. Amerikalı tədqiqatçılar qeyd

edirlər ki, 1946-cı ilin əvvəli üçün, qərb zonasının bəzi bölgələrində almanlar aclıq həddinə çatmışdılar.

### 3. İkinci dünya müharibəsindən sonra dünyanın iqtisadi və siyasi tənzimlənməsinin əsaslarının formalaşdırılması

Müharibədən sonrakı dünya nizamı, 1940-cı illərin ən vacib iki beynəlxalq konfransı ilə əlaqədar, Yalta-Potsdam adlansa da - - dünyanın faktiki beynəlxalq nizamı iki deyil, dörd mərhələdə inkişaf etmişdi. Bu nizamlanma dörd fundamental beynəlxalq görüşdə işlənib hazırlandı:

1. 1944-cü ilin iyul ayında, Bretton -Vudsda ( ABŞ) müharibədən sonrakı dünya iqtisadiyyatının tənzimlənməsi sahəsində beynəlxalq əməkdaşlığın əsasları qoyuldu,

2.1945-ci ilin fevral ayında, Yaltada (SSRİ) , SSRİ, ABŞ və Böyük Britaniyanın Avropanın siyasi yenidən qurulması ilə bağlı gələcək danışıqlara ümumi baxışları razılaşdırıldı;

3.1945-ci ilin aprel-iyun aylarında San-Fransiskoda (ABŞ), beynəlxalq münasibətlərin tənzimlənməsi üçün əsas və universal vasitə olan BMT-nin nizamnaməsi müzakirə edilərək, qəbul edildi;

4.1945-ci ilin iyulunda Potsdamda (məğlub Almaniyada) antihitler koalisiyasında iştirak edən üç əsas ölkə, məğlubiyyətə uğramış təcavüzkarla bağlı, siyasət yürütmək üçün vacib prinsipləri müəyyənləşdirdi və Avropa nizamının yenidən qurulması üçün konkret addımlar atdı.

Sovet hökuməti xarici mühitlə qarşıdurmanın yeni mərhələsinə hazırlaşırdı, amma əvvəlcə Qərblə hərbi-siyasi əməkdaşlıqdan maksimum faydalanmaq lazım olduğunu düşünürdü. O, Almaniyanın hesabına, SSRİ-nin geosiyasi vəziyyətini yaxşılaşdırmaq və Şərqi Avropa ölkələrini SSRİ üçün müdafiə olunan təhlükəsizlik zonasına çevirməyə çalışırdı. SSRİ-nin müharibədən sonrakı dünya nizamına marağı, ilk növbədə hərbi-siyasi qərarlar ətrafında cəmləşmişdi.

ABŞ-ın müharibədən sonrakı vəziyyətə yanaşması fərqli idi. 1941-1945-ci illərin əməliyyatlarının gedişi, amerikalıları hava qüvvələrinin sonrakı onilliklərdə əsas əhəmiyyətə sahib olacağına inandırdı, bunun sayəsində Sakit okeanda Yaponiyaya qarşı müharibədə qələbə qazanılmışdı. ABŞ-ın bu məqsədə çatması üçün qarşısına qoyduğu vəzifələr ibarət idi:

Birincisi, gözlənilməyən vəziyyətlərdə hərbi tranzitin təmin edilməsi üçün, beynəlxalq əlaqə xətlərinə nəzarəti təmin edə biləcək, Amerikadan kənarda geniş həbi bazalar şəbəkəsi yaratmaq,

İkincisi, sülh dövründə xarici dövlətlərin ərazilərinin üstündən hərbi təyyarələrin uçuş hüququnu(“açıq səma”) əldə etməsini təmin etmək idi.

ABŞ dünya iqtisadi məsələlərinə diqqət ayırırdı. Amerikanın siyasi fikiri, bəzi ölkələrdə yaranmış təcavüzkarlığın səbəblərini beynəlxalq münasibətlərdən uzaqlaşdırmağın vacib olduğuna əsaslanırdı. Vaşinqtonda hesab edirdilər ki, Avropada olan müharibə iqtisadi köklərə sahib olmuşdur. Birinci dünya müharibəsindən sonra, Almaniyanın dağıdılması və iqtisadi parçalanması, ticarət müharibələri, hakim dairələrin eqoizmi, öz aralarında dünya iqtisadiyyatının sabitləşməsi üçün razılaşmaq istəməmələri nəticəsində, müharibələr arası dövrdə, Avropa iqtisadi cəhətdən bərpa oluna bilməmişdir.

1929-1933-cü illərdə, ABŞ-da dövlət müdaxiləsi ilə, dünya böhranın nəticələrini aradan qaldırmaq təcrübəsi, Amerika tərəfini əmin edirdi ki, dünya iqtisadiyyatının sabitləşməsini ümumdünya əlaqələndirici mexanizmlərin köməyi ilə əldə oluna biləcək.

Beynəlxalq sistemin iqtisadi sabitləşdirilməsi üçün, üç təşkilatın-- Beynəlxalq Valyuta Fondunun (BVF), Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB), həmçinin Tariflər və Ticarət haqqında Baş Sazişin (TTBS) yaradılması zərurətini gündəmə gətirdi.

BVF, beynəlxalq valyuta sistemində dövlətlər üçün davranış qaydalarının formalaşdırılmasına diqqət yetirməli idi. BVF eyni samanda, sabitliyə nəzarəti təmin edən və tədiyyə balansı kəsirinin aradan qaldırılmasında maliyyə yardımı göstərilməsinə nəzarət etməli idi. Valyuta sektorundakı BVF-nin ən böyük addımı, qızıl dollar standartını bərpa etmək olmuşdu, yəni, qızılın dollara nisbətdə rəsmi məzənnə ilə tənzimlənməsi və əsas dünya valyutalarının möhkəm məzənnə nisbətlərinin müəyyən edilməsi olmuşdu.

BYİB, geridə qalan ölkələrin inkişafına kömək edən, vasitə olmalı idi. Onlar məqsədli kreditlər və maliyyə yatıranlara zəmanət verməklə, maliyyə vəsaitlərini təşviq etməli idilər. TTBS -in vəzifəsi, gömrük tariflərinin mərhələli şəkildə azaldılması və xarici ticarət məhdudiyyətlərinin ləğvi yolu ilə beynəlxalq ticarətin liberallaşdırılmasına kömək etmək idi.

BYİB və BVF yaradılması məsələsi, ABŞ-da, BrettonVuds şəhərində 1-23 iyul 1944-cü il tarixlərində, keçirilən konfransda müzakirə olunmuşdu. TTBS-nin yaradılması üçün imzalanma prosesi uzanaraq, 1947-ci ilin oktyabrında Cenevrədə həyata keçirildi. Daha sonra, BYİB, Beynəlxalq İnkişaf Assosiasiyası və bir sıra digər qurumlarla birlikdə Dünya Bankının əsas hissələrindən birinə çevrildi. Buna baxmayaraq, ədəbiyyatda "Dünya Bankı" və "Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı" ifadələri çox vaxt sinonim kimi istifadə olunur. BYİB və BVF Birləşmiş Millətlər Təşkilatının qurumları sisteminin bir hissəsi oldu.

TTBS, BVF və BYİB ilə birlikdə, 1940-cı illərdən etibarən, yaratdığı bir sıra dünya iqtisadi tənzimləmə mexanizmləri Bretton Vuds sistemi adlandırıldı.

Formalaşdırılmış sistemin əsas cəhətlərinə münasibətdə SSRİ-nin mövqeyi fərqlənirdi. Vaşinqton, Moskva ilə razılığa gəlməyə çalışırdı. O, sovet tərəfinin bu qurumların işində iştirakını, birgə fəaliyyətlərinin uğurlarının təminatlarından biri hesab edirdi.

1944-1945-ci illərdə, SSRİ, BVF, BYİB, Avropa İqtisadi Komissiyası, Beynəlxalq Mülki Aviasiya Təşkilatı və beynəlxalq iqtisadi profilli bir sıra digər təşkilatların yaradılmasında iştirak etmişdi. Sovet-Amerika əməkdaşlığının gələcyi əlverişli görünürdü. Birləşmiş Ştatlar, yaradılan orqanlarda SSRİ nümayəndələrinin, qarşılıqlı mənfəət prinsipinə və bütün maraqlı tərəflərin əməkdaşlığa cəlb edilməsi şərti ilə, geniş şəkildə iştirak etməsinə razılıq verməyə hazır idi.

Bretton Vudsda əldə edilmiş razılaşmalara görə, Sovet İttifaqı BVF-də qərar qəbul edərkən səs kvotasının həcminə görə, ABŞ və Böyük Britaniyadan sonra üçüncü yerdə dururdu və müvafiq olaraq, BVF-nin icraiyyə komitəsində təsiredici nümayəndəliyə sahib olmalı idi.

Lakin, tədricən Sovet tərəfinin mövqeyi dəyişməyə başladı. Stalinçi rəhbərlik başa düşürdü ki, Bretton-Vuds institutlarında qərar qəbul edilərkən, ona verilən səslərin çox olmasına baxmayaraq, Sovet nümayəndələri öz qərar layihələrini orada nə yerləşdirə, nə də öz mövqelərini müdafiə edə bilməzdilər. Birləşmiş Ştatlar, Böyük Britaniya və digər Qərb ölkələri ilə birlikdə bu orqanlarda mexaniki çoxluğa malik idi və veto hüququ da nəzərdə tutulmamışdı. Bu, xarici iqtisadi sahədə SSRİ-nin azadlığının məhdudlaşdırılması demək idi. Xarici kapitalın, Sovet İttifaqının Şərqi Avropadakı təsir zonasına daxil olması ehtimalı, SSRİ-nin iqtisadi zəifliyi səbəbindən bu ərazilərin əvvəl maliyyə və iqtisadi, sonra isə siyasi itkisinə səbəb ola bilərdi.

Sovet İttifaqının mövqeyinin sərtliyi, Sovet rəhbərliyinin beynəlxalq reallıqla bağlı fikirlərinin fərqliliyi ilə izah edilirdi. Müharibədən sonra, Avropada etiraz meyllərinin inqilabi potensialını həddən artıq qiymətləndirən və Amerika kapitalının Sovet İttifaqı ilə ticari və iqtisadi əməkdaşlığa iqtisadi marağını həddən çox artıran, Sovet liderləri hesab edirdilər ki, ABŞ və digər Qərb ölkələri Moskva ilə danışıqlarda güzəştə gedəcəklər. Lakin, bu hesablamalar özünü doğrultmadı.

1945-ci ilin sonunda, Sovet hökuməti, ABŞ rəhbərliyinə Bretton Vuds sazişlərini təsdiq etmək niyyətində olmadığını bildirdi. 1946-1947-ci illərdə, Moskva TTBS-ə də qoşulmaqdan imtina etdi. SSRİ beynəlxalq iqtisadi münasibətlər sahəsində öz azadlığını qorudu, lakin dünya iqtisadi tənzimləmə sisteminin xaricində qalmış oldu.

Dünya dövlətləri, hərbi-siyasi sahədə daha böyük qarşılıqlı anlaşmaya nail ola bildilər. Müharibənin sona çatması ərəfəsində, SSRİ ilə Qərb ölkələri arasındakı münasibətlər aşağıdakı hüquqi əsaslara söykənirdi:

-26 may 1942-ci ildə, SSRİ ilə Böyük Britaniyanın, nasist Almaniyasına qarşı müharibədə və müharibədən sonra, əməkdaşlıq və qarşılıqlı kömək haqqında, 20 illik ittifaq müqaviləsini imzalaması.

- 10 dekabr 1944-cü ildə, Sovet İttifaqı və Fransa arasında, 20 il müddətinə ittifaq və qarşılıqlı yardım müqaviləsinin imzalanması.

Müharibə illərinin Sovet-Amerika əməkdaşlığı, 11 aprel 1942-ci ildə, imzalanan saziş əsasında qurulmuşdu. Saziş, təcavüzkara qarşı aparılan müharibədə, qarşılıqlı yardım üçün tətbiq olunan prinsiplərə əsaslanırdı. Almaniyaya qarşı hərbi əməliyyatlar başa çatdıqdan sonra, bu saziş öz mənasını itirmiş oldu. Amerika Birləşmiş Ştatları, sülh dövründə hərbi ittifaqların bağlanmaması prinsipinə əməl etdiyindən, SSRİ ilə dövlətlərarası sazişləri malik deyildi və belə bir müqavilə bağlamağı planlaşdırmırdı. Vaşinqton, Moskva ilə konkret siyasi öhdəliklərlə bağlı olma perspektivindən yayındı. ABŞ-ın bu addımı, İ.V.Stalini əsəbiləşdirərək, onda şübhələr yaratdı.

**4.1946-1947-ci illərdə alman məsələsi və Avropada Almaniyanın keçmiş müttəfiqləri ilə sülh müqavilələri**

Almaniyanın qərb ərazilərində çətin iqtisadi vəziyyət, Şərqi Avropa ölkələrindən, həmçinin ölkənin özünün şərq ərazilərindən gələn alman məcburi köçkünlərin və qaçqınlarının hesabına daha da ağırlaşdı. SSRİ-dən gizli dəstək alan Almaniya Kommunist Partiyası, ölkənin tezliklə birləşdirilməsinə çağırırdı. Qərb ekspertləri, ölkədəki vəziyyəti gərgin hesab edirdilər. Fransa, alman məsələsində İngiltərə və ABŞ-ın yanaşmalarını qəbul etməyərək, əksər hallarda onlarla bərabər fəaliyyət göstərmirdi.

Potsdam konfransının qərarlarına uyğun olaraq dinc nizama məsələlərini həll etmək üçün yaradılmış Xarici İşlər Nazirləri Şurasının 6 sessiyası keçirildi. İlk 3 sessiya 1945-46-cı illərdə keçirildi:

1. London – 1945-ci il 11 sentyabr – 2 oktyabr.
2. Paris 1946-cı il 25 aprel – 16 may və 15 iyun – 12 iyul.
3. Nyu-York 1946-cı il 4 noyabr – 12 dekabr.

Bu sessiyalarda Almaniyaya aid məsələlər, İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və Finlandiya ilə sülh müqavilələri məsələləri müzakirə edildi.

4, 5 və 6-cı sessiyalar Moskva ( 1947-ci il 10 mart- 24 aprel), London ( 1947-ci il 25 noyabr- 15 dekabr) və Parisdə (1949-cu il 23 may- 20 iyun) keçirildi. Bu

sessiyalarda alman məsələsi və Avstriya dövlət müqavilləsi layihəsi məsələsi müzakirə edildi.

1945-1946-cı illərdə Paris, Almaniyanın gələcək quruluşu ilə bağlı radikal bir mövqe nümayiş etdirirdi. 1945-ci ilin sentyabr-oktyabr aylarında, Londonda Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) ilk iclasında və 1946-cı ilin aprel-iyun aylarında, Parisdə keçirilən ikinci iclasında Fransa nümayəndə heyəti Reyn bölgəsini, Rur və Saar bölgələrini ayıraraq, Almaniyanı parçalamağa çalışırdı. Lakin, bu təkliflər dəstəklənmədi. ABŞ və İngiltərə Rur və Reyn zonasının ehtiyatlarını, Qərbi Avropanın iqtisadi bərpasının əsası hesab edir və onları ancaq Fransaya vermək istəmirdilər. Vaşinqtonda hesab edirdilər ki, Rur probleminin həllinin ideal forması, bölgədə, SSRİ-nin iştirakı olmadan, beynəlxalq nəzarət mexanizminin yaradılması idi.

Fransa, Almaniyanın iqtisadi bərpasını özü üçün strateji təhlükə hesab edirdi. Almaniyaya qarşı ehtiyatlı münasibət, həm fransız solçularına, həm də J.Bido hökumətinə xas idi. Parisi sakitləşdirməyə və onu alman məsələsində ABŞ-İngiltərə siyasətinə qoşulmağa inandırmağa çalışan Amerika diplomatları, Almaniyaya qarşı Fransanın hərbi təminatçısı kimi, Amerika hərbi qüvvələrinin Avropada saxlanılmasını mümkünlüyünə işarə edirdilər. Fransa tərəfi bu təkliflərə şübhə ilə yanaşırdı. O, İngiltərə- ABŞ tərəfi ilə, Sovet İttifaqı dövləti arasında siyasi manevr etmək istəyirdi.

2 dekabr 1946-cı ildə, ABŞ və İngiltərə, işğal sahələrini vahid bir zonaya – “Bizoniya”da birləşdirməyə qərar verdilər. Bu addımı, ən azı iki işğal zonası üçün əlaqələndirilmiş iqtisadi siyasət hazırlamaq lazım olduğunu, əsas kimi gətirdilər. Fransa, ABŞ və İngiltərənin bu addımlarına qoşulmadı. Fransa, elə həmin ay, ABŞ və İngiltərə ilə razılaşmadan, Saar bölgəsinin Almaniyadan ayrılması və birbaşa onun nəzarətinə alınması haqqında qərar vermişdi. Fransanın Saar siyasəti, onun qərb müttəfiqləri ilə və həmçinin sonradan Almaniya Federativ Respublikası hökuməti ilə narazılıq yaranmasına səbəb oldu.

1946-cı ilin dekabr ayında, Nyu Yorkda keçirilən, XİNŞ üçüncü sessiyasında İtaliya, Finlandiya, Macarıstan, Rumıniya və Bolqarıstanla bağlanmalı olan sülh müqavilələri tam razılaşdırıldı və 1947-ci il fevralın 10-da, Parisdə imzalandı. Bu ölkələr ilə, antihitler koalisiyası dövlətləri arasında müharibə vəziyyəti dayandırıldı. Müttəfiq dövlətlər, məğlub olan ölkələrin BMT-yə qəbul olunmaları haqqında müraciətlərini dəstəkləməyə söz verdilər.

Ərazilərə aid maddələr istisna olmaqla, sülh müqavilələri eyni formada tərtib edilmişdi. Bu müqavilələrdə məğlub olan ölkələrin silahlı qüvvələrinə məhdudiyyət qoyulmuş, qaliblərə və təcavüzə məruz qalan ölkələrə təzminat ödənilməsi

tənzimlənmişdi. Ukrayna SSR və Belarusiya SSR bütün sülh müqavilələrinin tərəfləri olmuşdular. 1991-ci ildən sonra, 1947-ci ildə əhəmiyyətsiz görünən bu məsələ, müstəqil Ukrayna və Belarusiya hökumətlərinin qonşu dövlətlərlə sərhədlərinin qanuni əsaslarını formalaşdırmağı asanlaşdırmış oldu.

Qalib dövlətlər, o cümlədən SSRİ, müqavilələrin qüvvəyə mindiyi gündən (onlar 15 sentyabr 1947-ci ildə qüvvəyə minmişdi) 90 gün ərzində qoşunlarını işğal olunmuş ölkələrdən çıxarmalı idi. Sovet İttifaqı, Avstriyadakı hərbi qüvvələri ilə əlaqəni təmin etmək üçün, Macarıstan və Rumıniyada qoşun saxlamağa icazə aldı. Buna görə də, SSRİ Şərqi Avropa regionuna nəzarət imkanlarını qoruyub saxlamağa müvəffəq oldu.

Alman məsələsi, aparıcı dövlətlər arasında gərginlik mənbəyi idi. 1947-ci ildə, Xarici İşlər Nazirləri Şurasının iki növbəti sessiyalarında - mart-aprel aylarında Moskvada keçirilən IV sessiyada və xüsusilə, noyabr- dekabr aylarında Londonda keçirilən V sessiyada, "Marşal planı" nəticəsində yaranmış nifaqdan sonra bu gərginliyi həll etmək cəhdləri- danışıqların dayandırılmasına səbəb oldu. ABŞ və İngiltərə, Qərbi Avropanın iqtisadi həyatını canlandırmaq üçün, Almaniyanın yenidən qurulması üçün fəaliyyətə başlamağa çalışırdılar.

Moskva ilə açıq qarşıdurmaya girmək istəməyərək, heç olmasa öz siyasətlərinə onun tolerant münasibətini təmin etməyə çalışırdılar. Qərb diplomatları, SSRİ-nin hərbi təşvişlərini neytrallaşdırmaq üçün, ona Almaniyanın 25 il müddətinə tərksilah olunmasına dair müqavilə bağlamağı təklif etdilər. Bu müqavilə, Almaniyanın hərbi maşınının bərpasını istisna edərək, Almaniyanın sənaye potensialının inkişafına qoyulan məhdudiyyətlərin aradan qaldırılmasına imkan verirdi.

Bu layihə Sovet İttifaqı tərəfindən şübhə ilə qəbul edildi, çünki SSRİ-yə görə o, alman hərbi-sənaye kompleksinin dirçəliş yollarını bağlamamışdı. ABŞ-İngiltərə planının həyata keçirilməsi Şərqi Almaniyada və bütövlükdə Şərqi Avropada Sovet hərbi iştirakının hüquqi əsaslarını ləğv edə bilərdi və Moskvada Almaniyanın yenidən hərbiləşdirilməsinə qarşı, yalnız müqavilə zəmanətlərinin təsirinə arxalanmalı olacaq idilər. Sovet diplomatiyası, müharibədən əvvəlki tarixi nəzərə alaraq, bu layihəni əsassız saydı. SSRİ, özünün reallığa uyğun gəlməyən planını irəli sürdü. O, Almaniyanın 50 il müddətinə demilitarizasiyasına dair müqavilə bağlamağı təklif etdi.

Qərb layihəsi, Almaniyanın potensialını zəiflətməkdən imtina edərək, onu müharibədən sonrakı beynəlxalq münasibətlər sisteminə nəzarət altına alınma xətti ilə əvəz etmək təklifi vermişdisə, Sovet layihəsi deinhisarlaşma şüarının köməyi ilə, sağ qalmış torpaq mülkiyyətçilərinin və sənayeçilərinin təbəqəsini sıxışdıraraq, Almaniyanın iqtisadiyyatını zəiflətmək xəttinin davam etdirilməsini nəzərdə

tuturdu. XİNŞ-in beşinci sessiyası növbəti yığlncaq üçün vaxt təyin etmədən bağlandı.

10 dekabr 1947-ci ildə, ABŞ-ın dövlət katibi C.Marşall ABŞ-ın Almaniyadakı iqtisadi vəziyyətlə bağlı mövqeyini ətraflı konkretləşdirdi: İstehsal olunan məhsullarla təzminatların ödənilməsini dayandırmaq, işğal olunmuş Almaniyaya büdcəsini balanslaşdırmağa və qalib dövlətlərə olan borclarının ödənişini iqtisadi sabitləşmə dövrünün sonuna qədər təxirə salmağa imkan vermək lazımdır. ABŞ, alman sənayesinin bərpa olunması xəttini davam etdirirdi.

**5.Birləşmiş Millətlər Təşkilatının yaranması və sıralarının genişlənməsi.**

1945-ci ilin aprelində, SSRİ-nin Xarici İşlər üzrə Xalq komissarı (1946-cı ildən-nazir) V.M.Molotov ilə Amerika nümayəndə heyətinin rəhbəri, respublikaçı senator Artur Hendrik Vandenberq arasında, təxminən bir ay davam edən danışıqlardan sonra, San-Fransiskoda BMT Nizamnaməsinin son layihəsinin hazırlanması yekunlaşdı.

Layihə, 1945-ci il martın 1-ə qədər, Almaniyaya və ya Yaponiyaya müharibə elan edən, 42 ölkənin dəvət olunduğu konfransa təsdiqlənmək üçün təqdim edildi. Dəvətlər, 1 yanvar 1942-ci ildə, Birləşmiş Millətlər Təşkilatının Bəyannaməsini imzalayan SSRİ, ABŞ, Böyük Britaniya və Çin hökumətləri adından göndərilmişdi. Sonradan San-Fransisko konfransının iştirakçı dövlətlərin sayı 50-yə qədər artdı. Konfrans, 1945-ci il iyunun 26-na qədər davam etdi və Nizamnamənin imzalanması ilə sona çatdı. Elə həmin ilin oktyabrında da qüvvəyə mindi.

Nizamnaməyə görə BMT- nin məqsədləri aşağıdakılardan ibarət idi:

*beynəlxalq sülhün qorunub saxlanılması və beynəlxalq mübahisələrin ədalətli həlli üçün səmərəli birgə tədbirlərin görülməsi;

*dövlətlər arasında bərabərlik və xalqların öz müqəddəratını təyin etməsi prinsipinə hörmətə əsaslanan dostluq münasibətlərinin inkişaf etdirilməsi;

*beynəlxalq iqtisadi və mədəni əməkdaşlığın həyata keçirilməsi, həmçinin irqi, cinsi, dil və dini fərq qoymadan hamı üçün insan hüquqlarına və əsas azadlıqlara hörməti həvəsləndirmək və inkişaf etdirmək;

*dövlətlərin bu ümumi məqsədlərə nail olunmasına yönəlmiş uzlaşdırılmış hərəkətlərini əlaqələndirən mərkəz rolunu oynamaq.

Birləşmiş Millətlər Təşkilatı dünya siyasi tənzimlənməsinin əsas alətinə çevrilməli idi. Bretton-Vuds institutları da dünya iqtisadi tənzimlənməsinin əsası olmalı idi. Əvvəlcə, beynəlxalq münasibətlərin tənzimlənməsinin hər iki qoluna eyni dərəcədə diqqət yetirən, Sovet İttifaqı qısa müddətdə bütün diqqətini yalnız onların birinə - siyasi hissəsinə yönəltdi.

Bunun üçün əsas var idi, belə ki, onlardan ən başlıcası, BMT-də SSRİ üçün əlverişli qərar qəbuletmə üsulu idi. Bu üsul iki mərhələli idi. Təşkilatın aşağı qurumu - BMT-yə üzv ölkələrin ümumi yığıncağı olan Baş Assambleyanın yalnız tövsiyə xarakterli qərar vermək hüququ var idi. Üst qurum - Təhlükəsizlik Şurası geniş səlahiyyətləri var idi və bu və ya digər dövlətlərə qarşı sanksiyalar tətbiq etmək üçün qərar vermək hüququna malik idi.

Təhlükəsizlik Şurasında Sovet İttifaqının imtiyazları möhkəm şəkildə təmin edilmişdi. Birincisi, SSRİ, ABŞ, İngiltərə, Fransa və Çin kimi, BMT Nizamnaməsinə uyğun olaraq, Təhlükəsizlik Şurasının daimi, dəyişdirilməyən üzvü yerini aldı. İkincisi, Nizamnaməyə uyğun olaraq, Şuranın bütün əsas qərarları səs çoxluğu ilə deyil, konsensus yolu ilə - Təhlükəsizlik Şurasının hər beş daimi üzvünün qərarının mütləq razılığı ilə qəbul edilirdi. Başqa sözlə, daimi üzvlərin hər biri veto hüququ almışdı və təklif olunan qərarın onun maraqlarına uyğun gəlmədiyi halda, ondan istifadə edə bilərdi.

Sovet İttifaqının ABŞ-la münasibətləri, dövlətlərin geniş əhatəsində dialoq platformasına çevrilən çoxtərəfli bir quruluşun daxilinə yerləşdirilmişdi. BMT quruluşu, dünya siyasətində ABŞ-SSRİ əməkdaşlığının yeganə siyasi və hüquqi çərçivəsi olmuşdu.

BMT, aparıcı üzvlərinin - SSRİ və ABŞ-ın maraqlarının uyğunluğunun təmin edilməsinin mümkün olmaması ilə üzləşdi. Ona görə də, BMT-nin əsas funksiyası əslində, uğurla öhdəsindən gəldiyi beynəlxalq reallığı təkmilləşdirmək, əxlaq və ədalətin yayılmasını təşviq etmək deyil, beynəlxalq sülhün əsas şərti olan, SSRİ ilə ABŞ arasında münasibətlərin sabitliyini təmin etməklə silahlı qarşıdurmaların qarşısını almaq idi.

Müharibədən sonrakı illərdə ən mühüm məsələlərdən biri BMT-nin sıralarının artması idi. Yeni-yeni dövlətlər BMT-nin tərkibinə qəbul olunmaq üçün Təhlükəsizlik Şurasına müraciət edirdi.

1946 – 49-cu illərdə BMT-nin tərkibinə Əfqanıstan, Birma, Yəmən, İsrail, İslandiya, Pakistan, Tailand və İsveç daxil oldular. Bu ölkələrdən başqa, bu illərdə daha 13 dövlətin BMT tərkibinə qəbul edilməsi məsələsi dəfələrlə müzakirə edildi. Qərb dövlətləri, SSRİ-nin təsiri altında olan dövlətlərin BMT üzvlüyünə daxil olmasının əleyhinə idilər.

BMT-yə yeni üzvlərin qəbulu məsələsinin uzadılması ilə əlaqədar olaraq, 1949-cu ildə SSRİ Təhlükəsizlik Şurasına ərizə verən bütün ölkələrin BMT üzvlüyünə qəbul olunmasını təklif etdi.

1950-ci ildə İndoneziya , 1955-ci ildə 16 dövlət -Avstriya, Albaniya, Bolqarıstan, Macarıstan, İspaniya, İrlandiya, İtaliya, Portuqaliya, Rumıniya,

Finlandiya,Kamboca, Laos, Liviya, Nepal, İordaniya, Seylon, 1956-58-ci illərdə, Qana, Qvineya, Mərakeş, Sudan, Tunis, Yaponiya, 1960-cı ildə əsasən Afrika dövlətləri, 1961-ci ildə Monqolustan, Mavritaniya BMT üzvlüyünə qəbul olundular.

## BİRİNCİ FƏSİL -- II BÖLMƏ

## Dünya sosializm sisteminin təşəkkülü və beynəlxalq münasibətlər (1945-1953)

**1. İkinci dünya müharibəsindən sonra SSRİ-nin xarici siyasəti. İdeologiya və reallıq**

**2. İkinci dünya müharibəsindən sonra Mərkəzi və Şərqi Avropada vəziyyət**

**3. Mərkəzi və Şərqi Avropa ölkələrinin kommunistləşməsi (1947-49-cu illər)**

3.1. Şərqi Avropa ölkələrində siyasi dəyişikliklər

3.2 Çexoslovakiyada dövlət çevrilişi

3.3. Sovet – Yuqoslaviya münaqişəsinin yaranması

3.4.İkinci dünya müharibəsindən sonra SSRİ-nin daxili– siyasi vəziyyətinin beynəlxalq vəziyyətə təsiri

3.5.Qarşılıqlı İqtisadi Yardım Şurasının yaranması

**4. Dünya sosializm sisteminin yaranması**

### 1.İkinci dünya müharibəsindən sonra SSRİ-nin xarici siyasəti. İdeologiya və reallıq

1940-cı illərin ortalarında Sovet İttifaqı, Qərbdə sonradan olduğu kimi, kommunist təhdidinin və müdaxiləsinin rəmzi olaraq qəbul edilməmişdi. Moskva və Sovet əsgəri, nasizmə və azadlığa qalib gəlmək rəmzi kimi qəbul olunurdu. Alman döyüş maşınını qıran dövlət kimi, SSRİ-nin beynəlxalq nüfuzu yüksək idi.

Sovet İttifaqı və Amerika təbliğat qurumları Almaniya üzərində qələbəni öz istədikləri kimi görürdülər. SSRİ-də bu hadisə, kommunizm idealları ilə tərbiyə olunmuş Sovet xalqının yeni nəslinin qələbəsi kimi şərh olunurdu. ABŞ-da, totalitarizm üzərində azadlıq və demokratiyanın dəyərlərinin təntənəsi kimi şərh olunurdu. Hər iki şərh nasizmin mənfi cəhətlərini vurğulayırdı və bu mənada eyni fikirdə idilər. Azad olunmuş Avropada nüfuzu artan sol dairələr, Sovet ölkəsinin şərhlərini qəbul edirdilər. Mülayim sağçılar Amerikanın izahlarını daha uyğun bilirdilər.

1946-cı ilin mayına qədər, beynəlxalq kommunist hərəkatının miqyası müharibədən əvvəlki səviyyəyə nisbətdə xeyli artır. Fransa Kommunist Partiyasının ümumi sayı 1 milyon nəfər, İtaliya - 1,9 milyon nəfər, Belçika və Yunanıstan, hər biri 100 min, Böyük Britaniya və ABŞ-da müvafiq olaraq 50 və 80 min nəfər olmuşdu. Sov.İKP Mərkəzi Komitəsinin xarici siyasət məlumatları şöbəsinin istiqamət verdiyi kommunist partiyalar şəbəkəsinə güvənərək, SSRİ, sovet qoşunlarının irəliləməsi zonasından kənarda da, öz təsirini yaya bilirdi.

Ancaq qələbə sevinci, SSRİ-də vəziyyətin sabitliyi ilə bağlı narahatlıqla əvəz olundu. Rəhbərlik ictimai narazılıqdan qorxurdu. Müharibə illərinin iztirablarından sonra, sovet xalqı islahatların keçirilməsini və həyatlarının yaxşılaşdırılacağını gözləyirdi, İ.V.Stalin isə heç nəyi dəyişdirmək niyyətində deyildi. O, müharibə illərində xaricdə olan və qərbdəki yaşayış şəraitini, SSRİ-nin yaşayış səviyyəsi ilə, müqayisə edə biləcək həmvətənlərinə etibar etmirdi. Kremldəki təcridçi meyllər zəifləməmişdi.

Bu mühitdə, SSRİ-də iqtisadi vəziyyət xüsusilə fəlakətli görünürdü. Ölkənin Avropa hissəsinin istehsal potensialı demək olar ki, tam məhv edilmişdi. Maliyyə vəziyyəti çox ağır idi, müharibə illərində böyük miqdarda xarici borc yığılmışdı. Əmək qabiliyyətli əhalinin miqdarı yetərli deyildi. Müharibə zamanı insan itkisi 27 milyon nəfərdən çox olmuşdu. Ərzaq və istehlak mallarının çatışmamazlığı var idi. SSRİ-nin iqtisadi tükənməsi, Sovet rəhbərliyini yeni hərbi münaqişədən çəkinməsini şərtləndirirdi.

1945-ci ilin yazından sonra, SSRİ ilə, antihitler koalisiyasında olan müttəfiqləri arasında yaranan narazılığa baxmayaraq, Stalin ABŞ və Böyük Britaniya ilə müttəfiq münasibətlərini mümkün qədər daha uzun müddətdə saxlamağın lazım olduğunu hesab edirdi. SSRİ güman edirdi ki, "imperialist blok" çərçivəsində olan ziddiyyətlər, SSRİ-nin Yaxın Şərqdə və Uzaq Şərqdə təsir dairəsini artırmasına imkan yaradacaq. Lakin, SSRİ kifayət qədər qüvvə toplayana qədər, "öz" təsir dairəsindən kənarda olan, qərb ölkələrindəki Kommunist Partiyalarına dəstəyini məhdudlaşdırdı.

Sovet rəhbərliyi, marksizm-stalinizm əsasında dəyişdirilmiş, geosiyasət məfhumlarından istifadə etmək fəaliyyətini davam etdirirdi. İ.V.Stalin və silahdaşları, dünya iqtisadiyyatını imperializmə qarşı mübarizədə beynəlxalq məkanın bir hissəsi hesab edirdilər. Müharibədən sonrakı Avropada solçuluq meyllərinin yüksəlməsindən sonra, onun qərb hissəsində inqilabi partlayış olacağını istisna etmirdilər. Bu baxımdan, dünya iqtisadiyyatında böhran hallarının artması, inqilabi potensialın böyüməsinə, əksinə, dünya iqtisadiyyatının sabitləşməsi isə imperializm zonasında mübarizənin zəifləməsinə səbəb olacaqdır.

Bu nəzəriyyəyə əsaslanan Moskva, "imperialistlərə" inqilabi yüksəlişin qarşısını almasına kömək etməyi lazım bilmirdi. Sovet ideoloqları, qərbdə "Böyük tənəzzülün" geri dönüşü variantı kimi, 1940-cı illərin sonları üçün, başqa bir böhranın olacağını nəzəri cəhətdən ehtimal edirdilər. Yeni bir böhran dalğasının gözlənilməsi və imperialist ziddiyyətlərin kəskinləşməsi məsələləri, 1946-cı ilin sonlarında, Moskva şəhərinin seçicilər ilə görüşündə, aparıcı sovet ideoloqu, Sov.İKP MK katibi A.A.Jdanovun məruzəsinin əsas tezisinə çevrilmişdi.

## 2. İkinci dünya müharibəsindən sonra Mərkəzi və Şərqi Avropada vəziyyət

Müharibədən sonra Macarıstanda kommunistlər əsas qüvvə deyildi. Macarıstan Anti-Komintern Paktı çərçivəsində Almaniyanın müttəfiqi idi və Macarıstan birləşmələri Yuqoslaviyada və Sovet İttifaqı ərazisində Almaniyanın tərəfində döyüşlərdə iştirak etmişdi. Lakin, 1943-cü ildə, diktator M.Xori ölkəni müharibədən çıxartmağın yollarını axtarmağa başladı və İngiltərə nümayəndələri ilə əlaqə qurdu. 1944-cü ilin yazında, o, hətta Hitlerdən Macarıstan qoşunlarını ən azı cəbhələrin birindən geri çəkmək üçün icazə almağa çalışdı. Berlin rədd cavabı verdi və martın 14-də alman qoşunları Macarıstana yeridildi.

1944-cü ilin avqustunda, M.Xorti, Moskva ilə danışıqlara başladı. O, Moskvadan, Macarıstanın SSRİ və Qərb müttəfiqlərinin qüvvələri tərəfindən birgə işğalına razılıq istəmişdi. Oktyabr ayında, M.Xorti rəsmi olaraq, Macarıstanın müharibədən çıxdığını elan etdi. Buna cavab olaraq alman qoşunları Budapeştə girdilər.

M.Xortinin hakimiyyətdən germəsindən və Macarıstanın sovet qoşunları tərəfindən azad edilməsindən sonra, ilk azad seçkilər 3 noyabr 1945-ci ildə keçirildi. Səslərin çoxunu Kiçik Sahibkarlar Partiyası aldı. 1 fevral 1946-cı ildə, Macarıstanda respublika elan edildi. 1946-cı ildən sonra, yeni hökumətə Kiçik Sahibkarlar Partiyasının nümayəndəsi Ferens Nad başçılıq etməyə başladı. Kommunistlər hökumətdə iştirak etsələr də, rəhbər mövqe tutmadılar.

Digər ölkələrdə kommunistlər daha çox üstünlüklərə nail oldular. 1944-cü ilin noyabrında, kommunistlər Rumıniya hökumətinə daxil edildi. Düzdür, 1945-ci ilin fevral ayından sonra, Buxarestdə Əkinçilər Cəbhəsinin başçısı Petru Qrozun rəhbərlik etdiyi yeni hökumət yaradıldı. Artıq, bu hökumət mahiyyət etibarilə kommunist hakimiyyəti idi. SSRİ Xarici İşlər nazirinin müavini A.Y.Vışinski, XİNŞ-in dekabr (1945) müşavirəsinin qərarlarını Moskvada həyata keçirərkən, Rumıniyaya təcili səfər etmək məcburiyyətində qaldı. O, "tarixi" partiyalar olan - Milli Liberalların və Milli Tsaranistlərin (Kəndlilərin) nümayəndələrin hökumətə

daxil edilməsinə nail olmaq istəyirdi. Bununla, Rumıniya hökumətinin beynəlxalq səviyyədə tanınması təmin olunacaq idi. Ümumiyyətlə, digər ölkələrdən əvvəl, qeyri-kommunist partiyaların ləğv edilməsi və bir partiyalı sistemin qurulması təcrübəsi, Sovet dövlətinin hərbi-siyasi qüvvələrinin mövcud olmadığı ölkələrdə (Albaniya) ya da müharibədən sonrakı nizamın formalaşmasında, onların ikinci dərəcəli rol oynadığı ölkələrdə (Yuqoslaviya) həyata keçirilmişdir.

Müharibə illərində Almaniya və İtaliya ilə müttəfiq münasibətlərdə olan, SSRİ-yə müharibə elan etməyən Bolqarıstanın kommunistləşməsi prosesi daha sürətlə getmişdi. 5 sentyabr 1944-cü ildə, SSRİ Bolqarıstanla müharibə vəziyyətində olduğunu elan etdi və ora sovet qoşunları göndərildi. Bu, Bolqarıstan kommunistlərinin və digər anti-alman qüvvələrin daha da fəallaşmasına şərait yaratdı. Ölkədə, "Dəstə" Birliyinin lideri Kimon Georgiyevin rəhbərlik etdiyi qeyri-kommunist hökumət quruldu. Kommunistlər bu hökumətdə əsas vəzifələri tutmuşdular. Hökumət Naibləri Şurasının üzvləri tutulub edam edildi. 1945-ci ilin noyabrında, Bolqarıstanda parlament seçkiləri keçirildi. Seçkilərdə kommunistlərin başçılığı ilə, müxtəlif partiyaların koalisiyası olan Vətən Cəbhəsi qələbə qazandı. Ölkədə, K.Georgiyev tərəfindən yeni hökumət yaradıldı. 1946-cı ilin noyabrında, referendum nəticəsində, Bolqarıstanda monarxiya ləğv edildi və ölkə Bolqarıstan Xalq Respublikası elan edildi. 21 noyabr 1946-cı ildə, Georgi Dimitrov Moskvadan Sofiyaya gəldi və Bolqarıstanın növbəti hökumətinə rəhbərlik etdi.

Polşadakı vəziyyət daha çətin inkişaf etmişdi. Müharibə illərində bu ölkənin qərb bölgələri Almaniyaya daxil olunmuş, şərq bölgələrində isə alman qubernatoru başda olmaqla general- qubernatorluq yaradılmışdı. Müharibənin sonuna yaxın, iki Polşa hökuməti Polşa xalqının maraqlarını təmsil etmək hüququna iddia etdi - biri Londonda olan, 1943-1944-cü illərdə Polşa Kəndli Partiyasının lideri Stanislav Mikołayçikin rəhbərlik etdiyi, qərbmeylli mühacir hökuməti, digəri isə 1944-cü ilin iyul ayında Polşanın azad edilmiş ərazisində, Lyublin şəhərində yaradılan, sovetmeylli Polşanın Müvəqqəti Milli Hökuməti idi.

1 avqust 1944-cü ildə, London hökumətini dəstəkləyən vətənpərvər polyak qrupları Varşavada alman qoşunlarına qarşı silahlı üsyan qaldırdılar. Bu üsyan, sovet qoşunlarının dəstəyini almaq məqsədi ilə, onların Varşavaya hücumu zamanı başlamışdı. Lakin Stalin, Polşada anti-sovet qüvvələrinin güclənməsinin qarşısını almaq üçün, Varşavadakı üsyanı dəstəkləməmək qərarına gəldi. 14 sentyabr 1944-cü ildə, SSRİ qoşunları Varşava şəhər ətrafı qəsəbələrindən birini tutsa da, sonrakı hücum dayandırıldı. Üsyan oktyabrın 2-ə qədər davam etdi, ancaq, Sovet qoşunlarının hərəkətsizliyi səbəbindən nasistlər tərəfindən amansızlıqla yatırıldı.

Sovet İttifaqı, Polşanın müharibədən sonrakı hökumətinin "London" əsasında deyil, "Lyublin" üzərində qurulmasına çalışmağa başladı. SSRİ-nin əsas tutduğu mühüm məqam, Kerzon xəttinin Polşanın gələcək şərq sərhədi olaraq tanınmasına nail olmaq idi. Sovet tərəfi, sərhəd məsələsində hər hansı bir güzəştə getmək fikrində deyildi. Sovet nümayəndələri, koalisiya hökumətinə "London polyakları"nın yalnız, "Kerzon xətti" ilə razılaşan nümayəndələrini daxil etməyi mümkün hesab edirdilər. Birləşmiş Ştatlar və İngiltərə, İ.V.Stalinin mövqeyini rədd etməyərək, sovet şərtləri ilə Polşa hökumətinin qurulmasına mane oldular. Yalnız Yaltada, mülayim "londonlular"ın iştirakı ilə koalisiya hökumətinin "Lyublin əsasında" yaradılmasına razılaşdılar. Lakin, qərb müttəfiqlərinin, əldə olunan razılaşmaları yerinə yetirməkdən imtina etməsindən ehtiyat edən, SSRİ, 21 aprel 1945-ci ildə, Lyublin hökuməti ilə 20 il müddətinə dostluq, qarşılıqlı yardım və müharibədən sonrakı əməkdaşlıq haqqında müqavilə bağladı. Beləliklə, aydın oldu ki, ABŞ, İngiltərə və "London polyakları" SSRİ-nin sərhəd məsələsindəki mövqeyini yenidən nəzərdən keçirməkdə israr edərdisə, Moskva ümumiyyətlə Polşada koalisiya hökumətinin qurulmasına icazə verməyəcək idi. SSRİ-nin siyasi xətti qələbə qazanmış oldu.

28 iyun 1945-ci ildə, Lyublin hökumətini təmsil edən, sosialist E.Osobka-Moravskinin başçılıq etdiyi, "Lyublin" və "London" polyaklarının daxil olduğu koalisiya hökuməti yaradıldı. S.Mikołayçik Baş Nazirin müavini və kənd təsərrüfatı naziri vəzifələrini tutaraq, gələcəkdə kəndlilər arasında tanınması ilə, nüfuzunun artacağına ümid edirdi. Polşadakı qeyri-kommunist partiyaların çox saylı tərəfdarları var idi. 1945-ci ildə, S.Mikolayçikin Polşa Kəndli Partiyası, Kommunist Partiyası və Sosialist Partiyası birlikdə götürülməklə, hər ikisindən daha böyük idi. Potsdam Konfransının qərarlarına uyğun olaraq, koalisiya hökuməti Qərb dövlətləri tərəfindən tanındı. 1945-ci ilin avqustunda, SSRİ artıq Polşanın yeni koalisiya hökuməti ilə Sovet-Polşa dövlət sərhədi haqqında müqaviləni imzaladı. Bu sənəd sərhədin Kerzon xətti boyunca keçməsini təsdiqlədi.

Şərqi Avropanın bütün ölkələrindən qeyri-kommunist alternativlərin ən bacarıqlısı Çexoslovakiyada idi. Bu, onun iki dünya müharibəsi arasında demokratik təcrübəsinin olması ilə özünü göstərirdi. Ölkə, iqtisadi sahədə Qərbə meyl etsə də, Moskva E.Beneşin şəxsiyyətinə müsbət münasibət bəsləyirdi. Moskva, Çexoslovakiya dövlətinin müharibədən əvvəlki ərazilərinə olan iddiasını dəstəklədi. Hələ, 1943-cü ilin dekabrında, İ.V.Stalin və E. Beneş dostluq, qarşılıqlı yardım və müharibədən sonra əməkdaşlıq haqqında müqavilə imzalamışdılar. Çexoslovakiyanın faşizmdən azad edilməsindən sonra, Benes avtomatik olaraq, ölkənin tamhüquqlu Prezidenti kimi bərpa edildi. 29 iyun 1945-ci ildə, Zakarpat Ukraynası ilə bağlı Sovet-Çexoslovak müqaviləsi bağlandı. Zakarpatya ("Rusiniya",

“Karpatyanı Rusiya”) 1920-1938-ci illərdə Çexoslovakiyanın tərkibində olmuş və 1938-ci ildə Çexoslovakiyanın müstəqilliyi ləğv olunduqdan sonra, 1938-1945-ci illərdə Macarıstana verilmişdi. İndi isə, müqaviləyə görə, bu ərazi Sovet İttifaqına verilirdi.

Müharibədən sonra keçirilən islahatlar (xüsusən aqrar sahədə) Çexoslovakiyada digər xalq demokratiya ölkələrinə nisbətən daha az radikal idi. Kommunistlər 1947-ci ilin sonuna qədər, "Çexoslovakiyanın sosializm yolu" nəzəriyyəsinə sadiq qalaraq, özlərini nisbətən mülayim aparırdılar. 1946-cı ilin mayında, Çexoslovakiyanın Qanunverici Məclisinə keçirilən seçkilərdə kommunistlər partiyalar arasında ilk olmağa müvəffəq oldular (səslərin 38%), Onların qələbəsi, daha çox Çex torpaqlarında məskunlaşanların səsləri ilə təmin edilmişdi. Lakin, Slovakiyada kommunistlərin mövqeyi hələ çox zəif idi. Slovaklar çex milliyyətçiliyindən ehtiyat edərək, çexlərlə birgə, vahid bir dövləti bərpa etməkdən çəkinirdilər.

Çexoslovakiyanın Baş Naziri, Çexoslovakiya Kommunist Partiyasının sədri Klement Qotvald (çex) olsa da, hökumətin yarısı qeyri-kommunist idi və Xarici İşlər naziri vəzifəsini Çexoslovakiyanın ilk Prezidenti, qərb yönümlü olan Slovak Yan Masarik tuturdu.

Baltikyanı ölkələr - Estoniya, Latviya və Litva, bu ölkələrin xalqlarının fikirlərini nəzərə alınmadan, 1940-cı ildə SSRİ-yə daxil edilmişdi. İkinci dünya müharibəsindən sonra, onların SSRİ-nin tərkibində olması, digər ölkələrin hökumətləri tərəfindən heç bir iddiaya səbəb olmadı. Lakin, Amerika Birləşmiş Ştatları Baltikyanı ölkələrin SSRİ-yə birləşdirilməsinin qanuniliyini rəsmi şəkildə tanımadı, baxmayaraq ki, bu məsələ barəsində Moskvaya heç bir müraciət təqdim etmədi.

SSRİ tərkibindəki Baltikyanı respublikaların inzibati sərhədləri dəyişikliklərə məruz qalmışdı. Estoniya SSR ilə RSFSR-in Pskov bölgəsi arasındakı inzibati sərhəd xətti dəyişdirildi. Peçora kəndinin ərazisində, qarışıq rus-eston əhalisi olan ərazi zolağı, köhnə rus pravoslav Pskov-Peçora monastırı da daxil olmaqla RSFSR-ə verilmişdi. Baltik dənizində uzun və ensiz quru torpaq parçası olan Kurş dilinin bir hissəsi və keçmiş Memel ərazisi Litva SSR-yə verildi və Memel şəhəri Klaypeda adlandırıldı. Eyni zamanda, Sovet Litvası, 1939-cu ildə Polşa dövləti dağıldıqdan sonra, Sovet hökuməti tərəfindən ona verilmiş çoxsaylı polyakın yaşadığı Vilno bölgəsini (indiki Vilnüs şəhəri və ətrafı) öz tərkibində qoruyub saxladı.

Alman qoşunları Baltikyanı ölkələrdən qovulduqdan sonra, 1945-ci ilin əvvəllərində Baltik respublikalarında Sovet hakimiyyəti bərpa edildi, kollektivləşmə və qismən yenidən milliləşdirmə aparıldı. Bu addımlar cəza tədbirləri və "burjua

elementlərinin" SSRİ-nin şərq və şimal bölgələrinə sürgün edilməsi ilə müşayiət olunurdu. Ümumilikdə, Baltikyanı əhalinin təxminən 9% -i, o cümlədən Litvadan 300 min nəfər deportasiya edildi. Təxminən yüz min insan Qərbə qaçdı. Baltikyanı ölkələrdə, Sovet ordusunun nizami qoşunlarına qarşı terror, seçkilərin pozulması və yerli kommunistlərin öldürülməsi ilə məşğul olan, "meşə qardaşları"nın anti-sovet partizan hərəkatı yarandı. Bu hərəkat, 1946-cı ilin sonuna qədər Estoniya və Latviyada demək olar ki, tamamilə ləğv edildi, lakin Litvada fəaliyyətini davam etdirirdi. "Meşə qardaşları"nın bəzi fəalları, XX əsrin 70-ci illərinə qədər gizli şəkildə mübarizə aparmışdılar.

Müharibədən sonrakı ilk illərdə, Avropada - əsasən qərb istiqamətində insanların kütləvi şəkildə yerdəyişməsinin ağrılı bir prosesi baş verdi. Polşadan, SSRİ-nin Baltik bölgələrindən, Çexoslovakiyadan, Macarıstandan, Rumıniyadan və Yuqoslaviyadan 6 milyon almanın çıxarılması ilə yanaşı, təxminən 380 min polyak, 220 min yəhudi (əhəmiyyətli bir hissəsi Fələstinə qaçdı), 125 min Yuqoslaviya vətəndaşı, Sovet İttifaqına daxil olan üç Baltikyanı respublikasının əhalisinin 87 mini, SSRİ-nin qərbi Ukrayna bölgələrindən on minlərlə ukraynalı qərbə qaçdı və ya mühacirət etdi. Müharibədən sonra, qərbdən 5.4 milyona yaxın "Ostarbeyter" (şərqdən gələn işçi) və siyasi mühacir zor gücünə SSRİ-yə qaytarıldı, onların böyük əksəriyyəti SSSR-nin Məcburi Əmək Düşərgələri Baş İdarəsinin (QULAQ) həbs-cəza düşərgələrinə (konslaqerə) göndərildi. Əhali axını Şərqi Avropa ölkələri arasında da baş verdi: Macarlar, Rumıniya və Yuqoslaviyanı tərk etdilər, ukraynalı yunan katolikləri Polşada yaşadıqları Rjeşuva bölgəsindən qovuldular, polyaklar özləri SSRİ ərazisindən Polşaya getdilər.

İkinci dünya müharibəsi başa çatdıqdan sonra, Şərqi və Mərkəzi Avropa ölkələrindən, eləcə də Avstriyadan və Sovet işğal bölgəsindən olan məhkumlar QULAQ-a göndərildilər. Onların arasında polyakların, ukraynalıların, latışların və litvalıların millətçi dəstələri də var idi. Şərqi Avropa ərazilərinin alman qoşunlarından azad edilməsindən sonra, ələ keçirilmiş həbs düşərgələrindən hərbi əsirlərin və digər məhbusların saxlanılması üçün istifadə edilməsi qərara alındı. Bunlar Myulberq, Noybranderburq, Bautsen, Orannenburq keçmiş cəza düşərgələri idi. 1945-ci ilin avqustunda, dəhşətləri ilə məlum olan nasist həbs düşərgəsi olan, Buhenvaldda, SSRİ-nin Xalq Daxili İşlər Komissarlığının (NKVD) 2 nömrəli xüsusi düşərgəsi təşkil edildi. Sovet arxiv məlumatlarına görə, 1945-1950-ci illərdə, təkcə bu düşərgəyə 28 455 məhkum göndərilmişdi, onlardan 7113 nəfər ölmüşdü. Ümumiyyətlə, 1934- 1953-cü illərdə SSRİ-də bütün həbs düşərgələrinə 2 468 524 nəfər insan göndərilmiş, onlardan 1 494 625 nəfəri ölmüşdür.

Müharibədən sonrakı ilk illərdə, siyasi və psixoloji cəhətdən Avropanın şərqindəki vəziyyət qərbdəki vəziyyətdən çox da fərqlənmirdi. Beş-altı illik diktat və zorakılıqdan sonra, hər yerdə ictimai mühit qorxu hissləri ilə doldu. Buna həm adi avropalının anlamına görə, müharibələr arası illərin böhranına səbəb olmuş amansız bazar iqtisadiyyatından, həm də bu böhrandan onları qoruya bilməyən "uğursuz demokratiya"dan bezikmək hissi də əlavə olunmuşdu. Parlament-respublika idarəetmə formalarına inamsızlıq, 1929-1933-cü illər böhranının psixoloji irsinin bir hissəsi idi. 1930-cu illərdə, bütün ölkələr böhrandan çıxış yolunu icraedici hakimiyyətin gücləndirilməsi yolunda tapmışdılar.

Çexoslovakiya istisna olmaqla, Şərqi Avropadakı demokratik təsisatlara heç bir ölkədə etibar olunmadı. İkinci dünya müharibəsi ərəfəsində, Polşada mövcud olan və Yuzef Pilsudskinin diktaturası ilə yaranan idarəçilik, heç bir meyara görə liberal deyildi və bu ölkədə ziyalılar formalaşmağa imkan tapa bilmədilər. Rumıniyada müharibələr arasında hakimiyyəti mühafizəkarlar idarə edirdi. Lakin, onlar, 1940-cı illərdə, çox asanlıqla nasistlərlə əməkdaşlıq etməyə razılaşmışdılar. Doğrudur, Rumıniya və Macarıstanda 1920-1930-cu illərdə çoxpartiyalı bir sistem var idi, siyasi partiyalar yerli diktaturalara möhkəm uzlaşaraq, onların bir hissəsinə çevrilmişdilər. Nə Bolqarıstanda, nə də Yuqoslaviyada demokratiya yox idi. Bu ölkələrdə hakimiyyət aristokratiya və mühafizəkar bürokratiyaya məxsus idi. Şərqi avropalıların dərkində, onlara məlum olan siyasi quruluş formaları özlərini nüfuzdan salmışdılar, lakin, hazırda çatmaq üçün, səy göstərməyə dəyəri olan, anlaşıqlı və cəlbedici bir hökumət forması da yox idi.

Müharibənin son mərhələsində və müharibədən sonrakı ilk illərdə (təxminən 1947-ci ilin ortalarına qədər), Sovet rəhbərliyi öz qarşılarına Şərqi Avropa ölkələrində təkpartiyalı kommunist quruluşları yaratmaq məqsədi qoymamışdı. Bu zaman, əsas vəzifə, SSRİ-nin qərb sərhədində dost dövlətlərdən təhlükəsizlik səddi yaratmaq idi. Müharibədən sonra, onların ictimai-siyasi sistemi sovetlərin nəzarəti altında qurulurdu, bunun sayəsində solların üstünlükləri olurdu. Ancaq, parlamentarizm və çoxpartiyalı sistem inkar edilmirdi. Moskva, mülayim qeyri-kommunist partiyalara təmkinlə yanaşaraq, koalisiya yaratmağı, partiya və hərəkatların demokratik mövqelərdə dayanan milli və milli- demokratik cəbhələrdə birləşmələrini təşviq edirdi. Aydındır ki, anti-kommunist partiyalar bu plana aid olunmurdular, çünki onlar faşist idarəçiliyi ilə eyniləşdirilirdilər. Lakin, bütün bunlara baxmayaraq, 1944-1947-ci illərdə, Rumıniya təcrübəsindən göründüyü kimi, onların koalisiya hökumətlərinə girişi bağlanmamışdı. Belə bir nizam, dövlət maşınını məhv etmədən və ənənəvi parlamentarizmi qoruyub saxlayaraq, sosialist

ünsürlərin iqtisadiyyatda və siyasi sistemdə üstünlüyünü təmin etməyə imkan vermişdi. Bu idarə sistemi "xalq demokratiyası" adını almışdı.

SSRİ-nin 1947-ci ilə qədər nisbətən mülayim siyasəti, Avropa quruluşunun nizamlanması məsələsində, Qərb müttəfiqləri ilə əməkdaşlıq etmək ehtiyacından irəli gəlirdi. Moskva anti-kommunist qüvvələrin hakimiyyətə keçmək cəhdlərinə qarşı çıxırdı. Lakin, sovet rəhbərləri yerli kommunist partiyalarının anti-kapitalist dəyişikliklərini sürətləndirmək səylərini qarşısını alırdılar. 1945-1947-ci illərdə, Şərqi Avropa ölkələrində aparılmış parlament seçkiləri, qanun pozuntularına baxmayaraq, kommunistlərin artan nüfuzuna dəlalət edirdi. Sovet İttifaqının, Macarıstan, Rumıniya və Bolqarıstanda müttəfiq nəzarət komissiyalarının işinə rəhbərlik edən Sovet dövlətinin nümayəndələri, qeyri-kommunist partiyaların Moskvaya məqbul olan nümayəndələrinin hökumətlərə daxil edilməsini təkid edirdilər.

Sovet təcrübəsi, Şərqi Avropa əhalisi üçün ideal hesab olunmurdu. Ancaq, o, təəssürat yaradırdı. 1930-cu illərin Stalin cəza tədbirləri haqqında çox az məlumat var idi və sovet idarəçiliyi faşizmdən daha yaxşı görünürdü: heç olmasa, vətəndaşları dövlət sisteminə cəlb etməyə istiqamətlənmiş kimi görünürdü. Ancaq, nasistlər vətəndaşların ayrı-ayrı kataqoriyalarını ayrı-seçkiliyə məruz qoymaq və cəmiyyətdən kənarlaşdırmaq siyasəti aparırdılar. SSRİ onlara, işıqlı və parlaq gələcəyin rəmzi kimi deyil, dəhşətli keçmişdən uzaqlaşmağın yolu kimi görünürdü.

Baltikyanı ölkələrin Sovet İttifaqına daxil olmasının əleyhdarları olan "meşə qardaşları" meşələrdə gizlənərək, vaxtaşırı sovet ordusunun hissələrinə hücum edirdilər. Qərbi Ukraynada, faşistlərlə birlikdə ölkəni tərk etməyən, qərbi ukraynalı millətçi S.A.Banderanın rəhbərliyi altında Ukrayna inqilabi ordusunun bölmələri, 1947-ci ilə qədər Sovet hakimiyyətinə qarşı mübarizəni davam etdirmişdilər.

Daha təəccüblüsü odur ki, SSRİ-dən xaricdə, yerli əhali öz ölkələrində Sovet dövlətinin nümayəndələrinin fəaliyyətinə və yerli solçuların təzyiqlərinə qarşı çıxmaq niyyətlərinin əlamətləri aşkar olunmurdu. Məsələn, təkcə Polşada kommunizmə qarşı çıxanların sayı, Qərbin hesablamalarına görə, ən azı 100 min nəfər təşkil etməli idi. Lakin məlum oldu ki, onları zərərsizləşdirmək üçün, Polşa kommunist hökumətinə yalnız iki əvf fərmanının verilməsi (1947) kifayət etdi ki, onları sadəcə bir neçə il müddətində unutdular.

Şərqi Avropada, yerli kollaboranistlərə olan (fransızca- əməkdaşlıq, dövlətinə ziyan vurmaq üçün düşmənlə şüurlu, könüllü əməkdaşlıq) münasibət mənfi idi. Müharibə zamanı əmlaklarını qorumaq üçün, faşistlərlə işbirliyinə gedən- "ağıllı meşşan sakinlərə" qarşı yönəlmiş etimadsızlıq, kommunistlərə olan narahat münasibətlərdən daha üstün idi. Üstəlik, Şərqi Avropa ölkələrinin liberal və katolik

dairələrində "yeni hökumətin uzun ömürlü olmamasına" və "üçüncü dünya müharibəsinin tezliklə başlayacağına" ümid edirdilər. Arzularının həyata keçməsini gözləyən mülayimlər hadisələri passiv izləyirdilər. Kasıb təbəqələr, əksinə, fəallıq göstərərək, dəyişiklik arzusunda idilər. Kommunistlər mərkəzçilərin ətaləti qarşısında öz enerji və qətiyyətləri ilə əhalini cəlb edirdilər. Yeni kommunist meylli və solçu hökumətlər kütlələrin dəstəyini qazanırdı. Şərqi Avropa ölkələrində, yerli kommunistlərin silahlı dəstələri yaradılmağa başlandı. Adi vətəndaşlar həvəslə polis qurumlarında və yeni milli silahlı qüvvələrdə qulluq etməyə gedirdilər.

Sovet İttifaqı Şərqi Avropada ehtiyatlı davranırdı, Vaşinqton və Londonla gərginlik yaratmaq istəmirdi. Ancaq, ehtiyatlı siyasət Moskvada, onlara aid coğrafi hüdudlardan kənara çıxmaq cəhdindən imtina kimi qəbul olunurdu.1945-ci ildən sonra, ABŞ və SSRİ, Sovet İttifaqının təhlükəsizlik səddinin hüdudları haqqında razılığı gəlmişdilər. Bu səddin hüdudunda aparılan fəaliyyətlər Moskvada Qərbə münasibətdə işğalçı və ya təxribatçı hesab edilmirdi. SSRİ sərhəd təhlükəsizliyinə diqqət yetirirdi və bu məsələdə Şərqi Avropa ölkələrindən geosiyasi sipər kimi istifadə edirdi.

Prinsipcə, bu cür dövlətlər, kommunistlərin iştirakı olmadan bitərəf hökumətlər kimi mövcud ola bilərdi. Belə bir məsələ, 4 mart 1946-cı ildə, Finlandiyada Prezident Karl Mannerheymin istefasından sonra həyata keçmişdi. Lakin, Sovet qoşunlarının olmadığı Finlandiyanın təcrübəsi, Şərqi Avropa ölkələrinə tətbiq edilməsi mümkün deyildi. Onlarda radikal dəyişikliklər üstünlük təşkil etmişdi.

Varşavada hakimiyyətin yenilənməsi, ən ağrılı dəyişikliklərdən biri olmuşdu.

Polşadakı qərbyönümlü qüvvələr çətin vəziyyətdə idilər. SSRİ, polyaklarda rəğbət hissi aşılamadı. Lakin, Polşa kəndliləri Almaniyadan alınan yeni torpaqları mənisəməyə başladılar. 30 iyun 1946-cı ildə, solçu hökumət referendum təşkil etdi, burada sənayenin milliləşdirmə proqramı təsdiq edildi. Ölkədə torpaq islahatı aparıldı. Bu islahata görə qərbdə olan yeni torpaqlar pay bölgülərinin hesablanmasına daxil edilirdi. Alman əhalisinin deportasiya edildiyi ərazilərdə məskunlaşan kəndlilər, kommunist hökumətindən evlər, əşyalar, mülkiyyət və əkin sahələri alırdılar. Bu addımla, onlar qərbi Polşa sərhədlərinin toxunulmazlığını qorumaq üçün, burada yerləşən əhalinin bu ərazidə yaxşı yaşaması üçün onların maraqlarını önləməyə başladılar.

Bu zaman, Qərb dövlətləri, sanki məqsədyönlü olaraq, polyakların anti-Qərb şübhələrini qızışdırmaq üçün hər vasitələrdən istifadə edirdilər. İngilis və amerikalı siyasətçilər, Polşanın qərbdəki sərhədlərinin qanuniliyini təsdiqləməkdən çəkinərək, onların qeyri-dəqiqliyini vurğulayırdılar. Qanuni olaraq, bu cür açıqlamalar Potsdam müqavilələrinə zidd deyildi. Lakin bu, Polşa əhalisinin gözündə Qərbin nüfuzuna

xələl gətirirdi. Çünki onlar, Vaşinqton və Londonun Yalta və Potsdamdakı güzəştlərini "geri götürəcəklərindən" qorxurdular. Yalnız, Moskva, Polşa sərhədlərinin son hüdudları haqqında qəti bəyanlar edərək, Polşaya verilən ərazilərdən almanların çıxarılması məsələsini dəstəkləyirdi. Polşa solçuları ictimaiyyətin qorxusundan istifadə etməyə başladı. Qərb meylli partiyalar üçün seçki proqramlarını hazırlayıb qurmaq xeyli çətinləşdi.

Hökümətin cəza tədbirləri ilə kommunist olmayan qüvvələr üçün vəziyyət daha da çətinləşdi. 1946-cı ildə, gizli anti-hökumət qüvvələri ilə əlaqədə olmaq ittihamı ilə, 17 nəfər mülayim və mərkəzçi ictimai xadim və siyasətçi həbs edildi. Prosesdəki əsas müttəhimlərlə yanaşı, bölgələrdə minlərlə yerli liderlər həbs olundu

Polşa Kəndli Partiyası 1946-cı ilin payızından başlayaraq, sistemli təzyiqlərə məruz qaldılar. Onların yığıncaqları Kommunist Partiyası dəstələri tərəfindən dağıdılırdı və kənd yerlərində PKP fəalları həbs olunurdu.

19 yanvar 1947-ci ildə, seym seçkilərində, Polşa siyasi dalğasında qeyri-kommunistlərin mərkəz qüvvəsi sayılan S.Mikolayçikin partiyası məğlub oldu. və kommunistlər blokunun qazandığı 394 əleyhinə 28 Seçkilərdə onlar, sosialistlər yer qazana bilmişdilər. Kommunist Partiyasının liderlərindən biri Boleslav Berut Polşa Prezidenti seçildi.

14 sentyabr 1947-ci ildə, Polşa hökuməti Vatikanla konkordatı ləğv etdi. Ölkədə dövlətlə katolik kilsəsi arasında münaqişə başlandı.

Polşadakı hadisələr, SSRİ-nin Şərqi Avropadakı niyyətləri ilə əlaqədar Qərbin ehtiyatlılığının artmasına səbəb oldu. Qərb, Polşada keçirilən seçki nəticələrini tanımadı. Şərqi Avropada kommunistlərin fəaliyyətlərini müşahidə edən Qərb dövlətləri, öz ölkələrində kommunistlərə qarşı cəza tipli tədbirlərin keçirilməsinə istiqamətlənirdilər.

## 3.Mərkəzi və Şərqi Avropa ölkələrinin kommunistləşməsi (1947-49-cu illər)

### 3.1. Şərqi Avropa ölkələrində siyasi dəyişikliklər

Macarıstan, Polşa və Rumıniyanın Qərb dövlətləri tərəfindən diplomatik tanınması və sonra "Marşal planı"na görə Qərb ilə münasibətlərin pisləşməsi, Moskvanın Şərqi Avropa ölkələrinin kommunist partiyalarının inqilabçı mahiyyətinin qarşısını almaq siyasətindən imtina etməsinə səbəb oldu. Birləşmiş Ştatların Qərbi Avropada Sovet dövlətinin təsirinin genişlənməsinə imkan verməyəcəyini başa düşən Sovet rəhbərliyi, Şərqi Avropanın kommunistləşməsinin tamamlanmasına kömək etmək qərarına gəldi.

Rəqiblərini zəiflətmək üçün, Kommunist Partiyaları daxili işlər orqanlarında və digər güc strukturlarında əldə edə bildikləri rəhbər mövqelərinə arxalanırdılar. Çoxpartiyalı sistem formallığa çevrilirdi. Qeyri-kommunist partiyaların mövqelərini onların daxilində parçalanma yaratmaqla yanaşı, müxalifətə qarşı dövlətə sui-qəsd hazırlamaq kimi, uydurma ittihamlar irəli sürməklə dağıdırdılar. Belə proseslər, Bolqarıstanda (Bolqar Xalq Əkinçilər İttifaqının müxalif qanadının lideri Nikola Petkov ittiham olundu və edam edildi), Rumıniyada (Milli Tsaranist Partiyasının lideri YulioManiu ömürlük həbs cəzasına məhkum edildi və partiya ləğv edildi) Macarıstanda baş verdi. 1947-ci ilin may ayında, Macarıstanın Baş Naziri F.Nadinin, növbəti "sui-qəsd"i ifşa edildikdən sonra, o, İsveçrədən vətəninə qayıtmaqdan imtina etdi. Polşa Baş Nazirinin keçmiş müavini S.Mikołayçik mühacirət etmək məcburiyyətində qaldı. Kommunistlərlə birləşmək istəməyən Sosial Demokratları öz partiyalarını buraxmağa məcbur edərək, liderlərini mühacirətə göndərdilər.

1947-ci ilin payızında, Çexoslovakiya və Macarıstan istisna olmaqla, Şərqi Avropa ölkələrində kommunistlər hökumət siyasətinin istiqamətini müəyyənləşdirirdilər.

22 sentyabr 1947-ci ildə, Polşanın Şklyarsk Poremba kurort şəhərində, I.V.Stalin və I.B.Titonun təşəbbüsü ilə, Avropa dövlətlərinin doqquz kommunist partiyasının (SSRİ, Yuqoslaviya, Polşa, Çexoslovakiya, Rumıniya, Macarıstan, Bolqarıstan, Fransa və İtaliya) nümayəndələrinin iştirakı ilə keçirilən müşavirədə, Kommunist Partiyalarının Məlumat Bürosunun ("Kominform") yaradılması haqqında qərar qəbul olundu. Müşavirədə Y.A.Jdanov "Beynəlxalq vəziyyət haqqında" məruzə ilə çıxış edərək, beynəlxalq aləmdə iki düşərgənin- bir tərəfdən "imperialist və anti-demokratik düşərgənin", digər tərəfdən isə “anti-imperialist və demokratik düşərgənin”- qarşıdurması haqqında tezisini geniş şərh etdi. Bu tezis Kommunist Partiyalarının nümayəndələri tərəfindən bəyənildi.

Bu görüş haqqında mətbuata məlumat yalnız oktyabrın əvvəlində verildi. "Kominform"un qərargahı və "Möhkəm sülh naminə, xalq demokratiyası naminə!" qəzetinin redaktorluğu Belqrad şəhərində yerləşdirildi. "Kominform"-un əsas vəzifəsi Kommunist partiyalarının Moskvadan həyata keçirilən səmərəli idarə olunması idi. Əslində, "Kominform", 1943-cü ildə dağılmış Kominternin dəyişdirilmiş bir forması idi. Bu, yalnız Şərqi Avropada kommunizmin möhkəmlənməsi yolunda bir addım deyil, eyni zamanda Sovet təsiri ilə, Qərbi Avropa ölkələrinin sosialist və kommunist partiyalarını istiqamətləndirmək üçün bir vasitə idi.

## 3.2 Çexoslovakiyada dövlət çevrilişi

Şərqi Avropada İ.V.Stalinə rəğbət azalmış idi. Ancaq, ona etibar etməyən mülayim bölgələr də, onun müharibədən sonra islahatların və seçkilərin liberallaşmasını keçirəcəyinə inanırdılar. Çexoslovakiya Prezidenti E.Beneş məhz belə mühakimə yürüdürdü. Təcrübəli bir siyasətçi kimi, ölkədəki vəziyyəti dərk edən və 1929-1933-cü illər böhranını davam gətirən Çexoslovakiyada, "ideal" demokratiya nəzəriyyəsinin həyata keçirməyin mümkün olmayacağını başa düşürdü. E.Beneş, güclü hakimiyyətlə demokratiyanın ağlabatan birliyini tapmağa meylli idi. Demokratiya və siyasi səmərəlilik arasında seçim etmək lazım idi. E.Benes ikinci istiqamətə üstünlük verdi.

Çexoslovakiya kommunistləri qatı məslək pərəst deyildilər. Baş Nazir K.Qotvald kommunist idi, lakin o, proletariatın diktaturasından yan keçərək, həm Sovet İttifaqı, həm də Qərblə əməkdaşlığı inkişaf etdirməklə, sosializmə getməyin mümkün olduğunu qəbul edirdi. 1947-ci ilin ortalarından etibarən, Şərqi Avropada Çexoslovakiya hökuməti xarici siyasət məsələlərində ən çevik dövlət sayılırdı.

Moskva, Praqaya güclü təzyiq göstərməyə başladı. Moskvanın təzyiqi altında artan sosialist dəyişiklikləri, hökumət böhranına səbəb oldu. Bu böhran, kommunistlərin silahlı və kütləvi etirazları ilə daha da mürəkkəbləşirdi. Xarici İşlər naziri Yan Masarikın müəmmalı ölümündən sonra, demokratik Çexoslovakiyanın taleyi təhlükə altına düşdü.

Çexoslovakiyada dövlət aparatının təmizlənməsi və kommunistlərə qarşı çıxmağa çalışan partiyaların "yenidən qurulması" başlandı. Sosial Demokrat Partiyası, Kommunist Partiyası ilə birləşməyə məcbur oldu. Prezident E.Beneş, solların təzyiqi altında, o dövrdə qəbul edilən ölkənin yeni konstitusiyasına öz imzasını qoymaqdan imtina edərək, istefa verdi. Çexoslovakiyanın Prezident vəzifəsinə K.Qotvald gəldi.

Qərb ədəbiyyatında, 1948-ci ilin fevral böhranının Qərbi Avropa ölkələri və ABŞ üçün gözlənilməz və qəfil olduğu və Çexoslovakiya ictimaiyyətinin kommunistlərə müqavimət göstərməsi cəhdlərinin olmaması fikri qeyd olunurdu. ABŞ, Praqada olan çevriliş xəbərini təəssüflə qarşıladı. Onsuz da, Amerika Birləşmiş Ştatları və İngiltərənin əməli olaraq, heç nə edə bilməyəcəkləri və etməyəcəkləri tam aydın idi.

## 3.3. Sovet – Yuqoslaviya münaqişəsinin yaranması

Kominform qərargahının Belqradda yerləşməsi, Yuqoslaviya Kommunist Partiyasının və I.B.Titonun Kommunist Partiyaları və Şərqi Avropa liderləri arasında tutduqları xüsusi nüfuzuna kölgə saldı. Müharibə zamanı, I.B.Tito təkcə

Sovet İttifaqının deyil, Qərb ölkələrinin də dəstəyi ilə müstəqil şəkildə döyüşə hazır silahlı qüvvələr yaratmağı bacarmışdı. Bütün şərqi Avropa kommunistlərindən ancaq I.B.Tito, qazandıqlarına görə I.V.Stalinə özünü borclu saymırdı. Onun üçün, digər Şərqi Avropa hökumətlərinin liderlərindən fərqli olaraq, ABŞ və İngiltərə tərəfindən diplomatik tanınma problemi mövcud olmamışdı.

Yuqoslaviya Kommunist Partiyasının lideri, Balkanlarda nüfuz məsələləri ilə əlaqədar, SSRİ və Qərb dövlətlərinin müharibə illərində kiçik ölkələrin arxasında bağladığı razılaşmalardan qaçmışdı. Lakin, Belqrad Sovet İttifaqının dünya kommunist hərəkatındakı rəhbərliyini danmamışdı və həmişə I.V.Stalinə hörmətini bildirirdi. Eyni zamanda, Yuqoslaviyanın rəhbərliyi sosial-iqtisadi islahatlar - sənaye və bankların milliləşdirilməsi, özəl sektorun məhv edilməsini həyata keçirmişdi. Yuqoslaviya, digər xalq demokratiya ölkələri ilə birlikdə, "Marşal planı"nda iştirak etməkdən imtina etmişdi.

Belqrad və Moskva arasındakı açıq münaqişəyə səbəb, I.B.Tito və Bolqarıstan Kommunistlərinin lideri G.Dimitrovun Balkanlarda Cənubi slavyanlar federasiyasını yaratmaq niyyətləri oldu. Makedoniya ilə bağlı, Bolqarıstan-Yuqoslaviya ziddiyyətləri nəzərə alınsa, federasiya ideyası, iki ölkə arasındakı etno-ərazi qarşıdurmanın əməkdaşlıq yolu ilə həll edilməsi üsulu idi. Bolqarıstan-Yuqoslaviya federasiyası, digər Balkan və Dunay ölkələrini birləşdirmək üçün cəlbedici ola bilərdi. Avropanın diplomatik dairələrində, Orta Avropanı Cənub-Şərq ərazisi ilə birləşdirən su yolu olan Dunay üzərində çoxtərəfli konvensiyanın bağlanması məsələləri müzakirə edilirdi. Federasiyanın layihəsi, Balkan-Dunay əməkdaşlığının miqyasına qədər genişlənsə idi, Şərqi Avropa siyasətinin mərkəzi Yuqoslaviyaya keçəcək və "sosialist düşərgəsi"ndə ikimərkəzlik yaranacaq idi. Bu, isə Moskvanı qane etmirdi.

Əvvəlcə, SSRİ G.Dimitrovun yumşaq, mahiyyətcə konfederasiya olan, federasiya təklifini dəstəklədi. Bu layihəyə görə, Bolqarıstan və Yuqoslaviya federasiyanın bərabər hissələri olurdular. Lakin, I.B.Tito daha sərt bir layihəni - vahid dövlətin yaranmasını təkid edirdi.

1947-ci ilin ortalarından, Sovet nümayəndələri, Yuqoslaviyanın liderlərini digər kommunist partiyaları arasında özlərini müstəsna mövqe tutmağa çalışmaqda ittiham etməyə başladılar. İki ölkə arasında ixtilaf başlandı.

Bununla belə, Balkan Federasiyasının təşəbbüskarları öz ideyalarını genişləndirirdilər. G.Dimitrov və I.B.Tito, Rumıniya, Macarıstan, Albaniya və Yunanıstan da (burada kommunist sistemin qələbəsi olardısa) daxil olmaqla, bütöv Balkan birliyi haqqında danışmağa başladılar. G.Dimitrov, hətta Polşa və Çexoslovakiyanın bura daxil olmasını da mümkün hesab edirdi. Belqrad və Sofiya,

böyük dövlətlər arasında, Balkanların təsir sahələrinə bölünməsi ilə bağlı razılaşmalara qarşı çıxmışdılar.

10 fevral 1948-ci ildə, Yuqoslaviya və Bolqarıstan rəhbərləri Moskvaya dəvət edildi, orada SSRİ ilə razılaşdırılmayan xarici siyasət yürütməyin yolverilməz olduğu bildirildi. İ.V.Stalin və I.B.Tito arasında olan söhbətin tonu sonuncu üçün təhqiramiz oldu. G.Dimitrov təzyiqə güzəştə getdi, lakin I.B.Tito öz fikrindən dönmədi. Bir neçə ay məxfi məktub mübadiləsindən sonra, I.V.Stalin məsələnin Kominformun müzakirəsinə verilməsini tələb etdi. 28 iyun 1948-ci ildə, Buxarestdə keçirilmiş Kominformun iclasında Yuqoslaviya Kommunist Partiyasında olan vəziyyətlə bağlı qətnamə qəbul edildi. Yuqoslaviya Kommunist Partiyası "Kominform"dan çıxarıldı. "Kominform" liderləri Yuqoslaviya Kommunist Partiyasındakı "sağlam qüvvələrə" I.B.Titonu əvəz etmək tələbi ilə müraciət etdilər. Yuqoslaviya Kommunist Partiyası bu qətnaməni rədd etdi. Sovet-Yuqoslaviya münasibətləri pisləşməyə başladı. Moskva, Belqrad ilə ticarət əlaqələrini kəsdi və Yuqoslaviyada olan iqtisadi məsləhətçiləri geri çağırdı.

### 3.4.İkinci dünya müharibəsindən sonra SSRİ-nin daxili– siyasi vəziyyətinin beynəlxalq vəziyyətə təsiri

İkinci dünya müharibəsi illərində total nəzarət obyektiv şəkildə mümkün deyildi. Nasizm üzərində qələbə ictimai şüurlara təsir etdi və Stalin hakimiyyətinin ən amansız xüsusiyyətlərindən psixoloji inkar edilməsi üçün zəmin hazırladı. Mərkəzi və Şərqi Avropa dövlətlərində sovet ordusunun uzun müddət qalması insanlara mənfi təsir göstərirdi.

İctimai əhval-ruhiyyədə yaranan narazılıq əlamətləri Kremldə də hiss olunurdu. Sovet cəmiyyətinin "mənəvi və siyasi birliyinin" zəifləməsinin qarşısını almaq üçün, 1940-cı illərin sonlarında, Stalin rəhbərliyi yenidən siyasi cəza tədbirlərinə əl atdı. Lakin, onların əhatə dairəsi 1930-cu illərdəki terrorun miqyasına çatmırdı.

Müharibədən sonra, SSRİ-də cəza tədbirləri dalğasının başlanğıcı, 1946-cı il avqustun 14-dən hesab olunur. Lakin, bu tarixdən əvvəl, həbs olunmuş əsgərlər olan ilk qatarlar 1945-ci ilin mayında, cəbhədən həbs və əmək düşərgələrinə göndərilmişdi.

1946-cı ildə, SSRİ-də meydana çıxan "Qənimət işi" və ya "Generallar işi" (1946-1948) - V.V.Abakumovun fəal iştirakı ilə SSRİ-nin dövlət təhlükəsizlik orqanlarının I.V.Stalinin şəxsi göstərişi ilə başlanılan və generallar arasında sui-istifadə hallarının aşkarlanmasına yönəlmiş mühakimə tədbirləri idi. Müharibə sona çatdıqdan sonra, İ.V.Stalinə, onların Almaniyadan qənimət kimi qiymətli əşyalar, minik maşınları və ev əşyaları(mebellər) gətirmələri haqqında məlumatlar verilmişdi.

1954-cü ildə edam olunmazdan əvvəl məhkəmədə etdiyi son çıxışında Abakumov təkidlə demişdi: "... Mən özüm heç nə etməmişəm. Stalin təlimat verirdi, mən də onlara əməl edirdim ".

SSRİ-nin yüksək rütbəli zabitləri-- Sovet İttifaqı Marşalı Q.K. Jukov, General polkovniklər İ.A. Serov və V.N.Gordov; general-leytenantlar- V.Q.Terentyev, K.F.Telegin, L.F.Minyuk,V.V. Kryukov və Q.İ.Kulik; general mayorlar- F.T.Rıbalçenko, A.M.Sidnev, Q.A.Bejanov və S.A.Klepov bu iddiada şübhəli bilinirdilər.

Jukova qarşı istintaqın başlanmasının səbəblərindən biri də 1946-cı ilin aprelində "aviasiya işi" ilə əlaqədar həbs edilmiş marşal A.A.Novikovun ifadəsi və SSRİ Silahlı Qüvvələri nazirinin birinci müavini N.A. Bulqaninin Stalinə marşalın öz şəxsi istifadəsi üçün Almaniyadan xeyli miqdarda mebel, sənət əsəri və digər qənimət mülkü götürdüyünə dair məlumatı idi. Onun məlumatına görə, Yagodinsky gömrüyündə (Kovel şəhəri yaxınlığında) Marşal Q.K.Jukova məxsus 85 qutu mebel olan 7 vaqon saxlanılmışdı.

Dəlil əldə etmək üçün Q.K.Jukovun köməkçiləri - Semoçkin və həmçinin N.P.Kurqan həbs olundu, Sonradan, 12 yanvar 1948-ci ildə, Jukov bu mülkü necə və harada aldığına dair Sov.İKP (b) Mərkəzi Komitəsinə A.A.Jdanova məktub yazdı. Q.K Jukov, əmlakın əhəmiyyətli bir hissəsinin ona bağışlandığını, digər hissəsinin öz maaşına alındığını yazdı. Ancaq müstəntiqlər buna əmin deyildilər.

1950-ci ilin avqustunda Kulik, Qordov və Rıbalçenko güllələndilər. Telegin, Kryukov, Terentyev və Minyuka qarşı ittiham olunan işlərə 1951-ci il noyabrın əvvəllərində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası baxdı. Müvafiq olaraq, hər biri 10 il və 25 il arasında olan müddətə mühakimə olunaraq həbs düşərgələrinə göndərildilər.

"Qənimət işi" nəticəsində, 1946-cı ildə Q.Jukov SSRİ Quru Qoşunları Baş komandanı vəzifəsindən çıxarıldı və əvvəl Odessa hərbi dairəsinin, daha sonra Ural hərbi dairəsinin komandiri vəzifəsinə təyin edilmişdi.

Elə həmin illərdə, tənqidçi-yazıçı M.M.Zoşenko və şairə A.A.Axmatova mətbuatda təzyiqlərə məruz qalmışdılar. Onlar, SSRİ Yazıçılar İttifaqından qovuldular. Bu yazarların təqibləri, ümumittifaq tədbirlərə çevrildi. Bu tədbirlər dövründə onların yazıları səs-küylə qarşılanırdı, mədəni məsələlərdə rəsmi partiya xəttindən kənara çıxmağın ən kiçik bir işarəsi tamamilə rədd edilirdi.

1947-ci ilin iyununda, sosialist əmlakının mənimsənilməsinə qarşı mübarizənin gücləndirilməsi haqqında fərman qəbul edildikdən sonra, oğurluqda günahlandırılan yüz minlərlə insan ittiham olundu və həbs düşərgələrinə göndərildi. Məhbusların

içərisində, tarlada yerə düşmüş sünbülləri götürən yarımac kəndlilər və ya tikiş fabrikindən bir iplik sap çıxardan fəhlələr də var idi.

1948-ci ildə SSRİ-də, öz xarakterinə görə, ən gözlənilməz olan, fikir ayrılıqlarına qarşı mübarizə tədbirlərinin başlanması idi. Bu tədbirlər, "Qərb dövlətlərinin qarşısında təzim etmək" əleyhinə mübarizənin elan edilməsi ilə başlandı. Qərb dövlətlərinin texniki, iqtisadi, mədəni nailiyyətləri haqqında, xüsusilə, Qərb dövlət sistemindən müsbət danışmaq çox təhlükəli idi. Bu tədbirlərdə yeni fikirlər ortaya çıxarıldı - "burjua millətçiliyi" və "kosmopolitizmə" qarşı mübarizə də başlandı. Bu "pisliklərin" daşıyıcılarının yəhudi əsilli şəxslər olduğu bildirilirdi. 1948-ci ilin sentyabrında, İsrail dövlətinin ilk səfiri Qolda Meyerson (Qolda Meir) SSRİ-yə gəldikdən sonra, Moskvada İsraili dəstəkləmək üçün kortəbii yürüşlər keçirildi. Bu mitinqlər məzmunca anti-sovet olmasa da, Sovet rəhbərliyi bu təşəbbüsün yayılması ehtimalından şübhələnməyə başladı. Onlara cavab tədbiri, yəhudilərə qarşı təqiblərin başlanması oldu. Əvvəllər I.V.Stalinin rəğbət bəslədiyi məşhur sovet publisisti I.Q.Erenburq "Pravda" qəzetinin redaksiyasından qovuldu. 1948-ci ilin noyabrında, Sovet hökumətinin təşəbbüsü ilə, 1941-ci ildə yaradılmış Yəhudi Antifaşist Komitəsinin məsələsi ilə bağlı ittiham uyduruldu. Bu komitə dağıdıldı və rəhbərləri həbs olundular, sonra onların bəziləri güllələndi, qalanları uzun müddətə azadlıqdan məhrum edildilər.

Bu proses unudulmamış, 1948-ci ilin dekabrında, Leninqrad vilayətinin rəhbərlərinə və Moskvaya işləməyə gələn leninqradlılara qarşı "Leninqrad işi" üzrə məhkəmə prosesi başladı. Məhkəmə prosesi, 1950-ci ilin sentyabrına qədər davam etdi və altı təqsirləndirilən şəxsin, o cümlədən Dövlət Plan Komitəsinin sədri N.A.Voznesenskiyə, RSFSR Nazirlər Sovetinin Sədri M.I.Rodionova və Sov.İKP MK katibi A.Kuznetsova ölüm hökmlərinin verilməsi ilə sona çatdı. Bundan əlavə, 200-dən çox insan, o cümlədən əsas müttəhimlərin ailə üzvləri də "Leninqrad işi"ndə cəza verilməsinə məruz qaldılar. Bu, tamamilə uydurulmuş bir iş idi, Stalinin ölümündən sonra, bu işin qurbanları bəraət aldılar. 1953-cü ilin yanvarında, "qatil həkimlər işi" başlandı, lakin 5 mart 1953-cü ildə Stalinin ölümü səbəbindən sona çatdırılmadı.

SSRİ-də baş verənlər, Şərqi Avropa ölkələrinin daxili siyasi vəziyyəti üçün, bir növ nümunə oldu. Birpartiyalı kommunist hakimiyyətlərinin qurulmasından sonra, Mərkəzi və Şərqi Avropa ölkələri arasında siyasi münasibətlər "partiya-dövlət modeli" əsasında qurulmağa başlandı. Hakim partiyaların və dövlətlərin siyasi xəttləri tam eyni idi. Xalq demokratiyası ölkələri arasında olan münasibətlərə dair ən vacib qərarlar, şəxsən İ.V.Stalin tərəfindən verilirdi. Moskva, xüsusilə hərbi məsələlərdə, asılı- tərəfdar dövlətlər üzərində ciddi nəzarət həyata keçirirdi. İlk

vaxtlar, yeni zabit heyətinin əksər hissəsi sovet kadrlarından ibarət idi. Xüsusilə, Polşanın Müdafiə naziri - SSRİ Marşalı K.K.Rokossovski idi. Bu, Şərqi Avropa ölkələrinin silahlı qüvvələrinin həm müharibə zamanı baş vermiş itkiləri, həm də köhnə yerli hərbi nümayəndələrindən təmizləməyin zəruriliyi ilə izah edilirdi.

Şərqi Avropa ölkələrində, kommunist hakimiyyətinin qurulmasında mühüm amil siyasi cəza tədbirləri və əks düşüncəliləri təmizləmək idi. Sovet-Yuqoslav münaqişəsi bu prosesi xüsusilə stimullaşdırdı. "Titoçuların" həbs olunan qurbanları və kommunizmin milli modellərinin tərəfdarları olan partiya və dövlət xadimləri— Lukretsiu Patraşkanu (Rumıniya), Laslo Rayk (Macarıstan), Trayço Kostov (Bolqarıstan), Koçi Dzodze (Albaniya) idi. Polşada "milli sağçıtəmayül"ə görə, hakim Polşa Fəhlə Partiyasının Mərkəzi Komitəsinin Baş katibi Vladislav Qomulka öz vəzifəsindən uzaqlaşdırıldı və ev dustaqlığına məhkum oldu. Çexoslovakiyada ÇKP-nin Mərkəzi Komitəsinin Baş katibi Rudolf Slanski cəza tədbirinin qurbanı oldu. Onun və digər bir neçə təqsirləndirilən şəxslərin (Xarici İşlər naziri Vladimir Klementis də) mühakiməsi antisemitizm (əsas təqsirləndirilənlər yəhudilər idi) ittihamı ilə aparılmışdı. Bu proses ilə, eyni vaxtda, Sovet İttifaqında da oxşar kampaniyanın aparılması təsadüfi deyildi. 1952-ci ildə, Rumıniyada Vasile Luka və Anna Pauker də həbs edilmişdi. Öz növbəsində, Yuqoslaviyada Stalinlə olan ixtilaf, "titoçuların" SSRİ və Şərqi Avropa ölkələrində təqib edilməsinə və öz növbəsində, İ.B.Tito tərəfdarlarının birbaşa təhriki ilə həyata keçirilən, kominformistlərin sıxışdırılmasına səbəb oldu.

SSRİ və Şərqi Avropadakı cəzalandırmalar, Sovet İttifaqının nüfuzuna mənfi təsir göstərdi, Qərbdə, sosialist ölkələrinin hökumətlərinin xarakteri ilə bağlı ən pis qorxuları təsdiqləmiş oldu. 1940-cı illərin sonlarında, SSRİ-yə olan rəğbətlər mənfi münasibətlərlə əvəz olundu. Ona uyğun olaraq, Sovet İttifaqı "izah olunmaz təcavüzkar", güclü və təhlükəli dövlət kimi təqdim olunurdu. Qərbdə, belə bir ölkə ilə tərəfdaşlıq haqqında danışmaq, öz fikrini bildirməyə cəsarət etmək, hər bir kəsin nüfuzuna xələl gətirə bilərdi. Qərbin ictimai rəyinin norması, ehtiyatlı və şübhə ilə yanaşmaq olmuşdu. Eyni zamanda, Qərb, SSRİ-də baş verənlərə və sovet rəhbərlərinin təkliflərinə, laqeyd və istehza ilə yanaşırdı.

### 3.5.Qarşılıqlı İqtisadi Yardım Şurasının yaranması

Moskvaya birbaşa təzyiq göstərə bilməyən Qərb ölkələri, ondan asılı tərəfdarlarını sıxışdırmağa başladılar. Xalq demokratiya ölkələrinin qeyri-kommunist dünyası ilə əlaqələri məhdud bir xarakter daşıyırdı. SSRİ ilə ixtilafı yaranan Yuqoslaviya istisna təşkil edirdi. Bolqarıstan, Macarıstan, Rumıniya və Albaniya 1955-ci ilə qədər, BMT-yə üzv ola bilmədi. Qərb onları sülh müqaviləsinin

insan hüquqlarının təmin edilməsinə aid müddəalarını pozmaqda ittiham edirdi. 1971-ci ilə qədər, ADR tam beynəlxalq tanınmaya nail ola bilmədi: K.Adenauerin idarəçiliyi dövründə "Halsteyn doktrinası" qəbul edildi, belə ki, Bonn ADR-i tanıyan ölkələrlə diplomatik münasibətlər yaratmaqdan imtina edirdi.

1948-ci ilin sonlarında, ABŞ-da, sosialist ölkələrinə ixracı məhdudlaşdıran xüsusi qanunvericilik qəbul edildi. 1950-ci ildə, sosialist ölkələrinə olunan ixracı nəzarətdə saxlamaq üçün, NATO-nun Koordinasiya Komitəsi (KOKOM) yaradıldı. Bu komitənin məqsədi, strateji malların və texnologiyaların bu ölkələrə verilməsinin qarşısını almaq üçün görüləcək tədbirləri razılaşdırmaq idi.

SSRİ-nin və xalq demokratiyası ölkələrinin, "Marşal planı"ndan imtina etməsi, onlara iqtisadi alternativ axtarışı vəzifəsi qoymuşdu. İkinci dünya müharibəsi illərində, Mərkəzi və Şərqi Avropa ölkələri böyük itkilər vermişdilər, onların vəziyyəti yeni hakimiyyətlərin köklü tədbirləri (məcburi sənayeləşmə, kiçik sahibkarlığın ləğvi) nəticəsində daha da ağırlaşdı. Yeni iqtisadi quruluşun formalaşması, ikitərəfli əməkdaşlıqdan çoxtərəfliyə keçilməsini tələb edirdi.

Bu məsələnin həll edilməsi vəzifəsi, 1949-cu ilin yanvarında yaradılan Qarşılıqlı İqtisadi Yardım Şurasına (QİYŞ) həvalə olundu. Yuqoslaviyadan başqa, Avropanın bütün sosialist ölkələri onun iştirakçıları oldu. 1960-cı illərdən, Belqrad da, QİYŞ-in bəzi qurumlarının işində iştirak etməyə başladı. 1950-ci ildə, ADR QİYŞ-ə qoşuldu və sonradan Monqolustan, Vyetnam və Kuba da ona daxil oldular. QİYŞ-ın vəzifələrinin arasına iqtisadi təcrübə mübadiləsi, texniki mübadilə, xammal, maşın və avadanlıq, habelə qida məhsullarının qarşılıqlı tədarükünün təşkili daxil idi. İlk on ildə xarici ticarət, QİYŞ ölkələri arasında iqtisadi əməkdaşlığın əsas sahəsi olaraq qalmışdı. 1950-ci illərin ortalarında, istehsalda ixtisaslaşma və əməkdaşlığın inkişafı üçün tədbirlər görülməyə başlandı. 1962-ci ildə, QİYŞ İcraiyyə Komitəsi yaradıldı və müxtəlif orqan və komissiyaların iclasları müntəzəm olaraq keçirilirdi. Birgə razılaşdırılmış məqsədlər, qərarlar və proqramlar əsasında, QİYŞ çərçivəsində iqtisadi əməkdaşlığı həyata keçirmək mümkün olurdu. Razılaşdırılmış qarşılıqlı məhsul təchizindən başlayaraq, QİYŞ iştirakçıları istehsalın, elmin və texnikanın bütün sahələrini əhatə edən iqtisadi əməkdaşlığın daha yüksək formalarına keçmişdilər.

Bu dövrdə, QİYŞ, eyni növlü iqtisadi mexanizmlərin formalaşması yolu ilə, bölgədə Sovet hakimiyyətinin üstünlüyünü möhkəmləndirmək üçün, iqtisadi məsələlərdən daha çox, siyasi vəzifələrlə məşğul olurdular. Beləliklə, 1950-ci illərin əvvəllərində, Qərbi Avropa dövlətlərinin iqtisadi və siyasi birliyinə qarşı, Sovet İttifaqının aparıcı rol oynadığı Şərqi Avropa dövlətlərinin birliyi yaradıldı.

### 4. Dünya sosializm sisteminin yaranması

Sosializmin gerçəkləşməsi və onun dünya sisteminə çevrilməsi XX yüzilliyin ən müühüm ümumdünya ictimai- siyasi hadisələrindəndir. O, ilk dəfə 1917-ci ildə Birinci dünya müharibəsi dövründə gerçəkləşmiş, İkinci cahan müharibəsindən sonra dünya sisteminə çevrilmiş və 74 il sonra iflasa uğramışdır

İkinci dünya müharibəsində SSRİ-nin qələbəsi Mərkəzi, Cənub-Şərqi Avropa və Asiya ölkələrində sovetpərəst qüvvələrin canlanmasına səbəb oldu. Sovet ordularının faşistlərdən azad etdiyi Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, Çexoslovakiya, Şərqi Almaniyada, SSRİ-nin dayaq durduğu Albaniyada, Yuqoslaviyada, Vyetnamda, Çində, Şimali Koreyada, bir neçə vaxt əvvəl Monqolustanda xalq demokratiyası inqilabları baş verdi. Onlarda tədricən kommunistlər hakimiyyətə gəldilər. Bu da həmin ölkələrdə xalq təsərrüfatının yüksək dərəcədə mərkəzləşdirilməsi və zora arxalanan partiya-dövlət bürokratiyasının yaradılması ilə səciyyələnən Stalin modelli siyasi, sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsi ilə nəticələndi.

Bu sözügedən ölkələrin tarixinə «xalq demokratiyası» dövrü kimi daxil olmuşdur. Bu dövr kommunist partiyalarının aparıcı rolu şəraitində köhnə siyasi strukturların saxlanılması və onları yeni orqanların — milli və ya xalq cəbhələrinin fəaliyyəti ilə uyğunlaşdırılması ilə səciyyələnirdi. Bu dövrdə siyasi plüralizmə, çoxpartiyalılığa imkan verilirdi. Lakin bunlar uzun çəkmədi. Burjua və xırda burjua partiyalarına, kommunistlərin Milli cəbhələrdəki müttəfiqlərinin mövqelərinə hücumlar genişləndirildi. Bu onların ləğv olunması (Macarıstanda, Rumıniyada) və ya ikinci dərəcəli mövqeyə sıxışdırılması ilə nəticələndi. Onlarda sosialist inqilabları keçirildi, proletariat diktaturası quruldu.

Bu inqilabın ikinci mərhələsi hesab olunurdu. Kommunistlərin idarə etdiyi hökumətlər qısa vaxt ərzində iqtisadi sahədə milliləşdirmə həyata keçirdilər. İqtisadiyyatda əsas yeri dövlət bölməsi tutdu. Bu təbii idi. Çünki həmin ölkələrdəki kommunist rəhbərlərin əksəriyyəti vaxtilə SSRİ-də yaşamış, Kominterndə işləmiş, buradakı Stalin modernləşdirilməsinin, Stalin sosializminin iştirakçıları olmuşdular və onu da həyata keçirirdilər. Onlar SSRİ təcrübəsinə əsaslanaraq sosialist islahatları, ağır sənayeyə üstünlük vermək şərti ilə sənayeləşdirmə və zorakı kollektivləşdirmə aparmağa başladılar. Bu tədbirlər Bolqarıstanda və Yuqoslaviyada faşizmdən azad olunduqdan dərhal sonra başlamışdısa, digər Cənub-Şərqi Avropa ölkələrində milli kommunist partiyaların bölünməz ağalığının tam oturuşmasından sonra həyata keçirilməyə başlamışdı.

Beləliklə, sosializmin dövlət modelinin bir ölkə hüdudlarından çıxaraq Mərkəzi, Cənub-Şərqi Avropa və Asiya ölkələrində yayılması «dünya sosializm sisteminin»

(DSS) meydana çıxmasının əsasını qoydu. 1959-cu ildə Kuba, 1975-ci ildə Laos bu sistemə daxil oldular. Artıq 70-cı illərin axırlarında dünya sosializm sisteminə 15 ölkə daxil idi. Yer kürəsi ərazisinin 26,2%, əhalisinin isə 32,3% onların payına düşürdü.

Qeyd edək ki, bu illərdə Yuqoslaviyada sosializm quruculuğu başqa formada-özünüidarəetmə sosializm modelində aparılırdı. O, müəssisə çərçivəsində əmək kollektivinə iqtisadi azadlıq verilməsində, kənd təsərrüfatında zorakı kollektivləşmə aparılmasından imtina olunmasında, əmtəə-pul münasibətlərindən geniş istifadə edilməsində özünü göstərirdi. Bu da, SSRİ ilə Yuqoslaviya arasında münasibətlərin soyumasına səbəb olmuşdu. Yuqoslaviya ilə münasibətlər Stalinin vəfatından sonra, əsasən 1955-ci ildən sonra tədricən normallaşmağa başladı.

Dünya sosializm sisteminin formalaşması tarixində 1949-cu ilin yanvarında yaradılmış Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) və 1955-ci ilin may ayında yaranmış Varşava müqaviləsi təşkilatı çox mühüm pillə olmuşdu. QİYŞ-a və VMT-ə Avropadakı (Yuqoslaviyadan başqa) sosialist ölkələri daxil idi. Həmin bloklara daxil olan ölkələr dünya “sosializm birliyi” (DSB) adlandırılırdı. Sonradan Monqolustan, Vyetnam və Kuba da bu təşkilata daxil olmuşdular. “Sosializm birliyinə” daxil olan ölkələr DSS-in dinamik inkişaf edən hissəsi idi. QİYŞ xətti ilə həmin ölkələrdə iqtisadi və elmi-texniki, VMT xətti ilə isə hərbi-siyasi əməkdaşlıq həyata keçirilirdi. Həmin ölkələrdə sosializm quruculuğunun Stalin modelindən daha ardıcıl istifadə olunurdu. Belə ki, onlarda tək partiyalılıq sistemi çərçivəsində bazar və xüsusi mülkiyyətçilik münasibətlərinin kökü əsasən kəsilmişdi.

Asiyadakı sosialist ölkələrindən Monqolustan, Vyetnam və Şimali Koreya öz şəraitlərinə uyğun olaraq sovet modelli totalitar sosializm cəmiyyəti qururdular. Stalin sosializmini əsas götürən Çin isə sosializmin ifrat yolu ilə, Mao yolu ilə getməyə başlamışdı. Hətta sosializmin “yaradıcı” Çin yolunu əsaslandırmağa çalışan Mao özünü marksizm-leninizm klassikləri (Marks-Engels-Lenin-Stalin-Mao Tsze Dun) sırasına daxil etmişdi. Çində uğursuz “Böyük sıçrayı”», “Mədəni inqilab” kimi sosializm qurmaq eksperimentləri həyata keçirilmişdi.

Amerika qitəsində Kuba ABŞ-in düşmən münasibətlərinə cavab olaraq SSRİ-nin onu qətiyyətlə müdafiə etdiyini nəzərə alıb sosializm qurmaq istiqamətini müəyyənləşdirmişdi. Beləliklə, dünya kapitalizm sisteminə qarşı duran dünya sosializm sistemi təşəkkül tapmışdı.

## BİRİNCİ FƏSİL -- III BÖLMƏ
## Beynəlxalq münasibətlərdə Güney Azərbaycan məsələsi (1941-1946-cı illər)

**1.Antihitlerçi koaliasiyanın İrana qoşun yeritməsi və onun hərbi -siyasi məqsədləri**
**2. Güney Azərbaycanda milli muxtariyyət uğrunda hərəkat və dünya siyasəti**
**3. Güney Azərbaycan məsələsinin müzakirəsi BMT müstəvisində**
**4.Sovet-İran münasibətlərində Güney Azərbaycan məsələsi**
**5.Azərbaycanın Milli hökumətinin İran hökuməti ilə danışıqları və beynəlxalq siyasət**

### 1. Antihitlerçi koaliasiyanın İrana qoşun yeritməsi və onun siyasi - hərbi məqsədləri

İkinci dünya müharibəsi beynəlxalq münasibətlərdə və müstəmləkə zülmü altında inləyən xalqların həyatında dönüş yaratdı. Müharibənin gedişində yaranan və güclənən antifaşist hərəkatı xalqların milli-azadlıq mübarizəsinə təkan vurdu. Dünyanın böyük dövlətləri yaranmış yeni siyasi şəraitdə xalqların milli-azadlıq mübarizəsini müdafiə etsələr də onun arxasında özlərinin dərin siyasi, iqtisadi və hərbi-strateji mənafelərini güdürdülər. Dünya müharibəsinin gedişində milli-azadlıq mübarizəsinə qoşulanlardan biri də XIX əsrdə işğalçı müharibələr nəticəsində iki yerə bölünmüş Azərbaycan xalqı idi. İkinci dünya müharibəsinin gedişində sovet qoşunlarının beynəlxalq hüquq normalarına zidd olaraq İrana yeridilməsi ilə Moskva özünün geosiyasi mənafeləri uğrunda mürəkkəb və çoxbaşlı oyuna başladı. Moskvanın bu addımı rus imperiyasının tarixi ənənələrə söykənən zorakılıq və hərb siyasətinin nümayişi idi.

Faşist Almaniyası Sovet İttifaqına hücum etdikdən dərhal sonra - iyunun 22-də İngiltərə, iyunun 24-də isə ABŞ Moskvaya yardım edəcəklərini bildirdilər. İngiltərənin Baş Naziri U.Çörçil, 1941-ci il avqustun 30-da İ.Stalinə göndərdiyi məktubunda yazırdı ki, “neft mənbələrini mühafizə etmək məqsədilə bizim İrana girməyimiz və Hindistandan gətirilən məhsulları daşımaq üçün İran körfəzindən Xəzər dənizinə qədər olan dəmir yolunu yenidən qurmağımız və onun fasiləsiz işini təmin etməyimiz vacibdir. Lakin yaxşı olardı ki, həm biz, həm də siz Tehrana indi daxil olmayaydıq”. Amma Stalinin göstərişi ilə sovet qoşunları artıq avqustun 25-də Güney Azərbaycan ərazisinə yeridilmişdi. İngiltərə həmin ilin sentyabrında İrana öz

qoşunlarını göndərdi. Moskvanın bu addımı qonşu dövlətə qarşı hərbi təcavüz idi. O, tarixən olduğu kimi yenə də zorakalığa və hərbə arxalanırdı.

Sovet dövlətinin atdığı bu addım onun iqtisadi, siyasi və hərbi mənafeləri ilə bağlı idi. Sovet dövlətinin bu regionda iqtisadi mənafeləri vardı. 1921-ci il 26 fevral tarixli Rusiya-İran müqaviləsi ilə Moskva əvvəllər Rusiyaya verilmiş neft, dəmiryol və filiz mədənləri konsessiyalarından imtina etmişdi. Lakin, burada belə bir şərt də müəyyənləşdirilmişdi: Müqavilənin 13-cü maddəsində nəzərdə tutulmuşdu ki, İran dövləti bu konsessiyaları üçüncü dövlətin və onun vətəndaşlarının sərəncamına verməyəcəkdir. Bu maddə ilə Rusiya strateji niyyətlər güdərək İranın ərazisindən ona qarşı istifadə edilməməsinə çalışırdı. Moskvanın qəti etirazları nəticəsində 1922-ci ildə İran tərəfi ABŞ-ın "Standart oyl" şirkəti ilə bir il əvvəl bağladığı müqaviləni ləğv etdi.

1923-cü ilin dekabrında, İran ABŞ-ın "Sinkler" neft şirkətinə şimal əyalətlərində-Azərbaycanda, Mazandaranda, Xorasanda axtarışlar aparmağa və neft çıxarmağa icazə verdi. Konsessiyalar haqqında müqaviləni reallaşdırmaq mümkün olmasa da bu, Moskvanın narazılığına səbəb oldu.

1937-ci ilin yanvarında İran hökuməti, ABŞ-ın "Delavar" şirkətinə 500 min kvadrat kilometrlik ərazini konsessiyaya verdi. Konsessiya İranın şərq və şimal-şərq hissələrini əhatə edirdi. İranın bu hərəkəti Moskva tərəfindən Türkmənistanın neft rayonları üçün təhlükə və SSRİ ilə ABŞ-ın mənafelərini toqquşdurmaq cəhdi kimi qiymətləndirildi.

SSRİ İranı 1921-ci il müqaviləsini pozmaqda təqsirləndirirdi. Nəicədə növbəti ildə "Delaver" şirkəti ilə bağalanan müqavilə də ləğv edildi.

1939-cu ilin martında İran hökuməti Hollandiyanın "Alqemayne Eksplokastie Maçapay" şirkətinə neft və filiz mədənlərini konsessiyaya verdi. Bu da Moskvanın kəskin etirazına səbəb oldu. Konsessiyanın 30 min kvadrat kilometrlik ərazini tutması və bilavasitə Bakının yaxınlığında olması SSRİ hökumətini narahat etdi. İran hökumətinin bağladığı müqaviləyə görə şirkət bu ərazidə dəmir yolları çəkməli, aerodromlar, radiostansiyalar və telefon stansiyaları tikməli idi. Bu isə sovet imperiyasında Bakı neft rayonu və Moskva üçün təhlükə kimi qiymətləndirildi. Yenidən Moskva öz kəskin etirazlarını bildirdi və nəticədə 1944-cü ildə bu konsessiya da ləğv edildi. İran tərəfi ABŞ, İngiltərə və Hollandiya şirkətlərinə konsessiya verilməsini maliyyə vasitələrinin, texnikanın və mütəxəssislərin çatışmaması ilə izah edirdi. Lakin, SSRİ özünün iqtisadi mənafelərini güdürdü. Qoşun yeridilməsinin iqtisadi səbəbləri əsasən bununla bağlı idi. 1944-cü ilin sentyabrında, SSRİ İran hökumətinə Güney Azərbaycanda (Şimali İranda) ona neft konsessiyaları vermək barədə rəsmi müraciət etdi. Moskva hökuməti, SSRİ-İran

münasibətlərinin yaxşılaşmasının yolunun yalnız neft konsessiyalarından keçdiyini bildirdi. SSRİ-nin təklifi İran hakim dairələri tərəfindən etirazla qarşılandı. Məclis xüsusi qanunla bu barədə danışıqlar aparmağı qadağan etdi. Bu da Moskvanın kəskin narazılığına səbəb oldu. SSRİ-nin İrana qarşı düşmənçilik siyasəti gücləndirildi.

Qoşun yeridilməsində Moskvanın siyasi və hərbi məqsədləri var idi. Hələ 1918-ci ildə sovet hökuməti, 1907-ci ildə İngiltərə ilə Rusiya arasında bağlanmış İranın bölüşdürülməsi haqqında təcavüzkar niyyətlər güdən müqaviləni ləğv etdi. Lakin bu adım, onun öz niyyətlərindən əl çəkməsi demək deyildi.

1919-cu ilin martında, Paris sülh konfransında İran hökuməti ərazi iddiaları barədə memorandum təqdim etdi. Bu sənəddə, Azərbaycan, Ermənistan və Dağıstanın bir hissəsi tələb olunurdu. Daha sonra İran tərəfi Xəzər sahillərini, Aşqabad, Mərv, Xivə və başqa ərazilər barədə də iddialar irəli sürürdü. Sənəddə göstərilən ərazilərin ümumi sahəsi 570 min kvadrat kilometrdən çox idi. Lakin, İran Birinci dünya müharibəsində iştirak etmədiyindən onun tələblərinə Paris sülh konfransında baxılmadı. İkinci dünya müharibəsi ərəfəsində, Sovet imperiyası rəhbərləri İranın bu hərəkətlərini bir daha xatırlatdılar və onu təsadüfi hesab etmədilər. Stalin və onun ətrafındakılar faşist Almaniyası SSRİ-yə hücum etdikdən sonra, güney qonşusu İrana yenidən şübhə ilə yanaşmağa başladılar. Hitlerin hücumunu İranın niyyətlərinin həyata keçirilməsində əlverişli şərait kimi qiymətləndirən SSRİ rəhbərləri, bu ölkəyə qoşun yeritmək üçün bəhanələr axtarmağa başladılar. Həmin dövrdə sovet mətbuatında faşist Almaniyasının İran ərazisindən SSRİ-nin əsas neft rayonu olan Bakıya zərbə endirməsi fikri geniş yer aldı. Almaniyanın İrana nüfuz etməsinə, iqtisadi və siyasi həyatında rol oynamasına, SSRİ-yə qarşı təcəvüzkarlıq kimi qiymət verildi. Müstəqil İran dövlətinin xarici siyasətinin bu dövrdə SSRİ-yə deyil, Avropa ölkələrinə, xüsusən Almaniyaya meyl etməsi Moskvanı narahat edirdi. İran-Almaniya iqtisadi əlaqələri də qorxu törədirdi. Məsələn, əgər 1933-34-cü illərdə, yəni faşizmin hakimiyyətə gəldiyi ilk vaxtlarda, Almaniya İranın xarici ticarətində altıncı yeri tuturdusa, sonrakı illərdə bu, sürətlə artmağa başladı. 1936-1937-ci illərdə Almaniya İranın xarici ticarətində ikinci, 1938-ci ildə Sovet-İran ticarət müqaviləsi öz fəaliyyətini dayandırdıqdan sonra isə birinci yeri tutdu. Sovet dövləti belə əlaqələrə və Almaniyanın İrana casuslar yerləşdirməsinə qorxulu yol kimi baxırdı. İranda işləyən alman məsləhətçilərini və iş adamlarını Moskva casus adlandırırdı. İkinci dünya müharibəsi ərəfəsində İrandakı alman ticarət nümayəndələrinin sayı 3 min nəfərə çatırdı. Onlardan da min nəfəri Tehranda yaşayırdı. İranın dövlət idarə və müəssisələrində alman məsləhətçilərinin işləməsi də Moskvanı narahat edirdi. Guya, İranın xüsusi xidmət idarələrində çalışan 700 nəfərə qədər alman ölkənin iqtisadiyyatına rəhbərlik edirdi.

Sovet rəhbərləri belə hesab edirdilər ki, almanlar İran ərazisindən Bakı, Aşqabad və Qroznıya göndərilmək üçün casus qrupları hazırlayırlar. İranda silahlı faşist dəstələrinin yaradılması və silah anbarlarının tikilməsi də güman edilirdi. Moskvada belə düşünürdülər ki, guya alman casusları İranda dövlət çevrilişi etmək istəyirlər. Əlbəttə, yuxarıda deyilənlər SSRİ-nin imperiya niyyətlərindən irəli gəlirdi və o, İrana qoşun yeritmək üçün bəhanə axtarırdı. İran tərəfi isə SSRİ ilə qarşıdurmadan qaçmaq istəyirdi. Ona görə də müharibə başlanan kimi, İran Sovet İttifaqına qarşı düşmənçilik münasibətində olmadığını və əvvəlki iddialardan əl çəkdiyini bildirdi. Hitler ordularının hücumundan dörd gün sonra, 1941-ci il iyunun 26-da İran hökuməti müharibədə bitərəf olacağını qəti şəkildə bildirdi. Lakin bu, sovet hökumətini qane etmədi. O, iyunun 26-da, iyulun 19-da və avqustun 16-da "Hitlerçi kəşfiyyatın təxribatları" barədə İran hökumətinə xəbərdarlıq etmişdi. 1941-ci il avqustun 25-də, sovet hökuməti İrana nota verdi. Notada göstərilirdi ki, "son vaxtlar, xüsusən Hitler Almaniyasının SSRİ-yə hücumundan sonra hitlerçi-faşist qəsdçi qruplarının SSRİ və İrana qarşı fəaliyyəti təhlükəli xarakter almışdır. İranda 50-dən çox müəssisədə mühüm rəsmi vəzifələri tutan alman casusları hər vasitə ilə qarışıqlıq salmaq, İran xalqının dinc həyatını pozmaq və İranı SSRİ-yə qarşı müharibəyə qoşmaq istəyirlər.

Notada daha sonra deyilirdi ki, alman reyxinin casusları "sovet Azərbaycanı və sovet Türkmənistanı ərazisinə keçirmək və İranda hərbi çevriliş etmək üçün təxribatçı və terrorçu qruplaşmalar yaradırlar". Notada bu vəziyyətin qarşısını almaqdan ötrü fövqəladə tədbirlərin görülməsinin zəruriliyi göstərilirdi. Həmçinin qeyd edilirdi ki, "bu tədbirlər qətiyyən İran xalqına qarşı çevrilməmişdir. Sovet hökuməti İranın ərazi bütövlüyünə və dövlət müstəqilliyinə hörmət edəcəkdir. İran və SSRİ üçün təhlükə aradan qalxan kimi o, öz qoşunlarını İran hüdudlarından çıxaracaqdır".

Notanın cavabını gözləməyən Sovet hökuməti, beynəlxalq hüquq normalarını kobudcasını pozaraq, 1941-ci il avqustun 25-də öz qoşunlarını İranın şimalına yeritdi və Güney Azərbaycanda yerləşdirdi. Bu addımında sovet hökuməti, 1921-ci il fevralın 26-da İranla bağladığı müqavilənin altıncı maddəsinə əsaslanırdı. Bu maddədə deyilirdi ki, əgər sovet dövlətinin sərhədləri üçün təhlükə yaranarsa və İran hökuməti onu aradan qaldırmaq iqtidarında olmazsa, Rusiyanın sovet hökumətinin müdafiə məqsədləri üçün hərbi tədbirlər görməklə, İran ərazisinə öz qoşunlarını yeritmək hüququ vardır.

Moskvanın İrana olan işğalçılıq mövqeyini belə bir fakt da sübut edir ki, qoşun yeridildikdən yalnız beş ay sonra SSRİ, İngiltərə və İran arasında müvafiq müqavilə imzalandı. Müqavilədə göstərilirdi ki, müvafiq dövlətlər "İranın ərazi bütövlüyünə,

suverenliyinə və siyasi müstəqilliyinə birgə hörmət edəcəklər". Beləliklə, sovet dövləti və Böyük Britaniya əvvəlcə suveren dövlətdən xəbərsiz onun ərazisinə qoşun yeritdilər, sonra isə ona hüquqi-siyasi əsas verdilər. Sovet işğalçı qoşunlarının İrana yeridilməsi asan olmadı, o, ciddi müqavimətə rast gəldi. İran tərəfi ona qarşı edilən təcavüzlə barışmaq istəmirdi. Qoşunların İrana yerləşdirilməsi ilə, faşist planları məhdudlaşdırıldı və sonra isə ləğv edildi. Rza şah və o vaxtkı rəhbərlik rus qoşunlarının təcavüzünə qarşı əsaslı şəkildə etiraz edirdilər, məclisdə və mətbuatda qatı antisovet çıxışlar eşidilirdi. İrana qarşı edilən hərəkətlərə cavab olaraq müxtəlif təşkilatlar "İran millətçiləri" qurumunda birləşdilər. Onun tərkibinə görkəmli siyasi xadimlər, hərbçilər və din xadimləri daxil oldular. İrandakı belə müqaviməti daxildən zəiflətmək üçün, SSRİ Güney Azərbaycandakı hərəkatı qızışdırmağa başladı. Azərbaycanda İran dövləti daxilində muxtariyyət və demokratik dəyişikliklər uğrunda mübarizə, Azərbaycan əhalisinin köklü mənafelərinə cavab verirdi.

Stalin 1941-ci il sentyabrın 3-də Çörçilə göndərdiyi məktubunda yazırdı ki, İranla iş həqiqətən pis alınmadı. Lakin İran bir epizoddur. Digər məktubunda Stalin ingilis qoşunlarını hətta SSRİ-nin müxtəlif rayonlarına dəvət edirdi. Onun 1941-ci il 13 sentyabr tarixli məktubu buna əyani sübutdur. Stalin yazırdı: "Mənə elə gəlir ki, İngiltərə heç bir riskə getmədən Arxangelskə 25-30 diviziya tökə bilər, ya da onları İrandan keçməklə SSRİ ərazisində hərbi əməkdaşlıq üçün SSRİ-nin güney rayonlarında yerləşdirə bilər".

Çörçil müharibənin davam etdiyi şəraitdə farsları öz ölkəsinin daxilində qayda-qanun yaratmaq üçün məcbur etməyi irəli sürürdü. Stalinə 1941-ci il 1 oktyabr tarixli məktubunda Çörçil göstərirdi ki, İranın daxilində tayfalar arasında ciddi qarışıqlıq vardır və fars hökumətinin nüfuzu aşağı düşür. Onun fikrincə, belə qarışıq və mürəkkəb vəziyyət müharibənin aparılmasına mane olurdu. Çörçil Stalindən xahiş edirdi ki, bu "ikinci dərəcəli cəbhədə bizim işlərimizin əlverişli inkişafı naminə fars hökumətinə qayda-qanun yaratmaq üçün qətiyyətli göstəriş versin".

Çörçil özünün 12 oktyabr tarixli məktubunda bu məsələ barəsində fikrini daha da formalaşdıraraq yazırdı ki, İran məsələsi barədə bizim mənafeyimiz aşağıdakından ibarətdir: birincisi, Almaniyanın Şərqə nüfuz etməsi üçün maneə yaradılması; ikincisi, Xəzər hövzəsindən göndərişlər üçün dolayı yol qurmaq. Biz burada rusların ədalətli mənafeyinin əleyhinə həm müharibə dövründə, həm də müharibədən sonrakı vaxtda çıxmayacağıq.

İran, onun ərazisi və xalqlarının taleyi ilə bağlı məsələlər müharibənin gedişində müxtəlif səviyyələrdə də müzakirə edildi. Həmin müzakirələrin içində üç dövlət başçısının Tehran, Krım və Potsdam konfransları özünəməxsus yer tutur. Stalin,

Ruzvelt və Çörçilin, 1943-cü il dekabrın 1-də Tehranda keçirilən konfransın sonuncu günü qəbul etdikləri "Üç dövlətin İran haqqında bəyannaməsi" bunu bir daha təsdiq edir. Burada tərəflər İranın tam müstəqilliyini, suverenliyini və ərazi toxunulmazlığını təmin etmək istəyini bəyan edirdilər.

Tehran konfransı başa çatdıqdan sonra, Stalin 1944-cü il 29 yanvar tarixli məktubunda Çörçilə yazırdı ki, Tehrandakı görüşlərdən və birgə işdən razı qalmışdır. Eyni məzmunda teleqramı Ruzvelt də Stalinə göndərdi. Bu teleqramlar bir tərəfdən antihitlerçi koalisiyada o zamankı yekdilliyi, digər tərəfdən isə müharibənin gedişində xalqların baş verən milli-azadlıq hərakatına olan münasibəti göstərirdi.

Stalin, orduların bütün İrandan deyil, yalnız Tehrandan çıxarılmasına razı idi. Onun belə mövqeyi imzalanmış sənədlərin pozulması və götürülmüş öhdəliklərin yerinə yetirilməməsi demək idi. Burada Stalin Moskvanın imperiya mənafelərini güdürdü.

Müharibənin gedişində antihitlerçi koalisiyanın üzvü olan dövlətlərin mənafeyi faşizmə qarşı mübarizədə eyni olsa da o, qurtardıqdan sonra Moskva İrana münasibətdə tədricən xüsusi mövqe tutmağa başladı. O, İranı parçalamağa, onu zəiflətməyə yönəldilən xəttə üstünlük verirdi. Bu da səbəbsiz deyildi. Müharibənin sonuna yaxın üç böyük müttəfiq dövlət arasında mənafelər uğrunda kəskin mübarizə başlandı: onlar dünyanı öz nüfuz dairələrinə bölmək xətti götürmüşdülər. Sovet imperiyası Yaxın və Orta Şərqdə və Şərqi Avropada hegemonluq etmək məqsədilə zorakılığa əsaslanan fəal xarici siyasət yeritməyə başladı. Bu isə beynəlxalq münasibətlərdə "soyuq müharibə"nin başlanmasının səbəblərindən biri idi.

**2.Güney Azərbaycanda milli muxtariyyət uğrunda hərəkat və dünya siyasəti**

Müharibənin sonlarında başlayan demokratiya və milli-azadlıq uğrunda mübarizənin genişlənməsi fonunda qanunauyğun olaraq Güney Azərbaycanda milli muxtariyyat uğrunda hərəkat genişləndi. Bu təkcə rus qoşunlarının Güney Azərbaycanda yerləşdirilməsi ilə deyil, problemin uzun illər boyu mövcud olması və bütöv bir xalqın hüquqlarının pozulması ilə bağlı idi. Yaranmış tarixi şərait ona yalnız təkan verdi. 1945-ci il dekabrın 12-də (1324-cü il azər ayının 21-də) qurulan Azərbaycan Milli hökuməti xalqımızın mənafeyi naminə geniş tədbirlər həyata keçirtdi. Lakin, bu hərəkatı və görülən tədbirləri İran tərəfi beynəlxalq miqyaslı mübahisəyə çevirdi. İranın "Şahbaz" qəzeti yazırdı ki, "Tehran sırf daxili işi olan bu məsələni (Azərbaycan məsələsi) beynəlxalq mübahisəyə çevirdi". Azərbaycan məsələsi, 1946-cı il martın 5-də Böyük Britaniyanın keçmiş Baş Naziri U.Çörçilin ABŞ-ın Fulton şəhərindəki çıxışı ilə əsası qoyulan "soyuq müharibə"nin ilk

toxumlarının səpildiyi və cücərdiyi kəskin beynəlxalq münasibətlərin ən mübahisəli məsələlərindən biri oldu. Bu məsələ müxtəlif səviyyəli görüşlərdə, o cümlədən yenicə yaradılmış Birləşmiş Millətlər Təşkilatında mübahisə obyektinə çevrildi. S.C.Pişəvəri hərəkatı ilə Güney Azərbaycanda yaranmış vəziyyətə İran dairələrinin öz daxili işləri kimi deyil, Moskvanın müdaxiləsi kimi qiymət verməleri və buna uyğun hərəkət etmələri əbəs deyildi. Əgər İran hakim dairələri Güney Azərbaycanda milli muxtariyyat uğrunda mübarizəni ölkənin daxili işi kimi qələmə versəydi, onda bu problemi mütləq hər hansı formada həll etməli idilər və dünya dövlətləri də belə şəraitdə azərbaycanlıların hüquqlarını pozan İranı təqsirləndirə bilərdilər. Bu isə müharibədən sonrakı ilk illərdə İranın daxili və beynəlxalq vəziyyətinə xeyir gətirə bilməzdi. İranın daxili inkişafından irəli gələn və həll edilməmiş Güney Azərbaycan probleminə yalnız beynəlxalq don geyindirməklə, onu müdaxilənin nəticəsi kimi qiymətləndirməyə çalışmaqla İranın hakim dairələri ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruya bilərdilər. Yenicə yaradılmış Birləşmiş Millətlər Təşkilatı isə məsələni öz xeyrinə həll etmək üçün ən münasib yer ola bilərdi. BMT-nin 1945-ci il iyunun 26-da imzalanmış və oktyabrın 24-də qüvvəyə minmiş nizamnaməsində göstərilən və bu təşkilatın əsas vəzifələrindən olan beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, sülh üçün təhlükənin qarşısını almaq və ləğv etmək üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasını və digər təcavüzkarlıq aktlarının qarşısına sipər çəkmək, beynəlxalq mübahisələri və şəraitləri dinc siyasi vasitələrlə nizama salmaq müddəaları İran tərəfinin mənafeyini tamamilə təmin edirdi. Buna görə də, İran, BMT amilindən uğurla istifadə etmək işinə girişdi. Müharibənin başa çatmasından sonrakı ilk illərdə ABŞ, İngiltərə və Fransanın SSRİ ilə kəskin qarşıdurması İran tərəfinin mənafelərinə tam uyğun gəlirdi. Ona görə də, Tehran rəsmi dairələri Güney Azərbaycanda azərbaycanlıların İran daxilində milli muxtariyyət uğrunda hərəkatını və görülən tədbirləri İranın daxili işlərinə Moskvanın qarışması kimi qiymətləndirməyə və dünya dövlətlərinin diqqətini buna cəlb etməyə başladılar. İran tərəfinin qəti səyləri nəticəsində, Güney Azərbaycan məsələsi Birləşmiş Millətlər Təşkilatında kəskin mübahisələr obyektinə çevrildi.

Bu zaman İranın BMT Baş Məclisindəki nümayəndə heyətinə, Böyük Britaniyadakı səfiri Seyid Həsən Tağızadə başçılıq edirdi. Əslən Ordubaddan olan Tağızadə azərbaycanlı idi. Vaxtilə M.Ə.Rəsulzadə İranda Seyid Həsən Tağızadə ilə birlikdə "İran Demokratik Partiyasında" işləmişdilər. O zaman partiyanın yeni azərbaycanlı lideri də məhz Seyid Həsən Tağızadə idi. M.Ə.Rəsulzadə ona həmişə böyük ehtiramla yanaşırdı. Sonralar Tağızadə İranda ən görkəmli dövlət və siyasi xadim oldu və müxtəlif yüksək vəzifələrdə işləmişdi.

S.H.Tağızadənin İran nümayəndə heyətinə rəhbərlik etməsinə Tehranın müxtəlif dairələri ciddi etiraz edirdilər. İran Xalq Partiyası Mərkəzi Komitəsi bildirdi ki, o, azərbaycanlıdır və xaricilərin, daha doğrusu, Moskvanın tərəfini saxlayır. İran məclisində deputat Teymurtaş, Seyid Həsən Tağızadəni BMT-dən geri çağırmaq tələbi ilə çıxış etdi. Lakin, 1945-ci il dekabrın 1-də, Tağızadə yuxarıdan verilən göstərişləri sözsüz yerinə yetirərək, İranın iki ərizəsini BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü olan SSRİ, İngiltərə, ABŞ, Fransa, Çin və eyni zamanda müvəqqəti üzvləri arasında yaydı. Həmin sənədlərdə İran, Güney Azərbaycanda baş verən hadisələrə SSRİ-nin İranın daxili işlərinə qarışması və ölkənin parçalanmasına yönəldilən addımı kimi qiymət verdi.

S.H.Tağızadənin geri çağırılması tələblərinin şah tərəfindən yerinə yetirilməməsi əbəs deyildi. Şah bütün dünya dövlətlərinə və eləcə də İrandakı azərbaycanlılara demək istəyirdi ki, Güney Azərbaycandakı hadisələri Sovet İttifaqından gələn azərbaycanlılar törədirlər və yerlilərin heç bir narazılığı yoxdur.

**3. Güney Azərbaycan məsələsinin müzakirəsi BMT müstəvisində**

1946-cı il yanvarın 10-da Londonda, BMT Baş Məclisinin birinci sessiyasında onun nizamnaməsini imzalayan dövlətlər, o cümlədən İran iştirak edirdi. Tehranın göstərişi ilə, BMT Baş Məclisinin sessiyasında İranın nümayəndə heyətinin başçısı Tağızadə BMT Baş Katibinə "SSRİ-nin İranın daxili işlərinə qarışması barədə məktub" təqdim etdi. Məktubda Güney Azərbaycanda baş verən hadisələr Moskvanın işi kimi qiymətləndirilirdi.

Buna cavab olaraq, SSRİ-nin BMT Baş Məclisindəki nümayəndə heyətinin başçısı A.Y.Vışinski yanvarın 24-də Təhlükəsizlik Şurasının sədrinə məktubla müraciət etdi. Vışinski İran tərəfinin məktubunu rədd edərək göstərdi ki, Güney Azərbaycandakı hadisələr üçün səbəb xarici qoşunların burada olması deyildir. Sovet qoşunları İran ərazisinə 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsinə və 1942-ci il Sovet-İngiltərə-İran müqaviləsinə əsasən yeridilmişdir. Güney Azərbaycandakı hadisələr sovet qoşunlarının burada olması ilə bağlı deyildir və bunu obyektiv faktlar da təsdiq edir. Bu hadisələr İranın sırf daxili işidir. Məlumdur ki, İranın quzeyindəki xalq İran dövləti daxilində milli muxtariyyətə can atır. Həm də qeyd etmək lazımdır ki, İranın irticaçı dairələri Azərbaycana və Bakıya qarşı düşmənçilik hərəkətləri edirlər. Vışinski bu məktubun mətni ilə yanvarın 25-də Təhlükəsizlik Şurasının gündüz iclasında çıxış edəcək, Tağızadənin təqdim etdiyi məktubu tamamilə əsassız saydı.

Yanvarın 28-də və 30-da Vışinski Təhlükəsizlik Şurasında yenidən çıxış etdi. İran nümayəndə heyətinin başçısı Tağızadə çıxış edərək Güney Azərbaycandakı

vəziyyətin geniş şərhini verərək onu sovet qoşunlarının olması ilə əlaqələndirdi. Tağızadə bildirdi ki, əgər Sovet İttifaqı bu məsələ ilə bağlı birbaşa danışıqlara razıdırsa və Təhlükəsizlik Şurası bu yolu məsləhət görürsə, İran da razıdır.

Tağızadədən sonra Vışinski söz alaraq onun dediklərini təkzib etdi. O, İranla SSRİ arasında bu məsələ barədə birbaşa danışıqlar aparıldığını bildirdi. Amma əsilində, iki ölkə arasında bu vaxt belə danışıqlar aparılmamışdı.

Vışinski, Tağızadənin "sovet qoşunlarının İrana girməsinə Tehran heç vaxt razılıq verməmişdir" fikrini də inkar etdi. Göstərdi ki, Quzey İrandakı hadisələrlə bağlı şəraiti nəzərə almaq lazımdır. Bu, Azərbaycan xalqının İran dövləti daxilində milli muxtariyyətə can atmasının təzahürüdür və onun sovet qoşunlarının bu ölkədə olması ilə heç bir əlaqəsi yoxdur. Vışinski bildirdi ki, Güney Azərbaycandakı hadisələr Azərbaycan xalqının milli hissələrinin sadə və düzgün əks olunmasıdır. Vışinski daha sonra göstərdi ki, hadisələr baş verən vaxt İran hökumətinin kifayət qədər ordusu və polisi var idi. O, Güney Azərbaycanda qayda-qanun yarada bilərdi. Vışinski Tağızadənin çıxışında deyilən " İran hökuməti sovet tərəfi ilə danışıqlara tərəfdardır" fikrinə müsbət münasibət bəsləyərək onu bəyəndi. Lakin göstərdi ki, bu danışıqlar İran tərəfinin istədiyi kimi Təhlükəsizlik Şurasının nəzarəti altında aparıla bilməz.

Nəticədə, yekdilliklə qətnamə qəbul edildi. Bu qətnamədə deyilirdi: "Yanvarın 28 və 30-da keçirilən iclaslarda Sovet İttifaqı və İran nümayəndələrinin bəyanatını dinləyərək, Sovet və İran tərəflərinin təqdim etdikləri sənədlərlə tanış olaraq və hər iki tərəfin müzakirə olunan məsələnin danışıqlar yolu ilə həllinə hazır olduqlarını və danışıqlara yaxın vaxtlarda başlayacaqlarını təsdiq etdiklərini nəzərə alaraq, Təhlükəsizlik Şurası bu danışıqların nəticələri barədə məlumat verməyi tərəflərə təklif edir. Eyni zamanda, Təhlükəsizlik Şurası danışıqların gedişi barədə məlumat tələb etmək hüququnu özündə saxlayır".

Həqiqətən Sovet-İran danışıqları sessiyaya qədər keçirilməmişdi və Güney Azərbaycan məsələsi iki ölkə arasında danışıqlarda müzakirə edilməmişdi. Bu sessiyadakı kəskin müzakirələrdən sonra, Sovet-İran münasibətlərində yaxınlaşma baş verdi. Yaxınlaşma, Güney Azərbaycanda gedən hadisələrin xeyrinə deyildi.

Lakin, müharibədən sonra Avropada quvvələr nisbəti və nüfuz dairəsi uğrunda mübarizə Moskvanın xarici siyasətində dəyişikliyə səbəb oldu. O, Avropanın "xalq demokratiyası" ölkələrində xüsusi diqqət yetirərək, Güney Azərbaycandakı hadisələri özünün dərin imperiya niyyətlərinə qurban verdi. Bu işdə Qərb dövlətlərinin, xüsusən ABŞ və İngiltərənin təzyiqlərinin, atom silahı ilə hədələmələrinin də təsiri oldu.

1946-cı il aprelin 6-da, SSRİ-nin BMT-dəki nümayəndəsi A.Qromıko Təhlükəsizlik Şurasına məktub göndərdi. Məktubda göstərilirdi ki, "sovet qoşunları martın 24-dən İrandan çıxarılmağa başlanmışdır və altı həftə müddətində başa çatacaqdır.... Buna görə də sovet hökuməti tələb edir ki, bu məsələ Təhlükəsizlik Şurasının gündəliyindən çıxarılsın".

İkitərəfli danışıqlardan sonra İran tərəfi öz şikayətini geri götürdü. Sovet-İran münasibətlərində və İranın mövqeyində əsaslı dəyişikliklər meydana gəldi. Təhlükəsizlik Şurasında məsələnin müzakirəsini ABŞ və İngiltərənin təkidlə tələb etməsi İranda ciddi narazılıqla qarşılandı.

ABŞ höküməti, Guney Azərbaycan Milli hökumətinə xüsusi maraq göstərirdi. ABŞ-ın İrandakı konsulu Rossou, Güney Azərbaycan Milli hökumətinin Baş Naziri S.C.Pişəvəri ilə görüşündə, Milli hökumətin yaradılmasını Birləşmiş Ştatların bəyəndiyini bildirdi.

**4.Sovet-İran münasibətlərində Güney Azərbaycan məsələsi**

Birləşmiş Millətlər Təşkilatı Baş Məclisində Güney Azərbaycan məsələsi ilə bağlı ilkin kəskin mübahisəli müzakirələr və Moskvanın mövqeyi İranı qətiyyən qane edə bilməzdi. Moskva ilə Tehran arasında qarşılıqlı münasibətlərdə təmas nöqtələrini tapmağa, İranın milli və dövlət mənafeyini var gücü ilə qorumağa qadir şəxsin rəhbərliyə gəlməsi, Moskva ilə danışıqların başlanması zəruri idi. Təhlükəsizlik Şurasının iclasları keçdiyi vaxtlarda, 1946-cı ilin yanvarın sonlarına yaxın İran məclisində Qəvvam-əs-Səltənəni ölkənin Baş Naziri seçildi. O seçilən kimi bildirdi ki, "bu gün axşam İranın Təhlükəsizlik Şurasına müraciəti məsələsi ilə məşğul olacaq. Şah onu təsdiq edən kimi isə ruslarla birbaşa danışıqlara başlayacaqdır".

BMT Baş Məclisinin birinci sessiyasında Tağızadə və Vışinskinin bəyanatı ilə əlaqədar uzun müzakirələrdən və müvafiq qətnamənin qəbul edilməsindən sonra sovet-İran münasibətlərində yaxşılaşdı. Bu yaxınlaşma həm də, ABŞ-ın SSRİ-yə təzyiq göstərməsi və onu atom silahı ilə hədələməsi ilə bağlı idi. 1946-cı il fevralın 23-də, Qəzvin şəhərindəki "İran" teatrında, İran-SSRİ mədəni əlaqələr cəmiyyətinin Qəzvin şöbəsi, Qızıl ordunun yaradılmasının 28-ci ildönümünə həsr edilmiş yığıncaq keçirtdi. Zalda sovet və İran bayraqları, Stalinin və Şahın böyük portretləri, rus və fars dillərində şüarlar asılmışdı. İclasda, 800-dən çox adam iştirak edirdi. SSRİ-nin Qəzvindəki vitse-konsulu Çivile, Qəzvinin qubernatoru Şahin, mədəni əlaqələr cəmiyyəti Qəzvin şöbəsinin sədri doktor Muruzavi və "İranın dostu" qəzetinin redaktoru Mirzə İbrahimov və başqalarının iştirak etdiyi yığıncaqda sovet-İran dostluğundan geniş bəhs edildi.

1946-cı ilin mart ayında, İrandakı sovet səfiri dəyişdirildi. İ.Sadçikov İranda SSRİ-nin fövqəladə və səlahiyyətli səfiri təyin edildi. Bütün bu hadisələrin gedişində, Qəvvam-əs-Səltənə Moskvaya gəldi. Stalinlə bağlı qapı arxasında keçirilən danışıqlardan sonra tərəflər heç bir sənəd imzalamadılar. Moskva danışıqları başa çatdıqdan sonra, Tehrana qayıdarkən Qəvvam-əs-Səltənə yolüstü Bakıya gəldi. Binə aeroportunda Azərbaycan nümayəndələri onu təmtəraqla qarşıladılar. O, Azərbaycan Dövlət Opera və Balet Teatrında "Leyli və Məcnun" tamaşasına baxdı. Səltənənin Moskva səfəri və Stalinlə keçirtdiyi müzakirələr əslində Güney Azərbaycan məsələsinin Tehranın və Moskvanın əli ilə dəfn olunması demək idi. İran Baş Nazirinin vətənpərvərlik səylərindən bəhs edən "Ettelat" qəzeti yazırdı ki, artıq İran xalqı əmindir ki, Sovet hökumətinin İrana heç bir ərazi iddiası yoxdur.

Moskvada başlanan danışıqlar, İran Baş Nazirinin Bakıda təmtəraqla qarşılanmasından sonra Tehranda davam etdirildi və 1946-cı il aprelin 4-də hər iki tərəfi təmin edən sənədin imzalanması ilə möhkəmləndirildi. Sənəd Moskva və Tehranın Güney Azərbaycan məsələsində yekdilliyini göstərdi.

Bu bəyannaməni İranın Baş Naziri Əhməd Qəvvam-əs Səltənə və SSRİ-nin İrandakı səfiri İ.Sadçikov imzaladılar.1946-cı il aprelin 5-də, "Yunayted press" agentliyinin Tehrandan verdiyi xəbərə görə Qəvvam-əs-Səltənə bildirmişdi ki, sovet-İran müqaviləsi və sovet qoşunlarının İrandan çıxarılması, Guney Azərbaycan məsələsinin Birləşmiş Millətlər Təşkilatında müzakirəsini artıq və lüzumsuz edir. Danışıqlar başa çatdıqdan sonra iki ölkə arasında münasibətlərin yaxşılaşmasını Tehrandan Qəvvam-əs-Səltənənin Stalinə vurduğu teleqram da təsdiq edir. Teleqramda deyilirdi ki, Moskvada başlanan və Tehranda davam etdirilən danışıqlar əlverişli nəticələrlə başa çatdı. Bunun sayəsində iki dost və qonşu ölkələr arasında tam qarşılıqlı anlaşmaya nail olundu.

SSRİ- İran danışıqlarından sonra, iki ölkə arasındakı münasibətlərdə yaxınlaşma sürətləndi. Aprelin 18-də İran Xarici işlər Nazirliyində Baş Nazir Qəvvam-əs-Səltənə SSRİ-nin İrandakı səfiri Sadçikovun şərəfinə ziyafət verdi. Nazirlərin, sovet səfirliyi əməkdaşlarının və diplomatik missiya başçılarının iştirak etdiyi ziyafətdə həm Baş Nazir, həm də səfir çıxış edərək iki ölkə arasındakı dostluq və qarşılıqlı anlaşmadan danışdılar.

Mayın 9-da, sovet qoşunları İrandan tamam çıxarıldı. Sovet qoşunlarının çıxarılması gedişində, İranda bir sıra sovet müəsissələri açılmağa başlandı. Məşhəddə sovet xəstəxanasının açılışında SSRİ-nin Məşhəddəki baş konsulu Matveyev, Xorasanın general qubernatoru Etimadi və başqaları çıxış edərək "sovet-İran dostluğundan" danışdılar. Hər iki tərəfi Güney Azərbaycan məsələsinə qarşı

birləşdirən amillərdən biri həm də, İran taxt-tacının varisi Pəhləvinin Stalinlə görüşünün nəticələri idi. İrandan sovet qoşunları çıxarılan vaxtlarda, SSRİ-İran mədəni əlaqələrinə və dostluğuna dair yığıncaq keçirilmişdi.

Aprelin 22-də, İran radiosu hökumətinin Güney Azərbaycana münasibətinə dair rəsmi xəbərini yaydı. Burada göstərilirdi ki, kənd təsərrüfatı, ticarət, sənaye və səhiyyə rəhbərləri yerli əncümən tərəfindən təyin edilir, onlar haqqında rəsmi əmri hökumət verir. General-qubernator, əncümənin razılığı ilə hökumət tərəfindən təyin edilir, hərbi qüvvələrin və jandarmların tərkibini hökumət müəyyən edir, Azərbaycanın rəsmi dili İranın bütün digər ərazilərində olduğu kimi fars dilidir. İbtidai məktəblərdə ilk beş sinifdə dərslər Azərbaycan dilində aparılır. Azərbaycanda demokratik təşkilatların fəaliyyəti sərbəstdir, demokratik xadimlərə və əhaliyə qarşı heç bir cəza tədbirləri görülməyəcəkdir və s.

### 5. Azərbaycanın Milli hökumətinin İran hökuməti ilə danışıqları və beynəlxalq siyasət

Aprelin 28-də, Təbrizdə 15 min adam S.C.Pişəvəri başda olmaqla İran Azərbaycanı Milli hökumətinin nümayəndə heyətini danışıqlar aparmaq üçün Tehrana yola saldı. İyunun 13-də Təbrizdə Müzəffər Firuz və S.C.Pişəvəri İran hökuməti və Güney Azərbaycan arasında sazişi imzaladılar. Sazişə görə fədailər jandarm idarələrinə çevrilirdi və Azərbaycan ordusu İran ordusunun tərkib hissəsi olurdu. Azərbaycanın gəlirinin 75%-i yerli xərclərə, 25%-i mərkəzə ümumdövlət məqsədləri üçün verilirdi. Bir neçə gün sonra Pişəvəri Azərbaycan əncüməninə ərizə yazıb azad edilməsini xahiş etdi. O, Baş Nazir vəzifəsindən çıxsa da partiya rəhbərliyində qaldı.

İran hökuməti ilə, Azərbaycan Milli hökuməti arasında bağlanmış saziş, 1946-cı il iyulun 14-dən etibarən həyata keçirildi. Azərbaycan Milli Məclisi əvəzinə Azərbaycan Əyalət Əncüməni fəaliyyətə başladı. Azərbaycan Milli hökuməti əvəzinə Azərbaycanı idarə edən Şura yaradıldı. Lakin, İran hökuməti müqavilənin şərtlərini pozurdu. Sonralar İranın Baş Naziri Qəvvam-əs-Səltənə Azərbaycan Milli hökumətinin nümayəndələri ilə hansı məqsədlə danışıqlara girdiyi barədə demişdi: “İran dövlətinin niyyəti məlum idi. Azərbaycan xalqının hüquqdan, orada demokratiya və ədalət yaradılmasından söhbət etdikləri üçün dövlət də zahirdə Azərbaycan demokratlarının daxil olduğu qapıdan daxil oldu”.

Noyabr ayından başlayaraq bəzi yerlərdə partiyalar qadağan edildi, demokratik xadimlərə böhtanlar atıldı, bir sıra mitinqlərdə fövqəladə vəziyyət elan edildi, mitinq və yığıncaqlar qəti qadağan olundu.

Mərkəzi hökumət 1946-cı il sentyabrın 1-də Azərbaycan üzərinə ümumi silahlı hücuma başladı. İranın irticaçı dairələrinin bəhanələrinin qarşısını almaq məqsədilə Azərbaycan Əyalət Əncüməni 1946-cı il noyabrın 12-dən başlayaraq Azərbaycan xalq qoşunlarının və fədai qüvvələrinin Zəncan vilayətindən çıxmasına göstəriş verdi. İran dövlət qoşununu Zəncan vilayətinə yeritdi. Zəncana həmçinin irticaçı mülkədarların silahlı quldur dəstələri də gətirildi. Qanlı qırğın başlandı.

İranın Baş Naziri Qəvvam-əs-Səltənə noyabrın 21-də İranın XV məclisinə seçkilərin guya azadlığını təmin etmək üçün bütün seçki məntəqələrinə hökumət tərəfindən “nəzarət qüvvələri” adı altında qoşun göndəriləcəyini elan etdi. Azərbaycan Əyalət Əncüməni buna qəti etirazını bildirdi. Qəvvam-əs-Səltənə Şəbüstəriyə teleqram vurdu. Cavabında göndərdiyi teleqramda Şəbüstəri etiraz edərək yazırdı ki, əlahəzrət Azərabaycan xalqını öz deputatlarını məclisə göndərməkdən məhrum edir və bundan məqsəd demokratik hərakatı boğmaqdır. Qoşun yeridilməsi demokratik hərəkata qarşı müharibə elan etməkdir. Seçkilər keçirtməyə nəzarət üçün qoşun deyil, mətbuat nümayəndələri gələ bilərdi. Şəbüstəri teleqramında ümid edirdi ki, əlahəzrət qarşılıqlı anlaşmaya zərbə vurmayacaqdır.

Amma belə olmadı. Güney Azərbaycana hücum edildi. Qəvvam-əs-Səltənə dinc yolla məsələni həll etmək vədin xilaf çıxdı. İran qoşunları toplar, tanklar, minaatanlar və təyyarələrlə dekabrın 1-dən bütün cəbhə boyu şiddətli döyüşlərə başladılar. Azəri fədailəri yaralarından qan axa-axa fədakarlıqla vuruşurdular. Mərkəzi hökumət cəbhəyə bütöv ordu və onlarca tank yeritdi. Azərbaycan əyalət əncüməninin göstərişi ilə dekabrın 11-də Azərbaycan xalq qoşunları və fədai qüvvələri döyüş meydanlarını tərk etdilər və geri çəkilməyə başladılar. İran qoşunlarının ilk dəstələri 50 kəndlini güllələyib Qızıləzən çayına atdılar. Tanklar Ərdəbil vilayətində kəndləri viran qoydular. Təbrizdə binalardan tutmuş abidələrədək hər şey dağıdıldı. Azərbaycanın şəhər, rayon və kəndlərinin küçə və meydanları fədai meyidləri ilə doldu.

Cənubi Azərbaycanın general-qubernatoru doktor Cavid və əncümənin sədri Şəbüstəri həbs edildi. Xalqa qarşı kütləvi terrora keçildi. Güney Azərbaycan İran hərbçilərinin əlinə keçdi. Təkçə dekabrın ikinci yarısında təxminən 25 min adam öldürüldü. Komendant saatı quruldu. Milli-azadlıq hərəkatına zərbə endirildi. 1946-cı il dekabrın 20-dən sonra Güney Azərbaycandakı xalq hakimiyyəti devrildi. Azərbaycan Milli Demokratik hərəkatının qəddarcasına yatırılmasından sonra maarif və mədəniyyət sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş qanun və qərarlar ləğv edildi. Mərkəzi hakimiyyət Azərbaycan dilindən istifadə dairəsini xeyli məhdudlaşdırdı. Ana dilində çıxan kitablar yandırıldı. Təbriz universiteti və teatrı bağlandı, ana dilində radio yayımlarının və kino filmlərinin nümayiş etdirilməsi

qadağan olundu. Fars dilini rəsmi dövlət dili və ünsiyyət vasitəsi kimi yaymaq siyasətinə yenidən başlandı.

Təhsil sistemində Azərbaycan dili qadağan olundu. Təbriz universitetində təhsil alan azərbaycanlı tələbələrin alman, fransız və fars dillərini bilməsi məcburi olsa da mərkəzi hökumət Azərbaycan dilini qadağan etdi.

Məğlubiyyətdən sonra İran hakim dairələrinin şovinist siyasəti Güney Azərbaycanda mədəniyyətə də ciddi zərbə vurdu. Demokratik hüquqlar uğrunda mübarizə ruhlu bədii və elmi nəşrlər qadağan edildi. Cənubi Azərbaycanın bir sıra şair və yazıçısı mühacirət etdi. Təqib edilən mütərəqqi şair və yazıçıların əksəriyyəti öz əsərlərini xarici ölkələrdə çap etdirməyə məcbur oldular.

Şah rejimi düşünülmüş şəkildə Güney Azərbaycan tarixi abidələrini məhv etməyə başladı və onlar fars abidələri kimi qələmə verildi. İrticanın hücumu Güney Azərbaycanın inkişafına zərbə vurdu.

## BİRİNCİ FƏSİL -- IV BÖLMƏ

### Dünya konfrantasiya sisteminin yaranması və "soyuq müharibə" (1945-1953)

**1. İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə tərksilah üzrə danışıqlar. Atom silahı problemi**

**2.U.Çörçilin Fulton çıxışı. "Soyuq müharibə"nin ilk böhranları (Yunanıstan, Türkiyə, İran)**

2.1.İran böhranı və U.Çörçilin Fulton çıxışının beynəlxalq təsiri

2.2.Yunanıstan böhranı və ölkədə gedən vətəndaş müharibəsində qüvvələr nisbəti

2.3.SSRİ-nin Türkiyəyə iddiaları və ABŞ-ın mövqeyi

**3.SSRİ-nin "qarşısının alınması" nəzəriyyəsinin yaranması və "Trumen doktrinası"**

3.1.Kennanın "uzun teleqramı" və ABŞ-ın xarici siyasəti

3.2."Trumen doktrinası"nın formalaşması

**4. İkiqütblü sistemdə "Soyuq müharibə"nin başlanması və onun mərhələləri**

5. "Marşal planı" və onun beynəlxalq siyasi əhəmiyyəti

5.1. ABŞ-ın "Marşal planı"nın yaranmasının səbəbləri

5.2. Avropa İqtisadi Əməkdaşlıq Təşkilatını yaradılması

5.3."Marşal planı"nın əhəmiyyəti

6. Qərbdə təhlükəsizlik strukturlarının yaranması: Qərbi Avropa Birliyi, NATO.
6.1.Brüssel paktının bağlanmasının hədəfləri
6.2.NATO-nu yaranması
**7. "Birinci Berlin böhranı" və beynəlxalq münasibətlər**
7.1."Almaniya ilə separat müqavilə"
7.2.Berlin böhranının əsas səbəbləri
**8. Almaniyada parçalanmanın möhkəmlənməsi. AFR və ADR-in yaranması.**
8.1.AFR-in yaradılması
8.2.ADR –in yaradılması
**9. Avropa inteqrasiyasının başlanması: AKPB və "Pleven planı". Almaniyanın qərb təhlükəsizlik strukturlarına daxil edilməsi problemi**
9.1. Qərbi Avropada inteqrasiya prosesi. Avropa Kömür və Polad Birliyinin yaradılması
9.2. Qərbi Avropada hərbi-siyasi inteqrasiya. "Pleven Planı"
9.3.Bonn müqaviləsinin əsas müddəaları. Paris müqaviləsi(1952)

## 1. II dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə tərksilah üzrə danışıqlar. Atom silahı problemi

İkiqütblü dünya sistemi dövründə, tərksilah üzrə danışıqlarda aşağıdakı dövrləri ayırmaq olar:

--1945-1949-cu illər - İkinci dünya müharibəsinin qurtarmasından və atom silahının yaranmasından ABŞ-ın bu silah üzərində inhisarına son qoyulana qədər;

--1949-1955-ci illər - SSRİ-də atom silahının meydana gəlməsindən 1955-ci il mayın 10-da tərksilah dair edilmiş sovet təkliflərinə qədər;

--1955-ci il - 1960-cı illərin başlanğıcı - ilk saziş şansından tərksilahda ilk real addımlara qədər.

Hətta atom silahı, 1945-ci ildən 1949-cu ilə qədər ABŞ-ın inhisarında olanda belə o, yeni müharibədə qələbəyə ümid edə bilməzdi. Amma atom silahının varlığı amerikan xarici siyasətinə böyük təsir göstərərək, onu sərt və dayanıqsız edirdi. Bütün bunlar, sovet rəhbərliyini amerikan təzyiqinə uymamağa və nəyin bahasına olursa, olsun öz atom silahını yaratmağa vadar edirdi. Eyni zamanda, SSRİ daim atom silahının qadağan olunması uğrunda çıxış edirdi.

BMT-nin Baş Məclisinin hələ birinci sessiyasında SSRİ, ABŞ və Böyük Britaniya Xarici İşlər nazirlərinin Moskva müşavirəsinin (dekabr 1945-ci il) qərarına uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının Atom Enerjisi Üzərində Nəzarət üzrə Komissiyası təsis edildi. Onun tərkibinə Təhlükəsizlik Şurasının beş

daimi üzvü və atom nüvəsinin parçalanması ilə bağlı kəşfdə iştirak etmiş ölkə kimi Kanada daxil oldu.

Baş Məclisin 1946-cı il yanvarın 24-də qəbul etdiyi Qətnaməyə uyğun olaraq, Komissiya atom enerjisi üzərində nəzarət üzrə elə təklifləri işləyib hazırlayaraq Təhlükəsizlik Şurasına təqdim etməli idi ki, ondan yalnız dinc məqsədlərlə istifadə olunmanın zəruri hüdudları təmin olunsun, həmçinin elmi informasiya mübadiləsində istifadə edilsin. ABŞ atom silahı üzərində olan inhisarından əl çəkmək istəmirdi, əksinə özünün atom qüdrətini möhkəmlətmək və bu inhisarı mümkün qədər uzun müddətə saxlamaq üçün var gücü ilə çalışırdı. ABŞ-ın o illərdə irəli sürdüyü və geniş reklam olunan *"Barux planı"* məhz buna yönəlmişdi.

ABŞ Dövlət Departamentində xüsusi komissiya tərəfindən işlənib hazırlanmış və 1946-cı il aprelin 14-də, amerikan nümayəndəsi B.Baruxun BMT-nin atom enerjisi üzrə komissiyasına təqdim etdiyi bu planın məzmunu, nəzarət və təftiş sahəsində planlaşdırılan atom konsersiumunun iştirakçılarının ərazisində fəaliyyət göstərməsi kimi geniş səlahiyyətləri və qeyri- məhdud hüquqları olan beynəlxalq nəzarət orqanının və ya o vaxt deyildiyi kimi, "dünya idarə pultu"nun yaradılmasından ibarət idi. Bu zaman, atom enerjisindən hərbi məqsədlər üçün istifadə olunmasının qadağan edilməsi nəzərdə tutulmurdu.

SSRİ atom silahının meydana çıxdığı ilk günlərdən onun qadağan olunması, atom enerjisindən istisnasız olaraq sülh məqsədləri üçün istifadə edilməsi uğrunda çıxış edirdi. Atom Enerjisi üzrə Komissiyada sovet nümayəndəsi, hələ 1946-cı ilin yayında demişdi: "Əgər atom enerjisindən istifadə yollarının açılması bəşəriyyətin xidmətində durmayacaqsa və yalnız sülh məqsədləri üçün tətbiq olunmayacaqsa, həqiqi və səmərəli sülh sistemi ola bilməz".

1946-cı il iyunun 19-da, Sovet İttifaqı, BMT-nin Atom Enerjisi üzrə Komissiyasına atom enerjisindən istifadəyə əsaslanan kütləvi qırğın silahı istehsalının və tətbiqinin qadağan olunması haqqında beynəlxalq konvensiyanın layihəsini təqdim etmişdi. Atom silahının istehsalının və saxlanmasının qadağan edilməsi, üç ay müddətinə onun bütün ehtiyatlarının məhv edilməsi, Konvensiyanın bütün iştirakçılarının atom silahı tətbiq etməmək öhdəliyi götürməsi təklif olunurdu. Razılığa gələn tərəflər, Konvensiyanın qüvvəyə mindiyi gündən sonrakı altı ay ərzində, onun müddəalarının pozulmasına görə sərt cəza nəzərdə tutan qanunlar qəbul etməli idilər.

Atom Enerjisi üzrə Komissiyanın səmərəli işləməsi məqsədilə, sovet nümayəndə heyəti elə həmin gün onun işinin təşkili haqqında təklif irəli sürdü. Komissiyanın yardımçı orqanları kimi tərkibinə onun işində iştirak edən dövlətlərin nümayəndələrinin daxil olduğu iki komitənin (elmi informasiya mübadiləsi və atom

enerjisindən bəşəriyyətin zərərinə istifadə edilməsinin qarşısının alınması üzrə) təsis edilməsi nəzərdə tutulurdu. Sovet tərəfinin fikrincə, onlar atom probleminə hərtərəfli baxılmasını və Komissiyanın verməli olacağı tövsiyələrin işlənib hazırlanmasını təmin edəcəkdilər.

SSRİ, 1946-cı il oktyabrın 29-da, BMT Baş Məclisinin birinci sessiyasının ikinci hissəsində silahların ümumi ixtisarı və bir nömrəli vəzifə kimi, atom silahının istehsalının və ondan hərbi məqsədlərlə istifadənin qadağan edilməsi təklifini irəli sürdü. Sovet mövqeyi Baş Məclisin yekdilliklə qəbul etdiyi *"Silahlanmantn ümumi tənzimlənməsini və ixtisarını müəyyənləşdirən prinsiplər"* haqqında Qətnamədə öz əksini tapdı. Qətnamə, Təhlükəsizlik Şurasını "beynəlxalq nəzarət və təftiş sisteminin yaradılması üzrə" atom və bütün digər kütləvi qırğın silahlarının qadağan edilməsini və atom enerjisi üzərində "onun dinc məqsədlərlə istifadəsinin təminatı üçün zəruri həcmdə" nəzarət qoyulmasını nəzərdə tutan "Konvensiya layihəsinə baxılmasını" sürətləndirməyə çağırdı.

Bu qətnamə, ümumi ifadələrlə də olsa, atom silahının qadağan olunmasının və ona nəzarət qoyulmasının zəruriliyini etiraf edirdi. Nəzarət haqqında məsələyə, həm özünün böyük əhəmiyyətinə, həm də tərəflərdə böyük fikir ayrılığı doğurduğuna görə ayrıca baxılmalı idi.

BMT-də adi silahların ixtisarı probleminə də baxılırdı. 1947-ci ilin fevralında, Təhlükəsizlik Şurası bu problem üzrə Komissiya yaradılması haqqında qərar qəbul etdi. Amma hər halda atom silahına böyük diqqət verilirdi ki, buna da onun bəşəriyyət üçün törətdiyi təhlükə ilə haqq qazandırılırdı. Bir tərəfdən SSRİ, digər tərəfdən isə ABŞ öz tərəfdaşları ilə adi silahların ixtisarı üzrə təkliflər irəli sürürdülər ki, bu zaman tez-tez atom silahı məsələsinə də toxunurdular.

Ancaq, o illərin silahların və silahlı qüvvələrin ixtisarı (tənzimlənən, proporsional yaxud nəzarət olunan) haqqında bütün layihələri, əməli fəaliyyətə malik deyildi. Həm sovet, həm də qərb təklifləri, adətən digər tərəfin maraq və arzularını nəzərə almırdı. Qərb layihələrinin, atom silahının qadağan edilməsini nəzərdə tutan konkret maddələri yox idi. Ön plana, bir qayda olaraq, nəzarət məsələləri çıxarılırdı. Hərbi-dəniz qüvvələrinin ixtisarı məsələlərinə toxunulmurdu.

Danışıqlar da gedirdi, qızğın silahlanma da davam edirdi. 1949-cu ilin sentyabrında, Sovet İttifaqı atom bombasını sınaqdan çıxardıqdan sonra, atom silahı üzərində amerikan inhisarına son qoyuldu. SİTA-nın (Beynəlxalq İnformasiya Texnologiyaları Agentliyi) sentyabrın 25-də dərc olunmuş məlumatında deyilirdi ki, sovet hökumətində atom silahının olmasına baxmayaraq, o, əvvəlki kimi özünün atom silahının tətbiqinin qeyd-şərtsiz qadağan edilməsi mövqeyində durur və gələcəkdə də durmaq niyyətində idi. Sovet İttifaqında atom silahının olması o demək

idi ki, əgər o, qadağan olunmasa (özü də yaxın vaxtda), onda qızğın siiahlanmanın - atom silahlanmasının yeni dalğası başlayacaqdır, həm də ABŞ və SSRİ-nin ardınca müxtəlif vaxtlarda başqa dövlətlər də silahlanmaya gedəcəklər.

ABŞ-ın atom silahı üzərində inhisarına son qoyulması ilə, iki böyük dövlətin və onların müttəfiqlərinin qarşıdurmasının bir dövrü başa çatdı və digəri başladı. Buna uyğun olaraq, tərksilah problemi də yeni, daha mürəkkəb məzmun aidı. Sonra da, qızğın silahlanmanın da yeni dalğası başladı.

Qızğın silahlanmada, hərbi texnikanın yeni nümunələrinin işlənib hazırlanmasında, üstünlük bütün müharibədən sonrakı dövr ərzində ABŞ-da olmuşdur. Özü də hər dəfə, Amerika tərəfində hər hansı yeni silah meydana çıxan kimi, sovet tərəfi müəyyən müddət sonra elə eyni formada, yaxud ona oxşar silah yaratmışdır.

1950-ci iilərdə tərksilah üzrə danışıqlar davam edirdi və bu onilliyin ortalarında razılaşdırılmış qərar qəbul etmək üçün müəyyən imkan yarandı - tərəflərin mövqeləri bəzi məsələlər üzrə üst-üstə düşmüş, bəziləri üzrə isə yaxınlaşmışdı. Proses elə belə də davam edirdi. 1950-ci ilin iyulunda, ABŞ-da dövlət idarəsinin "Atom enerjisi və Amerika rəhbərliyinin xarici siyasəti" adlı sənədi dərc olundu. Burada nüvə tərksilahı problemi üzrə nailiyyətlərin olmaması guya ki, atom silahının qadağan olunması üzərinə nəzarət qoyulmasına qarşı çıxan və gələcəkdə təhlükəsizliyi pozanlara "aşkarlanma qorxusu olmadan əməli olaraq həmişə bomba istehsalına" icazə verməyə hazır olan SSRİ-nin siyasəti ilə izah olunurdu. Öz tərəfindən sovet nümayəndələri, qərb ölkələrinin irəli sürdükləri layihələrin ünvanına tənqidi qeydlərini söyləyirdilər.

1952-1953-cü illər həm SSRİ, həm də Qərb tərəfindən müxtəlif təklif və əlavələr şüarı altında keçdi. Tərəflərin razılılaşmaq üçün yollar axtardığı və bütün məsələlərdə olmasa da, bəzilərində tərəfdaşların təklifi ilə öz etirazlarını geri götürməyə can atdıqları üzə çıxırdı.

1952-ci ildə, Baş Məclisin yeddinci sessiyasında, Sovet İttifaqı bütün silahlı qüvvələrin və silahların nizamlanması, məhdudlaşdırılması və mütənasib ixtisarı məsələsi üzrə qətnamə layihəsi irəli sürdü.

1952-ci il mayın 28-də ABŞ, Yaponiya və Fransa BMT-nin Tərksilah üzrə Komissiyasında, mahiyyəti silahlı qüvvələrin sayının məhdudlaşdırılması olan təkliflə çıxış etdilər. Təhlükəsizlik Şurasının beş daimi üzvü üçün silahlı qüvvələrin sayının aşağıdakı hədlərinin müəyyənləşdirilməsi nəzərdə tutulurdu: SSRİ, ABŞ və Çin üçün -1-1,5 mln. nəfər, İngiltərə və Fransa üçün - 700-800 min nəfər. Qalan dövlətlər üçün də silahlı qüvvələrin say həddinin müəyyənləşdirilməsi təklif olunurdu. Onlar, bir qayda olaraq, əhalinin bir faizindən az və bundan başqa, istisna

hallarını çıxmaq şərtilə, 1952-ci il səviyyəsindən aşağı olmalı idi. Silahlı qüvvələrin sayı müəyyənləşdirilən zaman, yarımhərbi təşkilatlar və təhlükəsizlik qüvvələri də daxil olmaqla onların bütün növlərinin əhatə olunması nəzərdə tutulurdu. Bu sənəd bütövlükdə irəliyə doğru addım idi.

1954-cü il iyunun 2-də, İngiltərə və Fransa BMf-nin Tərksilah üzrə Komissiyasının alt komitəsinə daha bir layihə təqdim etdilər. O, tərksilah prosesini üç mərhələdə həyata keçirməyi nəzərdə tuturdu. Ancaq burada belə bir köhnə fikir qalırdı ki, silahların məhdudlaşdırılması, ixtisarı və atom silahının qadağan edilməsi üzrə bu layihədə göstərilən tədbirlərin keçirilməsinə başlamazdan əvvəl, tərəflər nəzarət haqqında razılığa gəlməli və nəzərdə tutulan nəzarət orqanı fəaliyyətə başlamalı idi.

Sovet İttifaqı, İngiltərə və Fransanın təklifini özünün 1954-cü ildə Baş Məclisin doqquzuncu sessiyasında irəli sürdüyü "Silahların ixtisarı və atom, hidrogen silahlarının və kütləvi qırğın silahiarının digər növlərinin qadağan edilməsi məsələsi üzrə beynəlxalq konvensiyanın (müqavilənin) bağlanması haqqında" qətnamə layihəsi üçün əsas götürməyə razılaşdı. Siyasi Komitə, SSRİ, Fransa, İngiltərə, ABŞ və Kanada nümayəndələrindən ibarət Komissiya yaratdı. Bu ölkəiər iki qətnamə layihəsinin həmmüəllifləri oldular.

1."Bütün silahlı qüvvələrin və bütün silahların nizamlanması, məhdudlaşdırılması və mütənasib surətdə ixtisarı, tərksilah üzrə komissiyanın məruzəsi";

2."Silahlann ixtisarı və atom, hidrogen silahlarının və kütləvi qırğın silahlarının başqa növlərinin qadağan edilməsi məsələsi üzrə beynəlxalq konvensiyanın (müqavilənin) bağlanması haqqında".

Hər iki qətnamə qəbul olunmuşdu. Beynəlxaiq Konvensiyanın bağlanması haqqında qətnamədə deyilirdi ki, Baş Məclis "belə bir nəticəyə gəlir ki, qəti və razılaşdırılmış təkliflər haqqında saziş əldə etmək üçün, yeni cəhdlər edilməli və həmin təkliflər tərksilah haqqında müddəaları nəzərdə tutan beynəlxalq konvensiyanın layihəsinə daxil olmalıdır.

Bu qətnamələrin qəbul edilməsi o demək idi ki, 1946-cı ildən sonra ilk dəfə olaraq, BMT-də onun üzvləri tərksilah kimi ən vacib beynəlxalq problem üzrə yekdillik göstərmişdilər.

## 2.U.ÇörçillinFulton çıxışı. "Soyuq müharibə"nin ilk böhranları (İran, Yunanıstan, Türkiyə)

### 2.1.İran böhranı və U.Çörçillin Fulton çıxışının beynəlxalq təsiri

Sovet xarici siyasət strategiyasının ilk aşkar nəticələri İran, Yunanıstan və Türkiyə böhranları idi. Potsdam qərarlarına görə, SSRİ, ABŞ və Böyük Britaniya dünya müharibəsi başa çatdıqdan sonra, İranın Almaniyaya yönəlməsinin qarşısını almaq üçün 1942-ci ildə İrana göndərilən qoşunları, oradan çıxartmalı idilər.

13 sentyabr 1945-ci ildə, İran hökuməti qoşunların çıxarılması tələbi ilə, hər üç ölkəyə müraciət etdi. Amerika qoşunları 1 yanvar 1946-cı ildə təxliyə edildi. Martın 2-də İngilislər İranı tərk etdilər. Sovet İttifaqı qoşunların çıxarılması üçün konkret tarix verməkdən imtina etdi. Bunun səbəbləri var idi. İranda, II Dünya müharibəsinin son illərində, etnik azlıqların - şimal-qərbdəki azərbaycanlıların İran Azərbaycanında və cənub-qərbdəki kürdlərin İran Kürdüstanında milli inqilabi hərəkatının artması müşahidə edilirdi. Onlar, liderləri Tehrandakı Şah-İran hökumətindən geniş muxtariyyət istəyən, separatçı hərəkatlar tdi.

İran rəhbərliyi, eləcə də Qərb paytaxtlarında, SSRİ-nin İran Azərbaycanını İrandan ayırması və Sovet Azərbaycanı (Azərbaycan SSR) ilə birləşdirməsi üçün separatçılara kömək edə biləcəyindən ehtiyat edirdi. 1945-ci il noyabrın 18-də, İran Azərbaycanında İran Xalq Partiyasının (Tudə partiyası- İran Kommunist Partiyası) təşkil etdiyi üsyan başladı. Mərkəzi hökumət üsyanı yatırtmaq üçün, Tehrandan qoşun göndərdi, lakin onlar sovet qüvvələri tərəfindən tutulan ərazilərə buraxılmadı. 1946-cı ilin martında, İran hökuməti, sovet hərbi rəhbərliyinin fəaliyyətindən BMT Təhlükəsizlik Şurasına şikayət etdi.

SSRİ, qoşunlarının İran ərazisində olmasından istifadə edərək, İranın şimalında neft güzəştləri əldə etmək üçün Tehrana təzyiq etdi. Neft güzəştləri problemi ilə əlaqəli olan, qoşunların çıxarılmasına aid Sovet-İran arasında çətin danışıqlar getdi.

İranın cənubu uzun illər boyu, Böyük Britaniyanın təsir zonası olduğuna görə, İngiltərənin ictimai rəyi baş verən hadisələrə xüsusilə sərt reaksiya verdi. Lakin, İngiltərə qoşunlarının İrandan çıxmasına baxmayaraq, Sovet qoşunlarının orada qalması, ingilis siyasətçilərini narazı salmışdı, onlar özlərini aldadılmış hiss edirdilər.

İran böhranının qızğın çağında, 5 mart 1946-cı ildə, 1945-ci ildə təqaüdə çıxan, İngiltərənin keçmiş Baş Naziri Uinston Çörçill, Fultonda (Missuri, ABŞ) Vestminster kollecində etdiyi məşhur çıxışında SSRİ-yə qarşı kəskin ittihamlar irəli

sürdü. O, kapitalist dünyasını kommunizmə qarşı birləşməyə və “səlib müharibəsinə” çağırdı. İki yapon şəhərinin atom bombardmanından yeddi ay sonra, Çörçill Fultonda Amerika Prezidentinin yanında çıxış edərkən, SSRİ-ni atom silahı ilə hədələmiş və Rusiyaya münasibətdə sərt siyasət yeritməyə açıqca çağırışlar etmişdi. Bu çıxış, leyborist hökumətinin Baş Naziri Ettli ilə qabaqcadan razılaşdırılmışdı. Qərbdə müəyyən dairələr Çörçillin Fultondakı nitqini, onun kommunizmə qarşı yürüşünə açıq çağırışını təqdir edirdilər. Bu nitqində, Çörçill faktiki olaraq antifaşist qüvvələrin əməkdaşlığının sonunun çatması, ingilis-amerikan ölkələrinin hegemonluğunun bərqərar olması barədə bəyanat verdi. Dünyada sabitliyə zəmanət verən, atom bombasına malik olan ABŞ-dır. Nitqin məzmununda, qərb rəhbərlərinin həmrəyliyi hiss olunurdu.

Çörçill, Moskvanı dünyanı iki yerə bölən "dəmir pərdə" yaratmaqda günahlandırırdı. ABŞ-ı və İngiltərəni, kommunist təhdidinə qarşı mübarizə etmək üçün, "anqlo-saksontərəfdaşlığı"nın gücləndirməyə çağırırdı. İngilis siyasətçisinin çıxışı zamanı, ABŞ Prezidenti H.Trumen salonda idi. O, U.Cörçillin söylədiyi fikirləri inkişaf etdirməmiş, lakin onlara etiraz da etməmişdi. Dünyada "Fulton çıxışı", "soyuq müharibə"nin bəyanatı kimi qəbul edilmişdi, onun başlanması, məcazi olaraq, Britaniyanın istefada olan Baş Naziri tərəfindən elan edilmişdi.

Çörçillin çıxışı, bir çox cəhətdən beynəlxalq təsirə malik oldu, çünki I.V.Stalin bu məsələyə birbaşa cavab vermişdi. 14 mart 1946-cı ildə, xüsusi müsahibədə bu çıxışa kəskin münasibət bildirərək, qeyd etdi ki, əslində bu çıxış müharibəyə çağırış deməkdir. Mətbuat, Stalinin ehtiyatsız ifadələrini istifadə edərək, SSRİ ilə Qərb arasındakı "müharibə" problemini qəzetlərin şərhində əsas mövzuya çevirdilər. Nəticədə, dünyanın müxtəlif ölkələrində siyasi mühitdə qorxu hissi artmağa başladı. SSRİ ilə Qərb arasında qarşıdurmanın gərginləşməsi başlandı.

İran böhranı, 1946-cı ilin aprelində, Sovet-İran dialoqu zamanı həll edildi. Güzəşt olaraq, SSRİ üçün əlverişli şərtlərlə, Sovet-İran neft cəmiyyətinin yaradılması və İran Azərbaycanının nümayəndələrinin İran Məclisində təmsilçiliyinin genişləndirilməsi haqqında razılıq əldə edildi. 9 may 1946-cı ildə, Sovet qoşunları İrandan çıxarıldı və iyunda İran Azərbaycanında olan üsyan yatırıldı. Həmin ilin sentyabrında, İran Kürdüstanında separatçıların mərkəzləri ləğv edildi.

Böhranın sonunda Vaşinqton, Moskvanın ABŞ və İngiltərənin İranla bağlı sərt mövqeyinə görə, güzəşt etmək məcburiyyətində qalmasına əmin oldu. İ.V.Stalin belə nəticəyə gəldi ki, SSRİ-yə qarşı İngiltərə-Amerika ittifaqı qurulmuşdur.

## 2.2.Yunanıstan böhranı və ölkədə gedən vətəndaş müharibəsində qüvvələr nisbəti

1941-ci ilin iyun ayında, Yunanıstanın alman qoşunları tərəfindən işğalından sonra, Kral II Georq və ailəsi ölkədən qaçdı. İşğal edilmiş ərazidə kommunistlərin mühüm rol oynadığı partizan hərəkatı - yunan xalqının xalq azadlıq ordusu (ELAS) yarandı. Onun, qüvvələri tərəfindən 1945-ci il üçün, ölkənin üçdə iki hissəsi alman qoşunlarından azad edildi. 1944-cü ilin oktyabrında, Qərb müttəfiqlərinin dəstəyi ilə Kral hakimiyyətinin silahlı qüvvələrinin bir hissəsi, Yunanıstana gətirildi və onlar kommunist dəstələri ilə döyüşməyə başladılar. Münaqişə 1945-ci ilin fevralına qədər davam etmişdi.

Sovet İttifaqı yunan kommunistlərinə təsirə malik idi. Sovet hökuməti, I.B.Titonun qüvvələri tərəfindən nəzarətdə saxlanılan Yuqoslaviya ərazisindən keçərək, onlara kömək edə bilərdilər, lakin, İ.V.Stalin, qeyri-rəsmi məlumatlara əsasən, müharibə illərində "böyük üçlüyün" razılığı ilə, Yunanıstanın Böyük Britaniya təsir dairəsinə verildiyinə görə, İngiltərə ilə münasibətləri gərginləşdirmək istəmirdi. Yunan kommunistlərinə güzəştə getmək tövsiyə edildi. 1945-ci il fevralın 12-də, Afinanın yaxınlığındakı Varkiza şəhərində, solçu dəstələrin rəhbərləri ilə Kral hökuməti nümayəndələri arasında saziş bağlandı. Bu müqaviləyə görə, hakimiyyət monarxiyaya verildi. Lakin, yunan kommunistləri bir hissəsi bu qərarla razılaşmadı.

1946-cı ilin yayında, kral hakimiyyətin solçulara qarşı, hərbi təzyiqləri artırması cəhdləri səbəbindən böhran kəskinləşdi. Yunanıstanda 1949-cu ilə qədər, davam edən vətəndaş müharibəsi başlandı. Qərb paytaxtlarında, bunun məsuliyyətini tamamilə Moskva üzərində gördülər, lakin bu qismən gerçək idi. Yunanıstanın kommunistləri xaricdən kömək almaq imkanına sahib olsalar da, SSRİ yenə də, bu cür dəstəkdən çəkinməkdə davam etmişdi. Bunun səbəbi, Yunanıstana ərazi iddiasında olan, dost Bolqarıstanı qıcıqlandırmamaq istəyi də daxil olmaqla, yunan kommunistlərinin barışmaz olmaları idi. Əslində isə, yunan kommunistlərinə olan dəstəyin əsas təşəbbüskarı I.B.Tito idi.

## 2.3.SSRİ-nin Türkiyəyə iddiaları və ABŞ-ın mövqeyi

1945-ci ilin fevralında, Türkiyə rəsmi olaraq Almaniyaya müharibə elan etdi, lakin ona qarşı hərbi əməliyyat həyata keçirmədi. İkinci dünya müharibəsi illərində, SSRİ ilə Türkiyə arasında münasibətlərdə qarşılıqlı inamsızlıq yaranmışdı. Moskva, Ankaranın Almaniya tərəfində çıxış edəcəyini gözləyərək, hazırlıqlar görürdü. Lakin, Türkiyə müharibəyə girməkdən çəkindi və bununla o qazandı. Sovet

İttifaqının, Türkiyə ilə münaqişəyə girmək üçün, heç bir rəsmi səbəbi yox idi, belə ki, 1925-ci ildən sonra, iki ölkə arasında dostluq və bitərəflik müqaviləsi mərhələli yenilənirdi. Sonuncu dəfə, 1935-ci ildə 10 il uzadıldı, onun etibarlılığı 7 sentyabr 1945-ci ildə bitirdi. 19 mart 1945-ci ildə, müqavilənin mətnində nəzərdə tutulduğu kimi, etibarlılıq müddətinin bitməsinə 6 ay qalmış SSRİ, Türkiyə hökumətini onu yeniləmək niyyətində olmadığı barədə xəbərdar etdi. Ankarada bu, SSRİ-nin Türkiyəyə münasibətinin sərtləşməsi barədə bir xəbərdarlıq kimi qəbul edildi.

Potsdam konfransında, Sovet İttifaqı Türkiyə ilə birlikdə boğazların təhlükəsizliyini təmin etmək hüququnu alınmasına çalışırdı. Lakin, SSRİ-nin bu tələbləri dəstəklənmədi. Sovet-Türkiyə müqaviləsini ləğv etmək qərarını nəzərə çatdıran, Sovet İttifaqı Ankaradan ikitərəfli səviyyədə, boğazlar zonasında özü üçün əlverişli bir təhlükəsizlik sahəsi əldə etməyə çalışdı. 7 avqust 1946-cı ildə, Türkiyə hökumətinə Qara dəniz boğazlarında gəmi keçidinin şərtlərinin dəyişdirilməsi ilə bağlı danışıqlara girmək və SSRİ-nin boğazlar bölgəsində Sovet hərbi bazası yaratmasına icazə verilməsi təklifi ilə nota göndərildi. Türkiyə notanın məzmunu barədə məlumatı, o vaxt Parisdə olan ABŞ Dövlət katibi Ceyms Frensis Birnsə çatdırdı.

Amerika mənbələrinə görə, Sovet notası Vaşinqtonda ciddi qəbul edildi, çünki Amerika rəhbərliyi İran böhranı dövründə SSRİ-nin hərəkətlərinə münasibətdə göstərilən "yumşaqlığa" görə özünü tənqid etməkdən çəkinməmişdi və bu dəfə daha sərt olmaq qərarına gəldi. ABŞ-da, bu notadan sonra, Türkiyəyə qarşı hərbi təzyiq olacağı təqdirdə, SSRİ-yə qarşı hərbi qarşıdurmanın mümkün vasitələri məsələsi müzakirə edildi. 1946-cı ilin yazında və payızında, Amerikan və ingilis kəşfiyyatının əldə etdiyi məlumatlarına görə, Sovet İttifaqı öz qoşunlarını Rumıniya, Bolqarıstan və Sovet Cənubi Qafqazının ərazilərində cəmləşdirmişdi. Müxtəlif mənbələrə görə, Rumıniyada 600.000-ə qədər, Bolqarıstanda 235.000-ə qədər sovet əsgəri yerləşdirilmişdi. ABŞ və Böyük Britaniyada belə fikir müəyyənləşmişdi ki, Türkiyəyə qarşı Sovet İttifaqı tərəfindən silahlı hücumun edilməsi ehtimalı var.

Tezliklə, Türkiyə və Moskvadakı Amerika nümayəndəliyi, Vaşinqtona, Sovet tərəfinin Ankaraya qarşı təcavüzkar addım atmaq niyyətinin əlamətlərinin olmaması barədə məlumat verdilər. Böhran baş vermədi. Qərb mənbələrinə görə, Türkiyə hökuməti aldıqları notanı gözlənildiyindən daha az sərt hesab etmişdilər. Moskva münaqişəyə girmək niyyətində deyildi. Bəlkə də, ABŞ və İngiltərənin boğazlar barədə notaya verdiyi kəskin münasibəti nəzərə alan, Sovet hökuməti verdiyi tələblərinin qəbul edilməsində israr etməmişdi. Oktyabr ayında, Amerika və İngiltərə kəşfiyyatı, Türkiyə sərhədləri yaxınlığında sovet qüvvələrinin

fəallığında azalma qeydə aldı. Ancaq rəsmi olaraq, SSRİ 1953-cü il mayın 30-dək, Ankaraya verdiyi iddialardan əl çəkməmişdi.

Türkiyə hadisələri, ABŞ rəhbərliyini, Şərqi Aralıq dənizində hərbi bazaların yaranmasına ehtiyacın olması inamını artırdı. ABŞ, hərbi potensialını modernləşdirmək üçün Türkiyəyə hərbi və iqtisadi yardım göstərilməsi qərarına gəldi. Vaşinqton, Yaxın Şərqdən neft daşınmasına daha çox diqqət ayırırdı ki, onun təhlükəsizliyi Aralıq dənizindəki vəziyyətdən asılı idi. Bu bölgəni, SSRİ-dən ayıran Yunanıstan və Türkiyə, ABŞ-ın strateji planları üçün xüsusi əhəmiyyət kəsb edirdi.

## 3.SSRİ-nin "qarşısının alınması" nəzəriyyəsinin yaranması və "Trumen doktrinası"

### 3.1.Kennanın "uzun teleqramı" və ABŞ-ın xarici siyasəti

1946-cı ilin qışında və yazında, Qərb ictimai fikirlərində SSRİ ilə əməkdaşlıq mövzusu haqqında dönüş yarandı. Qərb siyasətçilərinin liberal hissəsinin nümayəndələri tənqidi mövqelərə keçdilər. 22 fevral 1946-cı ildə, ABŞ-ın SSRİ-dəki müvəqqəti işlər vəkili Corc Kennan, Vaşinqtonda yerləşən ABŞ Dövlət idarəsinə, "uzun teleqram" (8 min söz) adı ilə tanınmış məlumat göndərdi və orada, ABŞ ilə Sovet İttifaqı ilə münasibətlərini inkişaf etdirmək imkanlarını ətraflı qiymətləndirmişdi.

Teleqramda deyilirdi ki, SSRİ ilə ABŞ-ın dinc yanaşı yaşaması, beynəlxalq məsələlərin həllində onların əməkdaşlığı mümkün deyildir, çünki, SSRİ, Qərb ölkələrinə qarşı təxribatla məşğuldur. Ç.Kennanın fikrincə, SSRİ, İran körfəzində mövqeyini möhkəmləndirməyə, İrana və Türkiyəyə təsirini artırmağa, hətta Cəbəllütariq boğazına nəzarət etməyə və öz məqsədlərinə çatmaq üçün BMT-dən istifadə etməyə çalışır. Ona görə, SSRİ ilə güc mövqeyindən danışıb, onun qarşısını almaq lazımdır.

C.Kennan Amerika rəhbərliyini, "Ruzvelt"in SSRİ ilə etibarlı tərəfdaşlıq siyasətini davam etdirmək siyasətindən çəkindirirdi və Moskva ilə ümumi qəbul edilmiş diplomatik əsasda əməkdaşlıq etmək və danışıqlar aparmaq ehtimalı ilə bağlı tərəfdaşların maraqlarını nəzərə alaraq, "ticarət" mövzusunda danışıqlar apararaq və götürülmüş öhdəliklərə sadiqlik prinsipinə riayət etməklə tərəflərin arqumentlərini ölçmə və səmərəli qiymətləndirmə məsələlərində, xəyallardan və həddən artıq artırılmış ümidlərdən yaxa qurtarmağa çağırırdı. Teleqram qəti şəkildə bildirirdi: Sovet rəhbərliyi yalnız gücə hörmət edir və buna görə də onunla dialoq təmkinlə, lakin qətiyyətlə aparılmalı, ABŞ-ın, Moskva tərəfdən qarşılıqlı razılıq zəmanəti

olmadan, heç bir güzəştə getməyəcəyini açıq şəkildə bildirməlidir. Sovet rəhbərliyinin fikirlərini açıqlayan teleqramın müəllifi yazırdı: "... Biz, ABŞ-la daimi “modus vivendi”nin əldə edilə bilməyəcəyi fikrinə malik olan, fanatik bir siyasi qüvvə ilə işbirliyinə girməyə hazırlaşırıq.”

**Qeyd:“Modus vivendi” (*həyat tərzi, mövcudluq şəraiti*) tərəflərin, rəsmi müqavilə olmadığı təqdirdə, riayət etdikləri bir nizamlama üsuludur.**

Teleqramın ən vacib müddəası, Sovet rəhbərliyinə xas olan təbii təcavüzkalıq siyasətinin olması haqqında nəticə çıxarmasıdır, bu da istənilən halda, SSRİ-ni xarici ərazilərini genişləndirməyə, sovet təsir dairəsini yeni ərazilərdə yayılmasına təşviq edir. Müvafiq olaraq, C.Kennan, SSRİ-nin bu cür istəklərinə yeganə əks cavabın, Moskvanın “qarşısının alınması” olduğunu hesab edirdi.

**Qeyd: “Qarşısının alınması” siyasəti, Sovet İttifaqının artıq qazana bildiyi təsir zonalarında saxlanılması, SSRİ-nin öz sərhədlərindən kənara çıxaraq, sovet təsirini yayması cəhdlərinə qarşı, "yer kürəsinin hər bir nöqtəsində yenilməz qüvvəsi"nin qoyulmasıdır.**

"Uzun teleqram" yalnız ABŞ Dövlət katibi üçün nəzərdə tutulsa da, Vaşinqtonun xarici siyasətini təyin edən bir neçə min insan, bir neçə ay ərzində onunla tanış olmuşdu. ABŞ-ın SSRİ-dəki səfiri Averel Qarrimandan bu teleqramın surətini Dəniz naziri Ceyms Forrestala, onun mimeoqrafla (surət çoxaldıcı) surətinin çıxarılması, digər hökumət üzvlərinə və ABŞ-ın yüksək vəzifəli hərbi zabitlərinə göndərilməsi tapşırıldı. Eyni zamanda, Dövlət departamenti rəhbərliyinin göstərişi ilə C.Kennanın yazısı, əsas siyasi məlumat kimi, ABŞ-ın bütün xarici səfirliklərinə göndərildi.

1947-ci ilin fevralında, artıq, ABŞ dövlət idarəsində şöbə müdiri işləyən C.Kennanın məqaləsi, iyul ayında, “mister İks” imzası ilə Amerikanın aparıcı “Forinaffers” jurnalında çap olundu və Birləşmiş Ştatların geniş ictimaiyyəti arasında müzakirə mövzusu oldu. C.Kennanın məqaləsində deyilirdi ki, ABŞ-ın və Qərb dünyasının təhlükəsizliyi, SSRİ-də sosializm quruluşunun ləğvindən asılıdır. SSRİ-nin beynəlxalq aləmdə bütün fəaliyyəti, ABŞ tərəfindən dünya ağalığına cəhd kimi qiymətləndirilirdi. C. Kennan, Qarri Trumen rəhbərliyinin əsas fikrini ilk olaraq ortaya atdı: SSRİ-ni təhrik etmək deyil, ona ABŞ-ın sərtliyini göstərmək, Moskvanın rəyinə zidd olsa da, özünün Amerika marağını müdafiə etmək lazımdır. 1945-ci ilin mart ayında, Sovet İttifaqına etimad etmək məsələsinə aid olan sorğuda, iştirak edən amerikalıların 55% -i, 1946-cı ilin martında isə yalnız 33% -ə SSRİ-yə güvəndiyini bildirmişdi.

### 3.2.“Trumen doktrinası”nın formalaşması

2 fevral 1947-ci ildə, London ABŞ rəhbərliyinə maliyyə çətinlikləri səbəbindən Yunanıstan və Türkiyəyə yardım göstərməkdə davam edə bilməyəcəyi barədə məlumat verdi. Vaşinqtonda, İngiltərə Şərqi Aralıq dənizini tərk edəcəyi təqdirdə, Sovet İttifaqının siyasi boşluğu ələ keçirəcəyindən ehtiyat etməyə başladılar. Yunanıstanda kral hökumətinin kommunistləri məğlub edə bilməməsi vəziyyəti daha da gərginləşdirmişdi. Yunan solçu qüvvələrinin mümkün qələbəsi, kommunist partiyalarının böyük nüfuzunun olduğu İtaliya və Fransaya da təsir edərək, bu ölkələrdə inqilab dalğasının başlanmasına səbəb ola bilərdi.

12 mart 1947-ci ildə, ABŞ Prezidenti H.Trumen, Yunanıstan və Türkiyəyə təcili yardım üçün, Konqresdən 400 milyon dollar maliyyə vəsaitinin ayrılmasını istədi. Konqres bu təklifləri təsdiqlədi və 1947-ci il mayın sonuna qədər vəsait ayrıldı. Xahişini əsaslandıran H.Trumen, bu vəsaitin, "dünya kommunizmi"nin təhdidlərinin qarşısını almaq üçün lazım olduğunu bildirdi. Prezident bu məsələni həll edərkən, əsasən iqtisadi metodlardan istifadə etməyi təklif etmişdi. Onun doktrinasının əsas mahiyyəti bunda idi. Prezident nitqində, C.Kennanın "uzun teleqramı"nın mülahizəsi və terminologiyasından istifadə edildi. Ümumiyyətlə qəbul olunur ki, H.Trumen 1947-ci ilin martında, konqresdə çıxış etdikdən sonra, ABŞ-ın xarici siyasətinin əsasını təşkil edən “qarşısını alma” nəzəriyyəsi rəsmi olaraq qəbul edildi.

ABŞ konqresi tərəfindən ayrılan vəsait, məktubda deyildiyi kimi, Türkiyə və Yunanıstanda sosial- iqtisadi sahəyə xərclənmədi. Yunanıstanda ABŞ-ın maliyyə yardımının 60 %-i, Türkiyədə isə 100 %-i hərbi məqsədlərin maliyyələşdirilməsinə yönəldildi. “Trumen doktrinası” adlanan bu siyasətə əsasən, Türkiyə və Yunanıstana ABŞ-dan 1000 nəfərə qədər müşavir göndərilmişdi.

Türkiyə və Yunanıstan ilk növbədə strateji mövqeyi ilə ABŞ-ın diqqətini cəlb etmişdi. Sosialist ölkələri ilə həmsərhəd olan həmin dövlətlərin ərazisində, ABŞ hərbi bazalar yaratmaq fikrində idi. ABŞ çalışırdı ki, Türkiyə və Yunanıstan aldıqları yardımın müqabilində sosialist ölkələrinə qarşı onun müttəfiqi olsunlar. Təbii ki, SSRİ “Trumenindoktrinası”na qarşı etiraz bəyanatı ilə çıxış etdi.

1940-cı illərin sonuna qədər, ABŞ, dünyanın ilk iqtisadi dövləti olmaq üstünlüyünü uğurla həyata keçirdi. Bu illər, ABŞ-ın hegemon hakimiyyəti dövrü idi. Dünyada oxşar vəziyyət yalnız XX əsrin 90-cı illərinin sonunda, SSRİ-nin dağılmasından sonra yaranmışdır.

Bir neçə əsrlik qarışmamaq siyasətinin hökmranlığından sonra, Amerika beynəlmiləlçiliyi (əslində müdaxiləçilik) fəlsəfəsinin yayılması dövrü başladı. O, azadlıq və demokratiyanı qorumaq naminə, yüksək missiyanı yerinə yetirmək üçün, azadlıq ideyası ilə, dünyanın ilk dövləti kimi, Amerika Birləşmiş Ştatlarının mənəvi

taleyi ideyasına əsaslanırdı. Birləşmiş Ştatlar, bu missiyanı yerinə yetirmək üçün xərcləri ödəməyə hazır idi. O, bunu amerikan ideallarını, Birləşmiş Ştatların və Amerika xalqının milli maraqlarını qorumaq ehtiyacı ilə əsaslandırırdı.

14 iyun 1948-ci ildə, ABŞ senatı "Vandenberq qətnaməsi" adlanan qərar qəbul etdi (senator A.Vandenberqin təklifi ilə). Bu qətnaməyə görə, "ABŞ-ın konstitusiya hüququna uyğun olaraq iştirak edəcəyi, regional və digər kollektiv müqavilələr, milli təhlükəsizliyə təsir edən məsələlərdə, uzunmüddətli və kollektiv qarşılıqlı yardımın göstərilməsinə əsaslanmalıdır." Bu qətnamənin qəbulu xarici siyasətin təcridçianlayışlarının rədd edilməsi və ABŞ-ın iştirakı ilə daimi bloklar yaratmaq siyasətini aparmaq demək idi.

## 4. İkiqütblü sistemdə "Soyuq müharibə"nin başlanması və onun mərhələləri

Yalta-Potsdam sisteminin xüsusiyyətləri onun çərçivəsində inkişaf edən beynəlxalq münasibətlərin yüksək rəqabət qabiliyyətinə səbəb oldu. Qarşılıqlı ideoloji yadlaşma səbəbindən, iki güclü ölkə arasında olan təbii rəqabət qərəzli düşmənçiliyə çevrilirdi. 1947-ci ilin aprel ayından etibarən, Amerikanın siyasi ədəbiyyatında məşhur Amerika iş adamı və siyasətçisi Bernard Baruxun təklifi ilə "soyuq müharibə" ifadəsi ortaya çıxdı. Tezliklə bu ifadə məşhur Amerika yazıçısı Uolter Lippmannın çoxsaylı məqalələri sayəsində məşhurlaşdı. Bu ifadə 1945-1991-ci illərin beynəlxalq münasibətlərini xarakterizə etmək üçün tez-tez istifadə edilmişdir.

**Qeyd: "Soyuq müharibə" - qarşı qarşıya çıxan dövlətlər sistematik olaraq bir-birlərilə düşmənçilik edir və bir-birlərinə qarşı güclə təhdid edilən addımlar atır, lakin eyni zamanda çalışırlar ki, bir-biriləri ilə əsl "isti müharibə" vəziyyətində olmasınlar.**

Sovet hakimiyyətinin möhkəmləndiyi 1947-1953-cü illər soyuq müharibənin ən çətin dövrləri idi. Son illərdə iki fövqəldövlət: ABŞ və SSRİ qlobal təsir uğrunda şiddətli rəqabət aparırdılar. ABŞ Avropada güclənmək, bütün dünyada nüfuz qazanmaq üçün, SSRİ isə Mərkəzi və Cənub-Şərqi Avropada, Asiyada, xüsusən də Çin, Vyetnam və Koreyada güclənmək üçün mübarizə aparırdı.

Müharibədən sonra baş verən əsas dəyişikliklərdən biri də dövlətlərarası münasibətlər və siyasət çərçivəsinin genişlənməsi idi. Əgər 1945-ci ilə qədər dünya məsələləri ancaq Avropa qitəsində həll edilirdisə, indi Asiya, Afrika və Latın Amerikasının iri dövlətləri də bu məsələdə fəallıq göstərməyə başladılar. Habelə indi atmosfer və kosmos da dövlətlərarası münasibətlər meydanına çevrilmişdi. Beləliklə, planetdə dünyanın inkişafına güclü təsir göstərən qarşı-qarşıya durmuş iki super dövlət, iki ictimai sistem meydana gəldi. Faşizmə qarşı birgə vuruşmuş müxtəlif

ictimai-siyasi quruluşlu ölkələrin müharibədən sonra da birgə əməkdaşlıq arzuları və razılaşdırmaları puç oldu, Onlar arasında «soyuq müharibə» başlandı. «Soyuq müharibənin nəzəri əsasını C.F.Dallesin, balanslaşdırma" ideyası təşkil edirdi.

Soyuq müharibənin başlanması üçün ilk çağırış İngiltərənin Baş naziri U.Çörçillin 1946-cı il martın 5-də Fultondakı çıxışı oldu. O, kapitalist dünyasını kommunizmə qarşı birləşməyə çağırdı. Onun fikrincə, dünyanı tiraniya hədələyir və bu tiraniyanın mərkəzi sovet kommunizm rejimidir. Faktiki halda Çörçill öz nitqində ABŞ və Böyük Britaniyanın hərbi-siyasi ittifaqını yaratmağa çalışırdı. O, kommunizm təhlükəsi önündə "dəmir pərdə" yaratmağı təklif edirdi. Fulton nitqindən sonra "dəmir pərdə" termini əslində "soyuq müharibə"nin sinoniminə çevrilmiş oldu.

Bu illərdə Koreya münaqişəsi, Uzaq Şərqdə münaqişə, Hindistan-Pakistan və Hind-Çin münaqişələri də olmuşdur. Çində, Vyetnamda, Koreyada və Yunanıstanda vətəndaş müharibələri, Çexoslovakiya, Polşa və Şərqi Almaniyada isə Sovetlərə itaətsizlik olmuşdu. Bu dövr, Trumen Doktrinasının və Marşal Planının Avropada uğurla həyata keçirildiyi, həmçinin Mərkəzi və Cənub-Şərqi Avropanın, Uzaq Şərqin və Şərqi Asiyanın bir sıra ölkələrində (Çin, Koreya, Vyetnam) sovet tipli institutların yaradıldığı dövrdür. 1945-1948-ci illərdə SSRİ, Avropada bir milyon kvadrat km ərazisini, 92 milyon əhalini öz təsiri altına aldı. Bu dövr həm də bəşəriyyəti dəhşətə gətirən nüvə silahının ABŞ inhisarından çıxması ilə səciyyələnirdi.

Soyuq müharibə ideoloji-siyasi mübarizə və təxribat, sürətlə silahlanma, iqtisadi təzyiq, pozucu kəşfiyyatlar, hərbi-iqtisadi yarış-rəqabət formasında aparılırdı. Tərəflər qlobal miqyasda, dinc" yolla bir-biri ilə ölüm-dirim müharibəsi aparırdılar. Faktiki olaraq o, XX əsrin üçüncü dünya müharibəsi idi. Birinci və ikinci dünya müharibələrindən fərqli olaraq o, daha çox uzanmışdı.

Müharibədən sonrakı ilk illərdə ABŞ dünyada nüvə silahına malik yeganə ölkə idi. O, SSRİ-yə təzyiq vasitəsi kimi "atom inhisarından" istifadə edirdi. 1945-ci ilin noyabrında ABŞ-ın Birgə Kəşfiyyat Komitəsinin hazırladığı siyahıda SSRİ-nin 20 böyük şəhəri atom bombası atmaq üçün hədəf seçilmişdi. 1945-ci ilin dekabrında ABŞ birləşmiş hərbi plan komitəsinin hazırladığı sənəddə 17 sovet şəhərinin bombalanması nəzərdə tutulurdu. 1947-ci ildə hazırlanan "Broyler Planı"na 24 şəhərə 34, "Troyan Planı"na görə, 1948-ci ilin oktyabrında 70 şəhərə 133, və 1949-cu ilin oktyabrında hazırlanmış "Offtekl" planı 104 şəhərə 292 atom bombası atılmasını nəzərdə tutmuşdu. Bu sirli planlar barədə ictimaiyyətə yalnız 70-ci illərin sonlarında məlumat verilmişdir. Lakin ABŞ-ın sosializmi hərbi yolla məhv etmək üçün hazırladığı planların heç biri həyata keçirilmədi. Çünki SSRİ-nin potensialını

və onun cavab tədbirlərini nəzərə alan ABŞ rəhbərliyi bu planları həyata keçirməyə cəsarət etmədi.

"Soyuq müharibə" müəyyən inkişaf mərhələlərindən keçmişdi:

-- 1947-1953-cü illər – ilk qarşıdurma dövrü;

-- 1953-1959-cu illər – yumşalmanın başlanması;

-- 1960-1969-cu illər – "Soyuq müharibə"nin yenidən kəskinləşməsi;

-- 1969-1974- illər-yumşalmanı yeni dalğası;

-- 1975-1979 – yumşalmanın azalması gedişində ziddiyyətlərin artması;

-- 1979-1985- axırıncı tutaşma;

-- 1985-1991-ci illər - "Soyuq müharibə"nin sona çatması dövrü.

"Soyuq müharibə" çağırışına cavab olaraq dünyada sürətli silahlanma, hərbi-siyasi və iqtisadi qütbləşmə prosesi başladı. Tərəflər hərbi xərcləri artırdılar və zaman-zaman kütləvi qırğın qüvvələri yaratmağa başladılar.

Hələ 1945-ci ildə atom bombasını partladan ABŞ 1952-ci ildə nüvə silahını sınaqdan keçirdi. 50-ci illərin ortalarında kontinentlərarası bombardmançı donanması, sonlarında isə ilk raketdaşıyıcı sualtı qayıq yaratdı. 60-cı illərin əvvəllərində ABŞ nüvə partlayıcısı daşımağa qadir, meydançasında təyyarələr olan zərbəvurucu atom aviadaşıyıcıları yaratmağı genişləndirdi. ABŞ "Polaris" və "Micitmen" tipli raketlərlə silahlanaraq SSRİ-ni bu sahədə qabaqladı. 60-cı illərin sonlarında amerikanlar ilk dəfə özü nişan alan baş hissələrə ayrılan raketlər, 70-ci illərdə Perşinq-II raketləri, 80-ci illərin ortalarında orta və uzaq mənzilli raketlər, sonralar isə neytron döyüş vasitələri və kimyəvi silahlar yaratdılar.1982-ci ildə ABŞ geniş silahlanma proqramı qəbul etdi. Proqrama güclü qitələrarası ballistik raketlərin, çoxsaylı ""Micitmen" tipli qitələrarası raketlərin, minlərlə dəqiq və uzaq mənzilli raketlərin və raket daşıyan sualtı qayıqların genişləndirilməsi daxil edilməsi nəzərdə tutulmuşdu. Bu proqrama, 1983-cü ildə irəli sürülən Strateji Müdafiə Təşəbbüsü də (SOİ) daxil idi.

Bunlara cavab olaraq, SSRİ də öz növbəsində hərbi potensialını gücləndirməyə başladı. 1949-cu ildə ilk dəfə atom silahı, daha sonra isə 1953-cü ildə nüvə silahı sınaqdan keçirildi. SSRİ-də müxtəlif növ güclü raket qurğuları yaradıldı. 1957-ci ildə qitələrarası raketlərin yaradılmasını başa çatdırdı. 1977-ci ildə SS-20 adlı orta mənzilli raketlər yaradıldı. O, Amerikanın Perşinq 2 raketindən qat-qat üstün idi. Hələ 1986-cı ildə SSRİ-də 441 belə raket var idi. Bir sıra silahların gücünə və sayına görə SSRİ ABŞ-dan irəlidə idi.

"Soyuq müharibə" şəraitində hərbi xərclər də son dərəcə artdı. Ümumiləşdirilmiş məlumatlara görə 1975-ci ildə 51 ölkənin hərbi xərcləri 340 milyard dollar olmuşdusa, 1980-cı ildə o, 598 milyard dollara çatmışdı. 1980-cı ildə NATO-nun

hərbi xərcləri 240 milyard dollar, Varşava paktının hərbi xərcləri 210 milyard dollar olmuşdu. 1982-ci ildə əhalinin hər adam başına düşən hərbi xərclər isə ümumən dünyada 145 dollar, Şimali Amerika ölkələrində 797 dollar, Avropa ölkələrində 265, Latın Amerikası ölkələrində 34, Asiya ölkələrində 25, Afrika ölkələrində 22 dollar təşkil edirdi.

## 5. "Marşal planı" və onun beynəlxalq siyasi əhəmiyyəti

### 5.1. ABŞ-ın "Marşal planı"nın yaranmasının səbəbləri

1946-1947-ci illərin qışı çox sərt keçdi. Qərbi Avropa ölkələrində kömür çatışmazlığı hiss olunurdu. Kömürün Rurdakı istehsalı müharibədən əvvəl səviyyəyə çatmamışdı. Sileziyadan qərbə Polşa kömürü gətirilmirdi, bu kömür ancaq Polşa və Sovet İttifaqının ehtiyaclarını ödəyə bilirdi. ABŞ, alman məsələsində SSRİ ilə qarşılıqlı anlaşmadan isə, Qərbi Avropanın iqtisadi vəziyyətinin yaxşılaşmasının daha vacib olduğu fikrinə meyl etdi. 1947-ci ilin yanvarında, alman məsələsində sərt siyasətin tərəfdarı olan Corc Marşal ABŞ-ın dövlət katibi təyin edildi.

1947-ci ilin yazında, Fransa hökuməti aqrar məhsullarının çatışmamazlığı ilə əlaqədar, taxıl və makaron məhsullarının təchizatı xahişi ilə ABŞ-a müraciət etdi. İtaliya da, kömək üçün ABŞ-a müraciət etdi.

ABŞ-ın Avropa ölkələrinə kömək etməsinə razılıq verməsi üçün, lazım olan şərtlərin elan edilməsinin münasib vaxtı gəldi. Amerika hokumətinin nümayəndələri belə bir şərt qoyurdular ki, yardım göstərərkən, ABŞ, yalnız demokratik prinsiplərə sadiq qalan və müstəqilliyini qorumaq üçün qətiyyətli tədbirlər görən dövlətlərə üstünlük verəcək. Eyni zamanda, Avropa ölkələrinin demokratik ideallarına və müstəqilliyinə təhdidlərin kommunistlər və onları dəstəkləyən Sovet İttifaqı tərəfdən gəldiyi nəzərə çatdırılırdı. Vaşinqtonun mövqeyi, Avropa ölkələrinin siyasi həyatında anti-kommunist tərkibinin gücləndirilməsinin zəruriliyini irəli sürdü. Fransa, İtaliya və Belçikanın mötədil partiyalarına Amerika yardımı almaq üçün, kommunistlərlə əməkdaşlıqdan imtina edilməsi təklif edilirdi.

Qərbi Avropada Amerikanın müraciəti başa düşüldü. 1947-ci il mayın əvvəlində, Fransada baş nazir, sosialist Pol Ramadye hökuməti yenidən təşkil edərək, kommunistləri oradan uzaqlaşdırdı.

Amerikalı diplomatlar, İtaliyadakı kommunistləri nüfuzdan salmaq üçün işə başladılar. Xristian Demokrat Partiyasının rəhbərliyi sollar ilə sazişin səmərəsiz olduğunu təbliğ etməyə başladılar. Amerika Birləşmiş Ştatlarının nümayəndələri, amerikan fondları hesabına İtaliyada iqtisadi sabitləşmənin mümkün olması üçün,

maaşları dondurmağın, inflyasiyanın qarşısını almaq üçün tədbirlər görməyin, daxili istehlakı məhdudlaşdırmağın, sosial proqramları ləğv etməyin və balanslı büdcəyə keçməyin vacib olduğunu bildirdilər.

Bu cür tədbirlər kommunistlər üçün qəbuledilməz olduğundan, Kommunist Partiyası ilə əməkdaşlıq, Amerika yardımından səmərəli istifadə etməyə imkan verməyəcək idi. Lakin, bu yardımı İtaliya Kommunist Partiyasının proqram layihələrinin icrasına sərf etməyə ABŞ razılıq verməyəcək idi. Parisdə olduğu kimi Romada da, ABŞ-ın tövsiyələrinə qulaq asdılar. 1947-ci ilin yazında, kommunistlər İtaliya hökumətində iştirak etməkdən uzaqlaşdırıldılar.

Lakin, 1948-ci ilin aprelində, İtaliyada ümumi seçkilərə bir il var idi, bu müddətdə ölkədə siyasi vəziyyət yenidən sollara doğru dönə bilərdi. Xristian demokratlar parlamentdə möhkəm səs çoxluğuna malik deyildi. Amerika diplomatiyası məqsədini, XDP-nın seçkilərdə qələbəsini təmin etməkdə görürdü.

Vaşinqtonda, kommunistlərin seçkidə qalib gələcəyi təqdirdə, ABŞ-ın İtaliyaya hərbi müdaxiləsi tədbirlərinə gizli şəkildə hazırlıq görürdülər.

1947-ci ilin iyununda, C.Marşal Harvard Universitetində (ABŞ) Avropadakı iqtisadi böhranı aradan qaldırmağın yolları haqqında nitq söylədi. O bildirdi ki, H.Trumen hökuməti, Avropanın iqtisadi bərpa proqramını maliyyələşdirməyə hazırdır, bu şərtlə ki, avropalılardan bu məsələ haqqında təklif gəlməlidir. İngiltərə və Fransanın Xarici İşlər nazirləri E.Bevin və J.Bido müvafiq layihənin hazırlanması ilə məşğul olmağa başladılar.

İngiltərədə olan vəziyyət Fransada olandan yaxşı olmasına baxmayaraq, onlar da, çətinlik çəkirdilər. Britaniya Leyborist Partiyası seçicilərə tam məşğulluğun təmin ediləcəyini, səmərəsiz sahələrdə milliləşdirmə həyata keçirəciyini və "rifah dövlətinin" əsasını qoyacağını vəd etdi. Amerika pulu daxili böhrana düşməmək üçün lazım idi. London, Amerika yardımının paylanmasında, ABŞ və digər Avropa hökumətləri arasında vasitəçi olmağa ümid edirdi.

**Qeyd: "Rifah dövləti" ehtiyat mənbələrin yenidən bölüşdürülməsi üçün, vergi və büdcə maliyyələşdirməsindən istifadə edərək, əlillərə xüsusi diqqət yetirməklə, sosial təminat və rifah üçün məsuliyyət daşıyan dövlət modelidir.**

ABŞ, İngiltərənin Yaxın Şərqdə və Şərqi Aralıq dənizində strateji vəzifələrini həyata keçirmək qabiliyyətini qorumaqda maraqlı idi, ABŞ bu rolu qəbul etməyə hazır deyildi. Vaşinqton, Londonun Qərbi Avropa inteqrasiya planlarına mane olmaması üçün, əlavə təsir vasitələri əldə etməyə çalışırdı. Çünki, Böyük Britaniya bu məsələdə maraqlı deyildi, o, inteqrasiya prosesinin Britaniya Birliyi ilə əlaqələrinə xələl gətirəcəyindən ehtiyat edirdi.

Nəzəri cəhətdən, "Marşal planı" yalnız Qərbi Avropa üçün hazırlanmamışdı. Şərqi Avropa dövlətlərini və Sovet İttifaqını da onda iştirak etməyə dəvət etdilər. Qərb dövlətləri, Moskvanın müsbət cavabına ümid etmirdilər, lakin heç olmasa mülayim, hələ tamamilə kommunist olmayan, Çexoslovakiya və Macarıstan hökumətlərini bu plana cəlb etmək, onlar üçün çox vacib idi.

Lakin bu plan, SSRİ üçün qəbuledilməz idi, çünki onun əsas ideyası bərpa etmək deyil, Avropa iqtisadi mühitini yenidən qurmaq, bura Almaniyanı daxil etmək və Avropanın inkişafına istiqamət verəcək, beynəlxalq qurumlar yaratmaq idi. Söhbət, Amerika pulları və Amerikanın qeyri-rəsmi liderliyi ilə, regional iqtisadi tənzimləmə mexanizminin yaradılması haqqında idi. Sovet İttifaqı belə bir plana razı ola bilməzdi, çünki, bu plan, SSRİ-ni dünya iqtisadi siyasətinə inteqrasiya edərək, onun müstəqilliyini məhdudlaşdıracaq və Şərqi Avropada olan yeni müttəfiqlərini ondan "uzaqlaşdıracaq” idi.

Marşal planı ilə bağlı məsləhətləşmələr, 27 iyun - 2 iyul 1947-ci ildə, Parisdə, SSRİ, Fransa və Böyük Britaniya Xarici İşlər Nazirlərinin sessiyasında baş tutdu. Sovet tərəfini Xarici İşlər naziri V.M.Molotov təmsil etmişdi. İyulun 30-da, keçirilən ilkin müzakirədən sonra, Molotov planın əsas mahiyyətini müzakirə etməkdən imtina etdi, o, Almaniyanın bu planda iştirakını, üçtərəfli formatda müzakirə edilməsinin məqsədəuyğun olmadığını əsas gətirdi: Almaniya məğlub olunmuş ölkədir və rəsmi halda, onunla bağlı siyasi qərarlar dörd qalib dövlət tərəfindən birlikdə qəbul olunmalı idi. SSRİ, Avropa ölkələrinə iqtisadi yardımın suverenliyə hörmət və daxili işlərə qarışmamaq prinsipi əsasında göstərilməsinə tərəfdar idi. SSRİ təklif etdi ki, hər bir Avropa ölkəsinin tələbatını öyrənmək və ABŞ tərəfindən ediləcək yardımın həcmini müəyyən etmək üçün xüsusi komitə yaradılsın. İqtisadi yardım ilk növbədə müharibə dövründə işğal edilmiş və qələbədə böyük rol oynamış ölkələrə göstərilməli idi. Lakin, bu təkliflər İngiltərə və Fransa tərəfindən qəbul edilmədi.

Moskvanın demarşına baxmayaraq, Fransa və Böyük Britaniya hökumətləri, “Marşall planı”nı müzakirə etmək üçün, 12 iyul 1947-ci ildə Parisdə keçiriləcək konfransa, Şərqi Avropa dövlətləri də daxil olmaqla, 22 dövlətə dəvətnamə göndərdi. Sovet İttifaqı dəvəti rədd etdi və Şərqi Avropa ölkələrinin hökumətlərini də konfransda iştirakdan imtina etməyə məcbur etdi. SSRİ-nin təsiri ilə, Finlandiya da "Marşall planı"na qoşulmağa cəsarət etmədi.

**Qeyd: Demarş- bir dövlətin hökumətinin və ya diplomatik orqanlarının digər dövlətin hökuməti qarşısında diplomatik çıxışı və ya rəsmi notası.**

## 5.2. Avropa İqtisadi Əməkdaşlıq Təşkilatını yaradılması

Parisdə 16 dövlətin iştirak etdiyi konfransın keçirilməsi baş tutdu. Konfrans, "Marşal planı"na rəhbərlik etmək üçün, Avropa İqtisadi Əməkdaşlıq Təşkilatının (sonradan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) yaradılması haqqında mühüm qərar verdi. ABŞ Konqresi, bu plana vəsait ayrılması ilə bağlı müraciətə, 1948-ci ilin yanvarından əvvəl baxmağa başlaya biləcəyi üçün, AİƏT-in yaradılması haqqında rəsmi konvensiya, yalnız 14 aprel 1948-ci ildə imzalanmışdı.

AİƏT-in rəhbər orqanı, iştirakçı ölkələrin nümayəndələrindən ibarət olan şura idi O, konsensus yolu ilə məcburi xarakteri olmayan tövsiyələri qəbul edə bilirdi. AİƏT vəzifəsi, Qərbi Avropanın iqtisadi inteqrasiyasının yaradılmasını, onun daxilində mal mübadiləsində, valyuta hədlərində və tarif maneələrində kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması yolu ilə, geniş bir bazarın yaradılmasını elan etdi. AİƏT Konvensiyası 1960-cı ilə qədər qüvvədə qaldı.

Onun əsasında yaradılan qurum hökumətlərarası əməkdaşlıq prinsipi ilə fəaliyyət göstərirdi. Ayrı-ayrı üzv dövlətlərin fəaliyyətlərini məhdudlaşdırmırdı və millətlərarası səlahiyyətlərə sahib deyildi. Q.Trumenın rəhbərliyi, “Marşal planı”na, 1948-ci ildən 1952-ci ilə qədər 4 il müddətinə Konqresdən 29 milyard dollar istədi. Əslində, Avropaya təxminən 17 milyard dollar gətirildi.Yardım əsasən, borc və əvəzsiz maliyyə kreditləri əsasında, Amerika sənaye məhsullarının əmtəə təchizi formasında verilirdi. Əsas yardım alanlar Fransa, Böyük Britaniya, İtaliya və Qərbi Almaniya oldu.

Bu planın ən tənqidi qiymətləndirilməsi, Amerika əmtəə məhsullarının, ABŞ dövlət büdcəsi hesabına, Avropa istehlakçılarına verməkdə maraqlı olduğuna dair dəlilə əsaslanırdı. Vaşinqton bu addımı, Amerika iqtisadiyyatında həddən artıq yetişən istehsal böhranının qarşısını almaq üçün atmışdı. Əslində, Avropaya kömək etmək üçün, ayrılan vəsaitin əhəmiyyətli bir hissəsi, Amerika istehsalçı şirkətlərinin hesablarına getdi.

Üstəlik, 1948-ci ildə yardım alarkən, Avropa ölkələrində, dağıntılar əsasən aradan qaldırılmışdı. Almaniyadan başqa bütün ölkələr, müharibədən əvvəlki istehsal səviyyəsinə çatmışdı. Buna görə də, bir çox Avropa ölkələri üçün, "Marşal planı" iqtisadi dağılmadan xilas yolu deyil, iqtisadi inkişafı sürətləndirmək üçün bir vasitə oldu.

Amerika yardımı, Avropa ölkələrini Amerika iqtisadiyyatına bağlamaq üçün bir vasitə və Qərbi Avropanın inkişafına təsir imkanı idi. Şərqi Avropa ölkələrinin, SSRİ ilə iqtisadi əlaqələrə istiqamələnməsi Qərbi Avropa ölkələrini ənənəvi qida, xammal və bazar mənbələrindən məhrum etmişdi. Onlar, ABŞ-dan, bəzi Avropa

dövlətlərinin sahub olduqları müstəmləkə mülklərindən və dünyanın periferik bölgələrindən gətirilən idxala keçməli oldular

Ödəniş böhranından qorxan ABŞ, Avropa ölkələrinə dollar kreditləri ayırdı ki, onlar ABŞ-dan və üçüncü ölkələrdən aldıqları malların dəyərini ödəyə bilsinlər. Nəticədə, ABŞ dollarının inkişaf edən ölkələrin iqtisadiyyatına axını ilə, bu ölkələrdə ilkin dollarlaşma baş verdi. Müstəmləkələrə ABŞ valyuta axını, onlarda ərzaq istehsalını stimullaşdırdı. Həmçinin, Orta Şərqdə də neft hasilatı sürətlə artırdı.

## 5.3.“Marşal planı”nın əhəmiyyəti

“Marşal planı”, ABŞ-ı köhnə metropoliya dövlətlərinin zəif tərəflərini və onların beynəlxalq sistemin periferiyalarından getməsinin qaçılmazlığına inandırdı. Prezident H.Trumen, Avropadan kənarda kommunizmlə qarşıdurma yaratmaq barədə düşünməyə başladı. Köhnə dünyadakı vəziyyət, Vaşinqtona nə qədər qeyri-sabit görünürdüsə, alternativ iqtisadi münasibətlərin inkişaf etdirilməsi lehinə fikirlər daha güclü idi. 1940-1950-ci illərin sonunda ABŞ-ın Kanada, Latın Amerikası, Sakit okean hövzəsi və Şimali Afrikanın ehtiyat mənbələrinə marağı artmağa başladı.

Nəhayət, “Marşal planı”, Avropada "Hitler, Mussolini və ya Stalinə görə zənginləşmə" lehinə olan fikirləri zərərsizləşdirdi, əvəzinə dövlət paternalizm(atalıq) və ya zorakı bərabərlik sistemlərini yaratdı. İctimai sərvətə doğru hərəkətin alternativ bir variantının yaranmasına kömək edərək, siyasi demokratikləşmə və sahibkarlarla fəhlələr arasındakı münasibətlərin modernləşdirilməsi yoluna öz töhfəsini verdi. Avropadakı iqtisadi yenidənqurmanın nəticəsi, müharibələr dövrünə xas olan ideyalaşdırmanı əvəz edən, kütləvi şüurun "əmtəələşməsi" oldu,

**Qeyd: Paternalizm-(atalıq, lat. Paternus- "ata") - hakimiyyətin vətəndaşların ehtiyaclarını təmin etdiyi münasibətlər sistemi və bunun müqabilində vətəndaşlar hakimiyyətə onlara həm ictimai, həm də fərdi davranış modellərini diktə etməyə imkan verirdi.**

Plan, Amerika kapitalizminə amerikan standartlarını, istehsal təcrübələrini və normalarını, sənaye münasibətlərinin etikasını, istehsalın elmi təşkilini, avadanlıqların təkmilləşdirilməsini və yeni ideyaların ixracını daxil etməklə onu yenidən qurdu. Amerika iqtisadi təfəkkürü, Avropaya yeni bir şüar gətirdi - "həm mənfəət, həm də maaş". ABŞ iqtisadi modelinə xas olan, istehlakın stimullaşdırılmasına verilən diqqət, Avropa cəmiyyətləri şəraitində, mühafizəkar sosial iyerarxiyaların dağılmasına kömək edərək, yeni inqilabların qarşısını almaq üçün, siniflərarası dialoqu asanlaşdırdı.

## 6.Qərbdə təhlükəsizlik strukturlarının yaranması: Qərbi Avropa Birliyi, NATO

### 6.1.Brüssel paktının bağlanmasının hədəfləri

1947-ci ilin iyulunda, ABŞ Konqresi Milli Təhlükəsizlik qanununu qəbul etdi, buna əsasən ölkədə, Prezidentin əsas əlaqələndirici orqanı kimi, Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) və Milli Təhlükəsizlik Şurası (MTŞ) yaradıldı. MTŞ-nin tövsiyəsi ilə, Qərbi Avropa qeyri-kommunist hökumətlərinin Amerika pullarının gözləntilərinə dözə bilməyəcəklərindən narahat olaraq, 1947-ci ilin dekabrında, ABŞ rəhbərliyi Konqresdən Fransa, İtaliya və Avstriyaya vacib xərclərini ödəmək üçün, təcili 600 milyon dollar kredit ayırmasına müvəffəq oldu. Eyni zamanda MKİ-nin məlumatına görə, kommunistlərin 1948-ci ilin aprelində, ilk ümumi seçkilərdə qalib gəlməməsi üçün, İtaliyada həyata keçirilməli olan xüsusi əməliyyatlar üçün də böyük vəsait ayrıldı.

Vəziyyət, avropalıların özlərini də narahat edirdi. Ancaq, Fransada olan sağlar müharibədən sonrakı ilk illərdə, SSRİ və fransız sollarından daha çox, Almaniyadan qorxurdular. Fransa, alman təhdidindən o qədər çox əziyyət çəkmişdi ki, dünya kommunizminin təhlükəsi, onun bu qorxusunu unutdurmağa qadir deyildi. Paris "Marşal planı" çərçivəsində kömək istəyirdi, ancaq fransız rəhbərliyi, Almaniyanın öz qüvvələrini bərpa etdiyi təqdirdə, gələcək üçün təminat tələb edirdi.

İngiltərə Fransanın narahatlığını yalnız qismən bölüşürdü. Lakin o, "Marşal planı"nın uğurunu təmin etməli və Qərbi Avropa dövlətlərinin parçalanmasının qarşısını almalı idi. Britaniya diplomatiyası, ABŞ-ın agenti kimi çıxış edirdi: Vaşinqton maliyyə vəsaiti təqdim edir, London isə avropalı tərəfdaşlar arasındakı münasibətlərə vasitəçilik edirdi.

1947-ci ilin martın 4-də, İngiltərə və Fransa gələcəkdə alman təhlükəsinin yaranmasına qarşı Dünkerk ittifaq sazişini (Dünkerk paktı) imzaladılar.

17 mart 1948-ci ildə, artıq iki deyil, beş Avropa ölkəsi - Böyük Britaniya, Belçika, Lüksemburq, Hollandiya və Fransa Brüsseldə İqtisadi, Sosial və Mədəni Əməkdaşlıq və Kollektiv Müdafiə Sazişini imzaladılar. Müqavilə 50 il müddətinə bağlanmışdı. Müqavilənin giriş hissəsində deyilirdi ki, sazişin məqsədlərindən biri gələcəkdə Almaniyadan olan yeni hərbi təhlükənin yaranmasına qarşı durmaq idi. Bu müqavilə Brüssel Paktı adlanır. O, Qərb İttifaqının yaranmasını elan etdi. O, Almaniya və İtaliyaya qarşı vuruşan və ya onların təcavüzünün qurbanı olmuş, Qərbi Avropa ölkələrinin çoxtərəfli iqtisadi və siyasi-hərbi ittifaqı idi.

**Qeyd: Avropa yanaşması - Avropalıların öz qüvvələrinə və ənənəvi Avropa dəyərlərinə güvənməsi əsasında Avropada təhlükəsizliyin inkişafı.**

Brüssel müqaviləsinin imzalanması, təhlükəsizliyin təminatının Avropa yanaşmasının uğuru idi. Buna baxmayaraq, bu müqavilə ABŞ-da məmnuniyyətlə qarşılanmışdı. Çünki, ABŞ üçün alman məsələsində Amerikanın siyasətinə aid olan, Fransanın qorxularını sakitləşdirmək vacib idi. Qərb Birliyinə, İngiltərə və Fransa istisna olmaqla, yalnız kiçik və zəif ölkələr girmişdilər.Onların, alman təhdidini dayandırmaq üçün heç bir potensialı yox idi, ona görə də, Amerika tərəfi Fransanı əlavə təhlükəsizlik zəmanətləri axtarışına cəlb etmək üçün yol tapmağa çalışırdı. Amerika siyasətçilərinin fikrincə, bu zəmanətlərin ən başlıcası, Avropanın təhlükəsizliyi məsələsində Amerikanın öhdəlikləri olmalı idi.

### 6.2.NATO-nu yaranması

ABŞ-da, 1948-ci ilin noyabrında, keçirilən Prezident seçkilərində qələbə qazanan, ikinci müddət üçün Prezident vəzifəsində qalan, Demokratlar Partiyasının namizədi H.Trumen öz hücum siyasətini fəallaşdırdı. Bu, Amerikanın Qərbi Avropadakı hakimliyini təkcə iqtisadi deyil, həm də hərbi-siyasi metodlarla möhkəmləndirməyə imkan verdi. Yeni hökumətdə, Dövlət katibi vəzifəsini, xəstələnərək siyasətdən uzaqlaşan C.Marşalldan daha kəskin fikirlər söyləyən, Din Açeson tutdu. O, Vilsonun Millətlər Cəmiyəti dövründən sonra, ABŞ-ın ən inqilabi xarici siyasət ideyasının - Avropada sülh şəraitində və daimi əsasda ABŞ-ın rəhbərliyi altında hərbi-siyasi ittifaq yaratmaq planını reallaşdırmağa səy göstərdi. Amerika, Avropada sülh dövründə, ABŞ-ın rəhbərliyi altında, davamlı olaraq fəaliyyət gəstərəcək, hərbi-siyasi ittifaq yaratmaq planını irəli sürdü. Rəsmi olaraq, ingilis dominionluğunu saxlayan, lakin əslində müstəqil olan Kanadanı da, bu blokun iştirakçısı etmək fikri var idi.

14 yanvar 1949-cu ildə, ABŞ Dövlət idarəsinin nümayəndələri, ilk dəfə Qərbi Avropa ölkələrinin təhlükəsizliyinə təhdid olduğunu və Təhlükəsizlik Şurasının daimi üzvlərinin yekdilliyi prinsipinə görə, BMT-nin bu məsələdə səmərəsiz olduğunu açıq şəkildə bildirdilər. 18 mart 1949-cu ildə, Şimali Atlantika Müqaviləsinin layihəsi dərc edildi və 4 apreldə Vaşinqtonda ABŞ, Qərb Birliyi ölkələri, Kanada, habelə Danimarka, İslandiya, Norveç və Portuqaliyanın iştirakı ilə konfrans çağırıldı. Vaşinqton konfransında İtaliya da iştirak edirdi., Müharibədən əvvəl Almaniya ilə ittifaqa girən İtaliya, müharibə bitdikdən sonra, ilk dəfə Qərb ölkələrinin ailəsinə qayıtdı. Elə həmin gün nümayəndə heyəti, Şimali Atlantika Müqaviləsini imzaladılar. NATO termini və "Şimali Atlantika Müqaviləsi Təşkilatı" ifadəsi (North Atlantic Treaty Organization, NATO) daha sonra ortaya çıxdı. Bu termin, ilk dəfə 20 sentyabr 1951-ci ildə, Ottavada təşkilatın iştirakçıları arasında müqavilənin hazırlanmasında imzalanmış müqavilədə istifadə edilmişdir.

Bir neçə il birlik, siyasi- hüquqi bir fenomen olaraq fəaliyyət göstərdi, heç elə bil, belə bir təşkilat mövcud deyil idi. Lakin, 1950-ci illərin əvvəllərində, NATO Baş katibin başçılığı ilə, siyasi və hərbi idarəetmə təşkilatına çevrildi. Birləşmiş komandanlıq yarandı, onların sərəncamına müxtəlif qoşun növləri verildi, hərbi təlim bazaları yaradıldı, ümumi silah istehsalı yaradıldı və onların standartlaşdırılması tətbiq edildi.

Qısa dürüst ifadəsinə görə, Vaşinqton müqaviləsinin mətni sərt idi. O, sərt hərbi öhdəliklər yerinə yetirirdi. Onun mətnində (5-ci maddə) deyilir: "... Avropada və ya Şimali Amerikada bir və ya daha çox tərəfə silahlı hücum, hamıya birlikdə silahlı hücum sayılacaq; ... və belə bir silahlı hücum baş verərsə, tərəflərin hər biri təcili olaraq, fərdi və ya digər tərəflərlə birlikdə, silahlı qüvvənin istifadəsi daxil olmaqla, zəruri olan tədbirləri görərək, hücum olunan tərəfə və ya tərəflərə yardım göstərəcəkdir." Bu şərh, iştirakçı ölkələrin, sanki özləri hücuma məruz qaldıqları kimi, dərhal bir-birlərinə hərbi yardım göstərmələri demək idi.

Lakin, Amerika Birləşmiş Ştatlarının özünə hücum edildiyi təqdirdə, ABŞ Prezidenti dərhal qüvvə tətbiq etməyi əmr edə bilər, eyni zamanda, Senata verdiyi qərarın təsdiq olunması üçün müraciət etməli idi. Senat hökumətin qərarı ilə razılaşmaq və ya razılaşmamaq hüququnu özündə saxlayırdı. Senat bu addıma razılıq verməsə idi, hökumət öz qərarını ləğv etməli və Amerika qoşunlarını 30 gün ərzində daimi yerləşdikləri yerlərinə qaytarmalı idi. Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsinə görə, ABŞ Prezidenti, sanki, Birləşmiş Ştatlarının özünə hücum edildiyi halda olduğu kimi, sadələşdirilmiş bir qaydalara əməl edərək, Qərbi Avropa ölkələrini və Kanadanı müdafiə etmək üçün, Amerika silahlı qüvvələrindən istifadə edə bilərdi.

Müqavilənin tərəfləri öz aralarında hərbi-siyasi və hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək öhdəliyi götürürdülər. Bu məqsəd üçün, 1949-cu ilin avqustunda, Amerika Konqresi, o dövr üçün böyük bir məbləğ olan, 4 milyard dollar vəsait ayırmışdı. ABŞ, Qərbi Avropa dövlətlərində hərbi quruculuq xərclərinin böyük hissəsini öz üzərinə götürməsi, Şimali Atlantika Müqaviləsini Qərbi Avropa dövlətləri üçün çox cəlbedici edirdi. NATO-nun mənzil- qərargahı Parisdə yerləşirdi.

**Qeyd: Atlantik yanaşma - Qərb ölkələrinin təhlükəsizliyini təmin etmək üçün, Avropa dövlətlərinin ABŞ ilə fəal əməkdaşlığı.**

Vaşinqton müqaviləsi, atlantik yanaşma siyasətinin, Avropanın təhlükəsizliyini təmin edilməsində əldə olunan qələbəsinin nəticəsi idi. Avropa və Atlantik meyllər arasındakı mübarizə bununla bitmədi. Lap əvvəldən, Fransanın xarici siyasətində

özünü göstərən avropasizm, Avropadakı siyasi təfəkkürə təsir göstərməkdə davam edirdi.

## 7."Birinci Berlin böhranı" və beynəlxalq münasibətlər

7.1."Almaniya ilə separat müqavilə"
7.2.Berlin böhranının əsas səbəbləri

### 7.1."Almaniya ilə separat müqavilə"

Almaniya məsələsində Moskva ilə danışıqların uğursuz olması, ABŞ və İngiltərəni separat addımlara sövq etdi. Bu məsələdə əsas vəzifə, Vaşinqton və Londonun Parisin razılığını almaq idi. Brüssel müqaviləsi bağlandıqdan və Qərb ittifaqının yaradılmasından sonra, ABŞ Prezidenti H.Trumenin Amerika qoşunlarının Almaniyada qalma müddətini uzatmaq barədə verdiyi vədlərdən sonra Fransanın narahatlığı azaldı.

Parisdə, Amerika "Marşal planı" çərçivəsində iqtisadi yardım gözləyirdilər. Ancaq bu da hamısı deyildi. Rur kömür hövzəsi, Bizoniyanın hüdudlarında olduğuna görə, fransız tərəfi daha az Rur kömürü almağa başlamışdı. Çünki, fransızlar kömür təchizinin paylanmasında səsvermə hüququna malik deyildilər. ABŞ və İngiltərə, Fransaya Sovet İttifaqının iştirakı olmadan, Ruru idarə etmək üçün, beynəlxalq nəzarət orqanının yaradılmasını təklif etdilər, Bunun müqabilində Paris, Fransaya aid işğal bölgəsinin Bizoniyaya birləşdirməyə razı olmalı idi. Bunun nəticəsində, Bizoniya Trizoniya olacaq idi. Təkliflər və onunla əlaqədar aparılan danışıqlar gizli saxlanılırdı.

29 oktyabr 1947-ci ildə, Belçika, Hollandiya və Lüksemburq, üç tərəfli gömrük ittifaqı və 13 martda 1948-ci ildə isə "Beniluks" adlı iqtisadi ittifaq yaratdılar. 1948-ci ilin fevral - mart və aprel - iyun aylarında, Londonda ABŞ, İngiltərə, Fransa, habelə Belçika, Hollandiya və Lüksemburq nümayəndələrinin, alman məsələsində mövqelərini əlaqələndirmək üçün, görüşləri keçirildi. Londonda gizli danışıqlar gedən zaman, beynəlxalq vəziyyət çətinləşmişdi. Bu, təkcə Çexoslovakiyadakı vəziyyətin gərginləşməsi deyil, eyni zamanda İtaliyada aprel seçkilərinin nəticəsi ilə bağlı narahatlıq doğuran gözləntilər idi. ABŞ, anti-kommunist təbliğatı üçün, İtaliya hakimiyyət orqanlarına, siyasi partiyalara və ictimai fikirlərə qanunsuz təsir vasitələrindən istifadə edərək, İtaliya məsələsində sərt mövqe tutmaqda davam edirdi. 18-19 aprel 1948-ci il seçkilərində, həyata keçirilən təzyiqlər nəticəsində, XDP əsaslı qələbə qazanaraq, 48.5% səs aldı.

Silahlı müdaxilə etmədən, əldə olunan İtaliya Kommunist Partiyasının məğlubiyyəti, ABŞ-ın Avropa siyasətindəki Moskva ilə razılaşdırılmayan birtərəfli

xəttin düzgünlüyünə, həm SSRİ-də, həm də Qərbi Avropada olan rəqiblərinə qarşı apardığı təzyiq siyasətinə əminlik verdi. Artıq, zəifləmiş Fransanın müqavimətini zərərsizləşdirmək asan oldu. London danışıqlarının gedişi sürətləndi. 1 iyun 1948-ci ildə, altı ölkənin Almaniyaya dair sazişləri imzalandı:

Birincisi, Rur üzrə Beynəlxalq Nəzarət Təşkilatı yaradıldı,

ikincisi, altı ölkə Almaniyanın "Marşal planı"nda iştirakı ilə razılaşdı,

üçüncüsü, tərəflər Fransız işğal sektorunun Bizoniya ilə birləşməsinə kömək etməyə razı oldular,

dördüncüsü, Almaniyanın qərb sektorlarının idarə olunmasında cari məsələlərini həll etmək üçün, Hərbi Təhlükəsizliyin İttifaq Şurası yaradıldı.

Eyni zamanda, altı ölkə, Saar bölgəsinin ayrılması haqqında Fransanın qərarının qanuniliyini tanıdı, bu tədbirin müvəqqəti xarakter olduğunu bildirərək, Saar vilayətinin probleminin gələcəkdə referendum yolu ilə nizamlanmasının zəruriliyini nəzərə çatdırdılar. Nəhayət, Qərbi Almaniyanın konstitusiyasını hazırlamaq üçün vacib bir qərar verildi. Faktiki olaraq, müstəqil Qərbi Almaniya dövləti ideyası, altı Qərb dövləti tərəfindən təqdir olundu. London qərarlarına əsasən, Qərb sektorları üçün ayrıca bir pul islahatı hazırlanması başlandı, bu, 18 iyun 1948-ci ilə təyin edildi.

London görüşü, əslində, Qərb ölkələrinin Almaniyaya münasibətdə, separat sülh nizamlama xarakteri daşıyırdı. Bu nizamlanma natamam və ilkin xarakter daşıyırdı. Lakin hüquqi və siyasi baxımdan, Qərb dövlətlərinin Yalta və Potsdamdakı razılaşmalarına yenidən baxılmasına ilk cəhd kimi təqdim olunurdu. 1945-ci il modelinin status-kvosu dağılmağa başlandı və bunun nəticəsində beynəlxalq sistemdə qeyri-sabitlik proseslərinin yaranması başlandı.

### 7.2.Berlin böhranının əsas səbəbləri

Amerika siyasətinin təcavüzkar xarakteri,1948-ci ilin ortalarına qədər artmaqda davam etdi. Birləşmiş Ştatlar, Moskvanın əks cavablarından qorxmurdu. Onlar, İ.V.Stalinin ABŞ-ın nüvə üstünlüyünü dərk etdiyinə görə sərbəst olmadığını və onun bütün diqqətinin Şərqi Avropadakı mövqelərini möhkəmləndirməyə yönəldiyini düşünürdülər. SSRİ-nin bu ərazidən kənarda təcavüzkarlıq əlamətləri aşkar edilməmişdir. Amerikalı mütəxəssislər hesab edildilər ki, Sovet İttifaqı öz atom bombasını yalnız, 1950-ci illərin ortalarına yarada biləcəkdir. Bundan əlavə, SSRİ-də, ABŞ ərazisinə gedib geri qayıtmağa imkanı olan strateji bombardmançıların olmadığı məlum idi. Ümumiyyətlə, Qərblə qarşıdurmada SSRİ-nin hərbi hazırlığı aşağı qiymətləndirilirdi.

18 iyun 1948-ci ildə, qərb zonalarında həyata keçirilən pul islahatı, onlarda yeni əskinasların tətbiqi və sonradan Qərbi Berlində paylanmasını nəzərdə tuturdu. Lakin, Qərbi Berlin sovet işğalı zonasının mərkəzində olmaqla, maliyyə və iqtisadi cəhətdən onun bir hissəsi idi. Onların ümumi təchizat mənbələri, nəqliyyat yolları var idi. Qərb dövlətlərinin tədbirləri, Qərbi Almaniyada qiymətdən düşmüş köhnə əskinaslar Şərqi Almaniyada dövriyyədə olduğundan, bu pullar Sovet zonasına axmağa başladı. Bu, şərqdə iqtisadi xaos təhlükəsi yaratdı və Moskva baş vermiş hadisəyə kəskin cavab verdi. 24 iyun 1948-ci ildə, Sovet İttifaqı qərb zonalarından şərqə olan hərəkətlərə və mal daşınmasına qadağa tətbiq etdi. Eyni zamanda, Sovet işğal zonasından Berlinin qərb sektorlarına təchizat dayandırıldı. Şəhərin qərb hissəsi, Sovet işğal zonasından təminat mənbələrindən və qərbdən quru yolu ilə mal almaq imkanından məhrum olmuşdu. Bu vəziyyət ədəbiyyatda "Qərbi Berlinin mühasirəsi" adını almışdır.

Bu vəziyyətin qorunması, şəhərin mülki əhalisinin və orada yerləşdirilən ABŞ, İngiltərə və Fransanın silahlı qüvvələrinin hərbi qulluqçularının iqtisadi sıxışdırılması demək idi. Sovet tədbirlərinə cavab olaraq, ABŞ və Böyük Britaniya, Qərbi Berlindəki hava limanından istifadə edərək, Qərb işğal zonaları ilə Qərbi Berlin arasında hava körpüsü təşkil etdilər. Onun vasitəsilə hərbi nəqliyyat təyyarələri, həyati funksiyaları təmin etmək üçün, bütün lazım olan tələbat mallarını Qərbi Berlinə çatdırmağa başladılar. Qərb hərbi təyyarələri, Sovet işğal zonası üzərindəki hava məkanını pozurdu və Sovet hərbi hissələrinin Şərqi Almaniya ərazisində yerləşdiyi məntəqələrinin üzərindən uçurdular. Bütün bu proseslər, Moskva və Vaşinqtonun sərt bəyanətlər və qarşılıqlı təhdidlərin mübadilələri ilə müşayiət olunurdu. Nə SSRİ, nə də ABŞ müharibəyə hazır deyildi. Təsadüfən, təyyarələrdən hər hansı biri, sovet ordusunun obyektlərinə düşərdisə və ya vurulardısa, müharibə başlaya bilərdi. Toqquşma ehtimalı yüksək idi, hər iki dövlət müharibə hüdudunda öz tarazlıqlarını qoruyurdular.

**Qeyd: Müharibə hüdudunda tarazlıq-- açıq qarşıdurmanın idarə olunan formasıdır, nəzarətsiz qalsa, hər an müharibəyə çevrilə bilər.**

Berlin şəhəri ətrafında, Sovet İttifaqı ilə Qərb dövlətləri arasında hərbi toqquşma ehtimalının artmasının başlanmasına görə, beynəlxalq siyasi vəziyyətin kəskin şəkildə gərginləşməsi məsələsi, dünya tarixində “Berlin böhranı” adlanır. “Berlin böhranı” xoşbəxtlikdən müharibəyə çevrilmədi, Qərb dövlətləri hava yolu ilə təchizatı maneəsiz həyata keçirmə imkanı əldə edə bildilər. SSRİ təyyarələri endirməyə və ya onların uçuşlarına mane olmağa çalışmadı. Böhranın zirvə həddi, 1948-ci il iyunun 24-dən 30-a qədər davam etmişdi. Moskvada, dörd dövlətin səfirləri arasında danışıqlardan sonra, vəziyyətin tənzimlənməsi ilə bağlı müəyyən

razılıqlar əldə edildi. Lakin onlar yerinə yetirilmədiyindən, vəziyyət gərgin olaraq qalırdı. Ancaq, vəziyyətin özü onsuz da sabit idi. Münaqişə tərəflərinin, vəziyyəti kəskinləşdirmək istəmədiyi artıq aydın idi. Berlin ətrafındakı qarşıdurma 23 may 1949-cu ildə, Parisdə keçirilən, XİNŞ-in VI sessiyasına qədər, enmə xətti ilə, davam etdi. Bundan sonra SSRİ qərbdən yük daşımalarına qoyulan məhdudiyyətləri ləğv etdi və vəziyyət normallaşdı.

Qərb paytaxtlarında, Berlin ətrafındakı hadisələr, Stalin diplomatiyasının məğlubiyyəti və Sovet İttifaqının zəifliyinin əlaməti olaraq qiymətləndirildi. Vaşinqton bunu tam qələbə kimi qəbul edirdi. Trumen qəti olaraq, hücum xətti siyasətinin düzgünlüyünə əmin oldu. O, Qərbi Almaniyada işğalçı dövlətlərin idarəçiliyinə son qoyulması və müstəqil Qərbi Alman dövlətinin yaradılması məsələsini həll etmək uğrunda çalışmağa başladı. 1948-ci ilin noyabrında, H.Trumen Prezident seçkilərindən keçməli idi. Berlindəki vəziyyət ona ciddi bir üstünlük vermişdi.

Moskvada, baş verən hadisələr, İ.V.Stalini çox əsəbiləşdirmişdi, o, günahkar tapmaq qərarına gəldi. 1949-cu ildə, V. M.Molotov Xarici İşlər naziri vəzifəsindən uzaqlaşdırıldı. Onun yerini A.Y.Vışinski tutdu.

## 8.Almaniyada parçalanmanın möhkəmlənməsi. AFR və ADR-in yaranması

### 8.1.AFR-in yaradılması

1948-ci ildə, Qərb dövlətlərinin Almaniyaya aid London görüşü, gələcək Qərbi Almaniyanın dövlət müstəqilliyi üçün konstitusiya yaratmaq səylərini sürətləndirməyə təkan verdi. 1 sentyabr 1948-ci ildə, üç qərb işğal bölgəsinin bir ərazidə rəsmi olaraq birləşməsindən sonra, ilə Bonnda Qərbi almanların seçilmiş nümayəndələrindən ibarət parlament şurası yaradıldı. Onun. Qərbi Almaniya torpaqlarının müvəqqəti qanunverici orqanının hüquqları var idi. Onun lideri, hüquqşünas, tanınmış siyasətçi, 73 yaşlı Konrad Adenauer idi. O, mötədil frankpərəst və "Avropa Almaniyası"nın vətənpərvəri kimi bir nüfuza sahib idi. K.Adenauer, döyüşkən və əvəzçıxanprus ruhunu sevmirdi, onu Almaniyanın bədbəxtçiliyinin səbəbi hesab edirdi. 1945-ci ildə, Almaniyanın müttəfiq qüvvələr tərəfindən işğal etdilməsindən sonra, K. Adenauer ölkənin ən nüfuzlu siyasi partiyasına çevrilən, Xristian Demokratik İttifaqına rəhbərlik etməyə başlamışdı.

1 may 1949-cu ildə, Parlament Şurası yeni konstitusiyanı təsdiq etdi, bunun əsasında 14 avqust 1949-cu ildə, yeni Qərbi Almaniya parlamentinə - Bundestaqa seçkilər keçirildi. Bundestaqın adından, sentyabrın 20-də, müstəqil bir dövlətin,

Almaniya Federativ Respublikasının yaradılması elan edildi. Hökümətinin ilk başçısı (Kansler) K.Adenauer oldu. Bundestaq, Almaniyanın yeni konstitusiyasının Almaniyanın 1937-ci il tarixinə qədər olan torpaqlarına aid olunması haqqında bəyanat qəbul etdi. Bu addım, Almaniyanın elan edilməsi faktı ilə yanaşı, SSRİ tərəfindən mənfi münasibətlə qarşılandı. Sovet İttifaqı, Qərbi Almaniya dövlətini tanımaqdan imtina etdi.

### 8.2.ADR –in yaradılması

Almaniya Federativ Respublikasının yaradılması elan edildikdən sonra, Almaniya məsələsində Moskvanın da əlləri açıldı. İndi, SSRİ-ni Almaniyanı parçalamağa başlamaqda günahlandırmaq mümkün deyildi. Belə məsuliyyət ABŞ-ın üzərinə düşmüşdü. 1945-1949-cu illərdə şərq sektorunda, de-nasistifikasiya və solçu qüvvələrin kommunistlər ətrafında birləşməsi prosesi baş verdi. Sovet zonasında 21 aprel 1946-cı ildə, Almaniyanın Kommunist Partiyası və Sosial Demokrat Partiyası, Almaniya Sosialist Vahid Partiyasında (ASVP) birləşdilər. Köhnə anti-faşist, qeyri-kommunist partiyaların - Xristian Demokratik İttifaqının, Liberal Demokrat Partiyasının fəaliyyətləri qadağan edilmirdi. Sonralar, onlar ADR-də kommunistlərin müttəfiq kimi qorunub saxlanıldı. Almaniyanın şərq sektorundakı inzibati quruluş, dövlət idarəetmə sisteminə çevrilməyə hazır idi.

7 oktyabr 1949-cu ildə, Şərqi Berlində toplaşan Şərqi Almaniya ictimaiyyətın nümayəndələrindən ibarət olan Xalqlar Konqresi, Alman Demokratik Respublikasının (ADR) yaradıldığını elan etdi. Sovet İttifaqı, ADR-ı tanıdı və onunla diplomatik əlaqələr qurdu. Xalq demokratiyasının digər dövlətləri də SSRİ-nin ardınca ADR-i tanıdılar. ADR-in Prezidenti, ASVP lideri Vilhelm Pik oldu. 1950-ci ildə, ADR Polşa ilə aralarındakı dövlət sərhədini və Çexoslovakiya ilə qarşılıqlı ərazi iddialarının olmaması və alman əhalisinin Çexoslovakiya ərazisindən köçürülməsinin bərpa edilməzliyinin tanınması haqqında müqavilə imzaladı.

## 9. Avropa inteqrasiyasının başlanması: AKPB və "Pleven planı". Almaniyanın qərb təhlükəsizlik strukturlarına daxil edilməsi problemi

### 9.1. Qərbi Avropada inteqrasiya prosesi. Avropa Kömür və Polad Birliyinin yaradılması

Hərbi və müdafiə siyasəti sahəsindən Avropaya "Almaniyanın geri qaytarılması" məsələsinin həll edilməsinə başlanması uzaqgörənlik deyildi. Avropa ictimaiyyəti yenə də, Almaniyadan ehtiyat edirdi. Ona görə, fransız "inteqrasistləri" iqtisadiyyatdan başladılar. Fransa milli məclisində, vəziyyət həmişə olduğu kimi yenə çətin idi. Almaniya ilə "inteqrasiyanın" əsas tərəfdarı

Fransanın Siyasət naziri, Avropa siyasətində "atlantik" xəttinin ən fəal tərəfdarı sayılan xristian demokrat Rober Şuman idi. Onun siyasəti, Fransanın ABŞ və NATO ilə sıx əməkdaşlığına əsaslanırdı.

Lakin, "inteqrasiya"ya qarşı Fransanın kömür və polad istehsalı da daxil olmaqla, hər hansı bir sahədə, suverenliyinin məhdudlaşdırılması ilə razılaşmayan qollistlər də var idi. Sosialistlər də inteqrasiya layihələrini dəstəkləmək istəmirdilər, çünki onların həyata keçirilməsinin Fransanın ABŞ-dan asılılığını artıracağına əmin idilər. Belə ki, inteqrasiya təşəbbüsləri birbaşa Amerika tərəfdarı olan R.Şumandan gəlir və Vaşinqton tərəfindən dəstəklənirdi.

AFR-də də, Fransa ilə inteqrasiya aid müzakirələr kəskin şəkildə davam edirdi. Almaniyadakı sağçı radikallar, qollistlər kimi, Qərbi Almaniyanın suverenliyinin inteqrasiya çərçivəsi ilə məhdudlaşdırılmasına qarşı çıxırdılar. Onlar, ADR-dəki "kommunistlərin hakimiyyəti altında" olan, 18 milyon almanı xatırladaraq, onların azad olunması üçün mübarizə aparmağa və məhdudlaşdırıcı öhdəliklər götürməməyə çağırırdılar. Lakin, Kansler K.Adenauer, sağçı tənqidçilərdən fərqli olaraq, şərqi almanları hərbi güc ilə deyil, iqtisadi tərəqqi nümunəsi ilə cəlb etmək ideyasını irəli sürdü. Onun məntiqinə görə, Qərbi Avropa tərəfdaşları ilə inteqrasiya, Almaniyanın rifah halının artmasına və güclü dövlətə çevrilməsinə kömək edəcəkdir. Kansler bu siyasəti, birləşmə mübarizəsi üçün “iqtisadi silah” adlandırırdı.

K.Adenauer, “iqtisadi siyasət” ideyasını, xeyli əvvəldən həyata keçirmək fikrində idi. Bundan başqa, onun zəkasında inteqrasiya layihələri, qeyri-adi siyasət ilə çulğalaşırdı. Belə ki, bu dövrdə, Qərbi Avropada, əsasını müşahidə etmə təşkil edən, özünəməxsus "beynəlxalq katolikçilik" ideyası daha düzgün istiqamət sayılırdı. 1950-ci illərin əvvəllərində, Almaniya və Fransa, həmçinin İtaliya və Belçikada hakimiyyətə gələn hökumətlər, Katolik (Xristian Demokratik) partiyalarının nümayəndələrinin rəhbərliyi ilə təşkil olunurdu, bu da, əsas Avropa ölkələrinin liderləri arasında ideoloji birlik hissi yaradırdı.

Qərbi Almaniya ilə inteqrasiya planı, R.Şumanın tapşırığı ilə, Fransa hökumətinin Baş Planlaşdırma komissarı Jan Monne tərəfindən hazırlanmışdı. Amerika və Qərbi Alman nümayəndələri ilə onun layihə formasının ilkin müzakirəsindən sonra, 9 may 1950-ci ildə, R.Şuman ilk dəfə bu layihəni ictimaiyyətə təqdim etdi.

Layihənin mənası, çoxtərəfli bir hökumət üstü qurumunun formalaşdırılmasından ibarət idi. Bu qurum, kömür və poladın çıxarılması və istehsalı, metallurgiyanın inkişafı, Qərbi Avropa ölkələrində enerji xammalı və metallurgiya məhsulları bazarlarının inkişafı ilə əlaqəli məsələlərə cavabdeh olmalı idi. Paris və Bonn, ortaq

bir Avropa kömür və polad bazarının yaradılması maraqları naminə, öz suverenliyini məhdudlaşdırmağa razı olmalı idilər.

"Şuman planı"nı müzakirə etmək üçün aparılan danışıqlar, 1950-ci ilin iyunundan 1951-ci ilin aprelinə qədər davam etdi və 18 aprel 1951-ci ildə, Avropa Kömür və Polad Birliyinin yaradılması haqqında müqavilənin imzalanması ilə başa çatdı. "Avropa Kömür və Polad Birliyi"nə altı ölkə - Fransa, Almaniya, İtaliya və Benilüks dövlətləri daxil idi. İngiltərə AKPB-yə üzv olmaqdan imtina etdi.

AKPB həqiqətən çoxmillətli bir qurum idi. İşçi orqanları həm iştirakçı ölkələrin parlamentlərindən nümayəndə heyətləri göndərməklə, həm də birbaşa seçkilər yolu ilə yaradılan ali orqan, Nazirlər Şurası və Assambleya idi. Bundan əlavə, Assambleyanın daxilində millət vəkilləri ölkə prinsipinə görə deyil, partiya prinsipinə görə seçilərək, AKPB-nin bütün dövlətlərini təmsil edən, sosial fraksiyalar, xristian demokratlar və liberallardan və s. təşkil edilirdi. Nazirlər Şurası, müvafiq ölkələrin Xarici İşlər nazirlərindən və ya İqtisadiyyat nazirlərindən ibarət olurdu.

Bir çox hallarda o, səs çoxluğu ilə qərar qəbul edirdi. Bir şərtlə ki, səslərin əksəriyyəti, AKPB məhsullarının dəyərinin ən azı 20% -ni verən ölkənin nümayəndə heyətlərinə aid olmalı idi. Əslində, bu, Fransa və AFR-in rəyinə zidd heç bir əsas qərar qəbul edilə bilməyəcəyi demək idi. AKPB-nin təsis sənədləri, onu beynəlxalq hüququn subyekti elan etmişdi. AKPB-in yaradılması həqiqətən inteqrasiya birliyinin formalaşması tarixində ilk hadisə idi.

### 9.2. Qərbi Avropada hərbi-siyasi inteqrasiya. "Pleven Planı"

ABŞ, 1950-ci ildən sonra, Almaniyanın NATO-ya daxil olmasına meyl etsə də, Fransanın Qərbi Almaniyanın güclənməsi ilə bağlı qorxularını nəzərə alaraq, onun inteqrasiya mexanizmlərindən istifadə edərək, Almaniyanın müdafiə siyasətinə nəzarət vasitəsi tapmaq üçün təklif etdiyi fransız layihələrinə qarşı çıxmadı. AKPB ideyasının müvəffəqiyyəti, Parisi bu dəfə hərbi-siyasi təşəbbüs üçün, yeni bir inteqrasiya təşəbbüsünə sövq etdi. 1950-ci ilin oktyabrında, Fransanın Baş Naziri Rene Pleven, Fransa milli məclisində Avropa müdafiə birliyinin yaradılması ideyasını elan etdi. Onun əsas xüsusiyyəti millətlərarası komandanlıq altında vahid Avropa ordusu olmasında idi. Avropa müdafiə birliyinin, AKPB ilə sıx əməkdaşliq etməsi və gələcəkdə ortaq siyasi qurumların rəhbərlik etdiyi, vahid bir millətfövqü quruma birləşməsi vacib idi. 1950-ci ilin dekabrında, NATO şurası əsasən Fransız təkliflərini təsdiqlədi və müvafiq konkret plan hazırlamağı tövsiyə etdi.

Lakin, NATO dairələrində, Pleven layihəsini təcrid vəziyyətində deyil, bütün Qərbi Avropa dövlətləri ilə ABŞ arasında, vahid təhlükəsizlik əlaqələrinin qurulması

tədbirlərinin bir hissəsi olaraq görməyə çalışırdılar. Avropanın müdafiə siyasətinin "NATO" tərtibatı sırf avropalı layihələrin uğurlu olmasından və ya uğursuzluğundan asılı olmayaraq əsas rol oynamalı idi. R.Plevenin təşəbbüsünü təsdiqləyən NATO şurası, 1950-ci ildə keçirilən, dekabr sessiyasında eyni zamanda, Qərb Birliyinin (Brüssel Paktı) hərbi təşkilatının, NATO- ilə birləşməsinə görə, onun ləğv edilməsi qərarını verdi. NATO-nun Avropadakı silahlı qüvvələrinin Baş komandanı amerikalı general Duayt Eyzenhauer təyin edildi. Bu qərar nəticəsində, İngiltərənin Avropanın müdafiə strukturlarında mövqeləri zəiflədi. Çünki, Qərb İttifaqının hərbi təşkilatının buraxılması, ingilis nümayəndəsi feldmarşal Bernard Montqomeri tutduğu Qərb İttifaqı silahlı qüvvələrinin Qərargah rəisi vəzifəsi öz mənasını itirmiş oldu. İngiltərə özünü ikinci rola sıxışdırıldığını hiss etdi.

### 9.3.Bonn müqaviləsinin əsas müddəaları. Paris müqaviləsi (1952)

Moskvada, ABŞ-ın Qərbi Almaniyanın yenidən silahlanmasına icazə verməsi və onun Qərb birliklər sisteminə daxil edilməsinə nail olmaq niyyətinin olması şübhə doğurmurdu. Sovet rəhbərliyi hesab edirdi ki, bu yol, Avropa sabitliyinə xələl gətirəcək və alman təhlükəsinin gözlənilməz bərpası isə fəlakətə səbəb olacaqdır. Bundan əlavə, İ.V.Stalin, Amerika qoşunlarının Avropada mövcudluğundan narahat olaraq, onun siyasi sabitliyi pozacağına əmin idi. Rəsmi Almaniyanın həll olunmamış problemləri, ABŞ-a öz qoşunlarını Avropada saxlamağa əsas verdiyindən, SSRİ, Almaniyanın qərb hissəsindən, amerikan hərbi qüvvələrinin çıxması şərti ilə, alman məsələsində güzəştə getməyə hazır idi.

1952-ci ilin martında, SSRİ və ADR "Almaniya ilə sülh müqaviləsinin əsasları" adlı ortaq bir layihə irəli sürdülər, Bu plan, Almaniyanın hər iki hissəsinin işğal vəziyyətinin dayandırılmasını, dövlətin bərpasını və Potsdam konfransı tərəfindən müəyyən edilmiş sərhədlərdə (yəni Oder və Neyse çayları boyunca, şərq sərhədləri ilə) Almaniya dövlət suverenliyinin bərpasını nəzərdə tuturdu. Birləşmiş Almaniya silahlı qüvvələrə sahib olmaq hüququ qazanırdı, lakin bitərəflik və hərbi bloklara üzv olmamaq siyasətinə riayət etmək məcburiyyətində qalmalı idı.

Bu, öz növbəsində, Qərbi Almaniyanın ictimai rəyinə söykənən ağıllı addım idi. Bu zaman ölkəni birləşdirmək üçün təbii arzular, müəyyən vaxtlarda, qızışdırılmış hökumətin Qərb dövlətləri ilə, ümumi Avropa və Atlantik zəmində əməkdaşlığa meyl üzərində üstünlüyə sahib olurdu. Almaniyanı bitərəfləşdirmək fikri Vaşinqtonda və qismən də Parisdə qəbuledilməz sayılırdı. Ancaq, Almaniyadakı bütün almanların hamısı belə düşünmürdü. Sovet layihəsinin güclü tərəfi, Almaniyada işğal idarəçiliyinin ləğvi təklifi idi. Moskva, bu təklifi Qərb ölkələrindən daha əvvəl rəsmi olaraq elan etmişdi.

Sovet təkliflərinin səmərəsini azaltmaq üçün, 26 may 1952-ci ildə, ABŞ, Böyük Britaniya, Fransa və AFR nümayəndələri Bonnda, Qərbi Almaniya və digər üç qərb dövlətləri arasında münasibətlər haqqında, birgə müqavilə imzaladılar. Bu sənəd, qərb ərazilərində işğal statusunun ləğv edilməsini, xarici və daxili siyasətdə Almaniya Federativ Respublikasının suverenliyinin təmin olunmasını elan etdi. Eyni zamanda, Qərbi Almaniyaya, güc vasitəsilə və ya Qərb müttəfiq dövlətlərinin xəbəri olmadan, dövlət sərhədlərini dəyişdirmək, SSRİ ilə barışıq müqaviləsi bağlamaq və ABŞ, İngiltərə və Fransa nümayəndələrinin Qərbi Berlin ərazisinə daxil olmasına maneyə yaratmaq olmazdı.

Müqavilədə, Almaniya Federativ Respublikasının AKPB-də iştirakını davam etdirmək hüququ təsdiqlənirdi. Qərb dövlətləri, Almaniyanın ərazisində tam sülh nizamlanması anına və ölkənin ərazi birliyi bərpa edilənə qədər, Qərbi Almaniyada öz qoşunlarını saxlamaq hüququnu saxlayırdılar. Qərbi Almaniya isə, onların ölkədən çıxarılmasını tələb etmək hüququndan imtina etməli idi. Qərb dövlətləri, Almaniyada sosial demokratların hakimiyyətə gələ biləcəyi təqdirdə, hadisələrin inkişafının belə bir variantından ehtiyat edirdilər.

Ancaq, Bonn müqaviləsində əhəmiyyətli bir şərt var idi: o, yalnız 27 dekabr 1952-ci ildə, Parisdə imzalanması nəzərdə tutulan, Avropa Müdafiə Birliyini yaradan müqavilənin qüvvəyə minəcəyi təqdirdə, qüvvəyə minə bilərdi. Fransa, Almaniya, İtaliya və Benilüks ölkələrinin Xarici İşlər nazirləri tərəfindən bu müqavilənin imzalanması, əslində təyin olunmuş vaxtda baş verdi. Paris müqaviləsi, vahid Avropa ordusunun formalaşması qaydasını və şərtlərini tənzimlədi.

Razılaşmanın mənası onda idi ki, Federativ Respublikaya bundan sonra, öz silahlı qüvvələrinə (bundesver) sahib olmasına rəsmi icazə verilmişdi. Halbuki, Almaniyanın hərbi qüvvələri, birbaşa Avropa Müdafiə Birliyinin idarəetmə orqanlarının əmrinə tabe olmalı idi. Başqa sözlə, alman zabitləri, mütləq alman generallarının komandanlığı altında xidmət etməli deyildilər. Fransanın AMB komandanlığında əsas mövqe tutacağına ümid edirdi. Beləliklə, Qərbi Almaniya öz ordusunu aldı, lakin müstəqil olaraq əmr vermək hüququna malik olmadı. İndi Bonn və Paris müqavilələri təsdiqlənməli idi.

Sovet İttifaqı, 1952-ci ildə qəbul olunan hər iki müqaviləni kəskin tənqid etdi. Fransa hökuməti, bu müqavilələrin milli məclisdə təsdiq edilməsinin çətinliyini öncədən gürürdü. Çünki, həm qollistlər, həm də sol partiyaların müxalifəti bu sənədlərin təsdiqinə etiraz edə bilərdilər. Fransa, Moskvanı daha da əsəbiləşdirməkdən ehtiyat edərək, Sovet rəhbərliyini inandırmağa çalışırdı ki, Bonn və Paris razılaşmaları Qərbi Almaniyanın yenidən silahlanmasını məhdudlaşdırmağa və qeyri-standart beynəlxalq nəzarət formalarının qurulmasına

yönəldilmişdir. Milli məclisdə çoxluğa malik olmadığına görə, Fransa hökuməti müqavilələrin təsdiqlənməsini gündəliyə salınmasını hər dəfə təxirə salırdı. Hind-Çində, Fransa üçün əlverişsiz olan müharibəni gedişində kommunistləri məğlub edə bilmədikləri üçün, Fransız deputat korpusu ölkənin təhlükəsizlik məsələlərindən çox narahat idilər.

## BİRİNCİ FƏSİL -- V BÖLMƏ
## İkiqütblü dünya sistemində periferik qarşıdurmalar (1945-1953)

**1.Cənub-Şərqi Asiyada müstəmləkə sisteminin dağılması**

1.1.İkinci dünya müharibəsindən sonra Asiyada beynəlxalq tənzimlənmənin əsas problemləri

1.2. İndoneziyanın müstəqillik qazanması. SSRİ və ABŞ-ın İndoneziyaya münasibətlərinin xüsusiyyətləri

1.3.Vyetnam kommunistlərinin müstəqillik uğrunda mübarizəsi

**2.Hindistan və Pakistanın yaranması. Birinci Hindistan-Pakistan müharibəsi**

2.1.Cənubi Asiya dövlətlərində delimitasiya (sərhədlərin müəyyənləşdirilməsi) problemləri

2.2.Cənubi Asiyada hərbi-siyasi vəziyyət

2.3.Müstəqil Hindistanın xarici siyasətinin əsasları

**3. İkinci dünya müharibəsindən sonra Fələstin problemi və İsrail dövlətinin yaranması**

3.1. İkinci dünya müharibəsindən sonra Fələstin problemi

3.2.Birinci ərəb-İsrail müharibəsinin nəticələri

**4. Çin Xalq Respublikasının yaranması. Çinin parçalanması**

4.1. İkinci dünya müharibəsindən sonra Çinin beynəlxalq və daxili siyasi vəziyyəti

4.2. Çində vətəndaş müharibəsi

4.3.Çin kommunistlərinin qələbəsi və beynəlxalq nəticələri

**5.Asiyada milli- kommunist inqilabının perspektivləri. Koreya müharibəsi və onun beynəlxalq nəticələri**

5.1.Asiyadaümummillikommunistinqilabınıninkişafı

5.2. Koreya müharibəsinin ilk mərhələsində hadisələrin inkişafı

5.3. ÇXR-in müharibəyə girməsi və onun nəticələri. “Makarturun ultimatumu”
5.4.Koreya müharibəsinin nizamlanma prosesi
5.5. Koreya müharibəsinin beynəlxalq münasibətlərə təsiri

**6. San-Fransisko konfransının hazırlanması və nəticəsi**
6.1. Yaponiya ilə sülh prosesinin intensivləşməsi
6.2. AYZBŞ müqaviləsinin əsas müddəaları
6.3.San-Fransisko konfransı
6.4.ABŞ-ın Yaponiya ilə ittifaq müqaviləsi və Filippin ilə qarşılıqlı təhlükəsizlik müqaviləsi
6.5. San-Fransisko konfransının xüsusiyyətləri

## 1.Cənub-Şərqi Asiyada müstəmləkə sisteminin dağılması

### 1.1.İkinci dünya müharibəsindən sonra Asiyada beynəlxalq tənzimlənmənin əsas problemləri

Sakit Okean Asiyasında, hərbi əməliyyatlar, Yaponiyanın təslim olmasından sonra, 2 sentyabr 1945-ci ildə, rəsmi olaraq dayandırıldı. ABŞ tərəfindən işğal edilmiş keçmiş Yaponiya imperatorluğunun ada hissəsindən başqa, bütün region dövlətlərində siyasi vəziyyət qeyri-sabit idi. Regionun demək olar ki, bütün ölkələrində, yapon qoşunları qovulduqdan sonra, yerli icmaların müxtəlif təbəqələri arasında hakimiyyət uğrunda mübarizə başladı.

Çində, Mao Tsezudun kommunistləri ilə Çan Kayşinin rəhbərlik etdiyi Homindan partiyası arasında rəqabət daha da gücləndi. Fransız Hind-çinin keçmiş bir hissəsi olan Vyetnamda, HoŞi Minin rəhbərlik etdiyi inqilabi azadlıq kommunist partiyası ilə, Fransa ilə kompromisə girmiş yerli mötədil burjua təbəqələri arasında mübarizə gedirdi. Şimal hissəsi Sovet İttifaqı və cənub tərəfi Amerika qüvvələri tərəfindən işğal edilmiş Koreyada, ABŞ-a mühacirət edən və Yaponiyanın məğlubiyyətindən sonra vətənlərinə qayıdan "amerikalı" koreyalıların anti-kommunist qrupları və kommunistlər bir-birlərinə qarşı çıxdılar. İndoneziyada müstəmləkə əleyhinə milli-inqilabi hərəkatı başlamışdl. Böyük Britaniyanın "imperialist" siyasətinə qarşı, Hindistan, Birma və Malayyada başlayan hərəkatlar kəskin şəkildə böyümüşdü.

Təcavüzdən zərər çəkən ölkələrin, Yaponiyaya qarşı qalmış mənfi hissləri, anti-xarici, milli-vətənpərvərlik cəhdləri ilə çulğalaşmışdı. Bu vəziyyətdə, köhnə müstəmləkə dövlətləri (İngiltərə, Fransa və Hollandiya) müstəmləkələrin ləğv

edilməsinə qarşı çıxmaq üçün, qeyri-rəsmi koalisiya yaratmağa çalışırdılar. Lakin, ABŞ onların mövqelərinə dəstək olmadı, keçmiş müstəmləkə və asılı ərazilərə tam müstəqilliyin verilməsini müdafiə etdi. Sovet İttifaqı da, müstəmləkə əleyhinə idi. Moskva milli- vətənpərvər hərəkatların sol və inqilabi qruplarını, Vaşinqton isə sağ, islahatçı və xüsusilə. anti-kommunist qrupları dəstəkləməyə çalışırdılar. Buna baxmayaraq, Asiyada müstəmləkələrin ləğv olunması məsələlərində SSRİ və ABŞ-ın fəaliyyətlərində eyni xüsusiyyətlər mövcud idi.

### 1.2. İndoneziyanın müstəqillik qazanması. SSRİ və ABŞ-ın İndoneziyaya münasibətlərinin xüsusiyyətləri

Yaponiyanın təslim olması aktının imzalanmasından bir müddət əvvəl, 17 avqust 1945-ci ildə, İndoneziya millətçilərinin lideri A. Sukarno Hollandiyanın keçmiş müstəmləkəsi olan İndoneziyanın müstəqilliyini elan etdi.

1946-cı ilin noyabrında, Sukarno və Hollandiya hakimiyyəti qərara aldılar ki, İndoneziyada biri millətçilərin, digəri isə müstəmləkə idarəçiliyinin nəzarəti altında, iki federal hissə yaratsınlar. 1949-cu ilə qədər, bu iki hissə, Niderland krallığının hakimiyyəyi altında, vahid federativ dövlət olan İndoneziya Birləşmiş Ştatlarını yaratmalı idi.

Lakin, Hollandiya hökuməti Sukarnoya etibar etmədi və ölkədə öz nəzarətini gücləndirməyə çalışdı. 20 iyul 1947-ci ildə, Hollandiyanın yüz minlik qoşunu İndoneziyaya gəldi. Ölkənin Sukarnonun hakimiyyəti altında olan hissəsinin üzərində nəzarəti gücləndirmək üçün, "polis tədbirləri" keçirməyə başladılar. Beynəlxalq ictimaiyyət mübahisənin sülh yolu ilə həlli edilməsinə çağırırdılar. ABŞ və SSRİ də danışıqların tərəfdarı olaraq, Hollandiya tərəfinin hərəkətlərini qınadılar. 1948-ci ilin yanvarında, İndoneziya və Hollandiya nümayəndələri atəşkəs sazişi imzaladılar.

Lakin, çox keçmədən Sukarnonun özünün düşərgəsində parçalanma baş verdi. Hakimiyyəti əldə saxlamaq çalışan, Sukarno İndoneziya cəmiyyətinin həm sol, həm də orta sağ qruplarının dəstəyinə güvənirdi. O, öz nüfuzu və milli azadlıq uğrunda mübarizə şüarı ilə müxtəlif fikirli silahdaşlarını birləşdirə bilmişdi. Lakin, 1948-ci ilin sentyabrında, Sukarno ilə "İndoneziya Sovet hökumətinin" yaradılmasını elan edən, indoneziyalı kommunistlərinin liderləri arasında (onların bəziləri əvvəllər Moskvadan gəlmişdi) münaqişə baş verdi. Sukarno, bu üsyanı silah gücünə yatırdı və bundan sonra ABŞ ona daha da böyük rəğbətlə yanaşmağa başladı.

Hollandiya, Sukarno düşərgəsindəki parçalanmadan yararlanmağa çalışaraq, 1948-ci ilin dekabrında, ikinci "polis tədbiri" keçirməyə cəhd göstərdilər. Ölkənin paytaxtı ələ keçirildi və Sukarnonun hökumət üzvləri həbs edildi. ABŞ bu dəfə də,

Hollandiyaya 1947-ci ildən daha kəskin etiraz etdi. Moskva da Hollandiya hökumətinin hərəkətlərini qınadı. Vaşinqton, Hollandiyanı "Marşal planı"na görə aldığı yardımın dayandırılması ilə hədələdi. BMT Təhlükəsizlik Şurası, 1950-ci il iyulun 1-dən gec olmayaraq, İndoneziya hökumətinin dərhal azad edilməsini və İndoneziyanın tam müstəqilliyini tələb edən qətnamə qəbul etdi.

28 yanvar 1949-cu ildə, Haaqada "dəyirmi masa" danışıqlarından sonra, Hollandiya Kraliçasının nominal başçılığı ilə, Sukarnonun idarəçiliyi altında, demək olar ki, tamamilə müstəqil və vahid İndoneziyanın yaradılması barədə razılaşma hazırlandı.

### 1.3.Vyetnam kommunistlərinin müstəqillik uğrunda mübarizəsi

Potsdam konfransının qərarlarına görə, Hind-Çinin 16-cı paralelindən cənubda yapon qüvvələrinin təslim olma prosesini ingilis qoşunları, şimalda çinlilər həyata keçirirdi. Böyük Britaniya, Hind-Çində müstəmləkə statusunun qorunmasını müdafiə edirdi, Çin öz sərhədlərində Fransanın qalmasına mənfi yanaşdı. ABŞ və SSRİ isə, Avropa məsələlərində İngiltərə və Fransanın dəstəyini təmin etməyə çalışaraq, manevr edirdilər.

Moskva və Vaşinqtonu, Çan Kayşinin bütün Vyetnam millətçilərini xaricilər əleyhinə birləşdirmək əsasında, həyata keçirdiyi siyasəti təqdir edirdilər. Kommunist olmayan qüvvələri dəstəkləyən Çin rəhbərliyi, 2 sentyabr 1945-ci ildə, Tonkin ərazisində, Vyetnam Demokratik Respublikasını (Şimali Vyetnam) elan edən, XoŞi Minin başçılıq etdiyi yerli kommunistlərə qarşı dözümlülük nümayiş etdirirdi.

Vyetnam imperatoru Bao Day, yapon işğalı zamanı, nominal olaraq dövlət başçısı kimi, əvvəlcə Yaponiya hakimiyyəti ilə, sonra isə qısa bir müddətdə XoŞi Min ilə əməkdaşlıq etmişdi. Bir qədər sonra, istefa vermiş, nə kommunistlərlə, nə də Vyetnama dönmək istəyən fransızlarla, heç bir işbirliyində olmaq istəməyərək, Honkonqa mühacirət etmişdi. Xo Şi Min, ölkənin şimal hissəsində yaratdığı dövlət Çin qoşunlarının Vyetnamda olduğu müddət ərzində saxlanıldı. Vyetnam kommunistləri, ingilis işğalçı qüvvələrinin gəlişinə qədər, Sayqonu ələ keçirərək, müvəqqəti olaraq öz nəzarətlərini cənuba yaya bildilər. Lakin, İngiltərənin vəzifəsi buradakı hakimiyyəti, Fransa idarəçiliyinə vermək idi və 1946-cı ilin yazında, kommunist silahlı dəstələri şimala sıxışdırıldı.

XoŞi Min, Çinə etibar etmirdi və beynəlxalq tanınmağa nail olmağa çalışırdı. Bu məsələ isə Fransa ilə razılaşma olmadan mümkün deyildi. 1946-cı ilin martında, Çin qoşunlarının Vyetnamdan çıxmasından sonra, Vyetnam kommunistləri ilə Fransa hökuməti arasında razılaşma əldə edildi. Bu müqavilə Xanoyda imzalanmışdı. Paris,

Xo Şi Mini Tonkin və Annam (Şimali və Mərkəzi Vyetnam) ərazisindəki VDR-in başçısı kimi tanıdı. Bir şərtlə ki, VDR Hind-Çin Federasiyasına daxil olmalı idi. Bu federasiya, Böyük Britaniya Birliyinə uyğun gələn Fransa birliyinə daxil idi. Vyetnamla birlikdə Kamboca və Laos da Fransa Birliyinə daxil olacaq idi.

Xo Şi Min, belə bir nizamlanmanı məqbul saymırdı. O, ölkənin cənub hissəsində olan Koxinxinin də VDR-in ərazisinə daxil edilməsini israr edirdi. Lakin, Fransa hökuməti ölkənin ən zəngin bölgələrinə nəzarəti itirmək istəmirdi və onlar, Annam və Koxinxin ərazisində ayrıca bir "müstəqil dövlət" yaratdılar. Hanoyun tələblərini yerinə yetirməkdən imtina olunması, 1946-cı ilin dekabrında, Fransa ilə VDR arasında silahlı münaqişəyə səbəb oldu.

VDR, ABŞ-ın dəstəyindən istifadə etməyə çalışaraq, Prezident H.Trumendən Vyetnamın müstəqillik qazanmasına kömək etməsini xahiş etdi. Ancaq, Vaşinqton Fransa ilə münasibətləri soyutmaq və eyni zamanda Vyetnam kommunistlərinin güclənməsini istəmirdi. Ümumiyyətlə, 1949-cu ilə qədər, Amerika Hind-Çin (Fransa--Vyetnam) münaqişəsində bitərəf qaldı. Moskva da, Xo Şi Minin fəal dəstəyindən uzaqlaşdı. Sovet İttifaqı, o dövrdə sosialistlərin rəhbərlik etdiyi, Fransa hökumətini çətinlik yaratmaq marağında deyildi. SSRİ, Almaniyanın remilitarizasiyasının (yenidən hərbiləşdirilməsinin) qarşısını almaqda Paris ilə əməkdaşlıq etməkdə maraqlı olduğundan, Vyetnam görə onunla münasibətləri çətinləşdirmək istəmirdi.

## 2.Hindistan və Pakistanın yaranması. Birinci Hindistan-Pakistan müharibəsi

### 2.1. Cənubi Asiya dövlətlərində delimitasiya (sərhədlərin müəyyənləşdirilməsi) problemləri

1939-cu ilin sentyabrında, İkinci dünya müharibəsi başlayandan sonra, Hindistan Böyük Britaniya tərəfindən müharibə edən olkə elan edildi. Hindistanın milli azadlıq hərəkatı parçalanmağa başladı: onların bəzi liderləri, “Ox” dövlətlərinin, Hindistanı ingilis hakimiyyətindən azad edilməsinə kömək edə biləcəyini düşünərək, Almaniyaya və Yaponiyaya meyl edirdilər. Hindistan Milli Konqresinin sol qanadının keçmiş lideri Subhas Çandra, Bosun rəhbərliyi ilə, Birmada təşkil edilən "Hindistan Milli ordusu" Yaponiya tərəfində döyüşlərdə iştirak etmişdi.

Müharibə illərində, Hindistanın iqtisadi vəziyyəti pisləşdi. Hərbi xərclər (İngiltərə hökuməti onları ölkənin üzərinə qoymuşdu) əhalinin illik büdcəsinin dörddə birini təşkil edirdi. 1943-1944-cü illərdə, Şimali və Şərqi Hindistanı aclıq

bürüdü. Müstəmləkə hakimiyyəti əhalini ərzaqla təmin edə bilmirdi və bunun nəticəsində 1943-1944-cü illərdə ölkədə 5 milyondan çox insan ölmüşdü.

Müharibə dövründə və müharibədən sonrakı ilk illərdə, nə ABŞ, nə də SSRİ Cənubi Asiyada əhəmiyyətli rol oynamırdı. ABŞ-ın dünyanın bu hissəsində iqtisadi maraqları yox idi və Hindistanın Vaşinqton üçün təmsil edə biləcəyi hərbi-strateji maraq da, Yaponiyanın məğlubiyyətindən sonra azalmışdı. Sovet İttifaqı, Hindistan kommunist hərəkatına güvənərək, Hindistandakı mövqelərinə o qədər də əhəmiyyət vermirdi. Lakin, Moskva və Vaşinqton Hindistanda müstəmləkə statusunun saxlanmasını yersiz hesab edirdi.

Hindistanın şəhərlərində və kənd yerlərində milli azadlıq hərəkatı genişlənirdi. İngilis-Hindistan ordusunun hindli əsgərləri arasında Britaniya əleyhinə nümayişlər başladı. Zabit heyətinin hindli hissəsi və sıravi tərkib Britaniya krallığına sadiqliyini itirirdi. Hadisələri qabaqlamaq üçün, 15 avqust 1947-ci ildə, İngiltərə parlamenti Hindistanın istiqlaliyyəti haqqında Qanun qəbul etdi.

Hindistan hökuməti, Hindistanın sonuncu vitse-kralı lord Luis Mountbetten tərəfindən hazırlanan plana uyğun olaraq, 1947-ci ildə, ölkəni dini əsaslara görə böldü. Vahid bir dövlətin əvəzinə iki dominion dövlət yaradıldı, ərazisində əsasən müsəlmanların yaşadığı Pakistan və əhalisinin əksəriyyətinin hindlilər təşkil edən Hindistan Birliyi (Hindistan).

Eyni zamanda, Hindistan ərazisi Pakistanı 1600 km-lik zolaq ərazi ilə iki yerə bölmüşdü - Qərbi Pakistan (müasir Pakistan) və Şərqi Pakistan (müasir Banqladeş). Bu bölünmüş ərazilərdə müxtəlif xalqlar məskunlaşmışdılar. Şərqi ərazidə benqallar, qərbi ərazidə pencablılar, sindxlər, puştunlar və beluclar yaşayırdı. Eyni zamanda, hətta bütöv bir xalq - benqallar dini prinsipə görə bölünmüşdülər. Müsəlman benqallar Şərqi Pakistanın, hinduist benqallar Hindistanın Benqal əyalətinin əhalisini təşkil edirdi. Bu bölgü, milyonlarla hindistanlı və sikxlərin Hindistana, müsəlmanların Pakistana qanlı köçü ilə müşayiət olunurdu. Müxtəlif hesablamalara görə, yarım milyondan bir milyona qədər insan ölmüşdü.

### 2.2.Cənubi Asiyada hərbi-siyasi vəziyyət

Delimitasiyası prosesində əlavə bir gərginlik yaradıldı, Hindistan və ya Pakistan dövlətinin tərkibinə daxil olmaq barədə, müstəqil qərar vermək hüququ "yerli" knyazlıqların ixtiyarına verilmişdi. Təxminən sayı 600 qədər olan bu knyazlıqlar, xarici siyasət sahəsində Dehlidə yerləşən ingilis idarəçiliyindən tamamilə asılı idilər. Bu seçim hüququndan istifadə edən, Hindistanın mərkəzində yerləşən ən böyük knyazlıq olan Haydarabadın nəvvabı Pakistana qoşulmaq qərarına gəldi. Hindistan

hökuməti bu ərazini itirmək istəmədiyindən, 1948-ci ildə, Böyük Britaniya və ABŞ-ın etirazlarına məhəl qoymadan, özünün silahlı qüvvələrini knyazlığa yeritdi.

Eyni ilə, əsasən müsəlmanlar tərəfindən məskunlaşan və Qərbi Pakistanla həmsərhəd olan Kəşmirin hinduist hökmdarı, öz ərazilərinin Hindistana birləşdirmək və ya müstəqil hökmdar olmaq niyyətini açıqladı. Sonra, 1947-ci ilin oktyabrında, üstünlük təşkil edən müsəlman ərazisinin Hindistanın tərkibinə keçmək istəməsinin qarşısını almaq istəyən, puştun tayfaları Pakistan ərazisindən Kəşmirə hücum etdilər. Kəşmir hökmdarı, knyazlığın Hindistan ittifaqına birləşdirilməsini rəsmi elan edərək, Dehlidən hərbi yardım istədi.

1948-ci ildə, Kəşmirdə baş verən münaqişə, ilk Hindistan-Pakistan müharibəsinə çevrildi. Bu münaqişə qısamüddətli oldu və 1949-cu ilin yanvarında, tərəflər arasında atəşkəs müqaviləsi bağlandı. 1949-cu ilin yayında, BMT Təhlükəsizlik Şurasının vasitəçilik komissiyasının fəaliyyəti sayəsində atəşkəs xətti quruldu, onun bir hissəsi beynəlxalq sərhəd kimi tanındı, digəri isə faktiki nəzarət xəttinə çevrildi. 1965 və 1971-ci illər ikinci və üçüncü Hindistan-Pakistan müharibələri nəticəsində bir qədər dəyişdirildi. Kəşmirin şimal-qərbi, Pakistanın nəzarəti altına keçdi və sonradan bu ərazidə formal olaraq azadlıq alan, "Azad Kəşmir" qurumu yaradıldı.

Kəşmirin keçmiş knyazlığının üçdə ikisi Hindistanın hakimiyyəti altına düşdü. Bu Kəşmir torpaqları, hindlilərin yaşadığı qonşu ərazilərlə birləşdirilmiş və Hindistanın Cammu və Kaş rayonlarını təşkil etmişdi. Təhlükəsizlik Şurası, 1949-cu ildə, Pakistan qüvvələri ərazinin şimal-qərb hissəsindən çəkildikdən sonra, Kəşmirdə sorğu keçirilməsi haqqında qətnamə qəbul etdi. Pakistan, BMT-nin tələblərini yerinə yetirməkdən imtina etdi, sorğu nəticəsiz qaldı. Pakistan, şimal-qərbi Kəşmir üzərində nəzarəti ələ keçirməsi nəticəsində, Çin ilə sərhədə giriş əldə edərək, 1970-1980-ci illərdə, Pakistanın Çin ilə əlaqəsini təmin edən Karakorum magistral yolunu çəkdi.

Hindistan və Pakistanın Kəşmir üstündə baş verən qarşıdurması həll olunmadı. 1940-cı illərin sonunda olan hadisələr Pakistanın xarici siyasətinin əsas anti-hind istiqamətini təyin etdi. O vaxtdan sonra, Pakistan rəhbərliyi Hindistanı Pakistana təhdid olaraq görməyə başladı.

Üstəlik, Hindistanın bir hissəsi olan Cammu və Kəşmir əyalətində separatçı fikirlər mövcud idi, onların nümayəndələri Pakistan və ya Hindistan tərkibinə daxil olmasına qarşı çıxaraq, müstəqil Kəşmir dövlətinin yaradılmasını tələb etməyə başladılar.

### 2.3.Müstəqil Hindistanın xarici siyasətinin əsasları

İngiltərənin, hər iki yeni Cənubi Asiya dövlətinin öz mübahisələrini həll etmək üçün, vasitəçiliyə ehtiyacı olacağı ilə bağlı hesablamaları nəticə vermədi. Cənubi Asiyada, İngiltərə əleyhinə etiraz əhvalı çox güclü idi. İngiltərənin siyasi mövqeyi zəifləməkdə davam edirdi. 1947-ci ildə, əvvəlki Britaniya Millətlər Birliyi sadəcə Millətlər Birliyi və ya Birlik olaraq tanındı.

Buna baxmayaraq, Dehlidə Londona qarşı olan əsəbilik o qədər güclü idi ki, Birlikdə iqtisadi cəhətdən iştirakın ümumiyyətlə Hindistan üçün faydalı olmasına baxmayaraq, Hindistan hökuməti yalnız, 1949-cu ildə, qızğın mübahisələrdən sonra ona qoşulmağa razı oldu. Bu razılaşma, Hindistanın Böyük Britaniyadan ayrılması prosesini dayandırmadı və 1950-ci ilin yanvarında, o, özünü müstəqil dövlət - Hindistan Respublikası elan etdi. Pakistan, 1956-cı ilin martında, eyni addımı atdı. Böyük Britaniya, Cənubi Asiyada nəzərə çarpan siyasi rol oynamağı dayandırdı.

Hindistanın ABŞ və SSRİ ilə diplomatik əlaqələri müstəqillikdən əvvəl qurulmuşdu, belə ki, dominion statusu ona bu əlaqəni yaratmağa imkan verirdi. Ancaq, Hindistanın, nə Moskva, nə də Vaşinqtonla münasibətləri inkişaf etdirilmədi. Fövqəldövlətlər onlar üçün daha vacib olan bölgələrdə - Avropa, Şərqi Asiya və Yaxın Şərqdə daha mühüm məsələlərlə məşğul idilər. Hindistanda olan bu "maraq boşluğu", müstəqil Hindistanın ilk hökumətinin başçısı Cavaharlalu Nehru tərəfindən, Dehlinin özünəməxsus xarici siyasət xəttinin formalaşdırılmasına qismən töhfə vermiş oldu. Bu siyasətin mahiyyəti özünəməxsus halda iddialı idi - Hindistan Milli Konqresi ölkəni birinci dərəcəli dövlətə çevirməyə istiqamətləndi.

Bu statusa gedən yolda, Hindistan liderlərinin iddia etdiyi kimi, ölkə böyük dövlətlər, xüsusilə də, qeyri-Asiya ölkələri arasında olan ziddiyyətlərin yaratdığı müharibələrdə iştirak etməkdən çəkinməli idi. Hindistan güclü dövlətlərin heç biri ilə bağlanmadan, beynəlxalq münasibətlər sahəsində müstəqillik əldə etmək istəyirdi. Dehlidə əsas məsələ, xarici ticarətin genişlənməsi və inkişaf etdirilməsi üçün xarici yardımın alınması idi. Hərbi bloklara qoşulmaq buna mane ola bilərdi. Eyni zamanda, Dehlidə digər inkişaf etməmiş ölkələrlə həmrəylik münasibətlərinə əhəmiyyət verilirdi. Hindistan, müstəmləkə və asılı ölkələrin milli azadlıq hərəkatını dəstəkləyərək, zamanla onların lideri olmaq niyyətində idi. Dehlidə , 1950-ci illərin sonu - 1960-cı illərin əvvəllərindən, qoşulmama hərəkat proqramının əsas prinsiplərini müəyyən etməyə başlayan siyasi xətt yetişirdi.

## 3. İkinci dünya müharibəsindən sonra Fələstin problemi və İsrail dövlətinin yaranması

### 3.1. İkinci dünya müharibəsindən sonra Fələstin problemi

İkinci dünya müharibəsi dövründə, Böyük Britaniya Orta Şərq bölgəsində olan təsirini əhəmiyyətli dərəcədə genişləndirmişdi. 1944-cü ildə Ərəb Dövlətləri Liqası yaradıldı. İordaniya və İraq bölgədə ingilis varlığının qorunmasının tərəfdarı idi, Misir və Səudiyyə Ərəbistanı isə bu məsələyə qarşı çıxırdı. Bütün dünya müstəmləkəçiliyini ləğv etməyə çalışan, Vaşinqton onları dəstəkləməyə başladı.

İngilislərin Fələstini idarə etmək mandatı qüvvədə qalırdı. Fələstində yəhudi milli mərkəzinin yaradılması haqqında, 1917-ci il tarixli "Balfur bəyannaməsi"nin həyata keçirilməsi, 1920-1930-cu illərdə yəhudilərin Fələstinə mühacirətinə səbəb oldu. İkinci dünya müharibəsinin əvvəllərində, Fələstinin yəhudi əhalisi yarım milyona çatdı və sonunda 600 min nəfərə qədər artdı. Bu, İngiltərə hökumətindən, yəhudi mühacirətinin dayandırılmasını tələb edən ərəblər arasında son dərəcə narazılığa səbəb oldu və nəticədə razılaşmaq məcburiyyətində qaldı. Müharibə illərində, Avropa və Amerikada olan liberal ictimai rəy, Londonu Almaniyadan və tutduğu ölkələrdən Fələstinə qaçan yəhudi mühacir immiqrantlarının axınına qarşı məhdudlaşdırıcı tədbirlər görməkdə ittiham etsə də, Britaniya kabineti bu qərarı qəbul etdi.

Yəhudi mühacirlərinin axınının məhdudlaşdırılması nəticəsində, tamhüquqlu bir yəhudi dövləti yaratmaq planlarının pozula biləcəyini anlayaraq, əvvəldən öz hədəflərini gizlətməyən Fələstində olan yəhudi icmasının liderləri, xüsusən David Ben-Qurion, Britaniyanın Fələstin üzərində mandatının ləğvi uğrunda mübarizəsində hücum taktikasına keçmək qərarına gəldi. 1944-cü ilin sonundan etibarən, genişmiqyaslı vətəndaş itaətsizliyi tədbirlərinə başlamaqla yanaşı, ingilislərə qarşı terror aktlarına da başladılar.

Eyni zamanda ABŞ və beynəlxalq sionist təşkilatları, Londona təzyiq göstərməyə başladılar. İngiltərədə, İkinci dünya müharibəsi zamanı, yəhudilər qanunsuz olaraq Fələstinə getməyə çalışırdılar, lakin ingilis sərhəd gözətçiləri tərəfindən tutularaq Avropaya qaytarılırdılar. Böyük Britaniya onların, nasistlərin əlinə düşərək, öldürülmələrinə görə dolayı məsuliyyət iddialarına əks cavab verirdilər.

13 avqust 1945-ci ildə, Dünya Sionist Konqresi (DSK) 1 milyon yəhudinin Fələstinə köçürülməsi şüarını irəli sürdü. 1945-ci il avqustun 31-də, ABŞ Prezidenti H.Trumen yerli yəhudi təşkilatları və Konqresin təzyiqi ilə, Britaniya kabinetinə, 100 min yəhudinin Fələstinə mühacirətə getməsinə icazə verilməsini təklif etdi.

DSK-nin məlumatına görə, nasistlər dövründə, Avropada əziyyət çəkən yəhudilərin Fələstinə getmək istəyənlərinin sayı 100 minə çatırmış. Ərəb ölkələrində, siyasi partlayışın olacağını gözləyən London bu planı rədd etdi. Oktyabr ayında, Misir, Livan, Suriya və İraq nümayəndələri, ABŞ rəhbərliyinə müraciət edərək bildirdilər ki, Fələstini yəhudi dövlətinə çevirmək cəhdləri, Yaxın Şərqdə müharibəyə səbəb ola bilər.

Yəhudi yaraqlılarının, Fələstindəki İngiltərə qoşunlarına qarşı terror hücumları davam etdirilirdi. İngiltərənin Fələstin Təşkilatının, vəziyyəti nəzarət altına alma cəhdləri nəticə vermədi, yəhudi əhalisinin anti-britaniya hərəkatı radikal formalara çevrilirdi. 1946-cı ilin iyul ayında, terrorçular, Qüdsdə yerləşən Böyük Britaniya hərbi idarəsinin qərargahını (“Çar David” hoteli) partlatdı. Bu hadisə. təxminən 100 ingilis vətəndaşının, əsasən hərbiçilərin ölümünə səbəb oldu.

İngiltərə, iqtisadi cəhətdən asılı olduğu Vaşinqtonun təzyiqlərinə qarşı çıxa bilməyərək, eyni zamanda, onlara düşmən olan sionist təşkilatlarla anlaşmadan daha yüksək qiymətləndirdiyi ərəblərlə münasibətlərini çətinləşdirmək istəmirdi. London baş verənlərə görə məsuliyyətdən azad olmaq qərarına gəldi və 1 fevral 1947-ci ildə, Fələstinə olan mandatdan imtina etmək niyyətində olduğunu bildirdi. Aprel ayında, İngiltərə hökuməti, Fələstin məsələsini müzakirə etmək üçün, BMT Baş Assambleyasının təqdim edərək, bildirdi ki. onların istənilən qərarı, yalnız tövsiyə olaraq qəbul ediləcək.

Məclisdəki müzakirələr, müxtəlif ölkələr arasında fikir ayrılıqlarını ortaya çıxardı. 29 noyabr 1947-ci ildə, məclis Fələstin ərazisini üç hissəyə bölmək haqqında 181 saylı qətnamə qəbul etdi: yəhudi (56%), ərəb (42%) və BMT qəyyumluğuna verilmiş xüsusi bölgə (2%). Sonunculara "müqəddəs şəhərlər" – Qüds-Yerusəlim (müqəddəs yer) və Beytləhm- Vifleem (“çörək evi”) daxil idi. Sionist təşkilatlar 181 nömrəli qətnamə ilə razılaşdılar, lakin ərəb ölkələri onu qəbul etmədilər və Fələstində ancaq vahid ərəb dövlətinin yaradılmasını israrla təkid edirdilər.

Fələstində yaxşı təlim keçmiş və silahlanmış yəhudi döyüş dəstələrinin fəaliyyəti, miqyası və təşkilatı baxımından, planlı hərbi əməliyyatlar xarakterini alaraq, yerli ərəbləri öz qurbanlarına çevirdilər. Fələstindən ərəb əhalisinin, qonşu ölkələrə kütləvi şəkildə qaçması başlandı. Yaxınlaşan müharibəyə qarışmaq istəməyən İngiltərə, öz qoşunlarını təxliyə etməyə başladı. 14 may 1948-ci ildə, İngiltərə hökuməti, öz mandatının səlahiyyətinin dayandırıldığını rəsmi olaraq elan etdi. Ertəsi gün, 15 may 1948-ci ildə, sionist hərəkatın lideri David Ben-Qurionun başçılığı ilə Fələstinin müvəqqəti yəhudi hökuməti olan İsrail dövlətinin

yaranmasını elan etdi. Xaim Veytsman onun Prezidenti oldu. Dövlətin paytaxtı Təl-Əviv oldu. Mayın 17-də, İsrail, SSRİ və ABŞ tərəfindən rəsmi olaraq tanındı.

Sovet İttifaqı, yəhudi təşkilatlara kömək edərək, İsrail dövlətinin yaradılmasına fəal dəstək verirdi. Keçmiş Rusiya imperiyasının müxtəlif ərazilərindən gələn rusdilli yəhudu mühacirlərin, Fələstində yaratdığı "rus yəhudiləri" adlı icmasının İsrail dövlətinin yaranmasında əhəmiyyətli rolu olmuşdu. Sovet İttifaqı, bu cəmiyyətdən istifadə edərək, İ.V.Stalinin Yaxın və Orta Şərqdə SSRİ-nin əsas rəqibi saydığı İngiltərəni bölgədən sıxışdıraraq, Yaxın Şərq məsələsində öz təsirini gücləndirməyə ümid edirdi. Eyni zamanda, Moskvanın İsrailə qarşı dostluq münasibətləri qeyri-sabit idi. 1949-cu il üçün, Stalin SSRİ-nin yəhudi əhalisinə və İsrail dövlətinin varlığına münasibətini kökündən dəyişdi. SSRİ-dən yəhudilərin çıxıb getmələri dayandırıldı.

### 3.2.Birinci ərəb-İsrail müharibəsinin nəticələri

İsrail müstəqilliyini elan edən kimi, bütün qonşu ərəb dövlətləri ona müharibə elan etdilər. Lakin, Britaniya məsləhətçiləri tərəfindən təlim keçirilən və onların nəzarətində olan Transiordaniyanın "ərəb legionu" istisna olmaqla, ərəb orduları israillilər üzərində hərbi qələbə qazanmaq iqtidarında deyildilər. Onlar, yalnız, BMT Baş Assambleyasının 181 saylı qətnaməsinə əsasən Fələstin dövlətinin ərəb hissəsini yaratmaq üçün nəzərdə tutulan, Fələstin ərazisinin bir hissəsini ələ keçirməyə müvəffəq oldular. Misir qoşunları Qəzza zolağını, Transiordaniya qoşunları isə İordan çayının qərb sahilini, Qüdsün bir hissəsi və şərq ətraflarını işğal etdilər. 1948-ci ilin iyulunda, ərəb qoşunları mövqe müdafiəsinə keçdi və cəbhə xəttində sabitlik yarandı. 1949-cu ilin payızında, BMT-nin vasitəçiliyi ilə, İsrail və onunla mübarizə aparan hər bir ölkə arasında müvəqqəti barışıq müqavilələri bağlandı. Bu müqavilənin bağlanmasına hazırlığın son dərəcə çətin olan gedişatı dövründə, BMT-nin Fələstində olan vasitəçilik missiyasının rəhbəri, İsveç diplomatı qraf Folke Bernadotq ,17 sentyabr 1949-cu ildə yəhudi terrorçuları tərəfindən öldürüldü.

Demarkasiya xətləri, hər tərəfin ələ keçirdikləri ərazinin hissələri üzərində, faktiki nəzarət sədləri boyunca çəkildi. İsrail qoşunları Fələstinin əsas hissəsini işğal etmişdilər. Transiordaniyanın ərəb legionu İordan çayının qərb sahili (Qərb sahili), Misir ordusu Qəzza zolağını özündə saxladı. Yerusəlim (Qüds) iki hissəyə bölündü: yəhudi hissəsi İsrailin, ərəb (şərq) - Transiordaniyanın nəzarəti altında idi. Fələstin ərəblərinin müstəqil bir dövlətinin yaradılması nəzərdə tutulan torpaqlar, sadəcə İsrail, Transiordaniya və Misir arasında bölünmüş oldu.

Lakin, yaranmış vəziyyət qənaətbəxş şəkildə həll olunmamışdı. Fələstində qarşıdurma davam edirdi. Dekabrın 1-də, Transiordaniyanın qüvvələri tərəfindən tutulmuş, Fələstinin ərəb hissəsi ərazisində yerləşən Yerixon şəhərində, Fələstin Ərəb Konqresi Transiordaniya Kralı Abdullahı Fələstin kralı elan etdi. İki həftə sonra, Transiordaniya parlamenti, gələcəkdə Transiordaniya Federasiyasının yaradılması layihəsini təsdiqlədi. Bu addım, ilk ərəb-İsrail müharibəsi zamanı işğal edilmiş, Fələstin ərəblərinin torpaqlarını rəsmi şəkildə ilhaq etməsinə yol açmış olurdu.

Bu hadisə, Ərəb Dövlətləri Liqası üzvlərinin qınağına rast gəldi. Onlar hesab edirdilər ki, Kral Abdullahın hərəkətləri, Fələstinin bölünməsinin və onun ərazisində yəhudi dövlətinin yaradılmasının qanuni olmasının faktiki tanınmasını nəzərdə tutur. Bu etirazlar Ammanda rədd edildi və 2 iyun 1949-cu ildə, Transiordaniya rəsmi adını dəyişdirərək "İordaniya Haşimit Krallığı" qoydu. Bu da, krallığın İordan çayının yalnız şərq sahili boyunca olan torpaqlara deyil, həm də bu çayın qərb sahilindəki ərazisini də əhatə etməsi demək idi. 1951-ci ildə, kral Abdullah ərəb millətçisi tərəfindən, Qüdsün ərəb hissəsində olan Əl-Əqsa məscidinin astanasında öldürüldü.

İsrail də öz növbəsində, əldə edilmiş ərazilərin mənimsənilməsini sürətləndirməyə çalışırdı. 14 dekabr 1949-cu ildə, BMT Baş Assambleyasının Qüdsə beynəlxalq status verilməsi haqqında 181 saylı qətnaməsinə zidd olaraq, İsrail hökumətinin idarəçilik qurumları Təl-Əvivdən Qüdsə köçürüldü. Ancaq, xarici səfirliklər Təl-Əvivdə qaldı, Qüds paytaxt olaraq tanınmadı.

Ərəb ölkələri, prinsipcə, İsrailin mövcud olmaq hüququnu tanımaqdan imtina etdilər. Əslində, bu ölkə bölgədə düşmən mühit və diplomatik təcrid şəraitində qalmışdı.

İsrail rəhbərliyi öz növbəsində, İsrail dövlətinin ərazisində olan fələstinli ərəblərə qarşı sərt siyasət yürüdürdü. Bu, əsasən ərəblərin keçmiş yaşayış yerlərindən zorla çıxarılması, evlərin sökülməsi, torpaqların müsadirə edilməsi, digər əmlak hüquqlarının pozulması və s. ilə özünü biruzə verirdi. Bu, ərəb-fələstinli qaçqınlar probleminin kəskinləşməsinə, qonşularla münasibətlərdə gərginliyin artmasına səbəb oldu. İsraildə, əhalinin yəhudi və ərəb hissələri arasında sosial və siyasi problemlər yarandı.

## 4. Çin Xalq Respublikasının yaranması. Çinin parçalanması

### 4.1. İkinci dünya müharibəsindən sonra Çinin beynəlxalq və daxili siyasi vəziyyəti

"Çin məsələsi", Şərqi Asiyada qeyri-sabitliyin mənbəyinin olması təhlükəsini yaratdı. Belə ki, Çində müharibədən əvvəlki kimi, vahid bir hökumət yox idi. Böyük dövlətlər tərəfindən, bütün Çin ərazisində rəsmi olaraq tanınan Çan Kayşi hökumətinin hakimiyyəti ölkənin bütün ərazisinə şamil edilmədi. Bu hökumətin, Kvantun ordusunun yapon bölmələrinin təslim olmasını qəbul edən, Sovet hərbi idarələri tərəfindən idarə olunan Mançuriyada, təsiri yox idi. Çan Kayşi, Çinin şimal-qərb bölgələrində - Sintszyan əyalətində, türk xalqlarının yaşadığı (uyğurlar, dunganlar, qazaxlar, qırğızlar və s.) ərazidə güclü bir mövqeyə sahib deyildi.

İkinci dünya müharibəsi illərində, Kommunist Partiyasının lideri Mao Tzse dunun rəhbərliyi altında, kommunistlərin hərbi birləşmələrinin hakimiyyəti ələ keçirdikləri Çinin azad olunmuş ərazilərində (onların "paytaxtı" Yanan şəhəri idi), Çan Kayşi hakimiyyəti tanınmadı.. Kommunistlər və Çan Kayşi hökuməti düşmən münasibətlərində idilər. SSRİ həm Çan Kayşi, həm də MaoTzseduna kömək edirdi. Hesab olunurdu ki, müəyyən şərait daxilində Moskva Çan Kayşi hökumətini tanımaqdan imtina edərək, kommunist idarəçiliyi ilə də, Çinin qanuni hökuməti kimi diplomatik münasibətlər qura bilərdi.

Moskvanın Mancuriya məsələsinə qanuni mövqeyi birmənalı deyildi. Sovet İttifaqı, 1941-ci ildə, sovet-yapon bitərəflik paktına görə, Mancuriyanı nə Yaponiya imperiyasının bir hissəsi, nə də Çinin bir hissəsi kimi qəbul etmədi. Moskva, Mançjou-qoda Yaponiyanın "xüsusi maraqlarını" tanımışdı, bu əməli olaraq bu qurumun yapon ərazisinin bir hissəsi olmasını qəbul etməyə yaxın idi.

ÇanKayşi, sovet tərəfinin Mancuriya problemini Çinin ərazi birliyi məsələsi kimi deyil, Yaponiya imperiyasının bölünməsi məsələsi kimi həll edəcəyindən qorxurdu. Homindan üzvləri hesab edirdilər ki, İ.V.Stalin, Moskva və Vaşinqtonun Çində olan maraqlarının həll edilməsində, ABŞ ilə gizli şəkildə razılaşmağa çalışacaqdır. Belə ki, əgər, ABŞ və SSRİ "post- Yaponiya" məkanında təsir dairələri ilə bağlı bölgü aparmağa razılaşardılarsa, Sovet İttifaqı Yapon arxipelaqının adalarını ABŞ-a "verərək, Mancuriyanı keçmiş yapon materik ərazisinin bir hissəsi kimi, özünə saxlaya bilərdi. Moskvada olan Amerika diplomatik nümayəndələri də, sovet tərəfinin bu niyyətdə olduğuna əmin idilər.

Tarixən, Mancuriya Yaponiya təhdidinin əsas ərazisi idi, o, bu məkan olmadan materikdəki böyük bir müharibəyə arxalana bilməzdi. Sovet İttifaqı, bu bölgədə

mövqeyini möhkəmləndirməyə üstünlük verərək, Çin ilə münasibətlərə aid müqavilələr bağlamağa xüsusi diqqət ayırırdı.

Sovet İttifaqı, Çin ilə bağlanmış müqavilədə, Mancuriyada maraqlarının təminatını təyin etməmiş, Yaponiyaya qarşı müharibə başlamağa razı olmamışdı. 10 avqust 1945-ci ildə, Sovet-Çin müqaviləsi bağlandı. SSRİ rəsmi olaraq, Sintszyan və Mancuriyanın Çinə mənsub olduğunu qəbul etdi. Müqavilənin imzalanmasından sonra, baş verən notaların mübadiləsi zamanı, Çin tərəfi, Monqolustan xalqının referendumda müstəqillik üçün səs verəcəyi təqdirdə, Xarici Monqolustanın müstəqilliyini tanımağı öhdəsinə götürdü. Belə ki, 1925-ci il Sovet-Çin müqaviləsinə görə, Monqolustan formal olaraq Çinin bir hissəsi hesab edilmişdi.

Sovet İttifaqı, gözlənildiyi kimi, yenidən Çin Şərqi Dəmir Yolu (ÇŞDY- КВЖД) idarə etmək hüququnu əldə etdi və eyni zamanda Cənubi Mancuriya dəmiryoluna da (Port Artur) eyni hüquqlara sahib oldu. Hər iki yol bir-birinə birləşdirildi, Çin-Çançun dəmir yolu kimi tanındı və Sovet-Çin şirkətinin idarəçiliyinə verildi. SSRİ, Port- Artur və Dayrendə olan bazaların uzun müddətli icarə hüquqlarını aldı.

1945-ci il Sovet-Çin müqaviləsində, Çində olan vəziyyət və SSRİ-nin Çin kommunistləri ilə əlaqələri məsələsi müzakirə olunmadı. Lakin, müqavilənin məntiqinə görə, SSRİ, Çan Kayşi hökumətinin Yaponiya asılılığından azad olunduqdan sonra, Mancuriya üzərində nəzarət qurmaq istəyinə mane olmamalı idi. Ancaq, ÇanKayşi ordularında şəxsi heyətin çatışmamazlığı və onların təcili şəkildə şimala aparılması imkanlarının olmaması səbəbindən, hakimiyyətini Mancuriyaya yaymaq üçün fürsət tapmadı. Çin kommunistləri, əksinə, Mancuriyaya yaxın ərazilərdə yerləşirdilər və Sovet hakimiyyətinin icazə verəcəyi təqdirdə, Yaponiya idarəçiliyinin qovulmasından sonra öz hakimiyyətlərini asanlıqla qurmağa hazır idilər. Mancuriyada kommunistlərin olması, İ.V.Stalin üçün Çan Kayşi üzərində təzyiq vasitəsi idi. SSRİ-nin Mancuriyadan qoşunları çıxarmaq təhdidi, avtomatik olaraq orada kommunist hakimiyyətinin qurulması demək idi.

1946-cı ilin martı üçün, Çan Kayşi, SSRİ-nin Mancuriyadan çıxacağı təqdirdə, özünü kommunistlərlə qarşıdurmaya hazır hesab edirdi. Sovet İttifaqı öz qoşunlarını Mancuriyadan çıxardıqca, onların yerini Çin kommunistlərinin hərbi dəstələri tuturdu. Hökümət qoşunları ilə kommunistlər arasında toqquşmalar yenidən bərpa olundu. 1946-cı ilin yazında, Çan Kayşinin silahlı qüvvələri Mancuriyanın əsas şəhərləri və dəmir yolları üzərində nəzarəti ələ keçirsələr də, kəndlərdə üstünlük təşkil edən kommunistlər onların əsas məntəqələrini mühasirəyə almışdılar.

## 4.2. Çində vətəndaş müharibəsi

ÇanKayşi hökumətini möhkəmləndirmək üçün, Moskva və Vaşinqton kommunistləri və homindançıları bir-birləri ilə koalisiya bağlamağa təşviq edirdilər. Ancaq, xarici dövlətlər onların barışmaz mövqelərini düzgün qiymətləndirə bilməmişdilər. İki qüvvənin – Çin KP və Homindanın toqquşması – kommunistlərin mütəşəkkil dövlət ideyasının, avtoritar-millətçi forması almış, eyni ideya ilə mübarizəsi idi. Ölkədə, Çin millətçiliyinin inqilabi və mühafizəkar-ənənəvi ideyaların qarşıdurması baş verirdi.

Çinin regional sabitlik üçün, regional siyasətinin dörd variantı əhəmiyyət kəsb edə bilərdi: "bufer", sovet meylli, Amerika meylli və milli. Həm SSRİ, həm də ABŞ, Çini tamamilə öz təsiri altına daxil edə bilmədiklərini anlayaraq, birinci varianta meyl etdilər. Bütün Çin üzərində nəzarəti qurmağa çalışan Yaponiyanın təcrübəsi, onun kimi addım atmaqdan çəkindirdi. Dövlətlərin hər ikisi ara variantına üstünlük verirdilər. ABŞ mərkəzi hökumətdə, SSRİ isə onun üçün vacib olan sərhəd əyalətlərində, öz mövqelərinin möhkəmləndirilməsini istəyirdilər. Onların arasında razılaşmağa getmək mümkün idi. Lakin, ÇKP-nin Çan Kayşi ilə apardığı mübarizə Sovet-Amerika rəqabətinə səbəb oldu. Çinin bufer-dövlətə çevrilməsi həm SSRİ, həm də ABŞ üçün məqbul idi, lakin bu formanın həyata keçirilməsi üçün bir çox problemlər yaranmışdı.

**Qeyd: Bufer- dövlət, rəqabətə girən üçüncü ölkələrin silahlı qüvvələrinin birbaşa təmaslarına mane olan, onları qarşıdurmadan qoruyan ara dövlətidir.**

Sovet qoşunlarının, Mancuriyadan təxliyə olunmasından sonra, hökumət qüvvələri oraya gətirildikdə vəziyyət qorxulu xarakter almağa başladı. Kommunist dəstələrinin mühasirəsi nəticəsində, hökumət qoşunları təchizat bazalarından kənarlaşdırılmışdı. ÇKP ilə Homindan arasında olan qarşıdurma vətəndaş müharibəsinə çevrildi. 1946-cı il ərzində, Amerika diplomatiyası Çan Kayşini ÇKP-yə güzəştə getmək üçün, məcbur etməyə cəhd göstərdi, lakin o, öz mövqeyini dəyişmədi. Bu dövrdə, ÇKP üçün, hərbi əməliyyatlar uğursuz olsa da, Mao Tzsedun da güzəştə getməyə razı olmadı. 1946-cı ilin sonundan etibarən məlum oldu ki, Çindəki vəziyyətin nəticəsi yalnız, silahlı mübarizənin gedişində müəyyən olunacaqdır. ÇKP hərbi uğur qazanmağa başladı. Bəzi məsləhətçilər, ABŞ idarəçiliyinə Homindan hökumətinə dəstəyi artırmağı tövsiyə etsələr də, H.Trumen Çan Kayşi idarə sisteminin, onsuz da, məğlubiyyətə məhkum olduğunu nəzərə alaraq, bu addımı mənasız hesab etdi.

1949-cu ilin yanvarında, Sovet İttifaqı da, ÇKP ilə Homindan arasındakı qarşıdurmaya son qoymaq üçün cəhd göstərdi. Sovet İttifaqının, Nankindəki (Çan

Kayşi iqamətgahının yerləşdiyi yer) səfirliyinin nümayəndələri və Homindan rəhbərliyi bir yerdə müqavilə layihəsi hazırladılar. Müqavilənin şərtlərinə görə-

1.Çin gələcək beynəlxalq qarşıdurma şəraitində bitərəf qalmaq öhdəliyini götürürdü;

2.Amerikanın ölkədəki təsirini aradan qaldırmaq;

3."SSRİ ilə real əməkdaşlıq üçün" baza yaratmaq üçün tədbirlərin görülməsi. Bunun müqabilində, Moskva Homindana kommunistlərlə barışıq üçün məqbul şərtlərə zəmanət verirdi.

Belə ki, ÇKP-nin silahlı qüvvələri, Yantszı çayını keçməyə hazırlaşırdılar. Xarici və bəzi yerli tədqiqatçıların fikrincə, SSRİ-nin Homindan hökumətinə, bu çayın cənubundakı ərazinin üzərində hakimiyyətinin saxlanması üçün, öhdəlik götürməsi, lazımı şəraitin yaranmasından irəli gəlirdi. İ.V.Stalin hesab edirdi ki, onun tələbi ilə, Yantszı xəttində ÇKP bölmələrinin irəliləməsi dayandırılmasa, Birləşmiş Ştatların Çinə silahlı müdaxiləsi ilə, III Dünya müharibəsinin başlanması ehtimalı ola bilərdi. 1949-cu il yanvarın sonunda, Homindan və ÇKP arasında, təxminən üç aya yaxın davam edən danışıqlar heç bir nəticə vermədi. ÇKP-yə açıq-aydın bilirdi ki, Homindan zəifdir və ABŞ onu dəstəkləmək fikrində deyil. Ardıcıl məğlubiyyətlərə uğrayan ÇanKayşinin silahlı qüvvələrinin qalıqları Çinin materik hissəsini tərk etdilər. Onlar dəniz yolu ilə, Tayvan adasına təxliyə edildilər və orada yerləşdilər.

### 4.3.Çin kommunistlərinin qələbəsi və beynəlxalq nəticələri

Qələbə çalan kommunistlər, 1 oktyabr 1949-cu ildə, Çin Xalq Respublikasının yaradıldığını elan etdilər. Bu hadisə, ABŞ-da ilk əvvəl, məğlubiyyət kimi qəbul edilmədi, 1945-ci ildən 1949-cu ilin yazına qədər, Amerika nümayəndələri ilə ÇKP arasında təmaslar başlandı. Mao Tzsedun, Vaşinqtonla normal münasibətlər qurmaq istəyini ifadə etdi. Çan Kayşinin mənəvi nüfuzunun aşağı olması, ABŞ-ın bu Çin hökuməti ilə əlaqədən imtina etməsinə gətirib çıxarmışdı. Mübahisəli məsələlər var idi: Amerika vətəndaşlarının Çində olan əmlakı; ABŞ-ın Çan Kayşinin hökumətinə verdiyi kreditlərin qaytarılması və s. Lakin, ÇXR-in gələcək siyasi istiqaməti məsələsi daha vacib idi. Vaşinqton regional nizamın yenidən qurulmasında, ABŞ ilə əməkdaşlıq edə bilən Çinə ehtiyac duyurdu.

Bu vaxt, 1949-cu ilin noyabr ayından etibarən, Moskvada yeni ittifaq müqaviləsi bağlamaq üçün, Sovet-Çin danışıqları aparılırdı. Bu müqavilə, 1950-ci il fevralın 14-də imzalandı. SSRİ –nin ÇXR ilə dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sovet-Çin müqaviləsində, Sovet İttifaqı və Çan Kayşi hökuməti arasında, 1945-ci il müqaviləsində əksini tapmış fikirlər inkişaf etdirilmişdi. Bu müqavilə,

müharibə vəziyyətində tərəflərin bir-birlərinə silahlı dəstək vermək öhdəliyini birbaşa təmin etdiyi üçün, iki ölkə arasındakı münasibətləri daha da yaxşılaşdırmışdı.

Eyni zamanda, müqavilə cənubdan gələn təhlükəyə qarşı bir maneə kimi, SSRİ-nin Çin ilə münasibətlərdə əvvəlki istiqamətini saxladı. SSRİ üçün, bu müqavilə ilk növbədə anti-yapon xarakteri daşıyırdı. 1950-ci ilin əvvəlində, müqavilə imzalanan zaman, Yaponiya-Amerika ittifaqı yalnız bir ehtimal olaraq müzakirə edilirdi. Gələcək Yaponiya-Amerika müqaviləsinin mahiyyətini, Yaponiyanı müstəqil hərbi gücdən məhrum etmək kimi təsəvvür etmək çətin idi, bunu etiraf etmək isə, daha çətin idi. Yaponiyanın hərbiləşdirilməsinin yenidən təhlükə mənbəyi olacağını güman etmək daha məntiqli idi. SSRİ, Şərqi Asiyada apardığı diplomatiyasını Avropada olanlara bənzətməyə meyl edirdi. Qərbi Almaniyada siyasi vəziyyət bu ssenariyə uyğun olaraq inkişaf etmişdi.

Bu, ABŞ-ın maraqlarına zidd idi. Müqavilə birbaşa Yaponiyaya qarşı yönəldilsə də, Çini "titolaşma"(Yuqoslaviya idarəçiliyi) ümidindən məhrum edirdi. Müqavilənin bağlanması, ABŞ-ın Tayvanın kommunistlər tərəfindən ələ keçirmə perspektivi ilə barışmaq fikrindən imtina etməyə məcbur etdi. ABŞ-ın Asiya siyasətində də dəyişiklik baş verdi. ABŞ Çin ilə dostluq əsasında zərərlərini kompensasiya etmək yollarını axtarmaqdansa, vahid qrupda birləşən bir neçə daha zəif dövlətlə əməkdaşlıq etməyə üstünlük verdi. Birləşmiş Ştatlar "Çini əvəz etmək" axtarışı ilə məşğul idi, lakin Şərqi Asiya məsələsində ÇXR və SSRİ ilə ümumi qarşıdurmaya girmək niyyəti yox idi. Ümumiyyətlə, müharibədən sonrakı ilk illərdə, həm ABŞ, həm də SSRİ Şərqi Asiyada status-kvoya riayət edirdi.

SSRİ və ABŞ-ın Şərqi Asiyadakı vəziyyətə siyasi "bufer" kimi yanaşması, yalnız iki fövqəldövlət arasında razılaşmanın nəticəsi idi. Nə Moskva, nə də Vaşinqton zəif ölkələrin fikirlərini soruşmağa tələsmirdi. Bununla belə, Asiya dövlətləri, region ölkələri - Koreyanın, Çinin və Vyetnamın parçalanması ilə nəticələnən "bufer" məntiqini qəbul etmək istəmirdilər. Həm Moskva meylli Asiya ölkələrinin kommunist liderlərinin, həm də Vaşinqtonun dəstəklədiyi anti-kommunist liderlərinin milli birləşmə məsələsinin əsas olduğu, öz müstəqil proqramları var idi.

## 5. Asiyada milli- kommunist inqilablarının perspektivləri. Koreya müharibəsi və onun beynəlxalq nəticələri

### 5.1.Asiyada ümummilli kommunist inqilablarının inkişafı

1950-1953-cü illərdə dünya ictimaiyyətinin diqqəti Koreyaya yönəlmişdi.

1945-ci ilin iyulunda, İ.V.Stalin Uzaq Şərqdəki müttəfiq qüvvələrin Baş komandanı general Duglas Macarturun Yapon qüvvələrinin təslim olmasını qəbul etməsi ilə əlaqədar 1 saylı ümumi sərəncam layihəsini nəzərdən keçirərkən, nəinki Koreya və Mancuriyanın şimal hissəsi, eyni zamanda Kuril adaları və Yaponiyanın Hokkaydo adası da Sovet işğalı zonasına daxil edilməsini təklif etdi. Ancaq Moskvanın istəkləri yalnız Kuril adaları ilə əlaqəli olaraq nəzərə alındı.

1945-ci il avqustun 14-də verilmiş 1 saylı əmrdə Koreyanın 38-ci paralel üzrə iki hissəyə bölünməsi nəzərdə tutulmuşdu.

İkinci dünya müharibəsi nəticəsində Koreya 38-ci paralel üzrə iki hissəyə bölünmüşdü. Cənub hissəsində amerikan, şimal hissəsində isə sovet qoşunları yerləşirdi. Mərkəzi Seul olan Koreya Respublikasının və mərkəzi Pxenyan olan Koreya Xalq Demokratik Respublikasının yaradılmasından sonra, ayırıcı zonada tez-tez silahlı münaqişələr baş verirdi.

Sovet İttifaqı Şimali Koreyanın xarici siyasətinə tam nəzarət etmirdi. Şimali Koreya Kommunist Partiyasının rəhbəri Kim İr Sen və həmkarları, SSRİ-nin sadiq müttəfiq və yaxşı qonşu olduğuna əmin deyildilər. Çünki, onların yadından çıxmamışdı ki, Sakit Okeanda gedən bütün müharibə dövründə, Moskva Koreyanı ələ keçirmiş Yaponiya ilə bitərəflik paktına əməl etmiş və sonra isə 38-ci paralel boyunca Koreyanın bölünməsinə razılaşmışdı. KXDR Sovet İttifaqından asılı idi, lakin, İ.V.Stalinin göstərişlərinə həmişə tam əməl etmirdi

Eyni ilə, Amerikanın köməyi ilə hakimiyyətdə qalan, Cənubi Koreya Prezidenti Li Sın Mana ABŞ tam nəzarət etmir və onun müharibə istəklərinin qarşısını ala bilmirdi. Ölkənin hər iki hissəsində birləşmə tərəfdarları olanlar da çox idi.

Çində olduğu kimi, kommunistlərin və Homindanın mübarizəsi kütlələrin milli istəkləri uğrunda gedən rəqabət kimi, Koreya müharibəsi sol (kommunist) və gənc, təcavüzkar millətçiliyin sağ (kvazi-bazar) variantlarının toqquşması idi. Koreya üçün işlənib hazırlanmış "bufer" formulu yalnız təminatçıları olan SSRİ və ABŞ arasında qarşılıqlı anlaşma ilə həyata keçirilə bilərdi. Sovet-Amerika münasibətlərinin pozulmasının başlanması ilə, vəziyyətin sabitləşməsi üçün əlavə tədbirlər tələb olunmağa başlandı.

**Qeyd: kvazi - latın dilindən tərcümədə mənası- yalan, yalançı, bir növ, xəyali, saxta deməkdir.**

Pxenyan, Koreyanın ABŞ-ın "Sakit okean təhlükəsizlik perimetri"nin bir hissəsi olmadığına görə, ABŞ-ın milli maraqları üçün vacib hesab edilmədiyini nəzərə alırdı. 1948-ci ilin yazında, Qərargah rəislərinin ümumi komitəsində müzakirə zamanı, General D.Makartur, Ryuyuo arxipelaqının, Yaponiya və Aleut adalarının bu perimetrdə yerləşdiyini bildirdi. General, Koreya və Tayvanı "təhlükəsizlik perimetri"nə daxil etməmişdi. 1949-cu ilin mart ayında, D.Makartur müsahibələrinin birində öz fikirlərini şərh etdi. Onun fikirləri ABŞ-ın rəsmi sənədlərinə daxil edilmişdi. "Perimetr" anlayışı, 1949-cu ildə, dövlət katibi olmuş D. Açeson tərəfindən təkrar səsləndikdən sonra, çox böyük ictimai rezonans doğurdu. 1950-ci il yanvarın 12-də, D.Açeson milli mətbuat klubunda etdiyi çıxışında "Sakit okean perimetri" anlayışını şərh etmişdi.

Qərb ədəbiyyatında, Koreyadakı müharibənin təfsirinə iki yanaşma vardır: Birincisi, üçtərəfli (SSRİ - ÇXR - KXDR) və ya ikitərəfli (KXDR - ÇXR) kommunist əlbirliyinin mövcudluğu prezumpsiyasına (fərziyyəsi) əsaslanır. İkincisi günahı Amerika liberallarında görür. Onlar, Koreya yarımadasının kənarda qaldığı “Sakit Okeanın müdafiə perimetri” nəzəriyyəsini tərtib edənləri günahlandırır. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin arxiv sənədlərinə əsaslanan rusiyalı tədqiqatçılar, Sovet rəhbərliyinin Şimali Koreyanın ölkənin cənub hissəsinin ilhaqını zorla həyata keçirmək niyyətindən xəbərdar olduğunu və Şimali Koreya nümayəndələri ilə lazımi düzəlişlər olunmuş hərbi planları müzakirə etdiklərini göstərirdilər. Arxiv dəlilləri ilə təsdiqlənməyən yeganə məsələ, İ.V. Stalinin müharibənin başlanmasına birbaşa təşəbbüs göstərməsidir.

1950-ci ilin yanvar-fevral aylarında, Çin, Koreya və Vyetnam kommunist partiyalarının yüksək rəhbərləri (Mao Tszedun və Çjou Enlay, Kim Ir Sen və Ho Şi Min) bir-birinin ardınca Moskvada oldular. Onlar, Asiyada ümumi inqilab perspektivlərini müzakirə etmişdilər. Müəyyən olunmuşdur ki, Stalinlə söhbətləri zamanı, Şimali Koreya kommunistlərinin lideri Kim İr Sen Cənubi Koreyaya hücum ehtimalını müzakirə etmişdi. İ.V.Stalin, bu məlumatı Çin Kommunist Partiyasının rəhbərliyinə çatdırmışdı.

## 5.2. Koreya müharibəsinin ilk mərhələsində hadisələrin inkişafı

25 iyun 1950-ci ildə, KXDR-in qoşunları Koreyadakı demarkasiya(sərhəd nişanları) xəttini 38-ci paralel boyunca keçdi və döyüşlə Seul istiqamətində irəliləməyə başladılar. Cənubi Koreya ordusu geri çəkilirdi. Elə həmin gün, Koreyadakı vəziyyət BMT Təhlükəsizlik Şurasında KXDR-in Cənubi Koreyaya hücumunu pisləyən qətnamə qəbul etdi və bütün BMT ölkələrinə Şimali Koreyaya

yardım göstərməkdən çəkinməyi tövsiyə etdi. Qətnamədə, KXDR-in öz qoşunlarını, 38-ci paraleldən şimala dərhal geri çəkmələri tələb olunurdu.

Cənubi Koreya üçün son dərəcə əlverişsiz vəziyyət yaranmışdı. Müharibənin başlanmasından bir gün sonra, Seulun istilası təhlükəsi yarandı. 27 iyun tarixində, BMT-də Koreya məsələsinin ikinci müzakirəsini gözləməyən Prezident H.Trumen, Uzaq Şərqdəki Amerika silahlı qüvvələrinə, çıxılmaz vəziyyətdə olan Cənubi Koreyaya kömək etmələrini əmr etdi. Amerika qüvvələrinin komandanlığı ABŞ-ın Yaponiyadakı silahlı qüvvələrinə rəhbərlik edən general D.Makartura həvalə edildi. Elə həmin gün, Təhlükəsizlik Şurası, Cənubi Koreyaya kömək etmək haqqında, bütün BMT ölkələrinə ümumi tövsiyə ilə yeni bir qətnamə qəbul etdi. Lakin, bu qətnamənin mətnində ABŞ-ın adı çəkilmədi.

1950-ci il iyunun 28-də, şimallılar Seulu ələ keçirdilər. Cənubi Koreya ordusu, Yaponiyadan Amerika ekspedisiya qüvvələrinin sahilə çıxmasının planlaşdırıldığı, Yaponiya dənizindəki Pusan limanı yaxınlığında, yalnız kiçik bir ərazini əldə saxlaya bildi.

SSRİ müharibə hazırlıqlarından xəbərdar idi və onu təqdir edərək, ABŞ-ın bu silahlı münaqişəyə cəlb olunmasına mane olmağa çalışmadı. 1950-ci ilin yanvar ayından sonra, Sovet nümayəndə heyəti, BMT Təhlükəsizlik Şurasının iclaslarına gəlmirdi. Bu addımı ilə, Qərbin BMT-də Çini təmsil etmək hüququnun Çin kommunistlərinə təhvil verməkdən imtina etməsinə rəsmi şəkildə etiraz edirdi (BMT-də Çin adından Çan Kayşi hökumətinin nümayəndələri iştirak edirdi). Nəticədə, Təhlükəsizlik Şurasının qərarları, Sovet nümayəndə heyətinin iştirakı olmadan qəbul edilmiş oldu. Əslində, SSRİ, ABŞ və onun müttəfiqlərinin Uzaq Şərqdəki qanlı müharibəyə qarışmasına "icazə vermişdi".

1950-ci ilin iyulun 4-də ABŞ qoşunları KXDR ordusuna qarşı hərbi əməiyyatlara başladı. İyulun 7-də, BMT Təhlükəsizlik Şurası ABŞ-ın komandanlığı altında Koreyada BMT qüvvələrinin çoxmillətli kontingentinin yaradılmasını nəzərdə tutan üçüncü qətnamə qəbul etdi. Bu andan etibarən, Amerikanın Cənubi Koreyanın tərəfində həyata keçirdiyi müdaxiləsi hüquqi əsas qazandı. Koreyadakı Amerika silahlı qüvvələri çoxmillətli kontingentin tərkibində, rəsmi olaraq BMT bayrağı altında fəaliyyətə başladı. Birləşmiş Millətlər Təşkilatının Koreyadakı əməliyyatlarında Avstraliya, Belçika, Böyük Britaniya, Yunanıstan, Kanada, Kolumbiya, Lüksemburq, Hollandiya, Yeni Zelandiya, Tailand, Türkiyə, Filippin, Cənubi Afrika Birliyi və Efiopiyanın kiçik hərbi hissələri iştirak edirdi. Ümumən, 14 dövlət Koreyaya öz qoşunlarını göndərmişdi. ABŞ-ın Koreyadakı əsgər və zabitlərinin sayı 450 min nəfərdən çox idi.

Koreyada hərbi vəziyyət kəskin şəkildə dəyişdi. Şimallılar geri çəkilməyə başladılar.

Sosialist ölkələri Şimali Koreyaya qarşı təcavüzkarlığın dayandırılmasını tələb edirdilər. SSRİ-nin 4 iyul 1950-ci il tarixli bəyanatında, hərbi əməliyyatların dayandırılması və xarici qoşunların Koreyadan çıxarılması tələb olunurdu. SSRİ həmçinin ABŞ-ı Çinin daxili işlərinə qarışmaqda ittiham edərək, ondan 7-ci donanmasını Tayvan körfəzindən çıxarmağı tələb etdi.

Hindistan hökuməti, Koreyada müharibənin qarşısının alınmasında fəal iştirak edirdi. O, müharibənin dayandırılmasını, SSRİ, ABŞ və Çinin iştirakı ilə danışıqlar aparmasını təklif etdi. Bu təklif, 1950-ci ilin iyulun 10-da, Çin tərəfindən bəyənildi. Hindistan danışıqlarda KXDR-in də iştirakını zəruri sayırdı. Lakin, ABŞ hökuməti Hindistanın təklifini qəbul etmədi.

### 5.3. ÇXR-in müharibəyə girməsi və onun nəticələri. "Makarturun ultimatumu"

1950-ci ilin sentyabrın 15-də Çemulpo limanına 40 min nəfərlik ABŞ qoşunu çıxarıldı. Sayca müdaxiləçilərdən az olan KXDR ordusu geri çəkilməli oldu. 1950-ci ilin oktyabrın 1-də, ABŞ qoşunları Şimali Koreya ərazisinə daxil oldu. ABŞ, Çinin Şimali Koreyaya köməyinin qarşısını almaq üçün Tayvanla əməkdaşlıq edirdi. Çinin şimal- şərq əyalətləri ABŞ təyyarələri tərəfindən bombalanırdı.

1950-ci ilin payızında Koreyada olan Amerika qoşunları, BMT-nin mandatından kənara çıxaraq nəinki Cənubi Koreyanın ərazisini şimallılardan təmizlədi, oktyabrın 23-də, şimala hücum edərək, paytaxt Pxenyanı tutub, KXDR ilə SSRİ və ÇXR sərhədinə qədər irəlilədi. İndi müharibə, Təhlükəsizlik Şurasının 25 iyul qətnaməsində göstərildiyi kimi status-kvonun bərpası üçün deyil, şimalın cənuba ilhaq edilməsi üçün idi. Eyni zamanda, ABŞ KXDR ərazisinin işğalını başa çatdırıb hərbi əməliyyatları Çin ərazisinə keçirmək fikrində idi, lakin bu planını həyata keçirə bilmədi.

**Qeyd: Mandat - bu vəziyyətdə qəti tapşırıq, əməliyyatın həyata keçirilməsinə verilmiş səlahiyyət.**

25 oktyabr 1950-ci ildə, SSRİ və KXDR-in təkidi ilə, Çin Xalq Respublikası böyük ordusu (komandiri marşal Pen Dehuay) Şimali Koreyanın tərəfində müharibəyə qoşuldu. Bu ordu, Çin-Şimali Koreya sərhədini keçərək, ABŞ-BMT qüvvələrinin irəliləməsini dayandırdılar və sonra əks hücuma keçdilər. Say üstünlüyündən istifadə edən, Çin qüvvələri düşməni KXDR ərazisindən qovdu və 1951-ci il yanvarın 4-də yenidən Seula doğru irəliləməyə başladı. Şəhər kommunistlər tərəfindən alındı. 1951-ci ilin əvvəllərində , əsasən Amerika hərbi

qüvvələrindən ibarət olan BMT qoşunları ağır vəziyyətə düşdülər. Onların tamamilə məhv edilməsi təhlükəsi yarandı. 16 dekabr 1950-ci ildə, Prezident H.Trumen ABŞ-da fövqalədə vəziyyət elan etdi. Hadisələr göstərir ki, Amerika rəhbərliyinin "kiçik müharibə" ni davam etdirməsi, Çini və hətta, SSRİ-ni də davam edən ümumi qarşıdurmaya cəlb etmək şəraitini yaratmışdı.

1951-ci ilin yanvarında, ABŞ silahlı qüvvələrinin Uzaq Şərqdəki Baş komandanı D.Makartur, hərbi fəlakət təhlükəsini nəzərə alaraq, ABŞ rəhbərliyini Çinin sahillərini mühasirəyə alaraq, Çinə zərbə vuraraq hərbi əməliyyatları genişləndirməyi təklif etdi. Lakin, ABŞ böyük müharibəyə hazır deyildi və o, Sovet İttifaqının 1950-ci il Sovet-Çin dostluq, əməkdaşlıq və qarşılıqlı yardım müqaviləsi əsasında müdaxilə edə biləcəyindən ehtiyat edərək, münaqişənin kəskinləşməsinin qarşısını almağa çalışdı. Lakin, Moskva, münaqişənin genişləndirilməsinə getmək niyyətində olduğunu bildirmədi.

1951-ci ilin fevralın 1-də, BMT Baş Assambleyasının V sessiyası Çin Xalq Respublikasını "təcavüzkar" adlandıran qətnamə qəbul etdi. !951-ci ilin mayında, BMT-nin qəbul etdiyi qətnamə ilə Çinə və KXDR-ə silah və strateji silahlar satılması qadağan edildi.

Vaşinqtondakı hərbçilər Milli Təhlükəsizlik Şurasına təmkinli olmağı tövsiyə etdilər. Qərərgah Rəislərinun Ümumi Komitəsi (QRÜK) Tokioda olan general Makartura xüsusi sərəncam göndərdi. QRÜK onun təkliflərini rədd edərək, itki verməmək üçün Amerika qüvvələrinin Koreyadan Yaponiyaya dərhal təxliyə edilməsi məsələsinə baxılması əmrini verdi. Lakin, verilən təlimatları pozan, 70 yaşlı D.Makartur, 23 mart 1951-ci ildə, radioda ÇXR-ə ultimatum verdi, O, Çinə Koreyadakı hücumu dayandırılmayacağı təqdirdə, ona qarşı nüvə silahı istifadə ediləcəyi təhdidi ilə hədələdi.

**Qeyd: Ultimatum – etiraz notasıdır, özünün tələblər toplusunu təqdim edən ölkə, ultimatumda dəqiq göstərilən müddətə gözləyir. Tələblərin müəyyən edilmiş müddətə qədər qəbul edilməməsi, sanksiyaların tətbiq olunmasından hərbi əməliyyatların başlanmasına səbəb ola biləcəyi diqqətə çatdırılır.**

Bu addım, ABŞ hökumət orqanları tərəfindən təsdiqlənmədi. O, vəziyyəti son həddə qədər kəskinləşdirdi, çünki Çinə qarşı nüvə silahı istifadə olunardısa, ümumi qarşıdurma qaçılmaz ola biləri. Moskva, Vaşinqton və Qərbi Avropa paytaxtlarında həyəcanlı gözləntilər mühiti yarandı. Müharibəni heç kim istəmirdi. Sovet rəhbərliyi, ÇXR-in Amerika qrupunu məhv etmək planından imtina etməsinə inandırmaq üçün, təcili addımlar atdı. Çin qüvvələrinin hücumu dayandırıldı və BMT qüvvələri hətta əks hücuma keçə bildilər. Cəbhə xətti şimala çəkildi və 38-ci

paralel ətrafında sabitləşdi, bu sədd, əsasən KXDR və Koreya Respublikası arasındakı demarkasiya xətti ilə üst-üstə düşdü.

Öz növbəsində, H.Trumenın rəhbərliyi vəziyyətin qarşısını almaq üçün tədbirlər gördü. Amerika Birləşmiş Ştatlarının Prezidenti xalqa müraciətində D.Makarturun 23 mart tarixli bəyanatını rədd etdi və münaqişənin atəşkəs və bölgədəki "daha geniş nizamlama" əsasında danışıqlar yolu ilə həllinə çağırdı. 11 aprel 1951-ci ildə, general D.Makartur vəzifəsindən uzaqlaşdırıldı. 10 iyul 1951-ci ildə, SSRİ-nin məxfi dəstəyi ilə KXDR, ÇXR və ABŞ arasında atəşkəs haqqında danışıqlar başlandı. Lakin, döyüş dayanmamışdı, hərdənbir olan yerli xarakter almışdı.

### 5.4.Koreya müharibəsinin nizamlanma prosesi

ABŞ ictimai rəyi və artan itkiləri nəzərə alaraq KXDR ilə danışıqlara başlamaq qərarına gəldi. 1951-ci il iyunun 23-də SSRİ-nin BMT-dəki nümayəndəsi münaqişə tərəflərini heç bir ilkin şərt irəli sürmədən danışıqlara başlamağa dəvət etdi. Çin və KXDR Sovetin təklifi ilə bağlı danışıqlara başlamağa hazır olduqlarını bildirdilər. Danışıqlar Keson şəhərində başlandı. İyulun 26-da danışıqların tarixi razılaşdırıldı. Çin və KXDR tərəfləri ayıran xəttin 38-ci paraleldən keçməsini təklif etdilər. ABŞ isə şimaldan 13 min km2 ərazinin Cənubi Koreyaya verilməsini tələb edirdi. Danışıqlar, ABŞ qoşunlarının hərbi əməliyyatlara başlaması, Çinin və KXDR –in nümayəndə heyətinin yerləşdiyi binanın bombalanması nəticəsində kəsildi.

1951-ci il oktyabrın 25-də Panmundcjom şəhərində danışıqların yeni mərhələsi başlandı. Danışıqlar zamanı əsirlərin dəyişdirilməsi ilə bağlı razılığa gəlmək mümkün olmadı. 1952-ci ilin yayında və payızında ABŞ ordusunun müharibədə dəyişiklik yaratmaq üçün etdiyi hücum cəhdləri nəticəsiz oldu.

1953-cü ilin fevralında ABŞ Şimali Koreyaya xəstə və yaralı hərbi əsirlərin mübadilə edilməsini təklif etdi. Martın 28-də Şimali Koreya bu təklifi qəbul etdiyini və sazişin imzalanması üçün danışıqları bərpa etməyə hazır olduğunu bildirdi. 1953-cü il aprelin 11-də münaqişə tərəfləri xəstə və yaralı əsirlərin mübadiləsi haqqında razılaşma imzaladılar. Aprelin 26-da Panmundcjomda danışıqlar bərpa olundu. Münaqişə tərəfləri arasında 1953-cü il iyulun 27-də imzalanmış barışığa əsasən, hərbi əməliyyatlar dayandırılmalı və tərəflərin mövqelərini ayıran xəttin ətrafında iki kilometrlik tərksilah edilmiş zona yaradılmalı idi. Barışıq şərtlərinin yerinə yetirilməsinə nəzarət etmək üçün Polşa, Çexoslovakiya, İsveç və İsveçrə nümayəndələrindən ibarət komissiya yaradıldı. Barışıq müqaviləsi qüvvəyə mindikdən üç ay sonra Koreyadan xarici qoşunlar çıxarılmalı və dinc tənzimləmə məsələlərinin həll etmək üçün konfrans çağırılmalı idi.

1953-cü ilin avqustunda BMT Baş Assambleyasının VII sessiyasında SSRİ "Koreya məsələsini" həll etmək üçün bitərəf liderlərin iştirakı ilə beynəlxalq konfrans keçirilməsini təklif etdi. Lakin ABŞ SSRİ-nin təklifinə etiraz etdi. Birləşmiş Ştatların təşəbbüsü ilə BMT Baş Assambleyası münaqişə tərəflərinin iştirakı ilə konfransın çağırılması barədə qətnamə qəbul etdi. 1953-cü il oktyabrın 1-də ABŞ və Şimali Koreya arasında "qarşılıqlı müdafiə haqqında saziş" imzalandı. Müqaviləyə əsasən, ABŞ Cənubi Koreyada qeyri-müəyyən müddətə qoşun saxlaya bilərdi.

1953-cü il oktyabrın sonunda Panmundcjomda ABŞ, Cənubi Koreya, Şimali Koreya və Çin könüllülərinin nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar başladı. Burada siyasi konfrans keçirilməsi məsələsi müzakirə olundu. Məqsədinə çatmadığını görən Amerika nümayəndə heyəti dekabrın 12-də danışıqlarda iştirakını dayandıdrı. 1954-cü ilin əvvəlində, SSRİ Uzaq Şərq və Cənub-Şərqi Asiyanın problemlərini həll etmək üçün SSRİ, ABŞ, İngiltərə, Fransa və Çin Xarici işlər nazirlərinin iştirakı ilə konfrans keçirilməsini təklif etdi. Bu təklif Qərb dövlətləri tərəfindən bəyənildi və 26 aprel 1954-cü ildə Cenevredə beş böyük dövlətin Xarici işlər nazirlərinin konfransı işə başladı.

Konfransda Şimali Koreyanın nümayəndə heyəti ölkənin birləşdirilməsi proqramı ilə çıxış etdi. Bu proqram ölkənin vahid seçki komissiyası tərəfindən seçkilərin keçirilməsini, Şimali və Cənubi Koreyanın iqtisadi və mədəni yaxınlaşması üzrə tədbirlərin həyata keçirilməsini, habelə altı ay ərzində xarici qoşunların ölkədən çıxarılmasını nəzərdə tuturdu. KXDR-in təklifi SSRİ və Çin nümayəndələri tərəfindən bəyənildi. ABŞ və Cənubi Koreya isə Çin könüllülərinin KXDR ərazisindən çıxarılmasını və seçkilərin BMT nəzarəti altında keçirilməsinə tərəf çıxırdılar. Ona görə də konfransda heç bir qərar qəbul edilmədi. ABŞ, Cənubi Koreyada 10 hərbi baza yaratdı. Cənubi Koreyanın silahlı qüvvələri ABŞ-ın köməyi ilə yenidən quruldu və sayı artırıldı.

1956-cı ilin yayında Cənubi Koreya ərazisində bitərəf ölkələrin barışığa nəzarət edən komissiyanın fəaliyyəti qadağan edildi. 1957-ci ilin yayında, ABŞ bildirdi ki, Koreyaya silah tədarükünü qadağan edən şərtlərə bir daha əməl etməyəcək. Ona görə də SSRİ, Şimali Koreya və Çin ABŞ-ın barışığın pozulmasına yönəlmiş siyasətini ittiham etdilər.

Şimali Koreya ölkənin birləşdirilməsinə yönəlmiş siyasətini davam etdirdi. 1956-cı ildə KXDR Şimali və Cənubi Koreya hökumətlərinin, parlamentlərinin, siyasi partiyalarının və ictimai təşkilatların nümayəndələrindən ibarət daimi komissiyanın yaradılmasını təklif etdi. 1958-ci ilin oktyabrında Çin könüllüləri KXDR ərazisini tərk etdi. ABŞ isə öz qoşunlarını Cənubi Koreyadan çıxarmaqdan imtina etdi.

## 5.5. Koreya müharibəsinin beynəlxalq münasibətlərə təsiri

Koreya müharibəsi, tarixdə ilk nüvə müharibəsinə çevrilə biləcək münaqişə idi, Lakin, bu baş verMədi, çünki, Sovet İttifaqı ABŞ ilə qarşıdurmadan qaçaraq, Amerikanı Çin kimi bir düşmən ilə, uzun müddətli mübarizəyə "girməsinə" imkan vermək üçün şərait yaratdı. Əlbəttə, SSRİ-nin bu siyasəti, təhlükəli diplomatik oyun idi. Ümumiyyətlə, hadisələr I.V.Stalinin planlaşdırdığı ssenariyə uyğun inkişaf etdi.

ABŞ-ın, Koreyada olan müharibəni, SSRİ ilə iştirak edəcəyi qlobal müharibənin girişi kimi qəbul edib-etməməsi tam aydın deyil idi. Vaşinqtonun əsəbi həyəcanı, Sovet İttifaqının 1949-cu ilin payızından sonra, artıq mümkün olan nüvə zərbəsi qorxusuna aid cavabı idi. Milli təhlükəsizlik şurasının gizli sənədlərinə görə, onların döyüşkən ifadələrinə baxmayaraq, Amerika rəhbərliyi, SSRİ-nin münaqişəni qlobal səviyyəyə qədər genişləndirmək niyyətində olduğuna şübhə edir və öz növbəsində, bu addımı atmaqda ona bəhanə vermək niyyətində deyildi. Qlobal müharibə istisna edilmirdi, bu münaqişə, ancaq Sovet İttifaqının Avropadakı NATO ölkələrindən birinə və ya ABŞ-ın silahlı qüvvələrinə və ya işğal etdikləri ərazilərə hücum etdiyi halda baş verə bilərdi. Pekinin, KXDR tərəfində münaqişəyə girməsi, kommunist dövlətlərinə qarşı ümumi müharibə üçün səbəb sayılmırdı, ancaq Sovet İttifaqı da, bu münaqişəyə qoşulsa idi, hadisələr tam başqa bir istiqamətdə inkişaf edə bilərdi.

Koreya müharibəsi və xüsusilə Makarturun ultimatumu Avropadakı Amerika müttəfiqlərində şok təəssürat yaratdı. NATO müqaviləsi ilə ABŞ-la bağlı olan İngiltərə və Fransa hökumətləri, Koreya və ya Çin üzərində Sovet-Amerika qarşıdurmasının baş verməsindən çox narahat idilər, çünki bu vəziyyətdə onlar Vaşinqtonun tərəfində dayanmalı olacaqdılar ki, bu da SSRİ-nin Şərqi Avropa və Sovet İttifaqının Avropa bölgələrindəki mövqelərindən, onları nüvə zərbəsi ilə vura biləcəyi ehtimalı demək idi. Avropa paytaxtlarında, onların kiçik saydığı Asiya konfliktinə görə, Avropada SSRİ ilə müharibə təhlükəsi, Parisdə və Londonda məntiqsız görünürdü. ABŞ-ın Avropa müttəfiqləri H.Trumenə təzyiq göstərərək, onu güzəştə getməyə məcbur etdilər. İngiltərə hökumətinin başçısı K.Ettli, Parislə məsləhətləşmələrdən sonra Vaşinqtona getdi və burada ABŞ-ın Qərbi Avropa müttəfiqləri ilə məsləhətləşmədən Koreyada nüvə silahından istifadə etməyəcəyi haqqında razılıq aldı və bu məlumat, mətbuatda dərc olundu.

Koreya müharibəsi, ABŞ-SSRİ oxu boyunca qütbləşməni sürətləndirdi. Hər iki dövlət bir-biri ilə birbaşa toqquşma ehtimalından qorxurdu. Onlar çox çətin vəziyyətdə idilər. Müharibənin son mərhələsində, hakimiyyətə gənc nəslin gəldiyi ABŞ-dan fərqli olaraq, SSRİ-də, İ.V.Stalinin idarəçiliyi hələ də qalırdı. Onun ABŞ

haqqında təsəvvürləri, Sovet-Amerika ittifaqı illərində formalaşmışdı. H.Trumenın Mərkəzi və Şərqi Avropada olan siyasəti ("Marşal planı", şərqi alman ərazisində Qərbi Berlin məkanının qorunması), I.V.Stalinə, Moskvaya vəd verilən və itkiləri hesabına ödənilmiş "təhlükəsizlik mühitinə" zərbə kimi görünə bilərdi. İ.V.Stalin dövründə, dünyaya sovet baxışı, onun ABŞ-la ehtimal olunan müharibəyə qarşı mənfi rəyi və eyni zamanda, onlarla dialoq ideyasının qəbul edilməməsi ilə formalaşırdı.

Sovet dövrü ilə müqayisədə, son illərdə ABŞ rəhbərləri, H.Trumenın hakimiyyətinin son illərindən daha yaxşı vəziyyətdə idilər. Onların siyasəti, Amerika rəhbərliyinin dəyişməyə hazırlaşmadığı, tam aydın olan "qarşısını alma" nəzəriyyəsinə əsaslanırdı. Koreya müharibəsi, nəinki "qarşısını alma" nəzəriyyəsinin məhdud imkanlarını göstərdi, eyni zamanda ABŞ-da Amerikanın strateji məsuliyyət sahələri ilə bağlı aydın fikirlərin olmamasını nümayiş etdirdi. ABŞ, onun sərhədlərini müəyyənləşdirərək, SSRİ-nin diqqətinə çatdırırdı ki, Amerika öz maraqlarını bu “əhatə dairəsi” daxilində qorumaq üçün, öz qətiyyətini göstərəcəkdir. 1951-1952-ci illərdə, H.Trumenın səyləri tamamilə bu vəzifənin icrasına həsr olunmuşdu.

## 6.San-Fransisko konfransının hazırlanması və nəticələri

### 6.1. Yaponiya ilə sülh prosesinin intensivləşməsi

1951-ci il, struktur olaraq Şərqi Asiya regionu üçün bir hüdud kimi qəbul olunmuşdur. Artıq bu ildən, 1950-ci illərə xas olan bir növ “ittifaq pərəstlik” prosesi, ikitərəfli və çoxtərəfli səviyyəli regional birliklərin intensiv formalaşması dövrünü başladı. 1951-ci ilin sentyabrında, Yaponiya ilə sülh müqaviləsi imzalamaq üçün, San Fransiskoda konfrans keçirilməsi qərara alındı. Eyni zamanda, ABŞ Tokio ilə əsas münasibətlər haqqında ikitərəfli saziş bağlamaq niyyətində idi.

Yaponiya ilə münasibətlərin normallaşdırılması prosesi, "Çinin itkisini" əvəz etmək üçün, həyata keçirilən səylərin əsas bağlantısı idi. Tamamilə mümkün olmasa da, yeni Yaponiya ABŞ üçün vacib tərəfdaş ola bilərdi. Yaponiya ilə tərəfdaşlıq, nəzəri baxımdan çox əhəmiyyətli idi. 1951-ci ildən sonra, bölgə ilə bağlı Yalta nizamlanmasına şərti yanaşmaq olar, çünki 1945-ci ildə, Yaltada müzakirə edildiyi zaman, bu nizamlanma "güclü Çin" ideyasına əsaslanırdı. Lakin, indi, San-Fransisko nizamlanması, əslində təhlükəli olmayan, hərbi cəhətdən idarə olunan və iqtisadi cəhətdən güclü Yaponiya ətrafında qurulması ortaya çıxırdı.

1940-cı illərin sonlarında, Yaponiya ilə bağlanmış sülh müqaviləsi, Amerika siyasətçiləri tərəfindən, Amerikanın Şərqi Asiyadakı mövcudluğunun hüquqi əsasını

yaratmaq üçün hazırlanmış digər razılaşmalardan fərqli olaraq qəbul edilməmişdi. Yaponiya, Asiyadakı yeganə sənaye ölkəsi olaraq, sovet qəsblərinin hədəfi hesab olunurdu. Amerika rəsmiləri, sovet iddialarını ən əhəmiyyətli bir məsələ kimi qəbul edirdilər. Ona görə, ABŞ Asiya materiki boyunca olan adaları, müdafiə əharə dairəsinin şimal sütunu hesab edirdi.

Lakin, Yaponiya təcavüzündən əziyyət çəkmiş və onun gücünün bərpa olunacağından qorxan, qeyri-kommunist dövlətlərlə qarşılıqlı anlaşmadan, Yaponiya ilə nizamlama prosesini həyata keçirmək mümkün deyildi. Bu ölkələr, "Yaponiyanı millətlər birliyinə qaytarmaq" ideyasından ehtiyat edirdilər və gələcəkdə ABŞ-Yaponiya ikitərəfli müqaviləsi ideyasını tam qəbul edə bilmirdilər. Ona görə, Tokio ilə tərəfdaşlıq layihələri hazırlayarkən, ABŞ, Avstraliya, Yeni Zelandiya və Filippin ilə də, Yaponiyaya qarşı müqavilələr bağlamağa hazırlaşırdı.

### 6.2. AYZBŞ müqaviləsinin əsas müddəaları

1 sentyabr 1951-ci ildə, San-Fransiskoda, Avstraliya, Yeni Zelandiya və Amerika Birləşmiş Ştatları (AYZBŞ- ANZUS) arasında təhlükəsizlik müqaviləsi imzalanmışdı. Müqavilə təhlükəli vəziyyətlərdə tərəflərin qarşılıqlı əlaqəsini təmin etməli idi: maddə 3 - tərəflər, ehtimal olunan təhdidlərlə əlaqədar bir-birləri ilə məsləhətləşməlidirlər, və maddə 4 - "hər bir tərəfin konstitusiya prosedurlarına uyğun olaraq, ümumi təhlükəyə qarşı bir yerdə hərəkət etmək üçün" öhdəlik götürürdülər. Müqaviləni imzalayanların tərəfləri, "Sakit okeanda tərəflərdən birinə silahlı hücum, onun öz dövlətinin sülhü və təhlükəsizliyi üçün təhlükə yarada biləcəyini" qəbul edirdilər. Mətndə, Yaponiya potensial təhlükə mənbəyi kimi birbaşa göstərilməsə də, Avstraliya, Yeni Zelandiya nöqteyi-nəzərindən, bu müqavilə onlara məhz Yaponiyaya qarşı zəmanət verirdi. Bu müqavilə, adı çəkilən ölkələrin, Tokio ilə sülh nizamlanması məsələsində ABŞ-ı dəstəkləməsinə razılıq vermələrinin təminatı idi.

NATO müqaviləsi "güclü" standart sayılırdısa, bu, nisbətən "zəif" müqavilə idi. Bu hal müqavilənin “həyata keçirilməsi” mexanizminin qeyri-müəyyənliyində özünü göstərirdi. Şimali Atlantika Paktının mətnində açıq şəkildə deyilirdi: "... Avropada və ya Şimali Amerikada bir və ya daha çox tərəfə silahlı hücum, hamıya olan silahlı hücum kimi sayılacaq." AYZBŞ müqaviləsində belə bir ifadə yoxdur. Yalnız, təcavüzə qarşı mübarizə tədbirlərinin görülməsinin zəruriliyini nəzərə çatdıran qeyd var idi.

NATO müqaviləsi, iştirakçı ölkələrin təcili fəaliyyətını təmin edir, AYZBŞ müqaviləsində isə, hərəkətə gətirilmə prosesinin təmini, konstitusiya

prosedurlarından asılıdır. Belə ki, demokratik ölkələrdə xaricə qoşun göndərilməsi və ya hərəkətə gətirilməsi qərarı, ancaq dövlətin özünün milli ərazisinə hücum zamanı mümkün ola bilən, mürəkkəb bir prosesdir. AYZBŞ müqaviləsi yalnız adi məsləhət paktı deyildi. Ancaq, təşkilati və siyasi- hüquqi münasibətlərdə uzun hazırlıq olmadan, təcavüzə qarşı mübarizə vasitəsi kimi xidmət edə bilməzdi.

Müqavilə, yalnız təhlükə yarandıqda, ABŞ-ın konkret əməkdaşlıq formalarının müzakirəsinə girmək öhdəliyinə zəmanət verirdi. Eyni zamanda, Avstraliya və Yeni Zelandiyanı, ən azı, Sakit okean və Sakit okean Asiyasında münaqişə zamanı, ABŞ-a əlavə dəstək verəcəkləri barədə öhdəlik qəbul etdirdi. Avstraliya və Yeni Zelandiya, ABŞ-ın dəstəyini almağa çalışsalar da, Koreyada gedən müharibəyə cəlb olunmaq istəməyərək, maraqlarına uyğun olmayan qarşıdurmadan qorxurdular.

## 6.3.San-Fransisko konfransı

Moskva, ABŞ-Yaponiya ittifaqının perspektivindən çox narahat idi. Sovet İttifaqı öz nümayəndələrinin Yaponiya ilə sülh müqaviləsinin mətnini hazırlamaqdan kənarlaşdırılmasına etiraz etmişdi. ABŞ, hesab edirdi ki, SSRİ ümumiyyətlə sülh konfransında iştirak etməkdən imtina edəcək, amma əksini də istisna etmirdi. Görüşlər zamanı, Moskvanın birbaşa sazişin mətnində dəyişiklik etməyə cəhd edəcəyini gözləyən ABŞ, sazişi imzalamağa dəvət olunan ölkələrlə, onu öncədən razılaşdırmaq üçün xeyli çalışmışdı. Nəticədə, SSRİ hazırlıqlı və razılaşdırılmış bir mövqe ilə üzləşmiş oldu.

Boykotla qarşılaşan Sovet İttifaqı, sülh müqaviləsini imzalamaqdan imtina etdi. 4-8 sentyabr 1951-ci il tarixlərində, San-Fransisko konfransında iştirak edən 52 Avropa, Asiya və Latın Amerikası ölkələrindən (əksəriyyəti Yaponiyaya qarşı müharibədə yalnız rəsmi şəkildə iştirak etmişdi), müqavilə yalnız, SSRİ, Polşa və Çexoslovakiya tərəfindən imzalanmamışdı. Nə Çin, nə də Tayvan konfransa dəvət olunmamışdı, çünki iştirakçı ölkələr müxtəlif Çin hökumətləri ilə münasibətləri saxlayırdılar və yalnız bir "Çindən" olan nümayəndələrin ortaya çıxması, konfrans iştirakçıları arasında arzuolunmaz fikir ayrılıqlarına səbəb ola bilərdi. Layihənin şərtlərinin Yaponiyaya münasibətdə olduqca sərt olduğunu nəzərə alan Hindistan və əksinə, onları çox yumşaq sayan Birma öz nümayəndə heyətlərini göndərmədilər.

San-Fransisko sülh müqaviləsi, Yaponiya ilə onu imzalayan ölkələr arasında müharibə vəziyyətini dayandırdı və ölkənin suverenliyinin bərpasını və işğalçı idarə sisteminin dayandırılmasını elan etdi. XX əsrin birinci yarısında, yapon adası və materik ərazisindən ibarət olan Yaponiya imperiyası ləğv edildi. Bu imperiyanın tərkibində olan Koreya, Yaponiya tərəfindən müstəqil dövlət kimi tanındı. Yaponiya müharibədən əvvəl ona məxsus olan, Çinin Tayvan adasından imtina

etdi. Bundan əlavə, Yaponiya Cənubi Saxalin, Kuril adalarına olan hüquqi əsaslarından, habelə Penhuledao, Spratli, Parasel adaları və Okeaniya ərazisindəki keçmiş mandatı olduğu ərazilərə olan hüququndan imtina etdi. Ancaq mətndə, Yaponiya tərəfinin bu adaları kimin xeyrinə imtina etməsi qeyd olunmamışdı. Bunun nəticəsində, xüsusilə Sovet İttifaqının Cənubi Saxalin və Kuril adaları ərazilərinə olan hüquqları sülh müqaviləsində təsdiqlənməmişdi.

Bundan əlavə, Yaponiya, ona aid olan Ryuyu adalarını (əsas adası Okinava ilə) və Bonin, habelə bir neçə kiçik adanın da işğalına və ABŞ-ın müvəqqəti nəzarəti altına təhvil verilməsinə razılıq verdi.

Yaponiya ilə sülh müqaviləsi imzalamaqdan imtina edən, Sovet nümayəndə heyətinin öz mövqeyini əsaslandırması hələ də mübahisəlidir. Hər halda, aydındır ki, SSRİ-nin müqaviləni imzalamaqdan imtina etməsi, Sovet-Yaponiya münasibətlərinin tam hüquqi əsasda normallaşması imkanını əngəlləyirdi. Qanuni olaraq, Sovet İttifaqı ilə, Yaponiya arasında müharibə vəziyyəti, 1956-cı ilə qədər davam etdi və bu vaxta qədər Yaponiya ilə Rusiya arasında sülh müqaviləsi imzalanmamışdı. Tokio və konfransda iştirak edən ölkələr tərəfindən Cənubi Saxalin və Kuril adalarının, SSRİ-yə daxil olması faktını tanınmaması, Sovet diplomatiyasının məğlubiyyəti sayılırdı.

### 6.4. ABŞ-ın Yaponiya ilə ittifaq müqaviləsi və Filippin ilə qarşılıqlı təhlükəsizlik müqaviləsi

Tokio ilə sülh müqaviləsi, bir gün sonra imzalanmış ABŞ-Yaponiya təhlükəsizlik zəmanəti müqaviləsinin bağlanması üçün rəsmi maneələri aradan qaldırıldı. 1947-ci ildə, qəbul edilən, Yaponiya konstitusiyası, Tokionun beynəlxalq mübahisələrin həlli vasitəsi olaraq müharibədən imtina etməsini təsdiqlədiyi üçün, Yaponiya böyük milli silahlı qüvvələr yarada bilməzdi. Bunun əsasında, 1951-ci il ABŞ-Yaponiya təhlükəsizlik müqaviləsi, ABŞ-a, Yaponiyanı müdafiə etmək hüququ verdi.

Başqa sözlə, ABŞ Yaponiyanı müdafiə etməli olsa da, Yaponiya ABŞ-ı müdafiə etməli deyildi. Əslində, Yaponiya, hərbi- siyasi cəhətdən, ABŞ-ın özünəməxsus "yumşaq protektoratı"na çevrilmiş olurdu. Müqaviləyə əlavə edilmiş inzibati sazişə görə, ABŞ Uzaq Şərqdə sülh və təhlükəsizliyi təmin etmək üçün zərurət olarsa, Yaponiyaya və ətrafına silahlı qüvvələr yerləşdirmək hüququnu əldə etmiş olurdu. Bu əsasda, Yaponiyada ABŞ-ın hərbi-dəniz və hərbi-hava bazaları şəbəkəsi yaradıldı. Yaponiya-ABŞ ittifaqı, Şərqi Asiyada Amerika strategiyasının təməlinə çevrildi. İndi, Tokio, xarici siyasət sahəsində, ABŞ-ı danışıqsız izləyirdi.

ABŞ-Yaponiya müqaviləsinin imzalanması, Asiya ölkələrinin Vaşinqton və Tokio arasındakı ittifaqın mənası və istiqaməti ilə bağlı şübhələrini aradan qaldırmaq zərurətinə diqqəti artırdı. ABŞ-Yaponiya tərəfdaşlığını yerli ölkələrin gözü qarşısında tarazlaşdıran AYZBŞ-dən sonrakı addım, 1951-ci ilin sonunda, ABŞ ilə Filippin arasında qarşılıqlı təhlükəsizlik sazişinin imzalanması oldu. Bu sənəd AYZBŞ müqaviləsi ilə eynilik təşkil edirdi. 1951-ci il, ABŞ-Filippin Qarşılıqlı Təhlükəsizlik Müqaviləsi, 4 İyul 1946-cı ildə bağlanmış, iki ölkə arasındakı münasibətlərin əsasları haqqında müqavilə ilə vahid bir kompleks meydana gətirmişdi. Bu müqavilə, Vaşinqtonun, "ABŞ və Filippin Respublikasının qarşılıqlı qorunması maraqları naminə" Filippindəki bazalardan istifadə hüququnu təmin edirdi.

### 6.5. San-Fransisko konfransının xüsusiyyətləri

1950-ci illərin əvvəllərində, Şərqi Asiya və Sakit Okean hövzəsində müharibədən əvvəlki Vaşinqton sistemi, yeni San-Fransisko nizamı ilə əvəz olundu. Onun hüquqi bazası, ilk növbədə, bunlardan ibarət idi:

birincisi, Yaponiya ilə San-Fransisko sülh Müqaviləsi;

ikincisi, Yaponiyanın yenidən təcavüzünün qarşısını almağa yönəlmiş Avstraliya, Yeni Zelandiya və Filippin ilə ABŞ-ın təminat müqavilələri;

üçüncüsü, Yaponiyanı hərbi cəhətdən müəyyən bir mənada Amerika protektoratı edən ABŞ-Yaponiya təhlükəsizlik müqaviləsi.

Bu zəmanət kompleksi, ümumiyyətlə Yaponiyanın hərbi təhlükəsinin yenidən bərpasına qarşı yönəldilmişdi.

1950-ci il, Çin-Sovet müqaviləsi də, ilk əvvəl eyni ilə belə bir vəzifəyə tabe edilmişdi. Belə bir vəziyyətdə, Yaponiyanın qarşısını almaq istiqamətini saxlanması əsasında, San-Fransisko nizamı, iki hissədən ibarət olan müqavilə kompleksi ola bilərdi – ABŞ ilə qrup ittifaqında olan ölkələr ilə, Yaponiya arasında sülh müqaviləsi və sülh nizamlanması çərçivəsindən kənarda olan SSRİ və ÇXR-nin ikitərəfli müqaviləsi. Həm birinci, həm də ikinci müqavilənin hədəfləri eyni olduğundan, yapon təhlükəsinin qarşısının alınması uğurla həll edilə bilərdi.

Ancaq, yapon təcavüzünün yenidən başlanması və Yaponiya ilə barışıq müqaviləsi bağlandığı bir zamanda Amerika diplomatiyası, Asiya-Sakit okean ölkələri ilə bağladığı müqavilələrin mənasını, anti-yapon istiqamətlə yanaşı, anti-kommunist xarakterdə də genişləndirməyə çalışırdı. ABŞ, digər tərəfdən, bölgədə yaranan ittifaq sistemini, ikitərəfli qarşısını alma məqsədlərinə - bir tərəfdən Yaponiya və digər tərəfdən kommunist ölkələrinin (Çin və SSRİ, daha sonra - KXDR və VDR) əleyhinə çevirməyə çalışırdı.

Belə bir vəziyyətdə, SSRİ-nin Çin ilə, əsasən Yaponiya əleyhinə bağladığı ittifaqı, öz mahiyyətini dəyişərək, eyni vaxtda, həm Yaponiyaya, həm də ABŞ-a və onun bölgədəki müttəfiqlərinə qarşı yönəlmiş olurdu. Beləliklə, Avropada yaranan və bir tərəfdə NATO, digər tərəfdə Sovet İttifaqı və Şərqi Avropa müttəfiqləri olan qarşıdurmada olduğu kimi, ikiqütblü müxalifət sxemi, Şərqi Asiya və Sakit Okeana da köçürüldü.

1950-ci illərin ortalarına, ABŞ-ın bölgədəki strateji sistemi hərbi- siyasi ittifaqlar ilə gücləndirildi. ABŞ, 1 oktyabr 1953-cü ildə, Koreya Respublikası ilə, 2 dekabr 1954-cü ildə, Çan Kayşinin başçılıq etdiyi Tayvan ilə (Çin Respublikası) müqavilə imzalamışdı. 1962-ci ildə, Tailand ABŞ-ın hərbi-siyasi əməkdaşlığına qoşuldu. Bu qrup müqavilələr, Şərqi Asiyada ikiqütblüyün möhkəmlənməsinə imkan verən, anti-kommunist istiqamətli xarakter aldı.

Ancaq, bu regiondakı ikiqütblülük, Avropada formalaşan sistemdən fərqlənirdi. Şərqi Asiya ikiqütblü modeli daha az sərt və daha dağınıq idi. Avropadan fərqli olaraq, o, çoxtərəfli bloklara qarşı çıxmaq üçün yaradılmamışdı. Region ölkələri, ABŞ və ya SSRİ ilə ikitərəfli müqavilələrlə bağlı idi. Lakin, onlar bir-biri ilə birbaşa çoxtərəfli əlaqələr yaratmaq meyli göstərmirdilər. Region ölkələri, daha çox azadlıq və dövlət quruculuğu maraqlarını rəhbər tuturdular. Asiya ölkələrinin mədəni kontekstində, kommunist və ya liberal-demokratik dəyərlər onlara eyni dərəcədə yad idi.

Şərqi Asiyada, ABŞ və SSRİ-nin istəyinə zidd olaraq, Avropadakından daha mürəkkəb olan qarşılıqlı qarşıdurmaların üçqütblü sistemi böyüməyə başladı. Bu sistemdə, “üçüncü qütb” rolunda, keçmiş asılı və müstəmləkə ölkələri, o cümlədən materik Çin iştirak edirdi.

# İKİNCİ FƏSİL

# İKİQÜTBLÜ DÜNYA SİSTEMİNDƏ ZİDDİYYƏTLƏR MÜSTƏMLƏKƏ SİSTEMİNİN DAĞILMASI (1953-1962-ci illər)

## I BÖLMƏ
## İki sistemli dünyanın siyasi istiqamətləri: inteqrasiya və hərbi ittifaqlar

**1.SSRİ-də hakimiyyət dəyişikliyindən sonra xarici siyasətin yeni istiqamətinin hazırlanması**
1.1.Sovet İttifaqında hakimiyyət dəyişikliyi və beynəlxalq vəziyyət
1.2. SSRİ-nin dinc diplomatik hücumu

**2.İkiqütblü dünya sistemində ABŞ-ın hücum nəzəriyyələri**
2.1.ABŞ-ın "Yeni baxış" doktrinası
2.2.ABŞ Prezidenti Eyzenhauerin "Kütləvi qisas doktrinası"
2.3.ABŞ-ın "Domino nəzəriyyəsi"
2.4.Prezident D.Eyzenhauerin dövründə ABŞ-ın xarici siyasəti

**3.Eyzenhauer doktrinası. Hərbi bloklar**
4. Almaniyanın NATO-ya daxil olması. VMT-nın yaradılması(1955)
4.1. AFR-in Qərbin hərbi-siyasi qurumlarına qəbuluna hazırlığı
4.2. 1954-cü il Paris protokollarının əsas müddəaları
4.3. "İkiqat qarşısını alma"
4.4.Varşava Müqaviləsi Təşkilatı

**5. Roma Müqaviləsi və AİB-nin yaradılması. Qərbi Avropada inteqrasiya prosesləri**
5.1. AKPB ölkələrinin Messina Konfransı (iyun 1955)
5.2.Qərbi Avropadakı inteqrasiya meylləri. AİB-in yaradılması

## 1.SSRİ-də hakimiyyət dəyişikliyindən sonra xarici siyasətin yeni istiqamətinin hazırlanması

### 1.1.Sovet İttifaqında hakimiyyət dəyişikliyi və beynəlxalq vəziyyət

Beynəlxalq sistem böyük dəyişikliklər ərəfəsində idi. Prezident D. Eyzenhauerin andiçmə mərasimindən bir ay yarım sonra, 6 mart 1953-cü ildə, Moskvada, İ.V.Stalin 73 yaşında vəfat etdi. Onun ölümü ilə Sovet İttifaqı tarixindəki ən qanlı dövr başa çatdı. SSRİ Nazirlər Sovetinin Sədri G.M.Malenkov Sovet rəhbərliyində ilk şəxs vəzifəsinə qalxdı. Sovet İttifaqının xarici siyasətində ehtiyatlı və daha cəsarətli yeniliklərin əlamətləri dərhal göründü. Moskva əksər beynəlxalq məsələlərə - Koreya, Almaniya, silah, müharibə və sülh məsələsinə yanaşmanı yumşaltmağa başladı. Bu siyasət inkişaf etdirilirdi.

Ölkədə partiya-dövlət rəhbərliyinin anti-Stalin hissəsi və onunla əlaqəli intellektual elita arasında "dinc yanaşı yaşama" ideyası müzakirə olunmağa başlandı. Müharibədən sonrakı yeni reallıqlara uyğun olaraq, bu fikrə daha müasir bir ifadə verməyə çalışırdılar. Ancaq rəsmi olaraq "dinc yanaşı yaşamaq" anlayışı hələ Sovet xarici siyasətinin əsas istiqaməti elan edilməmişdi.

Stalinin vəfatı günü - 5 mart 1953-cü ildə Sov. İKP Mərkəzi Komitəsi Plenumunun, SSRİ Nazirlər Sovetinin, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin birgə iclası keçirildi, partiyanın və SSRİ hökumətinin ən yüksək vəzifələrinə təyinatlar təsdiq edildi. Xruşşev, Malenkov, Molotov və Bulqanin qrupu ilə əvvəlcədən razılaşdırılmaq ilə, Beriya SSRİ Nazirlər Sovetinin Sədrinin birinci müavini və SSRİ Daxili İşlər naziri təyin edildi. Vahid SSRİ Daxili İşlər Nazirliyinə, əvvəllər müstəqil olaraq mövcud olan SSRİ Daxili İşlər Nazirliyi (1946-1953) və SSRİ Dövlət Təhlükəsizlik Nazirliyi (1946-1953) daxil idi.

Beriya, Xruşşov və Malenkov kimi, ölkəyə rəhbərlik etmək üçün əsas iddiaçılardan biri oldu. Rəhbərlik uğrunda mübarizədə L.P.Beryia hüquq-mühafizə orqanlarına arxalanırdı. Artıq martın 19-da, bütün İttifaq respublikalarında və RSFSR-in əksər bölgələrində Daxili İşlər Nazirliyinin rəhbərləri dəyişdirildi. Onlara, Beriyanın himayə etdiyi adamlar təyin edildi.

Sov.İKP Mərkəzi Komitəsi üzvlərinin əksəriyyətinin və yüksək rütbəli hərbçilərin dəstəyini alan, N.S. Xruşşov 1953-cü il iyunun 26-da, SSRİ Nazirlər Sovetinin iclasını çağırdı və burada Beriyanın öz vəzifəsinə uyğunluğu və bütün vəzifələrindən uzaqlaşdırılması məsələsini müzakirəyə buraxdı. Bunlardan başqa, Xruşşev onu təftişçilikdə, QDR-də gərginləşən vəziyyətə anti-sosialist yanaşmada və 1920-ci

illərdə İngiltərə üçün casusluq etməkdə ittiham etdi. Beriya etiraz etməyə çalışsa da, Marşal Jukovun rəhbərlik etdiyi bir qrup general otağa girib Beriyanı həbs etdi.

Sov.İKP MK-nın iyul plenumunda, Mərkəzi Komitə üzvlərinin demək olar ki, hamısı L.Beriyanın təxribat fəaliyyətləri barədə bəyanatlar verdilər. İyulun 7-də Sov.İKP Mərkəzi Komitəsinin plenumunun qərarı ilə Beriya Sov.İKP Mərkəzi Komitəsinin Rəyasət Heyətinin üzvü vəzifəsindən azad edildi və Sov.İKP Mərkəzi Komitəsindən uzaqlaşdırıldı.

23 dekabr 1953-cü ildə, Beriyanın işinə Sovet İttifaqı marşalı I.S.Konevin sədrliyi ilə SSRİ Ali Məhkəməsinin Xüsusi Məhkəmə heyəti tərəfindən baxıldı. L.Beriyaya və onun köməkçilərinə ölüm hökmü kəsildi. Bütün təqsirləndirilənlər eyni gündə güllələndi, L. Beriya isə digər məhkumların edamından bir neçə saat əvvəl, SSRİ Baş Prokuroru RA Rudenkonun iştirakı ilə Moskva Hərbi Dairəsinin qərargahının bunkerində güllələnərək, edam olundu.

Lakin, 2015-cü il iyunun 4-də, RF TV Birinci kanalında verilən sənədli filmdə, L.Beriyanın 26 iyun 1953-cü ildə, Xruşşov, Malenkov və Bulqaninin əmri ilə Malaya Nikitskaya küçəsindəki malikanəsində həbs olunduğu zaman öldürüldüyü göstərilirdi.

1953-cü ilin sentyabrında Sov.İKP MK-nın plenumunda Malenkovun təklifi ilə S.N.Xruşov partiya Mərkəzi Komitəsinin Birinci Katibi seçildi. Beləliklə, plenum 1953-cü ilin martında Stalinin ölümündən sonra Mərkəzi Komitə Rəyasət Heyətinin üzvləri tərəfindən kollektiv rəhbərliyi təmin etmək, Mərkəzi Komitə katiblərindən birinin vəzifəsinin həddən artıq artırılmasına imkan verməmək və Baş (Birinci) Katib vəzifəsini bərpa etməmək üçün əldə edilmiş razılaşmadan rəsmi şəkildə uzaqlaşmış oldu.

1953-cü ilin payızında, Q.M.Malenkov Sovet İttifaqının xarici siyasət sahəsində əsas simaya çevrilən Sov.İKP MK-nın Birinci Katibi N.S.Xruşşov tərəfindən rəhbərlikdə aparıcı sima olmaqdan tədricən sıxışdırıldı.

1956-cı il fevralın 14-də, keçirilən Sov. IKP-nın XX qurultayında Kommunust Partiyasının Birinci Katibi N.S.Xruşşovun məruzəsinin əsasında, 1956-cı il iyunun 30-da Sov.İKP MK-nın “Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılmasına dair” qərarı dərc olundu.

Sov.İKP MK-nın iyun (1957) plenumunda Mərkəzi Komitə Rəyasət Heyətinin 9 üzvündən 6-sı (Molotov, Kaqanoviç, Malenkov, Voroşilov, Bulqanin, Pervuxin) Xruşşovun Birinci Katib vəzifəsindən çıxarılması və partiyada belə bir vəzifənin ləğvi məsələsini qaldırdı. Xruşşov, 1955-ci ilin ikinci yarısından kollektiv rəhbərlik normalarının kobud şəkildə pozulmasında, kobudluqda, təkəbbürdə, özünə məxsus şəxsiyyətə pərəstişliyin qurulmasında, daxili və xarici siyasətə xətərli təşəbbüsdə

günahlandırıldı. Xruşşovu, xarici siyasətə sülh və ya müharibə məsələsinin taleyinin ancaq, SSRİ ilə ABŞ arasındakı razılaşmadan asılı olduğunu deməsi, Finlandiya Prezidenti U. K. Kekkonen ilə fin hamamında danışıqlar aparması ("hamam diplomatiyası"), Rəyasət Heyətinin üzvləri ilə əvvəlcədən razılaşdırılmadan xarici müxbirlərlə çoxsaylı müsahibələr verməsi ilə ittiham edirdılar. Birinci Katibə dəstək olaraq, "güc" şöbələrinin rəhbərləri - müdafiə naziri G.K.Jukov və KQB sədri İ.A.Serov çıxış etmişdi. G.K.Jukov öz çıxışı ilə, partiya və dövlətin ən yaxşı rəhbərlərini təqsirləndirilən şəxslərə çevirərək müzakirələrin gedişatını tamamilə dəyişdirdi. 29 iyun 1957-ci ildə, Sov.İKP MK-nın plenumu "G. Malenkov, L. M. Kaganoviç, V. M. Molotovun anti-partiya qrupu haqqında" qərar qəbul etdi. Qrupun üç üzvü və "onlara qoşulan" D.T. Şepilova qarşı on altı ittiham irəli sürüldü. Plenum Malenkov, Kaqanoviç və Molotovun Mərkəzi Komitə Rəyasət Heyətinin üzvlərindən və Mərkəzi Komitədən çıxarılması barədə qərar çıxardı. "Onlara qoşulan" Şepilov Mərkəzi Komitənin katibi vəzifəsindən uzaqlaşdırıldı. Voroşilovdan başqa bütün Xruşşov əleyhdarları yüksək rəhbər vəzifələrindən kənarlaşdırıldı.

Bir neçə ay sonra, Sov.İKP MK-nın oktyabr (1957) plenumunda, "Sovet Ordusunda və donanmada partiya- siyasi işinin yaxşılaşdırılması haqqında" məsələsini mazakirə edən N.S.Xruşşov, Jukov üsulunu marşalın özünə qarşı məharətlə istifadə etdi. Onu ölkədə hakimiyyəti ələ almaqda günahlandırdı. 1 aprel 1958-ci ildə, hökumət başçısı N.A.Bulqanin vəzifəsindən azad edildikdən sonra N.S.Xruşşov SSRİ Nazirlər Sovetinin Sədri oldu. Partiya rəhbərliyini və hökuməti əlində birləşdirən Xruşşov nəinki faktiki, həm də rəsmi olaraq böyük gücə sahib oldu.

### 1.2. SSRİ-nin dinc diplomatik hücumu

Sovet İttifaqının siyasətində qarşıdurmadan uzaqlaşma əlamətləri böyüyürdü. 30 may 1953-cü ildə, Moskva gözlənilmədən, Türkiyəyə qarşı iddialardan imtina etdiyini elan etdi. SSRİ, 1946-cı il avqust ayında irəli sürdüyü Montre müqaviləsinə yenidən baxılmasını və Qara dəniz boğazlarının birgə müdafiəsini tələb edən bəyannaməsini 7 il sonra etibarsız elan etdi.

27 iyul 1953-cü ildə, SSRİ-nin və ABŞ-ın paralel səyləri sayəsində, Koreyada sülh müqaviləsi bağlandı. Bu müqaviləni, bir tərəfdən KXDR və ÇXR-in nümayəndələri, digər tərəfdən ABŞ (BMT qüvvələrinin komandanlığı adından) və Cənubi Koreyanın birgə nümayəndə heyəti tərəfindən imzalanmışdı. Beləliklə, 1951-ci ildə, aktiv hərbi əməliyyatların dayandırılmasından sonra, Koreyada faktiki olaraq müşahidə olunan status-kvo hakimiyyəti qanuni əsaslara gətirildi. 1953-cü

ilin oktyabrında, ABŞ Koreya Respublikası ilə müttəfiqlik müqaviləsi imzaladı, sazişə görə, Seula yeni bir hücum olduğu halda, kömək edəcəyini vəd etdi.

Tezliklə, Moskva Yuqoslaviya ilə dövlətlərarası münasibətlərin normallaşdırılması ilə bağlı danışıqlara başladı. 1953-cü ildə, tərəflər yenidən səfirlər mübadiləsi etdilər və 1955-ci ildə, Xruşşov Yuqoslaviyaya səfər etdi, onun gedişi dövründə Yuqoslaviya ilə münasibətləri normallaşdırmaq mümkün oldu. Ancaq, B.Tito vahid "sosialist düşərgəsinə" daxil olmaqdan imtina etdi. Bu o demək idi ki, iki ölkə arasındakı dövlətlərarası münasibətlərin əsası "proletar beynəlmiləlçiliyi" deyil (SSRİ və digər sosialist dövlətləri arasındakı münasibətlərdə olduğu kimi), "dinc yanaşı yaşama" prinsipi (kapitalist və inkişaf etməkdə olan ölkələrlə əlaqələrin inkişafında olduğu kimi) olaraq qəbul edilməli idi. Əslində Moskva, Yuqoslaviyanın beynəlxalq siyasətdə, SSRİ ilə Qərb ölkələri arasında orta mövqedə dayanan bir ölkə kimi, xüsusi statusuna hörmət etməyə razılıq verdi. Moskva eyni zamanda, əməli olaraq ilk dəfə Sovet sosializm modelinin yeganə mümkün idarə üsulu olmadığını qəbul etdi.

Bununla paralel olaraq, 1955-ci ilin mayında, müstəqil demokratik Avstriyanın bərpası haqqında beş tərəfli dövlət Müqaviləsinin imzalanması ilə, Avstriyanın suverenliyinin bərpası və bitərəfləşdirilməsi məsələsi ilə bağlı məsləhətləşmələr başlandı. Müqavilə, xüsusilə Avstriyanın Almaniyaya daxil olmasının qadağan olunmasını vurğulayırdı. Müqaviləyə uyğun olaraq, Avstriya hökumətinin təklifi ilə, Avstriya parlamenti, dörd qalib tərəfin hamısının zəmanət verdiyi, daimi bitərəflik qanunu qəbul etdi. Sovet qoşunları, həmçinin Qərb ölkələrinin qoşunları ölkə ərazisindən çıxarıldı. Ölkənin birliyi bərpa edildi.

1954-cü ilin yanvar ayında, Moskvada rəhbərlik dəyişikliyindən sonra, dörd ölkənin Xarici İşlər nazirlərinin (SSRİ, ABŞ, Böyük Britaniya və Fransa) Berlində ilk görüşü keçirildi. Bu görüşdə, Hind-Çin və Koreyada vəziyyətin nizamlanması üçün, 1954-cü ildə, beynəlxalq müşavirənin çağırılması barədə razılığa gəlmək mümkün oldu.

Alman məsələsinin müzakirələri yenidən başladı. Sovet rəhbərliyi, Almaniyadakı əvvəlki mövqelərinə yenidən baxmağa meylli idi. Vahid Almaniyanın bitərəf olması şərtilə, vahid bir Almaniya dövləti yaratmaq məsələsində Qərbə güzəşt etməyə razı idi. ABŞ-ın və Qərbi Avropanın bu məsələyə münasibəti tam fərqli idi. Almaniyanın birləşməsi almanların əsas vəzifəsi olsa da, Almaniyanın bitərəfləşdirilməsi Qərb dövlətlərinin maraqlarına uyğun deyildi. ABŞ, İngiltərə və Fransa Qərbi Almaniyanın iştirakı ilə, yenidən Qərb ölkələrinin güclü bir blokunu yaratmağı hədəfləyirdilər. Bu addımla, onlar, Fransa üçün təhlükə yarada bilməyəcək yarım

Almaniyanı, təsir altına almaq istəyirdilər. Yeni Sovet rəhbərliyinin çevik siyasəti isə, Qərb dövlətlərinə yalnız maneə yaradırdı.

Moskvanın dinc hücumunun təsiri pasifist hisslərin artması ilə gücləndi. Onlar istilik- nüvə silahının istifadəsinin nəticələrinin gözlənilməz olması barədə biliyə malik təbəqələrin qorxusuna əsaslandılar. 1954-cü ilin martında, Amerika alimlərinin ABŞ-da edilən istilik nüvə qurğusu sınağının nəticələrinin miqyasını təxmin edə bilmədiyi məlumat sızması nəticəsində, ABŞ-da böyük bir qalmaqal baş verdi. Qərbdə olan məlumata görə, 1953-cü ilin avqustunda SSRİ-də baş verən hidrogen bombası sınağının nəticələri də, sovet mütəxəssislərinin gözlədiyi miqyasdan çox oldu. Həm hərbçilərdə, həm də siyasətçilərdə narahatçılıq yaşandı. Nüvə sınağı ərazisindən xeyli uzaq məsafələrdə yaşayan mülki əhaliyə, küləyin köməyi ilə gedən radioaktiv çöküntülərin təsadüfən ziyan vurması halları haqqında eşidilən məlumatlar **"atom ölümü"** qorxularını daha da artırdı.

**Qeyd: Atom ölümü - bəşəriyyətin nüvə və ya istilik- nüvə texnologiyaları ilə bağlı olan, nüvə (və ya istilik-nüvə) münaqişəsi və ya texnoloji fəlakət ilə əlaqəli, şüurlu və ya təsadüfi ölüm təhlükəsi**

"Atom ölümü" təhlükəsi ilə mübarizəyə, tanınmış elm xadimləri və liberal siyasətçilər qoşulmağa başladılar. 1950-ci illərin ortaları, müharibədən sonrakı pasifizm hərəkatının zirvəsi oldu. Müasir dünya, istilik nüvə silahları dünyasına bənzəyirdi. Ənənəvi geosiyasət və klassik hərbi strategiya öz mənalarını dəyişirdi. Atom bombaları dövründə, quru qoşunları və dəniz qüvvələrinin rolu başqa cür görünürdü. Gələcək bir müharibənin əsas aləti, uzaq mənzilli təyyarə və raket silahları hesab olunurdu.

1955-ci ildə, SSRİ xaricdəki bir sıra dəniz bazalarından imtina etməyi mümkün hesab etdi. 15 may 1955-ci ildə, Moskva Çindəki hərbi bazaları (Port Artur və Dalnıy) icarəyə vermək hüququndan imtina edərək, silahlı qüvvələri oradan təxliyə etmişdi. Sentyabrın 19-da, SSRİ üçün son dərəcə əlverişli şərtlərlə dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sovet-Finlandiya sazişi imzalanmışdı: Sovet İttifaqı Almaniyadan təhdid edildiyi təqdirdə, Finlandiyaya qoşun göndərmək hüququnu aldı. Eyni zamanda, Moskva Portkala-Udtsda olan hərbi bazanın boşaldılmasına razılıq verdi.

## 2.İkiqütblü dünya sistemində ABŞ-ın hücum nəzəriyyələri

### 2.1.ABŞ-ın "Yeni baxış" doktrinası

Amerika rəhbərliyi Moskvadakı dəyişiklikləri yaxından izləyirdi. Yeni rəhbərlik SSRİ-də hakimiyyət dəyişikliyinin ABŞ-ın maraqlarına xeyir verə biləcəyini istisna etmirdi. Buna görə də, Vaşinqton yeni Sovet liderlərinin

mövqelərini araşdırmaq üçün Moskva ilə dialoqa hazır idi. Əksər Amerika analitikləri, Stalinin ölümünün SSRİ-də hakimiyyət mübarizəsinin başlanmasına səbəb olacağına əmin idilər. Onlar hesab edirdilər ki, bu məsələ Moskvanı beynəlxalq işlərdən yayındırar və onu hücum xəttindən müvəqqəti imtina etməyə məcbur edər. ABŞ, bu vəziyyəti öz xarici siyasətinin fəallaşması üçün əlverişli məqam hesab edirdi.

Yeni idarəetmə hakimiyyətə, demokratların "kommunist hücumları"na “barışdırıcı” mövqe tutduğuna görə, tənqid şüarları ilə gəldi. Respublikaçılar "qarşısını alma" konsepsiyasını qeyri-adekvat hesab etdilər. Çünki, yeni administrasiya "ümumdünya kommunizmin hücumu" qarşısında ABŞ-ın müdafiəedici rol oynadığını düşünürdü. Respublikaçılar "qarşısını alma" doktrinasına qarşı hücum ruhlu alternativ təklif etməyə çalışırdılar. Bu vəzifəni "azadlıq"(«liberation»). anlayışının sinonimi olan "kommunizmi geriyə atmaq"(«roll-back of Communism») nəzəriyyəsi yerinə yetirməli idi.

Yeni nəzəriyyənin əsas fikirləri ilk dəfə 1952-ci ilin mayında “Life” jurnalında Respublikaçılar Partiyasının fəalı C.F. Dallesin "Cəsarət siyasəti" sərlövhəli məqaləsində şərh edilmişdi. 1953-cü ildə, yeni Respublikaçılar hökumətində Dövlət katibi vəzifəsinə təyin olunduqdan sonra, o,1952-ci ildə irəli sürülən mühakimələrə əsasən ABŞ-ın rəsmi xarici siyasətini müəyyənləşdirməyə başladı. C.F.Dallesin ideyası kütləvi nüvə zərbəsi hədəsi ilə SSRİ-yə və digər sosialist ölkələrinə təzyiq göstərmək idi.

Bununla, C.F. Dalles, ABŞ-ın sosialist dövlətlərinə nüvə zərbəsi vurmaq imkanında olduğunu nəzərə çatdıraraq, onların fəaliyyətini təcrid eymək istəyirdi. Onlar belə fikri əsas götürürdülər ki, Vaşinqtonun "qorxusundan" kommunist orqanları öz vətəndaşlarına qarşı yürütdükləri cəza siyasətini azaldacaqlar.

Vətəndaşların, öz "hökumətlərinin" qorxularının səbəblərini başa düşərək, "aşağıdan" onlara qarşı fəal şəkildə mübarizə aparacaqları gözlənilirdi. Bunun sayəsində kommunist cəmiyyətlərində "azadlıq meylləri"nin qüvvələri artmağa başlayacaq, cəza alanlar isə azalacaq. Bütün bunlar, sosialist ölkələrinin "kommunizmin zülmündən" azad olmasına səbəb olacaqdır. Utopik fərziyyələrə əsaslanan, C.F. Dallesin fikirlərinin həyata keçməsinə nümunə, Sovet-Yuqoslav münaqişəsindən sonra Moskva ilə ittifaqdan çıxan Yuqoslaviyadır. Yuqoslav hadisəsi, SSRİ-nin Qərbi Avropa, Balkanlar və Yaxın Şərqdən Avrasiyaya tərəf sıxışdırılması "geriyə atma" siyasətinin bariz nümunəsidir.

**Qeyd: Kommunizmin geriyə atılması - D.Eyzenhauerin rəhbərliyi dövründə qəbul edilmişdir. Sosialist ölkələrinə kütləvi təzyiq, xüsusən nüvə silahı zərbəsi təhdidi ilə, mövcud**

**təsir dairələrindən geriyə atmaq, əhatə dairələrini azaltmaq, o cümlədən daxili həyat məsələlərində də, güzəşt etməməyi təklif edən xarici siyasət nəzəriyyəsidir.**

Rəsmi olaraq, C.F. Dalles 15 yanvar 1953-cü ildə, Senatın Xarici Əlaqələr Komissiyasındakı çıxışında beynəlxalq reallıqlarla bağlı fikirlərini təqdim etdi. O, "qarşısını alma" siyasətini yeni ildə - "daha dinamik" siyasət ilə əvəz etmək niyyətində olduğunu açıqladı. Dalles, Şərqi Avropa ölkələrini və Sovet İttifaqı xalqlarını kommunizmdən "azad olmağa" çağırırdı. C.F.Dallesin beynəlxalq reallıqların qiymətləndirilməsinə verdiyi təbliğatçı və məsuliyyətsiz yanaşması amerikalı mütəxəssislər üçün aydın olsa da, onun ABŞ Xarici İşlər İdarəsinin rəhbəri vəzifəsinə təyin olunması, yeni rəhbərliyin öz əleyhdarlarını qorxutmaq üçün, onlara nüvə silahından istifadə etmək məqsədində olduqlarını göstərmək istəyirdilər. 1953-cü ildən 1962-ci ildə baş verən Karib böhranına qədər, hərbi gücün istifadəsi ilə bağlı birbaşa hədə təhdidlərini ehtiva edən ultimatumlar bütövlükdə beynəlxalq münasibətlərdə aparıcı dövlətlər arasında geniş təzahür tapmışdı.

ABŞ-ın xarici siyasət platformasının ümumi bir əsası sayılan "geriyə atma" nəzəriyyəsi iki hərbi doktrina - "yeni baxış" («newlook») və "kütləvi qisas alma"(«mass retaliation») ilə sıx əlaqədə idi

Milli Təhlükəsizlik Şurasının, 8 avqust 1953-cü il tarixli hesabatında verilmiş "Yeni baxış" doktrinasının mənası, ölkənin silahlı qüvvələrinin nüvə tərkib hissəsinin adi silahlı qüvvələrin saxlanılmasından daha ucuz olduğunu, nüvə silahının istifadəsi ilə daha böyük səmərə təmin edə biləcəyini bildirmək idi. Bunun ardınca, ABŞ-ın Avropada böyük bir orduya ehtiyacı olmadığı, əksinə ABŞ-ın milli ərazisində olan nüvə başlıqlarının və onların çatdırılma vasitələrinin sayının artırılması tələb olunurdu. Təbii ki, maliyyələşdirmə axınının nüvə silahının artırılmasına keçməsi lazım idi.

Amerika rəhbərliyi, SSRİ-nin sərhədləri ətrafında Amerika hərbi qüvvələrinin "saxlanmasını" səhv hesab edirdi. Sovet sərhədləri boyunca qoşunların cəmləşməsini öz təhlükəsizlikləri baxımından birbaşa maraqlı ola biləcək ölkələrə tapşırmağı zəruri hesab edirdi. Sovet İttifaqını onunla həmsərhəd olan, Vaşinqtonun müttəfiq ölkələrinin qüvvələri tərəfindən mühasirəyə alınması lazım idi. Bir sözlə, "əmək bölgüsü" təklif edilirdi: Amerika müttəfiqləri adi silahlardan istifadə edərək SSRİ-yə təzyiq göstərməli idi, ABŞ isə ehtimal olunan təcavüzkara birbaşa Amerika milli ərazisindən "cavab" zərbəsi endirməli idi. Bu vəziyyətdə ABŞ ,Avropada kütləvi hərbi qüvvəsinin iştirakını davam etdirməyi mənasız sayırdı. Prezident D.Eyzenhauerin əsas məqsədi, ABŞ-ın Avropada hərbi qüvvələrini azaltmaq idi.

Münaqişənin şaquli şəkildə genişlənməsinin mümkünlüyü (17 dekabr 1954-cü ildə NATO ölkələri tərəfindən qəbul edilmiş "sürətlə böyüyən gərginləşdirmə

strategiyası") ortaya çıxdı: ABŞ-ın iştirak etdiyi təsadüfi bir münaqişə asanlıqla böyüyərək nüvə silahından istifadə edilməklə böyük bir müharibəyə çevrilə bilərdi. Nüvə münaqişəsi üçün çox aşağı bir hədd qoyulurdu. Doktrinanın təhlükəsi ondan ibarət idi ki, o, "önləyici zərbəni" qanuniləşdirdi. Hətta, SSRİ ilə kiçik bir qarşıdurma da, yeni hücumların qarşısını almaq üçün, ABŞ-ın bütün güc və vasitələrindən istifadə etməsinə gətirib çıxarmalı idi. Kütləvi intiqam doktrinası ədəbiyyatda "kütləvi önləyici zərbə" («massivepreemption») doktrinası kimi də adlanır.

Amerika yenilikləri çox təhlükəli idi. 1949-cu ilin payızından SSRİ də nüvə dövləti olmuşdu. 1953-cü ilin avqustunda o, istilik-nüvə silahını (hidrogen bombası) uğurla sınaqdan keçirdi. Qərb tədqiqatçıları qeyd edirdilər ki, ABŞ 1952-ci ildə istilik-nüvə qurğusunu sınaqdan keçirsə də, "tam hazır", yəni hərbi istifadəyə yararlı olan hidrogen bombası Sovet İttifaqında ABŞ-a nisbətən daha əvvəl sınaqdan keçirilmişdir. 1954-cü ilin mayında Moskvada keçirilən hərbi nümayişdə, A.N.Tupolevin kostruktor bürosu Şimal qütbündən ABŞ-a gedib geri qayıda bilən ilk dörd qitələrarası bombardmançı təyyarəsini təqdim etdi. Düzdür, ABŞ nüvə başlıqlarının və onların çatdırılma vasitələrinin sayında üstünlüyü qoruyurdu.

## 2.2.ABŞ Prezidenti Eyzenhauerin "Kütləvi qisas doktrinası"

Eyzenhauerin dövründə "soyuq müharibə" üçün hazırlanmış əsas geosiyasi planlar və siyasi nəzəriyyələrdən biri "Kütləvi qisas alma" doktrinası idi.

**Qeyd: Kütləvi qisas alma doktrinası-- D.Eysenhauerin rəhbərliyi dövründə qəbul edilmişdir. ABŞ-ın nüvə silahının bütün gücü ilə, Sovet İttifaqının məhdud hücumuna cavab olaraq, qisas almaq məqsədi daşıyan hərbi-siyasi doktrinasıdır**

Bu termin ilk dəfə ABŞ-da Eyzenhauerin prezidentliyi dövründə Dövlət katibi vəzifəsində işləyən Con Foster Dalles tərəfindən1954-cü ilin yanvarın 12-də Vaşinqtonda beynəlxalq münasibətlər üzrə şurada işlədilmişdir. O, öz çıxışı zamanı bildirmişdi ki, ABŞ ona qarşı olunacaq xarici təhlükəyə nüvə silahı ilə cavab verəcəkdir. Dalles çıxışında onu da qeyd etdi ki, "nəinki ABŞ-a, hətta onun müttəfiqlərinə belə hər hansı hərbi təxribat xarakterli bir hücum edilərsə, ABŞ düşünmədən təcavüzkara nüvə silahı ilə cavab verəcəkdir". "Qarşısını alma" taktikası əsasında böyük nüvə silahı ehtiyatına arxalanan Eyzenhauer belə hesab edirdi ki, qərb blokunu, hakimiyyəti qorumaq və hərbi nüfuzu saxlamaq şərti ilə əvvəlki adi silahları ixtisar etmək lazımdır. Eyzenhauer Dalles inzibati idarəsinin belə bir çıxışı bir çox ölkələrdə, xüsusilə də ABŞ-ın müttəfiqi olan ölkələrdə ciddi təşvişə səbəb olmuşdu. Buna baxmayaraq ABŞ-ın təzyiqi altında bu doktrina, NATO-nun rəsmi şəkildə hərbi qərarı olsa da, bu amil Qərbi Avropanı

Vaşinqtonun planlarının bir hissəsi olmuş taleyi haqqında ciddi fikirləşməyə vadar etdi. Sonralar, Amerika və Avropa alimlərinin bu təcavüzkar əhval-ruhiyyədə hazırlanmış doktrina haqqında dedikləri Avropanı təşvişə salmışdı. Dallesin vəzifədə (Baş katib) olduğu müddətdə əsas diplomatik məqsədi Yaxın Şərq və Asiyanın cənub və cənubi-qərb ölkələrinin vasitəsi ilə SSRİ-ni və əsasən də kommunizm dünyasını üzük kimi, bu regionlarda ABŞ-ın təşkil etdiyi təcavüzkar bloklar vasitəsilə əhatəyə almaq idi. Bu zaman "kommunizm təhlükəsi"nin müharibə üçün törədəcəyi tədbirlər öz səmərəsini verməyəcək və ABŞ bu doktrinaya əsaslanaraq, ola biləcək hücumun qarşısını almaq üçün, önləyici zərbəni özü vuracaq idi. Cənubi-Şərqi Asiyada, 1954-cü ilin sentyabrın 8-də yaradılan SEATO, Yaxın Şərqdə isə 1955-ci ilin fevralın 24 də yaradılan Bağdad paktı hərbi blokları məhz bu qəbildən idi. Eyzenhauer vəzifəsini icra etməyə başladıqdan sonra (1953-cü ilin yanvarından) özünün çıxışlarında və qərarlarında "ilk nüvə zərbəsi" nəzəriyyəsindən imtina etdiyini bildirmişdi. 1953- cü ilin oktyabrın 7-də, Milli təhlükəsizlik şurasının müşavirəsində qeyd edildi ki, "müharibə olacağı təqdirdə ABŞ-ın hərbi əməliyyatlarda digər silah növlərindən istifadə olunduğu kimi, nüvə silahından da istifadə etməsi mümkündür". Bundan sonra "kütləvi surətdə məhv etmə" nəzəriyyəsi özünün ilk həyəcanlarını bütün dünyaya, xüsusilə də Avropaya yaydı. Preventiv (qabaqlayıcı) müharibənin aparılması üçün ABŞ-da bir çox hərbi-siyasi planlar hazırlanmışdı. 1954- cü ilin martında, Eyzenhauer nüvə erasında qəfil endiriləcək zərbənin prespektivləri və bu zaman yaranacaq problemlərin tədqiq edilməsi üçün xüsusi elmi məsləhət komissiyanın yaradılması üçün qərar verdi. Komissiya da öz növbəsində gördüyü işlər nəticəsində, ilk dəfə olaraq ballistik raketlərin hazırlanmasının sürətləndirilməsini təklif etmişdi. Komissiyanın üzərinə düşən işləri yerinə yetirdiyi bir vaxtda, hələlik yenə də qarşılıqlı olaraq, dövlət aparatında müxtəlif yollar və təkliflərlə qəfil endiriləcək zərbə strategiyası üzərində dayandılar. Belə bir zərbənin endirilməsi nəticəsində əməli cəhətdən SSRİ-nin nüvə sənayesini, 134 iri şəhərindən 118-ni və 60 milyon əhalisini məhv etmək olardı. Lakin bununla belə, bu qrupun məruzəsində xəbərdarlıq da edilirdi ki, əgər aviasiya sovetlərin 645 aerodromunu məhv etməyi bacarsa belə, SSRİ-də kiçik də olsa, 240 aerodrom qalacaqdır ki, burada da sovet bombardmançıları cəmlənə və fəal hərbi əməliyyatlar apara bilərdi. Bu ABŞ-a və onun müttəfiqlərinə sovetlər tərəfindən endiriləcək cavab zərbəsi üçün kifayət edəcək idi. Bu dövrdə, SSRİ rəhbərliyinin də bu planlar haqqında məlumatları olduğundan, əks tədbir kimi, nüvə silahlarının müəyyən hissəsini aerodromlarda deyil, həmişə hərəkətdə olan xüsusi hərbi qatarlarda yerləşdirmişdilər.

Hazırlanmış plana əsasən, SSRİ üzərinə hücum edilməsi üçün yeni tarix müəyyən edildi, bu da 1957-ci ilin yanvarın 1-i idi. Hazırlanmış planın şərti adı isə "Dropşot" idi. Plana görə hücumda NATO-ya üzv olan bütün dövlətlərin iştirak etməsi nəzərdə tutulurdu. Mərkəzi Kəşfiyyat İdarəsinin qərarına əsasən "Mobi Dik" şərti adı altında əməliyyat keçirildi. Əməliyyat ondan ibarət idi ki, kəşfiyyat xarakterli məlumatların toplanması üçün, Şərqi Avropadan Yaponiyayadək sovet ərazisinə üzərində kamera quraşdırılmış, ABŞ hərbi hava qüvvələrinə aid nəhəng hava şarları buraxılmışdı.

"Dropşot" planının həyata keçirilməsinin müddəti, AFR-in yenidən remilitarizasiya edilməsi (yenidən hərbiləşdirilməsi) prosesi ilə sıx bağlı idi. Müharibənin ilk mərhələsində, SSRİ-nin sənayesinin 85%-nin məhv edilməsi nəzərdə tutulmuşdu və onun üzərinə 300 atom bombası, 250 min tonluq adi bombaların tətbiq edilməsi nəzərdə tutulurdu. Bütün bu tədbirlər SSRİ-nin təslim olması ilə nəticələnməli idi. "Dropşot" planına əsasən əməliyyatların keçirilməsində əlavə 20 milyonluq birləşmiş hərbi qüvvələrin iştirak etməsi də təklif edilirdi. Amerikan hərbiçiləri, bu planın baş tutmasından sonra sovet xalqının və, ümumiyyətlə, bu ərazilərin gələcək aqibəti ilə bağlı fikir mübadilələri də aparmışdılar. İlk öncə, Sovet əraziləri işğal olunmalı idi. Bu prosesdə hər diviziyada 1 milyon canlı qüvvə olmaqla, 38 diviziyanın iştirakı nəzərdə tutulurdu. İşğalçı diviziyaların əsas məqsədi "vətəndaşlara və, ümumiyyətlə, ölkə cəmiyyətinə siyasi, mənəvi cəhətdən təsir edə biləcək və onu istiqamətləndirə biləcək kommunist partiyasının hakim olduğu təşkilati strukturları məhv etmək idi". ABŞ-da istər Trumenin, istərsə də Eyzenhauerin dövründə bu planları reallaşdırmaq mümkün olmadı. Beynəlxalq şərait, beynəlxalq ictimaiyyətin, xüsusilə də ABŞ ictimaiyyətinin buna qarşı etirazı və ən əsası isə SSRİ-nin çox güclü bir siyasi-iqtisadi və hərbi potensiala malik olması və dünya siyasət aləmində özünə məxsus yerinin olması buna imkan vermədi.

### 2.3.ABŞ-ın "Domino nəzəriyyəsi"

"Domino nəzəriyyəsi" XX əsrin 50-80-ci illərində ABŞ-da məşhur idi. Bu nəzəriyyənin mahiyyəti ABŞ dövlət administrasiyası tərəfindən "soyuq müharibə" zamanı dünyada amerikan müdaxiləsinin əsas istiqamətlərini müəyyən edərək, bu istiqamətdə lazımı, istərsə də adekvat siyasi, iqtisadi, maddi, mənəvi və hətta hərbi tədbirlər planı hazırlayıb onu reallığa çevirmək idi.

İnkişaf etməkdə olan ölkələrdə milli inqilabi proseslərin inkişafı Sovet rəhbərliyini milli azadlıq hərəkatları ilə strateji müttəfiqlik seçiminə ehtiyac yaratdı. Amerika Birləşmiş Ştatları 40-50-ci illərin təcrübəsinin təhlilindən fərqli nəticə

çıxardı. Amerika rəhbərliyi milli inqilabın yayılmasının qarşısını almaq üçün, ona qarşı çıxmaq lazım olduğu qənaətinə gəldi. Bu mülahizələr, öz mənasını **domino nəzəriyyəsində** öz əksini tapmışdır: bir ölkədə baş verən inqilabi dəyişikliklər, bir qayda olaraq qonşu ölkələrdə də, öz əksini tapırdı. Beləliklə, yan-yana sıra ilə düzülmüş dominolardan ən azı biri düşərsə, bir-birinin ardınca hamısı yıxılır. Nəticə etibarilə, Amerika nəzəriyyəçiləri hesab edirdilər ki, ölkələrin birində qeyri-kommunist hakimiyyətinin süqutu zamanı, ümumdünya "inqilabların yayılması"nın qarşısını almaq üçün hər hansı bir yolla inqilabın qonşu dövlətlərə keçməsinə maneyə yaratmağa çalışmaq lazımdır. 1950-1960-cı illərdə baş verən milli azadlıq hərəkatlarının əksəriyyəti inqilabi yolla həyata keçirildiyindən, belə bir nəzəri mövqe ilə ABŞ avtomatik olaraq milli azadlıq hərəkatlarına qarşı çıxan bir rol oynamış olurdu. Domino doktrinası, ilk dəfə ABŞ Prezidenti D. Eyzenhauer tərəfindən 7 aprel 1954-cü ildə, Ağ evdə keçirdiyi mətbuat konfransında elan edilmişdi. O, ABŞ-ın sonrakı 20 il üçün inkişaf etməkdə olan ölkələrə münasibətdə siyasətini müəyyən etmiş oldu.

1950-ci illərdə, ABŞ-ın və digər Qərb dövlətlərinin, əsasən Yaxın Şərq və Şərqi Asiyanın gənc azad olmuş ölkələrə qarşı apardığı səhv siyasəti ciddi beynəlxalq böhranlara səbəb oldu.

Bu nəzəriyyə, Koreya müharibəsi başlandıqdan sonra daha geniş yayılmışdı. Koreyada müharibə başlandıqdan sonra, Trumen konqres liderlərinə bildirdi ki, “Əgər biz Koreyanı itirsək, Sovet İttifaqı Asiyanı hissə - hissə udacaq. Əgər biz Asiyanı itirsək, Yaxın Şərq süqut edəcək və Avropanın başına nələr gələcəyini deməyə heç bir lüzum da yoxdur”. Bu beynəlxalq münaqişələrdə “Domino prinsipi” haqqında ilk bəyanatlardan biri idi. Bu nəzəriyyə ABŞ- ın bütün dünyaya müdaxiləsinin zəruriliyini əsaslandırmağa çalışır və bunu kommunizm təhlükəsi ilə əlaqələndirirdi.

İkinci dünya müharibəsindən sonra, SSRİ-nin Şərqi və Mərkəzi Avropada bir sıra ölkələrdə “Sovet modelini” (Yuqoslaviya və Albaniyadan başqa) tətbiq etməsi ilk növbədə ABŞ və Böyük Britaniyanı narahat edirdi. U.Çörçill özünün 1946- ildəki çıxışında “Ştettindən Adriatikdəki Triestə qədər dəmir pərdə” tutmağı təklif edirdi. O göstərirdi ki, Moskvanın nəzarət dərəcəsinin artmasına imkan verməк lazım deyildir. 1946 cı ildə, İranda olan böhrandan sonra “Trumen doktrinası” meydana gəldi. Əslində bu doktrina da, kommunizmin Qərbi Avropaya yayılmasının qarşısını almaq məqsədi daşıyırdı. Elə həmin il diplomat C.Kennan xarici işlər nazirlərinin jurnalında bir neçə məqalə çap etdirdi. “Çəkindirmə” siyasətini rəsmiləşdirən məqalə xüsusilə məşhur idi. Məqalədə təklif edilirdi ki, gələcəkdə kommunizmin genişlənməsinin qarşısını almaq üçün, Şərqi Avropa ilə Qərbi Avropa arasında

“bufer zona” təşkil etmək lazımdır. Kennan həmçinin Marşal planının təşkilində də, Qərbi Avropanı sovet dövlətini təhlükəsindən qorumaq üçün iştirak etdi. 1949-cu ildə, iki Çin dövləti (materikdə kommunist hökuməti, Tayvan adasında isə milliyyətçi hakimiyyət) təşkil edildi. Çinin itirilməsi ən böyük itki kimi qiymətləndirildi.

Koreya müharibəsi nəticəsində, Şimali Koreya da SSRİ-nin təsir dairəsinə düşdü. 1954-cü ildə Şimali Vyetnam da, SSRİ-nin təsiri altında sosializm quruculuğu yolunu götürdü. Fransa Hind- Çindən çıxmalı oldu. Cənubi Vyetnam, Şimali Vyetnam, Kamboca, Laos kimi müstəqil ölkələr yarandı. ABŞ, Birma, Tailand, Malaziya, İndoneziyada da kommunist hərəkatının geniş yayılmasından narahat idi. Belə olan təqdirdə, ABŞ Yaponiya, Tayvan, Filippin, Avstraliya və Yeni Zelandiyadan mühafizəedici dövlətlər cəbhəsi təşkil etmək qərarına gəldi. Bu bölgənin itirilməsi, ABŞ üçün həyati əhəmiyyətə malik olan regional ticarət sahəsini itirmək demək idi. 1954-cü ilin aprelin 7-də, Hind-Çin məsələsinə dair Vaşinqtonda keçirilən mətbuat konfransında, ABŞ Prezidenti Duayt Eyzenhauer bu regionda kommunizm təhlükəsinin artması və genişlənməsi amilini nəzərə çatdıraraq, bu siyasəti ilk dəfə olaraq “domino nəzəriyyəsi” adlandırdı və jurnalistlərin ona ünvanlandıqları nəzəriyyənin əsas prinsipinə aid suallarına cavab vermişdi. Cavablardan biri belə idi: “Nəhayət. Sizlərdə geniş və hərtərəfli düşünmə imkanları vardır ki, bununla da siz buna prinsip etibarı ilə “domino effekti” kimi şərti də olsa, ad verə bilərsiniz”.

C.Kennedi administrasiyası, 1960-cı illərin əvvəllərində Vyetnama müdaxilə etməyin bir sıra səbəbləri var idi, ən başlıcası isə, Cənubi Vyetnamın “domino”dan götürülməməsinə görə idi. “Domino nəzəriyyəsi” üçün ilk sübutlar 1975-ci ildə, Cənubi- Şərqi Asiyadan ABŞ öz qoşunlarını çıxardıqdan sonra (Cənubi Vyetnam, Laos və Kamboca) kommunist çevrilişlərinin olması idi. Filippin, İndoneziyadakı hadisələr də sübut edirdi ki, kommunistlər Cənubi-Şərqi Asiyanı zəbt etməyə çalışırdılar. ABŞ da Vyetnamda hərbi iştirakını genişləndirməyə başladı. Lakin “domino səmərəsi” 1965-ci ildə sonra, yəni İndoneziyada Kommunist partiyası məhv edildikdən sonra zəifləməyə başladı. “Domino nəzəriyyəsi” siyasətçilərin və diplomatların fikrinə görə, son nəticədə SSRİ nin dağılması və “Soyuq müharibə”nin qurtarması ilə nəticələndi. Məşhur ABŞ linqvisti Noam Xomskinin fikrincə “Hədə-qorxu” ən yaxşı nümunədir. Məhz “domino nəzəriyyəsi”nin təsiri altında ABŞ özündən zəif olan Çili, Vyetnam, Laos, Qrenada, Nikaraqua, Salvador, Qvatemalada və digərlərində xalq hərəkatını yatırdı ki, onlar gələcəkdə təhlükə təşkil etməsinlər. “Domino nəzəriyyəsi” ancaq regional səviyyədə müvəffəqiyyət qazana bildi. Efiopiya, Qvineya, Bisau, Madaqaskar, Kabo Berde, Mozambik, Anqola,

Əfqanıstan, Qranada, Nikaraquada 70- ci illərdə kommunistpərəst hakimiyyətlərin qurulması bunu bir daha təsdiq etmişdi. Bu nəzəriyyə, həmçinin Qərbi Avropada sol terrorçu qrupların fəallaşmasına səbəb oldu. İtaliyada Aldo Moronun öldürülməsi, "Qırmızı briqada" tərəfindən keçmiş briqada generalı Ceyms Dozerin oğurlanması bunu sübut edirdi. Məhz "domino nəzəriyyəsi" əsasında, 1973-cü ildə Prezident R. Nikson hökuməti Çilidə Salvador Alyende hökumətini devirdi. Yenə də həmin nəzəriyyə, XX əsrin 80-ci illərində Reyqan administrasiyasının Mərkəzi Amerika və Karib hövzəsinə müdaxiləsinə haqq qazandırmaq üçün istifadə edildi.

Yeni dünya nizamında, ilk əvvəl domino nəzəriyyəsi Cənub-Şərqi Asiya siyasətinin mükəmməl bir bələdçisindən çox uzaq idi, ancaq Fransanın Maliyə edilən son müdaxiləsi, bu modernləşdirilmiş nəzəriyyənin XXI əsrin əvvəllərində müəyyən üstünlüyə malik ola biləcəyini xatırlatdı.

11 yanvar 2013-cü ildə, Fransanın silahlı qüvvələri, başladığı "Serval" adlanan əməliyyatı ilə, Malidə ölkənin şimalında olan Tuareq üsyançılarına və islami ifratçı qruplaşmalarına qarşı hərbi əməliyyat keçirmişdir. Fransa rəsmilərinin bildirdiyinə görə, müdaxilənin məqsədi, hökumətin tələbi ilə İslam ifratçılarının paytaxt Bamakoya doğru irəliləməsini dayandırmaq, Malidəki bir neçə min fransız vətəndaşının təhlükəsizliyini təmin etmək, ölkənin ərazi bütövlüyünü qorumaq və nəticədə ölkənin şimalını islamçılardan azad etmək idi.

2014-cü ilin iyulundan bu əməliyyat "Barhan" adını aldı. O, Malidən əlavə digər dörd dövlətə - Mavritaniya, Burkina Faso, Niger və Çadda da tətbiq edildi.

### 2.4.Prezident D.Eyzenhauerin dövründə ABŞ-ın xarici siyasəti

ABŞ-da D.Eyzenhauerin prezidentliyi dövründə soyuq müharibədə iki sistem arasında qarşıdurma bu sistemləri təmsil edən iki nəhəng dövlət fonunda öz tempi ilə davam edirdi. Lakin, ABŞ-da Eyzenhauerin Prezident seçilməsi "soyuq müharibə"nin abı-havasında az da olsa dəyişikliyin olacağından xəbər verirdi. Ağ evə gəldikdən sonra Eyzenhauerin qarşısında duran ilk vəzifə Koreyada müharibəni sona çatdırmaq idi. O özü şəxsən Koreyaya getmiş və vəziyyətlə yaxından tanış olduqdan sonra, Dövlət katibi C.F.Dallesin və Hərbi nazir Ç.Vilsonun etirazlarına baxmayaraq 1953-cü ilin iyulunda müharibəyə son qoyacaq sülh müqaviləsinin imzalanmasına bilavasitə səbəbkar olmuşdu. Hələ Trumenin dövründə ABŞ-ın Moskvadakı səfirliyində işləmiş Kennan tərəfindən hazırlanmış "qarşısını alma "siyasəti Eyzenhauerin dövründə də öz aktuallığını saxlayırdı. Onun dövründə bu siyasi nəzəriyyə "kütləvi qisas doktrinası" adını aldı. Bu doktrina əsasında da ABŞ "soyuq müharibə"nin gedişində bir sıra geosiyasi planlar işlədi. İki sistem arasına beynəlxalq münasibətlərin həmçinin iki nəhəng dövlət arasında iqtisadi, siyasi

məsələləri nizama salınması üçün böyük dördlük ABŞ, SSRİ, İngiltərə, Fransa- 1955-ci ilin iyulun 18 də, İsveçrənin Cenevrə şəhərində konfransa toplaşdılar. Konfransda iştirak edən ABŞ Prezidenti D.Eyzenhauer və SSRİ rəhbəri N.Xruşşov arasında həm ümumi, həm də ikilikdə keçirilən görüşlərdə iki sistem arasında olan gərginliyin zəiflədilməsi, hərbi sahədə olan yarışın dayandırılması, atom silahının tətbiqinə beynəlxalq hüquq çəçivəsində qadağaların qoyulmasının təmin edilməsi, Şərq- Qərb ticarət anlaşması kimi məsələlər müzakirə edildi. Konfransda ABŞ Prezidenti Eyzenhauer tərəfindən "açıq səma" doktrinası irəli sürüldü. Bu dokrinada beynəlxalq hava naviqasiya sisteminin yoxlanılması və təftiş edilməsi nəzərdə tutulurdu. Lakin, SSRİ tərəfi bu doktrinanın əleyhinə çıxaraq onu əsl məqsədinin SSRİ-yə qarşı casusluq və təxribat xarakterli olduğunu bildirdi. Danışıqlarda müsbət nəticə əldə olunmasa da, bu konfransdan sonra iki ölkə arasında beynəlxalq münasibətlər çərçivəsində mülayimləşmə əlamətləri artıq görünməyə başlamışdı. Lakin bu mülayimləşmə "Süveyş böhranı" zamanı yenidən gərginliklə əvəz olundu. 1957 ci ilin oktyabrın 4-də, SSRİ ilk dəfə orbitə Yerin süni peykini buraxdı. Bu addım, SSRİ-nin ABŞ-dan daha mükəmməl silah ehtiyatına, xüsusilə raketlərə malik olduğunu göstərdi. Artıq, ABŞ başa düşürdü ki, SSRİ ilə zor gücü ilə danışmaq olmaz və münasibətlərə yenidən baxmaq lazımdır. ABŞ tərəfi üçün sürpriz olan digər hadisə isə, SSRİ tərəfindən 1957-ci il noyabrın üçündə "Sputnik-2"adlı kosmik raketdə Layka adlı iti kosmosa göndərməsi oldu. 1958-ci ilin yanvarın 31-də, ABŞ-da özünün ilk süni peykini kosmosa buraxdı. Bu dövrdə ABŞ iqtisadi cəhətdən böhranla üzləşsə də, texnologiyanın müasirləşdirilməsi üçün "səxavətini əskik etmək fikrində deyildi". Eyzehauer qeyd edirdi ki, "büdcənin balanslaşdırılmasından daha önəmli məsələ, ölkənin təhlükəsizliyinin təmin edilməsidir". Bunun əsasında ABŞ və SSRİ arasında danışıqlar yenidən bərpa olundu ki, 1959-cu ilin mayında vitse-prezident R. Niksonun başçılığı ilə ABŞ nümayəndə heyəti Moskvaya getdi. 1959-cu ilin sentyabrında isə bilavasitə Eyzenhauerin dəvəti ilə, N.S.Xruşşovun ABŞ-a rəsmi səfəri baş tutdu. Danışıqlar zamanı SSRİ rəhbəri, Eyzenhauerdə SSRİ haqqında böyük maraq və diqqət yaratmaq üçün, sovet sualtı qayıqlarından və qitələrarası ballistik raketlərdən söhbət açdı. Lakin, iki ölkə arasında gedən danışıqlar nəticəsiz qaldı və göstərdi ki, liderlər bir-birlərinə etibar etmirlər.

### 3.Eyzenhauer doktrinası. Hərbi bloklar

ABŞ-ın xarici siyasəti yenə də zor işlətməkdə öz əksini tapırdı. Eyzenhauer silahların və bütün iqtisadiyyatın modernləşdirilməsi xəttini yeritdi. Onun prezidentliyi dövründə hərbi xərclər iki dəfə artdı, strateji yollar çəkildi. 1954-

cü ildə SEATO hərbi blokunun yaradılmasının təşkilatçılarından biri ABŞ oldu. Əgər Trumen hidrogen silahının istehsalı haqqında sərəncam vermişdisə, Eyzenhauer hətta onu işlətməyi mümkün hesab edirdi. Buna baxmayaraq, Eyzenhauer dediyinə əməl etməyi bacarmadı. 1954-cü ildə Vyetnama Fransa tərəfindən müstəqillik verilməsini müdafiə etdi. 1955-ci ilin iyuunda Cenevre konfransında "açıq səma" doktrinasını irəli sürdü. Lakin, bu doktrina SSRİ tərəfindən rədd edilsə də, böyük dövlətlərin başçıları arasında əlaqələrin başlanğıcını qoydu. Eyzenhauer 1956-cı ildə, Süveyş kanalı Misir tərəfindən milliləşdirilərkən, Fransa, İngiltərə və İsraillə müharibədə Misiri müdafiə etdi. 1957-ci ilin yanvarında, Eyzenhauer xüsusi doktrina irəli sürdü, bu tarixə "Eyzenhauer doktrinası" adı altında daxil oldu.

**Qeyd: Eyzenhauer doktrinası-- iqtisadi çətinliklərin təzyiqi altında sol inqilabi yolu ilə gedərək və Sovet İttifaqından kömək almağa məcbur olan, ərəb ölkələrinin seçilmiş dairəsinə dəstək vermək üçün Amerika proqramıdır.**

O zaman bu regionda dünya neft ehtiyatlarının 2/3 hissəsi yerləşirdi. Həmin doktrina Bağdad paktı üzvlərinə və İsrailə aid edilirdi. Həmin doktrinaya əsasən ABŞ öz mövqeyini Yaxın və Orta Şərqdə möhkəmləndirdi. Bu doktrina həmin dövrədək ABŞ siyasətində hələ də mövcud olan bitərəfliyi rədd edərək "boşluğu güclə doldurmaq" nəzəriyyəsinin əsasını qoydu. Bu doktrina, ABŞ- ın Yaxın və Orta Şərq siyasətində yeni mərhələnin başlanğıcını qoydu. 1958-ci ildə ABŞ Livana qoşun göndərdi, Konqoda 1961-ci ilin sentyabrında, P.Lumumba hökumətinin devrilməsini təşkil etdi.

1957-ci il yanvarın 5-də, ABŞ Prezidenti D.Eyzenhauer Yaxın və Orta Şərq ölkələrində Birləşmiş Ştatların siyasəti haqqında xüsusi məktubla konqresə müraciət etdi. Eyzenhauerin bu məktubu Sovet İttifaqının və beynəlxalq kommunizmin təcavüzünə qarşı yönəldilmişdi. Bu rayonda, böhranlı vəziyyətin olduğunu, həmin dövrdə dünya neft ehtiyatlarının 2/3-sinin burada yerləşməsini və Yaxın Şərqin Avropa, Asiya və Afrika arasında qapı rolu oynamasını və üç səmavi dinin yarandığı yer olduğunu qiymətləndirən Prezident lazım olan vaxtda, Yaxın və Orta Şərqdə ABŞ hərbi qüvvələrini tətbiq etməyə icazə verilməsini konqresdən xahiş etdi.

Doktrinanın əsasında, Yaxın və Orta Şərqdə İngiltərə və Fransanın təsirinin zəifləməsi nəticəsində yaranmış boşluğu kommunizmin tutması üçün əlverişli şərait yaratmaq haqqında tezis var idi. Region ölkələri ilə hərbi, siyasi, iqtisadi və b. sahələrdə əməkdaşlığı nəzərdə tutan doktrina onların təhlükəsizliyini qoruyurdu. Burada təcavüzün qarşısını almaq üçün qüvvə tətbiq edilməsi də əsaslandırıldı.

Eyzenhauerin müraciəti sovet hökuməti tərəfindən, ABŞ-m Yaxın və Orta Şərq ölkələri üzərində hökmranlığının yaradılması proqramının elan edilməsi kimi qəbul

olundu. Sovet İttifaqı bu proqramın əleyhinə çıxdı. 1957-ci ilin yanvar və fevralında, Qahirədə keçirilmiş müşavirədə Misir Prezidenti C.Nasir, Səudiyyə Ərəbistanının Kralı Səid, Iordaniya Kralı Hüseyn, Suriyanın Baş Naziri Səbri əl- Əsali və İordaniyanın Baş Naziri Nabulsi bu doktrinanı rədd etdilər. Bundan fərqli olaraq Livan, İraq, İran, Türkiyə, həmçinin İsrail isə Eyzenhauer doktrinasını dəstəklədilər. Livanın razılığından sonra, 1958-ci ilin iyulunda Amerika hökuməti bu ərazidə ABŞ qoşunlarını yerləşdirdi.

**Mərkəzi Müqavilə Təşkilatı** və ya **SENTO** 1958-ci ilədək Bağdad paktı — Böyük Britaniya və ABŞ-ın təşəbbüsü ilə yaradılan, 1955- 1979-cu illərdə Yaxın və Orta Şərq ölkələrini birləşdirən hərbi-siyasi blok idi. Təşkilatın üzvləri Böyük Britaniya, Türkiyə, İran, İraq (1958-dək) və Pakistan idi. ABŞ formal olaraq təşkilata üzv olmasa da, 1957-ci ildən onun əsas komitələrinin iştirakçısı olmuşdur.

1955-ci il yanvar ayının 6 da Türkiyənin Baş Naziri Menderes Bağdada gəldi və Nuri Səid ilə danışıqlar apardı. Bu danışıqlar nəticəsində İraq və 1955-ci ilin yanvar ayının 12 - də Türkiyə-İraq rəsmi bəyanatı elan olundu. Bəyanatda göstərilirdi ki, hər iki tərəf guya Yaxın və Orta Şərqdə təhlükəsizliyi təmin etmək naminə əməkdaşlıq edəcəklər. 1955-ci fevral ayının 24-də Bağdadda, İraq ilə Türkiyə arasında qarşılıqlı əməkdaşlıq haqqında pakt imzalandı, tarixdə bu pakt "Bağdad paktı" adlanır. Türkiyə-İraq paktının bağlanması BMT-nin nizamnaməsinə zidd idi. Məlum olduğu kimi bu pakt bağlanan zaman nə İraq, nə də Türkiyə, yəni heç bir dövlət silahlı hücumla təhdid olunmurdu. Bağdad paktının təsis sessiyası, 1955-ci ilin noyabrın 21 - 22 - də Bağdad şəhərində oldu. Bu sessiya "Bağdad paktının" əsas orqanlarını yaratdı və ABŞ da bu ölkələrə etmək istədiyi yardımı müəyyənləşdirdi.

1955-ci aprelin 4-də Böyük Britaniya, 23 sentyabrda Pakistan, 3 noyabrda isə İran bu pakta qoşuldular. 1958-ci ildə İraq blokdan çıxdığını elan etdikdən sonra, 1959-cu ildə ABŞ ilə İran, Pakistan və Türkiyə arasında birbaşa və ya dolayı "kommunizm təcavüzünə" qarşı əməkdaşlıq barədə ikitərəfli müqavilələr imzalandı. Bu müqavilələr, SENTO-nun fəaliyyət göstərdiyi ərazilərdə sovetmeylli, qərb əleyhdarı və digər təxribatçı qüvvələrə qarşı həlledici rol oynayırdı.

XX əsrin 60-cı illərdə və 70-ci illərin əvvəllərində, SENTO-ya üzv olan ölkələr arasında fikir ayrılıqları yarandı. Bloka üzv olan müsəlman dövlətləri, İsrailin ABŞ və digər qərb dövlətləri tərəfindən dəstəklənən fəaliyyətini tənqid edərək blok daxilində iqtisadi əməkdaşlığın gücləndirilməsini təklif etdilər.

SENTO-nun əsas qurumları — Daimi Nazirlər şurası (sessiyalar hər il keçirilirdi), Katiblik və 4 komitə (hərbi, təxribatçı fəaliyyətlə mübarizə, iqtisadi və

qarşılıqlı əlaqələr) idi. Blokun hərbi planlaşdırma üzrə birləşmiş qərargahı, həmçinin bəzi alt komitələri və texniki qrupları da var idi.

1961-1979-cu illərdə, təşkilatın mərkəz-qərargahı Ankarada yerləşirdi. Hərbi blok 1979-cu il İslam inqilabından sonra İranın, ardınca isə Pakistanın blokdan çıxması ilə fəaliyyətini dayandırmışdır.

ABŞ, Cənubi- Şərqi Asiyada hərbi blok yaratmağa çalışırdı. Bu təşkilat, milli hərəkata, SSRİ-yə və ÇXR-ə qarşı yönəlmişdi. 6- 8 sentyabr 1954-cü ildə Manilada, keçirilən konfransda ABŞ, İngiltərə, Fransa, Avstraliya, Yeni Zelandiya, Filippin, Tailand və Pakistan "Cənubi- Şərqi Asiya Müqavilə Təşkilatı"nın (SEATO) yaradılması haqqında müqavilə imzaladılar. SEATO-nun rəhbər orqanı Xarici nazirlər şurası idi. Sessiyalar arasında isə təşkilatda üzv ölkələrin Banqkokda olan səfirlərindən ibarət Müvəkkillər şurası rəhbərlik edirdi. Baş katiblik, hərbi müşavirlər komitəsi, təhlükəsizlik komitəsi, iqtisadi məsələlər üzrə komitə təşkilatın əsas orqanları idi. Müqavilə, 1955-ci ilin fevralında qüvvəyə mindi.

## 4. Almaniyanın NATO-ya daxil olması. VMT-nın yaradılması (1955)

### 4.1. AFR-in Qərbin hərbi-siyasi qurumlarına qəbul edilməsinə hazırlıq

Almaniya Federativ Respublikasının qərb qonşuları və ABŞ ilə çoxtərəfli əməkdaşlıq strukturlarına cəlb edilmədən baş tutmayan, Avropa Birgə Qüvvələri (ABQ) layihəsinin uğursuzluğu Vaşinqtonda mənfi təəssürat doğurdu. Lakin bu məsələ, onun Qərbi Avropa ölkələrini birləşdirmək istəyini sarsıtmadı. Amerika rəhbərliyinin fikirləri London və Parisdə təqdir olundu. 1949-cu ildə, SSRİ-də baş vermiş nüvə sınağından və Koreya müharibəsindən sonra, ciddi siyasətçilərə aydın oldu ki, öz nüvə silahı olmayan çoxtərəfli blok zəif olaraq qalacaqdır. ABŞ, Avropa ölkəsi olmasa da, Qərbin ən güclü hərbi dövləti idi. İngiltərə və Fransa siyasətçiləri bu reallığı etiraf etməyə hazır idilər. ABQ-nin dağılması, Avropa təhlükəsizliyini təmin edən, Avropa və Atlantik versiyalarının rəqabətini aradan qaldıraraq, NATO-nun gücləndirilməsi vəzifəsini asanlaşdırdı.

1954-cü ilin sentyabrından etibarən, Britaniya Fransa nümayəndələri ilə, Almaniyanın Qərb Birliyinə daxil olması ideyasını müzakirə etməyə başladı. Eyni zamanda, İngiltərə diplomatları, Romada, İtaliyanın Qərb Birliyinə daxil olması məsələsi üzərində çalışırdılar. Fransa, Brüssel Paktının bu qədər genişlənməsinə etiraz etmirdi. Baxmayaraq ki, Almaniya və İtaliyanın Qərb İttifaqının strukturları vasitəsilə İngiltərə və Fransa ilə əməkdaşlığa cəlb edilməsi, fransızların əvvəlki təklif etmək istədiklərindən fərqli idi. Brüssel Paktı dövlətlərarası birlik idi, lakin, Paris "dövlətüstü inteqrasiya" ideyasını müdafiə etməyə çalışırdı. Buna baxmayaraq,

Fransa, Britaniya təkliflərini qəbul etməyə razı oldu. Tezliklə, danışıqların gündəliyi daha da genişləndi. Söhbət Almaniyanın təkcə Qərb Birliyinə deyil, həm də NATO-ya qəbul edilməsindən gedirdi.

1954-cü ilin sentyabrında, Londonda və Parisdə, oktyabrda Parisdə, Brüssel Paktında iştirak edən ölkələr, habelə ABŞ və Kanada arasında çoxtərəfli məsləhətləşmələr aparıldı. Bu müddətdə AFR və İtaliyanın Brüssel Paktına, AFR-in həm də NATO-ya daxil olması üçün şərtlər hazırlandı. Hazırlanmış razılaşmalara görə, AFR və İtaliya Qərb Birliyi tərkibinə daxil olduqdan sonra, o, Qərbi Avropa Birliyi adlandırılmalı idi. Onun səlahiyyətlərinə, AFR-in silahlanmasına əlavə nəzarət funksiyası da daxil olmalı idi.

### 4.2. 1954-cü il Paris protokollarının əsas müddəaları

23 oktyabr 1954-cü ildə Parisdə Almaniya Federativ Respublikasının Brüssel Paktına qoşulması ilə bağlı protokol imzalanmışdı. Bununla əlaqədar, paktın mətnində dəyişikliklər edildi və Qərb Birliyi rəsmi olaraq Qərbi Avropa adlandırıldı. Ayrı bir protokol ilə, Almaniyanın Şimali Atlantika Müqaviləsinə qoşulması da rəsmiləşdirildi.

Paris Protokolları, özünün Baş Qərargahı olan Qərbi alman ordusunun yaradılmasına icazə verirdi. Qərbi Avropa Birliyi çərçivəsində, silahlanmaya xüsusi nəzarət orqanının yaradılması nəzərdə tutulsa da, yoxlamalar NATO orqanları tərəfindən aparılmalı idi. Sazişlər, Almaniyanın ərazisində Qərb dövlətlərinin işğal qüvvələrinin qorunub saxlanmasını nəzərdə tuturdu.

Sazişlərin imzalandığı gün, AFR hökuməti, Paris müqavilələrinin müdafiə xarakterinə uyğun olmayan fəaliyyətlərdən çəkinəcəyini, Almaniyanı birləşdirmək və ya AFR sərhədlərini dəyişdirmək üçün, heç vaxt güc tətbiq etməyəcəyi barədə bəyanat verdi. AFR, kütləvi qırğın silahları (atom, kimyəvi, bakterioloji), bəzi növ ağır silahlar, böyük döyüş gəmiləri və sualtı qayıqlar, uzun mənzilli bombardmançı silahlar istehsal və istifadə etməmək öhdəliyini də qəbul etdi.

### 4.3. "İkiqat qarşısını alma"

Almaniyanın NATO və Qərbi Avropa Birliyinə daxil olması böyük əhəmiyyətə malik idi. Qərbi Almaniyanın qəbuluna qədər, hər iki qurum, "əsgərləri olmadığından" "kağız xəyalət" olaraq qalırdı. Nə Fransa, nə İtaliya, nə də Benilüks ölkələri, Sovet İttifaqının Şərqi Avropadakı mövcudluğu ilə tarazlaşdırmaq üçün, çoxsaylı ordular yarada bilmək imkanına malik deyildilər. Böyük Britaniya və ABŞ materikdə hərbi kontingentə malik olmaq istəmirdilər. Onların, Avropadakı hərbi qüvvələri rəmzi xarakterdə idi. Buna görə də, Almaniya Bundesverinin yaradılması,

Avropa və Atlantik təhlükəsizlik strukturlarına uğurlu fəaliyyət göstərmələri üçün vacib olan hərbi qüvvə vermiş oldu.

Eyni zamanda, Qərbi Almaniyanın silahlı qüvvələrinin, Qərbin hərbi-siyasi qurumlarına daxil olması, müttəfiq ölkələrə, AFR-in hərbi siyasətinə nəzarət etməyə, hərbi quruculuğu və hərbi doktrinanın inkişaf planlarından xəbərdar olmağa imkan verirdi. Dolayı formada, AFR-in NATO-ya daxil olması, Qərbi Almaniyanın da, bi qədər az da olsa, SSRİ kimi "qarşısının alınması" demək idi. Şimali Atlantika Alyansı, Sovet İttifaqının təcavüzkar istəklərini və Almaniyadakı ehtimal olunan əvəzçıxma meyllərini neytrallaşdırmaq məqsədi daşıyırdı. NATO-nun bu ikili məqsədi "ikiqat qarşısını alma" nəzəriyyəsində müəyyən edilmişdir.

**Qeyd: İkiqat qarşısını alma - NATO təşkilatının nəzəriyyəsi, iki əsas funksiyası var– Almaniyanın ehtimal olunan əvəzçıxma istəklərinə və SSRİ-nin təcavüzkar genişlənməsinə qarşı çıxır.**

AFR-in qərb təhlükəsizlik strukturlarına daxil olması, Saar məsələsinin həllini sürətləndirdi. 1955-ci ilin oktyabr ayında, Saar bölgəsində plebisit keçirildi. Saar üçün Fransanın təklif etdiyi "Avropa statusu" rədd edildi. Seçicilərin əksəriyyəti, Saarın Qərbi Almaniyaya daxil olmasının tərəfdarı idi. 1957-ci ildə, o. Qərbi Almaniyanın tərkibinə daxil olaraq, ərazisinin bir hissəsi oldu.

## 4.4.Varşava Müqaviləsi Təşkilatı

Paris Protokollarının imzalanmasından sonra da, Moskva Qərb ölkələrini Almaniyanın "birləşdirmək-üstəgəl-bitərəfləşdirmə" formulu ilə həllinə razı olmağa inandırmaq ümidindən əl çəkməmişdi. Güzəşt kimi, SSRİ, Paris sazişlərinin təsdiqini təxirə salmağı təklif etdi. Bu təkliflərə, Qərbdən cavab gəlmədi. Almaniyanın bitərəfləşdirilməsini, birləşdirmə ilə əvəz etmək ABŞ üçün qəbuledilməz dəyər kimi görünürdü. Qərbin düşündüyü kimi, zəif və silahsız Almaniya, SSRİ-nin Avropadakı mövcudluğuna qarşı ola bilməzdi, alman ehtiyat mənbələrinə malik olmayan Qərbi Avropa ölkələri də, öz növbəsində, SSRİ onlara hücum etmək qərarına gəlsə ona qarşı çıxa bilməzdilər. Vəziyyəti başa düşən Sovet diplomatiyası, əks-tədbir hazırlamağa başladı. SSRİ-nin rəhbərliyi altında, Şərqi Avropa dövlətlərinin hərbi-siyasi blokunun yaradılması üçün hazırlıqları həyata keçirməyə başladı.

5 may 1955-ci ildə, Paris protokolları, Qərbi Almaniya Bundestaqı tərəfindən təsdiq edildi. Bu məsələ, 1954-cü il oktyabrın 23-də, Almaniyanın Şimali Atlantika Müqaviləsinə qoşulmasının protokolda nəzərdə tutulmuş, hüquqi qeydini nəzərdə tuturdu. Mayın 7-də, Sovet hökuməti, 1942-ci il SSRİ- İngiltərə ittifaqı müqaviləsini və 1944-cü ildə imzalanmış, SSRİ-nin Fransa ilə oxşar müqaviləsini qüvvədən düşmüş elan etdi. Sovet İttifaqının, anti-Hitler koalisiyasında olan keçmiş müttəfiqlər ilə əməkdaşlığının hüquqi bazası məhv edilirdi.

14 may 1955-ci ildə, Sovet İttifaqı, Bolqarıstan, Albaniya, Macarıstan, Almaniya Demokratik Respublikası, Polşa və Çexoslovakiyanın nümayəndələri, Avropada sülh və təhlükəsizlik mövzusunda müşavirə keçirmək üçün, Varşavada yığışdılar. Çinin də təmsilçi, müşavirəyə müşahidəçi kimi qatıldı. Burada dostluq, əməkdaşlıq və qarşılıqlı yardım Müqaviləsi imzalandı. Saziş, hərbi-siyasi müdafiə ittifaqının yaradılmasını, hərbi-siyasi məsələlər üzrə məsləhətləşmələrin aparılmasını, müstəqillik, suverenliyə hörmət və bir-birinin daxili işlərinə qarışmamağa əsaslanaraq, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsini nəzərdə tuturdu. Avropanın şərqindəki hərbi-siyasi birlik, qərbdəki hərbi-siyasi birliyə qarşı çıxmağa başladı.

Varşava Paktına görə, iştirakçı ölkələrin Birgə Silahlı Qüvvələri (BSQ) və bu qüvvələrin vahid komandanlığı yaradıldı. Müqavilənin icrası ilə əlaqədar yaranan məsələlərin məsləhətləşməsi və baxılması üçün, hər bir dövlətin hökumət üzvü və ya xüsusi təyin olunmuş başqa bir nümayəndəsi tərəfindən təmsil olunduğu, Siyasi Məsləhət Komitəsi (SMK) yaradıldı. BSQ -nin Baş komandanını, SSRİ-nin yüksək hərbi rəislərindən təyin etmək qərara alındı. Bu vəzifəyə, ilk təyin olunan Sovet İttifaqının marşalı İ.S.Konev olmuşdu. Onun müavinləri, VMT-yə üzv dovlətlərin Müdafiə nazirləri və digər hərbi rəhbərləri idi. Varşava Paktı, BMT Nizamnaməsinin 52-ci maddəsinə uyğun olaraq, özünümüdafiəyə dair regional saziş xarakteri daşıyırdı. VMT müddəti iki dəfə - 1975 və 1985-ci illərdə uzadılmışdı.

VMT-nin yaradılmasının əsas məqsədi, müttəfiq ölkələrdə Sovet qoşunlarının saxlanması üçün hüquqi baza təmin etmək idi. Bu, xüsusilə, Macarıstan və Rumıniya daha çox şamil olunurdu. çünki SSRİ ilə Avstriya arasında müqavilə bağlandıqdan və bu ölkədəki vəziyyətin normallaşmasından sonra, sovet qoşunları Qərb qonşuları tərəfindən, rəsmi olaraq təhlükə olmadığına görə, öz silahlı qüvvələrini bu ölkələrdən çıxarmalı idi.

## 5. Roma Müqaviləsi və AİB-nin yaradılması. Qərbi Avropada inteqrasiya prosesləri

### 5.1. AKPB ölkələrinin Messina Konfransı (iyun 1955)

Avropa Birgə Qüvvələri (ABQ) layihəsinin uğursuzluğundan sonra, Qərbi Avropa ölkələri, hərbi sahədə inteqrasiya əməkdaşlığının mümkünsüzlüyü reallığı ilə barışdılar. Lakin, bu ümumilikdə Avropa inteqrasiya ideyasının rədd edilməsi demək deyildi. Materik Avropanın liderləri, iqtisadi sahədə millətfövqü qarşılıqlı əlaqələri davam etdirməyə qərar verdilər. Qərbi Avropanın inteqrasiya nəzəriyyəsinin "iqtisadiyyatlaşdırılması", AKPB-nin altı ölkəsinin, 1956-cı il 1-2 iyun tarixində, Messina (İtaliya) görüşündə qeyd olundu. Konfransda əsas

məsələ ekspert komitəsinin yaradılması haqqında qərarın qəbul edilməsi idi. Bu komitənin vəzifəsi, vahid Avropa bazarının inkişafında əməkdaşlıq etməyə əsaslanan, iqtisadi və siyasi inteqrasiya nəzəriyyəsini hazırlamaqdan ibarət idi. Bu inteqrasiya istiqaməti sonradan əsas inkişaf yoluna çevrildi.

Konfransda, enerji sahəsində əməkdaşlığa çox diqqət yetirildi. İlk növbədə, atomun dinc istifadəsi sahəsində əməkdaşlığın önlənməsi nəzərdə tutulurdu. İştirakçı ölkələrin, iqtisadi siyasət sahəsinin məqsədləri formalaşdırıldı. Bu məsələdə, əsas üstünlük, gömrük rüsumlarından və kəmiyyət məhdudiyyətlərindən azad "ümumi bazar"ın yaradılmasına verildi.

**Qeyd: İnteqrasiya, müəyyən bir qrup ölkələr arasında, intensiv, güzəştli əlaqələrin inkişafı, hər birinin qrupa daxil olmayan dövlətlərlə əməkdaşlığından üstün olan bir prosesdir. İnteqrasiyanın məqsədi, qarşılıqlı əlaqələrin razılaşdırılmış sahələrində yanaşmaların, siyasi təcrübənin və qanunvericiliyin birləşdirilməsi, ümumi məkanların (gömrük, vergi, viza, mədəni və s.) formalaşdırılmasıdır. Qərbi Avropadakı inteqrasiya, millətlərüstü, dövlətlərfövqü idarəetmə mexanizmlərinin yaradılması ilə səciyyələnirdi. Dünyanın digər bölgələrində, dövlətlərüstü qurumların yaradılması təcrübəsi başa çatdırılmamışdır, ona görə, onlarda inteqrasiya ənənəvi hökumətlərarası, dövlətlərarası əsasda inkişaf edir.**

Messina Konfransı, yeni inteqrasiya mərhələsinin başlanğıcına təkan verdi. Qərbi Avropanın dünya iqtisadiyyatındakı mövqeyinin möhkəmlənməsi, Qərbi Avropa ölkələrinin iqtisadi quruluşundakı müsbət dəyişikliklər, elmi- texnoloji inqilabın sürətlənməsi, istehsalın avtomatlaşdırılması, istehsalın mərkəzləşdirilməsi və iri müəssisələrin yaradılması milli bazarların məhdud çərçivəsindən çıxaraq, beynəlxalq miqyasda sıx əməkdaşlığın yaradılmasını tələb edirdi. AKPB təcrübəsi uğur qazanmaq üçün ümid verirdi. Qeyd olunurdu ki, AKPB-yə daxil olan altı ölkə arasında, onların məhsullarının qarşılıqlı ticarətinin artımı, onlar arasındakı ticarət həcmindəki ümumi artımdan daha sürətli olmuşdur.

## 5.2.Qərbi Avropadakı inteqrasiya meylləri. AİB-in yaradılması

Fransa və Böyük Britaniyanın "Süveyş həqarəti", Qərbi Avropada bu iki ölkənin diplomatik məğlubiyyəti və ümumiyyətlə avropalıların utancı, Sovet İttifaqı və ABŞ tərəfindən vurulmuş zərbə kimi qəbul edildi. Avropada, ABŞ-a qarşı əsəbilik hökm sürürdü və Amerikanın avropalıların Vaşinqtondan asılı olduqlarını kobud şəkildə hiss etdirməyindən incimişdilər.

Süveyş böhranının ən qızğın vaxtında - 5 noyabr 1956-cı ildə, Qərbi Almaniya və Fransa nümayəndələri-- Fransanın Baş Naziri Gi Molle və AFR-in kansleri Konrad Adenauer, 1955-ci ilin yayından, Messina konfransının qərarları əsasında, hazırlanan inteqrasiya müqavilələrinin mübahisəli məsələlərində razılığa gələ bilmişdilər. Sonrakı bir neçə ay ərzində, saziş layihələri tamamlanaraq, digər AKPB ölkələri ilə razılaşdırıldı.

25 mart 1957-ci ildə, Romada “altılıq” ölkələri (Fransa, Almaniya, İtaliya və Benilüks dövlətləri) müddəti olmayan, iki mühüm yeni müqavilə imzaladılar - Avropa İqtisadi Birliyi və Avropa Atom Enerjisi Birliyi (Avroatom). İndi, Qərbi Avropada üç "birlik" mövcud idi: 1) kömür və polad üzrə, 2) atom enerjisi və 3) ticarət üzrə.

Avropa İqtisadi Birliyinin (ümumi bazar) yaradılması haqqında saziş iqtisadiyyat, elm və texnologiya sahəsində əməkdaşlığı tənzimləyirdi. İştirakçı ölkələr üçün ümumi bazarın yaradıldığını elan edərək, iştirakçı ölkələrin iqtisadi siyasətinin yaxınlaşması və birləşməsi formalarını açıqlayırdı. Saziş, iştirakçı dövlətlər arasında gömrük maneələrini üç mərhələdə 12 il müddətinə azaldılmasını (yəni 1969-cu ilə qədər), vahid gömrük tarifinin və üçüncü ölkələr üçün vahid ticarət siyasətinin qəbul edilməsini təmin edirdi. Beləliklə, Messinadakı konfrans zamanı irəli sürülən "gömrük tərksilahı" ideyası gerçəkləşmiş oldu.

“Ümumi bazar"ın iştirakçıları, öz aralarında işçi qüvvəsi, kapital və xidmətlərin yerdəyişmələrində yaranan maneələri aradan qaldırmağa çalışacaqlarını vəd etdilər. Kənd təsərrüfatı və nəqliyyat sahəsində ümumi siyasət yürütmək, iqtisadi qanunvericiliyin yaxınlaşmasına nail olmaq və iştirakçı ölkələrin hər birinin iqtisadi siyasətində razılaşdırılmış qərarların hazırlanması və qəbul edilməsi qaydalarının standartlaşdırılmasına kömək etmək üçün razılığa gəldilər.

Roma Müqaviləsinə, iqtisadi siyasətlərin uyğunlaşdırılması və qərarların verilməsi üçün, ümumi standartların tətbiqi ilə bağlı müddəaların daxil edilməsi, gələcəkdə bəzi siyasi təcrübələrin minimumu kimi standartlaşdırmanın qaçılmaz olmasını nəzərdə tuturdu. Bu da öz növbəsində, siyasi inteqrasiyanın inkişafını nəzərdə tuturdu. Qərbi Avropada, yeni bir qarşılıqlı əlaqə növü təsdiq edilirdi. Bu da, iştirakçı ölkələrin ziddiyyətli iqtisadi və siyasi maraqlarının uzunmüddətli razılaşdırılma təcrübələrindən, gələcəkdə vahid iqtisadi siyasətin formalaşdırılmasına imkan verəcək idi.

İqtisadi inteqrasiyanın inkişafında, hər bir ölkənin öz maraqları var idi. Almaniyanın mövqeyi, 1957-ci ildə, onun payına istehsalın təxminən 45%-i və “altılığın” məhsul sənayesi ixracının 44% -nin düşməsi ilə, müəyyən edilmişdi. Qərbi Almaniyanın hakim dairələri, inteqrasiyaya öz ölkələrini birliyin digər ölkələri, ilk növbədə Fransanın statusu ilə eyniləşdirmək üçün bir vasitə hesab edirdilər. AFR, birliyin iqtisadi lideri olacağına ümid edirdi. Almaniya, payına, altı ölkənin istehsalının yalnız 25% və sənaye ixracının 20% -i düşən Fransaya siyasi liderliyi güzəştə getməyə hazır idi. İtaliya və digər AİB ölkələrinin maraqları, ya Almaniya, ya da Fransa ilə sıx əlaqələrinin olması ilə müəyyən edilirdi. Eyni

zamanda, İtaliya kənd təsərrüfat məhsullarının vahid Avropa bazarında satışını artırmağa ümid edirdi.

Avratom müqaviləsi, bütün Avropa ölkələrinin, Qərbi Avropanın enerji probleminin həlli üçün, ən vacib və ən perspektivli vasitə kimi qəbul edilən, Avropa ölkələrinin nüvə enerjisindən dinc istifadədə inteqrasiyasını tənzimləyirdi. Beləliklə, ilk növbədə, Fransa və Qərbi Avropanın kiçik dövlətlərinin çətinlik çəkdiyi xroniki enerji böhranının kəskinliyini yüngülləşdirmək lazım idi.

Avropa birlikləri, olduqca dar regional qruplar idilər. Onlar. öz üzvlərinin dairəsini seçim yolu ilə genişlənməsində maraqlı idilər. “Altılığın” bəzi ölkələri, Böyük Britaniyanı da, AİB-ə cəlb etməyi vacib sayırdılar. Londonda da materik ölkələri ilə, inteqrasiya tərəfdarları var idi. Lakin, Britaniya siyasətçilərinin əksəriyyəti hesab edirdi ki, "altılığa" dərhal daxil olmaq, "imperiya imtiyazlarını" pozacaqdır. Bu imtiyazlar, Britaniyanın Birlik ölkələri ilə ticarətində güzəştli tarif şərtləri sistemi idi. 1956-cı ildə, Birliyin xarici ticarətinin 45% -dən çoxunu Britaniyanın payı təşkil edirdi.

İngiltərə diplomatiyası, qitə ölkələri ilə sıx əməkdaşlıq ideyasını rədd etməyərək, Avropa dövlətləri ilə öz əməkdaşlıq formasını inkişaf etdirməyə üstünlük verirdi. 1959-cu ildə, bu xəttin inkişafında İngiltərə, əlavə olaraq İsveç, Norveç, Danimarka, İsveçrə, Avstriya və Portuqaliyanı əhatə edən, Avropa Azad Ticarət Birliyinin yaradılması haqqında sazişin imzalanmasına təşəbbüs göstərdi. Bundan sonra, bir tərəfdə İngiltərə, digər tərəfdə Fransa ilə Almaniya arasında əvvəllərdə mövcud olan ziddiyyətlər, iki qrup – AİB və AATB arasında rəqabət şəklində görünməyə başladı.

Böyük Britaniya, “altılıq” ölkələrinə, özünün inteqrasiya nəzəriyyəsini tətbiq edə bilməzdi. Ancaq, özü də suverenliyi məhdudlaşdıran öhdəlikləri qəbul etmək istəmirdi. Siyasi cəhətdən "güclü Avropanın" yaranması ABŞ-ın maraqlarına uyğun idi, lakin, iqtisadi cəhətdən bu onlara sərf etmirdi. Amerika rəhbərliyi, Avropa ölkələrinin Avratomdakı əməkdaşlığının, Qərbi Avropada vahid nüvə potensialının formalaşmasına töhfə verəcəyinə inanırdı. ABŞ dövlət departamenti və Prezident D. Eyzenhauer, belə bir perspektivin Amerikanın böyük maraqlarına uyğun olacağını düşünürdü. Lakin, ABŞ-ın nüvə enerjisi üzrə komissiyasının rəhbərləri isə, nüvə texnologiyasının yayılmasını təhlükəli hesab edirdilər.

## İKİNCİ FƏSİL -- II BÖLMƏ
### İki qütblü dünya sistemində təcavüzkarlıq strategiyaları (1953-1962- ci illər)

**1. SSRİ – ABŞ zirvə görüşləri və onların nəticələri**

1.1. İlk Sovet-Amerika zirvə görüşünün hazırlanması və keçirilməsi

1.2.Paris konfransına yüksək səviyyəli hazırlıqlar və onun baş tutmaması (1960)

2. İkiqütblü sistemdə vəziyyətin gərginləşdirilməsi siyasətinin aparılması. İkinci Berlin böhranı

2.1.1950-ci illərin ikinci yarısında qlobal hərbi-strateji vəziyyət və hərbi-texnoloji amilin ona təsiri

2.2. Avropada Amerikanın nüvə silahlarının yerləşdirilməsi

2.3.Böyük dövlətlərin alman məsələsinə münasibətləri

2.4.Sovet İttifaqının Qərbi Berlin mövqeyinin sərtləşməsi. "Xruşşovun Berlin ultimatumu"

2.5. Vyanada Sovet-Amerika görüşü.” Berlin divarı”

**3.”Çevik cavab” nəzəriyyəsi**

3.1.ABŞ-ın Kennedi hökumətinin hazırladığı "çevik cavab" nəzəriyyəsi

3.2..ABŞ və Avropanın qərb ölkələri arasında hərbi-siyasi fikir ayrılıqları

**4. Latın Amerikası beynəlxalq münasibətlərdə. Karib böhranı**

**5."Çoxtərəfli Nüvə Qüvvələri" ətrafında müzakirələr və Nassau paktı (dekabr 1962)**

### 1. SSRİ – ABŞ zirvə görüşləri və onların nəticələri

#### 1.1. İlk Sovet-Amerika zirvə görüşünün hazırlanması və keçirilməsi

1960- cı ilin sonunda Sovet İttifaqı və Amerika Birləşmiş Ştatları hər iki ölkə liderlərinin ilk zirvə görüşünə hazırlaşırdılar. N.Xruşşovin Vaşinqtona və Nyu-Yorka səfəri 1959-cu ilin payızına planlaşdırılırdı. Bu dövrdə Sovet lideri iki vəzifə - Sov.İKP MK-nın Birinci Katibi və SSRİ Nazirlər Sovetinin Sədri vəzifəsini tutmuşdu. Lakin, səfər rəsmi dövlətlərarası görüş hesab olunduğundan, səfərin rəsmi materiallarında N.S.Xruşşovun yalnız ikinci, rəsmi dövlət vəzifəsinin adı çəkilirdi. Moskvada bu görüşə böyük əhəmiyyət verilirdi. Sovet liderinin şəxsi diplomatiyadan istifadə edərək alman məsələsində Sovet və Amerika mövqelərini yaxınlaşdıra biləcəyi güman edilirdi. Nüvə sınaqlarının məhdudlaşdırılması ilə bağlı dayandırılmış Sovet-Amerika danışıqlarını sürətləndirmək də istənilirdi, əgər

müvəffəq olsa, Britaniyanın və bəlkə də Çinin də burada iştirak etməsi arzu olunurdu. Bundan əlavə, bu, ümumiyyətlə ABŞ və SSRİ liderlərinin dünya səviyyəsində ilk ikitərəfli görüşü idi. Həm də onlar sovetlərin dinc yanaşı yaşamaq siyasətinin uğurunun simvolu olması təəssüratı yaratmaq istəyirdilər.

D. Eyzenhauerin idarəçiliyinə öz növbəsində, N.S.Xruşşovun səfəri çox vacib sayılırdı. 1960-cı ildə keçirilməsi planlaşdırılan ABŞ Prezident seçkiləri ilə əlaqədar olaraq respublikaçılar, xarici siyasətlərinin müsbət nəticələrini seçicilərə nümayiş etdirmək istəyirdilər. Ancaq, ABŞ və SSRİ hökumətlərində hamı bu dialoqu təsbit etmirdilər. Prezidentin rəqibləri onu hətta "kommunistlərə qarşı mərhəmətinə görə" tənqid edirdilər.

17 iyul 1959-cu ildə, ABŞ Konqresinin hər iki palatası ortaq bir qətnamə (PL 86-90 qanunu) qəbul etdilər. Bu qətnaməyə görə Prezident hər il iyulun üçüncü həftəsində ölkədə "əsarət altında olan xalqlar həftəsi"nin (Captive Nations Week) keçirilməsini elan etməli idi. Konqres və digər dövlət qurumları arasında "əsarətdə olan xalqların" hüquqlarının müdafiəsi ilə bağlı ictimai tədbirlər həyata keçirilmişdir. Bunlara sosialist ölkələrinin və Sovet İttifaqının xalqlarının hamısı aid olunurdu, yəni müstəmləkə və asılı ölkələrin xalqları deyil, yalnız "kommunizmin hakimiyyəti altına düşən xalqlar" idi.

ABŞ-da, əsarətdə olan xalqların qeyri-rəsmi Komitəsi yaradıldı, o, da "kommunistlər tərəfindən tutulan" dövlətlərin və xalqların siyahısını dərc etdi. Bura Şərqi Avropa ölkələri, Çin, Şimali Vyetnam, Monqolustan və Şimali Koreya, eləcə də Ukrayna, keçmiş SSRİ-nin bütün ittifaq respublikaları, Uzaq Şərq Respublikası, Şimali Qafqaz (Dağlılar) Respublikası, habelə iki yarı mifik qurum - Kazakiya - təqribən tarixi "Böyük Don Ordusunun Bölgəsi" və "İdıl-Ural Respublikası" daxil idi. "Əsarət altındakı xalqlar" siyahısına ÇXR-in Sinzyan -Uyğur Muxtar Vilayətinin bir hissəsi olan "Şərqi Türküstan" da daxil edilmişdi.

1961-ci ildə Demokratik Partiya rəhbərliyində ABŞ Dövlət katibi olmuş Din Raskın dediyi kimi, PL 86-90 qanunu "Soyuq müharibənin ən pis sənədlərindən biri" oldu. Bu qanun, Amerika Birləşmiş Ştatları ilə ən yüksək səviyyədə dialoq aparan Sovet İttifaqının mövcudluğunun qanuniliyini və legitimlıiyini şübhə altına alırdı. Amerika Birləşmiş Ştatlarının idarəçilik hakimiyyəti, özünü Konqresin təcavüzkar anti-sovet mövqeyindən kənara çəksə də, bu qanunun və bununla bağlı bəyanatların və nümayişlərin mövcudluğu Moskvanın Vaşinqtonla əməkdaşlıq etmək inamını sarsıdırdı.

ABŞ-da "əsarət altında olan xalqlar həftəsi" bu günə qədər hər il keçirilir. Hər il növbəti azad edilmiş xalqların və ya dövlətin azad olma halları və hər birinə dair şərhləri dərc olunan bir siyahı indi də mövcud olmaqda davam edir.

15-27 sentyabr 1959-cu ildə, Sovet-Amerika görüşünün əməli nəticəsi, dörd dövlətin 1960-cı ilin may ayında Parisdə zirvə görüşünün keçirilməsi idi. Bu görüşün gündəliyində alman probleminin müzakirəsi olmalı idi. Digər məsələlərdə - Tayvana Birləşmiş Ştatlarının dəstəyinin dayandırılması və nüvə sınağının məhdudlaşdırılması ilə əlaqədar olan məsələlərdə- hər iki lider ilkin mövqelərində qaldılar.

**1.2.Paris konfransına yüksək səviyyəli hazırlıqlar və onun baş tutmaması (may 1960)**

SSRİ-nin və Qərb dövlətlərinin fikirləri ümumilikdə alman məsələsində fərqli olsa da, İngiltərə və Fransanın mövqeləri Sovet dövlətinin fikirləri ilə müəyyən qədər uzlaşırdı. Avropadakı status-kvoya hörmət, ADR hökumətinin de-fakto tanınması ilə bərabər, Qərb dövlətlərinin Qərbi Berlinə çıxış hüquqlarını qorumaq - bütün bu məsələlərdə Moskva, Paris və Londonun fikirləri üst-üstə düşürdü. AFR onlara qarşı çıxırdı. Üzdə Qərbi Almaniyanı dəstəkləyən ABŞ, əlavə tələblərə imkan verməmək üçün, əvvəlcədən Moskvaya vəd vermək istəmədən, gözləmə mövqeyi tutmuşdu. Qarşılıqlı razılaşmaq üçün şərait yaranırdı. 1960-cı ilin payızında ABŞ-da keçiriləcək Prezident seçkiləri ilə əlaqədar olaraq, Respublikaçı hökumətin rəhbərliyi xarici siyasətdə hər hansı uğurlar əldə etməyə çalışırdı. Ancaq qəfildən fövqəl dövlətlər arasında konflikt yarandı.

1960-cı mayın 1-də təyyarəçi Frensis Harri Pauers Lockheed "U -2" modelli kəşfiyyatçı təyyarə ilə (qeyri- rəsmi adı "Ledi Draqon") SSRİ səmasında kəşfiyyat xarakterli uçuş həyata keçirmişdi. ABŞ HHQ-nin baş leytenantı F.H.Pauersin idarə etdiyi təyyarə, Amerikanın məxfi "Overflayt əməliyyatı" planına əsasən, Peşavar bazasından (Pakistan) səmaya qalxaraq Əfqanıstan- Aral dənizi-Sverdlovsk-Kirov-Arxangelsk-Murmansk istiqaməti ilə üçuş edərək, SSRİ-nin bu ərazilərində olan ballistik raket komplekslərinin şəklini çəkməli və kəşfiyyat xarakterli məlumatlar toplamaqla Norveçin Buda hava limanında enməli idi. Lakin, uçuş zamanı Sverdlovsk səmasında "U 2" təyyarəsi sovet hərbi raketi tərəfindən vurulmuşdu.

Moskvada 1960-cı il 1 may nümayişində N. Xruşşova, Amerikanın U-2 kəşfiyyat təyyarəsinin SSRİ ərazisi üzərində vurulduğu, təyyarəçinin paraşütlə tullandığı və tutulduğu haqqında məlumat verildi. Sovet tərəfi izahat tələb etdi. Əvvəlcə, Amerika Birləşmiş Ştatları təyyarənin varlığını, missiyasını və məqsədlərini inkar etməyə çalışdı, Amerika rəhbərliyi əvvəlcə təyyarəçinin öldüyünü güman edərək hadisəni qəza adlandırmağa çalışdı. Lakin, Sovet hökuməti vurulmuş təyyarənin qalıqlarını və tutulan pilot Harri Pauersi komandanlığın döyüş

tapşırığını yerinə yetirdiyini etirafını təqdim etdikdən sonra, SSRİ üzərindən casus təyyarə uçuş proqramının mövcudluğunu etiraf etməyə məcbur oldular. Hadisə, Parisdə Şərqlə Qərb arasında planlaşdırılan görüşdən iki həftə əvvəl baş vermişdi. Bu hadisə, ABŞ-ın nüfuzuna ciddi zərbə oldu. SSRİ ilə ABŞ arasındakı münasibətləri çox mürəkkəbləşdirdi. Pilot Harri Pauersi casusluqda ittiham olunaraq, 10 il həbs cəzasına məhkum edildi. Lakin, 108 gündən sonra, 10 fevral 1962-ci ildə, Harri Pauers, amerikalı iqtisadçı- tələbə Frederik Prayor ilə birlikdə, Berlində Sovet kəşfiyyatının zabiti Rudolf Abel (əsil adı Viyam Fişer) ilə mübadilə edildi.

Sonra, D. Eysenhauer rəhbərliyi prinsipial mövqeyinə uyğun olaraq "açıq səma" prinsipinə əməl etdiyini və belə də davam edəcəyini bildirdi. O, həmçinin Amerika təyyarələrinin Sovet ərazisi üzərində kəşfiyyat uçuşlarının müntəzəm olaraq həyata keçirildiyini, lakin bundan əvvəl Sovet İttifaqının onları həmişə aşkar etmədiyini və bundan əlavə, lazımi silahlar olmadan onları vurmaq imkanının olmadığını söylədi. 1960-cı ilin mayında SSRİ, "U-2" təyyarəsinin uçuşlarının həyata keçirildiyi yüksəklikdə hədəfləri vura biləcək yeni tipli raketini yaratmışdı. Prezident D. Eysenhauer, əslində ABŞ təyyarələrinin Sovet ərazisi ətrafında müntəzəm uçuşlarından xəbərdar olduğunu, lakin 1960-cı ilin mayında konkret bir uçuş həyata keçirmək üçün xüsusi bir əmr vermədiyini etiraf etdi.

Amerika ədəbiyyatında Prezidentin U-2 hadisəsinə görə məsuliyyəti məsələsi başqa cür qiymətləndirilir. Ümumiyyətlə, belə hesab olunur ki, D. Eyzenhauerin sovet ərazisi üzərindən təxribat xarakterli uçuşların qadağan edilməməsinə görə məsuliyyət daşıyır. Eyni zamanda, belə fikir var ki, Prezident ABŞ-ın hərbi və siyasi qurumundakı Moskva ilə dialoqa qarşı çıxan və onu çətinləşdirmək istəyən dairələr tərəfindən "təhlükə altına" qoyulmuşdur".

SSRİ rəhbərliyinin cavab addımı sərt oldu. N.S.Xruşşov, Amerikanın rəsmi üzr istəməsini və Sovet ərazisi üzərindən uçuşların dayandırılacağına dair rəsmi təminat tələb etdi. Vaşinqtonda Sovet İttifaqının tələbləri həddən artıq olduğu sayıldı. Prezident D. Eyzenhauerin izahatını təkrarladı: planlaşdırılan U-2 uçuşundan xəbəri olmayıb, ancaq o, "açıq səma" prinsipindən imtina edə bilməz. Qalmaqal isə davam edirdi.

16 may 1960-cı ildə Parisdə dörd tərəfli- SSRİ, ABŞ, Böyük Britaniya və Fransa nümayəndə heyətlərinin zirvə görüşü başladı. Bir gün əvvəl, N. Xruşşov qeyri-rəsmi olaraq, qərbli həmkarlarının nəzərinə üç şərt irəli sürdü: ABŞ--ın üzr istəməsi, sovet ərazisi üzərindən uçuşların bu gündən etibarən dayandırılacağına dair təminatlar, may hadisəsində günahkarların cəzalandırılması. O, elan etdi ki, əgər şərtləri qəbul edilərsə, görüşdə iştirak etməyə razı olar. Amerika tərəfi cavab olaraq məlumat verdi

ki, Prezident artıq SSRİ üzərindən kəşfiyyat uçuşlarının dayandırılmasını əmr edib, amma o, üzr istəməyəcək və günahkarları axtarmayacaq. Konfransın rəsmi açılış mərasimindən sonra Sovet nümayəndə heyəti iclas otağını tərk etdi və artıq onun işində iştirak etmədi. Konfrans pozuldu. Parisin Şay sarayında nəzərdə tutulan, ABŞ və SSRİ başçılarının əvvəldən təyin olunan, görüş də baş tutmadı.

Sovet İttifaqı, Prezident D.Eyzenhauerin Moskvaya 1960-cı ilin iyununda təyin edilən rəsmi səfərini də ləğv etdi. Bu hadisədən sonra iki ölkə arasında münasibətlər yenidən soyudu. 1960-cı ilin yayında, Nyu- Yorkda BMT-nin Baş Məclisində N.Xruşşov çıxış edərkən, bu məsələyə barədə çox kobud danışdı və qarşı tərəfi təxribatçılıqda və şantajda günahlandırdı və özü də haqlı olduğunu və məclis iştirakçılarının diqqətini cəlb etmək üçün, o, hətta ayaqqabısını çıxararaq tribunaya döyəcləmişdi.

Eyzenhauer, ABŞ tarixinə XX əsrdə Respublikaçılar partiyasından olan prezidentlər içərisində ən nüfuzlu və bacarıqlı bir şəxs kimi daxil olmuşdu.

## 2.İkiqütblü sistemdə vəziyyətin gərginləşdirilməsi siyasətinin aparılması. İkinci Berlin böhranı

### 2.1.Qlobal hərbi-strateji vəziyyət və hərbi-texnoloji amilin ona təsiri (1950-ci illərin II yarısı)

Sovet İttifaqı və ABŞ silahlara nəzarət məsələsi ətrafında danışıqlara başladılar. Moskva müvəqqəti olaraq, tam tərksilah proqramlarını irəli sürməkdən imtina etdiyinə görə, Vaşinqton Sovet təkliflərini daha ciddi qəbul etməyə başladı. Müzakirədə nüvə sınaqlarının məhdudlaşdırılması məsələləri müzakirə olunurdu. Danışıqlar yavaş-yavaş getsə də, ümumilikdə uğurla keçirdi. Müvafiq sazişin, təxminən 1957-ci ilin ortalarında imzalanmasının mümkün olacağı güman edilirdi.

Avropa müttəfiqlərinin təsiri altında, ABŞ-ın hərbi strategiyası dəyişirdi. Avropa ölkələri, ABŞ və SSRİ arasında münaqişənin baş verdiyi halda, ilk qurbanlarını özləri olacağından qorxurdular. 1956-cı ilin dekabrında, NATO şurasının sessiyasında, təşkilatın yeni strategiyası təsdiq edildi. Şuranın qərarlarında, Avropada iri hərbi birləşmələrinin yaradılması zərurətindən danışıldı. Bu qoşunların vəzifəsi, SSRİ-nin ehtimal olunan zərbələrinin qarşısını almaq idi. Sənəddə xüsusilə qeyd olunurdu ki, kiçik miqyaslı və yerli münaqişələrdə nüvə silahları istifadə edilməməlidir.

1956-cı ilin dekabr sessiyasında, Avropa ölkələrinin Vaşinqtonla nüvə sahəsində əməkdaşlıq münasibətlərini genişləndirmək istəkləri ortaya çıxdı. ABŞ rəhbərliyi,

avropalı müttəfiqlərinə fövqəladə vəziyyətlərdə, Amerika nüvə silahlarından istifadə etmə hüququnu vermək üçün meyl etməyə başladı. Sovet İttifaqı ilə nüvə sınaqlarını məhdudlaşdıran müqavilələr, ABŞ-ın avropalılarla əməkdaşlığının qurulmasına mane ola bilərdi. Vaşinqtonu, onların təhlükəsizlik maraqlarına laqeyd olmaqda, günahlandıran müttəfiqlərinin təsiri ilə, ABŞ rəhbərliyi, nüvə sınaqları məsələsində danışıqlarda mövqeyini sərtləşdirərək, onu ləngitdi. Bu, Moskvanın nümayişkarənə etirazına səbəb oldu.

27 iyul 1957-ci ildə, SSRİ-də çoxpilləli ballistik raketin sınağının uğurla keçməsi haqqında xəbərlər yayıldı. 1957-ci ilin oktyabrında, SSRİ-də, Yer orbiti ətrafına çıxa bilən, dünyanın ilk süni Yer peykinin uğurlu uçuşu həyata keçirildi. Bu, böyük texnoloji bir yenilik idi. Qitələrarası ballistik raket (QBR), yer ətrafı fəzaya nüvə döyüş başlığı aparmağa və birbaşa kosmik orbitdən yer üzündəki hər hansı bir əraziyə zərbə endirməyə qadir idi. Yeni silahlar, ABŞ-ın strateji toxunulmazlığını aradan qaldırmış oldu.

Sovet İttifaqının aşkar üstünlüyünü vurğulayan, ABŞ-ın Avropa müttəfiqləri, Vaşinqtondan hərbi-texnoloji dəstəyin artırılmasını tələb etməyə başladılar. D.Eyzenhauer hökuməti, avropalılara "Avropa nüvə silahlını" yaratmağı kömək etməyi məqsədəuyğun hesab etdi. Onlar hesab edirdilər ki, Vaşinqtonun müttəfiqləri, Sovet İttifaqına qarşı durmaq üçün, öz nüvə potensiallarını inkişaf etdirməsi, ABŞ-ın müvafiq yükünü yüngülləşdirə bilərdi. Bunun üçün, Vaşinqton avropalı müttəfiqlərinə, Amerika texnologiyasından istifadə imkanlarını bir qədər genişləndirməyə hazır idi.

Bu siyasət, "nüvə iştirakı" və ya "nüvə paylanması" adlanır. Bu siyasətin, özəlliyi ondan ibarət idi ki, nüvə sahəsində Qərbi Avropa ölkələrinə kömək edən ABŞ, Birlik ölkələrinin hər birinin ayrıca nüvə potensialını deyil, ABŞ-ın nüvə silahlarını tamamlayacaq, Qərbi Avropanın ümumi nüvə qarşısını alma potensialını yaratmağı nəzərdə tuturdu.

Dəyişilmiş şəraitdə, "geriyə atma" nəzəriyyəsi və "kütləvi qisas" doktrinası, artıq mənasız görünürdü.

### 2.2.Avropada Amerikanın nüvə silahlarının yerləşdirilməsi

Avropa ölkələrinin, SSRİ-nin artan gücündən qorxmaları, Vaşinqtonda çox ciddi qəbul edildi. Vaşinqtonda, "Moskvadan qorxan" Avropanın, ABŞ-la tərəfdaşlıqdan imtina edəcəyindən narahat olmağa başladılar.

ABŞ, İngiltərəyə müttəfiqlik borcunu yerinə yetirməyə hazır olduğuna əmin etmək üçün, ortaq sənədlərə, ABŞ və İngiltərənin müdafiə və təhlükəsizlik sahəsində "qarşılıqlı asılılıq" maddəsini əlavə etməyi təklif etdi. Bu tezisin tərəfdarı olaraq,

tərəflər ABŞ-ın orta mənzilli “Skaybolt” hava bazalı raketlərinin Britaniya adalarına yerləşdirilməsi haqqında müqavilə imzaladılar. Bu müqavilələr, Süveyş böhranında olduğu kimi, SSRİ ilə qarşıdurma və ya Moskvadan təhlükə olduğu təqdirdə, Britaniya təhlükəsizliyinin əməli təminatı olacaqdır.

Bu raketlər nüvə başlığı ilə təchiz edilmişdi. Razılaşmalarda bir məsələ həll olunmamış qaldı. Fövqəladə vəziyyətdə, Amerika raketlərini atmaq əmrini vermək hüququnun -- Britaniya Baş Nazirinə, yoxsa, ABŞ Prezidentinə aid olması açıq qaldı. Razılaşdırılmamış qeyri-müəyyənliklər, İngiltərəyə onun Amerika raketlərini idarə etməsinə həqiqətən icazə veriləcəyinə inanmağa imkan verirdi. D.Eyzenhauer bu fərziyyəni təsdiqləmədi, ancaq təkzib də etmədi.

D.Eyzenhauer, NATO komandanlığı altında, Qərbi Avropanın vahid nüvə potensialının yaradılmasının tərəfdarı idi və Almaniyanın da daxil olduğu Qərbi Avropa ölkələrinin hər birində, onların özünə məxsus ayrıca nüvə qüvvələrinin yaradılmasına kömək etmək istəmirdi. Ancaq, o, Avropa müttəfiqləri ilə mübahisə etmək fikrində də deyildi.

Sovet QBR-lərinin yaranmasından sonra, Avropa ölkələrinin həyacanı, ABŞ-ı bütün NATO ölkələrinə "qarşılıqlı asılılıq formulunu" yaymağa vadar etdi. Müvafiq qərar, NATO Şurasının 1957-ci ilin dekabrında, keçirilən sessiyasında qəbul edildi. Bu, AFR də daxil olmaqla bir sıra digər NATO ölkələrinin ərazisində, Amerika nüvə silahları və bundan əvvəl, ABŞ və İngiltərə arasında imzalanmış sazişdə olduğu kimi, amerikan raketlərinin də, yerləşdirilməsinə dair razılaşmalarla müşayiət olundu. Razılaşmalara əsasən, İtaliyada “Tor” raketləri, Türkiyədə isə “Yupiter” raketləri yerləşdirildi.

Amerikanın nüvə silahının Avropada yerləşdirməsi qərarı, Moskvada Qərbi Almaniyanın "nüvə silahı"nı əldə etməsi üçün atılan bir addımı kimi qəbul edildi. Sovet tərəfi, Almaniyanın ərazisini, nüvə silahlarının yerləşdiriləcəyi ölkələr sırasından çıxarılmasını tələb etdi. Sonrakı, bir neçə il ərzində Qərbi Avropaya təxminən 500 ədəd Amerika nüvə silahı, o cümlədən aviabomba və raket başlıqları gətirildi. Qərb ekspertlərinin fikrincə hətta, bu silahlara nəzarət faktiki olaraq, tamamilə ev sahibi olan ölkələrin hökumətlərinin əlində idi və bu da Moskvaya, Amerikanın nüvə silahının Almaniyada yerləşdirilməsi ilə, Qərbi Almaniyanın nüvə silahına sahib olması anlamına gəlməsinə əsas verirdi.

### 2.3.Böyük dövlətlərin alman məsələsinə münasibətləri (1958-ci il)

NATO Şurasının qərarı ilə, 1957-ci ilin dekabrında, Qərbi Avropa və Türkiyədə Amerika raketlərini yerləşdirilməsi və Qərbi Almaniya da daxil olmaqla, Qərbi Avropa ölkələrinin ərazilərində, nüvə başlıqlarının hərbi bazalara yığılmasına

başlamaq qərarına, Sovet İttifaqı fərqli cavab verdi. 1958-ci ilin yanvarında, Moskva silahlı qüvvələrinin sayını 300 min nəfər azaltdığını elan etdi. Bu addım, ordunun saxlanmasının yüksək xərcləri, işçi qüvvəsinə qənaət ehtiyacı və qeyri-nüvə qüvvələrinin ölkənin hərbi strategiyasındakı əhəmiyyətinin azalması kimi, yeni anlamı ilə əlaqədar idi.

Moskvanın nümayişkəranə atdığı əks addımı, SSRİ-nin dinc niyyətlərini göstərmək və Amerikanın nüvə silahlarının ərazilərində yerləşdirilməsinə dair sazişlərin təsdiqi üçün, hazırlıqlara başlayan Qərbi Avropa dövlətlərinin, ilk növbədə Almaniyanın ictimai rəyini özünə cəlb etmək üçün bir vasitə idi. Sovet İttifaqı, Qərbi Almaniyanın hərbi gücünün bərpasına mənfi münasibət göstərirdi. Sovet diplomatiyasının taktikası, Almaniyanın Qərb ölkələrinə qarşı güc və təhlükəsi ehtimalını bitərəfləşdirilməsi şərti ilə, vahid dövlətdə birləşdirilməsi ilə bağlı dinc təşəbbüslərinə əsaslanırdı.

Qərb dövlətləri, ABŞ ilə əməkdaşlıqdan və Qərbi Almaniyanın hərbi gücünün tədricən artırmaqla, öz ittifaqlarını gücləndirmək fikrindən əl çəkməmişdilər. Lakin, onların bu istiqamətdəki addımları ehtiyatlı idi. Qərb müttəfiqləri, Sovet İttifaqına qarşı çıxmaq əzmində idilər, lakin heç kim həddindən artıq zərurət olmadan, böyük müharibəyə girmək üçün risk etmək istəmirdi. NATO ölkələri, Moskva ilə qarşıdurmanı, nəzarətdə olan çərçivədə saxlamağa və ittifaqın gücünü ən azı formal olaraq, müdafiə üçün lazım olan həddən kənara çıxmayacaq dərəcədə artırmağa çalışırdılar.1958-ci ilin martında, belə dəlillərə əsaslanan Almaniya hökuməti, Bundestaqı Amerikanın nüvə başlıqlarını öz ərazisində yerləşdirilməsinə dair sazişin təsdiqləməsinə inandıra bildi.

SSRİ bu qərarı, Qərbi Almaniyada nüvə silahına doğru addım kimi qiymətləndirdi. 1958-ci ilin mayında, Moskvada VMT-nin iştirakçı dövlətlərinin müşavirəsi keçirildi, bu görüşdə alman məsələsi ilə bağlı, fəaliyyət taktikası razılaşdırıldı. 1958-ci ilin iyulunda ADR, Almaniyanın hər iki hissəsinin nüvə silahına sahib olmaqdan imtina etməsi barədə Sovet ideyasına uyğun olaraq, Qərbi Almaniya ilə sülh müqaviləsi bağlamaq təklifi ilə çıxış etdi. Bununla. Moskvanın mövqeyi yumşaldı. Almaniyanın bitərəfləşdirilməsi şərti, onun nüvə silahına yaxın buraxılmaması kimi, daha mülayim bir tələblə əvəz olundu.

### 2.4. Sovet İttifaqının Qərbi Berlin mövqeyinin sərtləşməsi, "Xruşşovun Berlin ultimatumu" (noyabr, 1958-ci il)

ABŞ-da, Moskvanın "yumşaqlığını" vacib olan hal kimi, sərtliyini isə təcavüzkarlıq niyyətinin əlaməti olaraq qəbul edilirdi. Amerika siyasətçilərinin "nankorluğu" N.S.Xruşşovu düşünülməmiş addımlar atmağa təhrik edirdi.

27 noyabr 1958-ci ildə, Sovet hökuməti, ABŞ, Böyük Britaniya və Fransaya sərt məzmunlu nota göndərdi. Notada. altı ay ərzində- 29 may 1959-cuilədək, Almaniya ilə sülh müqaviləsi bağlamaq tələb olunurdu. Əks təqdirdə, Sovet hökuməti, ADR ilə ayrıca bir sülh müqaviləsi imzalamağı və Berlinin xüsusi statusunu və Qərb dövlətlərinin şəhərin qərb hissəsinə girməsini təmin etmək məsuliyyətini, Şərqi Almaniya hökumətinə vermək niyyətində olacaq idi. Bu vaxta qədər, Qərb dövlətlərinin, Almaniya Demokratik Respublikası ilə diplomatik əlaqələri yox idi və Qərbi Berlin, de-fakto Sovet İttifaqı tərəfindən rəsmi olaraq tanınmasa da, Almaniya Federativ Respublikası ərazisinin bir hissəsi kimi fəaliyyət göstərirdi.

Notadan belə çıxırdı ki, altı aydan sonra, SSRİ özünü Qərb dövlətləri ilə, Qərbi Berlinə dair əvvəlki illərdə bağlanmış müqavilələrlə bağlı hesab etməyi dayandırır. Gözləmək olardı ki, Qərb nümayəndələrinin, Almaniya Demokratik Respublikası ərazisindən keçərək, Qərbi Berlin ərazisinə girməsini təmin etmək barədə razılaşmalar yerinə yetirilməyəcək. Qərbdə, Sovet notası, şəhərin yenidən mühasirəyə alınmasına aid təhlükə kimi qəbul edildi. Ədəbiyyatda, noyabr notası "Xruşşovun Berlin ultimatumu" adlanırdı. Bir çox müəlliflər hesab edir ki, İkinci Berlin böhranı 1961-ci ilə qədər davam edib. Qərbi Berlin ətrafındakı gərginlik, əslində bütün bu illər ərzində davam etsə də, "böhran" ifadəsini üç illik müddətə tətbiq etmək üçün heç bir əsas yox idi.

Sovet notasının ultimativ xarakteri, tezliklə Sovet hökuməti tərəfindən etibarsız elan edildi. 5 və 10 yanvar 1959-cu ildə, ABŞ, Fransa və Böyük Britaniya liderlərinə, Qərbi Berlin probleminin əvvəlcədən təyin edilmiş vaxt çərçivəsində həllinə israr etmədiyini bildirdi. Əslində, 1958-ci ilin noyabr notası, alman məsələsi üzrə, Sovet proqramının adi bir şərhi oldu. 1959-cu ilin yanvar ayından sonra, Moskvanın mövqeyi daha da yumşaldı. SSRİ, ya konfransın yaratdığı iki alman hökuməti, ya da, hər iki mövcud Almaniya dövləti ilə, Avropada müharibədən sonrakı sərhədləri tanımaq və hərbi bloklara girməkdən imtina etmək şərti ilə, sülh müqaviləsi bağlamağı təklif etdi.

N.S.Xruşşovun diplomatiyasının xarakterik xüsusiyyəti, əvvəlcə "güc mövqeyi vasitəsi" ilə, rəqibə psixoloji təzyiq göstərmək və sonra isə, güzəşt etmək üçün, nisbətən yumşaq formalı təklif etmək səyindən ibarət idi. Lakin, bu taktika həmişə öz bəhrəsini vermirdi.

## 2.5.Vyanada Sovet-Amerika görüşü. "Berlin divarı"

Sovet İttifaqı ABŞ-ın yeni rəhbərliyini alman məsələsinin müzakirəsinə qayıtmağa dəvət etdi. Sovet-Amerika görüşü üçün yeri neytral ərazi - Avstriyanın paytaxtı Vyana seçildi. Sovet İttifaqını iki məsələ - Almaniyanın şərq sərhədlərinin tanınması və AFR-də nüvə silahının yaradılmasının qarşısını alınması narahat edirdi. 3 iyun 1961-ci ildə görüş baş tutdu.

Sovet və Qərb ədəbiyyatında, Vyanada olan danışıqlarda, yaşı və təcrübəsi ilə ConFitsceraldKennedidən üstün olan N. Xruşşovun amerikalı tərəfdaşını düzgün qiymətləndirməməsi, onu "yumşaq" və "zəif" hesab etməsi qeyd olunmuşdur. Sovet lideri lazımsız mübahisələrə girərək, razılığa gəlmək imkanını əldən vermiş oldu. N.S.Xruşşov, 1958-ci ildə etdiyi kimi, Almaniya ilə sülh müqaviləsi bağlamaq və ölkənin hər iki hissəsində nüvə silahının yaradılmasını qadağan edən maddələrin daxil edilməsi məsələlərini sərt şəkildə təklif etdi. Amerika tərəfinə bildirildi ki, SSRİ bütün Berlini ADR-in ərazisi hesab edir və şəhərin qərb hissəsi üçün xüsusi bir statusun saxlanılması üçün heç bir əsas görmür.

C. Kennedi, Almaniyanın hərbi gücünün məhdudlaşdırılması zərurəti ilə razılaşdı. Lakin, hesab edirdi ki, bunun ən yaxşı yolu ABŞ-ın Almaniyadakı hərbi iştirakını qeyri-müəyyən uzun müddətə saxlamaqdır. Öz növbəsində, bu, C.Kennedinin məntiqinə görə Qərbi Berlində "status-kvo"nun qorunub saxlanması demək idi.

Əslində, Moskvanın Qərbi Berlinin statusuna aid olmayan qalan məsələlərdə olan mövqeyi, Vaşinqtonda olan yeni şəraitə uyğun idi. Ancaq, Qərbi Berlinin statusu məsələsi ciddi əhəmiyyətə malik idi. Bundan əlavə, N.S.Xruşşovun danışıq tərzi Amerika tərəfinə nəzakətsiz görünmüşdü. Sovet lideri onun təkliflərini qəbul etməkdə gecikdirildiyi təqdirdə, qərb dövlətlərinin Qərbi Berlindəki hüquqlarına zəmanət verməkdən imtina edəcəyini bildirmişdi. C.Kennedi də qətiyyət göstərmək qərarına gələrək, lazım gələrsə ABŞ-ın Qərbi Berlin uğrunda müharibə edəcəyini bildirdi. Gizli təhdidlərin belə birbaşa mübadiləsi və iki ölkə liderləri arasında belə kəskin danışıqlar əvvəllər baş verməmişdi. Görüş heç bir müsbət nəticə vermədi. Danışıqlardan sonra Amerika tərəfi, SSRİ-nin alman məsələsində gərginliyi artırmağa hazır olduğunu hiss etdi.

Bu vaxt Qərbi Berlin ətrafında vəziyyət mürəkkəb idi. Hər gün, ADR vətəndaşları arasından qaçqın axınları şəhərin qərb hissəsinə keçirdi. Onlara mane olmaq mümkün deyildi. Təkcə 1961-ci ilin yanvarın 1-dən avqustun 13-ə qədər, ADR-dən 207 min insan qarşı tərəfə keçmişdi. İki hissə arasında əsl sərhədin

olmaması tez-tez münaqişələrə, məhsul qaçaqmalçılığına və mütəxəssislərin AFR tərəfə keçməsinə səbəb olurdu.

Qərb diplomatları bütün Şərqi Almaniyanın kommunistlərə qarşı ümumi bir üsyan ərəfəsində olduğuna inanırdılar. 25 iyul 1961-ci ildə, Vyanadan qayıtdıqdan sonra televiziya ilə xalqa müraciətində Prezident C.Kennedi N Xruşşova şərh etdiyi mövqeyini qətiyyətlə təkrarladı: ABŞ, belə bir ehtiyac yaranarsa və SSRİ şəhərin statusunu dəyişdirməyə çalışarsa, Qərbi Berlin uğrunda müharibə edəcəkdir.

Ancaq, Sovet İttifaqı döyüşmək niyyətində deyildi. 13 avqust 1961-ci ildə, Qərbi Berlinin sərhədləri boyunca, ancaq Şərq ərazisi tərəfdən, tikintisinə əvvəldən başlanmış kərpic divar çəkilişi bir gecəyə başa çatdırıldı. Şəhərin qərb hissəsinə giriş yalnız keçid məntəqələrindən icazə verilirdi, şəhərin şərq və qərb hissələri arasında azad əlaqə dayandırıldı. Qərb nümayəndələrinin Qərbi Berlinə gəlməsinə mane olan mühasirəyə almaq və ya digər tədbirlərə cəhd göstərilmədi.

**Qeyd: Berlin divarı (alm. *Berliner Mauer*) — Almaniya Demokratik Respublikası ilə Qərbi Berlin arasında 13 avqust 1961-ci ildə uzunluğu 155 km (o cümlədən Berlin civarında 43,1 km ) olan möhkəmləndirilmiş dövlət sərhədidir.**

1949- 1961-ci illərdə, Qərbi Berlindən keçməklə təqribən 1,6 mln. nəfər ADR-i qeyri-leqal şəkildə tərk etmişdir. İstehkamların qurulmasına və sərhədin ciddi qorunmasına baxmayaraq, ADR vətəndaşlarının Qərbi Berlinə qaçması davam edirdi. 1961–1988-ci illərdə təqribən 39 min nəfər sərhəd istehkamlarını keçə bilmişdi. Sərhədi keçməyə cəhd edənlərin 192 nəfəri həlak olmuş, təqribən 200 nəfər yaralanmış, 3 mindən çoxu həbs olunmuşdur. Sərhəddə ilk vaxtlar 13 nəzarət-buraxılış məntəqəsi fəaliyyət göstərirdi, 1989-cu ildə onların sayı üç olmuşdu.

Gələcək sərhədə bitişik bir çox bina və yaşayış binaları söküldü. Qərbi Berlinə baxan pəncərələr bağlandı, daha sonra yenidənqurma zamanı binanın divarları tamamilə söküldü. Ümumilikdə, 193 küçə və 8 tramvay xətti bağlanmışdı. Telefon xətləri kəsilir. Tamamilə bağlanmayan yeganə yer su təchizatı və kanalizasiya sistemləri idi, ona görə də onların sistemləri güclü polad barmaqlıq ilə bağlandı.

Divarın inşasına başlanandan dərhal sonra, Qərb sektorunu Şərqlə birləşdirən çox sayda nəqliyyat sistemi və dəhlizlər bağlandı. Bunların arasında, iki ayrıca fəaliyyət göstərən muxtar sistemə bölünmüş şəhər metrosu da var idi. Şəhərdə olan 15 –dən çox metro stansiyası fəaliyyətini dayandırdı və növbəti otuz ildə bağlandı. Şərq sektorunda onların on ikisi tranzit oldu. Belə ki, Qərb sektorundan Qərbə qatarlar dayanmadan keçirdilər. Şəhər metro xətlərinin çoxu qərbdə qalmışdı. Metro stansiyalarından, yalnız Fridrix ştrasse stansiyası açıq qalmışdı ki, burada da keçid məntəqəsi təşkil edilmişdi.

Şəhər yerüstü elektrik qatarları sistemi də parçalandı, xətlərin çoxu şərqdə qaldı. Divar hüdudlarında bir neçə tramvay xətti bağlandı və tramvay sistemi də bölündü. 60-cı illərin sonlarında, Qərbi Berlində olan tramvay xətti ləğv edildi və yalnız Şərq sektorunda qaldı. Şərq sektorunu ziyarət etmək üçün (məsələn, qərb turistləri tərəfindən avtobuslarla) ADR sərhədçiləri tərəfindən nəzarət edilən sərhəd buraxılış məntəqələri qurulmuşdu. Divarla bölünmüş Berlinin ictimai nəqliyyatı, 1990-cı illərin əvvəlinə qədər bu vəziyyətdə qaldı və əslində keçmiş vahid nəqliyyat infrastrukturunu bərpa edilməsi üçün bir neçə il vaxt lazım oldu.

Sovet İttifaqı bu tədbirləri özünün "təsir zonası"nda həyata keçirdi. Bu addımı təcavüz kimi qəbul etmək olmazdı. Bundan əlavə, SSRİ-nin şəhər sərhədlərinə nəzarəti demək olar ki, tamamlansa da, Qərbi Berlinin mühasirəsi faktı yox idi. “Berlin divarı”nın yaradılması Qərbdə mənəvi qınağa səbəb oldu. Ancaq, Qərb ölkələrinin siyasi etirazları dayandırıldı - nə İngiltərə, nə də Fransa Moskvanın hərəkətləri ilə əlaqədar ciddi tədbirlər görmədi. Əslində, SSRİ-nin hərəkətləri Berlin məsələsində status-kvonun güclənməsinə kömək etdi. Lakin, alman problemi nizamlanmamış qaldı. Almaniya ilə sülh müqaviləsi imzalanmadı və ADR Qərb ölkələri tərəfindən tanınmadı.

## 3. “Çevik cavab” nəzəriyyəsi

3.1.ABŞ-ın Kennedi hökumətinin hazırladığı "çevik cavab" nəzəriyyəsi

3.2..ABŞ və Avropanın qərb ölkələri arasında hərbi-siyasi fikir ayrılıqları

### 3.1.ABŞ-da Prezident Kennedi hökumətinin "çevik cavab" nəzəriyyəsi

1960-cı ilin mayında Paris sammitindəki uğursuzluqdan sonra ABŞ rəhbərliyi böyük xarici siyasət təşəbbüsləri həyata keçirmədi. 1960-cı ilin noyabrında Respublikaçılar Prezident seçkilərində uduzdular və Demokrat Partiyasının namizədi Con Fitscerald Kennedi ABŞ-ın yeni Prezidenti oldu. Nisbətən gənc bir adam (43 yaş), Amerika siyasətçilərinin yeni, müharibədən sonrakı nəslini təmsil edirdi. D. Eyzenhauerin təcəssüm etdiyi müharibə veteranları ABŞ-da siyasəti tərk etdilər. Sovet İttifaqında "hərbi nəsil" 1980-ci illərin ortalarına qədər hakimiyyətdə qalmaqda davam etmişdilər. 1960-cı illərdə Fransa, Almaniya və Qərbi Avropanın bir sıra digər ölkələrində yaşlı nəsil idarəçiliyini davam etdirirdi.

“Kennedi komandası” əvvəlki administrasiyanın hərbi-siyasi xəttinin əsas müddəalarına yenidən baxmağa başladı. Yeni administrasiyanın ən görkəmli şəxslərindən sayılan C.Kennedinin və Müdafiə naziri Robert Maknamarın yenilikləri inqilabi deyildi. Demokratlar hökuməti, Sovet İttifaqı və ABŞ qarşılıqlı nüvə zərbələrinə qarşı müdafiələri zəif olması anlamını qəbul etməyə başladılar.

Lakin, respublika rəhbərliyi bu fikri qəbul etmək istəmədi. SSRİ-nin quru qüvvələrinin qarşısını almaq olar, ancaq onların qitələrarası ballistik raketlərinin Amerika ərazisini vurmasına mane olmaq mümkün deyil idi. Ona görə, təcili və ehtiyac olmadan tərəflərdən hər hansı birinə, mövcud nüvə potensialının bütün güclərindən istifadə edərək ümumi bir müharibə, qarşıdurma riski yaratmaq çox təhlükəli ola bilərdi.

Amerikalı nəzəriyyəçilərin fikrincə, ABŞ çevik və seçkili fəaliyyət göstərməlidir. Düşmənlə hər yerli qarşılaşma ümumi münaqişə formasına çevrilməməlidir. Hətta hər nüvə münaqişəsi, düşmən ölkənin tamamilə məhv edilməsini və əhalisinin məhv edilməsini əhatə etməməlidir. Qələbə üçün, mülki obyektlərə (şəhərləri) toxunmayaraq, yalnız onun hücum gücünü (QABR-ın bazaları, nüvə başlıqlarının anbarları) və hərbi quruluşunun məhv edilməsi kifayət edə bilər. Respublikaçıların "qeyri-məhdud gərginlik " strategiyasının əvəzinə "nəzarət olunan gərginlik " ideyası qarşı qoyulmuşdu. Məqsəd münaqişəni idarə etmək, miqyasını tənzimləmək və toqquşmanı ən azı bir müddət ümumi müharibəni istisna edən səviyyədə saxlamaq idi.

"Nəzarət olunan gərginlik " fikri həm nəzəri cəhətdən, həm də, əməli baxımdan mübahisələr doğururdu: 1960-cı illərin əvvəllərində, hətta ABŞ-ın qoşunlarının hərbi komandanlığının da, öz obyektiv imkanları ilə münaqişəni nəzarətdə saxlamaq üçün lazımi səviyyəni təmin etmək imkanları yox idi. Buna baxmayaraq, yeni nəzəriyyə müharibə şəraitində hərbi komandanlığı əməli fəaliyyət üçün bir neçə cavab variantı ilə təmin edir və konkret beynəlxalq vəziyyətdən asılı olaraq cavab vasitələrinin seçilməsinə yönəldir. Buna görə bu nəzəriyyə "çevik cavab" (flexible response) adlanır.

**Qeyd: Çevik cavab - C.Kennedinin rəhbərliyi dövründə Amerikanın xarici siyasət nəzəriyyəsi. Bu nəzəriyyə münaqişənin nüvə səviyyəsində idarə olunmasına və saxlanmasına imkan verən, nəzarət edilən eskalasiya(gərginləşdirmə) strategiyası əsasında, SSRİ ilə gözlənilən münaqişə zamanı güc tətbiq edilməsinə çevik seçim ilə yanaşaraq, münaqişəni nüvə zərbəsinin hüdudunda dayandırılmasını ifadə edir.**

Düzdür, münaqişənin "nəzarət altına alınması"nda ən böhranlı anın nə vaxt gələcəyini əvvəlcədən müəyyənləşdirmək hələ də mümkün deyildi, bundan sonra da düşmənə qarşı bütün mövcud olan güclərin istifadəsi üçün əmr vermək çox gec ola bilərdi. Buna görə, yeni nəzəriyyə əslində, "ilk zərbə konsepsiyasını" istisna edə bilmədi və ABŞ-ın əvvəlcədən nüvə silahından istifadə edəcəyi şəraitinin yaranmasına zəmanət vermək isə mümkün deyildi. "Çevik cavab" nəzəriyyəsi ikimənalı idi: o, eyni zamanda böyük bir müharibənin "təsadüfi" başlama variantını istisna edir və Amerika tərəfinə öz təşəbbüsü ilə ilk zərbə vurmaq üstünlüyünü təmin edirdi.

Hər iki fikir - bir tərəfdən, "kommunistlərin kiçik təxribatlarına" tab gətirərək, SSRİ-nin təhdidinə "çevik cavab" vermək, digər tərəfdən əvvəlcədən ilk zərbə vurmaq üçün hazır olmaq vəziyyəti- 1961 və 1962-ci illərdə Amerikanın siyasi qərarlarında birlikdə olmuşdur. Yalnız 1963-cü ildə, Prezident C. Kennedi SSRİ-yə qarşı əvvəlcədən ilk zərbənin qəbuledilməz olduğu qənaətinə gəldi, çünki Sovet İttifaqı o qədər güclü bir hərbi potensiala sahib idi ki, onu tək bir zərbə ilə məhv etmək olmazdı. ABŞ-ın "çevik cavab" nəzəriyyəsinə uyğun hərəkət etməyə, 1961-ci ilin yazından başladığı qənaitinə gəlinir. Bu nəzəriyyə NATO-nun digər ölkələri tərəfindən rəsmi olaraq, 1967-ci ildə təsdiqlənə qədər genişləndirilmiş, əlavələr edilmiş və tam hazırlanmışdır.

1950-ci illərin ortalarında, ABŞ nüvə silahında SSRİ-dən şərtsiz bir üstünlüyə sahib idi. Bu vaxta qədər, SSRİ-də istilik nüvə başlıqları yaradılsa da, müxtəlif formalarına malik deyil idi. 1950 və 1961-ci illərdə, həm də ABŞ-da da nüvə başlıqlarının çatdırılmasının səmərəli vasitələri mövcud deyildi. SSRİ-nin ABŞ-ın nüvə zərbəsinə cavab vermək üçün real imkanları yox idi

SSRİ-nin, xarici siyasət və təbliğat mülahizələrindən başqa, ABŞ-ın nüvə şantajına da cavab vermək istəyi var idi. Q.M.Malenkov və N. S. Xruşşovin rəhbərliyi dövründə, qəbul edilmiş nüvə hücumunun "qarşısını alma" nəzəriyyəsinə uyğun olaraq, nüvə tarazlığı görünüşü yaratmaq üçün, nüvə sınağını həyata keçirməyə başladılar. Bu məqsəd ilə də, SSRİ-də "Çar bomba" yaradıldı.

**Qeyd: AN602 ("Çar bomba" ) 1956-1961-ci illərdə SSRİ Elmlər Akademiyasının akademiki I.V.Kurçatov rəhbərliyi altında bir qrup nüvə fiziki tərəfindən SSRİ-də hazırlanmış istilik nüvə aviasiya bombasıdır.**

Bu bombanın sınağı 30 oktyabr 1961-ci ildə, "Suxoy Nos" nüvə poliqonunda (Yeni Torpaq (Novaya Zemlya) arxipelağı) Tu-95 təyyarəsindən atılaraq reallaşdırılmışdı. AN602-nin istifadəsi, Sovet İttifaqının qeyri məhdud gücə malik kütləvi qırğın silahlarına sahib olduğunu əyani şəkildə nümayiş etdirmişdi.

"Çar Bomba"sı üç mərhələli "Teller-Ulam" tipli istilik nüvə səviyyəsinə aiddir. Bu silah, Naqasaki və Xirosima şəhərlərinə atılan nüvə silahlarından 1350-1570 dəfə, İkinci dünya müharibəsi dövründə partladılmış bütün silahlardan 10 dəfə, bütün nüvə sınaqlarının isə 10%-i gücündə olub. Partlayışın zərbə dalğası, Norveç və Finlandiyada hiss edilmişdi. 700 kilometr məsafədə yerləşən Dikson qəsəbəsində evlərin şüşələri sınmışdı.

1961-ci ilin aprelində, SSRİ-də Y.A.Qaqarin kosmosa dünyanın ilk uçuşunu uğurla həyata keçirdi. Sovet rəhbərliyi, inkişaf üçün seçilmiş təlimatların düzgünlüyünə və "sosializmin üstünlüklərinə" tam əmin idi.

## 3.2.ABŞ və Avropanın qərb ölkələri arasında hərbi-siyasi fikir ayrılıqları

Amerika administrasiyasının aparıcı üzvlərinin və Prezident Con F.Kennedinin özünün xarici siyasətinin və strateji düşüncəsinin dəyişməsi, ABŞ-ın hərbi-siyasi sahədə müttəfiqlərlə münasibətlərinə təsir etmiş oldu. Sovet İttifaqı ilə "təsadüfi toqquşmanın" qarşısını almağa yönəlmiş "çevik cavab", Qərb maraqlarının Sovet İttifaqının istəkləri ilə konkret toqquşmalarına necə cavab veriləcəyi barədə qərarın qəbul etmə prosesinin mərkəzləşdirilməsinin vacibliyi ifadə edilirdi. C.Kennedi hesab edirdi ki, ABŞ, Qərbin əsas nüvə dövləti olduğu üçün, SSRİ ilə silahlı toqquşma vəziyyətində risklərin əsas ağırlığı onun üzərinə düşür. Ona görə də, ABŞ əsas məsələnin - SSRİ-yə qarşı "müharibə etmək ya da etməmək" məsələsinin həll edilməsində həlledici rol oynamalıdır. D.Eyzenhauerin yürütdüyü "nüvə iştirakçılığı" və ya "nüvə paylaşması" siyasəti, Avropadakı Amerika nüvə silahlarına nəzarətin belə bir mərkəzləşdirilməməsinə səbəb oldu ki, əslində Qərbi Avropa ölkələri bundan öz istədikləri şəkildə istifadə edə bilərdilər. Demokratik rəhbərliyin istəyi, nəzarəti mərkəzləşdirmək və onu "ikiqat açar" prinsipinə uyğunlaşdırmaq idi: nə Avropa ölkələri Amerikanın nüvə silahlarını ABŞ-ın razılığı olmadan öz ərazilərindən istifadə edə bilməsinlər, nə də ABŞ onları qəbul edən ölkələrin razılığı olmadan istifadə edə bilməsin.

Yeni administrasiyanın ikinci tezisi, Qərbi Avropa ölkələrinin "çoxtərəfli nüvə qüvvələri" nin yaradılması idi ki, bu da C. Kennedinin fikrincə, milli nüvə qabiliyyətlərinin formalaşmasını əvəz etməli idi. Prinsipcə, hətta D.Eyzenhauer rəhbərliyi də, NATO ölkələrinə öz atom silahlarını yaratmağa kömək etməyi deyil, NATO komandanlığı altında Qərbi Avropa ölkələrinin ortaq bir "nüvə birliyini" yaratmağa kömək etmək istəyirdi. Amma həqiqətdə, ABŞ Qərbi Avropa ölkələrinin müstəqil nüvə proqramları üzərində çalışmalarına göz yumurdu. C.Kennedi, idarəetmənin mərkəzləşdirilməsinə ciddi şəkildə çalışırdıı. ABŞ Prezidenti və onun əməkdaşları, Qərbi Almaniyanın "nüvə klubu"na daxil olmasının Sovet İttifaqı tərəfindən “casus belli” (müharibəyə səbəb) olaraq qəbul ediləcəyinə əmin idilər və onu təhrik etmək istəmirdilər.

Demokratlar idarəsinin üçüncü yeniliyi, 1950-ci illərin sonlarından etibarən İngiltərə, İtaliya və Türkiyəyə gətirilən orta mənzilli raketlərin Avropada yenidən yerləşdirilməsindən imtina edilməsi idi. ABŞ rəhbərliyi müttəfiqləri ilə, əsasən də Böyük Britaniya ilə, yerüstü raketlərin əvəzinə, NATO ölkələrinin sualtı qayıqlarına yeni Amerika silahı olan “Polaris” sinifli raketlərin yerləşdirilməsi məsələsini müzakirə etməyə başladı. Bu dəyişiklik "çevik cavab" nəzəriyyəsi ilə də əlaqələndirilirdi. Belə ki, “Tor” və “Yupiter” raketləri texniki cəhətdən köhnəlmişdi, çünki onlar yerin səthində yerləşdirildiyindən, fəzadan görünürdülər.

Bu tip raketlərdən yalnız ilk zərbə silahları kimi, sürpriz bir hücum kimi səmərəli istifadə edilə bilərdi. Lakin, "çevik cavab" nəzəriyyəsi ilk zərbə strategiyasının tətbiq olunmasını məhdudlaşdırmaq məqsədi daşıyırdı. Üstəlik, ABŞ bu raketləri NATO-nun nəzarəti altına almaq fikrində idi. Ancaq, Avropa müttəfiqləri yeni nəzəriyyənin üstünlüklərinə inandırmaq lazım idi.

Bu üç fikir, C.Kennedinin tapşırığı ilə keçmiş dövlət katibi D.Açeson tərəfindən hazırlanmış və hesabatın əsasını təşkil etmişdi. Bu dövrdə, Dövlət katibi vəzifəsini Din Rayek tutsa da, D.Açeson yenidən nüfuz qazanaraq Amerikanın xarici siyasətinə təsir edə bilirdi. Məruzə Prezident tərəfindən təsdiqləndi və 1961-ci ilin aprelində Qərbi Avropa ölkələrinin hökumətləri onun məzmunu ilə tanış oldular. Bir sıra müəlliflər, bu hesabatı "çevik cavab" anlayışını əks etdirən ilk yazılı sənəd hesab edirlər.

1962-ci ilin aprelində, NATO-da qəbul olunan Amerika siyasətinin əsas istiqamətləri, R.Maknamarın Afinada NATO Şurasının iclasında etdiyi gizli nitqində daha dəqiq şəkildə təsvir edilmişdi. O, ümumi nüvə müharibəsi üçün, ABŞ-ın yeni strategiyasını açıqladı. Həmin ilin iyun ayında, bu nitqin məzmunu rəsmi olaraq mətbuatda çap olundu. R.Maknamarın nitqinin mahiyyəti dörd tezisdə öz əksini tapırdı**:**

**Əvvəlcə** nüvə müharibəsi "idarə olunan" elan edilir;

**İkincisi,** ABŞ istənilən fövqəladə vəziyyətdə Qərbi Avropa müttəfiqlərinin köməyinə gəlməyə hazır olduğunu bir daha təsdiqləyirdi;

**Üçüncüsü,** SSRİ ilə müharibə vəziyyətində ABŞ silahlı qüvvələrinin əsas vəzifəsi Sovet İttifaqı tərəfindən cavab zərbəsi gücünün məhv edilməsi idi;

**Dördüncüsü,** Amerika tərəfi SSRİ-nin mülki obyektlərinə - şəhərlərə və mülki şəxslərin sığınacaqlarına zərbə vurmayacağını bildirirdi;

**Beşincisi,** Amerika zərbələrinin əsas obyekti Sovet hərbi obyektləri, ilk növbədə SSRİ-nin nüvə qüvvələrinin olacağı bildirilirdi.

Bu, "çevik cavab" müddəalarının geniş və tam açıqlaması idi.

1961-ci ilin yazında, ABŞ-ın yeni yanaşması Avropa müttəfiqlərinin ziddiyyətli etirazına səbəb oldu. Bu məsələ, xüsusilə Fransa və Almaniyanı qıcıqlandırdı. Fransa 1960-cı ilin fevral ayında, Əlcəzairin cənubundakı Saxara səhrasında öz nüvə silahını sınaqdan keçirmişdi və ABŞ-ın bu siyasətində ölkəsinin milli nüvə gücünü məhdudlaşdırmaq istəyini gördü. Qərbi Almaniya da özünü Fransa kimi aparmağa çalışırdı və eyni zamanda, Amerika siyasətinin tətbiq etdiyi məhdudiyyətlərə qarşı idi. Lakin o, açıq şəkildə bu siyasəti rədd etməyə cəsarət etmədi, çünki Qərbi Almaniya o dövrdə müstəqil nüvə qüvvələri yaratmağı ciddi şəkildə planlaşdırmırdı və NATO-nun nüvə proqramında iştirak Bonna nüvə

düyməsinə icazə şansı verə bilərdi. Böyük Britaniya əsasən Fransa və Almaniya ilə həmrəy idi. Ancaq, atom silahının inkişafında o, onların hər ikisini də üstələmişdi. Britaniyalılar, ABŞ ilə "xüsusi" münasibətlərindən istifadə edərək, NATO çərçivəsində, nüvə əməkdaşlığı sistemində özlərinə güzəştli bir mövqe əldə etməyə ümid edirdilər.

NATO-da olan ixtilaflar və Amerikanın xarici siyasətinin yeni meylləri haqqında məlumatlar Moskvaya da çatmışdı. Onlar ümid edirdilər ki, Vaşinqtonda administrasiyanın dəyişdirilməsi, Sovet-Amerika münasibətlərinin yaxşılaşdırılması üçün ilkin şərt ola bilər.

### 4. Latın Amerikası beynəlxalq münasibətlərdə. Karib böhranı

**Kubada inqilab.** Kuba Qərb yarımkürəsində siyasi cəhətdən sabit ölkələr sırasına daxil deyildi. 1950-ci illərin sonlarında, ada 1952-ci ildə hərbi çevriliş yolu ilə Prezident Karlos Prio Sokarrası devirərək hakimiyyəti ələ keçirmiş diktator Fulxensio Batista tərəfindən idarə edilirdi. ABŞ onun cəza tədbirli daxili siyasətini bəyənməsə də, diktatorun hakimiyyətinə etiraz etmirdi. F.Batistanın siyasəti yumşaltmağa məcbur edən Amerika administrasiyası sanksiyaların köməyi ilə ona təzyiq göstərirdi: 1958-ci ilin yazından etibarən, Amerika Birləşmiş Ştatları Kubaya silah satışını dayandırdı, çünki, diktator öz müxalifətinə qarşı aldığı silahdan istifadə edirdi.

F. Batistanın əleyhdarları arasında, 32 yaşlı radikal Fidel Kastro Rus xüsusi olaraq seçilirdi. O, 1953-cü ildə F. Batistaya qarşı qiyam qaldırmağa cəhd etdiyinə görə həbs olunmuşdu, sonra amnistiya ilə sərbəst buraxılandan sonra ABŞ-a, daha sonra isə Meksikaya mühacirət etmişdi. 1956-cı ildə, F.Kastro qanunsuz olaraq Kubaya qayıtdı və bir qrup tərəfdarı ilə birlikdə dağlıq bölgələrdə möhkəmlənərək, F. Batistaya qarşı partizan müharibəsinə başladı. Əhali partizanlara rəğbət bəsləyirdi. ABŞ-ın, F.Batista hakimiyyətinə silah tədarükü üçün tətbiq etdiyi embarqosu, onların xeyrinə oldu. 1958-ci ilin sonunda, F.Kastronun dəstələri Havanaya uğurlu bir hücum etdi, F.Batista ölkədən Dominikan Respublikasına qaçdı. 1959-cu ilin yanvarında, paytaxtı ələ keçirən F. Kastro əslində yeni hökumətin başında durdu.

Hakimiyyətə gəldiyi zaman F.Kastro kommunist deyil, millətçi idi. O, silahlı inqilab vasitəsilə bütün Latın Amerikasının "milli azadlığı" üçün səy göstərirdi. Bununla belə, ətrafında onunla birlikdə olan "əsl solçular" - məşhur argentinalı marksist Ernesto Çe Qevara kimi inqilabçılar, F.Kastronun ən radikal addımlarını dəstəkləyirdilər.

Üstəlik, Kuba inqilabçılarının demək olar ki, hamısı dindar katolik idilər, baxmayaraq ki, nəzəri baxımdan kommunist görüşləri dinə uyğun deyildi. Xarici

müşahidəçilər əvvəlcə səhv edərək, F.Kastro ilə əhatə olunmuş katoliklərin, kommunist ideologiyasının daşıyıcıları ola biləcəklərinə inanmırdılar. Vaşinqton əvvəlcə şübhəli olmasına baxmayaraq, F.Kastronun hakimiyyətə gəlməsinə düşmən münasibət bəsləmirdi. Kubanın yeni hökuməti də anti-Amerika təbliğatından çəkinirdi. Vaşinqton və Havana arasındakı ixtilaflar yalnız, 1959-cu ilin sonlarında, F. Kastronun devrilmiş hökumətin tərəfdarlarına qarşı qəddar cəza tədbirləri başladıqdan, ümumiyyətlə müxalifətin tamamilə sıxışdırılmasından sonra böyüməyə başladı.

ABŞ-a kubalı qaçqınların axıni başladı. Onlar ABŞ-ın Florida ştatında məskunlaşırdılar və orada Amerika ictimai rəyinə anti-Kastro ruhunda təsir göstərməyə başladılar. Havanaya təsir göstərməyə çalışan ABŞ, silah embarqosundan başqa, Kuba şəkərinin alınmasına da qismən qadağa qoyaraq, yenidən Kubaya qarşı sanksiyalara əl atdı. Şəkər Kuba ixracatının əsas məhsulu olduğundan bu tədbirlər Kuba iqtisadiyyatına ağır zərbə vurdu. Bundan əlavə, ABŞ şirkətləri Kubaya neft tədarükünü azaltmağa başladılar.

Buna cavab olaraq, 1960-cı ildə Kuba hökuməti Sovet İttifaqından silah almağa başladı, eyni zamanda, SSRİ Kubaya enerji daşıyıcıları da verməyə razılıq verdi. Eyni zamanda, ölkədə Amerika şirkətlərinə məxsus neftayırma zavodları milliləşdirildi. Havananın Vaşinqtonla münasibətləri gərginləşdi. Birləşmiş Ştatlar, Sovet İttifaqının Kubada göstərməyə başladığı aktiv fəaliyyətindən əsəbiləşirdi. Amerika tərəfi, SSRİ-nin Havana ilə əməkdaşlığını, Amerika elitasının ABŞ maraqlarının müstəsna zonası hesab etdiyi Qərb yarımkürəsində "kommunizmin yayılmasının" başqa bir təzahürü kimi görürdü. SSRİ-yə aid belə bir müstəsna zona Şərqi Avropa sayılırdı.

XX əsrin 60-cı illərində, Latın Amerikasında beynəlxalq münasibətlərə Kuba inqilabı, Qərb dövlətlərinin regionda öz mövqelərini saxlamaq cəhdləri və Latın Amerikası ölkələrinin ədalətli beynəlxalq əlaqələr uğrunda mübarizəsi kimi amillər böyük təsir göstərmişdi. Kuba inqilabından sonra, ölkənin ABŞ-la əlaqələri zəiflədi və sosialist dövlətləri ilə əməkdaşlığı genişləndi. Kubaya hərtərəfli kömək SSRİ-nin strateji məqsədi idi. Kuba hadisələrinin təsiri ilə, Latın Amerikası ölkələrinin öz münasibətlərini beynəlxalq hüquq prinsipləri əsasında qurulmasına yönəlmiş tələbləri artdı.

1959-cu ilin ortalarında, Kuba inqilabının qarşısını almaq cəhdləri boşa çıxandan sonra, ABŞ Kubaya qarşı üçün bütün qüvvələrini səfərbər etdi. ABŞ diplomatiyası, Amerika Dövlətləri Təşkilatından da istifadə edirdi.

1960-cı ilin martında, ABŞ Prezidenti D.Eyzenhauer Latın Amerikasının bir neçə ölkəsində səfərdə olmuşdu. Bu ölkələrin rəhbərləri ilə görüş zamanı, D.Eyzenhauer

onları “Kuba təhlükəsi”nə qarşı birgə mübarizəyə çağırdı. ABŞ, Kubaya qarşı bir sıra tədbirlər həyata keçirdi. 1960-cı ilin noyabrında, Prezident D.Eyzenhauer Nikaraqua və Qvatemalanı qorumaq adı ilə, bir neçə gəmini Kuba sahillərinə göndərdi.

**Karib böhranı.** Orta Şərq və Avropadakı böhranlar diqqəti Qərb yarımkürəsində olan vəziyyətdən yayındırmışdı. Demokratlar partiyasının Vaşinqtonda rəhbərliyə gəlişi ilə, ABŞ-Kuba münasibətləri pisləşdi, çünki onlar Havanada olan Kastro hakimiyyətini mürtəce hesab edirdilər. Demokratlar Partiyası isə insan hüquqlarının qorunması probleminə xüsusilə həssaslıqla yanaşırdılar. Bu vəziyyəti nəzərə alan Kuba mühacirəti, öz ölkələrinə ən yaxın olan Florida ştatında cəmləşərək C.Kennediyə təzyiq göstərməyə başladılar. Onlar Prezidentə F.Kastronu devirmək üçün tədbirlər görməyə təşviq etməyə başladılar. Mühacirlər nəzərə alırdılar ki, 1960-cı ildə D.Eyzenhauer ilə seçki kampaniyası zamanı C.Kennedi Respublikaçıları "Kubaya qarşı yumşaq" olduğu üçün dəfələrlə tənqid etmişdir və ona görə də, onun Havana ilə bağlı mövqelərini dəyişdirmək imkanları məhdud idi. Lakin, ABŞ – Kuba konflikti SSRİ ilə münasibətlərin pisləşməsinə səbəb ola bilərdi.

Moskva ilə Havana arasında münasibətlər getdikcə möhkəmlənirdi. Bu münasibətlərin möhkəmliyinin nümayişi N.S.Xruşşov və F.Kastronun 1960-cı ilin dekabrında Nyu-Yorkda BMT-nin BA-nın müstəmləkəçilik əleyhinə keçirilən sessiyasında görüşü zamanı oldu. Sessiya çərçivəsində jurnalistlərin iştirakı ilə iki ölkə liderlərinin qeyri-rəsmi görüşü zamanı, N. Xruşşov son dərəcə ehtiyatsızlıq edərək, demişdi ki, ABŞ Kubaya hücum etsə, " Sovet raketlərinin hücumuna məruz qalacaqdır". Sovet lideri dərhal elan etdi ki, o, sözlərini obrazlı ifadə etmişdir. Buna baxmayarq, onun açıqlaması qəzetlərdə yayıldı və bir çox fərziyyələrə səbəb oldu.

Kuba ilə düşmən münasibətləri Vaşinqton üçün qıcıq mənbəyi idi. Çünki, “Kuba cəbhəsi” ABŞ-ın Latın Amerikası ölkələrinin “yaxşı dostu” kimi görünməsinə mane olurdu. Kuba rəhbərliyi, ABŞ siyasətini kəskin tənqid etdi və ABŞ rəsmiləri Kubanı anti-humanist siyasət yürütməkdə ittiham etdilər. 1961-ci ilin yanvarın 3-də, Amerika diplomatları Havanadan çıxarıldı , buna cavab olaraq ABŞ Kuba ilə diplomatik əlaqələri kəsdi.

Bu vaxt Kennedi rəhbərliyi, Latın Amerikasındakı nüfuzunun yaxşılaşdırılmasına çox diqqət yetirirdi. 13 mart 1961-ci ildə, Latın Amerikası ölkələrinə "Tərəqqi Birliyi" adı altında 500 milyon dollar məbləğində iqtisadi yardım proqramı təqdim edildi. 5-17 avqust 1961-ci ildə, Puntadel Estedə (Uruqvay) Amerika ölkələri arası sosial və iqtisadi konfrans keçirildi və Birlik Bəyannaməsi imzalandı. Kuba bu konfransda iştirak etmişdi. Lakin, Bəyannamənin mətninə imza atmadı. Kubanı məşhur inqilabçı, əslən argentinalı olan Ernesto Çe Qevara təmsil

etmişdi. Birliyin fəaliyyəti tərəqqi naminə Kuba inqilabının radikal fikirlərinin digər Latın Amerikası ölkələrinə yayılmasının qarşısını almağa yönəlmişdi.

1961-ci ilin aprelində, ABŞ-Kuba qarşıdurması daha da artdı. Aprelin 17-də F.Kastronu devirməyə və Havanada hakimiyyəti ələ keçirməyə çalışan Kuba mühacirlərinin təxminən 1500 nəfərlik silahlı dəstəsi, Floridadan Kuba sahilinə Playya Xiron bölgəsinə gəldi. Ancaq, qiyamçılar Kubanın təhlükəsizlik qüvvələri tərəfindən məğlub edildi. Çevriliş baş tutmadı. Bu cəhd, Amerika MKİ-nin zəif hazırladığı xüsusi əməliyyat idi. Bu hadisə, F.Kastronu narahat etdiyindən o, SSRİ ilə ona hərbi yardımın göstərilməsi ilə bağlı danışıqlara başladı. Çevriliş cəhdindən altı ay sonra, 1961-ci ilin dekabrında F.Kastro əvvəlcə özünü marksist, sonra isə kommunist adlandırdı.

1962-ci ilin yanvarında ABŞ-ın təzyiqi ilə Kuba Amerika Dövlətləri Təşkilatının sıralarından xaric edildi. Bu qərar yekdilliklə qəbul edilmədi: Latın Amerikasının aparıcı ölkələri (Braziliya, Argentina, Çili, Meksika, Ekvador və Boliviya), vəziyyətin qarışıqlığını anlayaraq müvafiq qətnamə layihəsinin səsvermədə bitərəf qaldılar.

1962-ci ilin yanvar ayının ortalarından başlayaraq, Sovet İttifaqı, Kubaya hərbi yardımını artırdı. Bunu ABŞ-ın F.Kastronu devirmək cəhdini təkrarlaya biləcəyi ilə əsaslandırdı. Havanaya kömək edən Sovet rəhbərliyi strateji məqsədlərini həyata keçirmiş oldu. ABŞ, Türkiyədə yerləşən “Yupiter” raketləri ilə SSRİ-nin Avropa hissəsindəki bütün hədəflərini vura bilmək iqtirarında olduğuna görə, Sovet dövləti ABŞ-ın "raket təhdidi" qarşısında özünü zəif hesab edirdi. Sovet İttifaqının ABŞ-ı silah nişangahında saxlamaq üçün hərbi bazası yox idi. Sovet rəhbərliyi, ABŞ-ın Türkiyədəki raketlərinin yaratdığı təhlükəyə "simmetrik cavab" olaraq, Kubanı şərti bir meydan olaraq hazırlamağa başladı.

1962-ci ilin mayında Moskva Kubada sovet qoşunlarını yerləşdirmək barədə qərar verdi. Gizli olan bu əməliyyatın kod adı “Anadır” idi. Adada gizli olaraq 40-dan çox raket yerləşdirmək qərara alınmışdı. Hərbi qüvvələrin ümumi sayı 60 minə çatmalı idi. Bu qrupun Baş komandanı ordu generalı İ.Pliyev təyin olunmuşdu. İlk dəstə adaya general İ.Pliyevin başçılığı ilə 1962-ci ilin iyulunda gəldi. Avqustun 27-də Amerika kəşfiyyatı sovet gəmilərinin Kubaya intensiv gəlişi haqqında ali rəhbər orqanlara məlumat vermişdilər. Lakin, noyabrın 6-da konqresə keçiriləcək seçkilərlə əlaqədar, ABŞ hökuməti bu məsələyə ciddi yanaşmırdı. Həm də sovet tərəfi bu gəmilərin ticarət xarakteri daşıdığını bildirirdi.

1962-ci ilin oktyabrında sovet raketləri və atəş qurğularının hissələri sənaye və kənd təsərrüfatı maşın və avadanlığı adı altında, gizli olaraq mülki gəmilərlə dəniz yolu ilə Kubaya göndərildi. Adada, 60.000 nəfərlik Sovet qoşunlarının xidmət etdiyi

nüvə başlığı olan 42 raket yerləşdirildi. ABŞ hava kəşfiyyatı yalnız oktyabrın 14-də raket qurğularını müəyyən edə bildi. Əldə edilən görüntülərin araşdırılması alınan məlumatların etibarlılığını təsdiqlədikdə, Amerika rəhbərliyi SSRİ-dən izahat tələb etdi və Sovet raketlərinin Kubadan dərhal çıxarılmasını tələb etməyə başladı.

18 oktyabr 1962-ci ildə, SSRİ Xarici İşlər naziri A.A.Qromıko Vaşinqtona gəlmişdi. Prezident C. Kennedi ilə görüşdə Sovet İttifaqının Kubaya müdafiə silahları verdiyini etiraf etsə də, Sovet raketlərinin olmasını inkar etdi. Amerika tərəfi fəzadan çəkilmiş fotoları təqdim etdi. Moskva raketlərin yerləşdirilməsini etiraf etmək məcburiyyətində qaldı, lakin onları götürməkdən imtina etdi. Amerika kəşfiyyatının məlumatına görə, sovet raketlərinin olduğu mülki gəmilər, yenə Kubaya doğru istiqamət götürmüşdülər. N.S.Xruşşov və C.Kennedi arasında bir polemik yazışma getdi, burada hər tərəf öz mövqeyinin qanuniliyini əsaslandırmağa çalışmışdı. Moskva öz fikrindən dönmürdü. Vaşinqton da qəti addıma hazırlaşırdı.

Oktyabrın 22-də, Prezident C.Kennedi televiziya vasitəsilə öz xalqına müraciət edərək, Sovet İttifaqı ilə müharibəyə başlamağın mümkünlüyü barədə xəbərdarlıq etdi. ABŞ qüvvələri hərbi hazırlıq vəziyyətinə gətirildi. ABŞ Kubanı dənizdən və havadan mühasirəyə aldı. Kuba sahillərinə 85 min dəniz piyadası ilə birlikdə 183 hərbi gəmi göndərdi. Bu mühasirə, Kubaya xaricdən silah və hərbi texnika göndərilməsinin qarşısını almalı idi. Sovet tərəfinə bildirildi ki, Kuba ərazisindən istənilən raketin atılması ABŞ-la müharibəyə səbəb olacaq. Eyni zamanda, ABŞ rəhbərliyi Kuba limanlarına "karantin" tətbiq olunduğunu, yəni hansı ölkənin bayrağı ilə daşınmasından asılı olmayaraq, dəniz yolu ilə Kubaya gələn bütün yükləri yoxlamaq niyyətində olduğunu bildirdi. Lakin, beynəlxalq hüquqa görə, mühasirənin elan edilməsi təcavüz aktı kimi qiymətləndirildiyindən və Amerika diplomatiyası bu termindən çəkinərək, "karantin" sözündən istifadə etmişdi.

Sovet gəmiləri Kuba limanlarına raket daşımaqda davam edirdi. Kuba və SSRİ, ABŞ-ın hərəkətlərini beynəlxalq hüquqa zidd hesab edərək, onun iradəsinə tabe olmaq niyyətində deyildi. SSRİ ilə ABŞ arasında hərbi qarşıdurma nüvə müharibəsinə çevrilə bilərdi. ABŞ ölkədə, Avropada və dənizlərdə silahlı qüvvələrini yüksək döyüş hazırlığı vəziyyətinə gətirdi. Oktyabrın 23-də SSRİ və Varşava Müqaviləsi Təşkilatına daxil olan digər ölkələr cavab tədbirləri gördülər. Kuba ordusu da, döyüşə hazır vəziyyətə gətirildi.

SSRİ silahlı qüvvələri də hazır vəziyyətə gətirildi. ABŞ silahlı qüvvələrinin Sovet gəmilərini dayandırmaq cəhdi müharibə üçün bir bəhanə ola bilərdi. Münaqişənin qarşılıqlı genişlənməsi (eskalasiyası) baş verirdi. Tərəflər bir-birlərinə qarşı çıxaraq, hər ikisinin istəmədiyi bir müharibəyə hazırlaşmağa başladılar və bu çətin vəziyyətdən necə çıxacaqlarını bilmirdilər.

1962-ci ilin oktyabrın 24-də, Karib hövzəsində vəziyyət BMT Təhlükəsizlik Şurasında müzakirə edildi. Burada ABŞ, SSRİ-ni Karib hövzəsində vəziyyəti kəskinləşdirməkdə ittiham etdi. SSRİ Kubanı müdafiə etmək məqsədi ilə raketlərini yerləşdirdiyini bildirdi. İclasda, Rumıniya SSRİ-nin və Kubanın mövqeyini müdafiə etdi. BİrləşmiŞ Ərəb Respublikası və Qana ABŞ-ın şirkətlərinin dəniz azadlığı prinsipinə zidd olduğunu, sülh və təhlükəsizlik üçün qorxu yaratdığını qeyd etdilər. Onlar ABŞ, SSRİ və Kubanı böhranı dinc yolla həll etməyə çağıran qətnamə layihəsi təklif etdilər. BMT-nin Baş Katibi U.Tan tərəfləri problemin həlli üçün danışıqlara başlamağa çağırdı. İngiltərə ABŞ-ın Karib dənizindəki siyasətini müdafiə edirdi. Lakin, sonra İngiltərə, Fransa və İrlandiyanın nümayəndələri, SSRİ ilə ABŞ arasında danışıqlara tərəfdar olduqlarını bəyan etdilər.

BMT Təhlükəsizlik Şurasının iclası, Baş Katibin SSRİ və ABŞ hökumətlərinə göndərmək üçün hazırladığı müraciətin mətnini bəyəndi. Müraciətdə SSRİ, ABŞ və Kuba hökumətlərinə görüşüb böhranı həll etmək yollarını müzakirə etmək təklif olundu və BMT-nin onlara kömək etməyə hazır olduğunu bildirildi. Karib böhranının bütün mümkün nəticələrini real nəzərə alan ABŞ və SSRİ hökumətləri müraciətə müsbət cavab verdilər.

Oktyabrın 23-də axşam, ABŞ-ın ədliyyə naziri və Prezident C. Kennedinin qardaşı Robert Kennedi Vaşinqtondakı SSRİ səfirliyinə qeyri-rəsmi görüşə gəldi və burada sovet səfiri A.F.Dobrının ilə gizli söhbətində Amerikanın vəziyyətə münasibətini açıqladı. Bu görüşdə o, ABŞ-ın müharibə etmək istəməməsini, lakin Sovet raketlərinin Kubadan çıxarılmasında qəti surətdə israr etməsini, bu tələbin yerinə yetirilməsi barədə qərar verilmədiyi təqdirdə Kubaya zərbə endirəcəklərini bildirdi.

Buna cavab olaraq səfir A.F.Dobrının, SSRİ-nin də müharibə istəmədiyini bildirdi. Sonra o, N.Xruşşovin əvvəllər təkrarladığı ifadəni - Sovet raketlərinin yerləşdirilməsinin, Amerikan raketlərinin Türkiyədə yerləşdirilməsinə və F.Kastro hökumətini təhdid etməsinə cavab tədbiri olduğunu nəzərə çatdırdı. Danışıqların məzmunu hər iki ölkənin liderlərinə çatdırıldı. Oktyabrın 23-dən 28-dək, N.S.Xruşşov və C.Kennedi arasında məktub mübadiləsi və A.F.Dobrının və R.Kennedi arasında aparılan danışıqlar gedişində razılaşmaq üçün şərait yaratmaq mümkün oldu.

SSRİ, Karib böhranını dinc yolla həll etmək üçün öz üzərinə düşən bütün işləri görməyə hazır olduğunu bildirdi. ABŞ hökumətinin, Moskvaya göndərdiyi məktubda deyilirdi ki, Karib böhranının qısa vaxtda siyasi vasitələr ilə həlli beynəlxalq gərginliyin zəifləməsinə və tərksilah məsələlərinin həllinə kömək edə

bilər. 1962-ci il noyabrın 1-də, SSRİ hökumətinin nümayəndəsi danışıqlar aparmaq üçün əvvəl Nyu-Yorkda, sonra isə Kubada oldu.

ABŞ, F.Kastronu güc vasitəsi ilə devirmək cəhdlərindən imtina edən bəyanat verməyə razı oldu. Buna cavab olaraq, Sovet İttifaqı Kubada olan raket qurğularını sökməyə, adadan raketləri çıxarmağa və bundan sonra da yerləşdirməməyə razı oldu. Sazişin bu hissəsinin ictimaiyyətə açıqlanmasına qərar verildi.

Türkiyədə olan Amerika raketlərinin məsələsində, Türkiyə və NATO arasında rəsmi razılaşmadan sonra, yaxın vaxtlarda (4-5 ay) raketlərin oradan çıxarılacağı barədə gizli razılıq əldə edildi. Amerika rəhbərliyi Türkiyədən raketlərin çıxarılması barədə nisbətən asanlıqla razılaşdı. Çünki, ABŞ 1962-ci ildə artıq köhnəlmiş "Tor" və "Yupiter" raketlərini Avropa və Türkiyədən çıxarmaq və yeni dəniz bazalı "Polaris" raketləri ilə əvəz etmək fikrində idi. Moskva ilə razılaşma bu planın icrasını yalnız sürətləndirdi.

Karib böhranı həll edildi. Hər iki tərəf öz öhdəliklərini yerinə yetirdilər. ABŞ Kubaya qarşı təxribatçı hərəkətlərdən imtina etdiyini elan etdi və N.S.Xruşşov Sovet raketlərinin Kubadan çıxarılmasını əmr verdi. ABŞ-ın raketləri Türkiyədən bir neçə ay ərzində çıxarıldı.

Formal olaraq Kuba böhranı, 1963-cü ilin yanvarın 7-də başa çatmış oldu. Həmin gün, ABŞ və SSRİ razılaşaraq, BMT-nin Baş Katibinə Karib böhranı haqqında məsələnin Təhlükəsizlik Şurasının gündəliyindən çıxarılması üçün məktubla müraciət etdilər.

### 5."Çoxtərəfli Nüvə Qüvvələri" ətrafında müzakirələr və Nassau paktı (dekabr 1962)

Karib böhranı, Con F.Kennedinin Amerika nüvə silahının Avropada istifadəsinə nəzarəti mərkəzləşdirməyin və Avropa müttəfiqlərinin nüvə silahlarını öz istədiyi kimi istifadə etmək imkanlarının məhdudlaşdırmasının zəruriliyini təsdiqlədi. Bu məntiqə əsasən, 1962-ci ilin oktyabrında, NATO Şurasının iclasında ABŞ Dövlət katibi D.Rayek "çoxtərəfli nüvə qüvvəsi" yaratmaq təklifini irəli sürdü. Bu plan, NATO hərbi strukturlarının komandanlığı altında olacaq Qərbi Avropa ölkələri və ABŞ-ın vahid nüvə müdafiə gücünün formalaşmasını nəzərdə tuturdu. Əslində, Almaniya "nüvə düyməsinə" daxil olsa da, öz nüvə potensialına sahib olmayacaq idi. İngiltərə və Fransa öz atom güclərini Amerika generallarının istiqamət verdiyi NATO-ya tabe etdirərək, öz nüvə silahlarını beynəlxalq hərbi qüvvələrinin ümumi komandanlığına verməyə razı olmalı idilər. Amerikanın mövqeyi, həmişəki kimi, avropalılar arasında anlaşma ilə qarşılanmadı.

Fransa, Karib böhranından öz nəticələrini çıxartdı. Böhran dövründə, Prezident Şarl de Qoll, ABŞ-ın hərəkətlərini tam dəstəkləsə də, Fransanın Sovet-Amerika qarşıdurmasında girov olması təhlükəsini tam şəkildə anlamışdı. Fransa rəhbərliyi, hərbi-strateji sahədə özünü ABŞ-dan uzaqlaşdırmağa daha da çox meyllənməyə başladı. Bu məntiqə görə, Şarl de Qoll Fransada müstəqil nüvə qüvvələri yaratmaq qərarına gəldi və öz mövqeyini barışmaz şəkildə müdafiə etməyə başladı. Fransa artıq nüvə dövləti idi və onu hətta NATO daxilində öz nüvə qüvvələrini xarici nəzarət altına verməyə məcbur etmək qeyri-real idi.

Fransa diplomatiyası, Qərbi Almaniyanın da öz nüvə silahına yol bağlayan Amerika planından məmnun olmadığını başa düşdü. Buna görə də Ş. de Goll, K.Adenauerə Parisdən və Bonndan hərbi-siyasi sahədə qarşılıqlı əlaqədə ola bilən, NATO-dan ayrı olan, ikitərəfli əməkdaşlıq sistemini yaratmağı təklif etməyə başladı. Əgər, 1961-ci ilin iyul ayına qədər, Fransa Almaniyanın nüvə silahına yaxın buraxılmasına qarşı fəal şəkildə çıxırdısa, 1962-ci ildə Fransa rəhbərləri, 5-10 ildən sonra, Qərbi Almaniyanın gələcəkdə nüvə dövlətinə çevrilmə ehtimalını istisna etmirdilər. Almaniya Federativ Respublikasına münasibətdə atdığı bu manevr, Fransanın "AFR-i ABŞ-dan ayırmaq" və Vaşinqtonu strateji nüvə qüvvələrinin yaradılması məsələsində təcrid etmək planının bir hissəsi idi. Bir müddət Fransa və Almaniya NATO daxilində ABŞ-a qarşı öz müxalifətini yaratdılar.

Amerika diplomatiyası İngiltərəni öz tərəfinə çəkməyə çalışdı. 1962-ci ilin dekabrında, Baham adalarının Nassau şəhərində İngiltərənin Baş Naziri Q.Makmillan və ABŞ Prezidenti C.F.Kennedi, Britaniyanın Strateji Nüvə Qüvvələri proqramında iştirakına dair müqavilə imzaladılar. Liderlər, Baham adalarında 1957-ci ildə keçirilmiş, əvvəlki ABŞ-İngiltərə görüşü zamanı, Londona vəd edilmiş ikipilləli amerikan “Skaybolt” ballistik raketlərinin tədarükü ilə bağlı müzakirələri davam etdirdilər. Birləşmiş Ştatlar “Skaybolt” raketlərinin köhnəldiyini və bir neçə ildən sonra lazımi döyüş tapşırıqlarını yerinə yetirə bilməyəcəyini nəzərə çatdıraraq, onların əvəzinə “Polaris” raketlərini təklif etdilər. İngiltərə tərəfi, “Polaris” ilə təchiz olunmasına qarşı deyildi, amma Nassau müqaviləsinə əsasən, “Polaris” sözsüz olaraq NATO-nu nəzarətində olmalı idi. Britaniya isə “Skaybolt” raketlərini özü idarə edəcəyinə ümid edirdi. Bununla da raketlərə milli nəzarət aradan qaldırılırdı.

Danışıqlar çətin keçdi, lakin, bəzi məsələlərdə susmaqla, bir uzlaşma əldə edildi:

Birincisi, İngiltərə Amerika “Polarisi”nə, Britaniyanın istehsalı olan döyüş başlıqlarının quraşdırılması şərti ilə, bu müqaviləni qəbul etməyə rəsmi şəkildə razılıq verdi;

İkincisi, London, Britaniya Hərbi Hava Qüvvələrini NATO komandanlığına tabe etməyə razılıq verdi;

Üçüncüsü, İngiltərə, öz nüvə qüvvələrinin, "Çoxtərəfli nüvə qüvvələri"nə daxil edilməsinə razılıq verdi. Bu məsələ bir şərtlə qəbul olunurdu-- Britaniya hökuməti zəruri hesab edərsə, ən yüksək dövlət maraqlarını rəhbər tutaraq, Britaniya nüvə qüvvələrinə Böyük Britaniyanın müstəsna nəzarəti altına keçəcəyi haqqında qərar qəbul edəcək.

Bu, ABŞ-ın nəzərdə tutduğu və tam istədiyi müqavilə deyildi. "Çoxtərəfli nüvə qüvvələri" termini Nassau paktının mətninə daxil edilməsinə baxmayaraq, bu qüvvələr əslində dövlətlərarası olurdu. ABŞ-ın Qərbi Avropa ölkələrinin nüvə qüvvələrindən vahid və idarə oluna biləcək qurum yaratmaq planını həyata keçirmək səyləri baş tutmurdu.

* * *

1962-ci ilin payızında, müharibədən sonra beynəlxalq sistemdə olan gərginliklər ən yüksək həddə çatdı. Dünya faktiki olaraq, iki super dövlətin qarşıdurması ilə təhrik olunan ümumdünya nüvə müharibəsi ərəfəsində qaldı. ABŞ və SSRİ-nin müharibə ərəfəsində manevr etməsi gedişində dünyanın ikiqütblü quruluşu, beynəlxalq nizamın təşkilində qeyri-sabit və təhlükəli formaya çevrildi. Dünyanı "Üçüncü dünya müharibəsi"ndən yalnız super güclü və hər şeyi məhv edən atom silahlarının istifadəsi qorxusu qorumuşdu. İstifadəsindən yaranan təhlükə, hədsiz dərəcədə yüksək idi. Nüvə-kosmik dünyasında, yeni ciddi davranış qaydalarının razılaşdırılması və qurulması üçün təcili səylər tələb olunurdu.

Karib böhranı, XX əsrin ikinci yarısında beynəlxalq münasibətlərdə hərbi-strateji qeyri-sabitliyinin ən yüksək nöqtəsi olmuşdu. Eyni zamanda, o, 1948-1962-ci illər arasında, beynəlxalq sistemdə olan böhranlar dövründə beynəlxalq münasibətlər mühitini müəyyənləşdirən müharibənin Astanasında tarazlaşdırma siyasətinin sona çatmasını qeyd etmiş oldu. "Soyuq müharibə" ifadəsi özünün dar mənasında başa çatdı, yumşalma başlandı. Lakin, konfrantasiya davam edirdi.

## İKİNCİ FƏSİL -- III BÖLMƏ
## Dinc yanaşı yaşamaq prinsipi. Müstəmləkə sisteminin dağılması. "Üçüncü dünya" dövlətləri (1953-1962- ci illər)

**1.Dinc yanaşı yaşamaq prinsipinin çətinlikləri və perspektivləri**
1.1."Dinc yanaşı yaşamaq" xarici siyasət proqramının əsas müddəaları
1.2. İkiqütblü sistemdə dinc yanaşı yaşamaq prinsipinin çətinlikləri
1.3.Alman məsələsində razılaşma cəhdləri
**2. Sosializm qütbündə böhranlar**
2.1. Şərqi Avropada stalinsizləşdirmənin başlanması və onun nəticələri Almaniya Demokratik Respublikasında anti-sovet çıxış (1953-cü il)
2.2."Sosializm birliyində" ixtilaflar və "ümidlərin böhranı"
2.3. Beynəlxalq münasibətlərdə Polşa konflikti
2.4. Macarıstana sovet müdaxiləsi
2.5. Şərqi Avropada Sovet siyasətinin modernləşdirilməsi
**3. Süveyş böhranı və onun beynəlxalq nəticələri**
3.1. Misirdə monarxiyanın süqutu
3.2.Yaxın Şərqdə Süveyş böhranının yaranması
3.3. SSRİ və ABŞ-ın Süveyş kanalı ətrafında baş verən hadisələrə mövqeləri
**4. Milli- azadlıq hərəkatının güclənməsi. Müstəmləkə sisteminin süqutu**
4.1.Beynəlxalq sistemin periferiyasında milli azadlıq hərəkatının fəallaşması
4.2. Milli –azadlıq hərəkatının güclənməsi
4.3.Müstəmləkə sisteminin süqutu
**5. "Üçüncü dünya" dövlətlərinin meydana gəlməsi**
**6. Beynəlxalq inkişafda "Üçüncü dünya" dövlətlərinin yeri**

### 1.Dinc yanaşı yaşamaq prinsipinin çətinlikləri və perspektivləri

#### 1.1."Dinc yanaşı yaşamaq" xarici siyasət proqramının əsas müddəaları

1956-cı il fevralın 14-də Moskvada Sov.İKP XX qurultayı keçirildi. N.S.Xruşşovun təklif etdiyi, SSRİ-nin əks-stalinləşdirmə siyasətini təsdiq etdi. Bu, Moskvanın 1940-cı illərdəki xarici siyasət ehkamlarından qəti şəkildə imtina etməsinə yol açdı və Sovet siyasətinin yenilənmiş yanaşmalarını vahid fəaliyyət proqramında yerləşdirməyə imkan verdi. Onun əsas ifadəsi "dinc yanaşı yaşama"

idi. Sovet İttifaqı tərəfindən, 1917-ci ildə irəli sürülmüş bu şüar, V.İ.Leninin sülh haqqında dekretində öz əksini tapmışdı və 1955-ci il Bandunq konfransının siyasi proqramına, eyni zamanda "pança şila"(“Beş prinsip”) prinsiplərinə uyğun idi.

1950-ci illərin "dinc yanaşı yaşama" ifadəsi, leninçi şərhlərin eynilə təkrarlanması deyildi. Bir sıra vacib yenilikləri özündə cəmləşdirmişdi. İlk öncə, sovet xarici siyasətinin yeni fəaliyyət proqramı, yeni dünya müharibəsinin qaçılmaz olması barədə, Stalin tezislərinin rədd edilməsini təsdiq etdi. Əksinə, beynəlxalq inkişafın uzun dinc dövrünün mümkünlüyünə keçdi. Bu dövr, həm "sosialist" və "kapitalist" ölkələri arasında, həm də "kapitalizm" ölkələrinin öz aralarında da böyük müharibələrin olmaması ilə xarakterizə olunur. Bu şərh nəzəriyyəçilərin uğuru idi, çünki Sovet xalqlarına parlaq tarixi perspektiv hissi, ən yaxşısına ümid etmək, ən azı qismən növbəti müharibənin qaçılmaz görünməsi ilə əlaqədar olaraq, şüurları qorxu təzyiqindən azad etmək hissi vermiş oldu. Beynəlxalq inkişaf istiqamətinin belə izahı, SSRİ-nin xarici tərəfdaşlarına Moskvanın sərt niyyətlərin olmaması barədə xəbərdarlıq idi.

İkincisi, “Xruşşovun fikrincə, “dinc yanaşı yaşamaq” “imperializm”ə qarşı ideoloji mübarizənin davam etdirilməsinə diqqət verilməsini vurğuladı. Ümumiyyətlə, "dinc yanaşı yaşama" nəzəriyyəsi, iqtisadiyyatda "imperializm" ilə dinc əməkdaşlığı, sülhü qorumaqla siyasi dialoqu və eyni zamanda barışmayan "ideoloji mübarizəni" özündə birləşdirən "qlobal miqyasda sinfi mübarizənin xüsusi bir forması" olaraq şərh edilmişdi. Belə ki, bu nəzəriyyədə, "sosialist həyat tərzi"nin üstünlüklərini, "sosializm dünya sistemi"nin iqtisadi, sosial və digər üstünlüklərini hərtərəfli dəstəkləmək tələb edilirdi. "Yad burjua ideologiyası", "burjua həyat tərzi" ilə barışmazlılıq, Sovet proqramının xarakterik bir xüsusiyyəti idi. Xarici ölkələr, bu proqramda ziddiyyətlərin olduğunu hesab edirdilər: Qərb siyasətçiləri, anlaya bilmirdilər ki, iqtisadiyyat və siyasət sahələrində dinc əməkdaşlıq, "burjuaziya" ilə "sosializm"in şüurlu qarşıdurması üzərində qurulan, qarşılıqlı düşmən təbliğatı ilə paralel olaraq necə inkişaf edə biləcəkdir.

Üçüncüsü, “dinc yanaşı yaşamaq” nəzəriyyəsi, “kapitalizmin ölümünün qaçılmazlığı” və gələcək “qlobal miqyasda kommunizmin zəfəri” haqqında marksist-leninçi ehkamdan imtina etmədi. Sovet proqramı, "imperializm" ilə dinc əməkdaşlıq ideyasını, kapitalist cəmiyyətlərinin "daxili ziddiyyətlərinin davamlı kəskinləşməsi" nəticəsində, “tarixən məhvə məhkum” olacağı fikrini və onların öz aralarındakı ziddiyyəti bir araya gətirdi. Kapitalizm sistemi və beynəlxalq münasibətlərin bir sahəsi olan "kapitalizm dünyası", sovet kommunist nəzəriyyəsinə

görə təbii olaraq öz-özünə məhv olacaqdır. Bunun səbəbi, "kapitalist sistemi"nə xas olan, proletariat və hakim dairələr arasında daxili sinfi ziddiyyətlərdən irəli gəlir.

Bu mənada, Sovet İttifaqının vəzifəsi, qarşı duran ictimai-siyasi sistem ilə silahlı mübarizə deyil, sovet həyat tərzinin üstünlüklərini, "kommunist idealı"nda olan çoxsaylı sosial güzəştləri və sosialist ölkələrinin əhalisinin istifadə etdikləri digər imtiyazları nümayiş etdirərək, onunla dinc (iqtisadi) rəqabət aparmaq idi. Moskva, iki həyat tərzinin "dinc rəqabət" və "iqtisadi rəqabət" ideyalarını, ABŞ və digər Qərb ölkələri ilə qarşılıqlı əlaqənin ümumiləşdirilmiş düsturu olaraq görürdü. Buradan "rəqabətlə yanaşı yaşamaq" ifadəsi meydana gəlmişdi.

**Qeyd: Dinc yanaşı yaşamaq- kapitalist və sosialist ölkələrinin uzun və dinc yanaşı yaşamasının, ideoloji rəqabətin davam etdiyi dövrdə, aralarında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsini təmin edən, sovet xarici siyasət nəzəriyyəsidir**.

Sonrakı illərdə "dinc yanaşı yaşama" proqramına, bir sıra vacib müddəalar inkişaf etdirilmiş və əlavə edilmiş, 1961-ci ilin oktyabrında, Sov.İKP-nin XXII qurultayında qəbul edilmiş yeni proqramda bu müddəalar ümumiləşdirilmişdi. Sovet xarici siyasətinin "nəzəriyyəsi" iki vacib müddəa ilə "zənginləşdirilmişdi".

İlk növbədə, burada belə bir tezis formalaşdırılmışdı-- 1950-1960-cı illərin müasir tarixi prosesinin məzmunu, dünyanın əksər ölkələrinin və xalqlarının kapitalizmdən və kapitalizmdən əvvəlki nizam formalarından birbaşa sosializmə keçidi ilə müəyyənləşdirilməyə başlandığı göstərilmişdi. Bu ifadə, Asiya və Afrikada yeni müstəqillik qazanan dövlətlərin sayının sürətlə artması faktına əsaslanırdı. Bu ölkələrin bir çoxu, milli azadlıq inqilabları və çevrilişləri yolu ilə müstəqillik əldə etdikləri üçün, SSRİ-də "tam mənada sosialist" istiqamətli sayılırdılar.

Bundan əlavə, sovet partiya sənədlərində, müasir dövrdə "üç inqilabçı qüvvə" tezisi inkişaf etdirilmişdi. Bunlara daxil idi:

1.dünya sosializmi sistemi,

2.keçmiş müstəmləkə və asılı ölkələrin xalqlarının milli azadlıq hərəkatı,

3.inkişaf etmiş kapitalist dövlətlərində zəhmətkeşlərin və kommunistlərin hərəkatı.

Həmin dövrdə, "üç inqilabi qüvvə" beynəlxalq aləmdə rəsmi olaraq SSRİ-nin müttəfiqləri elan edilmişdi.

Beləliklə, Sovet xarici siyasət nəzəriyyəsi, əslində davamlı olaraq inkişaf edən "dünya inqilabi prosesi" ideyasından əl çəkməmişdi. Bununla birlikdə, o, diqqəti bu prosesin, XX əsrin birinci yarısındakı inkişafından "fərqli formada" tərəqqisinə diqqəti artırdı, yəni, nisbətən dinc, inqilabi olmayan dəyişikliklər etdi.

Moskvada, qeyri-sabitlik beynəlxalq siyasətin tərkib hissəsi kimi qəbul edilirdi. Eyni zamanda, hətta inqilabi təzahürlərində də qeyri-sabitliyə münasibət, beynəlxalq

münasibətlərin tərkib hissəsi kimi qəbul edilsə də, SSRİ-nin öz maraqlarına uyğun olduğu təqdirdə, beynəlxalq sabitliyi qorumaq səyi də istisna edilmirdi. Sovet İttifaqı Qərblə qarşılıqlı anlaşmaya meyl edirdi.

SSRİ-nin Vaşinqtonla münasibətlərinin əsas prinsipləri bunlar idi:

*SSRİ ərazisinə və ya Varşava Müqaviləsi ölkələrinə hücum halları istisna olmaqla, birbaşa qarşıdurmadan çəkinmək;

*ABŞ-la ümumi münaqişəyə çevrilə biləcək, regional münaqişələrin kəskinləşməsindən imtina etmək;

*Əsas beynəlxalq problemlər üzrə dialoq;

*SSRİ və ABŞ-ın regional işlərində və bütövlükdə dünya siyasətində üstünlüyünü möhkəmləndirmək vasitəsi kimi, ikiqütblüyü gücləndirmək.

Moskvanın siyasətində, sabitliyə ikitərəfli yanaşma tərtib edildi: bütövlükdə Qərblə münasibətlərə sabitlik vermək istəyi, müəyyən konkret məsələlərdə dolayı yolla onlara qarşı çıxmaq imkanı ilə birləşdirildi.

### 1.2. İkiqütblü sistemdə dinc yanaşı yaşamaq prinsipinin çətinlikləri

Müharibə təbliğatının qadağan edilməsi, tərksilaha kömək edən amillərdən biri idi. 1947-ci ildə, BMT Baş Məclisinin II sessiyası dünya müharibəsi təbliğatını qadağan edən qətnamə qəbul etmişdi. 1950-ci iiln sentyabrında BMT Baş Məclisinin V sessiyası belə bir bəyannamə qəbul etdi ki, kütləvi qırğın silahını birinci tətbiq edən dövlətin hərəkəti bəşəriyyətə qarşı cinayət, həmin dövlət isə hərbi cani hesab olunur.

1951-ci ildə BMT Baş Məclisinin VI sessiyasında BMT-nin Tərksilah üzrə Komissiyası yaradıldı. Onun tərkibinə BMT Təhlükəsizlik Şurasının üzvləri və Kanada daxil idi. Bu komissiya səmərəli beynəlxalq nəzarət də daxil olmaqla tərksilaha dair bütün məsələləri müzakirə edə bilərdi.

50-ci illərin əvvələrində, məhəlli münaqişələrin artması, yeni hərbi ittifaqların yaranması beynəlxalq vəziyyətə təsir göstərdi və tərksilahın əhəmiyyətini daha da artırdı. 1955-ci ilin mayında Sovet hökuməti qismən tərksilah haqqında yeni təklif irəli sürdü: ABŞ, SSRİ və Çin öz qoşunlarını 1-1,5 milyon nəfər, İngiltərə və Fransa 650 min nəfərə qədər azaltmalı idi. Yerdə qalan ölkələrin silahlı qüvvələrinin sayı tərksilah üzrə Ümümdünya konfransında müəyyən edilməli idi. Silahların və silahlı qüvvələrin ixtisarı iki mərhələdə keçirilməli idi:

Birinci mərhələdə adi silahlı qüvvələr ixtisar olunmalı və nüvə silahlarının sınaqları dayandırılmalı idi;

İkinci mərhələdə isə nüvə silahının qadağan olunması da daxil olmaqla ümumi tərksilah proqramı həyata keçirilməli idi.

Tərksilaha dair imzalanacaq konvensiyada nəzarət tədbirləri də öz əksini tapmalı idi. Qərb dövlətləri əvvəl adi, sonra nüvə silahı sahəsində tərksilah keçirilməsini təklif edirdilər və SSRİ bu təkliflə razı idi.

Beynəlxalq gərginliyin zəifləməsinə kömək etmək və Qərb dövlətlərini şirnikləndirmək üçün SSRİ birtərəfli qaydada öz silahlı qüvvələrini azaldırdı. 1955-1958-ci illərdə, Sovet silahlı qüvvələrini 2.140 min nəfər ixtisar etmişdi. Nəticədə SSRİ 16 milyard manat vəsaitə qənaət etmişdi. SSRİ, Çində və Finlandiyada olan öz hərbi bazalarını ləğv etdi, qoşunlarını Rumıniyadan çıxardı. Digər sosialist ölkələri də silahlı qüvvələrini müəyyən qədər azaltdılar.

1956-cı ilin noyabrında, Sovet hökuməti bəyanatla çıxış edərək bildirdi ki, 1957-1958-ci illərdə, SSRİ, ABŞ, İngiltərə və Fransa Almaniyada olan qoşunlarını azaltsınlar, NATO və Varşava müqaviləsi ölkələri arasında hücum etməmək haqqında pakt imzalansın. 1955-ci ildə Cenevrədə yüksək səviyyəli görüşdə, ABŞ Prezidenti D.Eyzenhauer təklif etdi ki, tərksilahın icrasına nəzarət formalarından biri kimi hər iki dövlətin ərazisinin təyyarədən şəklinin çəkilməsinə icazə verilsin. Bu təkliflə razılaşan Sovet İttifaqı belə şərt irəli sürdü ki, NATO və Varşava Müqaviləsi Təşkilatının qoşunlarının təmas xəttindən 800 km məsafədə olan təyyarədən ərazinin şəklinin çəkilməsinə icazə verilsin, iri dəmiryol xətlərinin kəsişdiyi yerlərdə, hava limanlarında, şose yollarında və iri limanlarda çevik hücum qoşunlarının cəmləşməsinin qarşısını almaq üçün nəzarət postları təşkil edilsin. 1956-cı ildə SSRİ bu təklifləri BMT Baş Məclisinin XI sessiyasının müzakirəsinə verdi, Baş Məclis isə bu məsələnin müzakirəsi zamanı irəli sürülmüş təklifləri BMT-nin Tərksilah üzrə Komissiyasına vermək haqqında qərar qəbul etdi.

1957-ci ilin mart-aprel aylarında, BMT-nin tərksilah komissiyasında SSRİ-nin təklifləri müzakirə edildi. Qərb dövlətləri bu təklifləri qəbul etmədi və bildirdi ki, bir sıra siyasi məsələlər tənzimlənməyib və dövlətlər arasında etimad yoxdur. 1957-ci ildə Sovet dövləti, qismən tərksilah haqqında yeni təklif irəli sürdü: nüvə sınaqlarını dayandırmaq, nüvə silahı tətbiq etməmək haqqında öhdəlik götürmək, adi silahları 15% azaltmaq, müharibə təbliğatını dayandırmaq və xarici ölkələrin ərazisində hərbi bazaları ləğv etmək. Bundan əlavə, SSRİ razılaşdı ki, onun və ABŞ-ın silahlı qüvvələri 2,5 milyon nəfərə qədər azaldılsın. Qərb dövlətləri bildirdilər ki, Almaniya Demokratik Respublikasının ləğvi və birləşmiş Almaniyanın NATO-ya daxil olması şərti ilə həmin təklifləri müzakirə edə bilərlər.

BMT-nin Tərksilah üzrə Komissiyasının üzvlərinin əksəriyyəti ABŞ-ın tərəfində idilər. SSRİ belə hesab edirdi ki, həmin komissiya tərksilaha bağlı

heç bir iş görməyəcək. Ona görə, SSRİ komissiyanın işində iştirakdan imtina etdi və 1957-ci ildə Baş Məclisin XII sessiyasında təklif etdi ki, BMT-nin bütün üzvlərinin iştirakı ilə yeni komissiya yaradılsın. Qərb dövlətləri, Tərksilah üzrə Komissiyanın üzvlərinin sayının 25-ə qədər artırılmasına razı idi. 1958-ci ilin yanvarında SSRİ hökuməti, Qərb və Şərq ölkələrinin hökumət başçılarının iştirakı ilə müşavirə keçirmək və orada nüvə sınaqlarının dayandırılmasından tutmuş, kosmosdan hərbi məqsədlərlə istifadənin qadağan edilməsinə qədər bütün məsələlərin müzakirə edilməsini təklif etdi. Varşava Müqaviləsi Təşkilatının Siyasi Məsləhət Komitəsi 1958-ci ilin mayında, SSRİ-nin müşavirə keçirmək təklifini müdafiə etdi və NATO ilə Varşava Müqaviləsi arasında hücum etməmək haqqında pakt layihəsi hazırladı. Qərb dövlətləri hökumət başçılarının müşavirəsinin keçirilməsinə razılıq versə də, orada sosialist ölkələrinin daxili vəziyyəti, ADR-in ləğvi əsasında Almaniyanın birləşdirilməsi kimi məsələlərin müzakirəsini də təklif etdi.

1958-ci ilin martında, SSRİ Ali Soveti nüvə sınaqlarının qadağan edilməsi haqqında qərar qəbul etdi. SSRİ hesab edirdi ki, ABŞ və İngiltərə də onun kimi hərəkət edəcək. Lakin, ABŞ və İngiltərə nüvə sınaqlarının sayını daha da artırdılar. Ona görə də SSRİ nüvə sınaqlarını 1961-ci ildə bərpa etdi. Qərb dövlətləri deyirdilər ki, nüvə sınaqlarının dayandırılmasına nəzarət etmək mümkün deyildir.

1958-ci ilin dekabrında, BMT Baş Məclisinin növbəti sessiyasında da tərksilah məsələləri müzakirə olundu. Sürətlə silahlanma ilə bağlı müharibə təhlükəsinin artması tərksilah probleminə yeni yanaşma üsulları tələb edirdi. 1959-cu ildə BMT Baş Məclisinin XIII sessiyasında, SSRİ-nin təklif etdiyi tam və ümumi tərksilah planında həmin üsullar öz əksini tapmışdı. Sessiyada ümumi tərksilaha dair İngiltərənin təklifləri müzakirə olunmuşdu. 1959-cu ilin sentyabrın 10-da, tərksilah üzrə 10-lar Komitəsi yaradıldı. Sosialist ölkələri tərksilah uğrunda mübarizədə sülh tərəfdarları hərəkatından (pasifistlər) istifadə edirdilər. Sülh tərəfdarlarının I Ümumdünya konqresi, 1949-cu ilin aprelində Parisdə keçirildi. Konqresdə 72 ölkənin nümayəndə heyəti iştirak etmişdi. Konqresin qəbul etdiyi sülh manifestində hərəkatın məqsədləri öz əksini tapmışdı. F.Küri, Sülh Tərəfdarları Konqresinin daimi Komitəsinin sədri seçildi. Daimi Komitənin 1949-cu ilin oktyabrında, Stokholmda keçirilən sessiyasında, dünya xalqlarını nüvə silahının qadağan edilməsi uğrunda mübarizəyə çağıran müraciət qəbul edildi. Müraciət 500 milyon nəfər adam tərəfindən imzalanmışdı.

1950-ci iln noyabrında, Varşavada sülh tərəfdarları hərəkatının II Ümumdünya konqresi keçirildi. 81 ölkənin nümayəndələrinin iştirak etdiyi

konqres dünya xalqlarına müraciətlə manifest və BMT-yə müraciət qəbul etdi. Konqressin qərarı ilə Daimi Komitə Ümumdünya Sülh Şurasına çevrildi. 1951-ci ilin fevralında Berlində Ümumdünya Sülh Şurasının sessiyası beş böyük dövlətə sülh paktı imzalamaq çağırışı ilə müraciət etdi. Bu müraciət, 600 milyon nəfər insan ərəfindən imzalanmışdı.

Sülh tərəfdarları hərəkatı, SSRİ-nin BMT-də irəli sürdüyü tərksilaha dair təklifləri müdafiə edirdi. 1962-ci ilin iyulunda, Moskvada sülh və tərksilah uğrunda Ümumdünya konqresi keçirildi. Koqresin işində 121 ölkənin nümayəndələri iştirak etmişdi.

### 1.3.Alman məsələsində razılaşma cəhdləri

Avropada SSRİ-nin alman məsələsinə sərt mövqeyi Amerika müttəfiqləri arasında mübahisələrə səbəb oldu. ABŞ, Sovet təkliflərinə qarşı çıxırdı. Lakin, Sovet İttifaqına qarşı strateji zəiflik hiss edən digər NATO ölkələri onunla dialoqun vacibliyini qəbul edir və alman problemi ilə bağlı güzəşt variantlarını müzakirə etmək üçün lazım olan imkanlar haqqında düşünürdülər. 1959-cu ilin yanvar ayında, Böyük Britaniyanın Baş Naziri Q.Makmillan Moskvaya rəsmi səfər etdi. SSRİ-dən qayıtdıqdan sonra Vaşinqtona gedərək, orada sovet mövqeyini ABŞ ilə müzakirə etdi. İngiltərə, Almaniya ilə əlaqəli SSRİ-nin təhlükəsizlik maraqlarını nəzərə alaraq, Berlinə görə müharibə etməyə hazır olmadığını açıq şəkildə bildirdi. İngilis diplomatiyası, Qərb ölkələri tərəfindən ADR-in de-fakto tanınmasını, Almaniyanın şərq sərhədlərinin Oder və Neyse boyunca toxunulmazlığının təsdiqlənməsini və Mərkəzi Avropada hər iki Almaniya dövlətinin də daxil olduğu, xüsusi hərbi-siyasi statuslu zonanın yaradılmasını özündə ehtiva edən alman probleminin həllinin mümkün olduğu qənaətinə gəlirdi.

London təkliflərini gizlətməyərək, Fransa və AFR hökumətlərinin diqqətinə çatdırdı. Britaniya siyasətçiləri, ABŞ-ın ingilis maraqları uğrunda mübarizə edəcəyinə inanmırdılar və bu məsələnin də Almaniyanın maraqları hesab etdikləri üçün, onun uğrunda mübarizə aparmaq istəmirdilər. 1959-cu ilin yazında, Böyük Britaniyada parlament seçkiləri keçirilməli idi və Q.Makmillan hökuməti Avropada gərginliyin olmasını istəmirdi. SSRİ artıq Almaniya ilə sülh müqaviləsi bağlanması tələblərini qəbul etmək üçün altı aylıq bir müddət qoysa da, onun qəbul edilməsini təkid etmirdi. Ancaq, hər kəs bu müddətin 29 may 1959-cu ildə rəsmi olaraq başa çatdığını xatırlayırdı. Moskvanı təhrik etmək təhlükəli idi. Britaniya diplomatiyası, "gözlənilməzlikləri gözləmək" vəziyyətini ləğv etməyə kömək edəcək konkret razılaşmalara getmək istəyirdi. London dörd dövlət liderlərinin alman məsələsi ilə əlaqədar yeni görüşünü keçirməyi təklif etdi.

İngiltərə kimi Fransa da, alman məsələsində güzəştə meylli idi. 1958-ci ildə hakimiyyətə qayıdan general Ş.de Goll, Sovet İttifaqının Berlində status-kvonun qorunub saxlanması zəmanəti müqabilində, Oder və Neyse sərhədlərini tanımağı mümkün saydı və AFR-in nüvə silahına sahib olmaq iddiasını dəstəkləməyə tələsmədi.

Avropa müttəfiqlərinin mövqeləri ABŞ-ın dəstəyinə arxalanan AFR-i qıcıqlandırdı. ABŞ rəhbərliyi hələ də, 1938-ci ildə İngiltərə və Fransanın nasist Almaniyasına münasibətdə qəbul etdiyi "sakitləşdirmə" siyasətinə bənzər, D. Eyzenhauerinutanc verici hesab etdiyi "SSRİ-nin sakitləşdirilməsi" addımını mümkün saymadı. ABŞ, sammitin keçirilməsinin əleyhinə çıxdı.

Ancaq Amerikanın mövqeyi tədricən dəyişdi. Bu məsələdə müəyyən rolu kadr dəyişikliyi oynadı. 1958-ci ilin sonundan etibarən respublikaçı hökumətində "şahinlərin" lideri C.F.Dallesin səhhəti pisləşdi. 24 may 1959-cu ildə vəfat etdi və mühafizəkar, lakin mülayim düşüncəli bir adam olan Kristian Herter ABŞ-ın yeni Dövlət katibi oldu. 1959-cu ilin yazında "dörd üstəgəl iki" düsturuna uyğun olaraq, Cenevrədə Xarici İşlər nazirləri səviyyəsində, SSRİ Xarici İşlər idarəsinin rəhbərləri ilə görüşün keçirilməsinə razılıq verildi.

ABŞ, İngiltərə və Fransa görüşlərində, ADR və Qərbi Almaniyanın Xarici İşlər nazirləri də iştirak etməyə dəvət edildi. Görüş iki mərhələdə, 10 may - 20 İyun və 13 iyul - 5 avqust 1959 tarixində keçirildi. Bu, hər iki Almaniya dövlətinin hökumətlərinin iştirakı ilə ilk görüş idi. Bu görüş əslində, Sovet İttifaqının istədiyi kimi ADR və AFR-in "qarşılıqlı tanıma" yolu ilə de- fakto tanınmasına tərəf olan bir addım oldu.

SSRİ nümayəndə heyəti, AFR-in zərərsizləşdirilməsini təmin edən, Almaniya ilə sülh müqaviləsi layihəsini müzakirələrin mərkəzinə qoymağa çalışdı. Qərbi Almaniya məsələnin belə tərtibinə qarşı çıxdı. Digər Qərb dövlətləri, bu məsələni Almaniya dövlətlərinin istədiyi hər hansı bir birliklərə qoşulmaq hüququ ilə bağlı müzakirə ilə məhdudlaşdırmağı bacardılar. Amerika nümayəndə heyəti, Almaniyanın birləşməsini və hərbi ittifaqlarda iştirak etmək hüququ qazanacaq bir dövlətin yaradılmasını və sonradan onunla sülh müqaviləsinin imzalanmasını nəzərdə tutan "Qerter planı"nı müzakirə üçün təqdim etdi. Bütün Berlin şəhəri üçün, yəni ADR-nin paytaxtı olduğu şərq hissəsi üçün də xüsusi bir statusun yaradılması nəzərdə tutulurdu. Lakin, müzakirə olunan məsələlərin heç birində razılıq əldə olunmadı.

## 2.Sosializm qütbündə böhranlar

### 2.1. Şərqi Avropada stalinsizləşdirmənin başlanması və onun nəticələri. Almaniya Demokratik Respublikasında anti-sovet çıxış (1953-cü il)

I.V.Stalinin ölümü və yeni siyasətdə dəyişiklik əlamətləri, Sovet rəhbərliyinin xalq demokratiyası ölkələrinə köhnə total nəzarət sisteminin zəifləməsinə səbəb oldu. SSRİ-nin təsiri altında olan, Şərqi Avropanın stalinçi liderləri Moskvanın siyasətində baş verə biləcək, hər hansı bir dəyişiklikdən asılı idilər. SSRİ-də anti-stalinçi düşüncələrin güclənməsi sosialist ölkələrinin rəhbərliyinin stalinizləşdirilməsinə səbəb oldu. Bu, Şərqi Avropa əhalisinin müxtəlif təbəqələrində dəyişikliklərin olmasına gözləntilərinin artması və Şərqi Avropa hakimiyyətlərində sabitləşmənin pozulması təhlükəsi ilə müşayiət olundu.

1953-cü ilin may-iyun aylarında, Moskvanın təzyiqi ilə, Macarıstan Nazirlər Şurasının Sədri Matyaş Rakoşi vəzifəsindən kənarlaşdırıldı və daha "liberal", əks-stalinçi İmre Nadi ilə əvəz olundu.

ADR-də qeyri-sabit bir vəziyyət yaranırdı. ADR-dən AFR-ə 1951-ci ilin yanvarından 1953-cü ilin aprelinə qədər 447 min nəfər miqrasiya etmişdi. ADR vətəndaşlarının qaçmasının səbəbi Valter Ulbrixtın rəhbərliyi ilə Almaniya Vahid Sosialist Partiyasının (AVSP) sosializm quruculuğunun sürətli inkişaf etdirilməsində yanlış istiqamət götürməsi idi. Sovet rəhbərliyi, Şərqi Almaniya həmkarlarını quruculuğun inkişafının sürəti haqqında xəbərdarlıq edərək, Sovet İttifaqından ADR-ə verilən yardımın artırılmasının mümkün olmayacağını bildirdi. O vaxt Moskvada, L.P.Beriyanın təklifi ilə, Qərblə qarşılıqlı anlaşmanın olması şərtilə, Almaniyanın birləşməsi və bitərəfləşdirilməsi problemi və Sovet qoşunlarının ADR-dən çıxarılması məsələsi müzakirə edilirdi. Moskvadan gələn dəyişiklik xəbərləri və ADR rəhbərliyinin Sovet İttifaqından olacaq dəstəyə inamsızlığı, Şərqi Almaniyanın əhalisinin həyəcanlarını artırdı. Yaranmış qeyri-müəyyən vəziyyətdə, 1953-cü ilin iyun ayında, ADR-də hökumət əleyhinə etiraz çıxışları keçirildi.

Hökumət sənaye sahəsində əmək haqqlarını azaldaraq, yeni qiymətləndirmənin tətbiq olunduğunu elan etdi. Bu addım fəhlələrin narazılığına səbəb oldu. 17 iyun 1953-cü ildə, Berlin, Leypsiq, Maqdeburq, İen, Drezden və digər şəhərlərdə tətillər başladı. Onlar hökumətin istefası və azad seçkilərin keçirilməsi tələblərinə çevrildi. Bunun ardınca, talanlar, partiya komitələrinin binalarının yandırılması, həbsxanalara hücumlar və orada olan məhkumların azad edilməsi prosesi başlandı. Hüquq-mühafizə orqanları iflic olmuşdu.

ADR rəhbərliyi, Sovet hökumətinə ölkədə nəzarəti bərpa etmək üçün, sovet qoşunlarından istifadə etmək təklifi ilə müraciət etdi. Moskva bu fikirlə razılaşdı. ADR-də yerləşən on beş sovet diviziyası döyüşə hazır vəziyyətə gətirildi. İğtişaşların yatırılması əməliyyatının rəhbərliyini Berlinə gələn, SSRİ Müdafiə nazirinin müavini V.D.Sokolovski öz üzərinə götürdü. Sovet qoşunlarının hərbi əməliyyatları, hərbi məhkəmələrin hökmləri üzrə həbslər və edamlarla müşayiət olunurdu. ADR-nin partiya rəhbərliyi hakimiyyətdə qala bildi.

V.Ulbrixt, 26 iyun 1953-cü ildə, Moskvada baş verən "Beriya sui-qəsdi"nin ləğv olunduğu siyasi mübarizədən faydalana bildi. O, bildirdi ki, ADR-dəki iğtişaşlar onun səhvləri deyil, Şərqi Alman rəhbərliyinin, L.P.Beriyanın "yanlış tövsiyələrinə" uyğun olaraq, həyata keçirmək istədikləri liberallaşdırma ilə əlaqədar baş vermişdir. Belə bir izahat lazımı anda edilmişdi. V.Ulbrixt L.P.Beriyanı tənqid etməklə, N.S.Xruşşovu və Q.M.Malenkovu, L.P.Beriyanı vəzifəsindən kənarlaşdırmaq təşəbbüslərini dəstəkləmiş oldu.

V.Ulbrixt, ADR rəhbəri vəzifəsini saxladı. Ancaq, ölkədəki vəziyyət çətin olaraq qalırdı və Sovet İttifaqı Şərqi Almaniya rəhbərliyinin xahişlərinə görə güzəştə getdi. Moskva, ADR-dən sonrakı təzminatları almaqdan imtina etdi və 1945-ci ildən sonra, işğal xərcləri üzrə borcun silinməsinə razılıq verdi. Bundan bir qədər sonra, 1954-cü ilin martında, ADR-ə daxili və xarici siyasət məsələlərində rəsmi suverenlik verildi.

### 2.2."Sosializm birliyində" ixtilaflar və "ümidlərin böhranı"

Sov.İKP-nin XX Qurultayında qəbul edilən stalinsizləşdirmə ilə bağlı qərarlar, sonra Sov.İKP-nin MK-nın 30 iyun 1956-cı il tarixli qərarı ilə İ.V.Stalinin şəxsiyyətinə pərəstişliyi və onun nəticələrini aradan qaldırılması, bütün dünyada və xüsusən Sovet İttifaqı və sosialist ölkələrində geniş təəssürat doğurdu. Bu hadisələr, SSRİ-də yeni bir istiqamət yaratdı – Stalin cəzavermə aparatının qismən məhv edilməsi və islah olunması, onun Sov.İKP-nin yeni rəhbərliyinə və Sov.İKP Mərkəzi Komitəsinin tabeçiliyinə verilməsi. Bu xətt müxaliflərə qarşı siyasi cəza tədbirlərinin zəifləməsi ilə müşayiət olundu. SSRİ-də stalinizmin tənqidi dalğası gedişində "yumşalma" dövrü yetişdi.

Bu meyllər, Şərqi Avropanın sosialist ölkələrində olan siyasi vəziyyətə təsir etdi. I.V. Stalinin ölümündən sonra onların bəzilərində kadr dəyişikliyi başladı. 1953-cü ildə Macarıstanda, M.Rakoşi iki əsas vəzifəsindən birini itirdiyindən, hakimiyyəti məhdudlaşdırıldı. 1953-cü ildə Çexoslovakiyada, Kommunist Partiyasının yeni lideri AntoniNovotnı oldu. O, Çexoslovakiya Kommunistlərinin köhnə və ən nüfuzlu lideri, Prezident K. Gotvaldın və I.V. Stalinin vəfatından dərhal

sonra ölkədəki bütün hakimiyyəti əlində cəmləşdirdi. 1954-cü ilin martında Bolqarıstanda da, Moskvanın təzyiqi ilə, liderlərin dəyişdirilməsi baş verdi. Şərqi Avropanın ən avtoritar liderlərindən sayılan Kommunist Partiyasının lideri Vılko Çervenkovu gənc Todor Jivkov əvəz etdi. Rumıniyada hakimiyyətin təhvil verilməsi olduqca rəvan getdi. Rumıniya Kommunistlərinin lideri və ölkənin Baş Naziri George Georgiu-Dej 1955-ci ildə hökumət başçısı vəzifəsindən istefa verdi. Lakin o, N.S.Xruşşovun etimadını qazanaraq Kommunist Partiyasının lideri vəzifəsində qala bildı. Yalnız Albaniya və Çində kadr dəyişiklikləri baş vermədi.

Lakin, bütövlükdə, "sosialist düşərgəsində" yerli kommunist hökumətlərinin hakimiyyəti illərində toplanan ictimai narazılıqlar, milli-dövlət inkişafının yolları ilə bağlı ictimai-siyasi müzakirələrə çevrilməyə başladı. SSRİ-də olan XX Qurultaydan sonra baş verən İ.V.Stalinin şəxsiyyətinə pərəstişin açıq tənqidi, Şərqi Avropa ölkələrində stalinistlərin tənqidi ilə paralel proseslərə təkan vermişdi. Yerli stalinistlərə və onların siyasətlərinə qarşı etirazlar, ümumiyyətlə Şərqi Avropa ölkələrinin "sosialist inkişaf yolu" ilə fikir ayrılığı tədbirlərinə çevrilməyə başladı. Stalinçilərin cinayətlərinin ifşa edilməsi prosesi, Şərqi Avropanın sosialist dövlətlərində islahatçı anti-totalitar düşüncələri fəallaşdırdı. Onlar ilk növbədə yerli stalinistlərə, eyni zamanda məhz Sovet İttifaqına qarşı istiqamətlənməyə başladılar. SSRİ-dəki "yumşalma"ya Şərqi Avropa ölkələrində "ümidlərin böhranı" ilə cavab verildi. Milli qüvvələr və Şərqi Avropa Kommunist Partiyalarının rəhbərliyinin bir qismi yeni dəyişikliklər istəyirdilər. Onlar sovet siyasətinin "liberallaşdırılmasından" istifadə edərək Moskvanın Şərqi Avropa dövlətlərinin daxili işlərinə nəzarətini qismən zəiflətməyə çalışırdılar. Bu proseslər Polşada və Macarıstanda ən kəskin formada baş vermişdi.

Sov.İKP XX qurultayından sonra Sovet rəhbərliyi digər ölkələrin kommunist və fəhlə partiyaları ilə münasibətlərin demokratikləşdirilməsində mühüm addım atdı. 1956-cı ilin aprelində, Moskvanın beynəlxalq kommunist hərəkatına diktə etdiyi vasitə olan Kominform buraxıldı. Bu addım həm də, SSRİ-nin yeni rəhbərlərinin stalinizm təcrübəsindən imtina etməsi kimi şərh edilirdi.

SSRİ-nin anti-stalin addımlarının nəticələri digər Kommunist partiyalarında qeyri-müəyyən əks təsirə səbəb oldu. Bu hadisələr ilk növbədə, Çin kommunistlərinin lideri Mao Tzedun şəxsiyyətinə pərəstişin inkişaf etdiyi Çində, narahatlıq və inamsızlıqla qarşılandı. Pekin faktiki olaraq, N. Xruşşovun daxili siyasətindəki yeni "islahat" siyasətini qəbul etmədi və Moskvanın ABŞ və digər Qərb ölkələri ilə münasibətlərini "dinc yanaşı yaşamaq" əsasında yaxşılaşdırmaq cəhdlərindən şübhələndi.

Albaniya N.S.Xruşşovun xəttinə kəskin tənqidi münasibət bildirdi. Sov.İKP-nin XX Qurultayından sonra, Sovet İttifaqının Albaniya ilə əlaqələri sürətlə pisləşməyə başladı. Şərqi Avropada avtoritar hakimiyyətə malik olan, Ənvər Xoca Moskvanın xəttini izləmək istəmədi. Albaniya SSRİ-nin, özünə əsas düşmən hesab etdiyi Yuqoslaviya ilə barışmaq istəməsindən narazı qalmışdı. 1950-ci illərin ortalarından etibarən, Sovet hökumətinin rəhbərliyinin xarici və daxili siyasətində olan yeniliklərin ümumən rədd edilməsi əsasında, Albaniyanın Çin Xalq Respublikası ilə yaxınlaşması başlandı.

### 2.3. Beynəlxalq münasibətlərdə Polşa konflikti

Sov.İKP-nin XX qurultayından qayıtdıqdan sonra, Polşa Prezidenti və Polşa Birləşmiş Fəhlə Partiyasının (PBFP) MK-nın Birinci katibi BoleslavBerut 1956-cı ilin martında Varşavada qəflətən öldü. Yeni şəraitdə yeni rəhbərin seçilməsi məsələsi, hakim partiyada Polşanın inkişafı mövzusunda müzakirə mövzusuna çevrildi. Polşa cəmiyyətində islahatçı hisslər yarandığından köklü dəyişikliklər üçün gözləntilər artmağa başladı. Yaz aylarında, Moskvada I.V.Stalinin şəxsiyyət pərəstişinə qarşı artan tənqid dalğaları Varşavaya da çatdı. Polşada etiraz dalğası sürətlə artmağa - ölkədəki vəziyyətdən narazılıqlar başlandı. Bu hadisələrin məsuliyyəti hakim Kommunist Partiyasının keçmiş rəhbərliyinin üzərinə düşdü.

1956-cı ilin iyununda Poznanda maaşların az olması səbəbindən tətillər və iğtişaşlar başladı. Eyni zamanda katoliklər, Çenstoxovda hökumət əleyhinə nümayişlər keçirdilər. Beləliklə, fəhlələrin etirazları katolik dairələrinin narazılığı ilə birləşərək, PBFP -nin katolik iyerarxlarına qarşı cəza tədbirləri siyasətinə etiraz etdi.

PBFP-nin yeni lideri EdvardOhab hakim partiyada kifayət qədər gücə malik deyildi və kəskin partiya daxili mübarizəsinin yaranmasının qarşısını ala bilmədi. 1948-ci ildə PBFP -nin əvvəlki rəhbərliyi tərəfindən bütün vəzifələrindən uzaqlaşdırılan və buna görə də iqtidar partiyasının köhnə rəhbərliyinə müxalifətin canlı rəmzi kimi görünən V.Qomulkanın aktiv fəaliyyətə qayıdışına getdikcə daha çox ümid bağlandı.

1956-cı ilin iyulunda V. Qomulka yenidən partiyada bərpa olundu və plenumda PBFP -nin Mərkəzi Komitəsinin tərkibinə seçildi. Moskvadan gələn N.A.Bulqanin və Q.K.Jukov plenuma buraxılmadı. V.Qomulkanın yaxın gələcəkdə PBFP -nin yeni lideri seçiləcəyi aydın idi. Stalinizm illərində cəza tədbirinə məruz qalan adam kimi, V. Qomulka Moskvada qəbuledilməz sima deyildi. Lakin, onun PBFP -nin lideri seçilməsi tədbirləri, milli-vətənpərvərlik şüarları altında getmiş, dolayı yolla anti-Moskva istiqaməti daşıyan və PBFP Mərkəzi Komitəsinin

tərkibindən “əcnəbi” (polyak əsilli SSRİ vətəndaşı) və “Moskvanın adamı”sayılan marşal K.K.Rokossovskini çıxarmaq tələbləri ilə müşayiət olunmuşdu.

Oktyabr ayına planlaşdırılan növbəti plenar iclasa qədər PBFP-nin yeni idarəetmə orqanlarının formalaşdırılmasının təxirə salınması qərara alındı. Varşavada milli-vətənpərvərlik hərəkatı anti-Moskva, antisovet istiqamət aldı. Moskvada, Polşanın antisovet siyasət aparmaq istəyi olduğu fikrinə gəldilər. Buna görə, N. Xruşşov vəziyyəti yerində həll etmək qərarına gəldi. 1956-cı ilin oktyabrında, onun başçılıq etdiyi SSRİ-nin partiya-hökumət nümayəndə heyəti PBFP -nin növbəti plenumunda iştirak etmək üçün Varşavaya gəldi. Yüksək səviyyəli Sovet nümayəndə heyətinin Varşavaya gəlməsi ilə əlaqədar, Polşa ərazisində olan sovet qoşunlarının yerdəyişmələri baş verdi. Bu manevrin mənası hər iki tərəf üçün aydın idi.

Gələn Sovet nümayəndə heyətinin plenar iclasda iştirakına icazə verilmədikdə böhran son həddinə çatdı. Lakin, Sovet rəhbərliyi vəziyyəti gərginləşdirməmək üçün ehtiyatlılıq və təmkinlilik nümayiş etdirdilər. Xüsusi ilə də, N.S.Xruşşov və V.Qomulkanın şəxsi görüşü zamanı hər iki lider bir-birləri ilə ünsiyyət yaradaraq və stalinizmin ümumən qəbil edilməzliyi barədə eyni fikrə gəlmişdilər. Sovet lideri, V. QomulkanınPBFP Mərkəzi Komitəsinin Birinci katibi seçilməsini qəbul edərək və K.K.Rokossovskinin PBFP -nin idarəetmə orqanlarından çıxarılması ilə razılaşdı. V. Qomulka, Polşanın öz milli-mədəni və tarixi xüsusiyyətlərini nəzərə almaq hüququnu qorumaq şərti ilə, SSRİ ilə ittifaqda "sosial inkişaf yolu" boyunca fəaliyyəti davam etdirəcəyinə qətiyyətlə söz verdi. Bu razılaşma, Moskvanı qane etdi. Çünki Macarıstanda başlayan anti-kommunist hərəkat daha radikal bir şəkildə özünü biruzə verirdi.

V.Qomulka SSRİ-nin Polşada olan siyasi mövqelərini şübhə altına almadı. Sovet qoşunlarının ölkədə qalması şərtləri, 1956-cı ilin sonunda bağlanmış xüsusi razılaşma ilə tənzimləndi.

Bütün bunlar Polşaya, Sovet İttifaqı ilə digər müttəfiqlərinə nisbətən daha bərabərhüquqlu münasibətlər qurmağa və beynəlxalq aləmdə müəyyən nüfuz qazanmasına imkan verdi. Xüsusilə, nüvəsiz zonalar nəzəriyyəsini inkişaf etdirmək siyasəti Polşa diplomatiyasına aiddir. Polşa, Çexoslovakiya və iki Almaniya dövlətinin ərazilərini əhatə edəcək belə bir zonanın yaradılması ideyası, 1957-ci ildə BMT Baş Məclisində PXR-nın Xarici İşlər naziri Adam Rapatsky tərəfindən irəli sürülmüşdür.

## 2.4.Macarıstana sovet müdaxiləsi

İ.V.Stalinin ölümündən dərhal sonra, L.P.Beriyanın dəstəyi İ.Nadini Macarıstanın Baş Naziri olmasına kömək etdi. Beriyanın həbsindən sonra da hakimiyyətdə qala bildi, çünki o vaxta qədər G.M.Malenkovun himayəsini də təmin edə bilmişdi. Macarıstan hökumətinin yeni başçısı Macarıstanda sənayeləşməni ləngitmək və sosial gərginliyi azaltmaq üçün tədbirlər görməyə başladı. Lakin, 1955-ci ilin aprelində Malenkovun SSRİ Nazirlər Sovetinin Sədri vəzifəsindən kənarlaşdırılmasına səbəb olan Sovet rəhbərliyindəki ixtilaflardan yararlanan, M.Rakoşi (Macarıstan Kommunistlərinin lideri) İ.Nadini "sağ opportunust əyintilərdə" ittiham edərək gözdən salmağı bacardı və Baş Nazir vəzifəsindən uzaqlaşdırılmasına nail oldu.

Ancaq məlum oldu ki, M. Rakoşi hakimiyyəti qoruya bilməyəcək. SSRİ-də stalinsizləşdirmə, Sovet qoşunlarının 1955-ci il müqaviləsinin bağlanmasından sonra Avstriyadan çıxması, Polşada Moskva əleyhinə olan çıxışlar Macarıstanda hakim partiyanın tənqid etmək üçün şəraitin yaranmasına kömək etdi. M. Rakoşi cəmiyyətdə stalinçi kimi qəbul olunurdu, buna görə də anti-stalinçi hisslər M.Rakoşinin siyasətini kortəbii tənqidə məruz qoydu. İctimai rəy islahat tələb edirdi. Ölkədə olan intellektual müxalifətin mərkəzi “Petefi dərnəyi” idi. Bu müxalifət kommunist ideyasına qarşı yönəlməmişdi – belə ki, məşhur macar filosofu-marksist Dyerd Lukaç təşkilatda fəal iştirak edirdi. Tənqid M. Rakoşinin şəxsiyyətinə qarşı yönəldilmişdi, hətta bəzi kommunist qəzetləri onu tənqid etməyə başladılar. Kütlələrin narazılıqları müxalifətin antisemitizm əhval-ruhiyyəsi ilə daha da qızışırdı. Buna hakim Macarıstan Zəhmətkeşlər Partiyasının rəhbərliyində xeyli yəhudi əsilli Macarıstan vətəndaşlarının iştirakı səbəb olmuşdu.

SSRİ qətiyyətlə "macar yoldaşlarına Macarıstan partiyası rəhbərliyini yerli xalqın kadrları ilə gücləndirməyi", yəni etnik macarların nümayəndələrini artırmağı tövsiyə etdi. 1956-cı ilin iyul ayında, Budapeştdə MZP Mərkəzi Komitəsinin plenar iclası keçirildi, burada Moskva nümayəndəsi iştirak etmişdi. M. Rakoşi MZP Mərkəzi Komitəsinin Baş katibi vəzifəsindən uzaqlaşdırıldı. Onun yerinə yenə də mürtəce düşüncəli Erne Qere seçildi.

6 oktyabr 1956-cı ildə paytaxtda, 1949-cu ildə M. Rakoşi hökuməti tərəfindən yalan ittihamlarla edam edilən Laslo Raykın, eləcə də stalinizm dövründən qalan digər cəza tədbirlərinin qurbanlarının qalıqlarının dəfn edilməsi üçün mərasim təşkil edildi. Dəfn mərasimi, hökumət əleyhinə etirazlara çevrildi, müxtəlif şəhərlərdə tələbə nümayişləri və mitinqlər başladı. Bu etirazlarda təkcə demokratikləşdirmə və stalinizmi aradan qaldırmaq tələbləri deyil, həm də Sovet qoşunlarının statusunu

ləğv etmək şüarları da səsləndirilirdi. Əsas tələblərdən biri də "I.Nadinin qaytarılması" idi.

1956-cı il oktyabr 23-də təqribən 20000 etirazçı Budapeştdə Polşa və Macarıstanın milli qəhrəmanı Yosef Bemin heykəlinin yanında toplaşaraq etiraz nümayişi keçirmişdilər. Bu kütləvi nümayişin gedişində Stalinin abidəsi dağıdılmış və nümayişçilər radio komitəsinin binasını ələ keçirmişdiər. Nümayişçilərin dövlət təhlükəsizlik qüvvələri ilə toqquşması nəticəsində zərər çəkənlər oldu. Elə həmin gün, Sovet rəhbərliyi müdaxilə etmək qərarını qəbul etdi. Rəsmi olaraq Macarıstana hərbi yardımın göstərilməsi üçün Moskvaya müraciət, Macarıstanın Baş Naziri Andraş Heqedyuş tərəfindən imzalansa da, bu sənədi Sovet İttifaqının Budapeştdəki səfiri Y.V.Andropov hazırlamışdı.

24 oktyabrda Sovet tankları paytaxtın ən vacib obyektlərini nəzarətə götürdü. Ancaq bu, yeni etirazlara səbəb oldu. Belə bir vəziyyətdə, İ.Nadi təcili olaraq Macar Zəhmətkeşlər Partiyasının ən yüksək partiya orqanlarının tərkibinə daxil edilərək, hökumət başçısı təyin edildi. Sovet qoşunlarının ardınca Budapeştə gələn Sov.İKP Mərkəzi Komitəsinin Rəyasət Heyətinin üzvləri M.A.Suslov və A.İ.Mikoyan, İ.Nadinin hökumət başçısı təyin edilməsini tanıdılar və eyni zamanda Erne Qereni MZP-in lideri vəzifəsindən istefa verməyə məcbur etdilər. Onun əvəzinə, Baş katib Yanoş Kadar seçildi.

Ancaq vəziyyət gərginləşməkdə davam edirdi. Paytaxtda və digər şəhərlərdə qarşıdurmaların yeni mərkəzləri yarandı. Yerlərdə, kommunistlərə və təhlükəsizlik xidməti əməkdaşlarına divan tutmağa başladılar. Macarıstan polisi və ordusu fəaliyyətsiz qalmışdı.

Ölkənin yeni liderləri, vəziyyətə nəzarəti bərpa etmək üçün müxalifətlə barışmağa çalışdı. Üsyançıların bir çox tələblərinin düzgünlüyünü etiraf etməyə razılaşdılar və baş verənləri "əks-inqilabi üsyan" kimi qiymətləndirməkdən imtina etdilər. 27 oktyabr 1956-cı ildə, I.Nadi siyasi fəaliyyətini bərpa etməyə icazə verilən, kommunist olmayan, bir sıra tanınmış siyasətçilərin iştirakı ilə yeni bir hökumət qurdu. 28 oktyabrda atəşkəs əldə edildi və 30-31 oktyabrda Sovet qoşunları Budapeştdən çıxarıldı. O günlərdə dağılmış MZP yenidən qurulması (əslində - buraxılması) və onun əvəzinə Macarıstan Sosialist Fəhlə Partiyasının (PSFP) yaradılması qərara alındı. Bununla belə, sovet silahlı dəstələri paytaxt zonasından kənar ərazilərə gəlməkdə davam edirdi.

Lakin, vəziyyətin sabitləşməsi baş vermədi. Kommunist olmayan qüvvələr Sovet qoşunlarının təkcə paytaxtdan deyil, ümumiyyətlə Macarıstan ərazisindən tamamilə çıxarılmasını tələb edirdilər. Əslində, ölkədə anti-sosialist çevrilişinin ehtimalı

faktiki olaraq yetişməkdə idi. Onlar Macarıstanı Avropada sovet təsiri zonasından çıxarmaq istəyirdilər.

Birləşmiş Ştatlar və Qərbi Avropa ölkələri, Macarıstanda qeyri-kommunist müxalifət tərəfində Macarıstan hadisələrinə müdaxilə etmək niyyətində deyildi, çünki pərdə arxasında bu ölkə çoxdan "Sovet təsir zonası"nın bir hissəsi kimi tanınırdı. Macarıstanda baş verən böhran böyüdükcə, Yaxın Şərqdə yaranmış münaqişə də sürətlə kəskinləşirdi. Qərb üçün Yaxın Şərqdə olan hadisələrin nəticəsi, Macarıstandakı vəziyyətin inkişafından, daha çox vacib sayılırdı. Lakin, Amerika rəhbərliyi hökumət əleyhinə qüvvələrə yardım etmək üçün Macarıstanda “xüsusi əməliyyatlar” həyata keçirməyə tapşırıqlar vermişdi. Xarici radiolar vasitəsilə yayımlan verilişlərlə güclü təhrikçi təbliğatlar aparılırdı. Onlar belə bir fitnəkar mənalı fikir yürüdürdülər ki, Qərb Macarıstan müxalifətinə kömək etməyə hazırdır.

İngiltərə, Fransa və ABŞ-ın, Orta Şərq münaqişəsinə cəlb olunduğunu nəzərə alan, Sovet rəhbərliyi Macarıstana görə Qərblə münasibətlərinin gərginləşməsini gözləmirdi. SSRİ-nin yüksək rəhbərliyində, Polşada olan sovet səfiri Y.V.Andropov və Macarıstana ezam olunmuş DTK-nın sədri İ.A.Serovun təsiri ilə belə bir fikir üstünlük təşkil edirdi ki, Macarıstan hadisələri "əks-inqilabi" hərəkatdır, İ.Nad isə "təsviyyəçi”dir. Macarıstan hökuməti, Sovet qoşunlarının ölkədən tamamilə çıxarılması ilə bağlı danışıqlara başlamağa rəsmi olaraq dəvət etdikdə, İ.Nadın hakimiyyətdən uzaqlaşdırılması üçün olan qərar daha da təsbit olundu. Sovet rəhbərliyi qəsdən cavabı gecikdirirdi. Onda, I.Nad hökuməti 1 noyabr 1956-cı ildə, BMT Baş Katibinə Macarıstanın Varşava Paktından çıxmaq və Avstriya nümunəsinə uyğun öz bitərəfliyini elan etmək niyyəti barədə məlumat verdi.

Artıq 31 oktyabrda, Moskvada Macarıstan qiyamının yatırılması üçün qəti bir qərar verilmişdi. Macarıstan Sosialist Fəhlə Partiyası (MSFP) MK-nın Baş katibi Yanoş Kadar, səfir Y.V.Andropov ilə görüşmək üçün Budapeştdə olan Sovet səfirliyinə dəvət edildi, sonra sovet təyyarəsi ilə Moskvaya aparıldı. Sovet rəhbərliyi ilə gizli danışıqlardan sonra, Y.Kadar lazımi vaxtda I.Nad əleyhinə çıxmaq və öz başçılığı ilə yeni Macarıstan hökumətinin yaradılmsını elan etmək barədə razılığa gəldi.

Noyabrın 3-də I. Nad hökumətinin səlahiyyətli nümayəndə heyəti müdafiə naziri general Pal Maleterin rəhbərliyi ilə Moskvaya gəldi. Onlar SSRİ rəhbərləri ilə, sovet qoşunlarının Macarıstandan çıxarılması ilə bağlı ilə danışıqlara başlamaq niyyətində idilər. Lakin, nümayəndə heyəti DTK tərəfindən həbs olundu.

Ertəsi gün marşal I.S. Konevin komandanlığı altında sovet qoşunları "əks-inqilab üsyanını" yatırmaq məqsədilə Budapeştə hücum etdi. Həmin gün Solnokda Y.Kadarın başçılıq etdiyi Macarıstanın İnqilabı fəhlə və kəndli hökumətinin

yaradılması elan edildi. Yeni hökumət "irtica" ilə mübarizə etmək üçün, SSRİ-dən kömək istədi. Noyabrın 7-də, Y.Kadar hökuməti Budapeştə gəldi və Sovet qoşunlarının dəstəyi ilə paytaxtda tam nəzarət yaradıldı.

İ.Nad Yuqoslaviyanın Budapeştdə olan səfirliyinə sığındı. Noyabrın 22-də Y.Kadardan şəxsi təhlükəsizliyinə zəmanət aldıqdan sonra səfirliyin binasını tərk etdi, lakin dərhal həbs olundu və nəzarət altında Rumıniyaya sürgün edildi. 1958-ci ildə qapalı məhkəmə iclaslarında mühakimə edildi və güllələndi.

Macarıstanda üsyan haqqında ictimai müzakirələrin təşkili 30 ildən çox qadağan edildi. 1980-cı illərdə siyasi vəziyyətin bir qədər mülayimləşməsindən sonra bu, gərgin araşdırma və müzakirə mövzusu oldu. 1989 -cu ildə Üçüncü Macarıstan Respublikası qurulandan sonra 23 oktyabr milli bayram elan edildi.

### 2.5. Şərqi Avropada Sovet siyasətinin modernləşdirilməsi

Polşa və Macarıstandakı hadisələr, N.S.Xruşşovu Şərqi Avropa müttəfiqləri ilə münasibətlərdə olan siyasəti yenidən nəzərdən keçirməyə məcbur etdi, onlarla daha bərabər tərəfdaşlığın zəruriliyinin lazım olduğunu qəbul etdi. Stalin diplomatiyasına xas olan diktə və təklifsiz müdaxiləni istisna etmək lazım idi, bu təzahürləri stalinizmin mənfi xüsusiyyətlərinə aid edildi. Sovet İttifaqı, sosialist ölkələrində olan SSRİ mövqelərinin aşınmasını aradan qaldıraraq, ən uyğun bir tarazlığı tapmalı, yerli kommunist partiyalarının rəhbərliyinə öz ölkələrinin əhalisinin gözü qarşısında mövqelərini və nüfuzlarını qorumağa imkan verməli idi. "Sosialist düşərgəsinin" bir çox üzvlərinin özləri üçün faydalı hesab etmədiyi iqtisadi əməkdaşlıq şərtlərinə də yenidən baxmaq tələb olunurdu. 1950-ci illərin ortalarında Sovet İttifaqı, sosialist ölkələrinin borclarının qismən və tam ləğv edilməsi və ya kreditlərin ödənilməsinin təxirə salınması haqqında müqavilələr bağlamağa razılıq verdi.

1957-ci ildə Polşa, Rumıniya, Şərqi Almaniya və Macarıstan ərazilərində sovet qoşunlarının hüquqi statusu haqqında müqavilələr bağlandı. 1958-ci ildə, sovet qoşunları Rumıniyadan tamamilə çıxarıldı. Digər ölkələrdə yerli hökumətlərin razılığı ilə qaldılar. Polşa rəhbərliyi, məsələn V.Qomulka, sovet qoşunlarının icarəyə götürdüyü obyektlərə görə aldığı valyutanı itirmək istəmədiyindən, sovet silahlı qüvvələrinin Polşadan çıxarılmasına etiraz etmişdi. Ümumiyyətlə, 1950-ci illərin sonlarında Şərqi Avropada olan sovet silahlı qüvvələri azaldılmağa başlandı.

## 3. Süveyş böhranı və onun beynəlxalq nəticələri

### 3.1. Misirdə monarxiyanın süqutu

1952-ci ilin iyulunda, Misirdə baş verən çevrilişdən sonra, kral hakimiyyəti rəsmən saxlansa da, idarəçilik tamamilə "Azad zabitlər" hərəkatı liderlərinin əlində cəmləşmişdi.

Yeni idarəçilik Londonla danışıqları bərpa etdi. 13 fevral 1953-cü ildə, Qahirədə Sudana aid İngiltərə-Misir sazişi imzalanmışdı. Müqaviləyə görə, bu ölkənin taleyi referendum yolu ilə həll edilməli idi, belə ki, İngiltərə Sudanın milli öz müqəddəratını təyin etmə ideyasına üstünlük vermişdi. Ölkədə, Britaniyanın hərbi mövcudluğu ilə bağlı danışıqlar daha çətin gedirdi. Yalnız, 19 oktyabr 1954-cü ildə, Süveyş kanalı sahəsi haqqında İngiltərə-Misir müqaviləsi bağlandı. Müqaviləyə görə, ingilis qoşunlarının sazişin imzalandığı gündən 20 ay ərzində təxliyə edilməsi nəzərdə tutulurdu. Bu, Misir diplomatiyasının uğuru idi. 13 iyun 1956-cı ildə, son ingilis əsgərinin Misirdən çıxması ilə, 74 illik Britaniya işğalı sona çatmış oldu.

Etiqadlı millətçilər olan "Azad zabitlər" və onların lideri Camal Əbdül Nasir öz qarşılarına Misir dövlətçiliyini möhkəmləndirmək və "Ərəb birliyinə" nail olmaq vəzifəsi qoymuşdular. Ölkədə sərt hərbi diktatura quruldu. 1953-cü ildə, ölkədəki monarxiya ləğv edildi, Misir respublika elan edildi. Respublikanın ilk Prezidenti general Məhəmməd Naqib oldu. Parlament buraxıldı və siyasi partiyalar qadağan edildi. Sol və sağ radikal qruplara qarşı cəza tədbirləri başladı. "Müsəlman qardaşların" hakimiyyətə qarşı çıxmaq cəhdi amansızcasına yatırıldı, təşkilat dağıdıldı, liderləri edam edildi və ya Səudiyyə Ərəbistanına qaçdılar. Bu daxili mübarizədə, C.Ə.Nasirin rəhbərlik etdiyi "Azad zabitlər"in radikal millətçi qanadının mövqeləri gücləndi. M.Naqibin rəhbərlik etdiyi mötədil millətçilər məğlub olsalar da, o, Prezident vəzifəsində qaldı. 1954-cü ilin aprel ayından etibarən, hakimiyyət tamamilə C.Ə.Nasirin əlinə keçdi, lakin rəsmi olaraq yalnız 1956-cı ilin iyunundan Prezident oldu.

Şəxsi hakimiyyətini möhkəmləndirən C.Ə.Nasir, qətiyyətlə ölkənin sosial-iqtisadi inkişaf problemlərini həll etməyə başladı. O, başa düşürdü ki, bu addımı atmadan, Misirin güclü və müstəqil bir dövlətə çevrilməsinə ümid etmək olmaz. C.Ə.Nasirin proqramında iki əsas məqam var idi: radikal aqrar islahat aparmaq və güclü su elektrik stansiyası olan nəhəng Asuan bəndini yaratmaq. Asuan bəndi, Misirin kənd təsərrüfatını lazımi su ehtiyatları ilə, sənayeni isə elektrik enerjisi ilə təmin etməli idi.

C.Ə.Nasir, ABŞ və İngiltərəyə bəndin yaradılması üçün, kreditlərin verilməsi və texniki yardım xahişi ilə müraciət etdi. ABŞ və İngiltərə, ümumən razılaşsalar da, bəzi siyasi şərtlər irəli sürdülər. Bunlardan ən başlıcası, Misirin o dövrdə ABŞ və İngiltərənin bölgədəki yaratdığı hərbi-siyasi bloklar sistemində iştirak etməsi və İsrail ilə sülh şəraitində olması idi. Lakin, onların heç biri, C.Ə.Nasirin planlarına daxil deyildi, çünki bu şərtlər ərəb millətçiliyinin əsaslarına tamamilə zidd idi.

### 3.2.Yaxın Şərqdə Süveyş böhranının yaranması

Misirdə monarxiya devrildikdən sonra, ölkənin yeni hərbi rəhbərləri Misir ordusunu modernləşdirmək üçün yol axtarmağa başladılar. Qərb ölkələrinin, Misirə silah satmaqdan imtina etmələri, ölkə rəhbərliyini Çexoslovakiyanın vasitəçiliyi ilə SSRİ-dən silah almağa məcbur etdi. Buna cavab olaraq, ABŞ 19 iyul 1956-cı ildə, hələ 1956-cı ilin fevralında imzalanmış müqaviləyə görə, Misirin Asuan bəndinin birinci mərhələsinin inşası üçün, ayrılmış krediti verməkdən imtina etdiyini bildirdi.

26 iyul 1956-ci ildə. C.Ə.Nasir Fransa-Britaniya aid "Süveyş kanalı şirkəti"nin milliləşdirilməsi haqqında fərman verdi. Bu sənəddə göstərilirdi ki, səhmdarlar təzminat alacaq və Misir hökuməti kanaldan sərbəst keçmə haqqında 1888-ci il konvensiyasının şərtlərinin təmin edilməsi üçün, məsuliyyəti öz üzərinə götürəcək. Milliləşdirmə haqqında qərar qanuni idi, çünki, şirkət xaricilərin mülkiyyəti olsa da, Misir müəssisəsi kimi qeydiyyata alınmışdı (səhmlərinin 41% İngiltərə hökumətinə, 52% Fransızlara aid idi).

London və Parisin, C.Ə.Nasirin addımına cavabı son dərəcə sərt oldu. Onlar, Misirə silahlı müdaxilə üçün diplomatik və hərbi- siyasi hazırlıqlar görməyə başladılar.

1956-cı il sentyabrın 23-də İngiltərə və Fransanın BMT- də olan nümayəndələri Təhlükəsizlik Şurasının sədrinə Şuranın gündəliyinə "Süveyş kanalının beynəlxalq idarəetmə sisteminə son qoyan" Misirin fəaliyyəti barədə məsələnin salınması müraciətini təqdim etdilər. Növbəti gün isə, Misir hökuməti Təhlükəsizlik Şurasında BMT nizamnaməsini pozan, sülh və beynəlxalq təhlükə üçün qorxu yaradan İngiltərə və Fransanın fəaliyyəti barədə məsələyə baxılması təklifini irəli sürdü.

BMT Təhlükəsizlik Şurası, Süveyş məsələsini 1956-cı il sentyabrın 26-dan oktyabrın 13-dək müzakirə etdi. Oktyabrın 1-də, Londonda 18 dövlətin - Dalles planı tərəfdarlarının müşavirəsi keçirildi. Bu müşavirədə "Süveyş kanalından istifadə edənlərin assosiasiyası"nın əsasnaməsi elan olundu. Kanalı həmin assosasiya idarə etməli idi. Təhlükəsizlik Şurasmın birinci iclasında çıxış edən İngiltərənin Xarici İşlər naziri birgə ingilis-fransız qətnamə layihəsinə əlavələr etdi.

Bu qətnamədə, Süveyş kanalı şirkətinin milliləşdirilməsinin ittiham edilməsi və Süveyş kanalından istifadə edənlərin əvvəlki hüquqlarının bərpası təklif olunurdu. Dalles İngiltərə və Fransa nümayəndələrinin tələbini dəstəklədi.

Süveyş böhranının lap əvvəlindən İngiltərə və Fransa hökumətləri Misirə qarşı hərbi qüvvə tətbiq etməyi planlaşdırmışdılar.

C.Ə.Nasirin siyasətini həyəcanla izləyən İsrailin hakim dairələri bu vəziyyətdən faydalanmaq qərarına gəldilər. Onlar bildirdilər ki, ərəb millətçiliyi proqramının əsas müddəalarından biri İsrailin ləğvi məsələsidir. Bunu əsas götürən İsrail hökuməti, İngiltərə-Fransaya bu müdaxilədə iştirak etmək istədiyini bildirdi. İsrailin təşəbbüsü qəbul edildi. 24 oktyabr 1956-cı ildə, İngiltərə, Fransa və İsrail arasında, Misirə qarşı əməkdaşlıq haqqında müqavilə gizli üçtərəfli protokolla rəsmiləşdirildi.

1956-cı il oktyabrın 29-dan 30-na keçən gecə, İsrailin 100 minlik ordusu Misirə hücum etdi. Bir neçə saat sonra, Londonda İsrail və Misirin diplomatik nümayəndələri Xarici İşlər Nazirliyinə çağırıldılar. Burada onlara ingilis-fransız ultimatumu verildi. Ultimatumda, Misir və İsrailin hücumlarını dayandırması və qoşunlarını kanaldan on mil geri çəkilməsi tələb edilirdi. London və Paris, öz tələblərini beynəlxalq daşımaların təhlükəsizliyinin təmin edilməsi ilə, əlaqədar olduğunu əsaslandırırdılar. İsrail ultimatumu qəbul etsə də, hücumu davam etdirərək, iki gün ərzində bütün Sinay yarımadasını və Qəzza zolağını ələ keçirdi. Misir, ingilis-fransız ultimatumunu qəti şəkildə rədd etdi. 31 oktyabrda Böyük Britaniya və Fransa, Süveyş kanalını ələ keçirmək məqsədi ilə, Misirə qarşı müharibəyə başladılar. Lakin Misir ordusunun və ağır küçə döyüşlərinin getdiyi şəhərlərin əhalisinin sərt müqaviməti ilə qarşılaşdılar.

Oktyabrın 30-da, kanal zonasındakı vəziyyət BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarıldı, lakin İngiltərə və Fransa veto hüququndan istifadə edərək, hərəkətlərini pisləyən qətnamə layihələrinin qəbul edilməsinə mane oldular. Noyabrın 1-də, Baş Məclisin fövqəladə iclası açıldı, səs çoxluğu ilə kanal bölgəsində atəşkəs əldə etmək, təcavüzkar qüvvələri geri çəkmək, təcili BMT-nin silahlı qüvvələrini yaratmaq və Misirə aparmaq qərarı verildi. Buna baxmayaraq, İngiltərə-Fransa qoşunları müharibəni davam etdirdilər.

### 3.3. SSRİ və ABŞ-ın Süveyş kanalı ətrfında baş verən hadisələrə mövqeləri

5 noyabr 1956-cı ildə, Sovet İttifaqı, Böyük Britaniya, Fransa və İsrailə ultimatum məzmununda nota göndərdi. Sovet hökuməti, Misirə qarşı düşmənçilik əməliyyatlarının dayandırılmadığı təqdirdə, "təcavüzkarları məhv etmək üçün güc tətbiq edəcəyi" qərarını elan etdi. Eyni zamanda, Sovet səfirinin İsraildən geri

çağırılması elan edildi. Moskva, Vaşinqtonu da təcavüzə son qoymaq üçün birgə addımlar atmağa dəvət etdi.

Amerika rəhbərliyi də, Paris və Londonun hərəkətlərini qınadı.

Birincisi, Misirə qarşı üçlü təcavüz Fransa və Britaniya tərəfindən, Vaşinqtonun və digər NATO müttəfiqlərinin xəbəri olmadan, hazırlanaraq həyata keçirilmişdir. Belə çıxırdı ki, alyansda iştirak edən, iki ölkənin öz istəyi ilə müharibə apardıqları halda, digər müttəfiq dövlətlər isə Fransa-İngiltərənin Misirə hücum planları haqqında xəbərləri olmadan, nəzəri cəhətdən onlara kömək etməli idilər. Vaşinqton hesab edirdi ki, Fransa və İngiltərə müttəfiqlik vəzifələrini birinci pozduqlarına görə, özlərini onlara kömək etməyə borclu saymırlar.

İkincisi, Amerika rəhbərliyi, Qərbi Avropa müttəfiqlərinin silahlı manevrlərinə ümumiyyətlə şübhə ilə yanaşırdı, onları köhnə müstəmləkə təkəbbürünün qalıqları hesab edirdi. Vaşinqton, ərəb ölkələri arasında, dost tərəfdaşlar axtarmağa çalışırdı və onların hamısı İsrailin iştirakı ilə Misirə qarşı həyata keçirilən hücumu pisləyirdi. Ona görə, Fransa və İngiltərə ilə həmrəy olmaq, ABŞ-ın ərəb ölkələrinin düşmənləri arasında olması kimi qəbul oluna bilərdi. Vaşinqton isə, belə bir vəziyyətə düşmək istəmirdi.

Üçüncüsü, ABŞ Misirə qarşı təcavüzün Sovet İttifaqının bölgənin işlərinə müdaxilə etməsinə səbəb olacağından ehtiyat edirdi. Belə ki, o vaxt Moskvada, hətta Misirə kömək üçün sovet könüllülərinin göndərilməsi haqqında danışıqlar gedirdi və belə bir ssenarinin həyata keçirilməsi ehtimal olunurdu.

Birləşmiş Ştatlar, Moskvanın Yaxın Şərqdə razılaşdırılmış tədbirlər görmək təklifinə qəti etiraz etdi və sovet nümayəndələrini, bölgəyə sovet könüllüləri göndərmək ideyasına, özünun mənfi münasibəti barədə xəbərdar etdi. Lakin, eyni zamanda, ABŞ rəhbərliyi diplomatik kanallar vasitəsi ilə Fransa və Böyük Britaniyaya, onların hərəkətlərini qınadığını bildirdi və münaqişənin həllinə bir yol tapılmadığı təqdirdə, Amerika iri şirkətləri tərəfindən təmin olunan neft tədarükünü kəsməklə hədələdi.

ABŞ böhran dövründə, Sovet İttifaqı ilə birgə hərəkətlərdən imtina etsə də, əslində hər iki dövlət eyni siyasət aparırdılar.

6 oktyabr 1956-cı ildə, xaricdən gələn təzyiqlərlə qarşılaşan İngiltərə hökuməti, BMT TŞ-nın qərarını icra etmək üçün, razılığını bildirdi. Fransa da, İngiltərədən nümunə götürdü. Noyabrın 7-də, Misirdə hərbi əməliyyatlar dayandırıldı. Üçlü təcavüz uğursuzluqla başa çatdı. Dekabr ayında, Fransa-İngiltərə qoşunları Misirdən çıxarıldı. 1957-ci ilin martında, İsrail ordusu Sinay yarımadasından və Qəzza zolağından geri çəkildi. Razılaşdırılmış atəşkəs xətti boyunca, BMT qoşunları yerləşdirildi.

Yaxın Şərqdə olan Avropa müttəfiqlərinin mövqelərinin dağılacağını başa düşən və orada Sovet İttifaqının nüfuzunun artacağından narahat olan Amerika rəhbərliyi, ərəb dünyasında mövqelərini möhkəmləndirmək üçün tədbirlər görməyə qərar verdilər. 1957-ci ilin yanvarında, Amerika rəhbərliyi, ərəb ölkələri ilə əlaqələri gücləndirmək üçün, xüsusi bir proqram hazırladı. Proqram "Eyzenhauer doktrinası" adını aldı.

**Qeyd: Eyzenhauer doktrinası-- iqtisadi çətinliklərin təzyiqi altında sol inqilabi yolu ilə gedərək və Sovet İttifaqından kömək almağa məcbur olan, ərəb ölkələrinin seçilmiş dairəsinə dəstək vermək üçün Amerika proqramıdır.**

Bu doktrinaya əsasən, ABŞ, beynəlxalq kommunizmin təcavüz obyektinə çevrilən region ölkələrinə iqtisadi və hərbi yardım göstərmək öhdəliyi götürürdü. 1957-ci ilin martında, Amerika Konqresi, bu proqramın icrasına, o zaman üçün xeyli miqdarda olan, 200 milyon dollar ayırdı. Bu vəsaitin, bölgədə sosialist ideyalarının yayılmasının qarşısını almaq üçün istifadə edilməsi nəzərdə tutulurdu. Eyzenhauer doktrinası, əksər ərəb ölkələri tərəfindən mənfi qəbul edildi. Xüsusilə, Misir və Suriya ona qarşı kəskin etiraz etdi.

## 4. Milli- azadlıq hərəkatının güclənməsi. Müstəmləkə sisteminin süqutu

### 4.1.Beynəlxalq sistemin periferiyasında milli azadlıq hərəkatının fəallaşması

1950-ci illərin ortalarında, SSRİ və ABŞ millətçi dövlətlərlə münasibət yaratmaq uğrunda yarışmağa başladılar. Sovet İttifaqı, Üçüncü dünya ilə əməkdaşlığı özünün əsas vəzifəsi elan etdi. Birləşmiş Ştatlar da, inkişaf etməkdə olan ölkələrdə müttəfiq əldə etmək vəzifəsini ən vacib məsələ hesab edirdi. Bu mənada, dövlətlərin hər biri güclü və zəif tərəflərə malik idi. Asiyada, regional proseslərə münasibət, ABŞ-dan fərqli idi. Əksər Asiya ölkələrinin yuxarı təbəqələri anti-kommunist olsalar da, beynəlxalq hadisələrdə ilk növbədə milli azadlığın, "xüsusilə Asiya" məzmununa diqqət yetirirdilər. SSRİ gənc dövlətlərin anti-imperialist istəklərini dəstəklədiyindən, onlara daha çox təsir etmək üstünlüyünə malik idi. ABŞ isə köhnə müstəmləkə dövlətləri (Fransa və İngiltərə) ilə ittifaqda olduğundan belə imkana sahib deyildi. Milli dövlət quruculuğunun ilk mərhələlərində, SSRİ ilə əməkdaşlıq etmək, milli təhlükəsizliyin təmin edilməsinə və beynəlxalq səviyyədə tanınmasına üstünlük verdiyi üçün, gənc dövlətlər üçün perspektivli ola bilərdi. Bu mənada, Moskvanın imkanları böyük idi - BMT Təhlükəsizlik Şurasında veto hüququndan tutmuş, onların silah təchizatına qədər olan məsələlərdə dəstək verə bilərdi.

ABŞ-ın da SSRİ kimi, gənc dövlətlərə siyasi və hərbi dəstək vermək imkanları az deyildi. O, xeyli böyük iqtisadi imkanlara sahib idi. Ancaq inqilabi millətçiliklə razılığa gəlməyin vacibliyini düzgün qiymətləndirmədiyindən, ABŞ özünü milli

azadlıq hərəkatına qarşı qoyurdu. Qoşulmama və Afro-Asiya həmrəylik hərəkatlarında ÇXR-in nüfuzu gücləndikcə, ABŞ-ın "üçüncü dünyada" təcrid olunması artırdı. Asiya ənənəsində, kommunist hərəkatları sosial deyil, milli azadlıq istəklərinin təcəssüm forması kimi qəbul olunurdu. Bu da, onlara güc verirdi. Amerika hökuməti, gənc dövlətlərdə kommunistlərlə millətçiləri qarşı- qarşıya qoymağa çalışırdı. Bir sıra vacib hallarda (Çin, Vyetnam), bu cəhdlər tamamilə uğursuz olurdu. Bununla belə, dünyada getdikcə daha çox gənc azad edilmiş ölkələr meydana gəlirdi və böyük dövlətlərə fikir vermədən, öz aralarında əməkdaşlıq qurmağa çalışırdılar.

### 4.2. Milli- azadlıq hərəkatının güclənməsi

Müharibədən sonra müstəmləkə problemi ən aktual məsələlərdən biri idi. Hətta, 1945-ci ildə İngiltərə, SSRİ və ABŞ hökumət başçılarının razılığı ilə San-Fransisko konfransının gündəliyinə müstəmləkə problemi barədə xüsusi məsələ salınmışdı. Konfransın təsis etdiyi BMT-nin nizamnaməsinə müstəmləkə xalqlarının "özünüidarə və müstəqillik" əldə etməsi ideyası daxil edilmişdi.

Demokratik qüvvələrin müharibədə qələbəsi və müstəmləkə probleminin ən vacib beynəlxalq məsələyə çevrilməsi müstəmləkə və asılı ölkələrdə milli-azadlıq hərəkatına yeni vüsət verdi. 1946-cı ilin aprelində fransız qoşunları Suriyadan, dekabrda isə Livandan çıxarıldılar. İordaniyada, Misirdə, İraqda, Fələstində ingilislərə qarşı milli-azadlıq hərəkatı başlandı. 1946-cı ilin mayında İngiltərə Transiordaniyaya (1950-ci ildən İordaniya) müstəqillik verdi. 1947-ci ilin noyabrında, BMT-nin Baş Məclisi Fələstinin ərəb və yəhudi hissələrinə bölünməsi və Qüdsün (Yerusəlim) beynəlmiləlləşdirilməsi barədə qərar qəbul etdi. 1948-ci ilin may ayında paytaxtı Tel-Əviv şəhəri olmaqla müstəqil İsrail dövləti yaradıldı. Fələstinlilərin müstəqil dövlət yaratmalarına imkan verilmədi. O vaxtdan etibarən Yaxın Şərq yəhudilərlə ərəblər arasında münaqişə meydanına çevrilmişdir. 1949-cu ildə İsrail və Ərəblər arasında sülh sazişi imzalansa da, problem hələ də qalmaqdadır. Ərəblərin vahid cəbhədə birləşə bilməməsi və iri dövlətlərin bölgədəki qarşıdurma siyasəti üzündən problemin həlli hələ də uzanmaqdadır.

Münaqişə ilə əlaqədar bir milyona kimi fələstinli öz doğma torpaqlarından qaçqın düşdülər. Əlavə olaraq, Fələstin qaçqınları problemi yaranmışdır.

Müharibədən sonra Misirdə ingilislərə qarşı azadlıq mübarizəsi başladı. 1952-ci ilin iyulunda Misirdə kral hakimiyyəti devrildi. 1953-cü ildə Misir respublika elan edildi. 1954-cü ilin oktyabrında ingilis qoşunlarının Misirdən çıxarılması barədə müqavilə imzalandı. Bununla da Misir İngiltərənin 74 illik müstəmləkə

asılılığından azad oldu. 1956-cı ilin yayında C.Ə.Nasir müstəqil Misirin Prezidenti oldu.

Cənub-Şərqi Asiyada və Okeaniyada da milli azadlıq hərəkatı yüksəldi. 1945-ci ildə İndoneziya müstəqillik qazandı. Həmin ildə Vyetnamda müstəqil demokratik respublika yarandı. 1947-ci ilin avqustunda İngiltərə Hindistana, Pakistana, 1948-ci ildə Seylona (indi Şri-Lanka) əvvəlcə dominion, sonra isə müstəqillik verməyə məcbur oldu. 1948-ci ilin yanvarında Birma müstəqilik əldə etdi. 1949-ci ildə Çində, 1950-ci ildə Koreyada xalq inqilabları baş verdi. Onlar asılı vəziyyətdən çıxdılar. 1957-ci ildə Malayziya, Laos, Kamboca müstəqillik əldə etdilər.

Beləliklə, müharibədən keçən 10 il müddətində 1,2 milyard əhali müstəmləkəçilikdən azad oldu. Dünya xəritəsində 15 suveren dövlət meydana gəldi ki, onlarda da keçmiş müstəmləkələrdə olan əhalinin 4/5-ü yaşayırdı.

Bu, müharibədən sonra müstəmləkə sisteminin süqutunun ilk mərhələsi idi.

### 4.3. Müstəmləkə sisteminin süqutu

50-ci illərin ortalarından etibarən müstəmləkə sisteminin dağılmasının yeni mərhələsi başlandı. Bu, müsmtəmləkə sisteminin klassik formasında olan, metropoliyalardan bilavasitə asılı və onlar tərəfindən idarə olunan ərazilərin azad olması mərhələsi idi. Onlar əsasən Afrika qitəsində yerləşirdilər. Deməli, qara Afrika ayılmağa başlamışdı.

Qeyd olunmalıdır ki, İkinci dünya müharibəsinin sonu üçün Afrika kontinentində olan Misir, Efiopiya, Liberiya və Böyük Britaniyanın dominonu Cənubi-Afrika İttifaqı rəsmi olaraq müstəqil hesab olunurdular. Lakin Afrikanın İngiltərə, Belçika, Portuqaliya, İspaniya, İtaliya arasında bölüşdürülmüş ərazisinin çox böyük hissəsində müstəmləkəçilik hökm sürürdü. 1950-ci illərin axırları-1960-cı ilərin əvəllərindən etibarən onlarda da müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizə başladı. 1957-ci ildə Afrikada ingilis müstəmləkəsi Qızıl Sahil (sonra Qana) öz müstəqilliyini elan etdi. 1958-ci ildə Qvineya Fransadan müstəqillik aldı.

BMT-nin keçmiş müstəmləkələrə müstəqillik vermək barədə, 1960-cı ildə qəbul etdiyi Bəyannamədən sonra Afrikada müstəmləkəçiliyə qarşı mübarizə genişləndi.

1960-cı il tarixə Afrika ili kimi daxil oldu. Həmin ildə kontinentin mərkəzi və qərb hissəsində 17 ölkə müstəqillik qazandı. Fransanın əlində olan Qərbi və Ekvatorial Afrikasında Fil Dişi sahili, Yuxarı Volta (indi Burkina-Faso), Niger, Seneqal, Qabon, Çad və b. müstəqillik əldə etdilər. Belçika Konqosu (Mərkəzi Kinşasa) müstəqillik qazandı. 1960-cı illərdə İngiltərənin Nigeriya, Syerra-

Leone, Uqanda, Keniya, Tanqanika, Zənzibar (Tanzaniya adı ilə), Zambiya, Belçika Konqosu (Zair) kimi müstəmləkələri müstəqillik əldə etdilər. Fransanın keçmiş müstəmləkəsi Fransa Konqosu (mərkəzi Brazzavil) müstəqillik aldı.

1962-ci ildə Əlcazair azadlıq əldə etdi. Afrikada milli-azadlıq hərəkatının, müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizənin genişlənməsi və möhkəmlənməsində 1963-cü ildə yaradılmış Afrika Birliyi Təşkilatının mühüm rolu olmuşdur.

Müstəqillik uğrunda mübarizə 70-ci illərdə də davam etìèødi. 1973-cü ildə müstəqil Konqo Xalq Respublikası yaradıldı, Efiopiya da tam müstəqillik əldə etdi. 1974-cü ildə Qvineya-Bisau, 1975-ci ildə Anqola, Mozambik, Yaşıl Burun adaları müstəqillik qazandılar.

Artıq, 1975-ci il üçün Afrika qitəsi müstəmləkəçilikdən azad olmuşdu. İkinci dünya müharibəsinədək Afrikada yalnız Misir, Efiopiya, Liberiya, və Cənubi Afrika İttifaqı rəsmən müstəqil dövlət idisə, müharibədən sonra Afrika ölkələrinin əksəriyyəti istiqlaliyyət əldə etmişdi.

Milli-azadlıq hərəkatı, İngiltərənin, Fransanın, Niderlandın Qərb yarımkürəsindəki kiçik müstəmləkələrini də bürüdü. İngiltərənin Yamayka, Trinidad, Barbados, Britaniya Qvineyası (Qayana adını almış), Niderlandın Surinam, Antil adalarının Niderlanda məxsus hissəsi, Fransanın Martinika, Qvadelupa, Fransa Qvianası istiqlaliyyət qazandılar. Nəhayət, 70-ci illərdə ən qədim müstəmləkə imperiyası olan Portuqaliya imperiyası dağıldı.

Müharibədən sonra Latın Amerikası ölkələrində də, ABŞ-ın rolu çox gücləndi. ABŞ müharibədən sonrakı 15 il ərzində Latın Amerikası iqtisadiyyatına 5 milyard dollar sərmayə qoymuşdu. ABŞ Venesuela neftinə, Braziliya kofesinə, Çili misinə qoyduğu sərmayə hesabına 20 milyard dollar gəlir əldə etmişdi.

Latın Amerikası dövlətləri, ABŞ asılılığından xilas olmaq uğrunda mübarizəyə qalxdılar. Həmin ölkələrdə tez-tez dövlət çevrilişləri, burjua-demokratik və xalq inqilabları baş verirdi. 1956-1959-cu illərdə Kubada kommunist çevrilişi, Argentina və Meksikada burjua çevrilişləri, 1962-ci ildə Peruda, Ekvadorda, Qvatemalada, Hondurasda, 1965-ci ildə Dominikan Respublikasında dövlət çevrilişləri olmuşdu. 1970-ci ilin sentyabrında seçkilər yolu ilə Çilidə Xalq Birliyinin namizədi Salvador Alyende hakimiyyətə gəldi. Lakin, 1973-cü ildə hərbi xuntanın başçısı general A.Pinoçet silah gücünə onun hakimiyyətini devirdi və hakimiyyəti öz əlinə aldı. Xuntanın hakimiyyəti 1997-ci ilədək davam etmişdi.

Latın Amerikası ölkələri xalqlarının müstəmləkəçiliyə, iqtisadi asılılığa qarşı suverenlik uğrunda "ikinci inqilab" adı ilə apardıqları inadlı mübarizəsi hədər getmədi, onların sonrakı inkişafına həlledici təsir göstərdi. 80-cı illərdə həmin ölkələrdə demokratik hakimiyyətlər bərpa olunmağa başladı. 1980-cı ildə Peruda, 1982-ci ildə Boliviyada, 1985-ci ildə Braziliyada, Qvatemalada, Hondurasda, Uruqvayda, 1998-ci ildə Çilidə demokratik hakimiyyətlər bərpa olundu. Kubadan başqa bütün Latın Amerikası ölkələrinin tarixində ilk dəfə burjua demokratik quruluşu bərqərar oldu.

Karib hövzəsində də 14 ölkə ingilis, fransız və holland müstəmləkəçiliyindən azad oldular.

Dünyada böyük müstəmləkə ölkələrindən biri də Rusiya idi. 1917-ci ildə monarxiya və burjuaziya devrildikdən sonra yaranmış sovet hakimiyyəti çarizmin müstəmləkəçilik ənənəsini davam etdirməyə başladı. O, keçmiş çarizm məkanında yaşayan qeyri- rus millət və xalqları qondarma "könüllülük" prinsipi əsasında SSRİ adı altında birləşdirdi. 80-ci illərin sonundan etibarən burada da milli-azadlıq hərəkatı başlandı. Nəhayət, 1991-ci ildə, SSRİ yaradılandan 69 il sonra daxili və xarici siyasi proseslərin təsiri nəticəsində Sovet İttifaqı süqut etdi. Vaxtilə rəsmən "könüllü" olaraq SSRİ-də birləşmiş müttəfiq respublikalar: Latviya, Litva, Estoniya, Ukrayna, Belorusiya, Moldaviya, Gürcüstan, Azərbaycan, Ermənistan, Qazaxıstan, Tacikistan, Özbəkistan, Qırğızıstan və Türkmənistan onun tərkibindən çıxaraq müstəqillik əldə etdilər. Onlar da müstəqil, suveren dövlət oldular.

Beləliklə, təqribən 400 il ərzində zaman-zaman formalaşan müstəmləkə sistemi İkinci dünya müharibəsindən sonra dağıldı. Dünyanın 2 milyard nəfər əhalisi müstəmləkə əsarətindən azad oldu. Dünyanın xəritəsində 130-a yaxın inkişaf etməkdə olan ölkə meydana gəldi. Əgər 1917-ci ilə kimi müstəmləkə və asılı ölkələr dünya ərazisinin ¾ və dünya əhalisinin 2/3-sini təmsil edirdilərsə, 80-cı illərin axırında dünya ərazisinin 0,15 və əhalisinin 0,3 faizi onların payına düşürdü.

### 5. "Üçüncü dünya" dövlətlərinin meydana gəlməsi

Müstəmləkə sisteminin dağılması İkinci dünya müharibəsindən sonra baş verən ən köklü dəyişikliklərdən idi. O, XX əsr tarixinin çox mühüm, mütərəqqi hadisəsi idi. Məhz bu dəyişiklik nəticəsində planetin yüz milyonlarla əhalisi öz inkişaf yolunu müəyyən etmək, milli özünüdərkə nail olmaq, dünya sivilizasiyasının nailiyyətlərindən bəhrələnmək imkanı qazandı.

Müstəmləkəçilikdən azad olmuş ölkələr, XX əsr tarixinə inkişaf etməkdə olan dövlətlər kimi daxil olmuşdular. Onlar inkişaf səviyyəsinə görə üç qrupa bölünürdülər:

Birinci, ən az inkişaf etmiş ölkələr. Bu qrupa Tropik Afrikanın Ekvator Qvineyası, Efiopiya, Çad, Toqo, Tanzaniya, Somali, Qərbi Saxar, Asiyanın Kampuçiya, Laos, Latın Amerikasının Taiti, Qvatemala, Qviana, Qonduras və b. ölkələri daxil idilər. Onların təsərrüfat quruluşunda əsas yeri aqrar bölmə tuturdu. O, təsərrüfatın 80-90 faizini təşkil edirdi. Onlar məhsulla və xammalla öz daxili tələbatlarını ödəyə bilmirdilər.

Bu ölkələr üçün xarakterik cəhətlərdən biri də bazar mexanizminin, istehsal, köməkçi infrastrukturun, nəqliyyatın, elektroenergetikanın, rabitənin, bank işinin çox zəif inkişaf etməsi və ya inkişaf etməməsi idi. Tropik Afrikasında olan 36 ölkədən 26-sı bu qəbildən idi.

Həmin ölkələrdə iqtisadi inkişafa demoqrafik şərait də mənfi təsir göstərirdi. İqtisadi inkişaf səviyyəsinin əhalinin artımına uyğun gəlməməsi sözügedən ölkələrdə ərzaq məhsullarının çatışmazlığına və aclığa səbəb olurdu. Tez-tez baş verən quraqlıq nəticəsində həmin ölkələrdə aclıqdan milyonlarla adam tələf olurdu. 80-cı illərdə baş vermiş quraqlıq nəticəsində 2 milyon afrikalı ölmüşdü.

Bu ölkələr dünya təsərrüfatında xammal və ucuz işçi qüvvəsi mənbəyi rolunu oynayırlar. Onlar iqtisadi cəhətdən tamamilə inkişaf etmiş ölkələrdən asılıdırlar.

İkinci, orta inkişaf səviyyəli ölkələr. İnkişaf etməkdə olan ölkələrin ən çoxu bu qrupa daxil idilər. Onların sırasına Misir, Suriya, Tunis, Əlcəzair, Filippin, İndoneziya, Peru, Kolumbiya və b. Ölkələr daxil idilər. Bu ölkələrdə iqtisadiyyatda aqrar bölmə ilə müqayisədə sənaye üstünlük təşkil edirdi. Daxili və xarici ticarət inkişaf etmişdi. Bu ölkələr böyük daxili èãòèñàäè imkanlara malikdirlər. Onlarda aclıq və dilənçilik yox dərəcəsindədir. Dünya təsərrüfatı sistemində onların yeri, inkişaf etmiş ölkələrə nisbətən çox geri qalmaları və böyük borcu olmaqla müəyyən olunurdu.

Sözügedən qruplara daxil olan ölkələr siyasi cəhətdən müstəqillik qazansalar da, iqtisadi cəhətdən hələ iri inkişaf etmiş dövlətlərdən asılı idilər. Buna tarixdə "yeni müstəmləkəçilik" ("neokolonializm") deyilirdi.

İnkişaf etməkdə olan dövlətlərin bir qrupunu da neftçıxaran ölkələr: Küveyt, Bəhreyn, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliyi və b. təşkil edirdi. Zəngin neft ehtiyyatı və onun geniş miqyasda çıxarılması qısa zaman kəsiyində onları geridə qalan ölkələrdən varlı dövlətlər səviyyəsinə qaldırmışdı. Lakin, həmin ölkələrdə iqtisadiyyat birtərəfli inkişaf etmişdi. Neftçıxarma sənayesinə nisbətən digər sahələr zəif inkişaf etmiş və ya inkişaf etməmişdi. Dünya

təsərrüfat sistemində həmin ölkələr iri neft ixracatı ilə fərqlənirlər. Məhz buna görə onlar həm də iri beynəlxalq bank mərkəzlərinə çevrilmişlər.

Üçüncü, yeni sənaye ölkələridir. Bu qrupa Cənubi Koreya, Sinqapur, Honkonq, Tayvan, Meksika, Argentina, Braziliya, Çili, Hindistan və b. ölkələr daxildir. Bu ölkələr üçün səciyyəvi cəhət sənayenin intensiv inkişafıdır. Həmin ölkələrdə təhsilin, elmin inkişafına da böyük diqqət verilir. Onların istehsal etdikləri sənaye məhsulları əsasən dünya standartları səviyyəsi tələblərinə cavab verir.

Onlar bu səviyyəni qərb sivilizasiyasının danılmaz nailiyyətlərindən, milli ənənələri və adətləri nəzərə alaraq istifadə etməklə qazanmışlar.

Sovet müstəmləkəçiliyindən azad olmuş ölkələrə gəldikdə, onlar dağılmaqda olan sosializm iqtisadiyyatından kapitalizmə, bazar iqtisadiyyatına keçid mərhələsində yaşamışdılar. Vaxtilə aqrar–sənaye inkişaf səviyyəsinə malik olan bu ölkələr çətinliklər şəraitində müstəqil iqtisadiyyat yaratmaq yolu ilə irəliləyirlər.

Müstəmləkəçilikdən azad olmuş inkişaf etməkdə olan ölkələr öz istiqamətlərinə görə iki yerə bölünürdülər. Birinci, ABŞ-ın və iri Avropa ölkələrinin nüfuz dairəsində olan ölkələr. Onlardan əksəriyyəti bazar iqtisadiyyatı, burjua-demokratik istiqamətində inkişaf edirlər. İkinci, SSRİ-nin təsiri ilə sosializm inkişaf istiqamətini götürən ölkələr. Onlar sosializm cəmiyyəti qurduqlarını elan etmişdilər. Vyetnam, Çin, Şimali Koreya, Monqolustan və Kuba bu qəbildən idilər.

Dünyanın bütün qitələrində öz ideyalarını yaymaq iddiasında olan SSRİ, gülünc olsa da, hələ sivilizasiyanın erkən mərhələsində olan bir sıra Afrika və Asiya ölkələrini kapitalizmdən yan keçərək "sosializm qurmaq" yolu ilə getməyə şirnikdirirdi. 20-yə qədər ölkə, o cümlədən Əlcəzair, Qvineya, Efiopiya, Benin, Konqo, Tanzaniya, Birma, Yəmən, Suriya, İraq, Mozambik, Anqola, Qana, Kampuçiya, Laos və áàøãàëàrı sosializm istiqaməti yolunu seçmişdilər. 80-cı illərin əvvəli üçün bu qrup ölkələrin ərazisi 17 milyon kv.km., əhalisi isə 280 milyona yaxın idi.

Qeyd edək ki, SSRİ çökdükdən sonra sözügedən ölkələr götürdükləri "sosializm" istiqaməti yolundan əl çəkdilər. Digər inkişaf etməkdə olan ölkələr kimi burjua-demokratik, kapitalizm inkişaf yolu ilə getməyə başladılar.

## 6. Beynəlxalq inkişafda "Üçüncü dünya" dövlətlərinin yeri

Müstəmləkə sistemi dağıldıqdan sonra dünya meydanına yeni dövlətlər qrupu - "Üçüncü dünya" dövlətləri çıxdı. Onlar bitərəflik siyasəti yürüdən, bloklara qoşulmamaq mövqeində duran dövlətlər idi. 1985-ci ildə bloklara qoşulmama hərəkatı sıralarında 1,5 milyard əhalini əhatə edən 112 ölkə birləşmişdi. 80-ci illərin sonunda onların sayı 127 olmuşdu. Yer kürəsi ərazisinin 58 faizi onlara məxsus idi. Hərəkatın iştirakçıları heç bir hərbi-siyasi bloka qoşulmur, sülh, beynəlxalq təhlükəsizlik uğrunda, müstəmləkəçiliyə və yeni müstəmləkəçiliyə qarşı mübarizə aparırdılar.

1955-ci il aprelin 18-25-də Bandunqda (İndoneziya) Asiya və Afrikanın 29 ölkəsi nümayəndələrinin konfransı hərəkatın formalaşmasında ilk addım olmuşdur. Konfrans Hindistanın, Birmanın, İndoneziyanın, Pakistan və Seylonun təşəbbüsü ilə çağrılmışdı. Konfrans, ölkələri iqtisadi və mədəni əməkdaşlığa, kütləvi qırğın silahlarını tətbiq etməməyə, nüvə silahlarının sınaqlarını və istehsalını dayandırmağa, mübahəsəli məsləları ancaq sülh yolu ilə həll etməyə çağırdı. O, müxtəlif ictimai-siyasi quruluşlu ölkələrin dinc yanaşı yaşaması və əməkdaşlığının 5 prinsipini (pança şila) irəli sürdü.

**Qeyd: Pança Şila, sözün hərfi mənasında buddizmdən götürülmüş "beş prinsip" deməkdir. Dini və siyasi həyatda müxtəlif formalarda istifadə olunur. Beş ehkam "Buddist həyat tərzinin" əsası olaraq müşahidə edilməli olan əsas davranış normalarını təşkil edir. "Buddist həyat tərzinin" beş ehkamı: 1.öldürmə, 2.oğurluq etmə, 3. yalan danışma, 4.mənəviyyatını qoru, 5.içki içmə.**

1949-cu ildə başlayan Çin və Hindistan arasında Tibet ərazisi üstündə qarşıdurmadan sonra, 1954-cü ildə Tibet haqqında Çin-Hindistan sazişinin imzalanması ilə münasibətlər normallaşdı. Hindistan Tibeti Çinin bir hissəsi kimi tanıdı. Bu müqavilədə "pança şila" (dinc yanaşı yaşamaq) adlı beş prinsip elan edilmişdi:

1. Ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət.
2. Təcavüz etməmək.
3. Daxili işlərə qarışmamaq.
4. Bərabərlik və qarşılıqlı fayda.
5. Dinc yanaşı yaşamaq.

Məhz bu prinsiplər, 1955-ci il Bandunq konfransı və bütövlükdə Qarışmamaq hərəkatının yekun sənədinin əsasını təşkil etmişdir.

Konfrans Asiya və Afrika xalqlarının müstəmləkəçiliy tamamilə və həmişəlik son qoymaq qətiyyətini ifadə etdi, hərbi blokları pislədi, nüvə silahının qadağan olunmasını tələb etdi.

Konfrans zamanı beynəlxalq milli azadlıq hərəkatının özündə iki fərqli cərəyan meydana gəldi: radikal- inqilabi və mülayim-islahatçı. Birincisi, C.Ə.Nasirin rəhbərliyi ilə Çin və Misir tərəfindən təmsil olunurdu. İkincisi, Baş Nazir C.Nehrunun rəhbərlik etdiyi Hindistan idi. Bu cərəyanlar inkişaf etməkdə olan dünyada on illərlə mövcud olmuşdur.

1961-ci ilin aprelində 17 ölkə nümayəndələrinin Qahirədə keçirilən konfransında bloklara Qoşulmama hərəkatı rəsmiləşdirildi və hərəkatın vaxtaşırı yığıncaqlarını keçirmək qərara alındı.

Hərəkatda iştirak edən ölkələrin dövlət və hökumət başçılarının ilk konfransı 1961-ci ilsentyabrın 1-6-da Belqradda (Yuqoslaviya) keçirildi. Konfransda 25 dövlətinbaşçıları iştirak edirdi. 1961-ci ildə Belqradda keçirilən ölkələrinin ilk konfransında Qoşulmama hərəkatı, rəsmi olaraq müstəqil hərəkat olaraq meydana gəldi. Konfrans, bloklara qoşulmama hərəkatının prinsiplərini müəyyən edən Bəyannamə qəbul etdi. Hərəkatın üzvü olan dövlətin dinc dövrdə hərbi bloklarda iştirak etməməsini, öz ərazilərində xarici dövlətlərin hərbi bazalarının yerləşdirilməsinə yol verilməməsini vacib saydı. Bu ″müsbət bitərəflik″ siyasəti kimi qiymətləndirildi.

Konfrans habelə üç ildən bir bloklara qoşulmayan ölkələrin dövlət və hökumət başçılarının konfransını çağırmağı qərarlaşdırdı. Həmin qərara əsasən 1964-cü ilin oktyabrında Qahirədə, 1970-ci ilin sentyabrında Lusakada (Zambiya), 1973-cü ilin sentyabrında Əlcəzairdə, 1976-ci ildə Kolomboda, 1979-cu ildə Havanada, 1983-cü ildə Dehlidə, 1986-cı ildə Hararedə onların konfransları olmuşdur. Harare konfransında yekdilliklə bəyan edilmişdir ki, hərəkata daxil olan ölkələr möhkəm və ədalətli sülh uğrunda, sürətlə silahlanmanın qarşısının alınması uğrunda çıxış edəcəklər. Onun qəbul etdiyi Bəyannaməni 99 dövlətin nümayəndəsi imzalamışdı.

“Qoşulmama Hərəkatı” istilahı ilk dəfə olaraq 1976-cı ildə Hərəkatın 5-ci konfransında qüvvəyə minmişdir. Qoşulmama Hərəkatı (QH) heç bir bloka daxil olmadıqlarını və tərəfsizliklərini bəyan edən 120 üzv ölkə, 17 müşahidəçi ölkə və 10 müşahidəçi təşkilatı birləşdirən forum kimi BMT-dən sonra dünya dövlətlərinin ən böyük toplantısı hesab olunur.

2019-cu il oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirilib. “Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək” mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Ümumilikdə Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın

nümayəndələri qatılıblar. Bu zirvə görüşündə Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təhvil verilmişdir. 2019-cu ildə 100 illiyini qeyd edən QH-nın 2019-2022-ci illərdə sədrliyi Azərbaycan tərəfindən icra edilmiş və hətta bu sədrlik sona çatdıqda, bir il də uzadılmışdır. Azərbaycan öz tərəfindən bəyan edib ki, təşkilata sədrlik etdiyi dövrdə "Bandunq prinsiplərini" əsas götürəcək və beynəlxalq tədbirlərdə təşkilatı təmsil edəcəkdir.

"Üçüncü dünya" ölkələri, BMT, ASEAN (Cənub-Şərqi Asiya Millətləri Assosiasiyası). Afrika Birliyi Təşkilatı (AAU) (1963), Amerika Dövlətləri Təşkilatı (1948), Cənubi Sakit Okean Forumu, İslam Konfransı Təşkilatı və s. beynəlxalq birlik və təşkilatların işində fəal iştirak edirdilər. Elə bir beynəlxalq problem yoxdur ki, üçüncü dünya dövlətlərinin iştirakı olmadan həll olunsun. "Üçüncü dünya" ölkələrinin səyi nəticəsində BMT-nin üç sessiyası (1978, 1982, 1988) tərksilah məsələsinə həsr olunmuşdu. 1996-cı ildə BMT-nin Baş katibi vəzifəsinə ilk dəfə afrikalı Kofi Annan (Qana) seçilmişdi.

1964-cü ildə Asiya, Afrika və Latın Amerikasının 77 ölkəsinin nümayəndələrinin iştirakı ilə yaradılmış "77"-lər qrupu Üçüncü dünya ölkələri arasında iqtisadi, ticarət, maliyyə və texniki əməkdaşlığın genişləndirilməsində mühüm rol oynamışdır. O, 1978-ci ildə Filippinin Manila şəhərində keçirilən iclasda Bəyannamə və Fəaliyyət Proqramı qəbul etmişdi.

"Üçüncü dünya" ölkələri Şimal-Cənub dialoqunda də fəal iştirak edirdilər. Bu qəbildən olan 44 dövlətin nümayəndələrinin 1983-cü ildə Yeni Dehlidə keçirilən konfransda Şimal-Cənub dialoqunda aktuallığı vurğulanmışdır.

1984-cü ildə yaradılmış "Dehli altılığı" (Argentina, Hindistan, Yunanıstan, Meksika, Tanzaniya və İsveç) də sülhün qorunmasında mühüm rol oynamışdı. Bu məqsədlə "altılıq" xüsusi Bəyannamə dərc etmişdi.

Bütün bunlara baxmayaraq, 1988-ci ilin mayında Qoşulmama Hərəkatının iki qurucu ölkəsi və Üçüncü dünya dövlətlər qrupunun fəal üzvləri olan Hindistan və Pakistanda keçirilən nüvə silahı sınaqları beynəlxalq inkişafda çox mühüm rol oynayan Qoşulmama Hərəkatına ciddi ziyan vurdu.

Beləliklə, "üçüncü dünya" dövlətləri iki sistemin şiddətli qarşıdurması şəraitində sülhün və təhlükəsizliyin qorunub saxlanması və təmin edilməsində mühüm rol oynamış, vahid dünya birliyinin bərpasında mühüm xidmətlər göstərmişdilər.

Artıq indi "üçüncü dünya" məfhumu və gerçəkliyi yoxdur. Dünyada müxtəlif ictimai sistemlərə görə qütbləşmənin aradan götürülməsi nəticəsində bu dövlətlərin adı daha çox qoşulmama hərəkatında çəkilir. İndi vahid dünya birliyi və ona daxil olan bərabər hüquqlu dövlətlər vardır.

## ÜÇÜNCÜ FƏSİL

## BEYNƏLXALQ GƏRGİNLİYİN AZALDILMASI SİYASƏTİNİN TƏŞƏKKÜLÜ(1962-1968-ci illər)

### I BÖLMƏ
### İkiqütblü sistemdə "Yumşalma"siyasətinin təşəkkülü

**1.Soyuq müharibədə "Yumşalma"siyasəti**

1.1. SSRİ və ABŞ-ın xarici siyasət istqamətlərinin modernləşdirilməsi

1.2."Qarşılıqlı məhvetmə təminatı" doktrinası

**2.Nüvə silahının məhdudlaşdırılması və yayılmaması haqqında müqavilənin hazırlanması**

2.1.Nüvə silahlarının sınaqlarının məhdudlaşdırılması haqqında müqavilənin bağlanması (avqust 1963)

2.2.Kosmik məkanın öyrənilməsi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri

2.3.Nüvə silahının yayılmaması haqqında Müqavilənin bağlanması (iyul 1968)

**3.Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri**

3.1.Fransa-Qərbi Almaniya "oxu"nu formalaşdırmaq cəhdi və onun uğursuzluğu (fevral 1963)

3.2.Qərbi Avropa inteqrasiyasının dərinləşməsi prosesində ziddiyyətlər və "Lüksemburq razılaşması"

4. **1960-cı illərdə SSRİ-nin ABŞ ilə diplomatik münasibətləri**

4.1.Qlasboroda Sovet-Amerika görüşü (iyun 1967)

4.2.VMT və NATO ölkələrinin Avropada olan siyasi vəziyyətə münasibətləri

4.3.Sovet-Amerika rəhbərlərinin Leninqrad görüşünün baş tutmamasının səbəbləri

**5.1960-cı illərdə Fransa beynəlxalq münasibətlərdə**

5.1.Fransanın NATO hərbi təşkilatından çıxması

5.2.SSRİ - Fransa yaxınlaşması

**6. Latın Amerikasında "avtoritar dalğa" və "Tlatelolko müqaviləsi"nin bağlanması**

**7."1968-ci ilin dünya inqilabı" və beynəlxalq münasibətlər**

7.1.Solçu etiraz əhval-ruhiyyəsinin ümumdünya dalğasının beynəlxalq münasibətlərə təsiri

7.2.Macarıstan və Çexoslovakiyada ölkə daxili islahat cəhdləri

7.3."Sosialist beynəlmiləlçiliyi" doktrinası

**“Cənab Xruşşov və mən, öz hökumətlərimizdə hər birimiz təxminən eyni siyasi mövqelərdə yer tuturuq. O, nüvə müharibəsinin qarşısını almaq istəyərdi, amma bu istiqamətdə etdiyi hər fəaliyyəti barışdırıcılıq kimi şərh edən sərt siyasət tərəfdarlarının güclü təzyiqi altındadır. Mənim də oxşar problemlərim var ... Sovet İttifaqında və ABŞ-da sərt xəttin tərəfdarları bir-birlərinin hesabına mövcuddurlar. "**

**Con F. Kennedi, 1963-cü ilin baharı.**

Karib böhranı konfrantasiyanın vahimə yaradan əyani bir nümunəsi idi. SSRİ və ABŞ bir-birlərinə etibar etmirdilər və qarşılıqlı olaraq nüvə hücumundan qorxurdular. Hər iki ölkə rəqibin, bir-birlərini təsir dairəsini genişləndirməkdə günahlandıraraq, onların öz məqsədlərini həyata keçirmək cəhdlərinə qarşı çıxmağa çalışırdılar. Lakin, fövqəldövlətlərin ehtiyatlılığı xeyli artdı. Onların hər biri öz rəqibənə qarşı çıxaraq, onunla həqiqi toqquşma Astanasına yaxınlaşmamağa çalışırdılar. Düşmənçilik güc siyasəti şəraitini danışıqlar sahəsinə sıxışdırmağa başladı. "Qaydalara əsaslanan qarşıdurma" dövrü gəldi, bu da super dövlətlərin xarici siyasət vəzifələrini öz aralarında "baş-başa" toqquşma riski olmadan həll etməyə imkan verdi. Ümumi müharibə təhlükəsi azalmağa başladı. 1962-ci ildən sonra, 1983-1984-cü illərin qısa dövrü istisna olmaqla belə təhlükə demək olar ki, olmadı. Ümumiyyətlə, sovet-amerikan qarşıdurması davam edirdi, beynəlxalq ucqarlarda müntəzəm olaraq münaqişələr baş verirdi.

Proqnozların əksinə olaraq, dövlətlərarası ziddiyyətlər üçüncü dünya müharibəsi ilə nəticələnməsə də, sərt, lakin dinc siyasi, iqtisadi və hərbi-texnoloji rəqabət şəraitinə keçdi. 1962-ci ildən sonra, yeni dünya müharibəsinin təhlükəsi qorxularından qurtulmanın uzun müddətini, Amerika tarixçisi JonLuisQeddis "uzun sülh" dövrü adlandırmışdır.

"Uzun sülh", beynəlxalq sistemdə "qarşıdurmada sabitlik" yaratmışdır. Nüvə müharibəsindən qaçmaq üçün, şüurlu istəkləri ilə, SSRİ ilə ABŞ arasında tənzimlənən qarşıdurmaya birləşməsi ilə səciyyələnən, uzun müddətli sabit münasibətlər qurulmuşdur. Böyük dövlətlər arasında beynəlxalq gərginliyin azalması və ya artması dalğaları, bütövlükdə qarşıdurma sabitliyi vəziyyəti, 1962-ci ildə baş verən Karib böhranının sonundan, 1991-ci ildə ikiqütblü nizamın süqutuna qədər davam etmişdir.

1960-cı illərə münasibətdə, qarşıdurma sabitliyi, SSRİ ilə ABŞ arasında dialoqun intensivləşməsində, silah nəzarətinə və Avropadakı beynəlxalq vəziyyətə dair mövqelərinin yaxınlaşması ilə ifadə edilmişdi. Regional alt sistemlərdə - ilk növbədə

Şərqi Asiyada (ABŞ-ın Vyetnamdakı müharibəsi, Sovet –Çin qarşıdurması) və Yaxın Şərqdə (Ərəb-İsrail müharibəsi) münaqişələrin səviyyəsi artmışdı. SSRİ və ABŞ-ın iştirak etdiyi periferiyalardakı münaqişələrin şiddəti, qlobal Sovet-Amerika dialoquna az təsir göstərirdi. Sovet və Amerika siyasətçilərinin əsas diqqəti, yenidən Avropa işlərinə və silah nəzarəti məsələlərinə yönəlməyə başlandı.

## 1.Soyuq müharibədə "yumşalma"siyasəti

### 1.1. SSRİ və ABŞ-ın xarici siyasət istqamətlərinin modernləşdirilməsi

Kuba ətrafındakı hadisələr zamanı SSRİ və ABŞ-ın məruz qaldığı böyük təhlükə, onların liderləri tərəfindən 60-cı illərin əvvəllərində hər iki dövlətin hərbi-texniki imkanlarının sürətlə artmasının miqyasını gec başa düşmələri ilə əlaqədar idi. Siyasətçilər - N.S.Xruşşov və C.Kennedi silah sahəsindəki radikal dəyişiklikləri qiymətləndirə bilmədilər. Nüvə raket dövrünün 1957-ci ildən başlamasına baxmayaraq, özlərini nüvədən əvvəlki dövrün liderləri kimi aparmaqda davam etmişdilər. Kosmik tədqiqatların uğurları psixoloji sarsıntı vəziyyətini getdikcə ağırlaşdırdı. 1961-ci ildə, ilk Sovet kosmonavtı Y.A.Qaqarinin Yer kürəsi orbitində uğurlu uçuşu silah yarışının kosmosa keçirilməsinin mümkünlüyünə dəlalət etmişdi. Nüvə silahı ilə uzlaşan raket texnologiyası və orbital idarə olunan kosmik gəmilərin yaranması, dünya hərbi-strateji vəziyyət üçün fərqli ölçüləri təyin etmişdi. Karib böhranı zamanı müharibə vasitələrinin arxaikliyi, hərbi və siyasi doktrinaların yenidən nəzərdən keçirilməsini tələb etdi. Hər iki ölkənin liderlərinin cəsarətinə baxmayaraq, hər biri öz çıxışları ilə, böhranda qələbə qazandıqlarını elan etməyə çalışırdılar. Lakin, bu çıxışlarda onların inamsiz olduqları ortaya çıxırdı.

1962-ci ilin oktyabr hadisələri, dövlətlərə ciddi təsir göstərdi:

İlk növbədə, fövqəladə hallar zamanı SSRİ ilə ABŞ arasında birbaşa əlaqə üçün texniki imkanların genişləndirilməsi üçün addımlar atıldı. 20 iyun 1963-cü ildə, Moskva ilə Vaşinqton arasında 24 saat ərzində, hər iki dövlət liderlərinin bir-biri ilə əlaqə yaratmasına imkan verən "qaynar xətt" quruldu;

İkincisi, ABŞ və SSRİ silah nəzarəti ilə bağlı danışıqlar prosesini intensivləşdirdi. Problemin üç düyünü üzərində danışıqlar aparıldı:

-nüvə silahının sınağının məhdudlaşdırılması;

-kosmik məkanın hərbi məqsədlər üçün istifadəsinin tənzimlənməsi;

-nüvə silahı olmayan dövlətlərə istifadə etmək üçün nüvə materialları və texnologiyalarının sərbəst şəkildə verilməsinə qadağa qoyulması;

Üçüncüsü, ABŞ və Sovet İttifaqı, mümkün Sovet-Amerika nüvə münaqişəsinin qarşısını almaq, düşünülməmiş bir toqquşma təhlükəsini azaltmaq və nüvə

müharibəsində böyük dövlətlərin iştirak etdiyi adi bir regional münaqişənin artaraq nüvə müharibəsinə çevrilməməsi üçün, hərbi-siyasi doktrinaları modernləşdirməyə davam etməli idilər.

10 İyun 1963-cü ildə Amerika Universitetində çıxış edən, Prezident C.F.Kennedi, ilk növbədə "müxtəliflik üçün dünyanı təhlükəsiz etmək" (safefor diversity) zərurətindən danışdı və beynəlxalq gərginliyin qarşısını almağın tərəfdarı olduğunu bildirdi.

### 1.2."Qarşılıqlı məhvetmə təminatı" doktrinası

1963-cü ilin yazında, C.Kennedi və R. Maknamara tərəfindən təmsil olunan Amerika liderləri, nəhayət ilk zərbə anlayışının praktik olaraq qəbuledilməz olduğu qənaətinə gəldilər. "Çevik cavab"ın bir hissəsi olaraq, Amerikalı nəzəriyyəçilər "qarşılıqlı məhv etmə təminatı " doktrinasını (ing. "MAD" "mutually assured destruction") inkişaf etdirməyə başladılar. Sovet İttifaqı, ABŞ-ın nəzəri yeniliklərini rəsmi şəkildə tənqid etsə də, lakin onları izləyərək, öz fəaliyyətlərini ABŞ-ın siyasətində etdiyi dəyişikliklərlə uyğunlaşdırırdı.

Nüvə silahının digər dövlətlərdə olmasına baxmayaraq, onun istifadə olunması ehtimalı, əvvəllərdə də ABŞ-da olan hərbi mütəxəssislərin ağıllı düşünən hissəsi arasında inamsızlığı artırırdı. 1962-ci il hadisələrindən sonra aydın oldu ki, nə Amerikanın, nə də Sovet İttifaqının ərazilərinin strateji möhkəm müdafiəsi yoxdur. Nüvə silahının artırılması yarışı hər iki tərəfdə potensial düşmənin nüvə zərbələrindən müdafiə olunmaq səviyyəsini təmin edə bilməzdi. Bir tərəf nüvə başlıqlarının sayı baxımından digərindən üstün olsa da, ikinci tərəfin o qədər çoxlu silahı var idi ki, yenə də birinci tərəfi tamamilə məhv edə bilərdi. Bu məsələ əvvəllər də məlum idi. Ona görə, 1962-ci ilə qədər, Amerikanın bəzi strateqləri hesab edirdilər ki, nüvə müharibəsində qələbənin həlledici şərti ilk zərbə vurmaqdır.

Lakin, 60-cı illərin ortalarında vəziyyət dəyişdi. Məlum oldu ki, SSRİ və ABŞ-ın nüvə güc ehtiyatları o qədər çoxdur ki, onu ilk zərbə ilə də məhv etmək mümkün deyil. İlk zərbəni alan tərəf, yenə də öz güc imkanlarının bir hissəsini saxlayacaq, bu da ilk hücum edən ölkəyə yolverilməz ziyan vurmaq üçün kifayət edəcək idi. Hər iki tərəfin məhv edilməsinə təminat verilirdi. Bu məntiq ilk zərbəni mənasız edirdi və tərəfləri ehtiyatlı olmağa və hücum strategiyasından imtina etməyə məcbur edirdi. Ona görə də, fövqəl dövlətlərin heç biri öz möhkəm müdafiəsinə arxalana bilmədiyi üçün, hər ikisi qarşılıqlı məhv edilmənin və ondan qurtulmağın mümkünsüzlüyünə əsaslanaraq, strateji sabitliyi təmin etmək üçün, yeni planlar hazırlamalı idilər. Qarşılıqlı məhvetmə təminatı qorxusu sabitliyin tənzimləyicisi olmalı idi.

Bu "qorxu tarazlığına" əsaslanan strategiya idi. 1940-cı illərin ortalarından etibarən, rus dilində işlədilən "qarşısını alma" termini, C.Kennan tərəfindən "həddə saxlamaq" , "sərhədləri məhdudlaşdırmaq" ifadələri kimi işlənmişdi. 1960-cı illərin ortalarından sonra, beynəlxalq siyasətdə "çəkinmə" ,"qorxutma", "geriyə atma", yəni "kütləvi zərbə", "təhdidedici zərbədən çəkinmə" terminləri işlədilməyə başlandı. "Qorxudan çəkinmə" və "qarşılıqlı çəkinmə" terminləri strateji sabitlik nəzəriyyəsində əsas anlayışlara çevrilmişdi. "Qarşılıqlı məhvetmə zəmanəti " doktrinasının ən nüfuzlu tərəfdarlarından biri R.Maknamara idi. O, 1963-cü ilin noyabrında Dallasa gedərkən C. F. Kennedinin öldürülməsindən sonra, Prezident olmuş, vitse-prezident Lindon Consonun administrasiyasında da ABŞ-ın Müdafiə naziri vəzifəsində qalmışdı.

## 2.Nüvə silahinın məhdudlaşdırılması və yayılmaması haqqında müqavilənin hazırlanması

### 2.1.Nüvə silahlarının sınaqlarının məhdudlaşdırılması haqqında müqavilənin bağlanması (avqust 1963)

XX əsrin 60-cı illərində beynəlxalq aləmdə tərksilah uğrunda mübarizə genişləndi. Dövlətlərin, xalq diplomatiyasının və BMT başda olmaqla beynəlxalq təşkilatların tərksilaha yönəlmiş səylərinin artması sülhü və təhlükəsizliyi qorumaq, müharibələrin qarşısını almaq üçün tərksilahın böyük əhəmiyyətini sübut etdi. 60-cı illərdə, tərksilah uğrunda mübarizənin məzmunu zəbginləşdi və bir sıra nəticələr verdi. Tərksilah məsələsində böyük dövlətlər ardıcıl şəkildə öz mövqelərini müdafiə edirdilər. Eyni zamanda, dövlətlər ictimai rəyi nəzərə alaraq, irəli sürülən təkliflərə ehtiyatla yanaşırdılar.

1960-cı illərdə mövcud olan mürəkkəb problemlərə, həmçinin qızğın silahlanmanın get-gedə artan sürətlə getməsinə baxmayaraq, qarşıduran tərəflər razılığa gəlmənin zəruriliyini hər halda anlamağa başlamışdılar.

1960-cı illərdə başlanmış və 1970-ci illərdə öz inkişafını tapmış prosesi bizdə "yumşalma", Qərbdə isə "gərginliyin zəifləməsi" adlandırmağa başladılar.

1961-ci ilin iyun- sentyabr aylarında, tərksilaha dair Sovet- Amerika danışıqları oldu. ABŞ, əvvəlcə tərksilahın ümumi əsaslarını hazırlamağı təklif etdi. 1961-ci ilin dekabrında, BMT Baş Məclisinin XVI sessiyası tərksilahın əsasları haqqında birgə Sovet- Amerika bəyanatını dəstəkləyən qətnamə qəbul etdi. Sessiyada, tərksilah üzrə 10-lar komitəsinin tərkibinə 8 azad olmuş ölkənin nümayəndəsi daxil edildi. Təksilah uğrunda mübarizədə, kosmik fəzadan dinc məqsəd ilə istifadənin əhəmiyyəti böyük idi. 1961-ci ildə, BMT Baş Məclisinin XVI sessiyası kosmosdan

dinc məqsədlə istifadə sahəsində beynəlxalq əməkdaşlığa çağıran qətnamə qəbul etdi.

1962-ci ildə Amerika Birləşmiş Ştatları ilə nüvə münaqişəsinin reallığı N.Xruşşovin fikirlərinə zərbə vurdu. Dünyada "sülh və tərəqqi" naminə qüvvələr tarazlığında dəyişiklik, 1961-ci ildə səmimi həvəsli inam ruhu ilə qəbul olunan Sov.İKP-nin yeni proqramının N.Xruşşova, ABŞ ilə inqilabi təhdid dilində danışmaq üçün əsas olmadığı, danılmaz həqiqət kimi aydın oldu. ABŞ ilə dinamik rəqabət ideyası arxa plana keçməyə başlayır və Sovet rəhbərliyi tədricən qlobal status-kvonun tanınması məntiqini qəbul edir.

Sınaqların qadağan edilməsinə dair danışıqlara aid olan status-kvonun tanınması, tərəflərin əvvəlki bir neçə dialoq illərində əldə etdikləri danışıqlar mövqelərinin uzlaşmasının müəyyənləşməsi demək idi. SSRİ-yə aydın oldu ki, heç bir halda Qərb nüvə silahının təkmilləşdirilməsindən imtina etməyə və nüvə sınaqlarına tamamilə qadağa qoyulmasına razı olmayacaq. Tam aydın idi ki, razılığa gəlmək lazım idi.

Müqavilə məsələsi, 50-ci illərin ikinci yarısından müzakirə edilirdi. 1955-ci ilin mayında, SSRİ nüvə sınağını tamamilə dayandırmaq təşəbbüsü ilə çıxış etdi. NATO ölkələri bu fikiri çox radikal hesab etdilər. Ümumiyyətlə, onlar sınaqların keçirilməsindən imtina etmək niyyətində deyildilər, çünki sınaqlar olmadan nüvə silahının təkmilləşdirilməsi mümkün deyildi. Lakin, Qərb dövlətləri yeraltı partlayışlara olan məhdudiyyətləri aradan qaldırmaq üçün, sınaqlara qismən qadağaların tətbiqi barədə danışmağa razılıq verdilər.

1950-1960-cı illərin sərhədində və xüsusilə 1960-cı illərdə, SSRİ ilə ABŞ arasında olan danışıqlarda müsbət irəliləyişlər görünməyə başladı. Həm amerikan mövqeyində müəyyən dəyişikliklər nəzərdə tutuldu, həm də Sovet hökuməti böyük çeviklik göstərməyə başladı.

Hakimiyyəti dövründə yenidən silahlanma proqramı həyata keçirən ABŞ Prezidenti C.Kennedi qlobal amerikan təkəbbürlüyündən yuxarı qalxa bildi. Bunu xüsusi halda, Karib böhranı əyani şəkildə göstərdi. Məhz onun vaxtında xarici siyasət proqramında, diplomatik metodlardan əvvəlki illərə nisbətən daha tez-tez istifadə olunmağa başlandı. Hətta, Kennedinin Ağ Evdə qısa müddətdə olması belə deməyə əsas verir ki, o, tərksilah üzrə tərəfdaşları ilə əlaqələrin qurulması yollarının axtarılmasının zəruriliyini başa düşmüşdü.

SSRİ bütün partlayışlara qadağan edilməsini israr edirdi. Qərb, yeraltı sınaqların gizli keçirilməsində şübhə yarana biləcəyi ərazilərdə yoxlamalar olmadan, yeraltı partlayışa qadağanın həyata keçirilməsinin monitorinqinin mümkünsüzlüyünə işarə edərək, etiraz etdi. Sovet İttifaqı ərazisində olan xarici yoxlamaların əleyhinə idi və yeraltı sınaqların qadağan edilməsinə milli seysmik vasitələrlə nəzarət edilməsini

mümkün sayırdı. Buna cavab olaraq, yeraltı partlayışların titrəyişlərini tutmaq üçün avadanlıqların çatışmamazlığı bildirilirdi.

Razılığa gəlməyə çalışan SSRİ, öz ərazisində ildə üç yoxlama aparmağa razılıq verdi. Lakin, Amerika tərəfi ən azı yeddi yoxlama tələb edirdi. ABŞ hərbi qüvvələri hətta ildə 20 yoxlama tələb etmişdi.

Bu zaman atmosferdə, yer səthində və su altında atom partlayışlarının hava kütlələrinin, torpaqların və okeanların sularının radioaktiv çirklənməsinə səbəb olduğu aşkar edildi. Bu, ətraf mühitə zərərli idi, belə ki, partlayış yerlərindən dünyanın istənilən nöqtəsinə çirklənmiş hissəciklərin keçməsi nəticəsində radioaktivliyə məruz qalacaq insanların həyatı və sağlamlığı üçün təhlükə yaranırdı. Bu cür sınaqlar dünya ictimaiyyətin getdikcə daha çox narahat edirdi, belə ki, ətraf aləmə dəhşətli, bəzən aradan qaldırılması mümkün olmayan ziyan vurulurdu. Bu problem, onların məhdudlaşdırılması və ən yaxşı halda tamamilə dayandırılması üçün yolların axtarışını sürətləndirməyə vadar etdi. Beynəlxalq ictimai rəy, sülh tərəfdarı olan təşkilatlar və Qərb ölkələrində olan geniş seçici dairələri radiasiyanın yayılması təhlükəsindən narahat olaraq və problemin qarşılıqlı məqbul həlli maraqları naminə hökumətlərinə təzyiq göstərdilər.

Fikir ayrılıqlarına baxmayaraq, 1958-ci ilin oktyabrında, Cenevrədə sınaqların qadağan edilməsi ilə bağlı danışıqlar başladı. Bu danışıqlar tərksilah üzrə 18 dövlət Komitəsinə təhvil verildi. Burada danışıqlar çox çətin gedirdi. 1961-ci ilin payızında, BMT Baş Assambleyasının XVI sessiyası, 1963-cü il yanvarın 1-dən atom silahlarının sınaqlarına son qoyulmasına çağıran xüsusi qətnamə qəbul etdi. Lakin, danışıqlarda çıxılmaz vəziyyət yarandı. Əlavə səbəb olmadan vəziyyətdən çıxmaq mümkün olmayacaq idi. Belə bir amil Karib böhranı oldu.

Birincisi, 1962-ci il hadisələri müharibənin birbaşa iştirakçılarını və üçüncü ölkələr üçün nüvə toqquşması zamanı radioaktiv çirklənmənin qurbanları olacağı və müharibənin dağıdıcı nəticələri ilə bağlı qorxu hissləri yaratmışdı.

İkincisi, fövqəl dövlətlərin ümumi müharibə ehtimalını azaltmaq üçün qətiyyətlərini rəmzləşdirə biləcək böyük bir addım lazım idi. Nüvə silahlarının artırılması, yarışının məhdudlaşdırılması və sınaqların qadağan edilməsi onun vasitələrindən biri idi və bu mənada düşmən niyyətlərinin olmaması barədə bir-birini əmin etmək üçün uyğun bir vasitə idi.

Üçüncüsü, heç bir elan etmədən Sovet İttifaqı, ABŞ ilə paralel nüvə silahlarının yarışında vəziyyətin inkişafının gələcək vəziyyətini başa düşdü və buna mane olmaq üçün nümayişkaranə cəhdlərindən imtina etdi. Bundan əlavə, 60-cı illərin əvvəllərində, xüsusi qurulmuş yeraltı qurğularda atom partlayışlarının aparılması texnologiyası artıq mənimsənilmiş, radioaktiv tullantılar su altında, yerin səthində və

atmosferdəki sınaqlarla müqayisədə dəfələrlə aşağı olmuşdur. Yeni imkanlar, silah yarışının texniki ölçülərini dəyişdirərək, nüvə sınaqlarını yeraltı şəraitə salmağa imkan vermişdi.

Hər iki dövlət nüvə proqramlarını həyata keçirməyə davam etməklə, sınaqlardan mülki əhaliyə və təbii mühitə dəyən ziyanı azaltmaqla yeraltı sınaqların keçirilməsinə razılıq verdilər.

Dördüncüsü, 1963-cü ilə qədər dövlətlər seysmik nəzarət texnologiyasını inkişaf etdirdilər. Sınaqların gizli vəziyyətə keçməsi artıq Sovet İttifaqını qorxutmurdu. Artıq, hər iki dövlət özünün milli ərazilərindən yüksək səviyyəli əminliklə rəqibin keçirdikləri yeraltı sınaqları izləyə bilərdi.

1960-cı illərin əvvəlinə qədər dünyada dörd nüvə dövləti var idi. 1945-ci ildə ABŞ, 1949-cu ildə SSRİ-i, 1952-ci ildə Birləşmiş Krallıq və 1960-cı ildə Fransa atom bombasını sınaqdan keçirmişdi. Çin atom bombasının yaradılması üzərində çalışırdı, ancaq 1964-cü ildə nüvə sınağı keçirə bildi. Atom silahının sınanmasına qoyulan məhdudiyyətlərin hərtərəfli və əhatəli olması üçün bütün nüvə dövlətləri və ÇXR danışıqlar prosesinə cəlb edilməli idi. Lakin, Fransa nüvə silahının yaradılmasına qoyulan məhdudiyyətləri qəbul etməkdən imtina edərək, digər ölkələrdən geri qaldığını bildirdi. Çin Xalq Respublikası, atom bombasının yaradılmasını milli təhlükəsizliyinin təmin edilməsinin və xarici düşmənlə müharibə ehtimalının ən vacib təminatı olaraq görürdü. Çin də Fransa kimi, danışıqlar prosesinə qoşulmağa razı olmadı. Fövqəldövlətlərdən heç biri müttəfiqi üçün "blok nizam-intizamı" ilə əlverişli danışıqlar prosesini təmin edə bilmədi: Fransa hökuməti Vaşinqtonun tövsiyələrinə qulaq asmadı, Çin hökuməti isə Moskvanın tövsiyəsinə qarşı çıxdı. Aydın idi ki, ya anlaşma dərhal həmin formada və ona qoşulmağa razılıq verən iştirakçıların tərkibi tərəfindən imzalanmalı, ya da onun bağlanması qeyri-müəyyən müddətə təxirə salınacaq idi.

1963-cü ilin iyul ayında, SSRİ müqavilə layihəsindən yeraltı sınaqların qadağan edilməsi barədə bir bəndin çıxarılması təkliflərinə etirazlarını geri götürdüyünü bildirdi və 5 avqustda Moskvada nüvə silahının atmosferdə, kosmosda və su altında sınaqdan keçirilməsini qadağan edən müqavilə imzalandı. 10 oktyabrda, müqavilə üç ilk iştirakçı - SSRİ, ABŞ və Böyük Britaniya tərəfindən təsdiqləndikdən sonra qüvvəyə mindi. Razılaşma müddətsiz idi və açıq xarakter daşıyırdı: başqa dövlətlər də qoşula bilərdi. Gələcəkdə iştirakçıların sayı 100 dövləti keçdi. Fransa və Çin müqaviləni imzalamadılar. Müqavilə iştirakçılara nüvə silahının üç mühitdə (atmosfer, kosmik sahə və su altında), eləcə də hər hansı digər mühitdə qadağan edilməsini, qarşısını almağı və sınaq partlayışlarını keçirməmək öhdəliyi qoydu. Giriş və 5 maddədən ibarət olan bu müqavilə müddətsiz idi.

Müqavilə yeraltı sınaqların aparılması məsələsini açıq buraxdı. Bu müqavilə atom silahına sahib olmaq istəyən, lakin yeraltı təcrübə partlayışları aparmaq üçün texnoloji imkanlara malik olmayan dövlətlərə qarşı çevrilmiş oldu. Çin belə dövlətlərdən biri idi. Müqavilədə iştirak etmək, müstəqil nüvə gücünün yaranmasına istiqamət götürmüş, Fransanın hüquqlarını pozacaq idi.

## 2.2.Kosmik məkanın öyrənilməsi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri

Kosmik tədqiqatdakı irəliləyişlər, idarə olunan kosmik gəmilərə, süni Yer peyklərinə və göy cisimlərinə nüvə silahı və ya digər zərbə sistemlərinin yerləşdirilməsi cəhdləri təhlükəsini yaratdı. 60-cı illərin ikinci yarısında elmi və ictimai dairələrdə kosmik gəmilərin və insanın Aya enişi məsələsi müzakirə edilirdi. 1966-cı ildə ilk dəfə, sovet pilotsuz kosmik stansiyası Luna-9 Aya yumşaq eniş etdi və 20 iyul 1969-cu ildə ilk insan - Amerikalı astronavt Neyl Armstronq ayın səthinə çıxdı. Bu uğurlar Ayı "müstəmləkələşdirmə", ayrı-ayrı dövlətlərin kosmosun və Ayın müəyyən hissələrinin gələcəkdə mənimsənilməsi məsələsini gündəmə gətirdi. Silah yarışının kosmosa aparılması reallığa çevrilməsi təhlükəsi yarandı. Kosmosun öyrənilməsi böyük maliyyə vəsaiti tələb edirdi. Kosmosun hərbiləşdirilməsi, ABŞ və Sovet İttifaqının böyük maliyyə mənbələri tələb edə bilərdi. ABŞ üçün kosmik proqramların icrasını həyata keçirməyə, ölkənin büdcəsində gərginlik yaradan Vyetnam müharibəsi mane oldu.

1963-cü ilin dekabrında, ABŞ və SSRİ-nin təqdimatı ilə, BMT Baş Assambleyasının XVIII sessiyası dünyanın bütün ölkələrini nüvə silahı və ya digər kütləvi qırğın silahları olan qurğuları yaxınlıqdakı orbitdə yerləşdirməkdən və bu cür silahları göy cisimlərində və ya kosmik fəzada yerləşdirməkdən çəkinməyə çağıran qətnamə qəbul etdi. Bu addım, BMT çərçivəsində, kosmik sahələrin öyrənilməsi və istifadəsi sahəsində dövlətlərin fəaliyyət prinsiplərinə dair müqavilə layihəsinin hazırlanması işinin başlanmasına təkan vermiş oldu. 27 yanvar 1967-ci ildə, müqavilə eyni vaxtda Moskva, Vaşinqton və Londonda SSRİ, ABŞ və Böyük Britaniyanın nümayəndələri tərəfindən imzalanmışdı. Bu müqavilə müddədsiz və bütün dövlətlər üçün açıq idı. İmzalandığı gündən bütün digər ölkələr istənilən vaxt bu müqaviləyə qoşula bilərdi.

Müqavilə, bütün dövlətlər tərəfindən ayrı-seçkilik edilmədən kosmik məkanın öyrənilməsi və istifadəsi üçün açıq elan edildi. Mətn, Ay daxil olmaqla, kosmik məkanın milli mənimsəmə obyekti ola bilməyəcəyini xüsusi şərtləndirdi.

Bundan əlavə, Müqavilə nüvə silahı və digər kütləvi qırğın silahları olan qurğuların orbitə çıxarılmasını, bu cür silahların göy cisimlərinə yerləşdirilməsini

və başqa bir şəkildə kosmosda yerləşdirilməsini qadağan edirdi. Səma cisimləri üzərində hərbi bazaların, istehkamların və qurğuların yaradılması qadağan idı. Səma cisimlərində olan və ayrı-ayrı dövlətlərə aid olan digər stansiyaların və kosmik gəmilərin qarşılıqlı şərtlərlə digər ölkələrin nümayəndələri üçün də açıqlığı xüsusi olaraq təmin edilmişdi.

Xarici kosmosun kəşfi və istifadəsi prinsipləri haqqında müqavilə əsasən tarixi və elmi və texnoloji inkişafın gedişatını qabaqlayırdı. Dünya dövlətləri, bu müqavilənin qoyduğu ən vacib prinsipləri, qaydaları və məhdudiyyətləri XXI əsrdə rəhbər tutaraq, aralarında olan ziddiyyətləri yumşalda bilərdi və onlarla əlaqəli mübahisələrin təhlükəsini azalda bilərdi ki, bu da istər ticarət, istərsə də hərbi-siyasi, kosmik tədqiqatlarla uzlaşdırılacaq idi. Bu mənada, kosmik cisimlərin, məkanların və obyektlərin milli mənimsənilməsinə qoyulan qadağa, habelə kütləvi qırğın silahlarının kosmosa yerləşdirilməməsinə dair Müqavilənin müddəaları xüsusi əhəmiyyət kəsb edirdi.

### 2.3.Nüvə silahının yayılmaması haqqında Müqavilənin bağlanması (iyul 1968)

Beynəlxalq sistemin sabitləşdirilməsinə dəstək üçün vacib bir vasitə, nüvə sahəsində status-kvonun möhkəmləndirilməsinə yönəlmiş Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə (NSYM) olmalı idi. Bütün fikir ayrılıqlarına baxmayaraq, fövqəldövlətlər nüvə silahlarının yayılması və nüvə ölkələrinin sayının artmasının strateji vəziyyəti və onun tənzimlənməsi ilə bağlı danışıqlar prosesini çətinləşdirdiyini başa düşürdülər. Danışıqlarda iştirak edənlərin dairəsinin genişlənməsi vəziyyətin əvvəlcədən müəyyən edilməsinə təsir edir, böhranların idarə edilməsini çətinləşdirir və siyasətdə fövqəl dövlətlərin rolunu azaldırdı. Bunun ardınca yeni nüvə dövlətlərinin meydana çıxması "köhnə" dövlətlərin maraqlarına zidd idi. Fövqəl dövlətlər NSYM imzalamaqda maraqlı idilər.

Müqavilə, Moskva üçün də cəlbedici görünürdü, çünki Qərbi Almaniya ona qoşulsaydı, onun "nüvə birliyinə" qoşulmaq məsələsi həll olunardı. Üstəlik, NSYM -nin imzalanması "Çoxtərəfli Nüvə Qüvvələri" planını zərərsizləşdirəcək idi. Lakin, Vaşinqtonda buna inanmayanlar hələ də, bu plandan imtina etmək istəmirdilər.

Lakin müqavilə yalnız, kifayət qədər geniş dövlət dairəsi qoşulduqda məna kəsb edəcək idi. Qeyri-nüvə ölkələrini ona qoşulmağa təşviq edəcək bir səbəb tapılmalı idi. Nüvə dövlətlərinin və beynəlxalq ixtisaslaşmış təşkilatların köməyi ilə atomun dinc məqsədli istifadəsi üçün texnologiyaların inkişaf etdirilməsində maraq bu məsələdə idi.

Bir çox dövlətlər, enerji təchizatı ilə bağlı çətinliklərlə üzləşirdi və ona görə də, atomdan dinc istifadə ucuz enerji mənbəyini təmin etməli idi. Ancaq əksər dövlətlərin nüvə enerjisindən istifadə üçün texnoloji və xammal imkanları yox idi. Nüvəsiz ölkələr, öz milli nüvə stansiyalarının şəbəkələrini yaratmaq üçün nüvə ölkələri ilə əməkdaşlıq etməkdə maraqlı idilər. Bunun üçün nüvəsi olmayan dövlətlər atomun hərbi məqsədlərə görə istifadəsindən imtina etmək üçün, öhdəlikləri qəbul etməyə və müqavilənin şərtlərinə əsasən atomun dinc istifadəsi sahəsində beynəlxalq əməkdaşlığı nəzərdə tutan yoxlama proseslərinə razı olmağa hazır olmalı idilər. NSYM imzalamaqla, nüvə və qeyri-nüvə ölkələri arasında razılaşma yaradılmış olurdu.

Müqavilə layihəsi 1965-ci ilin sentyabrından, Sovet nümayəndə heyəti onu BMT Baş Assambleyasının XX sessiyasında baxılmasını təklif etdiyi müddətdən etbarən müzakirə olunurdu. Düzəlişlərdən sonra onun son variantı, 1968-ci ilin iyununda BMT Baş Assambleyasının XXII sessiyası tərəfindən təsdiq edilmiş və 1 iyul 1968-ci ildə imzalanmaq üçün təqdim olunmuşdu. Həmin gün eyni vaxtda, Moskva, Vaşinqton və Londonda üç aparıcı nüvə dövlətlərinin liderləri tərəfindən imzalanmışdı. Tezliklə, Almaniya və Yaponiya müqaviləyə qoşuldular. Nüvə dövlətləri dairəsindən Fransa və Çin, digərləri arasından Hindistan, Pakistan, Kuba, Braziliya, İsrail, bir sıra ərəb ölkələri, Cənubi Afrika və bir sıra digər ölkələr müqaviləni imzalamaqdan imtina etdilər.

Müqavilə, sonradan uzatmaq imkanı ilə, 25 il müddətinə bağlandı (1993-cü ildə - müddətsiz uzadıldı). Nüvə Silahlarının Yayılmaması haqqında Müqaviləsi nüvə ölkələri tərəfindən qeyri-nüvə dövlətlərinə atom silahlarının və ya digər nüvə partlayıcı qurğuların verilməsini, habelə birbaşa və ya dolayı formada da olsa, istifadəsinə nəzarət edilməsini qadağan edirdi. Nüvəsi olmayan ölkələr, öz növbələrində, nüvə silahı, nüvə partladıcı qurğular və ya onların üzərində hər hansı bir nəzarət forması əldə etmək cəhdindən imtina etməli idilər.

Müqavilədə aydın şəkildə bildirilmişdir ki, ona daxil edilmiş müddəaların heç biri nüvə olmayan ölkələrin Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA- МАгАтЭ) təhlükəsizlik şərtlərinə tabe olmaqla, atom enerjisindən dinc istifadə hüququnu məhdudlaşdırmayacaq idi. Müqavilənin sonunda SSRİ, ABŞ və Böyük Britaniya NSYM-ə qoşulan nüvəsiz ölkələrə nüvə hücumuna qarşı zəmanət verilməsinə dair bəyanat verdlər. 19 iyun 1968-ci ildə, bu təminatlar BMT Təhlükəsizlik Şurasının xüsusi qərarı ilə təsdiqləndi. Razılaşmanın imzalanması "Çoxtərəfli Nüvə Qüvvələri" proqramını mənasız etdi və Moskvanın məmnunluğuna rəğmən, onun həyata keçirilməsi məsələsi gündəmdən çıxarıldı.

## 3.Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri

### 3.1.Fransa-Qərbi Almaniya “oxu”nu formalaşdırmaq cəhdi və onun uğursuzluğu (fevral 1963)

Avropadakı vəziyyət çətin olaraq qalırdı. Karib böhranı ABŞ-ın Qərbi Avropa dövlətləri ilə münasibətlərində dəyişikliklər yaratdı. Onlar Koreya müharibəsi illərində olduğu kimi yenə də Moskva və Vaşinqton arasındakı qarşıdurmanın girovuna çevrildiklərini hiss etdilər. Böhranın Fransa siyasətinə xüsusilə güclü təsiri var idi. Ş.de Qolla, böhran zamanı Amerikanın NATO üzrə müttəfiqləri ilə məsləhətləşmədiyi əyan oldu. ABŞ ancaq özünün məsləhət bildiyi addımlarını onlara bildirirdi. Fransız rəhbərliyi başa düşürdülər ki, bunun müttəfiqliklə heç bir əlaqəsi yox idi.

Fransa beynəlxalq məsələlərdə Avropanın müstəqilliyini möhkəmləndirmək əzmində idi. Qərbi Avropalılar, SSRİ-nin onları Amerika siyasətinin bütün dəyişikliklərini avtomatik olaraq yerinə yetirən əlaltıları hesab etməsini istəmirdilər. Qərbi Avropa ölkələri, Sovet İttifaqı ilə münasibətlərinə Vaşinqton və Moskvada yalnız Sovet--Amerika münasibətlərinin törəmələri kimi baxdıqlarından narahat idilər. SSRİ-ni Qərbi Avropanın öz xarici siyasət xəttini qura bilən müstəqil mərkəz olduğuna inandırmaq lazım idi. Lakin, Qərbi Avropa vəziyyətinin xüsusiyyətlərini nəzərə almayan Amerika Birləşmiş Ştatları da buna əmin olmalı idi.

ABŞ və Qərbi Avropa müttəfiqləri arasındakı fikir ayrılıqları əhəmiyyətli olaraq qalırdı. C.F.Kennedinin hökuməti, İngiltərəni “Çoxtərəfli Nüvə Qüvvələri” proqramına razı olmağa məcbur edərək, Fransa, Almaniya və Alyansın digər üzvlərini ona qoşulmağa inandırmaq üçün, NATO çərçivəsində bu planı müzakirə etməyə hazırlaşırdı. Bu zaman, 14 yanvar 1963-cü ildə, Prezident Ş.de Qoll Fransa mətbuatına verdiyi müsahibədə Amerika planında iştirakdan imtina etdiyini və Fransanın öz nüvə qüvvələrini yaratmaq və lazım olduqda onlardan müstəqil istifadə etmək niyyətini açıqladı. Ş.de Goll ABŞ siyasətini dəstəkləməyə razı olan İngiltərənin mövqeyini tənqid etdi və bir daha, onun AİB-ə qəbul edilməsinə qarşı çıxdı. Fransa lideri əmin idi ki, İngiltərənin "Avropa birliyi"nə girməsindən sonra, AİB, ABŞ və ABŞ-Britaniya blokunun rəhbərliyi altında "Atlantika birliyi”ndə dağılacaq. Brüsseldə İngiltərənin AİB-ə daxil olması ilə bağlı danışıqlar dayandırıldı. Qərbi Almaniya Fransanın mövqeyi ilə razılaşırdı. Lakin, London və Vaşinqtonu qıcıqlandırmamaq üçün fəal dəstəkdən çəkinirdi.

23 yanvar 1963-cü ildə Parisdə, Ş.de Qoll və K.Adenauer Almaniya və Fransa arasında "Yelisey müqaviləsi" adlanan - əməkdaşlıq müqaviləsini imzaladılar. Bu müqavilə, Fransa Prezidenti ilə Almaniyanın Kansleri, Xarici İşlər və Müdafiə

nazirləri arasında mütəmadi görüşlər, mədəni və təhsil məsələlərinə dair mütəmadi məsləhətləşmələr, habelə hər iki ölkənin Baş qərargah rəislərinin görüşlərini təmin etməli idi. Hərbi doktrinaların ortaq müzakirəsi, strateji planların əlaqələndirilməsi və hərbi əlaqəli tədqiqatların aparılması nəzərdə tutulurdu. Fransa, hərbi bəndlər istisna olmaqla, müqavilənin "Berlinə" - yəni onun qərb hissəsinə də aid edilməsinə razı oldu. Bu, Parisdən Bonna güzəşt idi, çünki 1959-cu ilin mayında Xarici İşlər nazirlərinin Cenevrə müşavirəsində, Fransa hökuməti Qərbi Berlinin Almaniyanın ərazisi olmadığı qərarını qəbul etmişdi.

Fransa tərəfi Almaniya ilə razılaşmanı xarici siyasətinin uğuru hesab etdi. Lakin bu razılaşma, Qərbi Almaniyada tənqidə səbəb oldu. Almaniyanın aparıcı siyasətçiləri "Qollistlər" və "Atlantistlər"ə bölündülər. Birincilər, Avropa qonşuları və o cümlədən, Fransa ilə əlaqələrin inkişaf etdirilməsini daha vacib hesab edirdilər. İkincilər isə Avropa qonşuları ilə əlaqələrdən isə, ABŞ və NATO istiqaməti daha perspektivli sayırdılar. 87 yaşlı K.Adenauer birincilərin adından danışırdı. İkinci tərəf isə, Qərbi Almaniya hökumətində İqtisadiyyat naziri vəzifəsini icra edən Almaniya Xristian Demokratik İttifaqının üzvü Lüdviq Erhard ətrafında qruplaşırdı. Fevralın 5-də, Bundestaqda müqavilənin müzakirəsi zamanı "Atlantistlər" "Qollistlər"ə qalib gəldi. Əksəriyyətin qərarı ilə, müqavilənin təsdiqi zamanı, beynəlxalq təcrübəyə zidd olaraq onun mətninə dəyişikliklər edilərək, mətnə ön söz əlavə edildi. Bu əlavənin mənası, Fransa-Qərbi Almaniya ittifaqını, NATO daxilində olan tərəfdaşlıq sistemi ilə əlaqələndirmək, Atlantik İttifaqı çərçivəsində birgə müdafiənin gücləndirilməsini vurğulamaq və İngiltərənin "Avropa Birliyi"nə qoşulmağının məqsədəuyğunluğunu tanıtmaq idi. Beləliklə, Ş.de Qollun K.Adenauer ilə razılaşmalarının mənası təhrif edildi. Əslində, Bundestaq müqaviləni onun təqdim edildiyi formada rədd etdi. Altı aydan sonra, K.Adenauer istefa verdi və 1963-cü ilin oktyabrında L.Erhard onun yerini tutdu.

Federal respublikanın siyasətində “Atlantik” meylilik daha çox nəzərə çarpırdı. 1964-cü ilin iyulunda, Qərbi Almaniyanın yeni lideri Bonnda Ş.de Qoll ilə görüşdü. Bundestaq sazişin mətnini dəyişdirdikdən sonra yaranmış vəziyyətdə tərəflərin niyyətlərini müəyyən etmək lazım idi. Qərbi Almaniya tərəfi, AFR-in Fransanın "nüvə düyməsinə" yaxın buraxılmasına dair Fransanın mövqeyini öyrənmək istəyirdi. Bu barədə, L.Erhardın birbaşa sualına Fransa Prezidenti də qəti mənfi cavab verdi. Almaniya üçün hərbi-strateji sahədə Parislə "xüsusi" münasibətlər məsələsi öz mənasını itirmiş oldu. İndi, L.Erhard Ş.De Qolla, AFR-in ikitərəfli əsasda Fransa-Almaniya əməkdaşlığını artırmağa lüzum olmadığını, və əvvəl- axır Böyük Britaniyanın da daxil olacağı " Avropa birliyi " çərçivəsində çoxtərəfli əməkdaşlıqla birlikdə inkişaf etdirməyin məqsədəuyğun hesab etdiyini bildirmişdi.

Fransadan uzaqlaşma siyasəti, AFR-in ABŞ-la qarşılıqlı anlaşma əldə etmək cəhdi ilə müşayiət olundu. 1964-cü ilin noyabrında, Almaniya və ABŞ hərbi-texniki əməkdaşlıq haqqında saziş bağladılar. Bonn baxımından, Qərbi Almaniya "nüvə düyməsinə" başqa bir yol ilə çata bilərdi. Bu, Vaşinqtonun "Çoxtərəfli Nüvə Qüvvələri" (ÇNQ) layihəsinin bərpasına ümidlərini canlandırdı.

### 3.2.Qərbi Avropa inteqrasiyasının dərinləşməsi prosesində ziddiyyətlər və "Lüksemburq razılaşması"

1960-cı illərin ortalarında, Qərbi Avropa ölkələri inteqrasiya məsələlərinin həllinə daha çox diqqət ayırdı. Fransa müstəmləkələrin itirilməsinə boyun əyərək, Avropa məsələlərini öz xarici siyasətin əsas istiqaməti kimi qəbul etdi. 1964-cü ilin oktyabrında, İngiltərədə keçirilən seçkilərdə qalib gələn Leyboristlər Partiyası hakimiyyətə gəldi və Q.Vilsonun rəhbərliyi ilə hökumət qurdu. Yeni hökumət "Süveyşin şərq bölgələrindən uzaqlaşma" siyasətini elan etməsi ilə, Asiyada olan bir sıra müstəmləkələrinə müstəqillik vermək niyyətini bildirmiş oldu. Buna görə də, London üçün Avropa siyasətinə daxil olması məsələsi, uzaq xarici ərazilərlə münasibətlərdən daha vacib oldu. 1963-cü ildə, Fransa İngiltərənin AİB-ə qəbul edilməsinə yenidən qarşı çıxdıqdan sonra, bu məsələ həll olunmamış qalmaqda davam etdi. Parisin bu məsələdə olan mövqeyi dəyişməz olaraq qalmışdı.

Fransanın rəhbərliyi altında AİB-in yaranması, ABŞ-ın ümid etdiyi kimi, Atlantik blokunu birləşdirməyə xidmət etmədi. Siyasi baxımdan Parisin rəhbərliyi altında olan "Altılar" ABŞ-a münasibətdə çox müstəqil və hətta antiamerikan ola bilərdi. İqtisadi cəhətdən, AİB ölkələri tərəfindən ortaq xarici ticarət tarifinin tətbiqi, Amerika mallarının "ümumi bazar" ölkələrində rəqabət qabiliyyətini zəiflətdi, bu da ABŞ-Qərbi Avropa münasibətlərindəki ziddiyyətlərə səbəb oldu.

2 mart 1965-ci ildə "Altılıq" ölkələri, üç Avropa birliyini - AKPB, AİB və Avroatomu - bir biri ilə birləşdirmək üçün razılaşdılar. Eyni zamanda, birliklərin işçi orqanlarının AİB-ə əsaslanan vahid idarəçilikdə birləşdirilməsi qərara alındı. Birləşmə prosesinin iki ilə aparılması nəzərdə tutulurdu. İnteqrasiya prosesi getdikcə dərinləşirdi. Onun istiqaməti məsələsi daha vacib əhəmiyyət daşımağa başladı.

ABŞ-a yaxınlaşan Almaniya, Ş.de Qollun Avropa inteqrasiyasına təsirini məhdudlaşdırmaq üçün yollar axtarmağa başladı. L.Erxardın kabineti bildirirdi ki. AİB çərçivəsində əldə olunan iqtisadi əməkdaşlığın səviyyəsi, əsasən 1957-ci il Roma müqaviləsində nəzərdə tutulduğu kimi, millətlər fövqü zəmində siyasi qarşılıqlı əlaqə yaratmaq zərurətini gündəmə gətirirdi. AFR-in "federalist" mövqeyi, AİB-in digər ölkələrinin dəstəyi ilə qarşılanırdı, lakin Paris razılaşmadı.

Fransanın, “Altılıq”da diplomatik təcrid vəziyyətinə düşməsi təhlükəsi yarandı. 1965-ci ilin yayında, Parisin AİB ölkələrinin kənd təsərrüfatı siyasətini birləşdirməsi ilə bağlı ağrılı məsələsini müzakirə edərkən, altı ölkədən heç biri onun fikrini dəstəkləmədi. Bu mübahisənin təsiri daha da artdı, belə ki, 1 yanvar 1966-cı il tarixindən etibarən Roma müqaviləsinə əsasən, AİB -də qərarlar konsensusla deyil, səs çoxluğu ilə qəbul edilməsi haqqında qərar verildi. Kənd təsərrüfatı məhsulları məsələsinin müzakirəsi zamanı fikir mübadiləsi bu mənada “Altılıqda gələcək qərarların qəbul etmə prosesinə bir məşq kimi baxılmışdı. Fransa nümayəndə heyəti şokda idi. Məlum oldu ki, Fransanın AİB tərəfdaşlarına mübahisəli məsələyə baxılmasını altı aya təxirə salmaq kifayət idi və öz qərarlarını "riyazi" şəkildə Fransaya qəbul etdirə bilsinlər. Çaşqınlıq vəziyyətinə düşən Fransa hökuməti, 1 iyul 1965-ci il tarixindən etibarən AİB işçi orqanlarının iclaslarını boykot etmək qərarına gəldi. ”Altılığın” içərisində inamsızlıq böhranı yarandı.

Paris, millifövqi inteqrasiyadan qorxurdu, onun içində müstəqilliyini itirməkdən narahat idi. Bu, 9 sentyabr 1965-ci ildə, AİB -də vəziyyət barədə danışan Ş.de Qollun sözləri ilə təsdiqləndi. Prezident "Fransanı Avropa adlanan, əslində Atlantik olan federasiyada suverenliyini ləğv etmək istəyənlərə" qəzəbləndi. Ş. de Goll, inteqrasiyanın bu formasına qarşı, Sovet İttifaqı və Şərqi Avropa ölkələrinin iştirakı ilə "Atlantikadən Urala qədər" bütün Avropa məkanının birliyini yaratmağı təklif etdi. "Atlantikadan Urala" Avropanın birləşməsi düsturu Prezidentin sonrakı çıxışlarında tez-tez önə çəkilirdi. Bu fikir, XX əsrin 80-ci illərinin sonlarında yenidən məşhurlaşdı. Sov.İKP MK-ın Baş katibi M.S.Qorbaçov tərəfindən irəli sürülən "ortaq bir Avropa evi" ideyası ilə yenidən gündəmə gəldi.

Fransa ilə münaqişə “Altılıq” ölkələrinin planlarına daxil deyildi. 1965-ci ilin dekabrında, mübahisə Fransanın maraqları nəzərə alınmaqla həll edilmiş oldu. Qərardan zərər çəkən Qərbi Almaniya fermerləri birliyin ümumi büdcəsindən ümumi kənd təsərrüfat siyasətinin tətbiq edilməsi ilə, yaranmış maddi itkilərə görə təzminat almaq hüququ qazandılar. Fransa aqrar məhsulları istehsalçıları da, Parisin israr etdiyi güzəştləri aldılar.

Lakin, Fransa AİB-in işini yenə də boykot etməkdə davam etdi. 1966-cı ilin yanvarında, Lüksemburq görüşündə, Fransa tərəfini fikrindən döndərmək üçün edilən bir çox cəhdlərdən sonra, altı Xarici İşlər naziri ümumi razılığa gələ bildilər. Müəyyən edilmişdi ki, AİB -də qərarlar, Roma müqaviləsində nəzərdə tutulduğu kimi, səs çoxluğu ilə qəbul ediləcəkdir. Ancaq, inteqrasiya siyasətinin ən vacib məsələləri müzakirə edilərkən, yekdillik prinsipinə əsaslanan qərarlar qəbul ediləcək. Bu qərar, "Lüksemburq razılaşması" kimi adlanmağa başlandı. Böhran aradan qaldırıldı və Avropa Birliyi inkişafını davam etdirdi.

Növbədə onun genişlənməsi məsələsi idi. 1967-ci ilin mayında, İngiltərə yenidən AİB-ə qəbul edilməsini xahiş etdi. Birliyin əksər ölkələri onun xahişini təmin etməyi vacib saydılar. Qərar Fransadan asılı idi. 16 may 1967-ci ildə, Ş.de Goll yenidən Böyük Britaniyanın qəbul edilməsinə veto qoydu. Qalan altılıq ölkələri, bu qərarı əsassız hesab edərək, Fransa tərəfinin qərarına kəskin mənfi yanaşdılar. Avropada inamsızlıqda və yeni reallığı qəbul edə bilməməkdə günahlandırılan, Fransanın 70 yaşlı Prezidentinə qarşı narazılıq artdı.

## 4. **1960-cı illərdə SSRİ-nin ABŞ ilə diplomatik münasibətləri**

### 4.1.Qlasboroda Sovet-Amerika görüşü (iyun 1967)

1967-ci ilin iyununda, Sovet hökumətinin başçısı A.N.Kosıgin BMT-nin Təhlükəsizlik Şurasının iclasında iştirak etmək və Yaxın Şərq müharibəsini dayandırmaq məsələsinin müzakirə etmək üçün Nyu-Yorka gəldi. ABŞ-da olması Amerika rəhbərliyi ilə məsləhətləşmələr keçirmə imkanı yaratdı. Moskva və Vaşinqtonda qlobal sabitliyin möhkəmləndirilməsi üçün, SSRİ ilə ABŞ arasında olan əlaqələrin yaxşılaşdırılmasının vacibliyi barədə bir anlayış gündəmə gəldi. Sovet nümayəndə heyəti üçün, 1965-ci ildən müzakirə olunan Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə layihəsinin hazırlanması perspektivinə dair Amerika tərəfinin fikirlərini, həmçinin silah yarışının məhdudlaşdırılması ilə bağlı danışıqlara başlamaq imkanlarını aydınlaşdırmaq vacib idi. A.N. Kosıginin ABŞ-a ziyarəti rəsmi deyil, işçi səfəri idi. Ona görə də, Amerikanın ərazisində olma proqramına onun Vaşinqtona getmək məsələsi daxil deyildi. Sovet hökuməti başçısının 23 iyun və 25 iyun 1967-ci ildə Prezident L.Conson ilə apardığı danışıqlar yarı rəsmi xarakter aldı. Görüş yeri, Amerika Prezidentinin olduğu Vaşinqtonla, A.N. Kosıginin yerləşdiyi və BMT-nin qərargahı olan Nyu-York arasında yerləşən Nyu-Cersi əyalətindəki Qlassboro şəhəri seçildi.

Danışıqlar uğurlu alındı. Tərəflər, Nüvə Silahlarının Yayılmaması Sazişinin bağlanmasını sürətləndirmək barədə razılığa gəldilər və strateji silahların məhdudlaşdırılması ilə bağlı gələcək danışıqların mümkün gündəliyini müzakirə etdilər. Dialoqun nüvə silahlarının, yəni quruda və dənizdə yerləşən Qitələrarası Ballistik Raketlərin (QBR) buraxılış vasitələrinə kəmiyyət məhdudiyyəti problemi ətrafında qurulacağı qərara alındı. Mütəxəssislərin fikrincə, Sovet tərəfi ABŞ-ın Ayrılan Başlıq Hissələrinə (ABH) malik raketlərinin olduğunu bilirdi və Amerika tərəfi A.N.Kosıginin bu tipli raketlər məsələsini danışıqlar proqramına daxil etməsini gözləyirdi. Lakin, Sovet tərəfi bunu etmədi. Sovet hökumətinin başçısı, ABŞ-ın və SSRİ-nin inkişaf etdirməyə başladığı Raket Əleyhinə Müdafiə sistemlərinin (RƏM)

məhdudlaşdırılması məsələsini müzakirə etməyə dəvət edildi. Lakin o, hücum silahlarını məhdudlaşdırmağın vacibliyini əsas gətirərək bu təklifləri rədd etdi. Danışıqların sonunda, Prezident L.Conson, VDR rəhbərlərinə ünvanlanmış, Amerika tərəfinin Şimali Vyetnam nümayəndələri ilə danışıqlara girmək istəyini ifadə edən qeyri-rəsmi məktubu A.N. Kosıginə təhvil verdi. Bu məktub Xanoya ötürüldü. Səfər zamanı, Prezident L.Consonun Sovet İttifaqına 1968-ci ilin payızında səfəri barədə razılıq əldə olundu. Paytaxtlardan kənarda görüşlər ənənəsini davam etdirərək, tərəflər Amerika Prezidentinin Moskvaya deyil, Leninqrad şəhərinə gələcəyinə dair razılığa gəldilər. Sovet rəhbərliyi L.Consonun 1968-ci ilin noyabr ayında baş tuta biləcək təkrar seçki şanslarını yüksək qiymətləndirdi və onu gələcəkdə də tərəfdaş olaraq gördüyünü bildirdi.

### 4.2.VMT və NATO ölkələrinin Avropada olan siyasi vəziyyətə münasibətləri

Fransız-sovet yaxınlaşması, Fransanın dəstəyinə arxalanan Moskvaya Avropada müharibədən sonrakı status-kvonun yaradılması səylərini gücləndirməyə imkan verdi. ABŞ ilə dialoq, SSRİ-nin Avropa ilə münasibətlərini normallaşdırmaq üçün təklif etdiyi tədbirlərin onun maraqlarına xələl gətirməməsi şərtilə, Vaşinqtonun Sovet İttifaqına çox qarşı çıxmayacağına ümid etməyə əsas verirdi. Əvvəla, Moskvanın, ABŞ-ın iştirakı olmadan Avropa problemlərinin həllinin mümkünsüzlüyü fikri ilə razılaşması lazım idi. İki blok arasında normal bir dialoq olmadan Avropadakı gərginliyin yumşaldılması qeyri-real gürünürdü.

5 iyul 1966-cı ildə, VMT ölkələrinin siyasi məsləhət komitəsi Buxarestdə keçirilən iclasda Avropada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Bəyannamə qəbul etdi. Onun əsas müddəaları bütün mövcud Avropa sərhədlərinin tanınması və Almaniya Federativ Respublikasının nüvə silahına yaxın buraxılmasının qadağan edilməsi çağırışı idi. VMT və NATO-nun hərbi qurumlarının eyni vaxtda ləğvi üçün qəsdən reallaşdırılmamış təkliflərlə yanaşı, Bəyannamədə, Qərbi və Şərqi Avropa ölkələri arasında hərtərəfli əlaqələrin genişləndirilməsi və Avropanın əsas problemlərinin həllinin tapılması maraqları naminə, dinc yanaşı yaşama prinsipləri əsasında, onlar arasındakı dialoqun genişləndirilməsi üçün çox əməli təşəbbüslər mövcud idi. Onlardan ən əsası alman məsələsi idi ki, hər iki alman dövlətinin mövcudluğu faktının tanınması əsasında qərar verilməsi təklif olunurdu. Bəyannamənin son hissəsində təhlükəsizlik və əməkdaşlıq mövzusunda ümum Avropa görüşünün çağırılması təklifi verilmişdi.

NATO ölkələri, Moskva ilə dialoq ideyasını dərhal qəbul etmədilər, çünki Alyansın rəhbərliyi uzun müddət idi Fransanın hərbi təşkilatından çıxmasından olduqca sarsılmışdı. Bir tərəfdən, mərkəzdənqaçma meyllərinə qarşı "yumşaqlıq"

birliyin dağılmasına səbəb ola bilərdi. Digər tərəfdən, Avropa ölkələrinin Avropadakı təhlükəsizlik problemlərinin sülh yolu ilə həllinə meyl etməsinə, SSRİ ilə münasibətləri yaxşılaşdırmaq üçün məhəl qoymamaq, təhlükəli idi. NATO-ya dəyişən beynəlxalq vəziyyətdə, optimal xəttini həyata keçirməyə imkan verən çevik siyasi proqram yaratmaq lazım idi.

1967-ci ilin payızında, Parisdən çıxarılan NATO qərargahı Brüsselə köçdü. Brüsseldə, 13-15 dekabrda NATO Şurasının iclası keçirildi və burada "P.Armelin hesabatı" nəzərdən keçirildi və təsdiq edildi. Məruzə görkəmli Belçika siyasətçisi, Belçika Xarici İşlər naziri Pyer Armelin rəhbərliyi altında hazırlanmış və "İttifaqın gələcək vəzifələri" başlığı altında təqdim olunmuşdu. Bu sənəd, Avropada yeni meyllər nəzərə alınmaqla, tövsiyə olunan vahid siyasət ideyasını formalaşdırdı. İttifaq ölkələrinin müdafiə gücünün artırılması istiqamətində səylərinin davam etdirilməsinin zəruriliyini vurğulayan məruzə müəllifləri, eyni zamanda Şərqlə Qərb arasındakı siyasi dialoqun genişləndirilməsi ideyasını və AFR-nin Sovet İttifaqı ilə əlaqə qurmaq səylərini yüksək qiymətləndirdilər. Məruzənin mətnində əsas məsələ, NATO-nun müdafiə səylərinin başa çatdırılması və beynəlxalq gərginliyi azaltma siyasətinin təmin edilməsi idi. Mətn, eyni zamanda, Avropada "ardıcıl qanun və qaydaların" qurulması zəruriliyi ideyasını özündə cəmləşdirmişdi. "Armel hesabatı" Avropa ölkələrində geniş müzakirə edildi. Sənəddəki müddəalar İittifaq liderlərinin vəzifələrini dar hərbi anlayışdan uzaqlaşdırmasına kömək etdi və yeni, əsasən siyasi funksiyalar axtarışına yönəltdi. Hesab olunur ki, bu yolla ilk dəfə NATO-nun dəyişdirilməsinin optimal formaları haqqında məsələ qaldırılmış oldu.

Brüssel sessiyasının "yumşaltmaq" sigortası, onun hərbi-siyasi qərarlarının əhəmiyyətinə kölgə salmadı. 15 dekabr 1967-ci ildə, Hərbi Planlama komitəsinin tövsiyəsi ilə sessiya İttifaqın hərbi doktrinasının əsası kimi, rəsmi olaraq "çevik cavab" anlayışını qəbul etdi və NATO silahlı qüvvələrinin inkişafı üçün ilk beş illik planı təsdiqlədi. Beləliklə, "çevik cavab" altı il ərzində Qərbin hərbi siyasətinin əsas ideyası kimi təsdiq olundi.

### 4.3.Sovet-Amerika rəhbərlərinin Leninqrad görüşünün baş tutmamasının səbəbləri

VMT dövlətlərinin Çexoslovakiyaya müdaxiləsi, SSRİ-nin Qərb ölkələri ilə münasibətlərini gərginləşdirdi. Deмək olar ki, bütün Qərbi Avropa dövlətləri və ABŞ Sovet İttifaqının hərəkətlərini pislədi. Buna baxmayaraq, bu vəziyyət SSRİ ilə Qərb arasında olan münasibətlər üçün mənfi xarakterə malik, əhəmiyyətli əməli nəticələrə malik olmadı. Xarici tərəfdaşların, Moskvanın hərəkətlərindən

qəzəblənməsinin ən aşkar təzahürü Amerika Prezidenti tərəfindən L.Consonun Leninqrada planlaşdırılan səfərinin ləğvi oldu.

Yenidən Sovet-Amerika münasibətlərində qısa fasilə yarandı. Lakin bu məsələ, SSRİ-ni narahat etmirdi. 1968-ci ilin yayı üçün məlum oldu ki, ABŞ-da demokratların qələbəsindən və məğlubiyyətindən asılı olmayaraq, yeni bir Prezident seçiləcək. SSRİ silahlara nəzarət mövzusunda danışıqlarını "digər komanda" ilə davam etdirməli olacaq idi. Sovet İttifaqına təzyiq etmək üçün mövqelərinin zəifliyi Vaşinqtona da məlum idi. Vyetnamda olan müharibə və ABŞ-da daxili narazılıqlar davam edirdi. Onun üçün də, Prezident yaxınlaşan dəyişikliyi sakitliklə qarşılayır və "pərdə arxasında" heç bir ciddi tədbir görmək istəmirdi. 1968-ci ilin noyabrında, keçirilən Prezident seçkilərində Demokratlar Partiyası məğlub oldu və Respublikaçı Riçard Nikson ABŞ-ın 37-ci prezidenti seçildi.

## 5.1960-cı illərdə Fransa beynəlxalq münasibətlərdə

### 5.1.Fransanın NATO hərbi təşkilatından çıxması

Fransa özünü ABŞ-dan uzaqlaşdırmaqda davam etdi. Amerikalılar da inad edirdilər. Consonun administrasiyası, Müdafiə naziri R.Maknamara ilə birlikdə "Çoxtərəfli Nüvə Qüvvələri" (ÇNQ) planından, 1963-cü ildə Ş.De Qoll tərəfindən ilk dəfə rədd edildikdən sonra da imtina etmədilər. 1963-cü ilin mayında, Ottavada keçirilən NATO Şurasının iclasında, İngiltərə Amerika planının yeniləşdirilməsini təklif etdi. Buna əsasən çoxtərəfli nüvə qüvvələri milli nüvə potensialı ilə birlikdə deyil, yanaşı yaradılacaq. Lakin, bu layihə də razılıqla qarşılanmadı.

16 dekabr 1964-cü ildə, Amerika nümayəndə heyəti, NATO Şurasının iclasında planın üçüncü variantını təqdim etdi. Bu planda, ortaq maliyyələşdirmə şərtləri ilə nüvə silahı daşıyan yerüstü döyüş gəmilərinin qurulması və ölkələrin planı maliyyələşdirməsinə uyğun nisbətdə səslərin paylanacağı nəzərdə tutulurdu. ÇNQ vahid ümumi NATO orqanının komandanlığına veriləcək idi. Almaniya, ən azı, bu şəkildə atom silahının istifadəsi ilə bağlı qərar qəbul edilməsində hüquq qazanacağına ümid edərək, layihədə iştirak etməyə razılıq verdi.

Amerika planını, özlərinə demək olar ki, təhqir kimi qəbul edən Fransa nümayəndə heyəti kəskin şəkildə etiraz etdi. Vaşinqtonun təklifləri, təhlükəsizlik məsələlərində Parisin Qərbin nüvə dövlətlərinin münasibətlərinin formulasına dair fikirləri ilə tamamilə zidd idi. Fransada belə bir plan, ABŞ, Fransa və İngiltərənin üçtərəfli rəhbərliyi şəklində qəbul olunurdu və əsas qərarları qəbul etməli olan üç dövlətin hər biri nüvə silahının istifadəsinə veto qoya bilərdi. Fransa nümayəndə heyəti yenidən ÇNQ -ə qarşı çıxdı. Kanada, Danimarka, Norveç, İslandiya və

Türkiyə planı qəbul etməkdən imtina etdilər. Hətta İngiltərə də, Birləşmiş Ştatlarla açıq şəkildə həmrəylik etməyə cəsarət etmədi. Yalnız Qərbi Almaniya Amerikanın təklifinin lehinə səs verdi. Birləşmiş Ştatlar planın qeyri- reallığını başa düşsələr də, ondan əl çəkmədilər.

Fransa ilə NATO arasında ziddiyyətlər böyüdü. Bu ÇNQ məsələsi deyildi. Parisin nöqteyi-nəzərindən, bu plan Amerikanın Qərbi Avropanı özünə tabe etdirmək səyi idi. Qərbi Avropa dövlətlərini, Vaşinqtonun itaətkar tərəfdaşı kimi, öz strategiyasına daxil edilməsinin təcəssümü idi. Onun məqsədi, Sovet İttifaqına qarşı çıxmaq üçün, ABŞ-a köhnə dünyada hərbi məkan ilə təmin etmək idi.

Ş. de Qoll Amerika Birləşmiş Ştatları ilə qarşıdurmaya getmək istəmirdi, amma Vaşinqtona da tabe olmağı Fransanın maraqlarının qorunmasının ən yaxşı vasitəsi hesab etmirdi. Fransa Prezidenti daha doğru qərar qəbul edirdi. Fransa, SSRİ-nin Avropa hissəsinin əsas şəhərlərini təhdid etmək üçün kifayət qədər də böyük olmayan öz nüvə potensialına sahib olsaydı, ölkəni Sovet İttifaqının ehtimal olunan təhdidindən qorumaq imkanına malik ola biləcəyini iddia edirdi.

Vaşinqtondan fərqli olaraq, Paris Sovet İttifaqına qarşı qlobal müharibə ehtimalını ciddi qəbul etmirdi. Fransa bunu istəmirdi, SSRİ-nin də müharibə etmək niyyətində olduğundan şübhələnmək üçün heç bir əsas görmürdü və müharibə zamanı heç bir tərəfdə iştirak etmək niyyətində deyildi. Ş.de Qoll, Sovet İttifaqının ABŞ-a təqdim edə biləcəyi təhlükənin avtomatik olaraq Fransa üçün təhdid olduğuna inanmırdı. Fransız strateqləri, SSRİ-nin Fransa üçün məhdud bir təhlükə yaratdığına əsaslanaraq, bu təhdidi öz məhdud nüvə potensialı ilə ala biləcəyinə əmin idi. Paris bu nüvə gücündən, Fransa üçün birbaşa təhlükə olarsa və yalnız öz istəyi ilə istifadə etməyi planlaşdırırdı.

Parisdə Fransanın təhlükəsizliyini, bütövlükdə Qərbin və ABŞ-ın təhlükəsizliyindən ayırırdılar. Ş.de Qoll, Amerika siyasətçilərinin diqqətə çəkdiyi "sosialist bloku" ilə müharibə ehtimalını rədd etdi. Onun düşüncələri "çox tərəfli müdafiə" və ya "çoxtərəfli qarşısını alma" nəzəriyyələrinə uyğun idi. Bu çərçivədə, SSRİ və müttəfiqləri ilə qarşıdurma bir neçə mənfi inkişaf ssenarilərindən biri idi. Fransa, özünü Qərbin bir hissəsi kimi qəbul edirdi, lakin, öz milli maraqları diktə etməsə idi, SSRİ-yə qarşı müharibədə iştirak etmək istəmirdi.

Qərbin, hərbi-siyasi strategiyası çərçivəsində Parisin təcrid olunması istəyi, 1965-1966-cı illərdə ABŞ-ın Vyetnamda olan müharibəsinin genişlənməsi ilə, daha da gücləndi. Fransa, Vaşinqtonu Vyetnamda hərbi əməliyyatlara başladığına görə kəskin tənqid etdi. Ş.de Qoll, Amerika Birləşmiş Ştatlarını fransızların "müstəmləkə mirasını" mənimsəməsində və əvvəllər fransızlara məxsus olan Hind-Çində geosiyasi keçid ərazisini ələ keçirmək istəyindən şübhələnirdi. Paris, Sovet İttifaqı

və Çinin Vyetnamın tərəfində müharibəyə cəlb olunaraq, ABŞ-a qarşı faktiki iştirakını nəzərə alırdı. Qüvvələr nisbəti daha çox, 1950-1953-cü illər Koreya müharibəsini xatırladırdı. Ş.de Qoll, ABŞ-ın iki kommunist dövləti ilə qarşıdurmasının nəzarətsiz qalması səbəbindən münaqişənin genişlənməsini istisna etmirdi. Fransa rəhbərliyi, Sovet-Amerika qarşıdurmasının girovuna çevrilmək təhlükəsi ilə üzləşmək istəmirdi. Paris, köklü bir qərar qəbulunun tələb olunduğu qənaətinə gəldi.

21 fevral 1966-cı ildə, Fransa rəsmi olaraq NATO hərbi təşkilatından çıxdığını elan etdi. Qərarını əsaslandıran Ş.de Qoll, dünyada dəyişən siyasi şəraitlə əlaqədar, NATO çərçivəsində həyata keçirilən siyasətin Fransanın maraqlarına zidd olduğunu və onun münaqişələrə avtomatik qoşulmasına səbəb ola biləcəyini bildirdi. Ş.de Qoll, ABŞ-dan NATO-nun bütün hərbi qərargahının Fransa ərazisindən təxliyəsinə, müttəfiq qüvvələrin çıxarılmasına və xarici hərbi bazaların ləğvinə nail oldu. Bütün Fransa silahlı qüvvələri, 1 iyul 1966-cı ildə milli komandanlığa tabe edildi və 6 oktyabr 1966-cı ildə Fransa nümayəndələri NATO daimi komitəsini tərk etdilər.

Fransanın NATO hərbi təşkilatından çıxması ilə əlaqədar olaraq, Alyansın liderləri NATO-nun böhranını aradan qaldırmaq üçün səylərini artırdılar. 1966-cı ilin noyabrında, 1965-ci ilin mayında yaradılmış NATO-nun Nüvə planlaşdırma komitəsi Hərbi planlaşdırma komitəsinə çevrildi və onun tərkibində ayrıca Nüvə planlaşdırma qrupu yaradıldı. Hər iki yeni quruma AFR-in nümayəndələri daxil edildi.

## 5.2.SSRİ - Fransa yaxınlaşması

ABŞ-dan və NATO-dan uzaqlaşmaq istiqamətində kəskin dönüş edən Fransa rəhbərliyi başa düşdü ki, Sovet-Fransa münasibətləri üçün görülən işlərin strateji mənasını izah etmək lazım idi. Ş.de Qoll, SSRİ-nin Fransanın Qərbdə olan yeni mövqeyini, hərbi-strateji məsələlərdə Vaşinqton və NATO ilə "ortaq məsuliyyət" bağlamaq istəməyən ölkə olaraq hiss etməsini və qiymətləndirməsini istəyirdi. Əgər, Moskva Fransanı ABŞ və digər NATO ölkələri ilə paralel olaraq təxmini rəqib olaraq görməsə idi, Fransanın NATO-dan ayrılaraq müstəqil olması əməli mənada özünü doğrultmuş ola bilərdi.

Ona görə, NATO-dan çıxma qərarından dərhal sonra, Şarl de Qoll Moskvaya rəsmi səfərə getdi.

Səfər 20 iyun - 1 iyul 1966-cı il tarixləri arasında baş tutdu. Bu görüşdə, ikitərəfli əlaqələrin əsas sənədlərindən biri olan Sovet-Fransa bəyannaməsi imzalanmışdı. Onlar, beynəlxalq vəziyyətin inkişaf perspektivləri ilə əlaqədar SSRİ və Fransa üçün ortaq elementləri müəyyənləşdirməyi bacardılar. Sovet İttifaqı, Fransa ilə NATO

arasında olan münaqişəyə xüsusi istinadlardan çəkinərək, Şarl de Qollun yeni xəttini dəstəklədi.

Tərəflər, Şərqlə Qərb arasında, bütün Avropada əməkdaşlığa yol açacaq mühit yaratmaq lazım olduğuna dair razılığa gəldilər. Bu, Avropa təhlükəsizlik məsələlərində qarşılıqlı dəstək üçün, Moskva və Parisin əhval-ruhiyyəsini ifadə edirdi. Sovet-Fransa hökumətlərarası müntəzəm məsləhətləşmələr haqqında bəndin bəyannaməyə daxil edilməsi xüsusi əhəmiyyət kəsb edirdi. 1970-ci ildə, digər Fransa Prezidenti Jorj Pompidunun idarəçiliyi dövründə, beynəlxalq inkişafın çətin məsələlərində sovet-fransız müzakirələrinin qaydalarını və dövrülüyünü tənzimləyən və ayrıca bir sənəd olan Siyasi məsləhətləşmələr haqqında Protokol hazırlanmışdır.

Əslində, 1966-cı il Sovet-Fransız bəyannaməsi və 1970-ci il protokolu Fransa ilə SSRİ arasında "məsləhət paktı"nın meydana gəlməsini nəzərdə tuturdu və bu, ikitərəfli münasibətlərin gələcək təcrübəsi ilə təsdiqləndi. Müharibədən sonrakı beynəlxalq münasibətlər tarixi üçün bu, görünməmiş bir hadisə idi.

Sovet-Fransız bəyannaməsinin imzalanması və Fransa ilə Sovet İttifaqı arasında sonrakı danışıqlar, Şərq və Qərb dövlətləri arasında əməkdaşlığa nümunə oldu. Sonrakı aylarda Fransa hökumət nümayəndə heyətləri Polşa, Rumıniya və digər Şərqi Avropa ölkələrinə səfərlər etdilər. Onların səfərlərində, Sovet rəhbərliyi üçün Fransa siyasətinin mənfi tərəfləri özünü göstərdi. Ş.de Qoll hesab edirdi ki, Qərbi Avropanın Amerika qəyyumluğundan azad edilməsi, Şərqi Avropa ölkələrinin Sovet İttifaqının təsirindən azad edilməsi ilə müşayiət olunmalıdır.

1960-cı illərin sonlarına qədər, Sovet İttifaqı və Fransa Avropada yumşalma prosesi iştirakçılarının dairəsini genişləndirmək üçün bir sıra addımlar atdılar, ABŞ-ı bu prosesə cəlb etməyin zəruriliyi barədə razılığa gəldilər. Sovet İttifaqı, ikitərəfli əməkdaşlıqdan çoxtərəfli əməkdaşlığa keçidi sürətləndirmək üçün, təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair Ümumavropa müşavirəsinin çağırılması ideyasını irəli sürdü. Fransa hökuməti, Avropada İkinci dünya müharibəsindən sonra qurulmuş dövlət sərhədlərinin toxunulmazlığının tanınmasının dəfələrlə təsdiqləmişdi. Bu cür açıqlamalar, Avropada parçalanmanı aradan qaldırmağa və beynəlxalq əməkdaşlığa kömək edirdi.

## 6. Latın Amerikasında "avtoritar dalğa" və "Tlatelolko müqaviləsi"nin bağlanması

Fövqəldövlətlərin silah yarışını məhdudlaşdırması, bitərəflik və qarışmamaq siyasətinin xeyrinə münasibətin yaxşılaşması planetin müxtəlif regionlarına, o cümlədən Qərb yarımkürəsində yerləşən bölgələrə təsir göstərdi. Latın Amerikası ölkələri ABŞ ilə münasibətlərinə praqmatik cəhətdən baxırdılar. Onlar Vaşinqtondan maksimum iqtisadi yardım almağa çalışaraq, imkan daxilində Sovet İttifaqı ilə qarşıdurma siyasətində iştirak etmirdilər.

Kennedi administrasiyası tərəfindən, 1959-cu il Kuba inqilabı dövründə olduğu kimi, diktator əleyhinə olan üsyanların təkrarlanmasının qarşısını almaq üçün, Tərəqqi Naminə Birlik proqramı yaradılmışdı. Birliyin yardım proqramı, Latın Amerikası ölkələrinin illik 2,5% artımını təmin etmək üçün, on il ərzində bir sıra tədbirləri həyata keçirilməsini nəzərdə tuturdu. Bu vəzifə üçün 110 milyard dollar ayrılmalı idi, bunun 20 milyardını ABŞ, beynəlxalq maliyyə təşkilatları, Qərbi Avropa ölkələri və Yaponiya təmin etməli, 80 milyard dolları Latın Amerikası ölkələri öz mənbələri hesabına tapmalı idi. Vəsait, Latın Amerikası və Karib dənizində şaxələndirilmiş iqtisadiyyatın yaradılması, sənayeləşmə, Latın Amerikası ölkələrinin iqtisadi inteqrasiyasına dəstək, onlarda aqrar və vergi islahatlarının həyata keçirilməsi, təhsil və səhiyyə sisteminin yaxşılaşdırılması, həmçinin ictimai və siyasi həyatın demokratikləşdirilməsi tədbirlərinə xərclənməli idi.

Birlik proqramının icrası çətinliklərlə üzləşdi. 1971-ci il üçün planlaşdırılan iqtisadi göstəricilər əldə olunmadı. Proqramın tərtibatçıları Latın Amerikası ölkələrinin xüsusiyyətlərini, ilk növbədə Latın amerikalılarının ABŞ və Avropadan fərqli olan əmək etikasını nəzərə almamışdılar. Bir sıra dövlətlərdə aparılan dəyişikliklər kənd təsərrüfatında istehsalın lazımi səviyyəsini təmin etməmiş və Latın Amerikasının sənaye gücünü gücləndirməmişdi. 1962-1971-ci illərdə, region ölkələrində ÜDM artımı müşahidə edilsə də, adambaşına gəlir artımı cəmi 1,7% təşkil etdi, Latın Amerikası ölkələrinin xarici borcu isə 10 milyarddan 17,6 milyard dollara yüksəldi. Torpaq sahələrinin miqyası, təhsil və səhiyyə sahəsindəki tədbirlər əhali artımı ilə ayaqlaşa bilmirdilər.

Birliyin, rəsmi elan edilmiş məqsədləri baxımından proqramın siyasi nəticələri çox özünəməxsus xüsusiyyətlərə malik idi. Formal olaraq, onun vəzifələrindən biri vaxtında və ardıcıl olaraq ictimai-siyasi və iqtisadi islahatlar yolu ilə, solçu inqilabların qarşısını almasını nəzərdə tutan, demokratikləşdirmə elan edildi. Tərəqqi Naminə Birliyin proqramı, Kuba təcrübəsinin digər Latın Amerikası ölkələrinə

yayılması təhlükəsini aradan qaldırmağa kömək etdi. Lakin, bu məqsədə bölgənin əksər ölkələrində sağçı ( Peru və Panamada isə-solçu) diktator idarəçiliklərinin qurulması ilə nail olundu.

60-cı illər Latın Amerikasında hərbi hakimiyyət dövrünün başlanğıcı oldu. 30 il ərzində dünyanın bu hissəsində Amerika tipli demokratiyanın qurulması təxirə salındı. 1961-ci ilin noyabrında, Ekvadorda hərbi çevriliş baş verdi. 1962-ci ildə, ordu Argentina və Peruda, 1963-cü ildə isə Qvatemala və Dominikan Respublikasında demokratik hökumətləri hakimiyyətdən uzaqlaşdırdılar. Braziliya ordusunun, 31 mart - 1 aprel 1964-cü ildə həyata keçirdiyi "aprel inqilabı" Cənubi Amerikadakı vəziyyətə çox böyük təsir etdi. Braziliya ordusu, Qərb yarımkürəsində ilk dəfə olaraq millətçi yeni mühafizəkar "əks-inqilab"ın aydın və anlaşıqlı proqramını təqdim etmişdi. Bu demokratik hadisə deyildi, əməli cəhətdən Kuba inqilabi yolunun alternativinə çevrilmişdi.

Braziliyadan sonra hərbçilər, Boliviya (1964), Argentina (1966), Peru (1968), Panama (1969), Uruqvay (1972), Ekvador (1972), Çili (1973) və yenidən Argentinada (1976) hakimiyyəti ələ keçirdilər. Çevrilişlər dalğası, 80-ci illərin ortalarından azalmağa başladı. Onların hamısı, 60-cı illərin əvvəllərində Braziliyanın Ali Hərbi Məktəbinin mühitində hazırlanmış milli təhlükəsizlik doktrinasının həyata keçirilməsinin müxtəlif planları idi. Bu doktrinanın əsas müddəası təhlükəsizlik və inkişafın əlaqələndirilməsi ideyası idi. Hər ikisini təmin edən əsas vasitə dövlət idi. Şəxsin və cəmiyyətin (habelə xarici kapitalın) hüquqları dövlətin təhlükəsizlik maraqlarına münasibətdə ikinci dərəcəli kimi qəbul edilirdi. Belə bir siyasi istiqamət, həm Braziliya və Boliviyanın sağ avtoritar hakimiyyətlərində, eləcə də Panama və Perunun sol avtoritar hökumətlərində də yaranmışdı. Eyni zamanda, Braziliya hərbçiləri, liberal demokratiyanın müddəaları ilə diktator istəklərinin ziddiyyətinə baxmayaraq, panamerikanizmin və ABŞ siyasətinə uyğun hərəkət etməyin tərəfdarı idilər.

Birliyin proqramının həyata keçirilməsi, regional inteqrasiya proseslərinin qarşısını alan, təsadüfi olsa da, vacib, ancaq, mənfi nəticələrə-- diktatura idarəçiliklərinin bir-birlərinə hiss etdirdikləri qarşılıqlı inamsızlığa səbəb olurdu. 60-cı illərin ortalarında, belə nəticələrdən biri kimi Argentina-Braziliya antaqonizmini göstərmək olar. Güclü və hərbi Braziliyaya qarşı münasibətdə, bir çox qonşu dövlətlər tərəfindən inamsızlıq yaranmışdı. Braziliya hərbi qüvvələrinin kommunizmə qarşı "xüsusi məsuliyyət"ini öz üzərilərinə götürmək meyllərini açıq göstərmələri, qonşu ölkələrin mütəxəssisləri tərəfindən "Braziliya çağırışı"nın daha ciddi təhlil etmələrinə səbəb olurdu.

İlk növbədə, qonşu ölkələrdə öz ehtimal olunan rəqiblərini görməyə adət edən hərbçilərin düşüncəsi, Latın Amerikası inteqrasiya layihələrinin - Latın Amerikası Azad Ticarət assosasiyasının (Montevideo müqaviləsi, 1960), Laplat qrupunun ("Braziliya müqaviləsi", 1969) və And qrupunun ("Kartaxen müqaviləsi" 1969) taleyinə mənfi təsir göstərdi. Avropa ilə müqayisədə, Latın Amerikasında inteqrasiya prosesi təxminən 25-30 il gecikmişdi.

ABŞ, Latın Amerikasında olan avtoritarizmi qınamadı. Yeni hakimiyyətlərin tanınması meyarı, ABŞ-a dostluq və Amerika kapitalı üçün, əlverişli şərait yaratmağa hazır olmağın ölçüsü idi. Lakin diktator hökumətləri, ABŞ-ın bütün siyasətlərinin ardınca getmədilər. 60-cı illərin ikinci yarısında, Braziliyanın hərbi hökuməti ABŞ siyasi istiqamətindən yayındı; xarici siyasətdəki millətçilik hissləri anti-kommunizm siyasətindən üstün olmağa başladı. 1968-ci ildə Braziliya ABŞ-ın tövsiyəsinə əməl etməyərək, nüvə enerjisinin inkişafına mane olması bəhanəsi ilə, Nüvə Silahlarının Yayılmaması Sazişinə qoşulmaqdan imtina etdi. "Tlatelolko müqaviləsini" ilk təsdiqləyən Braziliya, onun ölkədə qüvvəyə minməsi barədə heç bir açıqlama vermədi. ABŞ xüsusi xidmət orqanları hesab edirdilər ki, Braziliya öz nüvə silahını yaratmaq üçün işə başlamışdır.

"Vətənpərvər", milli yönümlü, istiqamətli meyllər həm avtoritar, həm də demokratiya şəraitində olan digər ölkələrin siyasətində də görünməyə başladı. ABŞ-dan fərqli olan müstəqillik yaratmaq meylləri, inkişaf, siyasi islahatlar, təhlükəsizlik və insan hüquqlarını təmin etmək vəzifələrini başa düşmək istəyi, ABŞ-dan asılı olmayan, lakin Latın Amerikası hüdudunda əlaqələndirilmiş bir siyasət aparmaq cəhdləri ilə nəticələndi.

Latın Amerikasında, kollektiv diplomatiya yolunda ilk vacib addım, 14 fevral 1967-ci ildə Mexiko şəhərinin Tlatelolko adlanan rayonunda, Latın Amerikasında Nüvəsiz Zonanın yaradılması haqqında Müqavilənin ("Tlatelolko müqaviləsi") imzalanması oldu. Bu, beynəlxalq hüquqda dünyanın geniş və sıx məskunlaşdığı regionda nüvəsiz zonanın statusunu təmin etmək üçün ilk cəhd idi.

Bölgə ölkələri, fövqəldövlətlərin qlobal qarşıdurmada iştirakından qorunmağa çalışırdılar. Saziş, iştirakçılarına öz ərazilərində nüvə silahlarının sınaqdan keçirilməsini, istifadəsini, istehsalını və ya əldə edilməsini, alınmasını, saxlanmasını, quraşdırılmasını, yerləşdirilməsini və ya hər hansı bir formada sahib olunmasını qadağan edirdi. 70-ci illərin sonunda, bütün nüvə dövlətləri Latın Amerikasında yaranan nüvəsiz bölgə statusunu tanıyaraq qəbul etdilər.

## 7."1968-ci ilin dünya inqilabı" və beynəlxalq münasibətlər

### 7.1.Solçu etiraz əhval-ruhiyyəsinin ümumdünya dalğasının beynəlxalq münasibətlərə təsiri

ABŞ-da baş verən etiraz dalğasının artması, ümumdünya təmayülün təzahürü idi. Bu proses, müxtəlif formalarda bir çox ölkələrə xas olan və ictimai hərəkatların, əsasən təhsilli gənclərin və tələbələrin, habelə qadınların bərabər hüquqları uğrunda, əsasən solçu hərəkatların fəallaşması ilə gündəmə gələn etiraz dalğaları idi. Onlara əhalinin təşkilatlanmış qruplarının insan hüquq müdafiəçiləri və bir çox azlıqların təşkilatları, eləcə də elan edilmiş ictimai-siyasi proqramları olmayan anarxist qruplar da qoşulmuşdu.

60-cı illərin sonunda, İkinci dünya müharibəsindən sonra doğulan gənclərin ilk nəsli fəal ictimai həyata qoşulmağa başladı. Onlar həyat, sosial quruluş və dövlətə münasibətdə öz yeri haqqında yeni fikirlər gətirmişdilər. Bu nəsil əvvəlkindən daha savadlı idi, lakin ənənəvi əxlaq, ailə tərbiyəsi, dəyərlər və sosial iyerarxiya haqqında təsəvvürləri az idi. Həyatda öz yerlərini yetərincə tapmayan, dövlət orqanları tərəfindən heç bir anlayışla qəbul olunmayan və ənənəvi ailə münasibətlərinə uyğunlaşmayan gənclərin bir hissəsi, radikal forma almış siyasi mübarizə sahəsində öz fəallıqlarını istifadə etməklə, çıxış yolu tapmağa çalışırdılar.

60-cı illər Avropa ölkələrində və Yaponiyada "qırmızı briqadalar"ın görünməmiş fəallığı dövrüdür. Bu təşkilatların üzvlərinin görüşləri, L.D.Trotski, MaoTsze-dun və M. A. Bakuninin fikirlərinin qəribə birləşmələri xarakterində idi. "Solçular" gənclərin orta təbəqələrində, o cümlədən tələbələr arasında rəğbət qazanaraq, inqilabi zorakılıq ideyalarını təbliğ edirdilər.

1968-ci ilin mayında, Fransada gənclərin ən kəskin formada olan iğtişaşları ("barrikadalar gecəsi") baş verdi. Polislə qanlı toqquşmalarla müşayiət olunan bu iğtişaşlarda tələbə nümayişləri ilə eyni vaxtda, sənaye işçiləri də tətil etməyə başladılar. 1968-ci ilin aprel ayında, oxşar zorakılıq hadisələri Qərbi Almaniyada, Meksikada, Braziliyada, Pakistanda və Yaponiyada da baş verdi. 1968-ci ilin mayında, Almaniyanın Bundestaqı ölkədə vəziyyətin nəzarətsiz inkişafının qarşısını almaq üçün, hətta ölkədə fövqəladə vəziyyət idarəsi tətbiq etdi.

İngiltərədə gənclərin müharibə əleyhinə etirazları baş verdiyi zaman, ölkədə qadınlar da müharibə əleyhinə şüarlar altında tədbirlər keçirirdilər. İngiltərədə vəziyyət, katolik tələbələrin mühüm rol oynadığı Şimali İrlandiyanın müstəqillik hərəkatının artması ilə, daha da ağırlaşdı. Şimali İrlandiyada olan gərginlik, 1969-cu

ilin aprelində İrlandiyanın şimalındakı Belfast və Londonderri şəhərlərində katolik və protestant əhali arasında güclü dini qarşıdurmalarla nəticələndi. Elə bu illərdə, ABŞ və Qərbi Avropada cinsi azlıqların insan haqları hərəkatları özünü təsdiqləməyə başladı.

Gənclərin etiraz dalğası sosialist ölkələrinə də keçdi. 1968-ci ilin sentyabrında, Polşada tələbə iğtişaşları və tətilləri baş verdi. Çexoslovakiyada, bu etirazlar "Praqa baharı" hadisələri ilə birlikdə davam etməyə başladı. Bu hərəkatlar, Sovet İttifaqında, 1966-cı ildə başlayan və 70-ci illərin ortalarına qədər davam edən, müxaliflərin çıxışlarına səbəb oldu. 1968-ci ildəki etiraz əhval-ruhiyyəsi, Rusiyadakı 1917-ci il Oktyabr inqilabı kimi, heç bir ölkədə ictimai-siyasi iğtişaşlara səbəb olmasa da, o dövrün hadisələri ilə bağlı elmi ədəbiyyatda “1968-ci il dünya inqilabı” ifadəsinə rast gəlinir.

Sovet rəhbərliyinin, 60-cı illərin inqilabi cərəyanlarına münasibəti ikili idi. Moskva, bu hadisələrin "imperializmi" zəiflətdiklərini anlayaraq, etiraz hərəkətlərini yaxından izləyirdi. Lakin, qərbdə olan gənclər hərəkatı SSRİ-dən asılı olmayaraq inkişaf edirdi. Bu hərəkat, ölkələrin yuxarı dairələrin, hakimiyyət tərəfindən edilən məcburi tədbirlərin, fərdi azadlığa qarşı həyata keçirilən məhdudiyyətlərin əleyhinə yönəlmişdi. Bu mənada, onlar qərb tipli burjua dövlətlərinə və eyni zamanda, SSRİ və digər sosialist ölkələrində dövlət sosializmin də əleyhinə çıxırdılar. Etiraz hisslərinin "sosialist dünyasına" nəzarətsiz nüfuzu Sovet İttifaqının maraqlarına uyğun gəlmədiyinə görə, onu ləğv etməyə başladi. Bu məsələdə, SSRİ-nin hakim elitasının maraqları, Amerika siyasi quruluşunun əhval-ruhiyyəsinə və Qərbi Avropa ölkələrinin hakim dairələrinin səylərinə uyğun idi. Sosial fikir ayrılığı hərəkatlarının “aşağıdan” yüksəlməsi prosesi, hökumətlərin beynəlxalq sistemin “yuxarıdan” tezliklə sabitləşdirilməsinə nail olmaq istəyinə səbəb olurdu.

### 7.2.Macarıstan və Çexoslovakiyada ölkə daxili islahat cəhdləri

60-cı illərin ortalarında, bir sıra sosialist ölkələrində iqtisadi sistemlərdə islahatlar aparmaq üçün ehtiyatlı sınaqlar aparılırdı. Dəyişikliklərin əsas istiqaməti, istehsalçıların əməyinin nəticələrinə şəxsi marağın artırılması idi. 1965-ci ilin sentyabrında, SSRİ-də başlayan "Kosıgin islahatları" ilə əlaqədar həyata keçirilən dəyişikliklərin obyekti dövlət müəssisələri idi. Sosialist ölkələrində (Macarıstan, Çexoslovakiya, Polşa) kiçik fərdi mülkiyyət sahələrinin canlanması üçün bəzi addımlar atıldı.

Ən uğurlu islahatlara Macarıstanda nail olundu. 1956-cı ildən sonra, ölkədə birpartiyalı sistem bərpa olunsa da, Macarıstan Zəhmətkeşlər Partiyasının Mərkəzi Komitəsinin Birinci katibi Y. Kadar, açıq şəkildə iqtidarın əleyhinə olmayan bütün

qüvvələrin hakim partiyanın tərəfinə cəlb edilməsinin vacibliyini başa düşürdü. Onun şüarı "Bizə qarşı olmayan, bizimlədir" idi. Y.Kadar hörmətlə, lakin qətiyyətlə Sovet rəhbərliyinin Macarıstanda sosializm qurma üsullarını diktə etmək cəhdlərini rədd etmişdi.

1966-cı ildə, Macarıstanda iqtisadi islahat aparıldı və bunun sayəsində ölkə digər sosialist dövlətlərindən inkişaf xətti ilə fərqlənməyə başladı. Macarıstanda sənaye və kənd təsərrüfatındakı kiçik fərdi mülkiyyət, iqtisadi çiçəklənməyə şərait yaradaraq, qanuni fəaliyyət göstərirdi. Ancaq, siyasətdə Kommunist Partiyasının nəzarəti və sosializmin qurulması göstərişləri saxlanılırdı. "Özünəməxsus yaradıcı qüvvələr"inin daha tam istifadəsi maraqları baxımından sosializm modelinin yaxşılaşdırılması məsələsi əsas vəzifə kimi qəbul olunurdu. İqtisadi məsələlərdə təftişçiliyin siyasi mühafizəkarlıqla birləşməsi, Y.Kadara Macarıstanı sonrakı onilliklərdə daxili böhrandan uğurla qoruyan sistemin canlı modelini yaratmağa imkan verdi.

Sosialist ölkələrində islahatların aparılması, onlarda daha böyük ideoloji boşluq mühitinin yaranmasına şərait yaratdı. Müxtəlif ölkələrdə onun ölçüsü eyni deyildi. 1967-ci ilin sonlarında, 50-ci illərdən etibarən ölkəyə rəhbərlik edən ölkə Prezidenti və Çexoslovakiya Kommunist Partiyasının lideri A. Novotninin (64 yaş, Çexiya) siyasi xətti tənqidə məruz qaldı. Onu, partiya-dövlət bürokratiyasında çex və slovak maraqlarını uzlaşdıra bilməməkdə ittiham edirdilər. Bu məsələ slovakların narazılığının artmasına səbəb olurdu. Eyni zamanda, A.Novotnı mədəniyyət, təhsil və s. məsələlərdə öz fəaliyyətsizliyinə və mühafizəkarlığına görə tənqid olunurdu.

1968-ci ilin yanvarında, ÇKP-nin MK Birinci katibi A.Novotnı öz vəzifəsindən istefa vermək məcburiyyətində qaldı. Lakin o, 1968-ci ilin martına qədər Çexoslovakiyanın Prezidenti vəzifəsində qaldı. Hakim partiyada iqtidara gənc bir lider gəldi - Aleksandr Dubcek (47 yaş, slovak). Ölkədəki dəyişikliklərin gözlənilməsi şəraitində, "insan üzlü sosializmin" qurulması ilə bağlı müzakirə tədbirləri başlandı. O, bir ictimai-siyasi hərəkata çevrilərək, kommunistlərin nəzarətindən çıxdı.

1968-ci ilin yazında, Çexoslovak ədəbi ziyalılarının dairələrində senzuranın aradan qaldırılması, vətəndaş və şəxsi azadlıqların həqiqi təminatlarına nail olmaq tələbləri ilə ortaya çıxan liberal hisslər dalğası yüksəldi. Müxalifətin liderlərindən biri gənc çex dramaturqu Vatclav Havel idi (1989-cu ildə o, Çexoslovakiyanın Prezidenti seçilmişdi).

“Praqa baharı” hərəkatı əvvəlcə sosializmin yaxşılaşdırılması ilə bağlı müzakirələrin axınında başladığından, ictimai hisslərə qismən rəğbət bəsləyən A.Dubcek rəhbərliyi ona qarşı tədbirlər görmədi. Onun narahatlığı, Moskvanın

Çexoslovakiya hadisələrinə müdaxilə etməsinə əsas vermək istəməməsi idi. SSRİ, Praqada baş verən vəziyyətin inkişafını izləyərək, Çexoslovakiya rəhbərliyinə müxalifətə qarşı sərt tədbirlər görməyi tövsiyə etdi. A. Dubcek bu göstərişlərə əməl etmədi.

Bu vaxt, müxalifət hərəkatı radikal formalara keçməyə başladı. Onların iştirakçıları artıq sosializmi modernləşdirmək deyil, dövlət sistemini dəyişdirməkdən danışırdılar. Sovet İttifaqının, Çexoslovakiyada hərbi silahlı qüvvələrinin yerləşməsi və ölkənin Varşava Paktında iştirakı, ölkənin müstəqil inkişafına əngəllər hesab olunduğundan, müxalifətin fəaliyyəti obyektiv şəkildə antisovet xarakter almışdı. Müxalifətin hərəkətverici qüvvələri tələbələr, gənclər və savadlı şəhər təbəqələri idi. 1968-ci ilin yayında, Praqada hadisələr özünün ən yüksək zirvəsinə çatdı. İştirakçılar şəhərdə hakimiyyət dəyişikliyini tələb edən nümayişlər keçirməyə başladılar.

21 avqust 1968-ci ildə, SSRİ-nin təzyiqi ilə Varşava Müqaviləsi Təşkilatının rəhbərliyi, Çexoslovakiyaya kollektiv müdaxilə etmək qərarını qəbul etdi. Müdaxilənin rəsmi səbəbi, ADR, SSRİ, Polşa, Macarıstan və Bolqarıstan Kommunist Partiyalarının bir sıra liderlərinin Bratislavada keçirdiyi müşavirəsinin qərarı və Çexoslovakiya hökumətinin bəzi üzvlərinin ölkədə “sosializmi xilas etmək” xahişi ilə olan müraciəti oldu.

ADR, Polşa, Macarıstan və Bolqarıstanın hərbi dəstələri  Praqa və Çexoslovakiyanın digər şəhərlərinə yeridilsə də, müxalifəti yatırtmaq üçün istifadə olunan silahlı qüvvələrin əsas hissəsi Sovet İttifaqından gəlmişdi. Rumıniya rəhbərliyi, VMT ölkələrinin qərarı ilə razılaşmadı və hərbi tədbirdə iştirak etməkdən imtina etdi. Silahlı müdaxilə, müxalifət hərəkatının yatırılmasına imkan verdi və 1968-ci ilin payızına qədər, Çexoslovakiyada olan vəziyyətə nəzarət, rəhbərliyi dəyişdirilən Kommunist Partiyasının əlinə keçdi. Lüdviq Svoboda (73 yaş, Çex) Çexoslovakiyanın yeni Prezidenti oldu və Qustav Qusak (55 yaş, Slovakiya) ÇKP Mərkəzi Komitəsinin Birinci katibi oldu. Onların hər ikisi, A.Dubçekin mənsub olduğu nəsildən daha yaşlı  kommunistlərin nümayəndələrinə aid  idi.

O vaxtdan etibarən, Sovet İttifaqı və digər sosialist ölkələrində gənc partiya namizədlərinə şübhə ilə yanaşırdılar. Hakimiyyəti müharibə illərinin eyni nəslinin nümayəndələrinin  "dairə”si daxilində bir-birlərinə təhvil vermək ənənəsi qeydə alınırdı. Bu, kadrların yenilənməsinin təbii gedişatını pozurdu, partiya rəhbərliyinin yuxarı təbəqəsinin qocalmasına səbəb olaraq, 80-ci illərin ortalarına qədər bütün sosialist ölkələrində özünü göstərən durğunluğu proqramlaşdırmış  oldu.

### 7.3."Sosialist beynəlmiləlçiliyi" doktrinası

Çexoslovakiyaya müdaxilə həm dünyada, həm də "sosialist düşərgəsi" daxilində olan solçu, sosialist və kommunist baxışları olan insanlarda da məyusluq təəssüratı yaratdı. Moskvada, Çexoslovakiya hadisələri ilə əlaqədar azsaylı və zəif müxalifətçi qruplar tərəfindən etiraz çıxışları baş verdi. SSRİ üçün daha bir narahatlıq verən bir hadisə, Çexoslovakiyada keçirilən hərbi əməliyyatı dəstəkləməkdən imtina edən Rumıniyanın mövqeyi idi. Bu məsələ, VMT-dəki fikir ayrılıqlarını birmənalı şəkildə ifadə edirdi. 12 sentyabr 1968-ci ildə, Albaniya VMT-dən çıxdı. Çexoslovakiyada baş verən hadisələr, SSRİ-nin Çin rəhbərliyindəki fraksiyalararası mübarizəyə yardım göstərmək adı altında ölkəyə müdaxilə edərək, Çində "Çexoslovak ssenarisini" təkrarlamaq niyyətinin olması barədə, Çin Xalq Respublikasının rəhbərliyini narahat etməyə başladı.

Qərbi Avropanın ən böyük kommunist partiyaları (Fransa, İtaliya, İspaniya) bu günə qədər öz proqramlarını Şərqi Avropanın hakim kommunist partiyalarının fikirləri ilə əlaqələndirməyə çalışsalar da, SSRİ-nin hərəkətlərini pisləyir və müdaxilə ilə əlaqədar VMT ölkələrinin siyasi və ideoloji mövqelərini qəbul etmirdilər. Yuqoslaviyanın, Yaponiyanın və təbii ki, Çinin Kommunist partiyaları Sovet İttifaqının hərəkətlərini qınayırdılar.

Beynəlxalq Kommunist hərəkatının cərgələrində artan ideoloji fərqlərdən qorxan Sovet rəhbərliyi, 1968-ci ildə müxtəlif ölkələrin fəhlə sinfinin sinfi mənafelərinin beynəlmiləlçi mahiyyəti haqqında, marksist-leninist müddəalarını modernləşdirdi və onu "sosialist beynəlmiləlçiliyin" dəqiq doktrinası kimi təqdim etdi. Sovet ideoloqlarının təfsirində, sosialist beynəlmiləlçiliyi dünyanın sosialist dövlətlərinin fundamental sinfi maraqları və tarixi taleləri olan cəmiyyətin doktrinası kimi təqdim edilmiş oldu. Bu tezisdən, Sov.İKP nəzəriyyəçiləri, sosialist ölkələri arasında əlaqələri "sosialist həmrəyliyi" prinsipi əsasında qurmaq lazım olduğunu, o, da öz növbəsində" sülh və sosializmə"təhlükə olduqda sosialist ölkələrinin beynəlxalq maraqlarını qorumaq üçün "qardaş yardımı", o cümlədən hərbi yardımın qarşılıqlı təmin edilməsini nəzərdə tuturdu ".

Sov.İKP sosialist inkişaf yolundan uzaqlaşan hər bir ölkənin "sosialist seçimi" təhlükəsi yarandığı təqdirdə, güc tətbiq edilməsinin zəruriliyi haqqında tezisi nəzəri əsas kimi götürdi. Qeyd etmək lazımdır ki, bu tezis Sovet İttifaqı tərəfindən ehtiyatla şərh edilmişdir, yalnız sosializm seçimi etmiş, yəni özünü sosialist kimi tanıyan və Sovet İttifaqı tərəfindən sosialist kimi tanınan ölkələrə şamil edilmişdir. Ona görə 60-cı illərin sonundan başlayaraq, Sovet rəhbərliyinin "sosialist birliyi" adlandırdığı ölkələrin dəqiq siyahıları həmişə Sov.İKP qurultaylarının materiallarına daxil

edilirdi. Bura, Avropadakı VMT dövlətləri, Asiyada VDR və Monqolustan, Latın Amerikasında Kuba aid idi.

ÇXR, KXDR, Albaniya və Yuqoslaviya 60-70-ci illərin sovet terminologiyasında sosialist birliyinin üzvü kimi tanınmırdılar, baxmayaraq ki, onların hamısı (Çin istisna olmaqla) sosialist adlandırılmaqdan imtina etmirdilər. Ona görə də, Sovet ideologiyası baxımından "sosialist beynəlmiləlçiliyi" doktrinası onlara tətbiq edilmirdi və tətbiq oluna bilməzdi. Lakin, ÇXR rəhbərliyi sovet doktrinası ilə bağlı öz anlayışı var idi, belə ki, Sovet İttifaqının bu ölkədə, "sosializmə qarşı təhlükəni" aradan qaldırmaq bəhanəsi ilə, Çinə hücum etmək niyyətinə haqq qazandırmaq cəhdi kimi qiymətləndirirdi.

Qərbdə "sosialist beynəlmiləlçiliyi" doktrinası "məhdud suverenlik" doktrinası və ya "Brejnev doktrinası" adlanırdı. Bu ad xarici ədəbiyyatda saxlanılır.

Çexoslovakiyadakı hadisələr "sosialist düşərgəsi" daxilində siyasi vəziyyətin inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdi. Çexoslovakiya müxalifətinin sıxışdırılması, Sov.İKP və Şərqi Avropa ölkələrinin kommunist partiyalarında kommunist elitasının daha liberal hissəsinin mövqeyinə hücum etmək üçün mühafizəkar qüvvələrə bəhanə olmuşdu. Çexoslovakiyada müxalifətin çıxışları ilə nəticələnən ideoloji və siyasi təftişçiliyik təhlükəsinin mənbəyinin, 60-cı illərin ortalarından başlayan iqtisadi islahatlarının olduğu göstərilirdi. 1968-ci ildən sonra, bu islahatlar dayandılmış və ya dondurulmuşdu. SSRİ-də "Kosıgin islahatları"nın nəticələri məhv edilməsə də, inkişaf da etdirilmədi. Macarıstanda iqtisadi dəyişikliklər dayandırıldı və yalnız, 80-ci illərdə yenidən davam etdi. Sosialist ölkələrindəki vəziyyət daha da ağırlaşdı. Bu təzyiqlər, SSRİ-də 30-cu illərin hadisələri ilə müqayisə olunsa da, müxaliflərə qarşı geniş miqyaslı cəza tədbirləri həyata keçirilmədi.

* * *

Çexoslovakiyada baş verən hadisələrə, Qərbin ləng reaksiya verməsi hamıya məlum olanı təsdiqlədi: Qərb ölkələri Şərqi Avropanı "Sovet təsir zonası" kimi tanıyırdılar və onun "daxili işlərinə" qarışmaq istəmirdilər. Avropada de –faktonun status-kvo məntiqi üstünlük təşkil etmişdi.

Qərb, bu status-kvo ilə əlaqədar, SSRİ-nin öz maraqlarını müdafiə etmək üçün güc tətbiq etməyə hazır olduğuna əmin oldu. Sovet rəhbərliyi, vəziyyətin inkişafının Sovet İttifaqının təhlükəsizliyinə zərər verə biləcəyini düşündüyü andan, Çexoslovakiya işlərinə müdaxilə etmək qətiyyəti, Avropa dövlətlərini, xüsusən Finlandiyanı qorxutdu. Bu ölkələr yeni böhranlar istəmirdilər və status-kvonun tanınmasını, Şərqlə Qərb arasında münasibətlərin normallaşması nəticəsində gərginliklərin zəifədilməsi üçün, sülh və iqtisadi perspektivləri məqbul qiymət hesab edirdilər. Yumşalmaya doğru psixoloji dönüş sağlam düşüncə ilə əlaqədar idi. Onlar, Avropa təhlükəsizlik məsələlərində qeyri-müəyyənliyin davam etməsinin Çexoslovakiyaya bənzər vəziyyətə səbəb ola biləcəyindən qorxurdular.

## ÜÇÜNCÜ FƏSİL -- II BÖLMƏ
## 1960-cı illərdə Asiya və Afrikada beynəlxalq vəziyyət (1962-1968-ci illər)

**1. Beynəlxalq münasibətlərdə Kipr problemi (1960-cı illər)**

**2.Beynəlxalq münasibətlərdə Çin-SSRİ qarşıdurması**

**3.Hindistan-Pakistan müharibəsi və beynəlxalq münasibətlər**

**4.Beynəlxalq münasibətlərdə ABŞ Vyetnam münaqişəsi**

4.1.Vyetnam ətrafında artan gərginlik və Vyetnam-Amerika qarşıdurmasının başlanması

4.2.ABŞ--- Vyetnam müharibəsinin başlanması

4.3.Vyetnamda nizamlama cəhdləri və ABŞ-da müharibə əleyhinə etirazların artması

**5.Cənubi- şərqi və Şərqi Asiya ölkələri beynəlxalq münasibətlərdə**

5.1.İndoneziyada siyasi hadisələr

5.2.Uzaq Şərqdə beynəlxalq vəziyyət (1960-cı illər)

5.3.ASEAN-ın təşkili (1967-ci il avqust)

**6.Yaxın Şərq beynəlxalq münasibətlərdə**

6.1.Süveyş böhranından sonra Yaxın Şərqdə siyasi vəziyyət

6.2.Yaxın Şərqdə siyasi vəziyyətin gərginləşməsi

6.3.Yaxın Şərqdə ”Altı günlük” müharibə

6.4.Fələstin ərəb xalqının problemi

**7.Afrika beynəlxalq münasibətlərdə**

7.1.Cənubi Afrikada aparteidə qarşı mübarizə

7.2.Konqoda siyasi vəziyyətin sabitləşməsi

7.3.Nigeriyada qarşıdurma (may 1967)

### 1.Beynəlxalq münasibətlərdə Kipr problemi (1960-cı illər)

Böyük dövlətlərin, silahlar üzərində nəzarət məsələlərini diqqət mərkəzində saxlamaları, onları dünyanın müxtəlif yerlərində aşağı intensivli münaqişələrin baş verməsinə daha az fikir verməsinə səbəb olurdu. Kiprdə olan qeyri-sabitlik, adanın əhalisinin qarışıq etnik tərkibinə görə idi, əksəriyyəti yunanlar, az saylılar türklər idi.

1955-ci ildə Türkiyə, İngiltərə və Yunanıstanın London konfransında, Türkiyə adanın hər iki xalqının öz müqəddəratını təyin etmək hüququnu, Yunanıstan isə

adanın yunan əhalisinin sayına güvənərək, onlara ortaq şəkildə öz müqəddəratını təyin etmək hüququ tələb etdi. Bu konfransda heç bir nəticə əldə edilmədi

11 fevral 1958-ci ildə Sürix anlaşması və 19 fevral 1959-cu ildə London sazişləri imzalandı. Beləliklə, 1958-ci il Sürix və 1959-cu il London konfranslarında Türkiyə, İngiltərə, Yunanıstan, türk və yunan xalqları bir araya gələrək nəhayət bir qərara gəldilər. 1959-cu il Sürih və London sazişlərinə uyğun olaraq, hazırlanan Kipr Cümhuriyyəti Konstitusiyası və ona bağlı Quruluş, İttifaq və Zəmanət Sazişlərinin 16 avqust 1960-cı ildə qüvvəyə minməsi ilə iki xalqlı, müstəqil Kipr Respublikası yaradıldı.

Kipr Respublikası qurulduqdan dərhal sonra, Kipr hökuməti BMT təşkilatının üzvlüyünə qəbul edilməsi haqqında müraciət etdi. Müraciət qısa bir zamanda qəbul edildi. 20 sentyabr 1960- cı ildə, Kipr Respublikası BMT-nin bərabərhüquqlu üzvü oldu və BMT-nin zəmanətini əldə etdi.

1961-ci ilin 25 aprelində, "Kiprin Enozisi Uğrunda" adlı yeni yaradılan gizli təşkilat bir elanla "türklərə mal satanların cəzalandırılacaqlarını" bildirirdi. Ortaq təbliğat bundan ibarət idi ki, "türklərə əsla torpaq satmayın".

30 noyabr 1963-cü ildə, Kipr Presidenti Makarios 13 maddədən ibarət "konstitusiyaya dəyişiklik" təkliflərini irəli sürdü. Bu təkliflər, yenə eyni Konstitusiyada "dəyişiklik edilə bilməz" deyə qeyd edilən bir çox əsas maddəni də ehtiva etməklə və türk tərəfinin dövlət mexanizmində anlamlı və təsirli rol oynamasına imkan verən hüquqları aradan qaldırmaq məqsədini daşıyırdı.

Makariosun konstitusiyaya zidd olaraq hazırladığı 13 maddəlik dəyişiklik ilə gərginlik daha da şiddətləndi. Adada tam yunan hakimiyyəti başlandı. BMT-nin sülhməramlı qüvvələri də adada təhlükəsizliyi təmin edə bilmədi. Kipr türkləri açıq şəkildə konstitusyon hüquqlarına qarşı yönəldilmiş bu təcavüzü rədd etdilər. Bunun nəticəsində, Kipr yunanları 21 dekabr 1963-cü ildə Kipr türklərinə qarşı ada səviyyəsində hücuma keçərək, əvvəlcədən Yunanıstanla əməkdaşlıq etməklə hazırlanmış və ada türklərini 24 saat içində yox etmək məqsədi daşıyan "Akritasplanı"nı qəbul etdilər. 21 aprel 1966-cı ildə, Patris qəzetində dərc edilən bu plana görə türk xalqı ani bir hücumla ilə yox ediləcək və ada Yunanıstana birləşdiriləcəkdi. Planı hazırlayanlar arasında Daxili İşlər naziri Yorgasis, President Makarios, Məclis sədri Klerides il yanaşı 16 fevral 1963-cü ildə yunan rəhbərliyinin başçısı seçilən Tasos Papaduplos da var idi

21 dekabr 1963-cü EOKA(Kipr Mübarizlərinin Milli Təşkilatı) Akritas planının silahlı hərəkat mərhələsinə keçdi. "Qanlı Milad" adlandırılan bu həftədə yüzlərlə türk öldürüldü, minlərlə yaralandı. Bu hadisələr fonunda, 27 dekabr 1963-cü ildə,

ingilislərin başçılığı ilə üç təminatçı dövlətin əsgərləri "Sülhü qoruma" adı altında adada əməliyyata başladılar.

4 mart 1964-cü ildə, BMT-nin Təhlükəsizlik Şurası 186 saylı qətnamə qəbul etdi. Qətnamədə, "Kipr hökuməti"ndən şiddəti və qan tökülməsinin qarşısını alacaq qərarlar verməsini istədi. Makarios, Kipr Respublikası adından BMT Sülhməramlı qüvvələrinin Kiprdə fəaliyyətinə razılıq verdi. Beləliklə, BMT Makariosun Prezident kimi rəhbərlik etdiyi yunan idarəçiliyini Kiprin qanuni təmsilçisi kimi rəsmən tanıdı. Bu qərarla birlikdə yunan rəhbərliyi "Kipr hökuməti" olaraq tanınmağa başladı

Kiprli yunanları, tətbiq etdikləri bütün bu iqtisadi mühasirə və digər təzyiq üsulları ilə Kipr türklərinin müqavimətini qıra bilməyəcəklərini başa düşdükdə, 1967-ci ildə yenidən hücumlara keçdi. Bu vaxt adaya gizli yollardan daxil olmuş və sayları 20 minə çatan yunan birlikləri də türk kəndlərinə qarşı edilən bu hücumlarda iştirak edirdilər.

Hücumlar, ancaq Türkiyənin qərarlı mövqeyi və Kipr türk xalqına qarşı həyata keçirilən bu soyqırımın qarşısı alınmadığı təqdirdə, sazişlərdən qaynaqlanan müdaxilə haqqını istifadə edəcəyi xəbərdarlıq nəticəsində dayandı.

**2.Beynəlxalq münasibətlərdə Çin-SSRİ qarşıdurması**

XX əsrin 60-cı illərində, Çinin beynəlxalq münasibətlərdə rolu xeyli gücləndi. Onun həm Qərb, həm də Şərq ölkələri ilə münasibətləri gərgin idi. Ancaq, kommunist ölkələri ilə əlaqələri zəiflədikcə Çin Qərblə yaxınlaşırdı.

Hindistan- Çin arasında ziddiyyətlərin kəskinləşməsi iqtisadi, siyasi və beynəlxalq amillərlə bağlı idi. Münaqişə üçün bəhanə ölkələrin sərhədində olan 125 min kv.km. mübahisəli ərazi idi. 1960-cı ilin aprelində, sərhədi dəqiqləşdirmək üçün xüsusi ekspert komitəsi yaradıldı. Lakin, komissiyanın işi nəticə vermədi. Çünki, Çin, Hindistan tərəfdə olan 125 min kv.km. ərazinin ona verilməsini tələb edirdi. Böyük dövlətlərin heç biri Hindistan ilə Çin arasında müharibənin başlanmasında maraqlı deyildi. 1962-ci ilin payızında, sərhədin şərq hissəsində Çin ordu hissələri Hindistan ərazisinə daxil oldu. Hərbi əməliyyatlar, 1962-ci il noyabrın 22-də dayandırıldı. Hindistanın SSRİ ilə əməkdaşlığına mane olmaq üçün, ABŞ və İngiltərə ona kömək təklif etdi. Lakin, Hindistan öz xarici siyasət xəttini dəyişmədi.

Siyasi gərginlik nəticəsində müxtəlif sahələrdə Sovet- Çin əməkdaşlığının əhəmiyyəti azaldı. 50-ci illərdə, SSRİ Çinə güzəştli şərtlərlə təxminən 2 milyard manata qədər kredit vermiş və 250-dən çox müəssisənin tikilməsinə yardım etmişdi.1961-ci ildə, iqtisadi və elmi- texniki əməkdaşlığa dair SSRİ ilə bağlanmış bir sıra sazişləri Çin hökuməti ləğv etdi. 1961-ci ildə sovet mütəxəssisləri Çindən

çıxarıldı. 1962-ci ildə SSRİ ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 1959-cu ilə nisbətən 60% azaldı. Sovet- Çin sərhədində toqquşmaların sayı artdı.

1959-cu ildə nüvə enerjisi sahəsində əməkdaşlıq haqqında Sovet-Çin sazişinin pozulması, SSRİ ilə ÇXR arasındakı köklü fərqlərin əlaməti idi. 1960-cı ildə Sovet ekspertlərinin ÇXR-dən çıxması və "böyük sıçrayış" dövründə ÇKP-nin bacarıqsız təsərrüfat rəhbərliyi nəticəsində yaranmış vəziyyət, ölkədə iqtisadi xaosa təsir etdi. Sovet rəhbərliyi Çini müttəfiq kimi saxlamağa ümidindən əl çəkmirdi. 1959-cu ildə ABŞ-a səfərdən dərhal sonra, N.Xruşşov, D.Eyzenhauer ilə aparılan müzakirələrin nəticələri barədə, Mao Tzeduna məlumat vermək üçün Pekinə getdi. Çini nüvə sınaqlarının qadağan edilməsi ideyasını dəstəkləməsinə inandırmağa çalışdı. Əslində, bu məsələ Moskva, Vaşinqton və Londonda qəbul edilmişdi . Lakin 1960-cı ilin yanvarında, ÇXR onun iştirakı olmadan hazırlanan nüvə sınaqlarının məhdudlaşdırılması ilə bağlı razılaşmalara əməl etməyəcəyini açıqladı. Çin nüvə proqramının icrasını sürətləndirdi və 1964-cü ilin oktyabrında nüvə silahının sınaqlarını keçirdi. Dünyada beşinci nüvə dövləti meydana çıxmış oldu.

SSRİ ilə Çin arasında bir neçə ziddiyyət qrupu var idi. İdeoloji sahədə bunlar “sosializm”in qurulması yolları və bununla əlaqəli daxili sosial ziddiyyətlərin təzahürlərinin məzmunu və forması, hakimiyyətin saxlanması taktikası və strategiyası ilə bağlı fikir ayrılıqları idi. Siyasi mövzuda "inqilab ixracı" problemi, beynəlxalq kommunist, fəhlə və milli azadlıq hərəkatları içərisində aparılan siyasət haqqında da fikir ayrılıqları var idi.

Beynəlxalq siyasət sahəsində, Çin, Sovet dinc yanaşı yaşamaq nəzəriyyəsini qəbul etmədi. Bu nəzəriyyə, Sovet İttifaqı ilə ABŞ arasında əməkdaşlığın mümkünlüyünü təmin etdiyi üçün, onu dünya kommunizmi və Çinə qarşı satqınlıq hesab edirdi. Çünki ABŞ, ÇXR-in Tayvanla yenidən birləşməsinə mane olduğuna görə Çinin düşməni hesab edilirdi. Dinc yanaşı yaşamağın əvəzinə Çin, Birləşmiş Ştatlara qarşı "vahid anti-imperialist cəbhə strategiyası" yaratmağı təklif etsə də, Moskva bunu qəbuledilməz saydı.

SSRİ və Çinin dünya müharibəsinə və onun nəticələrinə münasibəti tamamilə fərqli idi. Çin, SSRİ və ABŞ-ın nüvə müharibəsindən qorxduğu səviyyədə, nüvə hücumundan qorxmurdu. Üç ölkə sosial-iqtisadi inkişafın müxtəlif mərhələlərində idi. Birləşmiş Ştatlar və Sovet İttifaqının (onun Avropa hissəsi) çox saylı əhalinin məskunlaşmış olduğu, şəhər mərkəzləri şəbəkəsi olan sənayeləşmiş ölkələr idi. Hər iki dövlət, ehtimal olunan nüvə və ya istilik nüvə zərbəsindən ehtiyat edirdilər.

Bunun əksinə olaraq, Çin yalnız inkişaf etmiş ölkəyə çevrilmək yolunda idi. Sənaye birliklərinin əsaslarını məhv etməyə qadir olan nüvə müharibəsi, Çin - kənd əhalisinin üstünlük təşkil etdiyi aqrar bir ölkə üçün daha az təhlükəli idi. Pekin

nöqteyi-nəzərindən, nüvə müharibəsi tamamilə fəlakətli deyildi, çünki onun xarabalıqlarında kommunist cəmiyyətinin qurulmasına, artıq Çin inqilabının əleyhdarlarının maneələri olmadan, yenidən başlamaq mümkün idi.

Sovet-Çin ziddiyyətlərinin böyüməsi xarici siyasət sahəsində də ifadə olunmağa başladı. 1962-ci ildə, ÇXR və Hindistan arasındakı silahlı münaqişə zamanı Sovet hökuməti, Çinə dəstək olmaqdan imtina edərək bitərəf mövqe tutdu. Çin-Hindistan qarşıdurması, demək olar ki, Karib böhranı ilə üst-üstə düşmüşdü. Bu vəziyyətdə Çin tərəfi, ilk dəfə Moskvanın xarici siyasətini mətbuatda açıq şəkildə tənqid etməyə özünə rəva bildi. Sovet raketlərinin Kubaya yerləşdirilməsini bir avantüra adlandırdı və ABŞ-la razılaşdırılaraq geri çəkilməsini təslimçilik kimi qiymətləndirdi. Mübahisə 1963-cü ildə, nüvə silahının qadağan edilməsi haqqında müqavilənin imzalandığı ildə ortaya çıxdı. Sovet və Çin mətbuatında sərt açıqlamalar səslənməyə başlandı. Sov.İKP Mərkəzi Komitəsi ilə, ÇKP Mərkəzi Komitəsi sərt müraciətlər mübadiləsi apardılar. Bununla yanaşı, 1962-ci ildən sonra Sovet-Çin sərhədində gərginlik nəzərə çarpacaq dərəcədə yüksəldi, sərhədin ÇXR tərəfindən sərhədin qanunsuz keçilməsi halları daha da artdı.

Ancaq, ən əsası başqa məsələ idi: ÇXR rəhbərliyi, Çin və çar Rusiyası arasında olan müqavilələri qeyri-bərabər hesab etdiyini bildirdi. Məhz bu razılaşmalarda, iki ölkə arasında olan sərhəd xəttinin böyük bir hissəsi təyin olunmuşdu. Pekinin açıqlaması onun tanınmamasının mümkünlüyünə işarə edirdi. SSRİ-də ÇXR-in mövqeyi, Sovet İttifaqı ərazisinə təcavüz və Çindən gələn təhdid kimi düşünülməsi qəbul edilirdi. Lakin, ÇXR ilə münaqişədən ehtiyat edən Sovet rəhbərliyi, sərhəd xəttinin dəqiqləşdirilməsi ilə bağlı Çinlə məsləhətləşmələrə girməyə razı oldu. Bu məsləhətləşmələr, 1964-cü ilin yayında dayandırıldı. Çünki, Mao Tzedun xarici jurnalistlərə, Sovet İttifaqının Baykal gölünün şərqindəki əraziləri qanunsuz olaraq ələ keçirdiyi üçün, Rusiyadan bu torpaqlara görə "hesab" tələb edəcəyi ehtimalını açıqladı. ÇXR, rəsmi olaraq SSRİ-yə qarşı ərazi iddiaları irəli sürməsə də, sovet strateji planlarında Çin ilə sərhədlərin möhkəmləndirilməsi məsələsi yarandı. Uzaq Şərqdəki sovet qoşunlarının sayı artırılmağa başlandı.

Çin rəhbərliyi, öz növbəsində SSRİ ilə "vahid anti-imperialist cəbhə" yaratmağın mümkün olmadığına əmin oldu. SSRİ ilə antiamerikan zəminində əməkdaşlıq etmək üçün son cəhdi, Çin Xalq Respublikası Dövlət Şurasının Baş Naziri Çjou Enlay tərəfindən N. Xruşşovun 1964-cü ilin oktyabrında hakimiyyətdən getməsindən sonra Moskvaya etdiyi səfər zamanı edildi. Lakin, yeni Sovet rəhbərliyi, Birləşmiş Ştatlarla müharibədən qaçmaq xəttini davam etdirmək niyyətində olduğunu bildirdi. Çin məqsədinə nail ola bilmədi. ÇKP-nin, 1966-cı ildə Sov.İKP-nin XXIII qurultayında iştirak etmək üçün nümayəndə heyəti

göndərməkdən imtina etməsi, iki Kommunist Partiyası arasındakı münasibətlərin rəsmi şəkildə pozulması demək idi. Sovet-Çin sərhədinin gücləndirilməsi tədbirlərinə əlavə olaraq, 1966-cı ilin yanvar ayında, SSRİ Monqolustan ilə yeni dostluq, əməkdaşlıq və qarşılıqlı yardım müqaviləsi bağladı. Bunun ardınca, Sovet qoşunları və ağır texnikalar Monqolustan ərazisində yerləşdirildi. 1967-ci ilin sonlarına qədər, SSRİ ilə ÇXR və MXR ilə sərhəd bölgəsində hərbi heyətin sayı 250-350 min nəfərə çatmışdı

SSRİ-ni "Çin inqilabı" tərəfinə çəkməyin mümkünsüzlüyünə əmin olduqdan sonra, Çin rəhbərliyi həm Sovet İttifaqı, həm də ABŞ-la qarşıdurma siyasəti yoluna keçdi. Çinin irəli sürdüyü "üç dünyanın nəzəriyyəsi" yeni siyasətin əsaslarını təqdim etdi. Bu nəzəriyyəyə görə, dünyanın bütün dövlətləri üç qrupa bölünürdü - iki fövqəldövlət, kiçik və orta inkişaf etmiş ölkələr (bunlara Qərbi Avropa dövlətləri və "sosialist düşərgəsi" ölkələrinin əsas hissəsi daxildir) və "üçüncü dünya"nın inkişaf etməkdə olan ölkələri. Çin, liderləri ÇXR-i "üçüncü dünya" ölkəsi və milli azadlıq və inkişaf ideyalarının qələbəsi uğrunda mübarizənin əsas lideri elan etdi.

1966-cı ildə Çində "mədəni inqilab" başladı (1966-1969). SSRİ ilə Çin arasındakı münasibətlərdə kəskin qarşılıqlı tənqid və gərginlik son həddə çatdı. Vəziyyət o qədər təhlükəli idi ki, Çin rəhbərliyinin ayıq düşüncəli hissəsi, xüsusən ÇjouEnlay, ABŞ və SSRİ ilə eyni vaxtda qarşıdurma xəttini yenidən nəzərdən keçirilməsinin vacibliyini Mao Tzedunun diqqətinə çatdırmağa cəhd göstərdi. ÇjouEnlay özü ABŞ-la barışığa meylli idi. Bu xəttin siyasi əleyhdarı, xüsusilə Çin və ABŞ arasında münasibətlərin yaxşılaşdırılmasına qarşı olan marşal Lin Byao idi. Hər iki lider, ABŞ-ın, Vyetnam müharibəsində uğursuz siyasəti nəticəsində, Asiyada olan mövqeyinin zəifləməsi barədə razılığa gəlirdilər. Lakin LinByao, Tailandda, Yaponiyada, İndoneziyada, Laosda, Filippində - ümum Asiya inqilabının inkişafı üçün məqamı məqbul sayırdısa, Çjou Enlay SSRİ-dən Çinə olan təhlükəni önə çəkirdi. Onun, Sovet təhlükəsini real hesab edib-etmədiyi və ya şimaldan gələn təhdidin kökündə, ABŞ-la qarşılıqlı anlaşmaya getmək təklifinin səbəbinin olub-olmadığı hələ də məlum deyildir. “Sovet təhlükəsi” 60-cı illərin ikinci yarısında, ÇXR-i Vaşinqtonla münasibətləri normallaşdırmaq üçün imkanlar axtarmağa başlamasına səbəb oldu.

### 3.Hindistan-Pakistan müharibəsi və beynəlxalq münasibətlər

60-cı illərin əvvəllərində, Çin-Sovet münasibətlərinin pisləşməsi Moskvanın Hindistanla hərbi-siyasi əməkdaşlığa marağının artmasına səbəb oldu. ÇXR ilə münasibətlər son on ildə iki münaqişədən sonra gərgin olaraq qalırdı. SSRİ Hindistana əhəmiyyətli iqtisadi yardım göstərərək, onunla hərbi əlaqələri inkişaf

etdirməyə başlamışdı. 60-cı illərin birinci yarısında Sovet İttifaqının hərbi yardımının miqyası, Hindistanın ABŞ-dan aldığı yardımın miqdarını üstələmişdi. Bu Vaşinqtonu narahat etməyə başladı. Kennedi administrasiyası, Dehlinin qarışmamaq və bitərəfliyə sadiq qalmasına baxmayaraq, Hindistanla əlaqələri möhkəmləndiməyi qarşıya məqsəd kimi qoydu. Amerika Prezidenti, Hindistanın Asiyanın açarı adlandıraraq, Amerikanın köməyi ilə onun Qərbin "vitrini" olacağına, Çin ilə iqtisadi rəqabətdə qalib gələ biləcəyini və onun üçün güclü bir rəqib ola biləcəyini düşünürdü. Çin-Hindistan münaqişəsindən sonra, Hindistan ABŞ-ın ən böyük iqtisadi yardım alıcısına çevrilmişdl. Lakin, Vaşinqton Hindistanın Çinə qarşı ABŞ-la fəal əməkdaşlıq etmək istəməməsindən əsəbiləşirdi.

Hindistanı etibarlı tərəfdaşa çevirmək ümidində aldanmaqdan qorxan ABŞ rəhbərliyi Pakistanla əməkdaşlığa daha çox diqqət verməyə başladı. 1958-ci ildə, İraqda olan "İyul inqilabı"ndan və 1959-cu ildə onun Bağdad Paktını tərk etməsindən sonra, Pakistanın Yaxın Şərqdə aparılan Amerika strategiyası üçün dəyəri xeyli artdı. 1959-cu ilin martında ABŞ Pakistan ilə müqavilə bağladı. Bu müqaviləyə görə Pakistana təcavüz olduğu təqdirdə, ABŞ silahlı qüvvələri tərəfindən dəstək imkanı yaradılacaq idi. 1965-ci ildən etibarən, Pakistan ABŞ-dan müasir silah almağa başladı.

Lakin, ABŞ-Pakistan əlaqələrinin inkişafı problemsiz deyildi. ABŞ başa düşürdü ki, Hindistanla qarşıdurma Pakistan hökumətinin Çinlə anti-hind zəminində əməkdaşlığa marağını artırır. Çin-Pakistan blokunun perspektivi Vaşinqtona sərf eləmirdi.

Lakin, belə bir blok Moskva üçün də arzuolunmaz idi. Ona görə də Hindistanla yaxınlaşmağa diqqət yetirən Sovet İttifaqı, Pakistanla da yaxşı münasibətlər qurmağa çalışırdı. Sovet diplomatiyasının vəzifəsi, Pakistan-Çin və ABŞ-Pakistan yaxınlaşmasını məhdudlaşdırmaq idi. Sovet-Pakistan danışıqları uğurla inkişaf edirdi.

1956-cı il noyabrın 17-də, Kəşmir Müəssislər Məclisinin qəbul etdiyi Konstitusiyaya görə, Kəşmir "Hindistan İttifaqının tərkib hissəsi" elan edilməsi ilə vəziyyət daha da gərginləşmişdi. Pakistan bu qərar ilə razılaşmırdı.

Hindistan-Pakistan münasibətləri 60-cı illərin ilk yarısında gərgin vəziyyətdə idi. 1960, 1962, 1963-cü illərdə Kəşmir məsələsi üzrə BMT-dəki müzakirələr, Hindistan—Pakistan danışıqları nəticə vermədi.

1960-cı ildə Hindistanın Baş Naziri C.Nerunun Karaçiyə səfəri, 1962-1963-cü illərdə və 1964-cü ilin birinci yarısında Kəşmir mövzusunda altı aylıq ikitərəfli danışıqlar da bir nəticə vermədi. 1964-cü ilin sonundan Hindistan-Pakistan sərhədində silahlı qarşıdurmalar başlandı.

1965-ci ilin yazında, Hindistanla Pakistan arasında Böyük Kaç Pannı adlanan səhraya görə sərhəd münaqişəsi baş verdi.

1965-ci ilin mart-aprel aylarında, hər iki ölkənin sərhədçiləri arasında silahlı toqquşmalar kəskinləşdi. 1965-ci ilin aprelində, Pakistan ordusu Hindistanın cənub-qərbinə hücum etdi.

Hindistan və Pakistan sərhəd bölgəsinə əlavə qoşun hissələri yeritdilər.

Münaqişə, Böyük Britaniyanın müdaxiləsi nəticəsində tam gücü ilə alovlanmağa imkan tapmadı. İngiltərənin vasitəçiliyi ilə tərəflər 30 iyunda atəşin kəsilməsi haqqında müqavilə imzaladılar.

1965-ci ilin avqustunda münaqişə geniş miqyaslı müharibəyə çevrildi.

Pakistan yenidən Kəşmir rayonunda hərbi əməliyyatlara başladı. Qüvvə nisbəti, Hindistanın xeyrinə idi. Müharibə nəticəsində, Asiyanın cənubunda vəziyyət xeyli gərginləşdi. Vasitəçilik etməyə hazır olduğunu bildirən SSRİ, Hindistana və Pakistana aralarında olan ixtilafları dinc yolla həll etməyə barədə danışıqlara başlamağı təklif etdi. Çin isə Hindistanı, Pakistana qarşı təcavüzdə ittiham etdi.

1965-ci ilin avqust-sentyabr aylarında, Pakistan mübahisəli Kəşmir ştatının Hindistan hissəsində üsyan qaldırmağa cəhd göstərmişdi. Tezliklə bu münaqişə iki dövlət arasında sərhəd müharibəsinə çevrilmişdi. Hərbi əməliyyatlar nəticəsində Pakistan tərəfindən 3800 nəfər , Hindistan tərəfindən 3000 nəfər həlak olmuş, 8623 nəfər yaralanmışdır. BMT-nin işə qarışması nəticəsində hərbi əməliyyatlar qalib müəyyənləşdirilmədən başa çatdırıldı.

Hadisələrin inkişafının Çinin Cənubi Asiyadakı mövqeyini gücləndirəcəyindən ehtiyat edən SSRİ və ABŞ-ı narahat etdi. Hindistan və Pakistan arasında manevr edən ABŞ, hərbi əməliyyatlar başlayandan sonra ikincisinə hərbi yardımı dayandırdı, eyni zamanda Hindistan-Pakistan qarşıdurmasına müdaxilə etməməsi barədə Çinə xəbərdarlıq etdi.

Moskva vasitəçilik missiyasını yerinə yetirmək üçün əlverişli bir vəziyyətdə idi: həm Hindistan, həm də Pakistanla dostluq münasibətləri var idi. Hər iki ölkənin hökumətləri SSRİ vasitəçiliyini qəbul etməyə razılıq verdilər. ABŞ da buna etiraz etmədi.

1965-ci ilin sentyabrında SSRİ, Hindistanın Baş Nazirinə və Pakistanın Prezidentinə Daşkənddə görüşməyi təklif etdi. Tərəflər təklifi qəbul etdilər. 1965-ci ilin sentyabrının 20-də, BMT Təhlükəsizlik Şurası münaqişə edən tərəfləri hərbi əməliyyatları dayandırmağı və mübahisəli məsələləri siyasi vasitələrlə həll etməyə çağıran qətnamə qəbul etdi. 1965-ci ilin sentyabrının 22-də, Hindistan və Pakistan arasında hərbi əməliyyatlar dayandırıldı.

Hindistanın Baş Naziri Lal Bahadur Şastri və Pakistan Prezidenti Məhəmməd Əyyub Xan SSRİ-yə gəldilər. 1966-cı il yanvarın 4-10-да Daşkənddə, SSRİ Nazirlər Sovetinin Sədri A.N.Kosıginin iştirakı ilə Hindistan-Pakistan danışıqları başlandı.

Daşkənd görüşü uğurla nəticələndi. Burada müharibənin sona çatması və status-kvonun bərpası haqqında Hindistan və Pakistanın Birgə Bəyannaməsinin imzalanması ilə başa çatdı. Bəyannamədə deyilirdi ki, tərəflər mübahisəli məsələlərin həlli üçün qüvvə tətbiqindən imtina edir, qoşunlarını 1965-ci avqustun 5-ə qədər olan mövqelərə qaytarır, münasibətlərini tam həcmdə bərpa edir və bir-birinin daxili işlərinə qarışmırlar. Tərəflər göstərilən şərtlərə əməl edirdilər. Lakin, Kəşmir məsələsi həll edilmədiyinə görə yeni münaqişə üçün zəmin qalırdı.

Rəsmi olaraq danışıqlar zamanı Sovet İttifaqının münaqişə tərəflərinə "xeyirxah xidmətlər" göstərdiyi qeyd olunurdu. Lakin əslində, Sovet nümayəndə heyətinin birbaşa danışıqlarda iştirak etməsi "xeyirxah xidmətlər" prosesində nəzərdə tutulmadığı üçün, SSRİ-nin missiyası daha çox "vasitəçiliyə" oxşayırdı.

Münaqişə zamanı ABŞ bitərəf mövqe saxlayırdı. Pakistan bunu müsbət qarşılamayaraq, Vaşinqtonun onu daha ciddi şəkildə dəstəkləməli olduğunu hesab edirdi. 1967-ci ilin oktyabrında, Pakistan Prezidenti M.Əyyub Xan Moskvaya səfər etdi, burada Pakistanın hərbi-siyasi sahədə ABŞ-dan asılılığını zəiflətmək istəyinə işarə edildi. 1968-ci ilin əvvəlində Pakistan hakimiyyəti, ABŞ-ın Peşavardakı radar qurğularından istifadə edərək, SSRİ-nin hərbi obyektləri haqqında məlumat toplamağa icazə verilmə razılaşmasının uzadılmasında maraqlı olmadıqlarını elan etdilər. 1968-ci ilin aprelində, A.N. Kosıginin Pakistana səfəri zamanı SSRİ Pakistana silah-sursat verilməsinə razılıq verdi. Bu, Hindistanın narazılığına səbəb oldu. Həm Hindistan, həm də Pakistanla yaxşı münasibətlər qurmağa çalışan Moskva, əslində Dehlinin tərəfində qalmağa meyl edirdi.

4 iyul 1969-cu ildə, İslamabadda imzalanan müqaviləyə əsasən Kaç Pannı ətrafında yaranmış mübahisə tamamilə nizama salındı. Pakistan daha çox əraziyə iddia etsə də, müqavilənin şərtlərinə görə ona səhranın 900 $km^2$-lik ərazisi verildi.

## 4.Beynəlxalq münasibətlərdə ABŞ – Vyetnam münaqişəsi

### 4.1.Vyetnam ətrafında artan gərginlik və Vyetnam-Amerika qarşıdurmasının başlanması

1950-ci illərin ortalarından etibarən, Amerika liderləri, Hind-Çinin kommunizm sisteminin tərkibinə daxil olmasının, onlar üçün həlledici strateji əhəmiyyətə malik olduğuna əmin idilər.

1954-cü il Cenevrə sazişləri, üç Hind-Çin dövlətinin: Vyetnam, Laos və Kambocanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünün tanınmasını təmin etdi. Vyetnamda döyüşən tərəflərin (Vyetnam Demokratik Respublikası və Vyetnam Respublikasının fransızpərəst hökuməti) silahlı qüvvələrini yenidən qruplaşdırmaq üçün ölkə təxminən 17-ci paralel boyunca uzanan demarkasiya xətti ilə müvəqqəti olaraq iki hissəyə bölündü. Şimalda ölkənin tam azad edilməsini dəstəkləyən kommunistlərin, cənubda isə antikommunist və qərb yönümlü qüvvələrin tərəfdarları cəmləşmişdi. Cenevrə görüşünün Vyetnamda azad seçkilərin keçirilməsi və ölkənin birləşdirilməsi ilə bağlı qərarları yerinə yetirilməmiş qalırdı. Fransız müstəmləkəçiləri Hind-Çini tərk etdilər və onların yerlərini neo müstəmləkəçi üsullardan istifadə edən amerikalılar tutdu**.**

1954-cü ilin əvvəlində, amerikalılar varlı katolik ailəsindən olan Nqo Din Diemi Cənubi Vyetnamda hakimiyyətə gətirdilər. 1955-ci ildə Diem Cenevrə qərarları ilə nəzərdə tutulduğu kimi, seçkiləri Vyetnamın bütün ərazisində keçirməkdən imtina edərək, əhalinin əksəriyyətinin dəstəyindən məhrum olan diktator hakimiyyətinin başçısı oldu. Birləşmiş Ştatlar, Cənubi Vyetnamı kommunizmə qarşı mübarizənin dayağı kimi qiymətləndirərək, Nqo Din Diem hakimiyyətinə daim artan yardım göstərməyə başladı. 1960-cı ilə qədər, ABŞ-ın Vyetnam Respublikasına maliyyə yardımı 1 milyard dolları keçdi, ölkədə, Amerikanın 1500-dən çox mülki müşaviri və 700-ə yaxın hərbçisi var idi. Ağ Evə gəldikdən sonra, Prezident Kennedi demişdi: "Cənubi Vyetnam bizim yetişdirməmizdir və biz onu taleyin hökmünə buraxa bilmərik"

Qlobal səviyyədə, SSRİ ilə ABŞ arasında barışıq meylinə baxmayaraq, beynəlxalq periferiya gizli qarşıdurma meydanı olaraq qalırdı. 60-cı illərin ortalarında, Cənub-Şərqi Asiya, 40-50-ci illərin dönəmində olduğu kimi yenə də planetdə olan “qaynar nöqtələrdən” biri oldu. Hind-Çində, dağıdıcı təhlükələrin mənbəyi Nqo Din Diem hökumətinin idarə etdiyi Cənubi Vyetnamda olan siyasi vəziyyət idi. 1959-cu ildə, ona qarşı mübarizəyə yerli kommunistlər (Milli Azadlıq Cəbhəsi) başlasalar da, onlar buddizmin təsiri altında olan orta səviyyəli qruplar - buddist təşkilatları və sosial qrupları tərəfindən dəstəklənirdi. Mühüm dövlət vəzifələrini ələ keçirən Nqo Din Diem və ailə üzvlərinin hərəkətlərinə qarşı narazılıq, Cənubi Vyetnam hərbi komandanlığı arasında da güclü idi. 1962-ci ildə Milli Azadlıq Cəbhəsi, Laosun bitərəfləşdirmə formulunu Kamboca və Cənubi Vyetnama yaymaq fikrini irəli sürdü. ABŞ-ın Hind- Çində "Fransanın yerini tutmaq" cəhdlərindən qəzəblənən Fransa Prezidenti Ş.de Qoll, bitərəfləşdirmə planını dəstəklədi, lakin Sayqon bu ideyanı qəbul etmədi.

Bu vaxt Xo Şi Minin başçılıq etdiyi antiimperialist kommunist hökuməti Vyetnamın şimalında gücləndi. VDR rəhbərliyi antimüstəmləkə, antiimperialist əsaslarla bütün ölkəni azad etməyə can atırdı. Bu siyasi istiqamət, 1960-cı ilin dekabrında yaradılan Cənubi Vyetnam Milli Azadlıq Cəbhəsini (CV MAC) özlərindən ayırırdı. 1961-ci ilin əvvəlindən cəbhə, ilk növbədə Mekonq Deltasında olan bataqlıqda və ölkənin dağlıq bölgələrində Cənubi Vyetnam hakimiyyəti qarşı partizan müharibəsinə başladı. 1963-cü ildə, CV MAC-ın sıralarında təxminən 30 min döyüşçü toplandı. Onlar öz mübarizəsində Şimali Vyetnamın tam dəstəyindən istifadə edirdilər. MAC, siyasi proqramında Amerika təcavüzünə son qoymağı, Güneydə "milli birlik hökuməti"nin yaradılmasını və ölkədə azad seçkilərin keçirilməsini tələb edirdi.

ABŞ, Cənubi Vyetnam hökuməti hər cür kömək edirdi: maliyyə, hərbi-texniki və ideoloji. Cənubi Vyetnam, Cənub-Şərqi Asiyada kommunizmə qarşı mübarizədə dayaq halına gəlmişdi. Vaşinqtonda "domino" nəzəriyyəsi geniş yayıldı. Amerikalılar hesab edirdilər ki, Cənubi Vyetnamın itirilməsi ilə bu bölgədə olan kommunizmin qarşısını almaq planları məhv olacaqdır. 1963-cü ilin sonuna, Cənubi Vyetnamda artıq, 17000 Amerika hərbi məsləhətçisi fəaliyyət göstərirdi.

1963-cü ilin may-avqust aylarında, buddistlər Cənubi Vyetnamda olan katolik dairələri tərəfindən edilən zülmlərə qarşı etiraz etməyə başladılar. Onlara qarşı cəza tədbirləri başlandı, onun gedişi zamanı təxminən 1500 rahib həbs edildi. Bu vəziyyəti daha da ağırlaşdırdı və xaricdə mənfi münasibət yaratdı. Nqo Din Diemin cəmiyyətin mötədil təbəqələri ilə qarşılıqlı anlaşma tapa bilməməsini nəzərə alaraq, ABŞ rəhbərliyi, Sayqonda olan nümayəndələrinin bir qrup Cənubi Vyetnam hərbçisi ilə əlaqə qurmasına icazə verdi. Cənubi Vyetynamın hərbi qüvvələri tərəfindən, 1 noyabr 1963-cü ildə çevriliş edildi. Hadisələrin gedişində Nqo Din Diem öldürüldü. Bu hadisədən bir neçə həftə sonra, ABŞ Prezidenti C.Kennedi də Dallasda öldürüldü.

1963-cü ilin dekabrında, Amerika rəhbərliyi Cənubi Vyetnamın yeni hökumətinin vəziyyətə nəzarət etmək iqtidarında olmadığı qənaətinə gəldi. Buddist və katolikləri barışdırmaq üçün edilən cəhdlər ilə onları razılaşdırmağa məhdud dərəcədə müvəffəq oldular. Təzyiqin zəifləməsi isə qeyri-müəyyənlik yaradaraq, yeni siyasi cərəyanların meydana gəlməsinə kömək etmiş oldu.

Amerikalılar, Vyetkonq adlandırdıqları CV MAC döyüşçülərini təcrid etmək üçün, amerikanpərəst sosial qrupların güclənməsinə və strateji yaşayış məntəqələrinin qurulmasına üstünlük verməyə başladılar. ABŞ-ın Vyetnamda olan strateji xəttinin ayrılmaz hissəsi, ölkənin şimal tərəfindən ölkənin cənubunda döyüşən partizanlara yardım göstərmək yollarını kəsmək vəzifəsi idi. 1964-cü ilin

yanvarında, ölkədə növbəti çevriliş baş verdi, lakin yeni hökumət də ölkədə sabitlik yarada bilmədi. Müxalifətin təzyiqi zəifləmədi və hökumət kəndlərin yarısından çoxuna nəzarət etmirdi. Amerika administrasiyasının fikrincə, Cənubi Vyetnamın bitərəfləşdirilməsi tərəfdarlarının qələbəsini gözləmək, kommunistlərin ölkədə möhkəmlənməsinə gətirib çıxarmalı idi. Eyni zamanda, Cənubi Vyetnam hökuməti (1964-cü ilin yanvarından Nqu Yen Xan başçılıq edirdi) daha da iddialı hədəflər qoymuşdu: CV MAC-ni məğlub etmək və sonra ölkəni öz şərtləri ilə birləşdirərək, "Şimalın azad edilməsinə" nail olmaq. ABŞ müdaxiləyə ehtiyac olduğu qərarına gəldi.

VDR (Şimali Vyetnam) da MAC-ə yardımı genişləndirməkdə qərarlı idi. Öz ehtiyat mənbələri məhdud olan Hanoy xaricdən gələn dəstəyə arxalanmağa çalışırdı. Lakin, Moskvanın planlarına Vaşinqtonla Vyetnam arasında münasibətlərin gərginləşməsi daxil deyildi. İnqilabi müharibə məsələlərində, Çin Xo Şi Minin müttəfiqi ola bilərdi. 60-cı illərin əvvəlləri, Vyetnam-Çin əməkdaşlığının ən yüksək nöqtəsi oldu. 1962-ci ildə Şimali Vyetnam hökuməti, Çin-Hindistan münaqişəsində Pekinə dəstək verdi. 1963-cü ilin mayında, ÇXR Sədri Lyu Şao Tsi Hanoya baş çəkdi, bundan sonra VDR Çin milli azadlıq uğrunda müharibələr nəzəriyyəsi ilə həmrəy oldu. Hanoy, nüvə silahlarının sınaqlarının qadağan edilməsi müqaviləsinə qoşulmaqdan imtina etdi və ona etiraz etdi. Bu addımlar, Moskvada müsbət qəbul olunmadı. Silahlı mübarizəyə münasibətini dəstəkləməyən SSRİ, Vyetnama yardımı azaltmaqla təzyiq göstərdi. 1964-cü ildə, 1962-ci illə müqayisədə yardım iki dəfə azaldıldı.

### 4.2.ABŞ- Vyetnam müharibəsinin başlanması

Vaşinqtonda, ABŞ-ın Vyetnamda hərbi səylərinin artırılmasının tərəfdarı olan "şahinlərin" təzyiqi getdikcə daha çox hiss olunurdu. Ağ Evin müşavirlərinin səsləri daha yüksək və ucadan səslənirdi, təxribata, VDR ərazisini bombalamağa və amerikalıların silahlı əməliyyatlarda birbaşa iştirakına çağırılırdı. ABŞ hərbi müşavirləri, Cənubi Vyetnamda olan hərbi əməliyyatlarda fəal iştirak edirdilər. Bu təmayül 1964-cü ilin yazından, "şahinlər"in nümayəndələrinin silahlı qüvvələrə və ABŞ-ın Cənubi Vyetnamda olan səfirliyinə rəhbərlik etdikdən sonra, daha da gücləndi.

1964-cü ilin yayında, Prezident L.Conson administrasiyasının Cənubi Vyetnam hökumətinin tərəfində ABŞ-ı müharibəyə cəlb etməyə meylli olduğu məlum oldu. Vaşinqtona yalnız uyğun bir bəhanə lazım idi. Belə bir bəhanə avqustun əvvəlində tapıldı. Amerika kəşfiyyat gəmisi "Meddoks" VDR-nin ərazi sularının sərhədində Şimali Vyetnam katerləri tərəfindən atəşə tutuldu. Qayıqlar

ABŞ təyyarələri tərəfindən məhv edildi. İki gün sonra, "Meddoks"un komandiri güman etdi ki, VDR hərbi qayıqları beynəlxalq sularda olan amerikan gəmisinə qarşı torpedo hücumuna hazırlaşırlar. (Sonradan səhv etdiyini etiraf etmişdi.) ABŞ rəhbərliyi, bu şübhəli epizoddan ölkəni Vyetnamda hərbi əməliyyatlara cəlb etmək üçün istifadə etdi. Avqustun 7-də, L.Consonun təşəbbüsü ilə ABŞ Konqresi hökumətə Hind-Çində "ABŞ-a müdafiə olunmaq üçün bütün lazımi hərbi tədbirləri" görməyə səlahiyyət verən "Tonkin qətnaməsi"ni demək olar ki, yekdilliklə qəbul etdi. Beləliklə, ABŞ-ın on ilə yaxın davam edən, gələcəyi olmayan Vyetnam müharibəsində iştirak etməsinə yaşıl işıq verildi.

**Qeyd: "Tonkin qətnaməsi"- ABŞ Senatı və nümayəndələr palatasının Konqresinin "Cənub-Şərqi Asiyada sülhün və təhlükəsizliyin qorunması haqqında" birgə qətnaməsi, 7 avqust 1964.**

**"... Konqres, Birləşmiş Ştatların qüvvələrinə edilən hər hansı bir silahlı hücumu dəf etmək və sonrakı təcavüzün qarşısını almaq üçün, bütün lazımi tədbirləri görmək üçün, Baş Komandan kimi Prezidentin qərarını bəyənir və dəstəkləyir."**

ABŞ rəhbərliyi, müdaxilənin iki formasını nəzərdən keçirirdi: VDR ərazisini bombalamaq (cənuba yardım göstərməyi dayandırmağa məcbur etmək) və Amerika qoşunlarının Cənubi Vyetnama çıxarılması. Tonkin qətnaməsi, hər ikisinə də icazə verdi. Bununla belə, L.Conson 1964-cü ilin noyabrında keçiriləcək Prezident seçkilərindən əvvəl müharibə başlamaq istəmədi. Təmkinli, məsuliyyətli siyasətçi simasında görünməyə çalışırdı. Müdaxilə daha sonra - 1965-ci ilin yanvarında L.Consonun andiçmə mərasimindən sonra başlandı.

Bu zaman, 1964-cü ilin oktyabrında, Moskvada hakimiyyət dəyişikliyi baş verdi. N.S.Xruşşov hakimiyyətdən uzaqlaşdırıldı. Sov.İKP MK-nın Birinci (1966-cı ildən – baş) katibi L.İ. Brejnev, SSRİ Nazirlər Sovetinin Sədri isə A.N. Kosıgin oldu. Bir neçə il, A.N. Kosıgin Sovet xarici siyasətinin formalaşmasında mühüm bir şəxs olmuşdur. SSRİ-nin yeni rəhbərliyi, Vyetnama qarşı siyasətini dəyişdirdi və münaqişədə minimal iştirak xəttindən uzaqlaşmağa başladı. 1965-ci ilin fevralından, Sovet İttifaqı VDR-ə böyük hərbi yardım göstərməyə başladı.

1965-ci ilin fevral ayında, Amerika təyyarələri, ölkənin yaşam quruluşunu məhv etmək və əhalinin mənəvi vəziyyətini pozmaq üçün, Vyetnam Demokratik Respublikası ərazisini bombalamağa başladı. Lakin qeyd olunmalıdır ki, amerikalılar heç birinə nail ola bilmədilər. Beynəlxalq siyasət nöqteyi-nəzərindən, bombardmanı başlamaq üçün təxribatçı zaman seçilmişdi. Çünki, bu zaman Sovet hökumətinin başçısı A.N. Kosıgin VDR-də rəsmi səfərdə idi.

ABŞ hava bazalarını müdafiə etmək üçün, müvafiq quru qüvvələri tələb olunurdu. Mart ayında, ABŞ-ın Dananqda olan aviabazasının təhlükəsizliyini təmin etmək üçün, ABŞ-ın 3500 dəniz piyadası Vyetnama göndərildi. Beləliklə,

ABŞ Cənubi Vyetnamda gedən hərbi əməliyyatlara cəlb olundu. Üç il sonra Amerika ekspedisiya qüvvələrinin sayı 550 min nəfərə çatdı. ABŞ-ın Vyetnamda olan müharibəsində Cənubi Koreya, Avstraliya və Yeni Zelandiyadan olan qüvvələr də iştirak edirdilər. Buna baxmayaraq, şimaldan davamlı yardım alan partizanları məğlub etmək mümkün olmadı, çünki onları yerli əhalinin xeyli hissəsi dəstəkləyirdi. Amerikalılar düşmənin əhval-ruhiyyəsini məhv edə bilmədilər, nə də şimaldan gələn yardımın qarşısını ala bilmədilər. Onlar, Cənubi Vyetnamda olan partizan qüvvələrini də məğlub edə bilmədilər.

Çin də, Vyetnama kömək edirdi. Lakin, VDR və Cənubi Vyetnam kommunistlərinə kömək etməklə Moskva və Pekin, Hanoya olan təsir uğrunda yarışmağa və rəqabət aparmaqda davam edirdilər. Eyni zamanda, 1966-cı ilin sentyabrında Çin rəhbərliyi, VDR-ə olan hücumu, Çinə hücum kimi qəbul edidiyini elan etdi. Sovet İttifaqı, Xo Şi Min hökumətinə hər cür kömək göstərməklə yanaşı, Vaşinqtona qarşı təhdid dolu ifadələrdən çəkinirdilər. SSRİ böyük beynəlxalq problemləri - ilk növbədə silahlara nəzarət və Avropada olan vəziyyətin normallaşdırılması mövzularında, ABŞ ilə son dərəcə fəal şəkildə danışıqlar aparırdı. Sovet-Amerika ziddiyyətləri qlobal səviyyədən az təhlükəli olan və "böyük bir müharibə" qorxusu olmayan, Asiya periferiyası səviyyəsinə "sövq edildi". Bu "çevik cavab" ruhuna tam uyğun bir siyasət idi. Sovet İttifaqı ABŞ-ın "dünya sosializmini sıxışdırmaq" cəhdlərindən heç də geri qalmırdı, ancaq öz sahəsini də genişləndirməyə çalışmırdı.

Amerika səylərinin faydasızlığının əyani nümayişi, MAC qüvvələri tərəfindən 1968-ci il yanvarın 31-də edilən güclü hücum oldu. Partizanlar, Cənubi Vyetnamın əsas şəhərlərinə qarşı yaxşı əlaqələndirilmiş hücumlara başladılar. Sayqona girdilər və paytaxt küçələrində vuruşmağa başladılar. Hərbi cəhətdən partizanların hücumu məğlubiyyət ilə başa çatsa da, bu mübarizə MAC üçün böyük psixoloji qələbə oldu. Amerikalıların faydasız Vyetnam müharibəsində çıxılmaz vəziyyətə düşmələri məlum oldu. 1968-ci ilin sonunda, MAC Cənubi Vyetnam ərazisinin təxminən üçdə iki hissəsini nəzarət altına almışdı.

### 4.3.Vyetnamda nizamlanma cəhdləri və ABŞ-da müharibə əleyhinə etirazların artması

Birləşmiş Ştatlar, Vyetnamda o qədər itki vermişdi ki, Amerika rəhbərliyi Amerika vətəndaş müharibəsindən sonra ilk dəfə ümumi hərbi səfərbərlik elan etdi. Gənc amerikalılar indi orduda məcburi xidmət etməyə məcbur olurdular. Bu, müharibə əleyhinə kütləvi etiraz aksiyalarının keçirilməsinə səbəb oldu. Bu arada, 1968-ci ilin noyabrında, Prezident seçkisi gəlirdi və Demokratlar Partiyası bir çox

"etirazçı" səslərini itirə bilərdi. Prezident L.Conson Asiyada siyasəti dəyişdirməyə başladı. İlk vəzifə, Vyetnamla münaqişənin həlli üçün bir yol tapmaq idi. Vaşinqton, Çin və SSRİ-nin Vyetnam kommunistlərinin arxasında olduğuna əmin olduğundan, Xanoyla barışıq məsələsini həll etməklə eyni zamanda, ÇXR və Sovet İttifaqı ilə münasibətlərin yaxşılaşdırılmasını lazım bilirdi.

SSRİ ilə danışıqlar qənaətbəxş formada gedirdi. ÇXR ilə münasibətlər ləng inkişaf edirdi. Pekinlə dialoqu yerindən tərpətməyə çalışaraq, 1966-cı ildə ABŞ ÇXR ilə 1958-ci ildən sonra dondurulmuş danışıqları bərpa etdi. Danışıqlar Cenevrədən Varşavaya keçirildi. Bu, yenə də Vaşinqton və Pekin münasibətlərinin normallaşdırılması və Tayvan probleminin həlli ilə bağlı idi.

ABŞ-ın danışıqlar üçün istiqamətlənməsi, VDR ilə daha yaxşı əlaqə yaratmağa imkan verdi. 1967-ci ilin yanvar ayında, Hanoy Şimali Vyetnam ərazisini bombalamağa son verəcəyi təqdirdə, ABŞ ilə danışıqlara girməyə hazır olduğunu bildirdi. Bu mövqe, Sovet İttifaqı tərəfindən dəstəkləndi. 1967-ci ilin fevral ayında, A.N. Kosıgin Böyük Britaniyaya səfəri zamanı, Britaniya Nazirlər Kabinetinin başçısı, L.Consonun Şimali Vyetnam rəhbərlərinə ünvanladığı əlaqələrin normallaşdırılması ilə əlaqədar olan təklifini ona çatdırdı. SSRİ, ABŞ və VDR arasında vasitəçi rolunu oynadı. Ancaq, bu missiya nəticə vermədi. Qlassboroda olan görüşdə SSRİ, ABŞ-ın VDR ilə dialoq qurmaq üçün "xeyirxah xidməti" qəbul etməyə hazır olması məsələsini araşdırdı, lakin bu cəhd də uğursuz oldu.

Birdən-birə, ABŞ-Çin münasibətlərində irəliləyiş baş verdi. 1968-ci ildə, Çində "mədəni inqilab"ın radikalizmi zəifləməyə başladı. Çin liderləri xarici dünyaya daha real baxmağa başladılar. Onlar həm SSRİ-dən, həm də ABŞ-dan müharibə təhlükəsi gözləyirdilər, amma Sovet təhlükəsini daha real hesab edirdilər. Ona görə də, ABŞ ilə münasibətlərin yaxşılaşdırılması xətti, Pekinin Moskvaya təzyiq vasitəsi kimi görünürdü. ÇXR-də, Vaşinqtonla güzəştə getməyə tələsmirdilər: ABŞ-da Demokratlar Partiyasının mövqeləri zəifləyir, L.Consonun yenidən seçilmək şansı yox idi və ona görə də, Pekin Prezident seçkilərinin nəticələrini gözləyirdi.

Cənubi Vyetnamda olan Amerika hərbi bazalarını vyetnamlı partizanlardan və onların Şimali Vyetnam müttəfiqlərindən qorumaq üçün nisbətən özəl bir hərbi əməliyyat olaraq başlayan müharibə, 1968-ci il üçün 500 mindən çox Amerika əsgər və zabitinin iştirak etdiyi əsil müharibəyə çevrilmişdi. Eyni zamanda, cəngəlliklər və şəhərlərdə aparılan müharibənin partizan xarakteri, Amerika qüvvələrinə döyüş hazırlığı və texniki avadanlıqlarda üstünlüklərindən istifadə etməyə imkan vermirdi. ABŞ, Cənubi Vyetnamda olan kommunist birləşmələrini təslim olmağa məcbur etmək üçün, onların bazalarını bombalayaraq, VDR-dakı hərbi və sənaye

obyektlərinə müntəzəm basqınlar etsə də, heç bir nəticə əldə edə bilmirdi. Müharibə uzun sürən bir xarakter aldı. Amerika tərəfinin itkiləri daha da artdı.

Ancaq, partizanların fəaliyyəti beynəlxalq ictimai rəydə güclü təəssürat yaratmışdı. Cənubi Vyetnamda olan vəziyyət, ABŞ hərbiçiləri tərəfindən "Vyetnamın itirilməsi" qorxusu olaraq qəbul edilirdi. Pentaqon Prezident L.Consona ehtiyat qüvvələrini səfərbər edərək, Vyetnama əlavə 206 min əsgər göndərmək təklifi ilə müraciət etdi. Prezident çətin vəziyyətə düşmüşdü. Ehtiyatda olanların çağırışı əslində ABŞ-da ümum ölkə səfərbərliyi demək idi və Konqresə hərtərəfli izahat vermək tələb olunurdu. Bu, xalqın narazılığına səbəb oldu. Amerika Birləşmiş Ştatlarının geniş ictimaiyyəti hələ də mübarizə tərəfdarı olduqlarından, Vyetnam kommunistləri üzərində qələbə istəsələr də, savadlı təbəqələr müharibəni davam etdirməyə razı deyildilər.

İlk növbədə hökumətdə fikir ayrılığı yarandı. 1968-ci ilin fevral ayında, ABŞ-ın Müdafiə naziri R.Maknamara Vyetnamda qələbə çalmaq tərəfdarı olduğundan öz vəzifəsindən azad edildi. Pentaqonun yeni rəhbərləri möhkəmlik nümayiş etdirməyə çalışsalar da, qələbənin tezliklə əldə edilməsinə şübhə ilə yanaşırdılar. İkincisi, 10 mart 1968-ci ildə, ABŞ hərbi qüvvələrinin Vyetnama əlavə birləşmələr göndərilməsi tələbatı haqqında mətbuata məlumat sızdı, Amerika KİV-i hökuməti kəskin şəkildə tənqid etməyə başladı. Bu məsələ ictimai rəyə də, uyğun ruhda təsir etdi. Üçüncüsü, müharibəyə münasibət, Demokratlar partiyasının yüksək rəhbərliyində fikir ayrıığına səbəb oldu, bu da L.Consonun ikinci müddətə demokratların namizədi kimi irəli sürülməsini şübhə altına aldı. Demokratlar arasında və bütövlükdə cəmiyyətdə şəxsən L.Consona qarşı tənqid tədbirlərinə başladı.

Martın 12-də, Demokratlar Partiyasından ilk namizədlərin irəli sürülməsi zamanı, gözlənilmədən müharibə əleyhinə şüarlarla çıxış edən senator Yudjin Makkarti qələbə qazandı. Martın 16-da Nyu-York ştatının senatoru, öldürülmüş Prezidentin qardaşı və Amerikanın ən məşhur siyasətçilərindən biri olan Robert Kennedi seçki tədbirinə qatıldığını elan etdi. O, Prezidentin siyasətini və apardığı müharibəni də tənqid etdi. Eyni zamanda, Vyetnamda qələbənin əldə edilməsi perspektivlərini öyrənmək üçün, L.Consonun özü tərəfindən yaradılan hökumət komissiyası, qələbəni təmin etmək üçün lazım olan itkilərin bundan sonra alına biləcək uğurları üstələyəcəyi qənaətinə gəldi. Bu vəziyyətdə, 31 mart 1968-ci ildə Prezident L.Conson, televiziya ilə xalqa müraciətində, Vyetnam məsələsində siyasətin dəyişildiyini elan etdi. Vyetnamda ABŞ qoşunlarının sayının artırılması ilə bağlı hərbçilərin tələblərini rəsmi olaraq rədd etdi. O, elan etdi ki, Vyetnamın cənubunda olan partizan bazalarına zərbələr endirməyə davam etsələr də, Şimali Vyetnamın (19-cu paraleldən şimala) bombalanması dayandırılmışdır. ABŞ Hanoya danışıqlara

hazır olduğunu bildirdi. Eyni zamanda, Prezident ikinci prezidentlik müddətinə namizədliyini irəli sürməkdən imtina etdiyini açıqladı. Səlahiyyətlərinin sonunda ABŞ prezidentliyini tərk edən L.Conson, doğma Texas ştatına qayıdaraq ictimai və siyasi həyatdan tamamilə uzaqlaşdı. Müsahibə vermirdi, ictimai tədbirlərdə iştirak etmirdi və Vaşinqtona getmirdi. Tarixçilər onu "susmuş Prezident" adlandırırdılar (1973-cü ilin yanvarın 22-də 65 yaşında vəfat edib).

1968-ci ilin martında, ABŞ Şimali Vyetnamı bombalamağı dayandırdı, sonra isə, 10 mayda Parisdə ABŞ- Vyetnam danışıqları başlandı. Vyetnam tərəfi danışıqları uzadırdı. XX əsrdə ilk dəfə, ABŞ təcavüzkar xarici siyasətindən imtina etmişdi. SSRİ kimi ABŞ da beynəlxalq münasibətlərdə status-kvonun tanınmasını məqsədəuyğun saymağa meyl göstərirdi. ABŞ-da olan daxili siyasi vəziyyət son həddə çatmışdı. Müharibə əleyhinə olan nümayişlər, ölkənin ağ olmayan əhalisinin etirazları ilə birləşməyə başladı. Onlara hər cür ultra-sağ təşkilatların və millətçilərin fəallığı da əlavə edildi. Siyasi qətllər dalğası ölkəni bürüdü: 4 aprel 1968-ci ildə, qara amerikalıların hərəkatının görkəmli lideri Martin Lüter Kinq öldürüldü. 5 iyun 1968-ci ildə, isə Prezident seçkisində ən güclü namizəd hesab edilən senator R.Kennedi ərəb terrorçusu tərəfindən, guya ”israil pərəst” olduğuna görə, öldürüldü.

## 5.Cənubi- şərqi və Şərqi Asiya ölkələri beynəlxalq münasibətlərdə

### 5.1.İndoneziyada siyasi hadisələr

60-cı illərdə İndoneziya qoşulmama xəttinə riayət etməyə davam edirdi. 60-cı illərin əvvəllərində, ABŞ-ın İndoneziyada apardığı siyasəti - anti-prezident qüvvələrinə verdiyi dəstək, Sukarnonun Amerikaya qarşı etibarsızlığına səbəb oldu. SSRİ ölkəyə avadanlıq və silah (uzaq mənzilli bombardmançılar, sualtı qayıqlar) ilə kömək edirdi. Bu təchizat, İndoneziyanın hərbi imkanlarını gücləndirdi və o, Qərbi İrianda öz təsirini saxlayan Hollandiyaya qarşı çıxmağa səy göstərdi. Hollandiyanın Cakartaya qarşı çıxması üçün kifayət qədər qüvvəsi var idi. Bundan əlavə, öz sərhədlərini genişləndirən güclü və narahat İndoneziyanı öz sərhədlərində görünməsini istəməyən Avstraliya Hollandiyanı dəstəklədi. Ancaq ABŞ və İngiltərə, öz nüfuzlarından qorxaraq Hollandiyanı dəstəkləmək istəmədilər. Çünki, Moskva Cakartanın tərəfində idi, həm də, İndoneziya ilə nüvə sınaqlarının qadağan olunması müqaviləsi bağlamalı idi. 1963-cü ilin mayında Hollandiya, Qərbi İrianın nəzarətini sülh yolu ilə İndoneziyaya verdi.

Bununla belə, Cakartanın ərazi iddiaları tükənmədi, çünki dərhal Malayziya ilə ərazi mübahisəsi yarandı.

Malayziya Federasiyası 1963-cü ilin sentyabr ayında, keçmiş Malay Federasiyasının materikdə olan ərazisində, İngiltərənin iki müstəmləkəsi Borneo - Saravak və Sabah adalarında və Sinqapurda elan edilmişdi. 1965-ci ilin avqustunda Sinqapur Malayziyadan ayrılaraq müstəqil dövlət oldu. Təşəbbüsü İngiltərəyə məxsus olan birləşmənin səbəbi, keçmiş Malayın çinli əhalisinin, indi çoxluq təşkil etməsi nəticəsində, siyasi sistemin liberallaşdırılması şərtləri altında, yerli əhalini özünə tabe etməsinin qarşısını almaq idi. Etniki cəhətdən əsasən malayların yaşadığı adaların ərazilərinin federasiyasıyaya birləşdirilməsi, vahid dövlətdə etnik arası tarazlıqda bərabərlik yarada bilərdi.

Borneo adasının çox hissəsinin İndoneziyanın tərkibində olduğundan, Cakarta hökuməti, İngilis müstəmləkələrini də özünün əsas əraziləri hesab edirdi. Sukarno, Malayziyanı imperiya yaratmaq istəyində ittiham etdi. Malayziya Federasiyasının yaranmasının rəsmi elanına qədər, indoneziyalı "könüllülər" Saravak və Sabah ərazilərinə basqınlar etməyə başladılar. Hərbi qarşıdurma gedişində, İndoneziya İngiltərə ilə diplomatik münasibətləri kəsdi, onun vətəndaşları ölkədən qovuldu və əmlakları milliləşdirildi. 1964-cü ilin avqustunda, İndoneziya qoşunları Borneoya göndərildi və münaqişə açıq bir mərhələyə keçdi.

ABŞ və İngiltərə Malayziyanı dəstəkləyərək, kömək etməyə başladılar. Malayziya tərəfində İngiltərə və Avstraliya qoşunları da iştirak edirdi. Ancaq dövlətlər arasında birlik yox idi. SSRİ, İndoneziyaya silah təchizini davam etdirirdi və BMT Təhlükəsizlik Şurasında Cakartanın hərəkətlərini pisləyən qətnamələr qəbul etmək cəhdlərinə veto qoyurdu. Ən böyük aktivliyi, İngiltərə və ya ABŞ ilə qarşıdurma olacağı halda kömək edəcəyini bildirən, Çin göstərdi.

Çinin rəsmi siyasət yolu ilə İndoneziya ilə yaxınlaşmasının nəzəri əsası, Sukarnonun Asiyada yeni müstəqillik qazanmış dövlətlərdən "yeni qüvvələr bloku" yaratmaq ideyası ola bilərdi. İndoneziya hökuməti, ölkənin BMT-dən çıxdığını elan etdikdən sonra, Cakartada "alternativ BMT" yaradılması ideyası müzakirə edilirdi. Oxşar planlar Pekində də səsləndi. 60-cı illərin ilk yarısı, Çinin bölgədə olan təsirinin zirvəsi oldu. Çin öz başçılığı altında İndoneziya, VDR və KXDR-dən ibarət regional blokun yaradılmasına səy göstərdi.

1965-ci ildə bu plan, İndoneziya kommunistlərinin çevriliş və inqilab həyata keçirmək üçün etdikləri uğursuz cəhdləri ilə məhv edildi. İndoneziyada İKP-nin təsiri 1950-ci illərdən bəri güclü olmuşdur. 1964-1965-ci illərdə, kommunistlərin dəstəyinə ehtiyacı olan və ÇXR-in köməyindən asılı olan Sukarno onların tövsiyələrinə diqqətlə yanaşırdı. Solların tələbi ilə ölkədə anti-kommunist və İslam partiyalarının, eləcə də sahibkar təşkilatlarının fəaliyyətinə qadağa qoyuldu. ÇXR-dən alınan silahlarla təchiz olunmalı ehtimalı ilə, İndoneziya Kommunist

Partiyasının yarı qanuni şəkildə döyüş qrupları yaradılmışdı. Kommunistlər hərbi birləşmələrinin tanınmasını tələb edirdilər. Ölkədə kommunistlərə qarşı çıxa biləcək real qüvvə yalnız generallar idi.

30 sentyabr 1965-ci ildə , Prezident Sukarnonun ölümü haqqında yayılan yalan şayiə ilə əlaqədar, Kommunist Partiyası tərəfindən həyata keçirilən qiyam, hərbçilərə qarşı da yönəldilmişdi. Kommunistlər bir zərbə ilə İndoneziya silahlı qüvvələrinin bütün rəhbərliyini məhv etməyə çalışırdılar. Onlar buna qismən müvəffəq oldular. Kommunistlərin hücumundan xilas olan İndoneziya hərbçilərindən biri general Suxarto, onlara qarşı müqaviməti tez bir zamanda təşkil etməyə müvəffəq oldu və kommunistlərdən narazı qalan, millətçi, Çin əleyhinə olan qüvvələrin dəstəyinə arxalanaraq qiyamı yatızdıra bildi. Kommunist Partiyasına qarşı terror başladı, ölkədə diktatura bərqərar oldu.

Yeni hökumət, Çin ilə diplomatik münasibətləri kəsdi. Lakin, 1965-ci ildə baş verən hadisələr ölkəni anti-kommunist mövqelərində möhkəmləndirərək, xarici siyasətdə qarışmama siyasətini tərk etmədi. General Suxarto, sosialist ölkələri ilə əlaqələri kəsmədi. Əksinə, onun hökuməti Sukarno hakimiyyətinin son illərində gərginləşən Moskva ilə münasibətləri yaxşılaşdırmaq üçün tədbirlər gördü, eyni zamanda VDR və KXDR ilə əlaqələri inkişaf etdirmə xəttini davam etdirdi. İndoneziya, sırf regional məsələlərə getdikcə daha çox diqqət yetirərək, güclü bölgədən kənar dövlətlər arasında tarazlıq siyasəti həyata keçirməyə başladı. Prezident Sukarno, 1968-ci ilədək rəsmi olaraq vəzifəsində qalsa da, ev həbsində saxlanılırdı. O, 1970-ci ildə 68 yaşında ölmüşdür.

### 5.2.Uzaq Şərqdə beynəlxalq vəziyyət (1960-cı illər)

Uzaq Şərqdə beynəlxalq vəziyyət və siyasi qüvvələrin yerləşməsinə SSRİ-Çin, ABŞ- Çin münasibətləri, Yaponiyanın xarici siyasəti, Koreya və Tayvan məsələləri və ABŞ-ın Vyetnamda olan müharibəsi böyük təsir göstərirdi. Uzaq Şərq dünya siyasətinin təsir mərkəzlərindən birinə çevrilmişdi.

Uzaq Şərqin hər bir dövləti regional beynəlxalq münasibətlər sistemində yerini möhkəmləndirmək üçün xarici əlaqələrdən geniş istifadə etməyə çalışırdı.

Monqolustan BMT-nin üzvü oldu, Kamboca, Kuba, Nepal, Mali, Əlcazair kimi ölkələrlə diplomatik münasibətlər qurdu, nüvə silahına dair imzalanmış müqavilələrə qoşuldu. BMT-nin tərksilah komitəsinin üzvü oldu və dünyanın müxtəlif yerlərində aparılan müharibələrə etirazını bildirdi. 1963-cü ildə, Monqolustan İngiltərə ilə, 1965-ci ildə Fransa ilə diplomatik münasibətlər yaratdı. Monqolustan, 1962-ci ildə Qarşılıqlı İqtisadi Yardım Şurasına daxil oldu. Beynəlxalq əlaqələr ölkənin iqtisadi inkişafına kömək etdi. 1960-cı ildə,

Monqolustanla Çin arasında dostluq və qarşılıqlı yardım, 1962-ci ildə isə sərhədlər haqqında müqavilələr imzalandı. Çinin, Monqolustana qarşı ərazi iddiaları olduğundan ona təzyiq göstərir və tez- tez sərhəd münaqişələri baş verirdi.

1966-cı ilin yanvarında, Ulan Batorda SSRİ ilə Monqolustan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında yeni müqavilə imzalandı. Müqavilə, müxtəlif sahələrdə əməkdaşlığı, hərbi yardımı, bütün mühüm beynəlxalq problemlərə dair müntəzəm məsləhətləşmələri nəzərdə tuturdu. Tərəflər, Asiyada beynəlxalq münasibətlərin əməkdaşlıq istiqamətində inkişafına və məhəlli münaqişələrinin dayandırılmasına çalışmalı idi.

Koreyada baş verən hadisələr də diqqət mərkəzində idi. Koreyanın birləşməsi məsələsində həm Şimali, həm Cənubi Koreyanın, həm də böyük dövlətlərin mövqeyi fərqli idi. Bu məsələdə, KXDR daha çox SSRİ və Çinin köməyinə arxalanırdı. 1961-ci ilin iyulunda, Moskvada SSRİ ilə KXDR arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalandı. Müqavilə, beynəlxalq həyatın ümumi maraq kəsb edən məsələlərində məsləhətləşmələri, xarici hərbi müdaxilə zamanı qarşılıqlı yardımı nəzərdə tuturdu. Tərəflər, onlardan birinə qarşı yönəlmiş blok və ya koalisiyalarda iştirak etməməli idi. 1961-ci ildə KXDR, Çin ilə də belə müqavilələr bağladı.

KXDR , ABŞ-a qarşı mübarizədə Şimali Vyetnamı müdafiə edirdi. 60-cı illərin sonunda, KXDR 40-dan çox ölkə ilə diplomatik münasibətlər yaratmışdı.

Cənubi Koreyada isə ABŞ-ın mövqeyi güclü idi. Onun iqtisadiyyatında ABŞ-ın kapitalı mühüm rol oynayırdı. 1965-ci ildə, Cənubi Koreya Yaponiya ilə münasibətlərini yaxşılaşdırdı. 1970-ci ilə qədər, Yaponiya ona 350 milyon dollar kredit vermişdi. 1965-ci ildə, Cənubi Koreya Vyetnama 50 min nəfərdən ibarət qoşun göndərdi. ABŞ-ın köməyi ilə, Cənubi Koreya ordusu yenidən quruldu və iki dövlətin birgə təlimləri keçirildi.

1960-cı ildə, KXDR ölkənin birləşdirilməsinə dair proqram təklif etdi. Proqramda, Şimalda və Çənubda azad seçkilərin keçirilməsi, konfederasiya yaradılması, hər iki hökumətin nümayəndələrindən ibarət milli komitənin təşkili nəzərdə tutulurdu. Milli komitə xarici siyasət və müdafiə məsələləri ilə verilmiş səlahiyyətlər çərçivəsində məşğul ola bilərdi. Cənubun konfederasiya yaratmaqdan imtina edəcəyi təqdirdə, hər iki tərəfin işgüzar nümayəndələrindən ibarət İqtisadi Komitə təşkil olunmalı və iqtisadi əlaqələr inkişaf etdirilməli idi.

Cənubi Koreya ABŞ qoşunları çıxarılmalı və hər iki dövlətin ordusunun sayı 100 min nəfərə qədər azaldılmalı idi. 1961-ci ilin sentyabrında və 1970-ci ilin noyabrında, KXDR birləşməyə dair yeni təkliflərlə çıxış etdi. Cənubi Koreyanın

rəhbərliyi bu təklifləri də qəbul etmədi. Koreya məsələsi BMT Baş Məclisinin sessiyalarında da müzakirə edilirdi.

### 5.3.ASEAN-ın təşkili (1967-ci il avqust)

ABŞ-ın Vyetnamda apardığı müharibəsi Cənub-Şərqi Asiya bölgəsində anti-Amerika və anti-Qərb əhval-ruhiyyəsini təsir etdi. Bölgədə olan kiçik və orta ölkələr kommunizmə rəğbət bəsləmirdilər. Lakin, Amerikanın Asiyada mövcudluğunun, onları kommunist təcavüzündən qoruya biləcək qüvvə olmadığını, qeyri-Asiya ölkələrinin Asiya dövlətlərinin işlərinə müdaxilə etmək istəyinin olduğunu gördülər. Cənub-Şərqi Asiya ölkələri hesab edirdilər ki, SSRİ, ABŞ və Çin kiçik və orta ölkələrin işlərinə müdaxilə etməsələr, mübahisələr və narazılıqlar dövründən sonra, sonuncular arasında münasibətlər normallaşardı. Cənub-Şərqi Asiyanın qeyri-kommunist ölkələri - Tailand, Malayziya, İndoneziya, Filippin və Sinqapur arasındakı münasibətlərdə bitərəflik ideologiyası üstünlük təşkil etmişdir.

1967-ci ilin avqustunda, bu beş ölkənin Xarici İşlər nazirləri Tailandın paytaxtı Banqkokda yığıncaq keçirmək üçün toplandı və yeni bir təşkilatın - Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyasının (CŞADA - Association of South East Asia Nations ) və ya ASEAN-ın yaradıldığını elan etdilər. Onun məqsədi iqtisadi və mədəni əməkdaşlığı, sülh və sabitliyi ədalət zəminində təşviq etmək idi. ASEAN-ın prinsipləri və məqsədləri ilə razılaşdıqları təqdirdə, yeni təşkilat digər Cənub-Şərqi Asiya ölkələrinin qəbul edilməsi üçün açıq idi.

ABŞ, yeni qurumun yaradılmasını dəstəklədi. Kiçik və orta ölkələr arasında əməkdaşlığa hərbi-siyasi istiqamət verməyə səy göstərməyə başladı. Lakin, ASEAN üzvləri müdafiə istiqaməti üzrə əməkdaşlığı müzakirə etməkdən imtina edərək, iqtisadi, elmi və texnoloji mübadilə və mədəni məsələlərə diqqəti artırmağa üstünlük verdilər. Vyetnamda olan müharibəni nəzərə alaraq, birlik ölkələri regional əməkdaşlığın siyasiləşməsindən yayınmağı üstün tutaraq, bitərəf mövqedə olaraq qaldılar.

## 6.Yaxın Şərq beynəlxalq münasibətlərdə

### 6.1.Süveyş böhranından sonra Yaxın Şərqdə siyasi vəziyyət

Süveyş böhranı, Böyük Britaniya və Fransanın Yaxın Şərqdə olan təsirinin azalması, ABŞ və SSRİ-nin rolunun artması ilə nəticələndi. Yaxın Şərq mühüm geostrateji və geoiqtisadi mövqe tutduğuna görə, bölgədəki nüfuz uğrunda super dövlətlər arasında rəqabət artmışdı.

Qərb dövlətləri, İsraili Yaxın Şərqdə əsas anti-kommunist və islam əleyhinə qüvvə kimi gördüklərindən, onu dəstəkləyirdilər. 1960-cı illərin əvvəllərində, İsrail güclü regional güc mərkəzinə çevrildi. Yəhudi əhalisi təqribən 2,5 milyon nəfər idi, ölkənin müasir iqtisadiyyatı və ixtisaslı döyüş hazırlıqlı ordusu var idi. Qərbin davamlı maliyyə və hərbi dəstəyi, xüsusən də Fransa və Amerika silahları ilə təçhiz olunması ən vacib məsələlərdən biri idi.

ABŞ, bölgədə mülayim antikommunist hökumətlərə - Türkiyə, Səudiyyə Ərəbistanı, Bəhreyn, İran və Pakistana güvənməyə çalışırdı.

SSRİ-yə gəlincə, Yaxın və Orta Şərqdə müdafiə və hücum siyasəti yürüdürdü. Bir tərəfdən, Moskva ABŞ-ın SSRİ-nin sərhədlərinə bitişik bölgələrdə siyasi və hərbi varlığını azaltmağa çalışırdı. Digər tərəfdən, Sovet rəhbərliyi milli azadlıq hərəkatının radikal qanadını dəstəkləyir və Yaxın və Orta Şərqdə öz təsirini gücləndirməyə çalışırdı.

1956-cı il hadisələrindən sonra, İsrailə qarşı ən düşmən mövqedə olan, Sovet İttifaqının dəstəyindən istifadə edən Suriya və İraq idi. Bu ölkələr İsraillə yeni hərbi toqquşmaya hazırlaşmaq və yəhudi dövlətinin ləğv edilməsi üçün eyni bir istiqamət götürdülər. Misir də İsrail ilə, uzun müddət davam edən qarşıdurmadan istifadə etmək siyasəti aparmaqla, yeni bir silahlı mübarizəyə hazırlaşırdı. Bundan əlavə, Misir rəhbərliyi ölkənin iqtisadi inkişafına və ərəb dünyasında hegemonluq mübarizəsinə böyük diqqət yetirirdi. 1958-ci ildə, Misir və Suriyanın vahid bir dövlətə - Birləşmiş Ərəb Respublikasında (BƏR) birləşməsi baş verdi. Sonra Yəmən də federal birlik əsasında BƏR-ə qatıldı. Ancaq yeni dövlət quruluşu kövrək oldu: 1961-ci ildə Suriya və Yəmən daxili ziddiyyətlər üzündən BƏR-ı tərk etdilər.

1960-cı illərin ortalarında, İsrailin vəziyyəti pisləşdi. Bunun bir neçə səbəbi var idi. 1964-cü ildə, Ərəb dövlətlərinin birliyi İordan çayının sularının bir hissəsini İordaniya və Qərb sahilinin kənd təsərrüfatı ehtiyacları üçün yönləndirmək qərarına gəldi. Bölgədə su ehtiyatlarının qıtlığı olduğundan, bu qərarın həyata keçirilməsi İsrail üçün böyük fəsadlara səbəb ola bilərdi.

Bundan əlavə, məhz 1964-cü ildə Yaxın Şərqin siyasi səhnəsində Fələstin Müqavimət Hərəkatının əksər qruplarını birləşdirən yeni bir "aktor" meydana çıxdı - Fələstin Azadlıq Təşkilatı (FAT). Məlum olduğu kimi, BMT Baş Assambleyasının Fələstinin bölünməsi və ərazisinin bir hissəsində ərəb Fələstin dövlətinin yaradılması barədə qətnaməsi yerinə yetirilməmişdi. Ərəb Fələstin dövləti üçün nəzərdə tutulan ərazi qismən İsrail, qismən İordaniya (Qərb sahili) və Misir (Qəzza zolağı) tərəfindən işğal edilmişdi. Fələstinlilər ya qaçqın (ilk ərəb-İsrail müharibəsindən sonra təxminən 600 min insan idi) və ya qonşu ərəb

dövlətlərində bərabər hüquqlara malik olmayan yadlar idi. Təəccüblü deyil ki, fələstinlilər son dərəcə qətiyyətli addımlar atmağa hazır idilər. Onlar, İsrail dövlətini qəbul etmir, onu məhv etmək vəzifəsini öz qarşılarına məqsəd kimi qoymuşdular və terror aktları da daxil olmaqla bütün mübarizə vasitələrindən istifadə etməyə hazır idilər. FAT döyüşçülərinin 1965-ci ildən etibarən atdığı addımlar İsrailin İordaniya və Suriya ilə olan silahlı xəttlərində vəziyyəti ciddi şəkildə mürəkkəbləşdirirdi. Yaxın Şərq münaqişəsinin bütün aktorları yeni müharibəyə hazırlaşırdılar.

### 6.2.Yaxın Şərqdə siyasi vəziyyətin gərginləşməsi

60-cı illərin sonunda, ərəb-İsrail münasibətləri yenidən pisləşdi, bu, əsasən Suriyada 1966-cı il 23 fevralda növbəti hərbi çevriliş nəticəsində hakimiyyətə gələn sol baasistlər (Sosialistlər) hökumətinin fəaliyyətləri ilə əlaqəli oldu. Yeni Suriya hökuməti, sosializm quruculuğuna, xarici siyasətdə isə - "sionist dəstələrə" (İsrail) qarşı qətiyyətli mübarizəyə, SSRİ və sosialist ölkələri ilə əməkdaşlığın inkişafına istiqamət götürdü. SSRİ hökuməti, Dəməşqə etdiyi irimiqyaslı hərbi əməkdaşlığı genişləndirməkdə davam edərək, Suriyaya iqtisadi yardım da göstərirdi. 1966-cı ilin dekabrında, SSRİ-nin dəstəyi ilə Suriyada, Fərat çayında ("Suriya Asuanı") bəndin inşasına dair müqavilə imzalanmışdı.

1966-cı ilin ikinci yarısından etibarən, Suriya- İsrail atəşkəs xəttində artilleriya və aviasiyadan istifadəyə etməklə, toqquşmalar daha da artdı. Sol baasistlər dəstək üçün C.Ə.Nasirə müraciət etdilər. 1966-cı ilin noyabrında, iki ölkənin hərbi ittifaqının yaradılmasını nəzərdə tutan Suriya və Misirin birgə müdafiəsi haqqında müqavilə imzalanmışdı. 1967-ci ilin yazında, İsrailə qarşı çıxan dövlətlərin daxil olduğu və 1964-cü ildə yaradılan Birləşmiş ərəb komandanlığını canlandırmaq üçün addımlar atıldı. Ərəb ölkələrində, mənaca köhnə şüar olan "İsraili dənizə ataq" təbliğat fəaliyyəti başlandı.

Suriyaya hərbi dəstək vermə ehtimalını nəzərə alaraq, Misir hökuməti 1967-ci il mayın əvvəlində, BMT-yə Sinay yarımadasında atəşkəs xəttindən sülhməramlı qüvvələrin çıxarılması ilə əlaqədar müraciət etdi. Misir, Suriya-İsrail müharibəsi zamanı, İsraili təhdid edə bilməsi üçün, birbaşa İsrail sərhədlərinə çıxmasına ehtiyac duyulurdu. BMT-nin beynəlxalq qüvvələri Sinaydan çıxarıldı.

### 6.3.Yaxın Şərqdə "Altı günlük" müharibə

1967-ci ilin aprelində, Suriya-İsrail sərhədi üzərində iki ölkə arasında hava toqquşmaları baş verdi. İsrail hökuməti, Dəməşqi önləyici müharibə ilə hədələməyə başladı. Misir Prezidenti Nasir kənarda qala bilmədi və Suriyanın köməyinə gəldi.

23 may 1967-ci ildə BƏR hökuməti, İsrail gəmilərinin keçməsi üçün Tirana boğazının bağlandığını elan etdi və bununla da İsrailin Eylat limanını mühasirəyə almış oldu, bunun nəticəsində İsrail Qırmızı dənizə yeganə çıxışını itirdi. Bu gərgin şəraitdə Sovet hərbi rəhbərləri, Misir rəhbərliyinin İsrailə qarşı hərəkətlərini dəstəkləyərək ehtiyatsız bəyanatlar verdilər. Buna cavab olaraq İsrail, Misirin beynəlxalq dəniz yollarında naviqasiya azadlığını pozan hərəkətləri ilə əlaqədar, BMT Təhlükəsizlik Şurasına şikayət etdi. Mayın 23-də, BMT baş katibi U Tan Qahirəyə gəldi. C.Ə.Nasir ilə danışıqlar zamanı, üç həftə- 6 iyuna qədər mübahisənin dondurulması mövzusunda razılığa gələ bildi. Bundan sonra, mübahisənin BMT vasitəçiliyi ilə həll edilməsi üçün danışıqlara başlamağın lazım olduğu qərarına gəldilər.

Belə görünürdü ki, beynəlxalq vəziyyət ərəb dövlətlərinə daha müqabil idi. SSRİ ardıcıl olaraq Misir və Suriyanı dəstəkləyir, onları silahla təmin edir, zabit kadrlarını öyrədir və öz hərbi məsləhətçiləri ilə kömək edirdi. Birləşmiş Ştatlar Vyetnam müharibəsinə getdikcə daha çox cəlb olunduğundan, öz iştirakı ilə başqa bir münaqişə yaratmaqda maraqlı deyildi. Yaxın Şərqdə vəziyyətin gərginləşməsi şəraitində, Fransa İsrailə təcili əlavə silah təchizatını həyata keçirdi.

İordaniya 30 may 1967-ci ildə, BƏR ilə birgə müdafiə müqaviləsi bağlayaraq, Suriya-Misir ittifaqına daxil oldu.

Mövcud hərbi-siyasi vəziyyəti təhlil etdikdən sonra, İsrail rəhbərliyi ərəb qonşularına qarşı prevantiv (önləyici) müharibə başlamağa qərar verdi. 5 iyun 1967-ci ildə səhər tezdən, İsrail silahlı qüvvələri ərəb ölkələrinin ittifaqına qarşı geniş hücum əməliyyatlarına başladı.

Döyüş İsrail təyyarələrinin, Misir Hərbi Hava Qüvvələrinin Nil Deltasında yerləşən bazalarına zərbəsi ilə başladı. Misir Hərbi Hava Qüvvələrini hava limanlarında dərhal məhv etmək üçün belə bir plan qurmuşdu.

İsraillilər, Misir ilə ABŞ və Böyük Britaniya arasında olan münasibətləri gərginləşdirə bildilər. Hadisələrin inkişaf etdiyi dövrdə, ABŞ-ın VI donanması və Kiprdə yerləşən İngiltərə Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə hərbi manevrləri həyata keçirirdi. İsrail təyyarələri çox aşağı hündürlükdə uçaraq, İngilis-Amerika manevrlərinin ərazisini keçməklə, sonra uçuş başlanğıcını təqlid edərək hündürlüyə qalxıb, Nil deltasında olan Misir aviabazalarına hücum etməyə başladılar. Onları məhv etdikdən sonra, İsrailə qayıdıb, yanacaq və döyüş sursatı dolduraraq, ikinci və üçüncü basqınları həyata keçirirdilər. Bütün bunların hamısı, İsrail təyyarələrinin, ABŞ-Britaniyanın manevr edən qüvvələrinin "himayəsi altında" olduğu kimi görünürdü. Misir Hərbi Hava Qüvvələrinə məxsus təyyarələrin 80%-i elə yerdə, havaya qalxmadan məhv edildi. Sinayda olan

qruplaşma hava dəstəyini itirərək darmadağın olundu. Bu döyüşdə dörd Misir diviziyası tamamilə darmadağın edildi, daha üçü döyüş qabiliyyətini itirmiş oldu. İyunun 6-da, İsrail qoşunları Qəzza zolağını, iyunun 7-də isə Aqaba körfəzinin girişinə nəzarət edən Şarm əl-Şeyxi ələ keçirdilər. 8 iyunda Sinay döyüşü bitdi, ertəsi gün İsrail qoşunları Süveyş kanalının şərq sahilinə çatdılar.

Eyni tale, İordaniya və Suriya ordularının da başına gəldi. İsrail qüvvələri İordaniya və Suriyaya hücum etdi. İyunun 7-də israillilər, Qüdsün ərəb hissəsini ələ keçirdilər və hücumları davam etdirərək İordan çayının qərb sahilinə nəzarəti ələ keçirdilər. İyunun 9-da strateji əhəmiyyətə malik Qolan yüksəkliklərindəki Suriyanın mövqelərinə hücum etdilər və iki gün ərzində onları nəzarətə götürdülər. Altı gün ərzində hərbi əməliyyatlar İsrail silahlı qüvvələrinin mübahisəsiz qələbəsi ilə başa çatmış oldu.

Müharibə zamanı İsrail, Sinay yarımadasını və Qəzza zolağını, Qüdsün ərəb hissəsini, İordan çayının qərb sahilini və Qolan yüksəkliklərini ələ keçirmişdi. Ümumilikdə, İsrailin nəzarət etdiyi ərazilər 20 800 kvadrat kilometrdən, 89 859 kvadrat kilometrə qədər artdı. İyunun 27-də İsrail rəhbərliyi, Qüdsün ərəb hissəsinin ilhaqını elan etdi və şəhəri ölkənin paytaxtı elan etdi.

İsrailin təcavüzkar hərəkətlərini, qarşıdurmaya silah embarqosu tətbiq edən general de Qollun başçılıq etdiyi Fransa rəhbərliyi də qınadı. Beynəlxalq birlik İsrailin Qüdsün ərəb hissəsini ilhaq etməsini qəbul etmədi.

İsraillilər də bir siyasi məqsədə də nail ola bildilər: Misirin hava hücumundan müdafiə komandanlığı C.Ə.Nasirə Misirin Britaniya-Amerika təyyarələri tərəfindən hücuma məruz qaldığı barədə məlumat verdi. 7 iyun 1967-ci il tarixində C.Ə.Nasir, ABŞ və İngiltərəni Misirə qarşı təcavüzdə günahlandıraraq diplomatik əlaqələrini kəsdiyini elan edir. Yalnız bir gün sonra səhvinə əmin oldu. İyunun 9-da C.Ə.Nasir istefaya getdiyini elan etdi, lakin iyunun 10-da Qahirədəki kütləvi nümayişlərdən sonra vəzifəsində qalmağa razı oldu.

BMT Təhlükəsizlik Şurası bu müddət ərzində vəziyyəti davamlı müzakirə etdi (15 müzakirə olmuşdu) və atəşkəs qətnamələri qəbul etdi. Lakin, müharibə davam edirdi. Suriyanın əməli olaraq müdafiə edə bilmədiyi Dəməşqə, israillilərin hücum etmək niyyəti ilə bağlı narahatlıqlar var idi.

Ancaq, beynəlxalq siyasi baxımdan, baş verən hadisələr, o qədər də sadə deyildi. Vəziyyət SSRİ-nin ciddi müdaxiləsi ilə xilas edildi. Sovet İttifaqı Misir və Suriya ilə münasibətlərə xüsusi əhəmiyyət verirdi - xüsusən də İraqda Ə.K.Qasım 1963-cü ildə çevriliş nəticəsində devrildikdən və İraqın yeni hökuməti Moskvaya qarşı ehtiyatlı mövqe tutduqdan sonra. SSRİ İsrailin hərəkətlərini kəskin şəkildə qınadı, onunla diplomatik münasibətləri kəsdi və Rumıniya istisna

olmaqla, bütün sosialist ölkələri onun kimi addım atdı. İsrailin atəşkəsə dair BMT qətnamələrini icra etməkdən imtina etməsi səbəbindən, Sovet İttifaqı Misir və Suriyaya İsrailə qarşı kömək etməyə hazır olduğunu bildirdi. Böhranın ortasında, L.İ.Brejnevin nümayəndəsi təcili missiya ilə Qahirəyə göndərildi və o, sonradan məlum olduğu kimi, C.Ə.Nasirə Sovet hökumətinin Misir silahlı qüvvələrini ən qısa müddətdə tam silahlanması üçün kredit verəcəyini bildirmişdi. Sovet hərbi gəmilərinin kiçik bir eskadrası Aralıq dənizinə göndərildi. Hərbi mənada bu rəmzi xarakter daşıyırdı.

SSRİ-nin ərəb ölkələrinin qarşıdurmasına müdaxilə etməyə hazır olduğu aydın oldu. Sovet hökuməti, Dəməşqə hücumun iyunun 10-dan əvvəl dayandırılmadığı təqdirdə, Suriyanın köməyinə gələcəyini açıqladı.

SSRİ və ABŞ münaqişəni məhdudlaşdırmaqda və onun böyüməsinin qarşısını almaqda maraqlı idilər. İyunun 6-da, BMT Təhlükəsizlik Şurası dərhal atəşkəs barədə qətnamə qəbul etdi. İyunun 8-də Misir, iyunun 10-da isə Suriya tərəfindən atəşkəs elan edildi. İyunun 11-də, İsrail hərbi əməliyyatların dayandırılmasına razılıq verdi.

1967-ci ilin iyun müharibəsi, **altı günlük müharibə** adlandırıldı, ərəb dövlətlərinin fəlakətli məğlubiyyəti ilə başa çatdı. İsrail Misirdən bütün Sinay yarımadasını və Qəzza zolağını, İordaniyadan - Şərqi Qüds və Qərbi Şəriyanı, Suriyadan - İsrail aviasiyası hər an sərbəst şəkildə Dəməşqi bombalaya biləcəyi Qolan yüksəkliklərini ələ keçirdi. Misir və İordaniya orduları tamamilə məhv edildi.

1967-ci ilin avqust ayında, ərəb dövlətlərinin birliyinin şurasının ən yüksək səviyyədə keçirilən iclası Xartumda mövcud vəziyyəti müzakirə etdi. C.Ə.Nasir və İordaniya Kralı Hüseyn İsrail ilə barışığın lazım olduğunu bəyan etdilər. Səudiyyə Ərəbistanı kralı Feysal, İsrail ilə müharibənin davam etməsində təkid etdi. O, ölkəsinin və Ərəbistan yarımadasının digər zəngin neft istehsal edən dövlətlərinin İsrail ilə "sərhədi" olan ərəb dövlətlərinin hərbi qüvvələrini maliyyələşdirməyə hazır olduqlarını vurğuladı. Düzdür, eyni zamanda Kral Feysal, Qahirədən, Misir ekspedisiya qüvvələrini Yəməndən çıxarılmasını tələb etdi. Misirin qoşunları ancaq, 1967-ci ilin dekabrında oradan çıxarıldı, baxmayaraq ki, bu kralın düşündüyü kimi Yəmən monarxistlərinə deyil, respublikaçılara xeyir vermişdi. Yəməndə imamın gücünü bərpa etmək mümkün olmadı.

Ancaq silahlı qarşıdurma, Yaxın Şərqin əsas problemlərini həll edə bilmədi. 1967-ci ilin avqustunda, ərəb dövlətlərinin liderləri Xartumda olan yığıncaqda İsrailə güzəştləri rədd etdi və qüvvələrin təzyiqi ilə onunla danışıqlardan imtina etdilər. Müharibə, İsrailin ərəb dövlətləri ilə münasibətlərini daha da çətinləşdirdi.

1967-ci il müharibəsi, İsrailin aparıcı dairələrində hərbi gücə güvənmək, işğal olunmuş əraziləri təhlükəsizlik kəməri kimi saxlamaq istəyini gücləndirdi. Ancaq uzun müddətdə belə bir siyasət təsirli ola bilməzdi.

Ərəb ölkələrinə etdiyi önləyici hücumla əlaqədar, İsrailə qarşı mənfi münasibətdən istifadə edən Sovet diplomatiyası, üçüncü dünyanın əksər ölkələri tərəfindən dəstəklənən, İsrail təcavüzünün nəticələrini aradan qaldırmaq üçün tədbirlər başlatdı. BMT-də vəziyyət, İsrail və onu dəstəkləyən ABŞ üçün xüsusilə çətin idi. 22 noyabr 1967-ci ildə, uzun və qızğın müzakirələr nəticəsində BMT Təhlükəsizlik Şurası 242 saylı qətnamə qəbul etdi. Bu, SSRİ və ABŞ-ın mövqeləri arasında İngiltərə tərəfindən təklif olunan razılaşma idi. Onun əsas müddəaları - İsrail qoşunlarının bütün işğal edilmiş ərazilərdən çıxarılması, fələstinli qaçqınlar probleminin ədalətli həlli, ərəblər və İsrail arasında müharibə vəziyyətinin dayandırılması, böyük dövlətlər tərəfindən bu bölgə dövlətlərinin sərhədlərinin qorunması, su yollarında naviqasiya azadlığının tanınması və hörmət edilməsi idi. Mövcud sərhədlərin təmin olunmasına dair bənd, ərəb dövlətləri ilə birlikdə, İsrail dövlətinin də Yaxın Şərqdə mövcudluğunun tanınmasını, yəni İsrailin mövcud olma hüququnun təsdiqlənməsini nəzərdə tuturdu.

Misir və İordaniya, 242 nömrəli qətnamə ilə razılaşdılar. Suriya bunu rədd etdi və İsrail isə qeyri- müəyyən mövqedə durdu. İsrail öz təhlükəsizliyini təmin etmək, sülh üçün ərəb ölkələri ilə birbaşa danışıqlar aparmaq və s. ilə əlaqədar bir sıra şərtlər irəli sürərək, bu qərarı qəbul etmək istəmirdi. Həm də İsrail, "tarixi Fələstin" hüdudlarında, yəni coğrafi sərhədlərdə, İsrailin 1967-ci ildə əldə etdiyi ərazilərdən daha geniş olan "Böyük İsrail" dövlətinin yaradılması fikrini həyata keçirmək planı olduğuna görə, BMT-nin qərarını qəbul etmək istəmirdi. İsrailin əsas məqsədi, işğal etdiyi torpaqları qaytarmaq deyil, bu illərdə ölkəyə gələn çoxsaylı immiqrantları yerləşdirmək üçün, bu ərazilərdə tikinti işləri aparmaq idi.

Bütövlükdə, Yaxın Şərqdə olan vəziyyətin gərginləşməsi Sovet İttifaqının və Birləşmiş Ştatların da narahatlığına səbəb oldu. Hər iki ölkə, ərəb-İsrail müharibəsinin böyük qarşıdurmaya çevrilməsini istəmirdi. Ancaq, hər biri "öz müştərisinin" məğlubiyyətini istəmirdi. Müharibə illərində, Moskva və Vaşinqton ABŞ Prezidenti L.Conson və SSRİ Nazirlər Sovetinin Sədri A. Kosıgin arasında qaynar xətt üzrə davamlı danışıqlar aparılırdı. ABŞ rəhbərliyi, Moskvanın münaqişəyə müdaxilə etmək niyyətinin olduğunu anladı və əgər, İsrail ərəblərə qarşı hücumunu dayandırsa, Sovet İttifaqının müdaxilə etməyəcəyi cavabını aldı. Münaqişənin kəskinləşməsi ABŞ-ın maraqlarına uyğun deyildi və Amerikanın xarici siyasətində yeni bir münaqişə nöqtəsinin meydana çıxması arzuolunmaz idi.

1967-ci il müharibəsi dövründə, SSRİ əksər ərəb ölkələrinin ictimai-siyasi rəyini özünə cəlb etdi. O dövrdə ərəb dövlətlərinin təxminən yarısı, ABŞ ilə diplomatik münasibətlərini kəsdi və bəzi ölkələr SSRİ-nin hərbi dəniz qüvvələrinə öz limanlarına girmək hüququ verdi.

60-cı illərdə siyasi, hərbi və ticari rəqabət səbəbindən, SSRİ və ABŞ bölgənin ərəb ölkələrinə, ABŞ-a da İsrailə kütləvi silah ötürmələrini həyata keçirməyə başladığı üçün, Yaxın Şərqin sürətli hərbiləşdirilmə siyasəti həyata keçirilməyə başlandı.

### 6.4.Fələstin ərəb xalqının problemi

İsrailin istilası, ərəb qaçqınlarının problemini - ilk növbədə, əsrlər boyu yəhudi əhalisinin olmadığı, "tarixi Fələstin" ərazisində məskunlaşmış ərəb sakinlərinin problemini daha da kəskinləşdirdi. Bu insanlar üçün Fələstin əsl vətən idi - onların başqa heç bir torpağı yox idi. Birinci ərəb-İsrail müharibəsindən sonra və 1967-ci ilə qədər ərəb fələstinliləri Qərb sahilində, Qəzza zolağında, İordan çayının şərqindəki İordaniyada, eləcə də bir sıra ərəb ölkələrində yaşayırdılar. 1967-ci ildən sonra, artıq Fələstin ərəblərinin yaşayış yerlərinin hamısı İsrailin hakimiyyəti altına düşdü. Fələstinli ərəblərin sayı 1,5 milyona çatırdı. Fələstinli qaçqınlara daha 300.000 nəfər əlavə edildi. Fələstin müqavimət hərəkatı inkişafı üçün çox böyük bir ehtiyat qüvvəsi almış oldu. Onun siyasi və hərbi təşkilatları gücləndi. Fələstinlilər terror hücumlarından istifadə etməyə başladılar. Bunlardan biri də, 1972-ci ildə Münhendə keçirilən Olimpiya oyunları zamanı İsrail idmançılarına edilən qəsd idi. İordaniyada fələstinlilər əslində,"dövlət daxilində dövlət" yaratdılar. Bu vəziyyət 1970-ci ilədək, İordaniya hakimiyyəti fələstin düşərgələrini dağıdaraq "qara sentyabr " təşkil edənə qədər qaldı.

Ərəb-Fələstin müqavimət təşkilatlarının rəhbərliyi heç vaxt ərəb ordularının uğurlarına ümid etmirdi. 1967-ci ildə olan məğlubiyyətdən sonra, onlar nəhayət yalnız öz gücünə güvənə biləcəyinə əmin oldular. Qaçqınların kütləsi qətiyyətli hərəkət tələb edirdi. Bu vəziyyətdə Fələstin təşkilatlarının rəhbərləri İsrailə qarşı tam şəkildə təxribat və terror müharibəsi başlamağa qərar verdilər. 1963-cü ildə, C.Ə. Nasirin təşəbbüsü ilə yaradılan (ilk adı "Fələstin Birliyi") Fələstin Azadlıq Təşkilatı (FAT) bu terror müharibəsinə rəhbərlik edirdi. Onun məqsədi fələstinliləri birləşdirərək, "sionist quldurları" məhv edib , Fələstində vahid ərəb-yəhudi dövləti yaratmaq idi.

Bir sıra Fələstin təşkilatlarının yaraqlı (fədai) dəstələri tərəfindən baş verən təxribat və terror müharibəsi zamanı, “Fəth” (Fələstin Azadlıq Hərəkatı) dəstələri ən uğurlu fəaliyyət göstərirdilər. 1968-ci ilin iyun ayında, keçmiş FAT sədri Əhməd

Şukeyri istefa verdi və onun yerinə Fəth lideri Yasər Ərəfət seçildi. Fədailərin İordaniya və Livan ərazilərindən İsrailə qarşı fəaliyyətlərinin fəallığı kəskin artdı. Fələstinlilərin fəaliyyətləri, ölkələrində olan Fələstin təşkilatlarının hərəkətlərinə zamanla nəzarət etməyin çətin olacağından qorxan yerli ərəb hakimiyyətləri olan, İordaniya və Livan hökumətlərini narahat etməyə başladı.

Ancaq yenə də, Yaxın Şərqdə dövlətlərarası inamsızlığı, düşmənçiliyi və güc tətbiq etmək istəklərini dəf etmək mümkün olmadı. Bölgədə yeni hərbi toqquşma təhlükəsi qalaraq, daha da böyüyürdü.

## 7.Afrika beynəlxalq münasibətlərdə

### 7.1.Cənubi Afrikada aparteidə qarşı mübarizə

İkiqütblü dünya sistemi dövründə Afrika qitəsindəki vəziyyət daha narahat görünürdü. Dünyanın bu hissəsində bir neçə münaqişə yaranmışdı, onlardan ən əsası Afrikanın cənubunda olan vəziyyət idi. Materikin bu hissəsində ən böyük dövlət Britaniya dominionu, millətlər Birliyinə daxil olan Cənubi Afrika İttifaqı (CAİ) idi. Ölkədəki dominant mövqeyi yerli ağlar, afrikanerlər (Bur)- Avropadan gələn ilk mühacirlərin nəsilləri tuturdu. Sayca azlıq təşkil etsələr də, yerli qara əhalini, habelə bir zamanlar Cənubi Afrikaya brilyant, qızıl və kömür çıxan mədənlərdə işləmək üçün Hindistandan gələn mühacirlərin nəsillərinə də hakimiyyətdə iştirak etməyə imkan vermirdilər.

İkinci dünya müharibəsindən sonra Afrika koloniyalarında və asılı ərazilərdə qaradərili əhalinin müstəqillik uğrunda hərəkatı başlandı. Cənubi Afrikanın ağ azlığı gələcəkləri üçün narahat olmağa başladılar. Afrikanerlər hesab edirdilər ki, qara çoxluq hakimiyyətə gələrsə, ağlar ölkədən çıxarılacaq, çünki müstəqillik istəyən bir çox Afrika ölkələrindən ağlar qovulmuşdular. Ağ əhali qüvvələrini səfərbər edərək, qaralara qarşı son dərəcə döyüşkən, təcavüzkar bir mövqe tuturdu.

1948-ci ildə, afrikanerlərin milli partiyası yaradıldı. Proqramın əsasını "aparteid" (ayrıseçkilik) təşkil edirdi, Cənubi Afrikanın ağ və ağ olmayan icmaları ayrıca yaşamalı idi. Onların hər birinin sayı ciddi şəkildə nəzərə alınır, bundan sonra hər bir etnik qrup üçün siyasi həyatda və biznesdə iştirakın fərqli qaydalarını, təhsil almaq şərtlərini və s. tənzimləyən sərt qaydalar tətbiq olunurdu. Müxtəlif etnik icmaların nümayəndələrinin həyat sürməsi üçün sərt sərhədlər qoyulurdu. Bu siyasətin məqsədi, Cənubi Afrikada həyatın bütün sahələrində afrikanerlərin üstünlük təşkil edən mövqelərini möhkəmləndirmək idi.

Afrikaner Milli Partiyası hakim partiyaya çevrildi. Ona qarşı ağ olmayan əhalinin təşkilatları –Kommunist Partiyası və Afrika Milli Konqresi dururdu. Onun

liderlərindən biri qaradərili keşiş Nelson Mandela idi. AMK fəallarının bir hissəsi hökumətlə silahlı mübarizə taktikasını dəstəkləyir, digər hissəsi isə N.Mandela tərəfində olaraq, zorakı olmayan etiraz formalarını müdafiə edirdilər.

Böyük Britaniya aparteidlə mübarizəyə cəhd etməsə də, bunu təsdiqləmədi. Birlik ölkələri, Cənubi Afrika siyasətini qınadı və hər imkanda onu tənqid etdi. BMT, dəfələrlə Cənubi Afrikanın ayrı-seçkilik qanunlarına yenidən baxmağı tövsiyə edən qətnamələr qəbul etmişdi. Lakin ağ cəmiyyətin liderləri, aparteidin qorunmasının Cənubi Afrikada ağların yaşaması üçün əsas şərt olduğuna əmin idilər və xaricdən gələn tənqidlərə diqqət vermirdilər.

60-cı illərin əvvəllərində, Afrikada milli azadlıq proseslərinin radikallaşması Cənubi Afrika rəhbərliyini ehtiyatlı addımlar atmağa məcbur etdi. Cənubi Afrika İttifaqı, İngiltərənin dominionu olaraq qalırdı, o da siyasi təsir imkanlarının minimum səviyyəsini hələ də saxlayırdı. Bunları aradan qaldırmaq üçün, 1961-ci ilin mayında Cənubi Afrika hökuməti Birlikdən çıxmaq qərarına gəldi və Cənubi Afrikanı müstəqil dövlət - Cənubi Afrika Respublikası elan etdi. Bundan sonra, ölkədə cəza verilmə halları daha da şiddətləndi. 1964-cü ildə, Cənubi Afrika xüsusi xidmət orqanları, AMK –nın partiya rəhbərliyinin əksəriyyətini həbs edə bildi. N.Mandela ömürlük həbs cəzasına məhkum edildi.

Cənubi Afrika yalnız öz ərazisinə nəzarəti etmirdi. 1920-ci ildən sonra, Cənubi Afrikaya keçmiş alman koloniyası Namibiyanı idarə etmək üçün Millətlər Cəmiyyəti tərəfindən mandat verilmişdi. 1949-cu ildə, Cənubi Afrika İttifaqı Namibiyanı BMT-nin qəyyumluq sisteminə daxil etməkdən imtina etdi və faktiki olaraq onu öz ərazisinə birləşdirdi. Bu addım beynəlxalq ictimaiyyət tərəfindən qanuni olaraq qəbul edilmədi.

1959-cu ildən sonra, Namibiyada Cənubi Qərbi Afrika Xalq Təşkilatının (CQAXT) rəhbərliyi altında milli azadlıq hərəkatı fəaliyyət göstərirdi. 1965-ci ildə, Afrika Birliyi Təşkilatı CQAXT -nı Cənubi Qərbi Afrika xalqlarının yeganə qanuni nümayəndəsi olaraq tanıdı. 1966-cı ildə CQAXT -nın təkidi ilə BMT Baş Assambleyası Cənubi Afrikanın Namibiyanı idarəetmə səlahiyyətini rəsmi şəkildə ləğv etdi və bu ərazini idarə etmək məsuliyyətini birbaşa BMT-yə həvalə etdi. Onun üçün də, Namibiyanı idarə etmək üçün BMT-nin xüsusi şurası yaradıldı. Cənubi Afrika, BMT qərarlarına əməl etməkdən imtina etdiyinə görə ona qarşı sanksiya tətbiq etmək tövsiyə edildi.

Cənubi Afrika ilə yanaşı, irqçi siyasətinə görə beynəlxalq sanksiyaların tətbiq edildiyi digər bir ölkə Cənubi Rodeziya idi. 1965-ci ildə, Yan Smitin başçılığı ilə ağ azlıq tanınmamış diktator hakimiyyəti yaratmışdı.

Cənubi Afrika və Cənubi Rodeziya Afrika torpaqlarında doğulmuş ilk Avropa mühacirlərinin yerli nəsillərinin müstəmləkə əleyhinə gedən prosesdə öz müstəqil "ağ dövlətlərini" yaratmaq üçün ciddi cəhdlər etmiş yeganə ölkələrdir. Hər iki cəhd uğursuz oldu. Cəza təzyiqli "ağ hökumətlər" qara əhalinin hücumlarına tab gətirə bilmədi və 90-cı illərin sonunda Afrikanın "demokratik yönümlü" adi dövlətlərinə çevrildilər. Eyni zamanda, Afrika ölkələrinin ağ əhalisinin müstəmləkə əleyhinə mütəşəkkil müqaviməti, vaxtı uzatmağa və onu idarə olunan bir prosesə çevirməyə imkan yaratdı. Bununla əlaqədar, Cənubi Afrika və Cənubi Rodeziyada olan ağ əhalinin dominant mövqelərdən qovulması -"ağların çıxarılması" prosesi, digər Afrika ölkələrində - Konqo, Əlcəzair və sonradan Mozambikdə azadlıq inqilablarına xas olaraq, bir anda deyil, onlara qarşı zorakılıqların qarşısını alan sakit formalarda baş vermişdi.

### 7.2.Konqoda siyasi vəziyyətin sabitləşməsi

1964-cü ilin iyununda, Birləşmiş Millətlər Təşkilatının qüvvələri Konqodan çıxarıldıqdan sonra, hökumətin vəziyyətə tək başına nəzarət etmək iqtidarında olmadığı ortaya çıxdı. Hələ 1963-cü ilin oktyabrında, P.Lumumbanın keçmiş tərəfdarları Pyer Mulelenin başçılığı ilə üsyançı ordunun köməyi ilə, ölkənin bəzi bölgələrinə nəzarəti ələ keçirdilər. Müxalifətçilər balunda və baluba xalqları arasındakı ziddiyyətlərdən istifadə edərək, ən güclü mövqelərə Katanqanı fəth etməklə sahib oldular.

Prezident J. Kasavubu milli barışıq əldə etməyə çalışdı və yenidən mərkəzi hökumətə dəvət olunan P. Lumumba tərəfdarlarına əfv elan etdi. Ancaq, üsyançılar Prezidentə inanmadılar və döyüşü davam etdirərək, 1964-cü ilin avqustunda Katanqanın mərkəzlərindən biri olan Stenlivil şəhərini ələ keçirdilər.

Müxalifətlə qarşı mübarizə aparmaq üçün Prezident J. Kasavubu, rəqibləri ilə razılaşa biləcəyinə ümid edərək, Katanqa separatçılarının keçmiş başçısı M.Çombeni hökumətinin başçısını təyin etmək qərarına gəldi. M.Çombenin xaricdən Konqoya qayıtmasına icazə verildi və o, Baş Nazir vəzifəsinə təyin olundu. Nazirlər Kabinetinin yeni rəhbəri, Afrika Birliyi Təşkilatının siyasi dəstəyini qazanaraq, üsyançılara qarşı mübarizəyə ağ muzdluları cəlb etdi. Bundan əlavə, Konqo hökuməti Belçikadan kömək istədi. Stenlivil şəhərinin ağ əhalisini qorumaq bəhanəsi ilə, 24 noyabr 1964-cü ildə Belçika ora qoşun yeritdi. Xarici qoşunlar üsyançıları şəhərdən qovdular, lakin bütövlükdə hərəkatı yatıra bilmədilər. M.Çombe ölkədə kifayət qədər dəstək almırdı və Konqo cəmiyyətini birləşdirmək imkanına malik deyildi.

1965-ci ilin noyabrında, Konqoda J.Mobutunun başçılığı ilə çevriliş baş verdi. O, keçmiş hökumətin bütün liderlərini hakimiyyətdən uzaqlaşdırdı və öz diktaturasını qurdu. Çevriliş etirazlara səbəb olmadı: insanlar beş il davam edən fasiləsiz müharibələrdən yorulmuşdular. J.Mobutu nizam qura bilən güclü siyasətçi hesab olunurdu. Sol və sağ rəqiblərinə qarşı cəza tədbirlərinə başladı. M. Çombe yenidən ölkədən qaçmağa məcbur oldu.

Yeni hökumətin rəhbərliyi ölkənin adını dəyişdirdi, ölkə, Konqo Demokratik Respublikası kimi tanındı. P.Lumumbanın devrilməsindən sonra, Katanqanı separatçılar ilə barışdırmaq üçün, BMT vasitəçiləri tərəfindən zorla yaradılan federal quruluş ləğv edildi. J.Mobutu kimi güclü unitar dövlətin tərəfdarı olan P.Lumumba vəfatından sonra bəraət aldı. Hökumət müxalifətə qarşı gərgin bir mübarizəyə başlayaraq, 1968-ci ildə onu tamamilə məğlub etdi.

J. Mobutunun çevrilişindən sonra, ABŞ rəhbərliyi yeni hökuməti tanıdı. Sovet İttifaqı da, 1967-ci ildə Konqo ilə P.Lumumbanın öldürülməsindən sonra pozulmuş diplomatik əlaqələri bərpa etməyi məqbul saydı. J.Mobutu xarici əmlakı milliləşdirməkdən çəkinərək, "afrikanlaşma", millilik və dövlətçilik xəttini inkişaf etdirməyə başladı. Xarici siyasətdə ölkə, Şərq və Qərb arasında tarazlıq siyasətinə riayət edirdi. Əyalətdə vaxtaşırı iğtişaşlar olsa da, hökumət 90-cı illərin ortalarına qədər onlarla mübarizə apara bildi. 1971-ci ildə, ölkə bir daha Zair Respublikası adlandırıldı (Zair- Nzari, portuqal dilində Konqo çayının adı, Mvanza - yerli dildə). "Afrikanlaşma" şüarının ardınca, Mobutu özünün Avropa adı olan Josef Deziredən imtina etdi və özünü ənənəvi konqo üslubunda Mobutu Sese Seko adlandırmağa başladı.1966-cı ildə, Ölkənin paytaxtı olan Leopoldvil adı, dəyişdirilərək Kinşasa adlandırıldı.

### 7.3.Nigeriyada qarşıdurma (may 1967)

60-cı illərdə Afrikanın demək olar ki, bütün ətraflarında qeyri-sabitlik hökm sürürdü. 1967-ci ilin may ayında, keçmiş Britaniya müstəmləkəsi olan Nigeriyada vətəndaş müharibəsinin xüsusiyyətlərini özündə əks etdirən uzunmüddətli münaqişə başladı. Ölkədə üç böyük etnik qrup - xausa (şimalda), yoruba (qərbdə) və ibo (neft ehtiyatları olan cənub-qərbdə) xalqları yaşayırdı. 1960-cı ildə müstəqillik qazandıqdan sonra, ölkədə müvafiq olaraq üç regional idarəçiliyi yaradıldı. Silahlı qüvvələrin rəhbərliyində, etnik qruplar arasında olan mübarizə ilə əlaqəli olan bir sıra hərbi çevrilişlərdən sonra, 1966-cı ildə Nigeriya on iki əyalətin federasiyasına çevrildi. Federal sistem separatizmi stimullaşdırdı.

İngiltərədən qalan idarəetmə ənənəsi, Nigeriyanın şimalından olan müsəlmanların daha savadlı və iqtisadi cəhətdən inkişaf etmiş cənub nümayəndələri

üzərində hökmranlıq etməsinə əsaslanırdı. Nigeriyanın zəif və "ilkin" "demokratiyası" çərçivəsində üç millət və onlarla əlaqəli tərəflər arasında ziddiyyətləri həll etmək mümkün olmadı. Bütün partiyalar eyni dərəcədə seçkilərdən qorxurdular, məğlub olduqları zaman təqiblərə məruz qalacaqlarından ehtiyat edirdilər. Nigeriya siyasətində heç vaxt tolerantlıq və rəqibə hörmət ənənəsi olmamışdır. Şimaldan olanlar cənubluların daha zəngin və daha savadlı olduqlarını başa düşürdülər, lakin ölkənin zəngin cənub hissəsinə nəzarəti itirmək istəmirdilər. Neft gəlirləri ilə zəngin olan cənub klanları hesab edirdilər ki, mərkəzi hökumətin siyasətində onların maraqları az nəzərə alınır. Onlar şimallılara inanmır və düşünürdülər ki, Nigeriyanın cənubu iqtisadi cəhətdən çiçəklənərək, siyasi cəhətdən müstəqil ola bilər.

Ölkədəki normal seçki prosesi iflic olmuşdu. Paytaxtda baş verən davamlı çevrilişlər, federal hökuməti bütün etibalılıqdan və legitimlikdən məhrum etmişdi. 1967-ci ilin yanvarında, növbəti çevrilişdən sonra cənubluların (ibo xalq qrupu) bir qrup məmuru hakimiyyəti ələ keçirməyə cəhd göstərdikdən sonra, vəziyyət kəskinləşdi. Qiyam uğursuz oldu və təşkilatçılar paytaxtdan cənub bölgələrinə qaçmaq məcburiyyətində qaldılar. 1967-ci ilin may ayında, podpolkovnik Yaqub Qavonun başçılıq etdiyi şimallılar çevriliş cəhdi etdilər. Cənublulardan fərqli olaraq, onlar hakimiyyəti əldə saxlamağı bacardılar və yeni hökuməti tanımaqdan imtina edən güneyə hücum etdilər. Ölkənin cənub-şərq bölgələrində, ibo xalqının yaşadığı bölgələrdə, şimallıların təhriki ilə talanlar başlandı.

Buna cavab olaraq. cənublular müstəqil bir qurumun - "Biafra Respublikası" nın yaradılmasını elan etdilər. Özünü respublika elan edən yeni qurumun silahlı qüvvələri ilə federal ordu arasında hərbi əməliyyatlar başladı. Əvvəlcə, uğur separatçılar tərəfində oldu. Onlar üç il ərzində federal qüvvələrə uğurla müqavimət göstərə bildilər. Ancaq, getdikcə Biafranın dərinliyində ziddiyyətlər toplanırdı. Güney klanlarının bir hissəsi özünü müstəqil elan etmiş respublika rəhbərlərinə dəstək verməkdən imtina etdi. Uzun sürən müharibə yerli əhali və qəbilə başçıları arasında narazılığa səbəb oldu. Eyni zamanda, neft ixracatı gəlirlərinin artması ilə, ölkənin rifah halının artmasına dair ümidlər özünü doğrultmadı. Separatçıların sıralarındakı dəyişkənliklərdən yararlanan federal hökumət, 1970-ci ilin yanvarında strateji təşəbbüsü ələ alaraq üsyançıları məğlub edə bildi. Müharibə zamanı 100 minə yaxın əsgər və bir milyon qədər mülki şəxs həlak oldu.

Biafranın separatçılığının dövlətlərin ərazi bütövlüyü və sərhədlərin dəyişməzliyi prinsipinə zidd olduğu, 1964-cü ildə Qahirədə Afrika ölkələri dövlət və hökumət başçılarının məclisində təsdiqləndi. Düzdür, 1968-ci ildə dörd Afrika ölkəsi - Tanzaniya, Qabon, Zambiya və Kot-d'İvuar Biafranı müstəqil dövlət kimi tanımışdı.

Cənubi Afrika, Fransa, ABŞ və İsrail onunla qeyri-rəsmi münasibət saxlayırdı. SSRİ, əksər Afrika ölkələri kimi, münaqişədə Nigeriya federal hökumətini dəstəklədi. Böyük Britaniya da onun tərəfində idi.

* * *

60-cı illərin regional münaqişələrində, SSRİ, ABŞ ilə "paralel" olaraq "çevik cavab" ruhunda fəaliyyət göstərirdi. Birləşmiş Ştatlar Vyetnamda vuruşsalar da, Sovet İttifaqı Vyetnama açıq şəkildə yardım göstərsə də, hər iki dövlət son dərəcə ehtiyatlı idi və onlar birbaşa toqquşmadan çəkinirdilər. Əslində, bu illər ərzində, SSRİ ilə ABŞ arasında Cənub-Şərqi Asiya, Latın Amerikası və Afrikadakı ən təhlükəli regional vəziyyətlərində qarşılıqlı idarə olunan razılıqlar əldə olunmuşdu. Yaxın Şərqdə olan vəziyyətlə əlaqədar olaraq, Moskva və Vaşinqton ortaq fikirləri tapmağa çalışırdılar. "Çevik cavab" sayəsində münaqişələr və bununla da SSRİ ilə ABŞ arasında birbaşa toqquşma təhlükəsi, qlobal səviyyədən beynəlxalq sistemin regional sahələrinə sıxışdırılmışdı.

Bu səmərəli, lakin eqoist bir siyasət idi. Dünya periferiyası ölkələri qeyri-sabitliyi özlərinə tərəf "çəkirdilər". Daim yaranan kiçik qarşıdurmalar, Sovet İttifaqı - Amerika ziddiyyətləri nəticəsində dünya sistemində toplanan qlobal gərginliyin potensialını "yumşaltmağa" şərait yaradırdı. "Konfrantasiya şəraitində sabitliyin" əsas vəzifəsi SSRİ ilə ABŞ arasında nüvə münaqişəsinin qarşısını almaq idi.

## DÖRDÜNCÜ FƏSİL
## BEYNƏLXALQ SİSTEMİN SABİTLƏŞMƏSİ
## (1969 - 1973)

### I BÖLMƏ
### Avropa və Amerikada təhlükəsizlik və əməkdaşlıq məsələləri

**1.Ümumavropaprosesivədünya siyasəti**
1.1.Ümumavropaprosesinin başlanması dövründə beynəlxalq vəziyyət
1.2.Ümumavropa prosesinin yaranması
1.3.Helsinki prosesinin inkişafı

**2. Qərbi Avropada inteqrasiya prosesləri**
2.1.Qərbi Avropa inteqrasiyasının ikinci mərhələsi
2.2.Bretton- Vuds sisteminin böhranı

**3. Almaniyanın "yeni şərq siyasəti"**
3.1.Almaniyanın "yeni şərq siyasəti"nin formalaşması
3.2.Almaniyanın Ikinci dünya müharibəsindən sonrakı sərhədlərinin beynəlxalq hüquqi təsbiti

**4. SSRİ-də insan haqları uğrunda hərəkat və beynəlxalq münasibətlər**
4.1.SSRİ-də insan haqları uğrunda hərəkat
4.2.SSRİ-də insan hüquqlarının təmin olunması ilə bağlı vəziyyət

**5.Sovet İttifaqının yumşalma siyasəti və beynəlxalq münasibətlər**
5.1. Sov.İKP-nin XXIV qurultayında yumşalma siyasətinin leqallaşdırılması
5.2.SSRİ-nin qeyri-sosialist ölkələri ilə məsləhət paktları sisteminin formalaşdırılması

**6. SSRİ və ABŞ dövlətləri arasında yaxınlaşma sıyasəti**
6.1.SSRİ və ABŞ-ın güc imkanlarının yeni nisbəti və "strateji tarazlıq" nəzəriyyəsinin formalaşması
6.2.Sovet-Amerika yaxınlaşması
6.3."Üçtərəflilik" ideoloji və siyasi cərəyanın yaranması

**7.Latın Amerikası beynəlxalq münasibətlərdə**
7.1.Latın Amerikasında siyasi vəziyyət
7.2.Çilidə "Xalq birliyi" hökumətinin devrilməsi (Sentyabr 1973)

## 1.Ümumavropa prosesi və dünya siyasəti

### 1.1.Ümumavropa prosesinin başlanması dövründə beynəlxalq vəziyyət

Varşava Müqaviləsi Təşkilatı ölkələrinin 1968-ci ildə Çexoslovakiyaya müdaxiləsi beynəlxalq münasibətlərdə böhran yaranmasına gətirib çıxarmadı. Sovet rəhbərlərinin, SSRİ-nin təhlükəsizlik maraqları hesab etdiklərini müdafiə etməklə, Moskvanın nə qədər uzağa gedə biləcəklərini göstərdi. Sovet İttifaqının lazım gələrsə, "öz" təsir dairəsini gücün köməyi ilə müdafiə edəcəyi aydın oldu. SSRİ-yə bitişik ölkələrdə, xüsusən də Finlandiyada, "ayını qıcıqlandırmamaq" fikirləri yayıldı.

Lakin 60-cı illərdə, SSRİ-nin "öz" təsir sahəsindən kənarda genişlənməyə meyl göstərmirdi. Hindistan-Pakistan və Ərəb-İsrail münaqişələrini həll etmək üçün ABŞ ilə rəqabət etməkdən daha çox məsləhətləşir, Konqo məsələsində qarşıdurmadan çəkinirdi. Moskva və Vaşinqton silahlara nəzarət məsələsində səmərəli əməkdaşlıq etmişdilər: 60-cı illərdə imzalanmış üç "böyük" müqavilə (nüvə sınağının məhdudlaşdırılması, nüvə silahının kosmosda yerləşdirilməməsi və nüvə silahının yayılmaması haqqında) bu məsələni təsdiq edir. Doğrudur, ABŞ və SSRİ, Vyetnamda dolayı yolla bir-birinə qarşı çıxırdılar, amma orada da vəziyyəti kəskinləşdirməməyə çalırşdılar. SSRİ hətta Vaşinqton və Xanoy arasında dialoq qurmaq üçün vasitəçilik etməyə də səy göstərirdi. Belə təsəvvür yaranırdı ki, Moskva beynəlxalq siyasətdə status-kvonu qorumağa çalışır.

ABŞ-ın da onu dəyişdirmək üçün heç bir vəsaiti və niyyəti yox idi: ölkə, daxili böhran və iqtisadi çətinliklər içində idi, onun üçün fasilə lazım idı. 1969-cu ilin yanvarında, ABŞ-ın yeni Prezidenti R.Nikson andiçmə nitqində qarşıdurma dövrünün bitdiyini və danışıqlar dövrünün başlandığını elan etdi. Moskva ilə Vaşinqton arasında 60-cı illərin sonlarına qədər, dünya reallıqların tanınması əsasında, qlobal sabitliyin qorunması ilə bağlı siyasi və diplomatik uzlaşma ehtimalı yarandı.

Sovet İttifaqının, ABŞ və Qərbi Avropa ölkələri ilə razılaşmağa getməyinin daha bir səbəbi -- SSRİ ilə Çin arasındakı münasibətlərin pisləşməsinin böhran həddinə çatması idi. Sovet İttifaqı, ÇXR ilə müharibə etmək ehtimalı barədə düşünürdü. 1966-cı ildə, SSRİ Monqolustanla dostluq, əməkdaşlıq və qarşılıqlı yardım müqaviləsi bağladı, sonra isə Sovet qoşunları və ağır texnikalar onun ərazisinə

yerləşdirildi. Çinin sərhədləri boyunca sovet qüvvələrinin sayı artdı. 1967-ci il üçün hərbi qüvvənin sayı 250-300 min nəfərə çatmışdı.

### 1.2.Ümumavropa prosesinin yaranması

60-cı illərin ortalarından etibarən Fransa-Sovet yaxınlaşması, Parisin Avropanın qərb və şərq hissələri arasında uzlaşmaya mane olmayacağına ümid etməyə imkan verirdi. Belə bir xətt, Ş.de Qollun dəfələrlə təkrarladığı bəyannamələrə uyğun idi. Doğrudur, 1969-cu ilin aprelində, Prezident Ş.de Qoll " inzibati sistemin islahatı ilə bağlı keçirdiyi referendumun nəticələrini, fransızların onun şəxsiyyətinə və siyasətinə inamsızlığının ifadəsi hesab edərək", gözlənilmədən istefaya getdi.

Fransanın növbəti Prezidenti seçilən Jorj Pompidu, Ş.de Qollun həmfikirlərinin dairəsinə mənsub idi. O.Ş.de Qollun Moskva ilə olan yaxınlaşma siyasətini davam etdirdi, lakin onun Qərbi Avropa inteqrasiyasında olan tərəfdaşlarına və İngiltərəyə olan münasibətini dəyişdirdi. Fransa siyasəti, ümum Avropa razılığına nail olmağa kömək etməyə məcbur idi.

1969-cu ilin yanvarında, ABŞ-da yeni administrasiya işə başladı. Respublikaçılar kommunizmə rəğbət göstərmirdilər, amma beynəlxalq işlərdə demokratlardan daha çox fəallıq göstərirdilər. Bu, R.Niksonun dövründə, ABŞ-ın Avropa işlərinə yanaşmasının daha çevik olacağına ümid verirdi. Respublikaçıların əsas vəzifəsi Vyetnamda gedən müharibəyə son qoymaq idi, Avropada Sovet İttifaqına qarşı mübarizə üçün, milli ehtiyatları bu məsələyə cəlb etmək sərfəli deyildi. Bundan əlavə, ABŞ-da və Avropada, seçiciləri qorxuya salan son etiraz dalğaları, dünyanın əksər ölkələrinin ictimai-siyasi fikirləri sabitliyin yaranmasına istiqamətlənmişdilər. Böhranlar psixoloji yorğunluq yaratmışdı. Yaranmış vəziyyət sülhsevər təşəbbüslərin irəli sürülməsinə müsbət təsir göstərirdi.

17 mart 1969-cu ildə, Varşava Paktı ölkələrinin Siyasi Məşvərət Komitəsinin Budapeştdə keçirilən iclasında, sosialist ölkələri, Avropada təhlükəsizlik və əməkdaşlıq mövzusunda, Ümumavropa müşavirəsinin keçirilməsini təklif etdilər. Belə genişmiqyaslı təklif əvvəllər irəli sürülməmişdi və real görünməsə də, Ümumavropa müşavirəsi ideyası müsbət təəssürat yaratmışdı. Ona görə də, 1969-cu ilin aprelində, NATO şurasının Vaşinqtonda keçirilən iclasında bu məsələ müzakirə mövzusu oldu. Qərb ölkələri, əslində bunu rədd etmədilər, lakin dəstəklədiklərini də bildirmədilər. Sovet İttifaqı israrlı idi. 1969-cu ilin iyununda, Kommunist və Fəhlə partiyalarının Moskvada keçirilən beynəlxalq Müşavirəsində, L.İ.Brejnev Şərqlə Qərb arasındakı əlaqələrin yaxşılaşdırılması zərurəti fikrini dəfələrlə təkrar etmişdi. 1969-cu ilin iyul ayında, Ümumavropa forumunun çağırılması ideyası SSRİ Xarici İşlər naziri A.A.Qromiko tərəfindən təkrarən açıqlandı.

Belə bir görüşün fikirlərinin yayılmasında ən çox fəallıq gostərən Finlandiya dövləti idi. Finlandiya Sovet İttifaqı ilə güzəştli tərəfdaşlığın dost və iqtisadi cəhətdən faydalı münasibətlərdə olsa da, SSRİ ilə Qərb arasındakı gərginlik təhlükəsi yaranacağı təqdirdə, özünün ilk qurban olacağını güman etdiyinə görə çox narahat idi.

5 may 1969-cu ildə, SSRİ-nin razılığı ilə, Finlandiya hökuməti, Avropanın 32 dövlətinin rəhbərlərinə, Ümumavropa görüşünün təşkili ilə əlaqədar çoxtərəfli məsləhətləşmələr sistemi qurmaq təklifi ilə, notalar göndərdi. 1969-cu ilin oktyabrı üçün, Helsinkidə belə bir forumun keçirilməsinin mümkünlüyü ilə bağlı, bir anlaşma yaranmış oldu. NATO ölkələri, bu konfransın çağırılması fikrinə ciddi yanaşdılar, lakin İttifaqın iki qeyri-Avropa ölkəsi olan ABŞ və Kanadanın danışıqlar prosesi çərçivəsindən kənarda qalmaları onları təmin etmirdi. Bu məsələ əlavə razılaşma əldə olunmasını tələb edirdi

### 1.3.Helsinki prosesinin inkişafı

Bu zamanda, Ümumavropa müşavirəsinə hazırlıqlar həmişəki kimi davam edirdi. 22 noyabr 1972-ci il tarixdə, Helsinki şəhərində 32 Avropa ölkəsinin nümayəndə heyətlərinin Ümumavropa müşavirəsinə hazırlıq mövzusunda çoxtərəfli işçi məsləhətləşmələri başlandı. Müzakirələr altı ay - 8 iyun 1973-cü ilə qədər davam etdi. Çoxtərəfli məsləhətləşmələr nəticəsində 1973-cü ilin iyununda, "Mavi kitab" adı almış yekun tövsiyələri razılaşdırıldı. "Mavi kitab"ın 96 maddəsi müşavirənin təşkili, gündəliyi, iştirakçıların tərkibi, yeri və vaxtı, maliyyələşdirmə qaydalarmı tənzimləyirdi. Helsinki şəhərində keçirilən çoxtərəfli məsləhətləşmələr Ümumavropa görüşünün gündəliyini və təşkilati əsaslarını hazırladı. O, üç mərhələdən keçməli idi və dörd qrup problemi müzakirə etmək nəzərdə tuturdu:

1) Avropada təhlükəsizliklə bağlı məsələlər;

2) İqtisadiyyat, elm və texnologiya, ətraf mühit sahəsində əməkdaşlıq problemləri;

3) humanitar və digər sahələrdə əməkdaşlıq;

4) müşavirənin sonunda Ümumavropa prosesinin gələcək inkişafı üçün atılacaq addımlar.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi ətrafında gedən danışıq prosesi çox uzun çəkdi. Onun plenar iclasları çoxsaylı məsləhətləşmələr və işçi qruplarının görüşləri ilə əvəz olundu, bu da çoxşaxəli danışıqların böyük bir kompleksinə çevrildi. Ümumilikdə, Ümumavropa müşavirəsinin hazırlanması və keçirilməsi ilə əlaqədar danışıqlar prosesi, 1972-ci ilin noyabrından 1975-ci ilin

sentyabrına qədər davam etmişdi. Danışıqların yavaş irəliləməsinin səbəblərindən biri də orada konsensus prinsipinin qəbul edilməsi idi.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) özü üç mərhələdə keçirildi:

birinci mərhələ (Xarici İşlər nazirləri səviyyəsində) – Helsinkidə 3-7 iyun 1973-cü il tarixində;

ikincisi (ekspertlər səviyyəsində) - Cenevrədə 29 avqust 1973-cü il - 24 iyun 1975-ci il;

üçüncüsü (ən yüksək səviyyədə) - 30 iyul - 1 avqust 1975-ci ildə.

Bu Müşavirədə, 33 Avropa ölkəsinin nümayəndələri (Albaniya istisna olmaqla), həmçinin ABŞ və Kanadadan olan nümayəndələr iştirak etmişdilər.

Ümumavropa Konfransı gedişində, ona paralel olaraq, 30 oktyabr 1973-cü ildə Vyanada NATO və VMT ölkələri arasında, Avropada silahlı qüvvələrin və silah-sursatın qarşılıqlı surətdə azaldılması ilə bağlı, danışıqlar başlandı.

## 2. Qərbi Avropada inteqrasiya prosesləri

### 2.1.Qərbi Avropa inteqrasiyasının ikinci mərhələsi

1965-ci ildən başlayan, üç qurumun –Avropa Polad və Kömür Birliyi (APKB), Avropa Atom Enerjisi Birliyi (Avroatom) və Avropa İqtisadi Birliyinin (AİB) işçi orqanlarının birləşdirilməsi prosesi 1967-ci ildə sona çatdıqdan sonra, vahid Avropa Birliyi (AB) meydana gəldi. 1 iyul 1968-ci ildə, AB ölkələri altı ölkənin sənaye məhsulları üçün vahid ticarət zonasının yaradıldığını rəsmi şəkildə elan etdilər və üçüncü ölkələrlə sənaye mallarının ticarəti üçün ümumi gömrük tarifini tətbiq etdilər. 1957-ci il Roma Müqaviləsində göstərildiyi kimi, 1969-cu ildə Qərbi Avropa inteqrasiyasının ilk mərhələsi başa çatmış oldu. Onlar, birinci və əsas məqsədlərinə—12 il ərzində ümumi bazar yaratmaq planına əsasən nail oldular. Altı ölkənin Xarici Ticarət İttifaqı yaradıldı. İkinci mərhələnin vəzifəsi, Xarici Ticarət İttifaqına əlavə olaraq, Qərbi Avropa ölkələrinin iqtisadi və maliyyə birliyinin yaradılması idi. Bunun əsasında gələcəkdə siyasi birliyin formalaşdırılmasına keçilməli idi.

AİB-in genişləndirilməsi məsələsi yenidən gündəmə gəldi. Şarl de Qollun hakimiyyətdən getməsi və Fransada Prezident J.Pompidunun hakimiyyətə gəlməsi, İngiltərənin cəmiyyətə qəbul edilməsi probleminin həll etmiş oldu. 1971-ci ilin mayında, İngiltərənin AİB-ə daxil olması barədə, Fransa və Britaniya arasında ümumi əsas razılaşma əldə edildi. 9 aprel 1972-ci ildə, Fransa əhalisi referendumda birliyin genişlənməsinin lehinə çıxış etdi və Paris rəsmi olaraq Böyük Britaniyanın

üzvlüyünə qarşı olan qərarı ləğv etdi. Böyük Britaniya ilə altı ölkə arasında müvafiq müqavilə, 1972-ci ilin yanvarında Haaqada imzalandı. 1973-cü il yanvarın 1-dən Britaniya rəsmi olaraq cəmiyyətin üzvü oldu. Böyük Britaniya ilə eyni zamanda, İrlandiya və Danimarka da Avropa Birliyinə üzv oldu. Bu ölkələrlə, AB-ə üzv olmaq haqqında saziş imzalayan, Norveç birliyə qoşula bilmədi, çünki bu saziş ümumxalq referendumunda təsdiqini almadığına görə qüvvəyə minmədi.

Yeni üzvlərin qəbulu və 1970-ci illərdə Avropada iqtisadi vəziyyətin pisləşməsi çulğalaşaraq inteqrasiya əməkdaşlığının inkişafını ləngitmiş oldu. Bundan əlavə, İngiltərənin birliyə daxil olması ilə daha radikal, "konfederativ" inteqrasiya prosesini dəstəkləyənlərin mövqeləri gücləndi. Onlar, millətlərarası siyasəti formalaşdıran orqanlar arasında əlaqələrin gücləndirilməsi yoluna deyil, dövlətlərarası münasibətlərin ənənəvi əməkdaşlıq əsasında yaxınlaşmasına üstünlük verirdilər.

Avropa Birliyinin əsas idarəetmə orqanları, Nazirlər Şurası və Avropa Birliyinin Komissiyası idi. Nazirlər Şurası üzv ölkələrin Xarici İşlər və İqtisadiyyat nazirlərindən ibarət idi. Nazirlər Şurası ayrı-ayrı dövlətlərin siyasətinin əlaqələndirilməsində iştirak edirdi və ya konsensus yolu ilə, ya da səs çoxluğu ilə qərar qəbul etmək hüququna malik idi.

Komissiya, mötəbərliyi əsasında üzv ölkələr tərəfindən dörd il müddətinə göndərilən nümayəndələrdən (lakin bir ölkədən iki nəfərdən çox olmamaq şərtilə) ibarət idi. Komissiya, imzalanan müqavilələrin müddəalarının yerinə yetirilməsini izləmək və müəyyən konkret məsələlərə dair ekspert rəyi və tövsiyələrini vermək hüququna malik idi. Komissiya üzvləri, quruma daxil olduqları andan etibarən, "öz" hökumətlərindən qanuni olaraq asılı olmurdular. Onlara etibarsızlıqlarını ifadə etmək hüququ olan Avropa Parlamenti qarşısında məsuliyyət daşıyırdılar. Avropa Parlamentinin özü birbaşa seçilmirdi (1979-cu ilə qədər), onlar Birlik ölkələrinin hər biri tərəfindən təmsil olunan deputatlardan formalaşırdı.

Komissiyanın təklif və tövsiyələri Nazirlər Şurası tərəfindən təsdiqlənməli idi. Məhz Komissiyaya beynəlxalq münasibətlərdə, Avropa Birliyini təmsil etmək vəzifəsi həvalə edilirdi. Qərbi Avropada "federalizm" tərəfdarları, Komissiyanın gələcək Avropa hökumətinin ilk nümunəsi olduğuna inanırdılar, lakin "konfederalizm" tərəfdarları onu Nazirlər Şurası yanında yalnız katiblik hesab edirdilər.

Buna baxmayaraq, millətfövqü, "federalist" cərəyanlar Qərbi Avropa inteqrasiyasındakı "konfederalist"lər ilə birlikdə inkişaf etməyə davam edirdi. Belə ki, kiçik AB ölkələri böyük ölkələrdən çox olduqlarından, "federalist forması” olduğu halda, qərar qəbul edilməsinə təsir etmək ümidində idilər.

1970-ci illərdə inteqrasiya məsələlərində qarşılıqlı fəaliyyət səviyyəsinin artması və prosesin özünün tədricən siyasiləşdirilməsi baş verdi. Avropa Birliyi ölkələrinin, 1972-ci ildə Parisdə keçirilən görüşündə, Prezident J.Pompidu ilk dəfə Avropa Birliyinin, 70-ci illərin sonlarına qədər, beynəlxalq münasibətlərdə vahid tam olaraq fəaliyyət göstərə biləcəyini ümidverici məqsəd kimi qeyd etmişdi. Bu, beynəlxalq münasibətlər və təhlükəsizlik sahəsində, Qərbi Avropa ölkələrinin inteqrasiyasının sürətlənməsini təklif edən yeni və cəsarətli bəyanat idi.

1973-cü ildə Kopenhagen müşavirəsində Fransa nümayəndə heyəti yeni bir Avropa qurumunun, Birlik ölkələrinin yüksək səviyyəli liderlərinin müntəzəm görüşləri məkanına çevriləcək Avropa Şurasının yaradılmasını təklif etmişdi. Fransızların təklifi müzakirələrə səbəb oldu. Ancaq, 1974-cü ildə Avropa Şurası yaradıldı. O, Avropa Birliyinin işçi orqanlarının strukturlarına daxil deyildi və müstəqil bir qurum olaraq qaldı. Lakin, əslində Avropa Şurası, ona verilən yüksək səviyyəli təmsilçilik nəticəsində, ən vacib siyasi orqan rolunu qazanmış oldu. O, 1974-cü ildə Avropa Parlamentinə partiyalarin siyahıları üzrə seçkilərin keçirilməsi qaydalarını qoydu və buna uyğun olaraq, 1979-cu ildə seçkilər keçirildi. Avropa Şurası, Avropa pul sisteminin ölçülərini təyin etmək, Avropa İnkişaf Fondunun və Avropa Mədəniyyət Fondunun yaradılması kimi məsələləri həll etməyə başladı. Əslində Avropa Şurası, Qərbi Avropa inteqrasiyasının əsas orqanı oldu. Avropa Şurası, rəsmi olaraq Avropa Birliyinin idarəetmə sistemindən kənarda qalsa da, ondan üstün mövqedə idi. Avropa Şurası, AB-nin Nazirlər Şurası və Komissiyasından daha vacib qurum halına gəlmişdi. Onun bu mövqeyi, 1986-cı ilin fevralında, vahid Avropa aktının 2-ci maddəsində təsdiqləndi.

70-ci illərin əvvəllərində məlum oldu ki, 50-ci illərin sonlarında yaranan iki inteqrasiya qurumundan Avropa Şurası üstünlük təşkil etmişdir. Rəqabətin heç bir mənası yox idi. 1972-1973-cü illərdə, hər iki birliyə daxil olan ölkələr öz aralarında bir sıra sərbəst ticarət müqavilələri imzaladılar, bunun nəticəsində sənaye mallarının qarşılıqlı ticarətində liberallaşdırılmaya nail oldular. Əslində, AB və AŞ ölkələri birlikdə 310 milyon əhalisi olan 17 ölkəni əhatə edən davamlı sərbəst ticarət zonası yaratdılar. 1986-cı ildə Finlandiya Avropa Azad Ticarət Birliyinə (AATB) üzv oldu.

## 2.2.Bretton- Vuds sisteminin böhranı

70-ci illərin əvvəllərində siyasi vəziyyətin yaxşılaşması, dünyanın bir çox ölkəsində özünü göstərməyə başlayan, iqtisadi çətinliklər fonunda baş verirdi. Yaponiya və Qərbi Almaniyanı çıxmaq şərtilə əksər dövlətlərdə iqtisadi artım yavaşımışdı. Dünyada ən güclü iqtisadiyyata malik olan Amerikada, əks-sənayeləşdirmə təsiri yarandı, bu da istehsalda durğunluq hallarında, maliyyə

möhtəkirliyi sayəsində investisiyaların və Amerika kapitalının xaricə axınında özünü büruzə verdi. Ekspertlər hesab edirlər ki, əks-sənayeləşdirmə nəticəsində, ABŞ 60-cı illərdə ən azı 32 milyon iş yerini itirmişdi.

Beynəlxalq valyuta məzənnələri sahəsində olan vəziyyət xüsusilə narahatlıq doğururdu. Hələ 60-cı illərin əvvəllərində, ABŞ-dan kənarda olan kağız dolların sayı Amerikanın qızıl ehtiyatlarının dəyərini üstələmişdi. Dolların qızıl ifadəsində olan dəyəri sabit və dəyişməz olaraq qalırdı, dolların qızıla sərbəst dəyişdiriilməsi də rəsmi olaraq dəyişməz olaraq qalırdı. Lakin, dolların qızıla çevrilməsini təmin etmək üçün qızıl ehtiyatının olmaması ilə dolların "sərt məzənnəsi" təsbit olunmuşdu. Fransa və daha sonra digər ölkələr, ABŞ-ı yalnış pul siyasəti - aktivlərlə təmin olunmayan dolları çap etməkdə ittiham etməyə başladılar. Fransızların fikirlərini təkzib etmək mümkün deyildi, lakin dolların ehtiyat rolundan imtina etməyi də qeyri-mümkün hesab edilirdi. Belə ki, ABŞ iqtisadi lider olaraq qalırdı. Ümumiyyətlə, Amerika, iqtisadiyyatını ABŞ dolları ilə bağlamış köhnə beynəlxalq ödəmə sistemini qorumaq üçün kifayət qədər zəmanət verdiyini, açıq şəkildə bildirmişdi.

70-ci illərin əvvəllərində vəziyyət daha da pisləşdi. ABŞ-dan kənarda, ABŞ dollarının nominal dəyəri real qızıl təminatını beş qat üstələdi. Dünyanın əksər ölkələrinin valyutaları dolların girovuna çevrildi və onun dəyərdən düşməsi ilə dərhal çökə bilərdilər. Vəziyyətin pisləşməsində siyasi səbəblər də böyük rol oynadı. Vyetnamda müharibə xərclərinin artmasına baxmayaraq, L.Conson və R.Nikson rəhbərliyi, vətəndaşların və korporasiyaların vergilərini artırmadılar. Bu da ABŞ-ın dövlət büdcəsi kəsirinin kəskin artması ilə nəticələndi. Vəziyyət dözülməz hala gəldi. BrettonVudsda yaradılan dünya valyuta tənzimlənməsi sistemi, dünya pul-kredit münasibətlərinin lazımi səviyyədə olan sabitliyini təmin edə bilmədi.

1970-ci ilin yanvarında, yaranmış şəraitin təsiri ilə, Beynəlxalq Valyuta Fondu valyuta məzənnələrində islahat həyata keçirdi. Qızıl pul standartı ləğv edildi. Milli valyutaların məzənnələrini qızılla dəyərləndirilməsi dollar bazasında deyil, "alınmış xüsusi hüquqlar" əsasında "şərti dünya valyutası" ilə hesablamaq qərara alındı. Onun təhlükəsizliyini Beynəlxalq Valyuta Fondunun özü təmin edirdi. Bretton Vuds sisteminin ümumi islahatı üç ildən çox -təxminən 1973-cü ilə qədər davam etmişdi.

Dollara etibarlılıq aşağı düşməkdə davam edirdi. 15 iyun 1971-ci ildə R.Niksonun rəhbərliyi, qərarını müttəfiqlərlə razılaşdırmadan, birtərəfli qaydada dolların qızılla ifadəsini ləğv etdi və 1973-cü ildə dollar müharibədən sonrakı dövrdə ilk dəfə 10% dəyərdən düşdü. Dollar məzənnəsinin sabitliyinin mövcudluğu dayanmış oldu. Əsas milli valyutaların, o cümlədən dolların üzən məzənnələr prinsipi tətbiq edildi.

1973-cü ildən sonra, Bretton Vuds sistemi əvvəlki kimi fəaliyyət göstərmirdi. Lakin, onun yaratdığı beynəlxalq iqtisadi tənzimləmə orqanları qaldı və gücləndi. Onlar yenə də, öz fəaliyyətlərini, beynəlxalq maliyyə institutları, dünya ticarətinə dair danışıqlar kompleksləri və yeni yaradılan dünya iqtisadi əlaqələndirmə mexanizmləri vasitəsilə həyata keçirilirdi.

1973-cü ildən sonra, Bretton Vuds sistemində, yaradılmış beynəlxalq iqtisadi tənzimləmə institutları saxlanılsa da, onların fəaliyyət prinsipləri yeniləndi. 1974-cü ildə BVF-də genişlənmiş kredit sistemi meydana gəldi. Bu sistem adi kredit səhmləri ilə müqayisədə, daha uzun müddətə və daha böyük məbləğdə kreditlər vermək üçün hazırlanmışdı. Genişləndirilmiş kreditlər hissələrlə (tranşlarda), müəyyən zaman fasilələri ilə verilirdi.

## 3. Almaniyanın "yeni şərq siyasəti"

### 3.1.Almaniyanın "yeni şərq siyasəti"nin formalaşması

Uzaq Şərqdə gedən "hərbi həyəcan"ın zəifləməsi, Qərbi Almaniyanın xarici siyasət istiqamətinin dəyişdirilməsi nəticəsində Avropada olan gərginliyin azalmasına dönüş ilə üst-üstə düşdü. Qərbi Almaniyada 1967-1968-ci illərdə ictimai-siyasi qeyri-sabitlik, AFR-in elan edildiyi gündən etibarən hakimiyyətdə olan Xristian Demokratik İttifaqı (XDİ) / Xristian-Sosial İttifaqı (XSİ) blokunun siyasəti seçicilərin məyusluğuna səbəb olmuşdu. İqtidar ölkənin labüd sosial problemlərini, ilk növbədə gənclərin problemlərini həll etmək istəməməsində və bacarıqsızlıqda ittiham olunurdu. Hesab olunurdu ki, bu siyasətin nəticəsində az qala Almaniya Federativ Respublikasında 1968-ci ildə “inqilab” baş verəcək idi. Hakim partiyanın tənqidi sosial demokratların və liberalların önə çıxmasına kömək etmiş oldu.

Almaniyanın Sosial Demokrat Partiyasının (ASDP) içərisində bu dövrdə kadr dəyişiklikləri baş vermişdi. 1964-cü ilin fevralında, Qərbi Berlinin burqomistri (bələdiyyə rəisi) olan Villi Brandt partiya sədri seçildi. Yeni lider mülayim siyasətçi və ən əsası Almaniyanın ABŞ və NATO ilə yaxınlaşmasının tərəfdarı hesab olunurdu. Amerika rəhbərliyinin, V.Brandt ilə münasibətində heç bir narahatlıq hiss olunmurdu. ABŞ, V.Brandtın AFR-in Kansleri təyin olunmasını alqışladı. 28 sentyabr 1969-cu ildə, ümumi seçkilərdə xristian partiyaları məğlub oldu və Sosial Demokratlar, Almaniyanın Azad Demokratik Partiyası (AADP) ilə birlikdə koalision hökumətini formalaşdırdılar.

V. Brandtın xarici siyasət ideyalarının istiqaməti, onun Qərbi Berlin burqomistri vəzifəsində SSRİ nümayəndələri ilə qarşılıqlı fəaliyyət təcrübəsi ilə müəyyən edilmişdi. Sosial Demokratlar Partiyasının lideri başqalarından daha yaxşı başa

düşürdü ki, alman məsələsində sovet siyasəti hücumdan daha çox müdafiədədir. Düzdür, klassik hərbi nəzəriyyədə, bu siyasətə aktiv müdafiə deyilirdi. Moskva, SSRİ-nin təhlükəsizliyinə xələl kimi qiymətləndirdiyi, qərb siyasətindən qorunaraq, bu dövrdə iki dəfə (1948 və 1961-ci illərdə) "müdafiə" addımları atmışdı. Bu siyasi addımlar isə, Qərb tərəfdən "meydan oxuma" və təcavüzkarlıq niyyəti əlaməti olaraq qəbul edilmişdi.

V.Brandt Sovet İttifaqını tənqid etmırdı, amma onu eyni samanda ideallaşdırmırdı. O, SSRİ ilə danışıqlar, məsləhətləşmələr aparmaq, mübahisələr etmək və razılaşmaq ilə məşğul olmağı qaçılmaz və zəruri hesab edirdi. Bu məsələ, Almaniyanın yeni rəhbərini məqsədəuyğun hesab etdiyi, rəsmi şəkildə mövcud reallıqlara istinad etməyə, məcbur edirdi. V.Brandt açıq şəkildə bildirirdi ki, Moskva ilə uzlaşmayan qarşıdurma siyasəti alman məsələsinin həllinə aparmır, ancaq Avropada olan vəziyyəti daha da mürəkkəbləşdirir. V.Brandt Almaniyanı birləşdirmək vəzifəsindən əl çəkməmişdi. O, imkan olan kimi ADR-in AFR-ə birləşdirilməsi məsələsini həll etmək fikrində idi. Lakin, V.Brandt əmin idi ki, bu problemin həlli yolu Sovet İttifaqı ilə barışıqdan, Ümumavropa dialoqunda olan maneələri aradan qaldırmaqdan və Almaniyanın hər iki hissəsini vahid Avropa əməkdaşlıq prosesinə daxil etməkdən başlayır. Bu da gec-tez alman probleminin qarşılıqlı məqbul həllini, Avropaya inteqrasiya yollarında tapmağa imkan verəcəkdir. Almaniya Federativ Respublikası ilə SSRİ və Şərqi Almaniyanın öz qonşuları - Polşa və Çexoslovakiya ilə münasibətlərin müqavilələr ilə rəsmiləşdirilməsi məsələsi də ön plana çıxırdı. Bu fikirlər o zaman, Qərbi Almaniya ictimaiyyəti üçün çox cəsarətli görünürdü, ona görə də, AFR-də kəskin mübahisələrə səbəb oldu.

Seçkidə qalib gəldikdən sonra yeni hökumət öz proqramında, Almaniya Demokratik Respublikasının müstəqil alman dövləti olmasını ilk dəfə tanıdığını elan etdi. Bu, Qərbi Almaniyanın ADR-in rəsmi şəkildə tanımaq niyyətini ifadə etmirdi. V.Brandtın proqramı, Almaniya ilə NATO arasında əməkdaşlığı dərinləşdirməyə paralel olaraq, Almaniyanın iki hissəsi arasındakı əlaqələrin yaxşılaşdırılması yollarını axtarmağa çağırırdı. Bundan sonra yeni hökumət tərəflər arasında həll olunmayan məsələlərin müzakirəsinə başlamaq təklifi ilə SSRİ və Polşa hökumətlərinə müraciətlər göndərdi və dərhal müsbət cavablar aldı.

1969-cu ilin noyabrında, V. Brandt hökuməti Qərbi Almaniyanın nüvə silahının yayılmaması haqqında müqaviləyə qoşulacağını, nüvə dövləti olmadığını və bununla da ona sahib olmaq iddialarını rəsmi şəkildə rədd etdiyini açıqladı. Bu, SSRİ-nin Qərbi Almaniyaya inamsızlığının əsas mənbələrindən biri kimi aradan qaldırıldığı üçün, Moskvada razılıq hissi yaratdı.

1969-cu ilin dekabrında ADR rəhbərliyi, öz növbəsində, V. Brandta ADR və AFR arasında olan əlaqələrin yaxşılaşdırılması ilə əlaqədar təkliflərini göndərdi, qısa müddətdən sonra iki ölkə arasında hökumət başçıları səviyyəsində birbaşa təmaslar başlandı. Elə həmin ay Qərb güclərinin təklifi ilə SSRİ, ABŞ, İngiltərə və Fransa arasında Qərbi Berlinin statusu ilə bağlı dörd tərəfli məsləhətləşmələrin aparılması barədə razılıq əldə edildi.

Bu dəyişikliklər, Avropada təhlükəsizlik və əməkdaşlıq mövzusunda Ümumavropa görüşünün çağırılması məsələsinin razılaşılmasını sürətləndirdi. 4-5 dekabr 1969-cu ildə, NATO Şurasının iclasında, ABŞ və Kanadanın Avropa konfransına bərabər iştirakçılar olaraq dəvət ediləcəyi şərti ilə, Varşava Paktı ölkələrinin təklifləri ilə razılaşmaq qərara alındı. Sovet İttifaqı və müttəfiqləri bu şərtlə razılaşdılar. 1969-cu ildən etibarən, Avropada Ümumavropa prosesi, bütün Avropa ölkələri, həm "kapitalist", həm də "sosialist" ölkələrinin iştirakı ilə, çoxtərəfli danışıqlar və əməkdaşlıq prosesi başlanmış oldu.

### 3.2.Almaniyanın Ikinci dünya müharibəsindən sonrakı sərhədlərinin beynəlxalq hüquqi təsbiti

Qərbi Avropa daxilində gedən inteqrasiya prosesi, Avropanın qərb və şərq hissələri arasında olan münasibətləri yaxşılaşdıran Ümumavropa prosesi ilə paralel gedirdi. V.Brandtın "yeni şərq siyasəti" böyük dövlətlər arasında olan münasibətlərə müsbət təsir göstərdi. AFR, K.Adenauer və onun ardıcıllarının dövründə olduğu kimi, SSRİ ilə NATO ölkələri arasında gərginlik yaratmaq siyasətini dayandırdı. 26 mart 1970-ci ildə, dörd dövlətin --SSRİ, ABŞ, Fransa və Böyük Britaniyanın nümayəndələri Berlin məsələsində qarşılıqlı məqbul beynəlxalq siyasi və hüquqi statusu inkişaf etdirmək üçün danışıqlara başladılar. Danışıqlar yavaş gedirdi, amma ümidverıcı görünürdü.

11 aprel 1970-ci ildə, V.Brandt ABŞ-a rəsmi səfərə getdi, burada Prezident R.Niksonla Almaniya və "sosialist düşərgəsi" ölkələri, ilk növbədə Sovet İttifaqı, Polşa və Çexoslovakiya arasında münasibətlərini yaxşılaşdırmaq proqramını müzakirə etdi. Proqramın əsasında mövcud həqiqətləri tanımaq ideyası dururdu. Onların ən başlıcası, Almaniyanın şərq sərhədlərinin dəyişdirilməsi və Şərqi Prussiya, Pomeraniya, Sileziya və Sudet bölgəsinin ərazilərinin itirilməsi məsələsi idi. Amerika rəhbərliyi bütövlükdə, şərqlə münasibətlərin yaxşılaşdırılmasının Almaniyanın NATO ilə əməkdaşlığının əsaslarını pozmayacağı təqdirdə, "yeni şərq siyasəti"ni dəstəklədi. Lakin, Ş.de Golldan fərqli olaraq, V.Brandt möhkəm əqidəli "atlantist" idi və onun planlarında, AFR-in SSRİ ilə münasibətlərdən asılılıq təhlükəsi yarada biləcək, ABŞ-dan uzaqlaşmaq siyasəti nəzərdə tutulmurdu.

1970-ci ilin avqustunda, Kansler V.Brandt Moskvaya rəsmi səfər etdi. Görüş zamanı, SSRİ-Qərbi Almaniya müqaviləsi imzalanmışdı ki, burada Qərbi Almaniya rəsmi olaraq Oder-Neyse xəttini Almaniyanın şərq sərhədi olaraq tanıdı və beləliklə keçmiş alman torpaqlarına- İkinci dünya müharibəsindən sonra SSRİ və Polşaya keçən alman ərazilərinə olan, iddialarından imtina etmiş oldu.

SSRİ və Qərbi Almaniya, müqavilənin imzalanması zamanı mövcud olan bütün Avropa dövlətlərinin ərazi bütövlüyünə, o cümlədən Almaniya Federativ Respublikası ilə Almaniya Demokratik Respublikası arasındakı sərhədlərə hörmət göstərəcəyinə söz verdilər, onları dəyişdirmək səylərindən imtina edəcəklərini və heç kimə qarşı ərazi iddiaları olmadığını və gələcəkdə də, bunları gündəmə gətirməyəcəklərini elan etdilər. Beləliklə, Sovet İttifaqı və Qərbi Almaniya rəsmi status-kvonun tanınması əsasında münasibətlər qurmağa rəsmi şəkildə razılıq verdilər. Bu, vəziyyəti sabitləşdirmək üçün böyük bir addım oldu. 1970-ci il Moskva müqaviləsi, Bundestaqda baş verən ən kəskin daxili siyasi mübarizədən sonra, 1972-ci ilin mayında iki səs çoxluğu ilə təsdiq edildi və qüvvəyə mindi.

1970-ci ilin dekabrında V.Brandt Varşavaya səfər etdi və burada, Sovet-AFR müqaviləsinə uyğun Polşa-Qərbi Almaniya müqaviləsi imzalanmışdı. Almaniya Polşanın müharibədən sonrakı sərhədlərini tanıdı. SSRİ və Polşa ilə bağlanmış sazişlər "yeni şərq siyasəti" proqramının ilk və çətin hissəsini təşkil etmişdi. İkinci hissə, Qərbi Berlin, almanlararası münasibətlər və Çexoslovakiya ilə münasibətlərin normallaşdırılması ilə bağlı məsələlərin həllini əhatə edirdi.

3 sentyabr 1971-ci ildə Qərbi Berlin ərazisində SSRİ, ABŞ, Fransa və Böyük Britaniya arasında dördtərəfli saziş imzalanmış, ona əsasən Berlinin qərb hissəsi müttəfiq dövlətlərin nəzarəti altında, xüsusi beynəlxalq statusa malik, ayrı bir ərazi vahidi kimi tanınmışdır. Rəsmi olaraq müəyyən edildi ki, Qərbi Berlin Almaniya Federativ Respublikasının tərkibinə aid deyil və onun tərəfindən idarə olunmayacaqdır. Qərbi Berlin üçün əsas idarəetmə orqanı, üç qərb dövlətinin hakimiyyəti ilə əməkdaşlıq etməli olan Qərbi Berlin senatı olmalı idi.

Eyni zamanda, saziş Qərbi Berlin ilə Qərbi Almaniya arasında əlaqələrin qorunması üçün dəqiq bir üsul yaratdı və onlar arasında etibarlı rabitə təmin edildi. Tərəflər, Qərbi Berlin bölgəsində güc tətbiq etməkdən çəkinmək, o cümlədən ətrafındakı mövcud vəziyyəti birtərəfli qaydada dəyişdirməmək barədə razılığa gəldilər. Başqa sözlə SSRİ, Qərbi Berlinə girişi məhdudlaşdırmamağı və onu Alman Demokratik Respublikasının ərazisinə və ya başqa bir şəkildə birləşdirməklə şəhərin statusunu dəyişdirməmək öhdəliyi qəbul etdi. Ona görə də, Berlin məsələsində də status-kvo təsdiqləndi.

Bu problemin həlli, AFR ilə ADR arasında münasibətlərin normallaşmasını sürətləndirdi. Qərbi Almaniya "Xalşteyn doktrinası"ndan imtina etdi. Bu doktrinaya görə AFR, ADR hökumətini tanıyan hər bir ölkə ilə diplomatik münasibətləri kəsmişdi. Ancaq, Almaniyanın iki hissəsi arasındakı əlaqəni razılaşma ilə tənzimləmək tələb edilirdi. Lakin, ADR rəhbərliyi "iki Almaniya" arasında dialoqun inkişafının gələcəyinə inamlı deyildi. Bu, xüsusən Almaniya Vahid Sosialist partiyasının (AVSP) rəhbəri olan, 78 yaşlı V.Ulbrixt üçün xarakterik idi. Sovet rəhbərliyi "alman yoldaşlarına" partiya rəhbərliyini cavanlaşdırmaq barədə düşünməyi "tövsiyə" etdi. 3 may 1971-ci ildə, V. Ulbrixt ADR Dövlət Şurasının sədri və AVSP Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsindən istefa verdi. Onun üçün AVSP sədri adlanan fəxri, lakin formal vəzifə yaradıldı. V.Ulbrixt bu vəsifəyə seçilmiş və 1973-cü ildə ölümünə qədər bu vəzifədə qalmışdı. AVSP Mərkəzi Komitəsinin Birinci katibi və ADR Dövlət Şurasının Sədri Erik Honeker oldu.

21 dekabr 1972-ci ildə, ADR ilə AFR arasındakı əlaqələrin əsasları haqqında müqavilə bağlandı. Burada, Almaniyanın iki hissəsi arasında əlaqələri faktiki olaraq müstəqil siyasi vahidlər kimi inkişaf etdirmək şərtləri və qaydaları təyin edilmişdi. Saziş ADR ilə AFR arasında münasibətlərin bərabərhüquqlu olması, bərabər suverenlik, müstəqilliyə hörmət, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, ayrı-seçkiliyə yol verilməməsi, habelə beynəlxalq hüququn digər müddəaları, o cümlədən güc tətbiq etməkdən imtina edilməsi və bütün mübahisələrin dinc yolla həlli əsasında qurulması nəzərdə tuturdu. 18 sentyabr 1973-cü ildə, hər iki alman dövləti BMT-yə qəbul edildi.

Nəhayət, 11 dekabr 1973-cü ildə, Almaniya Federativ Respublikası Çexoslovakiya ilə müqavilə bağladı. Burada Çexoslovakiya ilə Qərbi Almaniya arasında sərhədin qanuniliyi tanındı. Eyni zamanda, 1938-ci il Münhen sazişi ilə, Sudetin Çexoslovakiya tərəfindən "könüllü" şəkildə, Almaniyaya verilməsi məsələsi imzalandığı vaxtdan etibarsız sayılırdı. Əslində, Almaniyanın ətrafında olan vəziyyət, onun birləşməsi məsələsinə aid olmayan hər bir məsələ tamamilə normallaşdı. Beynəlxalq gərginliyin ən böyük qaynar nöqtəsi ləğv edildi. Fransa kimi, Almaniya Federativ Respublikası da V.Brandtın gəlişindən sonra Ümumavropa müşavirəsi ideyasını dəstəkləməyə başladı. 1971-ci ildə, Avropada sülhün bərqərar olunmasında böyük töhfələrə görə, V.Brandt Nobel sülh mükafatına layiq görülmüşdür.

## 4. SSRİ-də insan haqları uğrunda hərəkat və beynəlxalq münasibətlər

### 4.1.SSRİ-də insan haqları uğrunda hərəkat

XX əsrin 60-70-ci illərində ictimai-siyasi hərəkatların yüksəlişi, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin cəmiyyətlərində dərin sosial dəyişikliklər ilə əlaqədar idi. İnsanların təhsil səviyyəsi və maddi rifahları artırdı. Dünyanın əksər ölkələri müharibədən əvvəlki həyat səviyyəsini keçmişdilər və onu daha da artırmağa çalışırdılar. Eyni zamanda - fərqli yollarla olsa da, ancaq bir istiqamətdə - istər Qərbdə, istərsə də "sosialist" ölkələrində vətəndaşların istədikləri şəxsi azadlıq səviyyələri haqqında fikirləri dəyişirdi. Şəxsi və vətəndaş ləyaqəti, vətənpərvərlik, yaradıcılıq və ifadə azadlığı hüququ, azad yerdəyişmə azadlığı, o cümlədən xarici ölkələrə getmək və xarici ölkələrin vətəndaşları ilə şəxsi əlaqə və münasibət qurmaq hüququ, siyasi fikir plüralizmi, azadlığı və dini inanclar məsələləri fərqli şəkildə başa düşülməyə başlanmışdı.

70-ci illərin əvvəllərində Sovet İttifaqı, artıq Stalin tipli cəza tədbirləri həyata keçirən totalitar üsul- idarə sistemi olmasa da, tək partiyalı sistemə sahib olan sərt avtoritar, yüksək ideoloji bir dövlət olaraq qalırdı. Bir şəxsin tək diktaturası partiya bürokratiyasının yuxarı təbəqəsinin diktaturası ilə əvəz olunmuşdu. Dövləti özünə tabe edən Kommunist Partiyası, SSRİ-də rəsmi olaraq mövcud olan və təcrübədə zəif müşahidə olunan konstitusiya və qanunlar əsasında deyil, ən çox qəbul edilmiş daxili qaydalar, proqramlar və qaydalar əsasında idarə olunurdu. Sov.İKP aparatı, vətəndaşların siyasi görüşlərinin vahidliyini ciddi şəkildə izləyir, kommunizm ideologiyasını tətbiq edir və onun əsasında qurulmuş ehkamlardan, "mənəvi və əxlaqi" qiymətləndirmə və qaydalardan yayınırdı. Kommunizm yaradıcısının əxlaq kodeksi, tamamilə fövqalədə sənəd kimi, Sov.İKP proqramına və nizamnaməsinə rəsmi şəkildə daxil edilmişdi. Bu sənədlərə daxil olan Sov.İKP üzvünün vəzifələri haqqında müddəalar, olduqca rəsmi olaraq etik normalar hesab edilirdi. Kommunist Partiyasının mərkəzi orqanları tərəfindən hazırlanan bütün ideoloji göstərişlər, aşağı partiya və dövlət orqanları tərəfindən icra olunması məcburi idi. Bu "fəlsəfi və nəzəri" müddəalar nəzərə alınaraq hazırlanmış qərarlar, Stalin illərində olduğu kimi sürgünlər, ölüm hökmləri və "əmək" düşərgələri olmasa da, qərarların yerinə yetirilməməsinin qarşısı alınır və “günahkar”lar cəzalandırılırdı.

1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində SSRİ çətin iqtisadi vəziyyətə düşmüşdü. Ölkə rəhbərliyinin strateji səhv hesablamaları nəticəsində əhaliyə ərzaq verilməsində fasilələr yaranmağa başladı. 1962-ci ilin yazında çörəyin olmaması o qədər nəzərə çarpırdı ki, SSRİ Nazirlər Sovetinin Sədri N. S.Xruşşov ilk dəfə olaraq

xaricdən taxıl almağa qərar vermişdi. 1960-cı illərin əvvəllərində 1962-ci il mayın sonunda, ət və ət məhsullarının pərakəndə satış qiymətlərinin orta hesabla 30%, kərə yağı üçün isə 25% artırılması qərara alındı. Qəzetlərdə bu hadisə "bütün zəhmətkeşlərin istəyi" kimi təqdim edilmişdi.

Siyasi- ideoloji müxalifətdən başqa, ölkədə iqtisadi cətinlik çəkən insanların da çıxışları baş verirdi. Bu cür çıxışlara, 1959-cu ilin yayında, iş şəraitinin yaxşılaşdırmaq tələbinə və xarici işçilərlə yerlilər arasında fərq qoyulduğuna görə, baş vermiş "Qazaxıstan Magnitoqorski" hadisələrini (16 nəfər fəhlə öldürülüb), 1962-ci iyununda iqtisadi çətinlik və ərzağın bahalaşmasına etiraz olaraq, baş vermiş "Novoçerkashadisələri"ni (26 nəfər fəhlə öldürülmüş, 7 nəfər edam cəzasına məhkum olunmuşdu), 1975-ci noyabrında insan hüquqlarının artırılması və siyasi dəyişiklik edilməsi tələbi ilə SSRİ-nin hərbi dəniz qüvvələrinin "Keşikçi" gəmisində baş vermiş qiyamı və s. misal gətirə bilərik.

1996-cı ildə bütün məhkumlara bəraət verildi. 1990-cı illərdə yeni hakimiyyətin fikrincə, edamda Sovet partiya rəhbərliyinin üzvləri günahkarlar hesab olunurdi, sonuncular vəfat etdiyinə görə isə, heç kim cəza almadı.

SSRİ-də Kommunist partiyasının da kiçik və zəif də olsa, müxalifəti var idi. Qismən onu yaradıcı ziyalılar (A.İ.Soljenitsin) və elm adamları (fizik A.D.Saxarov, filosof A.A. Zinovyev, tarixçi R.A. Medvedev və b.), qismən də daxili "müxaliflər" və azad siyasətçilər təmsil edirdilər Onlar, bu cür təcrübələr üçün qanunverici bazanın olmamasına və hökumətin təqiblərinə baxmayaraq, etiraz aksiyalarının köməyi ilə cəmiyyətdə öz fikirlərini təbliğ etmək və müdafiə etmək üçün cəhd göstərirdilər.

Sovet müxalifətçiləri SSRİ-də qadağan olunmuş ədəbiyyatın nəşrini təşkil etməyə və oxucu kütləsi arasında yaymağa çalışırdılar. 1968-ci ildə onlar, VMT qoşunlarının Çexoslovakiyaya daxil olmasına qarşı, Moskvada nümayişlər və etiraz nümayişləri təşkil etməyə çalışmışdılar. 1967-ci il ərəb-İsrail müharibəsindən sonra, SSRİ-də yəhudi əhalisinin İsrailə azad getmək hüququ uğrunda kiçik, lakin aktiv hərəkatı yarandı. Onlar da müxalifətə qoşuldular. SSRİ-də olan müxalifətin fəaliyyəti beynəlxalq birliyin dəstəyindən istifadə edirdi. Sovet İttifaqı, sovet vətəndaşlarının şəxsi azadlıqlarına, o cümlədən ölkələrini sərbəst tərk etmək və geri qayıtmaq hüquqlarına qoyulan məhdudiyyətlər üçün kəskin tənqid edilirdi.

SSRİ-nin Qərb ölkələri ilə danışıqlarında hərbi-strateji və siyasi məsələlər qeyd-şərtsiz üstünlük təşkil etsə də, insan hüquqları ilə bağlı məsələlər də bu cür müzakirələr zamanı səslənməyə başlandı. Xüsusilə, Avropada təhlükəsizlik və əməkdaşlıq mövzusunda Ümumavropa görüşünə hazırlıq mövzusunda müzakirələr zamanı, bu məsələyə çox diqqət verilmişdi. Sovet rəhbərliyi istəməsə də, insan

hüquqlarının Qərb standartlarını SSRİ-də yaymaq tələblərinə, bəzi güzəştlər etməyə məcbur oldu.

**4.2.SSRİ-də insan hüquqlarının təmin olunması ilə bağlı vəziyyət**

Ümumavropa görüşünün gündəliyində olan məsələ, SSRİ ilə Qərb ölkələri arasında insan hüquqlarının təmin edilməsi məsələsindəki ziddiyyətlərin ciddiliyini ortaya qoydu. Sosialist ölkələri, insan hüquqlarını ilk növbədə sosial-iqtisadi hüquqlar - istirahət hüququ, pulsuz təhsil və tibbi yardım, xəstəlik, hamiləlik, uşaq baxımı və s. kimi şərh etməyə çalışırdılar. Bu sahədə, əslində Sovet İttifaqı və onun müttəfiq ölkələri dövlət tərəfindən maliyyələşdirilən güclü, dünyanın ən yaxşı sosial quruluşları və ən azad əmək qanunvericiliyi ilə dünyanın digər ölkələrini qabaqlamışdılar.

Bu nailiyyətləri nəzərə almamaq imkanı olmayan, Qərb ölkələri Sovet vətəndaşlarının birpartiyalı sistemdə həqiqi siyasi seçim olmadığını nəzərə çatdırırdılar. Bundan başqa onlar, sosialist ölkələrində azad məlumat əldə etmək, öz fikirlərini ifadə etmək, hərəkət etmək, vicdan azadlığı və dini etiqad azadlıqlarının məhdud hüquqlara malik olduğunu və xarici ölkələrin vətəndaşları ilə ailə qurmaq sərbəstliyinin olmamasını qabardırdılar.

Ümumavropa görüşünün keçirilməsi faktı sovet ictimaiyyəti üçün sirr deyildi. SSRİ vətəndaşları, insan haqları ətrafında davam edən müzakirələrdən, rus dilində yayımlanan xarici radiostansiyaların vasitəsi ilə, xəbərdar idilər (Amerikanın Səsi, BBC, Azadlıq, Azad Avropa, Deutsche Welle və s.). Bu məlumatlar sovet hüquq müdafiəçilərinin daha fəal bəyanatlarına təkan vermiş olurdu. Öz növbəsində sovet rəhbərliyi, SSRİ-də "Sov.İKP və sovet dövlətinin xarici və daxili siyasəti" ilə razılaşmayan vətəndaşların olmadığını elan etmək üçün, bu çıxışları ən qısa müddətdə susdurmaq üçün sıxışdırmağa çalışırdı.

1973-cü ilin avqustunda görkəmli sovet fiziki, akademik A.D.Saxarov sovet sistemini kəskin tənqidi ilə çıxış etdi. O, insan hüquqları müdafiəçiləri arasında ən görkəmli şəxs idi, çünki görkəmli elm adamlarından biri idi, hökumət mükafatlarına sahib və qüsursuz peşə nüfuzuna sahib idi. SSRİ-də belə bir ikinci şəxs, xaricdə rus dilində kitablar nəşr etdirən, stalinizmi və bolşeviklərin yaratdığı dövlətin cəza vermə mahiyyətini ifşa edən yazıçı A.İ.Soljenitsin idi. Sovet xüsusi orqanları əks tədbirlər hazırladı. A.D.Saxarovu, Moskvadan xarici nümayəndələr üçün "qapalı" olan Qorki şəhərinə göndərdilər. A.I.Soljenitsini öz istəyi olmadan SSRİ-dən Qərbi Almaniyaya deportasiya edilməsi haqqında qərar verildi. Bu qərar 1974-cü ilin fevralında həyata keçirildi.

Sovet rəhbərliyi tərəfindən müxaliflərə edilən təzyiqlər, xarici dövlətlərin Sovet vətəndaşları üçün, insan hüquqları zəmanətlərinin qanunilәşdirilməsinin zəruriliyi ilə əlaqədar olan tələblərinə cavab kimi, həyata keçirdiyi güzəştlər ilə uzlaşmış oldu. 18 sentyabr 1974-cü ildə, SSRİ Ali Sovetinin Rəyasət Heyəti Sovet nümayəndələri tərəfindən 1968-ci ildə Nyu-Yorkda imzalanmış və o vaxtdan etibarən, sovet vətəndaşlarına məlum olmayan, iqtisadi, sosial, mədəni, mülki və siyasi hüquqlar haqqında beynəlxalq müqavilələri təsdiqlədi. Bunun ardınca, müqavilələr mətbuatda dərc olundu.

## 5.Sovet İttifaqının yumşalma siyasəti və beynəlxalq münasibətlər

### 5.1.Sov.İKP-nin XXIV qurultayında yumşalma siyasətinin leqallaşdırılması

1971-ci il martın son günlərində, Moskvada hakim Kommunist Partiyasının XXIV qurultayı çağırıldı. L.İ.Brejnev böyük məruzə ilə çıxış etdi. Məruzənin xarici siyasət bölməsinin əsasını təşkil edən Sülh proqramı, SSRİ xarici əlaqələrinin inkişafına və Sovet İttifaqının beynəlxalq siyasətdə olan əsas vəzifələrinə dair konkret sənəd idi. Bu, Sovet rəhbərliyinin indiyə qədər verdiyi dinc yanaşı yaşamaq siyasətinin ən geniş ifadəsi idi. "Brejnevə görə" dinc yanaşı yaşamaq, "Xruşşova görə" dinc yanaşı yaşamaqdan az fərqlənirdi. Bu, həm də "sinfi mübarizənin xüsusi, dinc bir forması" hesab edilirdi. Qarşılıqlı faydalı iqtisadi əlaqələrin və onunla siyasi dialoqun inkişafına baxmayaraq. "imperializm"ə qarşı ideoloji mübarizəni ləğv etmirdi.

Ancaq, Sülh proqramının mənası nəzəri yeniliklərdə deyildi. 1956-cı ildə, XX qurultayın N.Xruşşev tərəfindən başlanmış sovet cəmiyyətinin stalinizmdən təmizlənməsi siyasətinin "təqdir etməsi" lazım olduğu kimi, XXIV qurultay da, yumşalma siyasətini qanuniləşdirmək, partiya kütlələri gözü qarşısında əsaslandırmaq və ideoloji cəhətdən düzgün ifadə etmək üsulunu yaratmaq çağırışı etdi. SSRİ, öz siyasəti ilə "dünya inqilabı"nın utopiyasından getdikcə uzaqlaşan, daha çox – nəzəri baxımından, mənalı və terminoloji olaraq, ABŞ siyasətindən az fərqlənən, adi bir böyük dövlətin siyasətini əməli hərəkətlər səviyyəsində həyata keçirirdi. Əlbəttə, SSRİ-nin siyasəti rəsmi ideoloji ifadəsi və təbliğat- informasiya müşayiəti səviyyəsində ABŞ-dan çox fərqli idi.

Xarici siyasət proqramı baxımından qurultay mütərəqqi rol oynadı. L.İ.Brejnevin rəsmi əməli mövqeyi, Sov.İKP rəhbərliyində olan sabit məsləkli anti-Qərb qruplarının, qlobal status-kvo və mülayim siyasəti əsasında, SSRİ ilə Qərb arasında yaxınlaşmaya mane olmasına imkan vermədi. Məlum oldu ki, Sovet İttifaqının xarici siyasəti mühafizəkar qalsa da, qarşıdurmaya dönüş gözlənilmirdi. Moskva, ABŞ ilə

müharibə etmək niyyətində deyildi. Qurultay, yumşalma siyasətinə "yaşıl işıq" verdi. Qərb ilə müəyyən qaydalara riayət etməklə və icazə verilən "danışıq tərzləri" ilə, dinc əməkdaşlıq üçün açıq şəkildə çıxış etmək indi təhlükəli deyildi. Lakin, sovet xarici siyasətinin ideoloji köklərini və onun həyata keçirilməsində Sov.İKP-nin aparıcı rolunu şübhə altına almaq isə, hələ də təhlükəli idi. Xarici siyasət sahəsində ehtiyatlı liberallaşma siyasətinə baxmayaraq, başqa siyasi fikirli olanlara və SSRİ daxilində olan müxaliflərə qarşı cəza tədbirləri həyata keçirilirdi.

Sovet intellektual elitasında və qismən də, partiyanın yüksək partiya rəhbərliyində beynəlxalq vəziyyətin əməli qiymətləndirilməsi yayılmağa başlandı. Onların fikirləri əməli olaraq, Qərb siyasi realizm məktəblərinin fikirlərindən az fərqlənirdi. Kommunist ehkamları olduğu kimi qəbul edilməsə də, rəsmi olaraq onlarla hesablaşmağa, ifadələrini və hərəkətlərini nəzarətdə saxlamağa davam edirdilər. Sovet İttifaqının ideoloji ehkamlarına gizli olsa da, şübhə ilə yanaşma, beynəlxalq münasibətlərin inkişafını müəyyənləşdirən qanunlara marağın artması, sovet elitasının ən məlumatlı təbəqələri olan diplomatik dairələrin, kəşfiyyat qurumlarının bəzi nümayəndələrinin əksəriyyətinə xas idi. Sovet sistemində olan əməli cəhətdən sağlam fikirlilik, qismən Sov.İKP Mərkəzi Komitəsinin beynəlxalq şöbəsinin aparıcı işçiləri arasında cəmləşmişdi. Elmi cəmiyyətdə, siyasi realizm ideyalarının daşıyıcıları, L.İ.Brejnevin şəxsi dəstəyinə arxalanaraq, özünün qeyri-ənənəvi fikirlərini ifadə edə bilən, SSRİ Elmlər Akademiyasının Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun direktoru, akademik N.N.Inozemtsevin ətrafında birləşmişdilər. SSRİ-də mülayimləşmə fikirləri ilk növbədə bu təbəqədə formalaşmışdı.

### 5.2.SSRİ-nin qeyri-sosialist ölkələri ilə məsləhət paktı sisteminin formalaşdırılması

SSRİ-də yumşalmanın leqallaşdırılması, Sovet İttifaqı ilə dünyanın müxtəlif ölkələri arasında yeni razılaşma əlaqələri yaratmağa təkan vermiş oldu. Moskva və Paris arasında müntəzəm siyasi məsləhətləşmələr haqqında müddəanı özündə cəmləşdirən Sovet-Fransız bəyannaməsinin təcrübəsi, 1970-ci ilin oktyabrında Fransa ilə SSRİ arasında məsləhət paktını daha da möhkəmləndirən ayrıca Sovet-Fransız protokolunun imzalanması ilə tamamlandı.

Bu təcrübə yayılmağa başlandı. Sovet-Fransa modelinə əsaslanan SSRİ, 19 may 1971-ci ildə Kanada ilə, 26 oktyabr 1972-ci ildə İtaliya ilə, 1975-ci ilin fevralında Böyük Britaniya ilə, 1976-cı ilin oktyabrında Danimarka ilə məsləhətləşmələrə dair protokollar imzalamışdı. Bu razılaşmalara, eyni məna əsasında, SSRİ ilə Türkiyə arasında qonşuluq münasibətləri prinsipləri əsasında

imzalanan bəyannamə də əlavə edildi. Burada, iki ölkənin mövcud reallıqlar əsasında və qarşılıqlı iddialar irəli sürmədən əməkdaşlığı inkişaf etdirmək niyyəti müəyyənləşdirilmişdi. Bu müqavilələr nəticəsində, Avropada Sovet siyasətinin hüquqi bazası genişləndi və SSRİ ilə Avropa dövlətləri arasında əlaqələrin inkişaf səviyyəsi yüksəldi. Bu addımlar, SSRİ-nin Qərb ilə iqtisadi əməkdaşlığın inkişafı üçün daha əlverişli şərait yaratdı.

Qərblə əlaqələrin genişlənməsi, xarici aləmdən SSRİ-yə gəlməyə başlayan məlumat axınının artması ilə müşayiət olunurdu. Sovet insanları digər ölkələrdə olan həyatla hədsiz dərəcədə həyəcanla maraqlanırdılar və onu öz həyatları ilə müqayisə edirdilər. Qərb kitablarının və filmlərinin axını, Sovet İttifaqı ilə xarici ölkələr arasında turist mübadiləsinin artması, Qərblə elmi əlaqələrin inkişafı, sovet xalqının ətraf dünya və orada öz yeri haqqında standart fikirlərini əhəmiyyətli dərəcədə dəyişdirdi. Sovet təbliğatı tərəfindən on illər boyu tətbiq olunan "sosializmin üstünlükləri" və "sosial həyat tərzi" stereotipləri parçalanmağa başlandı.

## 6. SSRİ və ABŞ dövlətləri arasında yaxınlaşma siyasəti

### 6.1.SSRİ və ABŞ-ın güc imkanlarının yeni nisbəti və "strateji tarazlıq" nəzəriyyəsinin formalaşması

25 fevral 1971-ci ildə, xalqına radio ilə etdiyi müraciətdə R.Nikson ilk dəfə olaraq dünyanın ən güclü iki dövlətinin heç birinin nüvə sahəsində açıq üstünlüyə sahib olmadığını elan etdi. Əslində bu, ABŞ-ın ali liderinin ilk açıq etirafı idi. Bu siyasət "strateji tarazlıq" adlandırılmağa başlandı.

Strateji tarazlıq, fövqəldövlətlərin hərbi gücünün kəmiyyət göstəricilərinin bərabər olması demək deyildi. Onun mənası "qarşılıqlı təminatlı məhvetmə" doktrinası ilə birbaşa əlaqəli idi və ondan bəhrələnirdi. Tarazlıq, qarşı tərəflərin strateji sahədə qüvvələr nisbətini nəzərdə tuturdu. Bu vəziyyətdə, hər bir tərəf özünün hərbi gücü ilə qarşı tərəfə elə güclü cavab zərbəsi endirmək təminatını verirdi ki, bunun nəticəsində ondan gələn zərər açıq-aşkar özünü birinci (önləyici) hesab etməyi qərara alan tərəfin qazana biləcəyi qələbələri heçə endirirdi. Tərəflərin hər biri, hərbi texnika, atəş edici sistemlər və döyüş başlıqlarında digər rəqibdən çox sayda üstünlüyə malik olmasa da, belə bir ehtiyat qüvvəsini qoruyub saxlaya bilərdi. Əsas odur ki, onun hücum vasitələrini faktiki cəhətdən bir zərbə ilə məhv edilməsi mümkün deyildi və qalan qüvvə və vasitələr düşmənə yolverilməz ziyan vurması üçün kifayət edə bilərdi. Amerikalı nəzəriyyəçilər üçün yolverilməz zərər, əhalinin 25% -i və ölkənin sənaye potensialının 70% -nin məhv edilməsi demək idi.

Tarazlığın tanınması o demək idi ki, heç bir halda fövqəldövlətlərin əsas ehtimali rəqibin zərbəsindən qorunmasına zəmanət verilmir. Bu o deməkdir ki, hər kəsin təhlükəsizliyinin təminatı, əslində mümkün düşmən zərbəsinə özünün zəif müdafiəsi və müvafiq olaraq düşmənin onun zərbəsinə zəifliyi idi. Nəticə etibarilə bu qarşılıqlı zəifliklə barışmaq, razılaşdırılmış formada deyil, başqa forma ilə güclərini azaltmaq cəhdlərindən əl çəkmək və bu əsaslar ilə, hərbi-siyasi sabitliyi qorumaq lazım idi.

Bundan əlavə, hücum edici gücün artırılması sahəsində, qarşı tərəflərdən birinin kəskin şəkildə irəli çıxması və əksinə, tərəflərdən birinin ehtimali düşmən zərbəsi qarşısında zəifliyi azalda biləcək, yüksək etibarlı müdafiə sistemlərinin yaratması, qlobal strateji vəziyyətin sabitliyinin pozulmasına səbəb ola biləcəyi məlum olurdu. Buradan danışıqların məntiqinə uyğun olaraq, hücum və müdafiə silah sistemlərini məhdudlaşdırmaq üçün eyni vaxtda razılaşmalar əldə etmək lazım gəlirdi.

**6.2.Sovet-Amerika dövlətlərinin yaxınlaşması**

ABŞ-Çin münasibətlərinin normallaşması Sovet İttifaqı da daxil olmaqla dünyanın bütün ölkələrində güclü təəssürat yaratdı. Moskva, ABŞ-ın SSRİ ilə bərabər, Amerika-Çin münasibətlərini də yaxşılaşdırmasından sonra, onun ənənəvi "tarazlı qüvvə" oyunu siyasətini aparacağına şübhə etmirdi: ABŞ, özünü müdafiə etmək üçün, Çin ilə yaxınlaşma təhdidi ilə SSRİ-yə təzyiq edir, sovet amerika münasibətləri ilə də, Çini qorxudurdu. R.Niksonun rəhbərlik etdiyi ABŞ-ın xarici siyasətinin əsas yaradıcısı, Prezidentin Milli Təhlükəsizlik üzrə köməkçisi H.Kissincer idi. ABŞ Dövlət katibi Uilyam Rocersin siması tamamilə kölgə altına alınmışdı. H,Kissincerin nəzəri görüşləri, universitet müəllimi kimi, beynəlxalq münasibətlər tarixini tədris etdiyi dövrdə yetkinləşmişdi. Onun fikirləri, XIX əsrin birinci rübündə, knyaz K.Metternixin və Lord R. Kaslrinin apardıqları "Avropa tarazlığı" siyasətinin ruhunda formalaşmışdı. Kissincer aktiv siyasətdən getdikdən sonra da, bu nəzəri görüşlərindən imtina etmədi.

90-cı illərdə deyildiyi kimi, "tarazlıq" məntiqi baxımından, Amerika "sıçrayışı" və ya "irəli çıxması", Sovet İttifaqında olduğu kimi, Çin istiqamətində də müvafiq şəkildə tənzimlənməli idi. Əks halda, ABŞ-ın beynəlxalq əlaqələr sistemi ÇXR-ə doğru istiqamətlənə bilər, SSRİ ilə münasibətlərdə yadlaşma başlayar və nəticədə, qeyri-sabitliyin ümumi artımı baş verərdi. Belə bir sonluq ABŞ üçün əlverişsiz olardı, çünki Vaşinqton Vyetnamda gedən müharibəyə son qoymağa çalışdığından, bu məsələdə həm Moskva, həm də Pekinin dəstəyinə ehtiyac duyurdu.

Amerika diplomatiyası, Moskva ilə münasibətlərin yaxşılaşdırılmasına çox diqqət yetirirdi və bu məsələdə Sovet tərəfinin tam anlayışı ilə qarşılaşırdı. Siyasi və

diplomatik sahədə Sovet-Amerika əməkdaşlığı, 70-ci illərin əvvəllərində qeyri-adi dərəcədə səmərəli şəkildə inkişaf edirdi. 1969-cu ildən sonra, Helsinkidə silahlara nəzarətə aid Sovet-Amerika danışıqları davam edirdi. Bu danışıqların əsas vəzifəsi, strateji hücum silahlarının məhdudlaşdırılması sahəsində güzəştlər əldə etmək idi. Eyni zamanda, Sovet-Amerika münasibətlərinin sabitləşməsinə və SSRİ ilə ABŞ arasında, təsadüfi hərbi konfliktlərin qarşısının alınmasına yönəlmiş bir sıra ikitərəfli razılaşmalara hazırlıq işləri görülürdü. Bu danışıqlar müsbət nəticələr verməyə başladı.

30 sentyabr 1971-ci ildə Vaşinqtonda, SSRİ ilə ABŞ arasında nüvə müharibəsi təhlükəsini azaltmaq tədbirləri haqqında müddətsiz Sovet-Amerika sazişi imzalanmışdı. Bu sazişə əsasən, tərəflər "nüvə silahının mümkün partlayışı ilə əlaqəli icazəsiz, təsadüfi və ya digər izah olunmamış hadisə" barədə bir-birinə məlumat verməyi və hər iki tərəfin nəzarət etdiyi nüvə silahının təsadüfən və ya icazəsiz istifadəsinin qarşısını almaq üçün tədbirlər görməyi öhdələrinə götürürdülər. Saziş, aralarında olan qarşıdurmanın qarşısını almaq üçün təhlükəli vəziyyətlər yarananda, SSRİ ilə ABŞ-ın qarşılıqlı fəaliyyətinin bir sıra vacib texniki və təşkilati aspektlərini tənzimlədi. Bu, 1962-ci il Karib böhranından sonra, "nüvə təhlükəsi" vəziyyətində, tərəflər üçün davranış qaydalarını təyin edən ilk sənəd idi.

1972-ci ilin mayında, ABŞ Prezidenti R.Nikson Moskvaya rəsmi səfər etdi. Bu, 1945-ci ildə Prezident F.D.Ruzveltin Yaltaya səfərindən sonra, Amerika Birləşmiş Ştatlarının başqa yüksək rütbəli liderinin Sovet İttifaqına ilk səfəri idi. Danışıqlar nəticəsində bir sıra mühüm hərbi-strateji və ümumi-siyasi müqavilələr bağlandı.

Əvvəlcə, strateji silahların məhdudlaşdırılması ilə bağlı danışıqlar çərçivəsində əldə olunan güzəştlərin nəticəsi olan, ilk sənədlər imzalanmışdı. İngilis dilində bu ifadənin ilk hərfləri - SALT(Strategic Arms Limitation Talks), rus dilində – ОСВ (Ограничения Стратегических Вооружений), azərbaycan dilində SSM (Strateji Silahların Məhdudlaşdırılması) kimi qısaldılmışdır. 60-70-ci illərdə bu cür danışıqların iki mərhələsi baş tutdu. Onlardan birincisi "SSM-1", ikincisi - "SSM-2" adını aldı. R. Niksonun Moskvaya səfəri, SSM-1 silsiləsindən ibarət müqavilələrin – Raket Əleyhinə Müdafiə sistemlərinin məhdudlaşdırılması sazişinin (RƏM) və 1972-ci ildəki Strateji Hücum Silahlarının məhdudlaşdırılması(SHS) sahəsində bəzi tədbirlər haqqında Müvəqqəti sazişinin razılaşdırılması ilə əlaqədar idi.

a) RƏM müqaviləsi (2001-ci ildə qüvvədən düşmüşdür) nüvə raket hücumlarına qarşı müdafiə sistemləri yaratmaq sahəsində silah yarışının qarşısını almaq məqsədi daşıyırdı. Bu sistemlər Sovet İttifaqında və ABŞ-da inkişaf etdirilirdi və hətta, SSRİ bir qədər irəli getmişdi. Bu sistemlər çox bahalı idi və mütəxəssislərin fikrincə kifayət qədər etibarlı deyildi. Onlar, "raket əleyhinə müdafiə” sistemləri idilər. Bu

sistem, yaxınlaşan düşmən mərmilərini ölkəyə zərər verməzdən əvvəl, ləğv edici raketlər vasitəsi ilə onları məhv etmək iqtidarında idi.

SSRİ və ABŞ, hər iki tərəfə iki Raket Əleyhinə Müdafiə sistemi yaratmaq razılığına gəldilər. Müvafiq olaraq, bu sistemləri öz seçimləri iki bölgədə (ümumilikdə dörd) - paytaxtların ətrafında və atəş qurğusu sistemin yerləşdiyi rayonlarda, yəni QBR (Qitələr arası Ballistik Raketlər) bazalarının yerləşdiyi ərazidə yerləşdirərək, onları qoruma altına almalı idilər. Eyni zamanda, hər iki tərəf ümummilli, yəni ölkənin bütün ərazisini əhatə edən RƏM sistemləri və onların yaradılması üçün əsas verməyəcəklərinə söz verdilər. Saziş, həmçinin dəniz, hava, kosmik və ya yerüstü RƏM sistemlərinin və ya hissələrinin yaradılması, sınaqdan keçirilməsi və yerləşdirilməsini qadağan edirdi. Müqavilə müddətsiz idi, lakin geri çəkilmək istədikləri günə 6 ay qalmış (2001-ci ildə Amerika tərəfi bundan istifadə etmişdi), əks tərəfi xəbərdar etməklə, ondan çıxmaq mümkün idi.

Prezident R.Niksonun 1974-cü ilin iyununda, Moskvaya ikinci səfəri zamanı, SSRİ və ABŞ-ın xüsusi protokolu ilə Raket Əleyhinə Müdafiə sistemlərinin yerləşdirilməsinə icazə verilən sahələrin sayı dörddən ikiyə endirildi –yəni, hər tərəf üçün bir RƏM. Sovet İttifaqı, RƏM sistemini Moskva bölgəsində, ABŞ isə RƏM-i atıcı qurğularının əsas bazası olan Qrand Forks-da yerləşdirdi.

b) SSM-1 silsilə müqavilələrin ikinci elementi, 1972-ci ildə strateji hücum silahlarının məhdudlaşdırılması sahəsində bəzi tədbirlər haqqında müvəqqəti Saziş idi. Ədəbiyyatda bu razılaşma, tamamilə dəqiq olmayan, lakin mütəxəssislər tərəfindən qəbul edilən "SSM-1 sazişi" adlanır. Müvəqqəti müqavilə beş il müddətinə bağlandı və hücum silahlarının yerləşdirilməsində kəmiyyət məhdudiyyətlərini qəbul etdi. SSRİ həm quruda, həm də dənizdə yerləşən 1600 ədəd QBR, Amerika Birləşmiş Ştatları - 1,054 QBR-a sahib olmaq hüququ aldı. Ədədi müqayisədə, göründüyü kimi, SSRİ ABŞ-dan daha çox raket almaq hüququna sahib oldu. O dövrdə sovet raketlərinin yalnız bir döyüş başlığı var idi, lakin amerikalıların raketləri ayrılan döyüş başlıqlarına malik idi. Yəni, raketlərin hər biri, fərdi hədəfi nişan almağa qadir olan bir neçə döyüş başlığı daşıyırdı. Sovet İttifaqının raketlərdə olan ədədi üstünlüyünü, ABŞ döyüş başlıqlarında olan üstünlüklə əvəz etmişdi.

Tərəflər beş il ərzində, QBR-ın yer bazalı stasionar atıcı sistemlərini və sualtı qayıqların ballistik raket (SQBR) atıcı sistemlərinin sayını bu həddən yuxarı artırmayacaqlarına öhdəlik götürdülər.

SSM-1 silsilə müqavilələri ABŞ-ın SSRİ-dən üç qat üstünlüyə sahib olduğu, uzun mənzilli bombardmançılar kimi silah növlərinə aid deyildi. Bundan əlavə, sazişlər 1972-ci il müqavilələri çərçivəsində, raketlərin qəbul edilmiş sayı saxlanılsa da, bir raketdə yerləşdirilən çoxsaylı ayrılan döyüş başlıq hissələrinin (ABH) sayı

tənzimlənmədi. Bu da, tərəflərin adi raketlərə yeni döyüş başlıqları yerləşdirməklə, xidmətdə olan raketlərin dağıdıcı gücünü artırmağa imkan verirdi.

29 may 1972-ci ildə, R.Niksonun Moskvaya səfəri zamanı "SSRİ -ABŞ münasibətlərinin əsasları" adlı əhəmiyyətli bir sənəd də imzalanmışdı. Bu sənəddə, hər iki dövlətin münasibətlərində rəhbər tutduqları 12 prinsip şərh olunmuşdu. Bununla, onlar mülayim siyasət şəraitində, qarşılıqlı davranış qaydalarını yaratdılar. Dinc yanaşı yaşamaq prinsipləri, Sovet-Amerika münasibətlərinin əsası kimi qəbul edildi. İki ölkə arasında ideologiya və sosial sistemlərdə olan fərqlər bərabərlik, daxili işlərə qarışmamaq, suverenlik və qarşılıqlı mənfəət prinsipləri üzərində normal münasibətlərin inkişafına maneə hesab edilmədi. Tərəflərin qarşıdurmalardan qaçmaq, nüvə müharibəsinin qarşısını almağa çalışmaq və qarşı tərəfin hesabına birbaşa və ya dolayı yolla birtərəfli üstünlük əldə etməyə çalışmamaq öhdəlikləri daha böyük önəm daşıyırdı. Təhlükəsizlik sahəsində, ABŞ və SSRİ hər bir tərəfin təhlükəsizlik maraqlarını tanımaq prinsiplərinə və bu maraqların bərabərliyinə, güc tətbiq edilməsindən və istifadə edilmə təhdidindən imtina etməyə razılıq verdilər.

Nəzəri olaraq, "SSRİ -ABŞ münasibətlərinin əsasları" ən vacib sənəd idi, çünki bu vaxta qədər, bu məsələ haqqında müsbət fikir söyləməkdən imtina edən ABŞ, ilk dəfə Sovet İttifaqının dinc yanaşı yaşamaq ideyası ilə rəsmi şəkildə razılaşdı. "SSRİ -ABŞ münasibətlərinin əsasları" sənədinin imzalanması günü H.Kissincer ilk dəfə Moskvada keçirdiyi mətbuat konfransında "dinc yanaşı yaşamaq" ifadəsini müsbət mənada işlətdi.

Prezident R.Niksonun SSRİ-yə gəlişi iki ölkənin yüksək səviyyəli liderlərinin mütəmadi görüşləri ənənəsinin əsasını qoydu. 1973-cü ilin iyununda, L.Brejnev ABŞ-a təkrar səfərə getdi, 1974-cü ilin yayında R.Nikson təkrar SSRİ-yə gəldi, 1974-cü ilin sonunda Vladivostokda Sovet liderləri ABŞ-ın yeni Prezidenti Cerald Fordu qəbul etdilər. 1974-cü ilin avqustunda, "Uoterqeyt qalmaqalı"na görə, impiçment təhdidi altında, prezidentlikdən məcburi istefa vermiş R.Niksonu, C.Ford əvəz etmişdi. Sovet-Amerika sammitləri yenə də davam edirdi, bəzən üçüncü ölkələrin paytaxtlarında da görüşlər baş verirdi. 1973-1974-cü illərdə, onların görüşlərində, bir sıra digər mühüm sazişlər də imzalanmışdı.

1973-cü il iyunun 22-də L.Brejnev ABŞ-da olarkən, Vaşinqtonda nüvə müharibəsinin qarşısının alınması ilə bağlı müddətsiz Saziş imzalanmışdı. Adından, SSRİ ilə ABŞ arasında nüvə müharibəsi təhlükəsinin azaldılması haqqında 1971-ci il Sovet-Amerika razılaşmasına bənzəyirdi. O da. nüvə təhlükəsi vəziyyətində iki ölkə arasında təcili məsləhətləşmələri nəzərdə tuturdu, lakin iki son dərəcə əhəmiyyətli fərqə sahib idi.

Birincisi, 1973-cü il müqaviləsi, 1971-ci il sazişindən daha geniş mənalı idi. Bu müqavilə, yalnız SSRİ ilə ABŞ arasında təsadüfi müharibə təhlükəsinin qarşısının alınmasına deyil, həm də hər hansı birinin üçüncü ölkə ilə qarşıdurmasına da aid idi. Razılaşmaya əsasən, həm SSRİ ilə ABŞ arasında nüvə toqquşması təhlükəsi olduğu təqdirdə, həm də bu iki dövlətin birinin digər bir ölkə ilə, məsələn, Çin ilə nüvə münaqişəsi təhlükəsi ilə üzləşdiyi bir vəziyyətdə, təcili Sovet-Amerika məsləhətləşmələri keçirilməli idi.

1971-ci il müqaviləsi, 1962-ci il Karib böhranı dövründə Sovet-Amerika qarşıdurmasının mənfi təcrübəsini ümumiləşdirdiyi kimi, 1973-cü il müqaviləsində də, 1969-cu ildə Sovet-Çin qarşıdurmasının təcrübəsi ümumiləşdirilirdi. Moskvanı Çin ilə qarşıdurmaya qarşı xəbərdarlıq etməyə təşəbbüs edən ABŞ da, dolayı yolla bu məsələdə iştirak etmişdi. 1969-cu ilin sentyabrında, Vaşinqtonun bu konfliktə şifahi xəbərdarlıq ilə müdaxiləsi SSRİ üçün gözlənilməz oldu və bu hadisə, onun tərəfindən Vaşinqtonun SSRİ-yə qarşı təhdidi, ABŞ-ın Sovet İttifaqı ilə münaqişə etmək niyyətinin əlaməti kimi səhv olaraq şərh edilə bilərdi. Bu cür halların təkrarlanmasını istisna etmək üçün, 1973-cü il sazişində göstərilirdi ki, iki nüvə dövləti, məsələn, SSRİ və ÇXR arasında qarşıdurma təhlükəsi yaranarsa, ABŞ mövqelərini açıq elan etməzdən əvvəl, niyyətlərini əvvəlcədən məlumat vermək üçün Moskva ilə məsləhətləşməli idi. Sovet-Çin böhranı, SSRİ ilə ABŞ arasındakı münasibətlərə təsirsiz ötüşməmişdi. Hər iki dövlət liderləri narahatçılıq keçirərək, həyəcanlanmışdılar. Ona görə də, 1969-cu ilin sentyabrında olan hadisələrin, gələcəkdə yenidən baş verməməsi üçün, onların belə təhlükəli vəziyyətlərdən qaçmaq qərarına gəldikləri, açıq-aydın görünürdü.

İkincisi, 1971-ci il müqaviləsi daha texniki və tətbiqi idi. Təhlükəli və "anlaşılmaz" vəziyyətlərdə iki ölkənin davranış qaydalarını tənzimləyirdi. 1973-cü il müqaviləsi nəzəri idi. Əslində, bu müqavilə, tərəfləri nüvə müharibəsinin qarşısının alınması sahəsində əməkdaşlığa istiqamətləndirir və müqavilə bağlayan dövlətlərdən birinin və ya hər ikisinin də iştirak etdiyi hər hansı bir nüvə münaqişəsi təhlükəsini azaltmaq məqsədi daşıyırdı. Belə təhlükə yaranarsa, Sovet İttifaqı və ABŞ dərhal məsləhətləşmələrə girməyə və onu təcili zərərsizləşdirmək üçün tədbirlər görməyə razılıq vermişdilər.

1973-cü il 22 iyunda Vaşinqtonda "Strateji hücum silahlarının davamlı məhdudlaşdırılması ilə bağlı danışıqların əsas prinsipləri" razılaşdırıldı. Danışıqların gündəliyinə bombardmançı aviasiya və çox sayda döyüş başlığı, həmçinin SSM danışıqları prosesinin bir hissəsi kimi razılaşmaların hazırlanması ilə bağlı məsələlər daxil edilmişdi.

### 6.3."Üçtərəflilik" ideoloji və siyasi cərəyanının yaranması

Vyetnamda məğlubiyyət, Amerika ictimaiyyəti tərəfindən güclü bir "qorunma təsirinə" səbəb oldu. Ümumilikdə, Amerika cəmiyyətində məğlubiyyət əhval-ruhiyyələri çox güclü olsa da, bu məsələdə analitik cəmiyyət nisbətən daha az təsirləndi. Peşəkar tədqiqatçılar, köhnə səhvləri tənqid etmək deyil, ABŞ-ın dünyada nüfuzunun və mövqelərinin bərpası üçün yeni siyasi planlar hazırlamaq imkanlarının axtarışları ilə məşğul olmağı nəzərdə tuturdular.

Bu axtarışlarda, istiqaməti demokratik partiyaya yaxınlaşan ziyalılar təyin edirdi. Onların arasında politoloq Zbiqnev Bjezinski daha çox seçilirdi. Onun, milyarder Devid Rokfellerlə əlaqələri sayəsində, 1973-cü ildə ABŞ-da "Üçtərəfli komissiya" adlı klub yaradıldı. Bu kluba ABŞ, Qərbi Avropa və Yaponiyadan olan bir qrup ziyalı və siyasətçi daxil idi. Onlar, ilk olaraq, mövcud respublika rəhbərliyini Şərq ilə dialoqa "həddindən artıq meyl" etdiklərinə və Sovet İttifaqı ilə və silahlara nəzarətə dair danışıqlara görə kəskin tənqid etməyə başladılar. "Üçtərəfli Komissiya"nın üzvləri, insan hüquqlarının qorunmasına, NATO ilə Yaponiya arasında əməkdaşlığa, habelə "Şimal - Cənub" xətti münasibətlərinə diqqət yetirmək lüzumu haqqında danışır və yazırdılar. Bu istiqamət, R.Nikson administrasiyasının əməli xəttinə qarşı intellektual alternativ idi.

"Üçtərəfli komissiya", ABŞ, Qərbi Avropa və Yaponiya arasında, liderlərin qeyri-rəsmi görüşlərinin təşkili, yeni fikir mübadiləsi, beynəlxalq münasibətlərdə əməli məsələlərin həllinə təsir göstərə biləcək tövsiyələrin birgə hazırlanması yolu ilə dialoqa əsas üstünlük verirdi. "Üçtərəfli komissiya"nın filialları Nyu York, Paris və Tokioda açılmışdı. "Üçtərəfli komissiya"nın üzvlərindən biri Demokrat Partiyasının görkəmli üzvü, bir qədər sonra (1977- 1981) ABŞ Prezidenti olmuş, Cimmi Karter idi. "Üçtərəfli komissiya"ya yaxın dairələrdə, Qərb ölkələrinin liderlərinin qeyri-rəsmi zirvə görüşünün ən yüksək səviyyədə keçirilməsi ideyası yarandı və bunun əsasında daha sonralar "yeddilər qrupu" meydana gəldi.

## 7.Latın Amerikası beynəlxalq münasibətlərdə

### 7.1.Latın Amerikasında siyasi vəziyyət

Əvvəllər olduğu kimi, Avropada hadisələrin əlverişli gedişi dünya periferiyasındakı qeyri-sabitlik ilə ziddiyyət təşkil edirdi. 70-ci illərdə, Latın Amerikası ölkələrində kollektiv fəaliyyətə artan meyl, Amerika dövlətləri arasında olan sistemin islahatı prosesində, özünü aydın şəkildə göstərdi. 1973-cü ilin aprel ayında Vaşinqtonda, Latın Amerikası ölkələrinin əksəriyyətinin təzyiqi ilə keçirilən ADT-nin (Amerika Dövlətləri Təşkilatı) üçüncü sessiyası, bu təşkilatın "fəlsəfəsi,

prinsipləri və quruluşuna", bütün əsas sənədlərinə, o cümlədən "Rio-de-Janeyro Paktına" yenidən baxılması barədə qətnamə qəbul etdi. Təcrid olmaq istəməyən Amerika Birləşmiş Ştatları da bu qərarın lehinə səs verdi.

ADT –nin islahatı prosesində, 1962-1964-cü illərdə tətbiq edilən Kuba əleyhinə sanksiyaların ləğv edilməsi məsələsi də gündəmə çıxdı. Onların ləğvi uğrunda mübarizəyə Meksika, Peru, Panama, Venesuela, Kosta Rika və Çili rəhbərlik etmişdi. Onlar ideoloji plüralizm prinsipinin, Amerika dövlətləri arası sistemin demokratik ideallarına uyğun olduğunu qəbul etmişdilər. ADT Xarici İşlər nazirlərinin 1975-ci ilin dekabrında olan məşvərət toplantısı, iştirakçı dövlətlərə Kuba ilə diplomatik əlaqələrin bərpası məsələsini həll etmək barədə qərar vermək hüququnu hər dövlətin öz ixtiyarına buraxdı.

ADT islahatı prosesi iki il sürətlə davam etdi və ilk nəticə yalnız 1975-ci ildə, San Xosedə (Kosta Rika) ADT Assambleyasının növbəti sessiyasında Amerika dövlətləri ararası Qarşılıqlı Yardım Müqaviləsinə əlavə və dəyişikliklər layihəsinin təqdim edildiyi zaman açıqlandı. Düzəlişlər toplusu ayrı bir protokol şəklində verilmişdir ("San Xose protokolu "). Layihə müəllifləri, ABŞ-ın əvvəlki illərdə Qvatemala, Kuba və Dominikan Respublikasında antiamerikan hərəkatlarini yatırtmaq üçün tədbir görməsini tələb edən, "qitələrarası təcavüz" anlayışının rəsmi istifadədən çıxarılmasını təklif etdilər. Lakin, Latın Amerikası ölkələrinin, Kubanın xahişi və ya onu qorumaq maraqları ilə Sovet İttifaqının Latın Amerikası işlərinə müdaxilə etməsi üçün, ehtimali cəhdləri hesab edilən "kontinentdən xaric" təcavüzü zamanı, ABŞ-dan yardım ala biləcəkləri nəzərdə tutulurdu. "San Xose protokolu"nun qüvvəyə minməsi üçün, ADT -nın 2/3-i tərəfindən təsdiqlənməsi tələb olunurdu. Amma, təsdiqlənmə prosesi xeyli uzandı.

### 7.2.Çilidə "Xalq birliyi" hökümətinin devrilməsi (sentyabr 1973)

1973-cü ilin yayının əvvəllərindən etibarən, Cənubi Amerikanın böyük ölkələrindən biri olan Çilidə hadisələr təhlükəli vəziyyət yaranmağa başladı. 1970-ci ildən etibarən ölkənin Prezidenti Salvador Alyende idi. O, "Xalq Birliyi" blokunda birləşmiş solçu qüvvələrdən namizəd seçilmişdi. S. Alyende, F.Kastrodan sonra Latın Amerikası ölkəsinin ikinci marksist lideri, Kuba liderindən fərqli olaraq, qanuni konstitusiya üsulları ilə hakimiyyətə gələn yeganə marksist oldu. ABŞ, Santyaqoda solçu hökumətə etimadsızlıq göstərərək, onların rəqibləri Xristian Demokratlarla münasibət qurmağa üstünlük verirdi. Sovet İttifaqı, S.Alyendeyə dəstək verərək, Çiliyə iqtisadi yardım göstərdi. Lakin, Karib böhranının dərslərini xatırlayan Moskva, Çili ilə münasibətlərini hərbi-strateji məqsədlər üçün istifadə etməyə çalışmırdı.

S.Alyende hökuməti ölkədə sosialist ruhda olan siyasət yürütməyə çalışırdı. Ölkədə mis, kömür mədəni, polad sənayesinin və bank sektorunun iri müəssisələri milliləşdirildi. Lakin, bu tədbirlər iqtisadi inkişafı sürətləndirmədi. 1972-ci ildə, Çilidə mülkədar mülkiyyəti ləğv edildi, lakin torpaq islahatı yalnız kənd təsərrüfatı istehsalının azalmasına səbəb oldu.

Prezident parlamentdə səs çoxluğuna sahib deyildi. Parlament müxalifətin nəzarətində idi. S.Alyendeyə qarşı əhalinin varlı təbəqələrini qoymaq istəyən, sağçı millət vəkilləri hökumətin xırda əmlakları milliləşdirmək niyyəti barədə, yalan şayiələr yaymağa başladılar. Bu şayiələrə inanmaq asan idi, çünki S.Alyendedən asılı olmayaraq, Çili fəhlələri sol radikalların təsiri altında kiçik sahibkarlıq müəssisələrini kortəbii şəkildə ələ keçirərək, sahibkarın razılığı olmadan, kooperativlər yaratmağa başlamışdılar. Hökumət fəhlələrin hərəkətlərini təqdir etmirdi, lakin onların qarşısını almaq üçün üçün ciddi tədbirlər görmədi. Əslində, hökumət əmlakın "aşağıdan" kortəbii şəkildə yenidən bölüşdürülməsi üzərində nəzarəti itirdi. İqtisadi vəziyyət pisləşdi, böhran ildə 300% -ə çatdı. Çilidən kapital axını başladı. Fəhlələrin tətillərinin və sahibkarların təxribat hərəkətlərinin sayı artdı.

Sağçılar hesab edirdilər ki, belə bir vəziyyətdə, növbəti parlament seçkilərində qalib gələrək, Çilinin konstitusiyasına uyğun olaraq, mandatların üçdə ikisini əldə etdikdən sonra Prezidenti istefaya göndərə biləcəklər. Ancaq, sol qüvvələr yüksək siyasi fəallıq göstərdilər və 1973-cü ilin martında parlament seçkiləri S.Alyendeyə uğur gətirdi. Solçular yerlərin 44 faizini qazandılar. Məlum oldu ki, parlamentin köməyi ilə Prezidentin devrilməsi mümkün olmayacaq.

1973-cü ilin iyununda Santyaqoda, elə əvvəldən uğursuzluğa düçar olan, hərbi çevriliş təşkil edildi. Prezidenti devirmək mümkün olmadı. S.Alyende hərbçilərlə münasibətləri gərginləşdirməkdən ehtiyat edərək, qiyamçılara qarşı cəza tədbirləri tətbiq etmədi. Onlara güzəşt edərək, dialoqa üstünlük verdi. 1973-cü ilin iyulunda silahlı qüvvələrin rəhbərliyi, S.Alyendeni general Avqusto Pinoçeti Müdafiə naziri vəzifəsinə təyin etməyə məcbur etdi. 1973-cü ilin sentyabrında, A.Pinoçetin başçılığı ilə, yeni bir çevriliş baş verdi. Baş vermiş çevriliş nəticəsində sentyabrın 11-də, Prezident S.Alyende öldürüldü.

Ölkədə hərbi diktatura quruldu. Devrilmiş Prezidentin tərəfdarlarına qarşı cəza tədbirləri başlandı. İki minə yaxın insan öldürüldü və ya itkin düşdü, 30 minə yaxın adam həbs edildi. Çevriliş, ABŞ MKİ-nin köməyi ilə hazırlanmışdı. Sovet İttifaqı, Çilinin yeni hökuməti ilə diplomatik münasibətləri kəsdi. Çilidə A.Pinoçetin diktaturası 1990-cı ilə qədər davam etmişdi.

## DÖRDÜNCÜ FƏSİL -- II BÖLMƏ

### Asiya ölkələrində nizamlama siyasəti (1969 - 1973)


**1.SSRİ- ÇXR münasibətləri**
1.1.Sovet – Çin münasibətlərinin kəskinləşməsi
1.2.Sovet –Çin qarşıdurmasının zirvə nöqtəsi
**2. Şərqi Asiyada beynəlxalq münasibətlər**
2.1.ABŞ- ÇXR münasibətlərinin normallaşdırılması
2.2.Çinin Yaponiya ilə münasibətlərinin normallaşdırılması
2.3.Sovet-Yaponiya sammiti
**3.ABŞ- Vyetnam münasibətlərinin nizamlanması**
3.1.R.Niksonun “ Quam doktrinası”
3.2.Vyetnamla bağlı Paris Sazişlərinin imzalanması
**4. Hindistan-Pakistan müharibəsi və Banqladeş dövlətinin yaranması**
**5.Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. İlk "neft şoku"**
5.1.İordaniyada Fələstin Azadlıq Təşkilatı (FAT) ətrafında konflikt (sentyabr 1970)
5.2.Yaxın Şərqdə “Oktyabr müharibəsi”. “Qiyamət günü” (1973)
5.3.İlk "neft şoku"


### 1.SSRİ- ÇXR münasibətləri

#### 1.1.Sovet-Çin münasibətlərinin kəskinləşməsi

Çində davam edən "mədəni inqilab", Mao Tszedunun radikal ideoloji və siyasi görüşlərini bölüşməyən və xarici siyasətini tənqid etməyə çalışanlara qarşı geniş zorakılıqla müşayiət edilirdi. Ölkədə qorxu, qanunsuzluq və özbaşınalıq mühiti yarandı. "İnqilabçı gənclərin" dəstələri, Kommunist Partiyasının göstərişlərinə əməl edərək, əhalini terror edirdilər. Çin Kommunist Partiyasının "normal" fəaliyyəti səbəbi, ziyalıların kəndi "yenidən tərbiyə etmək" haqqında olan ideyaları idi. Çindəki cəza tədbirləri, 30-cu illərdə SSRİ-də olan cəza tədbirlərinin amansızliq səviyyəsinə çatmasa da, onların hər ikisinin xarakteri eyni idi. Çin tərəfi xarici diplomatlara və onların ailələrinə də "inqilabi təsir" metodlarını tətbiq edirdilər.

Sov.İKP ilə ÇKP arasında münasibətlər kəsildi. Hər iki kommunist partiyası bir-birlərini "proletariatın maraqlarına xəyanət etməkdə" və kommunizm ideallarına xəyanətdə, təftişçilik, əhkamçılıq və məzhəbçilikdə ittiham edirdilər. Kobud ideoloji mübahisə, dövlətlərarası səviyyədə münasibətlərin kəskin şəkildə pisləşməsi ilə çulğalaşdı. Çin rəsmi mətbuatı və ÇXR rəhbərləri, Çin və SSRİ arasındakı sərhəd-ərazi demarkasiyasının qanuniliyinə etiraz etməkdə davam edərək, SSRİ ərazilərinin bir hissəsinin Çinə verilməsini tələb edirdi. 26 yanvar 1967-ci ildə Çin hakimiyyəti, Çinin "inqilabçı gəncləri"(tzyaofanlar) tərəfindən Sovet İttifaqının Pekindəki səfirliyinin mühasirəsini təşkil etdi. Mühasirə 18 gün davam etdi. Çində işləmək təhlükəli hal aldı. 1967-ci ilin fevralında, Sovet tərəfi Çin ərazisində olan sovet diplomatlarının təhlükəsizliyini təmin etməyin çətinliyini nəzərə alaraq, onların uşaqlarını və ailələrinin digər üzvlərini ÇXR-dən təxliyə etməyə məcbur oldu. Sərhəddə qarşıdurma hadisələri başladı. ÇXR-ə təsir göstərməyə çalışan Sovet tərəfi, Uzaq Şərqdə böyük hərbi manevrlər keçirdi, lakin bu tədbirlər istənilən səmərəni vermədi.

Sərhəd xətləri statusuna sahib olan, Amur və Ussuri çayları boyunca uzanan, hər iki dövləti kifayət qədər uzun bir ərazidə ayıran, sərhəd məsələsi xüsusi aktuallıq təşkil edirdi. XIX əsrin Rusiya-Çin müqavilələrinə uyğun olaraq, sərhəd çaylarının demarkasiyası, beynəlxalq təcrübədə istifadə olunduğu kimi çayların ortasından deyil, Çin tərəfində- yəni çayın Çin sahilində çəkilmişdi. Çin açıq şəkildə, sərhəd çayları boyunca sərhəd xəttində dəyişiklik edilməsini və dünya standartlarına uyğunlaşdırılmasını tələb edirdi. Məsələnin belə qoyuluşu ilə, təxminən 600 çay adası "mübahisəli" sayılırdı.

1967-ci ilin ortalarından başlayaraq, sovet sərhədçiləri sərhəd çaylarının təkcə çay adalarını deyil, Amur və Ussuri çaylarının Çin tərəfindəki çay boyunca sahillərini də öz nəzarətlərinə götürmüşdülər. Sovet dövləti hesab edirdi ki. sərhəd xətti hüquqi cəhətdən çaylar boyunca deyil, çayların Çin sahili ilə gedir. Öz növbəsində, Çin vətəndaşları sovet sərhədinə təzyiqləri artıraraq, sərhəd xəttini pozaraq, müntəzəm olaraq adaların sahillərinə çıxmağa başladılar. 1969-cu ilin mart ayında, onlardan birində - Damansk adasında - çox sayda qurbanlara səbəb olan, qanlı silahlı qarşıdurmalar və sovet sərhədçilərinə qarşı vəhşilik aktları baş verdi. Silahlı qarşıdurmalar, Orta Asiyada olan Çin-Sovet sərhədi xəttində də başladı. Çin-Sovet müharibəsi reallığa çevrilə bilərdi. 1969-cu ilin yayında, SSRİ-nin bəzi dövlət qurumları Pekindən, strateji əhəmiyyətli sənaye müəssisələri Mancuriyadan təxliyə edilməyə başlandı. Çinin SSRİ-nin Uzaq Şərq ərazilərinə hücum edəcəyi məsələsi, Moskvada ciddi narahatlıq ilə, təhlil olunurdu.

Belə bir gərgin şəraitdə, 1969-cu ilin iyununda, Moskvada Kommunist və Fəhlə partiyalarının beynəlxalq Müşavirəsində, L.İ.Brejnev Asiyada dövlətlərarası münasibətlərdə güc istifadəsindən imtina etmək, suverenliyə hörmət, sərhədlərin toxunulmazlığı, qarışmamaq, iqtisadi əlaqələrin inkişafı və s. əsaslanan kollektiv təhlükəsizlik sisteminin yaradılmasını təklifi ilə çıxış etdi. SSRİ ilə ABŞ, Fransa və bir sıra digər Avropa ölkələri arasında münasibətlərin yaxşılaşması zəminində Moskvanın bu təklifi, xaricdə "Çin təhlükəsinə" qarşı vahid cəbhə yaratmaq cəhdi kimi qiymətləndirildi. Dünya ölkələri Çin-Sovet qarşıdurmasına cəlb olunmaq istəmirdilər. Hətta, Kommunist Partiyalarının liderləri arasında belə, bu fikir qəbul edilmədi. Moskvada keçirilən iclasda Asiya Kommunist Partiyalarının 16 nümayəndə heyəti Leonid Brejnevin təklifini dəstəkləməkdən imtina etdi və bu məsələ yekun sənədə daxil edilmədi.

ABŞ "Asiyada kollektiv təhlükəsizliyə" qarşı çıxış etdi. 1969-cu ilin yayında Asiya ölkələrinə səfəri zamanı, Prezident R.Nikson dəfələrlə bu fikrin əleyhinə çıxış etdi. Amerika Prezidenti tərəfindən atılan bu addım, Pekinə münasibətdə, dostluq jesti idi. Vaşinqton, Şərqi Asiyada olan strategiyasını yenidən, hərtərəfli müzakirədən keçirməyə hazırlaşırdı.

### 1.2.Sovet- Çin qarşıdurmasının zirvə nöqtəsi

1969-cu ilin yayının sonunda, Qərb xüsusi xidmət orqanları, SSRİ-nin Çinin nüvə obyektlərinə önləyici, dağıdıcı zərbə vurmaq məsələsini nəzərdən keçirməyə hazır olduğunu bildirən, məlumatlarının əldə etdiyini diqqətə çəkdi. 1969-cu ilin avqustunda, Amerika kəşfiyyatına məlum oldu ki, Monqolustanda yerləşdirilən sovet bombardmançıları, Lobnor gölü yaxınlığında Çin uran zənginləşdirmə zavoduna bənzər maketləri vurmaq ilə təlim keçirirlər. Eyni zamanda, çox yüksək vəzifədə olmayan Sovet diplomatik işçilərinin, Çinin nüvə obyektlərinə qarşı Sovetin önləyici zərbə vuracağı təqdirdə, ABŞ-ın mümkün əks-addımı məsələsini diqqətlə və qeyri-rəsmi şəkildə araşdırmağa başladığı qeyd edilmişdi. Ədəbiyyatda bu cür zərbələr "nüvə silahının axtalaşdırılması" adlanır. Amerika mütəxəssisləri, 1969-cu ilin iyununda, SSRİ Hərbi Hava Qüvvələrinin bölmələrinin Sovet İttifaqının Avropa hissəsindən Sibirə köçürülməsini də diqqətə çəkdilər. 27 avqust 1969-cu ildə, MKİ-nin direktoru Riçard Helms jurnalistlərə ABŞ kəşfiyyatının əldə etdiyi gizli məlumatlar haqqında xüsusi müsahibə (brifinq) keçirdi. Baxmayaraq ki, C.Kennedinin hakimiyyəti dövründə Amerika idarə sistemi özü, keçmiş işçilərinin ifadə etdiyi kimi, Çinə bu cür zərbə vurmaq məsələsini nəzərdən keçirmiş olsa da, 1969-cu ildə ABŞ Moskvanı ehtimal olunan təhlükəli niyyətlərindən çəkindirməyi zəruri saydı. Vəziyyət daha da gərginləşmiş oldu.

3 sentyabr 1969-cu ildə, Hanoyda VDR Prezidenti Xo Şi Min vəfat etdi. A.N.Kosıgin başda olmaqla, yüksək vəzifəli Sovet nümayəndə heyəti dəfn mərasiminə getdi. Onlar Hanoyda dörd gün qaldılar. Vyetnamda olduqları müddətdə, 5 sentyabr 1969-cu ildə, Vaşinqtonda ABŞ Dövlət katibinin müavini Elliot Riçardson mətbuat konfransı keçirən zaman belə bir elan vermişdi: "Biz Sovet- Çin münaqişəsinin genişlənməsindən narahat olmaya bilmərik, çünki, bu qarşıdurma beynəlxalq sülhə və təhlükəsizliyə böyük ziyan vurur." Amerika bəyanatının bu formada səslənməsi, ABŞ-ın münaqişə tərəflərindən birinə dəstək ifadəsi kimi nəzərdən keçirməyə imkan verməsə də, Vaşinqton bununla qarşıdurmanın məhdudlaşdırılmasında maraqlı olduğunu bildirirdi. SSRİ bu mübahisədə daha güclü tərəf olduğuna görə, Amerikanın xəbərdarlığı daha çox ona ünvanlanırdı və bununla da əslində, ABŞ Çinin müdafiəsinə çıxmış olurdu .

Bu təəssürat E.Riçardsonun nitqinin davamı ilə daha da möhkəmləndi: “Öz milli təhlükəsizliyimizi uzun müddətə təmin etmək üçün, biz bir tərəflə münasibətə girərək, digərinə qarşı çıxmaq fikrində deyilik. Ancaq, biz hər ikisi ilə münasibətləri tədricən yaxşılaşdırmaq xəttinə əməl etmək niyyətindəyik ... Sovet İttifaqının yaşadığı narahatlığa görə, kommunist Çini hazırda olduğu qəzəb və kənarlaşma vəziyyətindən çıxarmaq cəhdindən imtina etmək fikrində deyilik." Vaşinqton, öz demarşına açıq qarşıdurma forması vermədən, açıq- aşkar Moskvaya xəbərdarlıq məlumatı göndərmişdi.

Amerika Birləşmiş Ştatlarının bu münasibəti hər iki tərəfə çox böyük təsir göstərdi. Gərginliyi azaltmaq üçün ilk addımı Sovet İttifaqı atdı. Sovet nümayəndə heyəti, Xo Şi Minin dəfnindən Moskvaya qayıdarkən, təyyarənin göyərtəsindən bir neçə dəfə Çin nümayəndələri ilə görüş keçirmək üçün, Pekində dayanmağa razılıq istədilər. Bir neçə cəhddən sonra ÇXR-nin razılığını aldılar. 11 sentyabr 1969-cu ildə, A.N.Kosıgin Pekin hava limanında, ÇXR Dövlət Şurasının başçısı Çjou Enlay ilə görüşdü. Bu görüşün gedişində, 1969-cu ilin oktyabrında sərhəd məsələlərinə dair Sovet-Çin danışıqlarının başlamaq üçün razılıq əldə edildi. Çin tərəfi danışıqlara başlamaq üçün ilkin şərt olaraq, Sovet qoşunlarının mübahisəli ərazilərdən çıxarılması tələbindən imtina etdi. Çin tərəfinin israr etdiyi, lakin sovet tərəfinin təsdiqləmədiyi fikirə görə, A.N. Kosıgin sovet qoşunlarının sərhəddən çəkiləcəyi haqqında vəd vermişdi. Sovet-Çin münasibətlərində ədavət hissi yenə qalırdı, ancaq qarşıdurmanın zirvə nöqtəsi ötüb keçdi və SSRİ ilə ÇXR arasında qarşıdurma təhlükəsi azaldı.

## 2. Şərqi Asiyada beynəlxalq münasibətlər

### 2.1.ABŞ- ÇXR münasibətlərinin normallaşdırılması

Hindistan-Pakistan müharibəsi və İordaniyadakı münaqişə göstərdi ki, SSRİ ilə ABŞ arasında olan yaxınlaşma meyli, yalnız Vyetnamla əlaqəli deyildi, regional siyasət məsələlərində də onlar arasında ziddiyyətlər mövcud idi. Bu, Vaşinqtonun Sovet İttifaqının ümumdünya strategiyasında zəif yer tapmaq və ABŞ-ın öz maraqlarının nəzərə alındığı məkanlarda, mümkün olan hücumu zəiflətmək üçün, Moskvaya təzyiq göstərmək səyinə səbəb oldu. Bu mənada, ABŞ və Çin arasındakı yaxınlaşma meylləri məntiqə malik idi.

1971-ci ilin iyul ayına qədər, ABŞ Dövlət katibi H.Kissincer tam məxfi olaraq, Pekinə işgüzar səfər etdi və Çin rəhbərliyi ilə ABŞ-Çin münasibətlərinin normallaşdırılması üçün əsas şərtlər barədə razılığa gəldi. 1971-ci ilin avqustunda, Amerika Birləşmiş Ştatları, BMT Təhlükəsizlik Şurasında, indiyə qədər Tayvan nümayəndəsi tərəfindən tutulan Çinin yerini ÇXR-ə verilməsi təklifi ilə çıxış etdi. Tayvan isə BMT üzvü statusunu və onun ümumi yığıncaqlarında iştirak etmək hüququnu qorumalı idi. Bu təklif qəbul olunmadı. Lakin, 1971-ci ilin oktyabrında ÇXR BMT-yə qəbul edildi. Tayvan qovulma üsuluna məruz qalmamaq üçün, "könüllü" olaraq BMT-dən çıxdı.

1972-ci ilin fevral ayında, ABŞ Prezidenti R.Nikson Pekinə rəsmi səfər etdi. Dünyanın aparıcı siyasətçilərinin, o cümlədən ABŞ ilə müttəfiq olan bütün ölkələrin rəhbərlərinin bu səfəri yalnız qəzetlərdən eşitdiklərinə görə, Amerika Prezidentinin Çinə səfəri ədəbiyyatda "Nikson şoku" adlandırılmışdı. ABŞ Prezidenti, 79 yaşlı Mao Tszedun da daxil olmaqla, Çinin yüksək səviyyəli liderləri ilə danışıqlar apardı.

ABŞ-Çin normallaşması üçün razılaşdırılmış şərtlər, 27 fevral 1972-ci ildə Şanxayda imzalanmış bəyannamə ilə təsdiq edildi. Ümumi siyasi nöqteyi-nəzərdən bu sənəddə olan başlıca məqam, hər iki dövlətin Şərqi Asiyada hegemonluğunu qurmaq cəhdindən imtina etməsinin və hər birinin hər hansı bir dövlətin belə hegemonluğun qurulması cəhdlərinə qarşı çıxmasının göstəricisi olması idi. Başqa sözlə ABŞ, SSRİ-dən artan təhlükə yaranacağı təqdirdə Çinə dəstək olmaq niyyətini bir daha təsdiqlədi və Çin Moskva ilə məsafə xətti siyasətini davam etdirəcəyinə söz verdi. Əslində ABŞ, Sovet İttifaqının qarşısını təkbaşına, ya da Çin ilə paralel hərəkətlər yolu ilə almaq üçün, SSRİ və ÇXR-ə qarşı "ikiqat qarşısını alma" siyasətindən imtina etmişdi.

Şanxay bəyannaməsi, ABŞ-Çin münasibətlərinin bütün problemlərini aradan qaldırmadı. İki ölkə arasında diplomatik əlaqələr qurulmadı, çünki, ABŞ və Tayvan

arasında əlaqə yenə də mövcud idi. Bu məsələ ilə əlaqədar, bəyannamədə deyilirdi: "Tayvan boğazının hər iki tərəfində yaşayan bütün çinlilər hesab edirlər ki, yalnız bir Çin mövcuddur və Tayvan Çinin bir hissəsidir." Amerika tərəfi hərbi obyektlərini adadan təxliyə etmək, Taypey ilə gələcək diplomatik münasibətləri dayandırmaq, ABŞ-Tayvan sazişini ləğv etmək və Çinin BMT Təhlükəsizlik Şurasında Çini təmsil etmək hüququnun ona verilməsi məsələsində ÇXR-i dəstəkləmək öhdəliyini götürmüşdü. Əslində, əsas problemlər barədə Pekinə güzəştə gedən ABŞ tərəfi, Tayvanla münasibətlərini qeyri-rəsmi məcraya keçirilməsi üçün, vaxt qazanmaq istəyirdi. Tayvan ilə diplomatik əlaqələri kəsmək, 1954-cü il ABŞ-Tayvan Təhlükəsizlik müqaviləsini ləğv etmək və ən çətini isə, bütün bunları həll etmək üçün Amerika qanunverici orqanlarının razılığını almaq lazım idi.

### 2.2.Çinin Yaponiya ilə münasibətlərinin normallaşdırılması

Çin, Sovet və digər "çətin" istiqamətlərdə öz diplomatiyasının fəallığını artıran ABŞ rəhbərliyi, Vyetnam müharibəsi ilə əlaqəli olan psixoloji və siyasi itkiləri əvəz etməyə çalışırdı. Eyniliklərdən cəsarətlə imtina edən Vaşinqtonun siyasəti, Amerikanın həm Avropa, həm də Asiyada olan müttəfiqlərinə sirayət edirdi.

Yaponiya, "Nikson şoku" ilə özünü aldadılmış hiss etmişdi, çünki o, ABŞ-dan xeyli əvvəl, Çinlə münasibətləri inkişaf etdirmək istəmişdi, amma Amerika siyasətçiləri buna imkan verməmişdilər. İndi, Vaşinqtonun Yaponiyaya icazə vermədiyi addımı özünün atması- birinci olaraq Çinlə münasibətləri normallaşdırması, Tokionu ABŞ-a baxmadan hərəkət etmək qərarına gətirdi. Yaponiya hökuməti xarici siyasətini daha müstəqil bir səmtdə aparmağa çalışırdı.

70-ci illərin əvvəllərində iqtisadi uğurlar, Yaponiyanı dünyanın iqtisadi lider dövlətlərindən birinə çevirdi. 60-cı illərdə, ümumi milli məhsulun (ÜMM) inanılmaz dərəcədə yüksək (12-16%) böyümə sürətinə görə, dünyada hətta Sovet İttifaqından bir qədər irəli çıxaraq ikinci yerə çıxdı. 1969-cu ilin noyabr ayında, Yaponiya hökuməti Ryukyu (Okinava) arxipelaqı üzərində Yaponiyanın suverenliyini bərpa etmək üçün, ABŞ-dan razılıq əldə edə bildi və 1972-ci ilin may ayında, amerikan bazalarının adada qalmasına baxmayaraq, Okinava Yaponiya nəzarəti altına keçdi. Yaponiyanın Baş Naziri Eysaku Sato, bu diplomatik vəzifəni həll edə bildiyi üçün, 1970-ci ildə Nobel Sülh mükafatına layiq görüldü.

1972-ci ilin iyul ayında hökumətin başçılığına, "çoxqütblü diplomatiya" (“takeku qayko”) nəzəriyyəsini irəli sürən, fəal xarici siyasət xəttinin tərəfdarı KakueyTanaka gəldi. Bu siyasət, Çin ilə əlaqələrin normallaşdırılmasını və SSRİ ilə münasibətlərin yaxşılaşdırılmasını təmin etmiş oldu.

1972-ci il 29 sentyabrda, K.Tanaka rəsmi səfərlə Çinə gəldi. Vaşinqtondan yarım addım öndə olmaq üçün, Yaponiya tərəfi səfər zamanı Çinlə təkcə münasibətləri normallaşdırmaq deyil, həm də tam diplomatik münasibətlər qurmaq razılığına gəldilər. Yaponiya-Tayvan rəsmi əlaqələri kəsildi. Yaponiya, ÇXR hökumətini Çinin yeganə qanuni hökuməti, Tayvanı ÇXR-in ayrılmaz hissəsi kimi tanıdı. Eyni zamanda, Yaponiya tərəfi Tayvanla iqtisadi və digər əlaqələrinə qeyri-rəsmi forma verərək, tam qoruyub saxladı.

## 2.3.Sovet-Yaponiya sammiti

1973-cü ilin payızında, Yaponiya hökuməti "çox qütblü diplomatiya" siyasəti çərçivəsində sovet istiqamətində yaxınlaşma təşəbbüsü göstərmək qərarına gəldi. 1972-ci ildə, Yaponiyanın danışıqlar vasitəsi ilə, Okinavanın geri qaytarmaq üçün ABŞ ilə razılığa gəlməsi, Tokioda Moskvanı da ərazi məsələsində güzəştə getməsinə razı sala biləcəyinə, ümid yaratmışdı.

1973-cü il oktyabrın əvvəlində, Yaponiyanın Baş Naziri K.Tanaka Moskvaya gəldi, burada L.İ.Brejnev və A.N. Kosıgin ilə Sovet-Yaponiya münasibətlərinin tam normallaşdırılması ilə əlaqədar danışıqlar apardı. Yaponiya tərəfinin fikri sülh müqaviləsinin bağlanması və cənub Kurill silsiləsinin dörd adasından ikisinin Tokioya verilməsini nəzərdə tutan, 1956-cı il birgə Bəyannamənin şərtlərinə qayıtmaq idi. 1960-cı ildə Sovet tərəfi bu bəyannamənin şərtlərinə riayət etməkdən imtina etmişdi, lakin Yaponiya hökuməti Sovet-Yapon dialoqunu 1956-cı ildə dondurduğu yerə qaytarmağa ümid edirdi. SSRİ-ni Yaponiya ilə münasibətlərin yaxşılaşdırılmasının gələcək planları ilə maraqlandırmağa çalışan, K. Tanaka hökuməti faktiki olaraq, Moskvaya Uzaq Şərq və Sibir xammalının mənimsənilməsi üçün güzəştli kreditlər şəklində yardım təklif etdi. Digər tərəfdən, Tümen neft yataqlarının birgə istismarı layihəsi, Yaponiyanın kreditlərinin köməyi nəticəsində çəkilən neft boru kəməri ilə, Yaponiyaya nəql edilməsi kimi layihələrin gələcək planları da müzakirə olunmuşdu.. Lakin, K.Tanakanın ərazi məsələsi üzrə dialoqu bərpa etmək təklifləri rədd edildi.

10 oktyabr 1973-cü il tarixində aparılan danışıqlar nəticəsində ortaq bir bəyanat imzalandı. Burada, yalnız "İkinci dünya müharibəsindən qalan, həll edilməmiş məsələlərin həlli və sülh müqaviləsinin bağlanması, iki ölkə arasında həqiqətən mehriban qonşuluq və dostluq münasibətlərinin qurulmasına öz töhfəsini verəcəkdir" ifadəsinin qeyd olunması mümkün olmuşdur. Görüşdən sonra Yaponiya tərəfi danışıqlarda "həll edilməyən problemlər" deyəndə, adaların ona təhvil verilməsini nəzərdə tutduğunu elan etdi. Sovet İttifaqı isə, onun ilə Yaponiya

arasında əslində heç bir ərazi probleminin olmadığını, danışıqların yalnız sülh müqaviləsinin bağlanmasına aid olduğunu iddia etmişdi.

## 3.ABŞ- Vyetnam münasibətlərinin nizamlanması

### 3.1.R.Niksonun "Quam doktrinası"

Uzun müddət davam edən Vyetnam müharibəsi və ABŞ-da artan ümumi narazılıq Prezident L.Consonu növbəti müddətə namizədliyini irəli sürməkdən imtina etməsinə səbəb oldu. 1968-ci ilin noyabrında, Respublikaçı RiçardNikson yeni Prezident seçildi və o, altı aya Vyetnam müharibəsinə son verəcəyini vəd etmişdi.

Eyni zamanda, Şərqi Asiyada böyük dəyişikliklər baş verirdi. ABŞ-ın 37-ci Preszidenti R.Nikson seçkilər zamanı, ictimaiyyatın müharibə əleyhinə etirazlarını nəzərə alaraq, Amerika qoşunlarının Cənub-Şərqi Asiyadan çıxarılacağını və müharibəni dayandıracağını vəd vermişdi. Vaşinqton, ABŞ-ın Moskva və Pekin ilə münasibətlərini eyni vaxtda yaxşılaşdırmadan, Vyetnamda nizamlanmanın mümkün olmadığına inanırdı. Lakin, birinci ilə əməkdaşlıq qurulsa da, ikinci ilə münasibətlərində qeyri-müəyyənlik var idi. ÇXR ilə ABŞ arasında diplomatik münasibətlər də qurulmamışdı. Ona görə də, Amerika Prezidentindən qeyri- standart həll yolu tapmaq tələb olunurdu. Bundan əlavə o, VDR, Çin və SSRİ-nin bu məsələyə münasibətini nəzərə alaraq, həm ölkə daxilində və həm də ABŞ-ın müttəfiqlərində ictimai rəyi izləyərək, çox ehtiyatlı olmalı idi.

Amerika Prezidentinin siyasəti Pekində diqqətlə izlənilirdi. ÇXR-də, Sovet İttifaqından qorxurdular və Moskva ilə ittifaqa meylli və Çindən uzaqlaşdırılan VDR-ə etibar etmirdilər. Vaşinqtonla münasibətlərin yaxşılaşdırılması Çin üçün faydalı idi, çünki, bununla Moskva ilə qarşıdurmada mövqeyini gücləndirə bilərdi. Ona görə, 1968-ci ilin noyabrında, R.Niksonun Prezident seçkilərində qalib gəlməsindən dərhal sonra, Çin Xarici İşlər Nazirliyi dinc yanaşı yaşamaq prinsipləri üzərində əlaqələrin normallaşdırılması ilə əlaqədar, Çin-ABŞ razılaşmasını müzakirə etməyi təklif etdi. Bu, 1967-ci ildən sonra Amerikanın Asiya siyasətini, "Çin reallıqları"nı nəzərə alaraq, yenidən qurulması zərurəti ilə əlaqədar yeni Amerika liderinə ünvanlanan bir işarə idi.

1969-cu ilin mayından etibarən Parisdə, Amerika qoşunlarının Vyetnamdan çıxarılması ilə əlaqədar, ABŞ və VDR arasında məsləhətləşmələr keçirilməyə başlandı. Vaşinqtonda bu məsələ barədə əsaslı bir qərar yetişmişdi, lakin onun siyasi və ideoloji əsaslandırılması tələb olunurdu. 25 iyun 1969-cu ildə, Prezident R.Nikson ABŞ-ın Quam adasında yerləşən hərbi bazasının heyəti qarşısında çıxış edərək, ABŞ-ın Asiya siyasətinin yeni doktrinasını elan etdi. Bu doktrinanın əsasında

müharibənin "vyetnamlaşdırma" müddəası dururdu. Belə ki, hərbi əməliyyatlarının aparılmasının əsas ağırlığını Amerikanın ekspedisiya qüvvələrinin üzərindən götürərək, Cənubi Vyetnam hökumətinin ordusunun üzərinə keçirilməsi nəzərdə tutulurdu.

ABŞ müqavilə öhdəliklərinə sadiq qalacağını elan etdi. ABŞ, müttəfiq və yaşaması vacib olan ölkələrə, nüvə silahı olan dövlətlər tərəfindən təhdid olunduğu təqdirdə, onları "nüvə çətiri" ilə təmin etməyi vəd verir, havadan və dənizdən dəstək verməyə hazır olduğunu bildirirdi. Qeyri-nüvə təcavüzü halında, ABŞ "müdafiənin təşkili üçün insan qüvvəsi ilə təmin edən, əsas məsuliyyəti öz üzərinə götürən" təhlükə altına düşmüş ölkəyə kömək etmək öhdəliyi götürürdü. Nikson doktrinası, təhlükə altında olan ölkələrdən, adi silahlardan istifadə edərək, öz müdafiələrini təşkil etmək üçün hərbi əməliyyatların əsas ağırlığını öz üzərinə götürmələrini tələb edirdi. Vyetnama münasibətdə isə bu, müharibənin vyetnamlaşmasına doğru addım demək idi.

R. Niksonun "Quam doktrinası" ABŞ-ın Asiyada olan müttəfiq dövlətlərinin, Amerika ordusunun canlı qüvvələri tərəfindən artıq müdafiə edilməyəcəyi demək idi. Asiya müttəfiqləri indi özlərini ilk növbədə öz qüvvələri ilə müdafiə etməli idilər. Lakin, yerli kommunistlərin müqavimətini dəf etmək və qonşularla sərhəd mübahisələrini həll etmək üçün, ABŞ-a müttəfiq olan dövlətlər bundan sonra öz əsgərlərinin qüvvələrindən istifadə etməli idilər. Yeni yanaşmaya xarici ərazilərdə Amerika bazalarının sayının azalması da daxil edilmişdi. Onların azaldılması, səyyar bazaların - sualtı qayıqların və dəniz aviasiyasının istifadəsi sayəsində həyata keçirilməsi nəzərdə tutulurdu. Avstraliya, Yeni Zelandiya, Yaponiya, Cənubi Koreya, Tayvan, Tailand və Filippinin təhlükəsizliklərindən kənarda olan bütün digər məsələlərdə Amerika rəhbərliyi Sovet İttifaqı ilə, müvafiq ölkələri və bölgələri zərərsizləşdirmək zəminində, qarşılıqlı anlaşma axtarmağa meylli idi.

R.Niksonun doktrinası, ABŞ-ın Asiya münaqişələrində iştirakına maneənin artırılmasına aparırdı. Bu o demək idi ki, bölgədə ABŞ-ın hərbi öhdəlikləri yalnız, Çinin (ya da SSRİ-nin) hücumu zamanı, onun bu münaqişəyə mümkün hərbi müdaxiləsinin təminatına aid ola bilərdi. Vaşinqtonun vəzifələri, bölgədə olan bütün kommunist ölkələrinə və hərəkatlarına qarşı çıxmaq əvəzinə, yalnız ən güclü iki dövlətin qarşısını almaq ilə məhdudlaşırdı. "Quam doktrinası" (və ya "müharibənin vyetnamlaşdırılması doktrinası") dünyanın əksər ölkələrində müsbət qarşılandı, çünki bu, Vaşinqtonun müharibədə öz iştirakını məhdudlaşdırmaq niyyətinin ciddiliyinə dəlalət edirdi. Buna baxmayaraq, Asiya-Sakit Okean bölgəsində siyasi vəziyyət qorxulu olaraq qalırdı

“Quam doktrinası” ABŞ-ın ilk növbədə strateji gücündən istifadə edərək “kommunizmin qarşısını almağa” hazır olduğunu bir daha təsdiqlədi.

**Qeyd: 3 noyabr 1969-cu ildə, ABŞ-ın Prezidenti R. Niksonun Vyetnamda olan müharibə ilə əlaqədar xalqa etdiyi müraciətdə deyilirdi:**

**“Müharibə dörd ildir davam edir. Döyüşlərdə 31 min amerikalı öldürülmüşdür. Cənubi vyetnamlıların öyrədilməsi və təlim proqramı plandan geri qalırdı. Vyetnamda olan 540 min amerikalı silahlı qüvvələrinin azaldılması planı yox idi. Paris danışıqlarında irəliləyiş olmadı və ABŞ hərtərəfli sülh planı təklif edə bilmədi. Müharibə ABŞ-da ciddi fikir ayrılıqlarına və həm çoxsaylı dostlarımızın, həm də xaricdəki düşmənlərimizin tənqidinə səbəb oldu ... Koreyada və Vyetnamda Birləşmiş Ştatlar böyük pullar, çox sayda silahlar və çoxlu hərbi qüvvələr göndərdi ki, bu ölkələrin insanların, öz azadlıqlarını kommunizmin təcavüzündən qoruması üçün kömək olsun ... Azadlığı qorumaq təkcə Amerikaya deyil, hamıya aiddir. Və xüsusilə bu məsuliyyət azadlığı təhlükə altında olanlara aiddir. Əvvəlki rəhbərliyin illərində, Vyetnamda olan müharibəni amerikanlaşdırdıq. İndi biz sülhə nail olmaq üçün, onu vyetnamlaşdırırıq."**

Niksonun “Quam doktrinasına” əsasən, ABŞ silahlı qüvvələrinin Vyetnamdan tədricən çıxarılması və eyni zamanda, Cənubi Vyetnam ordusunun gücləndirilməsi başlandı. Amerika ekspedisiya qüvvələrinin sayı, 1970-ci ildə 334 min nəfərə, 1971-ci ildə 156 min nəfərə, 1972-ci ildə 24 min nəfərə qədər azaldıldı. Cənubi Vyetnam silahlı qüvvələri 820 mindən 1 milyon 50 minə qədər artırıldı. Eyni zamanda, Nikson 17-ci paralelin şimalındakı ərazini, yəni Şimali Vyetnamın sərhəd hissəsinin "strateji bombardmanı"nı davam etdirirdi. Lakin, Amerika ekspedisiya qüvvələri hərbi qələbə qazana bilməmişdisə, bu, Cənubi Vyetnam ordusunun qüvvəsindən kənar idi.

### 3.2.Vyetnamla bağlı Paris Sazişlərinin imzalanması

1970-ci illərin əvvəllərində, SSRİ və Çin, ABŞ-ın Vyetnamla razılığa gəlməsinə kömək etmək hüququ ətrafında faktiki olaraq gizli mübarizə aparırdılar. Lakin, VDR-in ÇXR-ə etimadı yüksək olmadığına görə və Hanoyun Moskvanın tövsiyələrinə daha çox qulaq asması, SSRİ və ABŞ-ın Vyetnam məsələsində qarşılıqlı əlaqələri daha uğurlu olmuşdur. SSRİ, VDR-ə tələblərini mülayimləşdirmək və münaqişənin həllini sürətləndirmək üçün təzyiq göstərirdi. Bununla, SSRİ bir tərəfdən, Vyetnamın qələbəsini təmin etmək, digər tərəfdən də ABŞ-a müharibədən "layiqli" çıxış yolu tapmasına imkan vermək istəyirdi.

Müharibənin sona çatmasında əsas maneə, yalnız Vaşinqtonun hərbi dəstəyi sayəsində keçirilən və Cənubi Vyetnam cəmiyyətində dəstək qazana bilməyən Cənubi Vyetnam hökumətinin "mövcud olması" məsələsi idi. Belə bir vəziyyətdə ABŞ üçün, Cənubi Vyetnamda seçkilər keçirmək və Cənubi Vyetnam kommunistləri və keçmiş hökumət nümayəndələrindən ibarət koalisiya hökumətinin yaratmaq fikri

qəbuledilməz idi. Amerika, qoşunlarının çıxarılmasını gecikdirmək ilə, Sayqona yardımın genişləndirilmək və ona öz hakimiyyətini gücləndirmək üçün son şans verirdi. Eyni zamanda, Amerika diplomatiyası, Vyetnam nizamlanması məsələsini SSM ətrafındakı danışıqlarla əlaqələndirməklə, Moskvanı Vyetnama olan təsirini daha da artırmaq üçün, təhrik etməyə çalışırdı.

"Quam doktrinası" əsasında müharibənin "vyetnamlaşdırılması" ABŞ-a hərbi uğur gətirmədi. Cənubi Vyetnam hökumətinin qoşunları Cənubi və Şimali Vyetnam kommunistləri ilə uğurlu mübarizə aparmaq üçün tələb olunan cəsarət göstərə bilmədilər və ya istəmədilər. R.Nikson hökuməti, VDR inadkarlıq göstərdiyinə görə müharibənin bitməsini sürətləndirmirdi, çünki, ABŞ özünə məqbul sülh şərtləri əldə etmək istəyirdi.

ABŞ Konqresi rəhbərliyə təzyiq edirdi. O, 24 iyun 1970-ci ildə "Tonkin qətnaməsini" ləğv etdi və Prezidentə bütün ABŞ qoşunlarını Vyetnamdan 1974-cü ilin sonuna qədər çıxartmağı tövsiyə etmək qərarını qəbul etdi. VDR, Birləşmiş Ştatlarda gedən hadisələri diqqətlə izləyirdi. Hanoy başa düşürdü ki, R.Nikson hökuməti yenə də ona güzəşt etməyə məcbur olacaqdır. Yalnız vaxt qazanmaq lazım idi və Hanoy da gözləyirdi. H.Kissincer 15 iyul 1971-ci ildə Pekinə səfər edərkən, Çin nümayəndələrinə Şimali Vyetnam liderlərinə ünvanlanan məktub vermişdi. Burada, Amerika qoşunlarının Vyetnamdan çıxarılmasını, atəşkəsi və 1954-cü il Cenevrə nümunəsinə bənzər bir müqavilənin bağlanmasını təmin edən, Vyetnama aid nizamlama planı şərh olunmuşdu.

Lakin bu təşəbbüs, həmçinin Çin tərəfinin vasitəçiliyi Hanoy tərəfindən rədd edildi. 1972-ci ilin əvvəlində, R.Niksonun Çinə planlaşdırılan səfəri elan edildikdə, VDR-nin Moskva ilə əməkdaşlığa istiqamətlənməsi və Pekin ilə münasibətlərinin soyuması daha da dəqiqləşdi. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Sədri N.V.Podqornı 1971-ci ilin oktyabrında, Hanoyda olarkən, SSRİ-nin Vyetnama kömək etmək niyyətində olduğunu təkrarən bildirdi. Onların köməyi ilə, Şimali Vyetnam rəhbərliyi, 1972-ci ilin mart ayında yeni hücum hazırladı və bu müddətdə hökumət qoşunlarının ruh düşkünlüyü, bəzi hallarda isə öz mövqelərini tərk etmələrinin aşkarlandığı ortaya çıxdı. Buna cavab olaraq R.Nikson 1972-ci ilin sonunda, Şimali Vyetnam ərazisini bombalamağı bərpa etmək və VDR limanlarına gedən yolları minalamq əmri verdi. SSRİ və ÇXR, Vyetnamı dəstəkləsələr də, ABŞ-a qarşı sərt addımlar atmaqdan çəkinirdilər. Pekində, ABŞ və Çinin yüksək səviyyəli görüşündə, gözlənilən gələcək əməkdaşlığın müzakirəsi aparılırdı. Amerika hökuməti Şimali Vyetnamı təcrid etmək üçün, ABŞ və Çin arasındakı yaxınlaşma yolunu əsas məram etmişdi. Moskvada isə, 1972-ci ilin mayına planlaşdırılan, R. Niksonun SSRİ-yə səfərinə hazırlıqlar görülürdü.

Danışıqlarda, ABŞ ilə Vyetnam arasındakı fikir ayrılığı nizamlama mərhələlərinin ardıcıllığı ilə əlaqədar olan maddəyə aid idi. Vaşinqton haqlı olaraq qorxurdu ki, ABŞ qoşunlarının Vyetnamdan çıxarılmasından sonra, Cənubi Vyetnam hökuməti müqavimət göstərə bilməyəcək. Ona görə Amerika diplomatiyası, VDR və Cənubi Vyetnam kommunistlərinin Cənubi Vyetnamda kommunistlərin iştirakı ilə, lakin keçmiş Cənubi Vyetnam Nazirlər Kabinetinin nümayəndələrunin birinin rəhbərliyi altında, koalisiya hökumətinin qurulmasına razılığı təmin etməyə çalışırdı. Vaşinqton, həmçinin Cənubi Vyetnam işlərinə qarışmamaq üçün VDR-dən zəmanət istəyirdi.

Şimali Vyetnam rəhbərliyi və Cənubi Vyetnam kommunistlərinin liderləri etiraz edirdilər: Cənubi Vyetnamdakı siyasi vəziyyəti vyetnamlıların özləri həll edəcək və ABŞ ilə danışıqların mövzusu, yalnız Vyetnam torpağında Amerikan hərbçilərinin iştirakı məsələsi olmalıdır. Hanoy, Cənubi Vyetnam hökumətinə təhlükəsizlik zəmanəti verməkdən imtina edərək, Amerika qoşunlarının qeydsiz-şərtsiz çıxarılmasını tələb edirdi. 1973-cü ilin yanvarına qədər Amerika tərəfi razılaşdırma şərtlərində, VDR və Cənubi Vyetnam kommunistləri ilə rəsmi, SSRİ və Çin ilə qeyri rəsmi qarşılıqlı anlaşma əldə edə bildilər. Birləşmiş Ştatlar qoşunların çıxarılmasına başlamağa və ən qısa müddətdə başa çatdırmağa razılıq verdi. VDR, Cənubi Vyetnam işlərinə silahlı müdaxilədən çəkinəcəyinə söz verdi. ÇXR və SSRİ, VDR-in Cənubi Vyetnamda olan vəziyyətə güclə təsir etmək imkanını məhdudlaşdırmaq məqsədi ilə, şimallılara köməklərini azaldacaqlarına söz verdilər. ABŞ rəhbərliyi, özlərini tərk edilmiş hiss edən Sayqon hökumətini, çox çətinliklə, belə bir planı qəbul etməyə inandıra bildi. Lakin ABŞ, VDR və Cənubi Vyetnam partizanlarından bu məsələ ətrafında, heç bir zəmanət ala bilmədi.

27 yanvar 1973-cü ildə Parisdə, Vyetnamda müharibənin dayandırılması, barışığın bağlanması üçün razılaşmalara başlandı. Onlar hərbi əməliyyatların tamamilə dayandırılmasını nəzərdə tuturdular. ABŞ müqavilənin imzalanmasından sonra 60 gün ərzində silahlı qüvvələrini Vyetnamdan çıxarmalı və hərbi bazalarını sökməli idi. Vyetnamın müstəqilliyinə, suverenliyinə, birliyinə və ərazi bütövlüyünə hörmət edəcəklərini vəd etməli idilər. Vyetnam tərəflərinin silahlı qüvvələri, atəşkəs dövründə işğal etdikləri ərazilər üzərində nəzarəti saxlayırdılar, lakin hərbi əməliyyatları, terror aktlarını və cəza tədbirlərini həyata keçirməli deyildilər. Şimali və Cənubi Vyetnam arasındakı sərhəd, 17-ci paralel boyunca davam edirdi, lakin bunun, ərazi və siyasi cəhətdən müvəqqəti bir xətt olduğu vurğulanırdı. Siyasi nizamlanma və ölkənin gələcək birləşməsi üçün Milli Barışıq Şurası yaradılırdı.

27 yanvar 1973-cü ildə Parisdə, ABŞ, VDR, Cənubi Vyetnam hökumətlərinin və cənubi Vyetnam kommunistlərinin nümayəndələri müharibəni dayandırmaq üçün dörd tərəfli müqaviləni imzaladılar.

ABŞ Vyetnamdan qoşunları çıxarmağa söz verdi, lakin Şimali Vyetnam qoşunlarına Cənubi Vyetnamda qalmağa icazə verildi. Sayqonda hökumət öz hakimiyyəti saxlasa da, ölkənin cənub hissəsində kommunistlərin "Cənubi Vyetnam Respublikasının müvəqqəti inqilabi hökuməti" də tanındı. 1973-cü ilin mart ayında, Amerika qoşunları Vyetnam ərazisini tərk etdilər. Bunun ardınca, SSRİ və ÇXR Vyetnama yardımı azaltdı: 1973-cü ildə - 1972-ci ilə nisbətən iki dəfə, 1974-cü ildə - 1973-cü ilə nisbətən üçdə bir qədər azaltdı.

Bununla belə, 1973-cü ilin sonunda Cənubi Vyetnamda, nizamlanma üzrə uğursuz danışıqlardan sonra, Sayqon hökuməti ilə kommunistlər arasında düşmənçiliklər yenidən başlandı. Texnika və silah-sursat cəhətdən üstünlük Sayqonun tərəfində olsa da, hakimiyyət cəmiyyətdə dəstəyini itirirdi. Buddistlər, kommunistlərlə koalisiya qurmağı tələb etdilər, hökumətin ənənəvi sütunu olan katoliklər də onu korrupsiyada ittiham edərək, anti-hökumət tədbirlərinə başladılar. Cənubi Vyetnam hökumətinin hakimiyyəti qorumaq şansı günbəgün azalırdı, kömək istəmək üçün heç kim yox idi.

1973-cü ilin noyabrında ABŞ Konqresi, yeni müharibə hüquqları qanununu qəbul etdi. Bu qanuna görə, Prezident Vyetnam məsələsində hərbi qərarlar vermək hüququndan məhrum edilirdi, Amerika qoşunlarının yerləşdirilməsi ilə bağlı hər hansı bir qərarı 48 saat ərzində Konqresə bildirməyə məcbur idi. Konqres onun bu fəaliyyətinə icazə vermədiyi təqdirdə, xaricdəki qüvvələr geri qaytarlmalı idi. 1974-cü ilin avqustunda, Prezident R.Nikson "uoterqeyt qalmaqalı" nəticəsində tamamilə istefa vermək məcburiyyətində qaldıqda, onun davamçısı C.Ford da Konqresi Cənubi Vyetnam hökumətini dəstəkləmək üçün vəsaiti artırmağa razı sala bilmədi.

Ancaq, qarşıdurma yaradan Vyetnam qüvvələri sülh razılaşmalarının siyasi şərtlərini yerinə yetirmədi. Amerika qoşunlarının çıxarılmasından sonra, Milli Azadlıq Cəbhəsi (MAC) şimalın tam dəstəyi ilə mübarizəni davam etdirirdi. Cənubi Vyetnam hökumətinin böhranı daha da dərinləşirdi.

30 aprel 1975-ci ildə, Cənubi Vyetnamın MAC-ın silahlı qüvvələri Sayqonu ələ keçirdi. Onların hücumu o qədər sürətli idi ki, Amerikanın səfiri helikopterlə səfirliyin damından təxliyə edildi. Vyetnamın yenidən birləşdirilməsi, 1976-cı ilin iyulunda Vyetnam Sosialist Respublikasının elan edilməsi ilə, tamamlandı. Sayqon şəhəri Hoşiminadlandırıldı.

Vyetnam müharibəsinin nəticələri, ilk növbədə Amerika Birləşmiş Ştatlarının məğlubiyyəti demək idi. Hindçinə böyük bir ekspedisiya qüvvəsi

göndərməklərinə, bütün texniki imkanlardan istifadə etməklərinə və 58 min insanı itirmələrinə baxmayaraq, ABŞ nə Cənubi Vyetnamı saxlaya bilmədi, nə də Cənub-Şərqi Asiyada olan mövqeyini gücləndirə bilmədi. Vaşinqton xarici siyasət taktikasını dəyişdirməyə məcbur oldu. ABŞ, amerikalıların özləri tərəfindən itki verməsi təhlükəsi ilə üzləşdikləri zaman, regional münaqişələrə girməyə daha ehtiyatlı yanaşmağa başladılar.

Vyetnam müharibəsinə baxmayaraq, Sovet rəhbərliyi ABŞ-la gərginliyi azaltmağa getdi. İkiqütblü sistemin periferiyasında olan hadisələr, onun inkişafında olan əsas meylləri dəyişdirə bilmədi. Öz növbəsində, Vaşinqton Vyetnamda müharibə aparsa da, eyni zamanda SSRİ ilə siyasəti yumşaltdı və Pekin ilə münasibətlərin normallaşdırılması istiqamətində mühüm addımlar atdı.

Müharibədə mübahisəsiz qazancı Şimali Vyetnam və Cənubi Vyetnam MAC liderləri aldılar. Milli azadlıq hərəkatının yüksəliş dalğası ilə sosializm ideyalarının sintezi onlara əhalinin əksəriyyətinin dəstəyini təmin etdi və Vyetnam xalqına fövqəldövlətlərdən biri ilə uğurla mübarizə aparmaq üçün güc verdi. Bu mübarizə sosializm ölkələri, ilk növbədə Sovet İttifaqı tərəfindən dəstəklənmişdi. Nəticədə, SSRİ Cənub-Şərqi Asiyada mövqeyini möhkəmləndirdi, Lakin, Vyetnam itaətkar Sovet peykinə çevrilmədi, əksinə, regional lider olduğunu iddia etdi. Bu mənada, Vyetnam müharibəsi beynəlxalq münasibətlərin ikiqütblü sisteminin aşınmasına şərait yaratdı.

### 4. Hindistan- Pakistan müharibəsi və Banqladeş dövlətinin yaranması

Beynəlxalq münasibətlərin periferiyasında qarşıdurma hadisələri Avropadan fərqli olaraq, daha çox idi. Bunu Cənubi Asiyada hadisələrin yenidən inkişafı təsdiqlədi. 70-ci illərin əvvəllərində Sovet İttifaqı, Hindistanın SSRİ-nin şərqdə etibarlı tərəfdaşı olduğu qənaətinə gəlirdi. Çünki, Çin-Sovet münasibətləri son dərəcə gərgin olduğu kimi, Çin və Hindistan arasındakı münasibətlər də çox soyuq idi. Düzdür, Hindistan, Sovet-Çin qarşıdurmasına cəlb olunmaq istəmirdi. Xüsusən də, ABŞ-ın yeni administrasiyasının ona yaxınlaşmaq arzusunu gördüyündən sonra o, Çinə etibar etmirdi. Hindistan 60-cı illərdə olduğu kimi, bölgədə ABŞ-ın əsas tərəfdaşı mövqeyini itirmişdi. Dehli bilirdi ki, Hindistanın "tarixi düşməni" olan Pakistan, Vaşinqtonun Hindistanla əməkdaşlığını pozmaq üçün, ABŞ-Çin münasibətlərinin yaxşılaşdırılmasına kömək etməyə çalışır. Nəhayət, hindistanlı siyasətçilər hesab edirdilər ki, "R.Niksonun Hindistana şəxsi mənfi münasibəti" və "Hindistanın əleyhinə çıxan" milli təhlükəsizlik üzrə müşaviri H.Kissincer kimi bir mənfi amili var. 70-ci illərin başlanğıcında əvvəllər mövcud olmuş ABŞ-Hindistan anlaşması itmişdi.

Düzdür, Dehlinin istəyindən asılı olmayaraq bölgədə vəziyyət çıx sürətlə inkişaf edirdi. Britaniya Hindistanı parçaladıqdan sonra, Pakistan dövləti iki hissədən - qərb və şərq ərazilərdən ibarət olmuşdu. Onlar bir-biri ilə qovuşmayan, Hindistan şimal ərazisi ilə ayrılan iki hissədən ibarət idi. Pakistanın paytaxtı qərbdə yerləşirdi, şərq hissəsi isə özünü tərk edilmiş əyalət kimi hiss edirdi. Onun sakinləri hesab edidilər ki, əhalinin yarısının ölkənin şərq hissəsində yaşamasına baxmayaraq, mərkəzi hökumət Şərqi Pakistanın problemlərinə əhəmiyyət vermir və maliyyələşdirmə məsələsində ayrı-seçkiliyə yol verir.

1970-ci ildə Pakistanda keçirilən parlament seçkilərində Şərqi Benqal partiyası olan Avami Cəmiyyəti səslərin əksəriyyətini qazandı. Beləliklə, nəzəri olaraq, Şərqi Pakistanın muxtariyyət alması tərəfdarı olan lideri Mujibur Rəhman mərkəzi hökumətə rəhbərlik etmək hüququ aldı. Lakin Pakistan 1969-cu ildə vəzifəyə gələn M.Rəhman, hərbi idarəçiliyinin rəhbəri general (diktator) A.M.Yəhya xanın əmri ilə, 1971-ci ilin martında həbs edildi. Yəhya xana sadiq olan ordu birləşmələri Qərbdən Şərqi Pakistana göndərildi.

Şərqi Pakistanda M.Rəhmanın tərəfdarlarının qiyamı başladı.Onların liderləri müstəqil Banqladeş Xalq Cümhuriyyətinin yaradıldığını elan etdilər. Müxalifətin silahlı dəstələri Pakistan ordusu ilə mübarizəyə aparmağa başladılar. A.M.Yəhya xan Şərqi Pakistanda terror metodlarından istifadə etməyə cəhd göstərdi. Belə ki, benqallardan ibarət yerli əhali separatçıların tərəfində idilər, Qərbi Pakistandan gələn hərbi qüvvələr digər etnik qruplara mənsub olduqları üçün, 1971-ci ilin yaz və yayında, şərqi Pakistanda gedən vətəndaş müharibəsi millətlərarası qarşıdurma xarakteri aldı. Şərqi Pakistandan Hindistana, təxminən 10 milyon insan qaçqın kimi gəldi. Hindistan benqalları, Pakistan hökumət qüvvələrinə qarşı, dəstəkləməyə başladılar.

ABŞ Konqresinin Nümayəndələr Palatası Pakistana hərbi yardımın dayandırılmasını tələb etdi, lakin R.Niksonun administrasiyası Pakistan hökumətinə gizli hərbi təchizatı davam etdirirdi. 1971-ci ilin avqustunda ABŞ Prezidenti, Hindistan və Pakistan arasında müharibə olacağı təqdirdə, ABŞ-ın Pakistana dəstək verəcəyini elan etdi.

Sovet İttifaqı, Hindistana kömək etməyin mümkünlüyünü qəbul etdi. 1971-ci ilin avqustunda, SSRİ və Hindistan sülh, dostluq və əməkdaşlıq haqqında saziş imzaladılar. Burada qeyd olunurdu ki, tərəfdaşlar qarşı tərəfə yönəlmiş heç bir hərbi ittifaqda iştirak etməyəcəklər. Əgər ölkələrdən biri hücum və ya təhdid obyektinə çevrilərsə, SSRİ və Hindistan bunu aradan qaldırmaq üçün qarşılıqlı məsləhətləşmələrə başlamalıdırlar. Razılaşma əsasında, Hindistan SSRİ-dən hərbi yardım almağa başladı. İmzalanmasından üç ay keçməmiş, 1971-ci ilin noyabrında

Hindistan-Pakistan müharibəsi başladı. Müharibə, eyni vaxtda iki cəbhədə, şərqdə- Şərqi Pakistanda və qərbdə- Kəşmirdə gedirdi.

ABŞ Dövlət Departamenti bildirdi ki, qarşıdurmanın başlanmasında məsuliyyət Hindistanın üzərinə düşür. ABŞ-ın 7-ci donanmasının gəmiləri, o cümlədən göyərtəsində nüvə silahı olan "Enterprayz" təyyarə daşıyıcı gəmisi Şərqi Benqaliya sahillərində olan Benqal körfəzinə göndərildi. Lakin tezliklə məlum oldu ki, ABŞ hərbi gəmilərinin hərəkətlərini izləyən və guya, onların dənizdən Hindistana qarşı əməliyyatlara başlamasına mane olacaq sovet sualtı qayıqları da oraya göndərilib. Amerika rəhbərliyi, Sovet dəniz qüvvələrinin gəmilərin Benqal körfəzində olması barədə məlumatlı idi, lakin bu məlumatlar açıqlanmadı və bu barədə mətbuatda səs-küy qaldırmağa icazə verilmədi.

Sovet İttifaqı Hindistana diplomatik dəstək verirdi. Təhlükəsizlik Şurasının iclaslarında sovet nümayəndəsi, Amerika nümayəndəsinin təklif etdiyi Hindistan siyasətini pisləyən qətnamələrə üç dəfə veto qoydu. SSRİ gərginliyin yaranması məsuliyyətini Pakistanın üzərinə qoymuşdu.

Pakistan Benqaliyada məğlubiyyətə uğradı. Təqribən yüz min Pakistan əsgəri əsir alındı. Pakistan hərbi gəmilərinin yarısı Hindistan dəniz qüvvələri tərəfindən batırıldı, digər yarısı limanlarda təcrid olundu. 1971-ci ilin dekabrında, Hindistan hökuməti atəşkəs haqqında qərar verdi. Şərqi Pakistan (Şərqi Bengaliyanın tarixi bölgəsi) müstəqillik qazanaraq, Banqladeş adlanmağa başlandı.

1972-ci ildə Zülfüqar Əli Bhuttonun rəhbərlik etdiyi Pakistanın yeni hökuməti ilə Hindistan arasında Simla şəhərində (Simla razılaşması) müqavilə imzalandı. Pakistan Banqladeşin müstəqilliyini tanıdı. Hindistan Cənubi Asiyada hakim mövqeli dövlətə çevrildi. Pakistan ərazisinin 15% -ni, ümumi daxili məhsulun (ÜDM) üçdə birini və əhalisinin yarısını itirdi. İki ölkə arasındakı düşmənçilik və rəqabət yenə də davam edirdi.

## 5.Yaxın və Orta Şərqdə beynəlxalq vəziyyət. İlk "neft şoku"

### 5.1.İordaniyada Fələstin Azadlıq Təşkilatı (FAT) ətrafında konflikt (sentyabr 1970)

Avropadakı vəziyyətin yaxşılaşması, 1970-ci ildə Fələstin münaqişəsinin yeni müstəvisini əldə edən Yaxın Şərqdə münaqişənin "közərməsi" ilə paralel baş verirdi. İordaniya və Livan ərazilərindən "fədailər"ın fəaliyyətlərinin artması İsrail rəhbərliyini onlarla mübarizə üçün xüsusi taktika hazırlamağa məcbur etdi. Onların əks addımları təsirli oldu və fədailər ağır itkilər verməyə başladılar. 1970-ci ilin əvvəllərində, FAT rəhbərliyinə, İsrailə qarşı eyni fəallıqla hərbi əməliyyatların

davam etdirilməsinin mümkün olmadığı məlum oldu. Bu uğursuzluqda, FAT rəhbərliyi "xain mürtəce hakimiyyətləri", ilk növbədə İsrail ilə barışmaqda şübhələndikləri İordaniya Kralı Hüseyni ittiham etdi. Fələstin ifratçı qrupları, liderlərinin dediyi kimi, "Fələstin xalqının faciəsinə diqqət çəkmək üçün", Qərbi Avropada terror aktları (mülki təyyarələrin qaçırılması və siyasi qətllər) təşkil etməyə başladılar.

İordaniya faktiki olaraq Fələstin müqavimət hərəkatının baza ərazisi idi. İordaniyada məskunlaşan fələstin-ərəblərinin sayı 2.7 milyon nəfərə çatırdı. Fələstin silahlı qüvvələri, müntəzəm İordaniya ordusu ilə döyüş ruhu və təcrübəsi ilə rəqabət aparırdı. Kral hökuməti, silahlı fələstinlilərin ölkələrində olmasına narahat idi, onların düşmənçilik təzahürlərindən qorxurdu. Bundan əlavə kral Hüseyn, fələstinlilərin terror aktlarından əsəbiləşir, ictimai ictimai rəyin verdiyi məsuliyyətin bir hissəsinin İordaniyaya da aid edildiyini bildirirdi. İordaniya hökuməti ilə FAT arasında qarşıdurma yaranmağa başlandı.

1970-ci ilin yazında FAT silahlı qrupları İordaniyada monarxiyanı devirməyə cəhd etdilər. İordaniya təhlükəsizlik qüvvələri fələstinlilərə qarşı sistemli döyüş əməliyyatlarına başladılar. Ölkədə bütün yay fəslində fasilələr ilə olsa da, elan olunmamış müharibə getdi. Sentyabr ayında münaqişə ən yüksək həddə çatdı. Fələstinlilərə kömək etmək üçün Suriyanın sol- baasçı hökuməti tank bölmələri göndərdi. Buna cavab olaraq, Kral Hüseyn ölkədə fövqəladə vəziyyət elan etdi və kömək üçün xarici ölkələrə müraciət etdi. İordaniya rəhbərliyi, hətta ABŞ rəhbərliyindən suriyalıların tank hissələrini İsrailin aviasiya qüvvələri tərəfindən bombalama ehtimalı məsələsinin mümkünlüyünü öyrənməsini istədi, bu da İsrailin İordaniya tərəfində Suriyaya qarşı müharibəyə girməsi demək idi. Bu taktikanı çox təhlükəli hesab etdilər. Təl-Əvivlə məsləhətləşdikdən sonra, Amerika tərəfi İordaniya ordusunun təcavüzü öz gücünə dəf edə bilmədiyi təqdirdə, ABŞ özünün də köməyə gələcəyini bildirdi.

Eyni zamanda, Vaşinqton İordaniyada gedən münaqişənin genişlənməsi ilə əlaqədar, ABŞ silahlı qüvvələrində qismən döyüş hazırlığı tətbiq etmək niyyəti barədə, Moskvaya gizli şəkildə məlumat verdi. Birləşmiş Ştatlar, SSRİ-nin münaqişəyə müdaxilə etməyə cəhd edə biləcəyindən ehtiyat edirdi. Sovet rəhbərliyi, əslində, İsrailin İordaniya-Fələstin münaqişəsinə qarışmasına qəti şəkildə etirazını bildirdi. Eyni zamanda, Suriyanın hücum siyasətini dəstəkləmədi və ona hərbi yardım göstərmədi.

Bununla belə, 1970-ci ilin sentyabr ayının sonunda İordaniya ordusu Fələstin qüvvələrini tamamilə məğlub edərək, Suriya qüvvələrini Suriyaya geri çəkilməyə məcbur edə bildi. Hərbi qələbə qazandıqdan sonra, Kral Hüseyn hökuməti silahlı

FAT dəstələrini İordaniya ərazisindən çıxartmaq üçün tədbirlər gördü. Fələstinli yaraqlılar Livana köçməyə məcbur oldular. Bu məsələ, Livanın təəssüfü ilə qarşılandı. FAT qərargahı Beyruta köçdü. 1970-ci ilin noyabrında Suriyada hərbi çevriliş baş verdi, nəticədə sol-baasçı rəhbərliyi ləğv edildi və daha mülayim baasçı General Hafiz Əsəd hakimiyyətə gəldi.

İordaniyada qalan fələstinli qaçqın düşərgələri, İordaniya ordusunun ciddi nəzarəti altına alındı. Baxmayaraq ki, təxminən bir ilə yaxın idi ki, FAT Ərəb Dövlətləri Cəmiyyətinin (ƏDC) vasitəçilik xidmətlərindən istifadə edərək bazalarını qismən qoruyub, saxlamağa çalışsalar da, onlar İordaniya ərazisindən İsrailə qarşı hərbi əməliyyatlar aparmaq imkanından məhrum oldular.

### 5.2.Yaxın Şərqdə Oktyabr müharibəsi. "Qiyamət(tövbə) günü" (1973)

Birləşmiş Ərəb Respublikası (BƏR), Afrikanın şimalında və Qərbi Asiyada 1958-1971-ci illərdə mövcud olmuş bir dövlətdir. 1961-ci ilə qədər iki ölkənin - Suriya və Misirin ittifaqından ibarət olmuşdur. 28 sentyabr 1961-ci ildə, Suriya BƏR-dan çıxdığını elan etdi.

BƏR, 1962-ci ildə ölkədə sosialist islahatlarını və ölkənin modernləşməsini həyata keçirməyə başladı. 1963-cü ildə Misir (BƏR), Suriya və İraqın bir hissəsi olaraq Birlik Dövlətini canlandırmaq üçün addımlar atdı, lakin dövlət sistemi ilə bağlı fikir ayrılıqları səbəbindən bu planları həyata keçirə bilmədi.

1964-cü ilin mayında, Birləşmiş Ərəb Respublikasına rəsmi səfəri zamanı

N.S.Xruşşov BƏR-in ən yüksək mükafatı olan Nil Ordeni ilə təltif edilmişdi. BƏR mükafatı ilə təltif edilməsinə cavab olaraq, N. S. Xruşşovun şəxsi təşəbbüsü ilə, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 13 may 1964-cü il tarixli qərarı ilə, Prezident Camal Əbdül Nasir və Hərbi nazir, BƏR-in Birinci vitse-prezidenti feldmarşal Əbdül Hakim Əmir Sovet İttifaqı Qəhrəmanı adına layiq görülərək, Lenin ordeni və Qızıl Ulduz medalı ilə təltif edilmişdi. Bu təltiflər, iki dövlət arasında münasibətlərin yüksək səviyyədə olduğunu sübut edirdi.

BƏR rəsmi olaraq C.Ə.Nəsirin ömrünün sonuna qədər unitar bir dövlət kimi mövcud olmuşdu. 2 sentyabr 1971 ildə ölümündən bir il sonra - BƏR -Misir Ərəb Respublikası adlandırıldı.

1967-ci ildə "altı günlük müharibə" nəticəsində qəbul edilən atəşkəs şəraiti anında İsrail qoşunları Süveyş kanalı xəttinə çıxmışdılar. Daha qərbə keçməyə heç cəhd etmədilər, çünki kanal təbii sərhəd olduğundan, onu qorumaq daha asan idi. BMT Təhlükəsizlik Şurasının qərarını yerinə yetirən Misir və İsrail qoşunları hərbi əməliyyatları dayandırdılar. Misir 1967-ci ildə, İsrail ilə altı günlük müharibədə

məğlub olduqdan sonra, C.Ə.Nasir vəzifəsindən istefa verdi, ancaq ona dəstək olan kütləvi nümayişlərdən sonra bu qərarı ləğv etdi.

Ancaq onların aralarında sülh bağlanmadı və müharibənin bitməsindən iki il sonra ardıcıl olaraq qarşıdurmalar davam etdi. Əslində, taqətdən salma müharibəsi başladı, bu müddətdə tərəflər mütəmadi olaraq hava hücumları edirdi. 1969-cu ilin sonu - 1970-ci ilin əvvəllərində İsrail aviasiyasının hava üstünlüyünü ələ keçirdiyi məlum oldu. O, Misirin ən böyük şəhərlərinə sərbəst zərbələr endirə bilirdi. C.Ə. Nasiri separat açıq danışıqlara başlamağa vadar etmək üçün İsrail hökuməti, Misir üçün məhv edilməsi milli fəlakət ola biləcəyi Asuan bəndinə hücum edərək bombardman etməyə hazır olduğunu bildirdi.

C.Ə.Nasir, Misir Hərbi Hava Qüvvələrinin nə qədər zəif olduğunu başa düşürdü. O, SSRİ-dən kömək istəməyi qərara alaraq, müasir hava hücumu əleyhinə müdafiə sistemləri ilə təmin olunmasını xahiş etdi. Bu texnika Misirə çatdırıldı. Onlarla birlikdə yeni sistemlərin texniki dəstəyini öz üzərinə götürən 20 minə qədər Sovet hərbi məsləhətçilər də gəldi. Çünki, Misirli mütəxəssisləri lazımi ixtisasa sahib deyildilər. Sovet hərbçiləri ilə təchiz olunmuş hava hücumu əleyhinə müdafiə sistemləri, Misirin böyük şəhərlərini və Asuan bəndini mühafizə altına götürdülər. Eyni zamanda, Misir, SSRİ Hərbi Dəniz Qüvvələrinə İsgəndəriyyə və Port Səid limanlarına daxil olmaq hüququ və Sovet hava qüvvələrinə ölkə ərazisindəki bir sıra aerodromlardan istifadə etməyə icazə verdi. Misir, Hərbi Hava Qüvvələrinə kömək etmək üçün sovet təyyarəçiləri göndərildi. Bu tədbirlər, havada vəziyyəti kəskin şəkildə dəyişdirdi. İsrail komandanlığının hava müharibəsini davam etdirmək cəhdləri İsrail üçün ciddi itkilərə səbəb oldu və onlar bundan imtina etmək məcburiyyətində qaldı.

Vəziyyətin bir qədər sabitləşməsini nəzərə alan, ABŞ-ın Dövlət katibi U.Rocers, SSRİ ilə məsləhətləşmələrdən sonra, 1970-ci ilin iyununda, Misir və İsraili bir ay yarım müddətində barışıq bağlamağa dəvət etdi. Avqustun 7-də saziş imzalandı. Lakin, demək olar ki, dərhal sonra, razılaşmaların əksinə olaraq, Misir hava hücumu əleyhinə müdafiə sistemlərini atəşkəs xəttinin yaxınlığında yerləşdirdi. İsrail də bu addımı, yeni bir müharibəyə hazırlıq aktı kimi qiymətləndirdi. Atəşkəsə riayət edilməsi, faktiki olaraq dayandırıldı.

2 sentyabr 1970-ci ildə Prezident C.Ə.Nasir ürək tutmasından dünyasını dəyişdi. Misirin Prezidenti, ölkənin vitse-prezidenti Ənvər Sadat oldu. Sovet İttifaqı ilə İsrailə qarşı hərbi-siyasi əməkdaşlığı gücləndirərək, daha çevik xarici siyasət xətti aparmağa başladı. Eyni zamanda, ABŞ ilə münasibətləri yaxşılaşdırmağın yollarını axtarmağa başladı. O, hesab edirdi ki, ABŞ-ın dəstəyi olmadan İsraillə barışıq əldə etmək mümkün olmayacaq.

Misirin yeni Prezidenti, 1967-ci ildə pozulmuş diplomatik münasibətlərin bərpa olunmamasına görə, ABŞ-la qeyri-rəsmi danışıqlara başladı. Danışıqlarda, Misir Vaşinqtonu İsrailə təzyiq göstərməyə və 242 saylı qətnaməni icra etməyə məcbur etməyə inandırmağa səy göstərmişdi. 1971-ci ilin yanvarında, BMT Baş Katibinin xüsusi nümayəndəsi, İsveç diplomatı Qunnar Yarrinq (əvvəllər İsveçin SSRİ-dəki səfiri) Yaxın Şərqə gəldi və münaqişə edən dövlətlərin hökumətlərinə 242 saylı qətnamənin ("Yarring bəyannaməsi”) yerinə yetirilməsi üçün ilkin tədbirlər planını özündə əks etdirən bəyannaməni təqdim etdi. Misir və İordaniya irəli sürülən təkliflərlə razılaşdılar, Suriya onları rədd etdi və İsrailin isə onun əlavə tələblərinin qəbul ediləcəyi təqdirdə təklifləri təsdiqləməyə hazır olduğunu bildirdi. Q.Yarrinqin missiyası uğursuzluğa düçar oldu.

7 mart 1971-ci ildə Misir hökuməti, İsrail ilə bağladığı barışıq müqaviləsindən asılı olmadığını elan etdi.Yəni, hərbi əməliyyatların yenidən başlamasa da, iki ölkə arasında müharibə vəziyyətinin bərpa edildiyini bildirdi. Bu zaman Ə.Sadat, ölkəni "İsrail təcavüzkarı ilə ümumi qarşıdurmaya" hazırlaşmağa çağırdı. Misir ordusunun yenidən silahlanmasının davam etdirilməsini təmin etmək üçün, 27 may 1971-ci ildə, 15 il müddətinə Sovet-Misir arasında dostluq və əməkdaşlıq müqaviləsi bağladı. Sovet İttifaqı Misirə silahlar ilə təchiz etməyə başladı: tank əleyhinə raketlər, zenit sistemləri, MiQ-23 təyyarələri və digər silahlar. Ə.Sadat daha müasir silahlar almaq istəsə də, Moskva bu silahları ona vermədi.

SSRİ-nin köməyi ilə, Misir və Suriya ordusunu yenidən təchiz edərək, İsrail ordusu üzərində kəmiyyət üstünlüyü qazandılar: ümumilikdə Misir və Suriyanın qüvvələri, sayca iki dəfə tankda və üç dəfə təyyarədə düşməni üstələyirdilər. Düzdür, İsrail silahlı qüvvələrinin hazırlıq səviyyəsi ərəb rəqiblərini xeyli üstələyirdi. Ə.Sadat qisas almaq və İsrailə hücum edəcəyini bəyan etdi.

Misir və Suriya rəhbərliyi qarşılarına müxtəlif hərbi- siyasi vəzifələr qoyurdular: Suriya İsrailə qətiyyətli məğlubiyyət verməyə və bütövlükdə Yaxın Şərq probleminin əlverişli həllinə nail olmağa çalışırdı, Misir isə yalnız Sinay yarımadasının ona qaytarılmasını istəyirdi. Sovet rəhbərliyi Misir ordusunun müharibəyə hazır olmadığını əsas gətirərək onu bu cür addımlardan çəkindirməyə çalışırdı.

Lakin, Misir Prezidenti Sovet İttifaqının Misirə tam iqtisadi yardım göstərə bilmədiyini görərək, SSRİ-yə güvəni azaldı. Əslində, ölkədə həm obyektiv- demoqrafik partlayış, səhralaşma, həm də subyektiv- hərbi xərclər, sosialist təcrübələri və başqa səbəblərdən yaranan sosial-iqtisadi böhran yaranmışdı.

Vaşinqtonla danışıqları davam etdirən Ə.Sadat, ABŞ-ı, İsrailin Misirə güzəştə getməyə vadar etmək üçün yenə də ona təsir göstərməyə çağırdı. Amerika tərəfi,

Misirə Sovet hava hücumu əleyhinə müdafiə sistemlərinin Misir ərazisindən çıxarılmasını təklif etdi. Xarici siyasət istiqamətini dəyişdirmək niyyətinin ciddiliyini təsdiqləmək üçün, Ə.Sadat 1972-ci ilin yazında, Sovet hərbi müşavirlərini ölkədən çıxartdı və Sovet hava hücumu əleyhinə müdafiə sistemlərindən istifadə etməkdən imtina etdi. Lakin bu addımlar, sovet silahını almağa davam etməsinə mane olmadı.

Ancaq bu addım, Misir-İsrail münasibətlərinin yaxşılaşmasına gətirib çıxarmadı. 1969-cu ilin martından sonra, 75 yaşlı Qolda Meirin başçılıq etdiyi İsrail hökuməti güzəşt etməyə meylli deyildi. Buna baxmayaraq, İsrailin hakim dairələrində "Böyük İsrail" yaratmaq planlarında ciddi fikir ayrılıqları var idi. Güc strategiyasının tərəfdarları "tarixi hüdudlara" çatmaq üçün mübarizəni davam etdirməkdə israr edirdilər, başqa sözlə yeni ərazi ələ keçirilməsini müdafiə edirdilər. "Sülhməramlılıq" strategiyasının tərəfdarları əvvəllər ilhaq edilmiş əraziləri qismən tərk etmək əvəzinə, ərəblərlə barışığın tərəfdarı idilər.

"Sülhməramlılar"ın təsirindən istifadə etməyə çalışan İordaniya Kralı Hüseyn 1972-ci ilin mart ayında, Birləşmiş Ərəb Krallığını yaratmaq planını irəli sürdü. O, İsrail hərbi qüvvələrinin qalacağı Qərb sahili və Qəzza sektoru ilə İordaniyanın konfederativ birliyini yaratmaq təklifini irəli sürdü. Hüseynin demarşı Misir və SSRİ-də mənfi qarşılandı. ABŞ da ona dəstək vermədi. İsrail də "güc strategiyası" tərəfdarlarının təzyiqi altında bu planı rədd etdi. 1973-cü ilin sentyabrında, İsrail hökuməti hücum xətti siyasətini inkişaf etdirərək, işğal altındakı ərazilərin mənimsənilməsi (Sinay daxil olmaqla) və onların üzərində yəhudi yaşayış məntəqələrinin inşası planını elan etdi.

Bu qərar, Ə.Sadatın İsrail ilə tez bir zamanda razılığa gəlmək ümidlərini yox etdi. Qahirə, İsrailə qarşı güc tətbiq etmək qərarına gəldi. Dəməşqə səfər edən Ə.Sadat, Suriya Prezidenti H.Əsədlə İsrailə qarşı yeni müharibə planı barədə razılığa gəldi. 6 oktyabr 1973-cü ildə, yəhudilərin dini bayramı olan "Qiyamət (tövbə) günü"("Yom Kippur"), Misir və Suriyanın silahlı qüvvələri qəflətən İsrailə hücum etdi.

İsrail müharibəyə hazır deyildi, ona görə, ərəblərin ilk hücumu uğurlu oldu. Misir qüvvələri kanalı keçərək onun şərq sahilinə çıxa bildilər və sonra İsrail birləşmələrini Sinay yarımadasının dərinliklərinə sıxışdırmağa başladılar. Müharibənin ilk saatlarında 200-dən çox İsrail tankı məhv edildi. Sovet zenit raketləri, Fransa və Amerika istehsalı olan İsrail təyyarələrinə qarşı uğurla mübarizə aparırdı. Müharibənin ilk günlərində min tankdan istifadə edən misirlilər Sinay yarımadasının qərb hissəsini tutmağı bacardılar. Misirin keçirdiyi əməliyyatlar ilə eyni vaxtda, Suriya qüvvələri Qolan yüksəkliklərinə hücum

etdilər, təqribən 15 km irəliləyərək onun zirvəsinə çatdılar və Hermon dağında yerləşən istehkamları ələ keçirdilər. İsraillilərin vəziyyəti çətinləşdi.

İsrail hökuməti kömək üçün ABŞ-a, ərəb ölkələri Sovet İttifaqına müraciət etdi. Nə Moskva, nə də Vaşinqton öz münasibətlərini çətinləşdirmək istəmirdilər, lakin eyni zamanda tərəfdarlarının məğlub olmasını da istəmirdilər. Sovet hökuməti ərəblərin İsrailə hücumunu təqdir etmədi, lakin onların hərəkətlərini də qınamadı. Vaşinqton da münaqişəni dondurmağı üstün tuturdu.

Lakin, İsrail ABŞ-dan ona təcili hərbi yardım göstərməyə israr etdi. Oktyabrın 12-də Q.Meir, Prezident R.Niksona İsrailin mövcudluğu təhlükə altına alındığı üçün, "qələbə naminə heç nədən imtina etməyəcəyini" elan etdi. Amerika xüsusi xidmət orqanları bu açıqlamanı İsrailin ərəb ölkələrinə qarşı nüvə silahından istifadə etmək niyyətinə işarə kimi qəbul etdilər. Hesab olunurdu ki, İsraildə aşağı güclü nüvə partlayıcı qurğusunun bir növ sınaq forması vardır. Münaqişənin qeyri- məhdud genişlənməsi, ABŞ-ın planlarına daxil deyildi və R.Nikson administrasiyası İsraili yeni silahlarla təmin etmək qərarına gələrək, müttəfiqinin köməyinə gəldi. İsrailə hava körpüsü vasitəsi ilə, tank və zenit silahlarının təcili yerləşdirilməsi təşkil edildi. Eyni zamanda, Amerikalılar Portuqaliyanın köməyindən istifadə etdilər, bu da ABŞ nəqliyyat təyyarələrinin Azor bölgəsində yanacaq doldurmaq üçün enməsinə imkan verdi. Onların köməyi ilə qəfil hücumdan özünə gələn İsrail ordusu, 1973-cü il oktyabrın ortaları üçün strateji təşəbbüsü geri alaraq, hərbi əməliyyatları öz xeyirlərinə dəyişdilər

İsrail qoşunları Sinay yarımadasındakı Misir qüvvələrini (3-cü ordu) mühasirəyə aldılar və onu keçərək yenidən Süveyş kanalına çatdılar, sonra kanalın qərb sahilinə geçərək Qahirəyə hücuma hazırlaşmağa başladılar. Sinay yarımadasında mühasirəyə alınan Misir ordusunun da tamamilə məhv edilməsi təhlükəsi var idi. Ə.Sadat, nəyin bahasına olursa olsun ordunu xilas etməli idi.

Suriya cəbhəsində də vəziyyət, buna bənzər şəkildə inkişaf edirdi. İsrail, suriyalıların hücumunu dayandıraraq, əks hücuma keçdilər. 11 oktyabrda, İsrail ordusu yenidən Qolanı ələ keçirdi və Dəməşqi tutmaq üçün Suriya ərazisinə hücum etdilər. Yalnız, İraq ordusunun Suriyaya göndərilmiş böyük birləşmələri, İsrailin hücumunun qarşısını ala bildi. İsrail hücumu dayandırılsa da, Dəməşqin tutulması təhlükəsi davam edirdi. 15 oktyabrda cəbhə Dəməşqdən 35 km məsafədə sabitləşdi. Atəşin dayandırılmasına qədər, israillilər Hermon dağındakı istehkamları hücumla tutmaq istəyirdilər.

Misir yenidən kömək üçün SSRİ-yə müraciət etdi. A.N.Kosıgin təcili olaraq gizli bir missiya ilə Qahirəyə gəldi. O, Misirə hərbi yardımın artırıldığını elan edərək və BMT vasitəsilə İsrailin mühasirəyə alınmış Misir ordusunun mövqeyinə

hücumunu dayandıracağına söz verdi. O, həmçinin Ə.Sadatı dərhal atəşkəsə razı olmağa inandırdı.

Hər iki super dövlət regionda müəyyən güc balansını qorumaqda maraqlı idilər. ABŞ Dövlət katibi H.Kissincer, ortaq fəaliyyət haqqında razılaşmaq və Yaxın Şərqdə SSRİ-nin birtərəfli fəaliyyətinin qarşısını almaq üçün, 1973-cü il oktyabrın 20- də, təcili olaraq Moskvaya səfər etdi. L.İ.Brejnev ABŞ nümayəndəsinə, təcili olaraq, Yaxın Şərqə ortaq Sovet-Amerika ekspedisiya qüvvəsini göndərilməsini təklif etdi. Bu təklif, Vaşinqton üçün tamamilə qəbuledilməz idi. Onlar, münaqişənin böyüməsinin qarşısını alaraq, dayandlrmağa çalışacaqlarına razılaşdılar.

BMT Təhlükəsizlik Şurasının 338 saylı qətnaməsinin razılaşdırılmış mətni, İsrail və ərəb ölkələrinə dərhal atəşi dayandırmağı və danışıqlara başlamağı tövsiyə etmişdi. Amerika tərəfi, Moskvanın İsraili Sinayda mühasirəyə alınmış Misir ordusunu məhv etmək cəhdlərindən əl çəkməyə inandırmaq istəyinə anlaqlı yanaşdı.

22 oktyabr 1973-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən 338 saylı qətnamə qəbul edildi. Lakin müharibə davam edirdi. Misirin 3-cü ordusu üçün təhlükə qalırdı.

Ümidsiz vəziyyətdə olan Ə.Sadat, Sovet İttifaqının İsrailə təsir göstərə bilməyəcəyinə əmin olaraq birbaşa ABŞ-a müraciət etdi. ABŞ İsrail hökumətinə həddindən artıq təzyiq göstərərək, hərbi əməliyyatlara son qoymağı tələb etdi. Çətinliklə, Q.Meirin mühasirəyə alınmış Misir qrupu üzərinə hücumunu zəiflətmək barədə gizli vədinə nail oldular. Bundan sonra R.Nikson, ABŞ-ın Sinayda Misir ordusunun İsrailin məhv etməsinə icazə verməyəcəyini, gizli şəkildə Ə.Sadata bildirdi. Lakin, müharibə yenə davam edirdi. 24 oktyabrda israillilər 3-cü Misir ordusunun mühasirəsini tamamladılar. Oktyabrın 24-də səhər Təhlükəsizlik Şurasının başqa bir qətnaməsi (339) qəbul edildi. Lakin, İsrail bu qətnaməyə də etinasız yanaşdı.

Onda, Sovet İttifaqı sınanmış bir vasitəyə əl atdı - Hərbi Hava Qüvvələrinin hissələri hazır vəziyyətə gətirildi. Moskvanın razılığı ilə, Ə.Sadat SSRİ və ABŞ-ın hərbi qüvvələrini Yaxın Şərqdə yerləşdirmək təşəbbüsü ilə çıxış etdi. Sovet İttifaqı, bu təkliflə dərhal razılaşaraq, hətta, Vaşinqtonun Ə.Sadatın təklifini dəstəkləməsini mümkün saymadığı təqdirdə də, Misir təklifini birtərəfli şəkildə də qəbul etməyə hazır olduğunu vurğuladı.

Moskvanın hərəkətlərinə cavab olaraq, ABŞ-ın silahlı qüvvələri hazır vəziyyətə gətirildi. Lakin, İsrailə görə, SSRİ ilə münaqişəyə girmək Amerikanın planlarına daxil deyildi. Vaşinqton ultimativ formada İsrail hökumətindən dərhal atəşi kəsməyi tələb etdi. Amerika xüsusi xidmət orqanlarının ABŞ Prezidentinə verdiyi məlumata görə, Sovet gəmisində Misir limanlarından birinə "naməlum radioaktiv yük" çatdırıldığını bildirdikdə, Amerika diplomatlarının təzyiqi daha da artdı. Amerika

tərəfi, İsrailə hərbi yardımın tamamilə dayandırılması ilə, hədələməyə başladı. 25 oktyabr 1973-cü ildə, hərbi əməliyyatlar dayandırıldı. Təhlükəsizlik Şurası atəşkəs xətti boyunca yeddi minlik beynəlxalq sülhməramlı hərbi qüvvələrinin yerləşdirilməsi barədə qərar verdi.

1973-cü ilin noyabrında, ABŞ Dövlət katibi H.Kissincer vasitəçi missiya ilə Yaxın Şərqə gəldi. İsrail və ərəb ölkələrinin paytaxtları arasında dəfələrlə təkrarlanan " məkik (ip sarınmış alət) səfərləri" zamanı, o, müharibə edən dövlətlərin hökumətlərini regional gərginliyi azaltmaq üçün tədbirlər görmələrinə nail oldu. "Məkik diplomatiyası" və Q.Kissincerin ərəb-İsrail barışığındakı sülhməramlı vasitəçi səylərinə görə, ona 1973-cü ilin Nobel Sülh mükafatı təqdim edildi.

**Qeyd: Məkik diplomatiyası və ya incə toxuma diplomatiyası — iki ixtilaflı tərəf arasında həllə nail olmaq üçün vasitəçi rolunda olan üçüncü tərəfin klassik diplomatiya qaydalarına əməl etmədən həyata keçirdiyi və hər iki tərəfdə də ardıcıl danışıqlarla nəticəyə çatmağa çalışdığı diplomatiya növüdür.**

Noyabrın 11-də Misir və İsrail ordularının nümayəndələri atəşkəs və hərbi əsirlərin mübadiləsi haqqında hərbi-texniki sənəd imzaladılar. Üçüncü Misir ordusu ümumi məğlubiyyətdən xilas oldu.

21 dekabrda, ABŞ və SSRİ-nin həmsədrliyi ilə Yaxın Şərqdə Cenevrə sülh konfransı açıldı. İlk dəfə olaraq İsrail, Misir və İordaniya nümayəndələri danışıqlar masasına oturdular. İsrail üçün bu, ərəb dövlətləri tərəfindən faktiki olaraq tanınması istiqamətində müəyyən bir addım idi. Düzdür, Cenevrədə əsaslı bir məsələ haqqında razılığa gələ bilmədilər. Tərəflərin mövqeləri heç cür uzlaşmırdı və tezliklə konfrans dayandırıldı.

Təmasların və danışıqların yeganə müsbət nəticəsi, Misir və İsrail ordularının Baş qərargah rəisləri arasında, H.Kissincerin səyləri sayəsində imzalanan 18 yanvar 1974-cü il tarixli müqaviləsi oldu. Qahirəyə aparan magistral yolda imzalandığı üçün, "101-ci kilometr sazişi" adlandırıldı. Razılaşma, İsrail qüvvələrinin Süveyş kanalının şərq sahilinə, Misir qüvvələrinin isə qərb sahilinə çəkilməsini nəzərdə tuturdu. Bundan əlavə, tərəflər su yolu boyunca gəmi hərəkətinin bərpasına lazımi şərait yaratmaq üçün, qoşunlarını kanaldan 20 km uzaqlaşdırmaq öhdəliyi götürürdülər.

1973-cü il müharibəsinin nəticələri birmənalı deyildi. İsrail işğal etdiyi bütün əraziləri özündə saxladı: Sinay yarımadası, Qəzza zolağı, İordan çayının Qərb sahili, Qolan təpələri və ilhaq etdiyi Qüdsü. Tutulmuş ərazilər məsələsi və fələstinlilərin problemləri həll edilmədi. İsrail yenə hərbi qələbə qazandı, ancaq bu Pirr qələbəsi idi. Onun ordusu öz üstünlüyünü bir daha sübut etdi, ancaq Ərəb Dövlətlərinin silahlı qüvvələri güclərinin artdığını nümayiş etdirdilər. İsrail

liderləri arasında, Yaxın Şərq münaqişəsinin siyasi həllini tapmaq lazım olduğuna dair inanc meydana gəlməyə başladı.

## 5.3. İlk "neft şoku"

1973-cü il ərəb-İsrail müharibəsi bütün beynəlxalq münasibətlər sisteminə təsir edən maliyyə və iqtisadi tədbirlər ilə müşayiət olundu.

1973-cü il oktyabr müharibəsinin ortalarında, birbaşa onunla əlaqədar olan qlobal əhəmiyyət kəsb edən hadisə baş verdi. 16-17 oktyabr tarixlərində, Yaxın Şərqdə gedən müharibə ilə əlaqədar ərəb neft ixracatçılarının iclası, hasilatı ayda 5% azaltmaqla, neftin qiymətini 70% artırmaq qərarına gəldi. Sonrakı iki ayda neftin qiyməti 4 dəfə artdı.

17 oktyabr 1973-cü ildə Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv olan və eyni zamanda xüsusi qrupa - Neft İxrac edən Ərəb Ölkələri Təşkilatına (OAPEC) daxil olan, neft ixrac edən ərəb ölkələri neft çıxarılmasını azaltmaq və sonradan, İsrailə siyasi, iqtisadi və ya hərbi dəstək verən ölkələrə neft təchizini dayandırılması qərarına gəldilər. OAPEC-ə on ərəb ölkəsi daxil idi: Əbu-Dabi, Əlcəzair, Bəhreyn, Misir, İraq, Qətər, Küveyt, Liviya, Səudiyyə Ərəbistanı, Suriya.

ABŞ, Hollandiya, Qərbi Avropa dövlətləri, Yaponiya və bir sıra digər ölkələrin də daxil olduğu "dost olmayan ölkələrin" siyahısı dərc edildi. Ərəb neft ixracatçıları ABŞ-a, Portuqaliyaya və Hollandiyaya İsraili dəstəklədikləri üçün, habelə irqçi hökumətləri olan, Rodeziya və Cənubi Afrikanın neft tədarükünə embarqo tətbiq etdilər.

Ərəb dövlətləri "dost olmayan ölkələrdən" Yaxın Şərqdəki hadisələrlə bağlı siyasətlərini dəyişdirmələrini və ən azından "ərəb xalqlarının işi" üçün siyasi dəstək ifadə etmələrini tələb etdilər. Bu, "neft silahı" nın siyasi məqsədlər üçün istifadəsinə dair ilk hadisə idi.

Ərəb ölkələrinin neft idxalına tətbiq etdiyi embarqo təhlükəsinin qarşısını almaq üçün, Fransa, Almaniya, Yaponiya, demək olar ki, dərhal BMT-nin Yaxın Şərq münaqişəsinə dair qərarlarını və 1967-ci ildə İsrail tərəfindən işğal edilmiş ərazilərdə ərəb xalqlarının ədalətli mübarizəsini dəstəklədiklərini bəyan etdilər. Bu o demək deyildi ki, Amerikanın müttəfiqləri qeyd-şərtsiz ərəb dövlətlərinə tərəf keçdilər. Lakin bu, onlara siyasi dəstək ifadəsi vermək və İsraili dolayısı qınamaq demək idi. “Neft silahı” effektli olduğunu sübut etdi.

Ancaq bu əsas məsələ deyildi. Ərəb neft ixracatçılarının hərəkətləri ümumdünya iqtisadi böhrana səbəb oldu. Qərbin sənaye ölkələrini bürüyən neft qıtlığı qorxusu, tədarükün dayandırılması təhlükəsi, əslində yalnız həcm artımının

dayandırılması ilə nəticələnmiş digər amillərlə birlikdə, bir neçə ay davam edən, dünyanın aparıcı sənaye ölkələrinin iqtisadiyyatlarının durğunluğuna səbəb oldu.

Neftin qiyməti kəskin şəkildə yüksəldi. 1972-cü ildə bir barrel üçün 2-3 dollardan, 13-14 və 1974-cü ildə daha yüksək oldu. Ucuz neft dövrü başa çatdı. 1950-60-cı illərdə sabit neft təchizatı Avropa və Şimali Amerika ölkələri, eləcə də Yaponiya sənayesinin inkişafına güclü təkan vermişdi.

İlk "neft şoku" müharibədən sonrakı ilk onilliklərdə Qərb dünyasına çiçəklənməni təmin edən, köhnə enerji tutumu və vəsait mənbəyi tələb edən sənaye istehsalının dağılmasına təkan verdi. Qeyri-sabit neft tədarükü təhlükəsi ilə üzləşən Qərb iqtisadiyyatın əsas struktur islahatlarına, enerji istehlakını və neft idxalından asılılığı azaldan, qabaqcıl texnologiyanın yaradılmasına vəsaitlərin qoyulmasına başlamağa məcbur oldular.

Qərbi Avropa enerjiyə qənaət edən texnologiyalara və alternativ enerji mənbələrinə keçməyə başladı. Bundan əlavə, neft və qaz yataqlarının intensiv axtarışı, Böyük Britaniya və Norveç tərəfindən dəniz şelfində hasilatın başlamasına səbəb oldu.

Ərəb neft ixracatçılarına gəldikdə, bundan sonra onlar həm iqtisadi, həm də siyasi mübarizələrdə neftdən silah kimi istifadə etməyə başladılar.

Bununla belə, 1973-cü ildə də, Orta Şərq münaqişəsinin bütün əsas problemləri həll olunmamış qaldı.

* * *

1960-cı illərin sonu - 70-ci illərin əvvəlləri, ümumiyyətlə qlobal səviyyədə və dünya siyasətinin Avropa istiqamətində beynəlxalq gərginliyin zəifləməsi ilə xarakterizə olunur. Əslində, XX əsrin beynəlxalq münasibətlərində ilk dəfə. status-kvo prinsipi Şərqlə Qərb arasında ideoloji fikir ayrılıqlarına baxmayaraq, hərtərəfli tanınmışdır. Mövcud vəziyyətin tanınması əsasında, SSRİ-nin Qərbi Avropa ölkələri və ABŞ ilə yaxınlaşması baş verdi, nəticədə qlobal münaqişə təhlükəsi azaldı və mübahisəli məsələlərin dialoq və dinc əməkdaşlıq yolu ilə həllinə dönüş yarandı. Bu yeni təmayül beynəlxalq gərginliyin yumşalması, ya da sadəcə mülayimləşmə (detente) adlandırıldı.

Mülayimləşmə beynəlxalq təcrübədən müharibə, qarşıdurmalar, ziddiyyətlər və böhranları istisna etməsə də, müharibə ərəfəsində tarazlıq siyasəti, qarşıdurmaların ikitərəfli artması və nüvə silahının istifadəsinin qarşılıqlı təhdidləri ondan uzaqlaşdırıldı. Daha xarakterik olanlar "qanun-qaydalara uyğun qarşıdurma", əsl nüvə münaqişəsinin başlanması ilə təhdid etməyən, "yumşaq" formalı qarşıdurmalar idi. Bəzi kəskin fikir ayrılığına baxmayaraq, Karib böhranından sonra, 11 il ərzində SSRİ ilə ABŞ arasında təhlükəli qarşıdurma hadisəsi baş vermədi. Dünyada "qarşıdurma sabitliyinin" özünəməxsus bir forması - "nizamlanmış qarşıdurma" və əməkdaşlıq xüsusiyyətlərini özündə cəmləyən sabitlik möhkəmlənmişdi.

## BEŞİNCİ FƏSİL

## BEYNƏLXALQ GƏRGİNLİYN ZƏİFLƏDİLMƏSİ PROSESİNDƏ ZİDDİYYƏTLƏR (1974-1979-cu illər)

### I BÖLMƏ
### Yumşalma siyasətinin ziddiyyətləri və onun böhranı

**1.Beynəlxalq münasibətlərdə iqtisadiyyatın nizamlanma cəhdləri**

1.1.1970-ci illərin iqtisadi tənəzzülü və beynəlxalq münasibətlər

1.2. "Enerji böhranı" şəraitində sənaye dövlətlərinin xarici siyasətinin əlaqələndirilməsi

1.3. BMT Baş Assambleyası tərəfindən "Yeni Beynəlxalq İqtisadi Nizam" ideyasının irəli sürülməsi (may 1974)

**2.Dünya siyasətində insan hüquqları məsələsi. "Avrokommunizm"**

2.1. Sovet-Amerika münasibətlərində "fasilə"nin yaranması və insan hüquqları məsələsində artan ixtilaflar

2.2. Beynəlxalq münasibətlərdə insan hüquqları məsələsi

2.3. "Avrokommunizmin" formalaşması və beynəlxalq siyasi rolu

**3.Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin beynəlxalq əhəmiyyətli hüquqi- siyasi aktları**

3.1. Helsinki Aktının imzalanması

3.2. ATƏM-in Belqrad görüşü və "sosialist ölkələrində" yeni konstitusiyaların qəbulu

**4.1970-ci illərin ikinci yarısında strateji silahların məhdudlaşdırılması prosesində ziddiyyətlər**

4.1. Sovet-Amerika geosiyasi ziddiyyətlərinin kəskinləşməsi

4.2.SSRİ və ABŞ-ın strateji silahların məhdudlaşdırılması ("SSM-2") haqqında danışıqları

4.3. NATO-nun "avroraket" və "ikili qərar" problemi

**5.İspaniya və Latın Amerikası ölkələri beynəlxalq münasibətlərdə**

5.1. İspaniyada demokratiyanın zəfəri və beynəlxalq münasibətlər

5.2. Latın Amerikasında beynəlxalq siyasi vəziyyət

## 1.Beynəlxalq münasibətlərdə iqtisadiyyatın nizamlanma cəhdləri

### 1.1.1970-ci illərin iqtisadi tənəzzülü və beynəlxalq münasibətlər

İlk "neft şoku" ilə XX əsrin ikinci yarısında dünyanın ən dərin iqtisadi tənəzzülü başladı. Bu böhran, 1929-1933-cü illərdə baş verən "böyük durğunluq" ilə müqayisə edilmirdi. Lakin, dünyada iqtisadi vəziyyətin ciddi şəkildə pisləşməsi prosesi gedirdi. İnkişaf etmiş ölkələrin bir qismində istehsalın azalması və digərlərində artımın kəskin yavaşıması (bəzən sıfıra qədər) baş verirdi. Qlobal tənəzzül, 1974 və 1975-ci illərdə də davam etdi. Daha sonra, 1980-1982-ci illərdə ikinci "neft şoku" ilə əlaqədar olaraq, daha kiçik miqyasda yenidən təkrarlandı.

70-ci illərin depressiyası enerji böhranı fonunda davam edirdi. O, özünü faktiki neft çatışmazlığı ilə deyil, neftin qiymətinin kəskin bahalaşması ilə göstərirdi ki, bu da enerji tələb edən istehsalı səmərəsiz edirdi. Enerji ehtiyatı olmayan dövlətlərdə, bu cür sahələri inkişaf etdirmək, sərfəli deyildi. Onları bağlamaq və ya başqa ölkələrə vermək məcburiyyətində qalırdılar. İnkişaf etmiş ölkələrin iqtisadiyyatlarını, yalnız məcburi struktur islahatları ilə deyil, ümumilikdə dünya istehsalının yenidən istiqamətləndirilməsinə-- enerji və maddi tələbatı olan istehsal sahələrini inkişaf etməkdə olan dünyaya köçürülməsinə ehtiyac duyulurdu. Bu ölkələr, inkişaf etmiş ölkələrin köməyi ilə sənayeləşməni həyata keçirmək şansı əldə edərək, əlavə vəsait və enerji tələb edən istehsal sahələrini daha az inkişaf etmiş ölkələrə "atılması"nda maraqlı idilər. Aparıcı ölkələrin razılaşdırılmış səyləri ilə həyata keçirilən dünya iqtisadiyyatının islahatı, əslində 70-ci illərin ikinci yarısında və 80-ci illərin əvvəllərində beynəlxalq siyasətin həlledici vəzifəsinə çevrilmiş oldu.

Siyasi yumşalma davam etsə də, artıq siyasətçilərin düşüncələrini daha çox iqtisadiyyat məşğul edirdi. Belə bir şəraitdə, SSRİ və ABŞ-ın razılaşdırdığı "qaydalara uyğun" güclü, hərbi-siyasi qarşıdurma, dinc iqtisadi və hərbi-texniki qarşıdurmaya çevrilməyə başladı. Belə çevrilmə prosesi təxminən yeddi-səkkiz il davam etdi və Qərbin 1980-1982-ci illərin, dövrü tənəzzülündən çıxdığı vaxt tamamlandı.

Bu keçidin mənası dərhal aydın olmadı. Sovet- Amerika rəqabətinin yeni bir istiqamətə keçməsini ilk anlayan analitiklər və kəşfiyyat qurumları öz nəticələrini ictimaiyyətə çatdırmağa tələsmirdilər. Baş verənlərdən xəbərdar olan siyasətçilər isə, Sovet İttifaqını, Qərbdən yeni təhdidin haradan gözləməli olduğunu, əvvəlcədən xəbərdarlıq etməmək üçün, məlumatlı olduqlarını göstərməməyi üstün tuturdular.

70-ci illərin ortalarında baş verən bu dərin və ona görə də görünməyən dəyişikliklər daha nəzərə çarpan hadisələrin kölgəsində qaldı. Avropada Helsinki

görüşünü başa çatdırmaq, SSRİ-də insan haqları pozuntularını araşdırmaq və Sovet-Amerika silah nəzarətinə dair dialoqu davam etdirmək məsələləri gündəmdə dururdu. Dünya periferiyasında çətin həll olunan münaqişələr yaranırdı. Beynəlxalq münasibətlərdə, SSRİ ilə ABŞ arasında yeni bir rəqabətin başlanmasının ilkin şərtlərinin yetişməsinə baxmayaraq, bütün baş verən hadisələr, zahirən, yumşalmanın "zəfər yürüşü" kimi qəbul olunurdu.

## 1.2."Enerji böhranı" şəraitində sənaye dövlətlərinin xarici siyasətinin əlaqələndirilməsi

13 fevral 1974-cü ildə, Vaşinqtonda əsas neft istehlak edən ölkələrin - ABŞ, Yaponiya, Kanada, Norveç və Avropa Birliyinin doqquz ölkəsinin (üç yeni üzvü də daxil olmaqla) konfransı keçirildi. Onun vəzifəsi, yanacaq ehtiyatları toplamaq, qarşılıqlı enerji tədarükü yaratmaq və alternativ enerji mənbələri və enerji qənaət texnologiyalarını birgə inkişaf etdirməklə, ərəb neft tədarükündən asılılığı azaltmaq üçün, təxirəsalınmaz tədbirləri müəyyənləşdirmək və əlaqələndirmək idi.

Neft qiymətlərinin artması və beynəlxalq maliyyə axınının istiqamətlərinin dəyişməsi nəticəsində, həddən artıq yüklənməyə başlayan, beynəlxalq maliyyə sisteminin sabitliyinə də diqqət verildi. ABŞ, neft idxalına çəkilən xərclərin artması ilə əlaqədar olaraq, neft istehlak edən ölkələrin dövlət büdcələrində kəsirlərin maliyyələşdirilməsinə imkan verən, sənaye ölkələrinin ortaq bir sabitləşdirmə fondunun yaradılmasına israr etdi. Bu hədəflərə çatmaq üçün yeni bir təşkilatın - Beynəlxalq Enerji Agentliyinin yaradılması təklif edildi.

Bəzi Qərb ölkələri, Yaxın Şərqdə olan vəziyyətlə əlaqədar, müstəqillik nümayiş etdirməyə meylli idilər. Fransa və Yaponiya, ərəb ölkələrinin İsrailin fəthlərini aradan qaldırmaq uğrunda apardıqları mübarizəyə bitərəf olduqlarını bəyan etdilər. 4 mart 1974-cü ildə, Avropa Birliyi ölkələri, ərəb ölkələrinin fikirlərini nəzərə alaraq, Yaxın Şərq münaqişəsi ilə bağlı mövqelərini müstəqil şəkildə hazırlamaq haqqında qərar verdilər. Eyni zamanda, Böyük Britaniya və Fransa yeni satıcılar tapmağa çalışaraq (İran və ya İndoneziya kimi), neft tədarükünün riskini azaltmaq üçün əlavə mənbələr axtarmağa (diversifikasiya) böyük diqqət vermişdilər.

Qərbi Avropa ölkələrinin, ilk növbədə Fransanın və eyni zamanda Yaponiyanın, ərəb ölkələrinə göstərdiyi dostluq münasibətləri Vaşinqtonu qıcıqlandırırdı. Lakin ABŞ, ərəb embarqosu qarşısında Paris və Tokionun zəifliyini dərk edərək, Neft İxrac edən Ərəb Ölkələri Təşkilatının (NİEƏÖT- OAPEC) dövlətləri ilə münasibətləri yaxşılaşdırmaq cəhdlərinə qarşı çıxmadı. Neft tədarükündə olan çətinliklər Amerika müttəfiqlərinin düşərgəsində yaranan fikir ayrılıqlarını gücləndirirdi.

Lakin, neft embarqosunun əhəmiyyəti şişirdilməməlidir. Ərəb ixracatçıları, nefti birbaşa istehlakçılara satmasalar da, yeddi iri neft şirkətindən ("yeddi bacı" -beşi Amerikanın idi) ibarət beynəlxalq kartelin vasitəçiliyindən istifadə edirdilər. OAPEC dövlətləri, fəaliyyətlərində "bacılar"ın qadağaya nə qədər ciddi şəkildə riayət etdiyinə nəzarət edə bilmirdilər. Transmilli korporasiyalar (TMK) tankerlərinin ərəb ölkələrinin limanlarını tərk etmələri ilə, dərhal neft təchizatı istiqamətini dəyişdirirdilər. Bundan əlavə, ixracın azalmasından ərəblərin özləri də zərərə düşürdülər. Bu və digər səbəblərə görə, 1974-cü ilin martında ABŞ-a qarşı neft embarqosu aradan qaldırıldı. Qərbi Avropa ölkələrinə və Yaponiyaya qarşı qadağa isə daha əvvəldən dayandırılmışdı.

1974-cü ilin sonunda, Vaşinqtonda fevral konfransının qərarlarına uyğun olaraq Beynəlxalq Enerji Agentliyi (BEA )yaradıldı. Buraya 13 ölkə - ABŞ, Kanada, Yaponiya və Avropa Birliyinin əksər ölkələri daxil idi. BEA ölkələri səylərini, ilk növbədə neftin qiymətinin sabitləşdirilməsi məsələlərində əlaqələndirməyə çalışırdılar. Təhlükəli vəziyyətlərdə, 90 günlük neft ehtiyatına malik olmalı idilər. Onlar, bu ehtiyatdan istifadə edərək, neftə tələbatı məhdudlaşdıraraq, onun qiymətinin çox sürətlə artmasının qarşısını almağa çalışacaq idilər. Agentliyə daxil edilmiş dörd ölkə - Kanada, İngiltərə, Norveç və Danimarka sonradan neft ixracatçıları oldular. Qiymət siyasəti məsələlərində BEA, həqiqətən də neft ixrac edən dövlətləri qıcıqlandıran OPEC-ə qarşı əks ağırlıq rolunu oynadı. Buna görə ərəb ölkələrinin əks addımlarından ehtiyat edən Fransa, müəyyən istiqamətlərdə onunla əməkdaşlıq etsə də, 2002-ci ilə qədər rəsmi olaraq BEA-ya qoşulmamışdı.

70-ci illərin ortalarında artan iqtisadi çətinliklər, aparıcı Qərb ölkələri arasında daha geniş koordinasiyaya təkan verdi. 1975-ci ilin iyun ayında, ilk dəfə Parisin şəhər kənarı Rambuye ərazisində, Qərb dünyasının altı böyük iqtisadi dövlətinin - ABŞ, Yaponiya, Almaniya, Fransa, Böyük Britaniya və İtaliya liderlərinin ilk görüşü keçirildi. Sonradan, Kanada da onlara qoşuldu. Görüşün məqsədi, Qərb ölkələrinin, ilk növbədə iqtisadi cəhətdən üzləşdikləri çətinliklərin öhdəsindən gələrək, səylərini əlaqələndirmək üçün mexanizm və əsas istiqamətlər hazırlamaq idi.

Görüşün səbəbi neft tədarükünü sabitləşdirmək problemi olsa da, qısa müddətdə müzakirə makroiqtisadi koordinasiya məsələlərinə keçdi. Görüşün uğurunu nəzərə alaraq onun iştirakçıları bir ildən sonra yenidən görüşməyə qərar verdilər. 1977-ci ildən etibarən, qabaqcıl sənaye ölkələrinin (Kanadanın iştirakı ilə) toplantısının, hər il keçirilməsi qərara alındı. Zamanla, dünya sisteminin tənzimlənməsinin ən vacib üsul- idarəsinə çevrilən "yeddilər qrupu" (G7 “Böyük yeddilik”) meydana gəldi.

**1.3. BMT Baş Assambleyası tərəfindən "Yeni Beynəlxalq İqtisadi Nizam" ideyasının irəli sürülməsi (may 1974)**

Avropada çoxtərəfli siyasi danışıqlar prosesinin inkişafı qlobal iqtisadi məsələlər üzrə, qlobal siyasi dialoq şəbəkəsinin genişlənməsinə marağı stimullaşdırdı. Bu cür danışıqlar sistemi çoxdan mövcud idi. Tariflər və ticarət haqqında ümumi razılaşma (TTÜR- ГАТТ) çərçivəsində 60-cı illərin əvvəllərindən başlayaraq, beynəlxalq ticarətin liberallaşdırılması ilə bağlı, davamlı müzakirələr aparılırdı. Ancaq bunlar adi ticarət və iqtisadi danışıqlar idi, burada bütün ölkələr ən yaxşı şəkildə öz maraqlarını rəsmi şəkildə bərabər hüquq və siyasi zəmində müdafiə edirdilər.

70-ci illərdə yaranan vəziyyətin yeniliyi, beynəlxalq iqtisadi münasibətlər sahəsində müzakirələrin siyasiləşdirilməsi idi. İqtisadi cəhətdən zəif olan gənc dövlətlər, dünya iqtisadi münasibətləri sistemində aktiv imtiyazlar tələb etməyə başladılar. Onlar, siyasi amillərdən istifadə edərək, gənc dövlətlərin geridə qalmasının məsuliyyətinin Avropa və Şimali Amerika ölkələrinə aid olmasını iddia edirdilər. 1964-cü ildə yaradılan Birləşmiş Millətlər Təşkilatının, Ticarət və İnkişaf Konfransı (BMTTİK- UNCTAD) ilk "neft şokundan" sonra "yenidən doğuldu".

Ümumiyyətlə, beynəlxalq iqtisadi əlaqələrin köklü şəkildə dəyişdirilməsi ideyası, 1962-ci ilin əvvəlində Qahirədə, qoşulmayan ölkələrin konfransında irəli sürülmüşdü. Sonra bu ideya, dəfələrlə UNCTAD forumlarında səsləndi, lakin inkişaf etmiş ölkələr bu məsələni ciddi müzakirə etmək fikrində deyildilər. Beynəlxalq iqtisadi əlaqələrin yenidən qurulması ideyasının cəmlənnmış şərhi, 1973-cü ilin sentyabrında, Əlcəzairdə Qoşulmama Hərəkatının IV konfransında təqdim edildi. Elə onda, ilk dəfə "Yeni Beynəlxalq İqtisadi Nizam" (YBİN-NMEP) yaratmaq barədə fikir səsləndi. Bu fikir, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında daha demokratik münasibətlərin sistemi kimi, sonuncunun inkişafını sürətləndirməyə kömək etməli idi.

70-80-ci illərin əvvəllərində, Yeni Beynəlxalq İqtisadi Nizamın (NMEP) planlarının həyata keçirilməsi uğrunda mübarizə, inkişaf etməkdə olan ölkələrin beynəlxalq siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Onun geniş yayılmasına "neft şokları" səbəb oldu. Neft bazarındakı qeyri-sabitlik, inkişaf etməkdə olan ölkələrlə fikir ayrılıqlarının əhatəsini genişləndirməklə, sənaye ölkələrini qorxutdu və onları, bu tələblərə daha diqqətlə qulaq asmağa məcbur etdi. Eyni zamanda, gənc dövlətlər arasında əsassız fikirlər yarandı ki, guya, neft ixrac edən dövlətlərin dəstəyi ilə, sənaye ölkələri beynəlxalq iqtisadi münasibətləri gənc dövlətlərin xeyrinə yenidən qurmağa məcbur olacaqlar.

1974-cü ilin may ayında, BMT Baş Assambleyasının altıncı Xüsusi Sessiyası Yeni Beynəlxalq İqtisadi Nizamının yaradılması haqqında Bəyannaməni təsdiqlədi

və həmin ilin dekabrında, BMT Baş Assambleyasının yeddinci sessiyası dövlətlərin iqtisadi hüquqları və vəzifələri Xartiyasını qəbul etdi. Hər iki sənəddə, dünya iqtisadiyyatının gənc dövlətlər üçün əlverişli şərtlərlə yenidən qurulmasını təmin edə biləcək bir sıra müddəalar var idi. Qoşulmayan ölkələr, dünya iqtisadiyyatda olan mövqelərini yaxşılaşdırmaq üçün qlobal gərginliyin azaldılmasından faydalanmağa çalışırdılar. Eyni zamanda, artıq mülayimləşmə şəraiti getdikcə ləğv olurdu.

## 2.Dünya siyasətində insan hüquqları məsələsi. "Avrokommunizm"

### 2.1. Sovet-Amerika münasibətlərində "fasilə"nin yaranması və insan hüquqları məsələsində artan ixtilaflar

1974-cü ildə ABŞ-da, R. Nikson administrasiyasının hakimiyyətdən sui-istifadə etməsi ilə əlaqədar siyasi qalmaqal ("Uoterqeyt işi") başladı. Prezident, 1972-ci il prezident seçki kampaniyası zamanı, Demokratlar Partiyasının Vaşinqtonda Uoterqeyt otelində olan qərargah- mənzilinə dinləmə cihazlarının quraşdırılması barədə, qanunsuz qərar qəbul etməkdə günahlandırılırdı. Amerika qanunlarına görə bu addım ciddi cinayət sayılırdı. Prezident günahkar olduğunu boynuna aldığı təqdirdə, Konqres konstitusiya əsasında onu vəzifədən uzaqlaşdıra bilərdi (impiçment). Hadisələrin belə gedişinin qaçılmazlığını dərk edən və Konqresin qərarını gözləməyən Prezident R. Nikson, 1974-cü ilin yayında istefa verdi. Onun yerini vitse-prezident Cerald Ford tutdu.

Respublika rəhbərliyi xarici siyasət də daxil olmaqla, apardığı siyasətinin bütün məsələlərində, tənqid obyekti olmuşdu. SSRİ ilə münasibətlərdə yumşalma istiqaməti, ətraflı düşünülməmiş addım adlandırılmağa başlandı. Sovet İttifaqı ilə bağlanmış sazişlər ABŞ üçün faydasız sayıldı. İctimai dəstəyin itirildiyini hiss edən Respublikaçılar, Konqreslə münasibətlərin daha da gərginləşəcəyindən ehtiyat edərək, son dərəcə ehtiyatla hərəkət etməyə başladılar.

Yeni Prezident SSRİ ilə danışıqlar aparmağa çalışdı. 24 noyabr 1974-cü ildə, Vladivostokda L.İ.Brejnevlə görüşü baş tutdu. Görüş başa çatdıqdan sonra, hücum silahlarının məhdudlaşdırılması ilə bağlı gələcək Sovet-Amerika razılaşmasının istiqamətlərini müəyyənləşdirən bəyannamə imzalanmışdı. SSRİ və ABŞ-ın ümumi sayı 2400 vahiddən çox olmayan, yerüstü və dəniz bazalı ballistik raketlərin atəş qurğularının, habelə strateji bombardmançıları qoruyub saxlaya biləcəyi güman edilirdi. Eyni zamanda, fərdi yönəltmə sistemli ayrılan başlıq hissələrinə (ABH) malik olan, yerüstü və dəniz bazalı ballistik raketlərin atəş qurğularına 1320 ədəd məhdudiyyət qoyulmuşdu. Strateji silahların məhdudlaşdırılması (SSM-2) ilə bağlı danışıqların ikinci mərhələsinin 1975-ci ilin sonuna qədər başa çatması və sonrakı

müzakirələrin növbəti mərhələsinə (SSM-3) başlanması lazım idi. 1974-cü il müqaviləsini həyata keçirmək mümkün olmadı. Sovet-Amerika dialoqu dayandırıldı. Münasibətlərin gərginləşməsinə, iqtisadi məsələlərdə Sovet-Amerika razılaşlmalarının baş tutmaması səbəb oldu.

1972-ci ilin oktyabrında, SSRİ ilə ABŞ arasında ticarət və kreditlər haqqında saziş bağlandı. Müqaviləyə görə tərəflər bir-birlərini ən əlverişli şərait ilə təmin etdilər. Eyni zamanda, ABŞ-ın İkinci dünya müharibəsi illərində Sovet İttifaqına verdiyi təchizat - lend-lizə aid, ödəniş hesablarının nizamlanması haqqında, iki ölkə arasında müqavilə imzalanmışdı. 2000-ci ilə qədər SSRİ, ABŞ-a 722 milyon dollar ödəməli idi. 1974-cü ilin payızında bu müqavilələr təsdiq üçün Konqresə təqdim edildi. Onların müzakirəsi zamanı, demokrat senator Henri Cekson Sovet İttifaqından çıxmaq istəyən vətəndaşların ölkədən getmək məsələsində SSRİ-nin məhdudlaşdırıcı addımlarını əks etdirən faktları açıqladı. Xüsusilə Sovet hökumətinin 1972-ci ildə, SSRİ-dən çıxmaq üçün ərizə verən vətəndaşların aldıqları pulsuz ali təhsilə görə ödəniş pulunun məcburi verilməsi haqqında qanunun tətbiq olunduğu diqqətə çatdırıldı. Senatorun çıxışı, Sovet rəhbərliyini insan haqlarını, ilk növbədə ölkələrini sərbəst tərk etmək və geri qayıtmaq hüquqlarını pozmaqda, kəskin ittihamlarına çevrildi.

Cənab Ceksonun çıxışının əsas məqam, 1974-cü il xarici ticarət Qanununa (1974-cü il ticarət Qanunu) düzəlişlər edilməsi təklifi idi. Buna əsasən, ticarətdə, yalnız vətəndaş azadlıqlarına və hüquqlarına, həmçinin mühacirət hüququna riayət etmə meyarlarına cavab verən kommunist ölkələrinə, ən əlverişli şəraitin tətbiq olunmasına icazə verilirdi. Konqresmen Çarlz Venik nümayəndələr palatasında oxşar təkliflə çıxış etdi. Sonradan, bu təkliflər hər iki müəllifin adları ilə, "Cekson-Venik düzəlişləri" adlandırıldı. Əslində, bu düzəliş ümumi xarakter daşıyırdı və ABŞ-ın təkcə SSRİ ilə deyil, Çin və ya digər sosialist ölkələri ilə münasibətlərinə də aid ola bilərdi. Lakin, 1974-cü ilin payızında bu ilk növbədə, məhz 1972-ci il Sovet-Amerika ticarət müqaviləsinin ləğv edilməsinə yönəldilmişdi. Dəyişikliyin qəbulu ilə bağlı mübarizə, Sovet-Amerika münasibətlərinin bütün məcmuunda qalmaqal atmosferi yaratmış oldu.

Bununla əlaqədar, 1974-cü ilə qədər, Moskva mühacirət qaydalarını yavaş da olsa, lakin açıq şəkildə yumşaltdı. Əgər, 1970-ci ildə bir neçə yüz adam SSRİ-dən çıxmasına icazə almışdısa, 1973-cü ildə 35 min şəxsə belə icazə verildi. Sovet rəhbərliyi və L.İ.Brejnev özü ABŞ-la qeyri-rəsmi razılaşmalar əsasında, ölkədən çıxmaq üçün icazə məsələsini tənzimləməyə meylli idilər.

Bu dövrdə, SSRİ-ni tərk edənlərin əksəriyyəti yəhudi millətindən olanlar idi. Sovet İttifaqını tərk etmək istəyənlərin sayının artması ərəb-İsrail müharibələri ilə

əlaqələndirilirdi. 1967 və 1973-cü illərdə yəhudi mühacirəti problemi, Sovet xarici siyasətində daha da kəskinləşmişdi. İsrail hökuməti və dünya sionist təşkilatının rəhbərləri bunun üçün, əhəmiyyətli maliyyə qaynaqları xərcləyərək Sovet İttifaqından olan immiqrantların İsrailə gəlməsini stimullaşdırmağa çalışırdılar. Məlumdur ki, SSRİ-ni rəsmi olaraq İsrailə giriş vizaları ilə, tərk edənlərin yarıdan çoxu əslində ABŞ-a və Qərbi Avropa ölkələrinə gedirdilər. Lakin, mühacirlərin bir hissəsi əslində, İsrailə köçərək, İsrail ordusunun sıralarını artırdılar. Ərəb ölkələri, "Sovet yəhudilərinin" ölkədən çıxanların İsrailin hərbi qüdrətinin güclənməsinə kömək etdiyi barədə Sovet tərəfinə notalar verdilər. Moskva, imkan daxilində, ərəb dövlətlərinin mənafelərinə təsir etməmək şərti ilə, Vaşinqtonun fikirlərini nəzərə almağa çalışırdı.

ABŞ bunu başa düşürdü. Amma demokratlara qalmaqal lazım idi. Senator H.Jekson, SSRİ-dən getmə istəyənlərin sayının, illik 60 minə qədər artırılması tələbini, daim hər yerdə təkrarlayırdı. Amerika yəhudi təşkilatları, yəhudi əhalisinin həm İsrailə, həm də ABŞ-a axınına maraq göstərərək, ona müxtəlif səbəblərə görə dəstək olurdular. Mühacirət icazəsi ilə bağlı yaranan mübahisə ətrafında gedən səs-küylü təbliğat-təşviqat tədbirləri, Moskvaya münasibətdə təhdid halına gəldi: ABŞ senatorları Sovet hökumətinin daxili işi ilə bağlı məsələlərin necə həll olunmasına göstərişlər verirdilər. Qalmaqal zirvə nöqtəsinə 13 dekabr 1974-cü ildə çatdı, həmin gün, Cekson-Venik düzəlişi qəbul edildi. 1975-ci ilin yanvarında SSRİ, 1972-ci ildə bağlanmış, Sovet-Amerika ticarət müqaviləsini ləğv etdi və 1972-1974-cü illərdə lend- liz üzrə həyata keçirdiyi ödənişləri dayandırdı. Qeyd olunmalıdır ki, formal olaraq, bu qanun Sovet vətəndaşlarının mühacirətinə qoyulmuş məhdudiyyətlər səbəbindən tətbiq edilmişdi və digər ölkələrə - Çin, Vyetnam, Albaniyaya münasibətə də aid olunurdu. Yalnız 38 il sonra, 21 noyabr 2012-ci il tarixində, Rusiyaya qarşı tətbiq olunan düzəliş, ondan 6 il əvvəl isə Ukraynaya (2006) qarşı tətbiq olunan düzəliş Konqres tərəfindən rəsmi olaraq ləğv edilmişdi. Hal hazırda, bu düzəliş bir sıra ölkələrə, o cümlədən Azərbaycan, Belarusiya, Qazaxıstan, Tacikistan, Türkmənistan və Özbəkistana tətbiq edilməkdə davam edir.

### 2.2. Beynəlxalq münasibətlərdə insan hüquqları məsələsi

1976-cı ilin noyabrında ABŞ-ın Respublikaçılar partiyası Prezident seçkilərində məğlub oldu. Respublikaçıların məğlubiyyətinin psixoloji cəhəti, R.Niksonun istefasından sonra Prezident olan C.Ford sələfini məhkəmə məsuliyyətindən azad etmək üçün, onu əfv etmək aktının imzalanması ilə müəyyən edilmişdi. Bu, cəmiyyətdə, siyasi etikanın və qanun qarşısında bərabərlik prinsipinin pozulması kimi qəbul edilmişdi.

Yeni Prezident demokratların namizədi C.Karter oldu. O, milli təhlükəsizlik müşaviri vəzifəsinə Z.Bjezinskini təyin etdi. Qatı dindar olan Prezident, bir siyasətçi olaraq, "siyasi əxlaq" məktəbinin təsiri altında formalaşmışdı. O, respublikaçıları Sovet İttifaqı ilə münasibətlərdə göstərdikləri "yumşaqlıq", "əhkamçılıq" və "prinsipsızliyə" görə qınadı. Yeni Prezidentin sələflərinə əsas iddiası- hərbi-siyasi hesablamalara meyl göstərdikləri üçün, əxlaqı unutduqları, silahlara nəzarət müqavilələrini imzalamaq üçün, azadlıq və fərdi hüquqlar kimi dəyərlərə laqeyd olduqları idi.

Əvvəlki rəhbərliyin ədaləti və siyasi rəqabət prinsipini pozaraq, öz seçicilərini məyus etdiklərinə görə, demokratlar hakimiyyətə gələ bildilər. Seçki qabağı tədbirlər zamanı, C.Karter öz rəqiblərinin apardıqları siyasətə qarşı əxlaq, ədalət və qanun prnsiplərini qoyaraq onları ifşa etmişdi. Yeni administrasiyanın rəhbəri üçün, mənəvi komponentlər, onun daxili və beynəlxalq aləmdə həyata keçirmək niyyətində olduğu siyasi proqramın vacib hissəsi idi.

Z.Bjezinskinin, Prezident C.Kartera böyük təsiri var idi. Z.Bjezinski, Polşa mühacirləri ailəsindən olan, rus çarlığına qarşı azadlıq mübarizəsi ruhunda tərbiyə olunan, beynəlxalq reallıqların çoxunu, Polşanı Sovet İttifaqı və sonra isə Rusiyanın təsirindən azad etmək prizmasından görməyə, qərb istiqamətində genişlənməyə doğru meylli olan siyasətçi idi. ABŞ xarici siyasətinin əsas vəzifələrini, SSRİ-nin öz nüfuzunu dünyaya yaymaq cəhdlərinə qarşı durmaqda və "Sovet bloku" daxilində mərkəzdənqaçma meyllərinə kömək etməkdə görürdü. Bu məntiq, Q.Kissincer və R.Nikson tərəfindən müdafiə olunan "qlobal status-kvo" anlayışı ilə çox az əlaqəli idi və C.F.Dallesin—“heç bir təhlükə olmasa da nüvə silahından istifadə etmək” kimi bəlağətli ifadəsini xatırladırdı.

C.Karterin idarəçiliyi dövründə, Sovet -Amerika danışıqları ilə əlaqəli olan insanlar arasında. "əlaqələndirilmə" fikri yayılırdı. Bu ideya, ABŞ-ın və SSRİ arasında hərbi sahədə aparılan razılaşmalarının, insan hüquqların qorunması məsələlərinin müzakirəsi ilə əlaqələndirilməsinin vacibliyi tələb olunurdu. 1977-ci ildə, Sovet İttifaqında "Helsinki qrupları" üzvlərinin həbsinə başlanandan sonra Amerika tərəfi bu məsələdə sərt mövqe tutdu. Eyni zamanda, akademik A.D.Saxarov Prezident C.Kartera, SSRİ-də insan hüquqlarının pozulması faktlarına diqqət yetirməsini xahiş edən məktub da göndərmişdi. Bununla əlaqədar, administrasiyanın əsas xarici siyasət vəzifəsini hərbi-siyasi məsələlərin həllində olduğunu hesab edən, dövlət katibi Sayrus Vens ilə, insan haqları məsələlərinin daha vacib olduğuna inanan Z.Bjezinski arasında münaqişənin baş verməsi gözlənilirdi. Prezident C.Karter iki əsas işçisi arasında tərəddüd etsə də, daha çox ikincini dəstəkləməyə meyl edirdi.

C.Karterin siyasətinə də xas olan, insan hüquqları mövzusunun vurğulanması, yalnız SSRİ-yə deyil, həmçinin Şərqi Avropa ölkələrinə də aid olunurdu. ABŞ rəhbərliyi bütün cəza tədbiri həyata keçirən hökumətlərə, o cümlədən ABŞ-la dost münasibətdə olan dövlətlərə də qarşı mənfi yanaşırdı. Vaşinqton, Cənubi Koreyanın diktator hökumətinə təzyiq edərək, müxalifətə güzəşt etməyə və hakimiyyəti mülki siyasətçilərə verməyə hazırlaşmağa məcbur etdi. Əks təqdirdə, ABŞ Cənubi Koreyanı müdafiə etmək və öz qoşunlarını Koreya yarımadasından çıxarmaq öhdəliyindən imtina edəcəyi ilə hədələdi. 1977-ci ildə bu barədə qərar qəbul edildi, lakin 1979-cu ildə ləğv edildi. Eyni ilə, Birləşmiş Ştatlar Filippin diktatoru Prezident F.Markosa təsir edərək, sərbəst seçkilər keçirməsini və müxalifətə güzəştlər etməsini tələb etdi. Amerika rəhbərliyi, İranda olan monarxiya hakimiyyətinə də tənqidi münasibət bəsləyirdi.

70-ci illərin ikinci yarısında, Birləşmiş Ştatlar insan hüquqlarının müdafiəsi mövzusunu, silahlara nəzarət, enerji təchizatı və gənc azad edilmiş ölkələrin inkişafı ilə, bərabər olan, böyük beynəlxalq problem səviyyəsinə qaldırdı. Bu məsələ, siyasətçi C.Karterin beynəlxalq miqyaslı xidmətidir. Onun siyasətinin "əks tərəfi", Şərqlə Qərb arasındakı münasibətlərin sabitləşməsi sahəsində əldə edilənlərin itirilməsi oldu. Amerikanın insan haqlarına münasibətini sərtləşdirməsi, Moskva ilə Vaşinqton arasındakı fikir ayrılıqlarının hüdudlarını daha da genişləndirmiş oldu. "Mülayimləşmə ruhu" getdikcə yox olmağa başladı.

### 2.3. "Avrokommunizmin" formalaşması və beynəlxalq siyasi rolu

Böyük dövlətlər arasında ixtilaflar artırdı. O, mahiyyətcə geosiyasi olaraq qalmaqal, çox vaxt mənəvi və əxlaqi məsələlərdə ziddiyyətlər forması alırdı. Qərb ölkələri, Sovet liderlərinin xarici ictimaiyyətin gözü qarşısında nüfuzlu görünmək istəyini dərk edərək, bu məsələyə maneə yaratmaq üçün, Moskvaya yeni təzyiq formaları tapdılar. SSRİ-yə Qərbin təbliğat təzyiqi, beynəlxalq kommunist hərəkatının sıralarında ideoloji narazılığın artması ilə daha da gücləndi.

60-cı illərin sonu- 70-ci illərin ortalarından başlayan etiraz hərəkatlarinın dalğası tamamilə sakitləşdi. "Dünya inqilabı" baş tutmadı. Daxili ziddiyyətlərin təzyiqi ilə, kapitalizmin süquta uğraması ilə bağlı hesablamalar özünü doğrultmadı. Solçu qüvvələr təcrübələrini tənqidi şəkildə əxz etməli və öz siyasətlərini yenidən qurmalı idilər.

Qərbi Avropa Kommunist Partiyaları, nəzəri məsələlərdə Sov.İKP-nin üstünlüyünü tanımaq istəmirdilər. Lakin onlar, Sovet kommunistlərinin böyük bir dövlətə rəhbərlik etdiklərinə görə, beynəlxalq hərəkatda, aparıcı təşkilati-siyasi rola iddia irəli sürə bilmələri faktı ilə hesablaşmağa məcbur idilər. Qərb kommunistləri,

Moskvanın onların daxili siyasət xəttinə müdaxilə cəhdlərini rədd edirdilər. 70-ci illərdə onlar öz siyasi proqramlarında, sovet kommunist nəzəriyyəsinin əsas şərtlərindən olan, inqilab yolu ilə hakimiyyətin ələ alınması və proletariatın diktaturasının bütün formalarının vasitəsi ilə hakimiyyətdə qalmaq addımlarından imtina etdilər. Qərbin Kommunist Partiyaları, parlament və ya prezident seçkilərində qələbə qazanmaq yolu ilə, hakimiyyətə gəlmək xəttinə sadiq qalırdılar. Proletariatın diktaturası ideyasına qarşı, demokratiyanın təkmilləşdirilməsi şüarlarını irəli sürürdülər. Bu, Kommunist Partiyalarının radikal addımlardan imtina edərək, "burjua demokratiyası"na münasibətdə "konstruktiv müxalifət" mövqeyinə keçməsi demək idi.

60-70-ci illərdə, Avropa ölkələrinin kommunist hərəkatında yaranmış inqilabi fəaliyyətə qarşı olan mülayim islahatçı cərəyan, "avrokommunizm" adlanırdı. Onun ən böyük dəstələri, İtaliya, Fransa və İspaniyanın çox saylı Avropa Kommunist partiyaları idi. "Avropa kommunistləri" nin bir sıra nəzəri mövqelərini Yaponiya Kommunist Partiyası da dəstəklədi.

"Avrokommunistlər" ilk dəfə 1976-cı ildə, Berlində kommunist və fəhlə partiyalarının beynəlxalq müşavirəsində öz baxışlarını elan etdilər. 1977-ci ildə, İspaniya Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Santyaqo Xose Karrillo "Avrokommunizm və dövlət" adlı nəzəri əsərini yazmış və burada, əsas doktrinaya uyğun, kommunist islahatlarının əsas qayələrini inkişaf etdirmişdir.

Portuqaliya və İspaniyada, diktaturalardan demokratik quruluşa dinc keçidlər və bu ölkələrdə keçirilən seçkilərdə sol qüvvələrin sonrakı uğurları, "avrokommunistləri"in strategiyalarının düzgün olduğunu, SSRİ və Şərqi Avropada sosialist idarə üsullarının səhv olduğuna inam yaradırdı. 1976-cı ildə "avrokommunizm" prinsiplərini rəhbər tutan, İtaliya Kommunist Partiyası parlament seçkilərində 34.4% səs qazandı. Lakin, Xristian Demokratların yığdıqları 38.7% səs onlara qələbə gətirdi. Dinc yollardan istifadə edən, kommunistlər öz ölkələrində hökumətin siyasətinə təsir edə bilirdilər. İtalyanların nümunəsinin ardınca, fransız kommunistləri də sosialistlərlə koalisiya qurmaq üçün siyasi istiqamət götürdülər. 1980-ci ildə, Fransada keçirilən Prezident seçkilərində, Sosialist partiyasının namizədi Fransua Mitteran qalib gəldikdən sonra, Kommunist Partiyası Fransa hökumətində dörd yer aldı. "Avrokommunizm"in artan təsiri, Şərqlə Qərb arasındakı mülayimləşmə şəraitinin yetişdiyini, Avropa ölkələrinin daxili siyasi həyatına yayılması demək idi. Beynəlxalq aləmdə, ictimai-siyasi qütbləşmə öz kəskinliyini itirir və ictimai-siyasi tərəfdaşlığın yeni formaları inkişaf etdirilirdi. Sov.İKP-nin tarixi təcrübəsinin etibarlılığına inam, getdikcə öz mənasını itirərək şübhə altına alınırdı.

## 3.Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin beynəlxalq əhəmiyyətli hüquqi- siyasi aktları

### 3.1.Helsinki aktının imzalanması

Dünyanın ətraflarında yaranan "dağınıq" qeyri-sabitlik mühitində Avropa sülh və sabitlik qitəsi kimi görünürdü. 1975-ci ilin yayında, Ümumavropa Müşavirəsinin ikinci və üçüncü mərhələləri baş tutdu və avqustun 11-də Helsinkidə ATƏM-in zirvə toplantısında ATƏM-in yekun aktı (Helsinki aktı) təntənəli şəkildə imzalandı. Sənədi 35 dövlət, o cümlədən iki Şimali Amerika dövləti - ABŞ və Kanada imzaladı.

Yekun qanun, diplomatların bütün iştirakçı ölkələr üçün məqbul olan münasibətlər prinsiplərini razılaşdırıldığı üç komissiyanın işinin nəticələrinə əsaslanırdı:

Birinci komissiya Avropanın təhlükəsizlik məsələlərinin məcmu problemlərini müzakirə etmişdi;

İkinci komissiya, iqtisadi, elmi-texniki və ekoloji əməkdaşlıq haqqında sənədlər hazırlanmışdı;

Üçüncü komissiya humanitar hüquqların, mədəniyyətin, təhsilin və informasiyanın təmin edilməsi sahəsində əməkdaşlığı nəzərdən keçirmişdi.

Üç komissiya çərçivəsində olan razılaşmalar "üç səbət" adlanırdı.

Birinci istiqamətdə, Yekun aktının ən vacib hissəsi ("birinci səbət") "İştirakçı dövlətlərin qarşılıqlı münasibətlərdə rəhbərlik edəcəyi prinsiplər Bəyannaməsi" bölməsi idi. Bu sənəd bəzi mövqelərində tarixi inkişafı qabaqlayırdı, ona görə də, Yekun aktının müddəaları 90-cı illərin əvvəllərinə qədər aktual olaraq qalmışdı. Bəyannamədə aşağıdakı 10 prinsipin şərh edilmiş siyahısı verilmişdir:

-suveren bərabərlik və suverenliyə xas olan hüquqlara hörmət;

-güc tətbiq edilməsi və ya güc təhdidinin istifadə olunmaması;

- sərhədlərin toxunulmazlığı;

-dövlətlərin ərazi bütövlüyü;

-mübahisələrin sülh yolu ilə həlli;

-bir-birinin daxili işlərinə qarışmamaq;

-insan hüquqlarına və əsas azadlıqlarına, o cümlədən fikir, vicdan, din və etiqad azadlıqlarına hörmət;

-bərabər hüquqlar və xalqların öz taleyini həll etmək etmək hüququ;

- dövlətlər arasında əməkdaşlıq;

-beynəlxalq hüquq öhdəliklərinin vicdanla yerinə yetirilməsi.

Bu siyahıda nə qədər güzəştə gedildiyini görmək üçün bir nəzər yetərlidir. Bu sənəddə, SSRİ və Qərb ölkələrinin açıq ziddiyyətli mövqeləri birləşirdi. Lakin ətraflı izahlar sayəsində Bəyannamə elə bir tamamlanmış sənəd idi ki, öz istiqamətlərində bir birilərindən çox fərqlənən ölkələr onu imzaladılar.

Ən vacib qruplarda iki mübahisəli məsələ var idi:

Birincisi sərhədlərin toxunulmazlığı prinsipi ilə, xalqların öz müqəddəratlarını müstəqil həll etmə hüququ arasında məntiqi fərqlər müəyyən edilmişdi. Sovet İttifaqı, Avropada mövcud olan müharibədən sonrakı sərhədlərin möhkəmləndirilməsini nəzərə alaraq, birinci məsələni israrla müdafiə edirdi. İkinci məsələni Qərb ölkələri müdafiə edirdi. Onlar bu məsələyə, almanların azad iradəsi əsasında, Almaniyanın gələcəkdə birləşməsinin əsas ehtimalı kimi yanaşırdılar. Formal olaraq, məsələnin belə tərtibatı sərhədlərin toxunulmazlığı prinsipinə zidd deyildi, çünki toxunulmazlıq onların güclə dəyişdirməyin yolverilməzliyi kimi başa düşülürdü. Toxunulmazlıq dəyişməzlik mənasında təqdim olunmurdu. 1975-ci ildə təqdim olunmuş əsaslandırmalar sayəsində məlum oldu ki, 1990-cı ildə Almaniyanın birləşmə vaxtı çatdıqda, birləşmə prosesinin siyasi və hüquqi tərəfi Helsinki aktının məntiqinə tam uyğun idi.

İkinci qrup məntiqi fikir ayrılıqları, dövlətlərin ərazi bütövlüyü prinsipinin, xalqların öz talelərini həll etmək hüququ ilə əlaqələndirilməsinə aid idi. Birincisi - separatçı meyillərin olduğu Böyük Britaniya, Yuqoslaviya, SSRİ, İspaniya, İtaliya, Fransa, Kanada da daxil olmaqla, aktı imzalayan hər bir dövlətin ərazi bütövlüyünü möhkəmləndirirdi. Xalqların öz talelərini həll etmək hüququ prinsipi mənaca, demək olar ki, öz müqəddəratını təyinetmə hüququna bərabər ola bilərdi. Çünki, V.Vilson müstəqil milli dövlətlərin yaradılmasının tərəfdarı kimi, bunu belə başa düşürdü. Buna görə 90-cı illərin əvvəllərində, Yuqoslaviyada separatizmin kəskin artması dövründə, Avropa ölkələri buna qarşı çıxmaq öhdəlikləri ilə bağlı olmadıqlarını qəbul etdilər. Yuqoslaviya isə özünün mərkəzləşdirmə siyasətini əsaslandırılmaq üçün, Yekun aktına apelyasiya ilə bağlı müraciət edə bilmədi.

Ümumiyyətlə, Bəyannamə Avropadakı status-kvonun möhkəmlənməsi istiqaməti üçün uğurlu addım idi. Bu, Qərblə Şərq arasındakı münasibətlərin bütün problemlərini həll etmədi, əksinə, Avropada olan münaqişə həddini artırdı. Avropa ölkələrinin mübahisələri həll etmək üçün güc vasitələrinə dönmə ehtimalını azaltdı. Əslində, Helsinkidə hücum etməmək haqqında Ümumavropa bəyannaməsi imzalandı. Dünyanın beş böyük dövlətindən dördü, o cümlədən SSRİ və ABŞ da bu sənədin təminatçıları idi. XX əsrin diplomatiyası indiyə qədər belə mühüm bir uğura nail olmamışdı.

Bəyannaməyə, Yekun aktının “Etimadın möhkəmləndirilməsi tədbirləri və təhlükəsizlik və tərksilahın müəyyən aspektləri haqqında sənəd” adlandırılan bir bölməsi birləşdirilmişdi. Bu sənəddə "etimad yaratmaq tədbirləri" anlayışının məzmunu açıqlanmışdı. Onların ən vacib olanları -- quru qüvvələrinin genişmiqyaslı hərbi təlimləri və ya onların yenidən yerləşdirilməsi barədə qarşılıqlı xəbərdarlıq, bu təlimlərə könüllü və qarşılıqlı əsaslarla göndərilən hərbi müşahidəçilərlə mübadilə məsələləri idi. 1980-ci illərdə, etimad yaratmaq tədbirləri inkişaf edərək, diplomatiyanın müstəqil istiqamətinə çevrildi.

"İkinci səbət"də olan sazişlər iqtisadiyyat, elm və texnologiya və ətraf mühit sahəsində əməkdaşlıq məsələlərini əhatə edirdi. Bu məsələdə tərəflər, ticari-iqtisadi münasibətlərdə ən əlverişli olan şəraitin yaradılmasını təşviq etmək barədə razılığa gəldilər. Lakin, bu SSRİ və digər sosialist ölkələrinin Qərb ölkələri ilə münasibətlərdə avtomatik olaraq, belə bir status əldə etmələri demək deyildi.

Yekun aktında "üçüncü səbət"də olan məsələlərə- vətəndaşların şəxsi hüquqlarının təmin olunması ilə bağlı əməkdaşlığa, xüsusən də humanitar məsələlərə çox diqqət yetirilirdi. Yekun aktında dövlət sərhədləri ilə ayrılmış ailələrin yenidən birləşmək hüququ, xarici vətəndaşlarla evlənmək də daxil olmaqla, azad nikah seçimi, ölkədən sərbəst getmək və geri qayıtmaq, beynəlxalq əlaqələrin inkişafı və qohumlar arası qarşılıqlı səfərlər kimi məsələlərin tənzimlənməsinə yanaşmalarda razılıqların zəruriliyi barədə ətraflı şərh olunmuşdu. Xüsusi olaraq məlumat mübadiləsi, elmi əlaqələr və təhsil, mədəniyyət mübadiləsi və sərbəst radio yayımı sahəsində əlaqələrin qurulması məsələlərində qarşılıqlı fəaliyyət məsələlərinə yer verilmişdir.

Helsinki qanununun son hissələrində tərəflər yumşalma prosesini dərinləşdirmək, onu davamlı və əhatəli etmək niyyətlərini ifadə etdilər. Gələcəkdə bütün Avropa dövlətləri arasında mütəmadi çoxtərəfli görüşlər keçirərək, Ümumavropa prosesini davam etdirmək qərara alındı. Bu müşavirələr əslində ənənə kimi mütəmadi olduğundan, 1990-cı illərdə ATƏM daim fəaliyyət göstərən instituta - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına çevrildi.

SSRİ-də müxalif qüvvələr, 1975-ci ildə "üçüncü səbət" in müddəalarını təbliğ etmək üçün "Helsinki qrupları" yaratdılar. Onların vəzifəsi Yekun aktının müddəalarının pozulmasına dair fakt və materiallar toplamaq və onları ictimailəşdirmək idi. SSRİ-nin xüsusi xidmət orqanları bu qrupların fəaliyyətini sistematik şəkildə sıxışdırırdılar ki, bu da Sovet İttifaqının xaricdə tənqidinə səbəb olurdu. 1975-ci ildə akademik A.D.Saxarov insan hüquqları sahəsində apardığı fəaliyyətinə görə Nobel sülh mükafatına layiq görülmüşdü.

### 3.2. ATƏM-in Belqrad görüşü və "sosialist ölkələrində" yeni konstitusiyaların qəbulu

ATƏM-in Helsinki Yekun aktının müddəalarına uyğun olaraq, Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə müşavirəsini davam etdirilməsi üçün, 1977-ci ildə Belqradda onun növbəti görüşünün təyin edilməsi qərara alındı. Artıq onun hazırlanması zamanı, həm də 4 oktyabr 1977-ci ildən, 9 mart 1978-ci ilədək birbaşa keçirildiyi zaman, Helsinki aktının sazişlərinin şərhi ilə bağlı kəskin mübahisələr yarandı. Görüş bu sənədin müddəalarını həyata keçirmək təcrübəsini təhlil etməli, onları ümumiləşdirməli və əməkdaşlığın inkişafında növbəti addımları müəyyənləşdirməli idi. Mübahisələr qiymətləndirmənin səviyyəsi məsələsinə aid idi. Sovet tərəfi üçün Helsinki razılaşmalarında əsas olanlar, "birinci səbət"ə aid olan sülh və sabitlik idi. Qərb ölkələri üçün isə "üçüncü səbət"ə aid olan - humanitar məsələlər və vətəndaşların şəxsi hüquqları idi.

Buna görə də sovet mütəxəssisləri, gərginliyin azaldılmasının hərbi-siyasi sahədə qazandığı uğurlardan danışmağı üstün tuturdular. Qərb ekspertləri isə sosialist ölkələrində insan hüquqlarının pozulmasından və bütün Avropa ölkələrində insan hüquqlarının təmin edilməsinin zəruriliyindən danışırdılar. Qərb dövlətlərinin təklifləri, Şərqi Avropa ölkələrinin və SSRİ-nin milli qanunlarına düzəlişlərin edilməsini, sosialist ölkələrinin vətəndaşlarına, əməli olaraq öz hüquqlarını həyata keçirmələrini təmin edən qanunların hazırlanması və tətbiq edilməsini əhatə edirdi.

Sosialist ölkələr qanunları dəyişdirmək istəmirdilər və onların tənqidlərinə cavab olaraq, Yekun aktında öz əksini tapan, daxili işlərə qarışmamaq prinsipinə işarə edirdilər. O, birbaşa təsirə malik deyildi və onu imzalayan dövlətlərin hakimiyyət dairələri üçün bu prinsip birbaşa rəhbərlik etmək məqsədi daşımırdı. Sosialist ölkələrin nümayəndələri öz ölkələrinin konstitusiyalarına və Qərb nümayəndələrinin qəbul etdirməyə çalışdıqları normaların tətbiqi üçün hüquqi əsasların olmamasına istinad edirdilər. Buna cavab olaraq, bu konstitusiyaların tənqid edilmələri, mübahisələri daha da kəskinləşdirirdi. Belqrad görüşündə demək olar ki, heç bir siyasi nəticə əldə olunmadı. Tərəflər yalnız bir neçə özəl məsələləri həll edə bildilər və ATƏM-in növbəti mərhələsini, 1980-ci ildə Madriddə keçirilməsi barədə razılığa gəldilər.

Belqrad görüşünün ən əhəmiyyətli nəticələrinin ona birbaşa aidiyyatı yox idi. 1974-1978-ci illərin müzakirələri Sovet rəhbərliyinə, sosialist ölkələrinin konstitusiyalarının Avropa standartlarına, Helsinki sazişlərinə və SSRİ-nin 60-cı illərin sonlarında qoşulduğu beynəlxalq konvensiyalara zidd olduğunu göstərdi. Mühafizəkarlığına baxmayaraq, Moskva, beynəlxalq standartlar kimi rəsmi olaraq tanıdıqları məsələləri ən azı zahiri şəkildə əməl etməyi zəruri hesab edirdi. Sovet

hökuməti, bu mülahizələri nəzərə alaraq Belqrad görüşünün açılışına qədər, 1936-cı il "Stalin" konstitusiyasının əvəzinə, 7 oktyabr 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyasını qəbul etdi.

Bu sənəddə, Sovet vətəndaşlarının əsas hüquqlarına aid müddəalar beynəlxalq sənədlər nəzərə alınmaqla, bir qədər genişləndirilmiş və terminoloji baxımdan dəqiqləşdirilmişdi. Lakin, yeni konstitusiya Sovet sisteminin əsaslarını dəyişdirmədi. Bundan əlavə, əvvəlki konstitusiyadan fərqli olaraq, yenisi Sovet cəmiyyətində Sov.İKP-nin "aparıcı və rəhbər" rolu haqqında müddəanı daxil etmişdi (maddə 6). Siyasi təzyiqi bir qədər azaldılmasına gedən SSRİ-nin yuxarı dairələri, öz hakimiyyətlərini qorumaq üçün, açıq şəkildə narahat olmağa başlamışdı.

Yeni konstitusiyaya, SSRİ-də sovet hakimiyyəti illərində "yeni tarixi bir cəmiyyət - sovet xalqı"nın formalaşması və "ümumxalq dövlət"in yaradılması (maddə 1) maddələri də əlavə edildi. SSRİ-nin ardınca, 70-ci illərin ikinci yarısında bir sıra digər sosialist ölkələrində də, sovet nümunəsində yazılmış yeni konstitusiyalar qəbul edildi. Mülayimləşmənin humanitar aspektlərini tamamilə nəzərə almamaq mümkün deyildi. Obyektiv olaraq, bu məsələ, vətəndaşların öz hüquqlarını qorumaq üçün, qanunların əhatəsini genişləndirdi.

## 4.1970-ci illərin ikinci yarısında strateji silahların məhdudlaşdırılması prosesində ziddiyyətlər

### 4.1. Sovet-Amerika geosiyasi ziddiyyətlərinin kəskinləşməsi

Sovet-Amerika münasibətlərində, on-on iki il, Avropa mövzularının üstünlük təşkil etməsindən sonra,70-ci illərin ikinci yarısında, qeyri-Avropa problemləri, yenə də gündəmdə önəmli yer tutmağa başladı. 70-ci illərin ikinci yarısında, Sovet rəhbərliyinin, dünya sisteminin periferiyasında status-kvonun pozmasının səbəbləri, hələ də, xarici və yerli ədəbiyyatlarda mübahisəli olaraq qalır. Əslində, Moskva, SSRİ-nin mühüm iqtisadi maraqları olmayan və Sovet İttifaqının müdafiəsi üçün, əhəmiyyətli mövqeyə malik olmayan planetin ucqar yerlərində, ABŞ-la rəqabət etməyə ehtiyac duymurdu. Lakin Karib böhranından sonra, üstünlük təşkil edən bu cür ağıllı düşüncə, açıq-aydın, Sov.İKP rəhbərliyinə xas olan yeganə xüsusiyyət deyildi. Sovet İttifaqının, status-kvo məntiqinə şüurlu şəkildə nə qədər riayət etməsindən asılı olmayaraq, SSRİ inkişaf etməkdə olan ölkələrdə baş verən "inqilablar", çevrilişlər və digər daxili fəlakətlərdən istifadə edərək, bu ərazilərdə Sovet təsirini gücləndirmək və SSRİ-nin nüfuzunu artırmaq üçün cəhdlər göstərirdi. Moskva yaranmış imkanlardan istifadə edərək, öz addımlarına bəraət vermək üçün, gənc azad edilmiş dövlətlərlə "inqilabi həmrəylik" fikrinə istinad edərək, kömək etdiyini əsaslandırırdı.

Təsadüfi və ya şüurlu olaraq, SSRİ, ABŞ-ın ən çox marağı olduğu bölgələrdə mövqelərini möhkəmləndirməyə başladı. 70-ci illərin ikinci yarısından sonra, Sovet İttifaqı Qırmızı dənizdə - Somalidə (1975-ci il, Berber limanı), Həbəşistanda (1977, Massaya limanı) və Cənubi Yəməndə (Ədən limanı və Sokotra adası) özünə dayaq nöqtələri əldə etdi. Bu məqamlar SSRİ-yə, ABŞ-ın həyati təminatı üçün vacib olan Yaxın Şərqdən neft nəql etmə yollarında hərbi gücünü yerləşdirmək üçün, zəif də olsa, bir struktur yaratmağa imkan verdi. Bu, SSRİ-nin yeni dəniz strategiyasının təzahürü idi ki, bununla o, ABŞ-ın dəniz gücünə bərabər ola bilən və dünya okeanının hər yerindən ABŞ üçün təhlükə yarada bilən, güclü hərbi- dəniz qüvvələri yaratmağı nəzərdə tuturdu. Belə bir strategiya dünyanın müxtəlif yerlərində hərbi bazalar şəbəkəsinin yaradılmasını tələb edirdi.

Bu addımlar, SSRİ-nin ABŞ üzərində strateji üstünlüyünü yaratmadı. Lakin, SSRİ bu planları ilə, Qərbin həyati maraqları zonası olan ərazilərdə, sovet hərbi qüvvələrinin yerləşdirilməsini həyata keçirirdi. Sovet İttifaqının addımları, ABŞ-ın ərəb ölkələri və 1979-cu ildə Vaşinqtona dost hakimiyyət olan Şah Məhəmməd Rza Pəhləvinin devrilməsindən sonra, İran ilə, münasibətlərin pisləşməsi, eyni bir vaxtda baş verdiyindən Amerika tərəfindən xüsusilə, daha böyük narahatçılıqla qəbul edilirdi. Beləliklə, böyük dövlətlər arasında ixtilaflar böyüməyə başladı.

### 4.2. SSRİ və ABŞ-ın strateji silahların məhdudlaşdırılması ("SSM-2") haqqında danışıqları

70-ci illərin ikinci yarısına qədər hərbi doktrinaların və hərbi-texniki nailiyyətlərin artması, Amerika strateqlərinin əvvəllər işlədilmiş "əks qüvvə" doktrinasına uyğun olaraq, "idarə olunan münaqişələr" və "məhdudlaşdırılmış müharibələr" ideyalarına artan marağını müəyyənləşdirmiş oldu. Əslində, yeni texniki imkanlar, hərbi əməliyyatların idarə olunmasına və düşmən ərazilərində hədəflərin vurulmasının dəqiqliyini artırmağa imkan verirdi. Qarşı tərəfin mülki obyektlərinə deyil, hərbi obyektlərə (atəş edən qurğusuna) və müharibə ilə birbaşa əlaqəli olan, sənaye və infrastruktur obyektlərinə (neft müəssisələri, nəqliyyat yolları, rabitə sistemləri və s.) zərbə vurmaqla bağlı köhnə fikir daha geniş yayıldı. Digər sənaye obyektləri (kömür istehsalı, elektrik stansiyaları və s.), eləcə də şəhərləri dağıtmaq vacib deyildi və bununla müharibəni məhdudlaşdıraraq düşmənə vəziyyəti dərk etməsinə və ilk qarşılıqlı zərbələrdən sonra, barışığa getməsinə şans verilirdi.

Əslində, Sovet hərbi analitikləri və hərbi-siyasi ekspertləri "qarşılıqlı zəmanətli məhvetmə" məntiqi və "əks qüvvə" doktrinasının əsaslandırılmasını qəbul etsələr də, rəsmi olaraq, SSRİ-də hər iki fikir qəbul edilmirdi. Sovet hərbi doktrinası rəsmi

olaraq elan olunmamışdı, ancaq siyasətçilərin və hərbçilərin rəsmi açıqlamalarına görə, Sovet İttifaqının ehtimal olunan nüvə münaqişəsində qələbəyə arxalandığını və onun prinsipcə, mümkün ola biləcəyini hesab etdiyini, güman etmək olar. Moskvanın ikili siyasəti - rəsmi bəyannamələr və ABŞ ilə hərbi-siyasi münasibətlər sahəsində əməli siyasəti arasındakı uyğunsuzluq, xarici mütəxəssislərə SSRİ-nin niyyətlərini fərqli şəkildə şərh etməyə imkan verirdi.

1977-ci ildə ABŞ-a yeni rəhbərlik gəldikdən sonra, məşhur Amerika mütəxəssisi P.Nitse tərəfindən irəli sürülən "Zəiflik pəncərəsi" ideyası geniş yayıldı. Bu ideyaya görə, Sovet İttifaqı hərbi cəhətdən ABŞ-dan üstünlüyü var, ona görə də, dərhal tələb olunurdu, 70-ci illərin sonuna bir neçə il qalana qədər, ABŞ-ın Sovet İttifaqını qorxutmaq qabiliyyətini artırmaq üçün, böyük tədbirlər görülsün.

**Qeyd: Pol Henri Nitse, ABŞ xarici siyasətinin problemləri, silahların azaldılması, strategiya məsələlərinə dair bir sıra əsərlərin müəllifidir.**

P.Nitse, SSRİ-də hərbi sahənin silahlandırılması üçün qəbul edilən SS-19 və SS-18 raketləri ən güclü Amerikanın Qitələr arası ballistik raketi olan (QBR) "Miniment-3" ilə müqayisədə, orbitə çıxara biləcəkləri yükün ağırlığından və məqsədə çatdırmaq baxımından, müvafiq olaraq üç qat və yeddi qat üstünlüyə malik olduğunu qeyd etmişdi. Belə hesab olunurdu ki, Sovet İttifaqı birinci hücuma başlasa və sonra ABŞ-dan cavab zərbəsi alsa da, yenə də Çin və Qərbi Avropa ölkələrinin nüvə zərbələrinə tab gətirmək qabiliyyətini qoruya bilərdi.

P.Nitsenin fikrincə, Birləşmiş Ştatlar mobil QBR sistemlərinin yaradılması yolu ilə Şərqin (Kiarın) ehtimal olunan zərbəsinə qarşı nüvə müdafiəsinin səviyyəsini artırmaq üçün tədbirlər görməlidir. Bununla yanaşı, müdafiə və hücum sistemlərinin yaradılmasının beynəlxalq strateji vəziyyətdə sabitləşməni poza biləcəyi faktı nəzərə alınmırdı. Yeni yaradılan müdafiə sistemləri, ehtimal olunan rəqibin hücum sistemlərinin effektivliyini neytrallaşdırır, bir tərəfin təhlükəsizliyini artırır və digər tərəfin gücünü zəiflədərək hərbi tarazlığı pozurdu.

P.Nitsenin təkliflərinə tənqidi yanaşanlar ona etiraz etdilər. Onların fikrincə, hər bir sovet raketi eyni tipli bir amerikan raketindən daha güclü olmasına baxmayaraq, Amerikanın nüvə qüvvələrinin məcmu tutum qüvvəsi çəki baxımından, Sovet qüvvələrindən üstün olduğu qeyd edilirdi. Sovet İttifaqı, dəqiq tuşlama texnologiyaları və ayrılan başlıq hissələrinin yaradılması, sualtı donanmanın hərbi gücü və gəmi əleyhinə mübarizə vasitələrinin döyüş qabiliyyəti baxımından ABŞ-dan geri qalırdı. ABŞ-da hərbi siyasətlə bağlı mübahisələr qızğın şəkildə davam edirdi. Bu məsələ, qanunvericilərin və icra hakimiyyətinin rəyinə təsir edirdi.

Belə bir mühitdə, ABŞ Konqresinin qəbul etdiyi qətnaməyə görə, ABŞ hökuməti silah nəzarəti ilə bağlı SSRİ ilə müqavilələr bağlayarkən, bütün

məhdudiyyətlərin göstəricilərində say bərabərliyinə nail olmalı idi. ABŞ hərbçiləri, bu qərarın “qarşılıqlı zəmanətli məhvetmə" doktrinası baxımından mənasızlığını başa düşsələr də onu dəstəklədilər. Pentaqonun məntiqi sadə idi: sazişlərin mətnindəki kəmiyyət göstəricilərinin bərabərsizliyi, məlumatlandırılmamış ictimaiyyətdə SSRİ-nin ABŞ-dan üstün olduğu təəssüratını yarada bilərdi ki, bu da, hökumət üçün arzuolunmaz siyasi nəticələrə səbəb olardı.

SSRİ ilə ABŞ arasındakı danışıqlarda çətinliklərə baxmayaraq, razılaşma üçün şərait yaradıldı. 15-18 iyun 1979-cu ildə, Vyanada beş illik fasilədən sonra (1974-cü ildən) Sovet-Amerika Zirvə görüşü keçirildi, orada dövlət başçıları L.I.Brejnev və C.Karter danışıqlar apardılar. Onun gedişində Sovet-Amerika Strateji Silahların Məhdudlaşdırılması müqaviləsi imzalandı ("qısaldılmış "SSM-2 ", bundan sonra 1972-ci ildə imzalanmış "müvəqqəti saziş" ardıcıllığa görə "SSM-1" kimi tanındı). Müqavilə nüvə silahlarının çatdırılması vasitələrində bərabər hədlər müəyyənləşdirmişdi. Hər tərəfin, hər üç növ atıcı qurğusundan (QBR, sualtı qayıqların ballistik raketləri (SQBR) və yer-hava raketləri apara bilən ağır bombardmançılardan) 2,400- dən çox ola bilməzdi. Üstəlik hər bir tərəf, müəyyən edilmiş ümumi cəmi daxilində, hər növ daşıyıcıların məqbul sayını müstəqil müəyyənləşdirmək hüququna malik idi. 1981-ci il yanvarın 1-dək, 2400 ədəd raketin 2250-ə endiriləcəyi razılaşdırıldı. Bu hədlər daxilində hər tərəfin, ABH-ləri (Ayrılan başlıq hissələri) olan raketlər 1320-dən çox olmamalı idi. Bundan əlavə, tərəflər istifadə etdikləri raket növlərinə aid döyüş başlıqlarının sayının artırılmaması barədə razılığa gəldilər ki, bu da ABŞ və SSRİ-nin yeni növ ABH-in istehsalında silah yarışına son qoyması barədə razılığını ifadə edirdi. Müqavilənin müddəti 31 dekabr 1985-ci ilə qədər müəyyən edilmişdi.

Bu müqavilə ilə eyni vaxtda, 18 iyun 1979-cu ildə hərəkət radiusu 600 km-dən çox olan quru və dəniz bazalı qanadlı raketlərinin yerləşdirilməsini qadağan edən protokol da imzalanmışdı. Sənədə əsasən, QBR-in sürətli atıcı qurğularının yaradılması da qadağan edildi. Protokol 31 dekabr 1981-ci il tarixinədək qüvvədə qalmalı idi. Razılaşmalardan başqa, məktublar mübadiləsi ilə SSRİ Tu-22M (Bekfayer) təyyarəsinin yeni müasir təchizatından və onu strateji bombardmançıya çevirmək fikirlərindən imtina etmək öhdəliyini qəbul etdi.

SSRİ ilə ABŞ arasında silahlara nəzarət ilə bağlı danışıqların ikinci mərhələsini uğurlu nəticəyə çatdırmaq baş tutdu. İmzalanan sənədlərin təsdiqlənməsi məsələsi açıq qalmışdı. Sonrakı altı ay ərzində, onun ətrafında kəskin siyasi mübarizə getmişdi. Üçüncü dünyada vəziyyət, həmişə olduğu kimi, bu dəfə də onun bu məsələnin müsbət nəticələnməsinə şərait yaratmadı.

### 4.3. NATO-nun "avroraket" və "ikili qərar" problemi

Beynəlxalq sistemin ətrafında qeyri-sabitliyin böyüməsi və SSRİ ilə ABŞ arasında getdikcə artan "ziddiyyətlər" son nəticədə Avropada olan vəziyyətə mənfi təsir göstərməyə başladı. Avropa ölkələri ABŞ-dan daha çox Sovet İttifaqı ilə iqtisadi əlaqələrdə və hər şeydən əvvəl SSRİ-dən enerji - qaz və neft almaqda maraqlı idilər. Lakin, təhlükəsizlik problemləri Qərbi Avropa liderlərini də narahat edirdi və bu mənada onlarln Sovet İttifaqına inamsızlığı artırdı.

1976-cı ildə Qərbin məlumatlarına və Sovet mənbələrinə görə - 1977-ci ildə SSRİ, ölkənin Avropa hissəsinə, Qərbdə "SS-20" adlandırılan yeni orta mənzilli raketlər yerləşdirmişdi. Bu addım "SS-4" və "SS-5" tipli köhnəlmiş raketlərin planlı şəkildə dəyişdirilməsi kimi qiymətləndirilirdi. Sovet tərəfinin məqsədi, SSRİ-yə yönəldirilən məhdud nüvə təhlükəsini zərərsizləşdirmək idi. ABŞ-ın, Qərbi Avropada və onun sahillərində yerləşdirdiyi ön mövqeli baza sistemlərinə aid olan, bombardmançıların və sualtı qayıqların raketlərindən istifadə edə biləcəyi təqdirdə, SSRİ öz ərazisini müdafiə etməyə hazır olmaq istəyirdi. Nəzəri cəhətdən bu silahlar, "hərbi əməliyyat meydanının silahları", yəni "strateji səviyyədən əvvəlki" silahlar hesab olunurdu. Lakin, bu raketlər Sovet İttifaqının ərazi sularından və hava məkanından kənarda olan ərazilərdən atılsa da, SSRİ-nin Avropa hissəsinin istənilən nöqtəsinə çata bilərdi. Ona görə, bu silahlar SSRİ üçün "strateji təhlükə" daşıdıqlarına görə, Moskvada onlar strateji hesab olunurdu. Sovet İttifaqı üçün, ABŞ-ın ön mövqeli baza sistemindən əlavə olaraq, Sovet-Amerika danışıqlarının mövzusu olmayan, Fransa və Böyük Britaniyanın "müstəqil hərbi qüvvələri" də təhlükə yarada bilərdi. Ona görə, Sovet rəhbərliyi hesab edirdi ki, SSRİ ilə Qərb arasında olan güc nisbəti qiymətləndirilərkən onlar da nəzərə alınmalıdır.

Yeni Sovet raketlərinin yerləşdirilməsi ilə bağlı məlumatlar, Qərbdə bir qədər gec məlum oldu və böyük narahatlığa səbəb oldu. Vaşinqton, Moskvanın bu addımının ABŞ üçün təhlükəli ola biləcəyinə inanmırdı. Sovet təhdidi, Qərbi Avropa paytaxtlarında daha çox narahatçılıq yaratdı. Həm ABŞ-da, həm də bütövlükdə Qərbi Avropada, NATO ölkələrinin ekspertləri və yüksək səviyyəli liderləri, əslində, hərbi-strateji sabitliyin baş verməyən pozuntusuna görə deyil, məhz siyasi status-kvonunpozulmasına görə Moskvanı qınadı. Sovet İttifaqını yenidən gərginliyi artırmasında və Qərbi Avropanı təhdid etməklə ABŞ-dan "qoparmaq" niyyətinə görə günahlandırırdılar.

Qərb əks- cavab addımını atdı. 12 dekabr 1979-cu ildə, NATO Şurasının Brüsseldəki iclasında, "ikili qərar" qəbul edildi:

-Birincisi- 1983-cü ildən başlayaraq, Amerikanın “Perşinq-2” orta mənzilli və qanadlı raketlərinin NATO-nun Avropa ölkələrində yerləşdirilməsinə başlamaq;

- ikincisi, danışıqlar yolu ilə, Avropada olan strateji vəziyyətlə əlaqədar, SSRİ ilə qarşılıqlı məqbul həll tapmağa çalışmaq.

Əslində, yeni Amerika raketlərinin yerləşdirilməsi də, ABŞ-ın Avropada hərbi mövcudluğunun planlı modernləşdirilməsinin bir hissəsi idi. SSRİ ilə Qərb arasında artan ziddiyyətlər, iki sistem arasında olan qarşıdurmada gərginliyin artmasına zəmin yaratdı.

## 5.İspaniya və Latın Amerikası ölkələri beynəlxalq münasibətlərdə

### 5.1. İspaniyada demokratiyanın zəfəri və beynəlxalq münasibətlər

60-cı illərin sonunda, dünyada baş verən demokratik dəyişikliklər İspaniyaya da öz təsirini göstərdi. 1971-ci ildə, İspaniyadakı sol qüvvələr Sevilya şəhərində "Azadlıq naminə pakt" imzaladılar. Məqsəd Frankonu devirmək idi. Hadisələrin gedişini nəzərə alan Franko general Blankonu özünə Baş Nazir təyin etdi. Bir az keçməmiş Blanko terrorçular tərəfindən öldürüldü. 1975-ci ilin noyabr ayının 20-də, silahlı üsyana hazırlıq getdiyi zaman, ispan diktatoru Fransisko Franko 82 yaşında vəfat etdi.

Portuqaliyadan sonra İspaniya demokratik quruluşa keçməyə başladı. Hərbçilərin gizli müxalifətinə baxmayaraq, F.Frankonun əvvəldən hazırladığı planına uyğun olaraq, ölkədə monarxiya bərpa edildi. 1931-ci ildə hakimiyyətdən kənarlaşdırılan Kral XIII Alfonsun nəvəsi I Xuan Karlos, ölən diktatorun iradəsinə görə, boş qalan taxt-taca gətirildi. Kral elə ilk andiçmə mərasimində bildirdi ki, İspaniya da digər qabaqcıl dünya ölkələri kimi demokratiya yolu ilə gedəcək. İspaniyada demokratiyaya keçid 1975-ci ildən 1979-cu ilə qədər davam etdi. Kral demokratik dəyişikliklərə dinc, tez və qəti yolla keçməyi qərarlaşdırmışdı. "İspaniya falanqası" partiyası buraxıldı. Müxalifətin leqallaşması artdı. 1977-ci il aprel ayının 9-da, İspaniya Kommunist Partiyası açıq fəaliyyətə keçdi. "Milli hərəkat" partiyası da Kralın dekreti ilə buraxıldı. Bu partiya iki hissəyə parçalandı. Onun üzvlərinin bir hissəsi Demokratik Mərkəz İttifaqı partiyasını təşkil etdilər və başçısı Adolf Suares oldu. 1976-cı ildə ölkədə ilk dəfə əvvəlki 10 ildə olmadığı qədər tətil hərəkatı baş verdi. Xalq Kraldan demokratik islahatlar tələb edirdi. 1976-cı ildə "Siyasi islahatlar haqqında Qanun" qəbul edildi.

Ölkə diplomatik təcriddən çıxmağa başladı. İspaniya 1970-ci ildə Rio-Muni və Fernando adalarına müstəqillik verdi. 1975-ci ildə o, Helsinki müşavirəsində iştirak etdi və ATƏT-in üzvü oldu. 1976-cı ildə o, İspaniya Saxarasından öz qoşunlarını çıxardı. 1973-cü ildə İspaniya ilə Çin arasında diplomatik münasibətlər yarandı. 70-ci illərin ikinci yarısında da, İspaniya xarici siyasətində yenə də Franko hakimiyyəti

dövründə olduğu kimi, ABŞ və Qərbi Avropa ölkələri ilə normal münasibətlərin saxlanılmasına xüsusi əhəmiyyət verirdi. 1976-cı ildə, ABŞ-la İspaniya arasında dostluq və əməkdaşlıq haqqında müqavilə bağlandı. Hərbi bazalarının saxlanılması müqabilində, ABŞ İspaniyaya 1 milyard 250 milyon dollar həcmində hərbi-iqtisadi kömək göstərdi. İspaniya, Almaniya Demokratik Respublikasını tanıdı. Franko hakimiyyəti devrildikdən sonra İspaniyanın inkişaf etməkdə olan ölkələrlə münasibətləri daha da yaxşılaşdı. O, Fələstin Azadlıq Təşkilatına 1977-ci ildə Madriddə öz nümayəndələyini açmağa icazə verdi. 1977-ci ildə, İspaniya və SSRİ arasında diplomatik münasibətlər bərpa edildi.

1977-ci ilin avqustunda İspaniyada azad seçkilər keçirildi və 1978-ci ilin sentyabrında yeni Konstitusiya qəbul edildi, ölkədə konstitusiyalı monarxiya quruldu. 1982-ci ildə İspaniya NATO-ya üzv oldu, lakin, 1997-ci ilə qədər, ittifaqın hərbi təşkilatına daxil olmadı. 1985-ci ilin sentyabrında Avropa Birliyinə üzv oldu.

### 5.2. Latın Amerikasında beynəlxalq siyasi vəziyyət

C.Karterin idarəçiliyi dövründə, ABŞ-ın xarici siyasətində olan dəyişikliklər və onun insan hüquqlarının qorunmasına diqqət yetirdiyinə görə, Vaşinqton Latın Amerikası siyasətində dəyişikliklər etdi. 1977-ci ilin avqustunda ABŞ, Argentina, Çili, Uruqvay və Paraqvay hərbi hakimiyyətlərinə silah embarqosu tətbiq etdi. Bu, onların narazılığına səbəb oldu və Argentina, Braziliya və Çilinin öz mini-hərbi-sənaye kompleksini yaratmaq səylərini sürətləndirdi. Yerli yuxarı dairələr, Amerika Prezidentinin irəli sürdüyü "insan haqları haqqında bəlağətli ifadələri"ndən narazı idilər.

ABŞ üçün ən böyük problem, Braziliyanın nüvə sahəsində apardığı siyasət idi. 1968-ci ildə, Braziliya, ABŞ-ın onun ölkəsinin nüvə gücünün inkişafına məhdudiyyətlər qoyduğunu bəhanə gətirərək, nüvə silahının yayılmaması müqaviləsini imzalamadı. "Tlatelolko müqaviləsini" ilk təsdiqləyən Braziliya, ona əməl edəcəyi haqqında heç bir açıqlama vermədi. Vaşinqtonda, Braziliyanın nüvə silahı əldə etmək cəhdində şübhələr yarandı. ABŞ hökumətinin rəyinə əsasən Amerika şirkətləri, Braziliyada nüvə stansiyasının tikintisi layihəsində iştirak etməkdən imtina etdilər. 1975-ci ildə bağlanmış Braziliya-Qərbi Almaniya müqaviləsinə görə, Almaniyanın uran təchizatının qarşılığında, Braziliya ondan səkkiz nüvə reaktoru atom yanacağı emalı zavodu və uranı zənginləşdirmə texnologiyası almalı idi. ABŞ bu müqaviləyə tənqidi yanaşdı. Amerika tərəfi, Almaniya Federativ Respublikası ilə əməkdaşlığının Braziliyanın nüvə statusuna keçməsini sürətləndirəcəyinə əmin idi. Braziliya ilə ABŞ arasında, beynəlxalq münasibətlərdə soyuqlaşma baş verdi. Bu, digər Latın Amerikası ölkələrində

Amerika siyasətinin aparılmasını çətinləşdirdi, çünki Braziliya Latın Amerikası dünyasının "qeyri-rəsmi lideri" idi. ABŞ-ın ona təzyiq göstərməsi cəhdləri, yerli ölkələrin Braziliyaya rəğbətini daha da artırırdı.

Vaşinqtonun C.Karterin rəhbərliyinin Mərkəzi Amerika siyasəti, Qvatemala, Honduras, Nikaraqua və El Salvador diktatorlarının siyasi fəaliyyətlərinin istqamətlərini qarışdıran ikililiyi ilə fərqlənirdi. Əvvəlki illərdə, onlar ABŞ-ın dəstəyinə arxalanmağa alışmışdılar. İndi isə, Vaşinqton, insan hüquqlarını pozduqlarına görə onları tənqid etməyə başlamışdı. Diktator hökumətləri, hakimiyyətlərinin liberallaşdırılması üçün addımlar atmaq niyyətində deyildilər və ABŞ-dan gələn tənqidlər Vaşinqtona qarşı narazılığı artırırdı. Cənubi və Mərkəzi Amerika demokratiyaya deyil, daha qatı millətçiliyə tərəf dönürdü. Yerli hökumətlər də, ABŞ-ı tənqid etməyə başladılar. Ən ciddi bəhanələrdən biri, Panama ərazisindən keçən, lakin bu zonada qoşunlar saxlayan, ABŞ-ın nəzarətində olan, Panama kanalı ilə bağlı məsələ idi. 1973-cü ilin martında, Panama hökuməti, ABŞ-dan kanal üzərində onun suverenliyini bərpa etməsini tələb etdi. Bu məsələyə "yerində" baxılması üçün, Panamada BMT Təhlükəsizlik Şurasının xüsusi səyyar iclasının keçirilməsini təklif etdi. Panamanın iddiası bütün Mərkəzi Amerika dövlətləri tərəfindən dəstəkləndi.

Şəraitin təzyiqi altında, 1977-ci ilin sentyabrında, C.Karter hökuməti Panama kanal zonasının statusu ilə bağlı, ABŞ-Panama sazişi bağlamağa razı oldu. Sazişə görə, 1999-cu il dekabrın 31-də, kanal zonasına nəzarət Panama hökümətinə verilməli idi. Razılaşmada nəzərdə tutulurdu ki, "kanalın neytrallığına təhlükə" olduğu təqdirdə, Amerika qüvvələrinin kanal zonasında yenidən yerləşdirilməsi təmin edilməli idi. Amerika Konqresi tərəfindən, Panama ilə sazişin imzalanması və təsdiqlənməsi, respublikaçıların, demokratların hökumətini Latın Amerikasında ABŞ-ın maraqlarını qoruya bilməməkdə günahlandıraraq tənqid etmələrinə səbəb oldu.

Latın Amerikası ölkələrinin özləri də həmrəy olmaqdansa, daha çox mübahisə edirdilər. Hərbi hökumətlərin riayət etdiyi milli təhlükəsizlik nəzəriyyəsi əməkdaşlığa deyil, Latın Amerikası dövlətlərinin arasında olan mübahisələrdə qarşıdurmaya yönəldilmişdi. 1976-cı ildə Çilinin hərbi hökuməti, iqtisadi yaxınlaşma məqsədi daşıyan, And qrupundan çıxdı. Bu iqtisadi blok, 1969-cu ildə Venesuela, Peru, Kolumbiya, Boliviya və Ekvador tərəfindən yaradılmışdı. And qrupunun inteqrasiya planları donduruldu.

1977-ci ildə Biql boğazında adalar üstündə Argentina-Çili mübahisəsi kəskinləşdi. Boliviya-Çili, Peru-Ekvador, Venesuela-Kolumbiya və Venesuela-Qayan ərazi münaqişələri həll olunmamış qalırdı. Cənubi Amerikada liderlik

uğrunda Argentina-Braziliya rəqabəti, La Plata qrupu (Argentina, Braziliya, Uruqvay, Paraqvay) daxilində inteqrasiya prosesinə mane oldu. Silahlanmaya tələb olunan xərcləri artırdı. Bölgə ölkələrinin hərbi xərcləri, 1974-cü ildən 1982-ci ilə qədər iki dəfə artdı və Latın Amerikası ordularında əsgərlərin sayı, 70-ci illərin ortalarına nisbətdə, təxminən 40% artaraq 2 milyona yaxınlaşdı. Öz kiçik müdafiə sənayesini yaradan Braziliya və Argentina silah ixracına başladılar. Hər iki ölkə nüvə silahı yaratmağa yaxın idılər.

70-ci illərin sonunda, Qərb yarımkürəsindəki gərginliyin artması, "San Xose protokolu"nun təsdiqini və Amerika dövlətləri arası sistemin islahatlarını ləngitdi. Ona görə də, Latın Amerikası ölkələri öz aralarında olan mübahisələrin sülh yolu ilə həlli üçün, etibarlı hüquqi baza yarada bilmədilər.

## BEŞİNCİ FƏSİL -- II BÖLMƏ
## Dünya periferiyasında regional böhranlar və münaqişələr (1974-1979-cu illər)

**1.İkiqütblü dünya sistemində periferik qarşıdurmalar**

**2.Kiprdə siyasi vəziyyətin gərginləşməsi**

**3.Afrika ölkələrində beynəlxalq münasibətlər**

3.1. SSRİ və Afrika ölkələri arasında tərəfdaşlıq şəbəkəsinin yaranması

3.2. Afrikada Sovet-Amerika ziddiyyətlərinin dərinləşməsi. Afrika buynuzunda müharibə

3.3. Rodeziya problemi

**4. Cənub-Şərqi Asiyada beynəlxalq münasibətlər**

4.1. Cənub-Şərqi Asiyada bitərəfliyin bərqərar olması

4.2. Vyetnamın birləşməsi və Hind Çində siyasi vəziyyətin yenidən gərginləşməsi

4.3. Kamboca probleminin yaranması və Çin-Vyetnam münaqişəsi

**5.Çin Xalq Respublikasının xarici siyasəti**

5.1. Çin-Yaponiya arasında sülh və dostluq müqaviləsinin bağlanması

5.2. SSRİ, ABŞ və Çinin "üçtərəfli" münasibətlərinin formalaşması

**6. İran-ABŞ qarşıdurması. İkinci "neft şoku"**

**7. Beynəlxalq münasibətlərdə neft-dollar dövriyyəsi problemi**

**8. Yaxın Şərqdə yeni gərginlik mərkəzlərinin yaranması**

**9. SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi və gərginliyin azaldılması siyasətinin dayandırılması**

**1.İkiqütblü dünya sistemində periferik qarşıdurmalar**

İki bir-birinə qarşı duran sistem və iki fövqəldövlətin arasında artan rəqabət mühitində, bu kəskin ziddiyyətlərin birbaşa konfrantasiyasında həlli mümkünsüz görünən bir şəraitdə bu rəqabət nəinki qlobal, həm də regional siyasətin mühüm tərkib hissəsinə çevrildi. Bu sistemlərin mərkəzləri, birbaşa və ya dolayı yolla regional böhran və münaqişələrdə iştirak edirdi. Bu regional böhranlar qlobal beynəlxalq münasibətlərdə getdikcə əhəmiyyətli rol oynamağa başlayırdı. 1970-ci illərdə SSRİ-nin, üçüncü dünya ölkələrində siyasətini aktivləşdirməsi, onun dünyanın müxtəlif bölgələrində öz iştirakını genişləndirmək istəyinə səbəb oldu. İkiqütblü qarşıdurmanın məntiqinə görə, bu addımlar ABŞ-dan cavab tələb edirdi, bu da iki superdövlət arasında yeni rəqabət meydanının yaranmasına səbəb oldu.

1970-ci illərdə, soyuq müharibənin ilk dövrlərindən fərqli olaraq, münaqişə subregionunun seçimi, bir qayda olaraq Moskva və Vaşinqton tərəfindən müəyyən olunurdu. "Vyetnam sindromu"nun təsiri altında qalan bu dövlətlər, dolayı metodlardan - "aşağı intensivli münaqişələr"(*low intensity conflicts*) strategiyasından istifadə edirdilər. Bu strategiyaya bir sıra əsas elementlər - sovet dəstəyi olan hakimiyyətə qarşı silahlı mübarizəyə hazır yerli müqavimət qüvvələrinin seçimi, bu qüvvələrə Amerika təchizatı (və ya ABŞ-ın vəsaiti ilə üçüncü ölkələrdən alınan sovet silahları), müqavimət qüvvələrinin Amerika təlimçiləri tərəfindən hazırlanması və müqavimət hərəkatına Amerika və dünya mediasında mətbuat-təbliğat dəstəyi daxil idi. Beləliklə, demək olar ki, hər bir yerli münaqişədə müstəqil görünən, lakin paralel mövcud olan ziddiyyətlərin istiqamətləri yarandı - bu, bir tərəfdən qlobal sistemlərarası qarşıdurma, digər tərəfdən regional qarşıdurmanın getdikcə artmasıdır..

1970-ci illərin ikinci yarısında, Birləşmiş Ştatlar regional siyasəti, siyasi və diplomatik üsullarla, dünyanın müxtəlif bölgələrində, Sovet İttifaqının regional mövqelərini dağıdan planlarını dəstəkləməyə hazır olan tərəfdaşlar taparaq, onlardan SSRİ-nin mövqeyini zəiflətmək üçün geniş istifadə etdilər.

1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərindən, xüsusən sovet qoşunlarının Əfqanıstana girməsindən sonra, ABŞ "Reyqan doktrinasının" mühüm tərkib hissəsi olan, regional dəstək siyasəti olan "az gərginlikli münaqişələr" strategiyasını qəbul etdi.

Fövqəldövlətlərdən əlavə, dünyada baş verən bir sıra regional böhranlarda və münaqişələrdə Çin Xalq Respublikasının mövcudluğu və siyasi oyunu da nəzərə çarpırdı. 1970-1980-ci illərin başlanğıcında Pekin bir qayda olaraq, SSRİ-nin maraqlarına qarşı çıxan qüvvələrə dəstək vermək mövqeyini tuturdu.

Regional münaqişələrin və problemli düyünlərin əsas zonaları Afrika qitəsi, Cənub-Şərqi və Şərqi Asiya, Cənub-Qərbi Asiya, Orta Şərq və Mərkəzi Amerika idi. Bölgələr siyahısından göründüyü kimi, ikiqütblü qarşıdurma həqiqətən qlobal miqyas almışdı.

### 2.Kiprdə siyasi vəziyyətin gərginləşməsi

Kiprdə yaranan vəziyyət, Yunanıstan və Türkiyədəki vəziyyətdən, Afina və Ankara arasında olan münasibətlərdən asılı idi. Yunanıstan və Türkiyə, NATO-ya üzv olsalar da, münasibətləri gərgin olaraq qalırdı. 1965-1967-ci illərdə, Yunanıstanda vəziyyət qeyri-sabit idi. Sol mərkəz partiyaları parlamentdə təşkil etdikləri çoxluq, öz hökumətlərini yaratmaq üçün kifayət etmədi. Lakin, onlar, Kral Konstantinin rəğbət bəslədiyi sağçı partiyaların nümayəndələri tərəfindən hökumətin qurulmasına imkan vermirdilər. Bu, ölkədə vəziyyətin xroniki qeyri-sabitliyini müəyyənləşdirirdi. Bunun nəticəsində, 21 aprel 1967-ci ildə, Yunanıstanda hərbi çevriliş baş verdi. 1967-ci ilin dekabrında, Kral Konstantinin ölkəni mülki idarəetmə vəziyyətinə qaytarmağa çalışdı, ancaq hərbiçilər ona tabe olmadılar. Silahlı qüvvələrin komandanlığı ilə qarşıdurma nəticəsində kral ölkəni tərk etmək məcburiyyətində qaldı.

Yunanıstanın xarici siyasəti daha təcavüzkar oldu. Hərbiçilər arasında Kiprin Yunanıstana zorla ilhaq edilməsinə dair fikirlər gücləndi. Bu hisslər Kiprdə yerləşən yunan silahlı qüvvələrinin bölmələrinin komandanlığı tərəfindən əsgərlər arasında yayımlandı. Oradan da yerli əhali arasında yayılaraq, radikal yunan kiprlilərin dəstəyini aldı.

1967-ci ildə, Yunanıstanda hakimiyyəti hərbi çevrilişlə ələ keçirən Xunta "enozis"ə nail olmaq üçün Keşan ve Dədəağaç danışıqlarını keçirmiş və Türkiyə ilə sövdələşməyə çalışmışdır. Lakin, danışıqlarda heç bir nəticə əldə edilmədi. Bu vaxtlar eyni zamanda, Yunanıstan Kiprin əvəzində Qərbi Frakiyada bəzi güzəştlərə getməyi planlaşdırırdı. Türkiyə isə buna qarşı çıxaraq adaya müdaxilə qərarını qəbul etdi. Ancaq, Yunanıstan bu dəfə geri addım ataraq 12000 nəfərlik qüvvəsini adadan çıxartmaq qərarını vermişdi. Bu zaman, 29 dekabr 1967-ci ildə, Kiprdə türklər 1960-cı il Konstitusiyasının bütün maddələri reallaşdırılana qədər Müvəqqəti Kipr Türk İdarəsini yaratdılar

1968-ci ildə adada iki tərəf arasında danışıqlar başlandı. Türk tərəfinin yerli muxtariyyət (local autonomy) şəkilində ortaya qoyduğu tezislə bağlı danışıqlar 1971-ci ilin sonuna qədər davam etdi. 1972-74-cü illərdə danışıqlara Türkiyə və Yunanıstandan mütəxəssislərin qoşulması ilə davam etdirildi.

Kiprin Prezidenti arxiyepiskop Makarios adanı Yunanıstanın müdaxiləsindən qətiyyətlə müdafiə edirdi. Terror yolu ilə Makariosu aradan götürmək cəhdləri nəticə vermədi. 10 iyun 1974-cü ildə, Prezident Makarios Yunanıstan hökumətinə orada xidmət edən yunan zabitlərinin əksəriyyətinin Kiprdən çıxarılmasını təklif etdi (650 nəfərdən yalnız 50-nin saxlanmasına razı olmuşdu). Buna cavab olaraq, iyunun 15-də, Makariosun şübhələndiyi kimi, yerli radikallar ona qarşı çıxdılar. Kiprdə yunan ordusunun hissələrinin köməyi ilə Prezident sarayını ələ keçirməyə müvəffəq oldular. Prezident Makarios, İngiltərə diplomatlarının köməyi ilə İngiltərədə sığınacaq alaraq ölkəni tərk etdi.

Adada türklərə qarşı kütləvi soyqırım törədildi. Türkiyənin diplomatik səyləri heç bir nəticə vermədi. Nikosiyada qanuni hakimiyyət səlahiyyətinin olmamasından istifadə edən, Türkiyə Kipr işlərinə müdaxilə etdi. 20 iyul 1974-cü ildə, Türkiyə qoşunları adanın Türk əhalisini qorumaq bəhanəsi ilə Kiprə gəldi. Ölkənin 37% -nin əsasən türk əhalisi olan şimal hissəsində yerləşdilər. Türk qoşunlarının ələ keçirdiyi bölgələrdə olan yunanlar cənuba qaçdılar. Yunan tərəfi məğlubiyyətə uğradı. Kıbrısın Yunanıstana birləşdirilməsi məsələsi artıq gündəmdən çıxdı. Yunan-Türk müharibəsi təhlükəsi meydana çıxdı.

İki NATO ölkəsi arasında gedən qarşıdurma Vaşinqtonun narahatlığına səbəb oldu. ABŞ-da, əvvəllər Afinadakı "qara polkovniklər" hakimiyyətini tənqid edirdilər. İndi onların hökuməti nəhayət, Amerika dövlətinin dəstəyini itirdi.

Artıq, Yunanıstanın özündə hərbçilərin mövqeləri də zəifləmişdi. Yeddi illik hakimiyyəti dövründə, onlar ölkəni ağıllı şəkildə idarə edə bilmədiklərini nümayiş etdirdilər. Türkiyənin müdaxiləsinə səbəb olan Kipr hadisələri, hökumətin tamamilə uğursuzluğunun əlaməti olaraq qəbul edildi. İctimai fikir Kiprin şimal hissəsinin "itkisi" üçün məsuliyyəti xuntanın üzərinə qoydu. 1974-cü ilin yayında Afinada tələbələr, liberal ziyalılar və şəhərin ümumi əhalisi tərəfindən hökumət əleyhinə kütləvi etirazlar başlandı. 23 iyulda, etiraz aksiyalarının təzyiqi ilə hərbçilər hakimiyyəti mülki siyasətçilərə təhvil vermək məcburiyyətində qaldılar. Diktatura devrildi. 1974-cü ildə, Yunanıstan NATO hərbi təşkilatından çıxdı, 1980-ci ilə qədər onun xaricində qaldı.

Prezident Makariosun xahişi ilə, BMT Təhlükəsizlik Şurası iyulun 20-də iclas keçirərək bütün dövlətləri Kiprin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etməyə çağırdı. Müraciətə əsasən İngiltərə, Türkiyə ə Yunanıstan Kiprdə sülhün və konstitusiya qanunlarının bərpası üçün təcili tədbirlər həyata keçirməli idilər.

1974-cü ilin oktyabrında, Kipr problemi BMT Baş Məclisinin XXIX sessiyasında müzakirə edildi. Qəbul edilmiş qətnamədə problemin həllinin əsas prinsipləri öz

əksini tapdı: Kiprin ərazi bütövlüyünə, müstəqilliyinə və bloklara qoşulmama siyasətinə hörmət, bütün xarici qoşunların adadan çıxarılması və bütün mübahisəli məsələlərin yunan və türk icmaları arasında danışıqlar yolu ilə həll edilməsi və s.

Kipr üstündə Yunan-Türkiyə qarşıdurması səngiməyə başladı. 1974-cü ilin dekabrında, Prezident Makariosun hakimiyyəti bərpa edildi.1977-ci ildə ölümünə qədər, Kiprdə dövlət başçısı olaraq qaldı. Lakin, Kiprin birliyini bərpa edə bilmədi.

1975-ci ilin yanvarında, BMT Baş katibinin vasitəçiliyi ilə icmalararası danışıqlar başlandı. Türk qoşunları adanın şimalında qaldı və 1975-ci ilin fevral ayında Kipr türk icması adanın yunan hissəsi ilə federal əsasda vahid dövlətdə birləşməyi təklif edərək, "Kipr Türk Federativ Dövləti"nin yaradıldığını elan etdi. Yunanlar bu layihə ilə razılaşmadılar və münaqişə xroniki hal aldı. 1976-cı il iyunun 20-də R.Denktaş həmin dövlətin Prezidenti seçildi.

1983-cü ilin noyabrın 14-də türk birliyi rəsmi olaraq "Şimali Kipr Türk Respublikası" adı altında Şimali Kiprin müstəqilliyini elan etdi. BMT Təhlükəsizlik Şurası türk icmasının qərarını hüquqi qüvvəsi olmayan qərar adlandırdı Bu qurum Türkiyə istisna olmaqla, dünyanın heç bir ölkəsi tərəfindən tanınmamışdır. 1985-ci ilin yanvarında icmalararası danışıqlar bərpa olundu.

## 3.Afrika ölkələrində beynəlxalq münasibətlər

### 3.1. SSRİ və Afrika ölkələri arasında tərəfdaşlıq şəbəkəsinin yaranması

Sovet-Amerika ziddiyyətləri Afrikaya da yayılmağa başladı. 60-cı illərin əvvəllərində Konqo münaqişəsindən sonra, Afrika məsələləri, Afrikanın ərəb hissəsi istisna olmaqla, Sovet rəhbərliyinin diqqətini cəlb etmirdi.

Lakin, 60-cı illərin sonlarından etibarən, **So**mali rəhbərliyi Moskva ilə əməkdaşlığa gözlənilmədən maraq göstərməyə başladı. Bu gənc müstəqil dövlət, keçmiş Britaniya müstəmləkəsi olan Somalinin, keçmiş italyan müstəmləkəsi olan Somali ərazisi ilə, birləşməsi nəticəsində yaranmışdı. İkinci dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının razılığı ilə müvəqqəti olaraq İtaliya hökuməti tərəfindən idarə olunurdu. Somali nəsli- qəbilə quruluşunin mövcud olduğu, dövlətçilik ənənələri olmayan kasıb, geri qalmış bir ölkə idi. Regional nəsillər separatizmə meylli idi, ölkəni parçalamaqla hədələyirdilər.

1969-cu ildə hərbi çevriliş nəticəsində general-mayor Məhəmməd Siad Barre hakimiyyətə gəldi. Yeni lider Somaliyə demokratik bir sistem yaratmağı mümkün saymadı, ancaq güclü dövlət hakimiyyəti yaratmağı üstünlük verdi. Sovet İttifaqı ilə dostluq əlaqələri qurdu, çünki orada özünün qurmaq istədiyi dövlət modelini görürdü. 1974-cü ilin iyulunda, 20 il müddətinə Sovet-Somali dostluq və əməkdaşlıq

müqaviləsi imzalanmışdı. 1977-ci ildə ləğv edilmişdir. SSRİ Somaliyə iqtisadi və hərbi yardım göstərməyə başladı.

Çevrilişdən sonra, bölgə icmaları mərkəzi hökumətdə yer ala bilmədilər, ona görə dövlətə tabe olmaqdan imtina etdilər. Silahlı qarşıdurma yarandı. Somali hökuməti SSRİ-dən alınan yardımdan müxalifətlə mübarizə üçün istifadə etməyə başladı. Somali hakimiyyəti bir müddət Sovet İttifaqının Afrikadakı əsas tərəfdaşı oldu. Ölkə "sosialist yönümlü" dövlət elan edilmişdi.

Somalidən sonra, qitənin cənub hissəsində, Portuqaliyanın müstəmləkə imperiyasının dağılması ilə, yaranan gənc dövlətlər Sovet İttifaqının dəstəyi ilə sosializm istiqaməti yolu ilə inkişaf etməyə maraq göstərməyə başladılar.

27 iyul 1970-ci ildə, Portuqal diktatoru A. Salazar (81 yaş) öldü. Onun varisi, Baş Nazir Marselu Kaetanu, 1970-ci ilin dekabr ayında Portuqaliya müstəmləkələrinə muxtariyyət verilməsi və Portuqaliya parlamentində onlar üçün yerlər ayırmaq niyyətində olduğunu bildirdi. Bu, müstəqilliyə can atan Afrika müstəmləkələrində Portuqaliya qarşı hərəkatlara təkan vermiş oldu. 25 aprel 1974-cü ildə, Portuqaliyada bir qrup demokratik düşüncəli hərbçi ("qərənfil inqilabı") tərəfindən çevriliş edildi. Yeni hökumət Afrikada Portuqaliya müstəmləkələrinin - Mozambik, Anqola, Yaşıl Burun adaları (Kabo Verde), San Tome və Prinsipin müstəqilliyini tanıdı.

Mozambik Afrikanın ən geridə qalan ölkələrindən biri idi. Mozambikli işçilərin əksəriyyəti qonşu Cənubi Afrikada işləyirdi. Ölkənin əsas büdcə gəlirləri, dənizə çıxışı olmayan Cənubi Rodeziya ərazisində çıxarılan qızılın Mozambikdən keçməklə və Mozambik limanları ilə daşınması üçün alınan tranzit haqqı idi.

Yoxsul Mozambik əhalisi və yerli silahlı hissələrinin əsgərləri solçu təbliğata meylli idilər. Ona görə də, 25 iyun 1975-ci ildə Mozambikə hakimiyyət müstəqilliyi verildikdən sonra, Mozambik Azadlıq Cəbhəsi (FRELIMO) solçu şüarlarla hakimiyyətə gəldi. Ölkədə xaos hökm sürürdü. Mozambikdən 100 min ağ adam qaçdı, 12 milyon sakinə 80 həkim qalmışdı. "İnqilab ixracından" qorxan Cənubi Rodeziya, 1976-cı ildə Mozambiklə sərhədini bağlayaraq onu tranzit gəlirdən məhrum etdi. Sovet İttifaqı və Çin Xalq Respublikası Mozambikə yardım göndərdi. Belə yardımı, Qərb ölkələri də göndərirdi. Onlar, Maputu hökumətinə təsir vasitələrini qorumaq istəyirdilər.

Yeni Mozambik hökuməti, Cənubi Afrikada partizanlarını, Cənubi Afrikada qadağan edilmiş Afrika Milli Konqresinin tərəfdarlarının silahlı birləşmələrini dəstəkləməyə başladı. Onların Mozambikdə yerləşməsinə imkan verdilər. Buna cavab olaraq, Cənubi Afrika hökuməti iqtidara qarşı çıxan Mozambik müxalifətinin qüvvələrinə kömək etməyə başladı.

Anqolada vəziyyət daha da çətin idi. Bu zəngin ölkə qəhvənin ən iri ixracatçısı idi. Anqolanın ərazisində neft və almaz yataqlarına sahib idi. Anqola Namibiya ilə həmsərhəd idi.

1966-cı ildən Cənubi Qərbi Afrika Xalq Təşkilatı (CQAXT--SWAPO) Cənubi Afrikadan müstəqillik uğrunda mübarizəyə başladı. SWAPO bazaları Anqola və Zambiya ərazisində yerləşirdi və Sovet İttifaqı tərəfindən dəstəklənirdi: marksizm SWAPO-nun rəsmi ideologiyası idi. Məhz o zaman "Namibiya" adı ilk dəfə istifadə edilmişdir. Beynəlxalq birlik Cənubi Afrikanın bu ərazini idarə etmək hüququnu tanımırdı. 1985-ci ildən 1990-cı ilə qədər Namibiya Cənubi Afrika Respublikasının ərazisi olsa da, yalnız 1988-ci ildə Cənubi Afrika hakimiyyəti Namibiyanı tərk etməyə razı oldu Ancaq 21 mart 1990-cı ildə, BMT Baş katibi və Cənubi Afrika Prezidentinin iştirakı ilə Namibiyanın müstəqilliyi elan edildi. Lakin, Velvis körfəzi və Pinqvin adaları 1994-cü ilədək Cənubi Afrikanın hakimiyyətində qaldı.

Namibiyanın ilk Prezidenti SWAPO-nun lideri Sem Nuyoma oldu. Bu vəzifədə üç seçki müddətində çalışıb. 21 mart 2005-ci ildə, keçmiş Torpaq Məsələləri naziri Hifikepunye Pohamba, seçkilərdə% 75-dən çox səs alaraq Namibiyanın Prezidenti oldu.

Anqola, bu mənada, Namibiyada Cənubi Qərbi Afrika Xalq Təşkilatı (SWAPO) bölmələrinin vuruşduğu CAR-ın müttəfiqi və ya düşməni ola bilərdi.

11 noyabr 1975-ci ildə Anqolanın müstəqilliyi elan edildi, onun Prezidenti Aqustino Neto (1975- 79-cu illər) seçildi. Müstəqillik qazandıqdan sonra, Anqolada öz silahlı birləşmələri olan üç qrup var idi: Anqola Xalq Azadlıq Hərəkatı (MPLA, 1956-cı ildə yaradılıb, lider Aqustino Neto), Anqola Milli Azadlıq Cəbhəsi (FNLA, 1962-ci ildə yaradılıb, lider Holden Roberto) və Anqolanın Tam Müstəqilliyi uğrunda Milli Birlik (UNITA,1966-cı ildə yaradılıb, lider Jonas Savimbi) .

Cənubi Afrika Respublikası, Anqolanın Tam Müstəqilliyi uğrunda Milli Birliyinə (UNITA) güvənirdi, çünki Pretoriyada bu partiya mülayim sayılırdı və ümid edilirdi ki, onlar hakimiyyətə gəlsə Namibiyanın partizanlarını dəstəkləməyəcəkdir.

Anqola Milli Azadlıq Cəbhəsi (FNLA) partiyası Qərbi Avropa ölkələri, ABŞ və Zair tərəfindən dəstəklənirdi. Onlar CAR kimi eyni mülahizələrə gəlirdilər, lakin bu partiya ilə bir yerdə hərəkət etmək istəmirdilər. Prinsipcə, bu təşkilatın kifayət qədər kənar dəstəyi olardısa, ciddi siyasi qüvvəyə çevrilə bilərdi. ABŞ rəhbərliyi, ona xüsusi xidmət orqanları vasitəsi ilə, kömək etməyə çalışırdı. Lakin 1975-ci ilin noyabr ayına qədər, bunun üçün ayrılan vəsait istifadə olundu. Hökumət yeni maliyyə vəsaitinin ayırması üçün Konqresə müraciət etdi. Ancaq, 19 dekabr 1975-ci ildə, Afrikada olan hər hansı bir "müqavimət qruplarına" yardım göstərilməsini

qadağan edən qərar- "Klark düzəlişi" qəbul edildi – (senator Vilyam Klarkın təklifi). Bundan sonra, ABŞ rəhbərliyi artıq dünyanın bu hissəsində fəal siyasət yürüdə bilmədi.

Anqola Xalq Azadlıq Hərəkatı (MPLA) özünü "marksist" və "solçu" adlandırırdı. Kuba və SSRİ-dən kömək almağa başlamışdı. MPLA- nın xahişi ilə Kubanın hərbi təlimatçıları, solçu qüvvələrin zabitlərinə təlim keçmək üçün, Anqolaya gəlmişdilər.

Əvvəlcə ölkədə müvəqqəti koalisiya hökuməti yaradıldı. Lakin, bu üç qrup arasında mübarizə başladı. UNITA və FNLA qrupları MPLA-ya qarşı ittifaqa girdilər. 1975-ci ilin oktyabr ayından etibarən, Cənubi Afrika Respublikası hökuməti, Anqolanın MPLA bölmələrinin nəzarətində olan bölgələrinə hərbi basqınlar edərək bu koalisiyaya hərbi yardım göstərməyə başladı.

Kubanın müttəfiqlərinə yardımları daha da artırdı. SSRİ, Kuba-Angola əməkdaşlığına rəğbət bəsləyirdi. Lakin, Anqolaya edilən köməkdə Kubaya daha fəal rol "etibar" etsə də, onun addımlarını narahatlıqla izləyirdi. 1975-ci ilin payızına qədər, ölkədəki Kuba hərbçilərinin sayı bir neçə minə çatdı. Tezliklə, məlum oldu ki, Kuba yardımı Anqolaya sovet gəmilərində çatdırılır. 1975-ci ilin noyabrında, MPLA hərbi bölmələri müxalifəti yenidən Cənubi Afrika Respublikası ilə sərhəd bölgələrinə sıxışdıraraq, ölkənin paytaxtı Luandanı azad etdi. 1976-cı ilin martı üçün, mərkəzi hökumət ölkənin demək olar ki, bütün ərazisini nəzarətə aldı.

Anqolada sol qüvvələrin hakimiyyətə gəlməsi qonşu dövlətləri narahat etməyə başladı. Anqolada daxili münaqişə beynəlxalq xarakter almağa başladı. Artıq, ölkədə 20 min kubalı müşavir var idi. 1976-cı ilin oktyabrında, Sovet-Anqola dostluq və əməkdaşlıq müqaviləsi bağlandı və onun əsasında, Anqola sovet silahları ilə təchiz edilməyə başlandı.

Somali, Mozambik və Anqola ilə tərəfdaşlığın formalaşması Sovet İttifaqına əhəmiyyətli qazanc vermədən, əlavə iqtisadi yük gətirirdi. Tərəfdarlarının şəbəkəsinin genişlənməsi, SSRİ-nin məhdud ehtiyat mənbələrinin dağılmasına, daxili inkişaf ehtiyaclarından yayındırmasına səbəb olurdu.

Afrikanın digər kasıb ölkəsi olan Həbəşistan dəstək alanların siyahısına düşəndən sonra, SSRİ-nin Afrika ölkələrinə etdiyi kömək yükü daha da ağırlaşdı.

1972-1974-cü illərdə, ardıcıl quraqlıq və qıtlıq illərindən sonra, Həbəşistanda dəhşətli aclıq yarandı. O, xüsusilə ölkənin şərqində, Qırmızı dənizin sahilində yerləşən Eritreya əyalətinə ağır zərbə vurdu. 1962-ci ilə qədər Eritreya, Həbəşistanın tərkibində muxtariyyətə sahib idi, lakin sonra imperiya hökuməti tərəfindən ləğv edildi. Vilayət əhalisi hesab edirdi ki, mərkəzi hökumət onlara qarşı ayrı-seçkilik edir. 1974-cü il aclığı Eritreyadakı separatçı əhval-ruhiyyəni gücləndirdi və orada

qiyam başladı. Üsyanın başlanmasına quraqlıq və qıtlığın səbəb olduğunu başa düşən İmperator Xayle Selassie onu yatırmaq üçün güc tətbiq etmədi.

Monarxın mövqeyi, Həbəşistan hərbçilərinin qəzəbinə səbəb oldu. Onlar, 12 sentyabr 1974-cü ildə çevriliş edərək hakimiyyəti ələ keçirdilər. İmperator həbs edildi və bir il sonra gizli şəkildə öldürüldü. 1974-cü ilin noyabr ayından, ölkədə hakimiyyət Menqistu Xayle Mariamın əlində cəmləşdi. O, Eritreyaya qoşun göndərdi və eyni zamanda, Həbəşistanda gələcəkdə məhsul çatışmamazlığının qarşısını almağa kömək edəcək, torpaq islahatının keçirilməsi haqqında elan verdi. Yeni rəhbərlik sosialist şüarları elan edərək, ölkənin qarşısına "sosialist yolu" ilə inkişaf vəzifəsini qoydu. 1975-ci ilin mart ayından etibarən, ölkə rəsmi olaraq "Sosialist Həbəşistanı" adlandırılırdı. Moskva və Havana, Həbəşistan hadisələrinə rəğbətlə yanaşırdı.

Eritreyada gedən üsyan, əsasən yatırılsa da, əslində hakimiyyətə qarşı sistemli silahlı müqavimət davam edirdi. Eritreya üsyançıları, ölkənin əlçatmaz bölgələrində gizlənərək, oradan əyalətin müstəqilliyi uğrunda mübarizəyə başladılar. Ərazisinin, Həbəşistanın kənarında yerləşməsi və xarici dövlətlərin sərhədlərinə və dəniz sahillərinə çıxışı Eritreya separatçılarına xarici yardım almağa imkan verirdi.

Qısa müddət ərzində, Afrikada artıq sovet tərəfdarı olan dörd dövlətin ortaya çıxması Qərbi narahat etdi. Sovet İttifaqı, qərb əleyhinə siyasət yürüdən, dost Afrika hökumətlərinə kömək etmək hüququnun olduğuna inanırdı. Birləşmiş Ştatlar əmin idilər ki, SSRİ bununla qlobal status-kvonun saxlanması ilə bağlı Sovet-Amerika qarşılıqlı anlaşmasını pozur və ABŞ-ın müvəqqəti zəifliyindən istifadə edərək, yeni geosiyasi ərazilər ələ keçirir. Vaşinqton Moskvanı "təftişçilikdə" və dünya hegemonluğunu yaratmaq cəhdlərini bərpa etməkdə ittiham etməyə başladı.

### 3.2. Afrikada Sovet-Amerika ziddiyyətlərinin dərinləşməsi. Afrika Buynuzunda müharibə

1977-ci ildə, Vyetnamdan sonra ilk dəfə, SSRİ və ABŞ "üçüncü dünya" ölkəsində olan müharibədə dolayı qarşıdurmaya cəlb olundular. Həbəşistanın Oqaden vilayətinə görə islamın üstünlük təşkil etdiyi Somali və xristian Həbəşistan arasında mübahisəli ərazi üstündə münaqişə başladı. Bu kasıb səhra bölgəsi, iki ölkə arasındakı sərhəddə yerləşirdi və əsasən, Somali mənşəli olan, müsəlman İssa etnosu yaşayırdı. İssa xalqı, Somalidə əhalisinin ən çoxsaylı qrupundan birini təşkil edirdi. Oqaden əyalətinin üsyankar əhalisi, Somalinin nizami ordusu tərəfindən, hərbi dəstək almağa başladı. Həbəşistan ilə Somali arasında silahlı toqquşmalar başladı, bu da genişmiqyaslı hərbi əməliyyatlarla nəticələndi. Həbəşistan --Somali müharibəsi başladı.

Sovet İttifaqı çətin vəziyyətə düşmüşdü, belə ki, müttəfiq münasibətlər saxladığı iki ölkə müharibə edirdilər. Onlar barışdırmaq mümkün olmadı. Həbəşistan və ya Somali ilə tərəfdaşlıq seçimində SSRİ üçün problem yarandı. Radikal torpaq islahatı aparan, Həbəşistan hökuməti daha inqilabçı təəssürat yaradırdı. Onlar, ölkədə "sosializm"in quruculuğu uğrunda fəal mübarizə apardıqlarını elan edirdilər. Sovet hərbiçiləri hesab edirdilər ki, Həbəşistanın Afrikada təsir gücü və nüfuzu Somalidən daha çoxdur. Nəhayət, münaqişənin təşəbbüskarı Somali idi. Moskva Həbəşistan ilə ittifaq daha vacib sayırdı. SSRİ Kuba ilə birlikdə, ona hərbi yardım göstərməyə başladı. Buna cavab olaraq, 1977-ci ildə, Somalinin M.Siad Barrenin başçılıq etdiyi hökuməti, 1974-cü il Sovet-Somali müqaviləsini ləğv etdi və Bərbər limanına Sovet hərbi gəmilərinin girişini bağladı. Bunun ardınca, Somali lideri kömək üçün ABŞ-a müraciət etdi və Birləşmiş Ştatlar ona dəstək göstərəcəyini vəd verdi, lakin onun bu dəstəyi kifayət qədər yetərli olmadı.

20 noyabr 1978-ci ildə, Sovet-Həbəşistan arasında dostluq və əməkdaşlıq müqaviləsi bağlandı. Sovetlərin Həbəşistana köməyi artmağa başladı. Somalidə gəmilərin dayanma limanı əvəzinə Sovet İttifaqı, Həbəşistanın Eritreya əyalətində yerləşən Massaua limanında dayaq yeri aldı. Moskva və Havananın dəstəyi ilə Həbəşistan Oqaden uğrunda müharibədə qalib gəldi və 1978-ci ilin sonunda Somali qoşunları geri çəkilməyə məcbur oldu. 1977-1978-ci illərdə Həbəşistan ilə Somali arasındakı müharibə, adi soyuq müharibə qarşıdurması idi. Moskva və Vaşinqtonun bu müharibədə iştirakı, SSRİ və ABŞ-ın Afrika Buynuzu boyunca strateji nəqliyyat yollarına nəzarət etmək uğrunda rəqabəti ilə əlaqədar idi.

Vaşinqtonda Somaliyə yardım məsələsi ilə əlaqədar, kəskin fikir ayrılıqları yaranmışdı. Dövlət katibi S.Vens, M.Siad Barreyə yardım göstərilməsinə qarşı çıxırdı, hətta dolayı yolla ilə də, SSRİ ilə qarşıdurmaya girməyi lüzumsuz sayırdı. O, SSM-2 müqaviləsinin hazırlanması üçün SSRİ ilə danışıqlar aparmaq lazım olduğunu bildirirdi. Prezidentin milli təhlükəsizlik üzrə köməkçisi Z. Bjezinski isə, "SSRİ-nin Afrikadakı fitnələrini dəf etməyi"daha vacib sayırdı. O, bu məsələ ilə əlaqədar, SSM-2 müqaviləsi Oqaden səhralarında "basdırıldı" ifadəsi işlətmişdi.

Afrikada, SSRİ-nin sol meylli dövlətlərlə tərəfdaşlıq şəbəkəsi formalaşdı. Onun əsas iştirakçıları Anqola, əvvəllər Somali, sonra isə, onu əvəz edən Həbəşistan və 31 mart 1977-ci ildə Sovet İttifaqı ilə dostluq və əməkdaşlıq haqqında saziş bağlayan Mozambik idi.

### 3.3. Rodeziya problemi

Afrikadakı inqilabi meyllərin artması Qərb dövlətlərini narahat edirdi. Onlar başa düşürdülər ki, SSRİ və Kubanın köməyi ilə Afrika millətçiliyi Qərbə qarşı yönələ bilər. Ona görə ABŞ, İngiltərə və digər Qərbi Avropa ölkələri Afrika liderləri ilə

ortaq dil tapmağa və imkan daxilində, onlara uyğun hərəkət etməyə çalışırdılar. Ayrıseçkilik və irqçiliyə münasibət yeganə məsələ idi ki, Qərb və Afrika ölkələrinin mövqeləri üst-üstə düşürdü.

1965-ci ilin noyabrında, Böyük Britaniyanın Cənubi Rodeziya müstəmləkəsinin azlıqda olan ağ əhalisi, birtərəfli qaydada ölkələrinin müstəqilliyini elan etdi. Dövləti ağ müstəmləkəçilərin nümayəndəsi Y.Smit idarə edirdi. Ölkənin qaradərili əhalisinə heç bir hüquq verilmədi. Böyük Britaniya, digər dövlətlər kimi Cənubi Rodeziyanın müstəqilliyini tanımadı. Cənubi Rodeziya dövlətinə qarşı iqtisadi sanksiyalar tətbiq olundu. Lakin, Cənubi Rodeziya ilə həmsərhəd olan Cənubi Afrika Respublikası və bir sıra digər dövlətlər onlara əməl etmədiyi üçün bu sanksiyalar nəticəsiz qaldı.

Cənubi Rodeziyada qaradərili əhalinin partizan hərəkatı başladı. Bu hərəkat, Zimbabve Afrika Milli Birliyi (ZANU) və Zimbabve Afrika Xalq Birliyi (ZALU) partiyaları tərəfindən təşkil edilmişdi. Hər iki tərəfin hərbi hissələri, Çin təlimatçılarının nəzarəti altında hazırlıq keçirdilər. 1966-cı ilin aprel ayından etibarən, onlar irqçi hökumətə qarşı planlı partizan müharibəsi aparırdılar. 1972-ci ildən sonra bu mübarizə daha da gücləndi. Çünki, Cənubi Rodeziya partizanlarına Mozambik hərəkatı FRELIMO kömək etməyə başlamışdı. Artıq bu dövrdə, Mozambik Cənubi Rodeziya ilə həmsərhəd olan ərazilərinə nəzarəti ələ keçirərək, oradan Portuqaliya əsgərlərini çıxartmışdı.

1974-cü ildə, Y.Smit hökuməti beynəlxalq təzyiq altında, qara rəngli əhalinin bəzi liderlərini həbsdən azad edərək, əfv elan etməyə məcbur oldu. 1976-cı ildən, Cənubi Rodeziya hakimiyyəti müxalifətlə qarşıdurmanı, mərhələli razılıq zəminində həll etməyə səy göstərməyə başladı. Y.Smit hökuməti, keçid dövrü ərzində ağ azlığın hakimiyyətini saxlamaq üçün müxalifətin razılığını tələb etdi. Bu müddətdə qaradərili əhalinin hüquqlarının həcmi tədricən genişləndiriləcək idi. 1978-ci ildə Böyük Britaniyanın təşəbbüsü ilə, Y.Smit hökuməti ilə, partizan hərəkatına, ZANU və ZALU partiyalarına aid olmayan müxalifət liderləri arasında müvəqqəti müqavilə imzalanmışdı. Bu razılaşmanın əsasında seçkilər ağ və ağ olmayan əhali üçün ayrı-ayrı ölçülər üzrə keçirilirdi. Onların nəticələrinə görə, ölkədə hakimiyyət bölündü: qaradərili əhalinin nümayəndəsi yepiskop Abel Muzoreva Baş Nazir oldu və Y.Smit ölkənin ümumi idarəçiliyini özündə saxlayaraq, dövlətin "Rəhbəri" oldu. Qara dərili əhali parlamentdə çoxluğu qazandı. Qərb dövlətləri A.Muzoreva hökumətinin legitimliyini tanıdı və Cənubi Rodeziyaya qarşı sanksiyaları ləğv etdi. Lakin, Böyük Britaniya Cənubi Rodeziyanın müstəqilliyini tanımaq istəmirdi.

Partizan müharibəsi davam edirdi. Partizanlar ölkənin əksər hissələrinə nəzarət edirdilər. 1979-cu ilin sentyabrında, Cənubi Rodeziyada çağırılmış Konstitusiya

konfransında, dövlət quruluşunun əsasları haqqında saziş imzalandı. Ölkənin ağ əhalisi torpaq mülkiyyəti hüququ və ölkəni idarə etməkdə iştirak sahəsində üstünlüklər ilə təmin edildi. Sənədin qalan hissəsində, yerli əhalinin maraqları ifadə edilmişdi. 1979-cu ilin noyabrında Britaniya Parlamenti, Rodeziyanın İngiltərə müstəmləkəsi statusunu formal olaraq təsdiqləyərək, eyni zamanda ölkədə hakimiyyətin yerli əhali nümayəndələrinə təhvil verilməsi və Cənubi Rodeziyaya müstəqil dövlət statusu verməyə hazırlıq üçün keçid dövrü təyin etdi. 1980-ci ilin fevralında, keçirilən parlament seçkilərində ZANU və ZALU partiyaları qalib gəldi. 1980-ci ilin aprelində, Afrika xəritəsində Zimbabve Respublikası yarandı. Onun hökumətinə qaradərili əhalini təmsil edən Baş Nazir Robert Muqabe rəhbərlik edirdi.

## 4. Cənub-Şərqi Asiyada beynəlxalq münasibətlər

### 4.1. Cənub-Şərqi Asiyada bitərəfliyin bərqərar olması

Avropadakı vəziyyətin yaxşılaşması, digər bölgələrin dövlətlərini Avropa gərginliyin azaldılması ilə əlaqədar olan təcrübəsini yerli vəziyyətə tətbiq etməyə məcbur etdi. Avropada sülhün qorunması üçün iki əsas şərt var idi: SSRİ və ABŞ arasında qarşıdurmanın kəskinləşməməsi üçün razılıq və Avropa ölkələrinə, ilk növbədə Fransa və Almaniyaya, regional əməkdaşlıq üçün ən uyğun şərtləri axtarmaq üçün müstəqil siyasət aparmaq imkanının verilməsi.

Şərqi Asiyada, gərginliyin azaldılmasının müxtəlif üsulları arasında ən böyük maraq, Avropa ölkələrinin fəaliyyətlərinə olan münasibətə aid idi. Qərbi Avropa inteqrasiyası, Fransanın fövqəldövlətlərə qarşı müstəqil siyasəti və Qərbi Almaniyanın çevik xətti - bu nümunələr ilk növbədə Asiya müşahidəçilərinin marağına səbəb olurdu. Region ölkələri, bir çox problemlərinin yaranmasının səbəbini, "bölgədən kənar dövlətlərin" - ABŞ, SSRİ, Çinin – kiçik dövlətlərin daxili işlərinə qarışmalarında, bölgələrin inkişafına dair məsələlərlə özlərinin məşğul olmalarına mane olmalarında görürdülər.

Vyetnam müharibəsi, Şərqi Asiyadakı qeyri-kommunist ölkələrin Vaşinqton, Moskva və Pekindən uzaqlaşma mövqeyində birləşməsinə kömək etdi. Bu, kiçik ölkələrin ABŞ-ın "çıxıb getməsini" istəməsi demək deyildi. Bəzi dövlətlər - Cənubi Koreya, Tayvan, Filippin və Tailand təhlükəsizliklərini təmin etmək üçün ABŞ-ın hərbi köməyinə etibar etməkdə davam edirdi. Lakin bölgədə, mötədil anti-Qərb düşüncələri gücləndi və nəticədə böyük dövlətlərin hərbi rolunu məhdudlaşdırmaq istəyi yarandı. Yerli ölkələr, ABŞ-ın regional işlərdə iqtisadi iştirakını istəyirdilər, lakin, ABŞ-ın bu regionda hərbi mövcudluğuna yanaşmada yekdil deyildilər.

Bu şəraitdə bölgədə bitərəflik istiqamətinin meylləri yarandı. Bu istiqamətin təşəbbüskarı Malayziya idi. 1970-ci ilin sentyabrında Lusaka (Zambiya) şəhərində keçirilən Qoşulmama hərəkatının konfransında, Malayziyanın Baş Naziri TunAbdulRazak, Cənub-Şərqi Asiyanı bitərəflik və sülh zonasına çevirmək ideyasını irəli sürdü. Kuala Lumpurda (Malayziyanın paytaxtı) ifadə olunan bu bitərəflik, İsveçrənin və ya Avstriyanın klassik bitərəfliyindən köklü fərqlənirdi. Bu, hərbi ittifaqlarda iştirak etməyi və döyüşə hazır silahlı qüvvələrin yaradılmasını istisna etmədən silahlı bitərəfliyə nail olmaq idi. Malayziyada neytrallıq anlayışı, böyük dövlətlərin bölgədə olan kiçik və orta ölkələrin işlərinə müdaxilə etməməsi anlamını nəzərdə tutulurdu. 1971-ci ilin noyabr ayında, Kuala Lumpurdakı ASEAN ölkələri Cənub-Şərqi Asiyanın sülh, azadlıq və bitərəflik bölgəsi elan edilməsi haqqında Bəyannamə imzaladılar. Bəyannamədə, onlar bölgə işlərinə "xarici dövlətlərin müdaxiləsinin hər hansı bir forma və ya metodundan azad" etməyə səy göstərəcəklərini vurğuladılar.

Malayziyanın neytrallığa keçməsi, onun Asiyanın sosialist ölkələrinə ehtiyatla yanaşmasına imkan verdi. Malayziya rəhbərliyi kommunizm tərəfdən təxribatçı hərəkətlərin təhdidinin SSRİ-dən deyil, ÇXR-in dəstəyinə arxalanan İndoneziya Kommunist Partiyasından gəldiyinə əmin idi. Müvafiq olaraq, Sovet-Çin münaqişəsi böyüdükcə, Malayziya Sovet İttifaqı ilə əlaqələrin yaxşılaşdırılması imkanları haqqında düşünürdü. 70-ci illərin əvvəllərində, Malayziya 31 avqust 1957-ci ildən üzvü olduğu, Britaniya Millətlər Birliyi ölkələrindən hərbi zəmanət alaraq, eyni zamanda, SSRİ və Şərqi Avropanın sosialist ölkələrindən yardım almağa başladı.

Malayziyanın bu addımı digər ölkələrin xarici siyasətinə təsir etdi. İndoneziyada hakimiyyətdə olan Suxarto hökuməti, əvvəlcə neytralizm ideyasına şübhə ilə yanaşsa da, qısa müddətdə belə nəticəyə gəldi ki, Malayziya planı Sovet İttifaqı ilə əməli əlaqələrin qurulması ilə, anti-kommunist münasibətləri birləşdirməyə imkan verir. 1971-ci ildən Filippin Prezidenti Ferdinand Markoye sosialist ölkələri ilə əlaqələri canlandırmağa maraq göstərməyə başladı. Tailand, xüsusilə Çin Xalq Respublikasının BMT-yə qəbul olunmasından sonra, Çin və Sovet İttifaqına diqqəti artırdı.

Nind- Çində Kamboca və Laos, Vyetnamın narazılığına baxmayaraq, bitərəfləşmə ideyasını dəstəkləməyə meylli idilər. Sovet İttifaqı, Cənub-Şərqi Asiya Dövlətləri Assosiyası (ASEAN) ideyasına ehtiyatla yanaşırdı. Lakin, bitərəfləşdirmə ideyası, ABŞ-ın bölgədəki rolunu məhdudlaşdırmaq demək idi və ona görə, Sovet İttifaqı onu dəstəklədi.

Çin də etiraz etmədi. O, ASEAN üçün vacib olan qarışmamaq tezisini şərh etməyə çalışdı. Çin öz şərhində, qarışmamaq ifadəsinin onun özünə deyil, yalnız,

Asiya dövlətləri olmayan SSRİ və ABŞ-ın müdaxiləsinə aid olduğunu bildirmişdi. Ancaq, region ölkələri ABŞ və SSRİ kimi ÇXR-dən də ehtiyat edirdilər. ASEAN dövlətləri, bölgəni bitərəfləşdirmək üçün Çini yox, Vyetnamı potensial tərəfdaş olaraq görürdülər.

Vyetnam müharibəsinin sona çatmasında, kiçik və orta ölkələr regional vəziyyətin sabitləşməsinin və qüvvələrin iqtisadi və sosial problemlərin həllinə keçirilməsinin əsas şərtini görürdülər. Demokratiyanın qərb standartlarından uzaq olan Malayziya, İndoneziya və Filippinin avtoritar hökumətləri Şimali Vyetnamda yaranmış diktat tipli dövlətə dözümlü yanaşırdılar. Bölgə ölkələri, sosial sistemin bir növü olan kommunizmdən deyil, xarici üsyançıların onların ərazilərinə girmək təhlükəsindən xeyli narahat idilər. Bu baxımdan, Cənub-Şərqi Asiya ölkələrinin əksəriyyəti, ÇXR-i daha təhlükəli hesab edirdi. Yalnız, Tailandın həm Çin, həm də Vyetnamdan qorxması üçün səbəbi var idi.

### 4.2. Vyetnamın birləşməsi və Hind- Çində siyasi vəziyyətin yenidən gərginləşməsi

Vyetnamın müharibədə qalib gəlməsi, onun xarici siyasət ambisiyalarının artmasına səbəb oldu, bu da tezliklə qonşuları ilə qarşıdurmalara gətirib çıxardı. Vyetnamın Kamboca ilə münasibətləri heç vaxt normal olmamışdı. Kamboca dövlətinin başçısı Şahzadə Norodom Sianuk Vyetnam münaqişəsinin bütün tərəfləri arasında manevr etmişdi. Bitərəfliyə meyl edən hökumət, Cənubi Şərqi Asiya müqaviləsi Təşkilatının (SEATO) dəstəyini rədd etdi və ABŞ ilə hərbi əməkdaşlıq müqavilələrinin bağlanmasına getmədi. Ölkə daxilində "qırmızı kxmerlər" hökumət əleyhinə təbliğat aparmağa başladılar. Onlar maoizm ideyalarının təsiri altında olan Kamboca kommunistləri olduğundan, ÇXR ilə münasibətləri pozmaq istəməyən Norodom Sianuk "qırmızı kxmerləri" təqib etməyə cəsarət etmədi. Eyni zamanda, hər iki Vyetnam hökumətindən (kommunist və qeyri-kommunist) ehtiyat edirdi və Vaşinqtonla mübahisə etməməyə çalışırdı.

1965-ci ildə, ABŞ-ın Vyetnamda müharibəyə başlamasından, Kamboca rəhbərliyi narazı qalaraq, Amerika vətəndaşlarını ölkədən çıxarmaq qərarına gəldi. Lakin, bu zaman Çin "qırmızı kxmerlər"ə yardımı artırmağa başladı və onlar hökumət əleyhinə olan çıxışlarını fəallaşdırdılar. Kommunist çevrilişindən qorxan Sianuk, 1967-ci ildə, Vaşinqtonla münasibətləri normallaşdırmaq qərarına gəldi.

Lakin, ABŞ Kambocadan Vyetnam kommunistlərinin ölkə ərazisində yaratdıqları bazaları məhv etmək üçün, qəti tədbirlər görməyi tələb etdi. Sianuk hökuməti, Vyetnamla qarşıdurmaya girməyə cəsarət etməyərək, onların ölkədə qalmasına məcburən dözürdü. Ona görə, 1970-ci ilin mart ayında, Pnompendə

çevriliş baş verəndə və Sianuk hakimiyyətdən devrildikdə, ABŞ general Lon Nolun rəhbərlik etdiyi yeni hökuməti tanımağa tələsdi. General Lon Nol Kamboca ilə Vyetnam sərhədini bağlamaq üçün tədbirlər gördü və Hanoyun Kamboca ərazisindən Vyetnam birləşmələrinin çıxarılmasını tələb etdi. Lakin, tələblərini hərbi güc ilə möhkəmləndirə bilmədiyindən, VDR rəhbərliyi bu tələblərə məhəl qoymadı. Kambocada vyetnamlı və kambocalı silahlı qüvvələri arasında hərbi qarşıdurmalar başladı.

SSRİ Pnompendə hakimiyyətə gələn yeni hökuməti tanıdı, lakin eyni zamanda, qeyri- rəsmi olaraq Pekində məskunlaşan Sianuk ilə əlaqələrini davam etdirirdi. 1970-ci ilin may ayında, Sianuk mühacirətdə Çinin təkidi ilə “qırmızı kxmerlər”in nümayəndələrinin daxil olduğu "milli birlik hökuməti"nin yaradılmasını elan etdi.

1973-cü ilin sonlarında, Amerika qoşunlarının Cənubi Vyetnamın ərazisindən çıxarılmasından, kommunistlər və hökumət arasında qarşılıqlı iddiaların nizamlanması ilə bağlı uğursuz danışıqlardan sonra, ölkədə vətəndaş müharibəsi bərpa olundu. Sayqonun tərəfində silah-sursat üstünlüyü olsa da, Cənubi Vyetnam hökumətinin cəmiyyətdə dəstəyi yox idi. Ona qarşı, təkcə buddistlər deyil, Cənubi Vyetnam hökumətinin ənənəvi sütunu sayılan katoliklər də çıxırdı. 1 may 1975-ci ildə, Sayqon Cənubi Vyetnam və Şimali Vyetnam kommunistlərinin birləşmiş qüvvələri tərəfindən tutuldu. Cənubda olan hakimiyyət rəsmi olaraq "Cənubi Vyetnamın müvəqqəti inqilabi hökuməti"nin əlinə keçdi.

İki həftə əvvəl, 17 aprel 1975-ci ildə, Kambocada çin yönümlü “qırmızı kxmerlər”in dəstələri LonNolu hakimiyyətdən devirdi. Yeni hökumətin başçısı Kamboca Kommunist partiyasının lideri Salot Sar (Pol Pot) oldu. 1976-ci ildən isə özünə tam olaraq “PolPot” ləqəbini götürdü. Bu ad fransız ifadəsindən qısaldılmış və “mümkünlük siyasəti” *(politique potentielle)* mənasını verirdi. Keçmiş hökuməti tanıyan bütün ölkələrin diplomatları, o cümlədən SSRİ-nin də nümayəndələri Pnompendən çıxarıldı.

Cənubi Vyetnamın süqutu və Kambocada kommunist hakimiyyətinin qurulması ilə, Laosun koalisiya hökumətində yaranmış qeyri-sabit güc nisbəti pozulmuş oldu. 1975-ci ilin mayında, Vyentyanda, hökumətdə olan mühafizəkar fraksiyalara qarşı kütləvi etirazlar başladı. Patet Laonun təzyiqi ilə, mühafizəkar nazirlər kabinetdən çıxarıldı və hakimiyyət Vyetnam pərəst qüvvələrə verildi.

Bu hadisələrin gedişində, Hanoy ilə Pekin arasında bir- birlərinə inamsızlıq artmağa başlandı. Çin, Vyetnamın Moskvaya rəğbətindən şübhələnirdi və Hanoy isə Çinin Şimali Vyetnamın zəfərinin bəhrəsini mənimsəyərək, bütün Hind-Çini özünə tabe etmək cəhdlərindən ehtiyat edirdi. Pekinin iddiaları qarşı olan VDR-nın qəzəbi, Çin qüvvələrinin Cənubi Vyetnamın zəifliyindən istifadə edərək 1974-cü ildə,

Vyetnam ərazisi sayılan Spratli arxipelağının bir neçə adasını ələ keçirməsindən sonra daha da artdı. Çinin bu arxipelağın digər adalarını ələ keçirmə ehtimalını aradan qaldırmaq üçün, 1975-ci ilin aprelində, VDR qoşunları öz növbəsində qalan adaların ən əhəmiyyətli hissəsini işğal etdi.

Lakin, Çin-Vyetnam münasibətlərinin ən ağrılı problemi Kambocada yaranmış vəziyyət idi. Vyetnam rəhbərliyi, Xo Şi Minin, Hind-Çinin üç ölkəsini kommunist federasiyasına birləşməsi ilə bağlı fikrini əsaslanaraq, Laos və Kambocanı kiçik tərəfdaşlara çevirməyə ümid edirdi. Lakin, uzun müddət Vyetnam təsiri altında olan Laos rəhbərliyi ilə problemlər olmasa, Pnompendə hakimiyyətə gələn PolPot hökuməti çinə meylli olduğundan və Hanoyın yaratmaq istədiyi Vyetnam, Laos və Kamboca ittifaqına tabe olmaq niyyətində deyildi. "Qırmızı kxmerlər", VDR-ın Vyetnam və Kamboca silahlı qüvvələrini birləşdirərək, ortaq xarici və iqtisadi siyasət aparmaq təklifini rədd etdi. Pekin "qırmızı kxmerlər"ə dəstək olduğunu elan etdi.

ÇXR ilə artan münaqişənin böyüdüyünü hiss edən Vyetnam rəhbərliyi, hadisələrin qarşısını almaq üçün, önləyici addımlar atmağa çalışırdı. 1969-cu ildə, Xo Şi Minin vəfatından sonra, onun iradəsinə uyğun olaraq, "Cənubi Vyetnamın azad edilməsi" siyasətini Le Zuan davam etdirdi. 1975-ci ilin sentyabrında, Vyetnam Zəhmətkeşləri Partiyasının ( VZP) Mərkəzi Komitəsinin Baş katibi Le Zuan Pekinə rəsmi səfərə getdi, Mao Tszedun ilə görüşdü. Lakin, danışıqlar uğursuz başa çatdı, çünki Hanoyun ÇXR ilə birlikdə Sovet İttifaqının xarici siyasətini qınamağa hazır olmadığı məlum oldu.

1975-ci ilin oktyabr ayında, Le Zuanın Moskvaya etdiyi səfərin nəticələri tamamilə fərqli oldu. Moskva, Vyetnama köməyi artıracağına söz verdi və Vyetnam da beynəlxalq gərginliyi azaldılma siyasətini dəstəkləyəcəyini bildirdi.

Çin, Sovet-Vyetnam həmrəyliyi addımlarının təsiri ilə, 1975-ci ilin noyabr ayında, bütün Spratli arxipelaqına iddiaları ilə əlaqədar bəyanat verdi. Buna cavab olaraq, Vyetnam tərəfi Spratli və Parasel adalarının Vyetnam ərazisinin bir hissəsi olduğunu əks etdirən xəritə nəşr etdirdi.

Bu vaxt, Vyetnamın hər iki hissəsində ölkənin birləşməsi üçün lazım olan şərtləri hazırlayan məsləhət məclisi işə başladı. Seçkilər 1976-cı ilin iyun ayında, Vyetnamda keçirildi və 12 iyul 1976-cı ildə yeni seçilmiş qanunverici məclisin qərarı əsasında, Cənubi Vyetnam Şimal ilə birləşdirildi. Paytaxt Hanoyda vahid Vyetnam Sosialist Respublikası (VSR) yaradıldı. İndi regional gərginliyin əsas mənbəyi, Vyetnam Sosialist Respublikasının Kamboca və onu dəstəkləyən Çin ilə qərəzli münasibətləri oldu.

1976-cı ildə Vyetnam Kommunist Partiyasının IV qurultayı keçirildi, Le Zuan Şimal və Cənubu birləşdirən VKP-nin Mərkəzi Komitəsinin Baş katibi seçildi. Hökumətin rəsmi məlumatlarına görə, güney sakinlərini "yenidən tərbiyə etmək" üçün, 200 mindən çox şimallı ora göndərildi. Bu tədbir zamanı insanlığa qarşı edilən, bütün dəhşətli cinayətlər Le Zuanın razılığı ilə baş vermişdi. Yalnız, 9 iyul 1986-cı ildə ölümündən sonra, əksər siyasi məhbuslar azad edildi. Ölkədə islahatların keçirilməsi, yalnız diktatorun ölümündən sonra mümkün olmuşdu.

### 4.3. Kamboca probleminin yaranması və Çin-Vyetnam münaqişəsi

Kamboca və Vyetnam qüvvələri arasında 1974-cü ildən etibarən yaranan sərhəd münaqişələri, 1977-ci ilə qədər ağır texnikanın iştirak etdiyi hərbi toqquşmalara çevrilməyə başladı. 1977-ci ilin dekabrında, iki ölkə arasında diplomatik münasibətlər pozuldu. Qarşıdurmalar davam edərək, böyük miqyaslı müharibəyə çevrilmək təhlükəsi yaratmışdı. Həm də, Vyetnam qoşunları Kambocanın şərq bölgələrində qala bilmişdilər. ÇXR-in 1977-ci ildə, Vyetnam və Kamboca arasında danışıqlar aparmağa səylərinə baxmayaraq, hər iki tərəf bundan imtina etdi. Hanoy, üç Hind-Çin ölkəsi arasında "xüsusi" münasibətlər qurmaqda israr edirdi. Pnompen isə, VSR ilə əlaqələrin normallaşdırılması üçün, Vyetnam qoşunlarının ərazisindən çıxarılmasını əsas şərt kimi irəli sürürdü.

1978-ci ildə, SSRİ-nin Vyetnama, ÇXR-in Kambocaya verdiyi hərbi texnikanın miqdarını artırması, mövcud vəziyyəti daha da gərginləşdirdi. 1978-ci ilin iyul ayında, VSR Qarşılıqlı İqtisadi Yardım Şurasına (QİYŞ) qəbul edildi. 1978-ci ilin noyabrında, SSRİ-Vyetnam sülh və dostluq müqaviləsi bağlandı, bu da SSRİ-nin Vyetnama uzunmüddətli əsaslarla dəstək verməyə hazır olduğunu göstərirdi. Bu məsələ, ÇXR-in narahatlığının artmasına səbəb oldu. Bu duruma çinlilərin etnik problemi də əlavə olundu. Belə ki, 1978-ci ildə başlanan, kapitalist ünsürlərə (tacirlər, kiçik sahibkarlar) qarşı tədbirlər bəhanəsi ilə, Vyetnam Sosialist Respublikasından təxminən 1 milyon çinli qovulmuşdu.

1978-ci ilin dekabrında VSR, Kambocanın Vyetnam qoşunlarının yerləşdiyi ərazilərdə "milli qurtuluşun vahid cəbhəsi" nin yaradıldığını elan etdi. 1979-cu ilin yanvarında, Pnompen əslində Vyetnamda olan Kamboca mühacirlərinin iştirakı ilə, Vyetnam silahlı qüvvələri tərəfindən alındı. Kambocada Vyetnam yönümlü hökumət quruldu. Ölkə Kampuçiya Xalq Respublikası elan edildi. Vyetnamın işğalçılıq fəaliyyəti, Pekində, Cənub-Şərqi Asiyada Çin təsirinin əsasını aradan qaldırmaq cəhdi və Vyetnamın rəhbərliyi altında Sovet tərəfdarı olan blokun formalaşması istiqamətində bir addım kimi qəbul edildi. Vaşinqton da hadisələri,

eyni şəkildə ifadə etmişdi. Kambocada Vyetnam qoşunlarının qalması, ciddi beynəlxalq problemə çevrilmişdi.

1979-cu ilin yanvarında, Çin lideri Den Syaopin, Çin-ABŞ münasibətlərinin qurulmasına görə keçirilən, rəsmi mərasimdə iştirak etmək üçün, ABŞ-a rəsmi səfərə getdi. Xatirə məlumatlarına görə, Vaşinqtonda gedən danışıqlar zamanı ABŞ, Çinə Vyetnamın Kambocanı işğal etdiyinə görə "cəzalandırmaq" üçün aparacağı hərbi əməliyyatının "müdafiə xarakterli" olduğu təqdirdə, ABŞ-Çin münasibətlərinə zərər verməyəcəyini nəzərə çatdırdı. Lakin, tərəflərin hər birinin "müdafiə" əməliyyatı ifadəsinin mənasında, hansı fikiri nəzərdə tutduqları aydın deyildi.

17 fevral 1979-cu ildə, Çin silahlı qüvvələri Vyetnama hücum etdi və əyalət mərkəzi olan Laoşona doğru irəliləməyə başladı. Vyetnam, Çini təcavüzdə günahlandıraraq, şikayətlə BMT-yə müraciət etdi. Sovet İttifaqı Vyetnamı dəstəklədi, eyni zamanda təcili hərbi yardım göstərdi. Amerika Birləşmiş Ştatları bir aylıq Çin-Vyetnam müharibəsi zamanı (17 fevral - 17 mart 1979) rəsmi olaraq neytral mövqedən çıxış edərək, ÇXR-i dəstəkləməkdən çəkindi. ABŞ rəhbərliyi, Kambocadan Vyetnam qoşunlarının və Vyetnamdan isə Çin qoşunlarının çıxarılmasını tələb etdi. Ədəbiyyatda bu mövqeyin vahid qiymətləndirməsi yoxdur. Bir sıra müəlliflər hesab edirlər ki, əslində Birləşmiş Ştatlar şimaldan ÇXR-ə hücum etməməsi barədə, Sovet İttifaqına xəbərdarlıq göndərərək, Çinə dəstək vermişdi. Digərləri göstərir ki, Vaşinqton Çinə dəstək siyasətindən imtina etmişdi, çünki ÇXR Vyetnamın işğalını müdafiə tədbiri kimi təqdim edə bilməmişdi.

Kambocada VSR qoşunlarının olması ölkədə vəziyyəti sabitləşdirmədi. Tailandın sərhədi boyunca olan ərazilərdə "qırmızı kxmerlər" Çinin köməyinə arxalanaraq bazalar yaratmaq imkanı əldə etdilər. Tailand və Çin, Kambocada hökumət əleyhinə olan qüvvələrin təşkil olunmasında əməkdaşlıq edirdilər. Şərqi Asiyada kiçik və orta ölkələrin əksəriyyəti, Vyetnamın Kamboca siyasətini qınayaraq, bir neçə milyon terror qurbanlarına cavabdeh olan "qırmızı kxmerlər"ə də mənfi münasibət göstərirdilər. 1975-1978-ci illərdə, Kambocada hakimiyyətdə olduqları müddətdə, "qırmızı kxmerlər" "kapitalist ünsürlər"inə qarşı "təmizləmə" siyasəti aparmışdılar.

"Qırmızı kxmerlər"dən başqa Tailand ərazisindən, 1981-ci ildən Son Sannonun başçılıq etdiyi, kxmer Xalqının Milli Azadlıq Cəbhəsinin sağçı qrupunun silahlı qüvvələri də, Kambocaya qarşı fəallıq göstərirdilər. Onlar, 1970-ci ildə devrilmiş LonNol hakimiyyətinin tərəfdarları idilər. Nəhayət, Kamboca müqavimətinin xüsusi bir qrupu, Pnompendə hökumətə qarşı silahlı mübarizə etmək əvəzinə, siyasi manevrlə məşğul olan Norodom Sianuk ilə təmsil olunurdu. Norodom Sianuk, ASEAN ölkələrinin dəstəyinə arxalanaraq 1982-ci ilin iyununda, Kuala Lumpurda

Son Sannonun qrupunun və "qırmızı kxmerlər"in nümayəndələrinin iştirakı ilə, Demokratik Kampuçiya koalisiya hökumətini yaratdı. O vaxtdan etibarən, Kambocada hökumət əleyhinə mübarizə, bu koalisiyanın himayəsi altında aparılmışdı. Onlar Çin, Tailand və ABŞ-ın dəstəyindən istifadə edirdilər.

## 5.Çin Xalq Respublikasının xarici siyasəti

### 5.1. Çin-Yaponiya arasında sülh və dostluq müqaviləsinin bağlanması

Beynəlxalq sistemin periferiyasında Sovet-Amerika rəqabətinin artmasının "qayıdışı", Amerika rəhbərliyini, Sovet İttifaqının özü üçün əlverişli mövqe əldə edə bilmədiyi beynəlxalq sistemin uzaq kənar regionlarından SSRİ-yə təzyiq göstərməyin zəruriliyi haqqında düşünməyə vadar etdi. SSRİ üçün belə bir region Uzaq Şərq idi. 70-80-ci illərin sonunda, Sovet-Çin və Sovet-Yapon ziddiyyətləri ətrafında aparılan siyasi oyunlar, Amerika diplomatiyasının xarakterik xüsusiyyəti idi. Siyasi vəziyyət Vaşinqtonun xeyrinə idi. SSRİ-nin, ÇXR və Yaponiya ilə münasibətləri, gərgin olaraq qalırdı.

1973-cü ildə, Moskva ilə ərazi məsələlərində razılığa gəlmək üçün uğursuz bir cəhdindən sonra Tokionun qıcıqlandığını nəzərə alan ÇXR hökuməti Yaponiyaya təkcə sülh müqaviləsi deyil, tərəfdaşlıq müqaviləsi də imzalamağı təklif etdi. Pekin başa düşürdü ki, Yaponiya iş adamları Çin bazarının gələcəyi olduğunu və Çin-Yaponiya iqtisadi əməkdaşlığının faydalı olacağını düşünərək, iqtisadi əlaqələrdə maraqlı idilər. 1973-cü ildən sonra neft təchizatı sektorunda gedən dəyişkən vəziyyəti nəzərə alaraq, ÇXR hökuməti Çin neftinin Yaponiyaya böyük həcmli təchizatı ilə təmin edəcəyinə söz verdi.

ÇXR rəhbərliyi, müqavilənin mətninə Uzaq Şərqdə hər hansı bir dövlətin hegemonluğuna qarşı, Çin və Yaponiyanın ortaq çıxışı haqqında müddəanın daxil edilməsinə Tokionun razılığını istədi. Çin rəhbərliyi bu tezisə, Sovet İttifaqı əleyhinə olan mənada şərh verməyə çalışdı. 1972-ci ildə, ÇXR və ABŞ Şanxay bəyannaməsində hər iki ölkənin hegemonluğa can atmadığını və hər ikisinin hər hansı bir ölkənin belə hegemonluğun qurulması cəhdlərinə qarşı olduqlarını bildirmişdilər. İndi Yaponiya, eyni fikri söyləməyə dəvət edildi. Çin tərəfinin fikrincə, SSRİ hegemonluğa münasibətini bildirmək məsələsində təcrid edilməli idi ki, onun belə hegemonluğu qurmaq üçün gizli istəyi ifşa oluna bilsin. Pekinin anlamında, bu yaxınlaşma, Çin, Yaponiya və ABŞ-ın "sovet hegemonluğuna" qarşı, qeyri-rəsmi koalisiya yaratması demək idi. Moskva, Çin diplomatiyasının manevrlərinə kəskin əks cavab verdi. Sovet rəhbərliyi Çinin təklif etdiyi şərtlərlə,

Çin-Yapon müqaviləsinin bağlanmasının qarşısını almaq üçün, Tokioya təsir göstərməyə çalışdı.

Ancaq, 1978-ci ilin avqustunda Çin-Yapon sülh və dostluq müqaviləsi imzalandı. Düzdür, Yaponiya tərəfi Çin layihəsinə düzəlişlər etməyə nail oldu. Hegemonluq haqqında müddəa əsas mətndə deyil, müqavilənin giriş hissəsində (preambulasında) yer almışdı. Bundan əlavə, Çin və Yaponiyanın hegemonluğa qarşı "müştərək çıxışı" ifadəsi qəbul olunmadı. Mətndən görünür ki, hər bir tərəf “ayrı-ayrılıqda” buna qarşı çıxır. Bütövlükdə, Çin-Yaponiya müqaviləsinin bağlanması Sovet diplomatiyasının məğlubiyyəti və Çin, Yaponiya və ABŞ-ın SSRİ əleyhinə olan əməkdaşlıq siyasətinin uğuru kimi qiymətləndirilirdi. Şərqi Asiyada beynəlxalq vəziyyət gərginləşməkdə davam edirdi.

### 5.2. SSRİ, ABŞ və Çinin "üçtərəfli" münasibətlərinin formalaşması

1978-ci il ərzində, Vaşinqton ÇXR ilə diplomatik münasibətlər qurmaqda olan maneələri aradan qaldıra bildı. Amerika qoşunları Tayvandan çıxarıldı, Taypey ilə rəsmi münasibətlər qeyri-rəsmi hala keçdi. ABŞ rəhbərliyi, bir ildən sonra qüvvəsini itirməli olan, 1954-cü il Tayvan-ABŞ müqaviləsini ləğv etmək niyyətində olduğunu bildirdi. 1979-cu ilin yanvarında, Den Syaopinin ABŞ-a səfəri baş tutdu. Bu səfər dövründə iki ölkə arasında diplomatik əlaqələr quruldu.

Çin-Vyetnam konflikti, onda iştirak edən tərəflərə ciddi təsir bağışladı. Birləşmiş Ştatlar diplomatik cəhətdən, ÇXR-dən ayrıldı. Buna baxmayaraq Sovet İttifaqının münaqişəyə müdaxiləsi niyyətinin olacağı halda, ona qarşı olacağını açıq şəkildə bildirdi. Hərbi cəhətdən, Amerika hökuməti yeganə addımı “Konsteleyşn” avia daşıyan gəmisinə Tonkin körfəzinə getməsini və oradan Sovet hərbi gəmilərinin Vyetnam sahillərinə istiqamətlənmiş hərəkətlərini izləmək üçün əmr verməsi idi. Vyetnamın Kambocaya hərbi müdaxiləsi pislənsə də, Çinin Vyetnama hücumunda da, Pekinin hərəkətlərinə rəğbət bəslənilmirdi. Mövcud olan vəziyyət göstərdi ki, ÇXR ilə ABŞ arasında müttəfiqlik mümkün deyildi. Vaşinqtonda, ÇXR-in günahı üzündən SSRİ ilə qarşıdurmaya girmək qorxusu yaranmışdı. Necə ki, 1950-ci illərdə SSRİ, Çinin günahı üzündən ABŞ ilə az qala münaqişəyə cəlb olunacaq idi. Respublikaçılar C.Karteri Çin siyasətinə görə kəskin tənqid edirdilər.

C.Karter hökumətinin son illəri (prezident seçkiləri 1980-ci ilin noyabrında keçirilməli idi) Amerika Birləşmiş Ştatları və Çin arasında yaxınlaşma dövrü idi. Çünki Amerika rəhbərliyi, ÇXR-in Sovet İttifaqına qarşı çıxan ölkələrlə, "hegemonluq əleyhinə" siyasətinə əsaslanan koalisiyasını, SSRİ-nin qlobal şəkildə qarşısının alınması vasitəsi kimi qiymətləndirməyə başlamışdı. 1978-ci ilin yazından sonra, Moskvanın diqqətini kommunizm əleyhinə fikir və çıxışların

artdığı Polşada gedən hadisələrdən yayındırmaq üçün, Sovet-Çin gərginliyindən istifadə edilməsini müdafiə edən Z.Bjezinskinin Amerika siyasətinə təsiri artmışdı.

SSRİ, ABŞ və ÇXR arasında münasibətlər yüksək rəqabətliyi ilə seçilirdi. 1979-cu ildə, ABŞ və ÇXR Sintsyan bölgəsində, Monqolustan Xalq Respublikasında SSRİ-nin nüvə sınaq yerlərini izləmək üçün elektron mərkəzlər yaratdı. Bu izləmə mərkəzləri monarxiyaya qarşı olan inqilabdan sonra, İranda bağlanmış hərbi bazaları əvəz etmək üçün qurulmuşdu. Lakin elə həmin il, ABŞ Konqresi Tayvan ilə münasibətlər haqqında qanun qəbul etdi, bu da ABŞ-Tayvan münasibətlərinin vəziyyətini qeyri- rəsmi səviyyəyə endirsə də. Vaşinqtonun Taypey ilə əlaqələrini eyni səviyyədə saxlamasına imkan verdi. ABŞ-ın Tayvanla münasibətləri tamamilə kəsməkdən imtina etməsi, ÇXR-i qıcıqlandırırdı. Amerikanın qərarına cavab olaraq, Çin 1980-ci ildə sona çatan, 1950-ci il Çin-Sovet müqaviləsini uzatmaqdan imtina etdiyini elan etməsinə baxmayaraq, 1979-cu ilin aprelində, Sovet İttifaqını aralarında olan münasibətləri normallaşdırmaq üçün danışıqlara başlamağa dəvət etdi. Onlar, 1979-cu ilin sonlarında danışıqlara başladılar. Lakin Sovet İttifaqının 1979-cu ilin dekabrında, Əfqanıstana hücumu bu planların qarşısını aldı. Çin, ABŞ və Yaponiyanın Sovet İttifaqı əleyhinə olan manevrlərinə yeni təkan vermiş oldu.

### 6. İran-ABŞ qarşıdurması. İkinci "neft şoku"

Amerika diplomatiyasının Uzaq Şərqdə apardığı nisbətən uğurlu fəaliyyəti, Yaxın Şərqdə olan itkiləri ilə qarşılandı. Vaşinqtonun dünyanın bu bölgəsində əsas tərəfdaşı İran idi. Ölkə, Şah Məhəmməd Rza Pəhləvi tərəfindən avtoritar şəkildə idarə edilirdi. Şah, 60-70-ci illərdə İranı modernləşdirmək üçün bir sıra islahatlar həyata keçirdi. 1961-ci ildə, aqrar islahatlar haqqında qəbul edilmiş qanuna görə, böyük sahibkar torpaqları, sonradan əvəzi ödənilməklə, müsadirə edilməli və kəndlilərə satılmalı idi. 1963-cü ilin yanvarında, şahın təklif etdiyi islahat proqramı referendumla təsdiq edildi. Lakin, hökumətin iqtisadiyyatda və ictimai həyatda islahatlar keçirmək istəməsi, xüsusən qadınlara seçkilərdə iştirak etmək hüququ vermək üçün atdığı addımlar, ortodoksal ruhanilərin narazılığına səbəb oldu. Ruhanilərin başçısı Ayətullah R.Xomeyni şahı İslamın əsaslarını sarsıtmaqda, ABŞ və İsrailə kömək etməkdə günahlandırmağa başladı.1963-cü ilin iyununda, R. Xomeyninin həbsi hökumət əleyhinə nümayişlərə səbəb oldu. Etirazlar, hərbçilər tərəfindən yatırıldı.

İran hökumətinin ölkənin sənayeləşdirilmə siyasətini Qərb dəstəkləmədi. Onlar, Qərbdən kredit ala bilmədilər. İran Sovet İttifaqına müraciət etdi. O, Sovet İttifaqına təhlükə yarada biləcək, xarici dövlətlərin İran ərazisində hərbi bazalar yaratmasına icazə verməmək vədi ilə, SSRİ ilə münasibətləri yaxşılaşdırmağa

çalışdı. 1966-cı ilin yanvar ayında, Moskvada Sovet İttifaqının köməyi ilə İranda bir sıra böyük sənaye obyektlərinin tikilməsi və SSRİ-yə qaz tədarükü üçün trans-İran qaz kəmərinin inşası ilə bağlı Sovet-İran sazişi imzalandı.

Tehranın xarici siyasətinə neft bazarında olan hadisələrin böyük təsiri oldu. Neftin qiymətinin artması nəticəsində, ən böyük neft təchizatçısı olan İran, ixracdan gələn qazancını artırmağa müvəffəq oldu. Tehran iri obyektlərin (nüvə elektrik stansiyaları, neft-kimya zavodu, metallurgiya zavodları və s.) tikintisi üçün iddialı bir plan hazırladı. Bu proqramlar ölkənin imkan və tələblərini üstələyirdi.

Eyni zamanda, İran ordusunun modernləşdirilməsi üçün istiqamət götürüldü. 70-ci illərin ortalarında, ABŞ-dan silah alışı ildə 5-6 milyard dollara başa gəlirdi. 60-cı illərin ikinci yarısında, İngiltərə, Fransa və İtaliyada da silah və hərbi texnikalar üçün eyni miqdarda sifarişlər verilmişdi. Şah, ABŞ-ın dəstəyi ilə İranı bölgədə aparıcı hərbi dövlətə çevirməyə müvəffəq oldu. 1969-cu ildə, İran qonşu ərəb ölkələrinə ərazi iddialarını elan etdi. 1971-ci ildə Fars körfəzindən Hind okeanına çıxan Hörmüz boğazında üç adanı işğal etdi.

Bundan sonra, Tehran İraqla sərhəd sayılan Şatt əl-Ərəb çayının su hövzəsinin bir hissəsinə de-fakto öz nəzarətinə götürdü və bu da, İraqla diplomatik əlaqələrin kəsilməsinə səbəb oldu. 1972-ci ildə İran və İraq arasında münaqişə yarandı. İran, İraqda olan kürd müxalifət hərəkatına dəstək olmağa başladı. Ancaq, 1975-ci ildə, İran-İraq münasibətləri normallaşdı və Tehran kürdlərə yardım göstərməyi dayandırdı. ABŞ və İngiltərə, İranı müttəfiq hesab edərək, şah hökumətini Fars körfəzində aparıcı rol oynamağa təşviq edirdi.

C.Karter hökuməti, İran şahının ölkədə keçirdiyi cəza tədbirlərini təqdir etməsə də, Vaşinqton, xüsusən də, ərəb ölkələri tərəfindən "neft silahının" tətbiqi təhlükəsi yarandıqdan sonra Tehranla tərəfdaşlığı yüksək qiymətləndirdi. İran enerji daşıyıcıları bazarının sabitləşdirilməsində ABŞ və Qərbi Avropa ilə əməkdaşlıq etmişdi. ABŞ ilə yaxınlaşma, Amerika mədəniyyətinin və həyat tərzinin İrana nüfuz etməsi ilə müşayiət olunmuşdu. Bu, iranlıların milli ənənələrinə, mühafizəkar həyat tərzinə və İslam dəyərlərinə söykənən milli xarakterinə zidd idi. Monarxiya ilə cəmiyyətin geniş təbəqələri arasında olan mədəni-psixoloji uçurum böyüdü. Mövcud siyasi durum molla və bazar tərəfindən idarə olunurdu.

Qərbləşmə siyasəti, hakimiyyətin özbaşınalığı, korrupsiya, iqtisadiyyatın struktur parçalanması, əhalinin maddi vəziyyətinin pisləşməsi ilə müşayiət olunurdu. Bu narazılığı getdikcə artırırdı. 1978-ci ildə, ölkədə monarxiya əleyhinə olan kəskin narazı hisli kütlələrin sayı artırdı. Hər yerdə kortəbii mitinqlər və nümayişlər başlamışdı. Çıxışları yatırtmaq üçün, polis, xüsusi xidmət orqanlarının və ordunun güclərindən istifadə etməyə çalışırdılar. Şah əleyhinə, etiraz aksiyalarının həbs

edilmiş fəallarına işgəncə verilməsi və öldürülməsi barədə şayiələr vəziyyəti tamamilə kəskinləşdirdi. 1979-cu il yanvarın 9-da Tehranda üsyan başladı. Ordu təcrid olundu və hökumətin köməyinə gəlmədi. Yanvarın 12-də, üsyançıların ələ keçirdiyi Tehran radiosu İranda İslam inqilabının qələbəsini elan etdi. 16 yanvar 1979-cu ildə şah, ailə üzvləri ilə birlikdə ölkəni tərk etdi.

1 fevral 1979-cu ildə, Fransada mühacirətdə olan, Ayətullah R.Xomeyni Tehrana qayıtdı. Tərəfdaşı Məhəmməd Bazarqana müvəqqəti hökumət yaratmağı tapşırdı. 1 aprel 1979-cu ildə, ölkə rəsmi olaraq İran İslam Respublikası (İİR) elan edildi. Ali hakimiyyət İmam R.Xomeyniyə verildi.

4 noyabr 1979-cu ildə, iranlı tələbələr ABŞ-ın Tehranda yerləşən səfirliyinin ərazisinə girdilər və Amerika diplomatlarını girov götürdülər. Etirazçılar Vaşinqtondan, ABŞ-da olan şahın İrana təhvil verilməsini tələb etdilər. Onların tələbləri İran hakimiyyəti tərəfindən dəstəkləndi. Buna cavab olaraq, Prezident C.Karter İranla diplomatik əlaqələrinin 1980-ci il aprelin 7-dən kəsildiyini elan etdi. Tehrana qarşı sanksiyalar tətbiq edildi. C.Karter İran neftinin idxalına qadağa qoydu və ABŞ banklarında İran aktivlərinin (təxminən 12 milyard dollar) dondurulduğunu elan etdi. 1980-ci ilin mayında, Avropa Birliyi ölkələri də İrana qarşı sanksiyalara qoşuldu.

Tehranda baş verən hadisələr ikinci "neft şoku"na səbəb oldu. Bu vəziyyət, İran neftinin ixracının dayandırılması ilə bağlı narahatlıqla əlaqədar yaranmışdı. 1974-cü ildə, bir barel (159 litrdir) neft üçün 12-13 dollardan başlayan qiymətlər, 1980-ci ildə sərbəst bazarda 36 və hətta 45 dollar səviyyəsinə yüksəldi. İkinci "neft şoku"ndan sonra, dünyada yeni iqtisadi geriləmə başlandı. Bu proses, 1981-ci ilə qədər bəzi ölkələrdə isə 1982-ci ilə qədər davam etmişdi.

### 7. Beynəlxalq münasibətlərdə neft-dollar dövriyyəsi problemi

Ərəb ölkələrinin enerji qiymətlərinin yüksəlməsindən sonra, almağa başladığı nəhəng neft ixracından gələn gəlirləri, ərəb ölkələrinin özlərinə effektiv şəkildə investisiya kimi qoyula bilinmədi. Onların iqtisadiyyatı bu qədər investisiyanı yatıra bilmədi. İnfrastruktur da daxil olmaqla bir çox bahalı və nüfuzlu layihələrin həyata keçirilməsinə baxmayaraq, ərəb neft sahibkarlarının kapitalları yerli şəraitdə mənfəət gətirmirdi. Buna görə, neft kapitalının sahibləri, onları Qərb banklarında, ilk növbədə İsveçrədə yerləşdirməyə başladılar. "Neft pulları" Avropaya axdı, burada Avropa bank sistemlərindən keçərək "avro pul"a çevrilirdilər və dünyanın müxtəlif ölkələrində investisiya şəklində yerləşərək dünya tədavülü kanalları ilə dövriyyəyə başlayırdılar. "Neft pulları"nın həddindən çox olması, beynəlxalq kredit vermə şərtlərini, o cümlədən inkişaf etməmiş ölkələrin kreditləşdirilməsini asanlaşdırdı.

ABŞ və Qərbi Avropada ərəb sərmayələri artmağa başladı. 1970-ci illər üçün bu ölkələrdə ərəb icmaları mövcud idi. 70-ci illərdə, ABŞ-da immiqrasiya qanununun liberallaşdırılmasından sonra, bu icmalar sürətlə böyüməyə başladılar. Ərəb neft pulları, ABŞ-a və digər ölkələrə qohumluq əlaqələri kanalları vasitəsi ilə gətirilirdi. Bu “neft pulları” orada xarici fiziki və hüquqi şəxslərin adından deyil, amerikan vətəndaşları və onların yaratdıqları şirkətlər adından sərmayəyə qoyulurdu. Bu sərmayələr Amerika vətəndaşlığı olan sahibləri tərəfindən qanuni olaraq qeydiyyata alınır, lakin faktiki mənşəyi xarici olan vəsaitlər hesabına yaradılırdı. Ərəb neft pulları öz "milliyyətini dəyişdirirdi."

Maliyyə və iqtisadi cəhətdən, "neft pulları"nın dövriyyəsi Qərb ölkələri üçün xeyirli idi. Onlar, təkrar investisiya qoyuluşu üsulu ilə, ərəb neftinin idxalı üçün ödənilən vəsaiti geri alırdılar. Lakin siyasi cəhətdən, ABŞ-a və digər Qərb ölkələrinə neft pullarının "geri qaytarılmasının" fəsadları birmənalı deyildi. İllər keçdikcə Amerika iqtisadiyyatında, "Ərəb neft pulları" ABŞ-a hər zaman bitərəf olmayan etnik təşkilatlara dəstək olmaq üçün maliyyə mənbəyi ola biləcək kapital sektorunun meydana gəlməsinə kömək etmiş oldu.

70-ci illərin ikinci yarısından etibarən, ABŞ-da və bir sıra Qərbi Avropa ölkələrində yerli (Amerika, İngilis, Fransız və s.) iqtisadiyyatın digər hissələrindən qanuni olaraq fərqli olmayan, ancaq Ərəb Şərqi ilə genetik olaraq əlaqəli olan, "neft pulları iqtisadiyyatı" sektoru yaranmağa başladı. Əslində, o, ərəb mənşəli icmalar, klanlar və qruplar tərəfindən idarə olunurdu. Bu sektor, onu "qəbul edən" ölkələrin güc sistemində, müvafiq "ərəb-neft" icmalarının maraqlarını təmsil etməyə çalışan lobbi strukturlarının formalaşması üçün dayaq oldu.

"Ərəb-neft" maraqlarının piramidaları, kiçik şirkətlərdən və ərəb şərqindən gələn mühacirlərin müxtəlif mədəni cəmiyyətlərindən ibarət idi. Buraya, müvafiq icmaların maraqlarına xidmət edən və ərəb ölkələrindən gələnlərin hüquqi müdafiəsini təmin edən hüquq şirkətləri daxil idi. ABŞ-ın liberal qanunları, "ərəb-neft" icmalarının nümayəndələrinə Birləşmiş Ştatların sosial-iqtisadi həyatının bütün sahələrində özlərinə yer tapmağa imkan verirdi. Bu da, ABŞ-da ərəb "neft-iqtisadi" varlığının ilkin formasının ildən-ilə getdikcə daha tez silinməsi ilə nəticələnirdi. Lakin, ideoloji-mədəni və siyasi-psixoloji əlaqələr səviyyəsində, Qərb ölkələrinin iqtisadiyyatlarının "ərəb-neft sektoru" ona ilkin kapital verən əsas dövlətləri ilə bağlılığı qalırdı. Onun ətrafında müxtəlif təbiətli etnik təşkilatlar şəbəkəsi yaradılırdı, onların bir hissəsinin fəaliyyəti ABŞ-ın milli təhlükəsizliyinə zərər verirdi.

Sonrakı onilliklər ərzində "neft pulları" kütləsinin dövriyyəsi güclü transmilli bank şəbəkələrinin formalaşmasında stimullaşdırıcı rol oynadı. XX əsrin sonlarında.

transmilli banklar əsas idarəetmə mərkəzlərinin yerləşdiyi "milli" hökumətlərlə əlaqələri itirməyə başladılar. Onlar, beynəlxalq münasibətlərdə nisbətən müstəqil, qismən özünü təmin edən bir gücə çevrilirdilər. Bu transmilli bankların maraqları ayrıca götürülmüş bir dövlətin və hətta ən güclü dövlətlərin də maraqlarına zidd gedə bilərdi.

### 8. Yaxın Şərqdə yeni gərginlik mərkəzlərinin yaranması

Yaxın Şərqdə yaranan vəziyyət, İsrail ilə barışıq meyli ilə çoxsaylı münaqişələrin düyünə düşməsi ilə xarakterizə olunur. SSRİ və ABŞ-ın sədrliyi ilə keçirilən Cenevrə konfransında müəyyən uğurlar əldə edildi. 19 yanvar 1974-cü ildə, Misir-İsrail qoşunlarının aralanması haqqında imzalanmış sazişə görə, İsrail qüvvələri Süveyş kanalının qərb sahilindən şərqə çəkildi. 18 fevral 1974-cü ildə, Misir ilə ABŞ arasında diplomatik münasibətlər bərpa edildi və iyunda Prezident R.Nikson Qahirəyə səfər etdi. Bu görüş zamanı, R.Nikson ilə Ə.Sadat arasında ABŞ-Misir əməkdaşlığının inkişafı ilə bağlı razılıq əldə edildi.

31 may 1974-cü ildə, Suriya İsrail ilə qoşunlarının aralanması haqqında saziş imzaladı. Elə həmin ilin iyun ayında, Suriyanın ABŞ ilə diplomatik münasibətləri bərpa edildi. Ancaq, H.Əsəd bundan artığına razılaşmağı mümkün saymadı. Onun fikrincə, hətta 242 saylı qətnamə, Fələstin xalqının və ərəb millətinin maraqlarına cavab vermir. Qoşunların aralanması ilə bağlı ikinci Misir-İsrail müqaviləsi 1975-ci ilin noyabr ayında imzalandı. Müqaviləyə görə, İsrail qoşunları Süveyş kanalından Sinay yarımadasının içərisinə doğru çəkildi və kanalda gəmilərin hərəkəti bərpa edildi. Artıq məlum oldu ki. Misir İsrailin təcavüzünə qarşı mübarizədən tam imtina etmişdir.

Belə dəyişikliyi öncədən görən Suriya lideri, 1975-ci ilin əvvəllərində "şimalda İsrailə qarşıdurma cəbhəsi"nin yaradılmasını təklif etdi. “Şimal cəbhəsi”, Suriya, İordaniya, Livan və FAT birliyi daxil olmaqla qurulmalı idi. Fələstin Azadlıq Təşkilatı (FAT) 1974-cü ildə, Ərəb Dövlətləri Birliyi (ƏDB) tərəfindən Fələstin xalqının yeganə qanuni nümayəndəsi kimi tanındı və BMT-də müşahidəçi statusu aldı. "Şimal cəbhəsi" planı "Böyük Suriya" layihələrini çox xatırladırdı.

"Şimal cəbhəsi" ideyasının reallaşması üçün atılan ilk addım, 1975-ci ilin mart ayında, Suriya ilə FAT arasında ortaq hərbi-siyasi rəhbərliyin yaradılması haqqında müqavilənin bağlanması oldu. Həmin ilin iyun ayında, H.Əsəd Əmman şəhərinə gedərək, burada Suriya-İordaniya konfederasiyasının yaradılması haqqında saziş imzalamışdı. Saziş silahlı qüvvələrin müştərək komandanlığı da daxil olmaqla, bir sıra millətlərüstü qurumların meydana gəlməsini təmin edirdi.

Yeni vətəndaş müharibəsi ərəfəsində olan Livanı, "şimal cəbhəsinə" cəlb etmək daha çətin oldu. Livan ərazisindən FAT silahlılarının fəaliyyəti və İsrailin onlara cavab zərbələri Livan siyasi rəhbərliyinin xristian (maronit) və müsəlman tərəfləri arasındakı ziddiyyətləri daha da artırırdı. Xristianlar Fələstinli yaraqlıların Livan ərazisində qalmasına qarşı çıxırdılar. Livan müsəlmanları və xristianları öz silahlı birləşmələrini yaratmağa başladılar. 13 aprel 1975-ci ildə, Fələstinli dəstə ilə maronit dəstəsinin silahlı toqquşması baş verdi. Bu hadisə, Livan müsəlmanlarının da iştirak etdiyi böyük bir münaqişəyə çevrildi. Ölkədə vətəndaş müharibəsi başladı. 1975-ci ilin noyabr ayında, FAT-ın daxil olduğu müsəlman koalisiyasının daha güclü olduğu məlum oldu. İsrail maronitlərin köməyinə gələrək, onları silah və hərbi texnika ilə təmin etməyə başladı. Bu, Livan silahlı qüvvələrinin rəhbərliyində parçalanmaya səbəb oldu. Ölkə anarxiyaya doğru gedirdi.

Bu vəziyyətdən istifadə edən H.Əsəd, 1975-ci il dekabrın sonunda, müharibə edən tərəflərə ultimatum təqdim edərək, atəşkəs elan olunmasını tələb etdi. Maronitlər razılaşsalar da, müsəlman koalisiyası imtina etdi. Suriya, Livana böyük bir dəstə göndərərək, müsəlman koalisiya birləşmələrini sıxışdırıraq, döyüşən tərəfləri bir-birindən ayırdı. 1976-cı ilin iyununda, ƏDB Şurası Livanda Suriya qüvvələrinə sülhməramlı qüvvələr statusu vermək haqqında qərar verdi. Onlara Səudiyyə Ərəbistanı, Sudan, Liviya və Əlcəzairdən olan birliklər qoşuldu. Oktyabr ayında ölkədə vəziyyət sabitləşdi. 27 oktyabr 1975-ci ildə, Livanda ƏDB və FAT arasında, Livanda yerləşən FAT bölmələrinin statusu haqqında müqavilə imzalanmışdı. Müqaviləyə görə, Livan ərazisində olan fələstinli yaraqlıların hərbi əməliyyatlar keçirməsinə müəyyən məhdudiyyətlər qoyuldu. FAT rəhbərliyi buna əməl etmədi və Livanın cənubundan İsrailə "fədai" basqınları davam etdirilirdi. Buna cavab olaraq, 1976-cı ilin sonunda, İsrail- Livan atəşkəs xəttində "təhlükəsizlik zonası" yaratmaq qərarına gəldi. Bu əraziyə İsrailin köməyi ilə maronit dəstələri göndərildi. Onların vəzisəsi fələstinli yaraqlıların fəaliyyətinin qarşısını almaq idi.

Suriyanın Livanda gedən vətəndaş müharibəsinə müdaxiləsi, İraq - Suriya münaqişəsini daha da gücləndirdi. 1968-ci ildə, növbəti hərbi çevrilişdən sonra hakimiyyətə gələn Baas Partiyası öz mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdi. Baasçılar iki vacib problemi həll edə bildilər.

Birincisi, 1972-ci ilin iyununda, neft inhisarı "İraq neft şirkətini" milliləşdirərək, ölkənin iqtisadi müstəqilliyini təmin edə bildilər. Lakin, İraq nefti beynəlxalq neft şirkətləri tərəfindən boykot edildi. İraq, SSRİ-nin dəstəyi sayəsində bu problemi asanlıqla aradan qaldırdı. 9 aprel 1972-ci ildə, 15 il müddətinə Sovet-İraq dostluq və əməkdaşlıq müqaviləsi bağlandı.

İkincisi, İraq baasçıları milli kürd hərəkatını boğmağı bacardılar. Və bu istiqamətdə müvəffəqiyyət bacarıqlı xarici siyasət manevrinin - 13 iyun 1975-ci ildə, Bağdadda dostluq və mehriban qonşuluq haqqında İran-İraq müqaviləsinin imzalanması sayəsində əldə edildi. Bu müqavilənin bağlanmasının təşəbbüskarı, İraqın o vaxt ki, vitse prezidenti Saddam Hüseyn olmuşdu. S.Hüseyn, Bağdad və Tehranda olan hakimiyyətləri birləşdirən anti-kürd fikri əsasında, 1975-ci ilin martında Əlcəzairdə olan görüşdə İran şahı ilə razılığa gələ bilmişdi. İran, müqavilə üzrə öhdəliklərini tam yerinə yetirərək, İraq-İran sərhədini bağladı və İraq kürdlərini İran ərazisində yerləşən bazalardan istifadə etmək imkanından məhrum etdi. Mühasirəyə alınan İraq kürdlərinin silahlı qüvvələri İraq ordusunun hücumuna tab gətirə bilmədilər və məğlub oldular.

İraq baasçıları anti-sionizmi-- İsrailin ləğvi uğrunda mübarizəni xarici siyasətlərinin əsas prinsiplərindən biri elan etdilər. İraq hökuməti, 242 saylı qətnaməni tanımadığını bəyan etdi. İraq qüvvələrinin böyük bir qrupu (iki zirehli diviziya) 1973-cü il müharibəsinin Suriya cəbhəsində iştirak etdi. Təhlükəsizlik Şurasının 338 saylı qətnaməsinə uyğun olaraq hərbi əməliyyatlar dayandırıldıqda, İraq onu tanımadı və İsrail ilə müharibə vəziyyətində olmasının davam etdiyini elan etdi.

İraq baasçıları, H.Əsədin İsrail ilə qoşunların aralaşdırılmasına razı olmaq qərarından, xüsusilə narazı qaldılar. Livanda müharibə başlayanda, H.Əsəddən, İraq qoşunlarını Livana "sionizmə qarşı mübarizə aparmaq üçün" buraxmasını tələb etdilər. H.Əsəd bu tələbi rədd etdi və buna cavab olaraq Bağdad, Suriya ilə sərhədə qoşun toplamağa başladı. 3 noyabr 1976-cı ildə, İraq Suriya ilə diplomatik əlaqələrini kəsdi. Misir Prezidenti A.Sadatın barışdırıcı fəaliyyəti nəticəsində, qarşıdurmanın daha da kəskinləşməsi baş vermədi.

İsrail və Misir qoşunların ikinci ayrılmasından sonra, ABŞ-ın vasitəçiliyi ilə, ümumi nizamlanma üzrə Misir-İsrail danışıqları başlandı. Lakin, iki il ərzində heç bir razılıq əldə edilmədi. 1977-ci ilin noyabrında, Ə.Sadat qətiyyətli addım atdı. O, bu vaxta, İsrailin paytaxtı elan edilmiş və bu məsələnin heç bir ərəb ölkəsinin tərəfindən tanınmadığı Yerusəlimə getdi.

Orada Misir lideri, İsrailin Baş Naziri Menaxem Beqin ilə danışıqlar apararaq, tənzimləməni sülh yolu ilə həyata keçirmək məsələsində razılığa gəldi. 1978-ci ilin sentyabrında, Ə.Sadat və M.Beqin, ABŞ-ın Kemp Devid şəhərində, ABŞ prezidentlərinin şəhərkənarı iqamətgahında iki müqavilə imzaladılar: "Misir və İsrail arasında sülh müqaviləsinin çərçivəsi" və "Yaxın Şərqdə sülh nizamlanmasının çərçivəsi". Bunlardan birincisinin həyata keçirilməsi, 25 mart 1979-cu ildə,

Vaşinqtonda İsrail və Misir arasında sülh müqaviləsinin bağlanmasına səbəb oldu. Misir, həqiqətən, İsrail ilə mübarizədən çıxdı.

Ə.Sadatın Qüdsə ziyarəti digər ərəb dövlətləri və FAT-ın mənfi münasibətinə səbəb oldu. 5 dekabr 1977-ci ildə, Liviya lideri Müəmmər Qəddafinin təşəbbüsü ilə Tripolidə İsrail ilə hər hansı məsələnin sülh yolu ilə nizamlanmasına qarşı çıxan ərəb ölkələrinin toplantısı keçirildi. Burada, möhkəmlik və əks müqavimət Cəbhəsinin yaradılması qərara alındı. Onun əsas vəzifəsi, Ə.Sadatın "ərəb millətinin maraqlarına xain" çıxdığına görə, onun aradan qaldırılması uğrunda mübarizə elan olundu.

Kemp Deviddə müqavilənin imzalanmasından sonra, 1978-ci il oktyabrın sonunda Bağdadda, Misirin iştirakı olmadan keçirilən ƏDB Şurasının iclasında, İsrail ilə sülh müqaviləsi imzaladığı təqdirdə, Misirə boykot elan olunacağı qərarı qəbul edildi. Müqavilə imzalanandan sonra, ƏDB üzv dövlətlərinin böyük əksəriyyəti Misir ilə diplomatik əlaqələri kəsdi və ona boykot elan etdi. Bu addımı atmayan dövlətlər Sudan, Somali və Oman oldu. Misirin Ərəb Birliyinə və İslam Konfransı Təşkilatına üzvlüyü də dayandırıldı. Bu boykot on il davam etdi.

Misir-İsrail sülh müqaviləsinə SSRİ də kəskin şəkildə mənfi olaraq qarşıladı. Onun rəhbərliyi, separat sazişə görə Misiri qınadı. Bundan əvvəl də, SSRİ Sovet-Misir münasibətlərinin soyumasından narahat idi. 1976-cı ilin martında Misir, Sovet-Misir dostluq və əməkdaşlıq müqaviləsini ləğv etdi. 1977-ci ilin yanvar ayından etibarən müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə Sovet-Misir əməkdaşlığının məhdudlaşdırılması başlandı. 1979-cu ildə, Ə.Sadat Misir ordusunu Amerika silahları ilə yenidən təchiz etməyi qərara aldı və növbəti il NATO-ya hərbi "imtiyazlar" veriləcəyini elan etdi.

Misir xalqı, İsrail ilə sülh müqaviləsinə tam başqa cür münasibət göstərdi. İllərlə davam edən uğursuz müharibələrdən bezmiş, Misir xalqı onu təqdirlə qarşıladı. Onlar, Amerikanın köməyindən, o cümlədən taxıl təchizatından istifadə edərək aclıq vəziyyətindən və sosial-iqtisadi böhrandan çıxmaq üçün imkan yaranacağına inanırdılar. Ancaq, ölkədə müqaviləyə qarşı etiraz edənlər də var idi. Bunlar islam ifratçıları və ilk növbədə "Müsəlman qardaşları" təşkilatı idi.

"Müsəlman qardaşları" təşkilatı, C.Ə.Nasir tərəfindən dağıdıldıqdan sonra, o, öz nüfuzunu yenə canlandıra bildi. Gəncliyində bu təşkilata üzv olan Ə.Sadat, ona şərait yaratmışdı. "Ərəb sosializmi" tərəfdarları ilə mübarizəsi zamanı, islamdan istifadə etmək qərarına gəlmişdi və onların təşkilat rəhbərlərinin mühacirətdən qayıtmasına razılıq vermişdi. Onlar, Səudiyyə Ərəbistanından böyük maliyyə yardımı alaraq, "İslam dövlətçiliyi" uğrunda geniş təbliğat tədbirlərinə başlamışdılar. Onların əsas fikirləri "İslam - əsas həll yoludur" şüarı idi.

İsrailin barışmaz əleyhdarları olan İslam fundamentalistləri (islamçılar) sülh müqaviləsini “sionist dəstələrə” təslimçilik kimi qəbul etdilər və onların yaraqlı döyüşçüləri dövlətin rəhbər xadimlərini qarşı terrora başladılar. Bir neçə iri məmuru öldürdülər və 6 oktyabr 1981-ci ildə, 1973-cü il müharibəsinin ildönümündə keçirilən hərbi nümayişdə Prezident Ə.Sadat da öldürüldü. Onun ölümü Misirin daxili və xarici siyasətində böyük dəyişikliklərə səbəb olmadı. Misirdə hakimiyyətə gələn vitse-prezident Hüsni Mübarək bəzi düzəlişlərlə əvvəlki siyasi istiqaməti qoruyub saxladı.

**9. SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi və gərginliyin azaldılması siyasətinin dayandırılması**

Əfqanıstanda yaranan münaqişənin kəskinləşməsindən sonra beynəlxalq vəziyyət daha da gərginləşdi. Əfqanıstanın əsas əhalisi puştunlar (39%, təxminən 8 milyon nəfər), taciklər (25%, 3 milyondan çox), xəzərlər (19%) və özbəklər (5%) təşkil edirdi. Əfqan cəmiyyətinin siyasi qüvvələri sosial siniflə deyil, daha çox etnik prinsip üzrə qurulmuşdu.

17 iyul 1973-cü ildə, bu ölkədə dövlət çevrilişi baş verdi. İtaliyada müalicə alan hökmdar Zahir Şah vəzifəsindən salındı və Kabildə onun qardaşı Məhəmməd Davud hakimiyyətə gəldi. Monarxiya ləğv edildi və ölkə Əfqanıstan Respublikası elan edildi. Yeni hakimiyyət tezliklə beynəlxalq ictimaiyyət tərəfindən tanındı. Moskva, çevrilişi müsbət qarşıladı, çünki M.Davud SSRİ-də çoxdan tanınırdı, o, uzun illər idi Əfqanıstanın Baş Naziri vəzifəsində idi. "Liberal" kimi bir nüfuza sahib idi, hətta Qərbdə onu "qırmızı şahzadə" adlandırırdılar. Əslində, M. Davud solçu əfqan siyasətçiləri ilə əməkdaşlıq edirdi.

Böyük dövlətlərlə münasibətlərdə yeni hökumət onlardan heç birinə üstünlük vermədən, Əfqanistanın ənənəvi tarazlaşdırma siyasətini davam etdirirdi. Bu siyasət zarafatla, "Amerika siqaretlərini sovet kibritləri ilə alışdırmaq" adlanırdı. ABŞ, Əfqanıstana qarşı siyasətini dəyişdirməyi zəruri saymayaraq, Kabilə iqtisadi yardım göstərməyə davam etdi. Əfqanıstanda sovet təsirinin güclənməsindən ehtiyat edən, Amerika nümayəndələri M.Davudu inandırırdılar ki, onun siyasətinin əsas məqsədi Əfqanıstan müstəqilliyini gücləndirmək və qoşulmama istiqaməti ilə getməkdir. M. Davud Amerikanın ölkəsində olan mövcudluğunu Sovet təsirinə qarşı bir tarazlıq hesab edirdi. Eyni zamanda, M. Davud Vaşinqtonu inandırırdı ki, Sovet-Əfqanıstan əməkdaşlığı, qonşuluq amilinə əsaslanan “təbii zərurət”dir.

Moskva Əfqanıstana iqtisadi və hərbi yardımları artırır, əfqan ordusunda nüfuzunu genişləmdirir və Əfqanıstan Xalq Demokratik Partiyasına (ƏXDP) gizli dəstək verirdi. M.Davudun 1974-cü ildə, Sovet İttifaqına səfəri Kabil və Moskva

arasında olan münasibətlərinin möhkəmliyini nümayiş etdirdi. SSRİ, Əfqanıstana 100 milyon dollar borcun ödənilməsini təxirə saldı və 428 milyon dollar məbləğində yeni kredit verəcəyinə söz verdi.

Ancaq ölkədə vəziyyət dəyişirdi. Öz hakimiyyətini gücləndirən M.Davud solçuları dövlət qurumlarından kənarlaşdırmağa başladı. Dövlət orqanlarının kadr tərkibində gedən dəyişiklik ölkənin xarici siyasət istiqamətinə təsir göstərdi. M.Davud, İran və Fars körfəzinin neft istehsal edən ölkələri ilə yaxınlaşmağa başladı ki, onlardan maliyyə yardımı ala bilsin. Moskva Əfqanıstanda İranın təsirinin artmasından və Tehranın SSRİ-ni sıxışdırmaq üçün, mümkün cəhdlərindən ehtiyat etməyə başladı. Lakin, Moskvanı Davudun solçu dairələrə qarşı apardığı siyasətdən daha çox narahat olurdu. Öz növbəsində, Kabildə sovet xüsusi xidmətinin artan fəaliyyəti Əfqanıstan Prezidentini çox qorxudurdu.

1977-ci ildə, M. Davud hökuməti, Moskvanın Asiyada kollektiv təhlükəsizlik ideyasını dəstəkləməkdən imtina etdi. Çünki, Əfqanıstan hökumətinin, Sovet proqramının ayrılmaz hissəsi olan sərhədlərin toxunulmazlığının tanınması, Əfqanıstanın Pakistanla sərhədi kimi "Durand xəttini" tanıması demək idi. Ancaq bu məsələ, Kabilin Moskva ilə əməkdaşlığına təsir etmədi. SSRİ, Əfqanıstana yardım baxımından ABŞ-ı üç qat üstələdi. Bununla yanaşı, Moskva Əfqanıstan Xalq Demokratik Partiyasını (ƏXDP) dəstəkləyərək, fraksiyalar ilə birləşməyə sövq edərək, onları M.Davuda qarşı qətiyyətli hərəkətlərə təşviq etdi.

27 aprel 1978-ci ildə Əfqanıstanda, ƏXDP üzvləri və tərəfdarları olan ordu zabitləri yeni çevriliş həyata keçirdilər. M.Davud və bəzi nazirlər öldürüldü. Ölkədəki hakimiyyət ƏXDP-yə keçdi. 27 aprel hadisələri "milli demokratik inqilab" elan edildi. Ölkə, Əfqanıstan Demokratik Respublikası (ƏDR) adlandırıldı. Hakimiyyətin ən yüksək orqanı, ƏXDP Mərkəzi Komitəsinin Baş katibi Nur Məhəmməd Tərakinin (Puştun) başçılıq etdiyi İnqilab şurası oldu.

SSRİ və ondan sonra, bir sıra digər ölkələr ( təqribən 50) yeni hakimiyyəti tanıdılar. Sovet İttifaqı ilə, "qardaşlıq və inqilabi həmrəylik" prinsiplərinə əsaslanan əlaqələr, ƏDR-ın xarici siyasətində prioritet elan edildi. Aprel inqilabından sonrakı ilk aylarda, SSRİ ilə ƏDR arasında ümumi dəyəri 104 milyon dollar olan ticarət, iqtisadi, texniki və mədəni əməkdaşlıq sahəsində bir sıra saziş və müqavilələr bağlandı. Ölkəyə yüzlərlə Sovet müşaviri və mütəxəssisi gəldi. 1978-ci ilin iyun ayında, Əfqanıstana 250 milyon dollar məbləğində sovet silahlarının təchizatı haqqında müqavilə bağlandı və 1979-cu ilin aprelində, ölkədə sovet hərbi təlimatçılarının sayı 1000 nəfərə çatdı. 1978-ci ilin noyabr ayında, Kabildə Sovet Elm və Mədəniyyət evi, 1979-cu ilin oktyabrında, Sovet İttifaqının köməyi ilə,

ƏXDP Mərkəzi Komitəsi yanında İctimai Elmlər İnstitutu açıldı. 1979-cu ildən sonra, Sovet İttifaqı ildə 1500 əfqan tələbəsini təhsil almağa qəbul etməyə başladı.

Sovet-Əfqanıstan münasibətlərinin yarım müttəfiqlik xarakteri, N.M.Təraki və L.İ. Brejnev tərəfindən 5 dekabr 1978-ci ildə, Moskvada imzalanmış Dostluq, Qonşuluq və Əməkdaşlıq sazişində 20 il müddətinə təsbit edildi. Razılaşma, tərəflər arasında hərbi sahədə əməkdaşlığı nəzərdə tuturdu, lakin bir tərəfin silahlı qüvvələrinin digərinin ərazisinə yerləşdirilməsinin mümkünlüyü konkretləşdirilmədi.

Hakim ƏXDP daxilində fraksiyalararası parçalanma davam edirdi. "Xalq" fraksiyası əsasən puştunlardan, "Parçam" isə əsasən taciklərdən ibarət idi. Ölkədə Hafizulla Əmin (puştun) başda olmaqla xalqçıların ifratçı qanadının təsiri güclənirdi. 1979-cu ilin sentyabr ayında, onun üzvləri N.M.Tərakiyə qəsd edərək, öldürdülər. Bütün hakimiyyət, SSRİ ilə əməkdaşlıq xəttini davam etdirən, H.Əminin əlində cəmləşdi.

ƏXDP-nin sosial-iqtisadi islahatlarının gedişinin açıq-aşkar uğursuzluğu ictimai ixtilafın artmasına səbəb oldu. İslahatlara müsəlman din xadimləri, ölkənin cənubunda olan köçəri tayfaların rəhbərləri və müasirləşmə siyasətinə zidd olan əfqan cəmiyyətinin bütün mühafizəkar təbəqələri qarşı çıxırdılar. Kabildə hökumət, mərkəzi hakimiyyəti tanımaqdan imtina edən yerli tayfa rəhbərlərinin nəzarəti altında olan əyalətlərdə nüfuzunu itirməyə başladı. Əyalət hakimiyyəti hökumət ordusuna müqavimət göstərə bilən öz silahlı birləşmələrini yaratdılar. 1979-cu ilin sonlarında, müxalifət Əfqanıstanın 26 əyalətindən 18-nə nəzarət etməyə başladı. Müxalifət, ənənəvi islam şüarları altında hökumət əleyhinə fəaliyyət göstərirdi. Kabil hökumətinin süqutu təhlükəsi yaranmışdı.

Moskvanın etimadı və rəğbəti olan, N.Tərakinin H.Əminin əmri ilə öldürüldüyünə görə, Sovet rəhbərliyi, H.Əminin hakimiyyətinə münasibəti yaxşı deyildi. SSRİ-də, H. Əmin hökuməti enerjili və eyni zamanda sosialist ruhunda çevik siyasət aparmaq üçün yararsız hesab olunurdu. Ən başlıcası, əfqanların arasında lazımi nüfuza malik olmadığı və əfqan cəmiyyətini möhkəmləndirə bilməyəcəyi aydın idi. Ölkədəki mövqeyinin zəiflədiyini anlayan H.Əmin, Moskvadan dəfələrlə islam müxalifətinə qarşı hərbi yardım göstərilməsini istəyirdi. Və elə bu məqsədlə, sovet qoşunlarının Əfqanıstana girməsini həyata keçirməyi təklif etdi.

Lakin, qoşun yeridilmə planı, H. Əminin gözlədiyindən fərqli şəkildə həyata keçirildi. 27 dekabr 1979-cu ildə, sovet hərbi qüvvələri Əfqanıstana girdi. Sovet qoşunları ilə birlikdə tacik Parçam fraksiyasının lideri Babrək Karməl Moskvadan Kabilə gəldi. SSRİ-də, onu yeni əfqan liderliyinə namizədliyini irəli sürmək qərarı verilmişdi. Sovet xüsusi təyinatlılarının qüvvələri tərəfindən, Kabildə H.Əminin

sarayı alındı və özü də hücum zamanı öldürüldü. Qoşunların yeridilməsi rəsmi olaraq, 1978-ci ildə Sovet-Əfqanıstan müqaviləsi əsasında həyata keçirilmişdi. Hökumətin başına qoyulan B. Karməl, yarı puştun və yarı tacik idi, lakin o, Əfqanıstan tacik icmasının maraqlarını müdafiə edirdi.

SSRİ-nin Əfqanıstanın daxili işlərinə qarışması dünyada geniş etirazla qarşılandı. Xüsusilə ABŞ, Çin və Qərbi Avropa ölkələri tərəfindən kəskin tənqid edildi. Qərbi Avropanın aparıcı Kommunist partiyalarının liderləri Moskvanın addımlarına tənqidi yanaşdılar. Sovet siyasətinə etiraz olaraq, ABŞ və bir sıra digər Qərb ölkələri (50-dən çox ölkə), 1980-ci ildə, Moskvada keçirilən Olimpiya oyunlarını boykot etdiər.1980-ci il Moskva Olimpiadasının boykot edilməsinə cavab olaraq, 1984-cü ildə Los-Ancelesdə (ABŞ) keçirilən XXIII Olimpiya Oyunlarına Sovet İttifaqı və onun on üç sosialist müttəfiqi qatılmır.

Əfqan hadisələrinin ən ciddi nəticəsi, ümumdünya beynəlxalq vəziyyətin pisləşməsi oldu. ABŞ, Sovet İttifaqının, onun neft ehtiyatlarına nəzarət etmək üçün, Fars körfəzi bölgəsinə girməyə hazırlaşmasından şübhələnməyə başladı. Sovet İttifaqının, Əfqanıstana hücumundan altı gün sonra, 3 yanvar 1980-ci ildə, Prezident C.Karter senata müraciət edərək, Vyanada imzalanmış SSM-2 müqaviləsinin təsdiq edilməsi prosesini dayandırılmasını xahiş etdi və nəticədə, bu müqavilə ümumiyyətlə heç vaxt təsdiqlənmədi. Eyni zamanda, ABŞ rəhbərliyi, Vyanada razılaşdırılmış məhdudiyyətlərdə qalacağını rəsmi olaraq elan etdi. Lakin, Sovet İttifaqı da, onun kimi bu razılığa əməl etməli idi. Münaqişə bir az yumşaldı, ancaq gərginliyin azaldılması siyasəti sona çatdı. Beynəlxalq gərginlik sürətlə artmağa başladı.

* * *

1960-70-ci illərdə gərginliyin azaldılması siyasəti geosiyasi və əməli əsasda qurulmuşdu. Buraya ideoloji və fəlsəfi sahənin təməl hissəsi daxil deyildi və rəqib tərəfləri istiqamətləndirəcək ortaq mənəvi dəyərlər fondunun meydana gəlməsi nəzərdə tutulmurdu. Bu, onun qlobal əməkdaşlığın şərhi kimi məhdudlaşdırılması demək idi. Ancaq görünür, o dövrdə dünya müharibəsini aradan qaldırmaq üçün başqa bir məntiq mövcud ola bilməzdi. Buna görə də, görünür ki, gərginliyin azaldılması siyasəti əsasən öz tarixi missiyasını yerinə yetirmiş, siyasi və qanuni şəkildə beynəlxalq davranış qaydalarını möhkəmləndirərək formalaşdırmışdılar. Və fövqəldövlətlər də bunları rəhbər tutaraq, dünya müharibəsindən yayınmağı bacarmışdılar.

Gərginliyin azaldılması siyasətinin dayandırılması, hər şeydən əvvəl, yalnız ideoloji və siyasi-psixoloji səbəblərə malik deyildi. Qlobal liderliyə can atan

fövqəldövlətlərin hər biri beynəlxalq münasibətlərdə öz üstünlüklərini təsdiqləmək üçün imkan axtarırdı. Birləşmiş Ştatlar üçün, liderlik uğrunda mübarizənin bəraəti, Amerika tərəfindən başa düşülən azadlıq və azad olunma ideyası ilə əsaslandırılması idi. Sovet İttifaqı üçün belə bəraət, sosialist ölkələri istisna olmaqla, bütün inkişaf etmiş ölkələrin aid edildiyi, hücum xarakterli "sülh uğrunda mübarizə" və "imperializmin iddialarına qarşı mübarizə" fikirləri idi. Sovet liderlərinin imtina edə bilmədikləri "ümumdünya miqyasda kommunizmin zəfəri"nin utopiyasına qarşı, dünyanın bütün insanları üçün azadlıq və demokratiya işığını daşıyan, ilk azad ölkə kimi "Amerikanın tarixi rolu" fikri dayanmaqda davam edirdi.

Bunlara baxmayaraq, 1980-ci illərin əvvəllərində, Amerika Birləşmiş Ştatları Vyetnamda olan məğlubiyyət və onunla üst-üstə düşən, iqtisadi vəziyyətin pisləşməsi ilə əlaqəli ən çətin siyasi və psixoloji kompleksləri və maliyyə-iqtisadi çətinlikləri dəf edə bildi. ABŞ, dünya liderliyi uğrunda, rəqabət yarışının yeni mərhələsinə, daha yaxşı hazır olduğuna əmin idi.

# ALTINCI FƏSİL
# İKİQÜTBLÜ QARŞIDURMANIN YENİ MƏRHƏLƏSİ
# (1980-1985-ci illər)

## I BÖLMƏ
## İkiqütblü qarşıdurmanın bərpa olunması

**1. SSRİ və ABŞ-ın xarici siyasət strategiyaları**
**2.Beynəlxalq aləmdə iqtisadi və siyasi böhranlar**
2.1. Ümumdünya borc böhranı
2.2. Polşa böhranı
2.3. "Sanksiyalar strategiyası"
**3.SSRİ – ABŞ münasibətlərinin kəskinləşməsi**
3.1. ABŞ-da hökumət dəyişikliyindən sonra Sovet-Amerika münasibətləri
3.2. Amerikanın orta mənzilli raketlərinin Avropada yerləşdirilməsi və Sovet-Amerika qarşıdurmasının ən yüksək zirvəsi
3.3. ABŞ-da "yeni qlobalizm" doktrinası
**4.SSRİ-nin ictimai- iqtisadi vəziyyəti və beynəlxalq münasibətlər**
4.1. Sovet İttifaqının iqtisadi tükənməsi və xarici siyasət fəaliyyətinin zəifləməsi
4.2. SSRİ-də rəhbərliyin dəyişməsi və Qərblə danışıqların bərpası
**5. ATƏM və vahid Avropa Aktının imzalanması**
5.1. ATƏM-in Madrid görüşünün başlanması
5.2. ATƏM-in Madrid görüşünün başa çatması və İnam Tədbirləri üzrə Stokholm Konfransının çağırılması
5.3. Qərbi Avropa inteqrasiyasının inkişafı və vahid Avropa Aktının imzalanması

### 1. SSRİ və ABŞ-ın xarici siyasət strategiyaları

İkiqütblü dünyada baş vermiş mülayimləşmə prosesinin iflasının müəyyən edilmiş əsas səbəbləri:

Birincisi, Sovet İttifaqı dünyanın periferik zonalarında (cənub və şimal-şərq Afrika və Əfqanıstanda) status-kvo prinsipindən uzaqlaşması;

İkincisi, ABŞ-ın Çin ilə yaxınlaşması vasitəsi və Çin-Yaponiya əməkdaşlığının təşviqi etmək yolu ilə, Uzaq Şərqdə SSRİ-yə qarşı ABŞ-Çin-Yaponiya üçlü koalisiya yaratmağa çalışması;

Üçüncüsü, SSRİ ilə Qərb arasında insan hüquqlarının təmin olunması məsələsində anlaşılmazlıq, 80-ci illərin əvvəllərində Sovet İttifaqı ilə xarici dünya arasında münasibətlərdə inamsızlıq və qərəzli mühitin yaranması.

Mübahisəli məsələlərə güzəştli həll yollarının tapılması ehtimalı azaldı və münasibətlərin inkişafından yaranan ziddiyyətləri həll etmək cəhdləri çıxılmaz vəziyyətə gətirib çıxardı. SSRİ ilə ABŞ arasında, əslində 60-cı illərin sonunda yığışdırılmış "ideoloji müharibə" bərpa olundu.

"İdeologiya müharibəsi" daha kəskin formada genişləndiyindən, hərbi münasibətlər sahəsində Amerika Birləşmiş Ştatları və Sovet İttifaqı ehtiyatlı davranmağa məcbur oldular. Həm Vaşinqton, həm də Moskva nüvə müharibəsindən danışsalar da, ona can atmırdılar. Konfrantasiya yenidən başlandı.

Ancaq indi, 40-50-ci illərdən fərqli olaraq, sərt qaydalara əsasən aparılırdı. Bu qaydalar, bundan əvvəlki on yeddi illik danışıqlar dövründə yaranmışdı. 1962-ci ilin oktyabrına qədər olan qarşıdurma müharibə həddində olan təhlükəli oyun idi. 1980-ci illərdə Vaşinqton və Moskva, aralarında olan qarşıdurmanı, milli təhlükəsizliklərinə birbaşa təhdid olmadan bu həddə yaxınlaşmamaq üçün, qarşılıqlı səylərini gizli şəkildə tənzimləyirdilər. SSRİ və ABŞ-ın aralarında dostluq münasibətləri olmasa da, heç vaxt bu qaydanı pozmadılar.

Fövqəldövlətlərin qarşılıqlı fəaliyyətinin ziddiyyətli xarakteri, qlobal liderlik uğrunda rəqabət yolu ilə müəyyən edilirdi. Hər iki ölkə eyni məqsədə can atırdılar - təhlükəsizlik və iqtisadi sahələr üzrə beynəlxalq məsələlərdə üstün mövqe əldə etmək. Moskva və Vaşinqton demək olar ki, eyni dərəcədə "hegemonluq"da ittiham oluna bilərdilər. Bunu dərk edən hər iki dövlətin rəhbərliyi, diqqəti öz təcavüzkarlıq təzahürlərindən yayındırmaq üçün, özlərini təmizə çıxarmaqla, rəqibinin ən məşum qərəzlərə malik olduğunu bildirməyə çalışırdı. Bundan əlavə, 70-ci illərdə ABŞ həqiqətən də beynəlxalq münasibətlərdə təmkin nümayiş etdirsə də, 80-ci illərdə "Vyetnam sindromu" zəifləməyə başlamışdı və Amerika rəhbərləri ABŞ-ın liderliyini təsdiqləmək üçün mübarizənin ənənəvi vasitələrinə qayıtmağa başladılar.

İdeologiya səhəsində dövlətlər öz məqsədlərini fərqli yollarla əsaslandırırdılar. Sovet rəhbərliyi "dünya inqilabı" anlayışından çoxdan imtina etmişdi. Lakin, "sosialist beynəlmiləlçiliyi" ideyası qalırdı. O, Sovet İttifaqının sosialist ölkələrinə qarşı siyasətinin əsasını təşkil edirdi. Bundan əlavə, Sov.İKP ideoloji ehtiyatında "xalqların sosial və milli azadlıq uğrunda mübarizəsi ilə həmrəylik" nəzəriyyəsi yer almışdı. Onun geniş şərhi, Sovet İttifaqının azadlıq hərəkatlarının, millətlərarası mübahisələrin və ya sosial xarakterli qarşıdurmaların əlamətlərinin olduğu, dünyanın hər hansı bir bölgəsinə müdaxiləsi ehtimalını əsaslandırmağa imkan verirdi.

Eyni zamanda Sovet İttifaqı "daxili ziddiyyətlər" və "sinfi döyüşləri"in gərginləşməsi nəticəsində "kapitalizmin özünü məhv etməsi" ehtimalına artıq inanmırdı. Üstəlik, Qərbin sənayeləşmiş ölkələrinin Kommunist partiyaları, xüsusən də "avrokommunist" partiyaları, SSRİ rəhbərliyinin ideoloji və siyasi görüşlərini bölüşmək istəmirdilər və öz tərəflərindən sovet siyasətinin dəstəyinə arxalanmaq fikrində deyildilər. Sovet rəhbərliyi, "kapitalizmi daxildən zəiflətmək" siyasətindən sakitcə imtina edərək, periferiya strategiyası olan dünyanın ucqar bölgələrində kapitalizmin təsirini məhdudlaşdırmaq fəaliyyətinə keçmişdilər.

Bu illərdə, ABŞ-ın xarici siyasətinin ideologiyası "fəal müdafiə" kimi təyin oluna bilər. Terminoloji cəhətdən, Amerika siyasətçiləri "allahsız kommunistlərin təcavüzlərindən azadlığı, demokratiyanı və Amerika dəyərlərini qorumaq" müddəaları çərçivəsində qalırdı. Amerika rəhbərliyi, dünyanın hər hansı bir yerində bu "hücumlara" qarşı durmağa hazır idi. Əslində bu, beynəlxalq sistemin bütün kənar ərazilərində sovet təsirinə ümumi qarşıdurma yaratmaq demək idi. Amerika rəhbərliyi, "azadlıq və demokratiya maraqlarının müdafiəsini" real siyasi vasitə kimi qəbul edirdi. Belə ki, o, bu vasitəni təkmil baza, önləyici strategiya və fəal müdafiə kimi formaların istifadəsinə yönəldirdi. Amerikanın xarici siyasətinin ideologiyası, xaricdə müdaxilənin zəruriliyini, sovet müdaxiləsində olduğu kimi, eyni dərəcədə, asan şəkildə əsaslandırmağa imkan verirdi.

SSRİ ilə ABŞ arasındakı ən böyük fərq, birincisi, strateji mədsədlərə doğru irəliləmə istiqamətlərinin seçilməsində, ikincisi, mövcud xarici siyasətin ehtiyat mənbələrinin olmasının səviyyəsində idi. Sovet İttifaqı güc ehtiyatlarının kəmiyyətcə genişləndirilməsinə arxalanaraq, liderlik ambisiyalarını saxlamağa çalışırdı. Sovet ağır sənayesi, dövlət büdcəsinin böyük hissəsini mənimsəyən, hərbi sifarişləri yerinə yetirmək üçün çalışırdı. Ölkədə çox böyük silahlanma ehtiyatı yaradılmışdı, ABŞ-ı təhdid etmək üçün lazım olan real tələbatını dəfələrlə üstələsə də, hərbi məqsədlər üçün xərclənən vəsait, artan miqyasda davam edirdi. Mülki sənayenin maliyyələşdirilməsi geri qalırdı, hərbi istehsala aid olmayan sənaye sahəsinin texnoloji bazalarının yenilənməsinə kifayət qədər vəsait çatmırdı.

Birləşmiş Ştatlar dünya lideri mövqeyinə çıxmağa çalışırdı və o, bunu başqa bir yol ilə də edə bilərdi. Birləşmiş Ştatlar əvvəlcə, SSRİ üzərində itirilməmiş texnoloji üstünlüyünü - istər ümumilikdə, istərsə də hərbi-texniki yeniliklər üzərində möhkəmləndiməyə önəm verirdi; sonra isə, Sovet İttifaqını hərbi xərcləri artırmağa təhrik etməklə, onun ehtiyatlarını tükəndirməyə çalışırdı. Birləşmiş Ştatlar silahlarını artırmaqdan imtina etməmişdi, lakin daha güclü iqtisadiyyata sahib olduğundan, büdcə vəsaitlərini hərbi və mülki sektorlar arasında bərabər şəkildə paylanmasını təmin edə bilirdi.

Sovet İttifaqında hərbi-sənaye kompleksi çox böyük olaraq, dövlətə məxsus idi. Dövlət büdcəsindən vəsaitlərin bölüşdürülməsi zamanı, o, qeyri-hərbi istehsalı üstələyirdi. ABŞ-dakı hərbi-sənaye kompleksi daha yığcam və səmərəli idi. Onlar, dövlət sifarişləri ilə işləyən iri özəl şirkətlər əsasında qurulmuşdu, mülki istehsal ilə daha yaxın əlaqədə olur və bazar səmərəliliyi mexanizmlərinə daha həssas yanaşırdı. ABŞ-ın hərbi sənayesi mülki sahələri öz arxasınca "aparırdı". SSRİ-də hərbi istehsal daha çox özünü təmin edirdi, onların önləyici sürətli inkişafı iqtisadiyyatın digər sahələrinin texnoloji geri qalması ilə bərabər artırdı.

Bu vəziyyətdə mühüm rolu xarici şərait oynayırdı. 1973-1974 və 1979-1980-cu illərin "neft şokları" ABŞ, Yaponiya və Qərbi Avropaya ciddi zərbə vurdu, lakin Sovet İttifaqına maliyyə mənfəəti gətirdi. SSRİ neft ixrac edən ölkə olduğundan qiymətlərin artması, Sovet İttifaqını kütləvi "yüngül" neft pullarının axını ilə təmin etdi. Bu vəsait, sovet iqtisadiyyatının texnoloji cəhətdən yenidən qurulmasına və SSRİ-nin elmi və texnoloji tərəqqisinin yeni mərhələsinə keçirilməsinə sərf edilə bilərdi. Bunun əvəzinə, neft gəlirləri əhalinin cari ehtiyaclarının ödənilməsinə və hərbi sənayenin maliyyələşdirilməsinə yönəldildi. Xarici gəlirlərin xərclənməsi o qədər səmərəsiz idi ki, hətta neft hasilatı sahəsinə də maliyyə vəsaiti qoyulmadı. Nəticədə, 80-ci illərin əvvəllərində, SSRİ-də neft hasilatı köhnə asan əldə olunan ehtiyatların tükənməsi nəticəsində azalmağa başladı və mürəkkəb yeni istehsal texnologiyaları tələb edən, çətin əldə olunan yataqların istismarına keçmə ehtiyacını artırdı.

Qərbdə vəziyyət başqa cür inkişaf edirdi. Neft qıtlığı təhlükəsi ilə üzləşən Qərbi Avropa ölkələri və ABŞ, hətta Yaponiya da, milli istehsalın səmərəliliyini artırmaq, enerji və materialların xüsusi istehlakını azaltmaq üçün bahalı maliyyə əməliyyatları həyata keçirməyə məcbur oldular. 70-80-ci illərin əvvəllərində, Qərb ölkələri və Yaponiya enerjiyə və ehtiyatlara qənaət edən texnologiyaları inkişaf etdirərək, yüksək texnoloji sahələrə sərmayə qoydular. Məcburi addımlar Qərbə elmi cəhətdən intensiv inkişaf edən sənaye sahələrinin sürətlə inkişafı və yeni texnologiyalar (optik liflərin, yeni materialların istehsalı, hər cür elektronika, gen mühəndisliyi və s.) sahəsində üstün mövqe əldə etməsini təmin etdi. 1979-1981-ci illərin tənəzzülünün sonuna qədər, çətinlikləri dəf edən Qərb iqtisadiyyatı, özünün struktur islahatlarını başa çatdıra bildi və elmi əsaslarla inkişaf etməyə başladı. Bundan sonra, onları inkişafın post-sənaye mərhələsinə gətirib çıxardı. ABŞ, Yaponiya və digər ölkələrin iqtisadiyyatı, tam yeni texnoloji nəsilə yiyələnərək, SSRİ-dən xeyli irəli çıxdı. 80-ci illərdə, ABŞ-ın əsas vəzifəsi bu üstünlükdən SSRİ-nin beynəlxalq mövqeyini zəiflətmək və öz liderliyini artırmaq üçün istifadə etmək idi.

## 2.Beynəlxalq aləmdə iqtisadi  və siyasi böhranlar

### 2.1. Ümumdünya borc böhranı

Beynəlxalq dövriyyə vasitələrində həddindən artıq "neft-dollar" kütləsinin meydana çıxması, beynəlxalq kreditləşmə sahəsində yaranan vəziyyəti dəyişdirdi. Kapital dövriyyəsinin həcmini artırmaq üçün, banklar kredit tələbini stimullaşdırdı və onların təmin edilməsi şərtlərini asanlaşdırdı. Bundan bir çox ölkələr, ilk növbədə inkişaf etməkdə olan ölkələr  istifadə etdilər. İqtisadi inkişaf proqramlarının maliyyələşdirilməsinə ayrılan vəsait üçüncü dünyaya axmağa başladı. Bir çox hallarda maliyyələşdirilən layihələr zəif işlənirdi. Borc alan ölkələrin xarici vəsaitlərdən istifadəsi ilə bağlı fəaliyyətləri  də nəticəsiz qalırdı. Kreditlərin miqdarı kiçik və orta ölkələrin zəif iqtisadiyyatının onları "həzm etmək" qabiliyyətini üstələyirdi. Bu məsələ, alıcı ölkələrin hakim dairələrində korrupsiyanın mövcud olması ilə daha da mürəkkəbləşirdi.

Bununla belə, borc alınan vəsaitlərin miqdarı xeyli çox idi  və borcun əsas məbləğlərini ödəməklə yanaşı, borc alan ölkələr kreditlər üzrə, ancaq illik faiz ödəməli olurdu. 1981-ci ilin əvvəlinə, dünyada olan şərti “qaytarılmayan” borcların miqdarı 750 milyard dollara çatmışdı və artmaqda da davam edirdi. Eyni zamanda, ödənişlər inkişaf etməkdə olan ölkələrin bütün ixracat qazancının 16%, 1986-cı ildə isə 22% təşkil emiştdi. Bir sıra ölkələr üçün, borc xidmətlərinə görə faiz ödənişlərinin miqdarı böhran  hədindən çox olmuşdu. Borc alan ölkələr xaricdən yeni vəsait cəlb edə bildiklərindən, daha çox xarici borc ödəmişdilər. Lakin, "əsas borclar"ın miqdarı  azalmırdı. Bir qrup borclu ölkələr iflas təhlükəsi ilə üzləşmişdi. Risk dərəcəsini dərk edən, özəl investorlar inkişaf etməkdə olan ölkələrə yeni sərmayələr qoymağı dayandırdılar. 1980-ci ildə, özəl mənbələrdən gələn xarici vəsaitlər  50 milyard ABŞ dolları təşkil edirdisə, 1985-ci ildə 8 milyard təşkil etmişdi. Beynəlxalq maliyyə qurumları (BVF və Dünya Bankı) vəziyyətə müdaxilə etmirdi, çünki belə məsələlərin nizamlanması, onların vəzifələrinə daxil deyildi. Dünyada borc böhranı yarandı.

Əsas borclular arasında Braziliya və Meksika, eləcə də Afrika və Asiyanın bir çox ölkələri var idi. Lakin, Braziliya böyüməkdə olan milli iqtisadiyyata və Meksika qurmağa hazırlaşdığı neft ixracatından gələcək gəlirlərinə arxalanaraq, çətinliklərin öhdəsindən gələ bilmələrinə  ümid edirdilərsə, qalan ölkələr çox ağır  vəziyyətdə idilər. Bu illər ərzində, Afrika, Asiya və Mərkəzi Amerikanın bəzi kasıb ölkələrində baş verən ağır iqtisadi vəziyyət, inkişaf etmiş ölkələrə kütləvi şəkildə qanuni və

qeyri-qanuni miqrasiyaya səbəb olurdu. ABŞ və Qərbi Avropada Asiya və Afrika ölkələrindən olan gəlmələrin kifayət qədər böyük icmaları formalaşmağa başladı.

Qlobal borc böhranı şəraitində, 70-ci illərdə borc alan bəzi sosialist dövlətləri - Polşa, Rumıniya və daha az dərəcədə Yuqoslaviya - çətin vəziyyətdə qalmışdılar. Ən çətin vəziyyət Polşada idi. Borclu ölkələr sərt iqtisadiyyat üsulu tətbiq etmək məcburiyyətində qaldılar ki, bu da istehlakın azalmasına, əhalinin maddi vəziyyətinin pisləşməsinə və sosial gərginliyin artmasına səbəb oldu. Böhran isə etiraz əhval- ruhiyyəsinin artmasına səbəb oldu.

## 2.2. Polşa böhranı

Polşanın vəziyyəti qeyri-sabit beynəlxalq vəziyyətlə əlaqədar mürəkkəbləşmişdi. 16 oktyabr 1978-ci ildə, Roma taxtına yeni Papa seçildi. O, II İoann Pavel adını alan, Polşa kardinalı Karol Voytıla idi. Roma din xadimi sosialist ölkələrində, ilk növbədə Polşada katolik kilsəsinin mövqeyinə diqqət artırmağa başladı. 2 iyun 1979-cu ildə, II İoann Pavelin Polşaya səfəri ölkədə hökumət əleyhinə olan narazı qüvvələrinin birləşməsinə kömək etmiş oldu. Eyni zamanda, Papanın ardıcıl çıxışlarının təsiri ilə, beynəlxalq ictimai rəy Polşada baş verənlərə diqqəti artırmağa başladı. 1980-ci ildə, Respublikaçılar partiyasının Vaşinqtonda keçirilən Prezident seçkilərində qalib gəldiyi dövrdə, onların yeni bir hökuməti qurduğu zaman- 1981-ci ilin yanvar ayına qədər və daha sonra da, Amerika siyasətinə öz təsirini saxlayan polyak əsilli Z.Bjezinski Papanın Polşa müxalifətinə dəstək çağırışlarına səs verərək, polyaklara dəstək oldu.

Polşa "sosialist düşərgəsinin" ən firavan ölkəsi deyildi. 1956-cı ildən sonra, ölkəyə rəhbərlik edən Polşa Birləşmiş Fəhlə Partiyasının(PBFP) Mərkəzi Komitəsinin Birinci katibi V.Qomulkanın siyasətində 60-cı illərin sonlarına doğru mühafizəkar meyllər gücləndi. Onun şəxsi intellektual zehni köhnəlmişdi və artıq Polşa cəmiyyətinin mürəkkəb tələblərini cavab vermirdi. Partiya rəhbərliyi ilə ziyalılar və gənclər arasında xroniki qarşıdurma olurdu. İqtisadi siyasət də effektli deyildi. 1970-ci ildə, bu vəziyyət fəhlələr tərəfindən kütləvi etirazlara səbəb oldu və zorla yatırıldı. 1970-ci ilin dekabrında, PBFP Mərkəzi Komitəsinin Birinci katibi V.Qomulka (65yaş), Moskvanın tövsiyəsi ilə, daha cavan Edvard Gerek (57 yaş) ilə əvəz edildi.

Polşa rəhbərliyi, yeni istiqamətin məqsədinin xarici vəsaitlər cəlb etməklə iqtisadiyyatın modernləşdirilməsi ideyasının olduğunu bildirdi. Sovet İttifaqı, Polşada yaranan vəziyyətin müsbət dönüşünə nail olmaq istəyərək, güzəştli kreditlər vermək qərarına gəldi. Polşa hökuməti də, beynəlxalq maliyyə institutlarının

vəsaitlərinə çıxış əldə edə bildi. Ona görə 70-ci illərin birinci yarısında, Polşa iqtisadiyyatı nisbətən daha uğurla inkişaf edirdi.

70-ci illərin ortalarında, beynəlxalq böhranın Polşaya vurduğu zərbə xarici borclar probleminin kəskinləşməsi ilə eyni vaxta təsadüf etmişdi. Borcların miqyasına görə Polşa bütün sosialist ölkələrindən öndə idi. Ərzaq çatışmamazlığı problemi yarandı. Hökumətin ən yüksək dairələrinə, hətta E.Gerekin özünə toxunan rüşvətlə bağlı şayiələr ortaya çıxmışdı. Ölkədə tətillər başladı, müxalifət hərəkatı fəallaşdı. 1976-cı ildən, müxalifətin mərkəzi Sosial Müdafiə Komitəsi –Fəhlələrin Müdafiə Komitəsi (SMK-FMK) oldu.

1980-ci ilin avqustunda, Polşanın Baltik sahilində yerləşən liman şəhərlərində (ilk növbədə Qdanskda) tətillər dalğası başladı, bu zaman tətilçilər hökumətdən asılı olmayan həmkarlar ittifaqları yaratmaq tələbini irəli sürdülər. PBFP rəhbərliyi zəhmətkeşlərə qarşı güc tətbiq etmək istəmədi. Lakin Polşa rəhbərliyi Moskvanın əks cavabından qorxurdu, çünki, onlar Polşa hökumətini "anti-sosialist elementlərə" qarşı apardıqları yumşaq siyasətə görə tənqid edirdilər. Polşa hökuməti, SSRİ-nin 1968-ci ildə "Çexoslovak ssenarisini" Polşada təkrar edəcəyindən narahat idilər. Bu vaxta qədər, Sovet İttifaqının iki diviziyası daim Polşa ərazisində yerləşirdi. Lakin, "Çexoslovakiya ssenarisi"nin həyata keçirilməsi üçün əlavə qüvvələrin gətirilməsinə lüzum var idi.

19 avqust 1980-ci ildə Varşavada, 1970-ci ildə Sovet-Fransa məsləhətləşmələr protokoluna uyğun olaraq, Fransa Prezidenti Valeri Jiskar D'Esten və Leonid İliç Brejnev arasında görüş keçirildi. Fransa lideri SSRİ-ni Polşada güc tətbiq etməkdən çəkinməsi üçün inandırmağa çalışdı. Qərbdə yaranan əhval-ruhiyyəni əks etdirən Fransanın mövqeyi anlayışla qəbul edildi. Moskvanın özü, birbaşa silahlı müdaxiləyə müraciət etmədən, Polşada olan vəziyyətə nəzarəti bərpa etmək üçün yollar axtarırdı. Sovet liderləri üçün, Qərbi Avropa ölkələrinin Polşa məsələsinə görə, SSRİ-ni diplomatik təcrid etmək istəməmələrinə əmin olmaq vacib idi.

1980-ci ilin avqust ayının sonunda, Qdanskda Polşa hökuməti və tətilçilər "sosialist düşərgəsi"ndə əvvəllər olmayan bir müqavilə imzaladılar. Bu müqaviləyə görə, hökumət zəhmətkeşlərin tətil etmək hüququnu və müstəqil həmkarlar ittifaqlarının yaradılmasını tanıdı. Senzuranın yumşaldılmasına və iqtisadi siyasətin geniş müzakirə olunmasına razı oldular. Öz növbəsində, müxalifət liderləri PBFP-nin Polşa cəmiyyətində olan aparıcı rolunu və Polşanın bütün beynəlxalq öhdəliklərini, o cümlədən Varşava Müqaviləsi Təşkilatı çərçivəsində də tanıdılar. Qdansk müqaviləsi, ölkənin fəallıq göstərən əhalisinin əksəriyyətinin (PBFP üzvləri də daxil olmaqla) qatıldığı yeni "Həmrəylik" həmkarlar ittifaqının yaranmasına yol açdı. Yeni birlik, hakim partiya ilə rəqabət edə biləcək ictimai-siyasi hərəkata

çevrilməyə başladı. Həmrəyliyə Qdansk tətil komitəsinin lideri Lex Valensa rəhbərlik edirdi. Onun ətrafında bütün Polşa müxalifəti birləşməyə başladı.

Polşada yaranan vəziyyət Sovet rəhbərliyini narahat etməkdə davam edirdi. Ancaq, "Çexoslovakiya dərslərini" nəzərə alan Moskva, səhvlərinin təkrarlanmasını istəmirdi. Sovet rəhbərliyi, vəziyyətə təsir etmək üçün "daha yumşaq təxribatçı" vasitə tapdı. 1980-ci ilin sentyabrında, PBFP MK-nın Birinci katibi E.Gerek, əvvəl Mərkəzi Komitədə dövlət təhlükəsizlik orqanlarına rəhbərlik etmiş Stanislav Kanya ilə əvəz edildi. 1980-ci ilin noyabr-dekabr aylarında, Polşa sərhədləri yaxınlığında Varşava Paktı ölkələrinin geniş miqyaslı hərbi təlimləri keçirildi. Bununla, Polşa müxalifətinə təhdid xəbərdarlığı göndərildi. Polşada "asayişi bərpa etmək" üçün əlavə sovet qoşunlarının yeridilməsi məsələsi gündəmə gəlirdi. Polşaya müdaxilə məsələsi Çexoslovakiya və ADR kommunist liderləri tərəfindən dəstəkləndi.

1981-ci ilin fevral ayında, Polşa rəhbərliyini daha da "gücləndirmək" qərarı verildi, çünki S.Kanyanın vəziyyətə nəzarət etmək iqtidarında olmadığı aydın oldu. Əvvəllər Müdafiə naziri olan, qətiyyətli və nüfuzlu general Voytsex Yaruzelski (47 yaş) ölkənin Baş Naziri təyin edildi. Həmin ilin oktyabr ayında, S. Kanyanı əvəz edən Voytsex Yaruzelski PBFP Mərkəzi Komitəsinin Birinci katibi kimi, bütün hakimiyyəti öz əlində cəmləşdirdi. Yeni rəhbərlik “Həmrəylik”lə dialoqa girərək, iqtisadiyyatda nizamı bərpa etmək üçün, üç ay müddətinə tətillərin keçirilməsinə moratorium elan edilməsini təklif etdi. Şərtlər qəbul edildi, ancaq üç aylıq müddət sona çatdıqdan sonra, ölkədə yenidən münaqişə yarandı - bu dəfə hökumət ilə məhsullarına daha yüksək qiymət tələb edən fermerlər arasında. Hökumət, ərzaq ticarətini səmərələşdirməyə çalışsa da, bu tədbir yeni bir narazılığın artmasına səbəb oldu. Tətillər yenidən bərpa olundu.

1981-ci ilin noyabrında, Varşavada müxalifətlə polis arasında qarşıdurma baş verdi. Münaqişənin kəskin formalara çevrilməsi təhlükəsi yarandı. 12 dekabr 1981-ci ildə, V.Yaruzelski hökuməti ölkədə hərbi vəziyyət tətbiq etdi və Milli Qurtuluşun Hərbi Şurasını yaratdı. Eyni zamanda, Polşada yerləşən iki sovet diviziyasına əhalini təhrik etməmək üçün, kazarmada qalmaları üçün ciddi əmr verildi.

Polşada “Həmrəylik” və bütün müxalif qruplarının fəaliyyəti dayandırıldı və liderləri nəzarət altına alındı. Hərbi vəziyyətinin tətbiqi sübut etdi ki, hakim partiya aparıcı rol oynaya bilmir və yalnız ordu ölkədə qaydanı bərpa edə bilər. Bununla belə, Polşada hərbi vəziyyətin tətbiqi sovet hərbi müdaxiləsinin qarşısını almış oldu.

Hərbi vəziyyət şəraiti, 1982-ci ilin dekabrına qədər davam etdi. Sonra ləğv edildi, ancaq hakimiyyət V.Yaruzelskinin əlində qaldı. Vəziyyətə ciddi nəzarəti davam etdirməklə eyni vaxtda, o, “Həmrəylik” ilə danışıqları bərpa etdi. Bu müddətdə qarşılıqlı güzəştlər əsasında, vəziyyətin sabitləşməsi marağı naminə, razılığa gəlmək

mümkün oldu. Polşa böhranı əsasən həll edildi. Lakin, cəmiyyətdə yaranan gərginlik aradan qalxmamışdı, iqtisadi vəziyyət də çətin olaraq qalırdı.

1983-cü ildə, L.Valensa Polşada baş verən münaqişəni sülh yolu ilə həll etdiyinə görə Nobel Sülh mükafatına layiq görüldü. 1985-ci ilin dekabrında, V.Yaruzelski Polşa Prezidenti seçildi. L.Valensa müxalifətin ən nüfuzlu siması olaraq qalırdı.

### 2.3. "Sanksiyalar strategiyası"

1981-ci ilin dekabrında, Amerikanın yeni hökuməti "Polşa rəhbərliyinin cəza tədbirləri siyasətinə" verdiyi dəstəyə görə, SSRİ-yə qarşı əlavə sanksiyalar tətbiq olunduğunu elan etdi. “Aeroflot”un ABŞ-a uçuşları dayandırıldı, Nyu Yorkda olan sovet tədarükçü komissiyası bağlandı, neft və qaz avadanlıqları təchizi dayandırıldı, elektron hesablama texnikasının satışına lisenziyaların verilməsi dayandırıldı, yeni uzunmüddətli taxıl sazişi ilə əlaqədar danışıqlar təxirə salındı, enerji sazişinin yenilənməsi rədd edildi, elmi və texniki əməkdaşlıq, kosmosda ikitərəfli mübadilə sazişlərinə yenidən baxıldı. Bu sanksiyalar qrupu, SSRİ-nin Əfqanıstana müdaxiləsi ilə əlaqədar olaraq, C.Karterin əvvəlki hökuməti tərəfindən qəbul edilmiş qərarlara əlavə edildi.

Qərbi Avropa və Yaponiya şirkətləri sanksiyalardan narazı qaldılar və Amerika rəhbərliyi tərəfdaşlarına ABŞ siyasətinə uyğun hərəkət etməyə məcbur etmək üçün, təzyiq göstərməli oldu. Sovet enerji ehtiyatlarının idxalı ilə əlaqədar olan, Qərbi Avropa şirkətləri xüsusilə narazı qalmışdılar. İdxal olunan sovet qazı Qərbi Avropa ölkələrinin enerji istehlakının 15-20% -ni təşkil edirdi. Bu şirkətlər qaz boru layihəsi üzərində SSRİ ilə birlikdə işləyirdilər, buna görə Sovet İttifaqına qaz nəqli üçün iri diametrli borular verirdilər. SSRİ isə bu borular ilə, Qərbi Sibir qaz yataqlarından AFR ərazisinə qədər qaz kəməri çəkməli idi ki, onun vasitəsilə Qərb istehlakçılarına qaz təchizini təmin etməyə başlasın.

29 dekabr 1981-ci ildə, Vaşinqton rəsmi olaraq, ABŞ şirkətlərinə bu layihədə iştirakına qadağa qoyulduğunu elan etdi. Qərar 60 şirkətin maraqlarına təsir etdi. 1982-ci ilin iyununda, qadağa onların Avropadakı filiallarına da şamil edildi. SSRİ ilə enerji sahəsində əməkdaşlığı məhdudlaşdırmaq tələbi təkcə amerikalılara deyil, həm də Avropa şirkətlərinə, yapon şirkətlərinə də şamil edilirdi. Bu zaman, Yaponiya SSRİ ilə Saxalin adasının şelfində qaz və neft yataqlarının işlənməsində, əməkdaşlığın inkişafı haqqında danışıqlar aparırdı.

1982-ci ilin noyabrında, ABŞ rəhbərliyi “qaz boru” layihəsi ilə əlaqədar açıqlama verdi. SSRİ ilə iş görən şirkətlər üçün tələblər tərtib edilmişdi: Sovet qazının alınması üçün yeni müqavilələr bağlamamaq, SSRİ-də strateji məhsulların satışına nəzarəti gücləndirmək və SSRİ ilə maliyyə əməliyyatlarına ciddi nəzarət etmək.

Sanksiyalar Sovet İttifaqı ilə Qərbi Avropa ölkələri arasındakı əlaqələrin inkişafı üçün həlledici əhəmiyyətə malik deyildi.

## 3.SSRİ – ABŞ münasibətlərinin kəskinləşməsi

### 3.1. ABŞ-da hökumət dəyişikliyindən sonra Sovet-Amerika münasibətləri

1980-ci ilin noyabrında, ABŞ-da keçirilən Prezident seçkilərində Demokratlar Partiyası məğlub oldu. Seçicilər demokratların xarici siyasətindən, İran və Mərkəzi Amerikada olan Amerika diplomatiyasının fəaliyyətində olan səhvlərindən narazı qalmışdılar. Prezident C.Karterin nüfuzuna, onun 1980-ci ilin yanvarında Konqresə Vyetnam müharibəsi bitdikdən sonra, ABŞ-da ləğv edilmiş silahlı qüvvələrə seçmə çağırış sistemini bərpa etmək müraciəti mənfi təsir etmişdi. Amerikalı hərbi çağırışçılar Prezidentin təşəbbüsünə, seçkilərdə ona qarşı səs verməklə cavab verdilər. 1981-ci ilin yanvarında Respublikaçılar Partiyasından Prezident seçilən Ronald Reyqanın yaratdığı hökumət işə başladı.

Yeni Prezidentin beynəlxalq münasibətlərə münasibəti aktiv-təzyiqli, sərt və açıq-əyani effektlərə meylli idi. Amerika Prezidenti R.Reyqanın ən gözlənilməz ifadəsi, 1982-ci il iyunun 8-də Londona rəsmi səfəri zamanı Britaniya Parlamentində çıxış edərkən, sözün həqiqi mənasında, Qərbi kommunizm əleyhinə "səlib yürüşü" etməyə çağırması oldu.

Prezident, demokratları həddən artıq böyük bir məsələyə -- Sovet İttifaqına daha çox diqqət göstərdiyinə görə qınadı. R.Reyqan hökuməti xarici siyasətini şifahi şəkildə formalaşdırmağa çalışdı, sanki SSRİ-nin ümumiyyətlə buna qarşı çıxmaq imkanı olmayacaq idi. Yeni hökumətin məqsədi, hərbi-siyasi məsələlərdə “Vyetnam sindromu”nun təmkinliyindən tamamilə qurtulmaq, H.Trumen və D.Eyzenhauerin dövründə olduğu kimi iddialı xarici siyasət yürütməyə qayıtmaq idi.

ABŞ-ın hərbi-siyasi sahədə yeritdiyi "qlobalizmin hücumu " Sovet İttifaqı ilə strateji tarazlığı pozmaq və güc balansını ABŞ-ın xeyrinə dəyişdirmək niyyəti şəklində özünü göstərdi. Belə bir yanaşma, hər iki dövləti silah yarışının yeni bir mərhələsinə - əvvəlki illərdə ABŞ-ın çata bildiyi daha yüksək texnoloji səviyyəyə, elmi və texnoloji tərəqqinin yeni mərhələsinə sövq etməli idi. Respublikaçı rəhbərlik, 1970-ci illəri "fəaliyyətsizliyin on ili" və gərginliyin azaldılması siyasətinin isə "birtərəfli yol hərəkəti" olduğunu elan etdi. SSRİ ilə ABŞ arasında olan bərabərliyi arzuolunmaz, lakin qaçılmaz hesab edən R.Niksonun Respublika rəhbərliyindən, bərabərliyi arzu olunan və qaçılmaz olduğuna inanan Demokrat Partiyasından olan liberallardan fərqli olaraq, R.Reyqan hökumətinin rəhbərliyi SSRİ üzərində hərbi qüvvə üstünlüyünün qazanılması istiqamətini götürdü. Ancaq həqiqətdə, fəal-

hücum istiqaməti Amerika seçicilərini qorxuya sala bilərdi. Ona görə, ABŞ rəhbərliyi döyüş ritorikasını, danışıqlar qərarına hazır olduqlarını nümayişkaranə elan etməklə birləşdirdi.

Demokratlardan Respublikaçılara miras qalan, ən kəskin beynəlxalq təhlükəsizlik problemi, 1983-cü ildə Qərbi Avropada "Perşinq-2" Amerika orta mənzilli raketlərinin (OMR) və Yerüstü bazalı qanadlı raketlərinin (YBQR) yerləşdirilməsi idi. Əslində, belə bir müvafiq qərar NATO ölkələri tərəfindən 1979-cu ildə, Sovetlərin orta mənzilli raketlərinin Avropaya yerləşdirilməsinə cavab olaraq qəbul edilmişdi. SSRİ, NATO-nun bu qərarına öz etirazını bildirmişdi. Qərbi Avropa dövlətləri də qərarın həyata keçirilməsi ilə bağlı narahatlıq hissi keçirirdilər, çünki Sovet İttifaqının bu addıma olan cavabının nə qədər kəskin ola biləcəyini müəyyən edə bilmirdilər.

18 noyabr 1981-ci ildə, R.Reyqan "sıfır variant"ını qəbul etmək vasitəsilə, Avropada nüvə silahının məhdudlaşdırılması təklifi ilə çıxış etdi. Bu təklifə uyğun olaraq, ABŞ "Perşinq-2" və qanadlı raketlərinin yerləşdirilməsindən imtina edir, SSRİ də Avropada yerləşdirdiyi yeni "SS-20", həmçinin köhnə "SS-4" və "SS-5" raketlərini sökməli idi. Bu təklifə cavab olaraq, Sovet İttifaqı əks təkliflər etdi. 15 mart 1982-ci ildə SSRİ Həmkarlar İttifaqlarının qurultayında, L.İ.Brejnev Sovet hökumətinin SSRİ-nin Avropa hissəsində orta mənzilli nüvə silahlarının yerləşdirilməsinə birtərəfli qaydada moratorium tətbiqi barədə qərarını elan etdi. Bu moratorium ABŞ ilə razılaşma əldə edilənə qədər və ya Vaşinqtonun Avropada "Perşinq- 2" və qanadlı raketlərinin yerləşdirilməsi üçün əməli hazırlıqlara keçdiyi vaxta qədər qüvvədə olmalı idi.

1981-1983-cü illərdə, SSRİ və ABŞ-ın iştirakı ilə silahların məhdudlaşdırılması məsələlərinə dair, aşağıdakı dörd əsas danışıq bloku formalaşdı:

a) Avropada yerləşdirilən orta mənzilli raket- nüvə vasitələri ilə bağlı Cenevrədə Sovet-Amerika danışıqları (1981-ci il noyabr);

b) Mərkəzi Avropada silahlı qüvvələrin və silahların qarşılıqlı surətdə azaldılması ilə bağlı Vyana danışıqları (yanvar-dekabr 1983, fasilələrlə);

c) Avropada nüvə silahının məhdudlaşdırılması ilə bağlı Cenevrədə Sovet-Amerika danışıqları (yanvar - mart 1983);

d) Cenevrədə Strateji Silahların Məhdudlaşdırılması və Azaldılması (SSMA) ilə bağlı Sovet-Amerika danışıqları (iyun - 1982, dekabr 1983, fasilələrlə).

Bu, güclü danışıq sistemi idi, lakin buna baxmayaraq istənilən nəticə əldə edilmədi.

1983-cü ilin martında SSRİ ilə ABŞ arasında danışıqlar zamanı "aralıq variantı" irəli sürüldü. Bu varianta görə, ABŞ-ın razılığı ilə Sovet İttifaqına öz raketlərinin

müəyyən qismini saxlamağa icazə verilirdi. ABŞ isə Avropada NATO-nun mövcud nüvə vasitələrinə əlavə olaraq SSRİ-nin saxladığı miqdarda özünün yeni raketlərini yerləşdirirdi. Bu halda NATO bloku ikiqat üstünlük qazanırdı. SSRİ bu təklifı rədd edib, nüvə silahı daşıyıcılarının sayını təqribən üç dəfə azaltmağı və raketlər üzrə səviyyəni bərabərləşdirməyi irəli sürdü, eyni zamanda Avropada ixtisar etdiyi raketləri ləğv etməyə və Şərqdə "SS-20" raketlərini sayını artırmamağa razılıq verdi. SSRİ bundan əlavə "SS-20" raketlərində döyüş başlıqlarının sayının İngiltərə və Fransanın raketlərində olan nüvə başlıqlarının sayından çox olmamasına da razılıq verdi. İngiltərə və Fransanın 162 raketində nüvə başlıqlarının sayının 420-430 ədəd olduğunu nəzərə alaraq, SSRİ Avropada özünün 140 raketini saxlamağa, qalanlarını isə ləğv etməyə razı olduğunu bəyan etdi. Bu təklifləri qəbul etməyən ABŞ, 1983-cü ilin noyabrından başlayaraq Qərbi Avropada yeni orta mənzilli raketlər yerləşdirməyə başladı. Buna cavab olaraq SSRİ, Çexoslovakiya və ADR ərazisində yeni "SS-20" raketləri yerləşdirdi.

Sovet İttifaqı "sıfır variantı"nı qəbul etməyərək, orta mənzilli raketlərini məhv etməkdən imtina etdi. Moskva israrla bildirirdi ki, Sovet raketlərinin artıq Avropada yerləşdirildiyi və ABŞ-ın Qərbi Avropada hələ də oxşar silahlara malik olmadığı bir vəziyyətdə, "sıfır variantı" təklifi SSRİ-nin "birtərəfli tərksilah" olmasına gətirib çıxaracaqdır.

Bundan əlavə, Sovet İttifaqı belə bir nəticə çıxarırdı ki, SSRİ və ABŞ-ın silahlanma potensiallarının ümumi sayını qiymətləndirərkən, yalnız Sovet və Amerikanın hücum silahlarını deyil, həm də Fransa və Böyük Britaniyanın silahlarını da nəzərə almaq lazımdır. Moskva hesab edirdi ki, Amerika silahlarının Sovet silahlarından daha çox üstünlüyə sahib olduğunu nəzərə alaraq, ABŞ üçün, Fransa və Böyük Britaniyanın silahları strateji ehtiyatdır. Amerika tərəfi bu cür məntiqi rədd edirdi. Fransa və İngiltərə hökumətləri buna qarşı çıxırdılar. Onlar, öz ölkələrinin müstəqil nüvə qüvvələrinin, Sovet-Amerika ikitərəfli danışıqlarının mövzusu ola bilməyəcəyini iddia edirdilər. Çünki, nə Fransa, nə də İngiltərə bu qanışıqların iştirakçısı deyildirlər. Hər iki dövlət öz silahlarının azaldılmasına qarşı idilər.

Nəhayət, Sovet tərəfi "avro-raketlər" barədə razılaşmanın mümkünlüyünü, ABŞ-ın "SSM-2" müqaviləsini təsdiq etməsi ilə əlaqələndirirdi. Sovet rəhbərliyi, Amerika OMR-in Qərbi Avropada meydana gəlməsi ilə ortaya çıxan təhlükənin miqyasını vaxtında qiymətləndirə bilmədi: Qərbi Avropa ölkələrinin ərazisindən Amerikanın orta mənzilli raketləri asanlıqla SSRİ ərazisinə çata bilərdi və onlara uyğun olan Sovet raketləri ABŞ-ın milli ərazisinə çata bilməzdi.

### 3.2. Amerikanın orta mənzilli raketlərinin Avropada yerləşdirilməsi və Sovet-Amerika qarşıdurmasının ən yüksək zirvəsi

1982-ci ilin noyabrında, 76 yaşlı L.İ. Brejnev vəfat etdi. Sov.İKP MK-nın Baş Katibi vəzifəsinə, 68 yaşında olan Y.V.Andropov gəldi. Silahların azaldılması ilə bağlı yeni rəhbərliyin bəzi mövqeləri, 30 dekabr 1982-ci ildə Y.V.Andropovun xarici jurnalistlərə verdiyi müsahibədə şərh olundu. Avro- raketlərə görə, SSRİ "tam sıfır" variantını təklif etdi. Bu təklif, Sovet İttifaqı və NATO ölkələrinin orta mənzilli raketlərin və taktiki silahların məhv edilməsini nəzərdə tuturdu. Bu təklif ABŞ tərəfindən qəbul edilmədi, lakin Amerika rəhbərliyi öz növbəsində silah məhdudiyyəti ilə bağlı yeni planlar irəli sürməyə başladı. İki dövlət arasında, kifayət qədər gərgin danışıqlar prosesi başladı.

Bu danışıqlar, 60-cı illərdə olduğu kimi, qarşılıqlı təmkinlə deyil, Amerika siyasətinin artan təzyiqləri ilə müşayiət olunurdu. Amerika Birləşmiş Ştatları, Sovet İttifaqı ilə heç bir razılaşmaya getmək istəmirdi. Onlar SSRİ-ni silahlanma yarışına təhrik etməyə çalışırdılar. ABŞ xüsusi xidmət orqanlarının analitiklərinin hesabladığı kimi, bu silahlanma yarışı, yaxın gələcəkdə SSRİ-nin iqtisadi ehtiyatlarının tükənməsinə səbəb olmalı idi. Bu xəttin ardınca, 1983-cü ilin martın 23-də, Prezident R.Reyqan, Strateji Müdafiə Təşəbbüsü (SMT) proqramını elan etdi. 90-cı illərdə məlum oldu ki, Amerika rəhbərliyi bu proqramın həyata keçirilməsinin reallığa uyğun olmadığını bildirmişdi. Lakin, SSRİ-nin, ABŞ-ın strateji müdafiə tədbirlərini zərərsizləşdirmək vasitələrini inkişaf etdirmək üçün, çox baha başa gələn Strateji Müdafiə Təşəbbüsü (SMT) proqramına cəlb olunması, Amerika dövlətinin, rəqibini iqtisadi cəhətdən tükəndirmək siyasətini həyata keçirmək üçün vasitə olmuşdur.

SMT layihəsi, kosmik məkanda, ABŞ fəzasına yaxınlaşan düşmən raketlərini vura bilən, ultra güclü lazer sistemlərinin yerləşdirilə biləcəyi, xüsusi platformaların qurulmasından ibarət idi. Bu qurğu ilə Qitələr arası ballistik raketlər əleyhinə (QBR) müdafiə sisteminin yaradılması təmin edilməli idi. Belə silahların iki əsas növü— enerji səmtli ötürmə silahı (ESÖS) və kinetik silah (KS) mövcuddur.Yer kürəsini əhatə edəcək bu sistemin məqsədi bütün uçuş hüdudlarında rəqib peyklərini və ballistik raketləri məhv etmək idi. Bunun üçün yerüstü lazer silahlarından, Raket Əleyhinə Müdafiə sistemlərindən və müxtəlif sistemli zərbə endirici silahları olan (lazer silahları, qamma-lazer, elektromaqnit dalğalardan sürət alan raketlər (KS) və b.) xüsusi düzəldilmiş kosmik platformalardan istifadə olunması nəzərdə tutulurdu. Onun yaradılması nüvə müharibəsinin baş vermə təhlükəsini artıra bilərdi. Lakin, belə sistemin yaradılması üçün isə çox böyük maliyyə vəsaiti tələb olunurdu.

R.Reyqanın fikrincə, Birləşmiş Ştatlar xaricdən hücumlara qarşı tam təhlükəsiz olmalı idi. SMT proqramı, ərazi RƏM sistemlərini yaratmağı qadağan edən, 1972-ci il, Raket Əleyhinə Müdafiəyə aid müqaviləyə zidd idi, bu, əslində Vaşinqtonun "qarşılıqlı zəmanətli məhvetmə" doktrinasından imtina etməsinə və hərbi üstünlük uğrunda mübarizə siyasətinə qayıtmasına dəlalət edirdi.

1983-1984-cü illərdə, SMT sisteminin dörd sınağı aparılmışdı. İlk üçü istiqamətləndirmə sistemində yaranan nasazlıqla əlaqədar uğursuz oldu. Yalnız 10 iyun 1984-cü ildə, keçirilən dördüncü sınaq zamanı, sistem təxminən 160 km hündürlükdə QBR "Minitmen" təlim blokunu ələ keçirməyə müvəffəq olmuşdu. SMT nəzəriyyəsinin özü, daha inkişaf etdirilməsə də, gələcək kinetik ələ keçirmə sistemlərinin əsasını qoymuş oldu.

**Qeyd:1985-ci ildə, ERIS (Yüksək atmosferdən kənarda müdafiə sistemi) və HEDI (Yüksək Hündürlükdə Atmosfer Müdafiə Qovşağı) təşəbbüslərinin hazırlanmasına başlanıldı.1991-ci ildə sistem şişmə simulyatorları ilə əhatə olunmuş təlim hədəfinin (QBR) tutulması üçün iki uğurlu sınağını həyata keçirdi. Proqram 1995-ci ildə rəsmi olaraq bağlansa da, ERIS təşəbbüsləri Amerikanın sonrakı sistemlərində istifadə edilmişdir.**

1981-1983-cü illərdə, Sovet-Amerika danışıqlarında müzakirə olunan siyasi-hərbi məsələlərin heç birində nəticə əldə olunmadı. Amerika raketlərinin Avropada yerləşdirilməsi üçün son tarix yaxınlaşırdı. 1983-cü ilin sentyabrında ilk Amerika raketləri İngiltərə, Almaniya və İtaliyada yerləşən bazalara çatdırıldı. Avropada strateji vəziyyət kəskin şəkildə dəyişdi, mümkün qarşıdurmanın səddi azaldıldı. Avropada yeni nüvə silahlarının sabitliyə əks təsiri, raketlərin atəş yerindən nəzərdə tutulan hədəfə qısa bir uçuş müddətinin olması ilə bağlı idi. Belə bir qısa müddət ərzində, tərəflərin əks tədbirlər görmək və ya danışıqlar aparmağa, atılmış raket atəşinin qəsdən və ya təsadüfi olmasını da müəyyənləşdirmək üçün vaxtları qalmırdı.

24 noyabr 1983 tarixində, Sovet rəhbərliyi Amerika raketlərinin Avropada yerləşdirilməsi ilə əlaqədar, yaranmış siyasi vəziyyətə aid, mənasında və deyilmə tərzində təhdid edici ahənglər olan bəyanət verdi. Burada hərbi təhlükənin artmasına görə, məsuliyyət Qərb ölkələrinin üzərinə qoyulurdu. Sovet rəhbərliyi, Avropada nüvə silahının məhdudlaşdırılması ilə əlaqədar aparılan Cenevrə danışıqlarının dayandırıldığını elan etdi. Orta mənzilli sovet nüvə silahlarının SSRİ-nin Avropa hissəsində yerləşdirilməsinə aid moratoriumu ləğv etdi. Alman Demokratik Respublikası və Çexoslovakiya ərazisində uçma məsafəsi artırılmış taktiki raketlərin yerləşdirilməsi üçün hazırlıq işlərini sürətləndirərək və dəniz bazalı əlavə nüvə vasitələrini genişləndirdi. Bunun ardınca, 8 dekabr 1983-cü ildə, Sovet tərəfi eyni zamanda, Strateji silahların məhdudlaşdırılması (SSM) və azaldılması üzrə Cenevrə danışıqlarında və Mərkəzi Avropada silahlı qüvvələrin və silahların

qarşılıqlı surətdə azaldılması ilə bağlı Vyana danışıqlarında iştirakını dayandırdığını elan etdi.

Amerika raketlərinin Qərbi Avropada yerləşdirilməsinə cavab olaraq, 1983-cü ildən sonra, Sovet İttifaqı taktiki əməliyyat raket komplekslərini (OTR-22 və OTR-23) Çexoslovakiya və ADR-də yerləşdirdi və eyni zamanda Ballistik raketli nüvə süaltı qayıqlarını (BRNSQ- ПЛАРБ) ABŞ-ın Atlantik və Sakit okean sahillərinə yaxınlaşdırdı. Strateji sahədə də geniş cavab tədbirləri həyata keçirildi. Sovet İttifaqının Strateji məqsədli Raket Qüvvələri (SRQ) ən müasir silahlarla təchiz olunmuşdu - əhəmiyyətli dərəcədə böyük gücə malik, uzaq mənzilli ballistik raketlər eyni vaxtda bir çox hədəfə zərbə vura bilirdi. ABŞ tərəfindən BRNSQ "Traydent"in yerləşdirilməsinə cavab olaraq, Sovet İttifaqı ona oxşar formada olan "Tayfun" sualtı gəmisinin hazırlanmasına başladı.

ABŞ-da nüvə silahları, strateji üçlüyün müxtəlif komponentləri arasında təxminən bərabər şəkildə paylandı. Sovet İttifaqı Qitələrarası Ballistik Raktlərdəki (QBR) bütün nüvə başlıqlarının üçdə iki hissəsinə sahib idi və bu, QBR-dəki döyüş başlıqlarının sayına görə, ABŞ-dan təxminən iki dəfə çox idi. Bununla belə ABŞ, sualtı qayıqlarda olan Ballistik raketlərdə döyüş başlıqlarının sayına görə, SSRİ-ni 2,5 dəfədən çox üstələyirdi. 1980-ci illərdə, SSRİ uzaq məsafəli aviasiyanı qanadlı raketlər ilə təchiz etməyə başladı, lakin ABŞ bombardmançılarında sovet silahlarından təxminən 20 qat daha çox nüvə silahı var idi. Buna baxmayaraq, ümumiyyətlə 80-ci illərin sonunda, strateji silahlarda sabit tarazlıq yaranmışdı. R.Reyqan hökumətinin strateji üstünlüyü bərpa etmək cəhdlərinə baxmayaraq, ABŞ və Sovet İttifaqının gücləri arasında olan uyğunsuzluq artmadı, əksinə azaldı. 1970-ci illərin sonlarında, SSRİ-də 5 min, 1988-ci ildə - 10 minə yaxın strateji döyüş başlığı var idi isə, ABŞ-da 1970-ci illərin sonlarında 10 mindən çox və 1988-ci ildə isə 14-16 mindən çox idi. Hərbi xərclər 1979-1980-cı illərdəki 134 milyard dollardan 1988-ci ildə 291 milyard dollara qalxdı. Sabit strateji tarazlığı qorumaq, hərbi sahədə ABŞ-ın siyasətinə oxşar cavab vermək addımları, Sovet İttifaqından çox böyük iqtisadi xərclər tələb edirdi. ABŞ və SSRİ arasında diplomatiyada **"cücə oyunu"** adlanan , siyasi qarşıdurma prosesində ciddi mübarizə gedirdi. Və mübarizənin sonunda, SSRİ ABŞ-la qarşıdurmadan geri çəkilərək, məğlub oldu.

**Qeyd: "Cücə oyunu"-Bu oyunu, Kaliforniya gəncləri 1950-ci illərdə oynayırdılar. Ensiz bir yolda maşınlarını bir-birinə tərəf sürürdülər. Kim yan tərəfə dönsə və qarşı-qarşıya gələn toqquşmadan çəkinsə idi, uduzmuş olurdu (o, qorxduğundan, özünü cücə kimi aparmış sayılırdı).**

### 3.3. ABŞ-da "yeni qlobalizm" doktrinası

SSRİ-də baş verənlər haqqında məlumatı olan, Amerika rəhbərliyi Sovet İttifaqına təzyiqləri artırmağa çalışırdı. 1984-cü ilin noyabrında, R. Reyqan asanlıqla yeni müddətə yenidən seçilməyə nail oldu. O, SSRİ ilə əvvəlki qarşıdurma strategiyasını müvəffəqiyyətli hesab edərək, bu siyasətə daha da geniş miqyas verməyə qərar verdi. 1985-ci ilin fevralında, ABŞ Prezidenti "neoqlobalizm" doktrinasını elan etdi. Bu doktrinaya əsasən, ABŞ-ın xarici siyasətini yenidən qurmaq niyyətində olduğunu bildirdi. Doktrinanın mənası, ABŞ-ın "kommunist ölkələrinə" siyasi münasibətlərində, guya özlərinə tətbiq etdikləri məhdudlaşdırmalardan imtina etmək niyyətində olmalarından ibarət idi. R.Reyqan ABŞ-ın Vyetnam müharibəsindən əvvəl olduğu kimi, həqiqətən qlobal siyasət həyata keçirilməsini təklif edirdi. Onun şərhində bu, ABŞ-ın dünyanın istənilən yerində, eyni vaxtda, "dünya kommunizminə" qarşı durmağa hazır olması demək idi.

Demokratlar və R.Reyqanın sələfi C.Karter üçün dünyadakı bütün dövlətlər, ilk növbədə demokratik və demokratik olmayanlara bölünürdü. Üstəlik, ABŞ-ın 70-ci illərdə, təzyiq göstərməyə çalışdığı kommunist və qeyri-kommunist diktator ölkələr sonuncular arasında idi. Respublikaçılar və R.Reyqanın özü üçün ən başlıcası kommunist və qeyri-kommunist diktaturalar arasında olan fərq idi. Respublikaçılar kommunist dövlətlərini "diktaturalar", kommunist olmayanları daha “yumşaq” söz olan, "avtoritar hakimiyyətlər" ifadəsi ilə qeyd etmişdilər. "Neoqlobalizm" doktrinasına görə, qeyri-demokratik olmasına baxmayaraq, qeyri- kommunist yönümlü avtoritar hakimiyyətlərin fəaliyyəti, ABŞ-ın "kommunist diktaturalarına" qarşı mübarizəsinin məqsədlərinə uyğundursa, onlara kömək etmək olardı.

Yeni doktrinanın adında qeyd olunan, "qlobal" məqsədlərə baxmayaraq, bu məqsədlər ilk növbədə Latın Amerikasına, daha az dərəcədə Afrika və Asiyaya yönəldilmişdi. "Neoqlobalizm" doktrinasına uyğun olaraq, ABŞ rəhbərliyi Qvatemala, Çili, Haiti və Salvadorda olan diktaturaları dəstəkləmək üçün maliyyə vəsaiti ayırmağa başladı.

ABŞ-ın Reyqan doktrinasına uyğun olaraq, həyata keçirdiyi siyasətinin təcavüzkar addımı 1983-cü ilin oktyabrında, ABŞ-ın Karib dənizindəki Qrenada adasına silahlı müdaxiləsi oldu. 1900 amerikan dəniz piyadası, Vaşinqtonda "sol" və "marksist" sayılan, qanuni olaraq seçilmiş Prezident Moris Bişopu hakimiyyətdən kənarlaşdırdı. Müdaxiləyə bəhanə, Kuba vətəndaşlarının Qrenadada aerodromun yenidən qurulmasında iştirak etməsi olmuşdu. Amerika xüsusi xidmət orqanlarının fikrincə, Kubanın bu köməyi, adada "kommunist bloku" üçün strateji bir istinad nöqtəsinin yaradılmasına aparılması demək idi. 1989-cu ildə, "neoqlobalizm" doktrinasına uyğun olaraq, ABŞ Panamaya da hərbi müdaxilə həyata keçirdi.

Əslində, "Reyqan doktrinası" Nikaraqua ilə bağlı ABŞ siyasətini də müəyyənləşdirmişdi. ABŞ, Nikaraquada vətəndaş qarşıdurmasında anti-hökumət kontrasları dəstəkləyirdi. Lakin, ABŞ-a birbaşa olaraq, "kontras"a yardım göstərmək hüquqi baxımdan çox çətin idi. 1981-ci ilin dekabrında R.Reyqan, "kontras"ı dəstəkləmək üçün 19 milyon dollar ayrılmasına sərəncam vermişdi. Buna cavab olaraq Nikaraqua hökuməti, ABŞ-ı ölkənin daxili işlərinə qarışmaqda ittiham edərək, Haaqa Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etmişdi. Beynəlxalq məhkəmə Vaşinqtonun hərəkətlərini qınayan qərar çıxarmışdı.

Hökumətin idarəetmə siyasəti, Amerika Konqres üzvləri arasında mübahisələrə səbəb oldu. 1982-ci ildə hökumətin Nikaraqua siyasətinə dair dinləmələrindən sonra, nümayəndələr palatasının üzvlərinin əksəriyyəti, E.Bolandın düzəlişini qəbul etdi. Bu düzəlişə görə, Nikaraquada vətəndaş müharibəsinin nəticələrini aradan qaldırmaq üçün ayrılan yardımın miqdarı 24 milyon dollara qədər məhdudlaşdırıldı. Eyni zamanda bu yardımı, qanuni Nikaraqua hökumətinə qarşı olan, təxribatçı fəaliyyət üçün istifadə edilməsi qadağan edildi. Sonradan, Konqresin mövqeyi daha da sərtləşdi. 1984-cü ilin aprelində, Nikaraqua limanlarının minalanması ilə əlaqədar qalmaqal baş verdi, bu qeyri-qanuni bir hərəkət idi. Formal olaraq, ABŞ bu əməliyyatda iştirak etməmişdi, ancaq MKİ-də işləyən amerikalıların minalanma işlərində iştirak etdiyi məlum olduqda, Konqres ümumiyyətlə Nikaraqua müxalifətinə yardım göstərməyi qadağan etdi.

Lakin, R. Reyqan hökuməti bu dəstəyi dayandırmadı. 1986-cı ildə, Prezidentin ətrafındakı insanların da qarışdığı "İran-kontras" qalmaqalı meydana gəldi. Məlum oldu ki, hökumətin razılığı ilə Amerika nümayəndələri, Livanda İran meylli terrorçuların əsir götürdükləri amerikalı girovların azad edilməsinə kömək müqabilində, qanuna zidd olaraq İrana silah satmaq razılığına gəldilər. Girovlar sərbəst buraxıldı, lakin əməliyyatın qanunsuz mahiyyəti bununla dəyişmədi. İrana silah satışından əldə olunan gəlirlər ilə ABŞ nümayəndələri tərəfindən kontraslar üçün başqa silahlar alındı və gizli şəkildə, hava yolu ilə Nikaraquaya çatdırıldı. Bu da qanunsuz idi, çünki, Konqresin 1984-cü il qərarına zidd idi. Bu məsələ, 1986-cı ilin oktyabrında Nikaraqua ərazisi üzərində, içində Amerika silahı olan nəqliyyat təyyarəsinin vurulmasından sonra hamıya məlum oldu. Qalmaqala baxmayaraq, ABŞ rəhbərliyi üçüncü ölkələr - Salvador və Honduras vasitəsi ilə "kontras"a kömək etməyə davam etmişdi.

Latın Amerikasında "kommunizm"ə qarşı mübarizə məqsədlərindən əlavə, 80-ci illərin ortalarında, ABŞ tərəfindən Cənubi Afrikadakı irqçi hökumətə, Filippin, Pakistanın avtoritar hakimiyyətlərinə və Əfqanıstanda hökumət əleyhinə olan qüvvələrə,"neoqlobalizm" doktrinasına əsaslanan yardımlar ayrılmışdı. Amerika

Birləşmiş Ştatları, SSRİ-nin xarici siyasət fəallığının azaldığını hiss edərək, bundan Sovet İttifaqını əvvəlki onilliklərdə nüfuz qazana bilmədiyi ərazilərdən sıxışdırıb çıxarmaq üçün istifadə etməyə çalışdı.

### 4.SSRİ-nin ictimai- iqtisadi vəziyyəti və beynəlxalq münasibətlər

#### 4.1. Sovet İttifaqının iqtisadi tükənməsi və xarici siyasət fəaliyyətinin zəifləməsi

Əfqanıstan müharibəsi SSRİ-də iqtisadi vəziyyəti ağırlaşdırdı və Sovet cəmiyyətinin birliyini pozdu. Əfqanıstanda, Sovet hərbi qüvvələrinin sayı təxminən 80 min nəfər təşkil edirdi. Müharibə ölkənin ehtiyatlarının əhəmiyyətli bir hissəsinin qeyri-istehsal ehtiyaclarına yönəldilməsini tələb etdi və müharibənin sonuna qədər 12 mindən çox insanın tələfatı Sovet İttifaqı daxilində güclü etirazlara səbəb oldu. Hakim dairənin və ümumi əhalinin bir hissəsi müharibənin faydasızlığını, burada qələbə qazanmağın mümkünsüzlüyünü və Əfqanıstanda olan sovet tərəfdarı qüvvələrinin müxalifətlə barışıq yolu ilə vəziyyəti sabitləşdirə bilməyəcəklərini yaxşı başa düşürdülər.

Əfqanıstanda olan müharibəyə əlavə olaraq, SSRİ digər müttəfiq dövlətlərə - Vyetnam, Monqolustan, Nikaraqua, Kuba, Anqola, Mozambik, Efiopiya, Suriyaya da kömək üçün vəsait xərcləyirdi. SSRİ-nin Avropanın sosialist ölkələri ilə iqtisadi əlaqələri eyni bərabərdə deyildi. Onlar, Sovet İttifaqından dünya qiymətlərindən aşağı qiymətlərlə enerji almağa davam edirdilər. SSRİ, Polşanı dəstəkləmək üçün böyük vəsait xərcləyirdi. Polşada isə siyasi vəziyyət ağır olaraq qalırdı. Bu dövlətlərin Sovet İttifaqına qaytarılmamış çox böyük borcları var idi.

Bu vaxtdan, Sovet iqtisadiyyatının inkişafı demək olar ki, dayanmışdı. İqtisadi inkişafın əsas göstəricilərinə görə Sovet İttifaqı durğunluq səviyyəsində qalırdı. 80-ci illərin ortaları üçün, SSRİ-nin Qərb ölkələrinin böyük əksəriyyəti və Yaponiya ilə əsas mülki sənaye sahələrinin texniki təchizat səviyyəsində olan böyük fərq sadəcə diqqət çəkirdi. Hərbi istehsalın lazımi texnoloji səviyyəsini qorumaq üçün, Sovet İttifaqı xarici texniki layihələri və məhsul nümunələrini - ilk növbədə metal emalı və dəzgah istehsalı üçün, ən son avadanlıqları, gizli yol ilə əldə etmək üçün xüsusi əməliyyatlar həyata keçirməyə məcbur olurdu. 1987-ci ildə, ABŞ kəşfiyyatının bu əməliyyatlardan biri haqqında olan faktları aşkar etdikdən sonra, beynəlxalq qalmaqal yarandı. Bu qalmaqal, SSRİ-nin, Yaponiyadan yalançı firmaların vasitəsi ilə sualtı qayıqlar üçün daha səssiz işləyən pərlər düzəltmək üçün, metal emalı və dəzgah qayırma sahələrinə yeni avadanlıqların alınması ətrafında idi. Bu avadanlıqla

SSRİ, Amerikanın izləmə cihazlarının hərəkətə həssaslıq səviyyəsindən aşağı olan pərlər düzəldilirdi.

70-ci illərdə, yaranan neft ixracı gəlirləri sənayedə irəliləyişi təmin etmədən israfcasına xərcləndi. Köhnə, asan əldə edilə bilən yataqların tükənməsi nəticəsində sovet neft ixracı azaldı və yenilərinin (Uzaq Şimal və Sibir bölgələrində) inkişafı üçün əlavə vəsait tələb olunurdu. Bununla yanaşı, dünya miqyasında neft qiymətlərinin artımı dayandı. Buna səbəb, inkişaf etmiş ölkələrin enerji qənaət edən texnologiyalara keçməsi ilə əlaqədar olaraq neftə tələbatlarının azalması idi. SSRİ-nin büdcəsinin formalaşmasının əsas mənbəyi zəiflədi. Sovet İttifaqı, ABŞ ilə apardığı silahlanma və siyasi-hərbi rəqabəti əvvəlki miqyasda və köhnə sürətlə davam etdirə bilmədi. Ölkə, fəal xarici siyasətin aparılması üçün onu maliyyələşdirmək, iqtisadi metodlar vasitəsilə nüfuz qazanmaq, SSRİ-nin qalib və çiçəklənən dövlət kimi "sosialist həyat tərzinin üstünlükləri" imicini təbliğ etmək imkanları tamamilə itirilmiş oldu.

Sovet İttifaqında sosial sahədə qalan üstünlüklərə (pulsuz təhsil və səhiyyə xidməti, işsizliyin olmaması, son dərəcə "yumşaq" əmək qanunvericiliyi, əhalinin müxtəlif təbəqələri üçün dövlət tərəfindən təmin edilmiş çoxsaylı sosial müavinətlərin olması və s.) baxmayaraq, ölkənin nüfuzu 40-60-cı illərdə olan özünə xas cəlbedici cizgilərini itirirdi. Dinamik inkişaf edən bir dövlətin əvəzinə, xaricilərin gözü qarşısında aşağı yaşayış səviyyəli, qabaqcıl texniki nailiyyətlərdə iştirak dərəcəsi baxımından geridə qalmış nəhəng, qeyri-bərabər inkişaf edən bir ölkə dururdu.

Sovet İttifaqında başlayan zəifləmə prosesi, əsasən siyasi rəhbərliyinin fiziki yaşlanması ilə əlaqədar idi. L.İ.Brejnevin on səkkiz illik hakimiyyəti, Sov.İKP və Sovet dövlətində kadr durğunluğuna səbəb olmuşdu. Gənc fəal siyasətçilərə rəhbərlik səviyyəsinə çatmaq üçün əməli olaraq heç bir imkan verilmirdi. Çünki, onların rəhbər vəzifələrə doğru irəliləmələrinə, hakimiyyəti tərk etmək istəməyən yaşlı nəsil sərt şəkildə maneələr yaradırdı. Hakimiyyətin partiya və dövlət bürokratları öz vəzifələrini "çox yaşlıdan daha az yaşlıya" prinsipi ilə ötürürdülər. Mərhum L.İ.Brejnevin yerini, 1982-ci ilin noyabrında 68 yaşlı və ağır xəstə olan, Y.V.Andropov tutdu. Bir il yarım sonra o, vəfat edəndə, 1984-cü ilin fevral ayında bu vəzifəyə 73 yaşında olan K.U.Çernenko gəldi. Y.V.Andropov kimi, K.U.Çernenko da, Sov.İKP Mərkəzi Komitəsinin Baş Katibi seçilərkən ciddi xəstə idi. Bu yaşlı rəhbərlər, gənc siyasətçilərə etibar etmədiklərinə görə və öz adlarını böyük bir dövlətin rəhbəri kimi tarixdə “yaddaşlara həkk” etmək üçün, siyasi fəaliyyətdən getmək istəmirdilər.

1982-1984-cü illərdə, Sov.İKP Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlərinin hər hansı birinin dəfn mərasimi ən azı altı ayda bir dəfə keçirilirdi. Bu illəri "təntənəli dəfnlər beşilliyi" də adlandırırlar. Partiya rəhbərlərinin uzunömürlü nümayəndələri öz vəzifələrini tərk etmədən, bir-birinin ardınca ölürdülər - Sov.İKP MK Komitəsinin İdeologiya katibi M.A.Suslov (80 yaş), Müdafiə naziri D.F.Ustinov (76 yaş), Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri A.Y.Pelşe (84 yaş). 1980-ci ildən sonra SSRİ hökumətinin başçısı olmuş N.A.Tixonovun, 1984-cü ildə K.U.Çernenkonun Baş Katib seçilməsi zamanı 79 yaşı tamam olmuşdu. Ölkənin yüksək rəhbərliyində kəskin kadr böhranı yarandı. Partiya bürokratlarının gənc nəsli "qocalar"ın hökmranlığından narazı idilər və onları devirmək üçün məqam gözləyirdilər. Artıq, sovet rəhbərliyindən yeni beynəlxalq səmərəli təşəbbüslər gözləmək üçün heç bir təməl yox idi.

### 4.2. SSRİ-də rəhbərliyin dəyişməsi və Qərblə danışıqların bərpası

10 mart 1985-ci ildə, K.U.Çernenko vəfat etdi. M.S. Qorbaçov Sov.İKP MK-nın Baş Katibi vəzifəsinə seçildi. SSRİ rəhbərliyində nəhayət nəsil dəyişikliyi baş verdi. Yeni rəhbərin 54 yaşı var idi. O, partiyanın nisbətən gənc nəslini təmsil edirdi və ilk vaxtlar onların dəstəyindən istifadə edirdi. Bu nəsil öz fəaliyyətlərini, köhnə mühafizəkar siyasətinin davam etdirilməsinin mümkünsüzlüyünü və Sovet İttifaqında - kadr, iqtisadi və elmi-texniki yeniləşmənin zəruriliyini qəbul edən, bəzi mütərəqqi düşüncəli, vətənpərvər və məsul veteranların bir qrupunun dəstəyi ilə əlaqələndirirdilər. SSRİ-ni yaşadığı mürəkkəb böhrandan təcili şəkildə çıxarmaq lazım idi. Aydın bir yenilənmə proqramı yox idi. Ancaq, Qərblə qarşıdurmadan əl çəkməyin, beynəlxalq təcriddən çıxmağın və qabaqcıl dünya nailiyyətləri nəzərə alınmaqla iqtisadi modernləşmənin aktual daxili problemlərinin həllinə diqqət yetirməyin lazım olması tam aydın idi. Bu vəzifələr, çevik xarici siyasət xəttini həyata keçirməyi nəzərdə tuturdu.

Bu siyasətin ilkin addımları əvvəlki Baş Katibin dövründə atılmağa başlanmışdı. 1985-ci ilin yanvarında, SSRİ və ABŞ kosmik və nüvə silahı ilə bağlı danışıqların mövzusu və məqsədləri barədə razılığa gələ bildilər. Danışıqlar, 1985-ci ilin mart ayında, Cenevrədə başladı. Bu, 1983-cü ildə, dayandırılmış strateji məsələlər üzrə danışıqların yenidən qurulması üçün ilk addım idi. Daha əvvəl, 1985-ci ilin fevral ayında, Sovet İttifaqı MAQATE ilə beynəlxalq müqavilə imzalayaraq, özü üçün görünməmiş bir addım atdı. Müqavilədə, sovet atom elektrik stansiyalarının bəzi reaktorların nəzarətə götürülməsi məsələsi qərara alınmışdı. Elə həmin ilin aprel ayında, yeni sovet rəhbərliyi Amerikanın orta mənzilli raketləri və qanadlı raketlərinin Avropaya yerləşdirilməsi ilə əlaqədar olaraq cavab tədbirlərinə

moratorium tətbiq olunduğunu elan etdi. Bu addımla, Moskva Qərbi Avropa və ABŞ ilə münasibətləri yaxşılaşdırmaq istəyini nümayiş etdirdi. Diplomatik dairələrdə, bitərəf ölkələrin birində, SSRİ və ABŞ arasında yüksək səviyyəli görüşün keçirilməsi məsələsi müzakirə olunmağa başlandı.

ABŞ-ın Qərbi Avropa müttəfiqləri Moskvanın xarici siyasətində gedən dəyişiklikləri, yüngüllük hissi və bəzi ümidlərlə qarşıladılar və Reyqan rəhbərliyini onlara diqqət göstərməyə inandırdılar. 1985-ci ilin martında Moskvada K.U.Çernenkonun dəfnindən sonra, M.S. Qorbaçov və AFR-in Kansleri Helmut Kol ilə, İngiltərənin Baş Naziri M.Tetçer arasında qısa görüşlər keçirildi. Bundan bir qədər sonra, 1985-ci ilin mayında İtaliyanın Baş Naziri BettinoKraksi, M.S.Qorbaçov ilə görüşmək üçün Moskvaya gəldi.

Britaniya diplomatiyası Moskva ilə danışıqlara xüsusi maraq göstərirdi. Böyük Britaniya hökumətinin başçısı M.Tetçer, hələ 1984-cü ilin dekabrında, M.S.Qorbaçov SSRİ-nin Parlament nümayəndə heyətinin başçısı kimi, İngiltərədə olduğu vaxt onunla tanış olmaq imkanı əldə etmişdi. Ona görə, M.Tetçer M.S.Qorbaçov hakimiyyətə gəldiyi andan, Qərb liderləri arasında SSRİ-nin rəhbərliyi ilə danışıqlar aparmaq istəyən ən əqidəli dövlət başçılarından biri idi. Britaniya ərazisində kəşfiyyat fəaliyyətində günahlandırılan bir qrup sovet diplomatının, 1985-ci ilin sentyabrında İngiltərədən qovulması ilə yaranan qalmaqal Sovet-İngiltərə danışıqlarını bir qədər ləngitsə də, ancaq ona mane ola bilmədı.

1985-ci ilin oktyabrında, yeni sovet lideri Parisə rəsmi səfərə getdi. Bu səfər konkret siyasi məqsəd güdmürdü. Moskvanın SSRİ tərəfdən Qərbi Avropaya hərbi təhdid stereotipini ləğv etmək üçün fəaliyyətə başlaması vacib idi. SSRİ ilə bağlanmış müqavilələrə inamı bərpa etmək lazım idi. 1985-ci ilin oktyabrında, Parisdə olduğu müddətdə, M.S.Qorbaçov təntənəli çıxışlarının birində, Prezident de Qollun ifadə etdiyi, Avropaya aid olan "Atlantikadan Urala qədər” fikrinə istinad edərək, dediyi “Ümumi Avropa evi”nin yaradılması ideyasını açıqladı. Bu ideya sonralar xeyli məşhurlaşmışdı. “Ümumi Avropa evi” ilə bağlı bəyanat maraqla qəbul edildi, belə ki, o, Avropadakı parçalanmanın aradan qaldırılması barədə inqilabi fikrin ifadəsi ola bilərdi. Lakin, M.Qorbaçovun nəyi nəzərdə tutduğunu dəqiq anlamaq mümkün deyildi. Hər halda, kütləvi informasiya vasitələrinin yeni sovet rəhbərinin şəxsiyyətinə diqqəti təmin edildi.

M.Qorbaçovun 1985-ci ilin noyabrında, Cenevrədə R.Reyqanla görüşü nəzərə tutulmuşdu. Sovet tərəfi üçün, Vaşinqtona avropalıların ABŞ-dan əvvəl, Moskva ilə danışıqlar aparmağa hazır olduqlarını göstərmək lazım idi. Sovet lideri, R.Reyqanla danışıqlara qədər, Vaşinqtonun ən nüfuzlu Qərbi Avropa müttəfiqlərinin liderləri ilə görüşməyə vaxt tapmışdı.

1985-ci ilin noyabr ayında, M.S. Qorbaçov və R.Reyqan görüşdülər. Onların Cenevrədə keçirilən danışıqları və sonrakı illərdə, qısa fasilələrlə keçirilən, silahlanmaya nəzarət məsələlərinə həsr edilmiş bir sıra Sovet-Amerika zirvə görüşlərinin başlanğıcını qoymuş oldu. Bununla hər iki dövlətin mülki rəhbərləri, strateji məsələlər üzrə danışıqlar səviyyəsini kəskin dərəcədə artırdılar və onu faktiki olaraq, birbaşa öz nəzarətlərinə tabe edə bildilər. Zirvə görüşləri bir-birinin ardınca getdiyindən, əslində tərəflər 60-70-ci illərdə olduğu kimi, hərbi mütəxəssislər səviyyəsində uzun, bir neçə il əvvəldən hazırlanan müqavilələrdən imtina etdilər. Əvvəllər, bu formada hərbi-siyasi danışıqlar aparmaq təcrübəsi olmamışdı. O, hərbi-texniki məsələlərin siyasi müzakirələrə tabe olması barədə tərəflərin qarşılıqlı razılığını təmin edirdi. Sovet rəhbərliyi, zamanın SSRİ-yə qarşı olduğunu hesab edərək, danışıqlar prosesini sürətləndirdi.

M.S.Qorbaçovun mövqeyinə, daxili siyasi şərait təsir edirdi. Rəhbər partiyanın içərisində hamı onun kimi fikirləşmirdi. Yeni liderə, Sovet rəhbərliyinin və adi vətəndaşların gözü qarşısında nüfuzunun möhkəmlənməsinə kömək edə biləcək böyük bir xarici siyasət müvəffəqiyyəti lazım idi. Belə ki, 1985-ci ilin dekabrında, M.S. Qorbaçovun razılığı ilə, sonradan onun əsas siyasi rəqibinə çevrilmiş B.N.Yeltsin, Sov.İKP Moskva Şəhər Komitəsinin Birinci katibi oldu.

Cenevrədə keçirilən Sovet-Amerika sammiti əməli nəticələr vermədi, lakin Sovet İttifaqına Amerika Birləşmiş Ştatları ilə danışıqların aparılmasına şərait yaratmış oldu. Bunun nəticəsində, növbəti beş il ərzində, beynəlxalq siyasi meyllərin istiqaməti tamamilə dəyişdi.

## 5. ATƏM və vahid Avropa Aktının imzalanması

### 5.1. ATƏM-in Madrid görüşünün başlanması

Sovet-Amerika münasibətlərinin pisləşməsi və beynəlxalq periferiyanın sabitləşməsi, qeyri-sabitliyin dünyanın ucqar bölgələrindən Avropaya yayılacağını gözləyən Avropa ölkələrini narahat edirdi. Polşada narazılığın artması və SSRİ-nin bu ölkəyə mümkün müdaxiləsi ilə bağlı qorxular, bu narahatlıqları daha da əsaslandırırdı. Sovet İttifaqının özündə də vəziyyət dəyişirdi. 1980-ci ilin yanvarında, sovet insan haqlarının fəal müdafiəçisi A.D.Saxarov Moskvadan Qorkibölgəsinə sürgünə göndərilmişdi. Moskvanın mühacirət siyasəti sərtləşdirilmişdi. SSRİ-də, İsrailə getmək istəyənlərə, verilən vizaların sayı 1979-cu ildə 51 min idisə, 1980-ci ildə 21 minə, 1982-ci ildə isə 2 minə düşmüşdü.

Avropa dövlətləri, Sovet İttifaqını Qərblə danışıqlar şəraitində saxlamağa çalışırdılar ki, onun tərəfindən gözlənilməz hərəkətlərin qarşısını ala bilsinlər. Buna

görə, 1980-ci ilin payızında Madriddə, ATƏM çərçivəsində növbəti iclasının çağırılması qərarına gəldilər. Bu cür görüşlər, sosialist və kapitalist ölkələri arasında Avropada olan problemlərlə bağlı daimi dialoq vasitəsinə çevrilirdi.

Görüş təxminən üç il davam etmiş və 1983-cü ilin sentyabrında başa çatmışdı. Gündəlik, 1975-ci il Yekun aktı çərçivəsinə aid razılaşmaların yerinə yetirilməsini müzakirə etmək zərurəti ilə təyin olunmuşdu. Belqrad görüşündə olduğu kimi, bu dəfə də, Qərb nümayəndələrinin gərgin müzakirələri Polşada baş verənlərlə, insan hüquqlarının pozulması məsələsini əlaqələndirmələri olmuşdu.

Sovet nümayəndə heyəti görüşdə, insan hüquqları məsələlərinin müzakirə edilməməsinə mane ola bilmədi. Madrid görüşündə, ATƏM-in iştirakçı ölkələrinin əksəriyyətinin iştirak etdiyi, insan hüquqları ilə bağlı qeyri-rəsmi koalisiyası formalaşmağa başladı. Məqsəd, SSRİ-nin Helsinki razılaşmalarını açıq şəkildə imtina etməsinin qarşısını almaq idi. Bununla, SSRİ-yə 1975-ci ildə, ərazi məsələsində status-kvonun saxlanması güzəşti hesabına qəbul etdirilmiş, siyasi və hüquqi özünü məhdudlaşdırılmalar yerinə yetirilməsə də, Moskvanın Avropa siyasətini mənəvi məcrada saxlamağa çalışırdılar. 1975-ci ildən sonra, Sovet rəhbərliyi, Ümumavropa prosesinə etibar etməsə də, fəaliyyətini beynəlxalq səviyyədə razılaşdırılmış davranış normaları ilə uyğunlaşdırmaq məcburiyyətində qaldı.

### 5.2. ATƏM-in Madrid görüşünün başa çatması və İnam Tədbirləri üzrə Stokholm Konfransının çağırılması

1983-cü ilin payızında, 40-cı illərin sonlarında vəziyyətlə müqayisə olunan, beynəlxalq gərginlik qeyd olunmuşdu. Barışmaz qarşılıqlı mübahisələrə səbəb olduğu üçün, Ümumavropa danışıqlarını davam etdirmək mümkün olmadı. 1983-cü ilin sentyabrında, Madrid görüşü başa çatdı. Yekun sənədlərində, Şərqlə Qərb arasında olan hərbi-siyasi münasibətlər haqqında heç bir məsələ qeyd olunmadı, çünki görüşdə qərarlar konsensus yolu ilə qəbul edildiyindən, qarşı tərəflərin əməli olaraq ortaq mövqeləri olmadı. Son sənəddə insan hüquqları, humanitar və iqtisadi məsələlərə çox diqqət yetirilmişdi. Madrid görüşünün sənədi, əksər Avropa ölkələrinin rəyini əks etdirsə də, Sovet İttifaqının maraqlarına zidd idi.

Eyni zamanda, Sovet nümayəndə heyəti ATƏM-i boykot etmək cəhdindən çəkindi. Müəyyən müddətə qədər, Ümumavropa Müşavirəsi Şərqlə Qərb arasında aparılan danışıqların yeganə vasitəsi olaraq qalırdı. 1984-cü ilin yanvarında Madrid görüşünün qərarına əsasən, Stokholmda, Avropada İnam Tədbirləri mövzusunda Konfrans başlamalı idi. Onun çərçivəsində, bir-birinə qarşı çıxan blokların nümayəndələri, Avropanın müharibəyə sürüklənməsinin qarşısını almaq

məsələlərini yenidən müzakirə etmək imkanı əldə etdilər. Stokholm konfransında danışıqlar çətin olsa da, onların aparılması faktı beynəlxalq gərginliyi azaldırdı. Stokholm konfransı 1986-cı ilin sentyabrına qədər davam etmişdi.

### 5.3. Qərbi Avropa inteqrasiyasının inkişafı və vahid Avropa Aktının imzalanması

Qərbi Avropada gedən inteqrasiya prosesləri, 70-ci illərin tənəzzülü zamanı zəiflədi, bu ayrı-ayrı ölkələrin milli korporasiya qrupları arasında artan rəqabət ilə əlaqələndirilirdi. Sonradan bu proses sürətləndi, çünki çətin işlərin daha sıx əməkdaşlıq yolu ilə aradan qaldırıla biləcəyi məlum oldu. 1979-cu ildə ilk dəfə, Avropa Parlamentinə birbaşa seçkilər keçirildi. Seçkilər ölkələr üzrə deyil, partiyalar əsasında aparılırdı. Yeni parlamentdə əksəriyyəti mühafizəkar partiyalar qazandı. Avropa Birliyi ən vacib problemləri müzakirə etmək üçün, daimi forum yaratdı. AB güclənməkdə davam edirdi. 1979-cu ilin mayında Yunanıstan, 1986-cı ilin yanvarından İspaniya və Portuqaliya AB-yə daxil oldu. İştirakçıların ümumi sayı 12 ölkəyə çatdı. Qərbi Avropa dövlətlərinin, gündəmə müzakirə etmək üçün, iqtisadi və maliyyə birliyi ilə bərabər, siyasi və hətta müdafiə ittifaqı yaratmaq məsələlərini də qoymaq mümkün oldu.

1976-cı ildə Avropa Şurasının tapşırığı ilə, Belçikanın Baş Naziri L.Tindemans, Avropa Birliyinin təsisatlarını yenidən qurulma proqramını hazırladı ("Tindemans məruzəsi"). Burada, AB-nin bütün sahələrində Qərbi Avropa inteqrasiyasının idarə edilməsi üçün vahid bir mexanizmə çevrilməsi nəzərdə tutulurdu. Layihə, Avropa Birliyinin Avropa İttifaqına çevrilməsini təmin edəcək idi. Bu məsələ, 1972-ci ildə AB ölkələrinin Parisdə keçirilən görüşündə müzakirə olunmuşdu.

Xarici siyasət inteqrasiyasının bir istiqaməti kimi, AB ölkələrinin beynəlxalq aləmdə fəaliyyətini əlaqələndirmək üçün, siyasi məsləhətləşmələr sisteminin rəsmi şəkildə, birliyin təsisatlarına daxil edilməsi təklif edildi. Bu sistem "Avropa siyasi əməkdaşlığı" adını aldı. Bu məsələ, Qərbi Avropa ölkələri arasında olan münasibətlərdə, 70-ci illərdən etibarən formalaşmağa başladı. Əslində, Qərbi Avropa ölkələrinin başqa bir dördüncü birliyinin yaradılması təklif edilirdi. Belə ki, 1967-ci ildə Avropa Kömür və Polad Birliyi (AKPB), Avroatom və Avropa İqtisadi Birliyi (AİB) birləşdikdən sonra, vahid Avropa Birliyi yaranmışdı.

L.Tindemansın hesabatı, 1976-cı ilin noyabrında, Haaqada Avropa Birliyi iclasında nəzərdən keçirildi. O, təsdiq edilmədi, lakin iştirakçı ölkələr, hər il Avropa Birliyini İttifaqa çevirmək yolları ilə bağlı müzakirələr aparmaq qərarına gəldilər.

1981-ci ilin noyabr ayında, Almaniyanın Xarici İşlər naziri Hans-Ditrix Qenşer və İtaliyanın Baş Naziri E.Kolombo yeni bir sənəd layihəsini hazırladılar. Bu

sənəddə, L.Tindemans planının bir çox fikirləri inkişaf etdirilmişdi. Bunun əsasında, 1983-cü ildə Ştutqartda keçirilən müşavirədə AB ölkələri, Avropa İttifaqı haqqında təntənəli bəyannamə imzalayaraq, növbəti beş il ərzində Birliyin İttifaqa çevrilməsi haqqında müqaviləni təsdiq etmək qərarına gəldilər. Bu prosesin sürətlənməsinə İngiltərə, Yunanıstan və Danimarka müqavimət göstərirdi. Bu ölkələr, siyasət sahəsində olan suverenliklərinin qismən məhdudlaşdırılmasını qəbul etməyə hazır deyildilər. Belə ki, İttifaqa daxil olan dövlətlər, istər-istəməz gələcəkdə öz səlahiyyətlərini onunla əlaqələndirməli idilər. Çünki, yaranacaq İttifaq Birlikdən daha geniş millətlərüstü səlahiyyətlərə malik olacaq idi.

1985-ci ilin dekabrında, çətin danışıqlar nəticəsində Lüksemburqdə, nəhayət Avropa Vahid Aktının layihəsini qəbul etməyə müvəffəq oldular. Bu, ilk bünövrə qoyan,1951-ci il tarixli Paris müqaviləsinin (AKPB) və 1957-ci il tarixli Roma müqaviləsinin AİB haqqında məsələlərə qismən düzəliş edilməsini nəzərdə tuturdu. Avropa Birliyi ölkələri, Aİ Komissiyasının səlahiyyətlərini, Avropa Parlamentinin məsləhət səlahiyyətlərini genişləndirməyə və AB Nazirlər Şurasının qərarlarının konsensus yolu ilə qəbul edilmələrini deyil, səs çoxluğu ilə qəbul edilməli olan halların sayının artırılmasına dair razılığa gəldilər. İqtisadi sahədə Vahid Avropa Aktı, 1992-ci ilə qədər daxili sərhədləri olmayan Avropada Vahid iqtisadi məkan yaratmaq vəzifəsi qoymuşdu ki, onun çərçivəsində məhsulların, işçi qüvvəsinin, xidmət və kapitalın sərbəst hərəkəti təmin ediləcək idi. Vahid Avropa Aktı bütün ölkələrin parlamentləri tərəfindən təsdiq edilmiş və 1987-ci ilin əvvəlində, qüvvəyə minmişdi. Birlik, İttifaqa hələ çevrilməmişdi, lakin İttifaqın yaradılması yenə də, Qərbi Avropa ölkələri arasında əməkdaşlıq məqsədi elan edildi.

Vahid Avropa Aktının birnci maddəsi, vahid Avropa Birliyinin bir hissəsi kimi, Avropa siyasi əməkdaşlığının mövcudluğunu qanuniləşdirdi.

Sənədin ikinci maddəsi, Avropa Şurasının tərkibini müəyyənləşdirdi və iclaslarının keçirilmə tezliyini ildə iki dəfə təyin etdi.

Avropa Şurasının, Avropanın birləşdirilməsində və Birliyin İttifaqa çevrilməsi üçün əsas vasitə olduğu ilk dəfə, rəsmi olaraq qeyd olundu. Ancaq buna baxmayaraq, o, Avropa Birliyinin rəsmi orqanlarına daxil edilmədi.

# ALTINCI FƏSİL -- II BÖLMƏ
## Periferik regionlarda münaqişələrin kəskinləşməsi (1980-1985-ci illər)

**1.Əfqanıstan münaqişəsi və beynəlxalq münasibətlər**
1.1.Beynəlxalq münasibətlərdə Əfqanıstan məsələsi
1.2. Əfqanıstanda münaqişənin miqyasının genişlənməsi
**2.ÇXR-in xarici siyasəti**
2.1. ABŞ və Çinin kvazi ittifaq yaratmaq cəhdi
2.2. Çində "tarazlı münasibətlər" siyasətinin təşəkkülü
**3.Amerika ölkələri beynəlxalq münasibətlərdə**
3.1 Mərkəzi Amerikada münaqişələrin yaranması və onun beynəlmiləlləşməsi
3.2. "Folklend böhranı"
**4.Yaxın və Orta Şərqdə beynəlxalq vəziyyət**
4.1. İran-İraq müharibəsi
4.2. Livan və Suriyada Fələstin Azadlıq Təşkilatı (FAT) ətrafında münaqişələrin kəskinləşməsi
**5.Asiya- Sakit okean bölgəsində beynəlxalq münasibətlər**
5.1. Sakit okeanın cənub hissəsində anti-nüvə meylləri və "Rarotonq müqaviləsi"nin imzalanması
5.2 . Cənub-Şərqi Asiyada iqtisadi regionizmliyin formalaşması

### 1.Əfqanıstan münaqişəsi və beynəlxalq münasibətlər

#### 1.1.Beynəlxalq münasibətlərdə Əfqanıstan məsələsi

SSRİ-nin Əfqanıstanda apardığı müharibə Qərbdə, ilk növbədə ABŞ-da kəskin əks təsirə səbəb oldu. 4 yanvar 1980-ci ildə, Prezident C.Karter senatdan SSM-2 müqaviləsinə baxılmasını təxirə salmağı xahiş etdi. O, həmçinin SSRİ ilə mədəni və iqtisadi mübadilələrin azaldılmasını, Amerika və Sovet konsulluğunun açılmasını dayandırmaq və Sovet-Amerika ticarətinin məhdudlaşdırılmasını təklif etdi. Eyni zamanda, Əfqanıstanda yerləşən Sovet qoşunları tərəfindən ehtimal olunan hücumuna müqavimət göstərə bilməsi üçün, Pakistana kömək göstərmək nəzərdə tutulurdu (hərbi texnika, ərzaq və s.).

23 yanvar 1980-ci ildə, C.Karter, "Ölkənin vəziyyəti haqqında" illik çıxışında, ABŞ-ın yeni xarici siyasət doktrinasını elan etdi. İran körfəzi bölgəsi, ABŞ maraqları zonası elan edildi. ABŞ bu ərazini qorumaq üçün silahlı qüvvələrdən istifadə etməyə hazır olduğunu bildirdi. Karter doktrinasına uyğun olaraq, Amerika rəhbərliyi, hər hansı bir dövlətin Fars körfəzi bölgəsinə nəzarətə götürmək cəhdlərini, ABŞ-ın əsas maraqlarına zidd olduğunu elan edirdi. Vaşinqton "bu cür cəhdlərə qarşı çıxmaq, o cümlədən hərbi güc tətbiq etmək" niyyətini açıq şəkildə bildirmişdi. Bu doktrinanın ideoloqu Z.Bjezinski idi. O, Prezidenti, Sovet İttifaqının Asiyada, SSRİ, Hindistan və Əfqanıstan dövlətlərinin daxil olduğu, "anti-Amerika oxu" yaratdığına inandıra bilmişdi. Buna cavab olaraq, ABŞ - Pakistan - Çin - Səudiyyə Ərəbistanı dövlətlərindən ibarət "əks-ox" yaradılması təklif edilmişdi. Hələ də, SSRİ ilə əməli münasibətləri davam etdirməyi ABŞ üçün prioritet hesab edən Dövlət katibi S.Vens ilə Z. Bjezinski arasındakı ziddiyyətlər, 21 aprel 1980-ci ildə S.Vensın istefasına səbəb oldu.

Əfqanıstan hadisələrinə cavab olaraq, Vaşinqton dünya siyasətinin hərbi-siyasi məsələlərinə münasibətində dəyişikliklər etdi. Prezidentin 25 iyul 1980-ci il tarixli, 59 nömrəli gizli sərəncamında ABŞ-ın "yeni nüvə strategiyası" nın əsas müddəaları şərh olundu.Bu müddəaların məzmunu, nüvə müharibəsində qalib gəlmə ehtimalı ideyasına qayıtmağa aid idi. Sərəncamda, yeni izahda "çevik cavab"ın əsas elementinə çevrilməli olan, əks hücum zərbəsinin köhnə fikri vurğulanırdı. Amerika tərəfi, Sovet İttifaqına mütləq şəkildə, nümayişkaranə göstərmək istəyirdi ki, ABŞ uzun müddət nüvə münaqişəsinə tab gətirərək, sözsüz qələbə qazana biləcəkdir.

SSRİ və ABŞ, qarşı tərəfin niyyətləri haqqında təsəvvürləri yanlış idi. ABŞ rəhbərliyi hesab edirdi ki, Əfqanıstanın işğalı Moskvanın qlobal qarşıdurma yaratmaq üçün əsas seçimi deməkdir. Sovet rəhbərliyi əmin idi ki, onun fikrincə, sırf ikinci dərəcəli regional əhəmiyyət daşıyan Əfqanıstan hadisələri Vaşinqtona həmişə gizli olaraq səy göstərdiyi qlobal silah yarışını yenidən başlamaq üçün bir bəhanə olmuşdur.

NATO ölkələri arasında bu məsələnin qiymətləndirilməsində birlik yox idi. Qərbi Avropa ölkələri, Moskvanın Əfqanıstana müdaxiləsini dünya əhəmiyyətli bir hadisə saymırdılar. Gərginliyin azaldılması ABŞ-dan çox, onlar üçün vacib idi. Bunu başa düşən, C.Karter Avropa müttəfiqlərini "gərginliyin azaldılmasına yanlış inamlarına" və Moskva ilə əməli münasibətləri davam etdirmək cəhdlərinə görə daim xəbərdarlıq edirdi. Qərbi Avropa dövlətləri, Amerikanın SSRİ-yə qarşı tətbiq etdiyi sanksiyalara qoşulmaq istəmirdilər. 1980-ci ildə, ABŞ Moskva Olimpiya oyunlarını boykot edərkən, Avropa ölkələrindən yalnız Almaniya və Norveç ondan nümunə

götürmüşdü. Lakin, strateji hərbi əlaqələr sahəsində, Qərbi Avropa ABŞ-ın xəttini davam etdirirdi.

### 1.2. Əfqanıstanda münaqişənin miqyasının genişlənməsi

Avropada gərginliyin azaldılması siyasətinin ləğvi, SSRİ üçün "iki cəbhədə qarşıdurma" başlanması demək idi: Əfqanıstanda müharibəni davam etdirən Sovet İttifaqı, Avropada olan vəziyyətə diqqət yetirməyə məcbur olurdu. Bu vaxt, Əfqanıstanda şərait əlverişsiz inkişaf edirdi. Kabil rəhbərliyi, hətta Moskvanın dəstəyinə arxalansa da, vəziyyəti normallaşdıra bilmədi. 80-ci illərin ortalarında, dövlət idarəçiliyində həlledici rolu sayı 5 min nəfərdən çox olan sovet müşavirləri oynayırdılar. Kabildə, "sovet hökumətinin" bir neçə mərkəzinin olması (səfirlik, partiya müşavirləri, Daxili İşlər Nazirliyi və KQB müşavirləri, hərbi məsləhətçilər idarəsi və 40-cı ordunun komandanlığı), aralarında olan rəqabət və qəbul edilmiş qərarların razılaşdırılmaması, Əfqanıstan Demokratik Respublikası dövlət qurumlarının işini pozurdu. Sovet müşavirlərinin Əfqanıstanın idarəetməsində iştirakı, onun "sovetləşməsinə" səbəb olurdu. Əfqanıstan QİYŞ-də müşahidəçi statusu almışdı və "sosialist yönümlü" dövlətlər sırasına aid edilmişdi.

Əfqanıstanın siyasi sistemində hakim ƏXDR-dan başqa heç bir partiyaya yer yox idi. Digərlərinin hamısı qadağan edilmişdi. Hökumətin əleyhdarları Pakistanda (Peşəvərdə) yerləşən Əfqanıstanın İslam dini- siyasi təşkilatları idi. Onlardan ikisi daha əsas idi – Qubəlddin Hikmatyarın (puştun) rəhbərlik etdiyi Əfqanıstan İslam Partiyası və Burhanuddin Rabbaninin rəhbərlik etdiyi (tacik) Əfqanıstan İslam Cəmiyyəti idi. Pakistanda onlarla yanaşı, əfqan müxalifətinin digər islam təşkilatları da var idi. Onlar birlikdə, Kabilə və Moskvaya cihad elan edərək, silahlı mübarizəyə başlamışdılar. Müxalifət ölkənin böyük bir hissəsində, hərbi-siyasi quruluş yaratmışdılar. ƏXDR-nın hakimiyyəti yalnız əyalətlərin şəhər mərkəzləri ilə məhdudlaşırdı.

Əfqanıstanın Pakistanla açıq sərhədi, "əfqan" və "pakistanlı" puştun qəbilələrinin burada sərbəst hərəkətləri, Pakistanın Əfqanıstanla həmsərhəd olan əyalətlərində əfqan müxalifətinin bazalar yaratmasına imkan verirdi. Pakistanda mücahidlərin güclü nöqtələri və təlim düşərgələri yaradılmışdı. Pakistan vasitəsi ilə, müxalifət ABŞ və neft ixrac edən islam dövlətlərindən (ilk növbədə Səudiyyə Ərəbistanından) hərbi və digər yardımlar alırdılar. Rəsmi olaraq, Əfqanıstanla qarşıdurmadan formal olaraq kənarda qalan Pakistan, ABŞ və Çinin köməyinə arxalanaraq, faktiki əfqan müxalifətinin tərəfində idi. Pakistan və Çin, Pakistanın işğal etdiyi Kəşmir ərazisi (Qaraqorum şosesi) ilə, iki ölkəni birləşdirən strateji magistral yol inşa etmişdilər.

Öz növbəsində, Sovet İttifaqı, Pakistanı Əfqanıstan məsələsində təmkinli olmağa məcbur etməyə çalışaraq, Pakistana ciddi hərbi təhlükə yaratmaqda davam edən, Hindistana hərbi yardım göstərirdi. Əfqanıstan qarşıdurması, beynəlxalq ziddiyyətlərin düyün nöqtəsinə çevrildi ki, burada Əfqanıstanın özü, Sovet İttifaqı, ABŞ, Pakistan, Çin, Hindistan, İran və bəzi ərəb ölkələrinin maraqları bir-birinə qarışmışdı.

BMT-nin əksər dövlətləri, Sovet İttifaqının Əfqanıstana hücumunu qınayaraq etiraz etmişdilər. Sovet qoşunlarının əfqan müxalifət qüvvələrinə qarşı hərbi əməliyyatlarda iştirakı, Əfqanıstanda gedən müharibəyə milli azadlıq hərəkatının xüsusiyyətlərini vermiş oldu. Əfqanıstan müharibəsi, fövqəldövlətlər arasında qarşıdurmanı daha da gərginləşdirirdi. Moskva, Əfqanıstanda yerləşən "məhdud silahlı qüvvələrin" gücünü daim artırırdı. ABŞ da, əfqan müxalifətinə hərbi və digər yardımları xeyli genişləndirirdi.

## 2.Çin Xalq Respublikasının xarici siyasəti

### 2.1. ABŞ və Çinin kvazi (məcazi) ittifaq yaratmaq cəhdi

1980-ci ildə, C.Karterın hakimiyyətinin son ilində, ABŞ-ın Çinlə yaxınlaşması baş verdı. Amerika rəhbərliyi, ÇXR-in Sovet İttifaqına qarşı "anti-hegemon" əsasında ittifaq yaratmaq səylərini, SSRİ-yə qarşı qlobal qarşısını alma vasitəsi hesab edirdi. Z.Bjezinski Sovet -Çin gərginliyinin artmasından, Moskvanı Polşada gedən hadisələrdən yayındırmaq üçün, istifadə etməyə çalışırdı.

Amerika rəhbərliyində, ABŞ-Çin yaxınlaşmasının hüdudlarının təyin edilməsində birlik yox idi, Belə ki, onun xaricində, ABŞ-ın Sovet-Çin qarşıdurmasına cəlb edilmə təhlükəsi ola bilərdi. Vaşinqton qeyd etmişdi ki, Moskva Çin təhlükəsindən ehtiyat edir və Qərblə ÇXR-ə qarşı razılığa gəlməyə meyllidir. Lakin aydın idi ki, SSRİ-ni təhrik etmək təhlükəli idi. Əfqanıstanın işğalı Moskvanın qəti addımlara qadir olduğunu sübut etmişdi. ABŞ-ın Pekin ilə kvazi ittifaqında iştirakı təhlükəli bir addım idi. Buna baxmayaraq, Sovet İttifaqının Əfqanıstana silahlı təcavüzündən sonra, ABŞ-Çin hərbi əlaqələri inkişaf etməyə başladı. 1980-ci ildən sonra, ABŞ Çinə ikili istifadə üçün texnologiya və köməkçi hərbi texnikalar (rabitə, nəqliyyat təyyarələri) verməyə başladı.

Eyni zamanda, Pekinin özündə Vaşinqtonla ittifaqın etibarlılığına dair şübhələr var idi. Birincisi, 1979-cu ildə Çin-Vyetnam müharibəsi zamanı, ÇXR, ABŞ-ın qeyd-şərtsiz Çinə dəstək verməyə hazır olmadığını başa düşdü.

İkincisi, Çin rəhbərliyi Tayvan məsələsində ABŞ-ın mövqeyindən razı qalmamışdı. Amerika Birləşmiş Ştatlarının Konqresi 1979-cu ildə Tayvanla

münasibətlər haqqında qanun qəbul etmişdi. Burada, ABŞ-Tayvan münasibətlərinin vəziyyəti qeyri-rəsmi vəziyyətə gətirilmiş olsa da, bu akt Vaşinqtonun Taypey ilə əlaqələrini eyni həcmdə saxlamağa imkan vermişdi. Pekin, Vaşinqtonla daha da yaxınlaşma xəttinin Çini birtərəfli olaraq, ABŞ-dan asılı vəziyyətə gətirə biləcəyinə əmin olmağa başlamışdı. Çinin öz xarici siyasət strategiyasına yenidən baxılmasının vaxtı yetişmişdi.

**2.2. Çində "tarazlı münasibətlər" siyasətinin təşəkkülü**

ABŞ idarəçiliyində dəyişiklik ilə, Sovet İttifaqına qarşı yaradılan ABŞ və Çinin kövrək ittifaqına diqqət artırıldı. 1981-ci ilin iyun ayında, R. Reyqan hökuməti, Pekinə ÇXR-in silahla təchizatı üçün birdəfəlik müqavilələr bağlamağa hazır olduğunu bildirsə də, ümumiyyətlə Tayvanı dəstəkləməkdən imtina etməyəcəyini açıqladı. Birləşmiş Ştatlar, onun Tayvanı silahla təchiz etməyə davam etmək hüququnun olduğunu təkidlə bildirirdi. ÇXR qəti etiraz etdi. Və ABŞ-Çin münasibətlərinin yaxınlaşması ləngidi.

ABŞ-Çin münasibətlərində yaranan yeni vəziyyət, Moskvadan çevik münasibət bildirməsini tələb edirdi. Lakin, SSRİ "Çin təhlükəsi" amilini aradan qaldırmağa hazır olmasa da, ona, Sovet İttifaqının Uzaq Şərq ərazisində və ondan xaricdə hərbi mövcudluğunu artırması ilə cavab verdi. Sovet-Çin sərhədində və Monqolustanda, 1975-ci ildən 80-ci illərin sonlarına qədər, Sovet qoşunlarının sayı 200 mindən 500 min nəfərə qədər artırıldı (50 diviziya, bunlardan dördü MXR-də). Sovet dövlətinin Sakit okean donanması böyüyərək, SSRİ-nin ən böyük donanmasına çevrildi.

80-ci illərin sonlarında, donanmada 850 hərbi gəmi və köməkçi gəmi və 130 sualtı qayıq, bunlardan 30-35-də QBR -lər var idi. Uzaq Şərqdə yerləşən sovet təyyarələrinin sayı 2000 ədədə çatırdı. Uraldan şərqə olan ərazilərdə 400-ə yaxın yerüstü QBR yerləşdirilmişdi (ümumi miqdarın 35-40% -i). 70-ci illərin ikinci yarısından sonra, SSRİ Kunaşir və Iturup adalarında (Yaponiya tərəfindən mübahisə edilən Kuril silsiləsinin adaları) hərbi qüvvələri gücləndirdi. SSRİ-nin Çin təzyiqinə qarşı çıxa bilməsi üçün, Vyetnam hökuməti ona öz ərazisində yerləşən - Kamranidə hərbi dəniz və Dananq bölgəsində isə hərbi hava qüvvələri üçün bazalar təqdim etdi.

Yalnız 1982-ci ilin martında, Özbəkistanda Sovet hakimiyyətinin 60 illik yubileyi münasibətilə Daşkənddə keçirilən tədbirdə çıxış edərkən, öz nitqində L.I.Brejnev Sovet-Çin sərhədində etimad tədbirləri ideyasını həyata keçirmək fikrini irəli sürdü. O, təklifi həmin ilin sentyabr ayında, Bakıda eyni münasibətlə çıxış edərkən təkrar etdi. Çin onun təklifinə müsbət cavab verdi. 1980-ci ildən dayandırılan Çin-Sovet

danışıqları, 1982-ci ilin oktyabrından Xarici İşlər nazirlərinin müavinləri səviyyəsində bərpa olundu.

Bu, Çinin siyasətində, "tarazlı münasibətlər" siyasəti adlandırılan dönüş yaratdı. Bu siyasətin mahiyyəti, hər iki dövlətlə dinc yanaşı yaşamaq üçün, hegemonluğa qarşı vahid cəbhə ideyasından uzaqlaşma kimi qəbul olunurdu. Bu xətt, 1982-ci ildə ÇKP-nin XII qurultayının sənədlərində təsdiqlənmişdi. Bu istiqamət, SSRİ-dən gələn təhdidin yenidən qiymətləndirilməsinə əsaslanırdı. Düşmənçilik və güc üstünlüyünə malik olmasına baxmayaraq, Sovet İttifaqı 20 il ərzində Çinə zərbə vurmağa cəhd etməmişdi. Bu, Çin liderlərini belə bir fikirə gətirdi ki, SSRİ təhlükəli tərəf olsa da o, hesab olunduğundan daha az reallığı əks etdirir. Eyni zamanda, Pekində belə bir hiss yaranmışdı ki, ABŞ, Çindən öz maraqlarına uyğun istifadə edir.

Özünü, ABŞ-ın kiçik tərəfdaşı mövqeyinə qoyan Çin rəhbərliyi, ABŞ-ın Tayvan məsələsində onun fikirləri ilə daha az hesablaşmağa başladığını öncədən təyin etmişdi. 1981-ci ildə, Reyqan rəhbərliyi tam yeni hərbi təyyarələrin Taypeyə satılması məsələsini müzakirə etməyə başlamışdı. Doğrudur, 1982-ci ilin avqustunda Dövlət katibi Corc Şuls tərəfindən ÇXR-ə edilən səfərin nəticələri haqqında ABŞ və Çinin rəsmi bəyanatında, ABŞ gələcəkdə Tayvana silah təchizini dayandıracağını və o vaxta qədər də artırmayacağını vəd etmişdi. Lakin, Vaşinqtonun Tayvanın faktiki müstəqilliyini dəstəkləmə siyasəti dəyişməz olaraq qalırdı.

## 3.Amerika ölkələri beynəlxalq münasibətlərdə

### 3.1. Mərkəzi Amerikada münaqişələrin yaranması və onun beynəlmiləlləşməsi

C.Karter siyasətinin istiqamətinin insan hüquqlarının müdafiəsinə yönəldilməsi Amerika siyasətində problemlər yaratdı. Buna cavab olaraq, Mərkəzi Amerika ictimaiyyəti Vaşinqtonun Latın Amerikası ölkələrinin demokratikləşməsinə əməli kömək göstərməyə hazır olduğuna inanmağa başladı. Diktaturaların hakimiyyətdə olduğu ölkələrdə antiavtoritar etirazlar artmağa başladı - həm mülayim liberal, həm də solçu inqilabçılar fəal hərəkətə keçdilər.

70-ci illərin sonlarında, Nikaraquada etiraz meylləri xüsusilə güclü idi. 1934-cü ildən sonra, Somosa diktatorlarının ailəsi bu ölkədə fasilələrlə hakimiyyətdə idilər. 1956-cı ildə, Somosa böyük (Anastasio Somosa) öldürüldü. 1967-ci ildə onun oğlu Debayle Anastasio Somosa hakimiyyətə gəldi. O, 1967-1972-ci illərdə və sonra isə 1974-1979-cu illərdə, Prezident səlahiyyətlərini icra etmişdi. Ölkədə iki müxalif qrup mövcud idi: mülayim və solçu. Birincisi, Demokratik Azadlıq Birliyi idi. Onu qədim aristokrat ailəsinin nümayəndəsi Pedro Xoakin Çamorro idarə edirdi.

İkincisi, Daniel Orteqanın başçılıq etdiyi Milli Azadlığın Sandinist cəbhəsi idi. Bu partiya, Nikaraquanın milli qəhrəmanı, 30-cu illərdə Somosa böyük tərəfindən öldürülən Avqusto Sandinonun adını daşıyırdı. Solçular F.Kastronu özlərinə ideal hesab edir və Kuba inqilabının təcrübəsini təkrarlamağa istiqamətlənirdilər.1974-cü ildə, onlar paytaxtı ələ keçirmək üçün silahlı çıxış etməyə çalışsalar da, bu üsyan amansızlıqla yatırıldı. Cəza tədbirləri yalnız sandinistlərə qarşı deyil, həm də onlara rəğbət bəsləyən kənd sakinlərinə qarşı da tətbiq edildi. Eyni zamanda, mülayim müxalifətçilər də daxil olmaqla, bütün müxalifətçi təşkilatlar cəza tədbirlərinə məruz qaldılar. Amerika Birləşmiş Ştatları Nikaraquaya yardım edirdi. C.Karterin gəlişi ilə, bu yardım dayandırıldı, çünki, D.A.Somosanın diktaturası bu vəsaiti müxalifəti yatırmaq üçün istifadə edirdi.

1977-ci ilin oktyabrında, Vaşinqtonun diktatora dəstəyini dayandırdığını görən sandinist dəstələri, ona qarşı mübarizəni bərpa etdilər. Birləşmiş Ştatlar hökuməti mülayim müxalifətə güzəştə getmək üçün təşviq etsə də, lakin D.A.Somosa imtina etdi. 1978-ci ildə, P.X.Çamorro öldürüldü. Qətlin təşkili Nikaraqua xüsusi xidmət orqanlarına aid edilirdi. Diktaturaya qarşı xalq etirazlarının gedişində, mülayim və solçu qüvvələrin müvəqqəti koalisiyası yaradılaraq, üsyan qaldırıldı. Mübarizəni sandinistlər istiqamətləndirirdi. 1979-cu ilin iyulunda, onlar ölkənin əksər hissəsini nəzarətə götürdülər və mülayim siyasətçilər və biznes nümayəndələri ilə müvəqqəti hərbi koalisiya hökumətini formalaşdırdılar. Hökumətin tərkibinə, öldürülən P.X.Çamorronın dul arvadı Violetta Çamorro da daxil oldu. 1979-cu il iyulun sonunda D.A.Somosa ölkədən Paraqvaya qaçdı və 1980-ci ilin sentyabrında öldürüldü.

Hökumət, Somosa ailəsinin əmlakının milliləşdirilməsi, kənd təsərrüfatı və s. kimi islahatlar aparmağa başladı. Ancaq, 1980-ci ildə, hökumət parçalandı. Belə ki, mülayim siyasətçilər sandinistlərin həddindən artıq sərt siyasətləri ilə razılaşmayaraq, onlarla əməkdaşlıq etməkdən imtina etdilər. Yeni vətəndaş münaqişəsi formalaşmağa başlandı. Sandinistlər demokratiya və insan haqları prinsiplərini pozmaqda ittiham olunurdular. Mülayim qüvvələr müxalifətə keçdilər.

Eyni zamanda, ABŞ tərəfindən dəstəklənən silahlı “kontra” dəstələri, kənd yerlərində D.Orteqanın rəhbərliyi altında olan sandinist hökumətinə qarşı silahlı mübarizəyə başladı. Kontra qüvvələri, Nikaraqua ilə əlaqəli olan, qonşu Honduras və Salvador ərazilərində yerləşirdi. Onların hökumətləri, Vaşinqtonun razılığı və dəstəyi ilə əksinqilabi qüvvələrə kömək edirdilər.

Ona görə də, 1981-ci ildən, SSRİ və Kuba Nikaraqua hökumətinə yardım göstərməyə başladı. Eyni zamanda SSRİ və Kuba, hökumət əleyhinə olan Salvador partizanlarına da kömək etməyə başladılar. Nikaraqua, Salvadora "inqilab ixrac

etməkdə" günahlandırıldı. Managua hökuməti də, Salvador hökumətinin kontralara köməyini nəzərdə tutaraq, Salvadordan gələn "əks-inqilab ixracı"na etiraz etdi. Mürəkkəb dörd tərəfli Salvador-Nikaraqua münaqişəsi yaranmış oldu.

1983-cü ildə, bu vəziyyət daha da çətinləşdi. ABŞ, Hondurasdan Nikaraquanın kontralar tərəfindən işğalını təşkil etdi. İndi bu ölkə də, münaqişəyə cəlb olundu. Nikaraqua hadisələri, Mərkəzi Amerika münaqişəsinə çevrilmiş oldu. Dolayı və birbaşa da olsa, ABŞ, SSRİ və Kuba bu münaqişənin iştirakçıları idilər.

### 3.2. "Folklend böhranı"

Milli-vətənpərvər bəlağətə meylli olan Prezident R.Reyqan, Amerikanın maraqlarına uyğun gəlməyən, digər ölkələrin millətçilik təzahürlərinə hörmətlə yanaşmırdı. "Yad millətçiliyə", xüsusilə latınamerikalılara biganə yanaşma və Folklend böhranı Latın Amerikası ölkələri ilə münasibətlərin soyumasına səbəb oldu.

Onun mahiyyəti, Folkland adaları olan (Malvinas - Argentina variantına görə), Argentina sahillərində yerləşən Cənubi Sandviç və Cənubi Georgi adalarına iki dövlətin- Argentina və Böyük Britaniyanın iddia müstəvisində idi. Argentina 1833-cü ildə, Böyük Britaniyanın adaları tutmasından əvvəl, onların Argentinaya məxsus olması ilə bağlı dəlillər gətirirdi. Britaniya, bu adaların əhalisinin İngiltərə təbəəliyini saxlamaq istəyən britaniyalı mühacirlər olduğunu bildirirdi.

Argentina ilə Böyük Britaniya arasındakı uzun müddətli danışıqlar uğursuz oldu. 1981-ci ilin dekabrında, Argentinada general L.Qaltierinin başçılıq etdiyi hərbi xunta hakimiyyətə gəldi. Səlahiyyətli dairələr, milli-vətənpərvər bəyanatlar ilə Argentinanın adalara suveren hüquqlarının bərpa edilməsinin vacib olduğunu elan etdilər. 1982-ci ilin aprelində, Argentina qoşunları Folklendə göndərildi, adaların paytaxtı Port-Stenli zəbt edildi. Buna cavab olaraq, Marqaret Tetçerin rəhbərlik etdiyi İngiltərə mühafizəkar hökuməti, Argentinanı təcavüzdə ittiham edərək, Britaniya dəniz qüvvələrini adalara göndərdi. Argentinalılar tutduqları mövqeləri müdafiə etməyə başladılar. Silahlı münaqişə yarandı.

London üçün bu, sadəcə ərazi mübahisəsi deyildi. M.Tetçer hesab edirdi ki, İngiltərə Folklenddə millətin şərəfini qorumalıdır. İngiltərədə, ölkənin nüfuzunun zəifləməsi və Böyük Britaniyanın "Kiçik İngiltərəyə" çevrilməsi haqqında fikirlər söylənilirdi.

2 may 1982-ci ildə, İngilis sualtı qayığı Argentinanın "General Belqrano" kreyserini batırdı, onun 321 ekipaj üzvü həlak oldu. Buna cavab olaraq, Argentina dəniz qüvvələri ingilis kreyserini (21 nəfər öldü) batırdı. İngilis ekspedisiya

qüvvələri adalara desant çıxardı. Mayın 21-də Port-Stenli üzərində Böyük Britaniya bayrağı qaldırıldı. Argentina məğlubiyyətə düçar oldu.

Diplomatik münasibətlər baxımından, ABŞ üçün Folklend böhranı ciddi bir problem hesab olunurdu. Böyük Britaniya NATO-nun üzvü kimi ABŞ-ın müttəfiqi idi. Lakin Argentina, 1947-ci il Amerika dövlətlərarası qarşılıqlı yardım müqaviləsi ("Rio Paktı") ilə ABŞ-la tərəfdaş idi. Münaqişəyə münasibət məsələsində, NATO-nın üzvü olan Avropa ölkələri arasında birlik yox idi: Argentina ilə tarixi əlaqələri olan İtaliya ona rəğbət bəsləyirdi; Fransa və Almaniya, İngiltərə-Argentina münaqişəsini anti-müstəmləkə mübarizəsinin adi təzahürü hesab etdiklərindən, Londonun tərəfini saxlamaq istəmədilər.

1982-ci ilin aprelində, ABŞ rəhbərliyi Buenos Ayres və London arasındakı mübahisənin həllində vasitəçi olmağa çalışırdı. ABŞ Dövlət katibi Aleksandr Xeyq hər iki tərəflə ayrıca danışıqlar apardı. Amerikanın təklifləri belə idi: Argentina silahlı qüvvələri adalardan çıxarılır və Britaniya donanması onun sahillərindən uzaqlaşdırılır, Kanada, ABŞ və iki Latın Amerikası ölkələrinin sülhməramlı qüvvələrinin Folklenddə yerləşdirilir və nəhayət, İngiltərə-Argentina danışıqları davam etdirilir. Argentina tərəfi ABŞ-ın təkliflərini rədd etdi.

Vaşinqtonun, Argentina və İngiltərəyə olan münasibətləri eyni deyildi. Çünki, Amerikanın orta mənzilli raketlərinin Avropada yerləşdirilməsi məsələsi, o vaxt Britaniya hökumətinin mövqeyindən asılı idi. NATO daxilində həmrəylik, Cənubi Amerika tərəfdaşları ilə ittifaqdan daha vacib idi.

Latın Amerikası ölkələri də qarşıdurmanın mahiyyətini məhz bu mənada qəbul edirdilər. Böhranın gedişində, Latın Amerikası ölkələrinin əksəriyyəti, Argentinaya "kənar qitədən təcavüz"ün qurbanı olaraq onun tərəfini saxladılar və hətta bəziləri (Kuba da daxil olmaqla) argentinalılara kömək etmək üçün könüllü dəstələr göndərməyə hazır olduqlarını bildirdilər. Bitərəf mövqe tutan dövlətlər də oldu: Biql boğazında Argentina ilə ərazi mübahisəsi olan Çili; ərazi mübahisələrini güc yolu ilə həll etmək qərarını qəbul etməyən Kolumbiya; eyni zamanda Qayana və Birliyin üzvləri olan Karib dənizinin ingilis dilli ada dövlətləri.

Münaqişə zamanı SSRİ Buenos Ayresə mənəvi və siyasi dəstək verdi, çünki Sovet rəhbərliyi nöqteyi-nəzərindən Argentina rəhbərliyinin anti-kommunist olmasına baxmayaraq, "beynəlxalq imperializmin öncül dəstələrinə" qarşı çıxan ölkə rolunda çıxış etmişdi. Argentina, SSRİ-nin vacib əhəmiyyətli taxıl tədarükçüsü idi. 1980-ci ildən qüvvədə olan, Sovet İttifaqına Amerika kənd təsərrüfatı məhsullarının alınmasına qoyulmuş embarqo baxımından, bu ticari əlaqə böyük əhəmiyyət daşıyırdı. Cənubi Atlantikanın ucqar hissəsində də baş verən münaqişələrdə, Sovet-Amerika qarşıdurması öz izini qoymuşdu.

Məlum oldu ki, “Rio Paktı” mötəbər deyildir. Latın Amerikası ölkələri üçün təhlükəsizliyin təminatı olan ABŞ, 1945-ci ildən sonra ilk "xarici qitə” təcavüzün zamanı müttəfiqlərini dəstəkləməkdən imtina etmişdi. Pakt rəsmi olaraq ləğv olunmasa da, faktiki olaraq ona riayət olunması dayandırıldı.

Cənubi Atlantikada baş verən müharibə, bölgədə vətənpərvər hisləri təşviq etdi və ABŞ əleyhinə narazılıqları artırdı. Latın Amerikası ölkələri, ABŞ-ın iştirakı olmadan, subregional əsasda yaxınlaşmağa başladılar. Bölgənin ən inkişaf etmiş ölkələri, Qərbi Avropanın inteqrasiya təcrübəsindən istifadə edərək, yeni layihələr hazırlamağa və bölgələrarası iqtisadi əməkdaşlıq formaları üzərində düşünməyə başladılar. Latın Amerikası millətçiliyi artmaqda idi, ancaq mülayim və əməli bir yola istiqamətləndirilirdi.

## 4.Yaxın və Orta Şərqdə beynəlxalq vəziyyət

### 4.1. İran-İraq müharibəsi (sentyabr 1980)

ABŞ-da Demokratların hökumətinin son ili, beynəlxalq periferiyada qeyri-sabitliyin davamlı artması ilə xarakterizə edilir. C.Karterin dövründə Amerika rəhbərliyi Kemp Devid müqaviləsini imzalamaqla, Misir-İsrail nizamlanmasına nail olsa da, Yaxın Şərqdə gərginlik artmışdı. İran inqilabı və SSRİ-nin Əfqanıstana müdaxiləsi, İran-İraq ərazi mübahisəsinin müharibəyə çevrilməsi üçün mühit yaratmış oldu.

1975-ci ildə, İran və İraq Bağdadda dostluq və mehriban qonşuluq haqqında saziş bağlamışdılar. Burada, tərəflər arasında qarşılıqlı iddiaların olmaması qeyd edilmişdi. O dövrdə, İran-İraq sərhədinin İran tərəfindən təhlükəsizliyini təmin etmək üçün, İraqa belə bir razılaşma vacib idi. Məsələ, İran-İraq dövlət sərhədinin "tarixi Kürdüstan" ərazisindən, yəni kürdlərin kütləvi məskunlaşdığı geniş bir ərazidən keçməsində idi.

"Tarixi Kürdüstan" Türkiyə, İraq və İran arasında bölünmüşdür. İraq Kürdüstanında mütəmadi olaraq separatçı hərəkatlar bərpa olunurdu. Separatçılar sərhədin zəifliyindən istifadə edərək, İran kürdlərindən xarici hərbi və digər yardım almaq imkanı əldə edirdilər. Sərhədin bağlanmasını təmin etməklə, İran sərhədçiləri, İraq hökumətinə öz ərazilərində olan separatçıları dağıtmaq üçün kömək etmiş olurdular.

Lakin,1980-ci illərin əvvəllərində vəziyyət dəyişdi. İranda yaranan siyasi qeyri-sabitlik, İran rəhbərliyi ilə ABŞ arasında gedən qarşıdurma, Əfqanıstana görə yaranmış İran-Sovet narazılığı, İraqa, İrana qarşı müharibə olacağı təqdirdə, üstünlüyün onun tərəfində olacağına ümid etməyə əsas verdi. İraq SSRİ-dən, eləcə

də Fransa və bir sıra digər Qərb ölkələrindən hərbi yardım alırdı. İranın Şatt əl-Ərəb çayı vasitəsi ilə, İraqın əsas daxili su yollarına - Fərat və Dəclə çaylarına çıxışı əldə edə bilmək imkanı var idi. Ona görə, İraqın əsas məqsədlərindən biri, İranın silahlı qüvvələrini Şatt əl-Ərəb çayı üzərində olan nəzarətindən məhrum etmək idi.

1979-cu ilin iyulunda, Səddam Hüseyn dövlət çevrilişi nəticəsində Bağdadda hakimiyyətə gəldi. 1980-ci ilin sentyabrında, 1975-ci il tarixli Bağdad müqaviləsini ləğv etdi və bundan sonra İraq ordusu İrana qarşı hərbi əməliyyatlara başladı.

Əvvəlcə, müəyyən müvəffəqiyyət qazandı, ancaq bir neçə aydan sonra İran silahlı qüvvələri onun irəliləməsinin qarşısını aldı, sonra isə əks hücuma keçdilər. İki illik müharibə dövründə, İraqın ehtiyat vəsaitlərinin tükəndiyi və İran üzərində qələbənin mümkünsüzlüyü məlum oldu. 1982-ci ilin payızında İraq hökuməti, Bağdad müqaviləsi haqqında verdiyi ləğv etmə aktından imtina etməyə və hərbi əməliyyatları dayandırmağa hazır olduğunu elan etdi.

Lakin, İran hökuməti 136 milyard dollar təzminat ödənilməsini və müharibə cinayətkarlarının mühakimə olunmasını tələb etdi. S.Hüseyn bununla razılaşa bilmədi. Müharibə mövqe qarşıdurmasına çevrildi. İraq, SSRİ-dən və NATO-nun Avropa ölkələrindən hərbi texnikanın verilməsi sayəsində müharibəyə davam gətirə bildi. Eyni zamanda, İrandan ehtiyat edən və İraqın İran ordusu tərəfindən istilasına imkan verməк istəməyən, Fars körfəzinin neft istehsal edən dövlətləri də, İraqa maddi yardım göstərirdilər.

İran və İraq müharibəsindən beynəlxalq ictimaiyyət narahat olmağa başlamışdı. Çünki bu qarşıdurma, həm İraqdan, həm də İrandan neft tədarükünün azalması təhlükəsi yaradırdı, bu da qiymətlərin növbəti dəfə artmasına təsir edə bilərdi. Bundan əlavə, müharibə edən hər iki tərəf Fars körfəzində, o cümlədən, onun ən dar hissəsi olan Hörmüz boğazında mina sədləri qoymağa başladı. Bu, daşınmanın təhlükəsizliyinə təhlükə yaradırdı və bu bölgənin bitərəf ölkələrindən neft ixracının mümkünlüyünü şübhə altına alırdı.

ABŞ, Qərbi Avropa və Yaponiya, İran və İraqı müharibəni dayandırmağa inandırmaq üçün, səy göstərirdilər. Müharibə başlayandan bir müddət sonra, SSRİ və ABŞ, hər iki fövqəldövlətin münaqişəyə müdaxilə etməməsi barədə“ centlemen” razılığına gəldilər. Sovet İttifaqı, ABŞ donanmasının Amerika bayrağı altında uzən neft tankerlərini müşayiət etmək üçün, Fars körfəzinə göndərdiyi ABŞ hərbi dəniz qüvvələrinin, SSRİ-yə qarşı təhdid kimi qəbul etməməyi mümkün saydı.

Lakin, bu səylər məhdud nəticələrə gətirirdi. Müharibə yeddi ildən çox davam etdi. Heç bir tərəf həlledici qələbə qazanmaq imkanına malik ola bilmədi. Yalnız, 1988-ci ilin iyununda, İranın İraqa növbəti uğursuz hücumundan sonra, İran

hökuməti, BMT Təhlükəsizlik Şurasının 1987-ci il 20 may tarixli, 598 nömrəli qətnaməsini yerinə yetirməyə və atəşkəs sazişinin imzalanmasına razılıq verdi.

## 4.2. Livan və Suriyada Fələstin Azadlıq Təşkilatı (FAT) ətrafında münaqişələrin kəskinləşməsi

Yaxın və Orta Şərqdə millətçilik, kəskin anti-Qərb yönümlü dini ifratçılıq forması əldə etmişdi. Radikal siyasi islam amili, Misirdə Prezident Ə.Sədatın öldürülməsi, İranda isə monarxiya əleyhinə olan inqilab ilə özünü büruzə verərək, bölgədə olan vəziyyətə böyük təsir göstərirdi.

90-cı illərin əvvəllərindən, ifratçı İslam ənənəvi yayılma zonasından kənara-Avropa, Şimali Amerika və dünyanın digər bölgələrinə nüfuz etməyə başladı. 1980-ci illərin əvvəllərində, dünyada "İslam inqilabı"nı yaymaq ideyası, ən çox İranda Ayətullah Xomeyni tərəfindən təbliğ edilirdi. "İslam inqilabı"nın mühüm məqamlarından biri islamın müqəddəs məkanlarını "kafirlər"in hakimiyyətindən azad edilməsi olmuş və olmaqda davam edir. Ona görə, İran rəhbərliyi İsrailə qarşı mübarizəyə xüsusi diqqət verirdi.

Bu baxımdan, İran hesab edirdi ki, İsrailin təcavüzünə qarşı mübarizədə əlverişli mübarizə meydanı kimi, Livana önəm verilməlidir. Livanda İranın maliyyə dəstəyi və İran müşavirlərinin rəhbərliyi ilə "Hizbullah" Təşkilatı ("Allah partiyası") yaradılmışdı. Bu təşkilat eyni zamanda, Livanın cənubundan israillilərə qarşı təxribat və terror əməliyyatlarını dayandırmayan FAT ilə ittifaqda, İsrailə qarşı mübarizə aparmalı idi.

"Fədailər" tərəfindən edilən növbəti cəsarətli basqınların birindən sonra, İsrail hərbi qüvvələri, 1978-ci ilin martında, Livanın cənubuna hücum edərək orada yerləşən islam döyüşçülərinin bazalarını məhv etmişdi. Dörd aydan sonra, İsrail qoşunları buradan çıxarıldı. Təhlükəsizlik Şurasının 425-426 saylı qətnamələrinə uyğun olaraq BMT qoşunları onların boşaltdıqları ərazidə yerləşdilər. 1979-cu ildə, İsrail ilə Livan sərhədində yerləşən təhlükəsizlik zonasında İsrailin himayəsi altında, yalançı "Azad Livan" dövləti yaradıldı. Bundan sonra, Livanın cənubunda vəziyyət bir qədər sabitləşsə də, Livanda vətəndaş müharibəsi fasilələrlə davam etdi.

Eyni zamanda, Suriyada olan vəziyyət qəfildən xeyli kəskinləşdi. Burada, 1975-ci ildən, H.Əsəd hakimiyyətinə qarşı başlayan ayrı- ayrı çıxışlar, "Müsəlman qardaşlar"ın islam qrupunun başçılığı ilə kütləvi silahlı üsyan səviyyəsinə çatmışdı. Üsyançılar Hələb və Həma kimi böyük şəhərlərə nəzarəti ələ keçirərək, uğur qazandılar. Onların hərbi bazaları və təlim düşərgələri, "Müsəlman qardaşların"nın böyük nüfuz qazandığı İordaniyada yerləşirdi.

H. Əsədin, İordaniya Kralı Hüseyndən, "Müsəlman qardaşları"nın bazalarını və düşərgələrini ləğv etdirmək cəhdləri uğursuz oldu. Onda, Suriya aviasiyası bu bazaları bombalamağa başladı. Suriya və İordaniya arasında münasibətlər kəskinləşdi. 1980-ci ildə, bütün Suriya-İordaniya inteqrasiya layihələri ləğv edildi. Suriya təbliğatı "mürtəce" hökumətlərə, yəni "Müsəlman qardaşları"nı himayə edən İordaniya və Səudiyyə Ərəbistanına qarşı tədbirlərə başladı.

1980-ci ilin oktyabrında, kömək əldə etmək üçün, H.Əsəd SSRİ ilə dostluq və əməkdaşlıq haqqında saziş bağlamağa razı oldu və həmin ilin dekabrında Liviya ilə inteqrasiya müqaviləsi imzaladı. Öz-özlüyündə bu müqavilənin həyata keçirilməsinin gələcək imkanları yox idi, lakin bununla belə, H.Əsəd Liviyadan kifayət qədər böyük maliyyə yardımı almağa müvəffəq oldu. 1982-ci ildə, Suriya ordusu üsyançıları ciddi məğlubiyyətə uğrada bildi. İslamçıların Suriyada hakimiyyəti ələ keçirmək cəhdi, əhali arasında kütləvi dəstəyə malik olmasına baxmayaraq, uğursuzluqla nəticələndi.

İsrailin hakim dairələri əlverişli vəziyyətdən istifadə edərək, FAT qüvvələrini Livandan sıxışdırıb çıxarmaq üçün, imkan olan kimi, Suriyaya da bomba zərbəsi endirirdilər. Onlar, ABŞ-ın dəstəyinə arxayın idilər, çünki, 31 noyabr 1981-ci ildə, Amerika və İsrail arasında strateji əməkdaşlıq sahəsində anlaşma müqaviləsi imzalanmışdı.

6 iyun 1982-ci ildə, İsrail silahlı qüvvələri, "Qaliley dünyası" adlanan hücum əməliyyatına başladılar. Onların məqsədi, FAT-ın silahlı dəstələrini məğlub edərək Livandan zorla çıxarmaq idi. Bir neçə gün ərzində, İsrail qoşunları ölkənin xeyli hissəsini işğal edərək Beyruta çatdılar, sonra müsəlman koalisiyasının və FAT-ın əsas qüvvələrinin yerləşdiyi ərazinin qərb hissəsini tamamilə mühasirəyə ala bildilər. Bir ay yarım ərzində, İsrail qoşunları Qərbi Beyrutu da mühasirəyə aldılar. Bununla, FAT silahlı dəstələrini Livandan çıxarmağa razı olmağa məcbur oldu. 25 avqust 1982-ci ildə, əldə edilmiş razılığa əsasən, Livana millətlərarası qüvvələr (əslində NATO qoşunları) göndərildi və İsrail birlikləri Beyrutdan geri çəkildi. 1 sentyabr 1982-ci ilədək, bütün FAT hərbi qüvvələri Beyrutu və Livanı tərk etdilər. FAT-ın qərargah-mənzili Tunisə keçirildi.

Qoşunları beynəlxalq qüvvələrin əsasını təşkil edən, ABŞ-ın vasitəçiliyi ilə İsrail və Livan arasında sülh bağlamaq üçün danışıqlar başlandı. 17 may 1983-cü ildə, Livan-İsrail sülh müqaviləsi bağlandı. Lakin bu müqavilə, Suriya və İranın arxasında durduğu müsəlman koalisiyası tərəfindən tanınmadı. 1984-cü ilin yazında, Livan parlamenti Livan-İsrail sülh sazişini təsdiq etməkdən imtina etdi. Koalisiya dəstələri millətlərarası qüvvələrə qarşı təxribat və terror müharibəsi başladı və onlar xeyli itki verdilər. Bundan çox narazı qalan, iştirakçı ölkələrin (ABŞ, İngiltərə, Fransa və

İtaliya) ictimaiyyəti, çoxmillətli qüvvələrin Livandan çıxarılmasını tələb etdi. 1984-cü ilin payızında, onlar Livan ərazisini tərk etdilər.

1985-ci ilin yayında, İsrail qoşunları Livanı tərk etdi. Buna, həm iqtisadi çətinliklər, həm də maddi ziyan vurmağı bacaran islamçı dəstələrin fəaliyyəti səbəb olmuşdur. Beləliklə, Livanda yalnız Suriya qoşunları qaldı, bu da H.Əsədin tam siyasi anarxiya vəziyyətində olan ölkəyə nəzarət etməyə imkan verdi. Müsəlman və maronit ittifaqlarının qüvvələrinin tam tükənməsi, hər iki müharibə edən tərəfi razılığa gəlməyə məcbur etdi.

1989-cu ilin oktyabrında, Taifdə Səudiyyə Ərəbistanının vasitəçiliyi ilə, döyüşən tərəflər arasında danışıqlar başladı və nəticədə hər iki koalisiya milli razılaşma Sənədini imzaladı. Bu sənəddə, vətəndaş müharibəsinin dayandırılması və konfessiya əsaslarını qorumaqla, Livan siyasi sistemində islahatların keçirilməsi məsələsi əks olunmuşdu. Bundan əlavə, 1992-ci ilə qədər, Suriya qoşunlarının ölkədən çıxarılması ilə bağlı razılıq əldə edilmişdi. Lakin, bu şərt yerinə yetirilmədi. Üstəlik Livan, 1991-ci ilin mayında, Livan-Suriya qardaşlıq, əməkdaşlıq və koordinasiya Müqaviləsini, sentyabr ayında isə müstəqilliyi əhəmiyyətli dərəcədə məhdudlaşdıran müdafiə və təhlükəsizlik Paktını imzalamağa məcbur edildi. Əslində, Livan Suriyadan asılı vəziyyətə düşdü.

H.Əsədin FAT-ı Suriyanın nəzarəti altına salmaq cəhdləri fərqli bir şəkildə başa çatdı. Onun, Livan vətəndaş müharibəsində fəal iştirak etməsi və xüsusilə, 1982-ci ildə baş verən ciddi uğursuzluq, mülayim və radikal qanadlar arasında olan əlaqəni gərginləşdirdi. Birincisi, lideri Yasir Ərəfat olan "Fəth" təşkilatı (Fələstin Milli Qurtuluş Hərəkatı) idi. Onlar, İsrailə qarşı mübarizənin şaxələndirilməsini və imkan daxilində siyasi nizamlanmadan da imtina etmirdilər. İkincisi, sol radikalları və islamçıları birləşdirənlər idi. Onlar, ümumi təxribat və terror müharibəsinin davam etdirilməsini və onun regiondan kənarda da genişləndirilməsinə təkid edirdilər.

Buna uyğun olaraq, beynəlxalq terror təşkilatları ilə sıx əməkdaşlıq qurmaq nəzərdə tutulurdu. H.Əsəd məhz radikal qanadı dəstəkləyirdi. O, bu məsələdə İrandan nəinki dəstək, həm də maddi yardım alırdı. Sovet İttifaqı da, Suriya-İran əməkdaşlığını dəstəkləyirdi.

FAT-da mülayimlərin sosial bazası ərəb-Fələstin burjuaziyası idi. Onlar, ərəb dünyasında kifayət qədər güclü mövqelər qazanmış, ABŞ və Qərbi Avropanın işgüzar dairələri ilə sıx əlaqələr qurmuşdu. FAT-da radikalların arxasında, əsasən beynəlxalq xeyriyyə təşkilatlarının yardımları ilə yaşayan, çoxmilyonlu qaçqın kütləsi dayanırdı. Radikal qüvvələrin sayı və onların vuruşmaq meylləri, ümidsizlik şəraiti, "sionist dəstələrə" böyük nifrət hissləri Y.Ərəfatı son dərəcə ehtiyatlı olmağa və daim müxtəlif taktiki manevrlərə əl atmağa məcbur edirdi.

Buna baxmayaraq, 1983-cü ilin iyununda, Dəməşqdə H.Əsədlə görüşdə, Y.Ərəfat 242 saylı qətnaməyə əsasən, İsraillə siyasi həll yolunun mümkünlüyü məsələsini qaldırdı, lakin Suriya liderindən qəti rədd cavabı aldı. Bu, Fələstin liderini dayandırmadı və 1984-cü ildə, eyni məsələni İordaniya kralı Hüseyn ilə müzakirə etməyə başladı. Ərəb Birliyi Şurasının 9 sentyabr 1982-ci il, Fes bəyannaməsinə və 1 sentyabr 1982-ci il "Reyqan planı"na əsasən, Y.Ərəfat sülh yolu ilə nizamlanma məsələsində ortaq Fələstin-İordaniya mövqeyini hazırlamağı təklif etdi. 1985-ci ilin fevral ayında, 242 saylı qətnamə əsasında, hər iki tərəf İsrail ilə barışmağa razı olduqlarını bildirən ortaq bəyannamə dərc etdilər.

Lakin, FAT-da olan mülayimlər, bütün qüvvələr nisbətini nəzərə almamışdılar. "Fəth"in mərkəzi komitəsi bu bəyannaməni ("Ərəfat-Hüseyn razılaşması") bəyənsə də, FAT-in icraiyyə komitəsi, onun bütün ərəb ölkələri tərəfindən təsdiqlənməsinin zəruri olduğunu bildirmişdi, bu usə mümkün deyildi. Y.Ərəfat razılaşdırılmış mövqedən imtina etmək məcburiyyətində qaldı. Bu məsələdə, İsrailin təxribatçılıq siyasəti də əhəmiyyətli rol oynamışdı. 5 avqust 1986-cı ildə, İsrail knesseti (parlamenti), FAT ilə hər hansı bir münasibətə görə, cinayət cəzası haqqında qanun qəbul etdi, qanunun mətnində FAT beynəlxalq terror təşkilatı kimi təsnif olunurdu. Əslində isə, bu dövrdə, FAT 105 dövlət tərəfindən tanınırdı, onların 85-də onun nümayəndəliyi açılmışdı.

## 5.Asiya- Sakit okean bölgəsində beynəlxalq münasibətlər

### 5.1. Sakit okeanın cənub hissəsində anti-nüvə meylləri və "Rarotonq müqaviləsi"nin imzalanması

İnkişaf etməkdə olan ölkələr fövqəldövlətlərin qarşıdurmasından narahat olurdular. Onlar hesab edirdilər ki, dünyanın ucqar bölgələrində münaqişənin böyüməsi, ABŞ və SSRİ-nin aralarında olan münaqişə təhlükəsini dünya periferiyasına "keçirmək" istəyi ilə əlaqədardır. Orada yerləşən ölkələr, öz bölgələrini ikiqütblü qarşıdurmaya cəlb olunmaqdan qorumaq istəyirdilər. Bu meyllər, Sakit okeanın cənub hissəsində özünü göstərməyə başladı.

Onların, SSRİ-nin dünyanın bu hissəsində ada dövlətlərinə artan marağına əsaslanırdılar. 1987-ci ildə, Sovet İttifaqı, kiçik ada dövləti olan Vanuatu ilə balıq ovu müqaviləsi bağladı. Bu müqavilə, Qərbdə SSRİ-nin Sakit Okeanda yeni bir baza əldə etmək üçün atdığı addım kimi qəbul edildi, baxmayaraq ki, bir il sonra saziş mənfəətsiz olduğuna görə yenilənmədi. SSRİ-nin Kiribati, Tuvalu, Qərbi Samoa və Solomon adaları ilə, daha sıx iqtisadi əlaqələr yaratmaq cəhdləri də uğursuz oldu. Buna baxmayaraq, ABŞ rəhbərliyi SSRİ-nin dünyanın bu hissəsində olan

fəaliyyətinə çox sərt reaksiya verirdi, o, Moskvanı hərbi dəniz hücum strategiyasının keçirilməsinə hazırlaşmaqda ittiham edirdi.

Belə bir vəziyyətdə, 6 avqust 1985-ci ildə, Avstraliya, Yeni Zelandiya və Sakit okeanın cənubi hissəsinin beş kiçik ölkəsi, Rarotonq adasında (Kuk adaları) dünyanın bu hissəsində nüvəsiz zonanın yaradılması haqqında müqavilə imzaladı. "Rarotonq müqaviləsi" 1986-cı ilin dekabrında qüvvəyə minmişdi. Bu müqavilə üzv dövlətlərə nüvə silahı istehsal etməyi, sınamağı, inkişaf etdirməsini, sahib olmasını və istifadəsini qadağan edirdi. Hər bir dövlət, göyərtəsində nüvə silahı olan xarici gəmilərin limanlarına daxil olmalarına qadağa qoymaları və ya icazə vermələri məsələsinə özləri qərar verməli idi.

Sovet İttifaqı və Çin də tezliklə, Sakit okeanının cənubi hissəsində nüvəsiz zolağın tanınması protokollarını imzaladılar və təsdiq etdilər. Bir qədər gecikmədən sonra, ABŞ, Fransa və İngiltərə də bu protokolları imzaladılar, amma təsdiq etmədilər. Belə ki, Fransanın müqavilə bölgəsində nüvə sınağı əraziləri var idi. ABŞ və İngiltərə - nüvəsiz bir bölgənin tanınmasının, nüvə silahı olan hərbi gəmilərinin, Sakit okeanın cənub sularından keçmə azadlığını məhdudlaşdıracağından ehtiyat edirdilər.

Əslində, bölgədəki bəzi ölkələr, bu müqaviləni imzaladıqdan sonra, ABŞ ilə hərbi əməkdaşlığın müəyyən formalarından yayınmağa başladılar. Bu, Amerikanın hərbi gəmilərinin öz limanlarına girmələrini qadağan edən, Yeni Zelandiya siyasətində, xüsusilə ciddi şəkildə özünü göstərdi. Bu da 1987-ci ildə ABŞ-ın, Yeni Zelandiyaya hərbi yardımı və ANZUS (Avstraliya-Yeni Zelandiya-Birləşmiş Ştatlar və ya “Sakit Okean təhlükəsizlik paktı”) xətti ilə əməkdaşlığını dondurması qərarına səbəb oldu. Bu, əslində üç ölkənin kollektiv əməkdaşlıqdan imtina etməsi demək idi. Lakin, Yeni Zelandiya Avstraliya ilə, Avstraliya isə ABŞ ilə, hərbi tərəfdaşlıq münasibətlərini qoruyub saxlamışdı.

### 5.2. Cənub-Şərqi Asiyada iqtisadi regionalizmliyin formalaşması

Vyetnam müharibəsinin sona çatması, dünyanın bu hissəsində yerləşən ölkələri daha fəal regional əməkdaşlığa istiqamətləndirdi. 1976-cı ilin fevral ayında, Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN - Filippin, Malayziya, Tailand, İndoneziya və Sinqapurun daxil olduğu təşkilat ) elan edildikdən doqquz il sonra, İndoneziyanın Bali adasında beş ölkənin dövlət və hökumət başçılarının ilk görüşü keçirildi. Onun gedişində, ASEAN-ın Razılaşma Bəyannaməsi və Cənub-Şərqi Asiyada Dostluq və Əməkdaşlıq müqaviləsi imzalandı. O vaxtdan etibarən, təşkilat planlaşdırılan tədbirlərin həyata keçirilməsi üçün, öz fəaliyyət proqramını və təlimatını almış oldu.

Təlimatlara uyğun olaraq, bölgədə sülhün, tərəqqinin və rifahın təmin olunmasına töhfə verilməli və ASEAN ölkələrinin iqtisadiyyat, sosial və mədəniyyət sahələrində əməkdaşlıq yolu ilə əldə etdiyi uğurları artırmaq lazım idi. “Beşlər” dövlətləri, bölgədə qonşuların Müqaviləyə qoşulma imkanlarını nəzərə almaq üçün kifayət qədər uzaqgörən idilər. Lakin, Müqavilənin sadəcə imzalanması ASEAN-a qoşulmaq üçün yetərli sayılmırdı. Bu, Hind-Çinin üç ölkəsinə və Birmaya aid olunurdu.

Şərqi Asiyada münasibətlərin regionlaşdırılması, Qərbi Avropada həyata keçirilən inteqrasiya planları ilə müqayisə olunmurdu. Onun ideologiyası tam fərqli idi. Avropada 1957-ci il Roma müqavilələri, müharibələrarası dövrün millətçiliyinə, Avropa ölkələrinin münasibətini ifadə etmişdi. Avropalılar transmilli institutların formalaşdırılması yolu ilə, bu məsələnin öhdəsindən gəlmək istəyirdilər.

Şərqi Asiya regionizmliyi yerli ölkələrin milli cəhətdən öz "mən"liyini təsdiqləyən bir vasitə olaraq meydana gəlmişdi. Məsələ bundadır ki, zəif olduqlarını hiss edən bölgə dövlətləri bu “mən”lik səylərini birləşdirmək vasitəsi ilə təsdiqləmək fikrinə gəlmişdilər. Bu məntiq transmilli ideyalardan çox uzaq idi. Avropa inteqrasiyası əsas diqqəti dövlət sərhədlərinin dağıdılmasına istiqamət gütürmüşdü. Şərqi Asiya, yerli ölkələri zəiflədə biləcək gələcək mübahisələrin aradan qaldırılması üçün, sərhədlərin qarşılıqlı möhkəmləndirilməsinə və "kipləşdirilməsinə" yönəldirdi. Avropalılar millətüstü cəmiyyət qururdular, ancaq asiyalılar suveren ölkələrin səylərini birləşdirirdilər.

ASEAN-ın əsas təşkilatçı qurumu, iştirakçı ölkələrin Xarici İşlər nazirlərinin illik toplantısı idi. 1977-ci ildən sonra, ASEAN nazirləri regional əməkdaşlığı dəstəkləyən ölkələrin və donor təşkilatların nümayəndələri ilə müşavirələr keçirməklə, qarşılıqlı münasibətləri möhkəmləndirməyə başlamışdılar. Onların arasında Avstraliya, Avropa Birliyi, Kanada, Yeni Zelandiya, ABŞ və Yaponiya da var idi. Müzakirələr, əsasən inkişaf proqramlarının həyata keçirilməsinin mümkünlüyü ilə əlaqədar idi.

1984-cü ildə ASEAN və onu dəstəkləyən ölkələr arasında gedən müzakirələr təcrübəsi, post-nazirlik müşavirələrinə çevrildi. Onlar hər il, ASEAN Xarici İşlər nazirlərinin rəsmi görüşlərindən bir gün sonra keçirilməyə başlandı. ASEAN dialoqu, iştirakçı ölkələr arasında siyasi birlik, həmrəylik hissi yaratmaq, qarşılıqlı dözümlülük və mübahisəli mövzularda fikir ayrılıqlarını razılaşdırma təcrübəsini təsdiqləyən formalaşdırma vasitəsi idi.

Eyni zamanda, kiçik və orta ölkələr hələ ki, bütün Asiya-Sakit Okean regionu miqyasında inteqrasiyanı inkişaf etdirmək istəmirdilər. Onlar, güclü ölkələrin maraqları ilə müqayisədə, milli inkişaf üstünlükləri baxımından öz milli vəzifələrinin

xüsusiyyətlərini başa düşürdülər. Regional əməkdaşlığın genişlənməsi, ASEAN ölkələrini həll edilməmiş və əməli olaraq həll edilməyən problemlərin məcmuu ilə mübarizəyə cəlb olunması təhlükəsini yaradırdı. Belə problemlər, Yaponiya ilə SSRİ, Çin ilə Tayvan, SSRİ ilə ABŞ, Yaponiya ilə Çin, Cənubi Koreya ilə KXDR, Çin ilə SSRİ dövlətləri arasında mövcud idi.

Kiçik dövlətlərin bu məsələlərin həllinə təsir göstərmək imkanları yox idi. İqtisadi inkişafının maraqları naminə, yalnız bəzi güclü dövlətlərlə seçmə əməkdaşlıqları var idi. Üstəlik, seçim qaydaları sərt idi, belə ki, hərbi sahədə ABŞ-ın nəzarətində olan Yaponiya ilə münasibətlərin yaradılması, gənc dövlətlərin nəinki siyasi, həmçinin iqtisadi təsir altına düşmə qorxusuna səbəb olurdu. Kiçik ölkələr, əsasən müqayisə gələn güc ehtiyatına malik olan dövlətlər ilə, əməkdaşlığa üstünlük verirdilər.

Əlbəttə ki, əslində regionallaşma, Sakit okean bölgəsinin iqtisadi liderlərinin, Yaponiya və ABŞ-dan aralanması fikri kimi başa düşülmürdü. Lakin, kiçik ölkələr hesab edirdilər ki, regionlaşmanın iki səviyyəsi var - daxili (ASEAN ölkələri, Tayvan, Hong Kong, Cənubi Koreya) və xarici (ABŞ, Yaponiya, Avstraliya, Kanada və s.). Eyni zamanda hesab olunurdu ki, regionlaşma üçün iki sürət olmalıdır-- kiçik və orta ölkələr arasında əməkdaşlığın tezləşdirilməsi və bütün digər dövlətlərlə əməkdaşlığın ləngidilməsi. Kiçik və orta ölçülü ölkələr tərəfindən irəli sürülərək müdafiə olunan regionallaşma nəzəriyyəsi, hərbi-siyasi əməkdaşlığı deyil, iqtisadi istiqamətləndirməni diqqət mərkəzində saxlayırdı.

Sakit okean regional əməkdaşlığının hərbi-siyasi və iqtisadi istiqamətləri arasında olan seçim ətrafında gedən mübahisə, ikincilərin üstünlük təşkil etdiyini göstərərək, yeni reallığı əks etdirirdi: bölgədə "yeni sənaye ölkələri" yaranmışdı. Birinci növbədə, onların sırasına Şərqi Asiyanın dörd "pələngi" (Honq Konq, Sinqapur, Tayvan, Cənubi Koreya) daxil olmuşdu, Onların sırasına, 1984-cü ildə, rəsmi şəkildə təşkilata qoşulan Bruney ilə birlikdə ASEAN dövlətləri də "daxil olmuşdu".

ABŞ ilə bölgənin kiçik ölkələri arasında, regionlaşmanın gələcəyi ilə bağlı gizli qarşıdurmada, Yaponiya tərəfi bufer rolunu oynayirdı. ABŞ tərəfindən irəli sürülmüş, regionallaşmanın siyasiləşməsi nəzəriyyəsini tənqid etməkdən çəkinən Yaponiya, ASEAN ölkələri arasında olan regional əməkdaşlığının iqtisadiyyatlaşdırılmasını daha məqbul siyasət hesab edirdi. Dinc konstitusiyaya əsaslanan Yaponiya, hərbi-siyasi xarakter daşıyan regional əməkdaşlıqda iştirak edə bilməyəcəyini vurğuladı.

Yaponiya hökuməti, ABŞ-ı kiçik ölkələrin fikirləri ilə razılaşmağın məqsədəuyğun olduğuna inandırmağa çalışırdı. 1985-ci ildən sonra, Tokio və Vaşinqton Sakit okean regionizmliyinə münasibət məsələsinə yanaşma mövqelərini razılaşdıra bildilər. ABŞ və Yaponiya ilk dəfə olaraq, ASEAN-ın iqtisadi inteqrasiya

görüşlərini, regionun inteqrasiyanın gələcəyi kimi qəbul etdilər. İqtisadi və siyasi məsələlər üzrə regional danışıqların inkişaf etdirilməsi təşəbbüsü, kiçik və orta ölkələrə də keçmiş oldu.

* * *

80-ci illərin birinci yarısının ikiqütblü qarşıdurmasının əsas nəticəsi, ABŞ ilə rəqabətdə məğlub olan Sovet İttifaqının iqtisadi tükənməsi idi. SSRİ artıq ABŞ ilə bərabər səviyyədə rəqabət edə bilmirdi. Daha səmərəli iqtisadi modelə əsaslanan, ABŞ 70-ci illərin çətinliklərini dəf etdi, daxili ziddiyyətlərin böyüməsini dayandırdı və əksər amerikalılar üçün məqbul yaşayış səviyyəsini təmin edə bildi.

Bu, ABŞ-a xarici siyasət vasitələrinin artmasını təmin etdi. ABŞ özünün, NATO və Yaponiya kimi müttəfiqlərinin ehtiyat vasitələri ilə birlikdə, Sovet İttifaqını əlverişsiz bir strategiya olan, qlobal qarşıdurmaya getməyə məcbur etmək üçün şərait yaratdı. SSRİ və ABŞ-ın tənzimlənən qarşıdurmasına, hərbi-siyasi və siyasi-diplomatik sahələrdə status-kvoya əsaslanan, Yalta-Potsdam sistemi dağılmağa başlandı.

Hər iki dövlət, fərqli səbəblərə görə, bu məsələni yenidən təftiş və təhlil etməyə davam etdi. Yalta-Potsdam nizamnaməsində razılaşdırılmış islahat keçirilməsi məsələsi gündəmə gəldi. Lakin artıq, iştirakçılar gücdə və təsir dairəsində eyni səviyyədə deyildilər. SSRİ, ABŞ-ı özünün yalnız ən vacib maraqlarını nəzərə almağı vadar edə bilərdi. Qalan bütün məsələlərdə, Moskva güzəştə getmək məcburiyyətində qalırdı. Beynəlxalq vəziyyətin yaxşılaşması imkanlarına dair eyforiyanın ümumi yüksəlməsinə baxmayaraq, Sovet İttifaqı üçün şərait son dərəcə əlverişsiz idi.

## YEDDİNCİ FƏSİL
## YALTA-POTSDAM SİSTEMİNİN DAĞILMASI
## (1986-1991-ci illər)

### I BÖLMƏ
### İkiqütblü dünya sistemində gərginliyin zəifləməsi, qarşıdurmanın ləğvi və Soyuq müharibənin başa çatması

**1.Sovet İttifaqının yeni xarici siyasəti**

1.1. Sovet İttifaqının yeni xarici siyasət strategiyasının nəzəri əsasları

1.2. M.S.Qorbaçovun "Qarışmamaq doktrinası"

**2. Beynəlxalq təhlükəsizliyin kəskinləşməsi**

2.1. Beynəlxalq təhlükəsizliyin ekoloji problemlərinin kəskinləşməsi

2.2. 1980-ci illərin ikinci yarısında dünyada siyasi- psixoloji vəziyyət

**3.Avropada inteqrasiya prosesinin inkişafı**

3.1. İnam Tədbirləri üzrə Stokholm Konfransının başa çatması və ATƏT-in Vyana görüşünün çağırılması

3.2 ATƏM-in Vyana görüşünün başa çatması (1989-cu il yanvar) və SSRİ-nin insan hüquqlarına münasibət siyasətinin dəyişilməsi

3.3. Yeni Avropa üçün Paris Xartiyası

3.4. Şengen Konvensiyasının bağlanması

**4. SSRİ – ABŞ münasibətləri**

4.1. Hərbi-siyasi sahədə Sovet-Amerika münasibətləri. Orta və qısa mənzilli raketlər haqqında Vaşinqton müqaviləsinin imzalanması

4.2.Avropada adi silahlı qüvvələrin məhdudlaşdırılması haqqında Müqavilənin imzalanması

4.3.Strateji hücum silahlarının azaldılması haqqında Moskva Müqaviləsinin imzalanması (SHS-1)

**5. Almaniyanın birləşməsi və beynəlxalq münasibətlər**

1986-cı il beynəlxalq münasibətlərdə bir sədd kimi qeyd olunurdu. Qarşıdurma dövrü sona çatırdı və Sovet İttifaqı, ümumi şəraitin təzyiqi ilə, ABŞ-la qarşılıqlı tarazlaşdırılmayan güzəştlər əsasında, Qərblə əməkdaşlıq və qarşılıqlı etimad axtarmağa başladı. İkiqütblü düzən hələ də davam edirdi. Fövqəldövlətlər bütün gücləri ilə, beynəlxalq birliyin bütün digər dövlətlərindən üstün idilər.

1986-1991-ci illərdə Sovet-Amerika münasibətlərində gedən dəyişikliklərin mənası, SSRİ və ABŞ-ın birgə fəaliyyəti ilə ikiqütblü qarşıdurma sistemini, iki superdövlətin əməkdaşlığına əsaslanan və beynəlxalq siyasətdə üstünlüklərini qoruyan kooperativ ikiqütblüyə çevirmək üçün cəsarətli və təhlükəli cəhdlərindən ibarət idi.

Sovet İttifaqı və ABŞ beynəlxalq münasibətlərin tənzimlənməsində tərəfdaş olmaq üçün, qarşılıqlı düşmənçilik və kəskin qarşıdurmadan imtina etdilər. Ehtiyat vəsait mənbələrinin qeyri- bərabərliyi, qarşılıqlı əlaqənin nəticəsini qeyri-müəyyən edirdi. İqtisadi və daxili –siyasi şərait, SSRİ rəhbərliyini bu təhlükəli oyuna girməyə məcbur etdi.

Tarixi təcrübədə belə hadisələrə rast gəlinib. Belə ki, bütövlükdə beynəlxalq münasibətlər sistemində sülhün təmin edilməsi, ayrı-ayrı dövlətlərin təhlükəsizlik maraqlarına zidd olurdu. 80-ci illərin ikinci yarısında, bir tərəfdən dünya müharibəsinin qarşısını almaq, digər tərəfdən Sovet İttifaqının mövcudluğunu təmin etmək vacib idi. Bu ziddiyyət qlobal sabitliyin lehinə həll edildi: ümumdünya sülh qorundu, ancaq, 1991-ci il üçün onun qorunmasının əks tərəfi, SSRİ-nin dağılması oldu.

## 1. Sovet İttifaqının yeni xarici siyasəti

### 1.1. Sovet İttifaqının yeni xarici siyasət strategiyasının nəzəri əsasları

1986-cı ilin fevral-mart aylarında, Moskvada Sov.İKP-nin XXVII qurultayı keçirildi. Onun qərarlarında, beynəlxalq vəziyyətə yeni qiymət verildi.

Birincisi, Sovet rəhbərliyi böyük dövlətləri, nüvə müharibəsinin beynəlxalq mübahisələrin həlli vasitəsi kimi qəbuledilməzliyi barədə razılığa gəlməyə çağırdı.

İkincisi, Sovet İttifaqı, Qərbin, SSRİ üzərində güc üstünlüyü əldə etmək cəhdlərindən əl çəkməyi və özünün də, faktiki olaraq Qərbdən üstün olmağa çalışmayacağını vəd etdi. Bu fikir, bərabər təhlükəsizlik tezisində təcəssüm etdirilmişdir. M.Qorbaçovun hesabatında deyildiyi kimi, bu ifadə, “qarşılıqlı məhv etmə təminatı” doktrinası əsasında, qarşılıqlı qorxu məntiqini müəyyənləşdirən, "bərabər təhlükə" anlayışını əvəz etməli idi.

Üçüncüsü, qurultayın materiallarında bir neçə onillikdə, ilk dəfə olaraq Çin siyasətinə müsbət qiymət verildi və Sovet-Çin münasibətlərinin yaxşılaşdırılması istiqaməti elan edildi.

Ümumiyyətlə, qurultay sənədlərində ABŞ-ın xarici siyasətini, NATO dövlətlərini tənqid edən və 80-ci illərin əvvəllərində olduğu kimi, yeni dünya müharibəsinin artan təhlükəsi barədə əsaslandırılmış fikirlər var idi. Materialların ümumi məntiqi, Qərblə danışıqlar prosesinə keçməyə doğru aparırdı.

Sov.İKP-nin XXVII qurultayının qərarları özlüyündə inqilabi deyildi. Terminoloji olaraq, onlar 70-ci illərin yumşalma siyasətini "qanuniləşdirən" Sov.İKP-nin XXIV qurultayının materiallarına bənzəyirdilər. Lakin, qurultaydan istiqamət götürmək istədiyi siyasətinin ümumilikdə təsdiqini aldıqdan sonra, SSRİ-nin yeni rəhbərliyinə beynəlxalq münasibətlər sahəsində daha cəsarətli fəaliyyət göstərmək imkanı verildi.

Qurultay qərarlarını "əsas götürən" M. Qorbaçov və onun əməkdaşları, sonrakı illərdə ədəbiyyatda "yeni siyasi düşüncə" nəzəriyyəsinin əsasını təşkil edən, qarşılıqlı əlaqəli tezislər və müddəalar sistemini inkişaf etdirdilər. Onun müddəalarının geniş şərhi 8 dekabr 1988-ci ildə, Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyasında, M.S. Qorbaçovun nitqində təqdim olunmuşdu. Nəzəriyyənin məzmunu iki əsas müddəa ilə müəyyən edilmişdi:

Birincisi, o, ümumbəşəri dəyərlərin önəmliyini təsdiq etdi və onların ayrı-ayrı dövlətlərin və sosial qrupların maraqlarına münasibətinin əhəmiyyətinin üstünlüyünü göstərdi. Sovet İttifaqı, qlobal miqyasda sinfi dəyərlərin və sinfi mübarizənin maraqlarının beynəlxalq siyasətdə üstünlük təşkil etməsi tezisini rədd etdi. Əslində bu, beynəlxalq münasibətlərin ideologiyadan uzaqlaşmasına, bir-birinə əks olan sinfi maraqların müdafiəsinə yönəlmiş prinsipinə xas olan, Şərq və Qərbin siyasi və güc qarşıdurması ənənəsindən imtinaya çağırış demək idi.

İkincisi, ümumbəşəri dəyərlər arasında əsas məsələ, bəşəriyyətin yaşaması elan edildi. Sülhün təmin edilməsi və dünya nüvə müharibəsinin qarşısını almaq problemi, beynəlxalq münasibətlərin mərkəzində dururdu. Bu maraq, sosial quruluşundan, ideologiyasından, gücündən, ölçüsündən və s. asılı olmayaraq, dünyanın bütün ölkələri üçün, ümumi və birləşdirici ("sintezləşdirici") elan edildi.

80-ci illərin ikinci yarısında, SSRİ-nin xarici siyasəti üçün, yeni siyasi düşüncə nəzəriyyəsindən irəli gələn vacib göstərişlərinin əsas istiqamətləri:

1) strateji silah ehtiyatının azaldılması məsələsində ABŞ ilə razılığa gəlmək;

2) Qərbi Avropa ölkələri ilə, Almaniyanın birləşdirilməsində mümkün güzəştlər hesabına, iqtisadi və siyasi yaxınlaşma;

3) ÇXR ilə dövlətlərarası münasibətlərin normallaşdırılması və Sovet-Çin siyasi və iqtisadi əməkdaşlığının genişləndirilməsi;

4) Asiya, Latın Amerikası və Afrikada regional münaqişələrin həllində Qərblə əməkdaşlıq;

5) Yeni Sovet rəhbərliyinin nəzərdə tutduğu kimi, SSRİ-də keçirilən islahatlara uyğun, Şərqi Avropa ölkələrinin siyasi idarəçiliyinin islahatlarına kömək etmək;

6) insan hüquqları ilə bağlı siyasətdə dəyişiklik, SSRİ daxili qanunvericiliyini və siyasi təcrübəsini beynəlxalq normalara daha çox uyğunlaşdırmaq.

**1.2. M.S. Qorbaçovun "Qarışmamaq doktrinası"**

80-ci illərin sonlarında, Sovet rəhbərliyi Varşava Müqaviləsi Təşkilatının hərbi birliyinin maliyyələşdirilməsinin məqsədəuyğun olmadığı qənaətinə gəldi. O, Şərqi Avropa müttəfiqləri ilə iqtisadi ittifaqı olan QİYŞ-in də onun üçün lazımsız yük olduğunu hesab etdi. Bu dövrdə, QİYŞ-in daxilində bir çox fikir ayrılıqları var idi. Şərqi Avropa ölkələri hesab edirdilər ki, Sovet İttifaqı, onların xarici iqtisadi əlaqələrini SSRİ--yə yönəltməyə məcbur edərək, onları öz maraqlarına tabe etdiriblər. SSRİ, Şərqi Avropa ölkələrindən istehlak mallarının və qida məhsullarının əsas alıcısı idi. Lakin, onlar öz məhsullarını QİYŞ daxilində valyutasız hesablaşmalar sisteminə görə ödəmə şərtləri ilə deyil, Qərbi Avropa bazarlarında sərbəst dəyişdirilən valyuta ilə daha çox gəlir əldə etmək istəyirdilər.

Sovet rəhbərliyi də, Şərqi Avropa ilə əlaqələri sərfəli hesab etməyi dayandıraraq, müttəfiqlərini dünya qiymətlərindən aşağı qiymətlərlə neft və qaz təchizatı ilə təmin etməyin, artıq qeyri-mümkün olduğu qərarına gəldi. Moskva, QİYŞ ölkələri ilə enerji ticarətini sərbəst dönən valyutalarla hesablaşmalara keçirmək qərarına gəldi. SSRİ, sosialist ölkələrinə, neft tədarükünə dünya qiymətləri ilə satılmasına dair mərhələli müqavilələr bağlamağı vacib saydı. Bu qərar, Şərqi Avropa dövlətlərini Sovet İttifaqı ilə iqtisadi sahədə olan əməkdaşlıqdan məhrum etdi, çünki ucuz enerji təchizatı onların SSRİ ilə ticarəti üçün əsas amil idi.

SSRİ-də başlayan dəyişikliklər, ilk əvvəl Şərqi Avropa ölkələrində minimum dərəcədə əks olundu. Onlarda, Sovet dövlətinə uyğun yaradılan mühafizəkar partiya-inzibati hakimiyyəti forması dəyişikliyə şərait yaratmırdı. Şərqi Avropa kommunistləri, SSRİ-də həyata keçirilən demokratik islahatları şübhə ilə izləyərək, Sovet nümunəsini təkrar etməkdən ehtiyat edirdilər. Xüsusilə, "yenidənqurma"ya daha ehtiyatlı yanaşan ADR, Rumıniya və Bolqarıstan dövlətləri idi. Bu ölkələrdə, Erix Honekker, Nikolae Çauşesku və Todor Jivkov kimi partiya liderlərinin avtoritar hakimiyyətinin idarəçiliyi fəaliyyət göstərirdi. M.S.Qorbaçovun islahatları gedişində, Şərqi Avropa Kommunist Partiyalarının mühafizəkarlığı xoşagəlməz

halda görünürdü. 80-ci illərin sonlarında, onların rəhbərləri, Sovet islahatları haqqında məlumatlara məhdudiyyətlər qoymağa çalışırdılar.

SSRİ-də baş verən hadisələrlə bağlı ən böyük narahatçılıq Rumıniyada hiss olunurdu. Bu ölkə "sosializm dünyasında" xüsusi yer tuturdu. O, Qoşulmama Hərəkatına daxil olmuşdu.1967-ci ildə Rumıniya, Sovet İttifaqına müttəfiq ölkələr içərisində, ərəb ölkələrinə təcavüzünə görə, İsrail ilə diplomatik əlaqələri kəsməkdən imtina edən yeganə ölkə idi. Rumıniyanın 1968-ci ildə VMT ölkələrinin Çexoslovakiyaya müdaxiləsini dəstəkləməkdən imtina etməsindən sonra, Rumıniyada olan kommunist hakimiyyəti, Qərbdə Şərqi Avropanın ən "liberal" dövləti sayılmağa başlanmışdı.

Ancaq, SSRİ-də gedən "yenidənqurma"nı nəzərə alsaq, hər şey dəyişirdi. SSRİ ilə Qərb arasında olan münasibətlərin yaxşılaşdırılması ilə "Rumıniya müxalifəti" mənasız oldu. Rumıniyada, N.Çauşesku rəhbərliyi tərəfindən yürüdülən sərt iqtisadi siyasətindən narazılıq artırdı. N.Çauşeskunun ailə üzvlərinin etdiyi qanunsuzluqlarına, onun özünə xas şəxsiyyətə pərəstişliyinə və nəhayət, Transilvaniya və Banat ərazilərinin macar əhalisinə qarşı yönəlmiş "rumınlaşdırma" siyasətinə qarşı etirazlar artırdı. Rumıniya kommunist idarəçiliyi, "qəfildən" sosialist düşərgəsinin ən zəif halqası oldu.

Şərqi Avropada, öz təsir zonasını qorumağın "faydasız" olduğu qənaətinə gələn Sovet rəhbərliyi, Şərqi Avropa ölkələrində Kommunist hökumətlərini hakimiyyətdə saxlamaq üçün özünü məsul saymağı dayandırdı. Şərqi Avropa ölkələri, ya Qorbaçov siyasətinə uyğun olaraq islahat keçirməli, ya da öz gələcəkləri üçün məsuliyyəti özləri daşımalı idilər. 1989-cu ilin oktyabrında, Finlandiyaya rəsmi səfəri zamanı M.S.Qorbaçova, Alman Demokratik Respublikasında olan vəziyyətlə bağlı mövqeyi haqqında birbaşa sual verildi. Bu zaman, ADR-də, AVSP Mərkəzi Komitəsinin Baş katibi E.Honekkerin hakimiyyətdən uzaqlaşdırılması tələbi ilə xalqın etiraz dalğası başlamışdı. Bu suala cavab olaraq, Sovet lideri ilk dəfə, Sovet İttifaqının Şərqi Avropa ölkələrinin işlərinə qarışmaq niyyətinin olmadığını bildirdi. Bu, Moskvanın "sosialist beynəlmiləlçiliyi" nəzəriyyəsindən və ya Qərbdə deyildiyi kimi "məhdud suverenlik doktrinası"ndan imtina etməsi demək idi.

3 dekabr 1989-cu ildə, Aralıq dənizinin Malta adasında, M.S.Qorbaçov, 1988-ci ilin noyabrında, R. Reyqanın yerinə seçilən ABŞ Prezidenti CorcBuş (böyük) ilə görüşü oldu. Maltada keçirilən görüş zamanı, Sovet tərəfi Şərqi Avropada baş verən hadisələrə müdaxilə etməmək barədə ABŞ ilə razılığa gəlmişdi.

Sosialist ölkələrində olan vəziyyət həqiqətən Maltada müzakirə edilmişdi. Lakin bu görüş, 1989-cu ilin payızının sonlarında, Şərqi Avropada başlayan əks-kommunist dəyişikliklərin (Rumıniyadan başqa) hər yerdə tamamlandığı zaman baş

tutmuşdu. Buna görə, Sovet-Amerika müzakirələri, Şərqi Avropa vəziyyətinin inkişafı üçün həlledici əhəmiyyətə malik ola bilməzdi. Maltada keçirilən görüş zamanı, SSRİ və ABŞ liderləri rəsmi olaraq **soyuq müharibənin bitdiyini** elan etdilər. Sonradan bu şərti ifadə, Rusiya və ABŞ rəhbərləri tərəfindən bir sıra beynəlxalq vəziyyətlərə münasibətdə dəfələrlə təkrarlanmışdı.

Növbəti yüksək səviyyəli Sovet-Amerika görüşü 1990-cı ilin iyunun əvvəlində Vaşinqtonda keçirildi. Görüş nəticəsində nüvə silahlarının və adi silahların ixtisarına, Avropa problemlərinə, məhəlli münaqişələrin həllinə və ikitərəfli əlaqələrin inkişafına dair konkret razılaşmalar olmuşdu.

## 2. Beynəlxalq təhlükəsizliyin kəskinləşməsi

### 2.1. Beynəlxalq təhlükəsizliyin ekoloji problemlərinin kəskinləşməsi

80-ci illərin ikinci yarısında, ekoloji təhlükəsizlik məsələləri də, beynəlxalq münasibətlərdə narahatlıq yaratmağa başladı. Buna təkan verən, 1986-cı il aprelin sonunda SSRİ-də, Pripyat şəhərində (müasir Ukraynanın ərazisi), Çernobıl atom elektrik stansiyasında baş vermiş böyük qəza ilə əlaqəli hadisələr oldu. Bu stansiyanın enerji qurğularından (reaktorlarından) birinin partlaması nəticəsində yaranan radioaktiv bulud Ukrayna SSR-nin, Belarus SSR-in və RSFSR-in bir sıra bölgələrini "örtdü" və Polşa, Çexoslovakiya, Avstriya ərazisinə yayıldı. Daha çox və ya az intensivli radioaktiv çöküntülərin düşməsi ilə, Türkiyə, Rumıniya, Finlandiya, Norveç və hətta İsveçrə, Fransa və İspaniyanın bəzi bölgələri də zərər çəkdi. Sovet rəhbərliyi, qəza faktını dərhal təsdiqləmədi. Lakin, gec də olsa, Çernobıl fəlakətinin nəticələrinin aradan qaldırılması üçün, digər ölkələrin hökumətləri və beynəlxalq təşkilatlarla gecikmədən əməkdaşlığa başladı.

1986-cı ildə, beynəlxalq ictimai fikir yeni bir şok yaşadı. İngiltərə Antarktika Tədqiqatları Cəmiyyəti, Antarktida üzərində "ozon dəliyinin", Yerin ətrafında olan ozon səthində böyük miqyaslı boşluq meydana gəldiyini bildirən məlumat yaydı. Elm adamları, "dəliyin" meydana çıxmasını, Yerin atmosferinə sənaye təsirləri ilə, havaya ozonu məhv edən çox saylı zərərli repellentlərin (kimyəvi elementlər) buraxılması ilə əlaqələndirdilər. Mütəxəssislərin fikrincə, "ozon dəliyinin" artması və buna bənzər hadisələrin meydana gəlməsi, uzaq gələcəkdə, Yerin Günəşin təbii ultrabənövşəyi şüalarına məruz qalma intensivliyinin kəskin artmasına səbəb ola bilər ki, bu da öz növbəsində dəri xərçəngi xəstəliklərinin sayının artmasına səbəb ola bilər. Bu da insanları, günəş şüalarından qorunmaq üçün ehtiyat tədbirlərindən (xüsusi niqablar, əlcək və örtüklərdən) istifadə etməyə məcbur edəcəkdir.

80-ci illərin ikinci yarısında, nüvə fizikası sahəsində çalışan sovet və amerikalı mütəxəssislər, nüvə partlayışlarının modelləşdirilməsində əldə olunan nəticələrə və onların təbii mühitə verdiyi fəsadlara əsaslanaraq, aralarında olan genişmiqyaslı qarşıdurma vəziyyətində, SSRİ və ABŞ-ın nüvə gücündən istifadə etməsi nəticəsində, dünyada nüvə qışının olacağı barədə qorxulu bir yekun fikrə gəldilər. "Nüvə qışı" dedikdə, günəşin istilik şüalarının atmosferdən yer səthinə keçməməsi səbəbindən, planetin havasının istiliyinin azalması nəzərdə tutulurdu. Alimlərin fikrincə, şüa buraxmayan sıx və qeyri-şəffaf təbəqə, nüvə müharibəsi zamanı çox saylı atom partlayışları nəticəsində yaranmış çox xırda radioaktiv tozların və yer səthinin ən kiçik hissəciklərinin atmosfera qalxması ilə yaranacaqdır.

Köhnə və yeni ekoloji təhlükələrlə əlaqəli ictimai qorxuların artması, qarşıdurmaya son qoyulması və sağ qalmaq maraqları naminə, planetar əməkdaşlığı qurmaq ehtiyacının ortaya çıxması üçün əlverişli zəmin yaratmış oldu.

## 2.2. 1980-ci illərin ikinci yarısında dünyada siyasi- psixoloji vəziyyət

Sadə, başa düşülən və asan "yeni siyasi düşüncə" ideyalarında, insani həyatının xilas edilməsi və sağ qalmasının güclü formada vurğulanması, Qərb dünyasının ictimai tələbinə tam uyğun idi. 80-ci illərin ilk yarısında, Amerika rəhbərliyi, hərbi proqramlarına geniş ictimai dəstək almaq üçün, SSRİ tərəfindən ehtimal olunan hərbi təhlükə ilə əlaqədar vətəndaşlarının qorxularını artırmağa cəhd etməyə başladı.

Bu məqsədlər üçün xeyli pul xərcləndi, çünki ölkə daxilində R.Reyqanın sərt siyasətini, xüsusən də 1983-cü ildə təklif etdiyi, Strateji Müdafiə Təşəbbüsü (SMT-СОИ) proqramını tənqid edən, kifayət qədər böyük siyasətçi qrupu var idi. Amerika yaradıcı xadimlərin elitasının ən yaxşı qüvvələri, Respublikaçıların siyasətinin informasiya- siyasi təminatı məsələsi işinə cəlb edildi.

Bu səylərin nəticələri rəhbərlik üçün bir qədər gözlənilməz oldu. 1983-cü ildə, Amerikalı rejissor Nikolas Meyer "Ertəsi gün" (“The day after”) bədii filmini çəkdi. Filmin premyerası 20 noyabr 1983-cü ildə baş tutdu. Son dərəcə istedadla çəkilmiş bu film, heyrətləndirici təəssürat yaratdı. Ümumiyyətlə, bu film ikiqütblü sistemdə, tam miqyaslı nüvə müharibəsinə çevrilən NATO ilə Sovet bloku arasında yaranan qarşıdurmadan bəhs edir. Burada, əsas diqqət, müharibənin yaratdığı nəticələrin reallığına yönəldilir. Hadisələr, ABŞ hərbi hava qüvvələrinin “Uaytmen” raket bazasının yaxınlığında yerləşən iki əyalət şəhərinin sakinlərinin anlamı ilə şərh olunur. Filmdə, çəkiliş texnikasının bütün mövcud nailiyyətlərindən istifadə edərək, Kanzas yaxınlığında yerləşən kiçik bir Amerikan şəhərinə Sovet raketləri tərəfindən vurulan zərbələr nəticəsində, baş verən nüvə partlayışının anatomiyası, atom fəlakətinin “daxili” və ilk dəfə olaraq diri-diri yanan qurbanlarının gözü ilə

göstərildi. SSRİ ilə ABŞ arasında gedən nüvə qarşıdurması, xırda konkret məişət hadisələri üzərində qurularaq səsləndirilmiş, sevən cütlüyün və yaxınlarının faciəsi ilə göstərilmişdir. Sovet İttifaqında, bu film yalnız 1987-ci ilin may ayının sonunda göstərilmişdir.

Film Amerika ictimaiyyətində şok yaratdı. ABŞ idarəçiliyi, amerikalıların vətənpərvərlik hisslərini qızışdırmağa, onları sovet əleyhinə birləşdirməyə ümid edirdi. Qərb analitiklərinin qeyd etdiyi kimi, bunun əksinə olaraq, bu film "Amerikanı həqiqətən qorxutdu". Nəticədə, amerikalıların sülhsevər əhval-ruhiyyəsi artdı.

ABŞ ilə mümkün nüvə müharibəsi qorxusu, sovet vətəndaşlarının da sülh istəklərinə təsir edirdi. Cəmiyyətdə, yaşadığı şəhər və ya kəndə vurulan nüvə zərbəsindən qaçmağın mümkünsüzlüyü barədə, faciəvi olan, aydın və ümidsiz bir anlayış yaranmışdı. İnsanlar, nüvə müharibəsi düşüncələrindən qaçmağa çalışırdılar. Ancaq rəsmi təbliğat, qurtarmasından qırx ildən çox keçməsinə bazmayaraq, İkinci dünya müharibəsi mövzusunda, çox saylı proqram, film, şeir, nəsr əsərləri, pyeslər və s. ilə bu müharibəni xatırlatmaqdan yorulmurdu. Lakin, cəmiyyət müharibə haqqında düşünmək istəmir və ondan qorxurdu. Qərblə barışıq ideyası, sovet insanlarının beynində dərin köklər salmasına baxmayaraq, çox az adam belə düşüncələri ucadan səsləndirməyə risk edirdi. Ona görə də, M.S.Qorbaçovun gərginliyin azaldılması istiqamətində elan etdiyi rəsmi müraciəti, sovet cəmiyyətində sevinc və rahatlıqla qəbul edilmişdi.

## 3.Avropada inteqrasiya prosesinin inkişafı

### 3.1. İnam Tədbirləri üzrə Stokholm Konfransının başa çatması və ATƏT-in Vyana görüşünün çağırılması

Moskvanın xarici siyasətində olan dəyişiklikləri, ümumi Avropa prosesini 1983-cü ildən sonra düşdüyü çətin vəziyyətdən çıxarmağa kömək etdi. Əslində, 1984-cü ilin yanvarından öz işinə başlayan, ATƏT-in Avropada İnam Tədbirləri üzrə Stokholm Konfransı fəaliyyət göstərmirdi. Lakin, SSRİ-də rəhbərliyin dəyişməsindən sonra, konfrans gözlənilmədən 1986-cı il sentyabrında son sənədin imzalanması ilə tez başa çatdı. Bu sənəd, etimad tədbirlərinin təsvirini özündə əks etdirdi. Tərəflər, hərbi təhlükəni və təsadüfi qarşıdurmalar təhlükəsini azaltmaq üçün, bir-biri ilə münasibətlərdə etimad tədbirlərinin tətbiq edilməsinə razılıq verdilər.

Bunların arasında:

-hərbi fəaliyyət barədə əvvəlcədən xəbərdarlıq edilməsi;

-hərbi tədbirlərə, siyahısı konfransda razılaşdırılmış xarici müşahidəçilərin dəvət edilməsi;

-müntəzəm, qarşılıqlı hərbi məlumatlar mübadiləsi;

-razılaşdırılmış miqyasdan artıq hərbi fəaliyyətə məhdudiyyətlərin qoyulması;

-etimad tədbirlərinin tətbiqi sahələri olan yerlərdə yoxlamaların aparılması tədbirləri var idi.

Stokholm görüşünün müvəffəqiyyəti, SSRİ-nin Avropadakı təhlükəsizliyə güzəştə getmək niyyətinin ciddiliyinə ümidləri gücləndirdi. Sovet rəhbərliyi bunu başa düşdüyündən, "yeni siyasi düşüncə" inamına maraq yaratmağa çalışaraq, Qərb tərəfdaşlarına bilərəkdən güzəştlər etdi.

1986-cı ilin oktyabrında, Vyanada ATƏT-in növbəti iclası başladı. Vyana iclasında, Ümumavropa prosesinin “insan ölçüsü”nə diqqət yetirilməli idi. Gündəlikdə əsas yeri, Sovet İttifaqı üçün ən ağrılı olan məsələ - insan haqları müdafiəçiləri tuturdu. Bu, SSRİ-nin yeni niyyətlərinin ciddi sınağı idi. Lakin, Qərblə münasibətlərdə inam mühitinin yaranması "yeni siyasi düşüncənin" tərkib hissəsi idi. 1953-1955-ci illərdə, N.S.Xruşşov idarəçiliyi niyyətlərinin ciddiliyini təsdiqləmək üçün Qərbə bir sıra güzəştlər etdiyi kimi, M.S. Qorbaçov da gərginliyi azaltmağa çalışaraq, ABŞ və Qərbi Avropa ölkələrinə öz sözlərini ciddi şəkildə qəbul etdirmək və xarici ictimai rəyə, Qərb ölkələrinin hakim dairələrinə təsir etmək üçün yol axtarırdı.

M.S.Qorbaçovun vəziyyətinin mürəkkəbliyini dərk edən xarici tərəfdaşlar, onu daha radikal addımlar atmağa təşviq etməyə çalışırdılar. Xarici siyasətçilərin fikrincə, bu addımlar sovet siyasi sisteminin demokratikləşdirilməsi vasitəsi ilə, Sovet cəmiyyətində ideoloji və siyasi plüralizm təcrübəsinin həyata keçirilməsi üçün, islahat tədbirləri ola bilərdi. Belə ideyalar, M.S.Qorbaçovun özünün, Sov.İKP və Sovet dövlətinin rəhbər orqanlarında onu müdafiə edən üzvlərinin bir hissəsi tərəfindən müsbət qarşılandı.

Eyni zamanda, Sovet İttifaqı Kommunist Partiyası rəhbərliyinin böyük bir hissəsi demokratikləşmə xətti ilə razılaşmırdı, çünki onlar hesab edirdilər ki, gələcəkdə bu addımlar istər-istəməz hakimiyyətdə olan Sov.İKP inhisarının ləğvinə səbəb olacaqdır. Dövlət orqanları və Sovet ictimaiyyətinin müəyyən hissəsi tərəfindən, M.S.Qorbaçovun siyasi fəaliyyətinə dəstək verilmirdi. Sovet İttifaqında, M.S.Qorbaçova qarşı mühafizəkar müxalifət formalaşmağa başlamışdı.

ATƏT-in Vyana görüşünün insan ölçüsü ilə bağlı fəaliyyəti, Sovet İttifaqında olan daxili siyasi mübarizəyə əhəmiyyətli dərəcədə təsir göstərdi. Vyanada gedən müzakirələrin əsas obyekti, bütün ATƏT üzv ölkələrinin, daxili qanunvericiliyinin və siyasi təcrübəsinin beynəlxalq normalara uyğunlaşdırılması məsələsi idi. Sovet

İttifaqı tərəfindən bu prinsipin hüquqi norma kimi tanınması, avtomatik olaraq SSRİ-nin sosial quruluşunda köklü dəyişikliklərə, onun siyasi sisteminin demokratikləşməsinə ehtiyac yaradırdı. İkinci dərəcəli tədbir kimi başlayan Vyana görüşü, 80-ci illərin sonlarında, beynəlxalq həyatda ən vacib hadisələrdən birinə çevrilməyə başlayaraq, öz nəticələri ilə SSRİ və "sosialist düşərgəsi"nin taleyinə təsir etmiş oldu.

### 3.2. ATƏM-in Vyana görüşünün başa çatması (1989-cu il yanvar) və SSRİ-nin insan hüquqlarına münasibət siyasətinin dəyişilməsi

SSRİ-nin dünyanın periferiya bölgələrində gedən regional münaqişələrə, "çevik" danışıqlar aparmaq mövqeyi ilə yanaşması, Sovet siyasətinin Avropada yumşalması ilə uzlaşırdı. 1988-ci ilin dekabrında, Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyasında çıxış edən M.S. Qorbaçov, SSRİ silahlı qüvvələrində ixtisar proqramını elan etdi. Bu proqram, 1991-ci ilə Sovet ordusunun sayının 500 min nəfər azalmasını təmin edirdi. Mütəxəssislərin fikrincə, Sovet İttifaqı, bu planı həyata keçirməklə, Avropa məkanında gözlənilməz hücum etmək qabiliyyətini itirməli idi.

Moskva Avropada gərginliyi aradan qaldırmaq və Avropa istiqamətində saxlanılan güclü silahlı qüvvəni ləğv etməklə, hərbi xərcləri azaltmaq ümidi ilə, Qərbi Avropa ölkələri ilə münasibətlərdə güzəştlərə getdi. Sovet İttifaqı, Varşava Paktının hərbi təşkilatını öz büdcəsi hesabına maliyyələşdirə bilmədiyi kimi, ABŞ da NATO-ya münasibətdə eyni vəziyyətdə idi.

80-cı illərin sonlarında, ABŞ və Qərbi Avropa ölkələrinin SSRİ-yə münasibətləri, 60-cı illərin sonlarına nisbətən daha sərt idi. Qərb ölkələri tarixi təcrübədən bilirdilər ki, Sovet İttifaqından gələn təhlükə yalnız SSRİ-nin siyasi sisteminin dəyişiləcəyi təqdirdə azala bilər. Qərb "hərbi yumşalma" ilə kifayətlənmək istəmirdi. O, M.Qorbaçovun hakimiyyəti dövründə, SSRİ ilə Qərb arasında olan münasibətlərdə baş verən dəyişikliklərin bərpa edilməzliyini istəyirdi. Demokratikləşmə yolunu, " Sovet İttifaqının sistematik dəyişməsini" geriyə dönməsizliyin təminatı hesab edirdi. SSRİ-nin daxili problemi olan, demokratikləşmə yolu ilə "yenidənqurma"nın dərinləşməsi, vacib beynəlxalq problemə çevrildi və aparıcı dünya dövlətləri arasında qızğın müzakirə mövzusu oldu.

Qərbin Sovet İttifaqının daxili siyasətinə təsir etmək üçün, ATƏM çərçivəsində razılaşmalar istisna olmaqla, digər qanuni sənədlərə malik deyildi. Müəyyən bir müddətə. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi, 70-ci illərin əvvəllərində olduğu kimi, yenidən ən vacib beynəlxalq forum roluna sahib oldu.

Məhz, insan hüquqlarının təşkil etdiyi problemlər məcmusuna münasibətin dəyişdirilməsi, Sovet İttifaqı daxili qanunvericiliyinə və dövlət orqanlarının təcrübəsinə dəyişikliklərin edilməsini nəzərdə tuturdu. 1987-ci ilin yanvarında, demokratikləşmə siyasətini elan edən M.S.Qorbaçov, öz hakimiyyətini güclü və davamlı hesab edərək (məlum oldu ki, səhvdir), SSRİ-də Ümumavropa hüquq standartlarının tətbiqinə başlamaq qərarına gəldi.

1989-cu ilin yanvarında, ATƏM-in Vyana iclası başa çatdı. Yanvarın 15-də, qəbul edilmiş son sənədində hərbi-siyasi və iqtisadi xarakterli bir çox vacib müddəalar qeyd edilmişdi. Bunlardan ən başlıcası, iştirakçı ölkələrin "qanunlarının, inzibati qaydalarının, təcrübələrinin və siyasətlərinin beynəlxalq qanunlar üzərində olan öhdəliklərinə uyğun olması və Prinsiplər Bəyannaməsinin müddəalarına və ATƏM-dəki digər öhdəliklərə uyğunlaşdırılması" öhdəliyi idi. Bu sənədi təsdiqləyən Sovet İttifaqı, ilk dəfə olaraq, SSRİ-nin daxili qanunvericiliyinə münasibətdə beynəlxalq hüququn üstün prinsipi ilə rəsmi şəkildə razılaşdı. Bununla, Sovet İttifaqında fundamental dəyərlər və şəxsi azadlıqlar haqqında, Avropa standartları və fikirlərinin yayılması istiqamətində böyük bir addım atıldı.

Vyana sazişlərinin həyata keçirilməsi, istər-istəməz SSRİ-də yeni tip vətəndaş şəxsiyyətinin formalaşmasına səbəb olmalı, etik və əxlaqi qaydalarda Ümumavropa, Qərbpərəst düşüncə və sosial, mədəni, siyasi və digər həyati anlamların dərk edilməsinin vacibliyinə aparmalı idi.

Humanitar və insan hüquqları mövzuları ATƏM-in Paris (1989), Kopenhagen (1990) görüşlərində və insan ölçüsü mövzuları ATƏM-in Moskva (1991) iclasında müzakirə edilmişdi. Sovet daxili qanunvericiliyi beynəlxalq konvensiya və müqavilələrə uyğun aparılmağa başlanmışdı. Bu, SSRİ daxilində, artıq təqiblərdən qorxmayan insan hüquqları təşkilatları və hərəkatlarının fəaliyyətinə yeni təkan vermişdi. 1986-cı ilin dekabrında, Sovet insan hüquqları hərəkatının qeyri-rəsmi lideri A.D.Saxarovun Qorki şəhərinə olan sürgünündən Moskvaya qayıtmasına icazə verildi. 8 aprel 1989-cu ildə, siyasi fikir ayrılıqlarına görə təqib edilməsini təmin edən RSFSR Cinayət Məcəlləsinin 70-ci maddəsi ləğv edildi.

Sovet İttifaqında qərb yönümlü radikal-demokratik, mahiyyətcə əks-kommunist, müxalifət hərəkatının təsiri gücləndi. Onlar, M.S.Qorbaçovun siyasətinin kifayət qədər sərt hesab etməyərək onu kəskin tənqid edirdilər. Onlar, demokratikləşmənin sürətləndirilməsini, çoxpartiyalı sistemin qurulmasını, Sov.İKP-nin dövlətdəki inhisarçı hakimiyyətinin aradan qaldırılmasını, habelə SSRİ-də İttifaq respublikaları arasındakı münasibətlərdə islahatlar keçirilməsini tələb edirdilər.

Eyni zamanda, "yenidənqurma" siyasətini tənqid edən, onu təhlükəli və zərərli adlandıran Kommunist Partiyası daxilində olan mühafizəkar müxalifət liderləri də,

kəskin şəkildə M.Qorbaçova qarşı çıxmağa başladılar. Onlar, demokratikləşməni dayandırmağı və ölkədə gedən siyasi proseslərə nəzarəti gücləndirməyi tələb edirdilər.

Mühafizəkar əks-Qorbaçov hərəkatı ilə yanaşı, Sovet İttifaqı Kommunist Partiyasının tərkibində B.N.Yeltsinin başçılıq etdiyi, radikal islahatçı müxalifət hərəkatı da yaranmışdı. Mühafizəkarlardan fərqli olaraq, onlar islahatları dayandırmağı deyil, bu islahatları "inqilabi demokratik" istiqamətə dəyişdirmək tələbini irəli sürürdülər. Sov.İKP daxilində olan radikal islahatçılar, anti-kommunist müxalifəti ilə eyni istiqamətdə fəaliyyət göstərirdilər.

Beləliklə, 1989-cu ilə qədər, M.S. Qorbaçovun əleyhinə, üç tip müxalifət qarşı dururdu. Bunlardan ikisi hakim partiya daxilində, biri kənarda fəaliyyət göstərirdi. M.S.Qorbaçovun mövqeləri getdikcə zəifləyirdi. O, daxili siyasətdə olan uğursuzluqları, xarici siyasətdə qazanılan müvəffəqiyyətlərlə əvəz etməyə çalışırdı. Sovet liderinin SSRİ xaricində yaranan nüfuzu, rəhbərlik etdiyi ölkə daxilindən daha parlaq idi.

Vyana görüşünün sənədlərinə uyğun olaraq, SSRİ-nin daxili siyasətinin beynəlxalq hüquqi standartlarına keçməsi qərarı, Sovet İttifaqı daxilində olan İttifaq respublikaları, habelə SSRİ ilə Şərqi Avropanın sosialist ölkələri arasında olan münasibətləri üçün, davamedici nəticələrə səbəb oldu. 1989-cu ilə qədər, bu respublikalarda və Şərqi Avropa dövlətlərində güclənən millətçi qüvvələrin fəaliyyəti, siyasi və ideoloji mətbuat tərəfindən dəstəklənirdi. Vyana görüşündən sonra, millətçi müxalifət öz fəaliyyətinin leqallaşdırılması üçün hüquqi əsas aldı. Onlar, Şərqi Avropa dövlətlərinin və SSRİ respublikalarının daxili qanunvericiliyini dəyişdirmək üçün, beynəlxalq hüquq aktlarına müraciət etməklə nail olmağa çalışırdılar. Rəsmi dairələrin rəhbərləri, Vyana qərarlarına uyğun olaraq qəbul etdikləri öhdəliklər ilə məhdudlaşdığından, bu tələbləri nəzərə almaya bilməzdilər. SSRİ və Şərqi Avropa məkanında mərkəzdənqaçma meylləri güclənməyə başlandı.

### 3.3. Yeni Avropa üçün Paris Xartiyası

21 oktyabr 1990-cı ildə Parisdə, Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə (AASQM-- ДОВСЕ ) imzalanandan sonra, M.S. Qorbaçovun təklifi ilə, 1990-cı ilin iyulunda ATƏM-in dövlət və hökumət başçılarının görüşü keçirildi. Onun gedişində, qitədə demokratiya, sülh və birlik dövrünü elan edən Yeni Avropa üçün Paris Xartiyası imzalandı. Bu sənəddə qarşıdurma dövrünün (soyuq müharibənin) sona çatdığı rəsmi şəkildə elan edildi.

Bundan əlavə, ATƏM-in daimi beynəlxalq instituta çevrilməsi qərara alındı. Beləliklə, Ümumavropa prosesi davamlı xarakter aldı. Avropada hər iki ildən bir,

dövlət başçıları səviyyəsində məsləhətləşmələrin aparılacağı, hər il ATƏM çərçivəsində Avropa Xarici İşlər nazirlərinin mütəmadi görüşlərinin keçiriləcəyi təsbit edildi.

Yüksək xarici siyasət idarələrinin nümayəndələrinin müntəzəm görüşlərini keçirmək üçün, böyük vəzifəli şəxslərdən ibarət Komitə yaradıldı. Bundan əlavə, ATƏM-in inzibati quruluşu yaradıldı, tərkibinə direktorun rəhbərlik etdiyi katiblik, münaqişələrin qarşısının alınması mərkəzi, məsləhət komitəsi və azad seçkilər bürosu daxil idi. Daimi qurumların heyəti, üzv ölkələrin xarici işlər qurumlarının, göndərdiyi nümayəndələrdən təşkil olunmalı idi. ATƏM-in qərargahı Praqa, Vyana və Varşavada yerləşdirildi.

Sovet İttifaqı, ATƏM-in səlahiyyətlərini genişləndirməsinə tez bir zamanda razılaşdı. Bu məsələ qismən Sovet rəhbərliyinin, Avropada vəziyyətin kollektiv tənzimlənməsi məsələsinə olan münasibətinə tam uyğun idi. Eyni zamanda, ATƏM səlahiyyətlərinin genişləndirilməsi, Avropa məsələlərində ABŞ təsirinin artmasının qarşısını ala bilərdi. Qərb ölkələri, ATƏM-i, 80-cı illərin ikinci yarısında, SSRİ-ni, Moskvanın bağladığı razılaşmalar çərçivəsində saxlamaq və Qərbin hesablamalarına görə, bərpa olunacağı tam təmin olunmayan dəyişiklikləri möhkəmləndirmək üçün bir vasitə olaraq görürdülər.

ATƏM zəif bir təşkilat olaraq qalırdı. Hətta, BMT-nin güc tətbiq etmə məsələsi ilə müqayisə olunan səlahiyyətləri yox idi. ATƏM-də ən vacib qərarlar, mübahisəli məsələlərdə qərar verməyi çətinləşdirən “konsensus mənfi bir səs” düsturuna əsasən qəbul edilməli idi. ATƏM, Avropada olan münaqişələrin qarşısını almaq və həll etmək üçün əməli işlərdə əhəmiyyətli rol oynaya bilməməyi, 1991-ci ilin yayında başlayan Yuqoslaviyada baş verən silahlı münaqişə zamanı təsdiqləndi.

6-7 dekabr 1994-cü ildə Budapeştdə, ATƏM-ə qatılan ölkələrin zirvə toplantısında, ATƏM rəsmi olaraq - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırıldı. 1 yanvar 1995-ci ildən ATƏT kimi fəaliyyət göstərmişdir.

Paris Xartiyası ilə eyni vaxtda "22-lərin Bəyannaməsi" imzalanmışdı. Burada, NATO və VMT ölkələri, hər iki hərbi blokun dövlətlərinin, bir-birini ehtimal olunan rəqib hesab etmədikləri barədə birgə bəyanat verilmişdi.

### 3.4. Şengen Konvensiyasının bağlanması

Bu zaman Avropanın inteqrasiya prosesi həmişəki kimi davam edirdi. Almaniyanın yenidən birləşməsindən bir neçə ay əvvəl, 19 iyun 1990-cı ildə, Benilüks ölkələri, Fransa və Almaniya Federativ Respublikası Şengen qalasında (Lüksemburq) dövlət sərhədlərini keçmə sisteminə dair yeni konvensiya bağladılar.

Bu müqavilə, 1985-ci ildə, eyni ölkələr tərəfindən imzalanan, daxili sərhədlərdə yoxlamaların tədricən ləğvi haqqında Şengen sazişi əsasında yaradılmışdı. Beş il müddətinə nəzərdə tutulmuş və ona qoşulmuş ölkələrin ortaq sərhədlərindən keçən nəqliyyat vasitələrini sistematik yoxlamaların əvəzinə, nəqliyyat vasitələrinin nəzarət məntəqələrində dayandırmadan, vizual müşahidəsi ilə təmin edilməli idi. Sənəd təsdiqlənmə tələb etmirdi və mahiyyətcə tövsiyə xarakteri daşıyırdı. Lakin o, "Şengen prosesi"nin başlanmasına səbəb oldu.

1990-cı il Şengen konvensiyası çox ətraflı bir sənəd idi. Bu sənəd, Avropa Birliyi vətəndaşlarının, ona qoşulan ölkələrin xarici sərhədləri tərəfindən yaradılan zonada, sərbəst hərəkət etməsi hüququnu bir daha təsdiqlədi və giriş vizalarının verilməsində vahid tələblər müəyyən edildi. Razılaşmada iştirak edən ölkələrdən birinə getmək üçün, vahid "Şengen" vizası almış əcnəbilərə, bu zonanın bütün digər ölkələrinə keçməyə məhdudiyyət qoyulmurdu.

1990-cı ilin noyabrında, Şengen konvensiyasına İtaliya, 1991-ci ildə - İspaniya və Portuqaliya, 1992-ci ildə - Yunanıstan, 1995-ci ildə - Avstriya və sınaqdan çıxarmaq üçün - Fransa da qoşuldu. 19 dekabr 1996-cı ildə, onun təsiri Danimarka, İsveç və Finlandiya, habelə Norveç və İslandiyaya şamil edildi. Vahid Avropa viza sisteminin təsiri xaricində İngiltərə və İrlandiya qaldı.

Şengen konvensiyası Avropa Birliyi çərçivəsindən kənarda imzalansa da, ilk öncə, AB ölkələrinin, hamısı ona qoşulmamışdı. Buna baxmayaraq, sosial-iqtisadi və humanitar sahələrdə vahid Avropa məkanının yaradılması istiqamətində ciddi addımlar atıldı. Qərbi Avropada, ölkələrin yaxınlaşması üçün, qarşılıqlı münasibərləri gücləndirən xüsusi bir psixoloji mühit yaranmışdı.

## 4. SSRİ – ABŞ münasibətləri

### 4.1. Hərbi-siyasi sahədə Sovet-Amerika münasibətləri. Orta və qısa mənzilli raketlər haqqında Vaşinqton müqaviləsinin imzalanması

SSRİ ilə ABŞ-ın regional münaqişələrin qarşısının alınması sahəsində əməkdaşlığı, ikitərəfli münasibətlərdə qarşılıqlı anlaşmanın dərinləşməsi ilə paralel olaraq davam edirdi. 1986-cı ilin oktyabrında, Reykjavikdə (İslandiya) yeni Sovet-Amerika zirvə görüşü keçirildi. Danışıqlarda, SSRİ-nin mövqeyi tamam dəyişdi. Sovet tərəfi, ABŞ-ın, Avropadan "Perşinq-2" və qanadlı raketlərini geri götürməsi şərti ilə, 1981-ci ildə R.Reyqanın təklif etdiyi "orta mənzilli Sovet raketlərinin Şərqi Avropadan çıxarılmasını təmin edən "sıfır" variantını qəbul etməyə razı oldu

Ancaq, ehtimal olunurdu ki, Avropadan çıxarılan sovet raketləri Uraldan şərqdə yerləşdiriləcək. Uzaq mənzilli raketlərə gəlincə, SSRİ iki il ərzində onların

gücünü 50% azaltmağı təklif etdi. Moskva, Böyük Britaniya və Fransanın nüvə gücü məsələsində güzəştə getdi. Sovet-Amerika danışıqlarında, bu iki dövlətin mövcud silah sayını nəzərə almamaq şərti ilə, SSRİ və ABŞ-ın hücum etmə güclərinin ümumi nisbətlərini qiymətləndirmək barədə razılığa gəldilər.

Buna cavab olaraq, SSRİ, ABŞ-ı 1972-ci il Raket Əleyhinə Müdafiə (RƏM) müqaviləsinin etibarlılığını təsdiqləməyə dəvət etdi. Bu müqavilə, SSRİ və ABŞ-da ballistik raket əleyhinə müdafiə sistemlərin yerləşdirilməsinə məhdudiyyət qoymalı idi. Bu məsələdə M.S.Qorbaçovla razılaşandan sonra, R. Reyqan Sovet tərəfinin razılıq verdiyi güzəşt müqabilində, hazırladığı SMT (SOİ) sistemini inkişaf etdirmək planlarından əl çəkməli idi.

Vaşinqton, Sovet təkliflərini qəbul etməyə hazır deyildi. Təklifləri nəzərdən keçirən ABŞ, 10 il müddətinə Sovet və Amerikanın QBR -lərini tamamilə məhv etməyi, hər iki dövlətin cəbbəxanasında yalnız orta mənzilli raketləri saxlamağı, eyni zamanda öz ölkələrini bu cür raketlərdən qorumağa qadir olan, Raket Əleyhinə Müdafiə sistemləri yaratmağa başlamağı təklif etdi.

Bu təklifə cavab olaraq, Moskva bu 10 illik müddət ərzində raket əleyhinə müdafiə sistemlərinin yaradılmasını laboratoriya sınaqları ilə məhdudlaşdıraraq, 10 ilə nüvə silahının tamamilə ləğvi fikrini irəli sürdü. Bir qədər tərəddüd edən, Prezident R. Reyqan müzakirəni dayandırmaq qərarına gəldi. O, sovet təklifinə qeyri-adi diplomatik addım ilə cavab verdi. Prezident R. Reyqan, sadəcə olaraq üzr istəyərək, iclas otağını tərk etdi və sonra isə, otağa qayıtmadı.

Reykyavikdə keçirilən görüş konkret nəticə vermədi. Lakin, hər iki ölkənin diplomatları belə bir nəticə çıxardılar ki, Sovet-Amerika razılaşması mümkün ola bilər, lakin bunun üçün hələ şərait yetişməmişdir. M.S.Qorbaçov, ABŞ-la dialoqun davam etdirilməsini israrla təkid edirdi.

1987-ci ilin yanvarında, Moskvada Sov.İKP Mərkəzi Komitəsinin plenumu keçirildi və bu zaman M.S.Qorbaçov SSRİ-də islahatlar siyasətinin radikallaşmasına nail oldu. Sovet siyasətinin və SSRİ-nin iqtisadi həyatının bütün sahələrində "yenidənqurma" və "aşkarlıq" xətti elan edildi. Bundan sonra, demokratikləşmə məsələləri, Sovet İttifaqının daxili siyasi inkişafında getdikcə artan yer tutmağa başladı, M. Qorbaçovun islahatları "dərinləşməyə" başladı.

1987-ci ilin fevralında, keçirilən plenumdan bir müddət sonra, Sovet tərəfi, ABŞ ilə müzakirə obyekti olan hərbi məsələlər barədə öz mövqelərini "açıqlamaq" təklifi ilə çıxış etdi. Bu məsələdə, müstəqil danışıq sahəsi kimi, orta mənzilli və qanadlı raketlərin problemlərini önə çəkdi. Bu addım, Sovet və Amerikanın silahlara nəzarət danışıqlarının ən vacib, lakin nisbətən məhdud hissəsi barədə razılığın əldə edilməsini asanlaşdırmalı idi.

1987-ci ilin sentyabrında, Xarici İşlər nazirləri səviyyəsində, "tam sıfır" düsturu əsasında, orta mənzilli və qanadlı raketlər probleminin həll edilməsi barədə prinsipial olaraq razılaşma əldə edildi. Razılaşmaya görə, hər iki tərəfin raketləri, Reykjavikdə müzakirə edildiyi kimi, sadəcə Avropadan çıxarılmalı deyil (SSRİ-yə aid olunurdu), tamamilə məhv edilməli idi. Problemin belə bir həlli, ABŞ-ın dəstəklədiyi Yaponiya hökumətinin rəyinin nəzərə alınması ilə əlaqədar idi. Yaponiya hesab edirdi ki, Sovet raketlərinin SSRİ-nin Avropa hissəsindən Uraldan şərqə köçürülməsi, Sovet İttifaqı tərəfindən Yaponiya qarşı təhlükənin miqyasını artıra bilər.

7 dekabr 1987-ci ildə Vaşinqtonda, daha bir yüksək səviyyəli Sovet-Amerika sammiti keçirildi və onun gedişində, M.S. Qorbaçov və R. Reyqan orta və qısa mənzilli raketlərin (OQMR) ləğvi haqqında Müqavilə imzaladılar. Razılaşmaya görə, 3 il ərzində tərəflər, SSRİ-nin həm Avropa, həm də Asiya bölgələrində olan raketlər də daxil olmaqla, 500 km-dən 5500 km qədər bütün yerüstü raketləri məhv etməli idilər. Bu, mövcud silahların real azaldılması ilə bağlı tarixdə ilk razılaşma idi.

Eyni zamanda, SSRİ raketlər haqqında məsələni, SMT (SOİ) problemi ilə əlaqələndirmək tələbindən imtina etdi. Müqavilədə, həmçinin qarşı tərəfin raketlərin məhv edilməsinə nəzarət edən məsul yoxlama qruplarının göndərilməsi də, nəzərdə tutulmuşdu. Müqavilənin şərtləri yerinə yetirildikdən sonra, təxminən 400 ədəd Amerika raketi Qərbi Almaniyada qaldı. Bu silahlar, Sovet İttifaqının ərazisinə çata bilməzdi, ancaq SSRİ-nin müttəfiqləri olan, Şərqi Avropanın sosialist ölkələrinin ərazisində hədəfləri vura bilərdi.

1988-ci ilin yayında, strateji hücum silahlarının azaldılması ilə bağlı, Sovet-Amerika danışıqları başladı. 1987-1988-ci illərdə, M.S.Qorbaçovun SSRİ xaricində məşhurluğu zirvə həddinə çatdı. ABŞ-da və Qərbi Avropada qəzetlər, "Qorbaçov fenomeni" və "qorbaçovpərəstlər"(“qorbomaniya”) haqqında yazırdılar. Sovet İttifaqı daxilində, ictimai həyatın liberallaşdırılması baş verirdi. Bu proses inkişaf etdikcə, M.S.Qorbaçovun hakimiyyətə gəlməsindən əvvəlki illərdə hakimiyyətdə olan, Sovet rəhbərliyinin daxili və xarici siyasətinin bir çox sahələri ictimai tənqidə məruz qalırdı.

### 4.2. Avropada adi silahlı qüvvələrin məhdudlaşdırılması haqqında Müqavilənin imzalanması

1990-cı illərin əvvəllərində, dövlətlər arasındakı münasibətlərin pozulması, öz sərtliyinə görə, yalnız XX əsrin dünya müharibələri ilə müqayisə oluna bilərdi. Sovet İttifaqının nəzarətində olan, hərbi və iqtisadi ittifaqların dağılması prosesi getdiyinə görə, Qərb ölkələri onları artıq təhlükə mənbəyi hesab etmirdilər. 1990-cı

ilin iyulunda, NATO Şurasının London sessiyasında, Avropada hərbi ittifaqların formalarının dəyişdirilməsi və NATO ilə VMT arasında danışıqların başlanması təkliflərini özündə əks etdirən Bəyannamə qəbul edildi. NATO ölkələri "ön səddlərdə müdafiə" doktrinasından imtina etdilər və nüvə silahının rolunun azaldılması prosesində, çevik cavab nəzəriyyəsini dəyişdirməyə qərar verdilər. NATO dövlətləri, hamıdan əvvəl nüvə silahlarından imtina etməyi mümkün saydılar.

19 oktyabr 1990-cı ildə Parisdə, NATO və VMT üzvü olan 22 ölkəsinin nümayəndələri arasında görüş keçirildi. Burada onlar, Avropada Adi Silahlı Qüvvələrin məhdudlaşdırılması haqqında Müqavilə (AASQMM) imzaladılar. Bu görüşdə, iştirakçı ölkələrin şərti hücum silahlarına ədədi məhdudiyyətlər qoyulmuş və konkret coğrafi ərazilərdə yerləşmələri tənzimlənmiş idi. Qarşıya qoyulan vəzifə, NATO və VMT-də olan silahların ümumi sayını bərabərləşdirmək idi.

NATO və VMT qoşunlarının birbaşa təmasda olduğu, Mərkəzi zona (Benilüks ölkələri, Macarıstan, Almaniya, Polşa və Çexoslovakiya) ərazisində ən sərt məhdudiyyətlər tətbiq edildi. Ondan uzaqlaşdıqca, qoşunların icazə verilən yerləşdirilməsi artırdı. Məhdudiyyətlərin bu forması ("piramida"), Avropanın mərkəzində tərəflərin döyüş hazırlığını azaltmağa və ətrafda kifayət qədər yüksək səviyyədə olmasına imkan verirdi.

Təqdim olunan forma, NATO-nun "cinah"larda yerləşən dövlətlərinin - Norveç və Türkiyənin mənfi münasibətinə səbəb oldu. Çünki SSRİ, Mərkəzi Avropadan çıxardığı qüvvələrini, məhz cinahlarda, yəni birbaşa onların sərhədlərində cəmləşdirəcəyi bildirilirdi. Silahların azaldılması üç mərhələdə getməli və 1995-ci ilin noyabrında tamamlanmalı idi.

Müqavilə, 17 İyul 1992-ci ildə qüvvəyə mindi. AASQM müqaviləsinin imzalanması, Sovet hərbi və siyasi rəhbərliyi vahid SSRİ-nin qorunub saxlanılması istəyindən irəli gəlirdi. Dağıldıqdan sonra məlum oldu ki, Rusiya Federasiyasının keçmiş SSRİ-dən "miras" aldığı azaldılma kvotaları, tam tətbiq olunarsa, onda bu proses Rusiyanın cinahlarında, xüsusən də cənub bölgələrində müdafiə gücünün qəbuledilməz dərəcədə zəifləməsinə səbəb ola bilər. AASQM müqaviləsinin və kvotaların yenidən nəzərdən keçirilməsi ilə bağlı danışıqları mövcud vəziyyətə uyğunlaşdırmağa ehtiyac yaranırdı.

AASQM müqaviləsinin imzalanması, Avropa ölkələrinin "hücum etmədən müdafiə" və "məntiqi yetərli müdafiə" nəzəriyyələri əsaslanan hərbi quruculuğa keçməsi demək idi. Sovet İttifaqının, Avropada İkinci dünya müharibəsindən sonra, ehtimali düşmənlərinə qarşı, adi silahlarda əldə etdiyi böyük üstünlüyü aradan qaldırıldı.

### 4.3. Strateji hücum silahlarının azaldılması haqqında Moskva Müqaviləsinin imzalanması (SHS-1)

M.S.Qorbaçovun nüfuzunun zəiflədiyini hiss edən Amerika rəhbərliyi, Sovet İttifaqı ilə strateji silah nəzarəti haqqında saziş üzrə danışıqların nəticəsi üçün narahat olmağa başladı. SSRİ daxilində yaranan əlverişsiz vəziyyətə baxmayaraq, 1991-ci ilin iyulunda, ABŞ Prezidenti Corc Buş Moskvaya gəldi. 30-31 iyul 1991-ci ildə, növbəti Sovet-Amerika sammiti keçirildi. Bu görüş zamanı, Strateji Hücum Silahların Azaldılması Müqaviləsi (SHS-1) imzalandı. Razılaşmaya görə, SSRİ və ABŞ yeddi il ərzində nüvə silahlarını elə azaltmalı idilər ki, hər bir tərəfdə 6 min ədəddən çox qalmasın. Doğrudur, reallıqda ağır bombardmançılara quraşdırılmış döyüş başlıqlarının "yoxlanma qaydalarına" əsasən, SSRİ-nin təxminən 6,5 min hərbi nüvə başlığı, ABŞ-ın isə 8,5 min hərbi nüvə başlığı ola bilərdi. Ancaq, Sovet İttifaqında, gözlənilməz hadisələrin inkişaf etməsi nəticəsində razılaşmaların həyata keçirilməsində çətinlik yarandı.

## 5. Almaniyanın birləşməsi və beynəlxalq münasibətlər

Helmut Kol öz xarici siyasətində ilk növbədə 80-ci illərin axırlarında yaranmış əlverişli beynəlxalq vəziyyətdən istifadə edərək Almaniyanın birləşdirilməsi xəttini götürdü.

1981-ci ildə Honnekker və Şmidtin görüşündə ilk dəfə olaraq AFR və ADR Avropa kontinentində təhlükəsizliklərinin təmin edilməsi barədə "ümumi məsuliyyət" daşıdıqlarını rəsmən elan etdilər. "Şərqi Almaniya" rəhbərliyinin yeni xətti Bonnda başa düşüldü. Kol hökuməti ADR-ə iqtisadi cəhətdən kömək etmək sahəsində addımlar atdı.

Hər iki hökumətin razılılığı ilə ölkələrinin universitetləri, şəhər icmaları, yaradıcı ziyalıları arasında əlaqələr yaradıldı. 1987-ci ildə ilk dəfə olaraq ADR-in lideri Bonna səfər etdi. SSRİ-də "yenidənqurma" başlandıqdan sonra ADR rəhbərliyi M.Qorbaçovun islahatlarını qəbul etməkdən imtina etdi. Bu dövrdə ADR-də iqtisadi vəziyyət çətinləşmiş idi. Dövlət borcları artmışdı. Əgər 1971-ci ildə, ADR-in Qərb ölkələrinə borcu 3,5 milyard marka idisə, 1989-cu ildə bu rəqəm 10 dəfə artdı. ADR əhalisi içərisində ruh düşkünlüyü yaranmışdı. Əhali arasında Qərbi Almaniya ilə birləşmək meyli getdikcə güclənirdi. Ölkə daxili siyasi böhran, Honnekker hökumətini demoqoqiya və terror yolunu tutmağa məcbur etdi. Dövlət Təhlükəsizlik komitəsində işləyənlərin sayı 8,4 mindən 100 min nəfərə çatdırıldı. 1989-cu ilin payızında Çexoslovakiya ilə sərhəd açıldıqdan sonra, ADR-dən Avstriya və AFR-ə gedən qaçqınların sayı artdı. 1989-cu ilin oktyabrın 7-8-də ADR-in təşkilinin qırx

illiyi ilə əlaqədar keçirilən tədbirdə polislə əhali arasında toqquşmada dövlət rəhbərləri günahlandırıldı. 1989-cu ilin oktyabrın 18-də, AVSP-nin IX Plenumunda E.Honnekker tutduğu vəzifədən azad edildi. Onu Eron Krents əvəz etdi. Lakin, yeni rəhbərlik də ölkədə olan vəziyyətə nəzarət etməyi bacarmadı. Ölkədə kütləvi mitinqlər və nümayişlər keçirilməyə başlandı.1989-cu il noyabrın 7-də, ADR Nazirlər Sovetinin bütün tərkibi başda Villi Ştof olmaqla istefaya getdi. 1989-cu ilin noyabrın 9-da, iki dövlət arasında böyük sədd çəkən "Berlin hasarı" dağıldıldı. Onların hər iki tərəfə sərbəst gediş yarandı. ADR-də inqilab baş verirdi. Noyabrın 13-də Xalq palatasında Nazirlər Sovetinin yeni Sədri vəzifəsinə məşhur müxalifətçi Hans Modrov seçildi. O, AFR ilə "ümumi danışıqlara" başlamaq qərarına gəldi. Bu qərar Helmut Kol tərəfindən də bəyənildi. 1989-cu ilin dekabrın 1-də, ADR konstitusiyasından partiyanın rəhbər rolu haqqında maddə çıxarıldı. 1989-cu ilin dekabrın 8-də, AVSP-nin növbədənkənar çağırılmış qurultayında partiyanın adı dəyişdirildi. O, Demokratik Sosializm Partiyası adlandırıldı. Ölkədə sürətlə yeni siyasi partiyaların yaranması prosesi gedirdi. 1990-cı il martın 18-də, ADR-də keçirilən parlament seçkilərindən sonra Z.Mezerin başçılığı altında "böyük koalisiya" hökuməti təşkil edildi. Bununla da Almaniyanın birləşdirilməsinə yol açılmış oldu, lakin məsələ həm də beynəlxalq şəkildə tənzimlənməyi tələb edirdi. H.Kolun özünün dediyi kimi o, Almaniyanı birləşdirmək üçün, bir böyük addım atmaqdan ötrü 100 xırda addım atmalı oldu.

1989-cu ilin dekabrında Maltada, M.S. Qorbaçov və C. Buşun görüşü zamanı, Almaniyanın birləşdirilməsi ilə bağlı əsaslı razılıq əldə edilmişdi. Belə ki, elə həmin ildə, ADR-də hakimiyyətə ölkənin qərb yönümlü demokratikləşməsi və islahatların keçirilməsi tərəfdarlarının gəldiyi məlum olmuşdu. Birləşmənin şərtləri haqqında razılaşmaq lazım idi.

İlk növbədə, danışıqların forması müəyyənləşdirilməli idi. Onun iki variantı var idi - "iki üstəgəl dörd" və ya "dörd üstəgəl iki". Birincisində, sazişin hazırlanmasında əsas iştirakçları iki alman dövləti olurdu. Onun sonrakı mərhələsində isə, İkinci dünya müharibəsinin antihitler koalisiyasının iştirakçıları olan böyük dövlətlər da bura qoşulurdular. İkinci vəziyyətdə, birləşmə şərtlərini keçmiş antihitler koalisiyasının yalnız dörd ölkəsi hazırlamalı idi və iki Almaniya dövlətinə də artıq hazırlanmış sənədə qoşulmaq təklifi ediləcək idi.

İkincisi, vahid Almaniyanın sərhədləri məsələsinə aydınlıq gətirmək lazım idi. Bu məsələdə, yarana biləcək gərginlikləri gözləmək üçün heç bir səbəb yox idi, çünki hər iki Almaniya dövləti ayrı-ayrılıqda Oder və Neyse sərhədlərinin tanınmasını, artıq çoxdan təsdiqləmişdi. İndi sadəcə olaraq, lazım olan məsələ bu

tanınmanın vahid Almaniya tərəfindən qəbul edilməsi üçün bir formanın müəyyənləşdirilməsi idi.

Üçüncüsü, gələcək birləşmiş Almaniyanın statusunu - Sovet İttifaqının çoxdan israr etdiyi kimi, bitərəf dövlət olacağı və ya hərbi-siyasi ittifaqlara qoşulmaq hüququnu saxlamaq məsələlərini razılaşdırmaq lazım idi.

Birləşmə məsələsi, Qərbi Avropa dövlətlərini narahat edirdi. Ən çox şübhə hissi çəkən Fransa dövləti idi. Paris vahid bir Almaniya dövlətinin yaranması ilə, Fransa - Almaniya ittifaqında olan güc balansının sonuncunun lehinə dəyişəcəyindən qorxurdu. Bundan əlavə, gələcək birləşmiş Almaniyanın Fransanın Qərbi Avropa ölkələrinin pul və maliyyə ittifaqını dərinləşdirmək və gələcəkdə vahid Avropa valyutasının tətbiqi ilə bağlı planına necə münasibət bəsləyəcəyi məlum deyildi.

Hələ, 6 dekabr 1989-cu ildə, Kiyevdə M. S. Qorbaçovla olan görüşündə, Fransa Prezidenti Fransua Mitteran, iki suveren Almaniya dövlətinin ayrıca mövcud olmağa davam etməsi barədə, öz fikirlərini nəzərə çatdırmışdı. Almaniyanın sürətli birləşməsi üçün gözlənilən perspektiv məsələləri, Britaniya kabinetinin Baş Naziri M.Tetçer tərəfindən ehtiyatla qiymətləndirilmişdi.

Lakin, bütün bunlara baxmayaraq, 1990-cı ilin aprelində Avropa Şurasının Dublində keçirilən müşavirəsində, Almaniyanın birləşməsi məsələsinə Avropa Birliyi ölkələrinin vahid yanaşması barədə razılıq əldə edildi. Tərəfdaşların şübhələrini aradan qaldırmağa çalışan AFR, bu görüşdə Qərbi Avropa dövlətlərinin pul ittifaqının yaradılması üzərində işlərin sürətləndirilməsinə razılıq verdi. AFR də, Şengen sazişlərinə qoşuldu. Buna cavab olaraq Fransa, İngiltərə, İtaliya və digər AB ölkələri Almaniyanın birləşməsini dəstəklədiklərini bildirdilər.

Bu proses, "iki üstəgəl dörd" düsturuna uyğun getdi. Bunun təşəbbüsü AFR-ə məxsus idi. 1989-cu ilin noyabrında, Kansler H.Kol Almaniyanın 10 maddədən ibarət, mərhələli birləşdirilməsi proqramını elan etdi. Bunlardan ən başlıcası, mövcud Avropa sərhədlərinin gələcək birləşmiş Almaniya tərəfindən qeyd-şərtsiz tanınması idi. Qərbi Almaniya rəhbərliyi, öz planını SSRİ ilə razılaşdırmaq üçün, 1990-cı ilin birinci yarısında, Sovet nümayəndələri ilə danışıqlar apardı.

1990-cı ilin mayında, AFR, Sovet İttifaqından nəinki ADR ilə birləşmənin siyasi və hüquqi mexanizmləri haqqında anlaşma əldə etdi, həm də vahid Almaniyanın NATO-da iştirakına razılıq aldı. 1990-cı ilin iyulunda Jeleznovodskda, M.S.Qorbaçov və H.Kol arasında olan görüşdə, sovet qoşunlarının Almaniya Demokratik Respublikasından çıxarılmasına aid şərtlər hazırlandı. Bu addım, Almaniya tərəfindən silahlı qüvvələrin sayının azalması (360 min çox olmazdı ) və nüvə, bioloji, kimyəvi silah istehsalından və sahib olmaqdan imtina edilməsinin təsdiqi ilə əlaqədar idi.

Almaniyanın birləşməsinindən, Fransa və SSRİ ilə yanaşı, Polşanın da narahat ola biləcəyini anlayan H.Kol hökuməti, Polşa rəhbərliyi ilə danışıqlar aparmağa başladı. Almaniya, heç kimə qarşı ərazi iddiası olmadığını bildirdi. 1990-cı ilin martında, H.Kolun təkidi ilə AFR-in Bundestaqı Almaniyanın Polşa ilə müharibədən sonra qurulan sərhədlərinin toxunulmazlığı haqqında xüsusi qətnamə qəbul etdi.

Alman məsələsinə xarici mövqeləri həll etməyə müvəffəq olması, H.Kola öz planını həyata keçirməyə başlamağa imkan yaratdı. 1990-cı ilin fevral ayında, Alman Demokratik Respublikası ilə Almaniya Federativ Respublikası arasında pul ittifaqının yaradılması elan edildi. Vahid pul nişanı, Qərbi Almaniya markası olmalı idi. Bu pul ittifaqı. Şərqi Almaniyanın əhalisinə xeyirli oldu, onlara güzəştli məzənnə ilə, "zəif" Şərqi Almaniya pullarını Qərbi Almaniyanın "güclü" nişanına dəyişdirmək imkanı verildi. Ölkənin şərqində yaşayan almanlar H.Kola böyük rəğbət hissi bəsləyərək, onu müdafiə edirdilər.

1990-cı ilin martında, ADR-də əsil çoxpartiyalı sistem əsasında ilk seçkilər keçirildi. Qeyri-kommunist partiyaların bloku olan “Almaniya Birliyi”, ölkənin Qərbi Almaniya konstitusiyası əsasında birləşdirilməsini, əslində ADR-in AFR-ə tərkibinə qatılmasını müdafiə edərək qalib gəldi.

1990-cı ilin may ayında, Lotar de Mezyerin başçılıq etdiyi ADR-nin yeni hökuməti, Almaniya Federativ Respublikası ilə pul münasibətləri, iqtisadi və sosial ittifaq haqqında müqavilə bağladı. Bu müqavilə, hər iki ölkəni, bütün məsələlərdə vahid tamda birləşdirmiş oldu, ancaq beynəlxalq münasibətlər və müdafiə sahələri ayrılıqda qalmışdı.

21 iyun 1990-cı ildə, ADR və Almaniya Federativ Respublikası arasında Almaniyanın birləşməsi haqqında dövlət müqaviləsi bağlandı, lakin yalnız alman probleminin xarici tərəfləri həll edildikdən sonra qüvvəyə minə bilərdi. 22 avqust 1990-cı ildə ADR-in Xalq Palatası, 3 oktyabr 1990-cı ildə AFR-ə daxil olmaq haqqında qərar qəbul etdi.

1990-cı il mayın 5-dən 17-ə qədər, Bonn, Berlin və Parisdə "iki üstəgəl dörd" düsturuna uyğun olaraq, Almaniya ilə çoxtərəfli danışıqların üç mərhələsi həyata keçirildi. Almaniyanın birləşdirilməsinin xarici tərəfləri, 1990-cı il sentyabrın 12-də, Moskvada Almaniyaya münasibətdə yekun saziş Müqaviləsinin imzalanması ilə həll edilmiş oldu. Müqavilə, SSRİ Prezidenti M.S.Qorbaçovun iştirakı ilə, iki alman dövlətinin, SSRİ-nin, ABŞ-ın, Böyük Britaniyanın və Fransanın Xarici İşlər nazirləri tərəfindən imzalanmışdı.

**Qeyd: Sülhün möhkəmlənməsi yolunda xidmətlərinə görə, M.S. Qorbaçov 1990-cı il Nobel sülh mükafatına layiq görülmüşdür**.

Beynəlxalq hüquqi münasibətlərdə bu məsələ, Almaniya probleminin dinc yolla həllinin sona çatması kimi qəbul edilmişdir. Almaniyanın suveren dövlət statusu bərpa edildi və Almaniyanın hər iki hissəsinə münasibətdə, keçmiş işğalçı dövlətlərin hüquqları ləğv edildi. Müqavilədən dərhal sonra, 1990-cı ilin oktyabrın 3-də, iki alman dövləti birləşdi və Almaniya Federativ Respublikası adlandı. Keçmiş ADR ərazisi Qərbi Almaniyanın beş yeni əyalətinə çevrildi. Eyni zamanda, Berlinin hər iki hissəsi də birləşdirildi. Sovet qoşunları, keçmiş ADR-nin ərazisində 1995-ci ilin sonuna qədər qala bilərdi (ancaq onlar vaxtından əvvəl, 1994-cü ildə çıxdılar). Almaniya, sovet qoşunlarını ölkədən çıxarılmasını maliyyələşdirmək və Sovet ərazisində yeni məkanlarında yerləşdirməyə kömək etmək öhdəliyini üzərinə götürmüşdü. Bundan əlavə, Sovet qoşunları çıxarıldıqdan sonra, Almaniya tərəfi, xarici silahlı qüvvələrin, nüvə silahlarının və ya onların daşıyıcılarının ölkənin şərq ərazilərinə yerləşdirilməsindən çəkinməli idi.

1990-cı ilin dekabrın 2-də, birləşmiş Almaniyada yeni bundestaq seçkiləri keçirildi. Seçkilərdə 60 milyon adam – 48 milyon AFR-dən, 12 milyon ADR-dən iştirak edirdi. Bundestaqda 662 deputatdan 400-ə qədərini yenə də xristian-demokratlar və xristian-sosialistlər tutdu. Onlar yenə də müstəqil demokratlarla sazişə girərək hakimiyyətə gəldilər. Helmut Kol Birləşmiş Almaniyanın ilk federal Kansleri oldu. Onun adı da Bismarkla bərabər böyük tarixi şəxsiyyət kimi tarixə düşdü. Bismark dövrlə ayaqlaşaraq "dəmir və qan" siyasəti əsasında, müharibə yolu ilə Almaniyanı birləşdirmişdi. Helmut Kol da əlverişli beynəlxalq şəraitdən istifadə edərək heç bir güllə atmadan bu məqsədə nail oldu.

Almaniya birləşdirildikdən sonra şərq-qərb arasında əhalinin həyat səviyyəsində və iqtisadiyyatında kəskin fərqlər ortaya çıxdı. AFR-də olan 10 bölgə, ADR-də olan 6 bölgədən fərqlənirdi. Ona görə bu 6 bölgədə də bazar iqtisadiyyatına keçildi. Orada sosial xərclər və iqtisadiyyatın inkişafına xüsusi kapital qoyuldu. Bu isə qərb zonasında vergilərin artmasına səbəb oldu. Almaniyanın birləşdirilməsi onun beynəlxalq vəziyyətini də möhkəmləndirmiş oldu.

1992-ci ilin dekabrın 16-da Moskvada, H.Kolla B.Yeltsin arasında gedən danışıqlar nəticəsində Almaniya öhdəsinə götürdü ki, Almaniyada olan rus hərbi qulluqçularının vətənə qayıtması üçün 550 milyon marka əlavə pul versin. 1994-cü il avqustun 31-də rus qoşunları Almaniyadan tamamilə çıxarıldılar. AFR xarici siyasətində Qərbi Avropa ilə inteqrasiyaya xüsusi diqqət yetirirdi. 1997-ci ildə, Avropa İttifaqının XXI əsr üçün inkişaf strategiyasını müəyyən edən Amsterdam müqaviləsinin imzalanmasına hazırlıqda Helmut Kolun xüsusi xidmətləri olmuşdur.

**Qeyd: 3 oktyabr 1990-cı ildə Almaniyanın birləşdirilməsindən sonra, onun Versal müqaviləsi ilə əlaqədar olan öhdəlikləri yenidən gündəmə gəldi. Təzminatdan qalan borcları**

**ödəmək üçün, Almaniyaya 20 il vaxt verildi. Yəni, Almaniya 2010-cu il üçün, Birinci dünya müharibəsində məğlub olduğuna görə təzminatdan qalan bütün borclarını ödəməli idi. Bunun üçün Almaniya, 239.4 milyon marka dəyərində, iyirmi illik kredit almalı oldu. Bu müddətin sonunda, 4 oktyabr 2010-cu ildə, Alman Federal Bankı ödəmələrlə bağlı, pul öhdəlikləri üzrə sonuncu ödəməni etdi və beləliklə bu öhdəliklər, Almaniya tərəfindən tamamilə yerinə yetirilmiş oldu. Ödənilmiş məbləğlərin əhəmiyyətsizliyi bu ödənişlərin rəsmi və siyasi cəhətdən müəyyənləşdirildiyini təsdiqləyir.**

## YEDDİNCİ FƏSİL -- II BÖLMƏ
## Beynəlxalq sistemdə regionlaşma meyllərinin artması və demokratiyanın inkişafı (1986-1991-ci illər)

**1 . SSRİ-nin Şərqi Asiyada yeni xarici siyasəti**

1.1. SSRİ-nin Şərqi Asiyada yeni siyasəti və Vyetnamın Kambocaya müdaxiləsinin dayandırılması

1.2. Sovet - Çin münasibətlərin normallaşması

1.3. Koreyada siyasi gərginliyi azalması

**2.Yaxın Şərqdə beynəlxalq hüquqi tənzimləmələr**

2.1. Əfqanıstan məsələsinin beynəlxalq hüquqi tənzimlənməsi

2.2.. Yaxın Şərq münaqişəsinin böyüməsi və “Körfəz müharibəsi”

2.3. Yaxın Şərq üzrə Madrid konfransının başlanması

**3.Latın Amerikası ölkələrində regionlaşma meylləri**

3.1. Mərkəzi Amerika münaqişəsinin nizamlanması

3.2. ABŞ-ın Panamaya müdaxiləsi (dekabr 1989)

3.3. Latın Amerikasında regionlaşma meyllərinin güclənməsi və Çilidə demokratiyanın bərpası (mart 1990)

**4.Afrika ölkələrində milli- demokratik idarəçiliklərin yaranması**

4.1. Anqolaya xarici müdaxilənin dayandırılması

4.2. Cənubi Afrikada aparteid (ayrı-seçkilik) idarə sisteminin dəyişməsi

## 1. SSRİ-nin Şərqi Asiyada yeni xarici siyasəti

### 1.1. SSRİ-nin Şərqi Asiyada yeni siyasəti və Vyetnamın Kambocaya müdaxiləsinin dayandırılması

Beynəlxalq Kommunist hərəkatının birliyini qiymətləndirməməsi ilə əlaqədar Sov.İKP daxilində mühafizəkarların ittihamlarını neytrallaşdırmaq məqsədi ilə, M.S.Qorbaçov Çin Xalq Respublikası ilə münasibətləri yaxşılaşdırmaq üçün təşəbbüslər etdi. Sovet İttifaqının ÇXR ilə bağlı yeni siyasətinin başlanğıc nöqtəsi, 1986-cı ilin iyulunda Vladivostokda etdiyi çıxışı oldu. 1988-ci ilin sentyabrında, M.S.Qorbaçovun Krasnoyarskda etdiyi nitqində bu müddəalara əlavələr edildi.

Bu çıxışlarda Sovet siyasətinin yeni müddəaları formalaşdırıldı:

1) Şərqi Asiyada hərbi mövcudluğun dayandırılması ilə əlaqədar, Monqolustandan qoşunların çıxarılması və SSRİ-nin şərq bölgələrində quru qoşunlarının sayının azaldılması;

2) Çin-Sovet münasibətlərinin yaxşılaşdırılması üçün, "dörd maneə" ilə əlaqədar ÇXR-in mövqeyini nəzərə alaraq, Çin ilə münasibətlərin normallaşdırılması (Əfqanıstandakı sovet qoşunları, Kambocadakı Vyetnam qoşunları, Sovetlərin Monqolustanda mövcudluğu və ÇXR ilə sərhəddə Sovet qoşunlarının yerləşməsi);

3) Yaponiya ilə münasibətlərin normallaşdırılması;

4) Cənubi Koreya ilə diplomatik münasibətlərin qurulması sahəsində, Koreya yarımadasında vəziyyətin yaxşılaşdırılması.

Bölgədə olan Sovet xarici siyasətinin proqramı bu çıxışlarla müəyyən olunmuşdu. SSRİ, Sovet İttifaqının Uzaq Şərq bölgələrində və Monqolustan yerləşən qoşunlarının sayını azaltmaq fikrində idi. SSRİ, Asiya-Sakit Okean regionunda, öz diqqətini hərbi mövcudluqdan iqtisadi əməkdaşlığa keçirdi. Eyni zamanda, dünyanın bu hissəsinin bütün ölkələri ilə, ilk növbədə Çin, Yaponiya və Cənubi Koreya ilə münasibətləri normallaşdırmaq məqsədi bəyan edildi.

Diplomatik baxımdan ən çətin olan məsələ, Vyetnamın Kambocada olması idi. Kamboca məsələsinə dair bir sıra müzakirələrin nəticəsi olaraq, ABŞ və SSRİ Kamboca münaqişəsinin bütün iştirakçılarına hərbi yardımın dayandırılmasının vacibliyini başa düşdülər. SSRİ Vyetnama dəstək olmayacağını, ABŞ isə, Tailandı, orada yerləşən "qırmızı kxmerləri" öz ərazisindən çıxarmağa razı salacağına söz verdi.

**Qeyd: "Qırmızı kxmerlər" — Kambocada partizan müharibəsi ilə hakimiyyətə gələrək, 1975-1979-cu illərdə ölkəni idarə edən radikal kommunist hərəkat. Hərəkatın qurucusu və**

**lideri Pol Potdur. 1967-ci ildə, Kamboca Kommunist Partiyasının silahlı qanadı kimi qurulmuşdur. Təqribən 2 milyon insanın öldürülməsi ilə nəticələnən Kamboca soyqırımında günahlandırılır.**

İndi, Çini "qırmızı kxmerlərə" etdiyi köməyi dayandırmağa inandırmaq qalırdı. ABŞ-Çin və Sovet-Çin məsləhətləşmələrindən sonra, Çin razılaşdı. 1988-ci ilin dekabrında ÇXR və SSRİ-nin Xarici İşlər nazirlərinin arasında gedən danışıqlarda, Sovet İttifaqı və Çin mövqelərinin, Kambocada xarici hərbi mövcudluğun aradan qaldırılmasının zəruriliyi ilə yaxın əlaqəli olması, vəziyyətin həll edilməsi üçün bir şərt olaraq qəbul edildi.

1989-cu ilin yanvarında, SSRİ-nin təsiri altında Hanoy, 1989-cu ilin sentyabrına qədər, Kambocadan öz qoşunlarını çıxarmaq niyyətində olduğunu bildirdi. Onsuz da, Vyetnamın Kamboca ərazisində üstünlük təşkil etməsinə baxmayaraq, 10 il ərzində "qırmızı kxmerlər"in müqavimətini qırmaq mümkün olmamışdı.

Hanoyun qoşunların çıxarılmasına razı olması, Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının (ASEAN) vasitəçilik səylərinin artmasına səbəb oldu. Onlar, "qırmızı kxmerlər"ə kömək etmirdilər, eyni zamanda Vyetnamın siyasətinə mənfi münasibət bəsləyirdilər. ASEAN, Norodom Sianukun başçılıq etdiyi "Demokratik Kampuçiyanın koalisiya hökumətini" dəstəkləyirdi və Kambocada onun hakimiyyətinin bərpa edilməsini zəruri hesab edirdi. 1988-ci ilin iyun ayında, İndoneziyanın təşəbbüsü ilə ASEAN diplomatları İndoneziyanın Boqor şəhərində, qeyri-rəsmi "kokteyl görüşü" təşkil etdilər. Burada Vyetnam, "qırmızı kxmerlər", Pnompenin Kamboca hökuməti, Norodom Sianuk və digər Kamboca partiyalarının nümayəndələri iştirak etmişdilər. Münaqişə tərəflərinə danışıq masasında görüşməyə imkan verilsə də, görüş əməli nəticələr vermədi. Yeni "kokteyl görüşləri", 1989 və 1990-cı illərdə keçirildi.

1989-cu ilin iyul-avqust aylarında, Parisdə dörd Kamboca partiyasının, Vyetnamın, ASEAN ölkələrinin, Fransa, SSRİ, ABŞ və Çinin iştirakı ilə Kambocaya aid konfransı keçirildi. Bu görüş yekun razılığa səbəb olmasa da, tərəflərin mövqeləri arasında nəzərə çarpan yaxınlaşma oldu. Tamamlandıqdan az sonra, 1989-cu ilin sentyabrında Vyetnam qoşunları Kambocadan çıxarıldı.

Kambocada bəzi siyasi dəyişikliklər baş verməyə başladı. Xüsusilə, ölkənin rəsmi adı dəyişdirildi. 1979-cu ilin yanvarında, PolPot (Salot Sar) devrildiyi gündən "Kampuçiya Xalq Respublikası" adlandırılan ölkə, 1990-cı ildə daha neytral şəkildə, "Kamboca dövləti" adlandırılmağa başlandı.

Ancaq, Pnompendə əvvəlki vyetnampərəst hökumət qalırdı. "Qırmızı kxmerlər" cəngəlliklərdən onlara qarşı mübarizəni davam etdirirdi. Çin "qırmızı kxmerlərə"

kömək etməyəcəklərinə vəd vermələrinə baxmayaraq, gizli şəkildə onları dəstəkləyirdi. Bu arada, SSRİ Vyetnama yardımı azaltdı və ABŞ Tailandı, "qırmızı kxmerləri" öz ərazisindən qovmağa inandıra bildı. Kamboca məsələsində təcrid olunmamağa çalışan Çin hökuməti də, "qırmızı kxmerlərə" öz fəaliyyətlərini məhdudlaşdırmaları üçün təsir göstərməyə başladı.

1991-ci ilin oktyabrında, BMT-nin Kamboca ilə bağlı ikinci Paris konfransında, BMT-nin və Fransa və İndoneziyanın həmsədrliyi ilə üç ay davam edən müzakirələrdən sonra, Kambocada vəziyyətin hərtərəfli tənzimlənməsi haqqında saziş imzalamaq mümkün oldu. Ölkədəki hakimiyyəti, Ali Milli Şuraya və BMT-nin Kamboca üzrə Müvəqqəti idarəçiliyinə təhvil vermək qərara alındı. Müvəqqəti idarəçilik azad seçkilər keçirməli idi. Ali Milli Şura, Müvəqqəti idarəçilik ilə birlikdə, bütün tərəflərin maraqlarını nəzərə alan, hakimiyyət bölgüsünün formasını hazırlamalı idi. 1993-cü ildə, Birləşmiş Millətlər Təşkilatının nəzarəti altında Kambocada çoxpartiyalı əsasda ilk ümumi demokratik seçkilərin keçirilməsi planlaşdırıldı. Ölkədə BMT qoşunları yerləşdirildi.

Seçkilər, 28 may 1993-cü ildə keçirildi. 21 sentyabr 1993-cü ildə, təsdiq edilmiş yeni konstitusiyaya əsasən, Kambocada kral hakimiyyəti bərpa edildi. Norodom Sianuk təntənəli şəkildə kral elan edildi, əsas qanun onu, millətin birliyinin rəmzi kimi qəbul etdi. Hökümətə, keçmiş vyetnampərəst hökumətini və NorodomSianuk qruplarını təmsil edən, iki Baş Nazir rəhbərlik edirdi. "Qırmızı kxmerlər", seçkidə məğlub olaraq, yenə də partizan mübarizəsini davam etdirdilər.

### 1.2. Sovet - Çin münasibətlərinin normallaşması

Vyetnam qoşunlarının Kambocadan çıxarılması, Çin-Sovet münasibətlərini normallaşdırmaq üçün "dörd maneənin" sonuncusunun aradan qaldırılması demək idi. Ölkənin Asiya hissəsində yerləşən sovet qoşunlarının sayı sürətlə azalırdı. Sakit Okean donanmasının köhnəlmiş gəmilərinin gəmi heyətinin təxminən yarısı tərxis olunurdu. Ölkənin şərq bölgələrində hərbi məntəqələr, Çin təhdidindən daha çox, ABŞ-Yaponiya təhlükəsinin qarşısını almağa yönəldilmiş şəkildə yenidən qurulurdu.

Moskva, ölkənin Asiya hissəsində yerüstü nüvə zərbəsi silahlarının və nüvə daşıyıcı təyyarələrinin sayını artırmaqdan imtina etdiyini açıqladı. Monqolustandan qoşunlar tamamilə çıxarıldı. Maliyyələşdirmənin çatışmamazlığı şəraitində, texniki xidmət, yanacaq tədarükü və idarəetmə ilə əlaqədar çətinliklər yaşayan Rusiyanın Sakit Okean donanması okean sularında manevr etməkdən imtina etdi və Sakit okeanın ucqar ərazilərində patrul xidmətini dayandırdı.

90-cı illərdə, ÇXR-in regional iqtisadi və hərbi-siyasi mövqelərinin ciddi şəkildə möhkəmlənməsi baş verdi. Çin Kommunist Partiyasının lideri Den Syaopin (1904-1997) rəhbərliyi altında, 1978-ci ilin sonlarında başlayan islahatlar sayəsində Çin iqtisadiyyatı böhrandan çıxdı. 80-ci illərin ortalarında, ölkə ərzaq problemini həll etdi. 90-cı illərin əvvəllərində, ÇXR dünyanın ən böyük ixracatçı dövlətlərdən birinə çevrildi. Ölkə, müasir texnoloji əsasda **"yenidənqurma mərkəzləri"** yaradır və sənayeləşmə həyata keçirirdi. Mütəxəssislərin fikrinə görə, əsrin sonları üçün, ümumi milli məhsulun (ÜMM) həcminə görə, dünyada ABŞ və Yaponiyadan sonra üçüncü oldu.

**Qeyd: "Yenidənqurma mərkəzləri"-- nəzəriyyəsinə görə, mənbələrin artıq mövcud olduğu yerlərə əlavə ehtiyatların verilməsi yolu ilə, sürətlə inkişaf etdirilən mərkəzlər, yeni mənbələri özünə cəzb edən bir növ maqnitə çevriləcəyi güman edilir. Sürətlə inkişaf edəcəyi halda, "yenidənqurma mərkəzi" yaratmaq məqsədəuyğun sayılırdı. Ən önəmli problem, ilkin problemlər artıq həll ediləndən sonra, yenidənqurmanın sonrakı mərhələləri idi.**

1989-cu il, Moskva ilə Pekin arasında münasibətlərin normallaşdırılması üçün həlledici oldu. May ayında, SSRİ-nin ən yüksək rəhbərinin Çinə uzun illər ərzində ilk rəsmi səfəri reallaşdı. M.S.Qorbaçovun Pekinə səfəri zamanı, Sovet-Çin dövlətlərarası münasibətlərinin normallaşdırılmasına dair sənədlər imzalanmışdı. Eyni zamanda, M.S.Qorbaçov Den Syaopin ilə görüşdü. Bundan sonra ÇKP rəhbərliyi, Sov.İKP ilə ÇKP arasındakı əlaqələrin də normallaşdırıldığını bildirdi. 1990-cı ilin aprel ayında, Çin Xalq Respublikası Dövlət Şurasının Baş Naziri Li Penin Moskvaya səfəri zaman, Sovet-Çin sərhəddinin hərbisizləşdirilməsi barədə razılaşma imzalandı. 1990-cı ilin may ayında, Çinin SSRİ-dən MIG-29 və SU-27 qırıcı təyyarələrinin alınması üçün, uzun illər ərzində ilk razılıq əldə olundu.

Bununla yanaşı, Çinin ABŞ ilə hərbi əməkdaşlığı dayanmamışdı. Sintszyan ərazisində, sovet raketlərini və Mərkəzi Asiya və Sibirdə olan nüvə silahlarının sınaqlarını elektron formada izləyən Çin-Amerika nəzarət mərkəzləri fəaliyyət göstərirdilər. Eyni zamanda onlar, Sovet hərbi obyektləri və silahlı qüvvələrin yerləşdirilməsi haqqında kəşfiyyat məlumatları mübadiləsini və hərbi məqsədlər üçün xüsusi növ kompüter avadanlıqlarının təchizatını davam etdirirdilər. Bununla ABŞ, SSRİ ilə yaxınlaşmasının "əvəzinin ödənilməsinə" çalışaraq, Çinin bu yaxınlaşmaya münasibətinə olan şübhələrinin qarşısını almaq üçün atdığı önləyici addımlar ilə bildirmək istəyirdi ki, Amerika onun maraqlarına toxunmur. Pekini sakitləşdirən addımlardan biri də, Çinə 1988-ci ildə, yüksək səviyyəli texnologiyalara çıxışını xeyli asanlaşdıran "dost, birləşməyən ölkə" statusunun verilməsi idi. ABŞ və SSRİ arasında münasibətlərin yaxşılaşması, bu dövlətlərdən heç birinin ÇXR ilə münasibətlərinin pisləşməsinə səbəb olmadı.

1989-cu ilin iyununda, Çin gəncləri Pekinin Tyananmen meydanında çıxış edərək, ölkənin siyasi sisteminin liberallaşdırılmasını tələb etdilər. Bu çıxış güc vasitəsi ilə yatırıldı. Buna cavab olaraq, ABŞ Çinə silah tədarükünü dayandırdı, siyasi dialoqu və Çinə 1,3 milyard dollar dəyərində kredit verilməsini dondurdu. Lakin, münasibətlərin soyuqlaşmasını istəməyən Amerika rəhbərliyi, 1989-cu ilin iyul və dekabr aylarında, gizli məsləhət missiyası ilə Prezidentin milli təhlükəsizlik üzrə köməkçisi general Brent Skoukroftu iki dəfə Pekinə göndərdi. Çini qıcıqlandırmamaq üçün, Prezident C.Buş, Konqresin ölkədə oxuyan bütün çinli tələbələrin ABŞ-da yaşamaq hüququ ilə bağlı qanun layihələrinə veto qoydu və ÇXR üçün ən əlverişli ticarət sisteminin uzadılmasını tələb etdi. Çin öz növbəsində, ABŞ-ın insan hüquqlarına hörmət etməklə bağlı məsləhətlərini nəzərə aldı.

### 1.3. Koreyada siyasi gərginliyin azalması

M.S.Qorbaçovun Vladivostokda etdiyi çıxışından sonra, SSRİ-nin Asiya-Sakit Okean bölgəsinin bir çox ölkələrinə yanaşması dəyişdi. Sovet İttifaqı, Cənubi Sakit okeanın cənub bölgələrində mövcudluğunu genişləndirmək cəhdlərindən əl çəkdi. Moskvanın Cənubi Koreya ilə münasibətləri normallaşdırmağa marağı artmağa başladı. 1986-1987-ci illərdə, ABŞ-ın təzyiqi altında bu ölkədə liberallaşma başladı. Hökumətin başçısı Çon Du Xvan, 1987-ci ildə yeni Prezident seçkilərinin keçirilməsinə qərar verdi. O, öz yerinə öncədən hakim qüvvələrdən yeni namizəd təyin edərək, istefa verdi.

1987-ci ilin dekabrında, prezidentliyə namizədliyini irəli sürmədən əvvəl orduda xidməti tərk edən, keçmiş hərbçi olan Ro De U Prezident seçildi. Bu, Sovet-Cənubi Koreya münasibətlərinin yaxşılaşmasına yol açdı. 1989-cu ilin aprelində, Moskva ilə Seul arasında ticarət əlaqələri quruldu, 1990-cı ilin oktyabrında isə diplomatik əlaqələr yaradıldı. Öz növbəsində, ABŞ 1990-cı ilin yanvarında Şimali Koreyada yerləşən hərbi qüvvələrinin sayını azaltmaq niyyətində olduğunu bildirdi. Bu qərar, Koreyanın iki hissəsi arasında danışıqların canlanmasına səbəb oldu. 1991-ci ilin dekabrında, Koreya yarımadasını nüvəsiz zonaya çevirmək, Pxenyan və Seul arasında hücum etməmək haqqında pakt bağlandı.

90-cı illər üçün məlum oldu ki, ABŞ-ın Yaponiya və Cənubi Koreya ilə hərbi-siyasi əlaqələri, vahid üçlü birliyə çevrilmədi. İkitərəfli əlaqələr, bu ölkələr arasında münasibətlərdə üstünlük təşkil edirdi, yəni Yaponiya və Cənubi Koreya, ABŞ ilə hərbi-siyasi münasibətlərini, bir-birilərindən asılı olmayaraq qururdular. ABŞ, Şimal ilə qarşıdurma vəziyyətinin yaranması təhlükəsi olduğundan, Cənubi Koreyanın təhlükəsizliyi üçün hərbi təminatlarını saxlayırdı. Ona görə, Cənubi Koreya ərazisində Amerika qoşunlarının hissələri qalırdı.

1990-cı illərdə Cənubi Koreya, beynəlxalq siyasi mövqelərinin əsaslı şəkildə möhkəmlənməsinə nail oldu. Bunun üçün o, 1990-cı ilin yanvarında Sovet İttifaqı, bir sıra keçmiş sosialist ölkələri, sonra isə 1992-ci ildə ÇXR ilə diplomatik münasibətlər qurdu. Bu məsələlər, iki Koreyanın yaxınlaşması üçün daha əlverişli xarici şərait yaratmasına və "qarşılıqlı tanıma" diplomatik üsulunun həyata keçirilməsinə kömək edə bilərdi. Buna uyğun olaraq, 1950-1953-cü illər müharibəsində KXDR-in keçmiş müttəfiqləri olan Sovet İttifaqı və Çin Seulu tanıyacaq, ABŞ və Yaponiya isə Pxenyanla diplomatik münasibətlər quracaq idi. Bu istiqamətdə atılan addımların nəticəsi, 17 sentyabr 1991-ci ildə hər iki Koreya dövlətinin eyni vaxtda BMT üzvlüyünə qəbul edilməsi oldu.

Bundan bir qədər sonra, 1991-ci ilin dekabrında, KXDR və KR-sı barışıq, hücum etməmək və əməkdaşlıq haqqında hökumətlərarası saziş imzaladılar. 1992-ci ilin fevralında, Koreya yarımadasının nüvəsiz zona haqqında birgə bəyannamə verdilər. Razılaşmaya əsasən, onlar nüvə silahının istehsalından, saxlanmasından, yerləşdirilməsindən, əldə edilməsindən və ya sınaqdan keçirilməsindən imtina edirdilər. Ancaq əslində Koreya yarımadasında, bir tərəfdən KXDR, digər tərəfdən Cənubi Koreya və ABŞ arasında qarşılıqlı inamsızlığın yüksək olması səbəbindən, münasibətlərin nizamlanması prosesi baş tutmadı.

## 2.Yaxın və Orta Şərqdə beynəlxalq hüquqi tənzimləmələr

### 2.1. Əfqanıstan məsələsinin beynəlxalq hüquqi tənzimlənməsi

Əfqanıstan məsələsində, Sov.İKP-nin mövqeyi kəskin tənqid edilirdi. Münaqişə, 1979-cu ildən davam edir, Əfqanıstanda Sovet hissələrinin hərbi qulluqçuları arasında qurbanların sayı artırdı. Cəmiyyətdə, müharibəyə münasibət heç də müsbət deyildi və o, qorxu yaradırdı, çağırış yaşında olan gənclərin hərbi xidmətdən yayınmaq cəhdlərini doğururdu. Bir çox Sovet hərbi rəhbərləri də, Əfqanıstan əməliyyatının davam etdirilməsinə qarşı çıxırdı, bunu siyasi səhv və hərbi cəhətdən mənasız hesab edirdilər. Əfqanıstanda Sovet İttifaqının nizami qoşunları daxili siyasi mübarizəyə cəlb edilir və partizan- mücahidlərə qarşı vuruşmağa məcbur edilirdi. SSRİ bu ölkədə, ABŞ-ın 1965-1973-cü illərdə, Vyetnamda qarşılaşdığı eyni problemlərlə üzləşmişdi.

Sovet rəhbərliyi, çıxılmaz vəziyyətdən çıxış yollarını işlənib hazırlanmasına başladı. İlk növbədə o, Əfqanıstanda olan sovet yönümlü hakimiyyətinin ictimai-siyasi bazasını genişləndirməyə çalışdı. 1986-cı ilin mayında, Moskvanın təsiri ilə Əfqanıstan dövlətinin başçısı, taciklər və digər qeyri-puştun etnik qrupları tərəfindən dəstəklənən Babrək Karməl vəzifəsini Məhəmməd Nəcibə verdi. Puştunların

mənafelərini təmsil edən M. Nəcib, bundan əvvəl Əfqanıstan xüsusi xidmət orqanlarından birinə rəhbərlik edirdi. M. Nəcib, Əfqanıstanda ali hakimiyyət orqanı olan - Loya cirqa ((**"böyük şura"**) tərəfindən 7 il müddətinə ölkə Prezidenti seçildi.

**Qeyd: Loya-cirqa ("böyük şura") - ümuməfqan ağsaqqaları şurası. Böhran vəziyyətini həll etmək üçün etnik-qəbilə qruplarının nümayəndələrindən seçilən ümum Əfqanıstan ağsaqqallar şurası. Son Loya cirqa (sədri Səbqatulla Modjadidi) 2002-2004-cü illərdə, yeni əfqan konstitusiyasının təsdiqlənməsi üçün toplanmışdı.**

M. Nəcib hakimiyyətin sərtliyini mülayimləşdirməyə, daha ənənəvi bir görünüş verməyə və hakimiyyəti islam dəyərlərinə xəyanətdə ittiham edən, əfqan ruhaniləri ilə barışmağa çalışırdı. O, hakimiyyətə gəlişindən əvvəl, əfqanların həyatının seçmə islamlaşmasını həyata keçirən xətti davam etdirdi. Məktəblərdə yenidən dinin əsaslarını öyrətməyə icazə verildi, məscidlərin inşası bərpa edildi və televiziyada dini verilişlər nümayiş olunmağa başlandı. M. Nəcibin təklifi ilə, Əfqanıstan Demokratik Respublikası Əfqanıstan Respublikası adlandırıldı və M. Nəcibin özü ənənəvi İslam üslubunda - Nəcibullah kimi adlanmağa başlandı.

Yeni rəhbərlik ölkədə məhdudlaşdırılmış çoxpartiyalı sistem, mətbuat azadlığı tətbiq etdi. B. Karməlın həyata keçirməyə çalışdığı saxta sosialist ruhlu islahatları dayandırdı. M.Nəcibullahın vəzifəsi müxalifət ilə barışmaq idi. 1987-ci ilin yanvarında Əfqanıstan hökuməti, müxalifətə qarşı hərbi əməliyyatların birtərəfli şəkildə dayandırıldığını elan etdi və onlara danışıqlara başlamaq təklifi etdi. Müxalifət bu təklifi rədd edərək, yalnız Sovet qoşunlarının Əfqanıstandan çıxmasından sonra hökumətlə danışıqlara girəcəyini bildirdi.

Bu müddətdə, Moskva gizli şəkildə, ABŞ və Pakistanla Əfqanıstan problemi ilə bağlı məsləhətləşmələrə başladı. SSRİ Əfqanıstandan qoşunlarını çıxarmaq niyyətini gizlətmədi. Vaşinqton və İslamabad bu mövqedən razı qaldıqları üçün, Əfqanıstan probleminin xarici təsirlərinin nizamlama çərçivəsi yaranmağa başladı. 1988-ci ilin martında, Cenevrədə, BMT-nin "xeyirxah xidmətlər" missiyasının köməyi ilə, Əfqanıstan və Pakistan arasında danışıqlar təşkil edildi. Əslində, Əfqanıstanda hökumət əleyhinə çıxan müxalifəti açıq şəkildə dəstəkləyən Pakistan tərəfi, danışıqlarda onların maraqlarını özününkü kimi təmsil etmişdi. Lakin, rəsmi olaraq, əfqan müxalifəti danışıqlarda iştirak etməmişdi, bu da gələcəkdə onların iştirakı olmadan, hazırlanmış müqavilələri tanımamaq üçün onlara bəhanə vermiş oldu.

**Qeyd: "Xeyirxah xidmətlər"-- beynəlxalq hüquqda, dövlətlər arasında mübahisələrin sülh yolu ilə həll edilməsinin vasitələrindən biridir. "Xeyirxah xidmətlər", münaqişənin sülh yolu ilə həllinə yönəlmiş mübahisəli tərəflər arasında əlaqə qurmaq və birbaşa danışıqların başlanması üçün bir dövlətin və ya beynəlxalq qurumun yardımı deməkdir. "Xeyirxah xidmətlər" məsləhət xarakterli olduğuna görə, mübahisəli tərəflər üçün məcburi deyildi.**

14 aprel 1988-ci ildə, Cenevrədə Əfqanıstan məsələsi ilə bağlı beş ayrı, lakin qarşılıqlı əlaqəli müqavilə imzalanmışdı. İlk ikisini, Əfqanıstan və Pakistan nümayəndələri imzaladılar. Bunlar qarşılıqlı münasibətlər, bir- birinin daxili işinə qarışmamaq və müdaxilələrdən imtina və qaçqınların könüllü şəkildə geri qaytarılması haqqında, ikitərəfli Əfqanıstan-Pakistan sazişləri idi. Razılaşmalara görə, Pakistanın Əfqanıstanın daxili işlərinə qarışmayacağını söz verdi və Əfqanıstan hökuməti, bütün tərəfdarları və ailə üzvləri ilə, Pakistana qaçan müxalifətçi puştun səhra komandirlərinin qanuni şəkildə geri qayıtmasına razılıq verirdi. Bu müqavilələrdə ərazi məsələsinə toxunulmamışdır.

Bu müqavilələrin üçüncü və dördüncü sənədləri, Əfqanıstana dair sazişlərin həyata keçirilməsinə dair beynəlxalq zəmanətlər haqqında, Sovet-Amerika bəyannaməsi və Əfqanıstanla əlaqəli vəziyyətin tənzimlənməsi üçün Sovet-Amerika qarşılıqlı sazişi idi. Sovet İttifaqı, qoşunlarının Əfqan ərazisindən çıxarılmasına razılıq verdi və ABŞ, Sovet hissələrinin ölkədən çıxmasından sonra, Əfqanıstanın işlərinə qarışmaqdan çəkinmək öhdəliyini götürdü.

Beşinci sənəd dörd tərəfli qarşılıqlı anlaşma bəyannaməsi idi. Burada göstərilirdi ki, imzalanmış beş sənəd vahid məcmuu təşkil edir və məcburi qaydada icra olunmalıdır.

Əldə edilmiş razılaşmalara görə, 15 may 1988-ci ildən etibarən, SSRİ, öz qoşunlarının çıxarılmasına başlamalı və doqquz ay ərzində onu tamamlamalı idi. 15 fevral 1989-cu il üçün, Sovet qoşunlarının Əfqanıstandan çıxarılması başa çatdı.

Müxtəlif hesablamalara görə, 10 illik hərbi əməliyyatlar dövründə Əfqanıstanda 2 milyon nəfərə yaxın mülki sakin həlak olub. Amerikalılar isə əfqanların itkisinin 2,5 milyon nəfər olduğunu yazırlar. Bu müharibədə, sovet ordusu, ümumilikdə 14.427 hərbçisini itirdi. DTK-nın itkisi 576, Daxili İşlər Nazirliyinin itkisi isə 28 nəfər olub. Hərbi əməliyyatlarda təxminən 54 min nəfər yaralanıb, 416 min nəfər isə müxtəlif dərəcəli kontuziyalar aldı. Sovet ordusunun Əfqanıstanda texniki itkisi: 147 tank, 1314 zirehli maşın, 433 artilleriya sistemi, 118 təyyarə və 333 vertolyot olmuşdur. On illik müharibə nəticəsində SSRİ Əfqanıstana təxminən 800 milyon ABŞ dolları yardım göstərmişdi. 40-cı ordunun saxlanılması və əməliyyat xərcləri 3 milyard dollardan çox olmuşdu. Müharibənin aparıldığı 1979-cu il dekabrın 25-dən, 1989-cu ilin fevralın 15-dək Əfqanıstanda Sovet İttifaqının 620 min hərbi qulluqçusu xidmət etmişdi.

M. Nəcibullah hökumətinin vəziyyəti daim pisləşirdi: Sovet qoşunlarının çəkilməsindən həvəslənən əfqan müxalifəti Kabilə hücuma hazırlaşmağa başladı. Cenevrədə keçirilən razılaşmaları nimzalanmasında rəsmi şəkildə təmsil olunmadığı

üçün, müxalifət liderləri bu müqavilələri tanımadılar. Cenevrə sazişlərinin məntiqinə zidd olaraq, Pakistan və ABŞ, M.Nəcibullahın rəqiblərinə verdiyi yardımları artırdı.

Sovet İttifaqı, M. Nəcibullah hökumətinə kömək etməyə çalışırdı, lakin onun imkanları məhdud idi. SSRİ, əfqan tərəfdarlarının müdafiəsində təsirli addımlar ata bilmədi. 1973-cü ildə ABŞ da, Vyetnamla bağlı Paris müqavilələri bağlandıqdan sonra, Cənubi Vyetnamda şimallıların köməyinə arxalanan müxalifət ilə təkbətək qalan müttəfiqlərinə kömək edə bilməmişdi.

## 2.2. Yaxın Şərq münaqişəsinin böyüməsi və "Körfəz müharibəsi"

Afrikanın cənubunda gərginliyin azalması ilə eyni zamanda, 1988-ci ilin yayında, İran-İraq müharibəsi başa çatdıqdan və Livanda vətəndaş müharibəsi bitdikdən sonra, Yaxın və Orta Şərqdə də vəziyyətin bir qədər sabitləşməsi gedirdi. Ancaq barışıq dövrü qısa müddətli oldu.

XX əsrin 90-cı illərinin əvvəllərində baş verən Körfəz müharibəsi yenidən dünya ictimaiyyətinin diqqətini Yaxın Şərqə cəlb etmişdi. Bu müharibə, zəngin neft ehtiyatlarına və əlverişli coğrafi strateji mövqeyə malik olan İran körfəzində müxtəlif dövlətlərin iqtisadi və siyasi mənafelərinin toqquşmasının və Küveyt böhranının nəticəsi idi.

Gərginliyin yenidən artması üçün, İraq Prezidenti S.Hüseyn tərəfindən şərait yaradılmışdı. O, İraqın xarici siyasətini təcavüzkar və qeyri- müəyyən hala gətirdi. Bu dövrdə, İranla hətta barışıq imzalanmamış və son nizamlanma məsələsi açıq qalmışdı. Buna baxmayaraq, Bağdad Küveytin ələ keçirilməsini və əlverişli şərait olardısa, ölkənin əsas neft ehtiyatlarının cəmləşdiyi Səudiyyə Ərəbistanının şərq əyalətini də tutmağı planlaşdırmağa başladı. Öz hərəkətlərini əsaslandıran S.Hüseyn, Ərəbistan neftinin "ümumərəb mülkiyyəti" olduğunu və ilk növbədə onun "sionist düşmən"ə qarşı mübarizə üçün istifadə edilməli olduğunu elan etdi.

İran ilə apardığı 8 illik müharibə nəticəsində İraqın iqtisadiyyatı zəifləmiş, xarici borcu artmışdı. İraq Prezidenti S.Hüseyn hesab edirdi ki, ölkədə müharibə dövründə yaranmış sosial-iqtisadi problemləri ərəb dövlətlərinin, xüsusilə İran körfəzində Ərəb Dövlətlərinin Əməkdaşlığı Şurası üzvlərinin köməyi ilə qısa müddətdə həll edə biləcək. Lakin tezliklə aydın oldu ki, heç kim 60 milyard dollar məbləğində xarici borcu ona bağışlamaq və əvəzsiz maliyyə yardımını davam etdirmək fikrində deyildir.

İraq ərəb dünyasında qüvvə mərkəzinə çevrilmək üçün güclü ordu yaratmışdı. Lakin, dinc quruculuğa keçid silahlı qüvvələrin əsaslı şəkildə ixtisarını tələb edirdi. Yaxın Şərqdə İraqın nüfuzunu artırmaq üçün S.Hüseyn ikinci səmərəli vasitəni neftdə və regionun əsas neft mənbələrində görürdü. Bu neft mənbələri

İran körfəzində yerləşən ərəb ölkələrində olduğuna görə İraq onlara qarşı işğalçılıq planları hazırlamağa başladı.

Planlarını həyata keçirmək üçün İraqa ərəb dünyasında yeni müttəfiqlər lazım idi. 1989-cu ilin fevralın 16-da, S.Hüseynin təşəbbüsü ilə Bağdadda yeni regional təşkilatın - Ərəb Əməkdaşlığı Şurasının yaradılması haqqında saziş imzalandı. Təşkilata İraq, İordaniya, Yəmən və Misir daxil oldu. Təşkilata üzv olmaqda Misirin məqsədi İsraillə sülh müqaviləsi bağladıqdan sonra ona qarşı tətbiq edilmiş sanksiyaların ləğvinə nail olmaq idi. İran körfəzində olan ərəb ölkələrinin narazılığının qarşısını almaq üçün Səudiyyə Ərəbistanının kralı Bağdada dəvət olundu və iki dövlət arasında hücum etməmək haqqında müqavilə imzalandı. İraq bir tərəfdən Səudiyyə Ərəbistanına qarşı ərazi iddiası olan iki ərəb ölkəsi ilə müttəfiq oldu, digər tərəfdən onun təhlükəsizliyinə təminat verdi. Lakin, İran körfəzində yerləşən digər ərəb ölkələrinə, o cümlədən Küveytə belə bir təminat verilmədi.

1989-cu ilin ikinci yarısından etibarən İraq mətbuatı, Fars körfəzi zonası dövlətlərinə qarşı təbliğat tədbirlərinə başladı. İraq mətbuatında İran körfəzində yerləşən ərəb ölkələrinin OPEK-də apardıqları siyasət tənqid edilirdi. Bu ölkələr OPEK-in İraqdan neft ixracı normasının artırılmasına və bu yolla İraq iqtisadiyyatının bərpasına mane olmaqda ittiham olunur və bu siyasət İraqa qarşı iqtisadi müharibə kimi təqdim edilirdu. 30 mart 1990-cı ildə, Ərəb Dövlətləri Liqasının Şurasının iclasında S.Hüseyn demişdi ki, bu iqtisadi müharibə İraqı zəiflədir və onun səbri hüdudsuz deyil. İyunun 17-də S.Hüseyn bildirdi ki, Küveyt ona qarşı iqtisadi müharibənin təşəbbüskarlarından biridir və Küveyt İraqla sərhəddə yerləşən Rumeyla neft mədənlərindən qanunsuz istifadə edir. Ona görə S.Hüseyn təzminat kimi Küveytdən əvvəlcə 2,4 milyard, sonra isə 10 milyard dollar tələb etdi.

Münaqişənin genişlənməsini istəməyən Küveyt höküməti bütün mübahisəli məsələləri müzakirə etməyə və İraqa 9 milyard dollar kredit verməyə hazır olduğunu bildirdi. Lakin, artıq qərar qəbul edilmişdi və avqustun 2-nə keçən gecə 150 minlik İraq ordusu Küveytə daxil oldu. Küveytin 20 minlik ordusu müdaxilənin qarşısını ala bilmədi. Küveyt ordusunun müqaviməti bir neçə saat davam etdi. Bu müddət ərzində Küveyt hökuməti və hakim sülalənin nümayəndələri ölkəni tərk etdilər. Hərbi müdaxilə nəticəsində Küveytə 240 milyard dollar məbləğində zərər dəymişdi.

İraq hökuməti qonşu ölkəyə hərbi müdaxiləsini əsaslandırmaq üçün belə bir bəyanat verdi ki, İraq qoşunları Küveytə hakim sülalənin düşmənləri tərəfindən yaradılmış "müvəqqəti azad hökumət"in xahişi ilə göndərilmişdir. Lakin İraq, Küveytdə belə bir "azad" hökuməti təşkil edə bilmədi, monarxiya hakimiyyətinə

muxalifətdə olan qüvvələr də işğalçılarla əməkdaşlıqdan imtina etdilər. Avqustun 8-də, S.Hüseyn Küveytin İraqa birləşdirilməsini və onun 19-cu əyalətinə çevrildiyini elan etdi. S.Hüseynin şərəfinə yeni əyalət "Əl- Səddamiyə" adlandırıldı. İraq mətbuatı bunu əsrin əvvəlində ingilis müstəmləkəçiləri tərəfindən kobud şəkildə pozulmuş "tarixi ədalətin" bərpası kimi qiymətləndirdi.

Dünya birliyinin İraqın təcavüzünə əsk-cavabı sürətli və kəskin oldu. Avqustun 2-də, BMT Təhlükəsizlik Şurası 660 saylı qətnamə qəbul etdi. Qətnamədə İraqın təcavüzkarlığı ittiham olunur, İraq ordusunun dərhal və danışıqsız Küveytdən çıxarılması tələb edilirdi. İraq qətnaməni yerinə yetirməkdən imtina etdi. Avqustun 6-da BMT Təhlükəsizlik Şurası 661 saylı qətnaməsi ilə İraqa qarşı sanksiyalar tətbiq edildi. İraqın iqtisadi mühasirəyə alınmasını nəzərdə tutan bu sanksiyaların icrasına nəzarət etmək üçün xüsusi komissiya yaradıldı.

BMT Təhlükəsizlik Şurasının qətnamələri İraqa qarşı sərt mövqedə dayanan ABŞ-ın təşəbbüsü ilə qəbul edilmişdi. C.Buş hökumətinin S.Hüseynin məqsədləri haqqında kifayət qədər məlumatı olsa da başa düşürdü ki, onu sakitləşdirmək cəhdləri əhəmiyyətsizdir. İran körfəzi ABŞ-ın strateji mənafe zonasına daxil idi. İraq qoşunlarının Səudiyyə Ərəbistanına hücumunun qarşısını almaq üçün onun hərəkətinə hərbi qüvvə ilə cavab vermək qərara alındı. Səudiyyə Ərəbistanıınn rəhbərliyi belə bir təhlükənin mövcud olduğunu başa düşürdü. Səudiyyə kralı Fəhdin razılığı ilə, C.Buş Səudiyyə Ərəbistanına avqustun 7-də ABŞ qoşunlarının göndərilməsi haqqında əmr verdi, körfəzdə ABŞ-ın 80 hərbi gəmisi cəmləşdi ki, onun dördü təyyarə daşıyan gəmi idi. ABŞ əsgərlərinə Fransa, İngiltərə, Misir, Suriya və digər ölkələrin hərbi hissələri də qoşuldu. Onların yaratdığı millələrarası qüvvələrin sayı 1991-ci ilin yanvarında 780 minə çatmışdı ki, bunun 540 mini amerikalı idi.

Region dövlətlərinin, xüsusilə ərəb ölkələrinin böhrana münasibəti birmənalı deyildi. Ərəb Dövlətləri Liqasının (ƏDL) Cəmiyyət əd-Düval əl-Ərəbiyyə) 2 və 10 avqustda Qahirədə keçirilən fövqəladə sessiyasında təcavüzü ittiham edən akt yekdilliklə qəbul edilmədi. ƏDL-nın 22 üzvündən 12-si təcavüzkarlığı pisləmişdi.

Türkiyə tamamilə ABŞ-ın mövqeyini müdafiə edirdi. İran əvvəlcə münaqişədə bitərəf olduğunu bildirsə də sonra İraqı müdafiə etmişdi, çünki S.Hüseyn avqustun 15-də bildirmişdi ki, sülh müqaviləsinin bağlanması üçün İranın bütün şərtlərini qəbul etməyə hazırdır. Bu, S.Hüseyn tərəfindən siyasi manevr idi, çünki İranın tələblərinin yerinə yetirilməsi çətin idi, İran İraqdan 136 milyard dollar təzminat istəyirdi.

1990-cı ilin avqustun 12-də S.Hüseyn bildirdi ki, əgər İsrail öz qoşunlarını işğal edilmiş ərazilərdən çıxarsa, o da öz qoşunlarını Küveytdən çıxarar. Yəni o, "Küveyt məsələsi"ni "Fələstin məsələsi" ilə əlaqələndirmək istəyirdi. İraq mətbuatı yazırdı ki, Küveytin işğalı bütün ərəb millətinin ehtiyatlarının sionist quldurlarına qarşı səfərbər etmək üçün zəruri tədbirdir. S.Hüseyn Qərb ölkələrinə qarşı ərəblərin və müsəlmanların mənafelərinin müdafiəçisi kimi çıxış etmək istəyirdi. O, müsəlmanları amerikalılara və sionistlərə qarşı cihada çağırırdı, bir sıra ərəb ölkələrini isə satqınlıqda və "yeni səlibçilərə" işləməkdə ittiham edirdi. S.Hüseyn özünü Həzrəti Məhəmmədin varisi, yəni müqəddəs elan etmişdi. Lakin cihad baş tutmadı.

Fələstin Azadlıq Təşkilatının lideri Y.Ərəfat S.Hüseyni müdafiə edirdi. O, Küveytin işğalını bəyənmiş və orada yaşayan fələstinliləri İraq işğal orqanları ilə əməkdaşlığa çağırmışdı. Avqustun 19-da S.Hüseyn İraq və Küveyt ərazisində yaşayan bütün xarici vətəndaşları girov elan etdi və bildirdi ki, İraqa qarşı hərbi əməliyyat başlasa, xaricilərin təhlükəsizliyinə təminat verilmir. Girov götürülənlərin 25 mini Avropa və Amerika vətəndaşları idi. Girovlar İraq və Küveyt ərazisində yerləşən hərbi obyektlərin ərazisində saxlanılırdı. İraq hökuməti girovları azad etmək üçün bütün xarici qoşunların İran körfəzindən çıxarılmasını, sanksiyaların ləğvini və ABŞ-ın İraqa hücum etməmək barədə öhdəlik götürməsini tələb edirdi. Bu tələblər dünya birliyi tərəfindən qəbul edilmədi. Girovların azad edilməsinə dair danışıqlar başladı. Sanksiyaların təsiri ilə ölkədə ərzaqla bağlı çətinlikləri nəzərə alan SSRİ-nin və Çinin mövqelərinin dəyişməsinə ümid edən İraq hökuməti dekabrda girovların əksəriyyətini azad etdi.

SSRİ və Çin, Küveyt böhranının hərbi yolla həllinə tərəfdar deyildi. SSRİ, İraqla ABŞ arasında vasitəçilik etmək istəyirdi, lakin razılaşma əldə etmək mümkün olmadı. Belə ki, İraq Küveytdən qoşunlarını çıxartmaq istəmirdi. ABŞ və onun müttəfiqləri isə Küveytin işğalı ilə barışmaq istəmirdilər və onlar bildirirdilər ki, S.Hüseyn Küveytlə kifayətlənməyəcək.

1990-cı il noyabrın 29-da, BMT Təhlükəsizlik Şurasının 678 saylı qətnaməsi ilə İraqa öz qoşunlarını Küveytdən çıxartmaq üçün 1991-ci ilin yanvarın 15-nə qədər vaxt verildi. Əks təqdirdə BMT üzvlərinə Küveyti azad etmək üçün bütün zəruri tədbirləri görmək, o cümlədən qüvvə tətbiq etmək səlahiyyətləri verilirdi. İraq Prezidenti S.Hüseyn bu qətnaməni qəbul etmədi.

1991-ci ilin yanvarın 17-də, ABŞ-ın başçılığı ilə 29 dövlətdən ibarət millətlərarası koalisiya "Səhrada tufan" əməliyyatına başladı. 42 gün davam edən bu əməliyyat (yerüstü döyüş əməliyyatları - 100 saat davam etmişdi) İraq ordusunun məğlubiyyəti və Küveytin azad edilməsi ilə başa çatdı. Küveyt azad

edildi, lakin S.Hüseyn İraqda hakimiyyətini saxlaya bildı. İqtisadi sanksiyalar ləğv edilmədi, İraqın kütləvi qırğın silahı yaratması qadağan edildi. İraqdan təzminat almaq üçün BMT-nin xüsusi komissiyası yaradıldı.

Müharibə nəticəsində İraq 100 min nəfər, çoxmillətli qüvvələr isə 223 nəfər əsgər itirmişdi. Müharibə dövründə S.Hüseynin əmri ilə İsrail ərazisinə bir neçə raket atılmışdı ki, İsrail də müharibəyə qoşulsun və koalisiya dağılsın. Lakin ABŞ, İsrailin müharibəyə qoşulmasına imkan vermədi və İsrailə raket əleyhinə müdafiə vasitələri göndərdi. Çoxmillətli qüvvələrin komandanlığı, İraqın raket buraxılış qurğularını ən qısa müddətdə məhv edəcəyinə söz verdi və öhdəliyini yerinə yetirdi.

1991-ci ilin fevralın 26-da S.Hüseyn, BMT Təhlükəsizlik Şurasının bütün qətnamələrini tanıdığını bildirdi və fevralın 28-də hərbi əməliyyatlar dayandırıldı. İraq hökuməti Küveytin suverenliyini və ərazi bütövlüyünü tanıdığını bildirdi, dekabrda isə bu ölkələrin sərhədləri dəqiqləşdirildi.

S.Hüseynin İraqdakı hakimiyyəti saxlanılsa da, mövcud olmaq imkanları məhdudlaşdırıldı: Birincisi- İraqa qarşı iqtisadi sanksiyalar saxlanıldı; İkincisi- ABŞ İraq daxilində S.Hüseynə qarşı İraq kürdləri kimi, müttəfiq əldə edə bildi.

İraq Kürdüstanı əslində İraqdan ayrıldı və 1999-cu il üçün, ABŞ-ın himayəsində olan bu ərazidə kürd ərazi vahidi yaradıldı, O, rəsmi olaraq muxtariyyət olsa da, faktiki çox geniş müstəqilliyə malik idi. İraq qüvvələri kürdlərə qarşı güc tətbiq edə bilmirdi, kürdlərin yaşadığı ərazilər üzərindən İraq təyyarələrinin uçuşları qadağan edilmişdi. ABŞ hərbi hava qüvvələri, çoxmillətli qüvvələrin komandanlığının öz iradəsi ilə təyin etdiyi qadağan zonalarını keçən, İraq hərbi hava qüvvələrinin təyyarələrini məhv edirdilər.

Körfəz müharibəsinin qalibiyyətli nəticəsi, ABŞ-ın Yaxın Şərqdə hökmranlığını təmin etdi. Ərəb ölkələri arasında qüvvələr nisbətini əhəmiyyətli dərəcədə dəyişdirdi. ABŞ-ı dəstəkləyən Misir, ərəb dünyasının lider dövləti statusunu bərpa etdi, Fars körfəzinin ərəb ölkələri ilə münasibətlərini əhəmiyyətli dərəcədə yaxşılaşdırdı və körfəz dövlətlərinə olan borclarının 40% -nin ləğvinə nail oldu.

O dövrdə çox çətin vəziyyətdə olan Suriya da, müəyyən uğurlar qazandı. H.Əsədin, Livanda olan fəaliyyətləri, onun FAT –nın ifratçı qanadını, kürd fəhlə partiyasını və beynəlxalq terror təşkilatlarını dəstəkləməsi, Fars körfəzinin ərəb ölkələri ilə Qərbin münasibətlərinin kəskinləşməsinə səbəb oldu. 1986-cı ildə, Suriya hətta Amerika rəhbərliyi tərəfindən beynəlxalq terrorizmi dəstəkləyən bir ölkə olaraq təsnif edilmişdi. Körfəz müharibəsindən sonra, o da, İraqdan uzaqlaşdıqda bu ittiham ləğv edildi. Suriya, körfəz dövlətləri ilə münasibətləri

normallaşdırdı. Onlar, Suriyanın borclarını qismən silməyi və ya yenidən nizamlanmasına razılıq verdilər. İtirənlər arasında İraqdan başqa, FAT da var idi. Uzaqgörən olmamaları, onların nüfuzunun aşağı düşməsinə səbəb oldu. S.Hüseynin məğlubiyyəti, FAT-ın ifratçı qanadının təsirini zəiflətdi və Yaxın Şərqdə dinc nizamlanma prosesinin ətalət nöqtəsindən hərəkətə gətirmək imkanı yaratdı.

Körfəz müharibəsi sona çatdıqdan sonra İran körfəzində olan ərəb ölkələri çalışırdılar ki, onların ərazisində təhlükəsizlik məqsədilə Misir və Suriya qoşunları yerləşdirilsin. Lakin bu cəhdlər nəticəsiz oldu. ABŞ həmin ölkələrlə saziş bağlayıb onların təhlükəsizliyinə təminat verdi. Bu sazişlər ABŞ-a İran körfəzində daimi hərbi qüvvə saxlamasını təmin etdi.

Müharibə ərəb ölkələri arasında çoxsaylı ziddiyyətləri aşkara çıxardı və onların birliyini zəiflətdi. Körfəz müharibəsi Yaxın Şərqdə yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Dünyanın yeganə fövqəl dövləti kimi ABŞ-ın Yaxın Şərqdə mövqeləri möhkəmləndi. Müharibə nəticəsində regionda əvvəlki vəziyyətin bərpası göstərdi ki, ərəb ölkələri üçün İran körfəzində sabitlik böyük əhəmiyyət kəsb edir. Müharibə sübut etdi ki, bir sıra Yaxın Şərq ölkələri özünü müdafiə etmək iqtidarında deyildir.

### 2.3. Yaxın Şərq üzrə Madrid konfransının başlanması

30 oktyabr 1991-ci ildə, Madriddə Yaxın Şərqdə sülhün nizamlanmasına dair beynəlxalq konfrans başladı. Konfransda, İsrail, ona qarşı çıxan ərəb dövlətləri, habelə Fələstin nümayəndə heyəti (əslində FAT) iştirak etdi. ABŞ və SSRİ sülh prosesinin həmsədrləri kimi iştirak edirdilər. Konfrans iştirakçıları, "sülh üçün torpaq" prinsipinin dinc nizamlanmanın əsası kimi qəbul edilməsi barədə razılığa gələ bildilər. Bu müddəanın, Fələstin probleminin həlli məsələsinə tətbiq edilməsi ilə əlaqədar dəqiqləşdirilmələrin aparılması müəyyən vaxt tələb etdi. İsrail və FAT, Osloda (Norveç) təxminən iki il ərzində, 10 görüş keçirərək danışıqlar apardılar.

"Sülh üçün torpaq" prinsipinə əsaslanan danışıqların başlaması, təkcə FAT-ın ifratçı qanadının zəifləməsi nəticəsində deyil, həm də İsrailin hakim dairələri daxilində "sülhməramlılıq" strategiyası tərəfdarlarının mövqelərinin güclənməsi hesabına da mümkün oldu. Amerika Birləşmiş Ştatları tərəfindən, İsrailin "sülh" tərəfdarlarına verdiyi dəstək bu işdə əhəmiyyətli rol oynadı. Razılaşmaya mane olan əsas cəhət İsrailin, Fələstin Azadlıq Təşkilatına münasibətdə qeyri- real mövqeyi idi. İsrail FAT-ı terrorçu təşkilat sayır və onu Fələstin xalqının nümayəndəsi hesab etmirdi. İsrail parlamentinin 1986-cı ilin avqustunda qəbul etdiyi qanuna görə FAT ilə əlaqə cinayət sayılırdı. Lakin, ABŞ-ın təzyiqi altında, İsrail, FAT ilə bağlı sərt, qeyri- real mövqeyindən müvəqqəti olaraq imtina etmək məcburiyyətində qaldı.

## 3.Latın Amerikası ölkələrində regionlaşma meylləri

### 3.1. Mərkəzi Amerika münaqişəsinin nizamlanması

Sovet İttifaqının regional münaqişələrə münasibətinin dəyişməsi, rəhbərliyinin Qərbin etimadını qazanmaq istəyi ilə əlaqədar idi. Moskva müttəfiqləri və ondan asılı tərəfdarlarına münasibətdə öz beynəlxalq öhdəliklər sisteminə yenidən baxmağa başladı. Onları səmərələşdirmək üçün, xarici ölkələrlə tərəfdaşlığın müsbət və mənfi tərəflərini araşdırmaq lazım idi. SSRİ-nin özünə zərər vermədən, xarici tərəfdaşlara göndərə biləcəyi ehtiyat mənbələri tükənirdi. Bu mülahizələri rəhbər tutan Sovet rəhbərliyi, SSRİ-nin xarici münaqişələrdə iştirakını məhdudlaşdırmaq üçün addımlar atmağa başladı. Bu, beynəlxalq sistemin kənarlarında bir sıra vəziyyətlərin həllində, Sovet-Amerika əməkdaşlığının ilkin şərtlərini yaratmış oldu.

Digər ölkələrdə də, regional münaqişələrə münasibətdə dəyişikliklər baş verdi. 1982-ci ildə, Cənubi Atlantikada baş verən müharibədən sonra, Latın Amerikası rəhbərlikləri, nəinki, ABŞ ilə amerikalılar arası hərbi-siyasi əməkdaşlıq ideyasına olan münasibətləri, həm də Qərb yarımkürəsində olan qarşıdurmaların səbəbləri ilə bağlı fikirlərini də dəyişmişdi. Onlar bu səbəbləri, "beynəlxalq kommunizmin müdaxiləsində" görmürdülər. Münaqişələrin səbəbləri, təhsil və mədəniyyətdə inkişafın aşağı səviyyədə olması, xarici asılılıq, demokratik azadlıqların olmaması, Latın Amerikası ölkələrinin öz aralarında əməkdaşlıq qura bilməmələrində görülürdü.

Cənubi və Mərkəzi Amerikada Folklend adaları müharibəsinin ədalətsiz məzmunu yaddan çıxmamışdı. Bu zaman, azad amerikan ölkəsi ABŞ, müstəmləkəçi Avropa dövləti olan Böyük Britaniya ilə, digər bir azad amerikan ölkəsi olan Argentinaya qarşı ittifaqa girmişdi. Vaşinqtona qarşı etirazlar dalğasında, Latın Amerikası ölkələri arasında ABŞ-ın iştirakı olmadan əməkdaşlıq qurmağa maraq artmışdı. Bu, Latın Amerikası ölkələrinin Mərkəzi Amerikada gedən münaqişəyə münasibətində özünü göstərirdi.

ABŞ-ın üstün mövqe tutduğu Amerika Dövlətləri Təşkilatının (ADT) sisteminin yararsız olduğunu anlayan Latın Amerikası dövlətləri, Nikaraqua çevrəsində olan münaqişəni həll etmək üçün, "təmiz Latın Amerikası" nizamlama sistemini yaratmaq lazım olduğu qənaətinə gəldilər. 1983-cü ilin yanvar ayında, Meksika, Panama, Kolumbiya və Venesuela nümayəndələri, Kontador adasında (Los Perlos arxipelağı, Panama) keçirilən görüşdə "Kontador qrupu" adlanan birliyin yaradılması barədə razılığa gəldilər. Bu qrupun məqsədi, Mərkəzi Amerikada mövcud olan dövlətlərin hamısının tanınması əsasında, dünyanın bu hissəsində

vəziyyətin normallaşdırılması və bütün "xarici qüvvələrin" müdaxiləsinin aradan qaldırılması elan edildi.

"Kontador qrupu" ölkələri, amerikan dövlətləri də daxil olmaqla, bütün xarici ölkələrin hamısının Mərkəzi Amerikada iştirakını tamamilə ləğv etmək üçün, danışıqlar yolu ilə nizamlanmaya başlamağı təklif etdilər. "Kontador qrupu"nun fəaliyyəti əslində, ilk növbədə ABŞ-a qarşı yönəldilmişdi və eyni zamanda SSRİ-nin Mərkəzi Amerikanın solçu hökumətlərinə yardım göstərməsindən imtina etməsinə də aid edilmişdi.

1983-cü ildən, Latın Amerikası dövlətlərinin xarici siyasət fəaliyyətinin əlaqələndirilməsi prosesi inkişaf etməyə başladı. 1985-ci ilin avqustunda, "Kontador qrupu"nun səyləri, Braziliya, Argentina, Peru və Uruqvaya "Kontadora dəstək qrupu" yaratmaq üçün dəstək verdi. Münaqişənin nizamlanması ilə artıq səkkiz ölkə məşğul olmağa başladı. 1986-cı ildə, bu qrupun ölkələri ətraflı danışıqlar planını ("Kontador bəyannaməsi") təqdim etdilər. Bu məsələ, bütün Mərkəzi Amerika ölkələri arasında danışıqları təmin etməli idi. Onun həyata keçirilməsi, Nikaraqua Sandinist hökuməti də daxil olmaqla, bütün Mərkəzi Amerika hökumətlərinin qarşılıqlı tanınması demək idi.

Latın Amerikası ölkələrinin sülhməramlı fəaliyyətinə, BMT-nin Baş katibi Xose Perez de Kuelyar, həmçinin Qoşulmama hərəkatı və Sosialist beynəlmiləli tərəfindən dəstək verildi. Fransa, İspaniya və daha sonra - Avstriya, Hollandiya, İrlandiya, Norveç və İsveç hökumətləri, eləcə də Avropa Şurası onu dəstəklədiklərini bildirdilər. 1984-1987-ci illərdə, Qərbi Avropa ölkələrinin dəstəyi ilə Avropa Birliyi, İspaniya, Portuqaliya, beş Mərkəzi Amerika respublikası və "Kontador qrupu" ölkələrinin Xarici İşlər nazirlərinin bir sıra görüşlərini həyata keçirməyi bacardı. Danışıqlar, San Xose (Kosta Rika, 1984-cü il sentyabr), Lüksemburq (noyabr, 1985) və Qvatemala-sitidə (Qvatemala, fevral 1987) keçirildi. ABŞ bu görüşlərdə iştirak etməmişdi.

Sovet İttifaqı, Latın Amerikası ölkələrinin danışıq səylərini dəstəklədiyini bildirdi. 1985-ci ilin sonundan Sovet rəhbərliyi, D.Orteqa hökumətinin xahişlərinə baxmayaraq, Nikaraquaya silah təchizini məhdudlaşdırmağa başladı. O, D.Orteqanı, "Kontador qrupu" tərəfindən təklif olunan gündəlik çərçivəsində danışıqlar aparmağa təşviq etmək istəyirdi.

1983-1986-cı illərdə, ABŞ-ın "Kontador prosesi"nə münasibəti ehtiyatlı idi, çünki Vaşinqton, Mərkəzi Amerikada ümumi nüzamlama deyil, Nikaraquada sandinistləri devirməyə çalışırdı. Ona görə də, ABŞ bu bölgədə hərbi mövcudluğunu azaltmaq niyyətində deyildi. Nikaraqua məsələsində faktiki təcridini kəskinləşdirməkdən ehtiyat edən Vaşinqton, öz mövqeyini dəyişməyə başladı.

Bundan əlavə D.Orteqa hökumətinə qarşı çıxan sağçı "kontra"lar, Nikaraquada öz simvolik "hökumətlərini" yaratmaq üçün, heç bir əhəmiyyətli ərazi tuta bilmədilər. Nikaraquanın SSRİ-dən aldığı hərbi yardımın dayandırıldığını nəzərə alan, ABŞ rəhbərliyi də "kontra"ya dəstəyini azaltmağa başladı. SSRİ ilə ABŞ arasında olan, bu cür razılaşma, Mərkəzi Amerikada vəziyyətin yaxşılaşmasına kömək etmiş oldu.

1984-cü ilin yayında, Salvador və Qvatemalada müvafiq ölkələrin hökumətləri və partizanlar arasında danışıqlar başladı. 1985-ci ilin noyabrında, Qvatemalada Prezident seçkiləri keçirildi və ordunun hakim roluna baxmayaraq, demokratik idarəetmə forması bərpa edildi. 1986-cı ildə, Hondurasda yeni Prezident seçildi. O, Qvatemalada olduğu kimi, hərbçilərdən asılı olmasına baxmayaraq, ən mürtəce generalları silahlı qüvvələrin komandanlığından çıxararaq daha çevik siyasət yürütməyi bacardı.

1986-cı ildə, Mərkəzi Amerika ölkələrinin özlərinin –Kosta Rika, Qvatemala, Honduras, Nikaraqua və Salvador arasında siyasi məsləhətləşmə sistemi yarandı. Bu nümayəndə heyətlərinin ilk iclasının keçirildiyi, Qvatemalada olan şəhərin adı ilə "Eskipulas qrupu" adlandırıldı. Qrupun çərçivəsi daxilində, KostaRikanın Prezidenti Oskar Arias, əvvəllər "Kontador qrupu" və "Kontadora dəstək qrupu" tərəfindən təklif olunan bütün dəyərləri özündə cəmləşdirən, Mərkəzi Amerikada dinc tənzimləmə planını hazırladı.

7 avqust 1987-ci ildə, Mərkəzi Amerika ölkələri prezidentlərinin Eskipulas şəhərində keçirilən ikinci iclasında, rəsmi şəkildə "Mərkəzi Amerikada dayanıqlı və davamlı sülhün bərqərar edilməsi tədbirləri" adlandırılan müqavilə ("Eskipulas-2") imzalanmışdı. Saziş, bütün Mərkəzi Amerika hökumətləri tərəfindən, milli barışıq siyasətinin aparılması, siyasi əvf qərarlarının elan edilməsi, müxalifətlə dialoqun inkişafı, ictimai həyatın demokratikləşdirilməsi, azad seçkilərin keçirilməsi, qanunsuz silahlı dəstələrin tərksilah edilməsi, qonşu ölkələrə qarşı təxribatçı hərəkətlərin qadağan edilməsi, qaçqın və köçkünlərə yardım, subregional əməkdaşlığın qurulması və təhlükəsizlik və silahların azaldılması ilə bağlı danışıqların həyata keçirilməsini nəzərdə tuturdu.

Bu razılaşmaların davamı olaraq, 1988-ci ilin martında, Nikaraquada D.Orteqa hökuməti və "kontra" qüvvələri milli barışıq haqqında saziş imzaladılar. Onlar, 1990-cı ildə ölkədə azad seçkilərin keçirilməsini nəzərdə tutaraq, onun nəticələrinin necə olacağndan asılı olmayaraq, bütün münaqişə tərəfləri tərəfindən tanınacağını vəd etdilər. 1990-cı ilin fevral ayında Nikaraquada, beynəlxalq nəzarət altında azad Prezident seçkiləri keçirildi. Seçkilərdə, V.Çamorro qələbə qazandı. 19 aprel 1990-cı ildə, "kontra" və hökumət qüvvələri arasında atəşkəsin imzalanması baş tutdu. Mərkəzi Amerikada gedən münaqişə əsasən həll edildi.

1991-ci ilin dekabr ayında, Mərkəzi Amerikanın beş ölkəsi - Qvatemala, Salvador, Nikaraqua, Kosta Rika və Honduras “Tequsiqalp protokolu”nu imzaladılar. Bu sənəd, iştirakçı ölkələrin müntəzəm beştərəfli məsləhətləşmələrini təmin edən çərçivə təhlükəsizlik sazişi idi. Protokola görə, 1951-ci ildə yaradılan Mərkəzi Amerika Dövlətləri Təşkilatı ləğv edildi. Bunun əvəzinə, Mərkəzi Amerika İnteqrasiya Sisteminin yaradılması qərara alındı. Ona, Mərkəzi Amerikada təhlükəsizlik və münaqişələrin həlli məsələlərini əhatə edən səlahiyyətlər verildi. Bu məsələlərə, 1965-ci ildən Mərkəzi Amerika Müdafiə Şurası məşğul olurdu, lakin o da, müvafiq dəyişikliyə görə buraxılmışdı.

### 3.2. ABŞ-ın Panamaya müdaxiləsi (dekabr 1989)

Dünyada beynəlxalq gərginliyin zəifləməsi beynəlxalq münasibətlərin uyğunlaşması demək deyildi. Sovet İttifaqı və Amerika Birləşmiş Ştatları, qarşılıqlı təmkinlərini yalnız o vaxtı saxlayırdılar ki, rəqiblə hesablaşmamaq öz təhlükəsizliyinin ciddi şəkildə təhlükə altına alınmasına gətirib çıxara bilərdi. Hər iki dövlətin xarici siyasətinin xarakteri dəyişmirdi, onlar gücə arxalanaraq təhlükəli olmadığı zaman ondan istifadə edirdilər. 80-ci illərin ikinci yarısında, SSRİ daha zəif tərəf kimi, özünü daha ehtiyatlı aparırdı. Daha güclü olan Amerika Birləşmiş Ştatları, tərəddüd etmədən beynəlxalq ictimai rəyi nəzərə almadan güclü üstünlüklərindən istifadə edirdi.

1999-cu ildə Vaşinqton, Panama kanalını C.Karterin hakimiyyəti illərində bağlanmış, 1979-cu il ABŞ-Panama müqaviləsinə əsasən Panama hökumətinin nəzarətinə verməli idi. Lakin, Birləşmiş Ştatlar, kanalın nəzarətinin panamalıların əlinə keçdikdən sonra da, kanal zonasında hərbi mövcudluğunu təmin etmək üçün fürsət axtarırdı. Bunun üçün isə, Panama ilə yeni razılaşma tələb olunurdu. Belə ki, bu müqavilənin bağlanması, Panamanın müstəqilliyini məhdudlaşdıra biləcəyi qorxusu oıduğuna görə, Panama hökuməti həddən artıq amerika meylli olmalı idi.

Əslində, gerçək vəziyyət tam başqa idi. Ölkədə hakimiyyət, ölkənin silahlı qüvvələrinin Baş komandanı general Manuel Antonio Noryeqaya məxsus idi. Ölkə Prezidentləri (1984-1989-cu illərdə onların üçü dəyişmişdi) tamamilə generaldan asılı olurdular. M. Noryeqa, ölkənin daxilində və xaricində mənfi nüfuza sahib idi. Panamada o, hərbçilərin istifadə etdiyi işgəncələrə və siyasi cinayətlərə görə günahlandırılırdı. ABŞ-da, M. Noryeqa narkotik alverdə və korrupsiyada iştirakda ittiham olunurdu. General radikal millətçi və əks- Amerika siyasətinin tərəfdarı idi. Onun təsiri altında, Panama hökuməti ABŞ xüsusi xidmət orqanlarına, Panamanın ərazisini Nikaraquaya qarşı əməliyyatlar keçirmək üçün istifadə etməyə icazə verməkdən imtina etmişdi.

1988-ci ildə R.Reyqan rəhbərliyi, Panamada "hakimiyyəti dəyişdirmək" və M.Noryeqanı hakimiyyətdən uzaqlaşdırmaq niyyətini elan etdi. Panamaya qarşı sanksiyalar tətbiq edildi və 1989-cu ilin dekabrında, Amerika qoşunları Panamaya göndərildi və bütün ölkədə nəzarət ələ keçirildi. M.Noryeqa həbs olundu, ABŞ-a aparıldı və narkotik ticarət ittihamı ilə mühakimə olundu.

Beynəlxalq ictimai rəy, ABŞ-ın Panamada atdığı addımlarını qınadı. BMT Baş Assambleyasının 29 dekabr 1989-cu il tarixli qətnaməsində, Vaşinqtonun hərəkətləri beynəlxalq hüququn pozulması kimi qiymətləndirilsə də, ABŞ-a qarşı başqa sanksiyalar tətbiq edilmədi. Yalnız 1994-cü ildə, Panamada tam hüquqlu Prezident seçkisi keçirildi və 1997-ci ilin dekabrında, Amerika-Panama müqaviləsi bağlandı. Müqaviləyə görə, Birləşmiş Ştatlar, Panama hökumətinin nəzarəti altına alınan, Panama kanal zonasına qoşun yeritmək hüququ aldı. Kanal üzərindəki Panama suverenliyi, 31 dekabr 1999-cu ildə bərpa edildi.

### 3.3. Latın Amerikasında regionlaşma meyllərinin güclənməsi və Çilidə demokratiyanın bərpası (mart 1990)

Folklend böhranından sonra, Latın Amerikası ölkələrinin ABŞ-dan narazı qalmaları cənubi amerikalıları regional əsasda, ilk növbədə iqtisadi sahədə yaxınlaşmağa maraq oyatdı. 1986-cı ilin iyul ayında, Argentina və Braziliya iqtisadi əməkdaşlıq və inteqrasiyanın inkişafı üçün birgə layihə hazırladılar və onu digər ölkələrin də qoşulmasına açıq elan etdilər. 1986-cı il ərzində, hər iki ölkə iqtisadi əməkdaşlığın müxtəlif sahələrinə aid 16 protokol imzaladı.

Əməkdaşlıq yavaş-yavaş, lakin uğurla inkişaf edirdi, bu da əhatə dairəsini genişləndirməyə imkan verirdi. 1991-ci ilin martında, Paraqvayın paytaxtı Asunsyonda, Argentina, Braziliya, Paraqvay və Uruqvay gömrük ittifaqının və ortaq bazarın yaradılması haqqında dörd tərəfli müqavilə bağladılar. Yeni birlik, Cənubi Amerikanın Ümumi Bazarı (CAÜB--MERKOSUR) və ya Cənubi Konusun ümumi bazarı adlanırdı. Lakin, bu ümumi bazarın dərhal yaradılması demək deyildi. Çünki, bazarın meydana gəlməsi1995-ci ilə aid edildiyindən, o, ancaq bundan sonra, MERKOSUR inteqrasiya qrupu kimi fəaliyyət göstərməyə başlayacaq idi. Lakin ona qədər, Asunsyon müqaviləsində iştirak edən ölkələr, intensiv hazırlıq işləri aparmaqla məşğul idilər.

**Qeyd: Cənubi Konus - Cənubi Amerikanın cənub hissəsində yerləşən tərs konus şəklində ərazi. Buraya Argentina, Çili, Uruqvay, Paraqvay və Braziliyanın cənubu daxildir.Cənub Konus şimaldan Boliviya, Peru və Braziliyanın şimal əyalətləri, qərbdən Sakit okean, şərqdən Atlantik okeanı ilə əhatə olunur**.

1986-cı ilin dekabr ayında, “Kontador qrupu” (Meksika, Panama, Kolumbiya və Venesuela) və “Kontadora dəstək qrupu” (Braziliya, Argentina, Peru və Uruqvay)

indi böyük və nüfuzlu səkkiz dövlətin daxil olduğu “Rio-de-Janeyro qrupu”nu (“Rio qrupu”) yaratmaq üçün birləşdilər. Onlar, Latın Amerikasının ən güclü dövlətləri də daxil olmuşdu. 90-cı illərdə, “Rio qrupu”nun iqtisadi fəaliyyətinin əsası, MERKOSUR çərçivəsində əməkdaşlıq oldu.

Latın Amerikası ölkələri, yeni məsləhət orqanlarını yaratmaqla, Amerika Dövlətləri Təşkilatının (ADT) ləğvi məsələsinə toxunmadılar. Lakin, təcrübədə onun vəzifələri elə məhdudlaşdırıldı ki, əslində Ümumamerika əməkdaşlığı təşkilatından, Latın Amerikası ölkələri ilə ABŞ arasında əlaqələr saxlamaq üçün “çərçivə qurumuna” çevrildi.

Təxminən 1989-cu ildən sonra, regional və amerikanlılararası əməkdaşlığın gələcəyi olan sahələrini inkişaf etdirmək təşəbbüsləri, sırf Latın Amerikası təşkilatlarına - MERCOSUR və Rio qrupuna verildi. Latın Amerikasında vəziyyətin ən vacib problemləri, əvvəlcə "Rio qrupu”nda nəzərdən keçirilir və yalnız bundan sonra müzakirə üçün ADT-yə göndərilirdi.

1987-ci ildə "Rio qrupu"nun, Meksikanın Akapulko şəhərində görüşü keçirildi. Burada verilən qərara əsasən, "Rio qrupu"nun səlahiyyətlərinə, regional və beynəlxalq təhlükəsizlik və silah nəzarəti sahəsində ortaq təşəbbüslər irəli sürmək, mübahisələrin sülh yolu ilə həlli üçün regional etimad quruculuğu tədbirləri və təcrübələrin təkmilləşdirilməsi və inkişafın təşviqi daxil idi. Bunlardan əlavə, demokratik təsisatlar, bölgəyə aid olmayan dövlətlərlə dialoqu genişləndirmək, bölgədəki inteqrasiya proseslərini stimullaşdırmaq və beynəlxalq səviyyədə demokratikləşmə üçün ortaq siyasət yürütmək, cinayət, narkotik alveri və terrorçuluq, yoxsulluq və kasıblaşmaya qarşı mübarizədə əməkdaşlığın inkişafı məsələləri, “Rio qrupu”nun sonrakı iclaslarında fəaliyyət proqramına əlavə edildi.

1990-cı ildə, Karakasda (Venesuela) keçirilən yığıncaqda, Kubadan başqa, bütün ispan dilli Mərkəzi Amerika və Karib dövlətlərinə, “Rio qrupu”na qoşulmaq açıq elan edildi. Karib dənizinin ingilis dilli ölkələrindən biri üçün (belə 19 dövlət var idi) qrupa qoşulmağa məhdudiyyət qoyulmuşdu. “Rio qrupu”nun özünü bütün Latın Amerikası adından danışmağa haqlı hesab etməsi üçün əsası var idi. 1991-ci ildə, Kartaxendə (Kolumbiya) keçirilən görüşdə, “Rio qrupu” adından Latın Amerikasını sülh zonasına çevirmək üçün layihə irəli sürüldü. Latın Amerikası ölkələri, Kütləvi məhv etmə silahını (KMS) istehsal etmək, əldə etmək və saxlamaqdan imtina etdiyini elan etdi.

Latın Amerikası ölkələrinin beynəlxalq aləmdə olan fəallığı, Qərbi Avropa ölkələri, Kanada, Yaponiya və Sakit okean hövzəsi ölkələri ilə əlaqələrinin intensivləşməsi, ABŞ-ı narahat edirdi. R. Reyqanın Prezidentlik müddətinin sonunda məlum oldu ki, onun "təzyiq etmə" siyasəti əks-amerikanizm doğurur və Vaşinqtona

qarşı Latın Amerikası ölkələrinin həmrəyliyini təşviq edirdi. ABŞ rəhbərliyi, Latın Amerikasının iqtisadi birləşməsinin "qapalı" olacağından da narahat idi.

Latın Amerikası siyasətinin dəyişdirilməsinə uyğun olaraq, Prezident R.Reyqan 1982-ci ilin fevral ayında, Vaşinqtonda ADT qərargahında çıxış edərək, "Karib və Mərkəzi Amerika dövlətləri üçün təşəbbüs" təklifi irəli sürdü. Buna uyğun olaraq Amerika tərəfi, ABŞ-ın daxili bazarını Karib və Mərkəzi Amerika ölkələrinin məhsul və xidmətləri üçün açacağına söz verdi. R.Reyqan eyni zamanda, 2000-ci ildə bu qrupun ölkələri ilə güzəştli ticarət formasını tətbiq etməyi öhdəsinə götürdü. Eyni zamanda, Karib və Mərkəzi Amerika ölkələrinə, Amerika iqtisadi yardım proqramı təklif edildi. R. Reyqanın "Karib təşəbbüsü" Vaşinqtonun bölgə ölkələri ilə münasibətlərinə cüzi təsir göstərdi.

ABŞ-ın Qərb yarımkürəsində olan mövqeyini gücləndirmək üçün, daha böyük layihəyə ehtiyac duyulurdu. Belə ki, bunun üçün. "Alyaskadan Odlu torpağa qədər firavanlıq və çiçəklənmə zonası" yaratmaq kimi möhtəşəm bir plan yaradılmalı və ona, Kanada, ABŞ, Latın Amerikası və Karib dənizinin bütün ölkələri daxil edilməli idi.

1988-ci ildə, ABŞ-ın Prezidenti seçilən C. Buş-böyük, 1990-cı il iyunun 27-də, Ağ Evdə çıxış edərək bu planın əsas məqamlarını təqdim etdi. Burada, sərbəst ticarət zonasının yaradılması nəzərdə tutulurdu. Onun çərçivəsində, bütün Qərb yarımkürəsində malların və xidmətin, iş və texnologiyanın maneəsiz hərəkəti təmin ediləcək idi. Layihəni həyata keçirmək üçün, Latın Amerikası bölgəsinə kapital axınına zəmanət verən, Amerika İnkişaf Bankının bazasında 1.5 milyard dollarlıq fondun yaradılmasını təklif edildi. Plan, Latın Amerikasına, 1990-cı ildə 48 milyard dollara çatmış borcunun dörddə birini ABŞ-a qaytarılmasını, qalan hissəsini BVF və Dünya Bankı vasitəsi ilə nizama salınmasını təmin etməli idi. Maliyyə cəhətdən cəlbedici olan, C.Buşun (böyük) təşəbbüsü ölkələr tərəfindən maraqla qarşılandı.

Latın Amerikası ölkələri arasında, iqtisadi inkişafa diqqətin artırılması ilə yeni əməkdaşlıq əlaqələrinin formalaşması, Çilidə və onun ətrafında vəziyyətin yaxşılaşmasına kömək etmiş oldu. 1973-cü ildə, ölkədə hakimiyyəti ələ keçirdikdən sonra, general A.Pinoçet diktatura idarəçiliyi qurdu və onun hakimiyyəti bir çox əleyhdarlarının həyatına son qoydu. Hökümətin sərtliyi sayəsində, Çili rəhbərliyi, Çikaqo məktəbindən olan amerikan məsləhətçilərinin tövsiyələrinə uyğun olaraq, sərt iqtisadi islahatlar siyasətini ("şok terapiyası") həyata keçirə bildi.

İslahatlar, istehsalın aşağı düşməsi və əmək haqlarının azalması ilə müşayiət olunurdu, lakin, diktatura şəraitində əhali etiraz edə bilmirdi. İslahatları dəstəkləmək üçün, ABŞ şirkətləri Çiliyə böyük sərmayələr qoydular ki, onlara əsaslanan ölkə, 80-ci illərin əvvəlinə qədər iqtisadi inkişafın sürətini 8% -ə qədər artıra bildi. A.

Pinoçetin təzyiqi ilə, ölkədə yeni konstitusiya qəbul edildi ki, bu da onun 1989-cu ilə qədər Prezident vəzifəsində qalmasına imkan verdi (rəsmi olaraq bu vəzifəni ilk dəfə 1974-cü ildə tutmuşdu).

Bir vaxtı Amerikanınköməyi ilə qurulan, Çili hərbi hakimiyyəti, artıq ABŞ-a qane etmirdi. Vaşinqton təzyiq göstərməyə başladı. ABŞ, A.Pinoçetin hakimiyyətdən imtina etməsinə, normal seçki prosesinin keçirilməsinin bərpa olunmasına məcbur etmək istəyirdi. Amerika idarəçiliyinin mövqeyinə ictimai rəylər də təzyiq edirdi. Onlara, həm Çilinin özündə, həm də digər ölkələrdə, o cümlədən ABŞ-da, A.Pinoçetin siyasi rəqiblərinin öldürülməsinin yeni faktları bəlli olmuşdu. 1988-ci ilin martında, general silahlı qüvvələrin rəhbərliyini saxlayaraq, Prezident vəzifəsindən istefa verdi. Gələcəkdə, dövlət başçısı kimi qalması məsələsini, referenduma verəcəyini elan etdi. 5 oktyabr 1988-ci ildə, referendum keçirildi, iştirakçıların 55% -i A.Pinoçetin səlahiyyətinin uzadılmasına qarşı çıxdı. 14 dekabr 1989-cu ildə, Çilinin Prezidenti və yeni parlamenti üçün eyni vaxtda seçkilər keçirildi. Patritsio Aylvin Azokar ölkənin Prezidenti seçildi.

Ölkədə hərbçilərin təsiri çox güclü olmaqda davam edirdi. Əslində, Çilidə ilk həqiqi azad seçkilər, yalnız 1993-cü ilin noyabrında, Eduard Freyin ölkənin Prezidenti seçildiyi zaman baş tutmuşdu. A.Pinoçet, 1998-ci ilin martına qədər, Çili silahlı qüvvələrinin Baş komandanı vəzifəsində qaldı.

1989-cu ildə, Çilidə 15 il ərzində ilk mülki Prezidentin seçilməsi, Latın Amerikası ölkələrinə, demokratiyanın öz dövlət quruluşlarının əsas prinsipi olduğunu elan etməyə imkan verdi. 1991-ci ilin aprelində, Çilinin paytaxtı Santyaqoda, ADB Baş Assambleyasının XXI -ci sessiyası çağırıldı və onun nizamnaməsinə dəyişiklik edilməsi barədə, 1080 nömrəli qətnamə qəbul edildi. Qətnamədə, demokratik dövlət sistemi, insan hüquq və azadlıqlarına hörmət, bölgə ölkələrinin təhlükəsizliyinin təmin edilməsinin əsas şərtləri elan edildi.

"Santyaqonun demokratiya və amerikalılararası sistemin yenilənməsi sahəsində öhdəliyi" adlı bu sənəddə, təmsilçi demokratiya yeganə mümkün idarəetmə forması adlandırıldı və onun qorunması ADT üzvü olan ölkələrin əsas vəzifəsi olmalı idi. Növbəti sessiyada, qətnamə nizamnamənin 9 maddəsinə uyğun olaraq çərçivəyə salındı. Burada, təmsilçi demokratiya normalarını pozan hər hansı bir ölkənin təşkilatdan xaric edilməsini nəzərdə tuturdu.

**Qeyd: Təmsilçi (nümayəndəli) demokratiya –siyasi hakimiyyət idarəçiliyidir, burada xalqın hakimiyyətin əsas mənbəyi kimi tanınmasına baxmayaraq, hökumətin üzvləri vətəndaşlar tərəfindən seçilən müxtəlif nümayəndəlik orqanlarına həvalə olunur. Təmsilçi demokratiya müasir dövlətlərdə siyasi iştirakın aparıcı formasıdır. Bunun mahiyyəti, vətəndaşların qərarların qəbul edilməsində iştirakından, hakimiyyət orqanlarına, onların maraqlarını ifadə etməyə, qanunlar qəbul etməyə və əmrlər verməyə səlahiyyəti olan öz nümayəndələrinin seçilməsindən ibarətdir.**

Beləliklə, ADT öz nizamnaməsində, əvvəllər dövlətin yalnız daxili səlahiyyətlərinə aid olan fəaliyyətinə görə, beynəlxalq sanksiyalar nəzərdə tutan ilk təşkilat oldu. ADT nizamnaməsində olan dəyişikliklər, digər sənədlərində də dəfələrlə təsdiqlənmiş, ölkəyə müdaxilə etməmək prinsipinə qarşı şübhə yaradırdı. Bu dəyişiklik, oxşar meyllərdən bir qədər öndə idi. Belə meyllər, SSRİ-nin dağılmasından sonra, ilk növbədə Avropa siyasətində özlərini fəal şəkildə göstərməyə başlamışdı. Dünya dövlətlərinin əksər hissəsi, əslində belə hesab edirdi ki, dövlət suverenliyinin dəyəri, demokratiya və insan hüquqlarının qorunması maraqlarına qurban verilə bilər.

## 4.Afrika ölkələrində milli- demokratik idarəçiliklərin yaranması

### 4.1. Anqolaya xarici müdaxilənin dayandırılması

Moskvanın regional münaqişələrdən uzaqlaşmaq meyli, ABŞ rəhbərliyini SSRİ-nin Afrikada olan solçu hakimiyyətlərə etdiyi dəstəkdən imtina etməyə məcbur etmək üçün, danışıqlar apara biləcəyinə inandırdı. 1985-ci ildə, R.Reyqan idarəçiliyi, ABŞ-ın Afrikada hökumət əleyhinə çıxan qruplara yardım göstərməsini qadağan edən V.Klark düzəlişini ləğv etmək üçün Konqresə müraciət etdi. Amerikanın Anqolada Jonatas Savimbinin başçılıq etdiyi Anqolanın tam Müstəqilliyi Uğrunda Milli Ittifaqının (ATMUMİ-UNITA) qoşunlarına yardımı artmağa başladı. Ancaq, vəziyyəti müxalifətin xeyrinə dəyişmək üçün bu dəstək kifayət etmədi. Cənubi Afrika yenə də müxalifətin tərəfində çıxış edirdi.

Ölkədə nisbi güc tarazlığı qorunurdu. SSRİ və Kubanın dəstəyi ilə Angola hökuməti (burada təxminən 50 min Kuba hərbçisi var idi) ölkə ərazisinin çox böyük hissəsini nəzarət altına almışdı. Lakin onların, Cənubi Afrikada bazaları olan və Amerikanın köməyini alan müxalifəti tam məğlubiyyətə uğratmaq imkanları olmadı. Hökümət qüvvələri, UNITA qruplarına bir sıra ciddi məğlubiyyətlərə düçar edə bildilər, lakin ümumilikdə ölkədə vəziyyət dəyişməz olaraq qalırdı.

Vəziyyətin çıxılmazlığı və bütün münaqişə edən qüvvələrə yardımın dayandırılmasının arzu olunması, Sovet İttifaqı və Amerikanın bu məsələnin həlli üçün danışıqların keçirilməsinin təşkil olunmasında razılığa gəlməsinə gətirib çıxardı. 1988-ci ilin yanvar- dekabr aylarında, SSRİ və ABŞ-ın əməkdaşlığı nəticəsində, Anqola, Cənubi Afrika və Kuba arasında Nyu-York, London, Qahirə, Cenevrə, Brazzavil və yenidən Nyu Yorkda danışıqlar keçirilməsinin təşkili mümkün oldu. Bu görüşlərin nəticəsi olaraq, 22 dekabr 1988-ci ildə Nyu-Yorkda Anqolada nizamlanmanın xarici sahələri ilə bağlı, üçlü Anqola-Kuba-Cənubi Afrika

sazişi imzalanmışdı. 1991-ci ilin iyuluna qədər, Cənubi Afrika Namibiyadan, 1991-ci ilin may ayına qədər isə Kuba, qoşunlarını Anqoladan çıxarmağa razı oldu.

UNITA, keçirilmiş danışıqlarda təmsil olunmadığından Anqola Prezidenti Eduarde duş Santuş və UNITA lideri J.Savimbi, 22 İyun 1989-cu ildə Qbadolit (Zair) şəhərində ayrıca atəşkəs sazişi imzaladılar. J.Savimbi, E. duş Santuşu Anqolanın Prezidenti kimi tanıdı. Cənubi Afrika və Kubanın qoşunları təyin olunmuş vaxtda geri çəkildilər, lakin atəşkəs razılaşması tezliklə yenidən pozuldu.

1991-ci ilin mayında bunun əvəzinə, Portuqaliyanın vasitəçiliyi ilə UNITA hərbi dəstələrinin Anqola hökumətinin silahlı qüvvələrinə birləşdirilməsi və 1992-ci ildə BMT-nin nəzarəti altında Anqolada azad seçkilərin keçirilməsini təmin edən Bisesse (Lissabon şəhərinin yaxınlığında) sazişi bağlandı. Seçkilər həqiqətən də, 1992-ci ilin sentyabrında keçirildi. Seçkilərdə məğlub olan UNITA, onun nəticələrini tanımaqdan imtina etdi və 3 oktyabr 1992-ci ildə silahlı mübarizəni bərpa etdi.

O, bu mübarizədə qalib gəlməyə başladı. 1994-cü ilin avqustunda, hökumət və UNITA arasında yeni müqavilə imzalandı. Razılaşmaya görə, UNITA hökumətdə bir sıra vacib vəzifələr aldı. 8 fevral 1995-ci ildə, bu müqavilənin şərtlərinə əməl olunmasını təmin etmək üçün, Anqolaya BMT qüvvələri yerləşdirildi. Rəqiblər arasında danışıqlar davam edirdi və 1996-cı ilin martında, milli birlik və barışıq haqqında razılıq əldə edildi. J.Savimbi, Anqolanın vitse-Prezidenti vəzifəsini almalı və əvəzinə öz silahlı dəstələrini tərxis etməli idi.

Lakin, bu razılaşmaya da riayət edilmədi. J.Savimbinin qüvvələri, Anqola ərazisinin 70% -ni nəzarət altına alaraq, almaz mədənlərini ələ keçirdi. Almazın qeyri-qanuni ixracı, UNITA rəhbərliyinə maliyyə gəliri mənbəyinə çevrilmişdi. 4 mart 1999-cu ildə BMT qüvvələri, sülhməramlı missiyasının faydasızlığı səbəbindən Anqola ərazisindən çıxarıldı.

### 4.2. Cənubi Afrikada aparteid (ayrı-seçkilik) idarə sisteminin dəyişməsi

Latın Amerikasına, Şərqi Avropaya və Sovet İttifaqına təsir edən demokratikləşmə dalğası, 1980-ci illərin sonlarında Cənubi Afrikaya da çatdı. Daxili mühitin təzyiqi ilə, Cənubi Afrika Respublikasında hakimiyyət dəyişməyə başladı. 1988-ci ilin dekabr ayında, Nyu Yorkda Cənubi Afrika, Kuba və Anqola arasında olan razılaşmadan sonra, Cənubi Afrika qoşunları Namibiyadan çıxarıldı. 1989-cu ilin aprelində BMT müşahidə qrupunun nəzarəti altında müstəmləkə əleyhinə hərəkat başlandı. 1990-cı ilin martında, Namibiya müstəqil dövlət oldu.

Bu zaman, Cənubi Afrikanın ağ icmasında liberal meyllər gücləndi. Aparteidin davam etməsinin təhlükəli hesab edildiyi barədə geniş fikir yaranmış idi. Belə bir

siyasət istər-istəməz daxili partlayışa və ağların məhv edilməsinə qarşı yönələn, qara əksəriyyətin qiyamına səbəb ola bilərdi. Fəlakətin qarşısını almaq məqsədi ilə, hakimiyyətin "aşağıdan gələn inqilab" nəticəsində ölümdən xilas olması üçün, yuxarıdan islahatlara başlamaq təklifi edildi. 1989-cu ildə, Cənubi Afrikanın Baş Naziri ( konstitusiyaya görə həm də Prezidenti idi) Piter Bot (73 yaş) vəzifələrindən istefa etdi. Onun yerini, Frederik de Klerk tutdu.

**Qeyd: Aparteid-- (ayrı-ayrı yaşamaq) – irqi ayrı-seçkiliyin ən kəskin formasıdır. Bir qrup əhalinin yaşamaq üçün zəruri olan bütün imkanlardan məhrum edilməsidir. CAR-ın hakim dairələri tərəfindən XX əsrdə "ağdərili" olmayan əhaliyə qarşı həyata keçirilən ifrat irqi və milli ayrı-seçkilik siyasəti. Aparteidin məqsədi azlıq təşkil edən ağ əhali tərəfindən qeyri-avropalıları istismar etmək və milli-azadlıq mübarizəsinə qarşı güclü maneələr yaratmaq idi.**

Yeni hökumətin siyasi istiqaməti sürətlə dəyişməyə başladı. F.de Klerk qara müxalifətlə danışıqlara başladı. 1990-cı ilin fevralında, Afrika Milli Konqresinin fəaliyyətinə qoyulan qadağa ləğv edildi. Onun lideri Nelson Mandela həbsdən azad edildi. Ölkənin yeni rəhbərliyi, onunla birlikdə ölkənin siyasi sistemində islahatlarla bağlı müntəzəm müzakirələr aparmağa başladı. 1991-ci ildə hökumət, aparteid idarə sistemini ləğv edəcək yeni konstitusiyanın qəbulu ilə bağlı müxalifətlə məsləhətləşmələrə başladı. Cənubi Afrikada ilk azad seçkilər, 1994-cü ilin mayında keçirildi. N.Mandela ölkə Prezidenti seçildi. Bir müddət, F. de Klerk Cənubi Afrikada ağ müxalifətə rəhbərlik etdi və ancaq 1997-ci ildə o, siyasi fəaliyyətini davam etdirməkdən imtina etdi.

## YEDDİNCİ FƏSİL -- III BÖLMƏ

### SSRI-nin və sosializm sisteminin dağılması (1986-1991-ci illər)

**1. SSRİ-nin öz-özünü ləğv etməsi**
1.1. Mərkəzdənqaçma meyllərinin yaranması və SSRİ-nin dağılma təhlükəsi
1.2. SSRI-də "yenidənqurma, demokratiya, aşkarlıq" siyasəti və Azərbaycan
1.3.SSRİ-də siyasi böhranın dərinləşməsi
1.4. SSRİ-də dövlət çevrilişinə cəhd
1.5. SSRİ-nin öz-özünü ləğv etməsi və Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranması
**2. Şərqi və Cənubi Avropada demokratik hərəkatlar**
2.1. Şərqi Avropa ölkələrində anti-kommunist "inqilablar"
2.2.Varşava Müqaviləsi Təşkilatının (VMT) dağılması
**3. Yuqoslaviyanın dağılması**

### 1. SSRİ-nin öz- özünü ləğv etməsi

#### 1.1. Mərkəzdənqaçma meyllərinin yaranması və SSRİ-nin dağılma təhlükəsi

80-ci illərin sonlarından SSRİ məkanında mərkəzdənqaçma meylləri yaranmağa başlandı. Ancaq, yaranmış meyllər ümumən bütün bölgələrə aid deyildi. Bu, yalnız siyasi müstəqilliyin qazanılması və qorunması probleminin çoxdan həll olunduğu bölgələrdə üstünlük təşkil edirdi və "suverenliyi dadan" bu respublikalar, yenidən öz dövlət suverenliyinə çatmaq üçün, müxtəlif yollardan- demokratik və ya qeyri-demokratik üsullardan istifadə edirdilər. Qərbi Avropa belə bir ictimai-siyasi düşüncə vəziyyətinə 50-ci illərin əvvəllərində, Latın Amerikası - 80-ci illərin əvvəllərində çatmışdı. Mərkəzi-Şərqi Avropa bu istiqamətdə dəyişiklik etmək üçün ehtiyat mənbələrinə malik idi, lakin "sosialist düşərgəsi"nin mühafizəkar təsirində uzun müddət qalması səbəbindən, hərəkatın genişlənməsi məsələsində geri qalmışdı.

Bu bölgələrdən fərqli olaraq, Cənub-Şərqi Avropa və SSRİ məkanında, dövlət suverenliyinin qorunması, vacib olan ən yüksək dəyər kimi qəbul edilmişdir. 80-ci illərin sonunda, dünyanın bu hissəsi demokratik ideyaların dalğasının təsiri altında qalmışdı.

Şərqi Avropada baş verən əks-kommunist inqilablarının, milli azadlıq meylləri ilə birləşməsi baş verirdi. Moskvaya meylli olan hökumətlərin devrilməsi nəticəsində, Şərqi Avropa ölkələrinin həm dünya kommunizminin mərkəzindən, həm də xarici dövlət olan SSRİ-nin təsirindən çıxacağı gözlənilirdi. Sovet sərhədləri yaxınlığında baş verən hadisələr, "yenidənqurma"nın təhriki ilə SSRİ-nin İttifaq respublikalarının vəziyyətinə "əks təsir" göstərirdi.

Bunların bir çoxunda - ilk növbədə Baltikyanı və Cənubi Qafqaz xalqlarında - milli-vətənpərvərlik əhval- ruhiyyəsi canlandı. 80-ci illərin sonunda, İttifaq respublikalarının suverenliyi və müstəqilliyi məsələsi kəskin şəkildə ortaya çıxdı. "Suverenliyini" əvvəlcə SSRİ daxilində, sonra isə onun xaricində tanımaqda israr edirdilər. Millətlərarası gərginlik təhlükəsi artırdı. Millətçi hərəkat və təşkilatların iştirakçıları, Sovet İttifaqının daxili hüquq institutları üzərində beynəlxalq hüququn üstünlüyünü təsdiqləyən ATƏM-in Vyana iclasının sənədlərinə istinad edərək, millətlərin öz müqəddəratını təyinetmə hüququna və digər beynəlxalq normalara müraciət edirdilər.

SSRİ-də daxili qarşıdurmanın ilk böyük ocağı Dağlıq Qarabağ münaqişəsi oldu. Bu əsassız iddia, Azərbaycan xalqını öz ərazi toxunulmazlığının müdafiəsinə qaldırdı. Azərbaycan SSR Ali Sovetinin 1989-cu il sentyabrın 23-də çağırılmış fövqəladə sessiyası Azərbaycan SSR-nin suverenliyi haqqında Konstitusiya qanunu qəbul etdi. İttifaq hakimiyyəti, Azərbaycanın suverenliyini tanımadı. Ancaq Moskva bölgələrdə olan hadisələr üzərində nəzarəti itirirdi. Vəziyyətə nəzarəti bərpa etməyə çalışaraq, 1990-cı ilin yanvarında İttifaq Hökuməti Daxili İşlər Nazirliyinin hissələrini və nizami ordunu Bakının üzərinə yeritdi. Mülki əhali arasında çozsaylı itki (132 nəfər) oldu.

Gürcüstandakı vəziyyət bundan az dramatik deyildi. 1988-ci ilin iyununda, Gürcüstan SSR-in tərkibində olan Abxaz MSSR, Sov.İKP-nin növbəti qurultayına, RSFSR-in tərkibinə qəbul edilməsi xahişi ilə müraciət etmişdi. İttifaq rəhbərliyi bu tələbi təmin etmək niyyətində olmasa da, Abxaziyada baş verən hadisələr Gürcüstanın paytaxtında millətçi etirazlara səbəb oldu. 1989-cu ilin fevral-mart aylarında, şəhərdə Gürcüstanın "suverenliyi" və onun SSRİ-dən ayrılması şüarları altında nümayişlər başlandı.

4 aprel 1989-cu ildə Tbilisidə hökumət evinin qarşısında, "Müstəqil Gürcüstan!", "Rədd olsun Rusiya imperiyası!" şüarları altında, müxalifətçi qeyri-rəsmi birliklərin çoxgünlük mitinqi başladı. 7 apreldə yerli rəhbərliyin qərarı ilə, şəhərdə fövqəladə vəziyyət idarəçiliyi tətbiq edildi. Moskva, əks-kommunist qiyamından və millətçilər tərəfindən hakimiyyətin ələ keçirilməsindən ehtiyat etməyə başladı. Tbilisiyə qoşun göndərmək qərara alındı. Qoşunlar 9 apreldə

nümayişçilərə qarşı güc tətbiq etdi. Nəticədə 16 nəfər öldü. Tbilisidə baş verən hadisələr Gürcüstanda millətçiliyin kəskin artmasına səbəb oldu. 1989-cu ilin sentyabrında, Gürcüstan öz "suverenliyini" elan etdi və 1989-cu ilin noyabrında Gürcüstan Ali Şurası, Gürcüstan qanunlarına zidd olan İttifaq qanunlarının müddəalarının etibarsızlığı haqqında ayrıca qərar qəbul etdi.

İttifaq ərazisində baş verən hadisələrdən biri də, Baltikyanı ölkələrdə demokratik hisslərin güclənməsi oldu. Baltikyanı respublikalarda, "özünü Qarabağ ssenarisindən qorumaq" tələbləri irəli sürüldü, bunun məsuliyyətinin Sovet İttifaqının "imperiya siyasəti"ndə olduğu bildirilirdi. Baltikyanı ölkələrdə baş verən milli müstəqillik meylləri Qərb ictimai rəyinin diqqətini çəkmişdi. Çünki ABŞ və digər Qərb ölkələri, 1940-cı ildə Baltikyanı ölkələrin SSRİ-yə daxil olmasının qanuniliyini heç vaxt qəbul etməmişdilər. ABŞ və Kanadada Baltikyanı ölkələrdən gedən əks-sovet immiqrantların icmaları var idi.

80-ci illərin sonlarında, Baltikyanı respublikalarında xalq cəbhələri yaradıldı ki, bu da onların SSRİ-dən dinc çıxması uğrunda mübarizəyə səbəb oldu. 16 noyabr 1988-ci ildə, Estoniya SSR Ali Şurası respublikanın "suverenliyini" elan etdi. 26 may 1989-cu ildə Litva, 29 iyul 1989-cu ildə isə Latviya onun kimi addım atdılar.

11 mart 1990-cı ildə, Litva SSR Ali Soveti Litva dövlətinin, yəni 1940-cı ildən əvvəl mövcud olan Litva Respublikasının bərpası haqqında akt qəbul etdi. Məntiqi baxımdan, bu addım müstəqil Litva dövlətinin rəsmi şəkildə bərpası demək idi. Moskvada, Litvanın müstəqillik aktı tanınmadı və Vilnüsə qarşı iqtisadi sanksiyalar tətbiq olundu: Litvaya mərkəzləşdirilmiş neft tədarükü dayandırıldı. Təzyiqə məruz qalan Litva rəhbərliyi, 29 iyun 1990-cı ildə müstəqillik bəyannaməsinin qüvvəyə minməsinə moratorium elan etdi, yəni təxirə saldı.

1990-cı il mayın 4-ü və 8-də Latviya SSR və Estoniya SSR-nin Ali şuraları tərəfindən rəsmi olaraq müstəqillik elan edilməsi haqqında qətnamələr qəbul edildi. Litvanın təcrübəsini nəzərə alaraq, bu bəyannamələrin icrasının təxirə salındığını da bildirdilər. 23 avqust 1990-cı ildə, Ermənistan Baltikyanı respublikalardan nümunə götürdü. Bütün bu qərarlar Moskvada, SSRİ konstitusiyasına zidd olaraq etibarsız elan edildi. Beləliklə, müstəqillik elan edən respublikaların heç biri, SSRİ-dən faktiki çıxdıqlarını elan etməyə tələsmədi. Onlar, Moskvanın sərt əks cavabından ehtiyat edirdilər.

Mərkəzi hakimiyyət, Qafqazda və Baltikyanı ölkələrdə vəziyyətə nəzarəti bərpa etmək üçün qətiyyətli addımlar atmadı. M.S.Qorbaçov öz qüvvələrini Sov.İKP daxilində gedən daxili mübarizəyə yönəltmişdi. Onun əsas mərkəzində, demokratikləşmə və siyasi sistemdə plüralizmin tətbiqi məsələsi dayanırdı. 1990-cı ilin martında, SSRİ Xalq Deputatlarının Üçüncü qurultayı, SSRİ Konstitusiyasının

6-cı maddəsini—Sov.İKP-nin, sovet cəmiyyətinin "aparıcı və istiqamətləndirici qüvvə" olduğu ifadəsini ləğv etdi. M.Qorbaçov qurultayda SSRİ Prezidenti seçildi, eyni zamanda Sov.İKP MK-nın Baş katibi vəzifəsini saxladı.

Moskva, Litvanın müstəqilliyini tanımasa da, o, bununla rəsmi şəkildə hesablaşsa da, Litva hökuməti əslində, özünü müstəqil dövlət kimi aparırdı. 1991-ci ilin yanvarında, İttifaq rəhbərliyi silahlı qüvvələrin köməyi ilə, Litvaya nəzarəti bərpa etmək qərarına gəldi. Moskva, separatçılara qarşı nizami ordunun hissələrindən istifadə etməyə cəsarət etmədi. Litvaya, Xüsusi Təyinatlı Çevik Dəstənin (XTÇD- OMON) qüvvələri göndərildi. Onlar, paytaxtın əsas məntəqələrini ələ keçirməyə çalışdılar. Vətəndaşlar çevik dəstənin qüvvələrinə müqavimət göstərdi. İnsan tələfatına səbəb olan küçə toqquşmaları oldu. İttifaq hökumətinin qüvvələri geri çəkildi. Litva, Moskvanın təlimatlarına əməl etməyi dayandırsa da, hələ də, SSRİ-dən çıxdığını rəsmi şəkildə bildirməkdən ehtiyat edirdi.

Ölkədə, mərkəzdənqaçma meylləri artır və M.S.Qorbaçovun vəziyyətini çətinləşdirirdi. 1990-cı ilin mayında, RSFSR Xalq Deputatları qurultayı, B.N.Yeltsini RSFSR Ali Sovetinin Sədri seçdi. Bununla o, Moskvada ikinci ən vacib siyasi xadimi - SSRİ-nin ən böyük ittifaq respublikası olan Rusiyanın başçısı oldu. Demokratik müxalifət B.N.Yeltsini dəstəkləməyə başladı. Onlar, mərkəzin Litvada separatçıların hərəkatını güc vasitəsilə yatırmaq cəhdindən sonra, M.S Qorbaçovun siyasətini "mürtəce" hesab edirdilər. Bunu başa düşən B.N.Yeltsin, İttifaq respublikalarının "suverenləşməsi" tərəfdarlarına rəğbətini nümayiş etdirmək üçün səy göstərməyə başladı. İttifaq mərkəzinə qarşı respublikaların "suverenliyini" dəstəkləməsi, B.N.Yeltsinin M.S.Qorbaçova qarşı apardığı mübarizə proqramının vacib vasitəsinə çevrilmişdi.

İttifaq hökuməti ilə respublikalar arasında münasibətlər mürəkkəb olaraq qalırdı. RSFSR rəhbərliyi M.S.Qorbaçovun, SSRİ-ni qoruyub saxlamaq üçün apardığı səylərinə mənfi münasibətini gizlətmədi. 12 iyun 1991-ci ildə, B.N.Yeltsinin təklifi ilə Rusiya Federasiyası "suverenliyini" elan etdi. Buna əsasən, 12 iyun günü sonradan Rusiyanın milli bayramı elan edildi.

Rusiyanın "suverenliyi", 1990-cı ilin iyun-iyul aylarında qondarma suverenlik nümayişinə səbəb oldu - Özbəkistan, Moldova, Ukrayna və Belarusiya da "öz suverenliyini" elan etdilər. Respublikalarla razılığa gəlməyə çalışan M.S.Qorbaçov, 24 oktyabr 1990-cı ildə, 11 respublikanın rəhbərləri ilə görüşdü və müzakirə üçün yeni ittifaq sazişinin layihəsini təqdim etdi. İttifaq hökuməti, SSRİ-nin meydana gəldiyi andan yaradılan "sərt" federasiyadan, "yumşaq" birliyə keçərək - daxili həyatının bütün sahələrində çox geniş səlahiyyətlərə malik olan respublikalardan

ibarət birliyin yaradılması təklifi idi. Respublikaların yuxarı dairələri mərkəzlə danışıqlarda gözləmə mövqyi tutdular. M.S.Qorbaçov əleyhinə müxalifətin mərkəzini B.N.Yeltsinin başçılıq etdiyi Rusiya Federasiyasının rəhbərliyi təşkil edirdi. M.S.Qorbaçovun səlahiyyətlərinə və nüfuzuna iddiaların irəli sürülmədiyi yeganə sahə, xarici siyasət idi.

### 1.2.SSRI-də "yenidənqurma, demokratiya, aşkarlıq" siyasəti və Azərbaycan

Sosializm ideyalarını iflasdan və SSRİ-ni dağılmaqdan xilas etmək məqsədilə 80-ci illərin ortalarında irəli sürülən "yenidənqurma" siyasəti Azərbaycanda da demokratiya və suverenlik uğrunda mübarizəyə yeni nəfəs verdi. Azərbaycanda demokratiya və suverenlik uğrunda kütləvi hərəkat başladı.

Sovet cəmiyyətini köklərinə qədər sarsıdan "yenidənqurma"dan, xüsusən, onun "aşkarlıq" siyasətindən istifadə edən ermənilər yenidən Azərbaycana ərazi iddialarını qaldırdılar. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi hərəkatı ("Miatsum") başladı. Ermənilərin Azərbaycanın əzəli torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq iştahaları yenidən artdı.

Münaqişənin qızışdırılmasında millətçi erməni ziyalılarının, xüsusən Paruyr Qazaryanın, Zori Balayanın, Silva Kaputikyanın və b. azərbaycanlılara qarşı iftira və təhqirlə dolu, tarixi saxtalaşdıran "əsərlər"inin də mühüm rolu olmuşdu. Onların sırasında Z.Balayanın "İki od arasında", "Ocaq" (Yurd), "Əzabkeş xalq" yazıları daha qızışdırıcı təsir göstərmişdi. Ermənistandan Dağlıq Qarabağın ona birləşdirilməsinin vacibliyini sübut etmək niyyəti ilə dünyanın 30-dan çox dövlətinə və beynəlxalq təşkilatlara 300 min erməninin imzası ilə müraciətnamələr göndərilmişdi. 1987-ci ilin avqustunda, Ermənistan Elmlər Akademiyası Moskvaya Dağlıq Qarabağın və hətta Naxçıvanın Ermənistana verilməsi barədə yüz minlərlə erməninin imzası ilə xahiş ərizəsi göndərilmişdi.

1987-ci ilin oktyabrında, Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılması mənfur ermənilərin öz niyyətlərini reallaşdırmaq ümidini artırdı. Hələ 40-cı illərdə Ermənistanda yaradılmış "Qarabağ komitəsi"nin fəaliyyəti genişləndi. 1987-ci ilin oktyabrında, İravanın Puşkin meydanında "Qarabağ Komitəsi"nin ilk açıq mitinqi keçirildi. İndi də münaqişənin ilk qurbanları Qərbi Azərbaycanda (Ermənistanda) yaşayan dinc azərbaycanlılar oldu.

1987-ci ilin 18 noyabrında, M.Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi, ayağı heç vaxt Ermənistan torpağına dəyməyən Abel Oqanbekyan "Щуманите" qəzetinə verdiyi müsahibəsində Dağlıq Qarabağın Ermənistana mənsub olduğunu və ona verilməsi barədə dövlət başçısına təklif verdiyini bəyan etdi.

Bundan sonra, “Qarabağ Komitəsi”, Azərbaycanda, xüsusən DQMV-də uzun müddət fəaliyyət göstərən yerli “Krunk” (Durna) təşkilatı leqal fəaliyyətə başladılar. Dağlıq Qarabağ ermənilərі arasında Ermənistanla birləşmək uğrunda mübarizə aparan “Miatsum” (birləşmə) hərəkatı genişləndi. Ona rəhbərlik etmək məqsədi ilə 1988-ci il mayın 2-də “55-lər komitəsi” yaradıldı.

Erməni millətçiləri Dağlıq Qarabağın Ermənistana verilməsini tələb edərkən Azərbaycanın guya vilayətin sosial-iqtisadi və mədəni inkişafına diqqət vermədiyini də əsas kimi götürürdülər. O zaman Moskvadan göndərilən erməni iqtisadçı alimlərinin də iştirak etdiyi nümayəndəliyin müəyyən etdiyinə görə Sovet hakimiyyəti illərində Dağlıq Qarabağ vilayəti Azərbaycanın digər bölgələrinə nisbətən daha yüksək sürətlə inkişaf etmişdi. Əgər, təkcə 1970-1986-cı illərdə, Azərbaycan üzrə sənaye məhsulu 3 dəfə artmışdısa, DQMV-də 3,3 dəfə artmışdı. Burada sosial inkişaf Azərbaycan və Ermənistanda olan artımdan böyük olmuşdu. Digər sahələrdə də belə idi.

Bunlar boş, əsassız bəhanələrdən başqa bir məsələ deyildi. 1988-ci ilin əvvəllərində, Ermənistanın dəstəyi və Mərkəzin (Moskvanın) müşahidəsi və qızışdırıcı siyasəti sayəsində Dağlıq Qarabağda ermənilərin separatçı hərəkatları daha da gücləndi. Xankəndində (Stepanakertdə) erməni əhalisi ardı-arası kəsilməyən kütləvi mitinqlər, nümayişlər keçirməyə başladılar. Fevralın 15-18-də Şuşa istisna olmaqla, vilayətin bütün rayon sovetlərində sessiyalar keçirildi. Onlar Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq, Ermənistana verilməsini təklif edən qərarlar qəbul edirdilər. Mitinq iştirakçılarının tələbi ilə 1988-ci il fevralın 20-də, DQMV Sovetinin sessiyası “DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə verilməsi haqqında” qərar qəbul etdi.

M.Qorbaçov başda olmaqla Mərkəzin qızışdırıcı, liberal, müşahidəçi və birtərəfli siyasəti qarşıdurmanı daha da kəskinləşdirirdi.

Ermənistan SSR Ali Soveti 1988-ci il iyunun15-də, Azərbaycan SSR Ali Sovetindən DQMV-in Ermənistanın tərkibinə daxil edilməsinə razılıq verməsini təklif etdi. Lakin, rədd cavabı aldı. İyunun 21-də Vilayət Xalq Deputatları Sovetinin fövqəladə sessiyası SSRİ Ali Sovetinə müraciətlə DQMV-nin Ermənistan SSR-ə verilməsini xahiş etdi. Xahiş qəbul edilmədi. İyulun 12-də Vilayət Sovetinin sessiyası qanunsuz olaraq DQMV-nin Azərbaycanın tərkibindən çıxdığı və Ermənistana birləşdirildiyi barədə qeyri-qanuni qərarını elan etdi.

Mərkəz guya iki xalq arasında barışıq yaratmaq məqsədi ilə ermənipərəst A.Volskini DQMV-yə səlahiyyətli nümayəndə təyin etdi. Onun dövründə ermənilər daha da fəallaşdılar. Sentyabrın 18-də ermənilər Xocalıya hücum

etdilər. Sentyabrın 21 və oktyabrın 18-də Xankəndində azərbaycanlıların evləri, avtomobilləri yandırıldı.

1989-cu il yanvarın 12-də, SSRİ Ali Soveti Rəyasət Heyyəti "Azərbaycan SSR-nin DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar verdi. Bu qərar əsasında ermənipərəst A.Volskinin başçılığı altında birbaşa Moskvaya tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Bundan istifadə edən ermənilər 1989-cu ilin iyununda, Qarabağın Azərbaycan kəndlərini mühasirəyə aldılar, sovet ordu hissələrinin köməyi ilə "saqqallılar" Xankəndindən bütün azərbaycanlıları (14 min) çıxardılar.

1989-cu il iyulun sonlarında, Goranboy (keçmiş Şaumyan kənd) rayonunun "sessiya" adlandırdıqları yığıncaqlarında bu rayonun DQMV-yə birləşdirilməsini Azərbaycan SSR Ali Sovetindən xahiş etdilər. Avqustun ortalarında isə DQMV-də "Xalq adından çıxış edən nümayəndələrin qurultayı" keçirildi. Burada vilayətin bədnam "ali hakimiyyət orqanı – Milli Şura" seçildi.

Azərbaycanın demokratik qüvvələrinin tələbi ilə 1989-cu il noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv olundu. Vilayətin idarəçiliyi SSRİ Ali Sovetinnin xüsusi komissiyasının nəzarətində olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Onun başçısı AKP MK katibi V.Polyaniçko idi. 1989-cu il dekabrın 1-də, Ermənistan SSR Ali Soveti "DQMV-nin Ermənistana birləşdirmək haqqında" qeyri-qanuni qərar qəbul etdi. Xankəndində Ermənistan SSR-in bayrağı asıldı. Hətta, burada seçkilər keçirildi.

Azərbaycan buna cavab olaraq, 1990-cı il yanvarın 15-dən etibarən Dağlıq Qarabağdan Azərbaycan kəndlərinin blokadasını aradan qaldırmaq, qanunsuz erməni silahlı dəstələrini ləğv etmək tədbirləri görməyə başladı.

Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd boyunda (976 km) fövqəladə vəziyyət elan etdi. Sərhədlər möhkəmləndirildi, Xüsusi təyinatlı milis dəstələri yaradıldı. Dağlıq Qarabağda təyyarə meydanına nəzarət Azərbaycan milisinə verildi. 1991-ci ilin mayında, bir sıra erməni kəndlərində pasport sisteminin vəziyyəti yoxlanıldı, erməni silahlı dəstələri tərksilah edildilər. Lakin, yenə də ermənilərin Azərbaycan kəndlərinə hücumları davam etməkdə idi.

Bütün bunlar, Azərbaycanın ictimai-siyasi durumuna kəskin mənfi təsir göstərirdi. Azərbaycanda ərazi bütövlüyü və suverenlik uğrunda xalq hərəkatı başlandı.

1988-ci ilin əvvəllərində (fevralın 19-da) ilk etiraz çıxışları başlandı.

Xankəndində bir azərbaycanlının ölümünə səbəb olan erməni vəhşiliklərindən xəbər tutan Ağdam və Ağcabədi rayonlarının əhalisi fevralın 24-də Xankəndinə yürüş etdilər. Yürüş zamanı Əsgəranda iki nəfər

azərbaycanlının öldürülməsi və 19 nəfərin yaralanması münaqişəni daha da dərinləşdirdi.

Azərbaycan rəhbərliyinin fəaliyyətsizliyi üzündən, etiraz hərəkatına 1987-ci ildə ADU-da (indi BDU) yaradılan ”Yurd” təşkilatı, 1988-ci ilin yazında fəaliyyətə başlayan ”Çənlibel”, ”Müstəqillər”, ”Qala”, ”Aşıq Ələsgər”, ”Ozan” cəmiyyətləri, ”Varlıq komitəsi”, Azərbaycan Xalq Cəbhəsinin təşəbbüs qrupu, ”Bakı gənc alimlər klubu” və b. təşkilatlar istiqamət verməyə çalışırdılar.

1988-ci il mayın 21-də Azərbaycan KP MK rəhbərliyinə Ə.X.Vəzirov gətirildi.

1988-ci il noyabrın 17-də ”Topxana” meşəsində sənaye obyektinin tikilməsi xəbəri ilə əlaqədar, ”Azadlıq” meydanında xalqın izdihamlı mitinqi oldu. Noyabrın 19-da Azadlıq meydanında ilk dəfə AXC-nin üçrəngli bayrağı qaldırıldı. Bu, tariximizə ”Milli dirçəliş”hadisəsi kimi daxil olmuşdur. Mitinq 1988-ci il dekabrın 4-də dağıdıldı. Mitinqdə ”Suverenlik, azadlıq” şüarları səslənirdi. Bu müstəqillik uğrunda mübarizə tariximizə ”Meydan hərəkatı” kimi də daxil olmuşdur.

1989-cu ilin martın 13-də hərəkata rəhbərlik etmək üçün Xalq Cəbhəsinin Müvəqqəti Təşəbbüs Mərkəzi təşkil edildi. Həmin il iyulun 16-da Bakıda AXC-nin təsis konfransı keçirildi. Cəbhənin proqram və nizamnaməsi qəbul olundu. Əbülfəz Əliyev (Elçibəy) AXC-nin sədri seçildi. 1989-cu il oktyabrın 5-də AXC rəsmi olaraq Azərbaycan Nazirlər Sovetində qeydə alındı. Dekabrın 24-də ”Azadlıq” qəzeti çıxmağa başladı.

Azərbaycan SSR Ali Sovetinin 1989-cu il sentyabrın 23-də çağırılmış fövqəladə sessiyası ”Azərbaycan SSR-in suverenliyi haqqında” Konstitusiya qanununu qəbul etdi.

1989-cu ilin dekabrından AXC-də üstünlük ”radikalların” əlinə keçdi. Onlar bir sıra rayonlarda (Cəlilabad, Lənkəran) dəyişikliklər etdilər. 1989-cu il dekabrın 31-də Naxçıvanda Araz boyu 137 km Sovet-İran sərhəd məntəqələri dağıdıldı. Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd məntəqələri ləğv olundu.

Azərbaycanın, SSRİ tərkibindən çıxmaq təhlükəsini görən mərkəz onu itaətə gətirmək üçün tədbirlər görməyə başladı. 1990-cı ilin əvvəllərində Azərbaycanda müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirildi. SSRi Müdafiə naziri D.Yazov Gəncəyə gəldi. O, azərbaycanlılara qarşı ”Tayfun” (Qasırğa) adlı əməliyyat planı hazırlamışdı. O, AXC-ni dağıtmaq, ”demokratik hərəkatı” boğmaq üçün tədbirlər görməyə başladı. Yanvarın 13-də bir erməninin iki azərbaycanlını öldürməsi təşkil edildi. Buna cavab olaraq, Bakıda erməni

talanları başlandı. Mərkəzin tapşırığı ilə milis və digər inzibati orqanlar seyrçi mövqe tutdular. Talanlar zamanı 168 nəfər ermənі xəsarət aldı.

Bu proseslər zamanı azərbaycanlı ailələri erməniləri mühafizə edir, onlara sığınacaq verirdilər.

Azərbaycan KP MK-nın 1990-cı il yanvarın 13, 15, 16, 17 və 18-də keçirilən bürolarında hərəkatı güc yolu ilə boğmaq təklifləri irəli sürülürdü. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən, 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyəti "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması barədə" fərman verdi.

Respublika hökumətinin rəhbərliyi iflic vəziyyətində idi. İmperiya Azərbaycanın itiriləcəyi təhlükəsindən xoflanaraq, Bakı ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı. AXC-nin MMŞ-nın təşəbbüsü ilə əhali Bakı ətrafında barrikadalar qurmağa başladılar.

Hadisələrə nəzarət etmək üçün, Moskvadan Bakıya SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Y.Primakov, Sov.İKP MK katibi A.Girenko göndərilmişdi.

1990-cı il yanvarın 19-da, SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-i saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Lakin, xalqı qəflətən yaxalamaq üçün o, gizli saxlanıldı. Hətta, yanvarın 19-da saat 1927-də Azərbaycan Televiziyasının enerji bloku partladılıb sıradan çıxarıldı ki, məlumat qıtlığı yaradılsın.

Nəhayət, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə "şanlı" sovet qoşunları Bakıda qanlı qırğın törətdilər. Əməliyyata SSRİ-nin Hərbi naziri D.Yazov başçılıq edirdi. Əməliyyat nəticəsində 132 nəfər günahsız adam qətlə yetirildi. Onlardan 116 nəfəri azərbaycanlı idi. 744 nəfər yaralandı. 4 nəfər itkin düşdü, 400 nəfər həbs edildi.

Bu, tariximizə "Qanlı yanvar" hadisəsi kimi daxil olmuşdur. O, tariximizin faciəli, həm də çox şanlı hadisəsidir. Belə ki, bu hadisə Azərbaycan xalqının, onun qəhrəman oğul və qızlarının azadlıq naminə öz həyatlarını belə qurban verməyə qadir olduqlarını nümayiş etdirdi. Onlar, öz vətəndaşlarını belə məhv etməkdən usanmayan "şanlı" sovet ordusunun təpədən dırnağa kimi silahlanmış hissələrinə qarşı ölümün gözünə dik baxmaqla çıxdılar və son nəticədə qalib gəldilər.

1990-cı il yanvarın 21-də, o zaman Moskvada ciddi təqib şəraitində yaşayan Heydər Əliyev Azərbaycan daimi nümayəndəliyinə gələrək, təşkil olunmuş mitinqdə çıxış etdi. Öz çıxışında o, 20 yanvar hadisəsinə ən düzgün siyasi qiymət verdi. O, imperiya rəhbərliyini öz vətəndaşlarına qarşı çıxan qatillər adlandırdı.

Bakıda 3 günlük matəm elan edildi. “Azadlıq” meydanında izdihamlı mitinq keçirildi. Xalq öz şahin qəhrəmanları ilə vidalaşırdı. Mitinqdə və matəm mərasimində iki milyona yaxın adam iştirak etmişdi. “Qanlı yanvar” şəhidləri keçmişdə Kirov parkı adlanan yerdə əbədi olaraq torpağa tapşırıldılar. İndi ora “Şəhidlər xiyabanı” adlanır.

Bu faciəli hadisələr respublikada rəhbərliyin növbəti dəyişdirilməsinə gətirib çıxardı. Yanvarın 24-də, hələ qanlı 20 yanvar faciəsi ərəfəsində – yanvarın 18-də Bakını tərk etmiş Ə.Vəzirovun yerinə, o zaman Azərbaycan SSR Nazirlər Sovetinin Sədri işləyən A.Mütəllibov gətirildi. O, Azərbaycan KP MK-nın Birinci katibi seçildi. Həsən Həsənov isə Azərbaycan hökumətinin başçısı təyin olundu.

Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. AXC MMŞ dağıdıldı. Cəbhəçilərin bir çoxu həbs olundu.

Bundan sonra suverenlik və azadlıq uğrunda mübarizənin yeni mərhələsi başlandı. 1990-cı il ”Qanlı yanvar”hadisəsindən sonra milli-azadlıq hərəkatı yeni məcraya daxil oldu. İndi o, imperiya tərkibindən çıxmaq, müstəqillik əldə etmək məzmunu aldı.

### 1.3. SSRİ-də siyasi böhranın dərinləşməsi

Sovet İttifaqı, Yaxın Şərq hadisələrinə qeyri-adi bir mövqe tutdu. Məsələ yalnız Moskvanın, Küveytin İraq işğalından azad edilməsi üçün ABŞ-ın hərəkətini dəstəkləməsi deyildi. SSRİ rəhbərliyinin başı getdikcə daxili problemlərə daha çox qarışırdı və fəal xarici siyasət yürütmək üçün imkanı yox idi. Separatçı meyllər, Sovet İttifaqını tamamilə əhatə etmişdi, lakin M.S.Qorbaçov idarəçiliyi, istər Moskvada, istərsə də İttifaq respublikalarında müxalifətə qarşı geniş güc tətbiqinə getmədi.

İttifaq rəhbərliyi, hələ də Baltik respublikalarının müstəqilliyini tanımırdı. Bunun əksinə olaraq, B.N.Yeltsinin başçılıq etdiyi Rusiya rəhbərliyi Baltikyanı respublikaların tərəfində çıxış edirdi. 19 fevral 1991-ci ildə, B.N.Yeltsin SSRİ Mərkəzi Televiziyasına verdiyi müsahibəsində, M.S.Qorbaçovu respublikalararası münasibətlərin problemlərinə həll yolu tapa bilməməkdə günahlandırdı və onun könüllü istefasını tələb etdi.

B.N.Yeltsin və M.S.Qorbaçov arasında- iki hakimiyyət qurumu - İttifaq və Respublika idarəçiliyi arasında siyasi mübarizə başladı. Xarici və yerli ədəbiyyatda, M.S.Qorbaçovun SSRİ-də islahatlar keçirmək və onu qoruyub saxlamaq səylərinin qarşısının alınmasında, Baltikyanı ölkələrdə baş verən hadisələrin o qədər də böyük

təsiri olmadı, əksinə bu məsələdə, şüurlu şəkildə SSRİ-nin dağılmasına yönəlmiş Rusiya rəhbərliyinin hərəkətləri çox mühüm rol oynadı.

Qərb ölkələri, 1991-ci ildə Baltikyanı ölkələrdə, M.S.Qorbaçovun mövqelərini zəiflətmək istəmədikləri üçün, SSRİ-nin güc tətbiqinə yumşaq münasibət göstərdilər. Lakin, onun hərəkətlərinə tamamilə göz yuma bilmədilər. Rəsmi səviyyədə Amerika rəhbərliyi, Sovet lideri üçün əlavə çətinliklər yaratmaq istəmirdilər. Onlar hesab edirdilər ki, Baltikyanı ölkələrdə baş verən hadisələr, Almaniyanın birləşməsindən, Amerika və Sovet diplomatlarının hazırladığı SHS-1 müqaviləsindən daha az əhəmiyyətə malikdir.

1990-1991-ci illər ərzində İttifaq rəhbərliyi, SSRİ-də islahatların aparılması işlərinə rəhbərlik etmişdi. 12 iyun 1990-cı ildə, Baltikyanı ölkələrdən başqa, bütün İttifaq respublikalarının rəhbərlərinin daxil olduğu Federasiya Şurasının iclası keçirildi. Burada, yeni birlik müqaviləsinin imzalanması və SSRİ-nin "Suveren Dövlətlər İttifaqı"na çevrilməsi qərara alındı. O, federasiya, konfederasiya və əməkdaşlıq elementlərini özündə birləşdirməli idi. Yeni birlik müqaviləsinin 7 layihəsi təqdim edildi.

24 dekabr 1990-cı ildə, SSRİ Xalq Deputatları Qurultayı "Yeni İttifaq Müqaviləsinin ümumi nəzəri əsasları haqqında" qətnamə qəbul etdi. Mövcud İttifaqın "suveren respublikaların könüllü, bərabər hüquqlu ittifaqa - demokratik federal dövlətə" çevrilməsi təklifini verdi. Qurultay eyni zamanda, İttifaqın taleyi ilə bağlı referendum keçirmək qərarına gəldi. Referenduma təqdim olunan sorğu belə tərtib edilmişdi: "Sovet Sosialist Respublikaları İttifaqının, bütün millətlərin insan hüquq və azadlıqlarının tam təmin ediləcəyi, bərabər hüquqlu suveren respublikaların yenilənmiş federasiyası olaraq qorunmasını zəruri hesab edirsinizmi?"

Fevralın əvvəlində, üç Baltikyanı respublika, Gürcüstan, Ermənistan və Moldova referendumun keçirilməməsi barədə qərar qəbul etdilər. Referendum, 17 mart 1991-ci ildə keçirildi. Referendumda təxminən 149 milyon insan iştirak etmişdi (seçicilərin 80% -i). Bunlardan 76,4% müsbət, 21,7% -i mənfi cavab vermişdi.

23 aprel 1991-ci ildə M.S. Qorbaçov, Novo-Oqaryovda (SSRİ Prezidentinin Moskva yaxınlığındakı iqamətgahı) Rusiya, Ukrayna, Belarusiya, Özbəkistan, Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Türkmənistan və Tacikistanın ən yüksək dövlət orqanlarının rəhbərləri ilə görüşdü. Ölkədə yaranan vəziyyəti sabitləşdirmək və böhrandan çıxmaq üçün, təxirəsalınmaz tədbirlər barədə birgə bəyanat hazırlanaraq qəbul edildi.

Burada, SSRİ-nin saxlanması ilə bağlı, ümumxalq səsverməsinin nəticələrinə əsasən yeni ittifaq müqaviləsinin imzalanmasının və bundan sonra ölkədə

konstitusiya quruluşunun bərpası üçün tədbirlərin görülməsinin vacibliyindən danışıldı. İyulun 23-də, Respublika nümayəndə heyətləri başçılarının növbəti iclasında, onun layihəsi üzərində işlər başa çatdı və 15 avqust tarixində nəşr olundu. Müqavilənin imzalanması 20 avqust 1991-ci ildə baş tutmalı idi.

Bu vaxt, M.S.Qorbaçovun əsas rəqibi olan, RSFSR Ali Sovetinin sədri B.N.Yeltsin öz mövqeyini möhkəmləndirirdi. 12 iyun 1991-ci ildə, birbaşa seçkilər əsasında, RSFSR-in Prezidenti seçildi. Bu, M.S.Qorbaçovun mövqeyinə təsir edərək, daha da zəiflətdi.

### 1.4. SSRİ-də dövlət çevrilişinə cəhd

4 avqust 1991-ci il tarixində, M.S. Qorbaçov ölkədə yaranmış gərgin vəziyyətə baxmayaraq, Forosda (Krım) Prezident iqamətgahına istirahətə getdi. Avqustun 20-də, İttifaq müqaviləsi bağlanarkən paytaxta qayıtmalı idi. 19 avqust 1991-ci ildə Moskvada, Sov.İKP Mərkəzi Komitəsinin Siyasi Bürosunun bir qrup üzvü çevrilişə cəhd etdi.

Avqustun 19-da səhər, radio və televiziyada ölkədə fövqəladə vəziyyətin tətbiqi barədə məlumat verildi. Məlumatda, "sağlamlıq vəziyyəti ilə" əlaqədar olaraq, Prezident M.Qorbaçov öz vəzifələrini icra edə bilmədiyi barədə məlumat verildi. Ona görə, bu vəzifələri müvəqqəti olaraq, SSRİ-nin vitse-prezidenti olan Q.İ.Yanayevin rəhbərliyi ilə, qondarma Dövlət Fövqəladə Hallar Komitəsi yerinə yetirəcək. Bunun ardınca, SSRİ Ali Sovetinin Sədri A.İ.Lukyanovun 23 iyul 1991-ci ildə razılaşdırılmış İttifaq müqaviləsini təqdim olunan variantda imzalamağın mümkün olmadığını ifadə edən, bəyanəti verildi.

Moskvada baş verən hadisələrə cavab olaraq, ertəsi gün, 20 avqust 1991-ci ildə, Estoniya Ali Şurası 8 may 1991-ci ildə qəbul edilmiş müstəqillik bəyannaməsinin qüvvəyə minməsi barədə qərar qəbul etdi. 21 avqustda Latviya parlamenti oxşar qərar qəbul etdi. SSRİ-nin dağılması fakta çevrilirdi.

Fövqəladə Komitənin qanunsuz addımları Moskvada geniş etiraza səbəb oldu. Küçələrdə kortəbii nümayişlər başladı, onların iştirakçıları RSFSR Ali Sovetinin binasının ("ağ ev") yanına gəldilər. RSFR Prezidenti B.N. Yeltsin, Dövlət Fövqəladə Komitəsinin səlahiyyətlərini tanımaqdan imtina etdi və Rusiya vətəndaşlarını onun əmrlərinə tabe olmamağa çağırdı. B.N.Yeltsin Rusiya Federasiyası ərazisində, Dövlət Fövqəladə Komitəsinin qanundan kənar olması haqqında sərəncam imzaladı. Əslində, B.N.Yeltsin və Rusiya Ali Soveti çevriliş təşkilatçılarına müqavimət göstərdilər. RSFSR-in Prezidentini həm demokratik qüvvələrin geniş koalisiyası, həm də müxtəlif anti-kommunist qruplar - monarxistlərdən və millətçilərdən tutmuş anarxistlərə qədər hamısı dəstəklədi.

SSRİ silahlı qüvvələrinin rəhbərliyi parçalanma baş verdi. Ordu komandanlığının əksəriyyəti, Fövqəladə Komitənin əmrlərinə tabe olmaqdan və xalqa qarşı güc tətbiq etməkdən imtina etdi. "Ağ ev" ətrafında Dövlət Fövqəladə Hallar Komitəsinin tərəfdarları tərəfindən hücum cəhdi zamanı binanı müdafiə etmək istəyən çevriliş əleyhdarlarının canlı halqası meydana gəldi. Çevrilişin təşkilatçıları arasında da, tabe olmayanlara qarşı güc tətbiq edilməsi məsələsində birlik yox idi.

Şəhərin küçələrində, Fövqəladə Hallar Komitəsinin əmri ilə paytaxta gətirilən qoşunlarla, müxalif düşüncəli vətəndaşlar arasında ara-sıra qarşıdurmalar oldu, nəticədə üç nəfər həlak oldu. Adi əsgərlər xalqa qarşı silah tətbiq etmək istəmirdilər. 21 avqust 1991-ci ildə, çevrilişin uğursuzluğa düçar olduğu məlum oldu. Ordu komandanlığı, nəhayət DFHK-nə tabe olmaqdan imtina etdi.

B. N. Yeltsin qətiyyətli hərəkətə keçdi. DFHK üzvləri həbs olundu. Forosda həbsdən azad edilən SSRİ Prezidenti M.S.Qorbaçov Moskvaya gətirildi. Əslində, B.N.Yeltsinin müqaviməti ilə qarşısı alınan çevriliş cəhdi, M.S.Qorbaçovun nüfuzuna düzəlməz xələl gətirdi. B.N.Yeltsin faktiki olaraq, ölkənin əsas siyasi lideri mövqeyinə yüksəldi. Avqust çevrilişindən sonra, Sov.İKP tamamilə nüfuzdan düşdü. 24 avqust 1991-ci ildə, M.S. Qorbaçov Sov.İKP Mərkəzi Komitəsinin Baş katibi vəzifəsindən istefa verdi və Mərkəzi Komitəyə öz-özünü buraxmağı təklif etdi. Prezident B.Yeltsin, Sov.İKP-nin fəaliyyətini qadağan edən sərəncam verdi. Sov.İKP-nin bütün idarələri bağlandı.

### 1.5. SSRİ-nin öz-özünü ləğv etməsi və Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranması

22 avqust 1991-ci ildə, RSFSR Prezidenti B.N. Yeltsin "RSFSR-in suverenliyinin iqtisadi əsaslarının təmin edilməsi haqqında" fərman imzaladı. Bu fərman, Rusiya qanunlarına əsasən, öz ərazisində yerləşən ittifaq səviyyəli müəssisə və təşkilatların RSFSR-ə verilməsini təmin etdi. İdarəçiliyi SSRİ-yə aid olan qurumlar istisna edilirdi. Əslində, RSFSR siyasi və iqtisadi cəhətdən SSRİ-dən ayrıldı. 28 avqustda RSFSR rəhbərliyi, SSRİ Dövlət Bankı və SSRİ Xarici- iqtisadi bank üzərində nəzarətin yaradıldığını elan etdi.

24 avqust 1991-ci il tarixindən başlayaraq, Ukrayna, Belarusiya, Moldova, Azərbaycan, Qırğızıstan və Özbəkistan bir neçə gün ərzində öz müstəqilliklərini elan etdilər. İttifaq sazişinin imzalanmasının baş tutmaması təhlükəsi yarandı. Üstəlik, 24 avqust 1991-ci ildə, Rusiya Federasiyası Estoniya və Latviyanın müstəqilliyini rəsmi olaraq tanıdı. Litva, hələ 29 iyul 1991-ci ildə, Rusiya

Federasiyası tərəfindən tanınmışdı. Yeni Baltikyanı ölkələr, Skandinaviya ölkələri və ABŞ (2 sentyabr 1991) tərəfindən də tanındı.

Rusiya rəhbərliyi, Dövlət Fövqəladə Hallar Komitəsi ilə mübarizə etmək naminə, M.S.Qorbaçova hakimiyyətinin bərpasına kömək etsə də, İttifaq orqanlarına, RSFSR ərazisində öz nəzarətini bərpa etməyə imkan vermək istəmirdi və Rusiyanı İttifaqın idarəçiliyindən çıxartmaq istəyirdi.

B.N. Yeltsinin rəhbərliyi ilə Rusiya Federasiyasında SSRİ-nin dəyişdirilməsi üçün, öz layihəsini hazırlamaq üçün işlər aparıldı. 1991-ci ilin sentyabrında, bu məsələni, B.N.Yeltsinin müşavirləri həll etdilər. 1 oktyabr 1991-ci ildə, Rusiya layihəsi təqdim olundu. Bu layihənin əsas qayəsi, RSFSR-in müstəqil dövlətə çevrilərək, beynəlxalq aləmdə Sovet İttifaqının yeganə varisi olması idi. Hesab olunurdu ki. zəngin ehtiyat mənbələrinə və hərbi gücə sahib olan, Rusiya Federasiyası digər respublikaları özünə cəlb edərək, Rusiya üçün əlverişli şərtlərlə onlarla inteqrasiya əlaqələrinə girə biləcək.

İttifaqın hökumət orqanları çərçivəsində, yeni İttifaq Müqaviləsinin yeni layihəsi üzərində hazırlıqlar bərpa edildi. 14 noyabr 1991-ci ildə, SSRİ Dövlət Şurası, Suveren Dövlətlər İttifaqı (SDİ) haqqında müqavilə layihəsini müzakirə etdi. Noyabrın 25-də keçirilən iclasda, Rusiya, Belarusiya və Ukrayna liderləri, təqdim olunan layihələrə etiraz etsələr də, o təsdiqləndi. İclasdan sonra, M.Qorbaçov gələcək ittifaqı "konfederativ demokratik dövlət" adlandırdı. 27 noyabrda, layihə mətbuatda çap olundu.

Lakin, 1991-ci il dekabrın 1-də, Ukraynada referendum keçirildi, iştirakçıların 90,32%-i respublikanın müstəqilliyinin lehinə səs verdi və artıq dekabrın 2-də Rusiya Prezidenti Ukraynanın müstəqilliyini tanıdığını elan etdi.

Dekabrın 3-də, SSRİ Ali Soveti Suveren Dövlətlər İttifaqı haqqında müqavilənin layihəsini təsdiqlədi və SSRİ Prezidenti M.S.Qorbaçov İttifaq respublikalarının ali sovetlərinə, onu təsdiq etmək üçün müraciət etdi. Bu addım, M.S.Qorbaçovun əleyhdarlarını qətiyyətli addım atmağa vadar etdi.

8 dekabr 1991-ci ildə, Belarusiyanın Brest şəhəri yaxınlığında olan "Belovejsk meşəsi" (puşa) adlı ərazisində yerləşən Viskuli hökumət iqamətgahında Rusiya, Ukrayna və Belarusiya liderlərinin (B.N. Yeltsin, L.M. Kravçuk və S.S.Şuşkeviç) gizli görüşü keçirildi. Burada onlar, Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında üçtərəfli razılıq Müqaviləsi imzaladılar. Sazişdə deyilirdi: "SSRİ ittifaqı beynəlxalq hüququn subyekti və geosiyasi reallıq kimi, mövcud olmağını dayandırır." Dekabrın 9 və 10-da Ukrayna və Belarusiyanın ali məclisləri, 1922-ci ildə SSRİ-nin yaradılması haqqında müqaviləni ləğv etdilər, 12 dekabr 1991-ci ildə RSFSR Ali Soveti də bu addımı atdı.

SSRİ xalq deputatı V.Alksnisin sözlərinə görə, "Belarusiya DTK rəhbərləri, Yeltsin, Kravçuk və Şuşkeviçin SSRİ-ni ləğv edən sazişi imzalamaq niyyətindən xəbərdar olduqları zaman, bu barədə dərhal Moskvaya, o cümlədən M.S.Qorbaçova məlumat çatdırmışdılar. Belarusiyanın DTK-nın xüsusi təyinatlı qüvvələri, Viskuliyə yeridilərək, ovçuluq iqamətgahının yerləşdiyi meşəni mühasirəyə aldılar və SSRİ-nin ləğv edicilərini həbs etmək əmrini gözləməyə başladılar. Buna cavab olaraq, Moskvadan mövqelərdə qalmaq və əmr gözləmək tapşırığı verildi. Lakin, əmr yenə də, verilmədi."

M.Qorbaçov, qohumlarının, dostlarının və öz şəxsi ifadələrinə görə, mümkün "qan tökülməsindən" ehtiyat etmişdi. 25 ildən sonra, M. Qorbaçov özü onları niyə həbs etmədiyini belə izah etmişdi: "Düşünürəm ki, vətəndaş müharibəsinin qoxusu gəlirdi. Bu təhlükəli idi. Fikirləşirəm ki, demokratik yolla çatmalı olduğum hakimiyyəti, güc vasitəsilə əldə saxlamaq istəməyim düz olmazdı."

Sazişin imzalanmasından bir gün sonra, M.Qorbaçov, hər bir müttəfiq respublikanın İttifaqdan ayrılmaq hüququna malik olduğunu, lakin çoxmillətli bir dövlətin taleyini, üç respublikanın rəhbərlərinin iradəsi ilə müəyyənləşdirilə bilinməməsi haqqında bəyanət verdi. O, bildirirdi ki, bu məsələ, yalnız konstitusiya yolu ilə bütün İttifaq respublikalarının iştirakı ilə, xalqlarının iradəsi nəzərə alınaraq həll edilməli idi.

Belovejsk sazişinin üç iştirakçısı müstəqil dövlətlərin liderlərinə çevrildilər. M.S. Qorbaçov isə, 1922-ci il tarixli müqaviləsinə əsasən, bu üç respublikanın qurucusu olduqları və onlar çıxandan sonra artıq mövcud ola bilməyəcək və heç nəyi olmayan bir "İttifaqın" Prezidenti oldu. 10 dekabr 1991-ci ildə, Belarusiyanın Ali Soveti (yalnız deputat A.G. Lukaşenko onun əleyhinə çıxış etdi, Belarusiyanın gələcək Prezidenti) və Ukrayna Ali Soveti Belovejsk sazişini təsdiq etdi.

İki gün sonra, 10 dekabr 1991-ci ildə, Rusiya Ali Soveti oxşar qərar verdi (altı deputat əleyhinə səs verdi). 21 dekabr 1991-ci ildə, 11 müttəfiq respublikanın liderləri, Alma-Ataya toplaşdı, onlardan 8-i MDB-nin yaradılması haqqında Rusiya-Belarus-Ukraynanın Belovejsk sazişinə qoşulma Protokolunu imzaladı. Müstəqil Dövlətlər Birliyində, keçmiş SSRİ-nin 11 respublikası birləşdi. Bu birliyə, Baltikyanı ölkələr və Gürcüstan daxil olmadı. 25 dekabr 1991-ci ildə, SSRİ Prezidenti M.S.Qorbaçov ictimai vəzifəsində fəaliyyətinə xitam verilməsi ilə əlaqədar sovet televiziyasında vida çıxışı etdi. Üç gündən sonra, RSFSR, Rusiya Federasiyası elan edildi.

Dekabrın 22-də, 11 müttəfiq respublikanın liderlərinin Alma-Atada Belovejsk sazişinin protokolunu imzaladıqdan bir gün sonra, Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (XTNS- ВДНХ) SSRİ-nin ləğvi əleyhinə on

minə qədər insanın iştirak etdiyi mitinq ("Aclıq növbələrinin yürüşü" adlanırdı) keçirildi .

**Qeyd: Bütün bu hadisələrin maraqlı bir məqamı var: inanılmaz tarixi dəyəri olan orijinal sənəd – Belovejskdə imzalanmış razılaşması itirilir. Bu gün, MDB İcraiyyə Komitəsində bu sənədin yalnız notarial qaydada təsdiqlənmiş bir nüsxəsi var. Deyirlər ki, əsli ilə eyni hüquqi qüvvəyə malikdir.**

1992-ci ilin aprel ayında, Rusiya Xalq Deputatlarının VI Qurultayı üç dəfə Belovejsk sazişini təsdiqləməkdən imtina etmişdi və RSFSR Konstitusiyasının mətnindən, SSRİ Konstitusiyası və qanunları ifadələrini çıxarmağı tələb etmişdi. Sonralar bu məsələ. Xalq Deputatları Qurultayı ilə Prezident Yeltsin arasında yaranan qarşıdurmanın səbəblərindən biri oldu və daha sonra, 1993-cü ilin oktyabrında, qurultayın qovulmasına səbəb oldu. SSRİ Konstitusiyası və SSRİ qanunları ifadələri, Rusiya Federasiyası - Rusiyanın (RSFSR) 1978-ci il Konstitusiyasının 4 və 102-ci maddələrində qeyd edilməkdə davam edildi. Ancaq, 25 dekabr 1993-cü ildə, ümumi səsvermə ilə qəbul edilən Rusiya Federasiyasının Konstitusiyasında, SSRİ Konstitusiya və qanunları haqqında daha heç bir qeyd verilməmişdi.

## 2. Şərqi və Cənubi Avropada demokratik hərəkatlar

### 2.1. Şərqi Avropa ölkələrində anti-kommunist "inqilablar"

"Yenidənqurma" haqqında məlumat dalğaları, qadağalara baxmayaraq, sosialist dövlətlərinə çatdı və hökumət əleyhinə olan çıxışların başlanmasını səbəb oldu. Hətta Rusiya və sovet əleyhinə olan siyasətçiləri, M. Qorbaçovda və "yenidənqurma"da, 1945-ci ildən sonra Şərqi Avropada yaradılan sistemin yenilənməsinə, dəyişiklik edilməsinə və ondan imtina edilməsinə imkanın yaradıldığını gördülər. Regionda "sosializmin yenilənməsi" hərəkatı başladı və o, köhnə siyasi sistemin kortəbii şəkildə dağıdılması prosesinə keçdi.

Polşada**,** general V. Yaruzelskinin 1981-ci ildə tətbiq etdiyi sərt tədbirləri sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu. Lakin o, özünün şəxsi hakimiyyətin güclənməsindən məmnun qalmadı və ikinci etiraz dalğasının qarşısını almaq üçün, ehtiyatla müxalifətlə dialoq qurmağa başladı. Dövlət nümayəndələrinin, Katolik Kilsəsi ilə təmasları başlandı. 1985-ci ildə, Y.Yaruzelskinin Prezident seçilməsindən az sonra, ölkədə əfv elan edildi (sentyabr 1986), bunun sayəsində Həmrəylik liderləri fəaliyyətlərini bərpa edə bildilər. Mədəniyyət sahəsində nəzarət yumşaldıldı. 1987-ci ildə, Polşanın Qərb ölkələri ilə əlaqələri yaxşılaşdı və 1981-ci ildə PXR-ə qarşı hərbi vəziyyətlə əlaqədar tətbiq

olunan iqtisadi sanksiyalar ləğv edildi. Polşa BVF-a qəbul edildi və onun borcları yeni kredit nizamına salındı.

1988-ci ildə Polşa hökuməti, bütün siyasi partiya və hərəkatların "dəyirmi masa"sının çağırıldığını elan etdi. Polşa Vahid Fəhlə Partiyasının (PVFP) liderləri, 1989-cu ilin fevral-aprel aylarında, "dəyirmi masa"nın ilk iclasında, “Həmrəyliyi” qanuniləşdirmək və ölkənin siyasi sistemində bir sıra dəyişikliklər etmək barədə razılığa gəldilər: ilk növbədə çoxpartiyalı əsaslarla seçkilər və parlamentin ikinci palatasının - senatın yaradılması məsələləri haqqında. 1989-cu il iyun seçkilərindən sonra, Seymdə “Həmrəylik” keçmiş qeyri-kommunist partiyalarla koalisiyaya girdi və PVFP azlıqda qaldı. 1989-cu ilin sentyabrında, katolik ziyalılarının nümayəndəsi Tadeuş Mazovetskinin rəhbərliyi ilə ilk qeyri-kommunist hökuməti quruldu. 1989-cu ilin iyulunda, Sejm yenidən, yekdilliklə Y.Yaruzelskinin ölkənin Prezidenti seçilməsinə səs verdi. 1990-cı ilin yanvarında, PVFP özünün Sosial Demokrat Partiyasına çevrildiyini elan etdi.

Birbaşa Prezident seçkiləri 1990-cı ilə təyin edildi. Seçkilərin keçirilməsi ərəfəsində, Y.Yaruzelski namizədliyini irəli sürməkdən imtina etdi. Ölkə Prezidenti “Həmrəyliyin” lideri L.Valensa oldu.

Sovet-Polşa münasibətlərində yeni mərhələ başladı. Münasibətlərdə soyuqlaşmanın qarşısını almaq üçün, 1990-cı ilin yazında Moskva 1940-cı ildə Katında əsir götürülmüş Polşa zabitlərinin, Stalin rəhbərliyi tərəfindən güllələnməsinə görə məsuliyyətini rəsmi olaraq tanıdı. O illərin hadisələri ilə bağlı olan sənədləri Polşa nümayəndələrinə təhvil verdi.

Macarıstanda 1988-ci ildə, Y.Kadar partiya sədri vəzifəsini saxlayaraq, Macarıstan Sosialist Fəhlə Partiyası (MSFP) Mərkəzi Komitəsinin Baş katibi vəzifəsindən getdi. Siyasi büroya, onun təkidi ilə, bazar islahatlarının tərəfdarları daxil edildi və 1989-cu ilin fevralında, ölkədə çoxpartiyalı sistemə icazə verildi. Macarıstanın parlament demokratiyasına keçidi ilə əlaqədar MSFP –nin, müxalifət partiyaları və ictimai təşkilatlar arasında üçtərəfli danışıqlar başladı. Ölkədə Prezident vəzifəsi təsis edildi.

1989-cu ilin mayında, Macarıstan hökuməti Avstriya ilə sərhədi açdı. Macarıstan və ADR arasında açıq sərhəd sistemi mövcud olduğundan, Macarıstan və Avstriyadan AFR-ə qaçmaq istəyən ADR vətəndaşlarının axını baş verdi.

Oktyabr ayında, hakim MSFP, Macarıstan Sosialist partiyasına və Macarıstan Kommunist partiyasına bölündü. Onun üzvlərinin əksəriyyəti, Macarıstan Sosialist Partiyasına daxil olmuşdu. 18 oktyabr 1989-cu ildə, Macarıstan Parlamenti, ölkənin konstitusiyasına 100-ə qədər düzəliş etdilər və bunun nəticəsində də siyasi sistem dəyişdi. 23 oktyabrda Macarıstan Respublikası - azad, demokratik dövlət elan

edildi. Plüralist sistemin tamamilə formalaşması, 1990-cı ilin yazında Dövlət Məclisinə keçirilən seçkilərdən sonra baş verdi. Seçkilərdə. MSP cəmi 11% səs aldı və əksər yerləri, Macarıstan Demokratik Forumu qazandı. Onun lideri Yojef Antall, Macarıstanın yeni hökumətin başçısı oldu.

SSRİ-nin qalan müttəfiqlərində, dəyişikliklər, kütləvi hərəkatların az və ya çox təsiri ilə baş verirdi. Bolqarıstanda, 10 noyabr 1989-cu ildə, BKP Mərkəzi Komitəsinin Baş katibi Todor Jivkov vəzifəsindən istefa verdi. Onun əvəz edən Pyotr Mladenov müxalif ziyalılarla dialoq qurmağa çalışdı. Lakin bu addım, demokratikləşmə lehinə keçirilən küçə etirazlarının qarşısını ala bilmədi. Onların təsiri ilə, 1989-cu ilin dekabrında, "Demokratik Qüvvələr İttifaqı" adlı müxalifət təşkilatı yaradıldı, onun tələbi ilə Bolqarıstan hökuməti "milli dəyirmi masa" çağırmağa məcbur oldu.

Bu danışıqlar çətin gedirdi, lakin 1990-cı ilin martında mülkiyyət bərabərliyinin elan edilməsi, hakimiyyət bölgüsü prinsiplərinin və çoxpartiyalı sistemin tətbiqi barədə razılıqlar əldə edildi. Ölkənin ilk qeyri-kommunist hökuməti, 1991-ci ilin oktyabrında quruldu. 1990-cı ilin aprelində, özünü sosialist adlandıran Bolqarıstan Kommunist Partiyası, 90-cı illərin ortalarına qədər, parlament seçkilərində qazandığı səslərin sayında Demokratik Qüvvələr İttifaqını qabaqlayaraq, təsirli bir qüvvə olaraq qaldı.

1989-cu ilin mayında, Avstriya və Macarıstan sərhədinin açılması ilə, təxminən yarım milyona yaxın vətəndaşın ADR-dən qaçdığı bir vaxtda, Şərqi Almaniyada yarımdinc əks-kommunist inqilabı başladı. Müxtəlif şəhərlərdə, hökumət əleyhinə etirazlar və polislə toqquşmalar baş verdi. 1989-cu ilin oktyabrında, Mixail Qorbaçov ADR-in 40 illik yubileyinin qeyd olunması ilə əlaqədar Berlinə rəsmi səfərə gəldi. Bu səfər, ADR kommunistlərinin E.Honekkerə qarşı çıxışlarını sürətləndirdi. Təntənələrdən 10 gün sonra, AVSP Mərkəzi Komitəsinin Plenumu, onu rəhbər vəzifədən uzaqlaşdırdı və Eqon Krentsi Mərkəzi Komitənin Baş katibi seçdi. Ancaq bir ay sonra, onu daha liberal olan Qregor Qiz ilə əvəz etdi. Onun rəhbərliyi altında AVSP Demokratik Sosializm Partiyası adlandırılmağa başlandı və Şərqi Almaniya cəmiyyətindəki lider rolundan imtina etməyə hazır olduğunu bildirdi. 1989-cu il noyabrın əvvəlində, ölkədə islahatçı kimi tanınan Hans Modrovun rəhbərlik etdiyi koalisiya hökuməti quruldu. 9 noyabr 1989-cu ildə, Almaniya Demokratik Respublikasının Almaniya Federativ Respublikası ilə sərhədi açıldı. Elə həmin gün, "Berlin divarı" dağıdıldı. İki Almaniya dövlətinin birliyi gündəmə gətirildi.

Çexoslovakiyada islahatçılıq həyəcanı, M.S.Qorbaçovun Praqaya gəlişi zamanı, 1987-ci ildə başlamışdı. 1987-ci ilin dekabrında, QustavQusak

Çexoslovakiya Prezidenti vəzifəsini saxlayaraq, ÇKP Baş katibi vəzifəsini MiloşYakeşə güzəştə getdi. Praqada, "yenidənqurma"ya qarşı şübhəli münasibət göstərməsinə baxmayaraq, ehtiyatlı iqtisadi islahatlara başlamağa çalışdılar. Bu vəzifə, 1988-ci ildə yaradılan Ladislav Adamets hökumətinə həvalə edildi. Ancaq, 1968-ci ildən sonra, ölkədə sıxışdırılan müxalifət hərəkatı rəhbərliyin planlarını alt-üst edərək küçələrə axışdı.

1989-cu ilin noyabrında, Praqada tələbələrin etiraz hərəkatı başladı. Müxalifət təşkilatları yarandı - Çexiyada "Vətəndaş forumu" və Slovakiyada "İctimaiyyat zorakılığa qarşı". M.Yakeş istefa verdi. Müxalifətin təzyiqi ilə, Kommunist Partiyası ÇKP-nin aparıcı roluna dair müddəanın ölkə konstitusiyasından çıxarmağa razı oldu. Dekabrın 10-da, Q. Qusak Çexoslovakiyanın Prezidenti vəzifəsindən istefa verdi. Çexoslovakiyada Marian Çalfanın başçılıq etdiyi koalisiya hökuməti yaradıldı. Hökumətdə əsas vəzifələri keçmiş müxalifətçilər tutdular. Onlardan ən tanınmışı, dramaturq Vatslav Havel, 29 dekabr 1989-cu ildə, ölkənin Prezidenti seçildi. Yeni hökumət tərəfindən bəraət alan, "Praqa baharı" dövründə Kommunist Partiyasının keçmiş başçısı Aleksandr Dubçek Federal Məclisin sədri oldu. 1990-cı ilin parlament və yerli seçkilərdə, Kommunist Partiyası məğlub oldu. 1991-ci ilin iyulunda isə, sovet qoşunları ölkədən çıxarıldı. Çexoslovakiyada siyasi hakimiyyətin dəyişilməsi o qədər dinc və sakit keçmişdi ki, 1988-1989-cu illər hadisələri tarixdə "məxməri inqilab" adını aldı.

Ondan fərqli olaraq, Rumıniyada çevriliş qanlı oldu. Ölkədəki ilk böyük iğtişaşlar, 1987-ci ildə Braşovda (Transilvaniya) macar əhalisi arasında qeydə alınıb. Sonradan 1989-cu ilin dekabrında, Timişoara (Şərqi Banat) şəhərində təkrar olundu. Bu nümayişlərdə, həm macarlar, həm də rumınlar iştirak etmişdilər. Nümayişlərin yatırılması zamanı yüzlərlə insan həlak oldu. Bir neçə gün sonra, Buxarestdə nümayişçilər, birbaşa N.Çauşeskunun hakimiyyətinə qarşı çıxdıqda yenə qan töküldü. Qanlı divanlar, Rumıniya təhlükəsizlik polisi "Securitate" tərəfindən həyata keçirilirdi.

22-27 dekabr 1989-cu ildə, Rumıniyada yaşanan hadisələr öz yüksək zirvəsinə çatdı. Ordu üsyançıların tərəfinə keçdi. N.Cauşesku və həyat yoldaşı Elena Cauşesku paytaxtdan çıxaraq, ölkədən qaçmağa çalışdılar, amma tutuldular. Komedik "hərbi tribunal" oyununun qərarı ilə, onlar əslində məhkəməsiz güllələndilər. Onları "soyqırım, korrupsiya və iqtisadiyyatı məhv etməkdə" günahlandırdılar.

Ölkədə Milli Qurtuluş Cəbhəsi (MQC) yaradıldı. Ona, Kommunist partiyasının liderlərindən biri, N.Çauşeskunun rəqibi olan, İon İliyesku başçılıq etdi. Qeyri-kommunist müxalifət MQC hökumətini tanımağa razı olmadı. 1990-cı ilin

yanvarında, yeni etiraz hərəkatı başladı. Ancaq, 1990-cı ilin mayında, keçirilən Prezident seçkilərində İ.İliyesku 85% səs toplayaraq Rumıniyanın Prezidenti seçildi. Bir qədər sonra keçirilən parlament seçkilərində Milli Qurtuluş Cəbhəsi qalib gəldi.

### 2.2. Varşava Müqaviləsi Təşkilatının (VMT) dağılması

1990-cı ildə keçmiş sosialist ölkələrinin nümayəndələri, NATO ölkələri ilə daha yaxından əməkdaşlıq etmək və gələcəkdə bu bloka üzv olmaq istədiklərini bəyan etməyə başladılar. 1990-cı ilin iyul ayında, Londonda NATO Şurasının sammiti keçirildi və bu zaman keçmiş sosialist ölkələri ilə əməkdaşlığının zəruriliyi haqqında bəyannamə qəbul edildi və onların liderlərinə NATO-nun Brüsseldəki qərargahına gəlmək üçün rəsmi dəvət göndərildi.

SSRİ-də hakimiyyətini itirməkdə olan, Prezident M.S. Qorbaçov Şərqi Avropada yaranan vəziyyətin inkişafını istiqamətləndirə bilmədi. Keçmiş sosialist ölkələri, Moskvanın təsirinin son vasitələrini məhv etməyə çalışırdılar. 25 fevral 1991-ci ildə, Budapeştdə VMT ölkələrinin Xarici İşlər və Müdafiə nazirlərinin iclasında, Varşava Paktı hərbi təşkilatının fəaliyyətinin 1991-ci il aprelin 1-dən dayandırılması barədə ümumi razılıq əldə edildi. 1 iyul 1991-ci ildə, Praqada VMT-nin siyasi məsləhət komitəsinin qərarı ilə Varşava Müqaviləsi Təşkilatı tamamilə ləğv edildi. Bir az əvvəl, 27 iyun 1991-ci ildə, Budapeştdə QİYŞ-ın özünün ləğvi barədə saziş imzalanmışdı.

## 3. Yuqoslaviyanın dağılması

Sovet İttifaqında baş verən sarsıntılar, Yuqoslaviyada olan kəskin dövlətçilik böhranı ilə eyni vaxtı baş verirdi. Yuqoslaviya da, SSRİ kimi dağılmağa başladı. İ.B.Titonun "xüsusi yolu", bu ölkəni "həqiqi sosializm" üçün xarakterik olan zəif cəhətlərdən qurtarmadı. Ölkənin idarəetmə sistemi, tədricən respublıkaların və bölgələrin iqtisadi və siyasi mütləqiyyətinə səbəb oldu və inkişafın qeyri-bərabərliyini gücləndirdi. Yalnız, I. B.Titonun şəxsi səlahiyyətləri və Kommunist Partiyasının sərt təşkilati quruluşu ölkəni dağılmaqdan xilas etmişdi.

Lakin 70-ci illərin əvvəllərində, respublikalarda və bölgələrdə, İ.T.Titonun inqilabi beynəlmiləlçi fikirlərini bölüşməyən və millətçi hisslərin təsiri altında olan yeni nəslin liderləri meydana gəldi. İlk növbədə bu, vahid Yuqoslaviyaya birləşdirilmə tarixi olduqca ziddiyyətli olan, Xorvatiya liderlərinə şamil edilirdi. Etnik gərginliyin mərkəzi, Serbiya Sosialist Respublikasının tərkibində Kosovo və Metoxiya (1974-cü ildən - Kosovo) muxtar bölgəsi idi. Onun əhalisinin əksəriyyətini, İkinci dünya müharibəsindən sonra nasistlərin işğalı zamanı, Albaniyadan oraya köçən etnik albanlar təşkil edirdi. Separatçılığın qarşısını

almağa çalışan federal hakimiyyət orqanları Kosovo albanlarına güzəştə getdi. Bunun nəticəsində yerli serb və qaradağlı əhalisi, yerli alban hakimiyyəti tərəfindən ayrı-seçkiliyə məruz qaldılar və onlar tədricən Kosovanı tərk etməyə başladılar. Demoqrafik nisbətlər albanların xeyrinə dəyişdi.

1980-ci ilin mayında, I.B.Titonun ölümündən sonra, Prezident hakimiyyəti kollektiv rəhbərlik institutuna-- federal rəyasət heyətinə keçdi. İllik, növbəli əsaslara uyğun olaraq, respublikalar və bölgələrdən birinin nümayəndəsi onun sədri seçilirdi. Ölkədə olan iqtisadi vəziyyət çətinləşmişdi. SSRİ-nin dağılmasından sonra, Yuqoslaviyanın Şərqin və Qərbin geosiyasi hesablamalarında oynadığı "xüsusi" rolunun azalması baş verdi. Xarici mənbələrdən kömək azaldı. İqtisadi çətinliklər, xarici borcun artması federasiyanın bölgələri arasında olan ziddiyyətləri daha da gücləndirdi.

Ölkə iqtisadiyyatını uçurumdan çıxarmaq cəhdi, 1989-cu ildə BVF-nin "şok terapiyası" qanunlarının tələbi ilə xorvat Ante Markoviçin rəhbərlik etdiyi hökumət tərəfindən edildi. Artan işsizlik, iflas olma və yoxsulluq bahasına böhranın qarşısını almağı bacardı. Lakin, islahat özəlləşdirmə sahəsinə toxunan kimi, onun həyata keçirilməsi müxtəlif siyasi qrupların müqavimətinə rast gəldi. İlk növbədə, ayrı-ayrı respublikaların iqtisadi və idarəetmə rəhbərləri islahatlardan narazı qaldılar. Onlar, ən sərfəli özəlləşdirmə obyektlərini ələ keçirməyə çalışırdılar.

Yuqoslaviya respublikalarının əksəriyyətində biznes nümayəndələri, federal hakimiyyətlərə qarşı respublika orqanları ilə ittifaqa girmək istiqamətini götürürdülər. Bu, müstəqillik meyllərini təşviq etdi. Respublikalarda mövcud olan iqtisadi sistemlərin birləşdirilməsini tələb edən, A.Markoviçin islahatları millətlərarası gərginliyin artmasına səbəb oldu.

Bu gərginlik, dini və tarixi amillərlə daha da kəskinləşdi. Sloveniya və Xorvatiya əhalisinin əksəriyyəti katolik, serblər, qaradağlılar və makedoniyalılar pravoslav, Bosniya və Herseqovinada dini mənsubiyyətinə əsasən, ayrıca bir etnik qrup sayılan xeyli sayda müsəlman slavyanlar var idi. Kosovanın muxtar bölgəsində yaşayan albanlar da müsəlman idilər.

27 sentyabr 1989-cu ildə, Yuqoslaviyanın respublikalarından biri olan Sloveniyanın parlamenti, öz konstitusiyasına olunan düzəlişləri qəbul edərək, respublikanın YSFR-dən ayrılmaq hüququnu elan etdilər. Bu, vahid Yuqoslaviyanın məhvinə doğru atılan ilk addım idi.

1989-cu ildə, Kosovanın əksəriyyət təşkil edən alban əhalisi bölgənin statusunu artıraraq, respublika elan edilməsi tələbini irəli sürdü. Bölgənin serb əhalisi, bu tələblərdən narahat olmağa başladılar. Serbiyanın bütün ərazisində əks- alban hissləri artmağa başlandı. Onların təsiri ilə, 1990-cı il yanvarın 9-da, Serbiyada

keçirilən ilk çoxpartiyalı seçkilərdə, sosialist partiyasına çevrilən Serb Kommunistlər Təşkilatının rəhbəri Slobodan Miloşevic Prezident oldu. S.Miloşevic, Yuqoslaviyanın ərazi birliyini qorumaq və separatizmə qarşı mübarizənin zəruriliyi şüarları ilə çıxış etdi. 28 sentyabr 1990-cı ildə, Serbiya Respublikasının parlamenti Kosovo muxtariyyətinin ləğv edilməsi barədə qərar qəbul etdi və bölgəyə qoşun göndərildi.

1990-cı ildə Xorvatiya və Sloveniyada da, hərbçi- vətənpərvərlik şüarları altında olan millətçi hərəkatlar eyni formada keçirilən seçkilərdə qalib gəldilər. Eyni zamanda, Xorvatiyada seçkilərin nəticələrinə, İkinci dünya müharibəsindən sonra Yuqoslaviyanı tərk edən ustaş- mühacirləri tərəfindən verilən xarici maliyyə dəstəyinin böyük təsiri oldu. Onlar seçkilərdə, millətçi düşüncəyə malik namizədə, təqaüddə olan general ( I.B. Titonun silahdaşı idi) Franyo Tucmana kömək edirdilər. Xorvatiyanın müstəqilliyinin bərpası haqqında ustaşların fikirləri, F.Tucman tərəfindən müsbət anlayışla qarşılanırdı.

**Qeyd: Ustaşlar - Xorvatiya inqilabi hərəkatı (üsyançılar) - Xorvatiyanın faşist, ultra-sağçı, millətçi təşkilatı 1929-cu ildə, İtaliyada Ante Paveliç tərəfindən təsis edilmişdir. 1941-ci ilin aprelindən 1945-ci ilin mayına qədər Müstəqil Xorvatiya Dövlətinin (MXD) başçısı olub. Yuqoslaviya partizanlar tərəfindən azad etdikdən sonra, ustaş hərəkatının liderlərinin çoxu Avropa və Amerikaya qaçdılar və burada radikal təşkilatlar şəbəkəsi yaratdılar. Yuqaşlaviyanın süqutu dövründə, ustaşlar Müstəqil Xorvatiya dövlətinin yaradılması uğrunda fəaliyyətlərini yenidən bərpa etdilər.**

23 dekabr 1990-cı ildə, Sloveniyada referendum keçirildi, onun iştirakçıları Sloveniyanın müstəqilliyini dəstəklədilər. Bundan dərhal sonra, Xorvatiyada da Yuqoslaviyadan çıxmağı qərara alan referendum keçirildi. 1990-cı ilin dekabrında, Xorvatiyada qəbul edilən yeni konstitusiyada "Xorvat xalqının dövləti" elan edildi. Bu vaxt, YSFR-in inzibati sərhədləri daxilində olan Xorvatiya əhalisinin 30% -i serblər təşkil edirdi.

Xorvat serbləri yığcam halda yaşayırdılar. Bunun səbəbi, İkinci dünya müharibəsindən sonra, Yuqoslaviya respublikalarının inzibati sərhədləri meydana gəldikdə, Xorvatiya Sosialist Respublikasının ərazisinə İ.B.Titonun (milliyətcə xorvat) təkidi ilə, serb əhalisinin üstünlük təşkil etdiyi ərazilərin daxil edilməsi idi. Elə o zaman da, müsəlmanların məskunlaşdığı Bosniyanın Adriatik dənizinin sahilinin bütün ərazisi Xorvatiyaya verilmişdi. Bu da tezliklə Xorvatiya ilə Bosniya və Herseqovina arasında qarşıdurmaya səbəb oldu.

Yeni konstitusiyanın qəbulundan sonra, ayrı-seçkilikdən qorxan Xorvatiyanın serb əhalisi, əsasən Serbiya ərazilərində öz ictimai qurumlarını – Serb Krayna (diyar) Republikasını (SKR) yaratdıqlarını elan etdilər. O, öz müstəqilliyini elan edərək, tərkibinə əsasən serb əhalisinin yaşadığı tarixi bölgələr və ərazilər - Şərqi və Qərbi Slavoniyanı, Baranyunu, Qərbi Sremi və Kninsk Kraynasını birləşdirmişdi.

Serb Krayna Republikası Serbiya ilə birləşmək üçün səylər göstərməyə başladı. Əslində, Xorvatiya ərazisində yerləşən Yuqoslaviya xalq ordusunun qüvvələri SKR-ə yardım edirdilər.

1991-ci ilin aprelində SKR, Serbiyaya onu öz tərkibinə qəbul etməsini xahiş etdi, lakin Serbiya parlamenti onun müraciətinə rədd cavabı verdi. Serbiya Prezidenti S. Miloşevic şübhəsiz ki, Xorvatiya serblərinə rəğbət bəsləyirdi. Ancaq Serbiya Kraynasının Serbiya ilə birləşməsi barədə açıq danışmaqdan çəkinirdi. O, Yuqoslaviyanın bütün mövcud sərhədlərinin toxunulmazlığının qorunmasına təkid edirdi. Onun planı, Xorvatiyanın tərkibində olan serb ərazilərini qorumaqla bərabər, Xorvatiyanı vahid Yuqoslaviyanın tərkibində saxlamaq idi.

Bu ehtiyatlı mövqe sayəsində, S.Miloşevic o dövrdə, ABŞ və digər Qərb ölkələri ilə əməli münasibətləri davam etdirə bildi. Lakin buna baxmayaraq, Qərb etnik azlıqlara, o cümlədən Kosovanın alban əhalisinə güzəşt etməyə razılıq verməsini tələb edirdi.

Yuqoslaviyada siyasi böhran inkişaf edirdi. Yuqoslaviyanın kollektiv rəhbərlik institutunun fəaliyyəti iflic oldu. 1991-ci ilin mart ayında, Federasiyanın gələcək inkişaf yolunu müəyyənləşdirmək üçün, Yuqoslaviya respublikaları rəhbərləri arasında bir sıra görüşlər keçirildi. Ümumi bir fikirə gəlmək mümkün olmadı. 1991-ci ilin mayında, Xorvatiya namizədi Stefan Mesimin Yuqoslaviya Rəyasət Heyətinin Sədri vəzifəsinə seçilməsi vaxtı gələndə, Serbiya və Qaradağ (Monteneqro) nümayəndələri bu qaydanın həyata keçirilməsinə mane oldular. Bu qanunun və ənənənin pozulması idi, ölkədə vahid ali Federal orqanın qanuniliyi şübhə altına alındı. Federal rəyasət heyəti faktiki olaraq fəaliyyətini dayandırdı. Bu vaxtdan sonra, Belqradda olan Federal hökumət ancaq, Serbiyanın maraqlarını ifadə etməyə başladı. Xorvatiya və Sloveniya nümayəndələri hökumətdə öz iştirakını dayandırdılar.

Bu vəziyyətdə, 9 may 1991-ci ildə, Belqrad hökuməti, Xorvatiyada yerləşən Yuqoslaviya xalq ordusuna əməliyyat keçirmək üçün, xüsusi səlahiyyətlər vermək qərarı verdi. Onlar, Xorvatiya hakimiyyət orqanlarının, ordu və Federal əmlakın ələ keçirməsinin qarşısını almalı idilər. Bu, vəziyyəti daha da ağırlaşdırdı. 26 iyun 1991-ci ildə, Sloveniya və Xorvatiya YSFR -dən çıxdıqlarını elan etdilər.

Belqrad Federal hakimiyyət orqanları bu addımları tanımadılar. Federal və respublika hökumətləri arasında yaranan münaqişə, nizamlı ordu hissələrinin iştirak etdiyi qanlı toqquşmalarla nəticələndi. Xorvatiyanın sağçı dəstələri ilə Serb Krayna Republikasının birləşmələri arasında silahlı qarşıdurmalar başladı. Yuqoslaviyada vətəndaş müharibəsi başlandı.

Bu hadisələr, nisbətən etnik cəhətdən eyni olan və Serbiyadan Xorvatiya ərazisi ilə ayrılan Sloveniyaya az təsir etdi. Federal qüvvələr Sloveniyaya yeridiləndən iki həftə sonra, Sloveniya hökuməti ilə Belqradda yerləşən Federal hakimiyyət orqanları arasında razılaşma nəticəsində, bölgədən çıxarıldı. Federal hakimiyyət, Avropa Birliyinin vasitəçiliyi ilə, əvvəl Sloveniyanı, sonra Xorvatiyanı üç ay müddətinə "müstəqilliyə moratorium" elan etməsinə inandıra bildi.

18 sentyabr 1991-ci ildə, özünü müstəqil elan edən Makedoniya, Yuqoslaviyadan təəccüblü də olsa qan tökmədən ayrıldı.

Lakin, Xorvatiya daxilində müharibə son dərəcə amansız formada davam edirdi. İlk növbədə, Serb Krayna Republikasında olan serblər, yeni Xorvatiya hakimiyyətinə qarşı sərt müqavimət göstərirdilər. İlk vaxtlar, müharibə serblərin qələbələri ilə müşayiət olunurdu. Onlar, nizami Yuqoslaviya ordusunun dəstəyi ilə Xorvatiyanın üçdə bir hissəsini ələ keçirmişdilər. Xorvat qüvvələri, serblərin yaşadığı bütün ərazilərdən çıxmağa məcbur oldular. 1991-ci ilin oktyabrında, beynəlxalq birliyin təzyiqi ilə federal qüvvələr serblərin ərazisindən çıxdılar. Onlar, nəzarəti tanınmamış Serb Krayna Republikasının səlahiyyətinə verdilər. Münaqişə həll olunmamış qaldı və separatçı meyllərin fəallığı inkişaf etməkdə davam edirdi.

1991-ci ilin noyabrında, Bosniya və Herseqovina Respublikası vahid Yuqoslaviyadan ayrılaraq, müstəqilliyini elan etdi. Makedoniya hakimiyyəti, 1992-ci ilin martında referendum keçirmək qərarına gəldi. Burada, Makedoniya parlamenti tərəfindən qəbul edilən müstəqillik bəyannaməsinin qüvvəyə minməsi məsələsi müəyyən olunmalı idi.

Beynəlxalq birlik, Yuqoslaviyada hərbi əməliyyatların dayandırılmasına kömək etməyə çalışırdı. 1991-ci ildə BMT, Yuqoslaviyanın istənilən bölgəsinə silah təchizinə embarqo tətbiq etdi (Təhlükəsizlik Şurasının 25 sentyabr 1991-ci il tarixli 713 nömrəli qərarı) və zərər çəkmiş bölgələrin əhalisinə humanitar yardım göstərməyə başladı. BMT-nin humanitar karvanlarını qorumaq üçün, Yuqoslaviyaya BMT qüvvələrinin kiçik bir heyəti daxil edildi (25 dekabr 1991-ci il tarixli 724 nömrəli qətnamə).

## NƏTİCƏ: Yalta-Potsdam beynəlxalq münasibətlər sisteminin dağılması

1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Yalta-Potsdam beynəlxalq münasibətlər sistemi kəskin böhran vəziyyətinə girdi, nəticədə o, dağılmağa məruz qaldı. Qarşılıqlı İqtisadi Yardım Şurasının və Varşava Paktı Təşkilatının 1991-ci ilin yayında ləğvi və qısa müddət sonra (eyni ilin dekabrında) baş verən SSRİ-nin dağılması, dünyanın siyasətində iki dünya qütbündən birinin yox olması nəticəsində, beynəlxalq münasibətlərin ikiqütblü sisteminin dağılması ilə müşayiət olunan dünya siyasətində köklü dəyişiklik baş verdi.

Bu nəticə ilk növbədə, 1970-1980-ci illər ərzində, beynəlxalq münasibətlərin bu sisteminin sabit fəaliyyətini təyin edən əsas təməl elementlərinin tədricən dəyişikliyə uğraması idi. Əvvəla, bir-birinə qarşı duran sosial-iqtisadi sistemlərin - kapitalizm və sosializmin imkanları və keyfiyyəti köklü şəkildə dəyişdi.

Kapitalizmə, çox şaxəli xarakter daşıyan təhdidlər (iqtisadi, hərbi-siyasi, ideoloji və statusa aid), 1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində uğurla aradan qaldırıldı. Kapitalizm dünyasının inkişaf etmiş dövlətlərinin iqtisadiyyatı, neft embarqosunun və enerji qiymətlərinin sürətlə artmasının səbəb olduğu ağır böhranın nəticələrini aradan qaldırmağı bacardı və ondan daha çox rəqabətə davamlı olan, səmərəli, şaxələndirilmiş, gələcəyə istiqamətlənmiş - post-sənaye dönəmində ortaya çıxdı. Burada, iqtisadi üstünlüyün ən vacib amillərinin çevrilən məlumatlandırma, əqli inkişaf, yüksək texnologiyalar mövcud idi. Bu da öz növbəsində, yeni idarəetmə sisteminin, istehsalın idarə edilməsi və makroiqtisadi proseslərin tətbiqini əvvəlcədən müəyyənləşdirdi və sənayecə inkişaf etmiş ölkələrin iqtisadiyyatının yeni uzunmüddətli inkişafı üçün zəmin yaratdı. İnanılmaz olsa da, bu şərtlər altında inkişaf etmiş kapitalizm ölkələri hətta "pisliyi yaxşıya çevirə bildilər". Neft istehsal edən ölkələr, neft qiymətlərinin kəskin artması nəticəsində, əldə etdikləri böyük gəlirləri, əsasən inkişaf etmiş ölkələrin bazarlarına çıxardırdılar, çünki burada onlar ən yüksək gəlirlər, təhlükəsizlik və asan satışla təmin olunurdular.

Kapitalizm artan iqtisadi imkanlarından, həm qlobal rəqiblərinə təzyiqləri daha da artırmaq üçün istifadə etdi: silah yarışının inkişafını davam etdirməklə yanaşı, həm də dünyanın müxtəlif bölgələrində SSRİ və müttəfiqlərinə qarşı vuruşan qüvvələri gücləndirmək üçün, onlara əhəmiyyətli maddi və təşkilati dəstək verməklə, soyuq müharibədə qələbə qazanmağa çalışırdı. Həm də az inkişaf etmiş kapitalizm dövlətlərində və bir sıra yeni sənayeləşmiş və inkişaf etməkdə olan ölkələrdə, sürətlə böyüyən sosial sabitliyin köməyi ilə möhkəmlənmək üçün

səylərini artırırdı. Bu da öz növbəsində, demokratikləşmə proseslərinin meydana çıxması və vətəndaş cəmiyyətinin formalaşması üçün imkanlar yaratmış olurdu. Beləliklə, hətta dünyanın ikiqütblü sistemi çərçivəsində, demokratiya sahəsinin genişlənməsi prosesi başlandı, və o, dağılandan sonra isə, daha da inkişaf etdi.

İnkişaf etmiş dövlətlərin hökumətləri tərəfindən, dünya ictimai rəyinin bu şəkildə formalaşmasına yönəlmiş ideoloji təsirə böyük diqqət yetirildi.

Bununla onlar, birincisi, ümumdünya qarşıdurmada, rəqiblərinin ictimai-siyasi modelinə və siyasi addımlarına qarşı mənfi münasibətlər yaratmağa çalışırdılar;

ikincisi, Qərb həyat tərzinin və özlərinin dünya siyasətində atdıqları addımlarının dəstəklənməsi və təsdiqlənməsinin təmin olunmasına nail olmaq istəyirdilər. Belə ki, Qərbin təbliğat maşınının güclü təsiri, inkişaf etmiş kapitalist dövlətlərinin həqiqi nailiyyətləri və uğurları ilə birlikdə ideologiyaların qlobal qarşıdurmasında öz nəticələrini verirdi. Onlar hər yerdə nəzərə çarpacaq dərəcədə təsir bağışlayırdılar. Qərb cəmiyyətlərində və Qərb dəyərləri sisteminə tabe olmağa çalışan əksər inkişaf etməkdə olan ölkələrdə, əhali öz hökumətlərini və daxili və xarici siyasətini dəstəkləyirdilər. Hətta, 1970-1980-ci illərdə, öz ölkələrində hakim ideologiyanı və ona əsaslanan sosial- siyasi sistemi qəbul etməyən sosialist ölkələri də, Qərb dəyərlərinə meyl etməyə başlamışdılar.

Lakin, sosializmin sovet ("Lenınçi-Stalinçi") modeli əsasən, 1950-1960-cı illərin əvvəllərində özünü tükəndirmiş oldu. Daha səmərəli gələcək inkişaf yollarını aramaq cəhdləri, sosialist ölkələrini fəal şəkildə iqtisadi və sosial quruluşunun yeni, alternativ modellərini axtarmağa vadar etmişdi. Çin Xalq Respublikasında bu axtarışlar, Çin rəhbərliyini "sola" - "xalq kommunizminə", "böyük sıçrayışa", "mədəni inqilaba" aparmışdı. Daha sonra Sovet İttifaqında, 1980-ci illərdə yenidənqurma dövründə (1968-ci ildə Çexoslovakiyada olduğu kimi), mövcud sistemdə aparılan islahatlar "sağa" meyl etdi - plüralist siyasi sistemin elementləri olan "daha yumşaq" sosializm modelini yaratmaq (alternativ seçkilər, "aşkarlıq") və fərdi sahibkarlığın (kooperativlər, fermerlər) məhdud qəbulu üçün addımlar atılmışdı.

Ancaq, həm birincisində - "sol" istiqamətdə, həm də ikincisində - "sağ" təmayüldə, sosialist modelində islahat keçirmək cəhdləri nəticə vermədi. Onlar, insanın ehtiyaclarına və sosial sistemin sosial bərabərliyinə, sosializmin ideoloqları tərəfindən elan edilən xalq hakimiyyəti prinsiplərinə uyğun, demokratik siyasi sistemin qurulmasına əsaslanan və uğurla inkişaf edən iqtisadiyyatın yaradılmasını təmin edə bilmədilər. Bundan əlavə, bu sistem zəruri iqtisadi inkişafı, əhalinin əsas ehtiyaclarını ödəməyi, müttəfiqlərinə və tərəfdaşlarına əsaslı və aktiv yardım göstərməyi dayandırdı. Fövqəldövlətin

yükünü daşımaq getdikcə çətinləşdi. SSRİ ən dərin sistem böhranı vəziyyətinə düşdü.

Bu böhran, xarici siyasət amilləri tərəfindən kəskinləşdi. Bunların arasında, on illərlə sabitliyi təmin edən ikiqütblü sistemin nisbi tarazlığının dəyişdirilmiş ölçüləri və şərtləri ən vacib rol oynadı. Belə ki, inkişaf etmiş sənaye dövlətləri, bu nisbi tarazlığın mövcud əsaslarını məhv edərək, irəliyə keyfiyyətli sıçrayış etdilər. Bundan əlavə, 1980-ci illərdə, SSRİ-nin üzləşdiyi xarici siyasət problemlərinin əhəmiyyətli hissəsi Sovet rəhbərliyinin özü tərəfindən əvvəllərdən - 1970-ci illərin ortalarından başlayaraq, həyata keçirdiyi fəal xarici siyasət tədbirlərinin nəticələrindən bəhrələnmişdi.

"Durğunluq" dövründə, Sovet liderləri müasir dünyanın təzyiqlərinə əks cavab tapa bilmədilər. SSRİ-nin yaşlanmış liderləri, ölkə daxilində gedən iqtisadi və siyasi proseslərin idarə olunması mexanizmini dəyişməz saxlamağa və dövlətin xarici siyasət üstünlüklərinin ideoloji və geosiyasi inkişafını qorumağa mühüm əhəmiyyət verirdilər. Üstəlik, SSRİ-nin atdığı bir sıra beynəlxalq addımlar, ölkəni çətin xarici siyasət vəziyyətinə saldı, çünki Moskva Üçüncü dünyadakı çoxsaylı hərbi əməliyyatlara qarşı olan tərəfin və dünya birliyinin kəskin münasibətini qabaqcadan anlaya bilmədi: Afrika qitəsinin müxtəlif yerlərində siyasi mübarizəyə fəal müdaxilə etməsi, "sol"çu hakimiyyətlərə və Mərkəzi Amerikada baş verən inqilabi hərəkatlara yardım, Vyetnamın Kampuçiyada apardığı fəaliyyətinə dəstək və nəhayət Sovet qoşunlarının Əfqanıstana daxil olması qarşıdurma vəziyyətini xeyli gərginləşdirmiş oldu. Xarici siyasətdə olan bu cür yüksək fəallıq, SSRİ-nin onsuz da məhdud olan ehtiyatlarını sarsıtdı və nəticədə ölkəni kəskin xarici siyasət böhranına gətirib çıxardı.

Müharibədən sonrakı illər ərzində mövcud olan, beynəlxalq münasibətlər sisteminin iki qütbü arasındakı təxmini güc tarazlığının qaçılmaz şəkildə pozulması ilə üzləşən yeni sovet rəhbərliyi, yenidənqurma mərhələsində təcili və həmişə dəqiq hesablanmayan addımlar atdı. O, Sovet cəmiyyətinin daxili siyasi quruluşu sistemini dəyişdirmək və iqtisadi idarəetmə modelində islahat keçirmək, eyni zamanda Sov.İKP-nin əvvəlki xarici siyasət üstünlüklərini köklü şəkildə yenidən nəzərdən keçirmək, buna uyğun olaraq iki qarşı sistem arasında münasibətlərin qurulduğunu mövcud inkişaf istiqamətini dəyişdirmək-qarşıdurma paradiqmasını əməkdaşlıq ilə əvəz etmək istəmişdi.

**Qeyd: Paradiqma (yun.- nümunə, model)- müəyyən tarixi dövr ərzində elmdə mövcud əsas nəzəri sxem, problemin qoyuluşu, həlli və öyrənilməsi modeli, tədqiqat metodunu bildirən əsas elmi baxış, cərəyan.**

1980-ci illərin ikinci yarısında, bu sistemli böhranı aradan qaldırmaq cəhdləri, həddindən ağır və çox çətin xarici siyasət öhdəliklərindən imtina etmək, sosializm

cəmiyyətində sosializmin mövqeyini ən azı qismən qoruyub saxlamaq səyləri uğursuzluqla nəticələndi. Sonradan, sosialist birliyi dövlətlərində böhranın kəskinləşdiyi bir vəziyyətdə, SSRİ Mərkəzi və Şərqi Avropa ölkələrində dağılmış sosialist sistemini dəstəkləmək üçün güc tətbiq etmədi və hadisələrin adi qaydada inkişafına imkan verdi. Əslində, Sovet xarici siyasətinin ideoloji paradiqmasının dəyişdirilməsi nəticəsində, dünya nizamının ikiqütblü sisteminin əsasını təşkil edən bütün aparıcı qurumlar dağıdıldı. Nəticədə, SSRİ fövqəldövlət kimi, beynəlxalq aləmdə olan mövqeyini sürətlə itirdi. Sonra isə, Sovet dövləti, ölkəni bürüyən daxili siyasi problemlər qarşısında çətin vəziyyətə düşdü və bu da, Sovet İttifaqının dağılmasına səbəb oldu.

İkinci dünya müharibəsindən sonra, dünyanın Yalta-Potsdam sisteminin qütblərindən birinin ləğv olunması, qırx beş ildən çox mövcud olan bu beynəlxalq münasibətlər sisteminin ləğvinə səbəb oldu. Beynəlxalq münasibətlər tarixində ilk dəfə olaraq, mövcud beynəlxalq sistemin parçalanması böyük beynəlxalq silahlı münaqişə nəticəsində baş verməmişdi. Bu ikiqütblü sistemi yaradan, tərəflərin birində inqilabi xarakterli də olsa, dəyişikliklərin olması ilə əlaqədar idi.

SSRİ, ikiqütblü sistemin ikinci qütbü idi, SSRİ, İkinci dünya nüharibəsi başa çatdıqdan sonra, beynəlxalq münasibətlərin gedişatını istiqamətləndirdiyinə görə, onun dağılması ilə, ikiqütblü dünya inkişafının uzun bir dövrünün sonu çatmış oldu. SSRİ-nin varisi və ardıcılına çevrilən Rusiya Federasiyası, lazımi ehtiyat mənbələrinə malik olmadığı üçün, ikiqütblü dayaqların biri olan, Sovet İttifaqına xas olan funksiyaları yerinə yetirə bilmədi.

1945-1991-ci illərdə, beynəlxalq münasibətlər sisteminin iki müəyyən edən elementlərindən biri olan, SSRİ-nin dağılması, müharibədən sonrakı dövrün yekun hadisəsi hesab edilə bilər. Beynəlxalq münasibətlərin ikiqütblü quruluşu dağıldı. Yalta-Potsdam nizamının mövcudluğu sona çatdı. Bu qlobal fəlakətli dəyişikliyə səbəb olmadı. Beynəlxalq sistemin sabitliyi ümumən qorunub saxlanılmışdı.

Beynəlxalq münasibətlərdə keçmiş sosialist və kapitalist ölkələrin birləşməsi və yaxınlaşması meylləri inkişaf etməyə başladı və bütövlükdə beynəlxalq sistem "qlobal cəmiyyət" in xüsusiyyətlərini inkişaf etdirməyə başladı. Bu proses yeni kəskin problemlər və ziddiyyətlərlə dolu idi.

## ӘDӘBİYYAT SİYAHISI

### Әsas әdәbiyyat

1.БогатуровА.Д., АверковВ.В. История международных отношений.1945–2008. М., 2010.

2.БогатуровА.Д.,Аверков В.В**.** История международных отношений. 1945–2017: Учеб. пособие для студентов вузов/ А. Д. Богатуров, В. В. Аверков. — 2-е изд., испр. и доп. — М.: Издательство «Аспект Пресс», 2017. 560 с.

3.История международных отношений**:** В трех томах: Учебник / Под общ. ред. А. В. Торкунова, М. М. Наринского. Т. 3. — 2-е изд., испр. — М.: Издательство «Аспект Пресс», 2017. 553 с.

4.Заболотный *В. М.* Новейшая история стран Европы и Северной Америки. Конец XX — начало XXI в.: Учеб. пособие. М., 2004.

5. Наринский М.М. История международных отношений. 1945-1975**.** Учеб. Пособие.М.«Российская политическая энциклопедия» (РОССПЕН), 2004. 264 с.

6.Пономаренко Л. В. История международных отношений: Учеб. пособие для академического бакалавриата / Л. В. Пономаренко, О. С. Чикризова. М.: Юрайт, 2017.

**7.**Протопопов А. С., Козьменко В. М., Шпаковская М. А., Петрович-Белкин О. К. История международных отношений и внешней политики России (1648— 2017): Учебник для студентов вузов / Под ред. А. С. Протопопова. — 4-е изд., испр. и доп. — М.: Издательство «Аспект Пресс», 2018. — 448 с.

8. Системная история международных отношений. 2-х томах. Под ред. А. Д. Богатурова. Том второй. События 1945- 2003 годов.Изд. 2-е. М.:2009.720 с.

9.Эннио ДиНольфо История международных отношений (1918-1999 гг.). В 2-х томах: Пер.ситал.Г.М. Михайловой,Т.В. Павловой / Под ред. М.М. Наринского. - М.: Логос, 2003. Т.1. - 592 с., Т.2. - 744 с.

10.Mәmmәdov İ. Mәmmәdov Ç Siyasi tarix. B., 2006.-352 .

## Ümumi ədəbiyyat

### Azərbaycan və türk dilində

1.Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. Bakı 2000

2.Armaoğlu Fahir. 20Yüzil Siyasi tarihi.,cilt 1:1914-1980. Ankara 1993.,cilt 2:1980-1990.Ankara,1993.

3.Babaoğlu H. Siyasi təhlil və proqnozlaşdırma. B.,2012. 300s.

4.Babayev H. Dünya siyasəti və beynəlxalq münasibətlər.B.,2010.568 s.

5.Babaoğlu H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideolojivədiplomatikməsələlər). Bakı:Elm, 2007, 516 s.

6.Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi.(1918-2003-ci illər). B.,2012.412 s.

7.Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutlarıilə münasibətlər.B.,2013.452 s.

8.Əliyev H. Müstəqilliyimiz əbədidir. 1-46-cı kitablar. Bakı: 1996-2013.

9.Əliyev İ.H..İnkişaf - məqsədimizdir:çıxışlar, nitqlər, bəyanatlar, məktublar, məruzələr, müraciətlər, fərmanlar / İ. H. Əliyev; bur. məsul R. Ə. Mehdiyev, 1--105-ci kitablar: avqust, 2003- sentyabr 2020. - Bakı:Azərnəşr, 2008—2020.

10.Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti:Avropadövlətlərivə ABŞ (1991-1996). Bakı:Azərnəşr, 1998, 315s.

11.Həsənov Ə.M. Heydə Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // Heydər Əliyev və müasir Azərbaycan. Bakı: 2003. s. 29-52.

12.Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., Azərbaycan nəşriyyatı, 2005,

13.Həsənov Ə.M. Geosiyasət. B.,2010.

14.Həsənli C. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). B., 1998

15.Qasımlı M.C. SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək), I cild, 1960-1979, B., 2007, 560s.

16.İbadov R. Avropa İttifaqının əsasları. Bakı: 2004, 212s.

17.Məmmədov İ.M. Məmmədov Ç.İ. Azərbaycan tarixi(XX əsr – XXI əsrin əvvəlləri).B., 2010. 336 s.

18.Məmmədov Ç.İ. Azərbaycanın siyasi tarixi(XIX – XX əsrlər).B., 2006.336 s.

19.Nəsirov E. ABŞ və dünya 11 sentyabrdan sonra. B., 2003, 262s.

20.Nəsirov E. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri, Bakı, 2010, 392s.

21..Protopopov A.S. KozmenkoV.M. YelmarnovaN.S. Beynəlxalq münasibətlər və Rusiyanın xarici siyasət tarixi (1648-2005) Ali məktəb üçün dərslik (tərcümə), Bakı 2009, 444 səh.

22.Oran B. Türk Dış Politikası. 1919-1980: Kurtuluş Savaşından Bugüne. Olgular, Belgeler, Yorumlar. İstanbul, 2002

23.Sönmezoğlu Faruk. Uluslararası politika ve Dış politika analizi, İstanbul. 1995

**Rus dilində**

*24.*Ахалкаци Д. С. Корейская война (1950–1953) и советско-американские отношения // Советская внешняя политика в годы «холодной войны» (1945–1985). Новое прочтение / Под ред. Л. Н. Нежинского. М., 1995.

25.Аллан П., Клей Д. Афганский капкан. Правда о советском вторжении. М., 1999.

26.Арон Р. Мир и война между народами. М.: NotaBene, 2000.

27. Бабынина Л. О. Гибкая интеграция в Европейском союзе: теория и практи- ка применения. М.: ЛИИ, 2012.

28.Барановский В. Г. Западная Европа и военно-политическая интеграция.М.: Международная безопасность, 1998.

29.Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические интересы, М., 2002

30.Большая Восточная Азия: мировая политика и региональные трансформации / Под ред. А. Д. Воскресенского. М.: МГИМО-Университет, 2010.

31. Ваисс М. Международные отношения после 1945 года. М., 2005.

32. Ванденберге И. Историческое недоразумение. Холодная война. 1917–1990.М.: Международные отношения, 1996.

33.Веселов В. А., Лисс А. В. Ядерное сдерживание. М.: МАКС Пресс, 2005.

34.Воскресенский А. Д. Россия и Китай. Теория и история межгосударственных отношений. М.: Московский общественный научный фонд, 1999.

35.Воскресенский А. Д. Китай и Россия в Евразии: Историческая динамика политических взаимовлияний / МГИМО(У) МИД РФ; Инт. Дальнего Востока РАН. М.: Муравей, 2004.

36.Европейская интеграция /Под ред .О.В.Буториной. М., 2011.

37.Егорова Н.И. Европейская безопасность, 1954–1955 гг.: Поиски новых подходов//Холодная война.1945–1963гг.Историческая ретроспектива.М., 2003.

38.Ергин Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть. Де Ново, 1999.

39.Загорский А. Хельсинкский процесс (Переговоры в рамках Совещания по безопасности и сотрудничеству в Европе 1972–1991). М., 2005.

40.Исаев М. П. Внешняя политика стран Индокитая. М., 1989.

41.Канинская Г. Н., Наумова Н.Н. История западноевропейской интеграции. Ярославль, 1998.

42.Киссинджер Г. Дипломатия М.: Ладомир, 1997.

43.Корниенко Г. М. «Холодная война». М., 2001.

44.Кузнецов Д. В. Арабо-израильский конфликт: История и современность. Очерк событий. Документы и материалы. Благовещенск: Изд-во БГПУ, 2006.

45.Ляховский А. А. Пламя Афгана. М.: Вагриус, 1999.

46.Мусатов В. Предвестники бури. Политические кризисы в Восточной Европе (1956–1981). М.: Научная книга, 1996.

47.Малетин Н. П. Вьетнам в системе международных отношений Юго-Восточной Азии (1976–1994 гг.): Монографическое исслед. / МГИМО МИД России. М., 1995.

48.Малетин Н. П. АСЕАН: четыре десятилетия развития. М., 2007.

49.Мартынов Б. Ф. История международных отношений стран Латинской Америки (XX — начало XXI века). М.: Навона, 2008.

50.Медведев В. А. Распад. М., 1994.

51.Международные отношения в Центральной Азии. События и документы /Под ред. А. Д. Богатурова. М.: Аспект Пресс, 2011.

52.Павлов Н. В., Новиков А. А. Внешняя политика ФРГ от Аденауэра до Шредера. М., 2005.

53.Павлов Ю.М. Международные отношения и мировая политика. М., 2000

54.Поздняков Э.А. Внешнеполитическая деятельность и межгосударственные отношения. М., 1986

55.Панова В.В. Многосторонние механизмы взаимодействия промышленно развитых государств.«Большая восьмерка»,1975–2002 гг.М.: МГИМО-Университет, 2004.

56.Пихоя Р.Г. Советский Союз: история власти.1945–1991. М.:Изд-во РАГС, 1998.

57.Примаков Е. М. Конфиденциально: Ближний Восток на сцене и за кулисами (вторая половина XX — начало XXI века). М., 2006.

58.Путилин Б. Г. Карибский кризис 1962 года // Советская внешняя политика в годы холодной войны (1945–1985). М., 1995.

59.Расширение Европейского Союза и Россия / Под ред. О. В. Буториной, Ю. А. Борко; МГИМО(У) МИД России; Ин-т Европы РАН. М.: Деловая литература, 2006.

60.Рогов С. М. Советский Союз и США: Поиск баланса интересов. М.: Международные отношения, 1989.

61.Современные международные отношения и мировая политика / Под ред. А. В. Торкунова. М.: МГИМО, Просвещение, 2004.

62.Современные международные отношения : Учебник. Под ред. Торкунова А.В., Мальгина А.В. 2012. - 688 с.

63.Советско-американские отношения. Годы разрядки, 1969–1976: Сб. документов.М., 2007. Т. 1.

64.Советская внешняя политика в годы «холодной войны» (1945–1985). Новое прочтение / Отв. ред. Л. Н. Нежинский. (глава Г. П. Мурашко, А. Ф. Носковой). М., 1995

65.Сударев В. П. Геополитика в Западном полушарии. М.: МГИМО-Университет, 2012.

66.Современная мировая политика: Прикладной анализ / Отв. ред. А. Д. Богатуров. М.: Аспект Пресс, 2010.

67.Современные международные отношения. Учебник МГИМО. М., 2000.

68.Топорнин А. Международные отношения в Европе. Киев, 1999

69.Торкунов А. В. Загадочная война: Корейский конфликт 1950–1953 гг. М.: РОССПЭН, 2000.

70.Третьяков В. Т. Конфликт с Западом. Уроки и последствия. М.: Алгоритм, 2015.

71.Уткин А. И. Стратегия глобальной экспансии: внешнеполитические доктрины США. М., 1986.

72.Уткин А.И. Мировой порядок XXI века. – М., 2002.

73.Фененко А. В. Теория и практика контр распространения во внешнеполитической стратегии США. М.: Издательство ЛКИ, 2007.

74.Филитов А. М. Германский вопрос. От раскола к объединению. М., 1993. История России. XX век.: 1939–2007. М.: АСТ, 2009.

75.Фурсенко А. А., Нафтали Т. Безумный риск. Секретная история Кубинского ракетного кризиса 1962 г. М.: РОССПЭН, 2006.

76.Хантингтон С. Столкновение цивилизации. М., 2006.

77.Хмылев В.Л. Современные международные отношения.Томск,2010,210 с.

78.Хрусталев М. А. Международные отношения на Ближнем Востоке. М.: МГИМО, 2002.

79.Хозин Г. С. Глобальные проблемы современности. М., 1982.

80.Хорев Б.С. Очерки геоглобалистики и геополитики. Москва, 1997

81.Центрально-Восточная Европа во второй половине XX века: В 3 т. Т. 1. Становление «реального социализма» (1945–1965). М., 2000.

82.Цыганков П.А. Международные отношения. М., 1996

83.Чернова А. В. Роль Польши в восточной политике ЕС. М.: Аспект Пресс, 2016.

84.Чернявский С.И. Новый путь Азербайджана. М, 2002.

85.Шаклеина Т.А. Россия и США в новом мировом порядке: Дискуссия в политико-академических сообществах России и США (1991–2002). М., 2002.

86.Шаклеина Т.А. Современные американские концепции мирового лидерства. М., 1999.

87.Шемятенков В.Г. Европа после Маастрихта // Заглядывая в XXI в.: Европейский союз и Содружество Независимых Государств. М., 1998.

88. Шилин А.А. Стратегический баланс в Южной Азии / МГИМО(У) МИД России. М.: Научная книга, 2004.

89.Шумилин А.И. Политика США на Ближнем Востоке в контексте «Арабской весны». М.: Международные отношения, 2015.

90.Ядерное сдерживание и нераспространение / Под ред. А.Г. Арбатова, В.З. Дворкина. М.: Московский центр Карнеги, 2005.

**ÇİNGİZ MƏMMƏDOV**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

**BEŞ CİLDDƏ**

**IV cild**

**Yalta-Potsdam sistemi**

**1945—1991-ci illər**

**MÜHAZİRƏLƏR KURSU**

Dizayner

Fərid Yaşar oğlu Hüseynli

Nəşriyyatın Baş direktoru:

Səməd Eyvazov

Texniki redaktor:

Mail Xəlilov

Kağız formatı:70x100 1 /16

Tiraj: 100 ədəd

Həcmi: 31.8 çap vərəqi

“OPTİMİST” MMC-də hazır diopozitivlərdən çap olunub